Mehman SÜLEYMANOV

# Nuru paşa
# və
# silahdaşları

BAKI 2014

MÜNDƏRİCAT

GİRİŞ
BİRİNCİ HİSSƏ. NURU PAŞA
İlk addımlar
Trablusqərb cəbhəsi
Qafqaz İslam Ordusunun təşkil edilməsi ərəfəsində Azərbaycanda hərbi-siyasi şərait
Hərbi yardım üçün Osmanlı Türkiyəsinə müraciət edilməsi
Qarşılıqlı əsgər yardım tarixindən
Nuru paşanın Azərbaycana göndərilməsi qərarı
Nuru paşanın və türk qoşunlarının Azərbaycana gəlişi və qarşılanması
Nuru paşa və Azərbaycan Ordusu
İlk addımlar
Göyçay ətrafında başlanan qalibiyyət yolu
Ağsu və Kürdəmir ətrafındakı döyüşlərdə hərbi dönüşün möhkəmləndirilməsi
Şamaxının bolşevik-daşnak qüvvələrindən azad edilməsi
Bakı üzərinə həlledici hücum üçün hazırlıq
Bakının azad edilməsi
Qafqaz İslam Ordusunun Qarabağ hərəkatı
Qafqaz İslam Ordusunun ləğvi
Sarmaşıqlı məzarlar
Nuru paşanın ingilis həbsindən azad edilməsi
Nuru paşanın yenidən Azərbaycana dönüşü
Nuru paşanın sonrakı taleyi
Nuru paşanın ailə həyatı
Nuru paşanın həlak olması

İKİNCİ HİSSƏ. NURU PAŞANIN SİLAHDAŞLARI
Nuru paşanın silahdaşları
Ənvər paşa
Əliağa Şıxlinski
Mürsəl paşa
Cəmil Cahid bəy
Süleyman İzzət bəy
Həbib bəy Səlimov
Xəlil Kut paşa

# GİRİŞ

XX əsrin əvvəllərində Azərbaycanın öz müstəqilliyini qazanmasından, həmin tarixi şəraitdən, bolşevik-daşnak zülmünə qarşı qardaş Türkiyənin Azərbaycan xalqına göstərdiyiköməkdən söz açılarkən böyük minnətdarlıqla xatırlanan şəxsiyyətlərdən biri də heç şübhəsiz ki, Nuru paşadır. Bu da təsadüfi deyil, çünki Nuru paşanın komandanlığı altında olan Qafqaz İslam Ordusunun Azərbaycandakı bir neçə aylıq fəaliyyəti minlərlə insanı sürətlə genişlənməkdə olan bolşevik-daşnak qırğınlarından qurtarmaqla bərabər, Azərbaycanın müstəqil dövlətçiliyi üzərində mövcud olan real təhlükəni də aradan qaldırmışdı. Azərbaycan tarixinin ən dəyərli səhifələrindən biri olan və bütünlükdə Şərqdə demokratik dövlət quruculuğunun əsasını qoyan Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunda Azərbaycan və Türkiyə hərbi əməkdaşlığının da mühüm rolu vardır. Həmin əməkdaşlığın həyata keçirilməsində isə Nuri paşanın xidmətləri danılmazdır.

Qafqaz İslam Ordusunun yaradılması və bu Ordunun Azərbaycanda fəaliyyəti çox mürəkkəb hərbi-siyasi şəraitdə gedirdi. Bolşevik-daşnak qüvvələrinin Azərbaycan xalqına qarşı təcavüzkarlığının ifrat həddə çatması, Azərbaycanın daxili siyasi və iqtisadi dağınıqlığı əslində xalqın mövcydluğunu təhlükə altına qoymuşdu. Azərbaycanın hərb işindən kənarda saxlanması, bu istiqamətdə geniş təcrübənin olmaması Qafqaz İslam Ordusunun və onun rəhbərliyinin fəaliyyətinə də öz təsirsiz ötüşmürdü. Ona görə qarşıya qoyulan ümumxalq səviyyəli vəzifələrin həllində sözsüz ki, çətinliklər də ortaya çıxır və bəzən arzu olunmayan hallar da özünü göstərirdi. Bununla belə, Azərbaycan xalqının taleyüklü məsələlərinin həllində, Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında Qafqaz İslam Ordusunun da öz tarixi yeri vardır və bu xidmətlərin obyektiv araşdırılmasına da maraq böyükdür.

Azərbaycan milli azadlıq hərəkatının fəalları və liderləri Nuru paşanın şəxsiyyətini və onun rəhbərliyi altında Qafqaz İslam Ordusunun Azərbaycanın müstəqiliyinin qorunması istiqamətindəki taixi fəaliyyətini yüksək qiymətləndirmişdilər. Bunu onların əsərlərində və dövrün mətbuat səhifələrində də görmək mümkündür. Əslində, onların Nuru paşa haqqında söylədikləri və yazdıqları bu insana olan ümumxalq ehtiramının bir təcəssümü idi. Çox mürəkkəb tarixi şəraitdə Türkiyənin Azərbaycana etdiyi hərbi yardım Nuri paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun timsalında həyata keçirilirdi. Buna görə də Nuru paşanın şəxsində bir tərəfdən göstərilən qardaş köməyinə görə Azərbaycan xalqının bütün Türkiyəyə olan minnətdarlıq duyğuları öz əksini tapmışdısa da, digər tərəfdən bu insanın özünə qarşı olan şəxsi hörmət və ehtiram duyğuları cəmləşmişdi. Nuru paşa Azərbaycan xalqı üçün türk xalqının ağır günlərdə Azərbaycan xalqına göstərdiyi qardaşlıq yardımının timsalıdır. Yəni Türkiyənin yardımı deyiləndə sadə xalq kütlələri tərəfindən ilk növbədə Nuru paşanın obrazı, onun komandanlığı, şəxsi keyfiyyətləri və bu keyfiyyətlərlə möhkəm çulğalaşan türklüyü göz

önünə gəlirdi. Əslində, Nuru paşaya bəslədiyi hörmət və ehtiramı ilə xalq eyni zamanda onun dərdini öz dərdi bilən bütün türk xalqına öz minnətdarlığını və hüsn rəğbətini ifadə edirdi. Tapşırılmış vəzifənin icrası zamanı göstərdiyi bacarıq, igidlik, şücaət və s. keyfiyyətlər isə xalqın Nuru paşaya – bu gənc sərkərdəyə olan ehtiramını, etibarını xeyli artırmışdı. Xalq Nuru paşanı həmişə ağır günlərində köməyinə yetişmiş qardaş xalqın mübariz bir təmsilçisi kimi daim yadında saxladı, onun xatirəsini elə canlı, elə diri mühafizə edə bildi ki, aradan xeyli vaxt keçməsinə baxmayaraq elə indi də Nuri paşa böyük hörmət və minnətdarlıqla xatırlanmaqdadır.

Qeyd etmək lazımdır ki, Nuru paşa da Azərbaycan xalqının ona bəslədiyi münasibəti çox yüksək qiymətləndirirdi. Mudros müqaviləsindən (30 oktyabr 1918) sonra Antanta dövlətlərinin tələbinə görə Qafqaz İslam Ordusu Azərbaycanı tərk edərkən Nuru paşa bir çox silahdaşlarıyla birlikdə Azərbaycanın müstəqilliyinin qorunması işində axıradək iştirak etmək üçün Azərbaycan ordusuna qoşulduqlarını bildirdilər. Bakıya daxil olmuş ingilis hərbi qüvvələrinin komandanlığı bununla razı olmadı və onda Nuru paşa Türkiyəyə qayıtmaq məcburiyyətində qaldı. Amma o sonradan bir də Azərbaycana qayıtdı və Azərbaycana istiqamətlənmiş xarici təcavüzə qarşı öz mübarizəsini davam etdirdi. Azərbaycandakı fəaliyyəti Nuru paşanın bir türk zabiti kimi xidməti həyatının heç şübhəsiz ki, ən yaddaqalan səhifəsi idi. Nuru paşa sonrakı həyatı boyu həmişə Azərbaycanda keçirdiyi həyatını xoş duyğularla xatırlayırdı və bu xatirələrini öz dostları ilə də bölüşürdü. Nuru paşa Azərbaycandakı xidmət illərinə görə fəxri paşalıq rütbəsinə layiq görülmüşdü. Türkiyəyə geri qayıtdıqdan sonra o, rəsmi olaraq paşalıq rütbəsindən geri çağırılmışdı və 1929-cu ildə hərbi pensiyaya çıxarkən ona yarbay rütbəsi ilə pensiya təyin edilmişdi. Yəni, Nuru paşanın "paşalığı" yalnız Azərbaycanla bağlı idi və Türkiyə ərazisində o rəsmən paşa deyildi. Buna baxmayaraq Nuru paşa uzun ömrü boyu həmişə "paşa" deyə çağırılmışdı. Bu məqam da onun Azərbaycanla olan bağlılığının başqa bir nümunəsidir.

Nuru paşanın zabitlik həyatı demək olar ki, elə Azərbaycanda da başa çatdı. Doğrudur, Qarabağda iştirak etdiyi antisovet üsyanları yatırıldıqdan sonra Nuru paşa onunla Türkiyə ərazisinə keçmiş Azərbaycan milli süvari alayı ilə İstiqlal mübarizəsində iştirak etdi. Amma onun bu mübarizədəki iştirakı mövcud tarixi şəraitə görə elə də uzun çəkmədi.

Məlumdur ki, Qafqaz İslam Ordusunun fəaliyyəti Azərbaycanda çox davam etmədi. Kifayət qədər vaxtın olmaması, mövcud olan tarixi çətinliklər, kəsişən subyektiv mövqelər Qafqaz İslam Ordusunun mövcudluğu dövründə Azərbaycanın milli qoşun hissələrinin formalaşması prosesində də özünü göstərdi. Ortaya çıxan problemlər Cümhuriyyətin və Milli Ordunun fəallarında yaratdığı nigərançılıqlar obyektiv reallıqlar olsa da, nəzərə alınmalıdır ki, Qafqaz İslam Ordusunun tarixi Azərbaycan Xalq Cümhuriyyətinin şərəfli tarixinin bir parçasıdır və onun da ətraflı öyrənilməsi elmi və ictimai əhəmiyyət kəsb edir.

Qafqaz İslam Ordsunun komandanı kimi Nuru paşanın həyatının öyrənilməsi də Azərbaycanda kifayət qədər ictimai maraq doğurur. Bu, bir tərəfdən təbiidir. Çünki Nuru paşanın Azərbaycandakı fəaliyyətinin az-çox işıqlandırılması üçün lazım olan mənbələr və tarixi məlumatlar respublikada demək olar ki, yox dərəcəsindədir. Nuru paşanın şəxsiyyətinə və Azərbaycandakı fəaliyyətinə artmaqda olan maraq isə bu mövzunun öyrənilməsinə təbii olaraq güclü bir meyl yaratmışdır.

Oxucuların diqqətinə təqdim olunan bu kitab təkmilləşdirilmiş təkrar nəşrdir. Nuru paşa haqqında ilk kitab nəşr olunandan sonra İstər Azərbaycanda, istər də Türkiyədə

Qafqaz İslam Ordusunun tarixinin öyrənilməsi ilə bağlı xeyli araşdırmalar aparılmış və çoxlu sayda kitablar işıq üzü görmüşdür. Həmin araşdırmalar da imkan vermişdir ki, Nuru paşanın həyatı və fəaliyyəti daha geniş şəkildə öyrənilsin.

Bununla belə, qeyd etmək lazımdır ki, Nuru paşanın və bütünlükdə Qafqaz İslam Ordusunun tarixinin daha kamil öyrənilməsi üçün Azərbaycanda və Türkiyədə mövcud olan mənbələrin və tarixi ədəbiyyatın, habelə tarixi müəlliflərin mənbə və əsərlərinin bir küll şəklində öyrənilməsinə, onların üzvü şəkildə əlaqələndirilməsinə ehtiyac vardır.

Qafqaz İslam Ordusunun Azərbaycan hərəkatının bilavasitə şahidi olan adamlar, xüsusən Nuru paşanı şəxsən tanıyanlar,onun silahdaşları öz dünyasını dəyişdiyindən və Nuru paşa ilə bağlı xatirələri toplamaq imkanı olmadığından mövzunun açılması üçün əlimizdə olan əsas mənbə Azərbaycan milli mücadilə fəallarının, Azərbaycan ziyalılarının yazılarında olan alayarımçıq və çox kasad məlumatlardır. Müəllifin bəhrələndiyi əsas bilgilər isə Türkiyənin hərbi arxivlərində saxlanılan Qafqaz İslam Ordusuna məxsus sənədlərdir. Türkiyə Silahlı Qüvvələri Baş Qərargahı Əsgəri Tarix və Strateji Etüd (ATASE) başqanlığının arxivində Nuru paşanın özünün də xatirəsi saxlanılmaqdadır. Ancaq bu xatirə yaşanılan mənalı bir həyat, böyük mübarizələrin mərkəzində dayanmış tarixi bir şəxsiyyətin nəhəng obrazının qarşısında həcmcə kiçik görünür və çox ümumiləşdirilmiş şəkildə yazılmaqla daha çox hesabat xarakteri daşıyır. Bununla belə, əlbəttə bir çox hadisələrə dair Nuru paşanın öz münasibətini öyrənmək heç şübhəsiz ki, həm oxucular, həm də tarixçilər üçün qiymətlidir. Nuru paşanın Qafqaz İslam Ordusu komandanı kimi fəaliyyətinin işıqlandırılması üçün Azərbaycana göndərilmiş 5-ci Qafqaz fırqəsinin qərargah rəisi Rüştü bəyin müfəssəl xatirələri də böyük əhəmiyyətə malikdir. Ancaq qeyd etməliyik ki, bu xatirələr və arxiv sənədləri Nuri paşanı daha çox bir hərbçi və komandan kimi əks etdirir. Onu oxucularımıza ətraflı tanıtmaq, onun maraqları və dünyagörüşü haqqında geniş təsəvvür yaratmaq üçün əlimizdə kifayət qədər məlumat yoxdur. Nuru paşanın Azərbaycanda sovet hakimiyyəti qurulandan sonrakı fəaliyyəti, Azərbaycanda antisovet üsyanlarının hazırlanması və təşkilindəki rolu barədə mövcud olan məlumat qıtlığı da müəllifi həmin məqamlara ötəri toxunmağa məcbur etmişdir.

Kitabla maraqlanan oxucu nəzərə almalıdır ki, müəllif qarşısına heç də Nuru paşanın şəxsiyyətini ideallaşdırmağı məqsəd qoymamışdır. Cümhuriyyət dövrünün tarixindən məlumdur ki, Nuru paşanın Azərbaycana gəlişinin ilkin dövründə onun verdiyi bəzi qərarların aydınlaşdırılmasına ehtiyacı olan məqamları, tarixi şəraitə heç də tamamilə uyğun atılmayan addımları olmuşdusa da bunun da müəyyən səbəbləri var idi. Nəzərə alınmalıdır ki, Qafqaz İslam Ordusunun komandanı kimi Azərbaycana gələndə Nuru paşanın cəmi 29 yaşı var idi və o, Afrika cəbhəsindən çağırılaraq Azərbaycana göndərilmişdi. Nuru paşa tamamilə fərqli olan, yəni zəngin olmaqla bərabər həm də dolaşıq, ziddiyətli siyasi hadisələrin cərəyan etdiyi bir şəraitə düşmüşdü və burada gedən proseslərə bütünlüklə bələd olmaq üçün müəyyən vaxt lazım idi. Digər tərəfdən, Nuru paşa Azərbaycana gələndə Azərbaycanın qurtuluşunu Türkiyəyə birləşməkdə görənlər də burada kifayət qədər ciddi bir siyasi qüvvəni təşkil edirdilər və onların da Nuru paşaya və ətrafındakılara müəyyən təsiri var idi. Ancaq heç şübhəsiz ki, Nuru paşanın şəxsiyyətinə qiymət təkcə onun atdığı ilk addımlara görə deyil, bütünlükdə onun fəaliyyətindən miras qalan nəticələrə görə verilməlidir. Bu nəticələr isə Azərbaycan xalqının ümidində olduğu yardımların göstərilməsindən, bolşevik-daşnak zülmünə qarşı mübarizədən və s.-dən ibarət idi. Nuri paşanın Azərbaycandakı fəaliyyətinin izlənilməsi göstərir ki, ölkəni tanıdiqca, burada gedən

mürəkkəb proseslərə bələd olduqca onun dünyagörüşündə kifayət qədər ciddi dəyişikliklər baş vermişdir. Nəticə etibarilə Nuru paşa Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğuna hər vasitə ilə çalışmış və bunun üçün həm siyasi, həm diplomatik, həm də silahlı mübarizə yollarına əl atmışdı. Kitabda bu dəyişikliyin real mənzərəsinin yaradılmasına ciddi çalışılmışdır.

Hazırkı nəşrdə Nuru paşanın Azərbaycandakı hərbi fəaliyyətinə, Azərbaycanın müstəqilliyinə son qoyulandan sonra Qarabağda antisovet üsyanında iştirak etməsinə, Nuru paşanın Türkiyədəki fəaliyyəinə, həyatının faciəli sonluğuna dair yeni məlumatlar əlavə edilmişdir. Türkiyədə son zamanlar işıq üzü görmüş araşdırmalar göstərir ki, İkinci Dünya müharibəsi illərində Nuru paşa sovet hakimiyyəti altında olan türk xalqlarının, o cümlədən də Azərbaycanın yenidən öz müstəqilliyinə qovuşması üçün fəal türkçülük fəaliyyəti aparmışdır. Bu məsələ Nuru paşanın həyatının maraqlı tərəflərindən biridir və onun da gələcəkdə ayrıca araşdırılmasına ehtiyac vardır.

Kitabda eyni zamanda Nuru paşanın silahdaşları haqqında oçerklər vardır. Bu oçerklər o şəxsiyyətlər haqqındadır ki, onların Azərbaycandakı və ya Azərbaycanla bağlı fəaliyyətləri Nuru paşanın fəaliyyətini tamamlayır və Qafqaz İslam Ordusunun qarşısında dayanan vəzifələrin uğurlu icrasına xidmət edirdi.

Müəllif kitabın hazırlanmasında və işıq üzü görməsində özünün hər cür yardımları və dəyərli məsləhətləri ilə köməklik göstərmiş şəxslərə səmimi minnətdarlığını bildirməyi özünə borc bilir.

BİRİNİCİ  HİSSƏ

# NURU PAŞA

## İlk addımlar

Tarixi ədəbiyyatda Nuru paşanın doğum tarixi haqqında ikili tarix mövcuddur. Bəzi tarixi ədəbiyyatda onun 1889-cu ildə, bəzi tarixi ədəbiyyatda isə 1890-cı ildə anadan olduğu bildirilir. Bəzi rəsmi sənədlərdə də onun anadan olma tarixi 1890-cı il göstərilmişdir. Dəqiq deyilərsə, Nuru paşa 1890-cı il may ayının 5-də Manastırda anadan olmuşdur. Rəsmi sənədlərdə onunadı isə Mustafa Nuru kimi qeyd olunmuşdur. 1934-cü ildə Türkiyədə soy adları haqqında qanun qəbul edildikdən sonra Nuru paşa və onun yaxın qohumları özlərinə vaxtilə ulu babalarının daşıdığı Killigil və ya Killioğlu soyadını gotürmüşdülər. Bu ad onun əcdadlarının doğulduğu Killi adlı yaşayış məntəqəsi ilə bağlı idi. Killi və ya Kili - Dunay çayının üstündə qərar tutan bir məntəqədir. Lap əvvəllərə, ulu keçmişlərə baş vurduqca isə Nuru paşanın ulu əcdadlarının Kırım türklərindən olduğu söylənilir. Onun ulu əcdadının hətta xristian olan qaqauz türklərindən olması haqqında da məlumat vardır. Sonralar nəslin davamçıları indiki Türkiyə ərazisinə köçmüş və burada özləri üçün yurd-yuva qurmuşdular.Türk tarixçisi yazıçı Şövkət Sürəyya Aydəmir özünün "Makedoniyadan Orta Asiyaya Ənvər paşa" adlı üç cildli sanballı kitabında Ənvər və Nuru paşaların nəsil şəcərəsini (Nuru paşanın ailə şəcərəsi) vermişdir. Həmin şəcərədən Nuru paşanın əcdadlarının və yaxın qohumlarının ailə bağlılığını izləmək mümkündür. Bu şəcərəyə əsasən Nuru paşanın atası Hacı Əhməd bəy, onun atası Hafiz Kamil bəy, onun da atası Hacı Mustafa Kaptan olmuşdur. Bu nəslin əcdadlarının qaqauz türklərindən olması haqqında Xəlil paşanın xatirələrində də maraqlı məqam vardır. O yazırdı:

> Bir gecə dədəm Mustafa Kaptanın Unqapanıdakı evində babam Kamil bəy, Həsən amcam, İbrahim amcam yemək yerlərkən biz onları dinliyorduq. Atalarımıza aid konuşuluyordu. Həsən amcamın bu sözləri hələ qulağımdadır:
> -Cəddimiz Krımdan gəlmişdir. Krım xanlarının sarayına ötəbəri və bilxassə qadın əşyası satan bir yeməniçiymiş. Bu yakışıqlı dəliqanlı xristian olduğu üçün hərəm dairəsində kimsə ondan qaçmazmış. Bu sırada Krım xanının yaxınlarından bir qız ona könül vermiş. Nəhayət evlənmələrinə qərar verilmiş. Yemençi dəliqanlı müsəlmanlığı qəbul etmiş. Evlənmişlər. Bu halda rum və ya ulah olmayan, türkcə konuşan bir xristian Romaniyada yaşayan və dini xristian olan qaqauzlardandı. Bu evlənmədən sonra ruslar Krımı istila etmişlər. İşğal üzərinə cəddimiz qarısı ilə bərabər Tuna ağzına Kilya şəhərinə köçmüşlər.

Nuru paşanın özü kimi atası da çox uşaqlı ailədən idi. Hacı Əhməd bəyin atası Hafiz Kamil bəyin altı uşağı var idi: Hacı Əhməd bəy, Xəlil bəy (paşa), Füzuli bəy, Həlim bəy, Mələk xanım və Şükrüyyə xanım.

Nuru paşanın atası Hacı Əhməd bəy Aişə xanım adlı bir xanımla ailə həyatı qurmuş və onların da 6 övladı olmuşdu: Ənvər (paşa), Nuru, Kamil, Ərtoğrul, Həsənə və Mediha.

Bəzi ədəbiyyatda Nuru paşanın atası Hacı Əhməd də hərbçi kimi təqdim edilir. Lakin bu doğru deyil. Nuru paşanın atası tarixi ədəbiyyatda daha çox Hacı Əhməd paşa kimi

xatırlanır. Görünür bəzilər paşa sözünə görə onu hərbçi hesab edirlər. O, dövlət məmuru idi və elə də böyük gəlirlərə malik deyildi. Buna görə çoxuşaqlı ailəni dolandırmaq da onun üçün çətin idi. Mövcud məlumatlara görə, Ənvər paşa Türkiyənin müdafiə naziri və sultan ailəsi ilə qohum olduqdan sonra bir sıra yaxınlarına, o cümlədən də atası Hacı Əhmədə paşalıq dərəcəsi qazandırmışdı.

Nuru paşanın ailəsini hərbçilər ailəsi saymaq olar. Onun qardaşı Ənvər, əmisi Xəlil də həyatlarını hərbi xidmətlə bağlamış və hər ikisi general rütbəsinədək yüksəlmişdilər.

Nuru paşa ilk təslini Manastırda almağa başlamış və çox güman ki, qardaşının təsiri ilə sonradan təhsilini Əsgəri litseydə davam etdirmişdi. O, 1903-1906-cı illər ərzində Küleli Əsgəri litseyində təhsil almış və 1906-1909-cu illərdə də Hərbi məktəbdə oxumuşdur. Nuru paşa Hərbi məktəbdə kifayət qədər yaxşı oxumuşdur. Tədqiqatçı Nejdet Karaköse Nuru paşa haqqında yazdığı sanballı kitabında Nuru paşanın Hərbi məktəbdə təhsil alarkən 1908-ci ildə aldığı son qiymətlərin siyahısını vermişdir. Həmin qiymət siyahısı belədir:

| | |
|---|---|
| 1. Əqaidi-diniyyə | 36 |
| 2. Xidməti səfəriyyə nəzəriyyəsi | 37 |
| 3. Əsləhəye xəfifiyyə və muhtiri nəqliyyə | 37 |
| 4. İnşaati əsgəriyyə | 45 |
| 5. Fən və fürusiyət | 43 |
| 6. Fransız dili | 44 |
| 7. Təlim nəzəriyyəsi | 42 |
| 8. Məlumati tərbiyeyi əsgəriyyə | 45 |
| 9. Elmi əxlaq | 43 |
| 10. Alman dili | 45 |
| 11. Yem təlimi | 20 |
| 12. Topoqrafiya əməliyyatı | 15 |
| 13. Xəritə, rəsm və plan | 18 |
| 14. Xidməti səfəriyyə əməliyyatı | 18 |
| 15. Təlim əməliyyatı | 18 |

1909-cu ildə Hərbi məktəbi bitirdikdən sonra Nuru ordu sıralarında zabit kimi xidmətə başladı. Mövcud olan məlumata görə Nuru paşa 1911-ci ildə Hərbi Akademiyada da təhsilini başa çatdırdı. Bundan sonra o, bir sıra hərbi vəzifələrdə qulluq etdi.

Nuru paşa aşağıdakı hərbi rütbələri almışdı:

| | |
|---|---|
| Teğmən (leytenant) | - 1909 |
| Üst teğmən (baş leytenant) | - 1912 (19 noyabr) |
| Yüzbaşı | - 1913 (6 oktyabr) |
| Minbaşı | - 1916 (24 sentyabr) |
| Qayməqam (yarbay) | - 1918 (mart) |
| Fəxri feriq (paşa) | - 1918 (mart) |

Qafqaz İslam Ordusunun komandanı vəzifəsinə təyin edilənədək Nuru paşa aşağıdakı vəzifələri icra etmişdi:

- 3-cü Ordu qərargahı (1909);
- 3-cü Ordunun 71-ci alayının 3-cü taborunun 3-cü bölüyü (1910);

- Osmanlı sultanının Məiyyət bölüyü (1910);
- 1-ci qolordunun (korpusun) 6-cı alayının 11-ci taborunun 3-cü bölüyü (1912);
- Romada Əsgəri attaşe müavini (1913);
- Vyanada əsgəri attaşe müavini (1914);
- Həbi Nazirliyin məqam yavəri (1914);
- Afrika qrupları komandanı (1914);

Nuru paşa Afrika qrupları komandanı vəzifəsində 1918-ci ilin əvvəlinə kimi, yəni Qafqaz İslam Ordusunun Kimandanı vəzifəsinə təyin edildiyi vaxta kimi qaldı. Həmin vəzifənin icraçısı kimi Nuru paşa Birincü Dünya müharibəsi illərində Afrikanın şimalında olan ingilis və İtaliya hərbi qüvvələrinə qarşı cəbhə tutdu. 1915-16-cı illərdə o, Misirdə ingilis qüvvələri ilə, 1916-17-ci illərdə isə Tunis ərazisində İtaliya hərbi qüvvələri ilə üzbəüz oldu.

Afrikanın şimal bölgəsində xidmətdə olması Nuru paşanın hərbi təcrübəsini artırdı, onun döyüş vərdişlərini təkmilləşdirdi. Bu bölgədə Nuru paşanın çətin anlar yaşadığı günlər də olmuşdu. Bununla belə, döyüş bölgəsində olması onun döyüş təcrübəsinin formalaşmasına zəmin yaratdı ki, bu döyüş təcrübəsi də Azərbaycanda vəzifə icra edərkən onun işinə yaradı.

Ənvər paşa da Nuru paşanın Afrika cəbhəsindəki xidmətindən razı qaldı və buna görə də onun Qafqaz İslam Ordusu komandanlığına təyin edilməsinə təşəbbüs qaldırdı. Nuru paşanın kifayət qədər uğurlu xidmət yolu keçməsini onun qazandığı orden və medallar da sübut edir. Bütünlükdə, Nuru paşa aşağıdakı orden və medallarla təltif olunmuşdu:

- Almaniyanın Birinci dərəcəli Dəmir xaç medalı ( iyul 1916);
- Altun ləyaqət medalı ( noyabr 1916);
- Altun imtiyaz medalı ( sentyabr 1917);
- 3-cü dərəcəli qılınclı Osmanı nişanı ( fevral 1918);
- Qılınclı birinci Məcidi nişanı ( avqust 1918);
- İstiqlal medalı ( fevral 1929);

Diqqət yetirmək lazımdır ki, Qılınclı birinci Məcidi nişanı ilə Nuru paşa Qafqaz İslam Ordusunun komandanı kimi layiq görülmüşdü.

Nuru paşa Afrikanın şimalında olarkən Trablusqərb cəbhəsində italyan qoşunlarına qarşı döyüşlərdə xüsusi qabiliyyət və şücaət nümayiş etdirə bilmişdi. Məhz bunun nəticəsidir ki, Nuru paşa tarixi ədəbiyyatda həm də Trablusqərb qəhrəmanı kimi anılmaqdadır. Bir sözlə, Azərbaycana göndərilmək ərəfəsində Nuru bəy çox ciddi döyüş məktəbi keçmişdi və burada aldığı təcrübə ona daha böyük hərbi birliklərə rəhbərlik edə bilmək imkanı verirdi. Qafqaz İslam Ordusunun komandanı vəzifəsinə Nuru bəy qardaşı Ənvər paşa tərəfindən təklif və təyin olunmuşdu. Həmin vaxt hərbi nazir vəzifəsində olan Ənvər paşa bu yüksək və məsuliyyətli vəzifəyə Nurunu təkcə qardaşı olduğu üçün irəli çəkməmişdi. Ənvər paşa, heç şübhəsiz ki, Nuru bəyin Afrika cəbhəsində göstərdiyi qabiliyyət və bacarığı, onun daha məsuliyyətli vəzifələrin ağırlığını öz üzərinə götürə bilmək imkanlarını nəzərə almışdı.

Trablusqərb cəbhəsi

Məlum olduğu kimi, Nuru paşanın Qafqaz İslam Ordusu haqqında xatirələri mövcuddur və həmin xatirələr Qafqaz İslam Ordusunun tarixinin öyrənilməsi üçün dəyərli mənbədir. Bu xatirələr Nuru paşanın öz dilindən qələmə alınmışdır. Araşdırmalar göstərir ki, Nuru paşanın həm də Trablusqərb cəbhəsindəki fəaliyyəti haqqında da

xatirələri mövcuddur. Amma Qafqaz İslam Ordusu haqqında olan xatirələrdən fərqli olaraq Trablusqərb cəbhəsin haqqındakı xatirələr Nuru paşanın dilindən deyil, Nuru paşadan bu xatirələri toplayan müəlifin dilindən qələmə alınmışdır. "General Nuri Killigil: "Trablusqarb xatirələrim" adı altında hazırlanan bu əsəri qələmə alan müəllif özünü "albay C.C.S." kimi təqdim etmişdir. Xatirələrin toplanması və nəşrə hazırlanması 1941-ci ildə başa çatmışdır. 2012-ci ildə bu xatirələr dosent-doktor Serpil Sürməlinin təqdimatı ilə Atatürk Universitetinin Atatürk ölkələri və inqilab tarixi institunun Atatürk dərgisinin 1-ci nömrəsində (səh.137-170) çap olunmuşdur.
Nuru paşanın Trablusqərb cəbhəsindəki fəaliyyəti haqqında xatirələri həmin hadisələrdən 30 il sonra qələmə alınsa da, bu xatirələrdə kifayət qədər maraqlı məlumatlar vardır. Həmin məlumatlar da Nuru paşanın bir hərbçi kimi formalaşması, Trablusqərb cəbhəsində zəngin təcrübə toplaması haqqında ətraflı təsəvvür əldə etməyə imkan verir.
Nuru paşa Trablusqərb cəbhəsində həm 1911-12-ci illərdə, həm də Birinci dünya müharibəsi illərində olmuşdur. Haqqında danışılan xatirələr isə Nuru paşanın 1911-12-ci illərdə Trablusqərbdə olması haqqındadır. Bu illər Trablusqərb ətrafında Osmanlı qoşunları ilə İtaliya qoşunları arasında müharibənin cərəyan etdiyi dövrə təsadüf edi.
Məlumdur ki, Afrikanın şimal hissəsi bir vaxtlar Osmanlı imperiyasının tərkibinə daxil idi. XIX əsrin sonralı və XX əsrin əvvəllərində Osmanlı dövləti zəiflədikcə, güclənməkdə olan Avropa dövlətlərinin təzyiqi ilə həmin bölgədən çəkilmək məcburiyyətində qaldı. Yeni tarixi şəraitdə özünə yeni ərazi payı əldə etmək niyyətinə düşən İtaliya da Birinci dünya müharibəsi ərəfəsində Afrikanın şimalına qoşun çıxardı və Trablusqərb ətrafında Osmanlı qoşunları ilə üzbəüz gəlməli oldu.
Qərb dövlətlərinin Afrikaya yol açması və oradan yerli müsəlman əhali tərəfindən daha geniş şəkildə dəstəklənən Osmanlı nüfuzunun sıxışdırılmasına başlanması Türkiyənin ictimai-siyasi və hərbi dairələri tərəfindən heç də birmənalı qarşılanmırdı. Nuru paşa da belələrindən biri idi və gənc yaşlarında olmasına baxmayaraq o da öz həmfikirləri kimi Afrikanın şimalına yollanmaq və orada Osmanlı qoşunları sıralarına qoşulmaq qərarına gəldi. Bu zaman onun cəmi 21 yaşı var idi və Osmanlı sultanının Məiyyət bölüyündə xidmət edirdi.
İtalya qoşunlarının Trablusqərb ətrafına çıxarılmasından bir müddət öncə gənc Nuru xidmət etdiyi Məiyyət bölüyündən icazə alaraq Berlində hərbi attaşe olan qardaşı Ənvərin yanına getmişdi. İtalya qoşunlarının Trablusqərb ətrafında döyüşlərin başlaması xəbərini də o burada almışdı.
Nuru opaşa nəql edirdi ki, bir gün Berlinin Unter den Linden küçəsindəki bir muzeyə baxmaq üçün şəhərə çıxmışdı. Bu zaman küçədə qəzet satanlar tərəfindən Trablusqərbin və Yunanıstanın Preveze şəhərinin bombalanması haqqında məlumatlar yayılmasının şahidi oldu. Xüsusilə Trablusqərbin də bombalanması xəbəri Nuru bəyin ciddi narahatçılığına səbəb oldu və muzeyə getmək fikrindən daşınaraq dərhal Osmanlı səfirliyinə geri qayıtdı. O, eşitdiyi xəbər barəsində daha ətraflı məlumat alaraq geri qayıtmağı planlaşdırırdı. Osmanlı səfirliyində o, qardaşı Ənvərdən eşitdiyi xəbərin doğru olduğunu öyrəndi. Ənvər bəy özü də bu xəbərdən ciddi narahatçılıq keçirirdi və buna görə də dərhal İstanbula qayıtmağı qərar almışdı. Nuru bəyə isə məsləhət bildi ki, hələlik bir neçə gün Berlində qalsın.
Ənvər bəyin məsləhəti ilə Nuru bəy Berlində qalsa da, tezliklə o da İstanbula qayıtmaq qərarını verdi. İstanbula qayıtmaqda məqsədi isə Trablusqərb cəbhəsinə yollanmaq üçün müvafiq icazənin alınması idi. Nuru paşanın xatirələrinin qələmə alan müəllif

yazırdı: "Nuru kimi gənc, canlı və həmiyyətli bir terk zabiti məmləkətindən uzaq və ya yaxın qısmında hərb olurkən, İstanbulda Məiyyəti-Səniyə bölüyündə vaxt keçirməzdi". Doğrudan da belə oldu. Nuru bəy qardaşı Ənvər bəyin və əmisi Xəlil bəyin ardınca Trablusqərb cəbhəsinə yollandı. Trablusqərb ətrafında müharibə başlayanda Ənvər bəy kimi, Xəlil bəy də könüllü şəkildə cəbhəyə yollanmağı qərara aldı və sözsüz ki, onların bu qərarı Nuru bəy üçün də bir örnək oldu.

Amma Nuru bəy Osmanlı sarayının Məiyyət bölüyündə xidmət etdiyi üçün onun saraydan ayrılmasına sultanın özünün razılığı olmalı idi. Bununla bağlı Nuru bəy sarayın baş yavəri Xurşid paşaya müraciət etdi və Xurşid paşa da onun cəbhəyə yollanmaq arzusunu Osmanlı sultanına çatdırdı. Nuru bəyin xatirələrindən görünür ki, sultan onu yaxından tanıyırmış və onun təəssübkeşlik və vətənpərvərlik hissləri sultan tərəfindən rəğbətlə qarşılanmışdı. Bunu onların görüşündən də aydın hiss etmək mümkündür.

Həmin günlərin birində Nuru bəy sarayda sultanla ayaqüstü görüşmək imkanı əldə edir. Sultan onun Trablusqərbə getmək arzusuna cavab olaraq Nurudan soruşur ki, sənin ki, kor bağırsaq problemin var və bu probleminlə cəbhəyə necə gedəcəksən? Bununla belə, Nuru ondan bir daha cəbhəyə getməsinə izn verilməsini xahiş edir və sultan da onun bu xahişini qəbul edir. Sonra sultan Nuru yaxınlaşaraq əlini onun çiyninə qoyur və ona deyir ki, salamlarını cəbhədə olan komandirlərə və döyüşçülərə çatdırsın. Sultanın göstərişi ilə Nuru bəyə 30 altun da bağışlandı.

Nuru bəyin xatirələrindən o da görünür ki, sultan da Trablusqərb ətrafında cərəyan edən döyüşləri yaxından izləyirmiş və cəbhədəki döyüşçülərə yardım çatdırılmasını diqqət mərkəzində saxalyırmış. Bu yardımların çatdırılması isə ancaq gəmilər vasitəsilə mümkün idi. Yüklə doldurulmuş gəmilərin dənizə çıxarılması müəyyən təhlükələrlə müşayiət olunurdu. Onların hətta düşmən qüvvələr tərəfindən ələ keçmək ehtimalları da böyük idi. Ona görə saray əyanları gəmilərlə Trablusqərbə hərbi yüklərin göndərilməsinin əleyhinə idilər. Bununla belə, sultanın göstərişi ilə silah və sursat dolu bir gəmi Trabkusqərbə göndərilir. Həmin gəmi ilə 12500 tüfəng, 600 sandıq güllə və mərmi və ərzaq cəbhəyə göndərilir. Nuru bəylə görüşündə sultan bu barədə ona da xatırladır.

Nuru bəy cəbhəyə yollanmaq icazəsini aldıqdan sonra sultanın əllərini öpür və onun hüzurundan zabitlərin cəbhəyə yollanması ilə məşğul olan quruma yollanır. Burada onu qeydiyyata alırlar və bu barədə ona bir sənəd də verirlər. Nuru bəy sözlərinə görə həmin sənədin üzərində 76, ya da 86 rəqəmi yazılmışdı. Bu o demək idi ki, Nuru bəy könüllü olaraq cəbhəyə yollanmaq üçün qeydiyyata alınmış 76-cı və ya 86-cı zabit idi.

Qeyd etmək lazımdır ki, ərəb qrafikası ilə 7 və 8 rəqəmləri bir-birinə çox oxşardır. Ola bilsin ki, ona görə 30 ildən sonra Nuru paşa onun dəqiqliklə xatırlaya bilmirdi. Ona verilən qeydiyyat sənədi ilə Nuru bəy həm passport, həm də müəyyən yol xərcləri əldə edir. Yol xərci kimi ona təxminən 90 lirəyə yaxın pul verilir. O zaman üçün bu vəsait kifayət qədər böyük maliyyə vəsaiti imiş. Trablusqərbə gizli yolla yollanarkən həmin vəsaitin başqalarının əlinə keçməməsi üçün Nuru bəy özünə xüsusi bir kəmər sifariş etdirir və pulları da kəmərin arxasına düzdürür. Nəzərdə tutulmuşdu ki, Nuru bəy Parisə yollansın və Fransa sahillərindən gəmilərlə Afrikanın şimalına hərəkət etsin.

1911-ci il noyabr ayının 15-də Nuru bəy bir qrup könüllü ilə birlikdə qatarla Parisə yola düşdü. Elə həmin ayın 18-də də onlar Parisə yetişərək "Cəzayir otel"də yerləşdi. Nuru bəy və onun yanındakılar qərara aldılar ki, Osmanlı dövlətinin Parisdəki səfirliyinə baş vuraraq orada hərbi attaşe ilə görüşsünlər. Amma məlum oldu ki, Osmanlı dövlətinin

Parisdəki hərbi attaşesi Fəthi bəy də Trablusqərbə yollanıbmış. Trablusqərbə yollanmaq üçün Parisdə başqa zabitlər də toplanıbmış. Həmin zabitlərlə birlikdə Nuru bəy bir neçə gün Parisdə qaldı, şəhərin görməli yerləri ilə tanış oldu. Amma Nuru bəy necə olursa-olsun tezliklə Afrikanın şimalına çıxmağı düşünürdü. Məqsədinə çatmaq üçün o, noyabrın 23-də Marselə və oradan da gəmi ilə Tunisə yola düşdü. Trablusqərbə gedən dəniz yolları İtaliya qüvvələrinin nəzarəti altında olduğu üçün Nuru bəy Tunisə getməli və oradan da Trablusqərbə doğru irəliləməli idi.

Nuru bəyin yazdıqlarından belə bir qənaətə gəlmək olar ki, Fransa ərazisindən Tunisə yollananlar da italıyalıların nəzarəti altında idi. Ona görə Nuru bəy ətrafındakılara Tunisə yox, Əlcəzayirə getmək niyyətində olduğunu bildirmişdi. Limana gələndən sonra isə o, gizlicə Əlcəzayirə gedən gəmiyə yox, Tunisə gedən gəmiyə minmişdi. Noyabbr ayının 25-də Nuru bəy Tunisin Bizertə limanına yetişdi. Bizerte limanı Tunisin əsas limanı idi və buraya gələndən sonra Nuru bəy Trablusqərbə yollanmaq barəsində fikirləşməli idi. Bizertlə ilk tanışlıq Nuru bəydə ağır təəssürat yaratdı. Xüsusilə, yerli əhalinin səfalət içində olması, orada məskunlaşmış xaricilərin isə əksinə, zəngin yaşayışı Nuru bəyə xeyli təsir etdi. Onun nəzərində, Bizertdə belə bir vəziyyətin yaranması Avropa dövlətlərinin məzlum xalqlara qarşı həyata keçirdikləri siyasətin nəticəsi idi. Nuru bəy iki gün Bizertenin Qrand otelində qaldı və noyabr ayının 27-də Tunis şəhərinə gələrək Hotel de Parisdə yer aldı. Bizerteyə nisbətən Tunis daha qarışıq şəhər olmaqla, xarixi dövlətlərin xüsusi xidmət nümayəndələrinin də daha çox fəallıq nümayiş etdirdiyi bir şəhər idid. Ona görə də yerli və xarici xüsusi xidmət nümayəndələrinin təqiblərindən uzaq qalmaq üçün Nuru bəy hotelin qeydiyyat vərəqində milləyətini macar, adını isə Paulas kimi göstərdi. Amma onun qeydiyyat vərəqindəki qeydləri ilə pasportunda olan məlumatlat bir-birinin üstünə düşmürdü. Ona görə də bu məqam otelin xüsusi xidmət nümayəndələrinin diqqətini cəlb etdi və onlar Nuru bəyin şəxsiyyətinin araşdırılması üçün polis orqanına müraciət etdilər. Polis nəfərləri onu yoxlayarkən Nuru bəy Tunisə gəlməkdə məqsədinin İsgəndəriyyə şəhərinə getmək olduğunu dedi və bununla polislərin diqqətini yayındırmağa çalışdı. Polislər onu azad buraxdılar. Lakin onun qarşısında şərt qoydular ki, növbəti cümə günü gəmiyə minərək Marselə qayıtsın.

Nuru bəy belə bir vəziyyətə düşməsini təəssüflə qarşıladı. Onun fikrincə, Trablus ətrafında döyüşlərin cərəyan etdiyi bir vaxtda ora yollanmaq istəyən könüllülərin Tunisdə qarşılanmasının və yola salınmasının təşkil edilməsi yaxşı olardı. Çünki Tunislə tanışlığı olmayan cavan türk zabitləri bura gələndən sonra nə etməli olduqlarını bilmirdilər və onun üçün də müəyyən çətinliklərlə rastlaşırdılar. Polislərlər tərəfindən çıxarılmış qərar Nuru bəyin qarşısına qoyulmuş ilkin vəzifələrin həllinə qeyri-mümkün edə bilərdi. İlkin tapşırıqlar isə belə idi ki, Nuru bəy Tunis Trablus yolunun müşahidəsini aparmalı, müşahidələri haqqında məlumatları Parisə ötürməli və sonra da Trablusqərbə getməyə çalışmalı idi. Bu tapşırığın icrasına nail olmaq üçün Nuru bəy gizli yollar da aramağa başladı. Tunisdə görüşməli olduğu bəzi adamlardan Trablus yolu ilə hərəkət etməyin mümkünlüyü barəsində məlumatlar aradı. Amma məlum oldu ki, Tunis-Trablusqərb yolu bütünlüklə italiyalıların nəzarəti altındadır və onlar bu yolla hərəkət edən bir xarici vətəndaş görüncə dərhal polisə xəbər verirdilər. Ona görə Nuru bəyin gilzli yolla Trablusqərbə getmək niyyəti də baş tutmadı.

Yerli polislər isə Nuru bəyi nəzarətdən kənar buraxmırdılar. Noyabr ayının 30-da onlar yenidən Nuru bəyin yanına gəldilər və ondan nə vaxt Marselə dönəcəyini soruşdular. Nuru bəy isə əlacsız qalıb elə sabah Tunisi tərk edəcəyini bildirdi.

Başqa bir çarəsi qalmayan Nuru bəy polisin tələbini yerinə yetirmək məcburiyətində qaldı. O, 1911-ci il dekabr ayının 2-də Marselə, ertəsi gün isə oradan Parisə gəldi. Parisdə Nuru bəy xəbər tutdu ki, onunla birlikdə Parisə gəlmiş türk zabitlərinin heç də hamısı Trablusqərbə getməyə müvəffəq ola bilməmişdilər. Onun əmisi Xəlil bəy (Xəlil paşa) da Trablusqərbə getmək üçün Parisə gəlmişdi. O, xeyli vaxt burada qaldıqdan sonra Tunisdə ona kömək edə biləcək ərəblər tapmış və Tunisə yollanmışdı. Həmin yerli ərəblər nəzarətdən kənar olan yolarla Xəlil bəyi Trablusqərbə çatdıra bilmişdilər.
İlk cəhdi uğusuz alınsa da, Nuru paşa inadından əl çəkmədi. Bir neçə gündən sonra o, Osmanlı Məclisinin üzvü Rəhmi bəyin katibi adı altında yenidən Tunisə yola düşdü. Nuur bəyin Parisdən yola düşməsi dekabr ayının 15-nə təsadüf edir. Həmin günə qədər isə Nuru bəy Parisin məşhur muzeylərini gəzdi və bu muzeylərdə saxlanılan əsərlərlə tanış oldu. Nuru bəyin yaxşı rəssamlıq qabiliyyəti var idi. Ona görə də muzeylərdə saxlanılan incəsənət əsərlərinə qarşı onda böyük maraq var idi.
Dekabr ayının 18-də Nuru bəy Rəhmi bəylə birlikdə Tunisə yetişdilər və vaxt itirmədən Trablusa doğru hərəkətə başladılar. Bu dəfə Nuru bəy Tunisdə polis və təhlükəsizlik orqanlarının təqibi ilə qarşılaşmadı. Nuru bəy Trablus istiqamətində yolun yarısını qatarla qət elədi. Sonra isə o yoluna avtomobil ilə davam etdi. Yol boyu Nuru bəy yerli əhali ilə, rastlaşdıqları insanlarla ünsiyyət yaradır və Trablusqərb ətrafında cərəyan edən döyüşlər haqqında məlumatlar toplayırdı.
Dekabr ayının 25-də Nuru bəy Dehibat adlı bir məntəqəyə yetişdi. Dehibatdan sonra artıq şosse yolu da yox idi. Ona görə Nuru bəy məcburiyyət qarşıısnda qalıb yolun sonrakı hissəsini dəvələrlə irəliləməli oldu. O, ilk dəfə idi ki, dəvə belində yol getməli olurdu. Ona görə bu yolçuluq onda müəyyən narahatçılıqlar yaratdı. Bununla belə Trablusqərbə yetişmək qətiyyəti bu çətinliyə qarşı dözümü daha da artırdı.
Bu çətin yolçuluq zamanı Nuru bəyin yadında qalan bir maraqlı hadisə olmuşdu. Bu da səhradakı bədəvi çadırlarından birində kifayət qədər yaraşıqlı və cazibəli bir ərəb xanımının onları sərin ayrana qonaq etməsi idi. Nuru paşa sonralar da bildirirdi ki, həmin qadının qonaq etdiyi ayranın dadı heç də onun yadından çıxmamışdır. Nuru paşa hətta onu da qeyd edirdi ki, susuzluğun və yorğunluğun üzüntülərinin şiddətli olduğu bir vaxtda çöl qızının əlindən içilən bu ayranın xatirəsi bir ömür sürəcək üədər dadlı idi. Nuru bəy ayranın əvəzində həmin xanıma pul təklif etsə də, cazibədar bədəvi xanımı onu qəbul etmir. Onda yolçular xəlvəti olaraq pulu çadırın ətəyinə qoyurlar və sonra da yollarına davam edirlər.
Nuru bəyin və Rəhmi bəyin sonrakı dayanacaqlarından biri Trablusqərbdən təxminən 250 kilometr cənub-qərbdə olan Nalut adlı qəza mərkəzində oldu. Burada olarkən yolçular Trablus ətrafındakı döyüşlər haqqında, mövcud hərbi şərait haqqında daha ətraflı məlumat topladılar. Nuru bəy eyni zamanda öyrəndi ki, əmisi Xəlil bəy Xüms bölgə komandanı təyin edilibdir. Əldə edilən məlumatlara görə, bölgədə olan Osmanlı bölmələrinin ərzaq çətinlikləri vardır. Bu ərzaq çətinliklərini aradan qaldırmaq, müəyyən amliyyə vəsaitləri tapmaq üçün Rəhmi bəy Nalutdan Tunisə qayıtmalı oldu. Bununla onun Nuru bəylə yolları da ayrıldı.
Nuru bəy bir neçə gün Nalutda qaldı, orada qısa müddətli istirahət etdi. Burada olduğu günlərdə Nuru bəy də Osmanlı bölmələri üçün maliyyə vəsaitinin toplanmasında iştirak etdi, ixtiyarında olan maliyyə vəsaitinin bir hissəsini bu məqsədə ayırdı.
Yanvar ayının 10-da Nuru bəy Əziziyyə məntəqəsinə yetişdi. Trablus italiyalılar tərəfindən işğal edildikdən sonra Osmanlı qoşunlarının müqavimət mərkəzi bu məntəqəyə köçürülmüşdü. Osmanlı diviziyasının qərargahı da bu məntəqəyə gəlməli

olmuşdu. Nuru bəy diviziya komandiri və qərargah rəisi ilə görüşdü, bölgəyə gəlməsi haqqında onlara məruzə etdi. Amma Nuru bəy burada dayanmalı deyildi. O, əmisi Xəlil bəyin tabeliyinə təyin edilmişdi və ona görə də səhərisi gün Nuru bəy Əziziyyəni tərk edərək Xəlil bəyin qərargahına doğru hərəkətə başladı. Qeyd edildiyi kimi, Xəlil bəy Xüms cəbhəsinin komandanı idi və onun qərargahı da Mərqabda yerləşirdi. Nuru bəy bu məntəqəyə 1912-ci il yanvar ayının 15-də yetişə bildi. Bu zaman Xüms qəsəbəsi də italıyalıların işğalı altına düşmüşdü və Xəlil paşanın qərargahını cəbhə xəttindən 3-4 kilometrlik bir məsafə ayırırdı. Mərqab həm də dənizə yaxın bir ərazidə yerləşirdi. Ona görə dənizdə olan düşmən gəmiləri ətrafda olan döyüş mövqelərini, o cümlədən də məntəqənin özünü top atəşlərinə tuturdu.
Nuru bəy qərargaha yetişən kimi əmisi Xəlil bəylə görüşdü və döyüş vəzifəsinin icrası üçün bu cəbhəyə gəlməsini ona məruzə etdi. Yanvar ayının 16-da Nuru bəy Xəlil bəylə birlikdə ön xəttə gedərək hərbi vəziyyətlə daha yaxından tanış oldu. Bu tanışlıqdan sonra aydın oldu ki, Xüms cəbhəsində olan Osmanlı bölmələrinin şəxsi heyətinin sayı cəmi 1000 nəfərdir. Bu sayda qüvvə isə bölgənin italıya qüvvələrinin işğalından qorumaq üçün yetərincə deyildi.
Osmanlı ərazisindən əlavə hərbi qüvvələrin gətirilməsi isə mümkün deyildi. Mövcud qüvvələr isə nəinki düşmən üzərinə qətiyyətli hücum təşkil etməyi çətinləşdirirdi, eyni zamanda bu qüvvələrlə etibarlı müdafiəni də təmin etmək mümkün deyildi. Zərurət yarananda Osmanlı zabitləri kömək üçün yerli əhaliyə müraciət edirdilər. Bu əhali isə lazımi hərbi təlim görməmişdi və günlərini daha çox öz əkin-biçin işlərinə sərf edirdilər. Bununla belə zərurət yarananda yaxın və uzaq qəbilələrdən kömək istənilirdi. Yerli əhali də bu kömək çağırışına bir qayda olaraq biganə qalmırdı.
Məsələn, yanvar ayının 21-də düşmən qüvvələrin Mərqab üzərinə hücum edəcəyi xəbəri alınanda yenidən yaxın və uzaq qəbilələrdən kömək istənildi. Ərəblər də qısa müddət ərzində toplandılar və yanvar ayının 22-də döyüş bölgəsinə gəldilər. Amma həmin gün düşmən hücumu baş vermədiyindən onlar dağılışmalı oldular.
Nuru paşanın xatirələrində Xəlil bəyin qərargahındakı xidmət ayları dəyərli bir təcrübə məktəbi kimi qiymətləndirilmişdir. Nuru bəy çöl şəraitində həm xidmətin çətinliklərin sirlərinə bələd olur, həm də burada yeni-yeni insanlarla tanış olurdu. Döyüş xəttinə yaxın olması isə Nuru bəyi döyüşgən bir zabit kimi formalaşdırırdı. Onun fikrincə, Xüms cəbhəsindəki hər saatı canlı və maraqlı keçirdi. İmkan yarananda isə Nuru bəy rəssamlıq vərdişlərini təkmilləşdirirdi. Nuru pa.a xatırlayırdı ki, Xüms cəbhəsində şəklini çəkdiyi şəxslərdən biri Saqqallı Mehmet əfəndi idi. Mehmet əfəndi Osmanlı qüvvələrinin ərzaqla təmin edilməsinə vəzifələndirilmişdi. Səhra şəraitində bu vəzifəni icra etmək elə də asan deyildi. Amma mövcud çətinliyi aradan qaldırmaq üçün müəyyən çıxış yolları da tapılırdı. Bu çıxış yollarından biri zımnıta adlı qida məhsulunun hazırlanması və onun döyüşçülərə paylanması idi. Bu qida məhsulu bədəvi ərəblərin əsas qida məhsulu idi və ona görə Osmanlı döyüşçüləri də yerli şəraitdə əldə edilməsi mümkün olan bu qida ilə təmin edilirdi. Zımnıta düzəltmək üçün arpa unu qovrulur və sonra da ona yağ və şəkər əlavə olunurdu. Sonra bu məsul saxlanmaq üçün hazırlanırdı. Onu uzun müddət çantalarda saxlamaq mümkün idi. Döyüşçülər lazım olanda bu məhsulu bir az isladır və sonra da qəbul edirdilər. Mehmet əfəndi bu qida məhsulunu hazırlanmasında və döyüşçülərə çatdırılmasına xüsusi zəhmət sərf etdiyi üçün zımnata katibi kimi də tanınmışdı.
Nuru bəy Xüms cəbhəsində lazımi fəallıq nümayiş etdirməyə çalışırdı. Görünür elə bunun nəticəsi idi ki, yanvar ayının 24-də o, Xəlil bəy tərəfindən sahil bölgə komandiri

təyin edildi. Onun bu vəzifəyə təyin edilməsi sahil bölgəsində məskunlaşmış ərəb qəbilələrinin üzvləri tərəfindən də rəğbətlə qarşılanmışdı və yerli ərəb şeyxləri onun qərargahına gələrək öz ehtiramlarını bildirmişdilər. Xüsusən, Nuru bəyin gənc olması yerli ərəblərin marağına səbəb olmuşdu. Ona görə onun yanlına gələnlərin, onunla maraqlananların sayı xeyli çox idi.
Nuru bəy bəzən sahil döyüş mövqelərinə elə ərəblərlə birlikdə baş çəkərdi və mövqelərlə tanışlığını artırardı. O, bəzən yerli ərəblərlə güllə atışında öz məharətini də göstərirdi. Nuru paşanın xatırələrindən aydın olur ki, onun kifayət qədər sərrast atıcılığı var idi. Onun bu qabiliyyəti ərəblərin də diqqətini cəlb etmişdi. Bir dəfə tanış olduğu Mehdi adlı bir ərəb onu güllə atışına çağırdı. Nuru bəy də əlinə düşən boş vaxtdan istifadə edərək onunla güllə atmağa razı oldu. Mehdi adlı ərəb müəyyənləşdirilmiş hədəfi əlindəki tüfənglə vura bildisə, Nuru bəy bunu tapançası ilə etdi. Mehdi isə nə qədər çalışdısa, onun bu nəticəsini təkrar edə bilmədi. Nuru paşa bildirirdi ki, ərəblər ümumiyyətlə sərrast atıcı deyildilər. Buna görə onlar mənasız yerə çoxlu güllə itkisinə səbəb olurdular. Nuru bəy isə güllənin qıt olduğu bir vaxtda ərəblərin belə israfçılığını qəbul etmirdi.
Nurunun sərrast atıcılığı italiyalı hərbçilərə qarşı atışmalarında da onun dadına çatardı. Çünki Osmanlı qüvvələrinin ixtiyarında top yox idi ki, uzaq məsafədən onlara hər hansı bir itki yetirmək mümkün olsun. Ona görə də, düşmənlə mübarizədə sərrat atıcılığın əhəmiyyəti böyük idi.
Nuru paşşa xatırlayırdı ki, Xümsün şərq hissəsində bir su quyusu var idi. İtaliyalılar atlarını və heyvanlarını burada sulayardılar. Bu zaman Nuru bəy də əlverişli mövqe süçərək italiyalıları atəşə tuturdu. Nuru bəyin yerləşdiyi mövqe ilə su quyusu arasında 1200 metrlik bir məsafə olmasına baxmayaraq, Nuru bəy italiyalı döyüşçüləri sərast şəkildə hədəf alırdı. Nuru bəy bir neçə dəfə su quyusu ətrafına gələn italiyalıları beləcə hədəfə aldı. İtaliyalı döyüşçülər bildilər ki, onlara qarşı sərrast bir atıcı mövqe tutmuşdur. Ona görə onlar da lazımi addımlar atdılar və növbəti dəfə su quyusu ətrafına gələndə iki ədəd top da gətirdilər. Nuru bəy yenə italiyalıları tüfəng atəşinə tutanda, italilayı hərbçilər də ona top atəşləri ilə cavab verdilər. Nuru bəy top atəşlərini eşidincə özünü dərhal yaxınlıqdakı xaraba tikilinin divarə arxasına atdı. İtaliyalılar bir-birinin ardınca 10-15 mərmi atdılar. Nuru çəldliyi sayəsində düşmən toplarından mühafizə oluna bilsə də, anladı ki, yalnız tüfənglə daha onların qarşısına çıxa bilməz.
Bir dəfə Xəlifə Fakrun adlı bir yerli ərəb Nuru bəyə müraciət edir ki, onun polisliyə qəbul olunmasına yardım etsin. Ətrafdakı adamlar Xəlifə Fakrunun ciddi bir şəxs olmadığını və polis olarsa vəzifəsindən istifadə edərək insanları soymaqla məşğul olacağını bildirdilər. Nuru bəy anladı ki, belə bir adamı polisə qəbul etmək olmaz. Amma bu qərarının birbaşa ona açıqlamağa da ehtiyat etdi. Ona görə Xəlifə Fakruna təklif etdi ki, güllə atmaqda yarış keçirək və əgər qalib gələrsənsə sənin polis olmağına kömək edək. Nuru bəy əmin idi ki, güllə atmaqda daha sərrastdır və ona görə də belə bir təklifi irəli sürdü. Nəticədə Xəlifə Fakrun bu yarışı uduzdu və ona görə o daha polis olmaq təklifini irəli sürmədi.
Elə o günlərdə baş verən hadisələr Nuru bəyi əmin etdi ki, Xəlifə Fakrunu polisə işə düzəltməməkdə doğru iş görübmüş. Çünki ona çatan xəbərlərə görə, Xəlifə Fakrun əlacsız qocaların var-yoxunu əllərindən alır və yaxınlıqdan keçən karvanları soyurdu. Buna görə yerli əhali arasında da ona qarşı ciddi bir narazılıq yaranmışdı.
Nuru paşa xatirələrində bildirirdi ki, Trablusqərb ətrafında türklər də yaşayırdılar və Quloğlu tayfası bu türklərin əsasını təşkil edirdi. Bu tayfanın üzvləri Osmanlı

qüvvələrinə yardım edirdilər və onlar arasından Nuru bəyin yanında xidmət edənlər də var idi. Quloğluların əksəriyyəti ata-babadan qalmış qılınclarla silahlanmışdılar. Bir dəfə Nuru bəy Quloğlu mücahidlərinin birinin qılıncını maraq üçün qınından çıxarır və onun nəzərdən keçirir. Həmin qılıncın üstündə aşağıdakı beyt yazılıbmış:

Bir can üçün min cana minnət əyləməm
Minnət-i dünya üçün sultana minnət eyləməm

Nuru paşa xatırlayırdı ki, bu beyti heyrətlə qarşılamışdı və onun çox xoşuna gəlmişdi.
Sahil mühafizə komandiri olduqdan sonra Nuru bəy qarşısındakı düşməni gücdən salmaq üçün müəyyən üsullara əl atdı. Onun tapşırığı əsasında xurma ağacından iki ədəd taxta top düzəldildi. Bu toplar döyüş toplarına çox oxşayırdı və Nuru bəyin əmri əsasında həmin toplar döyüş mövqeyində yerləşdirildi. Nuru bəyin məqsədi o idi ki, düşmən qüvvələr onun doğrudan da döyüş topu olduğunu hesab etsinlər və onun məhvi üçün öz mərmilərini istifadə etsinlər. Bununla düşmənin mərmi ehtiyatının azalmasına səbəb olmaq mümkün idi.
Qeyd edildiyi kimi, Trablusqərb xatirələrini Nuru paşa 30 ildən sonra qələmə aldırmışdı. Amma o, 30 il əvvəl baş vermiş bir çox hadisələri, əlaqədə olduğu insanları təfərrüatı ilə xatırlayırdı. Nuru bəy həmin insanların nə işlərlə məğul olduqlarını, onların Trablusqərbin müdafiəsi üçün nə işlər gördüklərini, hətta ictimai vəziyyətlərini də dəqiqliklə təsvir edirdi. Bölgədə məskunlaşmış qəbilələr arasında baş verən toqquşmalar da Nuru bəyin xatirələrində öz əksini tapmışdı. Nuru bəy bu qəbilələrlə işləmək məcburiyyətində idi. Çünki bölgədə olan 1000 nəfərlik Osmanlı qüvvəsi Xəlil bəyin tabeçiliyinə verilmişdi. Nuru bəyin tabeliyində isə Osmanlı döyüşçüləri yox idi. Ona görə Nuru bəy ona tapşırılmış sahil mühafizə işlərini ətrafına topladığı könüllülər vasitəsilə həll etməli idi. Hər halda Nuru bəy ətrafına müəyyən sayda könüllü toplaya bilmişdi. Onların sayı 300-500 nəfər arasında dəyişirdi. Düşmənlə atımşa baş verdiyi hallarda isə Nuru bəyin ətrafına toplanan yerli könüllülərin sayı bir qədər artırdı. Nuru bəy bu insanlardan daha çox gecə vaxtlarında istifadə etməyə çalışırdı. Havanın qaranlığında italiyalı qüvvələrə qarşı müəyyən təxribat işləri həyata keçirilirdi. Könünnülər yerli şəraitə yaxşı tanış olduqları üçün gecə ikən düşmənin yerləşdiyi mövqelərə doğru yaxınlaşır, düşmənin telefon xətlərini kəsir, hərbi təchizatını ələ keçirib geri qayıdırdılar. Müəyyən vaxtlarda bu könüllülər italiyalı hərbçiləri məhv də edirdilər və onlardan ələ keçirdikləri hərbi təyinatlı əşyaları az pul qarşılığında Osmanlı hərbçilərinə satırdılar.
Vaxt ötdükcə könüllülərin italiyalılara qarşı həyata keçirdikləri təxribatların miqyası daha da artdı. Bunun nəticəsində onlar daha çox sayda hərbi təyinatlı əşyaları ələ keçirərək Osmanlı hərbçilərinə gitirirdilər. Nuru paşanın xatırladığına görə, Osmanlı hərbçiləri ehtiyac duyduqları tüfəng güllərinin bir hissəsini də məhz bu yolla təmin edə bilirdilər. Bu sahədə könüllülərin vərdişləri o dərəcədə artmışdı ki, onlar italıyalıların mövqeləri ətrafında olan tikanlı məftilləri keçərək onların mətbəxlərinə qədər irəliləyər və əllərinə keçənləri toplayıb geri qayıdardılar.
Doğrudur, yerli könüllülər italiyalıların mövqelərinə basqınları çox halda şəxsi qazanc əldə etmək üçün edirdilər. Amma bu basqınlar eyni zamanda italyanlıların döyüş qabiliyyətini aşağı salırdı. Ona görə belə basqınlar Nuru bəy tərəfindən müsbət qarşılanırdı.
Yerli könünllərin italiyalıların mövqeləri üzərinə basqınlarının artması bu könüllülərdə daha geniş miqyaslı hücum təşkil etmək istəyi yaratdı. Onlar qərara aldılar ki, qüvvələrini birləşdirməklə italiyalılar üzərinə qəfil hücum etsinlər və onlara daha böyük

itkilər yetirsinlər. 1912-ci il fevral ayının 1-də könüllülər italıyalılar üzərinə hücuma keçdilər. Hücum hava qaralandan sonra başladı. Amma italiyalılar hələ yatmadıqları üçün tezliklə toparlana və silaha sarıla bildilər. Bununla da könüllülərin hücumunun qarşısını almaq mümkün oldu. Tərəflər arasında iki saatlıq bir atışma oldu. Nuru paşa xatırlayırdı ki, könüllülərin italiyalılar üzərinə olan bu hücumu arzu edilən müvəffəqiyyətlə nəticələnməsə də, belə hücumlar italiyalıları daim qorxu içərisində saxlamaq baxımından əhəmiyyət kəsb edirdi.
Fevral ayının 2-də Nuru bəyə bir qədər silah və sursat ehtiyatı göndərildi. Bu ehtiyata 1 ədəd kiçik çaplı Mauzer tüfəngi və həmin tüfənglər üçün 2400 ədəd güllə daxil idi. Bu tüfəngləri Nuru bəyə Qərb Trablus qüvvələri qərargah rəisi  minbaşı Fəthi tərəfindən göndərilmişdi. Fəthi bəy Nurunun tüfəngdən sərrast atmağından xəbəri var idi və ona görə də bu tüfəngləri ona göndərmişdi ki, həm Nuru bəyin silah ehtiyatı olsun, həm də öz atıcılıq vərdişlərini daha da təkmilləşdirmək imkanı əldə etsin. Nuru paşa xatırlayırdı ki, ona tapşırılan vəzifənin icrası üçün silaha çox böyük ehtiyacı var idi. Fəthi bəydən bir ədəd Mauzer tüfəngi alandan sonra, bir ədəd də o özü pul qarşılığında əldə etmişdi.
Sonradan Nuru bəyin cəbbəxana ehtiyatı bir qədər də artdı. Osmanlı qüvvələri italiyalı qüvvələrin hücumu qarşısında Trablusqərbi çox tez bir zamanda tərk etməli olmuş və bununla bağlı Osmanlı qüvvələrinin sursat anbarları tərk edilmişdi. Bu anbarlarda saxlanılan güllələrin bir hissəsi yerli ərəblərin əlinə keçmişdi. Onlar da bu gülləri toplayaraq sonradan Nuru bəyə satmışdılar. Bu yolla Nuru bəy də güllə ehtiyatını artırmağa müvəffəq olmuşdu.
Nuru bəy ümumiyyətlə kiçik çaplı Mauzer tüfənglərinə üstünlük verirdi və bunu xatirələrində də anırdı. Böyük çaplı Mauzer tüfəngləri 9 mm-lik tüfənglər idi. Onların lüləsi bir qədər uzun və vurma radiusu da yüksək idi. Bununla belə, Nuru bəy kiçik çaplı tüfənglərdənnistifadə edirdi və bildirirdi ki, bu tüfənglərin sərrastlığı daha yaxşıdır.
Ümumiyyətlə, qeyd edildiyi kimi, Nuru bəy silah və sursat sarıdan korluq çəkir və bunun bir səbəbini də elə Osmanlı qüvvələrinin qətiyyətsizliyində görürdü. O bildirirdi ki, Trablus təslim edildikdən sonra Osmanlı qüvvələri orada olan silah anbarlarını da buraxmış və onların xilas edilməsi üçün heç bir iş görməmişdilər. Nəticədə, on minlərlə tüfəng və onlar üçün güllələr düşmən əlinə keçmişdi. Nuru paşanın xatirələrində 20 min ədəd topun da düşmənə verildiyini qeyd edirdi. Bu rəqəm bir qədər qeyri-real səslənir. Amma hər halda Osmanlı qüvvələri Trablusdan geri çəkilərkən ixtiyarlarında olan topları da düşmənə təhvil verməli olmuşdular. Ona görə də, Nuru bəy əlinə keçən hər bir silahı qənimət sayır və köhnə silahlardan istifadə etmək məcburiyyətində qaldığını da təəssüflə xatırlayırdı.
Nuru bəy istifadə etmək məcburiyətində qaldığı çaxmaqlı tüfəngləri Nuh Nəbidən qalma tüfənglər adlandırırdı. Əslində, Nuru bəy belə tüfənglərdən necə istifadə etmək vərdişinə də malik deyildi. Lakin düşdüyü şərait onu məcbur edirdi ki, çaxmaqlı tüfənglərdən də istifadə etməyi öyrənsin.
Nuru bəy xatirələrində çaxmaqlı tüfəngdən necə istifadə edilməsini də təsvir etmişdi. Bu təsvir xeyli uzun və təfərrüatlıdır. Onun qeydlərinə görə, ərəblər çaxmaqlı tüfəngdən bardaş qurub oturduqları yerdən atırdılar. Bu zaman tüfəngin təzyiqi ərəbi beli üstə yerə sərilməyə məcbur edirdi. Ərəblər buna görə heç də narahat olmudurlar. Əksinə, beli üstə yerə sərilməklə ərəblər çaşmaqlı tüfəngi doldurmaq üçün çıxış vəziyyəti almış olurdular. Yəni, onlar yerə uzanılı şəkildə tüfəngin qundağını ayaqları arasında sıxar və yuxarə uzanmış lüləyə əvvəlcə barıt tökür, barıtı əski parçası ilə bərkidirdi, sonra güllə

və ya qırma tökür və onları da parça ilə presləyirdi. Bununla çaxmaqlı tüfəngin döyüş vəziyyətinə gətirilmsi üçün xeyli vaxt itirilməli olurdu ku, bu vaxt ərzində düşmən tərəfindən ciddi zərbə almaq mümkün idi.
Yerli ərəb könüllülərinin gecə basqınlarının sayı artdıqca italiyalılar da bu basqınlardan daha etibarlı şəkildə qorunmaq üzərində düşünməyə başladılar. Bunun üçün tikanlı məftillərin əhatə dairəsi genişləndirildi və bir çox yerlərdə lağımlar atıldı ki, onları adlamaq ərəblər üçün daha da çətinləşsin. İtaliyalılar tərəfindən bəzi başqa tədbirlər də həyata keçirilmişdi. Nuru paşa xatırlayırdı ki, görülən bu tədbirlər ərəblər arasında itkilərin sayını artırsa da, onların bu maneələri dəf etmək üçün təcrübələri də artmışdı.
Bununla belə, italiyalı qüvvələr yalnız müdafiə olunmurdular. Onlar eyni zamanda bölgədə öz mövqelərini möhkəmləndirmək üçün yeni-yeni planlara əl atırdılar. Bu planlardan biri fevralın 26-da Mərqab təpəsinin ələ keçirilməsi idi. Mərqab təpəsi Xümsdən 3-3.5 km cənubda yerləşməklə döyüş bölgəsində əlvəerişli bir mövqedə idi. Nuru bəyin əmisi Xəlil bəyin qərargahı və müşahidə nöqtəsi də bu mövqedə yerləşirdi. Oranın əldən verilməsi Osmanlı qüvvələrinin vəziyyətinin daha da zəifləməsi demək idi.
Mərqab təpəsi üzərinə italiyalıların hücumu başlayanda Nuru bəy Müsəllətə məntəqəsindəki səhra qospitalında idi. Hücumun başlanması xəbərini alan kimi Nuru bəy bir başa qospitaldan qaça-qaça Mərqaba qədər irəlilədi. Nuru paşa xatırlayırdı ki, o, döyüş xəttinə yorğun və üzgün halda çatdı. Təpədən geri çəkilməli olmuş Osmnalı döyüşçüləri düşməndən 500-600 metrlik bir məsafədə mövqe tutmuşdular. Osmanlı döyüşçülərinin çoxunun isə artıq gülləleri bitmişdi. Nuru bəyin gülləleri isə yetərincə idi. Ona görə o, atəş açmaq üçün bir qaya parçasının arxasında özünə yer etdi və atəşə başladı. İtaliyalılar bunu müşahidə etdilər və dərhal da Nuru bəyin sığındığı qaya parçası pulemyotlardan atəşə tutuldu. Bundan başqa italiyalılar Nuru paşanın sığındığı qaya parçasını sol tərəfdən mühasirəyə almağa çalışırdılar. Mühasirə olunmaq təhlükəsinin olduğuna görə Osmanlı döyüşçüləri və ərəb könüllüləri bir qədər də geri çəkildilər. Nuru bəyin yanında yalnız bir ərəb könüllüsü qalmışdı. Bu ərəb Nuru bəydən bir qədər arxada idi və italiyalıların hərəkəti barədə əl-qolu ilə Nuruya məlumat ötürməyə çalışırdı. Vəziyyətin mürəkkkəbləşdiyini görən Nuru bəy həmin ərəbin köğməyi ilə bir qədər geriyə, daha təhlükəsiz yerə çəkildi.
Bununla belə, Nuru bəy hələdə təhlükədən xilas ola bilməmişdi. Nuru paşa xatırlayırdı ki, onların başı üstünü alan real təhlükədən qurtarmaq üçün fürsət arxada olan zeytunluğa tərəf çəkilmək idi. Amma susuzluq onu elə bir hala salmışdı ki, Nuru bəyin hərəkət etməyə taqəti belə qalmamışdı. Hərəkətsiz qalmaq isə onun məhvinə gətirib çıxara bilərdi.
Nuru bəy bütün gücünü toplayıb ona ən yaxın olan zeytun ağacının yanına qaçdı, bu ağac ətrafındakı çuxura qısılıb bir qədər istirahət etdi. Sonra italiyalıların atəşləri altında digər bir zeytun ağacının çıxırına tərəf qaçdı. Beləcə, bir ağacdan o birinin yanına qaçmaqla bir qədər təhlükəsiz yerə çəkilə bildi. Nuru paşa xatırlayırdı ki, yetişdiyi məkanda bir qoca qadınla qarşılaşdı və həmin qadının ona verdiyi suyu içdikdən sonra bir qədər özünə gəldi.
Ətrafdakılar Nuru bəyin şəhid olduğunu güman edirdilər. Çünki onun belə bir ağır vəziyyətdən sağ çıxa biləcəyinə heç kim inanmırdı. Xəlil bəyə də bu barədə xəbər verilmişdi. Xəlil dəy də Nuru bəyi axtarıb tapana mükafat vəd etmişdi. Yerli ərəblər mükafatı ədə etmək üçün Nurunu axtarmağa başladılar və onun sağ-salamat tapıb Xəlil bəyin qərargahına gətirdilər. Nur bəy burada bir qədər istirahət etdi, yeyib-içərək özünə

gəldi. Sonra isə ərəb könüllüləri ilə birlikdə yenidən döyüş xəttinə tərəf hərəkət etdi. Tərəflər arasında döyüş axşama qədər davam etdi və Osmanlı qüvvələri yaralılardan başqa bu döyüşdə 30 nəfər şəhid verdilər.

Fevralın 27-də döyüşlər yenidən davam etdi.. İtaliyalılar Xəlil bəyin qərargahını top atəşinə tutdular. Bu atəşləirin qarşısını almaq Osmanlı qüvvələri üçün elə də asan deyildi. Ona görə Xəlil bəy qərargahı ilə 4-5 kilometr geriyə çəkilməli oldu. Bütünlükdə, Osmanlı qüvvələri italiyalıların bu hücumunun qarşısını ala bilmədilər və bununla da Mərqab təpəsi ətrafındakı döyüş italiyalıların uğuru ilə başa ğatdı.

Nuru paşanın xatirələrində Mərqab təpəsi ətrafında və bütünlükdə Trablusqərb ətrafındakı uğursuzluq haqqında müəyyən qeydlər də vardır. İtaliyalılar bu bölgədə aparılan döyüşlərdə öz məqsədlərinə çatmaq üçün kifayət qədər böyük qüvvə üstünlüyü yarada bilmişdilər. Onun bildirdiyinə görə, Xəlil bəyin rəhbərliyi altında bölgədəki bütün Osmanlı qüvvələrinin sayı 1500 olduğu halda, italiyalıların sayı daha çox idi. Onların şəxsi heyətinin sayı 10 min nəfərdən çox idi və ixtiyarlarında isə iki səhra batareyası, bir dağ batareyası və bir ağır batareya var idi. İtaliyalıların ixtiyarında əlavə olaraq təyyarə də var idi və onun vasitəsilə Osmanlı qüvvələrinin mövqelərinin kəşfiyyatı aparılırdı. Bundan başqa dənizdə olan hərbi gəmilər də top atəşləri ilə italiyalı qüvvələri dəstəkləyirdi.

Mərqab təpəsi ətrafındakı döyüşün təsvirini verməklə Nuru paşanın Trablusqərb savaşı haqqındakı xatirələri başa çatır. Amma məlumdur ki, Trablusqərb ətrafında gedən döyüşlər bütünlükdə Osmanlı qüvvələri üçün uğursuzluqla başa çatdı. 1912-ci il oktyabr ayının 18-də Osmanlı dövləti ilə İtaliya arasında anlaşma imzalandı və bu anlaşmaya əsasən Trablusqərb vilayəti İtaliyanın nəzarəti altına düşdü.

Nuru bəy bir hərbçi kimi Şimali Afrika cəbhəsində rastlaşdığı sınaqlardan uğurla çıxsa da, daha böyük uğurunu Azərbaycanda əldə etdi. Məlumdur ki, Birinci Dünya müharibəsi illərində, xüsusilə də Rusiya imperiyasının çökməsindən sonra Azərbaycan xalqı bölşevik-daşnak təhlükəsi qarşısında qalmışdı. Bu təhlükənin sovuşdurulması üçün Azərbaycan xalqının iradəsini və istəyini ifadə edən Milli Mücadilə rəhbərləri Türkiyə rəhbərliyinə hərbi yardım göstərilməsi üçün müraciət etdilər və bu müraciət əsasında Azərbaycana göndərilən türk qüvvələrinin tərkib hissəsi olduğu Qafqaz İslam Ordusunu komandanlığı da Nuru paşaya tapşırıldı. Azərbaycanda qazandığı uğurlarla Nuru paşa təkcə Osmanlı hərbinin deyil, Azərbaycan hərbinin, eləcə də ümumən Türkiyə və Azərbaycan əsgəri qardaşlığının tarixinə parlaq səhifələr həkk etdi. Nuru paşa və onun böyük qardaşı Ənvər paşa Azərbaycanın bolşevik-daşnak zülmündən qurtarmasına var qüvvələrilə çalışırdılar. Bu insanlar yaxşı anlayırdılar ki, Azərbaycandakı hər hansı uğursuzluq təkcə türk qoşun hissələrinə deyil, bütünlükdə türk xalqlarına vurulan bir zərbə olacaqdır.

Qafqaz İslam Ordusunun təşkil edilməsi ərəfəsində Azərbaycanda hərbi-siyasi şərait

1918-ci ilin mayında öz müstəqilliyini əldə etməsi ərəfəsində Azərbaycanda kifayət qədər mürəkkəb hərbi-siyasi bir şərait mövcud idi. Bir tərəfdən özlərini bolşevik adlandıran və proletar diktaturasını bərqərar edilməsi adı altında cəmləşən antimilli qüvvələr, onların tör-töküntüləri və tərəfdarları, digər tərəfdən də erməni daşnak təcavüzkarlığı Azərbaycanda milli hakimiyyətin qurulmasının qarşısının alınması və Azərbaycanın nəzarət altına alınması üçün son dərəcə geniş bir fəaliyyətə rəvac vermişdilər.
Cənubi Qafqazda bolşevizmin daha güclü olduğu Bakıda cəmləşən qüvvələr bütün imkanlarını sərf edərək burada möhkəmlənmək və hakimiyyətə yiyələnmək üçün hər cür vasitədən istifadə etməyə çalışırdılar. Mütləq əksəriyyəti qeyri millətlərdən və xüsusilə də türkçülüyə qənim kəsilmiş ermənilərdən ibarət olan bolşeviklər xalqın adından bəyanatlar versələr də, Azərbaycan xalqının milli maraqlarına düşmən kəsilmişdilər və Azərbaycan xalqının milli maraqlarını ifadə edən milli qüvvələrin məhv edilməsi üçün yollar axtarırdılar. S.Şaumyanın rəhbərliyi altında olan Bakı Soveti Azərbaycanın gələcəyini müstəqil olmaqda deyil, erməni daşnakçılığına dəstək olan Rusiya bolşevizminin işğalı altında olmaqda görürdü. S.Şaumyan müstəqil erməni dövlətinin yaradılması barədə Leninin və Stalinin imzaladığı 13 yanvar 1918-ci il tarixli dekreti alqışladığı və onun həyata keçirilməsi üçün göstəriş aldığı halda, Rusiya müsəlmanlarının, o cümlədən də Azərbaycan xalqının öz müqəddəratını müəyyənləşdirmək istəyini inqilabi Rusiyaya qarşı xəyanət kimi qəbul edirdi. Halbuki, Azərbaycan xalqının milli müqəddəratının milli mənafelərə uyğun olaraq həll edilməsinə müəyyən bir ümid də elə Lenin və Stalinin 1917-ci il noyabr ayının 17-də Şərqin və Rusiyanın müsəlman zəhmətkeşlərinə müraciətindən sonra yaranmışdı.
S.Şaumyan və onun əqidə tərəfdaşları olan daşnaklar Azərbaycanın milli qüvvələrinin güclənməkdə olmasını və bu qüvvələrin xalqın milli müqəddəratının milli maraqlara uyğun olaraq həll edilməsinə çalışmasını bolşevizmin ifrat təmayülü ilə birləşən daşnakçılığın mövcudluğuna təhlükə qiymətləndirirdilər. Ona görə də Azərbaycan xalqının milli müqəddəratının milli maraqlar zəminində həll olunmasına yol verilməməsi Bakıda kök salmış bolşevik və daşnak qüvvələrinin qarşısında dayanan oxşar vəzifələr idi. 1918-ci ilin yanvarında S.Şaumyan yazırdı:

> Müsəlman burjuaziyasının və mülkədarlarının öz müqəddəratını həll etməsi müsəlman xalqının öz müqəddəratını həll etməsi demək deyil.. Rus demokratiyası buna yol verə bilməz.

Amma S.Şaumyana və onun ətrafında birləşərək özlərini bolşevik adlandıran qüvvələrə yaxşı aydın idi ki, Azərbaycanı müstəqilliyə doğru aparan milli qüvvələrin qarşısının alınması üçün yalnız bolşevizm ideyası kifayət deyil və günü-gündən möhkəmlənməkdə olan milli qüvvələrin qarşısını almaq və bu qüvvələri bir dəfəlik məhv etmək üçün ən "səmərəli" vasitə zorakı üsuldur. Bununla bağlı Bakıda cəmləşən bolşeviklərin qarşısında dayanan vəzifələrdən biri də Azərbaycan xalqının milli maraqlarına əks olan silahlı dəstələrin formalaşdırılması idi.
Bu istiqamətdə görülən işlərdən biri 1917-ci ilin oktyabrında Peterburqda həyata keçirilən çevrilişdən sonra dağılmaqda olan Cənubi Qafqazdakı rus qoşun hissələrinin

qorunub saxlanması və onların bolşevik nəzarəti altına alınması oldu. Bu qüvvələri öz nəzarəti altına almaqla bolşeviklər Azərbaycanın milli qüvvələrini məhv etməyi və bununla da Azərbaycanda antimilli bir rejimin qurulmasını planlaşdırırdılar. S.Şaumyan tələb edirdi ki, bütün hərbi qüvvələr artıq onların nəzarəti altına keçməlidir. Onun fikrincə, bolşeviklərin razılığı olmadan Bakıdakı rus qoşun hissələrinin yerdəyişməsinə icazə verilməməli idi və buna tam nail olunması üçün o, hərbi hissələrdə komissar vəzifələrinin təsis edilməsini zəruri sayırdı.

Bundan əlavə, Bakı bolşevikləri Osmanlı cəbhəsindən geri qayıdan rus qoşun bölmələrini və ayrı-ayrı rus hərbçilərini öz sıralarında birləşdirməyə və ən azı onların silahlarının Bakı Soveti qüvvələrinə təhvil verilməsinə çalışırdı.

Azərbaycan milli qüvvələrinin formalaşdırmağa çalışdığı milli qoşun dəstələrinin məhv edilməsi üçün bolşeviklər Bakı əhalisi arasından da hərbi dəstələr yaratmağa başladılar. Qarşılarına qoyduqları vəzifələrin mahiyyətinin gizlədilməsi üçün Bakı bolşevikləri yerli əhalidən təşkil etdikləri silahlı dəstələri beynəlmiləl dəstələr elan etdilər. Lakin bu beynəlmiləl dəstələr əsasən ruslardan və ermənilərdən təşkil edilirdi və azərbaycanlıların həmin dəstələrin tərkibinə yazılmasına hər vasitə ilə maneçilik göstərilirdi. Dəstəyə əsasən bolşeviklərin, eserlərin və daşnakların təsiri altında olan qeyri-azərbaycanlı əhali qəbul edilirdi. Beynəlmiləl dəstəyə çağırış və səfərbərlik işlərinə də Avakyan rəhbərlik edirdi. Qeyd etmək lazımdır ki, bolşeviklərin silahlı dəstələrinin birləşdiyi Qırmızı qvardiyanın mərkəzi qərargahına da erməni A.Baqdasarov rəhbərlik edirdi.

S.Şaumyanın yazdığına görə, 1918-ci ilin martında Bakıda təşkil edilmiş bolşevik qüvvələrinin sayı 6 min nəfər idi. Bu qüvvələrin ixtiyarında 2 ədəd zirehli qatar və bir ədəd zirehli avtomobil var idi. Zirehli qatarlara 4 top və 8-9 pulemyot quraşdırılmışdı.

Sovet Rusiyası ilə əlaqələri kəsilmiş olan Bakı bolşeviklərinin silahlı hərbi dəstələr yaratmaq istiqamətindəki fəallığı V.Leninin də diqqətindən qaçmır və o öz razılığını S.Şaumyana göndərdiyi teleqramda belə ifadə edirdi:

> Əziz yoldaş Şaumyan! Sizin möhkəm və qəti siyasətiniz bizi çox sevindirir. Bacarıb həmin siyasəti indiki çox çətin vəziyyətin şübhəsiz tələb etdiyi çox ehtiyatlı bir diplomatiya ilə birləşdirin, onda biz qalib gələrik.

Az sonra Şaumyanın rəhbərliyi altında Bakı bolşeviklərinin yeritdiyi siyasətin daha da gücləndirilməsi və Bakının bolşevik işğalı altına gətirilməsi üçün onun sərəncamına Moskvadan əlavə hərbi qüvvə göndərilməsi qərara alındı. Bu qərara görə Moskva hərbi dairəsi Bakıya bir dəstə döyüşçü, 2 təyyarə, 2 zirehli avtomobil, 5 min tüfəng v. s. göndərməli idi.

Azərbaycanın milli qüvvələrinə qarşı mübarizədə Bakı Sovetinin ən etibarlı dayağı Rusiya bolşevik hökuməti idi. Bu hökumətin mövcudluğu üçün Bakı neftinin həlledici əhəmiyyət kəsb etdiyini bilən Rusiya bolşevik rəhbərliyi Bakının sovetləşdirilməsi üçün xüsusi canfəşanlıq göstərirdilər. V.Lenin Bakıda fəaliyyət göstərən silahdaşlarına göndərdiyi tövsiyələrində belə yazırdı: "Bakı bizim üçün hər şeydir və onu müdafiə edib saxlamaq lazımdır". Başqa sözlə V.Lenin qətiyyətlə tələb edirdi ki, Azərbaycanda milli hakimiyyətin yaradılmasına və Bakının bolşeviklərin əlindən çıxmasına yol verməkolmaz.

1918-ci ilin mart hadisələri ərəfəsində Stalin S.Şaumyana göndərdiyi məktubunda da yazırdı ki, Bakını hərbi və maliyyə cəhətdən möhkəmləndirmək lazımdır. Bu şəxslərin birbaşa göstərişi ilə Bakı Soveti üçün silah, sursat, hərbi texnika və böyük maliyyə

vəsaiti ayrılması isə Azərbaycanın milli qüvvələrinin məhvinə istiqamətlənmiş praktik addımlar idi.
Bakı bolşeviklərinin rəhbərlərindən biri olmaqla daşnak xislətinin təcəssümü olan erməni A.Mikoyan bildirirdi ki, Bakıda milli şuraların olması, qanuni orqan olan şəhər bələdiyyəsinin mövcudluğu Bakı Sovetinə möhkəmlənmək imkanı vermirdi. Zorakı yolla hakimiyyətin ələ keçirilməsi, Bakının milli qüvvələrdən təmizlənməsi üçün zəruri olan silahlı dəstələrin formalaşdırılmasına isə müəyyən qədər vaxt lazım idi. Ona görə Bakı Sovetinin üzvü olan A.Caparidze bildirirdi ki, bizim bütün siyasətimiz vaxt qazanmağa yönəldilmişdi. S.Şaumyan isə fəxrlə bəyan edirdi ki, Qafqaz Ordusu Hərbi İnqilab Komitəsi qazanılmış olan 2-3 aylıq vaxt ərzində yorulmaz bir fəaliyyət göstərdi və Bakıda real silahlı qüvvələr yaratdı.
Müstəqilliyin elan edilməsi ərəfəsində Azərbaycanda hərbi-siyasi şəraitin mürəkkəbləşməsinə ciddi təsir göstərən qüvvələrdən biri də Daşnaksütyun partiyası tərəfindən təşkil edilən erməni terror qrupları və erməni silahlı dəstələri idi. Bu silahlı dəstələrin formalaşdırılması Qırmızı qvardiya dəstələrindən fərqli şəkildə aparılsa da məqsəd oxşarlığı onları bir-birinə yaxınlaşdırırdı və Azərbaycanın milli qüvvələrinin məhvi işində onlar müttəfiq kimi çıxış edirdilər. Özü də qeyd etmək lazımdır ki, erməni daşnakları bolşeviklərdən fərqli olaraq yalnız Bakıda deyil, Azərbaycanın daha geniş ərazilərində silahlı dəstələrin yaradılmasına başlamışdılar. Məsələn, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Gəncə ətrafında erməni-daşnak silahlı dəstələrinin geniş şəbəkəsi qurulmuşdu və bunun nəticəsi olaraq həmin məntəqələrdə də erməni təcavüzkarlığı çox geniş miqyas almışdı.
1917-ci ilin fevralında Rusiyada baş verən inqilab və onun yerlərdəki nəticələri vətən axtarışı üçün ifrat yollara üstünlük verən erməni millətçi dairələrinin fəaliyyəti üçün tamamilə yeni bir səhifə açdı. Mərkəzi hakimiyyətin devrilməsi, onun yerlərdəki orqanlarının süqutu nəticəsində meydana çıxan xaos və özbaşınalıqlar erməni millətçi qüvvələrinin sərbəstliyinə münasib zəmin yaratdı. Cənubi Qafqaz ərazisində bu qüvvələrin təcavüzkarlığını cilovlamağa az-çox qanuni və əməli imkanı olan Rusiya hakimiyyət orqanları idi ki, baş verən inqilab da həmin hakimiyyətin mövcudluğuna son qoydu. Nəticədə bölgədə erməni millətçi-təcavüzkar qüvvələrinin fəaliyyəti üçün heç erməni millətçilərinin gözləmədiyi bir vəziyyət meydana gəldi. Bundan da ermənilər məharətlə istifadə etdilər və bununla da onlar nəinki Qarabağı, Zəngəzuru və Naxçıvanı, hətta Azərbaycanın digər ərazilərini qanlı toqquşmalar meydanına çevirdilər.
I Dünya müharibəsi illərində Erməni millətçi-daşnak qüvvələri Osmanlı cəbhəsində döyüşmək üçün Rusiya qoşunlarının himayəsi altında formalaşdırdıqları çoxsaylı hərbi qüvvələri nəinki buraxmadılar və Rusiya anbarlarından alınan silahları təhvil vermədilər, əksinə dağılmaqda olan Rusiya qoşun hissələri hesabına erməni hissə və bölmələrinin təchizatını daha da təkmilləşdirdilər. Rusiya qoşunlarının tərkibindən ayrıldıqdan sonra isə həmin erməni milli hərbi qurumları öz fəaliyyətini bütünlüklə Qarabağ, Naxçıvan və Zəngəzura tərəf istiqamətləndirdilər. Osmanlı Türkiyəsi ərazisində vətən yaradılmasına nail olmayan bu millətçi qüvvələr Cənubi Qafqaz ərazisində öz niyyətlərini silah gücünə həyata keçirmək üçün tarixi şans əldə etdilər. Onlar yaxşı bilirdilər ki, azərbaycanlı milli qüvvələr ermənilərin təşəkkül tapmış hərbi potensialına müqavimət göstərmək imkanına malik deyildir və ona görə də onlar tezliklə Azərbaycanın milli qüvvələrinin tamamilə məhv edilməsi şansını əldən vermək istəmirdilər.

Başqa sözlə deyilsə, 1917-ci ilin sonu və 1918-ci ilin əvvəllərində bütün Azərbaycan əraziləri erməni-daşnak hərbi qüvvələrinin və onlar tərəfindən dəstəklənən bolşevik qüvvələrinin mühasirəsi və təhlükəsi altında idi. Bunun nəticəsi idi ki, Rusiya imperiyasının dağılmasından dərhal sonra ermənilərin azərbaycanlılara qənim kəsilən millətçi-təcavüzkar maşını bütün gücü ilə hərəkətə gəldi. Bakı ilə bərabər əyalətlərdə də vəziyyət daha da mürəkkəbləşdi, bölgədə azərbaycanlıların etnik təmizlənməsi və siyasi hakimiyyətin ələ keçirilməsi üçün əməli planlar və təxribatlar quruldu.
Nuru paşa da yazırdı ki, Güney Qafqazda ermənilərlə türklər arasında əvvəldən bəri davam edən düşmənçilik vardı. Rusların getməsindən sonra müdafiəsiz qalan Göyçə gölünün qərbindəki İrəvan müsəlmanları ermənilər tərəfindən qətliama məruz qalırdılar.
Qarabağ bölgəsində vəziyyəti araşdıran Azərbaycan Xalq Cümhuriyyəti Fövqəladə İstintaq Komissiyasının üzvü qeyd edirdi ki, Rusiya Qafqaz cəbhəsindəki hərbi əməliyyatları dayandırmazdan əvvəl erməni əsgərlər kütləvi şəkildə fərarilik edib malik olduqları tüfənglər, pulemyotlar və digər silah və sursatla bölgəyə qayıtdılar. Yerlərdə fəaliyyət göstərən erməni kənd icmaları erməni əsgərlərinin öz silahları ilə birlikdə fərarilik etməsini təşviq edirdilər. Rusiya hakimiyyət və polis orqanlarının kəsərsizliyi isə bu fərariliyin getdikcə artmasına yol açırdı. İstintaq Komissiyasının üzvü Mixaylovun yazdığına görə, bölgənin müsəlman əhalisi tarixən qonşuluqda yaşadıqları ermənilərə inanaraq onların silahlanmalarının acı nəticələri ilə qarşılaşacağını güman etmirdilər. Ona görə də azərbaycanlılar ermənilərin silahlanmasına və bölgəyə silah daşımalarına qarşı heç bir maneəçilik də yaratmırdılar. Fevral inqilabından sonra Azərbaycan ərazilərinə ermənilər tərəfindən silah daşınması kütləvi xarakter aldı və silahlar çoxaldıqca ermənilərin azərbaycanlı əhaliyə qarşı düşmənçiliyi də güclənməyə başladı .
Ermənilərin silahı artdıqca, erməni silahlı qurumlarının fəallığı gücləndikcə erməni millətçi dairələrində bölgəyə siyasi nəzarəti ələ keçirmək niyyətləri də güclənməyə başladı. Yerlərdəki əvvəlki hakimiyyət orqanlarının süqut etməsi milli müsəlman ictimai-siyasi qurumlarının lazımi hərbi qüvvəyə malik olmaması isə ermənilərin bu niyyətlərinin reallaşmasına əlverişli zəmini gücləndirirdi.
Bir tərəfdən Bakıda və onun ətrafında olan ermənilərin səfərbər edilməsi, bir tərəfdən də cəbhədən tərxis olunan erməni əsgərlərinin cəlb olunması nəticəsində 1918-ci ilin mart hadisələri ərəfəsində Bakıda xeyli sayda erməni-daşnak qüvvəsi cəmləşmişdi. Qeyd edildiyi kimi, S.Şaumyanın məlumatına görə, onların sayı 3-4 min idi. Bu məlumat qeyri-dəqiq də ola bilərdi. Erməni-daşnak qüvvələrinin törətdikləri qırğın və faciələrin miqyasının pərdələnməsi üçün S.Şaumyan tərəfindən onların sayının xeyli azaldılması şübhə doğurmamalıdır. Hər halda Bakıda planlaşdırılan qırğının arzu olunan nəticələrlə başa çatdırılması üçün belə qüvvələrin toplanması və təchiz edilməsi sahəsində fəal iş aparılırdı. Hadisələrin şahidi Suren Şaumyanın etiraflarından da aydın olur ki, Bakıda silahlı dəstələrin yaradılması sahəsində Erməni Milli Şurasının fəaliyyəti Müsəlman Milli Şurasının fəaliyyətini xeyli üstələyirdi. Türkiyə ilə Rusiya arasında müharibənin nizamlanmadığı bir vaxtda silahlı dəstələrin yaradılmasını türkpərəstlik kimi qiymətləndiriləcəyindən ehtiyat edən müsəlman ictimai təşkilatlarının fəalları süstlük göstərdikləri halda, Erməni Milli Şurası bütün imkanları daxilində daşnak qüvvələrini yaratmaqda davam edirdilər. Rus ordusunda xidmət edən erməni əsgərlərindən istifadə edilməsinə çalışılması onların səylərinin nəticələrini daha da artırırdı. Erməni Milli Şurası 1918-ci ilin martında cəbhədən qayıdan erməni əsgərlərinə müraciət göndərərək onları Bakıda erməni-daşnak qüvvələrinin sıralarında birləşməyə,

silahını kimsəyə təhvil verməyərək özündə saxlamağa və yeri gələndə millətin "mənafeyi" naminə onun təcavüzkara qarşı işlədilməsinə hazır olmağa çağırırdı.

Doğrudur, sovet tarixşünaslığında erməni-daşnak qüvvələrinin Bakı qırğınının təşkilindəki rolunu danmağa, bolşeviklərə nisbətən onların milli müsavatçılarla bağlılığının daha sıx olmasına, hətta onların Müsavat partiyası ilə ilkin sövdələşmələri barədə mülahizələr yürütməyə çalışmışlar. Ancaq gizli deyil ki, Bakı Sovetinin, onun yaratdığı qurumların erməni rəhbərləri ilə Erməni Milli Şurasının, daşnak fəallarının arasındakı yaxınlıq təkcə etnik bağlılıq deyildi. Qafqaz türklərinin, Azərbaycan xalqının fiziki məhvinə çalışmaq, Bakıda ermənipərəst diktaturanın yaradılmasına nail olmaq bu qüvvələri cütlük şəklində birləşdirən strateji platforma idi. Daşnaksütyun partiyasının liderləri də gizlətmirdilər ki, erməni inqilabçı Daşnaksütyun partiyası Bakıda azərbaycanlıların hakimiyyətindən qorxaraq yerli bolşeviklərlə çox sıx əlaqəyə malik idilər və hətta onlara kömək edirdilər. Şübhəsiz ki, burada yerli bolşeviklər deyiləndə daha çox bolşevik pərdəsi altında maskalanan Bakı Sovetinin erməni fəalları nəzərdə tutulurdu. Həmin qüvvələr birləşərək Bakını azərbaycanlılardan təmizləmək üçün ən ifrat vasitələrə əl atırdılar. Bu məqsədlə daşnak qüvvələrinin yaratmış olduğu silahlı dəstələr bolşeviklərin tam sərəncamına verilmişdi. Bunu S.Şaumyan özü də təsdiq edirdi.

1917-ci ilin sonlarında Zaqafqaziya Komissarlığının qəbul etdiyi qərara əsasən Cənubi Qafqazda mövcud olan erməni tərkibli nizami hissələr erməni milli korpusu tərkibində birləşdirildi. Müstəqil nizami erməni milli hissələri yalnız İrəvan quberniyası ərazisində deyil, Azərbaycan ərazisində də təşkil edilirdi. Bununla, Azərbaycan milli korpusunun təşkili ən aşağı səviyyədə olduğu vaxtlarda Azərbaycan ərazisindəki hərbi şərait daha da mürəkkəbləşdirildi. Məsələn, Qafqaz cəbhəsi komandanı vəzifəsini icra edən general-mayor Lebedinckinin 10 yanvar 1918-ci il tarixli əmrində bildirilirdi ki, millətlərarası şuranın və cəbhə komissarının razılığına əsasən erməni korpusu komandirinin əmri ilə aşağıdakı hissələrin təşkilinə icazə verilmişdir. Bundan sonra təşkil ediləcək hissələrin adı və yerləşdikləri məntəqələr göstərilir. Qəribə də olsa bu məntəqələrin demək olar ki, hamısı Azərbaycan ərazisində idi. Həmin əmrə əsasən aşağıdakı hissələr yaradılmalı idi:

-Erməni atıcı alayı. Təşkil ediləcək yer – Şuşa şəhəri

-Alay ştatına yaxınlaşdırılmış əlahiddə erməni atıcı taboru. Təşkil olunacaq yer – Nuxa qəzası, Vartaşen kəndi

-Erməni ehtiyat piyada taboru. Təşkil olunacaq yer – Naxçıvan şəhəri

-Mövcud erməni ehtiyat taboru bazasında əlahiddə erməni ehtiyat taboru. Təşkil olunacaq yer – Yelizavetpol şəhəri .

Ermənilərin nizami hərbi hissələr yaratmaq istədikləri məntəqələr arasında Bakının adı yoxdur. Heç şübhəsiz ki, bu Bakıdakı hərbi hissələr arasında bolşeviklərin təsirinin daha güclü olması ilə bağlı idi. Ona görə də, ermənilər Bakıda yeni könüllü hərbi dəstələr formalaşdırmalı olurdular.

Buna görə mart qırğınları dövründə, S.Şaumyanın tabeliyi altında olmayan erməni-daşnak silahlılarının mövcudluğunu da istisna etmək olmaz. Bu isə o deməkdir ki, Erməni Milli Şurasının topladığı və silahlandırdığı ermənilərin sayı S.Şaumyanın göstərdiyi saydan çox ola bilərdi. Elə erməni mənbələrinin verdiyi məlumatlar da bunu deməyə əsas verir. Məsələn, Gürcüstandakı erməni missiyası yanında informasiya bürosunun bülletenində 1918-ci ilin avqustunda çap olunmuş məlumata görə, Bakının Qırmızı qvardiya və erməni daşnak hərbi qüvvələrindən təşkil olunmuş qarnizonun

tərkibi aşağıdakı kimi idi:
1.Beynəlxalq alay – 2000 nəfər
2. 2-ci erməni alayı – 2000 nəfər
3.Hamazaspın dəstəsi – 1000 nəfər
4.Şamaxı erməni qvardiyası – 1000 nəfər
5.Müxtəlif vaxtlarda cəbhədən dönmüş erməni əsgərləri – 10000 nəfər
6.Daşnak hərbi hissələri – 5000 nəfər
7.Keçmiş Qafqaz alayının 2 bölüyü – 500 nəfər
8.Milis, menşeviklər dəstəsi və mühafizə dəstəsi – 1500 nəfər
9.Biçeraxovun dəstəsi – 2500 nəfər
10. Rusiyadan gəlmiş bolşevik dəstəsi – 1500 nəfər
Cəmi: 27000 nəfər (108).

Bu siyahıda göstərilən rəqəmlər də onu göstərir ki, Bakıda erməni-daşnak hərbi qüvvələrinin sayı xeyli çox idi və S.Şaumyanın istinad etdiyi rəqəm heç də reallığı əks etdirmir.

Bakıda toplanan erməni daşnak hərbi qüvvələrinin silahlandırılması da kifayət qədər uğurla həll edilirdi. Bunun üçün Erməni Milli Şurasının ixtiyarında xeyli maliyyə vəsaiti vardı və həmin maliyyə vəsaitinin toplanması uzun illər idi ki, aparılırdı. Silahlı dəstələrin əsasını Rusiya qoşun hissələrindən tərxis olunanlar təşkil edirdi. Bu kontingent, xüsusən də erməni əsgərləri arasında aparılan təbliğat işindən sonra onlar öz silahlarını Erməni Milli Şurasına təhvil verirdi. Suren Şaumyanın yazdığına görə, köhnə orduda mövcud olan erməni partizan drujinalarından çoxlu sayda silah alınırdı. Müəllif çox güman ki, erməni partizan drujinaları deyəndə, Birinci dünya müharibəsi illərində Türkiyə ərazisində vuruşmaq üçün çar Rusiyası ordusu tərkibində yaradılmış erməni drujinalarını nəzərdə tuturdu. Müvafiq pul müqabilində tərxis olunan rus əsgərlərindən də silah alınırdı. Bütün bunlardan sonra Suren Şaumyan da təsdiq edirdi ki, mart qırğınları ərəfəsində Erməni Milli Şurasının kifayət qədər ciddi hərbi qüvvələri var idi.

Bu məsələyə Nuru paşa da sonradan yazdığı xatirələrində müxtəsər şəkildə toxunmuşdu. O yazırdı:

> Bu zaman Azərbaycanda vəziyyət belə idi: Güney Qafqaz millətləri gürcü, erməni və müsəlmanlar tərəfindən yaradılan Güney Qafqaz Konfederasiyasının paytaxtı Tiflis idi. Federasiya məclisi olan Seym sadəcə gürcü və ermənilərin mənfəətini qoruyan bir təşkilat idi. Müsəlmanlara əhəmiyyət verilmirdi. Seymdə əhəmiyyətli komissarlıqlara gürcü və ermənilər təyin edilmiş və sadəcə Sosial Yardım Komissarlığı azərbaycanlılara verilmişdi. Türk cəbhəsindən geri çəkilən rus hərbi birləşmələri öz silah və ləvazimatlarını sadəcə erməni və gürcülərə verirdilər...Bu zaman Avropa cəbhəsindən geri dönən rus hərbi birləşmələri tərkibindəki erməni əsgərləri də öz yurdlarına qayıtmaq üçün Bakıda toplaşmışdılar. O dövrdə Bakıda hakim olan bolşevik partiyası lideri Şaumyan adlı bir erməni idi. O, adıçəkilən hərbi birləşmələrdən istifadə edərək Azərbaycanı işğal etmək barədə qərar vermiş və müxtəlif bəhanələrlə müsəlmanların əleyhinə zorakılığa başlamışdı.

1917-ci ilin sonu və 1918-ci ilin əvvəllərində erməni millətçiləri və daşnakları Qarabağda da vəziyyəti xeyli mürəkkəbləşdirdilər. Dövrün şahidləri qeyd edirdilər ki, erməni millətçi dairələri Şuşadakı Müsavat və digər milli qurumlara nisbətən daha fəal və güclü idilər. Bu güc nisbəti Qarabağda idarəçilik orqanlarının formalaşdırılmasında da özünü göstərdi. 1917-ci il sentyabr ayının 18-də Şuşada Levon Vartanyan adlı

birisinin mənzilində şəhərdə mövcud olan müxtəlif erməni partiyalarının nümayəndələrini iclası təşkil edildi. İclasın məqsədi bütün Qarabağı təmsil edəcək yeni idarəetmə orqanının yaradılması idi. Heç bir azərbaycanlının iştirak etmədiyi bu toplantıda ermənilərin birtərəfli qaydada Dağlıq Qarabağın Müvəqqəti Hökuməti adlı bir qurumun yaradılmasını elan etdilər. Bu Müvəqqəti hökumətin tərkibinə 14 nəfər daxil idi.. Müvəqqəti sədri vəzifəsinə Ayrapet Musaelyan, katibi vəzifəsinə Nikolay İsaxanyan seçildilər (5).

Bölgənin azərbaycanlı əhalisinin xəbəri və iştirakı olmadan birtərəfli şəkildə elan edilən bu müvəqqəti erməni qurumunun iradəsinin azərbaycanlılar tərəfindən qəbul olunmayacağının ermənilərin özləri də yaxşı başa düşürdülər. Belə olan təqdirdə isə onlar öz iradələrini azərbaycanlılara yalnız zor gücünə qəbul etdirə bilərdilər. Ona görə də, ermənilər müvəqqəti hökumətin nəzdində Hərbi Şura da yaratdılar. Arutyun Tumyan tərəfindən rəhbərlik edilən həmin Şuraya daha üç nəfər də daxil idi ki, onlardan da ikisi keçmiş hərbçilər idi. Çox qısa zamandan sonra bu Şura tərəfindən Qarabağda mövcud olan erməni silahlılarının hərbi strukturlarda birləşdirilməsinə başlandı (6).

1917-ci ilin sonlarından etibarən də erməni silahlılarının Qarabağda azərbaycanlılar yaşayan kəndlərə açıq təcavüzü başladı. Azərbaycanlılara qarşı təcavüzkarlığı genişləndirmək üçün hətta 14-15 və 16-18 yaşlı ermənilər də hərbi strukturlara cəlb edilir və silahlandırılırdı. Azərbaycanlı əhaliyə qarşı davamlı təcavüzün həyata keçirildiyi illərdə Qarabağda 17 min erməni hərbi strukturlara cəlb edilmişdi. Qarabağ ermənilərinin hətta atlı dəstəsi də təşkil edilmişdi. Digər dəstə və bölmələr də mövcud idi. Erməni qadınlarından ibarət tabor da təşkil edilmişdi. Erməni qadınlarından ibarət sanitar dəstələr də yaradılmışdı. Ermənilərin ixtiyarında 15 min tüfəng, revolver, pistolet, 6 ədəd "Maksim" pulemyotu və toplar var idi. Bölgədə mövcud olan bütün erməni silah ustaları, mexaniklər, bənnalar və dülgərlər də hərbi işə cəlb edilmişdilər. Hərbi qurumların silah ehtiyacını aradan qaldırmaq üçün Şuşada sex yaradıldı. Həmin sexdə güllə tökülür və patron istehsal olunurdu. Erməni zərgərləri qurğuşundan tökülən güllənin üzərinə nazik mis qatı çəkirdilər, qadınlar isə xüsusi maşınlarda patronların doldurulması ilə məşğul olurdular. Ermənilər tərəfindən tüstüsüz barıtın istehsalı texnologiyası da mənimsənilmişdi. Şuşada eyni zamanda əl qumbaraları istehsal edən emalatxana və silahların təmirini aparan emalatxana da yaradıldı.

Bölgədə kifayət qədər böyük sayda erməni hərbi strukturlarının toplanması Azərbaycanın milli qüvvələri üçün təhlükə yaradırdı. Bunu yenicə formalaşmaqda olan milli ictimai-siyasi qurumların liderləri də anlayırdılar. Azərbaycanın az qala bütün ərazisi erməni və rus hərbi hissələri ilə doldurulduğu halda yerli əhalini erməni və rus-bolşevik təcavüzündən qoruyacaq milli qüvvələr mövcud deyildi. Doğrudur, 1917-ci ilin dekabrında Müsəlman Korpusunun yaradılması haqqında Cənubi Qafqaz hakimiyyət orqanlarının müvafiq dekreti imzalandı. Lakin bu qərar kifayət qədər gecikmiş bir qərar idi. Çünki, müsəlman alayının təşkili mübahisə və münaqişə halında ikən gürcü və erməni alaylarının təşkili tamam olub bitmişdi .

Müsəlman korpusunun əsasını təşkil edən rus korpusunun təşkilati-strukturu qorunub saxlanılsa da, bu strukturun formalaşdırılması üçün ermənilərdən fərqli olaraq milli zabit və sıravi heyət son dərəcə az idi. Azərbaycanlıların hərbi xidmətə cəlb edilməsi şəbəkəsi mövcud deyildi, yeni hərbi hissələrin təchizat və təminatını aparacaq mexanizm yox idi. Az-çox silah əldə edilməsi üçün Azərbaycan ərazisindəki rus hərbi strukturlarına qarşı güc tətbiq edilməsi zərurəti yaranırdı ki, bu da ehtiyacları ödəmirdi.

Erməni millətçiləri də bundan vaxtında bəhrələnməyə çalışırdılar. Azərbaycan milli qüvvələrinin formalaşmasına imkan vermədən erməni millətçiləri öz fəaliyyətlərini xüsusi olaraq iki istiqamətdə genişləndirməyə çalışırdılar. Birincisi, müxtəlif şüarlar altında pərdələnməklə Bakı şəhərini, ikincisi isə Qarabağ və ona ətraf məntəqələri tam nəzarət altına almaq istiqamətində erməni təcavüzü geniş miqyas almaqda idi. Daha geniş planda isə bu iki məntəqədə formalaşan erməni gücü sonradan birləşməklə Azərbaycanın bütün ərazisini erməni-bolşevik bayrağı altına almalı idi. Bunu erməni terrorçuluğunun, millətçiliyinin klassik təmsilçisi olan quldur Andronikin sonradan Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyana göndərdiyi məşhur teleqramı da təsdiq edir. S.Şaumyanın rəhbərliyi altında olan bolşevik-daşnak qüvvələri Bakını ələ keçirib Gəncəyə doğru irəliləyəndə quldur Andronikin rəhbərliyi altında olan daşnak qüvvələri Zəngəzur və Qarabağdan keçərək Yevlaxda bolşevik-daşnak qüvvələri ilə birləşmək və sonra da bu qüvvələr birlikdə Azərbaycanın milli qüvvələrinin mərkəzi olan Gəncə üzərinə hücum etməli idilər. Başqa sözlə, Andronik Zəngəzur və Qarabağın işğalını başa çatdırmalı və sonra da Yevlaxa qədər olan Azərbaycan yaşayış məntəqələrini viran qoymalı idi. O, Şaumyana göndərdiyi teleqramında onun şəxsində sovet hakimiyyətinə tabe olduğunu, yenicə nəzarət altına aldığı Naxçıvanı Rusiyanın tərkib hissəsi elan etdiyini, Qafqazın yeni komissarı kimi S.Şaumyanın əmrlərini yerinə yetirməyə hazır olduğunu bildirdi .
Azərbaycanın milli qüvvələrinin və milli qoşun dəstələrinin məhv edilməsi niyyəti 1918-ci ilin mart hadisələrinin törədilməsi səbəblərinin və həm də bu qırğınların başlanması üçün ortaya atılan bəhanənin mərkəzində dayanır. Bakıda şəriksiz hakimiyyətə malik olmaq üçün ilk növbədə burada milli hərəkatın dayağı olacaq milli qoşun hissələrinin formalaşıb möhkəmlənməsinə yol verməmək lazım idi. S.Şaumyan belə bir fikirlə heç cürə razılaşa bilmirdi ki, müsəlman millətçiləri Bakını Azərbaycanın paytaxtına çevirməyi arzulayırlar. O, Bakıda milli qüvvələrin möhkəmlənəcəyi təqdirdə bu şəhərin və bütünlükdə Cənubi Qafqazın Rusiya üçün (eyni zamanda "Böyük Ermənistan" üçün) birdəfəlik itirilə biləcəyindən çox qorxurdu. Ona görə də S.Şaumyan Bakıda müsəlman qoşun bölmələrinin hələ kifayət qədər möhkəmlənməməsindən istifadə edərək qəti hərəkət etməyi lazım bilirdi. 1918-ci ilin mart ayının sonlarında Azərbaycanda və Bakı ətrafında yaranmış olan obyektiv və subyektiv şərait də bolşevikləri buna vadar edirdi. Çünki Bakı Soveti bir tərəfdən şimal ilə əlaqələrini itirmişdi, Rusiyadan kömək almaq imkanlarından məhrum olmuşdu. O biri tərəfdən isə taxıl bazası kimi baxılan Muğan da bolşeviklərin nəzarəti altından çıxarılmışdı.
Bu iki strateji dayaq olmadan Bakı Sovetinin uzun müddət davam gətirəcəyi mümkün deyildi. Və nəhayət mili tərkibli qoşun bölmələri Şamaxı və Hacıqabula qədər irəliləyərək qərbə doğru uzanan yolları da Bakı Sovetinin üzərinə bağlamışdı. Onların Bakıya doğru hərəkət etməsi isə Bakıda şəriksiz hakimiyyətə can atan və buradan öz təsirini bütün Cənubi Qafqaza yaymaq istəyən S.Şaumyan və onun tərəfdarlarının təcavüzkar niyyətlərinə son qoya bilərdi. İfrat bolşevik və daşnak elementləri anlayırdılar ki, Bakını əllərində saxlamaq, onu bolşevikləşdirmək və erməniləşdirmək üçün yeganə yolları Azərbaycanın milli qüvvələrini məhv etmək, Azərbaycan xalqına ağır zərbə vurmaqdır. Onları iflas olmaqdan yalnız kütləvi zorakılıq əməlləri xilas edə bilərdi və ona görə də mart ayının sonunda kütləvi milli qırğınlara əl atıldı.
İdeoloji baxımdan Rusiya bolşevik hökuməti tərəfindən ilhamlandırılan Bakıdakı ifrat bolşevik qüvvələrinin və azərbaycanlılara qarşı münasibətdə onların əqidə cütlüyü olan daşnak tör-töküntülərinin Bakıda törətdikləri kütləvi soyqırım həqiqətdə onların siyasi

ömrünü bir neçə ay uzatdı. Azərbaycanın milli mücahidlərinin təşkil etdiyi Müsavat partiyasının Cənubi Qafqazda ən güclü siyasi rəqibə çevrildiyini böyük bir qorxu ilə ifadə edən S.Şaumyan və onun ətrafındakılar azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımdan sonra Bakının siyasi hakimiyyətini bir neçə ay öz əllərində cəmləşdirə bildilər.

Bakıdan sonra bolşevik-daşnak cütlüyü Şamaxı və Qubada da azərbaycanlılara qarşı kütləvi milli qırğınlar həyata keçirdi, sonsuz işgəncələrə rəvac verildi. Bununla da silah gücünə və sonsuz faciələr hesabına Bakı bolşevikləri Bakıda və quberniyanın bir-sıra məntəqələrində sovet hakimiyyətini qurmağa müvəffəq oldular.

Nuru paşanın xatirələrindən:

> Lənkərandan Bakıya gələn iyirmi Azərbaycan əsgərinin silahını almaq bəhanəsilə ermənilər Bakıdakı müsəlmanlara hücum etmiş və iki gün içində Bakı türklərindən minlərlə müsəlman kişi-qadın öldürülmüşdü. Bu hadisədən ilham alan Azərbaycanın digər məntəqələrində yaşayan ermənilər üsyan edərək müsəlmanlara hücum etməyə başladılar. Bakıdan göndərilən birləşmələrlə qüvvətlənən Şamaxı erməniləri buradakı müsəlmanlara qarşı qətliam törətdilər. Nuxa, Zaqatala və Gəncədən müsəlmanlara yardım üçün gələn qeyri-nizami birləşmələr bir iş görə bilməyərək məğlub oldular.

Lakin onlar bununla heç də kifayətlənmək fikrində deyildilər. Milli qoşun hissələrinin xeyli zəif olmasından və Zaqafqaziya seymindəki fikir ixtilafından istifadə edərək qərbə doğru irəliləmək niyyətini bolşeviklər heç də gizlətmirdilər. Onların fikrincə, bir qədər qətiyyətlilik nümayiş etdirsəydilər 1918-ci ilin yazınadək daha böyük əraziləri öz təsir dairəsi altına ala bilərdilər. Şaumyan sonralar V.Leninə göndərdiyi məktubda belə yazırdı: " Biz Bakıdakı vətəndaş müharibəsindən sonra az bir qüvvə ilə ora (Gəncəyə-M.S.) yerimiş olsaydıq daha yaxşı olardı. O zaman vəziyyət xeyli əlverişli idi " .

Bakı bolşevikləri liderlərinin fikrincə, hələ 1918-ci ilin yanvarında Azərbaycanın milli qüvvələrinin cəmləşmiş olduğu Gəncəyə hücum etmək üçün yaxşı imkan var idi. Çünki o zaman Azərbaycanın milli qüvvələri çox zəif və qeyri-mütəşəkkil idi. Onların Türkiyə ilə elə bir əlaqəsi yox idi. Cəbhədən qayıdıb Bakıda toplaşmış olan rus qüvvələri isə Gəncəni almağa kömək edə bilərdi .

Bakı bolşevikləri münasib saydıqları imkanları əldən buraxmağa təəssüflənsələr də nəinki Gəncəni, hətta Tiflisi tutmaq və bütün Zaqafqaziyada sovet hakimiyyəti elan etmək niyyətindən əl çəkməmişdilər. Xüsusən, 1918-ci il aprel ayının 22-də Zaqafqaziyanın müstəqil Demokratik Federativ Respublika elan edilməsindən sonra bu istiqamətdə görüləcək işlərin sürətləndirilməsinə başlandı. Qarşıya qoyulan planın reallaşdırılması üçün Qırmızı ordunun gücləndirilməsinə xüsusi fikir verilirdi və bu məsələ 1918-ci il aprel ayının 25-də yaradılmış Bakı Xalq Komissarları Sovetinin qarşıya qoyduğu başlıca vəzifələrdən biri idi. Özünün 1 may 1918-ci il tarixli bəyanatında Bakı Xalq Komissarları Soveti elan edirdi ki, sovet hakimiyyətinin son təntənəsi və bu hakimiyyətin bütün Zaqafqaziyaya yayılması üçün qalibiyyətlə başlanmış vətəndaş müharibəsi davam etdirilməlidir. Bunun üçün isə hər şeydən əvvəl güclü Qırmızı orduya malik olmaq lazımdır .

Məlumdur ki, bolşevik ideologiyasının xidmətində dayanan silahlı dəstələrin yaradılmasına hələ xeyli əvvəldən başlanmışdı. Bir sıra hissələr komplektləşdirilmiş və onlar lazımi sayda silah və texnika ilə təchiz edilmişdi. Aprel ayında isə Qafqaz Ordusu Hərbi İnqilab Komitəsi nizami Qafqaz Qırmızı ordusunun formalaşdırılmasına girişdi.

Bu sahədə təşkilati işlərin gücləndirilməsi üçün Hərbi İnqilab Komitəsinin sədri Q.Korqanov hərbi-dəniz işləri komissarı kimi Bakı Xalq Komissarları Sovetinə daxil edildi .

Qırmızı bolşevizmin gücləndirilməsi istiqamətində atılan addımlardan biri bolşevik qüvvələri ilə daşnak qüvvələrinin rəsmi şəkildə birləşdirilməsinin elan edilməsi oldu. Bu birləşmənin daşnak millətçi planlarının reallaşdırılması üçün daha münasib vasitə olduğunu anlayan Erməni Milli Şurasının liderləri dərhal bolşeviklərin tələbləri ilə razılaşdılar. Aprel ayının 26-da Bakı bolşeviklərinin təsis etdiyi İnqilabi Müdafiə Komitəsi ilə Erməni Milli Şurasının birgə iclası oldu və bu iclas aşağıdakıları qəbul etdilər:

1. 2-ci erməni ehtiyat piyada alayı ləğv olunur. Onun bir hissəsi Amazaspın taboruna daxil olur, başqa bir hissəsi isə yaradılmaqda olan Qırmızı sovet taborlarına birləşdirilir.
2. Amazaspın taboru yenidən qurulur, tam şəkildə sovet hakimiyyətinə tabe etdirilir və Qırmızı ordunun 16 və 17-ci taborları adı altında Qırmızı orduya daxil olur.

Bolşevik məlumatlarına görə, əsasını ruslar və ermənilər təşkil edən silahlı dəstələrin birləşdirilməsi nəticəsində 1918-ci ilin may ayının ortalarında Bakıda 18 min əsgər və zabitdən ibarət 19 atıcı tabor var idi. Bu hərbi hissələr 4 atıcı briqadada birləşdirilmişdi ki, onlar da birlikdə Qırmızı ordunun Birinci Qafqaz korpusunu təşkil edirdilər. Korpusa komandanlıq erməni daşnak elementlərinin əlində idi. Onun komandiri Qazarov, qərargah rəisi isə Avetisov idi.

Bakıda Qırmızı ordunun bir neçə topçu batareyası, üç zirehli qatarı, 3 pulemyot komandası, 10-dan artıq təyyarəsi var idi.

Artilleriya batareyalarının sərəncamında 12 səhra, 3 dağ topu və 4 mortir topu var idi. Mərmilər sayca az olsa da güllə ehtiyatı təxminən 9 milyon ədədə çatırdı. Qoşunların fəaliyyətinə rəhbərlik etmək üçün may ayının 24-də Ali Hərbi Şura yaradıldı. Bu qurum texniki ixtisaslar üzrə kadrların səfərbər edilməsinə, təlimatçı məktəbində və topçu kursunda zabitlərin hazırlanmasına diqqəti artırdı.

Bütün bunların nəticəsində Qırmızı ordu 1918-ci il may ayında həm say, həm də təchizat baxımından milli qoşunlardan üstün idi və mövcud imkanlar Qırmızı ordunun qarşısını kəsməyə yetərli deyildi. Aprel ayında tərəflər arasında baş verən döyüşlərdə Müsəlman Korpusunun bölmələrinə həm maddi, həm də ciddi mənəvi zərbə vurulmuşdu. Bu itkilərin bərpa olunması üçün isə müəyyən vaxt lazım idi. Ona görə də, Müsəlman Korpusunun komandiri general-leytenant Əliağa Şıxlinski etiraf edirdi ki, Azərbaycanın müstəqilliyinin elan edildiyi vaxt mənim təşkil etdiyim hissələr yarımçıq halda idi. Belə qüvvələrlə Azərbaycanın yenicə elan edilmiş müstəqlliyini qoruyub saxlamaq asan deyildi.

Azərbaycanda həyata keçirilən milli qırğınların qarşısının alınması üçün milli silahlı dəstələrlə Cənubi Qafqaz hökumətinin tabeliyində olan qoşun dəstələrinin birləşmiş qüvvələri bolşevik-daşnak qüvvələrinə qarşı göndərildi. Cənubi Qafqaz hökumətinin qüvvələrinə gürcü korpusunun bölmələri daxil idilər. Nuru paşa da yazırdı ki:

> Bolşevik təhlükəsinin yaxınlaşdığını görən gürcülər rus ordusunda zabit olmuş knyaz Maqalov adlı bir şəxsin rəhbərliyi ilə iki yüzə qədər gürcü əsgərini müsəlmanlara kömək üçün göndərdilər.

1918-ci ilin aprel ayında Hacıqabul ətrafındakı döyüşdə geri çəkilmək məcburiyyətində qalan müsəlman və gürcü korpuslarının birləşmiş dəstəsinin bölmələri 1918-ci il may ayının 21-də yenə burada mövqe tutmuş bolşevik qüvvələri ilə döyüşə

girdilər. Ancaq bolşeviklərin burada yerləşdirdikləri qüvvələr birləşmiş qoşun bölmələrinin bu hücumunun  qarşısını da aldılar. Əsasən, süvarilərdən ibarət olan milli qoşun bölmələri Hacıqabulda Qırmızı ordunun piyada hissəsinin və artilleriyasının müqavimətini qıra bilməyərək əvvəlki mövqelərinə çəkildilər. Bakı Sovetinin hərbi-dəniz işləri üzrə komissarı Q.Korqanov Xalq Komissarları Sovetində bu barədə etdiyi məruzəsində Bakı ətrafında, o cümlədən Hacıqabulda milli qoşun hissələrinin növbəti hücumunun qarşısının alınmasına sevindiyini bildirsə də, bütünlükdə passiv müdafiədə dayanmağın qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün düzgün olmadığını vurğulayırdı. Onun sözlərinə görə, Ermənistanda və Gürcüstanda xalq kütlələri intizarla Qırmızı ordunun yolunu gözləyirlər və əgər bu barədə qəti addım atılmasa türk qoşunları Azərbaycan ərazisində möhkəmlənərək Bakıya doğru hərəkətə başlayacaqlar .

Bakı Xalq Komisarları Sovetinin sədri S.Şaumyan da bu mövqedə dayanmaqla bərabər, belə bir planın həyata keçirilməsinin ilhamçısı və təşkilatçısı idi. V.Lenin tərəfindən Cənubi Qafqazın fövqəladə komissarı təyin edilmiş S.Şaumyan Cənubi Qafqaza hakimliyin tezliklə ələ keçirilməsi üçün sürətlə irəli hərəkət etməyin zəruriliyini bildirirdi. Qarşıya qoyulan planların mahiyyətini inqilabi-bolşevik şüarlarla pərdələməyə çalışan S.Şaumyan milli hisslərindən güc alan niyyətlərinin reallaşdıırlmasında ilk növbədə erməni-daşnak ünsürlərinə arxalanırdı. Ətrafına topladığı daşnak qoşun dəstələrinə dayaqlanmaqla bərabər, S.Şaumyan Yelizavetpolda, bu quberniyanın digər qəzalarında və Gürcüstanda yaşayan ermənilərin onunla həmfikir olacağına da şübhə etmirdi. O, Rusiya Xalq Komissarları Sovetinə göndərdiyi məktubunda gizlətmirdi ki, Yelizavetpola doğru irəliləməklə burada və sonra isə digər məntəqələrdə ermənilərin üsyanını qaldırmaq və bununla da Zaqafqaziya hökumətinin devrilməsinə nail olmaq lazımdır.

Həmin məqsədinə nail olmaq üçün S.Şaumyan və Q.Korqanov konkret plan hazırlamışdılar. Bu plana görə onlar İran ərazisində olan rus qoşunlarında xidmət edən rus zabiti L.Biçeraxovun tabeliyində olan dəstəni Azərbaycana dəvət etməklə  iki istiqamətdən: Kürdəmir-Yevlax-Gəncə və Şamaxı-Göyçay-Kaxetiya-Tiflis istiqaməti ilə hücuma keçməli idilər .

Gəncəyə və oradan da Tiflisə doğru hücumunda S.Şaumyan eyni zamanda qaniçən cəllad Andranikin  yardımlarına da bel bağlayırdı. Qeyri-insani əməllərinə görə Türkiyədən qovulduqdan sonra Naxçıvan, Zəngəzur və başqa qəzalarda silahsız azərbaycanlıların qırğınına rəvac verən bu cəllad Bakıdakı sovet hakimiyyətini tanımaqla Qafqazın yeni fövqəladə komissarının əmrini yerinə yetirməyə hazır olduğunu bildirirdi. Onun Zəngəzurdan Qarabağa, oradan da Yevlaxa doğru yürüşü isə S.Şaumyanın planlarının icrasına əlverişli zəmin yaratmalı idi.

Nuru paşa yazırdı:

> Gəncənin cənubundakı dağlıq bölgələrində məskunlaşan ermənilər Bakıdan gələnlərə yardım üçün hazır vəziyyətdə və müsəlmanlarla daim münaqişədə idilər. Hətta Gəncənin yarısına yaxın bir hissəsini təşkil edən Erməniкənd məhəlləsi ilə türk məhəlləsi arasında gecə-gündüz silah səsləri eşidilirdi. Giriş-çıxış çətinləşmişdi. Zəngəzur erməniləri də Qarabağın mərkəzi olan Şuşa qəzasına tərəf irəliləyirdilər. Şuşa-Ağdam-Yevlax yolu üzərindəki Əsgəran keçidi ermənilər tərəfindən ələ keçirilmişdi

S.Şaumyanın silahdaşı və məsləkdaşı A.Əmiryan da bütün diqqətin tezliklə Yelizavetpol üzərinə hücuma istiqamətləndirilməsinə çalışırdı. O yazırdı:

Qafqazın Versalına hücum etmək əvəzinə, əksinqilabçıların bütün başçılarını tutub

dustaq etmək əvəzinə biz onlara toplaşmağa, möhkəmlənməyə və əksinqilabi xarici düşmənlərimizlə ittifaqa girərək inqilab əleyhinə hücuma keçməsinə imkan verdik... indi biz doğru yol tutmuşuq. Müdafiə deyil, necə olursa-olsun hücuma keçmək, yenə və yenə təkrar edirəm ki, hücuma keçmək lazımdır. Bizim başqa çıxış yolumuz yoxdur.

Bolşevik qüvvələrinin Yelizavetpola doğru irəliləməsi planı Rusiyanın liderləri tərəfindən də hərtərəfli şəkildə dəstəklənirdi. Milli qoşun bölmələrinin may ayının 21-də Hacıqabula hücum etməsindən xəbər tutan Stalin S.Şaumyana göndərdiyi teleqramında bu məntəqənin nəyin bahasına olursa-olsun qorunub saxlanmasına çağırırdı. Çünki bu məntəqənin itirilməsi bolşevizmin Cənubi Qafqaza yayılması işinə ciddi bir zərbə ola bilərdi.

Bolşevik-daşnak təcavüzünün fəallaşması Azərbaycanda təkcə hərbi vəziyyətin kəskinləşməsi ilə deyil, həm də ictimai həyatda anarxiyanın, qanunsuzluqların və cinayətkarlıqların genişlənməsi ilə müşayiət olunurdu. Dərinləşən ictimai, siyasi, hərbi böhranın qarşısının alınması üçün Cənubi Qafqaz hökumətinin təsirli imkanlara malik olmaması əhalidə, ictimaiyyətdə və milli qüvvələrin fəallarında xaricin köməyindən, konkret olaraq Türkiyənin kömək və yardımlarından bəhrələnmək meylini daha da artırdı. Xüsusilə, 1918-ci ilin aprel ayında Hacıqabul ətrafındakı döyüşdə baş verən uğursuzluq milli qüvvələrdə belə bir əminlik yaratdı ki, Azərbaycanı bolşevik-daşnak zülmündən yalnız Türkiyənin hərbi yardımı xilas edə bilər .

## Hərbi yardım üçün Osmanlı Türkiyəsinə müraciət edilməsi

Erməni-bolşevik qüvvələrinin Azərbaycan xalqına qarşı təcavüzkar siyasətlərinin icrası genişləndikcə Azərbaycanın milli qüvvələri bu fəlakətlərdən necə qurtarmağın yollarını da axtarmağa başladılar. Artıq məlum idi ki, mövcud daxili imkanlarla genişlənməkdə olan bolşevik-daşnak təcavüzkarlığının qarşısını almaq mümkün deyil. Ona görə də istər Azərbaycanın milli mübarizə fəalları, istərsə də geniş xalq kütlələri öz ümidlərini daha çox Türkiyəyə bağlayırdılar. Çoxları da şübhə etmirdilər ki, əsrin əvvəllərindən vüsət alan mənəvi birliyin və yaxınlığın məntiqi nəticəsi olaraq Azərbaycan xalqı güclü düşmən qarşısında tək qalmayacaqdır və Osmanlı Türkiyəsi onun dadına yetəcəkdir.

1918-ci ilin əvvəlində Müsəlman Milli Komitəsi Gəncədə təşkil etdiyi yığıncağında Osmanlı Türkiyəsindən hərbi yardım almaq məsələsini geniş müzakirə etdi. Azərbaycanın digər məntəqələrindən də nümayəndələr iştirak edən bu yığıncaqda Nəsib bəy Yusifbəyli mövcud olan vəziyyətin bütün xalq üçün təhlükəsini toplananların nəzərinə çatdıraraq aşağıdakıları söylədi:

> Xalqın qüvvəsi ilə görülən işlər xalqın gözünün önündə cərəyan etmişdir. Bütün hərəkətimiz zəfərlə nəticələnmişdir. Ancaq bu qəhrəmanca hərəkətlər nəticəni əldə etməkdən çox uzaqdır. Bir kərə Azərbaycan mərkəzi düşməndən təmizlənməlidir. Çünki başsız bədən olmaz və yaşamaz. Bizim xalq, qüvvələrimiz bunun üçün kifayət deyildirlər. Böyük bir yardıma ehtiyac vardır və bu yardımı da bizə bircə Osmanlı imperatorluğu edə bilər. İndi qərar qəbul edib Osmanlı imperatorluğuna səlahiyyətli bir heyət göndərək, Türkiyədən yardım istəyək.

Yığıncaqda iştirak edənlər N.Yusifbəylinin dediklərinə tamamilə şərik çıxdılar və irəli sürülən təklifin həyata keçirilməsi üçün Milli Komitəyə lazımi səlahiyyət verdilər. Bu qərara uyğun olaraq Osmanlı dövləti rəhbərlərinin qəbuluna Milli Komitənin nümayəndəsinin göndərilməsi və onun vasitəsilə Azərbaycan xalqının istəyinin Türkiyə rəhbərlərinə çatdırılması lazım bilindi. Milli Komitə adından N.Yusifbəyli bu vəzifəni milli-azadlıq hərəkatının fəallarından biri olan Nağı Şeyxzamanlıya həvalə etdi. Sonradan yazdığı xatirələrində N.Şeyxzamanlı Türkiyəyə yola düşməzdən əvvəl N.Yusifbəyli ilə olan görüşünü və onun Türkiyə ilə qurulacaq əlaqələrin mahiyyətinə münasibətini belə açıqlayırdı. N.Yusifbəyli:

> Nağı, sən İstiqlal komitəsinin üzvüsən. Bütün vəziyyəti Osmanlı dövlətinə anlat, de ki, xalqımız müstəqil yaşamağa əzm etmişdir, bu yolda hər cür fədakarlıq göstərmişdir. Azərbaycanın dörddə üçü bu gün rusların hakimiyyətindən qurtarmış vəziyyətdədir. Onlar bizin ehtiyacımız olan hərbi qüvvələriylə kömək etsinlər. Ancaq bizi özlərinə ilhaq etmək istərlərsə, onda gəlməsinlər. Biz öz yağımızda qovrulub başımıza çarə taparıq.

Nağı Şeyxzamanlı ilə bərabər Gəncədən İstanbula yollanan türk zabiti Hüsaməddin Tuğac da sonradan yazdığı xatirələrində N.Yusiflinin Türkiyə yardımına münasibətdə məhz belə bir mövqedə dayandığını qeyd edirdi. Həmin qeydlərdən aydın olur ki, Nəsib bəy nəinki Azərbaycanın ilhaq edilməsinin əleyhinə idi, həm də Osmanlı idarəçiliyinin artıq dövrün tələblərinə cavab vermədiyini və buna görə də Azərbaycanın İstanbuldan idarə edilə bilməsi ehtimalı ilə heç cürə razı deyildi. Nağı Şeyxzamanlının yazdığına görə, N.Yusifbəyli bu məsələ ilə bağlı öz fikirlərini belə ifadə etmişdi:

> Azərbaycana türk ordusunun gəlməsi ola bilsin ki, lazımdır, ancaq qorxduğumuz bir şey var ki, türklər bizi İstanbuldan idarə etməyə başlamasınlar. Bizim federalizm əsasında qurulmuş proqramımız vardır, ona uyğunlaşmaq lazımdır.
>
> Nəsib bəyin bu sözləri mənə bir az qəribə gəldi, soruşdum:
>
> Siz bu federalizm prinsipini rus idarəsinə qarşı irəli sürmüş olursunuz. Türklərə gəlincə onların ruslardan bir fərqi olmayacaqmı? Bu halda federalizmə nə lüzum var?
>
> Nəsib bəy gülər üzlə mənə cavab verdi:
>
> Azərbaycanın sosial quruluşu bambaşqadır. Bakı sənaye və fəhlə mərkəzidir. Sultan rejimi buradakı əhvala uyğun gəlməz. Biz xalqın hər sinif və təbəqəsinin bərabərliyi üzərində dayanan bir hökumət qurmaq istəyirik. Halbuki, Osmanlı dövlətinin rejimi çarlıq idarəsindən heç nə ilə fərqlənmir. Əlbətdə ki, Osmanlı türkləri azəri türklərinin böyük qardaşıdır. Ancaq Bakı İstanbuldan idarə oluna bilməz, bunun üçün Müsavat partiyasının federalizm prinsipi daima Osmanlı idarəsinə qarşı qoyulmalıdır.

N.Şeyxzamanlının yazdığına görə o, 1918-ci ilin yanvarında Gəncədən hərəkət etməli oldu. Bu səfərdən kimsənin xəbəri olmasın deyə o gizli şəkildə hərəkət edirdi. Təhlükəsizlik tədbirlərinə əməl etmək məcburiyyətində qaldığı üçün onun səfəri də xeyli uzun çəkdi və ay yarımdan sonra, 1918-ci ilin martında İstanbula çatdı.

Müharibə şəraitində Azərbaycan nümayəndə heyətinin Türkiyəyə maneəsiz getməsi asan deyildi. Nümayəndə heyətinin üzvü olan türk zabiti Hüsaməddin Tuğacın yazdığına görə, onlar bitərəf sülhsevər nümayəndə heyəti kimi hərəkət etməli oldular. Zaqafqaziya Seyminin üzvü Xosrov bəy Sultanovun hazırladığı sənədlərə görə, Nağı bəy Şeyxzamanlı və Hüsaməddin Tuğac Trabzon bölgəsində türklərlə rumlar arasında

baş verən ixtilafların aradan qaldırılması üçün Azərbaycandan göndərilən vasitəçi heyətin üzvlər idilər. N.Şeyxzamanlı ilə H.Tuğac Trabzonda doğrudan da vasitəçilik məqsədilə tərəflər arasında bir neşə görüş də keçirdilər. Ancaq onlarln əsas məqsədi 3-cü Ordu komandanı Vehib paşa ilə görüşmək və Azərbaycanda və bütünlükdə Cənubi Qafqazda yaranmış vəziyyət haqqında ona məlumat vermək idi. 3-cü Qafqaz Ordusu komandanı Vehib paşa Qafqazdakı vəziyyətlə çox ciddi şəkildə maraqlandı. Eşitdiyi şifahi məlumatdan əlavə o, Hüsaməddin bəyə yazılı məlumat təqdim etməyi tapşırdı. Hüsaməddin bəy də hazırladığı yazılı raportunda oktyabr çevrilişindən sonra Qafqaz cəbhəsində olan rus qoşunlarını bürümüş böhran, Azərbaycan ərazisindən keçib gedən rus hərbi eşelonlarının tərksilah edilməsi, rusların və Tiflisdəki ingilis və fransız hərbi missiyalarının yardımı ilə erməni və gürcü korpuslarının yaradılması, Azərbaycan milli hissələrinin təchiz və təmin edilməi üçün Zaqafqaziya hökumətinin yardım göstərməməsi, Azərbaycandakı ümumi siyasi vəziyyət, Bakıda qurulan bolşevik hökuməti, habelə Bakıda törədilmiş milli qırğınlar, Gəncə Milli Komitəsinin Türkiyədən kömək istəməsi barəsindəki qərarı və s. haqqında məlumat verdi. H.Tuğac raportunun sonunda öz qənaətlərini belə bölüşdü:

1.Ordumuzun vaxt itirmədən irəli hərəkət etmək lüzumu. Bu iş nə qədər gec qalırsa ermənilərin girişdikləri qətliam o qədər geniş olacağı və ruslardan qalan hərbə lazımlı maddələrin bəlkə də hamısının məhv olması ehtimalı;

2. Bakı və Gəncədə tanıdığım önəmli kişilərin haqqımızdakı fikirləri və bizə faydalı ola bilmə dərəcəsi haqqındakı düşüncələr .

Əldə olunmuş məlumatlar Vehib paşa tərəfindən Ənvər paşaya məruzə ediləndən sonra Gəncədən gələn heyət dərhal İstanbula çağırıldı. Hüsaməddin bəy heyətdən ayrıldığı üçün Nağı Şeyxzamanlı ilə Ömər Faiq Nemanzadə Türkiyənin hökumət rəhbərliyi ilə görüşə yollandı.

Jurnalist Ömər Faiq Nemanzadənin müşayiəti ilə N. Şeyxzamanlı əvvəlcə baş nazir Tələt paşa ilə görüşdü. Həmin görüşdə baş nazir Tələt paşadan başqa hərbi nazir Ənvər paşa və ədliyyə naziri Xəlil bəy də iştirak edirdilər. Nağı Şeyxzamanlı onu İstanbula göndərmiş olan Milli Komitənin və bütünlükdə Azərbaycan xalqının arzu və istəklərini Osmanlı hökuməti rəhbərlərinə belə çatdırdı:

> Əziz paşalarım, Azərbaycan xalqı yüz ildən çoxdur ki, rus idarəsinin zülmü altında əziyyət çəkir. Qafqaz ruslar tərəfindən işğal olunarkən səkkiz xanlığın xalqı olan azərilər ki, dini bir, adət və ənənələri bir olan millətimiz türk millətidir, rus idarəsinə qarşı gecəli, gündüzlü, hər fədakarlığı gözə alaraq vuruşurdular. Bu vuruşmaların rus çarlığının devrilməsində böyük rolu olmuşdur. Qafqazda başsız qalan rus ordusu qarmaqarışıq vəziyyətindədir. Xalqımızın silahlı qüvvələrinin hücumunun təzyiqinə dözə bilmədilər. Qısa vaxt ərzində silahlarını ataraq çəkildilər. Azərbaycanın hər tərəfində xalqı idarə edə biləcək milli komitələr quruldu. Tezliklə anarxiyadan əsər-əlamət qalmadı. Ancaq bu gün üçün əlverişli olan vəziyyət sabah təhlükəlidir. İqtisadiyyatımız, cəmiyyətimiz, imanımız, mədəniyyətimiz hər sahədə rus millətindən qat-qat üstün olduğu halda azəri türklərinin gələcəyi qaranlıq görünür. Müstəqil yaşamağa əzm etmiş millətmizin böyük bir nöqsanı vardır. Xalqımızım vaxtilə hərbi təlim və tərbiyədən məhrum olunması və rus çarı Birinci Pyotrun gösrətişinə əsasən İran və Türkiyənin rus himayəsi altına düşməyincə Qafqazdan əsgər alınmaması bu çatışmazlığı yaratmışdı. Azərbaycan xalqı sizdən kömək gözləyir. Millətimiz müstəqil olmaq niyyətindədir. Siz qardaş əlini bizə uzadın, bizə yardım edin, müstəqil olaq. Siz

bizi çəkib öz tərəfinizə yıxmayın, ayaqda qalarıq. Bizə böyük hərbi qüvvə göndərməyin. Bizə hərbi təlimçilər və serjant korpusu göndərin. Bizdə qısa vaxt ərzində hərbi qüvvə yaratmağın imkanı vardır. Türk olduğumuz üçün lazım olan qüvvə qanımızda mövcuddur. Xalqımızım milli qüvvəsinə güvənərək qısa bir müddət ərzində rusları torpağımızdan təmizləyib ata bilərik.

Söhbət əsnasında məlum oldu ki, belə bir qəbuldan bir gün əvvəl Tələt paşa kabinəsindəAzərbaycana yardım edilməsi məsələsi müzakirə olunmuş və ədliyyə naziri Xəlil bəy Qafqazda bir müsəlman dövlətinin yaradılması zəruriliyini qeyd etmişdi. Ancaq lazımi yardımın göstərilməsi üçün Azərbaycana hərbi qüvvə göndərilməsi məsələsini ilk vaxtlar Tələt, Ənvər və Camal paşalardan başqa digər bir çox siyasətçilər və hərbçilər müdafiə etmirdilər. Onlar bunu müxtəlif səbəblərlə əlaqələndirirdilər. Məsələn, 3-cü Türk ordusu komandanı olan Vehib paşa da Qafqaza qoşun çıxarılması planına çox ehtiyatla yanaşırdı. 1918-ci ilin mart ayında bağlanmış Brest-Litovsk müqaviləsinə görə, Türkiyənin nəzarəti altına keçməli olan Qars, Ərdəhan və Batumun yad qoşunlardan təmizlənməsi barədə Ənvər paşanın Qafqaz və Orta Asiya müsəlmanlarını çar Rusiyası əsarətindən qurtarmaq planlarına çox ehtiyatla yanaşırdı. Vehib paşanın fikrincə, vaxtilə bu əraziləri böyük qanlar hesabına ələ keçirmiş olan Rusiya asanlıqla buradakı hakimiyyətindən əl çəkməyəcəkdir. Rusiyanın zəifləməsi heç də onun bu ərazilərdən üz döndərməsi demək deyildi. Ona görə də bu bölgələr üzərində Rusiya ilə Türkiyə arasında irimiqyaslı əməliyyatlar başlana bilərdi. Bu əməliyyatlar yerli əhalinin məhvinə, şəhər və kəndlərin viran qalmasına səbəb ola bilərdi. Nəticədə, yardım gözləyən əhali əzab və işgəncələrlə üzbəüz qalardı. Digər tərəfdən Qafqazın müsəlman əhalisinin yaşadığı yerlər bolşevik-daşnak qoşunlarından təmizlənsə belə həmin ərazilərdə sabitliyin qorunması üçün böyük sayda qoşun hissələri lazım idi ki, buna da Türkiyənin imkanı çatmaya bilərdi. Vehib paşaya görə, Qafqaza göndəriləcək qoşunların təminat və təchizatında da çətinlik yaranacaqdı. Ordunun yerli əhali tərəfindən lazımi səviyyədə iaşə ilə təmin ediləcəyinə də Vehib paşa inanmırdı. Ona görə də Qafqaza qoşun çıxarılmasını o, nəhayətdə Osmanlı dövlətinin mövcudluğuna bir təhlükə yarada biləcəyi kimi qiymətləndirirdi.
Ancaq Ənvər paşa heç də bu fikirdə deyildi. O, Batumu Qafqaza açılan bir qapı kimi görürdü. Bu liman şəhəri hərbi strateji baxımdan da əhəmiyyətli olub Türkiyə ilə Qafqaz arasında möhkəm nəqliyyat əlaqəsinin yaradılması üçün bir bazaya çevrilə bilərdi. Lakin 1918-ci il martın 14-də Trabzonda Cənubi Qafqaz Seyminin nümayəndələri ilə Osmanlı Türkiyəsi arasında başlanan sülh danışıqlarında erməni və gürcü tərəfi Qars, Ərdəhan və Batumu boşaltmağa razı olmadıqda Ənvər paşa bu məsələni hərbi yolla həll etmək üçün 3-cü Ordu komandanı Vehib paşaya qəti əmr verdi. Türk qoşunları qısa müddət ərzində adları çəkilən məntəqələri öz nəzarəti altına aldı. Trabzona yollanan nümayəndə heyətinin tərkibində M.Ə.Rəsulzadə, X.Xasməmmədov, M.Hacınski, Ə.Şeyxülislamov və digərləri də var idi. Onlardan başqa Trabzona həm Azərbaycandan, həm də Dağıstandan qeyri-rəsmi nümayəndələr gəlmişdilər. Konfransın başlaması ərəfəsində Türkiyəni təmsil edən nümayəndə heyətinin üzvü, Dəniz qoşunları ərkani-hərbiyyə rəisi, albay Hüseym Rauf Orbay həm Azərbaycandan, həm də Dağıstandan gəlmiş şəxslərlə görüşdü və onlardan bölgədəki vəziyyət barədə geniş məlumat aldı. Müxtəlif siyasi mövqelərdə dayanan həmin şəxslərin hamısı bir fikirdə yekdil idilər ki, azərbaycanlıların və Dağıstan müsəlmanlarının başı üzərini kəsdirmiş olan təhlükənin qarşısını Türkiyənin yardımı

olmadan almaq mümkün deyildir. Həmin görüşlər zamanı o da vurğulandı ki, ermənilərlə ingilislər, gürcülərlə almanlar arasında gizli əlaqələr gücləndikcə azərbaycanlılar bölgədə təklənirlər. Təklənən azərbaycanlılar isə Türkiyəni özünə təbii müttəfiq sayırlar və ondan kömək gözləyirdilər. Bu görüşlər zamanı belə bir məqam da vurğulandı ki, türk qoşunlarının Qafqaza gəlməsi Qafqaz müsəlmanları arasında mövcud olan ixtilaflara da son qoyacaq və onlar ümumi düşmənə qarşı bir cəbhədə birləşəcəklər. Trabzon konfransının başlamasından az sonra, yəni 1918-ci il mart ayının sonlarında Bakıda bolşevik-daşnak qoşunları azərbaycanlıların kütləvi qırğınlarına rəvac verdilər. Milli qüvvələrin məhvinə istiqamətlənmiş olan bu qırğınlar sürətlə ətraf yaşayış məntəqələrini də bürüdü. Güclü müqavimətlə rastlaşmayan bolşevik-daşnak qoşunları Qubada, Şamaxıda, cənub bölgəsində neçə minlərlə azərbaycanlını qətlə yetirdilər və yaşayış məntəqələrini viran etdilər. Belə kütləvi qırğınlar ermənilər tərəfindən İrəvanda, Qarsda və digər yerlərdə də törədildi. Din, dil və etnik birliyə malik olan azərbaycanlılara belə divan tuutlması Türkiyənin rəhbərliyi tərəfindən bölgəyə yardım göndərilməsini daha da sürətləndirdi. Çox güman ki, elə bur qırğınlardan sonra Qafqaza türk qoşunlarının yeridilməsinə ehtiyatla yanaşan Vehib paşa da Azərbaycana hərbi yardım göstərilməsinin zəruriliyinə tərəfdar çıxdı. Aprel ayında o bildirirdi:

> Mən belə hesab edirəm ki, Bakını tutmaq və müsəlmanları xilas etmək üçün türk ordusunun göndərilməsi zəruridir

Türkiyənin Azərbaycana hərbi yardım göndərmək əzminin reallaşması İngiltərəni və Birinci dünya müharibəsində Türkiyənin müttəfiqi olmuş Almaniyanı ciddi narahat edirdi və Bakı neftinə susayan bu dövlətlərin hər ikisi türk qoşunlarının Qafqaza doğru irəliləməsinin qarşısını almağa çalışırdılar. Bir tərəfdən ingilis komandanlığı cənub cəbhəsindən Bakıya qoşun bölmələri yeritməyə və bununla da Bakını əldə saxlamağa çalışırdılar. Digər tərəfdən isə Almaniya rəhbərliyi isə Türkiyənin Qafqaz planlarının həyata keçməsi ərəfəsində, yəni 1918-ci ilun aprelində Ukraynanı işğal edərək Qara dənizin şimal sərhədlərini nəzarət altında saxlamaq istəyirdilər. Bu məqsədlə aprel ayının 20-də Xarkov şəhəri, az sonra isə Sevastopol və Rostov şəhərləri nəzarət altına alındı.

Məqsədlərinə çatmaq üçün almanlar bölgədəki diplomatik fəaliyyətlərini də xeyli gücləndirdilər. Bu istiqamətdə onların Gürcüstanla əlaqələri qabarıq xarakter aldı. Hələ Batumi sülh konfransı açılmamışdan əvvəl gürcülər öz nümayəndələrini Berlinə göndərərək almanların köməyinə möhtac olduqlarını bildirdilər. Əslində, belə bir əməkdaşlığın baş tutmasına almanlar daha çox cəhd göstərirdilər. Gürcüstan ərazisində möhkəmlənmək və buradan keçən nəqliyyat qovşaqlarına nəzarət etməklə almanlar həm türklərin Azərbaycana doğru hərəkətinin qarşısını almaq, həm də Bakıya doğru irəliləmək üçün yaxşı imkan əldə etmək istəyirdilər. Alman rəhbərliyi gürcü tərəfinə anlatmışdı ki, qarşılıqlı əməkdaşlığın güclənəcəyi təqdirdə onlar Batumun türklərdən geri alınmasına və bu şəhərin yenidən Gürcüstana verilməsinə kömək edəcəklər. Batumun yenidən nəzarət altına alınması üçün bu yolun daha doğru yol olduğuna inanan gürcü tərəfi də almanlarla əlaqələrin güclənməsinə çalışırdılar.

Gürcüstanda Türkiyənin mövqelərinin daha da zəiflədilməsi üçün gürcü-alman cəbhəsinin formalaşdırılması üçün alman polkovniki Kress fon Kressenşteyn xüsusilə canfəşanlıq göstərirdi. Bir vaxtlar türkiyə qoşunları ilə bir cəbhədə vuruşan bu polkovnik Şərq cəbhələrində düçar olduğu uğursuzluqdan sonra oradan uzaqlaşdı və Tiflisə gələrək burada türklərə qarşı yeni bir cəbhə yaratmaqla məşğul oldu.

K.Kressenşteynin məqsədi o idi ki, edilən diplomatik cəhdləri bir nəticə verməsə hərbi yolla türklərin azərbaycanlı qardaşlarına göstərəcəyi yardımların qarşısını alsın. Amma bunun üçün almanların Gürcüstanda kifayət qədər hərbi qüvvəsi yox idi. K.Kressenşteyn Gürcüstanda və o cümlədən də Azərbaycanda, Gəncə ətrafında yaşayan alman əhalisindən, habelə buralarda mövcud olan alman əsirlərdən hərbi bölmələr yaratmaq istəyirdi. O, gürcü qoşun bölmələrini də alman zabitlərinin komandanlığı altına almaq istəyirdi və belə güman edirdi ki, gürcü və alman hərbi bölmələrinin alman komandanlığı altında birləşdirilməsi türkləri qorxudar və onların Qafqaz siyasətindəki fəallıqlarının qarşısını ala bilər.

Almanlar azərbaycanlılara göstəriləcək yardımların qarşısını almaq üçün hər cürə vasitələrə əl atırdılar. Onlar iddia edirdilər ki, azərbaycanlılar türk deyil, tatardırlar. Yəni, onların türklərə etnik bağlılığı elə də möhkəm deyil və buna görə də türklərin azərbaycanlılara hərbi yardım göstərmək üçün heç bir mənəvi haqqları yoxdur.

1918-ci il may ayının 11-də Batumda açılan sülh konfransında bir alman nümayəndə heyəti də iştirak edirdi. Almaniyanın Türkiyədəki hərbi attaşesi general Otto fon Lossovun başçılıq etdiyi bu nümayəndə heyətinin məqsədi türklərin Qafqazda artan nüfuzunun qarşısını almaq idi. Ancaq onların səyləri bir nəticə vermədi. Alman heyətinin Cənubi Qafqaz Seyminin nümayəndəliyi ilə Osmanlı dövləti arasında vasitəçilik etmək təklifi Azərbaycan və Osmanlı heyətləri tərəfindən rədd edildi. Belə olduqda alman nümayəndələri Batumu tərk etmək məcburiyyətində qaldılar.

Alman nümayəndə heyətinin üzvləri yaxşıca anlayırdılar ki, Türkiyənin Qafqaza doğru irəliləməsi təkcə Türkiyənin arzu və istəyi deyildi. Bunu Qafqazın müsəlman əhalisi də böyük bir intizarla gözləyirdi. Çünki bölgədə hərbi-siyasi şərait günü-gündən kəskinləşir və müsəlman əhalinin təpədən dırnağadək silahlanmış bolşeviklərin və daşnakların qarşısını almaq üçün heç bir imkanı yox idi. Kütləvi qırğınlar kütləvi anarxiya ilə müşayiət olunurdu. Hələ Batum konfransının açılması ərəfəsində keçirilən yığıncaqların birində N.Yusifbəyli mövcud şəraiti belə qiymətləndirirdi:

> Biz ölkənin daxili və xarici vəziyyətini dərindən öyrənib öz nümayəndələrimizə direktivlər verməliyik. Alınan yeni məlumatlar Cənubi Qafqazın hər yerində dəhşətli anarxiyanın hökm sürdüyünü göstərir. Kənd, kənd üstünə gedir, vətəndaş müharibəsinin dəhşətli dövrü başlanır, hər gün adamlar soyulur və öldürülür. Günün günorta çağı Gəncədə heç nədən çəkinmədən qudurmuş soyğunçular müsəlman qadının çadrasını cırır və qiymətli zinət şeylərini soyurlar. İndi təkcə Azərbaycan türklərini deyil, bütün Cənubi Qafqazı bürüyən anarxiyanı öz qüvvəmizlə dəf edə bilmərik.

Belə bir anarxiyaya və cinayətkarlıqlara son qoyulmasının etibarlı yolunu da xalq kütlələri türk qoşun hissələrinin Azərbaycana dəvət olunmasnda görürdülər. Buna görə də may ayının 13-də Gəncə quberniyasının qəzalarından toplanıb gəlmiş xalq nümayəndələrinin və Cənubi Qafqaz Seyminin Azərbaycan fraksiyasının birgə iclası keçirildi. Burada mövcud vəziyyətdən çıxış yolları müzakirə edildi. Xalq nümayəndələri Batuma yollanıb orada vəziyyətin mürəkkəbləşdiyini türk nümayəndə heyətinə çatdırılmasını təkid edirdilərsə də Seymin üzvləri buna ehtiyac görmür və vəziyyətin azərbaycanlı heyət üzvləri tərəfindən türk nümayəndələrinə çatdırılacağı bidirilirdi. Bununla belə, xalq nümayəndələrinin təkidli tələblərindən sonra qərar alındı ki, M.Y.Cəfərov, N.Yusifbəyli və X.Xasməmmədov Batuma və İstanbula ezam olunsunlar və onlar türk qoşun hissələrinin Azərbaycana gəlməsini sürətləndirsinlər. Ancaq xalqın

daha geniş kütlələrinin bu ümidlərinin daha çox Türkiyə ilə bağlamaları alman nümayəndələri tərəfindən müəyyən narahatçılıqla qarşılanırdı və bunun nəticəsi idi ki, fon Lossov təəsüüflə qeyd edirdi:

> Batumun və Qarsın alınmasından sonra savadsız müsəlman kütləlləri içərisində Türkiyənin nüfuzu gündən-günə yüksəlirdi.

Seymin azərbaycanlı fraksiyasının üzvləri ilə Gəncə quberniyasından olan xalq nümayəndələri arasındakı görüş zamanı kütləvi şəkildə Batuma yollanmağın lüzumsuzluğu razılaşdırılsa da Azərbaycanın müxtəlif ictimai-siyasi qüvvələrinin, quruumların, ayrı-ayrı zümrələrin və yaşayış məntəqələrinin nümayəndələri Batuma yollandılar. Onlar türk nümayəndə heyəti ilə görüşməyə və Türkiyənin Azərbaycana hərbi yardımının sürətləndirilməsi barədə öz mövqelərini onlara çatdırmağa çalışdılar. Konfrans günlərində azərbaycanlıların Batuma gəlməsi və burada onların keçirdikləri yaşantıları hadisələrin şahidlərindən biri belə təsvir edirdi:

> Yarım ay ərzində Batumun həyatında xeyli dəyişikliklər olmuş, küçələrdə adamlar çoxalmış, otellər osmanlı rəsmi işçiləri və Qafqaz nümayəndərləi ilə dolu. Küçələrdə, bulvarda, parkda, teatrda Qafqazın ən uzaq nöqtələrindən gələn osmanlılarla birləşmək istəyən nümayəndələrə təsadüf edilir. Bu nümayəndələr bulvarın kazinosunda masaların arxasında sərt və atəşli sözlərlə bir-birinə xitab edirlər. Onlar osmanlılarla müzakirələrdə iştirak etmək üçün Batuma gələn gəncəli, bakılı, tiflisli, qarabağlı müsəlmanlardır. Hamısının da simasında əzab və narahatlıq əlamətləri görünür. Hamısının da illərdən bəri öz pəncəsi altında əzən dövrün müvəqqəti böhranından istifadə etmək, onun yırtıcı dişlərinə qarşı ən mətin zirehlərlə təchiz olunmuş görüşmək arzusu var. Məqsədləri “Qafqazın istiqlalı” deyil, osmanlılarla qəti surətdə birləşmək, ilhaq... Papaq qoymaqla dini hisslərinin yox olmayacağına inanan bu zümrə millət məhəbbətinin hər cür əlaqədən, hər cür qüvvədən üstün tutur. Batum-Qafqaz sülh müzakirələrinin mərkəzi. Gah Gəncədən Şeyxülislam gəlir, gah əhali nümayəndələri Tiflisə göndərilir. Müzakirələr, nitqlər, teleqraflar bir-birinin ardınca gəlir. Qafqaz rusların hakimiyyətindən qurtarmaq arzusunu bütün fəaliyyəti ilə göstərir. Onların nəzərində ruslar ana vətəni işğal edən qiyamçılara bənzəyirlər. İndi bütün ümidlər türklərə yönəlibdir

Göründüyü kimi, Batuma toplaşan azərbaycanlılarda Türkiyəyə ilhaq meyli güclü idi. Onların Batumda sayı o qədər idi ki, milli mücadilə liderlərinin buradakı fəaliyyətinin səmərəliliyinə də mənfi təsir göstərirdi. Buna görə də Nəsib bəy Yusifbəyli Batumda bildirirdi ki, anarxiya vaxtı xalqdan şəkmədiyim əzabı burada ilhaqçılardan çəkirəm.
Osmanlı dövlətinin rəhbərləri ilə görüşdən sonra geri qayıdarkən Batumda olan Nağı bəy Şeyxzamanlı da ilhaqçılıq tərəfdarlarının sayının çox olduğunu və onları öz fikirlərindən çəkindirməyin az qala qeyri-mümkün olduğunu yazırdı:

> İlhaqçılar ilə mübarizə etmək mənə çox çətin olmuşdu. Ruslar ilə mücadiləmizdə bu qədər əziyyət çəkməmişdim... Onların arasında vəkil, həkim, şeyxülislam, tacir, əsnaf, mülk sahibləri, ziyalı müəllimlər, rəsmi xadimlər var idi.

İlhaqçıların Türkiyə tərəfinə göstərə biləcək təsirləri aradan qaldırmaq üçün N.Şeyxzamanlı Batum konfransındakı Türkiyə nümayəndə heyətinin rəhbəri, ədliyyə və xariciyyə naziri Xəlil bəylə görüşmək qərarına gəldi. O istəyirdi ki, Xəlil bəyi inandırsın ki, Azərbaycana göndərilə biləcək hərbi yardımın əsas məqsədi Azərbaycanı Türkiyəyə ilhaq etmək deyil, Azərbaycanın müstəqilliyinin qazanılmasına və onun qorunub saxlanmasına kömək etmək olmalıdır. Xəlil bəy baş tutan görüş zamanı

N.Şeyxzamanlının söylədiklərini lazımınca başa düşdüyünü qeyd etdi və onun xahişi ilə ilhaqçılıq tərəfdarlarının bir qrupunu qəbul etməyə, Azərbaycanın müstəqil qalmasının əhəmiyyətini onlara da anlatmağa söz verdi. Ertəsi gün Xəlil bəy, N.Şeyxzamanlının müşayiəti ilə ilhaqçıların nümayəndələrindən 10 nəfəri qəbul etdi və onlarla söhbət etdi. N.Şeyxzamanlı öz xatirələrində həmin görüşü və bu görüş zamanı Xəlil bəyin söylədiklərini belə xatırlayırdı:

> Ertəsi gün saat onda on nəfərdən ibarət heyəti Xəlil bəyin yanına gətirdim. Xəlil bəy bizi qəbul edir. Mən onları bir-bir Xəlil bəyə təqdim edirəm. Xoş-beşdən sonra onlar gətirdikləri kağızları – hərəsində minlərcə imza vardı – Xəlil bəyə göstərirlər. Və hamısı bilrikdə deyirlər: “Möhtərəm bəyimiz, xalqımız istiqlal istəmir, biz də istəmirik. Osmanlı dövlətinin bir hissəsi olmaq istəyirik”. Xəlil bəy gözəl danışmağı ilə onları inandıra bildi. Onlara son söz olaraq dedi: “Biz süngümüz ilə Qafqaza daxil olduq. Siz bizə ilhaq olmaq istəməsəydinizsə də biz sizi süngü ilə ilhaq edərdik. Ancaq buna imkan yoxdur. Bizim birləşməyimizi nə düşmən, nə də dost dövlətlər qəbul edər. Biz sizə yardım edirik və edəcəyik. İsitqlalı əldə edib müstəqil yaşamanız üçün nə qədər lazım olsa əsgər göndərəcəyik, hər tərəfli kömək edəcəyik. Öz vətənimiz kimi sizin vətəninizi də qoruyacağıq. Evlərinizə qayıdın və qurulacaq istiqlaliyyəti müdafiə edin.

Batum konfransının gedişində Cənubi Qafqaz Seyminin azərbaycanlı üzvləri Bakı Soveti tərəfindən idarə olunan bolşevik-daşnak qoşunlarının Gəncəyə doğru irəliləməsinin qarşısının almaq üçün türk qoşunlarının Cənubi Qafqaza gəlməsinə razılıq verilməsi məsələsini qaldırdılar. Eyni zamanda may ayının 14-də Xəlil bəy də Bakıya doğru hərəkət edən ingilis qoşunlarının qarşısının alınması üçün türk qoşunlarının Cənubi Qafqaz daxilində hərəkətinə razılıq verilməsini tələb etdi. Ancaq müzakirələr çox ağır keçdiyindən irəli sürülən bu tələblər barədə qəti fikir aydınlığı yaranmadı.

Batum konfransında bölgədə möhkəm sülhün yaradılması üçün irəli sürülən tələblər gürcülər, ermənilər və onların arxasında dayanan qüvvələr tərəfindən qəbul edilmədi. Həmin təkliflərin qəbul edilməsinə nail olmaq üçün konfransın açılışından bir neçə gün sonra Türkiyə qoşun hissələrinə Cənubi Qafqazın içərilərinə doğru irəliləmək əmri verildi. Vehib paşanın komandan olduğu 3-cü Ordunun hissələri may ayının 15-də Gümrünü tutdu. Ordunun 1-ci Qafqaz korpusu Gümrü-Culfa, 5-ci Qafqaz firqəsi isə Gümrü-Tiflis dəmir yolunu nəzarət altına aldı. İstər Gümrünün tutulması, istərsə də adları çəkilən dəmir yolu xətlərinin nəzarət altına alınması türk qoşunlarının Azərbaycana doğru irəliləməsi yolunda ilk əməli addım idi. Ənvər paşa bununla da kifayətlənmirdi. Qoşunların Azərbaycana atılması üçün o, türk qoşunlarının şərq istiqamətində imkan daxilində daha irəli getməsinə və mümkün strateji məntəqələrin ələ keçirilməsinə çalışırdı. Bu baxımdan Ənvər paşa Qarakilsənin tutulmasına xüsusi əhəmiyyət verirdi. Çünki bu məntəqə Tiflis və İrəvana gedən yolların qovşağında yerləşirdi və oranın tutulması türk qoşunlarının bölgədəki hərəkət manevrliliyinə daha geniş imkan yaradırdı. May ayının 20-də 1-ci və 2-ci Qafqaz korpusları Qarakilsə istiqamətində hərəkətə başladılar. May ayının 21-də artıq Sərdarabad nəzarət altına alınmışdı. May ayının 20-də 1-ci və 2-ci Qafqaz korpusları Qarakilsə istiqamətində hərəkətə başladılar. May ayının 21-də artıq Sərdərabad nəzarət altına alınmışdı. May ayının 28-də isə Qarakilsə tutuldu. Türk qoşunlarının belə uğurla Qafqaz hüdudlarındakı fəaliyyəti dərhal həm Rusiya, həm də Almaniyanın ciddi narahatçılığına səbəb oldu. Bölgədə gedən proseslərə müdaxilə etmək üçün kifayət qədər hərbi gücü olmayan

Rusiyanın xarici işlər naziri Çiçerin 1918-ci il may ayının 28-də Türkiyənin Moskvadakı səfirinə 1877 nömrəli notanı təqdim etdi. Həmin notada bildirilrdi ki, Sovet Rusiyası özündə iradə taparaq Qars, Ərdəhan və Batum kimi önəmi böyük olan əraziləri Brest-Litovsk müqaviləsinə görə Türkiyəyə vermişdir. Lakin osmanlı imperatorluğunun qoşunlarının bu ərazilərin hüdudlarını aşmasını Rusiya tərəfi Brest-Litovsk müqaviləsinin pozulması kimi qiymətləndirir və türk qoşunlarının Bakı istiqamətində hərəkətinin qarşısı alınmasını, tutulmuş olan Gümrüdən və digər məntəqələrdən geri çəkilməsini tələb edirdi.

Belə bir şəraitdə Bakıda hakimiyyəti ələ keçirmiş olan Bakı Xalq Komissarları Soveti Rusiyanın bölgədəki mənafelərinin qorunmasına xidmət edən başlıca qüvvə idi. May ayının sonlarında Bakı Sovetinin ixtiyarında olan bolşevik-daşnak qoşunlarının hərəkətə gətirilməsi və qərb istiqamətində qətiyyətli döyüşlərə hazırlaşdırılması da ilk növbədə Türkiyənin Azərbaycanla bağlı fəallığının qarşısını almağa və Azərbaycanın bütün ərazilərini sovet hakimiyyətinin nəzarıti altına almağa və Bakı üzərindəki mövqelərini daha da möhkəmləndirməyə xidmət edirdi. Bakı Soveti qoşunlarının fəallaşması isə Azərbaycan daxilində qırğınların, faciə və anarxiyanın daha geniş miqyas alması demək idi. Hamının gözü qarşısında genişlənən bu fəlakət və anarxiyanın sovuşdurulması üçün isə daxildə təsirli bir qüvvə yox idi. Mart qırğınlarından sonra Azərbaycanda inkişaf etməkdə olan anarxiya və özbaşınalıqlar bir neçə dəfə Cənubi Qafqaz Seymində qaldırılsa da onların qarşısının alınması üçün təsirli və əməli bir qərar qəbul edilmədi. Yəni, bu orqanın özünün də qeyri-işləkliyi artıq göz qabağında idi. M.Ə.Rəsulzadə yaranmış bu vəziyyəti belə şərh edirdi:

> Bittəb, Bakı Tiflisin müavinətini bəkliyordu. Yalnız Bakının deyil, bütün Azərbaycan azərbaycanlıların iştirakı ilə təşəkkül edən Seym məclisi ilə Mavərayi-Qafqaz hökumətinin bu müavinətinə intizar ediyordu. Fəqət, heyhat. Azərbaycan Seym əzasının yüksək səda ilə bağırıb-çağırması Tiflis hökumətinin həqiqi sahibləri olan gürcü menşeviklərinə lüzumunca təsir etmədi. Gürcüstan daxilindəki bolşevizmi min şiddət və qəhrlərlə basdıran bu əfəndilər Bakıya qarşı quru elani-hərb belə etmək istəmədilər. Gəncə Milli Müsəlman Komitəsinin təşkil etdiyi ixlas ordusuna milyonlarla fişəng, onlarla mitralyoz və bir kaç top vəd edilsə də, bu vədlər həqqilə tutulmadı... Təhlükə artıq Gəncəyə gəlmişdi. Bir tərəfdən Gəncə təhti-təhdiddə ikən, digər tərəfdən də Qarabağ erməniləri Bakı bolşevikləri ilə birləşmək üzrə bir plan təsdiq ediyorlardı. Azərbaycanın atəş və qılıncdan keçirilməsi planı... Böylə bir təhlükə qarşısında milləti müdafiə edəcək yalnız bir Gəncə qalmışdı. Gəncə öhdəsinə düşən bu ağır vəzifəni tək başına davam etdirəmməzdi. Müdafiə günləri uzandıqca rişteyi-ümur əldən çıxıyor, bolşevik əlinə keçməyən yerlərdə dəxi şiddətli bir itaətsizlik və anarşı zühur ediyordu.

Azərbaycanın əfkari-ümumiyyəsinin fikrini ifadə edərək M.Ə.Rəsulzadə milləti bu müşgül vəziyyətdən qurtarmağın yeganə yolunu tezliklə Türkiyənin yardımını əldə etməkdə görürdü. Eyni zamanda M.Ə.Rəsulzadə bu yardımın əldə edilməsinin heç də asan olmayacağını bildirirdi. Azərbaycan Türkiyəyə ümid yeri kimi baxırdısa, Cənubi Qafqaz Komissarlığına daxil olan Gürcüstan və Ermənistan heç də Türkiyə ilə əməkdaşlığa hazır deyildilər. Əksinə, bu dövlətlər gizlicə Türkiyəyə qarşı ittifaqlar təşkil etməkdə idilər.

Azərbaycandakı vəziyyətin nizama salınması üçün lazımi tədbirlər görülmədiyi və

şəraitin günü-gündən mürəkkəbləşdiyi üçün Türkiyənin Batum konfransındakı nümayəndə heyətinin rəhbəri Xəlil bəyin 1918-ci il may ayının 26-da Qafqaz seymi nümayəndə heyətinin başçısına göndərdiyi memorandumda bildirilirdi:

> Zati alilərinə məlum olduğu kimi Qafqazın vəziyyəti şox kritik və mübhəmdir və bilaxirə həllə möhtacdır. Bakı və ətrafında yüz minlərcə türk və müsəlmanlar özlərinə inqilabçı deyən vicdansız haydutların qanlı pəncələrində inləyir və bu zavallıları təhdid edən, təmiri qeyri-qabil fəlakət gündən-günə yaxınlaşmaqdadır. Saysız mütəşəkkil quldur dəstələrin hücumları vaqe olan Qafqazın digər hissələrindəki türk və müsəlman əhalinin də vəziyyəti təsəllibəxş deyildir. Rəis həzrətləri, qəbul edərsiniz ki, bu adı daşımağa layiq olan heç bir hökumət həmsərhəd olduğu bir ərazidə belə cinayətlərin cəzasız olaraq artmasına təhəmmül edə bilməz. Və yenə qəbul edərsiniz ki, Qafqazı məhv edən anarxiyaya görə Dövləti-Aliyeyi-Osmaniyyənin vəziyyəti çox nazikdir. Çünki bu anarxiya Dövləti-Aliyeyi-Osmaniyyə əhalisiylə eyni irq və dinə mənsub olan bir əhalinin əmniyyətinə də əlaqəsi vardır. Digər tərəfdən hərbi-ümumun icabatı olaraq Dövləti-Aliyyə öz ordusunu digər cəbhələrə Qafqaz yolu ilə göndərmək məcburiyyəti qarşısındadır. Bu da indiki qeyri-müəyyən vəziyyətə son verilməsini tələb edir.

Hərbi-siyasi şəraitin kəskinləşərək böhranlı vəziyyətə çatdığı, Türkiyənin yardımı olmadan belə bir vəziyyətdən çıxmağın mümkün olmadığı bütün xalqa da aydın idi. Qardaş Türkiyənin köməyinə yeganə ümid yeri kimi baxılırdı. Lakin Azərbaycanın milli hərəkatının fəalları təkid edirdilər ki, Türkiyənin köməyinə böyük ehtiyac olmasına baxmayaraq bu kömək Azərbaycanın müstəqilliyinin qorunmasına xidmət etməlidir. N.Yusifbəyli bu məsələ ilə bağlı deyirdi:

> Yalnız Azərbaycanı deyil, bütün Cənubi Qafqazı istila edən böyük dəhşətli anarxiyanı biz öz qüvvəmizlə sakitləşdirə bilmərik. Şərq tərəfdən bolşeviklərin bizim əsrlik düşmənimizlə birləşərək hücum etməsi vəziyyəti daha ağırlaşdıraraq türk millətinə çox böyük müsibət və fəlakət gətirir. Vəziyyət belə ikən, bizə xarici bir qüvvənin müdaxiləsin istəməkdən başqa bir çarə qalmayır. İstiqlalımızın qızğın tərəfdarı olmaqla bərabər, mən bu məsələ haqqında birinci olaraq məsləhətləşmək məcburiyyətindəyəm. Fəlakətin üzünə cəsarətlə baxaraq biz sevinməliyik ki, xoş bir tale əsiri olaraq müdaxilə edəcək xarici qüvvə bizimlə dost və qardaş olan Türkiyədir. Bəlkə, bu bizim qonşularımızın çox xoşuna gəlməyəcəkdir. Lakin başqa çarəmiz yoxdur. Müdhiş anarxiya qarşısında onlar da bizim kimi gücsüzdürlər... Kimin xatirinə isə xəstə yatağında yata bilmərik. Bizim heyətin Batuma gedərək Şərqi Zaqafqaziya türkləri adından Osmanlı dövlətindən yardım istəməsinin zamanı gəlmişdir... Bununla birlikdə Azərbaycanın istiqlal üsuli-idarəsini də heç vaxt unutmamalıyıq.

Nəsib bəy Yusifbəyli Osmanlı dövlətinə Azərbaycan türkləri adından müraciət edirdisə, 1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyi elan edildikdən sonra Türkiyəyə Azərbaycan dövləti adından müraciət etmək imkanı yarandı. Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün ortaya çıxan bu tarixi imkandan dərhal istifadə edildi. 1918-ci il iyunun 4-də Türkiyənin Batumda olan nümayəndə heyəti ilə burada sülh danışıqlarında iştirak edən Cənubi Qafqaz Seyminin azərbaycanlı üzvləri arasında "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq müqaviləsi" imzalandı. Müqaviləni Osmanlı dövləti adından ədliyyə naziri Xəlil Menteşe, 3-cü Ordu komandanı Məhəmməd Vehib paşa, Azərbaycan Xalq

Cümhuriyyəti adından isə Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacınski imzaladılar. Osmanlı dövləti ilə müstəqilliyini yenicə elan etmiş Azərbaycan Cümhuriyyəti hökuməti arasında siyasi hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etmək üçün qarşılıqlı surətdə razılığa gələrək bir sıra mühüm və tarixi vəzifələrin icrasını öz üzərinə götürdülər. Başlıcası isə iki dövlət Azərbaycanda intizarla gözlənilən kömək və yardımların göstərilməsi üçün müstəqil surətdə və qarşılıqlı şəkildə, kimsənin müdaxiləsi olmadan qərar qəbul edilməsi imkanından bəhrələndilər. Bununla da ikitərəfli əlaqələrin, o cümlədən hərbi əməkdaşlığın hüquqi bazası yaradıldı. Müqavilənin birinci maddəsində Osmanlı dövləti ilə Azərbaycan arasında daimi qardaşlıq və dostluq münasibətlərinin zəruriliyi təsdiqlənirdi. Müqavilənin ikinci maddəsində Osmanlı dövləti ilə Azərbaycan, Ermənistan və Gürcüstan arasındakı sərhəd xəttinin dəqiqləşdirilməsinin vacibliyi vurğulanırdı.

Konkret tarixi şəraitdə Azərbaycan xalqı üçün xüsusi əhəmiyyət kəsb edən məsələ ölkənin təhlükəsizliyinin təmin edilməsi üçün lazım olanda Osmanlı dövləti tərəfindən hərbi kömək göstərilməsinin mümkünlüyü məsələsi idi və bu məqam müqavilənin 4-cü maddəsində təsbit olunmuşdu. Azərbaycanla Türkiyənin hərbi əməkdaşlığı da məhz bu maddə üzərində bərqərar edilə bilərdi. Sonrakı maddəyə əsasən isə Azərbaycan Cümhuriyyəti sərhədləri daxilində mövcud olan quldur dəstələrinin tərksilah edilməsini öz üzərinə götürürdü.

İki dövlət arasındakı 4 iyun 1918-ci il tarixli müqavilə və bu müqaviləyə əlavə olaraq sonradan bağlanmış sazişlərlə Osmanlı dövləti arasında sülh və dostluq müqaviləsi imzalayan Azərbaycan təmsilçiləri dərhal gözlənilən hərbi yardımın alınması üçün rəsmi olaraq Türkiyə tərəfinə müraciət etdilər. M.Ə.Rəsulzadə Milli Şura adından, M.H.Hacınski isə Azərbaycan hökuməti adından Osmanlı dövlətinin təmsilçiləri ilə danışıqlar apardılar. M.Ə.Rəsulzadə yazırdı:

> Azərbaycanln nə kimi müşkülata məruz qaldığı və bu təhlükəli mükülatdan çıxa bilmək üçün Türkiyənin müavinətinə möhtac olduğunu Azərbaycan müməssilləri Trabzon ilə Batumda türklərlə vaqe olan təmasları əsasında gərək şifahən və gərək təhrirən anlatmışlardı. Bu kərə Azərbaycan Milli Şurası namına biz və Xariciyyə nəzarəti namına Məmməd Həsən bəy salifüzzikr müqavilənin 4-cü maddəsinə istinadən Türkiyə hökumətinə müraciətlə qəvayi-imdadiyyə istədik.

Azərbaycan hölumәti adından xarici işlər naziri M.H.Hacınskinin Türkiyə nümayəndə heyətinə göndərdiyi müraciətində deyilirdi ki, hökuməti-mətbuamdan aldığım əvamiri-sərihə üzərinə aşağıdakı istidamın surəti-mümkünə ilə hökuməti-Səniyyəyə bildirilməsini rica edirəm. Rusiyadakı inqilabın nəticəsi olaraq Azərbaycanda mürəkkəb bir vəziyyət yaranıb. Bolşeviklər Bakını və Bakı vilayətini tutub, əhalini qırır, Azərbaycan hökumətini tanımır. Bakıdan başqa Şamaxı, Quba və Lənkəran kimi ərazilərdə də qırğınlar törədilmişdir. Şimalda güclənməkdə olan müttəfiqləri, habelə İrandakı ingilislərdən yardımlar almaqda olan bu qüvvənin qarşısını yeni yaranmış Cümhuriyyət ala bilməz.

Müraciətdə bildirilirdi ki, Bakının bolşevik işğalından qurtulması Azərbaycan hökumətinin ilk vəzifəsini təşkil edir. Bu məsələ yaxın zamanlarda həll edilməzsə Cümhuriyyətin mövcudiyyəti təhlükə altında olacaq, əhali fəlakətə məruz qalacaq. Söylənilən bu təhlükənin mövcudluğunu nəzərə alaraq və iki dövlət arasında bağlanan müqavilənin 4-cü maddəsinə uyğun olaraq M.H.Hacınski öz müraciətində Türkiyədən

Azərbaycana hərbi yardım göndərilməsini xahiş edirdi.

Azərbaycan hökumətinin başçısı kimi F.Xoyski də sonradan öz çıxışlarından birində istiqlaliyyətin elan edildiyi ilk günlərdə ölkədə vəziyyətin son dərəcə ağır olduğunu qeyd edir və bu vəziyyətdən çıxmaq üçün daxildə lazımi qüvvə olmadığı üçün Türkiyənin rəsmi yardımına müraciət edilməsinin tarixi əhəmiyyətini vurğulayırdı:

> ... Daxili vəziyyətimiz isə qayət fəna idi. Hökumətimiz öylə bir zamanda təşəkkül etmiş idi ki, bir kənddən digərinə getmək qorxulu idi. Heç kəsin irzi, namusu, malı əlində deyildi... Böylə bir zamanda bütün Azərbaycan tərəfindən seçilmiş Milli Şura hökuməti təyin edib məmləkətin müqəddəratını ona tapşırdı. Hökumətimiz təsdiq edilməmişdi. Hökumətin səyi ilə Türkiyə ilə müzakirat tez qurtarıb sülhnamə bağlandı. Fəqət bununla bərabər, daxili işlər o qədər pərişan olan bir zamanda hökumət daxilində qanun və asayiş bərpasından aciz idi. Zira nə əsgəri qüvvəmiz vardı, nə də silahımız. Bittəb daxilindən düzəltmək mümkün deyildi. Binaənəleyh xarici bir qüvvəyə lüzum görülərək türklərə müraciət edildi. Türkiyə-Azərbaycan sülhnaməsinin bir maddəsinə görə məmləkətimizə nə vaxt lazım olsa hüququmuzun müdafiəsi üçün türklər bizə o qədər əsgər verməli idilər. Ona görədir ki, darda qaldıqda bu çarəyə təvəssül edildi. Türklər iltizamlarına əməl və vəzifələrini hüsnü-ifa etdilər. Əlbətdə, qoşunsuz, gücsüz pək müşkül olan işlər çətinliklə, yavaş-yavaş işləniyordu. Bizə xaricdən qüvvə almaq üçün başqa millət və dövlətə müraciət etmək bəzi şəraitdən dolayı mümkün deyildi. Müraciət etsəydik də heç bir nəticə hasil olmazdı. Ona görədir ki, dindaş və millətdaşlarımız olan Türkiyəyə müraciət edildi.

Bu sətirlərdə də qeyd olunduğu kimi, Türkiyə tərəfi Azərbaycan hökumətinin xahişinə dərhal cavab verdi. Onsuz da artıq başlamış olam hərbi əməkdaşlıq geniş və səmərəli bir xarakter aldı.

## Qarşılıqlı əsgəri yardım tarixindən

Azərbaycan xalqına qarşı həyata keçirilən qırğınların qarşısının alınması üçün əvvəlcə Nuru paşanın rəhbərliyi altında hərbiçilər dəstəsinin, sonra da türk qoşun hissələrinin Azərbaycana göndərilməsi və onların iştirakı ilə yardılan Qafqaz İslam Ordusunun əzmkar fəaliyyəti azərbaycanlıların və Osmanlı türklərinin etnik, dini və əqidə birliyinin tarixi nümunəsidir. Bu tarixi nümunənin və dəyərin hələ XX əsrin əvvəllərindən başlayaraq ciddi əməli bir ənənəsi var idi. Baxmayaraq ki, Azərbaycan xalqı Osmanlı Türkiyəsinə düşmən olan çar Rusiyasının əsarəti altında idi, bununla belə Osmanlı türklərinə mümkün köməkləri çatdırmaqdan çəkinmirdi. Türk qoşun dəstələrinin Azərbaycana göndərilməsi də, əslində iki xalq arasında genişlənməkdə olan qardaşlıq münasibətlərinin məntiqi davamı idi.

Türk ideoloqları İsmayıl bə Qasparlının dildə, fikirdə və işdə birlik, Əli bəy Hüseynzadənin türkləşmək, islamlaşmaq və müasirləşmək tezisləri müxtəlif dövlətlərin tərkibində yaşayan türk xalqlarının milli qüvvələri tərəfindən müştərək fəaliyyət ideyası kimi qəbul edilmişdi. Bu mənəvi birliyin və yaxınlığın təzahürü idi ki, hələ 1912-ci ildə Balkanlarda müharibə başlayanda Müsavat partiyası bir bəyannamə yayaraq bütün türkləri və müsəlmanları Osmanlı türklərinə köməyə çağırdı. Həmin bəyannamədə deyilirdi:

> Dindaşlar! Biliniz və agah olunuz ki, yeganə ümidimiz və çareyi-nicatımız Türkiyənin istiqlal və tərəqqisindədir. Əgər indi də özümüzün əvvəlki

hissizliyimizdən vaz keçməsək dünyanın gözü önündə haqq, islamiyyət və milliyətimizi itirib ... əsir olacağımız şəkk və şübhədən aridir.

Müsavat partiyasının bəyannaməsində daha sonra bildirilirdi ki, bu müharibəni Türkiyəyə qarşı başlayan əslində ruslardır və məqsəd də müsəlman qüvvələrini, türk qüvvələrini əzib parçalamaq, onlara ağır zərbə endirməkdir.

Azərbaycan milli mücadiləsinin fəallarından biri olan M.B.Məmmədzadə haqlı olaraq qeyd edirdi ki, yeganə ümidimiz və çareyi-nicatımız olan Türkiyənin istiqlalı və tərəqqisi fikri ilə Müsavat partiyası Osmanlı dövlətini rus imperializmi ilə mübarizədə bütün türklüyü və bütün müsəlmanları xilas edəcək bir qüvvə kimi dəyərləndirir və bu qüvvələrin sarsılmazlığının qorunmasına çalışırdı.

Birinci dünya müharibəsində rus çarizmi Osmanlı dövlətinə qarşı cəbhə açarkən də Müsavat partiyasının fəalları, bu partiyanın lideri M.Ə.Rəsulzadə yenə də belə bir mövqedən çıxış edərək 40 milyonadək türkü əsarət altında saxlayan çar Rusiyanın məğlub olmasını milli qurtuluş üçün bir ümid kimi dəyərləndirdi.

Azərbaycan xalqının Balkan müharibəsinə münasibəti və bu müharibədə Osmanlı türklərinə dayaq durması təkcə bəyanatlarla bitmirdi. Xalqın ayrı-ayrı nümayəndələri bu müharibədə türk xalqının rastlaşdığı çətinliklərin aradan qaldırılması üçün əlindən gələni etməyə çalışırdı. Bu istiqamətdə xeyriyyəçiliyi ilə nəsillərə nümunə olan Hacı Zeynalabdin Tağıyevin insani əməlləri iki qardaş xalq arasındakı mənəvi yaxınlığın əməli təcəssümü idi. Bu xeyirxah insan Balkan müharibəsində bolqar qoşunlarının əlindən fəlakətlər görmüş türklərə xeyli maddi yardım göstərmişdi və bunu özünün mənəvi borcu sayırdı. Bu məsələ ilə bağlı milli mücadiə fəallarından biri olan Nağı Şeyxzamanlının xatirələrində maraqlı qeydlər vardır:

> Mən 1918-ci ildə Gəncə Milli Komitəsinin qərarı ilə "İttihad və Tərəqqi" ərkaniylə Azərbaycan istiqlalını möhkəmləndirmək məqsədilə türk ordusunun yardımını təmin etmək üçün İstanbula göndərildim. Orada Məclisi-Məbusana getdim. Rəis Hacı Adil bəylə görüşdüm. Eyni zamanda axşamı "Pere Palas" otelində mətbuat ziyafətinə ikimiz də dəvət olunmuşduq. Ziyafətdən sonra vaxtımız olduğu üçün Hacı Adil bəylə otelin salonlarının birində söhbət etməyə başladıq. O məndən soruşdu ki, siz Hacı Zeynalabdin Tağızadəni tanıyırsınızmı? – Mən də - Çox yaxşı – deyə cavab verdim. Hacı Adil bəy – O kişi çox gözəl insandır – deyə sözə başladı: - Balkan müharibəsiydi. Bolqarlar türklərə çox əziyyət verirdilər. Türk kəndlərini viran qoyurdular. Pərişan xalqımızın dərdinə dəva olsun deyə bir xeyriyyə cəmiyyəti yaratdıq və ianə toplamağa başladıq. Mən o zaman Ədirnə valisiydim. Biz Avropaya gedən tacirlərdən yardım toplayırdıq. Bir gün Berlinə gedən səfirimizə müraciət edib yardım istədim və aldım. Səfir: - Siz xaricə nə üçün müraciət etmirsiniz – dedi və mənə Bakıda Hacı Zeynalabdinin ünvanını verərək: - ondan yardım tələb edin – dedi. Onun dediklərini etdik. Təqribən bir ay sonra İstanbuldakı neft şirkəti vasitəsilə o möhtərəm insan biz türklərə yardım məqsədilə min qızıl göndərmişdi.

Birinci dünya müharibəsində rus çarizmi Osmanlı dövlətinə qarşı cəbhə açarkən də "Müsavat" partiyasının fəalları, bu partiyanın lideri M.Ə.Rəsulzadı yenə belə bir mövqedən çıxış edərək 40 milyonadək türkü əsasrət altında saxlayan çar Rusiyasının məğlub olmasını milli qurtuluş üçün bir ümid kimi dəyərləndirirdilər.

Azərbaycan daxilində və bölgədə cərəyan edən ictimai-siyasi və hərbi proseslərin fonunda millətin yalnız aydınları və düşünən beyinləri deyil, xalq kütlələri arasında da Türkiyə və türk xalqı ilə milli birlik və təəssübkeşlik meylləri sürətlə genişlənməkdə

idi. İstər Rusiyanın və istərsə də bütün qərb dövlətlərinin antitürk və antimüsəlman ideologiya və siyasətinin açıq təcavüzkarlığa çevrilməsi, istərsə də erməni-daşnak millətçi təcavüzkarlığının ifrat hal alması Azərbaycan və Türkiyə xalqlarının vahid düşmənə qarşı ortaq mübarizə sövqünü artırırdı. Məhz bunun nəticəsi idi ki, Birinci dünya müharibəsinin gedişində iki xalq arasındakı milli təəssübkeşlik hissləri daha geniş əməli fəaliyyətlərlə müşayiət olunmağa başladı. Konkret tarixi şəraitdə hər iki xalqın milli maraqları da bu birliyin möhkəmlənməsini tələb edirdi. Çünki qərbin, Rusiyanın və erməni-daşnak qaragüruhunun məqsədi Türkiyənin müstəqilliyinə son qoymaq, Azərbaycan xalqının isə milli oyanışını məhv etmək idi. Azərbaycan xalqının milli təfəkkür sahiblərinin Birinci dünya müharibəsinə olan münasibəti də bu narahatçılıqdan qaynaqlanırdı.

Osmanlı Türkiyəsinin hökumət dairələri də böyük dövlətlərin öz mənafeləri naminə başladıqları dünya müharibəsinin müsəlman aləminə, o cümlədən də Rusiya müsəlmanlarına dağıntılar və ictimai bəlalar gətirəcəyinə şübhə etmirdilər. Görünür, elə bunun üçün idi ki, Birinci dünya müharibəsinin başlanğıcında Osmanlı hökuməti Rusiya müsəlmanlarına müraciət etdi və Rusiya müsəlmanlarını Rusiya qoşunları tərkibində vuruşmaqdan imtina etməyə çağırdı. Həmin bəyanatda deyilirdi: " Rusiya Avstriya və Almaniyaya müharibə elan edib. O, müsəlman torpaqlarına müdaxilə etməklə Osmanlı imperiyasını da sakit buraxmayıb. Bu da Osmanlı imperatorunu, bütün müsəlman aləminin xəlifəsini, imperator həzrətləri V Sultan Mahmudu məcbur etdi ki, bizimlə razılaşdıraraq Rusiya və onun müttəfiqləri – Fransa və İngiltərəyə müharibə elan etsin. İndi budur, bizimkilər və Osmanlı ordusu hər yerdə düşmənə qan uddurur". Müraciətdə daha sonra Osmanlı qoşunlarının Cənubi Qafqaza yaxınlaşdığı, Rusiya hərbi donanmasının Qara dəniz limanlarına sıxışdırıldığı, Qafqazın müsəlman tayfalarının Osmanlı qoşunları tərəfində vuruşduğu bildirilirdi. Sonra isə Rusiya qoşunları tərkibində xidmət edən müsəlmanlar rus ordusunu tərk etməyə çağırılırdı.

Bu müraciətin geniş kütlələr arasında, Rusiya qoşunlarında xidmət edən müsəlmanlar və o cümlədən də azərbaycanlılar arasında nə dərəcədə yayıldığını söyləmək çətindir. Hər halda Birinci dünya müharibəsi dövründə Rusiya qoşunları sıralarında xidmət edən azərbaycanlı zabitlərin öz xidməti borclarına etinasız yanaşmaları faktlarına rast gəlinməsə də, azərbaycanlı əhali arasında müharibənin çətinlikləri ilə rastlaşan türk xalqına, türk hərbçilərinə əməli yardım göstərilməsi haqqında faktlar mövcuddur.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Türkiyə ilə müharibə aparan Rusiyanın tərkibində idi və Azərbaycan ərazisində Türkiyə və türkçülüklə bağlı olan bütün fəaliyyətlər Rusiyanın polis rejimi tərəfindən ciddi nəzarət altında saxlanılırdı. Ona görə Rusiyanın polis rejiminin nəzarətindən yayınmaq özü böyük bir çətinlik təşkil edirdi. Bununla belə, Azərbaycan xalqı müharibə sınaqları ilə üzbəüz qalmış türk xalqına kömək etmək üçün ən ciddi təqibləri aşmalı oldu. Azərbaycanlılar əllərində silah Türkiyə cəbhəsində türk xalqının düşmənlərinə qarşı mübarizəyə də qoşuldular. Lazımi statistikanın aparılmadığı üçün Türkiyə qoşunları tərkibində vuruşan azərbaycanlı könüllülərin sayını söyləmək çətindir. Lakin onların sayı heç də az deyildi və onların arasında Türkiyə torpaqlarında şəhid olanlar da var idi. Məsələn, Türkiyənin Gelibolu yarımadasında Çanaqqala döyüşlərinin şərəfinə ucaldılmış baş abidənin yaxınlığındakı qardaşlıq şəhidliyində və 57-ci alayın qardaşlıq şəhidliyində Şirvandan və Bakıdan olan könüllülərin məzarları vardır.

Tarixi ədəbiyyatda mövcud olan məlumatlara görə, Türkiyə cəbhəsində Rusiya qoşunları sıralarında vuruşan azərbaycanlı hərbçilərin də türk xalqına qarşı səmimi

münasibəti olmuşdur. Məsələn, Rəhmi Alpak adlı bir türk polkovniki öz xatirələrində Süleymanov adlı bir azərbaycanlı zabitin tərk etməli olduğu döyüş mövqelərində onun türk hərbçiləri üçün yazıb qoyduğu qeydlərdən və həmin qeydlərdə türk xalqına olan xoş hisslərdən söz açır (5).

Azərbaycanın milli qüvvələri elə Azərbaycanın daxilində də türk əsgərlərinin Birinci Dünya müharibəsi cəbhələrində rastlaşdıqları çətinliklərin asanlaşdırılması üçün xeyli işlər görürdülər. Bu iş əsasən rus qoşunları tərəfindən əsir alınmış türk hərbçiləri ilə aparılırdı. Qafqaz cəbhəsində aparılan əməliyyatlarda rus qoşun hissələri əsir aldıqları türk hərbçilərini dəmir yolu vasitəsilə Azərbaycandan keçirərək Rusiyanın içərilərinə doğru daşıyır, ya da elə Qafqazda, o cümlədən Azərbaycanın daxilində yerləşdirirdi. Həmin əsirlərin içərisində olan yaralılara, xəstələrə müəyyən köməklik göstərilməsi üçün bütün imkanlardan istifadə edilirdi. Əsirlər arasında vəfat edənlər qatarlardan düşürülərək Azərbaycanda öz irqdaşları və dindaşları arasında dəfn edilirdi. Məsələn, Sarıqamış əməliyyatında çoxlu sayda türk hərbçiləri əsir alınmışdı. Rus qoşun hissələrinin və xüsusən də onların tərkibində çoxlu sayda olan ermənilərin bu əsirlərə qarşı insani münasibət göstərəcəyi mümkün deyildi. Ona görə də onlar çox əzab və işgəncələrə məruz qalır, olmazın məhrumiyyətlərlə qarşılaşırdılar. Bu əsirlərlə və onların arasında vəfat edənlərlə Azərbaycanlıların hansı iş apardığını Nağı Şeyxzamanlı belə xatırlayırdı:

> Təəssüf ki, Sarıqamış əməliyyatı müvəffəqiyyətsizliklə nəticələndi. Tarix boyu cəbhələrdə düşmənə qarşı qəhrəmanlıqlarıyla ad çıxaran türk əsgərləri Sarıqamışda təbiətin amansız qışına və taktiki səhvlərinə görə məğlub olmuşdular. Türk ordusunu məğlub edən qara qız düşmənə qələbə təmin edirdi: on minlərlə əzgər donaraq ölmüş, minlərcə türk qəhrəmanı isə əsir düşmüşdü. Əsirlər ruslar tərəfindən vaqonlara doldurularaq Sibirə göndərilirdilər. Yolda ruhlarını Tanrıya bağışlayan yaralı və xəstə əsgərlərin cəsədləri yol boyu stansiyalarda qatarlardan düşürülərək xalqa təhvil verilir, xalqımız da onları göz yaşları tökərək dəfn edirdi.
>
> ...Təşkilatımız əsgər qatarlarından boşaldılan cəsədlər üçün stansiyada növbətçilik təşkil etmişdi. Bir gün stansiyadan keçən qatardan 4 cəsəd boşaldığını xəbər aldıq. Tez yığışıb şəhidlərimizə cənazə mərasimi düzəltdik. Göz yaşları arasında söylənilən nitqlərdən sonra onları əbədi istinadgahlarına qoyduq. Anadoluda doğulan türk əsgəri türklük uğrunda vuruşur, ölür və yenə türk torpağı olan Azərbaycanda torpağa verilirdi.

Türk hərbi əsirlərinə qayğı göstərilməsində az qala Gəncənin bütün əhalisi iştirak edirdi. Adamlar onlara yemık aparır, hədiyyələr hazırlayır, xəstələrin müalicəsini təşkil edir, ağrı-acılarını unutdurmğa çalışırdılar. Yəni türk əsirlərinə qayğı ümumxalq hərəkatına çevrilmişdi. Böyükdən-kiçiyə hamı türk əsirlərinə türkçülük uğrunda mübarizə aparan qəhrəmanlar kimi baxırdılar və onların sağalaraq yenidən Vətənlərinə qovuşmaları üçün yorulmaq bilmədən çalşırdılar. Türk hərbi əsirlərinə Azərbaycan xalqı tərəfindən göstərilən hörmət və ehtiramın miqyasını təsəvvür etmək üçün yenə də N.Şeyzamanlının xatirələrindən bir parçaya diqqət yetirmək maraqlı olardı. Müəllif burada türk əsirlərinə qayğının təşkili ilə bağlı rəsmi dövlət adamları və ictimaiyyətin nümayəndələri ilə aparılan işlərdən, bu qayğının türk əsirlərinin özləri tərəfindən necə qarşılanmasından söz açır:

> Gəncə bələdiyyə rəisi Xəlil bəyin yanına gedərək “Gənclik” təşkilatı adından özü ilə danışdım, vəziyyəti anlatdım. İstədiyim bu idi: ruslar Qafqaz cəbhəsindən əsir

aldıqları türk əsgərlərini qatarlara doldurub Sibirə göndərirlər. Xəstə olanlara baxılmır, onlar yolda ağırlaşaraq can verirlər. Cəsədləri stansiyalarda boşaldılır. Rus idarəsinin bu qeyri-insani hərəkəti xalqımızı qəzəbləndirir. Xəlil bəy məni dinlədikdən sonra Gəncə qubernatoru ilə görüşəcəyini və nə gərəkdirsə edəcəyini söylədi. Mənə onu axşam klubda görərək nəticəni öyrənməmi söylədi.

Axşam kluba gedərək Xəlil bəyi gördüm. Xəlil bəy mənə dedi: - "Qubernator ilə görüşdüm. Sabah stansiyada böyük bir buna boşaldılacaq. O, düşərgə və xəstəxana açacaq. Silahlı qüvvələrdən həkimlər istəniləcək, bundan başqa hökumət və bələdiyyə də işlə təmin olunacaqlar. Tiflisdən hərəkət edəcək əsirlər dolu qatarlar əvvəlcədən Gəncədə bildiriləcəkdir. Həkimlər tez stansiyaya gedərək əsirləri gözdən keçirəcəklər və xəstə olanlar düşərgəyə göndəriləcəklər". Xəbərə çox sevindim və təşkilatımız adından Xəlil bəyə təşəkkür etdim. Təşəkkürə ehtiyac olmadığını, belə işlərin bizim kimi onun da vəzifəsi olduğunu və bundan sonra da bir işimiz olsa onu çəkinmədən özünə bildirməmizi gərəkliyini söyləyən Xəlil bəy daha sonra məni axşam yeməyinə dəvət etdi. Xəlil bəyə təşəkkür etdim və dedim "Xəlil bəy, Sizdən bir ricam da mənim və həkimlərlə birlikdə heyəti-iştirakımı təyin etmənizdir. Çünki əsirlər həkimlərin söylədiklərini anlamazlar. Heyətdə tərcüməçi olaraq iştirak etmək istəyirəm". Təklifimi qəbul edən Xəlil bəy ertəsi gün qubernator ilə görüşəcəyini bildirdi.

Həqiqətən ertəsi gün stansiyada böyük bir bina boşaldıldı və döşənildi. Daha sonra ətrafı məftil ilə hörüldü. Mən də həmin gün qubernatordan tərcüməçilik vəzifəsini rəsmən aldım. Bu vəzifə üçün maaş almayacağımı öyrənən qubernator və mərkəz komandiri mənə təşəkkür məktubu göndərdilər. Əsirləri qarşılayacaq heyətdə 3 həkim, mərkəz komandirinin yavəri və tərcüməçi olaraq mən də vardım. Həkimlərin üçünü də şəxsən tanıyırdım.

Göründüyü kimi çar rejiminin Gəncədəki təmsilçisi olan qubernator da milli qüvvələrin inadkarlığı nəticəsində belə bir işə razı olmasına inandırılmışdı. Bundan sonra milli qüvvələrin fəalları və şəhər ictimaiyyəti türk əsirlərini gətirən qatarlardakı işləri ilə qardaşlıq tarixinə dəyərli və yaddaqalan səhifələr yazdılar.

Həmin gün əsir daşıyan bir qatarın saat 14-də Gəncə stansiyasında olacağını xəbər verdilər. Hamımız birlikdə stansiyaya gedərək qatar gözləməyə başladıq. Ancaq qatarın stansiyaya gəlişindən 10 dəqiqə əvvəl bir dəstə rus əsgəri stansiyanı mühasirəyə aldı. Perrondakı camaat salona dolduruldu. Ancaq bir az sonra... rus əsgərlərinin əsirlərə hədiyyə verilməsinə icazə vermədiklərini söylədilər. Bu vəziyyəti mən mərkəz komandirinin yavərinə bildirdim. Yavər qatarda 28 vaqon olduğundan hədiyyələyri 28 paketə qoydurub onları əsirlərə verməyini söylədi. Vəziyyəti xalqa söylədim, dərhal paketlər hazırlanmağa başlandı.

Bir az sonra qatar gəldi. Heyətimiz qatarlara girdikdə mən türkcə əsirlərdən xəstə olub-olmadığı soruşdum. Biçarələr çaş-baş bizə baxırdılar. Özlərini müayinə etdirmək istəmirdilər. Etimad etmədiklərini görüb danışmağa başladım: " Hal-hazırda olduğunuz stansiya Gəncə şəhərinin stansiyasıdır və şəhərin əhalisi türkdür. Sizin öz qardaşlarınızdır. Stansiyada xəstəxanamız var. Xəstə olanları götürəcəyik, istirahət edib yaxşılaşdıqdan sonra yollarınıza davam edəcəksiniz". Gördüm ki, xəstə olmayan da əsirlər də xəstəxanaya getmək istəyirlər. Müayinənin nəticəsində 40-a qədər xəstə tapdıq. Sonra xəstə olmayan vaqonlara da girdik və bütün əsirlərin halını soruşduq. Həkimlər əsirlərə müxtəlif suallar

verirdilər. Daha sonra xalq tərəfindən hazırlanmış paketləri vaqonlara “türk xalqından sizlərə hədiyydir” – deyərək verməyə başladım. Bu vaxt vaqonların pəncərəsindən gənc bir zabit bizə dönərək dedi: “Mən xəstəyəm, çox xəstəyəm. İki həftədir ki, heç cür istirahət etmədik. Vaqonumuzda həkim var, əlac yox”.
O sözünü qurtardıqda həkim olduğu anlaşılır bir dolu nəfər bizə yaxınlaşdı və xəstənin vəziyyətinin anlatdı. Həkimlər arasında məsləhətləşdikdən sonra mənə dedilər: “Xəstəni götürək”. Əgər istəyirsə həkimi də məmnuniyyətlə götürərik. Bizə yardım edər, işimiz asanlaşar”. Həkimlərin qərarını türk həkiminə və zabitinə anlatdım. İkisini də götürdük. Hamımız birlikdə xalq ilə dolu salondan keçdik. Camaat hamı birlikdə ayağa qalxaraq əsirləri salamladı. Qatar isə yavaş-yavaş stansiyadan uzaqlaşdı.
Xəstələri xəstəxanaya yerləşdirdik. Ayrılacağım vaxt gördüm ki, əsirlər mənim ayrılmamı istəmirlər. Onlara söylədim ki, narahat olmasınlar. Hər gün yanlarına gələcəyəm və başqa müsafirləri də gətirəcəyəm. Sonra xəstəxanadan çıxıb şəhərə gəldim və onları dostlarıma söylədim. Öz aramızda hər gün hazırlıq görməyi, ehtiyacları olduqları yeməyi və siqareti əvvəlcədən təmin etməyi qərarlaşdırdıq. Belə ki, yüzlərcə xəstəni alıb istirahət və müalicə etdirir, yaxşılaşanları Sibirdəki düşərgələrə göndərirdik. Düşərgədə daimi olaraq 200 xəstə olurdu. Onların idarəsini əsir zabit Murad bəy təmin edirdi. O və həkim düşərgənin daimi adamları olmuşdular. Mərkəz komandirinin yavəri də əlimizdəydi. Bundan başqa düşərgənin komandiri də sözümüzü eşidirdi... Dostlarla birlikdə düşərgələrə gedər, istədiyimiz qədər qala bilərdik. Əslirlərə Azərbaycanda türkcə nəşr edilmiş kitablar, jurnallar verirdik. Bakıda Məmməd Əmin Rəsulzadənin çıxardığı “Açıq söz” qəzetini hər gün onlara çatdırırdıq. Bundan başqa, Gəncədəki bütün müəllimləri və şagirdləri düşərgəyə dəvət edərək əsirləri həsrət çəkməyə qoymurduq. Ən çox sevdikləri şair Əhməd Cavad idi. Bir gün Gəncə tacirlərindən Hacı Həsən mənim yanımda oldu və əsirləri ziyarət etmək istədiyini söylədi. Vəziyyəti Xəlil bəyə bildirdim və qubernatordan icazə almasını xahiş etdim. Bir neçə gündən sonra Xəlil bəy məni iş yerinə çağırdı və dedi: “Hacı Həsənə de ki, gözəl və zəngin bir ziyafət versin. Əsirlərdən başqa mən, qubernator, mərkəz komandiri, hökumət və bələdiyyə hakimləri və şəhərin irəli gələnləri də ziyafətdə olacaq”. Bu haqda Hacı Həsənə xəbər verdim. Ertəsi gün 300 nəfərlik bir ziyafət hazırlandı. Düşərgənin bağçasında masalar qoyulmuş və ən yaxşı azəri çalğıçıları çağırılmışdı. Müsafirlərdən qubernator, bələdiyyə rəisi, biri türk, digəri erməni olan bələdiyyə rəisinin müavinləri, mərkəz komandiri və yavəri, polis rəisi, prokuror, bank müdirləri, şəhərdə mövcud olan cəmiyyətlərin sədrləri, türk və erməni tacirləri və müəllimləri. Yemək vaxtı bələdiyyə hakimi Həsən bəy türk dilində bir nitq söyləyərək dedi:
“Əziz qardaşlarım! Siz burada özünüzü əsarətdə və qürbətdə saymayın. Ətrafınızda yaşayan şəhərlilər və kəndlilər hamısı sizin kimi türklərdir, sizin öz qardaşlarınızdır. Bugünkü ziyafəti sizə qardaşımız Hacı Həsən ağa öz pulları ilə verir”. Bu vaxt Hacı Həsən yerindən qalxaraq deyir: “Həsən bəy onlar bizi əsarətdən qurtarmaq üçün vuruşurlar. Onlar bizim üçün canlarını verirlər. Bir yemək nədir ki?”
Ziyafət çöx gözəl keçdi və əsirlər çox razı qaldılar. Ziyafətdə olan müsafirlər də gülər üzlə dağıldılar”.

Əsirlərə qayğı göstərilməsindən əlavə milli qüvvələrin rəhbərliyi altında “Qardaş

kömәyi" adlı bir tәşkilat da yaradılmışdı. Bu tәşkilat isә müharibәdәn әziyyәt çәkәn mülki türk әhalisinә yardım göstәrmәk mәqsәdilә yaradılmışdı. Çünki Türkiyәnin şәrqindә müharibә gedәn әrazilәrdә rus, xüsusәn dә ermәni hәrbçilәri yerli әhaliyә olmazın әzablar verirdi. Ermәnilәr burada türk әhalisinin kütlәvi şәkildә qırılmasına rәvac vermişdilәr. Ermәni vәhşiliyindәn canlarını qurtarmağa çalışan türk ailәlәri bәzәn Cәnubi Qafqaza qaçır vә burada özlәrinә sığınacaq axtarırdılar. "Qardaş kömәyi" tәşkilatı Cәnubi Qafqaza qaçmış belә türklәri axtarıb tapır vә onların yerlәşdirilmәsini, әrzaqla vә yaşayış ehtiyacları ilә tәmin edilmәsinә çalışırdı. Azәrbaycanın әksәr bölgәlәrindә bu tәşkilatın şöbәlәri açılmışdı vә orada ianәlәr toplanılırdı. Bu tәşkilat hәtta eyni adlı jurnalı da çap etdirmiş vә jurnal vasitәsiylә dә daha çox ianә cәlb edilmәsinә çalışmışdı.

"Qardaş kömәyi" tәşkilatının başlıca xidmәtlәrindәn biri dә Türkiyәnin müharibәyә mәruz qalmış әrazilәrindә valideynlәrini itirmiş türk çocuqlarını toplayaraq Azәrbaycana gәtirmәsi vә burada onların qayğısına qalması idi. Türk çocuqları üçün Azәrbaycanda bağça vә uşaq evlәri açılmışdı, böyük olanları isә mәktәblәrә düzәldirmişdi. Bununla da müharibәnin qurbanları olan türk uşaqları Azәrbaycan türklәrinin qayğısı nәticәsindә yenidәn hәyata qaytarılırdı. N.Şeyxzamanlı öz xatirәlәrindә Azәrbaycandakı türk uşaqları ilә bağlı maraqlı hadisәnni nәql edirdi. Bu hadisә türk qoşun hissәlәrinin Gәncәdә qarşılanması zamanı baş vermişdi:

> Gәncә camaatı şәhәr meydanına yığışmışdı. Dövlәt dairәlәri vә mәktәblәr tәtil etmiş vә şagirdlәr dәstә halında düzülmüşdülәr.. Müharibә vaxtı rusların işğal etdiklәri Türkiyәnin şәrq vilayәtlәrindәn toplanaraq "Cәmiyyәti-Xeyriyyә" tәrәfindәn Azәrbaycanın hәr şәhәrindәn uşaq evlәrinә yerlәşdirilәn sahibsiz uşaqların dörd yaşından yuxarı olanlar da dәstә şәklindә meydanda idilәr. Meydanın әtrafını bürümüş qadınlı-kişili xalq әsgәrlәrә baxırdılar. Sevincdәn hәr kәsin gözlәri yaşlıydı. Uşaq evlәrindәn gәlәn uşaqlar әsgәrlәrә yanaşırlar, әllәrinә sarılırlar, haralı olduqlarını anladırlar. Bu vaxt bir qışqırıq qopdu. Doqquz yaşında bir uşaq atasını tanıdı. Bir-birilә qucaqlaşdılar. Әtrafdakılar bu mәnzәrәdәn dözmәyib ağladılar. Bunlar hamısı sevunc göz yaşları idi.

Azәrbaycan milli qüvvәlәrinin fәallarının Osmanlı türklәrinә göstәrdiklәri başqa bir dәyәrli yardım Bakıda olan türk әsirlәrinin әsirlikdәn qaçırılması, eyni zamanda Sibirdәn qaçıb gәlәn türk әsirlәrinin yerlәşdirilmәsi vә onların Türkiyәyә yola salınması idi. Bu әsirlәr Bakıda Nargin adasında yerlәşdirilmişdi. Bura elә bir yer idi ki, oradan nә qaçmaq mümkün idi, nә dә kimi isә qaçırmaq. Ancaq Azәrbaycanın milli qüvvәlәri türk әsirlәrinin burada çoxlu әzablarla qarşılaşmasına razılaşmır vә onların qaçırılması üçün münasib yollar arayırdılar. Heç bir qorxudan çәkinmәyәn azәrbaycanlılar çox vaxt da buna nail olurdular. Türk әsirlәrinin Nargin adasından qaçırılması әmәliyyatının iştirakçısı olmuş Mirәziz Seyidli adlı bir azәrbaycanlı sonralar, 1933-cü ildә "Azәrbaycan yurd bilgisi" adlı jurnalda çap etdirdiyi yazısında bu hadisәlәrdәn birini belә xatırlayırdı:

> Türkiyә әsirlәrinә yardım edәn gizli tәşkilat sırf tәlәbәlәrin deyildi. Biz orada yalnız bir neçә nәfәr idik. Yüksәk tәbәqәdәn olan ailәlәrin xanımlarının da işimizә böyük mәnfәәtlәri toxunurdu. Onlar yemәklә bәrabәr, әsirlәrә bәzi silah vә elektrik cib lampaları da da daşımalı idilәr. Gecә yarısı da ada sahillәrindә pusquda duran tәşkilatımızın qayıqları lampa işarәlәri ilә adaya yaxınlaşaraq heç kәsi duyuq salmadan bir neçә әsiri qaçıra bildi. Bir gün 16 zabit qaçırıldı. Zığ burnunda bağlanan qayığı gecә dalğalar qoparıb dәnizә aparmışdı. Gündüz rus

zabitləri bu qayığı qəzaya uğramış hesab etmiş və bu səbəbdən də rus qəzetləri sevinclə belə bir xəbər çap etmişdilər: “Bu gecə Nargin adasından 16 Türkiyə zabiti qaçmaq istəmiş, lakin fırtınanın şiddətindən qayıqları çevrilmiş və onlar hamısı həlak olmuşlar. Qayıq Nargin adası sahillərində askara çıxarılmışdır”. Halbuki həmin vaxtda qaçırılmış zabitlər “Cəmiyyəti-Xeytiyyə” (İsmailiyyə) binaslnda istirahətdə idilər..

Əsirlikdən qaçmış türk zabitləri Azərbaycan xalqından qayğı gördükləri kimi, həm də imkanları daxilində kömək göstərilməsinə də çalışırdılar. Onlar təcrübəli hərbçilər kimi Azərbaycanda müqavimət dəstələrinin təşlkilinə yardım edir və bu dəstələrin fəaliyyətinə rəhbərlik edirdilər. Məsələn, Naxçıvanda təşkil olunmuş könüllü dəstəyə türk zabitləri Bədri və Sidqi əfəndilər rəhbərlik edirdilər. Bolşevik-daşnak qüvvələri Şamaxını işğal edib Göyçay istiqamətində irəliləyəndə Nuxada müqavimət dəstəsinin yaradılmasına diqqət gücləndirildi. Nuru paşa Gəncəyə gələndən sonra qərara almışdı ki, Bədri əfəndi Şəki bölgəsinin komandiri təyin edilsin. Sidqi əfəndi isə Qutqaşenə göndərildi ki, orada müqavimət dəstələrinin təşkilinə rəhbərlik etsin. Zaqatalada könüllü dəstələrə Həqqi əfəndi ilə Ələddin əfəndi rəhbərlik edirdilər. Zaqatala ətrafındakı avar kəndlərində çoxllu silah mövcud idi. Türk zabitləri bundan daha çox bəhrələnməyə çalışırdılar. Belə qərara alınmışdı ki, buradakı kəndlərin hər birində müqavimət dəstələri yaradılsın. Müəyyən vaxtlarda həmin dəstələrin rəhbərləri Zaqatalaya çağırılaraq türk zabitlərinin rəhbərliyi altında toplanış keçirdilər. Müdafiə işlərinin bu cür qurulması yerli əhali arasında da rəğbətlə qarşılanırdı və bunun nəticəsi idi ki, Gürcüstanla sərhəddə vəziyyət sakit idi.

Azərbaycanın yerli müdafiə dəstələrinin yaradılmasına və təşkilatlanmasına yardım göstərən əsir türk zabitlərindən biri də leytenant Hüsaməddin Tuğac idi. O da Sibirə sürgün edilmiş türk əsirləri arasında idi. Əsirlikdən qaçandan sonra Hüsaməddin Tuğac Gəncədə və Bakıda olmuş, Azərbaycanın milli mübarizəsinin fəalları ilə yaxınlıq etmiş və sonradan yenə Gəncəyə qayıtmışdı. Azərbaycanın milli mücadiləsinin fəallarının təklifi ilə Hüsaməddin Tuğac Gəncədə bir neçə könüllü dəstənin təşkilinə köməklik göstərdi. Həmin dəstələrin təşkili üçün Hüsaməddin Tuğac əvvəlcə əsirlikdən qaçıb gəlmiş 10-dək türk əsirini topladı. Onların köməyiilə əvvəlcə “Difai” partiyasının fəallarından ibarət dəstə təşkil etdi və bu dəstənin üzvlərinə ilkin hərbi təlim verildi. Sonra Gəncənin Bağbanbaşı məhəlləsinin gəncləri bir dəstədə birləşdirildi. Türk hərbçilərinin köməyi ilə təşkil edilmiş bu dəstələr Gəncə daxilində asayişin qorunmasına də cəlb edilir və kifayət qədər mürəkkəb bir zamanda bu dəstələr xeyli faydalı işlər gördülər. Həmin dəstələr hətta rus hərbçilərinin tərksilah olunmasında da iştirak etdilər.

1917-ci ilin sonu, 1918-ci ilin əvvəllərində Azərbaycanın milli mübarizə fəalları Osmanlı Türkiyəsinin 3-cü Ordu komandanlığı ilə əlaqə yaradılması və nizami Osmanlı qoşunlarıpnın Azərbaycan xalqına hərbi yardım etmək imkanlarının aranmasına da cəhd göstərdi. Bu məqsədlə Gəncədəki bir neçə nəfərlik heyət İran ərazisindən keçməklə 3-cü Ordu komandanlığına göndərildi. Bir müddətdən sonra 3-cü Ordu komandanlığından Azərbaycandakı vəziyyətlə bağlı zəruri məlumatların toplanması və çatdırılması üçün leytenant Müzəffər və leytenant Midhət Gəncəyə gəldilər.

Bu qarşılıqlı münasibətlər və bölgədə cərəyan edən hərbi-siyasi hadisələr Azərbaycanın milli mübarizənin fəallarında belə bir qənaət yaratdı ki, Azərbaycan xalqının qarşılaşdığı tarixi sınaqlardan nicat tapması və xalqın milli-müstəqillik yolundakı mübarizəsinin məntiqi sonluğa çatdırılması üçün Türkiyənin hərbi yardımına müraciət

edilməlidir.

Nuru paşanın Azərbaycana göndərilməsi qərarı

Azərbaycan xalqının intizarında olduğu yardımların göstərilməsi və bütünlükdə Osmanlı dövlətinin Azərbaycan və Qafqazla bağlı planlarının həyata keçirilməsi üçün lazım olan hərbi qüvvələrin yaradılması 1918-ci ilin əvvələrində artıq Ənvər paşa və onun silahdaşlarının diqqət mərkəzində idi. Həmin ilin yanvar və fevral aylarında hətta bu qüvvələrin strukturu da müəyyənləşdirilmiş və ona rəhbərlik edə biləcək bir neçə namizəd də nəzərdən keçirilmişdi. Ənvər paşanın fikrincə, hər biri üç piyada alayından ibarət olan üç piyada diviziyasının yaradılması məqsədəuyğun idi. Bu üç diviziya bir korpusda birləşməli idi. Hərbi Nazirlik qərar vermişdi ki, 1-ci və 2-ci piyada diviziyalarının təşkili ilə məşğul olacaq zabit heyəti seçilib Mosulda yerləşən 6-cı Ordu komandanlığına, 3-cü piyada diviziyası ilə məşğul olacaq başqa bir zabit heyəti isə Trabzona, 3-cü Ordu komandanlığına göndərilsin. Lazımi təlimatlar aldıqdan sonra həmin heyətlərdəki zabitlər Azərbaycanda qurulacaq ordunun təşkilinə başlamalı idilər. Azərbaycana yollanacaq zabitlər üçün bir sıra güzəştlər nəzərdə tutulmuşdu. Bu zabitlərin rütbəsi bir pillə artırılmalı və onlara maaşların iki misli həcmində aylıq vəsait verilməli idi.

> Azərbaycanda yaradılacaq korpusa komandanlığın bir neçə başqa şəxsə təklif edilməsini Nuru paşa da öz xatirələrində təsdiq edirdi. N.Şeyxzamanlının yazdıqlarına görə, Azərbaycanda qurulacaq korpusun komandanlığına namizədliyi nəzərdən keçirilən şəxslərdən biri Prins Fərrux imiş. Ənvər paşa Prins Fərruxun Azərbaycandakı korpus komandanlığına namizədliyini nəzərdə tutmaqla bərabər, həmin korpusun qurulmasında iştirak edəcək zabitlərin seçilməsi üçün xüsusi bir komissiya da təşkil etdi. Onun tərəfindən N.Şeyxzamanlıya da bu komissiyanın işində iştirak etmək təklif olunmuşdu.
>
> N.Şeyxzamnalı bildirirdi ki, Prins Fərruxun spirtli işkiyə aludəliyinin şahidi olduqdan sonra Ənvər paşa ilə növbəti görüşlərin birində Prins Fərruxun dəyişdirilməsini və onun yerinə qardaşı Nurunun təsdiq edilməsini xahiş etdi.

N. Şeyxzamanlının yazdıqlarından belə məlum olur ki, Nuru bəyin Qafqaz İslam Ordusu komandanı vəzifəsinə təyin edilməsi Ənvər paşanın ilkin qərarı deyildi. Çox güman ki, Ənvər paa Nurunun cavanlığını nəzərə alaraq bu vəzifəyə təyin etymək istəməmişdi. Amma o da məlum deyil ki, Nurunun bu vəzifəyə təyin edilməsi məhz N.Şeyxzamanlının xahişi ilə bağlı idi, yoxsa burada başqa səbəblər də mövcud idi. Bununla belə, Nurunun bu vəzifəyə gətirilməsi onda Azərbaycanla bağlı istəklərinin icrasına bir arxayınçılıq yarada bilərdi.

Bir gün sonra Ənvər paşa əvvəlki qərarını dəyişməyə və Nurunu Qafqaz İslam Ordusu komandanı təyin etməyə razı oldu. Bunu da N.Şeyxzamanlı yazırdı. Onun bildirdiyinə görə, Ənvər paşa bu xəbəri ona böyük bir sevinclə çatdırdı və heç şübhəsiz ki, Ənvər paşa da belə bir qərra qəbul etməsindən razı qalmışdı və onun sevinci də bununla bağlı idi.

Nuru Qafqaz İslam Qrdusu komandanı təyin ediləndə artıq bu qurumun yaradılması üçün təşkilati işlərə başlanmışdı. Bir sıra məsul vəzifələrə kadrlar seçilmiş və digərlərinin seçilməsi də davam edirdi. Nuru paşa Qafqaz İslam Ordusunun komandiri təyin ediləndən sonra bu iş onun rəhbərliyi altında aprılırdı. Nağı bəy Şeyxzamanlı da bu məqsədlə yaradılmış komissiyanın işində müşahidəçi kimi iştirak edirdi.

> Günlər keçdi Nuru paşa baş qərargahın rəisi Nazim bəylə birlikdə (İstiqlal savaşında Sakaryada şəhid olmuşdur) səylə işləyirik və şəxsi heyəti tam toplayırıq. Mən vəziyyətdən çox razıyam. Nuru paşa həm özü çalışır, həm də bizi işlədir. Bu arada görüşümüzün birində Ənvər paşanı çox razı qalmış gördüm...

Nuru bəy dərhal lazım olan zabitlərin seçilməsi üçün təşkil edilən komissiyanın işinə rəhbərliyə başladı. N.Şeyxzamanlı da bu komissiyanın işində iştirak edirdi. Lakin zabitlərin seçilməsi işinə qarışmırdı. Yalnız bir dəfə Qafqazdan olan bir mollanın təşkil edilən heyətin tərkibinə düşmək istəyinə qarşı çıxaraq buna lüzum olmadığını bildirdi və Nuru bəy də onun təklifini müdafiə etdi.

Bir müddətdən sonra Qafqaz İslam Ordusunun təşkili üçün İstanbulda görülən hazırlıq işləri başa çatdı. Ancaq bir məsələ var idi ki, Nuru yarbay rütbəsində idi. Onu da yenicə almışdı. Nuru paşa Qafqaz İslam Ordusunun tərkibinə daxil olan bir nece birliyə, çoxsaylı hissələrə rəhbərlik etməli idi. Həmin birlik və hissələrə rəhbərlik edən bır çox zabitlərin rütbəsi isə Nurunun rütbəsindən yüksək idi. Ona görə də Nuru ilə Qafqaz İslam Ordusunun tərkibindəki birlik və hissələrin komandirləri arasında rütbə uyğunsuzluğu yarana bilərdi. Belə uyğunsuzluğun aradan qaldırılması üçün Sultan Mehmet tərəfindən Nuruya feriq (general-leytenant) rütbəsi verildi. Yəni yenicə yarbay rütbəsi almış Nuru birdən-birə feriq oldu və ona sultan tərəfindən həm də bütün Qafqaz İslam Ordusu hissələrinə komandanlıq vəkaləti verildi. Padşah tərəfindən verilmiş fərmanla Nuru paşa eyni zamanda padşah yavəri elan edilmişdi və o, Qafqazda Türkiyə sultanının siyasətini təmsil etmək hüququ qazanmışdı.

Nuru paşadan öncə Qafqaz İslam Ordusuna rəhbərllik etmək o vaxtlar albay (polkovnik) olan Kazım Qarabəkir paşaya da təklif olunubmuş. Kazım Qarabəkir paşanın sonralar yazdığına görə bu təklif ona Ənvər paşa tərəfindən 1918-ci il fevral ayının 23-də edilibmiş. Ancaq Kazım bəy həmin vaxt Ərzrumun azad edilməsi uğrunda döyüşlərdə iştirak etdiyindən o, Ənvər paşadan hələlik Ərzrum ətrafında qalmasına razılıq verilməsini xahiş etmiş və belə bir razılığı da almışdı. Ərzrum alındıqdan və Trabzon konfransı işə başladıqdan sonra bu ərazilərdə bir sakitlik yarandığı üçün Kazım Qarabəkir paşa daha qaynar bir cəbhə olacaq Qafqaza getməyə və Azərbaycanda yaradılacaq orduya rəhbərlik etməyə hazır olduğunu Ənvər paşaya çatdırdı. Lakin Ənvər paşa bu vəzifəyə artıq qardaşı Nurunun təsdiq edildiyini və Şimali Qafqazda yaradılacaq qüvvələrə komandanlıq etməyi ona tapşıra biləcəyini söylədi. Kazım bəy biləndə ki, Şimali Qafqaza gedərsə birdən birə yarbaylıq rütbəsindən feriqlik rütbəsinə yüksəlmiş Nuru paşanın komandirliyi altında xidmət edəcək, onda bu təklifdən imtina etdi.

İstanbulda təşkil edilmiş komissiya tərəfindən zabitlərin seçilməsi Qafqaz İslam Ordusunun qurulması istiqamətində atılan ilk əməli addımlardan biri idi. Həmin komissiya tərəfindən Qafqaz İslam Ordusunun qərargahı üçün 20 nəfərədək zabit seçildi. Komissiya işini bitirən kimi Nuru paşa təyyarə ilə Mosula yola düşdü.

Nuru paşanın hansı hisslərlə Azərbaycana yola düşdüyünü söyləmək çətindir. O öz xatirələrində bu barədə heç nə yazmamışdır. Ancaq Nağı bəy Şeyxzamanlının yuxarıdakı qeydlərindən görmək çətin deyil ki, Azərbaycan səfərini həm Nuru paşa, həm də Ənvər paşa həyəcanla yaşayırdılar. Nuru paşa üçün yeni bir həyat başlayırdı. Bu elə bir həyat idi ki, Nuru paşa orada bütün gənclik çılğınlıqlarını kənara qoymalı, yaşına uyğun gəlməyən insani müdrikliyi ilə siyasi, diplomatik və hərbi müdrikliyi birləşdirməli, həm Türkiyə rəhbərliyinin, həm də Azərbaycan xalqının ümidlərini

doğrultmalı idi. Nuru paşa sanki onun üçün hələ aydın olmayan bir səhnəyə atılırdı. Bir qədər əvvələ gələrək qeyd etmək lazımdır ki, bəzi gərginliyə baxmayaraq Nuru paşa öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirdi,vaxt ötdükcə isə onda Azərbaycan xalqının haqq işinə bağlılıq daha da artmaqda idi. Qafqaz İslam Ordusu ləğv edilərkən Nuru paşanın türk ordusundan istefa verərək Azərbaycan ordusu sıralarına keçməyə çalışması da bu bağlılığın bir təzahürü idi.

Azərbaycana yollanması haqqında Nuru paşa öz xatirələrində belə yazır:

> 1918-ci ilin yanvar ayının əvvəllərində Trablusqərbin (Libiya) vəziyyətini müzakirə etmək üçün Afrika Qrupları Komandanlığının mərkəzi olan Mısratadan sualtı gəmi ilə və Pola yolu ilə İstanbula gəldim. Bu dövrdə rus inqilabı səbəbi ilə Qafqaz və Şərqin vəziyyəti əhəmiyyətli dərəcədə dəyişməyə başlamışdı. Şərq cəbhəmizin irəliyə əməliyyatlarını asanlaşdırmaq məqsədilə Qafqazın müsəlman və türk əhalisi yaşayan məntəqələrində təşkilatlanmaq vəzifəsi Baş Hərbi Qərargah tərəfindən məqsədəuyğun görülmüşdü. Əsasən, Qafqaz müsəlmanları tərəfindən də yardım məqsədi ilə 1917-ci ilin oktyabr ayında bir heyət Mosula, 1918-ci ilin mart ayında isə Batum yolu ilə bir heyət İstanbula göndərilmişdi. 6-cı ordu vəziyyəti tədqiq üçün üç zabitini Qafqaz nümayəndə heyətinə daxil edərək Qafqaza göndərdi. Bu zaman Qafqazda hərbi quruculuq işləri görmək vəzifəsi bir neçə nəfərə təklif edilmiş və nəticədə Baş Hərbi Qərargah mənim namizədliyimi məqsədəuyğun bilib bu vəzifəni israrla mənə tapşırmışdı. Təxminən iyirmi zabitdən ibarət bir heyətlə dərhal yola çıxaraq 1918-ci il martın 25-də Mosula çatdıq. Əvvəlcə, 6-cı ordudan Qafqaza göndərilən artilleriya baş leytenantı Müzəffər bəyin (hazırda Hərbi Akademiya müəllimlərindən qərargah polkovnik-leytenantı) Mosula geri qayıtdığını gördük. Müzəffər bəyin məlumatına əsasən Qafqazdakı vəziyyət hərbi quruculuq işləri görmək üçün şəraitə uyğun idi.

Nuru paşa Mosulda ikən Müzəffər bəydən aldığı məlumat mart qırğınlarından sonra Azərbaycanda vəziyyətin xeyli mürəkkəbləşdiyini təsdiqləyirdi. Eşitdiyi bu xəbərdən sonra Nuru paşa Azərbaycana doğru hərəkəti sürətləndirməyə çalışdı. Ancaq Mosulda da o, bir sıra təşkilati işlərlə məşğul olmalı idi. Hər şeydən əvvəl isə Qafqaz İslam Ordusunun təşkili üçün zəruri olan kadrlar seçilməli idi. Bu məqsəd üçün Mosulda 6-cı Ordudan 149 zabit və məmur, 488 gizir və əsgər seçildi. Bütün bu şəxslər də 1918-ci il aprel ayının əvvəllərində Azərbaycana yola salındı. Seçiləcək digər zabitlər və hərbçilər isə sonradan Azərbaycana yola salınmalı idilər.

Nuru paşa Mosuldan 1918-ci il aprel ayının 8-də yola düşdü. Səfər zamanı ərzaq çətinlikləri olduğu üçün o, bütün dəstəni 20-30 nəfərlik qruplara böldü və bu qruplar bir birinin ardınca hərəkətə başladı.

Nuru paşanın Mosuldan hərəkətə başlaması ərəfəsində, yəni 1918-ci il aprel ayının 5-də Ənvər paşa Qafqaz İslam Ordusunun təşkili və vəzifələrinə aid Təlimatnaməni təsdiq etdi. Bu Təlimatnamə Qafaz İslam Ordusunun qarşısında dayanan vəzifələri və fəaliyyət istiqamətlərini müəyyənləşdirən bir sənəd idi. Bu sənəd imzalananda Nuru paşa Azərbaycana doğru hərəkətini davam etdirməkdə idi.

Nuru paşanın zabit heyəti çətin yol şəraiti ilə irəliləyərək Rəvandüzdən keçib aprelin 26-da Pesvaya, aprelin 29-da Savucbulağa və may ayının 9-da Təbrizə çatdı. Heyət bir neçə gün Təbrizdə ləngiməli oldu. Bu da Rumiyə (Urmiyə) gölü ətrafında gedən döyüşlərlə və Təbriizn özündə mövcud olan ictimai-siyasi şəraitlə bağlı idi. Rumiyə gölü ətrafında türk qoşunlar ilə erməni silahlı dəstələri üz-üzə gəlmişdilər. Yerli əhali erməniləri müdafiə edən ingilislərin və fransalıların mühasirəsindən qorxaraq Təbrizə axışırdı.

Digər tərəfdən də Təbrizdə osmanlıpərəst İttihad partiyası ilə irançı Demokrat partiyaı tərəfdarları arasında silahlı döyüşlər olmuşdu. Azlıqda qalan İttihad partiyasının tərəfdarları qaçaraq Nuru paşanın olduğu yerə pənah gətirmişdilər. Hələ Təbrizdə ikən Nuru paşa Bakıya can atan ingilis qoşun hissələri barədə məlumat toplamaq üçün onunla birlikdə olan İbrahim Kamal bəyə tapşırıq verdi. Yüzbaşı İbrahim Kamal bəy Rumiyə gölü ətrafından geri çəkilən ingilislərin vəziyyəti haqqında mümkün məlumatı topladıqdan sonra Gilan məntəqəsinə hakim olan Kiçik xan görüşməli, Azərbaycandakı İslam Ordusu hissələri ilə Kiçik xanın silahlı dəstələrinin İrandakı ingilis qoşunlarına qarşı birgə fəaliyyətinin nizamlanması imkanlarını öyrənməli idi. Sonra İbrahim Kamal bəy Ənzəlidən dəniz yolu ilə Bakıya gəlməli və şəhərdəki hərbi vəziyyət barədə məlumat toplayaraq Gəncəyə yollanmalı idi.
Nuru paşanın xatirələrindən:

> Ehtiyacımız olan kadrları qismən VI-cı Ordudan əldə edərək, 1918-ci il aprelin 8-də Mosuldan yola çıxdıq. Yolda ərzaq problemi səbəbi ilə, iyirmi-otuz nəfərlik qruplar şəklində Rəvandiz, 1918-ci il aprelin 26-də Pesva, 1918-ci il aprelin 29-da Savuçbulaq, 1918-ci il mayın 9-da Təbrizə çatdıq. 1918-ci il mayın 12-nə qədər Təbrizdə qalaraq, Alacücəyə Qaradağ yolu ilə 1918-ci il mayın 25-də Arazı sal ilə keçərək Azərbaycanın Zəngəzur bölgəsinə gəldik.
> İrandan keçdiyimiz zaman, 6-cı ordu hissələri Rumiyə (Urmiyə - red.) gölünün qərbindəki ermənilərlə mübarizə aparırdı. Dəstəmizin Rumiyə gölünün şərqindən Təbrizə tərəf hərəkət xəbərini iranlılar yaydığından Rumiyədə ermənilərə yardım edən ingilislər və fransızlar mühasirədən qorxaraq, Rumiyəni tərk edib, bizdən bir gün əvvəl Təbrizə gəlmiş və ertəsi gün cənub istiqamətinə tərəf geri çəkilmişdilər. Təbrizdə bağlı olan konsulluq binasına yerləşdik. Burada qaldığımız bir-iki gün içində İran siyasi partiyalarından Osmanlı tərəfdarı olan İttihadla istiqlaliyyətçi və İranpərəst olan Demokrat Partiyası arasında silahlı münaqişə oldu. Zəif olan İttihad konsulluqdan yardım istəyərək, bir müddət bizim himayəmizdə qaldı. Rumiyədən geri çəkilən ingilislər haqqında yaxından məlumat almaq və Gilan bölgəsini idarə edən Kiçik xanla görüşdükdən sonra imkan olarsa, Ənzəli vasitəsilə Bakıya gedərək və Bakı haqqında lazım olan məlumatı alıb Gəncədə bizə qoşulması üçün kapitan İbrahim Kamal bəyə (indi Afina hərbi attaşesi) tapşırıq verdim.

Bundan sonra Nuru paşa və onu müşayiət edən heyət Azərbaycana doğru hərəkətini davam etdirdi və may ayının sonlarına yaxın Araz çayına yetişdilər.

Nuru paşanın və türk qoşun hissələrinin Azərbaycana gəlişi və qarşılanması

Nuru paşanın heyəti 1918-ci il may ayının 12-də Savucbulaq-Təbriz-Alacücə yolu ilə Təbrizdən hərəkət edərək həmin ayın 20-də Araz çayına çatdı və heyət çayı sal ilə adladı. Nuru paşanın dəstəsi Azərbaycanın Zəngəzur bölgəsinə daxil oldu və elə ilk andan da yerli əhalinin böyük sevinci və şadlığı ilə qarşılandı. Dəstənin Zəngəzura çatdığı vaxt burada erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı təcavüzkarlığı çox geniş miqyas almışdı. Bu təcavüzkarlığın qarşısını almaq və yerli əhalidən müqavimət dəstələri yaratmaq üçün Nuru paşa bir neçə türk zabitini həmin bölgədə saxladı. Yüzbaşı Xəlil bəy adlı bir zabitlə başqa iki türk zabiti isə Naxçıvan və Ordubad

bölgələrinə göndərildi. Həmin zabitlər də bu məntəqələrdə erməni təcavüzünə qarşı yerli müqavimət dəstələrinin təşkilatlandırılması ilə məşğul olmalı idi.
Nuru paşanın xatirələrindən:

> Ermənilər tərəfindən sıxışdırılan Naxçıvan və Ordubad bölgəsində hərbi və mülki quruculuq işləri görmək üçün kapitan Xəlil bəyi iki zabitlə ora göndərdim. Azərbaycana daxil olanda yerli xalq tərəfindən böyük coşqu ilə qarşılandıq. Bu dövrdə Qarabağ, Zəngəzur kimi ermənilərin nisbətən sıx yaşadığı məntəqələrdə tez-tez münaqişələr baş verirdi. Ermənilər silahlı qüvvələrə malik olduğundan burada müsəlmanlara nisbətən üstün vəziyyətdə idilər. Bu kimi əhəmiyyətli məntəqələrə yanımdakı bəzi zabitləri komandir təyin edərək yolumuza davam edib Cəbrayıl  Ağdam-Tərtər (Bərdə) yolu ilə Yevlax stansiyasına gəldik. Hər tərəfdən gələn nümayəndələrlə görüşdük. Əvvəlcə qərargahımızı Nuxada təsis etməyi məqsədəuyğun gördüm. Lakin ermənilərin təhdidlərinə qarşı mübarizə aparmağa müvafik və dəmiryoluna malik Gəncəyə üstünlük verərək, həmin gün axşam yola çıxdıq və 1918-ci il mayın 25-də şəhərə gəlib çatdıq.

Nuru paşa xatirələrində qeyd edirdi ki, Cəbrayıl-Ağdam-Tərtər marşrutu ilə Yevlaxa gəlmişdir. May ayının 24-də Yevlaxda izdihamlı qarşılanma oldu. Nuru paşa heyəti ilə birlikdə hələ Qarabağda olarkən bundan Gəncədə xəbər tutmulmuş və həmin heyətin qarşılanması üçün xüsusi bir heyət təşkil edilmişdi. Bu heyət Nuru paşanı hələ Qarabağda ikən qarşılamış və oradan Yevlaxa qədər müşayiət etmişdi.
Azərbaycanın nicatının türk ordusunun xilaskarlığında görən xalr kütləleri də Nuru paşanın qarşılanmasına toplanmışdı. Nuru paşaya görə Qafqaz İslam Ordusu qərargahının əvvəlcə Nuxada yaradılması qərara alınmışdı. Lakin bir tərəfdən Nuxa ətrafında erməni dəstələrinin fəallığı, digər tərəfdən də bu şəhərin əsas nəqliyyat xətlərindən uzaq olması üzündən qərargahın Gəncədə təsis edilməsi məqsədəuyğun bilindi. May ayının 24-də axşam Yevlaxdan yola düşən heyət səhərisi gün, yəni 1918-ci il may ayının 25-də Gəncəyə daxil oldu.
Türkiyə hərbi qüvvələrinin tərkibində Azərbaycanda olmuş Mucib Kamalyeri Nuru paşanı müşayiət edən dəstənin tərkibi haqqında belə yazmışdı:
Ənvər paşanın qardaşı və Qafqaz İslam Ordusunun komandanı ünvanını daşıyan fəxri feriq Nuru paşa böyük qərargahı ilə birlikdə İran yolu üzərindən və alayımızdan iki həftə əvvəl Gəncəyə gəlmiş bulunurdu. Qərargahını şu zevatdan təşkil etmişdi – ordu kurmay başqanı bir alman albay, ərkani-hərbiyyəsi – kyrmay minbaşı Nazim bəy (Kutahyada şəhid olmuşdur), kurmay minbaşı Tofiq bəy ( cümhur başqanının əski katibi), kurmay minbaşı Nəim bəy, topçu komandanı minbaşı Kamal Doğan ( əski Qırxlareli məbusu), ordu yavəyi teğmən Asif əfəndi (Qılınc Əli bəy), üstteğmən Müzəffər ( rəqaüddə olan orgeneral Müzəffər Tuğsavul), süvari yüzbaşı Sami ( Atatürkün yavərlərindən minbaşı Sami Yanardağ), Əhməd Ağaoğlu (Səməd Ağaoğlunun babası – siyasi müşavir).
M.Ə.Rəsulzadə Nuru paşanın Gəncədə qarşılanmasını belə təsvir edirdi:

> Mavərayi-Qafqaz heyəti-mürəxxəsəsi ilə türk heyəti-mürəxxəsəsi Batumda məşğuli-müzakirə ikən Nuru paşa ilə bərabər məiyyətində bulunan bir kaç zabiti İran və Qarabağ təriqilə Gəncəyə varid olmuşlardı. O zaman müdhiş bir anarşiyə məruz, digər tərəfdən də bolşevik təcavüzü ilə təhdid olunan Gəncə Nuru paşanı göydən enmiş xilaskar bir mələk kimi tələqqi etmişdi. Xəlqin kəndisinə yapdığı istiqbal Gəncə tarixindəə görülməmişdi.

Nuru paşa Gəncəyə gəldikdən sonra dərhal Azərbaycanın müxtəlif məntəqələri ilə

əlaqə yaratdı və həmin məntəqələrdə müqavimət dəstələrinin təşkilinin genişləndirilməsinə cəhd gösgərdi. Onun sözlərinə görə, az zaman içərisində Gəncə, Qazax, Zaqatala, Nuxa, Ağdam, Ağdaş, Cəbrayıl, Qarabağ və Zəngəzurun şərq tərəflərini əhatə edən məntəqələrdə asayişin təmini üzrə idarə və komandalar təsis edilmişdi.

Nuru paşanın xatirələrindən:

> İlk olaraq, Azərbaycan vilayətlərinə mülki və hərbi məsləhətçi kimi zabit heyəti göndərildi. Qəza və nahiyələrdə isə yerli əhalidən ibarət mülki təşkilat yaradılmışdı. Bu şəkildə, qısa zamanda nizam-intizam bərpa edilmiş, Gəncə, Qazax, Zaqatala, Nuxa, Ağdam, Ağdaş, Cəbrayıl, Qarabağ məntəqələri ilə Zəngəzurun şərq hissəsini əhatə edən geniş bir sahədə idarə və komandanlıq yaradılmışdı.

Qazax istiqamətində isə Gürcüstanla sərhəddə vəziyyət heç də belə sakit deyildi. Alman hərbçiləri tərəfindən rəhbərlik edilən müştərək gürcü-alman hərbi bölmələri Gürcüstanın bütün hərbi nəqliyyat qovşaqlarını nəzarət altına almaqla Sadaxlı ilə Qarayazını da işğal etmişdilər. Bununla kifayətlənməyən müştərək qüvvələr Poylu körpüsünün cənubuna adlayaraq Poylu və Ağstafa stansiyalarını da nəzarət altına aldılar. Bu stansiyaların hər birində bir müştərək dəstə yerləşdirməklə bərabər, orada alman və gürcü bayraqları qaldırılmışdı. Nuru paşa bildirirdi ki, bunun dözülməz olduğu üçün yerli əhali ayağa qalxmış, gürcü və almaq bayraqlarını yerə endirməklə bərabər, yad qüvvələri də Kür çayının o biri tərəfinə qovmuşdular.

Mövcud olan faktlardan aydın olur ki, Nuru paşa Gəncəyə çatması barədə Kərim bəy Vəkilov adlı birisi ilə Batumda olan 3-cü Ordu komandanı Vehib paşaya məlumat göndərmiş və onun diqqətini Azərbaycanda olan milli qüvələrin azlığına cəlb etmişdi. Həmin məlumatda bildirilirdi ki, bolşeviklər Dağıstan və Şimali Qafqazı tamamilə ələ keçirmək üzrədirlər. Hər yerdə ermənilərin təcavüzü artmaqdadır. Bakı şəhəri tezliklə tutulmazsa buralarda vəziyyət daha təhlükəli bir hal alacaqdır.

Nuru paşa daha sonra qeyd edirdi ki, azərbaycanlılardan təşkil olummuş korpusda şəxsi heyətin sayı çox azdır. Burada əsgərdən daha çox zabit vardır. Nuru paşaya görə, korpusda cəmi 1000 nəfər var idi və onların da yarısı türk əsirləri idi. Ora görə də qeyd edirdi ki, Bakı məsələsi yardımsız həll edilə bilməz. İslam Ordusu komandanı əlavə edirdi ki, Azərbaycanda xeyli taxıl ehtiyatları mövcuddur və əhali səbirsizliklə türk qüvvələrinin gəlməsini gözləyir.

Nuru paşanın söylədiyi rəqəm müəyyən mübahisə doğursa da, onun yazdıqları bütünlükdə Azərbaycanda çox mürəkkəb bir vəziyyətin mövcud olduğunu təsdiqləyirdi. Məhz belə bir mürəkkəb vəziyyətdə Azərbaycan xalqının həyatında tarixi bir hadisə baş verdi. 1918-ci il may ayının 28-də fəaliyyətini dayandırmış Zaqafqaziya seyminin Azərbaycan fraksiyasının üzvlərindən təşkil edilmiş Milli Şura Azərbaycanın dövlət müstəqilliyini elan etdi. Milli Şura tərəfindən qəbul edilən və yeni dövlət quruculuğunun əsas istiqamətlərini müəyyənləşdirən "İtiqlal bəyannaməsi"ndə Azərbaycanın müstəqilliyinin qazanıldığı tarixi şərait belə təsvir olunurdu:

> Böyük Rusiya inqilabı gedişində Rusiyada dövlət orqanizminin ayrı-ayrı hissələrinin dağılması və rus ordusunun Zaqafqaziyanı tərk etməsi ilə burada yeni siyasi vəziyyət yarandı. Taleləri öz ixtiyarına buraxılmış Zaqafqaziya xalqları Zaqafqaziya Xalqları Demokratik Federativ Respublikasını yaratdılar. Lakin siyai hadisələrin sonrakı gedişində gürcü xalqı Zaqafqaziya Federativ Respublikaının

tərkibindən çıxmağı və müstəqil Gürcüstan Demokratik Respublikası yaratmağı münasib bildi. Rusiya və Osmanlı imperiyası arasındakı müharibənin dayandırılması, eyni zamanda ölkə daxilindəki görünməmiş anarxiyanın ləğvi ilə bağlı olan Azərbaycanın mövcud siyasi durumu Azərbaycan xalqlarını düşdükləri ağır vəziyyətdən çıxartmaq üçün Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan azərbaycanın öz dövlət orqanizmini yaratmaq zərurətini qarşıya çıxarır.

Dövlət müstəqilliyi elan edilərkən Milli Şuranın hakimiyyəti Azərbaycanın yalnız bir hissəsinə yayılırdı. Bakı və onun ətrafı isə bolşeviklərin hakimiyyəti altında idi. Bu parçalanmanı aradan qaldırmaq, Azərbaycanın ərazisində mövcud olan hər cürə anarxiyaya son qoymaq və bütünlükdə qazanılmış olan dövlət müstəqilliyini qorumaq üçün milli müdafiə qüvvələrinin möhkəmləndirilməsi yeni dövlət quruculuğunun aktual vəzifələrindən biri kimi qəbul edilmişdi

Belə bir vəziyyətdə Nuru paşa məktubla Ənvər paşaya müraciət etdi və Azərbaycanda mövcud olan qüvvələrlə Qafqaz İslam Ordusu komandanlığı qarşısına qoyulan vəzifələrin həllinin qeyri-mümkün olduğunu onun da nəzərinə çatdırdı. İyun ayının 2-də yazdığı cavab məktubunda Vehib paşa Nuru paşanı Gəncəyə çatması münasibətilə təbrik etdi və qaldırdığı məsələ ilə əlaqədar bunu bildirdi:

> ...Azərbaycan hökuməti-müstəqileyi-islamiyyəsinin tələbi əsasında islamları bolşevik təcavüzündən qurtarmaq üçün qarışıq qüvvəli bir müfrəzəni Qazax üzərindən Gəncə istiqamətinə göndərəcəyəm. Bu müfrəzənin süvariləri Qazax ilə Gəncə arasındakı stansiyaları mühafizə edəcəkdir.

Vehib paşanın yazdıqlarından aydın olur ki, bu dəstə Qafqaz İslam Ordusu tərkibinə daxil olmalı deyildi və müstəqil fəaliyyət göstərməli idi.

Nuru paşanın xatirələrindən:

> Azərbaycanı şərqdən və cənub-qərbdən təhdid edən düşmənə qarşı sadəcə yerli qüvvələrlə müqavimət göstərmək mümkün olmadığından mənim tələbim əsasında 5-ci Qafqaz firqəsi əmrimizə göndərildi.

3-cü Ordu komandanının bu qərarına uyğun olaraq Qrup komandanı 5-ci Qafqaz firqəsi vasitəsiylə 9-cu Qafqaz alayına hərəkətə hazırlaşmaq əmri verdi. İyun ayının 2-də verilmiş həmin əmrdə göstərilirdi ki, nəzərdə tutulan məntəqələrdə alman hərbi dəstələri mövcud olarsa onlara məntəqəni tərk etmək təklif edilsin. Əgər bu xəbərdarlığa qulaq asmazlarsa onda silahları əllərindən alınaraq əsir edilsinlər və Qarsa yola salınsınlar. Müqavimət göstəriləcəyi halda silahdan istifadə olunması tələb edilirdi.

Əmrə əsasən Qazaxdan başlayaraq Gəncəyədək olan dəmir yolu xəttini süvari minbaşı Zehni bəyin komandası altında olan mürəttəb ikinci süvari alayı (türk süvari alayı idi-M.S.) qorumalı idi. Tərkibinə 19-cu və 42-ci bölüklər daxil olan bu alay Cəlaloğludan yola düşməli və ən qısa yolla özünü Qazaxa çatdırmalı idi. Alayın bir bölməsi Qazaxda qalaraq stansiyasın mühafizəsini öz üzərinə götürməli, qalan hissəsi isə irəli hərəkət etməli idi. Gəncəyə kimi olan stansiyaların hər birində bir zabit tərəfindən rəhbərlik edilən bölmələr dayanmalı idi.

Zehni bəyin komandası altında olan süvari alayı müstəqim şəkildə Qrup (3-cü Ordu komandanına tabe olan bir hərbi birlik idi –M.S.) komandanlığına tabe olmalı və bu komandanlıqla öz əlaqəsini 5-ci Qafqaz firqəsi vasitəsilə qurmalı idi. Bu əlaqəni yaratmaq üçün Sadaxlı və Sənain stansiyalarının hər birində bir zabitin rəhbərliyi altında 15 süvari dayanmalı idi. Həmmin süvarilər Tiflis-Qarakilsə dəmiryolu xəttini də nəzarət altında saxlamalı idilər. Borçalı bölgəsində türk zabitlərinin rəhbərliyi altında yaradılmış olan könüllü müqavimət dəstələri Sadaxlıdakı süvari postlarına qoşularaq

onları möhkəmləndirməli idilər. Qazax ətrafında təşkil edilmiş könüllü dəstələr isə buradakı süvari alayına qoşulmalı idilər. Zehni bəyin süvari alayı Qazaxdan Gəncəyə qədər olan dəmir yolu xəttinin mühafizəsini təmin etdikdən sonra 5-ci Qafqaz firqəsinin minbaşı Cəmil Cahid bəyin komandası altında olan 9-cu piyada alayı Gəncəyə doğru hərəkətə başlamalı idi. Alay Gəncədə yerləşməli və Qrup komandanlığının tabeçiliyində qalmalı idi. Gəncədə olduğu vaxt alay xidmətin təşkili ilə bağlı Nuru paşanın əmrlərini yerinə yetirməli idi. Gəncəyə hərəkət edən 9-cu piyada alayının tərkibində iki tabor, 10 ədəd pulemyot və iki ədəd top var idi. Qrup komandanının əmrinə əsasən 9-cu alay mümkün qədər toplu halda yeləşərək heç yerə dağılmamalı idi. İyunun 4-də səhər saat 6-da Cəlaloğlu-Pirvolnaya yolu ilə Gəncəyə doğru hərəkətə başlayan 9-cu alayda 1336 nəfər var idi ki, onlardan da 61 nəfəri topçu idi.

1918-ci il iyun ayının 7-də 9-cu Qafqaz alayı Qazaxa çatdı. Bir gün sonra, yəni 1918-ci il iyun ayının 9-da 9-cu Qafqaz alayının Gəncədə qarşılanması oldu. Bu alayın Gəncəyə yetişməsi yerli xalqın, milli mübarizə fəallarının və o cümlədən də elə Nuru paşanın böyük sevincinə səbəb oldu. Çünki bu alayın fəaliyyəti ilə Azərbaycanın istiqlalının qorunması, Azərbaycanın istiqlalına qənim kəsilmiş qüvvələrə güclü zərbə endirilməsi və nəhayət Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının konkret nəticələrə çatması üçün əməli işlər görə bilərdi.

Alayın bölük komandiri Mucib Kamalyeri öz xatirələrində Gəncədə necə qarşılanmalarını da təsvir etmişdir:

> Qatarın sürəti birdən-birə azalmağa başladı Lokomotivin uzun-uzun solumaları da getdikcə azalırdı. Qatarın pəncərələrini dolduran yağış başlar Azərbaycan bayraqları ilə bəzədilmiş olduqca böyük bir vağzala girildiyini gördülər. Şübhəsiz burası Gəncə idi (9 iyun 1918).
>
> Gəncə stasion meydanında möhtəşəm qarşılanmanın sevinc və həyəcanı alayımızı həqiqətən sərxoş etmişdi. Artıq incəbelli, Qafqaz qiyafətli azəri türklərinin sıcaq çevrəsi içində idik. İndi o anı görmənin, yaşamanın həyəcənını dilə gətirmək asan deyildir. Ancaq bu qədər deyə bilərik ki, əsrlərdən bəri əsarət altında qalmağa məhkum edilmiş olan irqdaşlarımızın hürriyət və istiqlallarına qovuşmalarının sonsuz sevincini paylaşdığımız olağanüstü bir bayran günü idi o gün.
>
> Qatarımız Gəncə stansiyaına girdiyi zaman Nuru paşa məiyyəti ilə bizi qarşılaynların ən başında yer almışdı. Çox gənc, qara saqqallı və yaraşıqlı bir insan idi. Qatardan endiyimiz yerdə, həmən oradaca ona qarşı toplu halda rəsmi vəziyyət alan subaylara bu qısa müraciətdə bulundu:
>
> -Ənvər paşanın Azərbaycanda və Rusiyadakı bütün türk aləmində ümid və sevgilərlə anıldığını, onun böyləsinə yayılmış şöhrətindən istifadə edilməsi məqsədilə özünün ordu komandanlığına təyin edilmiş olduğunu söylədi. Fəqət ən ağır vəzifə məsuliyyətlərinin tarixi şərəfi ilə bərabər bizlərin çiyinlərinə yüklənmiş olduğunu bilməqimizin lazım gəldiyini də əlavə etdi...
>
> İndi bizdən əvvəl Gəncəyə gəlmiş bulunan Nuru paşa və kurmay heyətinin azərbaycanın iş savaşlarını dəqiq anlayışla gözdən keçirmiş olduqları pək təbii idi. İşdə bu ordu qərargahından alınan əmrə görə, bacarıqlı alay komandirimiz daha o gecə taborları mümkün olan cəldliklə və düzənlə hərəkətə keçirdi. Bu səfərdə Azərbaycanın müqəddəs istiqlalı uğruna yeni başdan müharibələr verilməsi gərəkiyordu .

Türk qoşun hissələrinin qarşılanmasına Azərbaycanın dövlət və hökumət rəhbərləri, habelə Nuri paşa və onunla bərabər artıq Gəncədə olan türk zabitləri də çıxmışdılar. Türk hissələrinin Gəncəyə gəlməsi Nuru paşanın da böyük sevincinə səbəb olmuşdu. Çünki bu qüvvələrin yetişməsi ilə Nuru pasa onun qarşısına qoyulan vəzifələrin həyata kecirilməsi üçün daha real imkanlar əldə edirdi. Nuru paşanın türk qüvvələrini qarşılaması, onlara müraciəti, Nuru paşanı birinci defə görən türk zabıtlərinin onun haqqında ilkin təəssüratları barədə də Mucib Kamalyerinin xatirələrində maraqlı qeydlər vardır. Həmin qeydləri olduğu kımi oxucuların nəzərinə çatdırırıq:

Trenimiz Gəncə stansiyasına girdiyi zaman Nuru paşa məiyyət ərkanı ilə bizi qarşılayanların ən başında yer almışdı. Çox gənc, qara saqqallı və yakışıqlı bir insandı. Trendən endiyimiz yerdə, həmən oracada kəndisinə qarşı toplu halda rəsmi vəziyyət alan subaylara bu qısa xitabda bulundu- Ənvər paşanın Azərbaycanda və Rusiyadakı bütün türk aləmində ümid və sevgilərlə anıldığını, onun belə yayılmış şöhrətindən istifadə edilməsi məqsədiylə kəndisinin ordu komandanlığına təyin edilmiş olduğunu söylədi. Fəqət ən ağır vəzifə məsuliyyətlərinin tarixi şərəfı ilə bərabər bizlərin omuzlarına yüklənmiş olduğunu bilməmiz lazım olduğunu da eklədi .

Subaylar Osmanlı ordusunda yarbay olan bu yeni paşanı mübhəm düşüncələr içərisində dinləmisdilər. Amma bir kaç ay keçmədən onun ciddi bir əs-
gər, 30 yaşında fərağəti-nəfs sahibi bir insan, mütəvazi bir qəhrəman olduğu anlaşılmış, kəndisinə istisnasız hönüldən baglanılmışdı.

Bu sətirləri yazarkən temmuz 1967-də Nuru paşaya Azərbaycanda yavərlik etmiş olan sayın Qılınc Əli bəyə paşanın xüsusi, rəsmi həyatı haqqındakı fıkir-lərini telefona sordum. Bir cümlə ilə ifadə etdilər:

- Böyük vətənpərvər, enerjili və məlaikə kimi bir insandı

Nuru paşanın rəhbərliyi altında türk qoşun hissələrinin xalqın köməyinə yetişməsi Azərbaycanın ziyalılarının və yaradıcı adamlarının da böyük sevincinə səbəb olmuş və onların yaradıcılıq mövzusuna çevrilmişdi. Qələm sahibiəri türk qoşun hissələrinin gəlməsini və onların köməyi ilə xalqın nicat tapacağını böyük sevinc və iftixarla tərənnüm edirdilər. Belə əsərlərdə təkcə müəllifin deyil, bütün xalqın sevincini və şadlığını oxumaq mümkündür. Şair Əhməd Cavadm "Ey əsgər" şerindəki aşağıdakı bəndlər bu xilaskar orduya bəslənən ümidləri,arzuları,sevgiləri ifadə etmək baxımından xarakterik nümunədir:

... Qardaşlığın fərmanına baş əyib,
Məzlumların imdadına yetişdin.
Qaranlıqda süngü sana yol acdı,
Sən o yoldan muradına yetişdin.
Yürü,yürü batan günün izinə,
Gülümsəyir doğan günəş yüzünə.

... Şu qarşıkı duman çıxan bacadan,
Sən gəlmədən iniltilər çıxardı.
Geciksəydin, məzlumların fəryadı
Yeri, göyü, kainatı yıxardı.
Yürü, yürü batan günün izinə,
Gülümsəyir doğan günəş yüzünə.

Nuru paşanın və onun rəhbərliyi altında olan türk qoşunlarınm Azərbaycana gəlməsinin bədii əsərlərdə tərənnümü əhatəli bir tədqiqatın mövzusudur və bu istiqamətdə filoloq-tədqiqatçı, filologiya elmləri doktoru Alxan Bayramoğlu xeyli işlər görmüşdür. Onun lütfkarlıqla təqdim etdiyi aşağıdakı iki şeir də bədii və ümumbəşəri əhəmiyyəti ilə maraq doğurur. Bu şeirlərin birincisi Salman Mümtaza məxsusdur. "Öyün, millət" adlanan həmin şeiri Salman Mümtaz Nuru paşaya həsr etmişdir. Müəllif bu şeirində Azərbaycan xalqının düşdüyü çətin vəziyyətə toxunaraq qardaş köməyinin yetişməsi ilə bütün ıztırablara son qoyulacağı ümidlərini ifadə edir:

... Təfaxür eylə, ey millət, muradın hasil oldu,
Daha əflakə yüksəlməz ənünü-ahu-əfqanın.
Ziyasız, o rus zülmündən o yüksək ruhun olmuşdu,
Tuturdu şişəyə hər dəm şərabi-nab tək qanın.
Qızılgül tək açıl gül, gör ki, türkün şanlı ordusu,
Rəvaq-ərşə nəsib etmiş böyük Osmanın ünvanın.
...Bütün mümtaz ellərdən olar türk milləti Mümtaz,
Sürər bundan sonra türklük şərəfli-şanlı dövranın.

Digər şeir isə Türkiyəli şair Arif Ürfan Qaraosmana məxsusdur. Filoloq A.Bayramoğlunun qeyd etdiyi kimi, türk ordusunun Qafqaza gəlişi, bu ordunun qardaş köməyinə yetişməsi, ona bağlanılan ümidləri doğruldacağı, bütün sınaqlardan üzüağ çaxacağı azərbaycanlı şaırlərlə yanaşı, türk şair və ədiblərinin əsərlərində də ilhamla vəsf olunurdu. Türk qoşun hissələri ilə bərabər Türkiyədən Azərbaycana bir çox qələm sahibləri də gəlmişdilər. Arif Ürfan Qaraosman da onlardan biri idi. Arif Ürfanın həm türk əsgərinin Azərbaycana gəlməsi şərəfinə, həm də Azərbaycan torpağında şəhid olmuş türk əsgərının xatirəsinə həsr etdiyi çox maraqlı şeirləri vardır. "Qafqaz türklərinə" silsiləsindən olan "Gül və sevin" şeirində Arif Ürfan türk qoşunlarıııın Qafqaza gəlməsinə öz sevincini ifadə edir və Qafqaz türklərini də bu tarixi hadisə münasibətiylə təbrik edir. Şeirdə deyilirdi:

Ey Qafqasiyanın nurlu səması,
Ey əcdadımın şirin yuvası,
Ey türk irqinin böyük anası,
Ey uca dağın münbit obası,
Gül,sevin, artıq sana biz gəldik,
Səni qurtarmaq üçün yüksəldik.

Həp ormanların matəm ağlardı,
Dərələrində qanlar çağlardı,
Yavrularını atəş dağlardı,
İxtiyari-gənc qara bağlardı,
Gülsün,sevinsin onlar, biz gəldik,
Səni qurtarmaq ücün yüksəldik.

Dünkü hal, dünkü atəş, dünkü qan,
Dünkü ələmlər, dünkü ah, hicran,
Dünkü əsarət, çəkilən xüsran,
Artıq yox onlar. Həp bitdi inan,
Gül, sevin, Qafqas, sana biz gəldik,

Səni qurtarmaq üçün yüksəldik.

Nuri paşa Azərbaycanın hər yerində belə bir məhəbbətlə qarşılandı. Azərbaycanda olduğu müddətdə isə gördüyü işlər ona olan məhəbbəti daha da artırdı.

Türk qoşun hissələrinin Azərbaycana göndərilməsi ilə bağlı Qrup komandanlığının istər yuxarıda toxunulan, istərsə də digər əmrlərində açıq-aydın qeyd edilirdi ki, bu hissələr təşkilati baxımdan Qafqaz İslam Ordusuna daxil deyildilər. Lakin həmin hissələr Nuru paşaya da onun qarşısında dayanan vəzifələrin həllində lazımi yardımlar göstərməli idi.

Türk ordusunun ilk qoşun hissələrinin Azərbaycana hərəkətə başladığı günlərdə Qafqaz İslam Xeyriyyə Cəmiyyətindən Rza bəy adlı birisi 3-cü Ordu komandanlığının yazışmalarından aydın olur ki, Rza bəy və onun yoldşları Qarsda Ordu rəhbərliyi ilə görüşərək həm türk qoşun hissələrinin Azərbaycana hərəkətini tezləşdirməyə çalışmış, həm də türk qoşun hissələrinin və bölmələrinin mövcud olacağı ərazilərdə yerli əhalidən könüllü dəstələrin təşkilində öz yardımlarını təklif etmişlər. Qrup komandanlığı tərəfindən Qafqaz İslam Xeyriyyə Cəmiyyəti üzvlərinin bu təşəbbüsü maraqla qarşılandı və onun həyata keçirilməsi üçün Azərbaycana göndərilən piyada və süvari alaylarının komandirlərinin Cəmil Cahid bəyə və Zehni bəyə lazımi tapşırıqlar verildi. Yerli əhalidən toplana biləcək dəstələrin rabitə postlarının gücləndirilməsində istifadə edilməsi xüsusilə məqsədəuyğun sayılırdı.

Bu planın həyata keçirilməsi üçün Qrup komandanlığl tərəfindən həm Gəncəli Rza bəy və yoldaşlarına şifahi təlimat verildi, həm də onların qaldırdığı təşəbbüsün icrası üçün "Cəlaloğlu, Voronsovka, Sadaxlı, Qaçağan, Şıxlı kəndləriylə Poylu stansiyasından etibarən Gəncəyə qədər olan on bir stansiyada təşkil edilmiş milis müxabirə postları və Gəncə, Qazax və Sadaxlı məntəqələrində cəm ediləcək milis əfradı haqqında təlimat" hazırlandı. Bu təlimatdan aydın görünürdü ki, türk ordusu rəhbərləri türk qoşun hissələrini Azərbaycana göndərərkən yerli əhalinin, ayrı-ayrı şəxslərin vətənpərvərlik təşəbbüskarlığına, onların gücünün və imkanlarının səfərbər edilməsinə, qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində fəaliyyət birliyinə böyük əhəmiyyət verirdilər. Yəni, həm xalqın türk qoşunlarına bəslədiyi sonsuz ümid və rəğbət lazımınca dəyərləndirilirdi, həm də xalq könüllülərinin Azərbaycanın nicatı üçün qarşılıqlı fəaliyyətə hazır olduğu nəzərə alınrdı. Rza bəy və yoldaşlarına verilən şifahi təlimatda Osmanlı dövlətinin Qafqaz müsəlmanlarının çağırışına səs verməsinin əsas məqsədi belə açıqlanırdı:

> Osmanlı hökumətinin Qafqaz islamları ilə birləşməsində bu məqsədlərin mövcud olması məmuldur:
>
> 1.Ermənilərin bilaxirə İrandakı ingilislərlə birləşərək Bakını işğal etmələrinə mane olmaq;
>
> 2.Bakıda islamlar ilə bolşeviklər arasındakı vüquya gəlməkdə olan müharibəyə müdaxilə etmək;
>
> 3. Əğləbi-ehtimal Bakı mənbələrinə vəziyyət etmək həvəsində bulunan almanların ehtiraslarına mane olmaq;
>
> 4. Xülasə Qafqaz islamlarını hər türlü təcavüzdən qurtarmaq.

Şifahi təlimatda bildirilirdi ki, Azərbaycanda türk hərbi hissələri komandirləri Azərbaycanda olan türk hərbi əsirlərini də hərbi xidmətə cəlb etməyi və onların yaşayış məntəqələrində öz başına gəzmələrinə imkan verməməlidirlər.

Azərbaycanlılardan ibarət könüllü dəstələrin tşkilinə gəlincə isə şifahi təlimatda bildirilirdi:

Qafqazın vəziyyəti yenidən başqa şəklə girə bilər. Belə bir hal baş verəndə Gəncədə bulunan əsgərlərimizlə irtibatımızın kəsilməməsi üçün indidən bu tədbirlər qəbul edilməlidir – Borçalı, Qazax və Gəncə məntəqələrinin hər birində 2-3 min kişilik milis (könüllü – M.S.) qüvvəsi hazır edilməlidir. Bunlar lazım gələndə Gəncə ilə Gümrü arasındakı yolu açıq bulundurmağa və yaxud başqa ehtiyaca görə istifadə ediləcəkdir. Milislərin təşkili sürəti haqqında təlimatda izahat vardır. Bu məqsədlə toplanacaq milislərə beş-altı min tüfəng və cəbəxana verə bilərik. Bunlar hazırdır. Həqiqətən isə yaraya biləcək nə qədər min kişinin çıxa biləcəyi mənə dərhal xəbər verilməsi kifayətdir. Mən silah və cəbbəxana göndərim.

Bu milislərin təyin edilən məntəqələrdə bütünlüklə toplu halda olmalarına ehtiyac yoxdur. Fəqət hər halda əldə bir qüvvə buluna bilməsi üçün bunların kafi miqdarı, yəni, mövcudun yarısına qədəri daimi toplu olmalı və ara-sıra biri digəri ilə əvəz edilməlidir. Kəndlərində olanlar öz işləri ilə məşğul ola bilərlər.

“Cəlaloğlu, Voronsovka, Sadaxlı, Qaçağan, Şıxlı kəndləriylə Poylu stansiyasından etibarən Gəncəyə qədər olan on bir stansiyada təşkil edilmiş milis müxabirə postları və Gəncə, Qazax və Sadaxlı məntəqələrində cəm ediləcək milis əfradı haqqında təlimat” adları çəkilən stansiyalar və Azərbaycan ərazisindəki bir sıra məntəqələrdə rabitə postlarının təşkilinə, bu postların, habelə nəqliyyat qovşaqlarının mühafizəsinə azərbaycanlı milis dəstələrinin cəlb edilməsinə həsr olunmuşdu. Bu məntəqələrdə canlı rabitə sisteminin necə qurulması və bu işə nə qədər sayda adamların cəlb edilməsinin mükəmməl şərhi verilmişdir. Rabitə işlərinin təşkilinə Gəncəli Rza bəy və onun yoldaşları da cəlb edilmişdilər. Təlimatın 5-ci bəndində deyilidi ki, Gəncəli Rza bəy yoldaşlarından ikisini Privolnaya ilə Qaçağan, üçünü isə Şıxlı və Gəncə arasındakı məntəqələrdə bu işlərin təşkili üçün vəzifələndirməli və onlar da hər həftənin bazar ertəsi və cümə günləri öz fəaliyyətlərinin nəticəsi barədə raport verməli idilər. Sadaxlı və Qazax bölgələrində yarısı süvari və yarısı qeyri-süvari olmaq üzrə 3 min nəfərlik milis dəstələrinin təşkili üçün də Rza bəy və yoldaşları məsul şəxsləri müəyyən etməli idilər.

Qazax-Gəncə arasındakı nəqliyyat qovşaqlarının təhlükəsizliyini təmin edəcək türk qoşun hissələinin hərəkətə başlayacağı günlərdə, yəni 1918-ci il iyun ayının 4-də Batumda Azərbaycan Cümhuriyyəti ilə Osmanlı dövləti arasında imzalanan müqavilədən sonra Azərbaycan tərəfindən hərbi yardımın istənilməsi hərbi əlaqələr istiqamətində yeni bir səhifə açıldı. Bu müqaviləyə əsasən, Azərbaycana təkcə mühafizə qüvvələri deyil, əməliyyat tapşırıqlarını yerinə yetirməyə qadir olacaq qüvvələrin göndərilməsi imkanı yarandı.

Müqavilənin imzalandığı gün Vehib paşa 5-ci Qafqaz firqəsinin Qafqaz İslam Ordusu tabeliyinə verilməsi barədə əmr imzaladı. Bu əmrə görə, firqənin 9, 10, 13-cü piyada alayları, bir topçu alayı dərhal öz mövqelərini təhvil verərək Azərbaycana doğru hərəkətə başlamalı idi

5-ci Qafqaz firqəsi əsas tərkibi ilə hərəkətə başlamazdan əvvəl Qazax-Gəncə yolunun mühafizəsi üçün vəzifələndirilmiş 9-cu piyada alayı, habelə mürəttəb 2-ci süvari alayı artıq Azərbaycan ərazisinə daxil olmuşdular. Alman hərbi hissələrinin Qazax-Gəncə dəmir yolu xəttinə ola biləcək hər cürə müdaxilə və təxribatlarının qarşısını almaq vəzifəsi daşıyan və minbaşı Xehni bəyin komandası altında olan iki bölükdən ibarət 2-cü süvari alayı iyunun 6-da artıq Azərbaycan ərazisində idi və tapşırılan vəzifənin icrası üçün lazım olan mövqelərdə qərar tutmuşdu.

9-cu piyada alayı iki piyada bölüyü ilə iyunun 4-də Cəlaloğludan hərəkət edib iyunun 7-dı Qazaxa çatdı. Alayın bir taboru əvvəlki məntəqədə qalmalı idi. Həmin tabor sonradan firqənin əsas qüvvələri ilə birlikdə Azərbaycana gəldi. Alayın əsas qüvvələri isə iyunun 9-da Gəncədə idi. Bu alayl 2-cü süvari alayının ümumi qüvvəsinə Gəncə müfrəzəsi adı verildi.

Türk qoşun hissələinin Azərbaycana gəlişi Nuru paşanın mübarizə əzmini və onun mübarizə imkanlarını xeyli gücləndirdi. Artıq mövcud olan hərbi qüvvələrlə bolşevik-daşnak qırğınlarının qarşısının alınması üçün ciddi tədbirlər həyata keçirmək mümkün idi. Sözsüz ki, yeni hərbi qüvvələrin gəlişi Azərbaycan xalqına böyük ümid çırağı yandırdığı kimi, Nuru paşada da ona tapşırılan vəzifənin icrasına əminliyi artırdı.

Bununla belə, qeyd etmək lazımdır ki, Qafqaz İslam Ordusunun strukturlarının formalaşması Azərbaycanın ictimai-siyasi həyatında müəyyən iz buraxmış bir hadisə ilə müşayiət olundu. Bu da ilhaqçıların fəaliyyətinin güclənməsi ilə bağlı idi. Türk qoşunlarının Azərbaycana gəlməsi ilə Osmanlı dövlətinin tərkibinə qatılmaq tərəfdarı olan ilhaqçılar həm Nuru paşa və ətrafındakılara, həm də ictimai-siyasi həyata olan təsirini xeyli gücləndirməklə dövlətdə siyasi böhranın yaranmasına yol açdılar. Azərbaycanın istiqlal mübarizənsinin tədqiqatçılarınndan olan H.Baykara bu hadisəyə qiymət verərkən yazırdı ki, Azərbaycan İslam Ordusunun komandiri olan Nuru paşa ağıllı bir general olsa da, siyasi görüşü o qədər də yetkin deyildi. Mürtəce ihaqçılar Nuru paşanın bu vəziyyətindən istifadə etmək istəyirdilər.

Nuru paşa özünün siyasi müşaviri Əhməd Ağaoğlunun dili ilə siyasətə qatılmayacağını və bir əsgər olaraq qaldığını bildirsə də ilhaqçılara geniş meydan verməklə əslində, Azərbaycanın ictimai-siyasi həyatında dəyişiklik yarada biləcək bir mövqedə dayanmışdı ki, bu mövqe də Milli Şuranın buraxılması və hökumət böhranı ilə nəticələndi. Nuru paşa Azərbaycanda öz istəyinə uyğun gələn bir hökumət qurmaq fikrini də həyata keçirmək istəyirdi. Halbuki, türk qoşunlarının Azərbaycana gəlişi Azərbaycanın müstəqil bir dövlət kimi Osmanlı dövləti ilə bağladığı müqavilə əsasında baş vermişdi və onların başlıca vəzifəsi də müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsinə yardım etmək idi. 3-cü Ordu komandanı Vehib paşa da 1918-ci il iyun ayının 2-də Nuru paşaya göndərdiyi məktubunda bildirirdi ki, Azərbaycan hökuməti müstəqileyi-islamiyyəsinin tələbi ilə islamları bolşevik təcavüzüdən qurtarmaq üçün Azərbaycana qarışıq bir dəstənin göndərilməsi qərara alınmışdır. Nəsib bəyin fikrincə, Nuru paşa da əslində belə bir mövqedə olmuşdu. Lakin onun ətrafını bürümüş olan qüvvələr paşanı başqa bir mövqeyə sürükləyə bilmişdilər:

> Aydındır ki, paşa həzrətləri Dövləti-Aliyeyi-Osmaniyyə Azərbaycanın müstəqil qalıb da özünə bir hökumət təşkil etməsinə tərəfdardır. Məlum işdir ki, onlar bizim işlərimizə qarışmaq istəməzlər. Fəqət paşanın ətrafını mənhus adamlar, şübhəli şəxslər tutmuşlar... Bu adamlara qarşı bizim əlimidə bulunan hüquqdan istifadə etmək lazımdır.

Xarici işlər naziri M.N.Hacınski Milli Şurada yaranmış vəziyyətlə bağlı çıxış edərkən bildirirdi ki, onlar həqiqətən də müstəqil Azərbaycan hökumətinin yaradılmasını istəyirlər.

Azərbaycanın milli qüvvələri Nuru paşaya və onun ətrafındakılara da bu mövqeni çatdıra bildilər. Bu qüvvələrin Azərbaycanın müstəqilliyini qorumaq əzminin nəticəsi idi ki, Milli Şura buraxılsa da Azərbaycanın milli qüvvələrindən ibarət olan hökumətin təşkilinə nail olundu.

İstər Azərbaycanın milli qüvvələrinin mübarizəsinin ardıcıllığı, istərsə də ölkədə

cərəyan edən proseslər heç şübhəsiz ki, ilhaqçıların təsiri altında olan Nuru paşanın mövqeyinin müəyyənləşdirilməsinə zəmin yaratmışdı. Çünki Qafqaz İslam hərəkatı ilə bağlı sonralar yazdığı xatirələrində Nuru paşa Azərbaycanın bütün sahələrdə öz siyasətini yeridən müstəqil bir dövlət kimi təqdim edir və rəhbərliyi altında olan türk qoşunlarının Azərbaycanda olmasını isə qardaş Azərbaycanın müstəqilliyinin qorunmasına göstərdiyi bir yardım kimi qiymətləndirirdi.

## Nuru paşa və Azərbaycan Ordusu

Qafqaz İslam Ordusunun mövcudluğu dövrünü Azərbaycanın milli qoşun hissələrinin formalaşmasının bir mərhələsi kimi xarakterizə etmək olar və bu proses Nuru paşanın da ciddi diqqəti altında idi. Həmin prosesin uğurla getməsi üçün Nuru paşa tərəfindən bir sıra konkret addımlar atılmışdı.

Qafqaz İslam Ordusunun Azərbaycanda ikili tabeçiliyi saxlanılmaqda idi. Nuru paşa təşkilati planda bir tərəfdən Şərq Ordular Qrupu komandanlığına tabe idisə, digər tərəfdən də onun Azərbaycana bağlılığı qalmaqda idi. Çünki Nuru paşa sadəcə olaraq Azərbaycandakı türk qoşunlarının komandanı deyildi. O, müştərək qüvvələrdən təşkil edilmiş Qafqaz İslam Ordusunun komandanı idi. Bu ordunun bir qütbündə 5-ci Qafqaz fırqəsi, digər qütbündə isə Azərbaycan qolordusu dayanırdı. Azərbaycan hökuməti də Azərbaycan ordusunun qurulmasını Nuru paşaya tapşırmışdı. Bu faktı arxiv sənədləri də təsdiq edir. Azərbaycan qolordusunun komandanı general-leytenant Əli ağa Şıxlinskinin 27 iyun 1918-ci il tarixli 189 saylı əmrində də həmin məsələ öz əksini tapmışdır. Əmrin 1-ci bəndində deyilirdi ki, Osmanlı hökuməti ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti arasında imzalanmış müqavilənin 4-cü maddəsinə əsasən Azərbaycanda anarxiyanın yatırılması, Bakı şəhərinin və Bakı quberniyasının bir hissəsinin bolşevik işğalından qurtarılması üçün türk hərbi qüvvələri Azərbaycana dəvət edilmişdir. Əmrdə daha sonra deyilirdi ki, bu qüvvələrə general-leytenant Nuru paşa rəhbəlik edir və Azərbaycan hökumətinin qərarı ilə Azərbaycanın milli qoşun hissələrinin formalaşdırılmasına rəhbərlik edilməsi də Nuru paşaya həvalə edilmişdir.

Beləliklə, Nuru paşa həm də Azərbaycanda ordu quruculuğuna rəhbərliyi öz üzərinə götürmüşdü. Doğrudür, Azərbaycanın bütün milli qüvvələri Azərbaycan qolordusunun tərkibinə daxil idi. Yəni onların təşkilati müstəqilliyi saxlanılmışdı. Ancaq Azərbaycan qolordusu da öz növbəsində Qafqaz İslam Ordusu komandanı olan Nuru paşaya tabe idi. Nuru paşanın təkidi ilə Milli Şuranın buraxılmasından sonra, yenidən yaradılan hökumət kabinəsində artıq Hərbi Nazirlik yox idi. Hərbi Nazirliyin hökumət kabinəsinə düşməməsi bir tərəfdən Azərbaycan ordusunun təşkilinə rəhbərliyin Nuru paşaya həvalə olunması ilə bağlı idisə, digər tərəfdən də yəqin ki, Nuru paşanın təkidi ilə, yəni onun özünü Azərbaycan ordusunda ən yüksək vəzifəli şəxs kimi görmək istəyi ilə bağlı idi. Bununla belə, ordunun təşkilini hökumət səviyyəsində dövlət və hökumət orqanları ilə tənzimləyəcək bir qurumun mövcudluğu zərurət doğururdu. Bu orqanın hansı şəkildə olacağını müəyyənləşdirmək üçün iyun ayının 21–də Azərbaycan hökuməti Nazirlər Şurasının sədrinə və xarici işlər nazirinə tapşırdı ki, Qafqaz İslam Ordusunun komandanı Nuru paşa ilə əlaqə yaradaraq hökumətin tərkibində Hərbi Nazirliyin yaradılması və onun fəaliyyətinin təşkili barəədə məsələ müzakirə etsin. Müzakirələr zamanı hökumətlə Qüafqaz İslam Ordusu arasında əlaqələrin yaradılması üçün Hərbi Nazirliyin və ya onu əvəz edəcək hər hansı bir orqanın təşkilinin məqsədəuyğunluğu

nəzərdən keçirilməli idi.
Bu qərarın qəbulundan qısa müddət keçdikdən sonra Azərbaycan hökumətinin tərkibində hərbi işlər üzrə Baş müvəkkil vəzifəsinin təsis edilməsindən güman etmək olar ki, Hərbi Nazirliyin yaradılması məqsədəuyğun bilinməmiş və qoşunların ali strukturunda yeni bir dəyişiklik baş verməmişdi.
Qafqaz İslam Ordusunun komandanı Nuru paşa da sonradan yazdığı xatirələrində Azərbaycanda Hərbi Nazirliyin təşkili məsələlərinə toxunaraq qeyd edirdi ki, bu orqanın yaradılmasını o özü məqsədəuyğun bilməmiş və hərbi nazir səlahiyyətlərini də öz üzərinə götürmüşdü:

> Azərbaycan hökumətində bütün Nəzarətlər mövcud idi. Yalnız Hərbiyyə Nəzarəti və təşkilatı mövcud olmadığı kimi Omuri-diniyyəyə aid nəzarəti də mövcud deyildi. Çarlıq Rusiyası zamanındakı İdareyi-ruhaniyyə də əsaslı təbəddülat yapmamışdı. Tiflis müftiliyi Bakıya nəql etmişdi. Azərbaycan Hərbiyyə Nəzarəti təşkilatını İstanbul ordu dairəsi rəis müavini miralay Behic bəy yapıyordu. Buna aid bir kadro tənzim edilmişdi və bu kadroya nəzərən bəzi məqamlar Osmanlı ordusu mənsublarına ayrılmışdı. Yerlərdə Osmanlı Hərbiyyə Nəzarətində staj görəcəklərdi. Staj xidmətinin zamanı və tərzi-ifasını miralay Behic bəy tənzim edəcəkdi. Binaənəleyh Azərbaycan hökuməti Hərbiyyə Nəzarəti omuru felən Qafqaz İslam Ordusu komandanı tərəfindən idarə olunurdu. Azərbaycan ordusu ilə Qafqaz İslam Ordusu komandanlığı arasındakı münasibat və irtibatın tamininə Qafqaz İslam Ordusu "Omuri-siyasiyyə" şöbəsi çalışırdı.

Nuru paşa bu qeydlərində 1918-ci il sentyabr ayının ortalarına aid olan sənədlər və faktlardan istifadə etmişdir. Ona görə də Nuru paşanın təsvir etdiyi bu qarşılıqlı münasibətlərin Azərbaycanın müstəqilliyinin təşkilindən dərhal sonra yarandığını iddia etmək çətindir. Ancaq onun sözlərindən də aydın olur ki, Hərbi Nazirliyə aid olan müəyyən vəzifələrin əlaqələndirilməsi və tənzimlənməsi üçün bir qurum mövcud olmuşdur. Bu quruma miralay Behic bəy rəhbərlik edir və bu qurumun vəzifələrinin bir qismi Osmanlı zabitlərinə tapşırılmışdı. Demək aydın olur ki, oradakı vəzifələrin başqa bir qismi də azərbaycanlı zabitlərə və işçilərə tapşırılıbmış. Çox güman ki, burada söhbət yuxarıda qeyd edilən hərbi işlər üzrə müvəkkildən gedir. Azərbaycan hökuməti ilə Hərbi Nazirlik funksiyalarını yerinə yetirən Qafqaz İslam Ordusu "Omuri-siyasiyyə şöbəsi" tərəfindən tənzimlənirdisə Azərbaycan hökuməti də bu vəzifəni heç şübhəsiz ki, hərbi işlər üzrə Baş müvəkkil yerinə yetirirdi.
Nuru paşa Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə rəhbərlik etməklə bərabər milli qüvvələrin formalaşmasına və təşkilatlanmasına da xüsusi diqqət yetirirdi. Özü də bu iş təcrid olunmuş şəkildə deyil, Qafqaz İslam Ordusu hüdudlarında görülən işlərin tərkib hissəsi kimi aparılırdı. Yəni türk qoşunları ayrıca, Azərbaycan qoşunları da ayrıca fəaliyyət sahəsinə malik deyildilər. Azərbaycanın milli qoşun hissələrinin təşkilatlandırılması Qafqaz İslam Ordusu miqyasında aparılan işin bir qolunu təşkil edirdi. Məsələn, qoşun hissələrinin təchizat və təminatında heç bir fərq qoyulmayaraq onların eyni dərəcədə döyüş hazırlığına malik olması əsas götürülürdü. Ancaq məlumdur ki, milli hərbi kadrların azlığı, bütünlükdə azərbaycanlıların çar Rusiyası tərəfindən hərbi xidmətə çağırılmaması milli hərbi hissələrin təşkilatlandırılmasını xeyli çətinləşdirirdi ki, Nuru paşa da bu məsələlərə xüsusi diqqət yetirirdi.
Qafqaz İslam Ordusu qarşısında dayanan vəzifələrin həyata keçirilməsi üçün kadrlarla işin qurulmasına, səfərbərlik sahəsində lazımi nəticələrin əldə edilməsinə kifayət qədər əhəmiyyət verilirdi. Türk qoşunlarının Azərbaycanda olduğu beş ay müddətində bu

problemin həlli istiqamətində aydın bir siyasətin formalaşdırılmasına və onun həllinin ardıcıllığına nail olunmasına müəyyən cəhd göstərilmişdi. Belə çox şaxəli və miqyaslı problemlərin nəzəri və praktiki həlli üçün beş aylıq müddət çox az vaxt olsa da əldə edilən nəticələr görülmüş işlərin səmərəsiz qalmadığından xəbər verir. Xüsusilə, yeni-yeni qoşun hissələrinin yaradılması, ordunun şəxsi heyətinin bütün gücünün səfərbər edilməsi, Bakının işğaldan azad olunması, dövlət müstəqilliyi üzərində olan real təhlükənin sovuşdurulması kadrlarla işin qurulmasına, səfərbərliklə bağlı tədbirlərin vaxtlı-vaxtında həyata keçirilməsinə lazımi səviyyədə diqqət yetirildiyini nümayiş etdirir. Azərbaycana gəldiyi ilk günlərdən Nuru paşanın bu sahədə aydın siyasəti mövcud idi. Həmin siyasət də ondan ibarət idi ki, milli Azərbaycan qoşun hissələrinin kadr heyətini milli azərbaycanlı və müsəlman zabitlər təşkil etməli və Azərbaycandakı çağırışçı ehtiyatı milli qoşun hissələrinin təşkilinə cəlb edilməlidir. Azərbaycanın milli hərbi kadrlarının azlığı, əhalinin hərbi xidmətdən yadırğadıldığı, habelə müharibənin və tarixi şəraitin çətinlikləri tüğyan etdiyi bir vaxtda bu məsələlərin həlli asan olmasa da atılan bir sıra qətiyyətli addımların nəticəsi çox böyük tarixi əhəmiyyətə malik idi. Xüsusilə, ilk hərbi təhsil ocağının işə salınması Azərbaycanda professional milli hərbi kadrlar hazırlığı istiqamətində atılan ilk addım kimi tarixi dəyərini indiyə kimi qoruyub saxlamaqdadır.

Azərbaycan ordusunun təşkilatlandırılması və milli kadr hazırlığı ilə bağlı Nuru paşa öz xatirələrində belə yazırdı:

> ... Qafqaz İslam Ordusunda Azərbaycan ordusunun təşəkkülünə sürət verilmişdi. Əsasən Azərbaycana vürudumuz günündən etibarən yerlərindən müntəzəm qüvvət təşkili daima nəzəri-əhəmiyyətdə tutulmuş isə də heyəti-təxliyyə və zabitanın mövcud olmamasından dolayı Bakının zəbtinə və hissələrimizin qismən sərbəst qalmasına qədər bu imkan hasil olmamışdı. Azarbaycana gələn hissələrin zabit çatışmamazlığı çox olduğundan məzkur hissələrin zabitanından istifadə etmək imkanı olmamış, biləks İslam Ordusu qərargahı zabitanından bir qismini cəbhəyə göndərmək məcburiyyəti hasil olmuş idi. Bununla bərabər və bütün müşkilata rəğmən təşkili mütəsəvvir Azərbaycan ordusunun komanda və heyəti-təxliyyəsini yetişdirmək üzrə Gəncəyə vürudumuzun ikinci ayı Gəncədə bir ehtiyat zabit məktəbi ilə avqustda bir kiçik zabit məktəbi təxsis olunmuş idi.

Azərbaycanın ilk milli hərbiyyə məktəbinin təşkilinə hələ dövlət müstəqilliyinin elan edilməsindən əvvəl təşəbbüs göstərilsə də onun əməli fəaliyyətə başlaması türk zabitlərinin adı ilə bağlıdır. Nuru paşanın əmri ilə bu məktəbin rəhbəri Qafqaz İslam Ordusunun ən təcrübəli zabitlərindən biri olan miralay Atif bəy təyin edildi. Nuru paşa özü şəxsən bu məktəbin açılmasını və fəaliyyət göstərməsini çox böyük maraqla izləyirdi. Qafqaz İslam Ordusunun formalaşdırılması üçün həmin məktəbə hansı ümidlər bağlandığını Nuru paşanın xatirələrində olan sətirlərdən də görmək mümkündür. O yazırdı:

> İslam Ordusu təşkilatı üçün fazla zabitə möhtac var idi. Və bu ehtiyacın təmin edilməsini mütəaddid dəfələr İstanbuldan tələb edildiyi kafi miqdarda zabit göndərilməmişdi.

Buna görə də Nuru paşa Azərbaycanın ilk milli hərbiyyə məktəbinin fəaliyyətə başlamasına və milli zabit kadrların yerişdirilməsinə böyük əhəmiyyət verirdi. Qafqaz İslam Ordusu komandanı hərbiyyə məktəbinin müdiri Atif bəyi də öz xatirələrində xüsusi bir rəğbətlə anırdı.

1918-ci il iyun ayının əvvəllərində fəaliyyətə başlayan milli hərbiyyə məktəbinin qəbul norması 100 nəfər olsa da orada oxumaq istəyən azərbaycanlıların sayı xeyli çox idi. Məktəbin tədris rejimini nizamlayan əsasnamədə bu təhsil ocağının qarşısında dayanan vəzifələr belə açıqlanırdı Tələbələrin bir taqım komandiri olaraq yetişməsi, onların bölüyünün idarə edilməsinə qadir olması, hissələrdəki şəxsi heyətin təlim və tərbiyəsinə rəhbərlik edə bilməsi. Bu keyfiyyətlərin əldə edilməsi üçün müvafiq tədris proqramı hazırlanmışdı. Onun bütünlüklə həyata keçirilməsi tələbələrin lazımi tələblərə cavab verə biləcək zabit kimi yetişməsinə zəmin yaratmalı idi. Həmin tərdis proqramının qayəsi aşağıdakılar idi:
-müasir müharibənin tələblərinə uyğun hazırlığa malik olmaq;
-manqa və taqım daxilində həm yanaşı, həm də ərazi üzərində dağılaraq hərəkət etmək, bölüklərin idarə edilməsi vərdişlərinə yiyələnmək və bu sahədə məharət əldə etmək;
-bölüyün yanaşı və dağınıq hərəkətinin müxtəlif döyüş şəraitində tətbiqini bacarmaq, piyada taborunun ayrıca və alay tərkibində hərəkət edərək açılmasını müşahidə etmək və bu əmrlərin icrasını bacarmaq;
-cərgə, manqa, taqım daxilində döyüş atışları icra etmək və istifadə olunan silahların atəş xüsusiyyətlərinə bələd olmaq. Atış nizamnaməsini öyrənmək, atışın nəzəri əsaslarına yiyələnmək. Pulemyotlar haqqında nəzəri bilikərə malik olmaq və ondan praktiki olaraq istifadə etməyi bacarmaq.
Gələcək zabitlərin bu döyüş keyfiyyətlərinə yiyələnməsi üçün təlim-tərbiyənin hansı istiqamətlərdə aparılması da əsasnamədə öz əksini tapmışdı. Təlim prosesi bütünlükdə 5-6 aylıq bir müddəti əhatə etməli və üç dövrəyə bölünməli idi. Birinci dövrədə əsas diqqət tələbələrin fərdi hazırlığına, fərdi vərdişlərin qavranılmasıma yönəldilmişdi. Bu dövr ərzində tələbələr aşağıdakı nəzəri və praktiki biliklərə yiyələnməli idilər:
-sırada əsas vəziyyət, istiqamət və dönmələr, müxtəlif yürüşlər, təzim və nizam, əsgər təchizatı, onun mühafizə və istifadə edilmə qaydaları, diz çökmək, silahdan istifadə, rəsmi-təzim;
-süngü və onun işlədilməsi qaydaları. Xəncərin işlədilməsi;
-hər növ maneələri aşmaq, dırmanmaq, atlanmaq təlimləri (çantalı və çantasız) üzməyi bacarmaq;
-nişanalmanın müxtəlif vəziyyətləri, sipər gerisindən və müxtəlif əşyaların arxasından, mağzaldan nişan almaq, atışa hazırlıq təlimləri (müxtəlif atış siniflərinə aid vəzifələr komandirlər tərəfindən seçilir);
-ərazini bilmək, ərazi əşyalarından məharətlə istifadə etmək;
-müxtəlif şəkillərdə toplanmaq, açılmaq, topçu və digər piyada atəşi təsiratı altında geri və yanlara hərəkət;
-müxtəlif bombaları öyrənmək, onların hər şəraitdə işlədilməsini bacarmaq;
-qaz maskası, onun necə və harada istifadəsini öyrənmək;
-hücum və mühafizədə nəfərin ümumi vəzifəsi və özünü aparması qaydaları;
-müharibə işarələri, telefon haqqında məlumat;
-yürüş qaydaları haqqında məlumat. Yürüşlərdə və dayanarkən tibbi kömək barədə məlumata malik olmaq;
-tüfəngin quruluşu, onun ibtidai sökülüb-yığılması;
-çanta və çadırın istifadəsi;
-yaxın müharibə, müharibədə işlədilən toplar, alov silahları, müxtəlif piyada və kəşfiyyat silahları, təyyarələr haqqında məlumat;
-ərazidə kəşf və təhlükəsizlik tədbirləri, xəbər göndərmə, əmr göndərmə, müxtəlif

vəziyyətdə rabitə və əlaqə yaratmağı bacarmaq;
-bəsit bir körpünün tənzimi, əsgəri körpülər haqqında məlumat, istehkam, piyada, topçu, süvari, nəqliyyat və s. qoşun qisimləri və onların vəzifələri haqqında biliklərə malik olmaq;
-müxtəlif sipərlər, ara sipərləri, məhəlli mühafizə yerlərinə yaxınlaşma yolları, tərəssüd mövqeləri, sipərdən tərəssüd və müharibə qurğuları, bomba mövqeləri, yaxın müharibə silahlarının istifadə olunacağı yerlər, qaz hücumu, işarə tapançaları və s. haqqında məlumat;
-gecə şəraitində səssiz hərəkət etmək, silah hərəkətləri, silah doldurmaq, müəyyən nöqtəyə hərəkət etmək, gecə şəraitində müxtəlif görünüşlərə göz alışdırmaq. Fərdi tərbiyəyə aid olan hər növ tədbirlər.

Milli hərbiyyə məktəbinin ilk zabit buraxılışı Bakı şəhəri azad edildikdən sonra baş verdi. 1918-ci ilin oktyabrında Gəncədəki hərbi məktəbin ilk buraxılığı oldu. Bu hadisə Azərbaycanın ordu hissələrinin milli kadrlarla təmin edilməsi istiqamətində tarixi əhəmiyyətə malik idi. Oktyabrın 22-də hərbi məktəbin rəisi Atif bəy Azərbaycan korpusunun komandiri Əliağa Şıxlinskiyə məktub yazaraq buraxılış imtahanlarının başlanması barədə ona məlumat verdi və bildirdi ki, onun özünün və ya korpusun qərargah rəisi Həbib bəy Səlimovun, habelə 2-ci Azərbaycan diviziyasının komandiri Nazim bəyin və digər zabitlərin imtahanda iştirak etmələri yaxşı olardı.

Bu teleqrama cavab olaraq Atif bəyə bildirildi ki, hərbi məktəbin buraxılış imtahanlarında iştirak etmək üçün Ə. Şıxlinski öz yavəri ilə, 2-ci Azərbaycan diviziyasının komandiri Nazim bəy, miralay Seyfulla Mirzə Qacar, Həmid bəy və Məmmədov adlı birisi oktyabrın 24-də səhər saat 7-də 3 avtomobildə Bakıdan Gəncəyə yola düşəcəklər. Əlavə olaraq göndərilən başqa bir teleqramda isə bildirilirdi ki, Nuru paşanın atası Hacı Əhməd bəy də Gəncəyə gələn qonaqlar arasında olacaqdır. Buraxılış imtahanında Azərbaycan hökumətinin üzvü, maarif naziri Nəsib bəy Yusifbəyli də iştirak edirdi.

Milli hərbi məktəbdə nəzərdə tutulan tədris müddəti 4 aydan çox çəkmişdi. Məktəbdə oxuyanlar müvəffəqiyyətlə buraxılış imtahanları verəcəyi təqdirdə qoşunlara göndərilməli və 6 aydan sonra onlara zabit rütbəsi verilməli idi. İlk imtahan oktyabrın 26-da məktəbdə oldu. İmtahanda iştirak etməyə gələn qanaqları məktəbdə fəxri qarovul qarşıladı.

Səhərisi gün, yəni oktyabrın 27-də buraxılış imtahanı verənlər şəhərin kənarındakı təlim meydanına çıxarıldılar. Burada imtahanların keçirilməsi üçün xəndəklər və səngərlər qazılmış, süni maneələr yaradılmış, zəruri olan əşya və cisimlər yerli-yerində sahmana salınmışdı. Bakıdan gələn qonaqlar səhər tezdən təlim meydanına daxil oldular. Məktəbin ilk buraxılışını sevinclə qarşılayan xeyli şəhər əhalisi də bura toplaşmışdı. Azərbaycan korpusunun komandiri Ə.Şıxlinski nizami sırada düzülmüş yunkerləri salamladıqdan sonra buraxılış imtahanı başladı. Yunkerlər aşağıdakı proqram üzrə imtahan verməli idilər:

1.Komandir və rəislərə özünü təqdim etmə qaydaları;
2.Yerində sıra təlimi;
3.Hərbi fəaliyyət zamanı hərəkətin çevikliyi;
4.Süngü döyüşü;
5.Müxtəlif məsafələrə atış, nişangah;
6.Düşmən hücumunun dəf edilməsi;
7.Bomba atmaq;

8.Hərbi gimnastika;
9.Səngərlərdən qumbara atmaq;
10.Fitil qoyulmuş qumbaraların yaxınlaşan düşmənə tərəf atılması;
11.Simli maneələrin bomba və qayçılarla məhv edilməsi;
12.Pulemyotçu dəstələrin məhv edilməsi, səngərlərin döyüş vəziyyətinə gətirilməsi;
13.Atış komandaları;
14.Komandaya görə işarə vermək;
15.Hissələrin sahədə və açıq sahədə yerləşməsi;
16.Silahın sökülməsi və yığılması;
17.Raport vermə qaydaları;
18.Manevr etmə.

İmtahana digər proqram və fənnlər üzrə də sualları salınmışdı. Səhər saat 8-də başlayan imtahan günorta saat 2-yə kimi davam etdi. Bütün müdavimlər buraxılış imtahanlarını müvəffəqiyyətlə başa vurdular. Günortadan sonra şəhər rəhbərliyinin bu münasibətlə təşkil etdiyi ziyafətdə hərbi məktəbin ilk buraxılışında türk zabitlərinin böyük zəhməti minnətdarlıqla qeyd olundu. Ziyafətdə çıxış edən maarif naziri N.Yusifbəyli milli zabit kadrlarının hazırlığı ilə bağlı öz təəssüratlarını belə bölüşdü:

> Bu gün bütün qonşu millətlərin nümayəndələri əyani olaraq inandılar ki, Azərbaycan oğurlları necə qabiliyyətli və istedadlıdırlar. Belə bir qüvvəyə malik olmaqla ölkənin gələcəyinə qorxmamaq olar.

Milli kadrların ilk buraxılışının necə böyük əhəmiyyətə malik olması Qafqaz İslam Ordusunun ləğvindən sonra xüsusi aydınlıqla hiss olunurdu. Həm bu məktəbin təşkili və fəaliyyəti, həm də Qafqaz İslam Ordusu çərçivəsində də həyata keçirilmiş bir sıra tədbirlər türk qoşunları Azərbaycanı tərk edəndən sonra milli hərbi qüvvələrin təşkilində özünəməxsus bir əhəmiyyətə malik idi.

Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın yazdıqlarından və arxivlərdə mövcud olan sənədlərdən aydın olur ki, Gəncədə başqa bir hərbi məktəb də açılmışdı. Bu məktəb qoşun hissələrinin formalaşması üçün çox böyük ehtiyac duyulan kiçik komandir heyətinin, çavuşların yetişdirilməsi üçün açılmışdı. Milli qoşun hissələrinin təşkili prosesində onsuz da az olan milli zabit kadrlarının kiçik zabit heyətinin vəzifələrinin icrasını da öz üzərinə götürmələri təlim-tərbiyə prosesini xeyli ləngidirdi. Buna görə də Qafqaz İslam Ordusu komandanlığı 1918-ci ilin avqustunda kiçik komandir heyətini hazırlayan məktəb açdırdı. Həmin məktəb belə adlanırdı – Ehtiyat zabit namizədləri təlimgahı.

Ehtiyat zabit namizədləri təlimgahının təsdiq edilmiş təlimatında bildirilirdi ki, bu təhsil ocağını açmaqda əsas məqsəd çoxlu sayda çavuşlar yetişdirməkdir. Təlimgahın fəaliyyətə başlaması xüsusilə piyada qoşunlarında kiçik komandir heyətinə olan ehtiyacı aradan qaldırmalı idi. Təlimgah bir başa İslam Ordusu komandanına tabe idi. Təlimgah komandanının səlahiyətləri isə diviziya komandirinin səlahiyyətlərinə bərabər tutulurdu. Təlimgahın komandanlığının tabeliyində ehtiyat zabit namizədləri alayı var idi. Bu alayda piyada qoşunları üzrə kiçik komandir heyətinin hazırlığı aparılmalı idi. Digər qoşun növləri üzrə də İslam Ordusu komandanlığı tərəfindən təlim hissələri və bölmələri müəyyənləşdirilmişdi. Yəni, Təlimgahda təlim-tərbiyə təkcə bir tədris korpusunda deyil, eyni zamanda müvafiq ixtisaslar üzrə yaradılmış təlim hissələrində aparılmalı idi.

Təxminən bir həftə üçün tərtib edilmiş bu proqram sonrakı bir neçə həftə ərzində təkrar edilməli və namizədlərin bilik və vərdişləri daha da möhkəmləndirilməli idi. Nuru paşa

xatirələrində bildirirdi ki, Təlimgahın birinci buraxılışı zamanı oranı 400 nəfər bitirmişdi. Həmin buraxılış oktyabr ayının sonlarında baş verdi. Avqustda başlamış olan təlim müddəti noyabr ayında bitməli olsa da, Nuru paşanın təkidi ilə tədris bir qədər qısaldılmış və buraxılış vaxtından əvvəl baş vermişdi. Bu da yeni formalaşdırlılan milli qoşun hissələrində kadrların çatışmaması ilə bağlı idi.
Kiçik komandir heyəti hazırlayan məktəb də Atif bəyin rəhbərliyi altında fəaliyyət göstərirdi. Yəni təhsil müəssisələri bir kompleks halında birləşdirilmişdi. Hərbi məktəblərin təlim hissələri də var idi. Məktəbdə oxuyanlar bu təlim hissələrində praktiki hazırlıq keçirdilər. Nuri paşa məktəblərin və təlim hissələrinin zəruri texnika və silahla təmin edilməsinə xüsusi fikir verirdi.
Nuri paşa istəyirdi ki, Azərbaycanın milli hissələrində yalnız azərbaycanlı və müsəlman zabitlər xidmət etsinlər. Öz yazışmalarında milli hissələrin təşkilatlanmasındakı ləngliyi də Nuru paşa milli kadrların olmaması ilə əsaslandırırdı. Hətta türk zabitlərinin sayı da o qədər çox deyildi ki, lazım gəldiyi hallarda onların bir qismi milli hissələrə təyin edilsin.
Yeni yaradılan hissələrdə mövcud olan vəziyyəti aradan qaldırmaq üçün Nuru paşanın əmri ilə bir çox kiçik zabitlər hissə və bölmələrdən toplanmış və milli hissələr arasında bölüşdürülmüşdü. Bununla belə, Nuru paşa Azərbaycan korpusunun komandirinə göndərdiyi məktubunda xahiş edirdi ki, 1-ci Qazax, 2-ci Qarabağ, 3-cü Zaqatala alaylarına göndərilməli olan mülazimi-əvvəl və mülazimi-sani rütbələrində olan zabitləri ordu qərargahına göndərsin. Çox güman ki, həmin zabitlər Ordu komandanlığında təlimatlandırılandan sonra hissələrə göndərilmişdi. 1918-ci il avqust ayının əvvəllərində Qazax alayına 30, Qarabağ alayına 20, Zaqatala alayına 20, Təlimgaha 20, Ağdaş alayının iki taboruna 10 nəfər kiçik zabit göndərilmişdi.
Avqust ayının 2-ci yarısında Nuru paşa bildirirdi ki, Azərbaycanın milli qoşunlarından ibarət iki piyada və bir süvari diviziyası təşkil olunması üzərində iş getsə də, bu qoşun strukturlarına təyin edilmək üçün Osmanlı süvari zabitləri ümumiyyətlə yoxdur. Piyada zabitlərin mühüm qismi isə arxa hissə və bölmələrdə olduğundan onların çatışmazlığı vardır. Bir tərəfdən də azərbaycanlı kadrların olmadığı üçün 2-ci Azərbaycan diviziyasının qərargahında və iki alayın zabit heyətində çatışmazlıq var idi.
Nuru paşa zabit kadrlarına olan ehtiyacın aradan qaldırılması üçün Azərbaycana gəldiyi ilk vaxtlar Müsəlman korpusunun tərkibində olmuş qeyri-müsəlman zabitlərdən istifadə edilməsini də məqsədəuyğun bilirdi. Hətta bəzi vaxtlarda hissələrdəki rus zabitlərinə qeyri-rəsmi münasibət gösrəilməsinə etirazını bildirmişdi. Məsələn, 1918-ci il iyun ayının 20-də 5-ci Qafqaz diviziyası komandanına göndərdiyi məktubunda yazırdı ki, Osmanlı ordusu  mənsubunun rus zabitanına münasibət və müaşirələrdə bəzi yersiz hadisələrin vaqe olduğunu eşitdim. Rus zabitanı bölşeviklərə qarşı bizimlə bərabər çalışmaq və iyi xidmətlər görməkdədirlər. Ona görə də Nuru paşa tələb edirdi ki, bütün zabitlər siyasi hissiyatlarını bir kənara qoyaraq sırf bir əsgər kimi yalnız öz vəzifələrinin icrası ilə məşğul olmalıdırlar.
Nuru paşa ilk aylarda Azərbaycan korpusunda xidmət edən qeyri-azərbaycanlı zabitlərin qalmasına razılıq versə də, Bakı üzərinə hücuma hazırlıq dövründə, yəni avqust ayının 13-də imzaladığı əmrlə Nuru paşa Azərbaycan ordusunda qeyri-azərbaycanlı zabitlərin xidmət etməsini qeyri-mümkün hesab etdi. Bu əmrə əsasən bütün qeyri-müsəlman zabitlər Azərbaycan ordusundan xaric edildilər. Nuru paşa qeyri-müsəlman zabitlərin təkcə milli qoşun hissələrində xidmət etməsini deyil, həm də dəmir yolu nəqliyyatında rus və gürcü mütəxəssislərin çoxluğuna narahatçılığını bildirirdi. Baş komandan vəkili

Ənvər paşanın göndərdiyi məktubunda Nuru paşa qeyd edirdi ki, Azərbaycanın dəmir yolu işçilərinin çoxu rus və gürcüdür. Bu da müəyyən problemlərə yol açır, cəbhə ilə əlaqələrin sabitliyinə təhlükə törədir. Ona görə də Nuru paşa xahiş edirdi ki, mümkünsə Türkiyədən Azərbaycana dəmir yolu mütəxəssisləri də göndərilsin.

1. Azərbaycan ordusu quruculuğunda ciddi dəyişikliklərin edilməsini nəzərdə tutan 13 avqust 1918-ci il tarixli əmr aşağıdakı məqamlar nəzərdə tutulmuşdu: Azərbaycan milli qoşun hissələrinin təşkilatlandırılmasına Qafqaz İslam Ordusu rəhbərlik etməli idi; yeni qurulacaq Azərbaycan ordusunun hüquqi əsasları Qafqaz İslam Ordusu kpmandanlığı tərəfindən təsdiq edilməli idi; süvari qüvvələr əvvəlcə yerlərdə bölmələr şəklində təşkil edilməli və sonra da onlar hissələrdə birləşdirilməli idi; təşkil edilən yeni bölmələr və hissələr Azərbaycan korpusunun qərargahı formalaşdırılana qədər birbaşa Qafqaz İslam Ordusuna tabe olmalı idi; yeni Azərbaycan Korpusunun bütün zabitləri müsəlman olmalı, onlar Osmanlı hərbi geyimigeyməli idilər. Süvarilər isə çərkəzi formadan istifadə edə bilərdilər; qoşun hissələrində yazışma da türk dilindı aparılmalı idi.

Bu əmrin imzalanmasından sonra onun bəzi müddəaları dərhal icra edıldi. Yəni Azərbaycan qolordusunun komandanlığı ləğv edildi, qolordudakı qeyri-azərbaycanlı zabitlər xidmətdən azad edildilər. Azərbaycanlı və qeyri-azərbaycanlı olub müsəlman olan zabitlər müvəqqəti vəzifələrə təyin edildilər. Bununla bağlı Nuru paşa avqustun 20-də xüsusi bir əmr imzalamışdı. Həmin əmrlə qolordu ləğv edildiyi üçün onun başqa vəzifələrə təyin edilən zabitlərinin siyahısında Əli ağa Şıxlinskinin, Həbib bəy Səlimovun, Həmid bəy Qaytabaşının, Murad bəy Tlexasın, İbrahim ağa Usubovun, Sadıq bəy Əfəndiyevın və başqaları da daxil olmaqla siyahıda cəmi 124 nəfərin adı var idi. Ancaq bir müddət sonra qolordunun komandanlığı bərpa edildi və ona komandanlıq yenidən Əli ağa Şıxlinskiyə həvalə edildi.

Qoşun hissələrinin bolşevik-daşnak qüvvələrinə qarşı apardığı döyüşlərdə də zabitlərdən ölən və yaralananlar var idi. Bu da zabit çatışmazlığı ilə bağlı vəziyyəti nisbətən çətinləşdirirdi. İslam Ordusu komandanlığından əmr verilmişdi ki, döyüş şəraitində şəhid düşən və yaralanan zabitlərin düzgün hesabı aparılsın və onların əvəz edilməsi üçün nə qədər sayda zabit lazım olduğu bilinsin.

Mövcud olan bu çatışmazlığa baxmayaraq İslam Ordusu komandanlığı bütün zabitlərin xidmətinə və davranışlarına və hazırlıq səviyyələrinə ciddi tələbkarlıqla yanaşırdı. Onların döyüş hazırlığının qaldırılması, hərbi intizamın tələblərinə cavab vermələri, bütün səviyyələrdə olan zabitlərin və komandirlərin xidmətlərinin düzgün təşkili daimi diqqət mərkəzində idi. Məsələn, Nuru paşanın məktublarından birində göstərilirdi ki, ordu hissələrində təlim-tərbiyə aşağı səviyyədədir. Orduda təlim-tərbiyə səviyyəsinin qaldırılması üçün o ilk növbədə zabitlərin bilik səviyyəsinin qaldırılmasını lazım bilirdi. Ona görə də kiçik zabitlərin hazırlığının təkmilləşdirilməsi üçün təlim taboru yaradılmışdı və onun işinin düzgün qurulmasını tələb edirdi.

Başqa bir əmrində Nuur paşa göstərirdi ki, bəzi zabitlər qarşılaşarkən bir-birinə rəsmi salam vermədiklərinin şahidi olmuşdur. O tələb edirdi ki, zabitlərin rəsmi-salam vermələri tələbinə riayət olunmalıdır. Əks təqdirdə buna riayət etməyənlər ciddi cəzalandırılmalı idi.

Qoşun hissələrinin daimi döyüş hazırlığı vəziyyətində olması üçün İslam Ordusu komandanlığı tərəfindən zabitlər qarşısında yüksək tələblər qoyulmuşdu. Məsələn, Gəncə qarnizonunda olan hissə və bölmələrin komandirləri qarşısında qoyulan

vəzifələrə görə hissə və bölmələr harada yerləşmələrindən asılı olmayaraq daimi döyüş əmrinə hazır olmalı, Ordu komandanlığı ilə daimi əlaqə saxlamalı, işarə verilərkən işarədən 15 dəqiqə sonra döyüşə hazır vəziyyətdə həmin məntəqədə dayanmalı idilər. Belə bir çevikliyə malik olmaq üçün Ordu komandanlığından tələb edilirdi ki, zabitlər xidmət etdikləri hissəyə yaxın yerlərdə yaşamalı və növbətçi zabit yanında əmr nəfərləri olmalıdır ki, dərhal zabitləri evdən çağıra bilsin. Ordu qərargahındakı növbətçi zabitlərin ünvanı olmalı idi. Bu da onların axtarılb tapılmasını sürətləndirə bilərdi.
13 avqust 1918-ci il tarixli əmrin ardınca Nuru paşa başqa bir əmr imzaladı və orada Azərbaycan korpusunun əmlakının kimə və hara təhvil verilməsi və bəzi təşkilati dəyişiklikləri təsbit etdi. Burada bildirilirdi ki, Azərbaycan korpusunun ləğv edilməsi ilə əlaqədar onun hissələrinə aid olan təchizat, əlbəsə və əşyalar Təlimgah komandanının ixtiyarına keçəcək və orada 4-cü tabor təşkil ediləcək. Topçu bölmələrinə aid olan təchizat və əşyalar koprusun qərargahında olan xəritələr və sxemlər ordu qərargahına təhvil verilməlidir. Korpusa aid olan səhiyyə bölmələri və müəssisələri ordu sərtəbibinin səlahiyyətinə keçməli idi. Əmrdə göstərilirdi ki, bundan sonra bütün yazışmalar ordu komandanlığı ilə aparılmalıdır. Struktur dəyişikliklərinə gəlincə isə bildirilirdi ki, 4-cü süvari alayının şəxsi heyəti süvari alayları arasında bölüşdürüləcəkdir. Birinci süvari alayı Qarayazı alayı adlandırılmlı idi. Korpusun qərargahının tabeliyində olan süvari bölüyü ilə Ordu komandanlığı tabeliyində olan süvari taqımı birləşdirilərək bir güclü bölük yaradılmalı idi.
Bu yenidənqurmadan sonra qolordu komandanlığının strukturunda hər hansı bir dəyişiklik olduğunu söyləmək çətindir. Çünki Azərbaycan qolordusunun arxivi bu günədək elmi dövriyyədə yoxdur. Bu səbəbdən də hazırda Azərbaycan qolordusunun qurulması və möhkəmləndirilməsi prosesinin mənzərəsini yaratmaq çətindir. Ona görə də Azərbaycan qolordusunda Azərbaycan dilinin rəsmi dil kimi tətbiq edilib-edilməməsi barədə də fikir söyləmək mümkün deyil. Lakin əmrdən göründüyü kimi, Azərbaycan qolordusunda ana dilinin-Azərbaycan türkcəsinin tətbiq edilməsi məsələsi Nuru paşanı çox maraqlandırmışdı.
Nuru paşa sadəcə olaraq orduda təkcə milli kadrların sayının artırılmasına çalışmırdı. O, zabitlərin xidmətinə qarşı çox tələbkar idi və onlardan xidməti vəzifələrin icrası zamanı yüksək məsuliyyət nümayiş etdirməyi tələb edirdi. Yəni Nuru paşa zabitlərə münasibətdə qayğı ilə tələbkarlığı üzvi şəkildə birləşdirmişdi və zabitlərin ən kiçik intizamsızlığına qarşı qətiyyətli mövqe tuturdu. O öz əmrlərinin birində bildirirdi ki, bır sıra zabitlər rastlaşarkən biri digərinə əsgəri salam vermirlər. İslam Ordusu komandanı bunu dözülməz sayırdı və belə intizamsızlıqlara yol verənlərin ciddi cəzalandıracağını bildirirdi.
Zabitlərin xidmətinin təşkilinə belə ciddi şəkildə diqqətin yetirilməsi, digər tərəfdən də zabitlərin mütləq çoxluğunun tapşırılan vəzifələrin icrasına çox böyük məsuliyyət, daxili intizam, əzmkarlıq, qətiyyət, iradə, təşəbbüskarlıq və s. müsbət keyfiyyətlər nümayiş etdirməsi onların fəaliyyətinin səmərəliliyini daha da artırır və zabit qıtlığına görə xidmətin təşkilində yaranmış çətinlikləri qismən aradan qaldırırdı. Belələri isə istər türk zäbitlərinin, istərsə də azərbaycanlı zabitlərin arasında az deyildi. Qafqaz İslam Ordusunun qazandığı uğurlar da ilk növbədə bu zabitlərin təşkilatçılığının və zəhmətvesərliyinin nəticəsi idi. Həmin zabitlərin böyük bir qrupu hələ Bakı şəhəri azad edilməmişdən əvvəl Nuru paşanın təqdimatı ilə Osmanlı dövlətinin orden və medallarına layiq görülmüşdülər. Onların arasında azərbaycanlı zabitlərin də adı var idi.

Yəni Azərbaycan milli qoşun hissələrinin formalaşmasında xüsusi rolu olan bu zabitlərin xidmətləri Nuru paşanın da diqqətindən kənarda qalmamış və onun təqdimatı ilə Osmanlı dövlətinin 5-ci qılınclı Məcidiyyə ordeni və Hərb medalına layiq görülmüşdülər. Təltif siyahısında olanların adları aşağıdakılardır: Süvari qayməqamı Həmid xan, süvari qayməqamı Nuh bəy, yüzbaşı vəkili Sultanov, süvari yüzbaşı vəkili Əliyev, mülazimi-əvvəl Aslanbəyov, mülazimi-sani Əliyev, mülazimi-sani Zeynalov, mülazimi-sani Gülməmmədov, yüzbaşı vəkil Həşimbəyov, mülazimi-əvvəl Mehmandarov, süvari zabit vəkili Qaratiklinski, topçu miralayı Cavad bəy Şıxlinski, yüzbaşı Sultanov, yüzbaşı İsrafılov, yüzbaşı vəkili Nəsirbəyov, yüzbaşı vəkili Əhmədiyev, miralay Məmmədov.

Nuru paşanın diqqət yetirdiyi məsələlərdən biri də orduya çağırış məsələsinin təşkili idi. Bu məsələnin həllinə müvəffəq olmadan Azərbaycanın milli qoşun hissələrinin təşkilinə də nail olmaq mümkün deyildi. Həmin məsələnin əsas çətinliyi yuxarıda qeyd edildiyi kimi, indiyədək Azərbaycan türklərinin əsgəri xidmətə çağırılmaması ilə bağlı idi. Çağırış işini təşkil edəcək orqanlar da Azərbaycanda hələ sistemləşməmişdi. Doğrudur, Müsəlman qolordusunun tərkibinə çağırışla əlaqədar bu istiqamətdə müəyyən işlərin görülməsinə başlanmışdı. Lakin çağırış işi hələ lazımi şəkildə nizamlanmamışdı. Ona görə də Nuru paşa əvvəlcə Azərbaycanda çağırışı təşkil edəcək orqanları yaratmalı, onların hüquq və vəzifələrini müəyyənləşdirməli və bundan sonra çağırışa başlamalı idi.

Çağırış və səfərbərlik işinin təşkilini Nuru paşa Azərbaycanın hökumət orqanları və yerli orqanlarla sıx əlaqədə aparırdı. Çünki bu işin hüquqi bazasını hökumət müəyyənləşdirməli və onun icrası yerli orqanların köməkliyi ilə həyata keçirilməli idi.

Çağırışın birbaşa həyata keçirilməsi üçün Azərbaycanın məntəqələrində çağırış orqanları olan Əxzi-əsgər şöbələri təşkil olundu. Bu Əxzi-əsgər şöbələrinə türk islam ordusu zabitləri rəhbərlik edirdi. Əxzi-əsgər şöbələrinin yaradılması barəsində Nuru paşa öz xatirələrində belə yazırdı:

> Bilxassə yeni Əxzi-əsgər təşkilatı üçün güclük çəkilirdi. Bununla bərabər Gəncə, Zaqatala Şəki (mərkəzi Nuxa qəsəbəsi), Cavanşir (mərkəzi Tərtər), Göyçay, Quba, Qarabağ (mərkəzi Ağdam), Qazax, Cavad, Cəbrayıl, Bakı, Sabunçu qəzalarında Əxzi-əsgər şöbələri təşkil olundu

Çağırış və səfərbərliyin təşkilində müəyyən vaxtlar bəzi gərginliklər ortaya çıxsa da bu məsələnin həlli üçün xeyli işlər görülmüşdü. Nuru paşanın göstərişi ilə Qafqaz İslam Ordusu komandanlığı tərəfindən Əxzi-əsgər şöbələrinin fəaliyyətinin təşkili barədə təlimat hazırlanmışdı. Həmin təlimatda bu orqanların fəaliyyət mexanizmi açıqlanmışdı. Qafqaz İslam Ordusu komandanlığının başqa bir əmri ilə çağırışdan azad ola biləcək və ya möhlət verilə biləcək şəxslərin kateqoriyaları müəyyənləşdirilmişdi.

Çağırış işinin təşkilinin bir çətinliyi də ondan ibarət idi ki, Nuru paşa Azərbaycana gələndə ölkə ərazisinin böyük bir hissəsi bolşevik-daşnak qüvvələrinin və ağqvardiyaçı qüvvələrin nəzarəti altında idi.

Bolşevik-daşnak qüvvələri Bakıdan Göycaya, habelə Bakıdan şimal sərhədlərinə qədər olan əraziləri nəzarət altına ala bilmişdilərsə, Lənkəran bölgəsi ağqvardiyaçı rus qüvvələrinin nəzarəti altında idi. Ona görə də bu ərazilərdə sözsüz ki, milli qoşun hissələrinə çağırışçı cəlb etmək mümkün deyildi. Azərbaycan əraziləri bolşevik-daşnak qoşunlarının nəzarəti altından cıxdıqca Nuru paşa həmin ərazilərdə çağırış və səfərbərlik işinin təşkili barədə göstərişlər verir və bununla bağlı müvafiq əmrlər

imzalayırdı. Məsələn, Göycay və Şamaxı qəzalarında çağırışın təşkili ilə bağlı xüsusi bir əmr hazırlanmışdı. Qoşunlar Bakı ətrafına çatanda çağırışın təşkili ilə bağlı başqa bir əmr imzalandı. Ordunun ehtiyaclarının ödənməsi üçün təkcə gənclərin orduya çağırışı ilə iş bitmirdi. Bundan başqa əhalidən nəqliyyat heyvanlarının, arabaların, silahların səfərbərliyi də aparılırdı.

Çağırışın təşkili ilə bağlı avqust ayının ortalarında imzalanmış əmrlə əsas diqqət bu işin ərazi prinsipi üzrə aparılmasına yetirilirdi. Bu da əsasən Azərbaycanın milli qoşun hissələrinin təşkilatlandırılması ilə bağlı idi. Qazax qəzasından çağırılan çağırışçılar bu qəzada yerləşən 1-ci milli piyada alayına, Şuşa və Qarabulaq qəzasından həmin məntəqədəki 2-ci piyada alayına, Ağdaş qəzasından isə buradakı 4-cü piyada alayına göndərilməli idi.

Məntəqələrdən Nuru paşanın adına göndərilən raportlardan aydın olur ki, çağırış işinin təşkili sahəsində yerlərdə xeyli işlər görülürdü. Bunun nəticəsi idi ki, Bakı şəhəri azad edildikdən sonra Azərbaycanın milli qoşun hissələrinin təşkilatlandırılmasında bir canlanma duyulurdu. Bu baxımdan 1918-ci ilin sentyabr-oktyabr aylarını Azərbaycanın milli hərbi qüvvələrinin təşkilatlandırılmasının səmərəli bir dövrü adlandırmaq olar. Bakı şəhəri azad edildikdən sonra Nuru paşa bürün diqqətini Azərbaycan ordusunun formalaşdırılmasına və daha da möhkəmləndirilməsinə istiqamətləndirmişdi. Milli qoşun hissələrinin möhkəmləndirilməsinə diqqətin artırılmasının bir sıra bəzi səbəblərini Nuri paşa öz xatirələrində də açıqlayırdı. Onun yazdıqlarına görə Bakı şəhəri azad edildikdən sonra Türkiyə Hərbiyyə Nəzarəti Fələstin cəbhəsindəki qüvvələri gücləndirmək üçün Azərbaycandakı türk qo-şunlarının bir hissəsini geri çəkmək qərarına gəlmişdi. Belə olduğu təqdirdə Azərbaycanın təhlükəsizliyinin təmin edilməsi əsasən milli qüvvələrin üzərinə düşəcəkdi. Ona görə də Nuru paşa Azərbaycanın ordu hissələrinin bu vəzifəni artıq müstəqil olaraq icra etməyə qadir olacaq səviyyəyə çatdırmağa çalışırdı.

> Ancaq Azərbaycan ordusunun möhkəmləndirilməsinə diqqətin artırılması təkcə bu səbəblə bağlı deyildi. 1918-ci il sentyabr ayının ortalarında artıq aydın olmuşdu ki, Türkiyə və onun müttəfıqləri Birinci dünya savaşında məğlub olmaq üzrədir. Osmanh hökuməti rəhbərliyi, o cümlədən də Ənvər paşa anlayırdı ki, dünya səhnəsində gedən proseslər onların xeyrinə cərəyan etmir və yaxın vaxtlarda türk qoşunları Qafqazı, o cümlədən də Azərbaycanı tərk edə bilər. Ona görə Ənvər paşa həm Xəlil paşanın, həm də Nuri paşanın diqqətini Azərbaycanın milli hərbi qüvvələrinin təşkilatlanmasına və möhkəmləndirilməsinə yönəldirdi ki, əgər Osmanlı qüvvələri Azərbaycanı tərk edərsə o zaman Azərbaycan mövcud milli qüvvələri ilə öz müstəqilliyini qoruya bilsin.

Nuru paşa Azərbaycana gələndə Müsəlman qolordusunun (korpusunun) strukturunda hər biri dörd piyada alayından ibarət olan iki piyada fırqəsi (diviziyası) süvari və topçu alayları var idi. Ancaq bu alaylarda şəxsi heyətin sayı kifayət qədər deyildi. Ona görə də hissələrin bir çoxu ləğv edilmiş və bir çoxu da yenidən qurulmuşdu. Qafqaz İslam Ordusunun Azərbaycanda mövcudluğunun ilk aylarına aid olan arxiv sənədlərində yalnız dörd piyada alayının adı xatırlanır(süvari və digər yardımçı hissələr nəzərə alınmamaqla). Azərbaycan qolordusunun yenidən qurulması ilə bağlı əmrlərində Nuru paşa göstərirdi ki, Azərbaycanda iki fırqəli qolordu yaradılacaqdır. Bakı şəhəri azad edildikdən sonra bu fırqələrin təşkilatlanması da sürətləndirildi. Nuru paşanın əmri ilə 1-ci, 2-ci və 3-cü piyada alayları 1-ci Azərbaycan fırqəsinin tərkibinə verildilər. Firqənin

komandanı Cəmil Cahid bəy təyin edildi. Piyada alaylarının komandirləri də türk zabitləri idi. 4-cü, 5-ci və 6-cı piyada alayları 2-ci Azərbaycan fırqəsinin tərkibinə verildilər. Bu fırqənin komandanı vəzifəsinə isə Nuru paşa öz qərargah rəisi olan Nazim bəyi təyin etdi. 4-cü piyada alayı artıq təşkil olunmuşdusa, 5-ci və 6-cı piyada alayları təşkilatlanma prosesində idilər. Nuru paşa Nazim bəydən tələb edirdi ki, bu alayların təşkilatlanmasını da sürətiəndirsin və ortaya çıxan çətinliklər barədə öz mülahizələrini dərhal ona çatdırsın.
Nuru paşanın əmri ilə 9-cu türk piyada alayı 1-ci Azərbaycan fırqəsinə, 10-cu türk alayı isə 2-ci Azərbaycan fırqəsinə verildi. Nuri paşanın məqsədi bu idi ki, həmin alaylar parçalanaraq Azərbaycan alaylarının arasında bölüşdürülsün və onların təşkilatlanmasını sürətləndirsin. Nəzərdə tutulmuşdu ki, türk alayının hər taburu bir Azərbaycan alayına verilsin. Burada isə türk taburunun hər bölüyü Azərbaycan alayının bir taburunun bazasını təşkil etməli idi. Ancaq məlumdur ki, türk-islam qoşunlarına Azərbaycanı tərk etmək əmri verilməsi ilə bu ideya həyata keçəbilmədi.
1918-ci ilin oktyabr ayının əvvəllərində Azərbaycan korpusunun tərkibi aşağıdakı kimi idi: 1-ci Azərbaycan diviziyasının 1-ci, 2-ci və 3-cü piyada alayları, 1-cü süvari alayı, 1-ci topçu alayı, istehkam taboru, 1-ci teleqraf bölüyü, 1-ci səhiyyə bölüyü, 1-ci iaşə taqımı, 1-ci səyyar xəstəxana və 1-ci cəbbəxana taboru. 2-ci Azərbaycan diiviziyasının tərkibində isə 4-cü, 5-ci və 6-cı piyada alayları, 2-cü süvari alayı, 2-ci topçu alayı, 2-ci istehkam taboru, 2-ci teleqraf bölüyü, 2-ci səhiyyə bölüyü, 2-ci iaşə taqımı, 2-ci səyyar xəstəxana və 2-ci cəbbəxana taboru var idi. Birbaşa korpusun özünə isə aşağıdakı hissə və bölmələr daxil idi: 3-cü süvari alayı, 1-cı ağır topçu taboru, 1-ci qaubitsa taboru, teleqraf taboru, dəmiryol taboru və təyyarə dəstəsi.
1918-ci il oktyabr ayının birinci yarısında Azərbaycan korpusunun tərkibində bir sıra struktur dəyişiklikləri baş verdi. Əvvəlcə süvari alayları 1-ci diviziyanın tərkibinə verildi. 2-ci diviziyanın tərkibində isə 4-cü milli süvari alayının təşkilinə başlandı. Bu süvari alayından başqa korpusa və İslam Ordusu komandanlığına tabe olan iki süvari bölüyü, habelə ayrıca Zəngəzur süvari bölüyü yaradıldı. Süvari alaylarının hər birinin tərkibində bir pulemyot bölüyünün təşkili başa çatdırıldı. Ordubadda isə ayrıca bir piyada taboru təşkil edildi.
Qafqaz İslam Ordusu komandanlığı 1-ci Azərbaycan diviziyasının tərkibində olan 1-ci, 2-ci və 3-cü süvari alaylarını bu diviziyanın tərkibindən çıxarıb ayrıca bir süvari diviziyası təşkil etməyi planlaşdırırdı. Ancaq Mudros müqaviləsinin tələbləri ilə Qafqazı İslam Ordusunun ləğv olunması və türk qoşunlarının Azərbaycanı tərk etməsi buna imkan vermədi.
Nuru paşanın atdığı əhəmiyyətli addımlardan biri də Azərbaycanın sərhəd alayının təşkil edilməsi barədə verdiyi əmr idi. Üç tabordan ibarət olan bu alay Azərbaycanın Gürcüstan və Ermənistanla sərhədlərini qorumalı idi. Alayın bölmələri Zaqataladan başlamış Araz çayına qədər sərhəd xətti boyunca yerləşməli idi. Alayın şəxsi heyəti azərbaycanlılardan ibarət olmalı idi. Ancaq Nuru paşa alayın tərkibində az miqdarda osmanlı əsgərlərinin xidmətini də mümkün sayırdı.

Azərbaycan qolordusunun tərkibində süvari və topçu hissələrinin və digər yardımçı bölmələrin formalaşması da xüsusi diqqət mərkəzində idi. Bakı şəhəri azad edildikdən sonra çağırış işinin təşkilində müəyyən canlanma özünü göstərirdi. Azərbaycanın mətbuat orqanlarında çap olunan məlumatlar da azərbaycanlı gənclərin xidmətə münasibətində irəliləyişlər olduğunu təsdiq edirdi. Nuru paşa öz xatirələrində türk-islam

qoşunlarının Azərbaycanı tərk etmək ərəfəsində 1-ci Azərbaycan firqəsinin şəxsi heyətinin nə qədər olduğunu qeyd etmişdir. Firqədə 2898 nəfər şəxsi heyət var idi. Bu da hissələrin komplektləşdirilməsi sahəsində müəyyən işlər görülməsindən xəbər verirdi.

Bununla belə onu da qeyd etmək lazımdır ki, Qafqaz İslam Ordusunun tezliklə Azərbaycan ərazisini tərk etməsi Azərbaycanın qoşun hissələrinin formalaşmasını yarımçıq qoydu və bu proses sonradan Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyi tərəfindən davam etdirildi.

**İLK ADDIMLAR**

Nuru paşa Azərbaycana gəldikdən sonra gördüyü işlər barədə öz xatirələrində belə yazmışdı:

> İlk iş olaraq məntəqələrə təqsim edilmiş mülki və əsgəri məsləhəti kimi məntəqələrə birər zabit göndərilmiş idi. Qəza və nahiyyələrdə yerlilərdən mövcud mülki təşkilat yaradılmış və məmurlar islah edilmiş idi. Bu sürətlə az zamanda asayiş təminedilmiş, Gəncə, Qazax, Zaqatala, Nuxa, Ağdam, Ağdas, Cəbrayıl, Qarabağ məntəqələri ilə Zəngəzurun şərq qismini ihtiva etmək üzrə geniş bir sahədə idarə və komandanlıq təsis edilmiş idi. Azərbaycanı şərqdən və qərb-cənubdan təhdid edən düşmənə qarşı yalnız yerli qüvvələrə müqavimət edilməyəcəyi anlaşılmış olduğundan tələbim üzərinə 5-ci Qafqaz fırqəsi əmrimizə təxsis edilmiş idi. Firqənin Cəmil Cahid bəy komandasındakı ilk 13-cü alayı 12 haziran 1918 tarixində (burada bir qeyri-dəqiqlik var. Göstərilən tarixdə Azərbaycana gələn 9-cu Qafqaz alayı idi və C. Cahid bəy də onun komandiri idi –müəll.) Azərbaycana müvasilət etdiyindən işbu alay Gəncəyə cəlb edilmiş və buradakı ermənilərin müqavimətlərinə rəğmən silahları alınmış idi. Bundan sonra məzkur alaydan bir bölük Qarabağ məntəqəsi komandanı bulunan İsmayl Həqqi bəyin əmrinə göndərilmiş və yerli qüvvələrlə müştərəkən Şuşa qəsəbəsinin qərbində sərp bir boğaza hakim və ermənilər tərəfindən işğal edilmiş olan Qələ kəndi çətin bir hərb ilə işğal edilərək bu tərəfdən təhdid vəziyyəti almış olan erməni hərəkatı tövqif edilmiş idi.

Nuru paşanın ilkin olaraq nələrə diqqət yetirdiyini bu sətirlərdən də görmək mümkündür. Bütünlükdə istər Nuru paşanın xatirələrini, istərsə də arxiv materiallarını araşdırmaqla ilk günlər əsas diqqət altında olan məsələləri bir neçə qrup üzrə ümumiləşdirmək olar. Mövcud şəraitə uyğun olaraq Nuru paşa əsasən bu məsələlərin həlli ilə məşğul idi: Azərbaycanın bölgələrində asayişin bərpası, qərbə doğru genişlənən bolşevik-daşnak təcavüzünün qarşısının alınması, Qarabağda və ermənilər yaşayan digər məntəqələrdə erməni təhlükəsinin aradan qaldırılması, Azərbaycanın milli hərbi qüvvələrinin formalaşdırılması. Məlumdur ki, Nuru paşa Azərbaycana çatanda hələ dövlət müstəqilliyi elan edilməmişdi. Yerlərdə güclü dövlət və idarəçilik orqanları yox idi. Anarxiya geniş yayılmışdı. Belə bir şəraitdə sözsüz ki, ölkənin güclü ordu qurmağa və bolşevik-daşnak təcavüzünü bütünlüklə yox etməyə imkanı mövcud deyildi. Ona görə də zəruri sayılan bu məsələlərin həllindən ötrü dərhal,bir an da gecikmədən bölgələrdə idarəçilik orqanları yaradılmağa , məntəqə komandanları təyin edilməyə başlanıldı. Bu komandanların rəhbərliyi altında az bir zamanda yerlərdə idareçilik öz axarına salındı, orduya səfərbərlik işləri nizamlandı.

Türk qoşun hissələrinin hələlik bütünlüklə Azərbaycana gəlib yetişmədiyi bir halda yerli qüvvələrlə heç olmasa bolşevik-daşnak qoşunlarının hücumlarının dayandırılmasına cəhd göstərilirdi. Ancaq Azərbaycanın təhlükəsizliyini mürəkkəbləşdirən təkcə Bakıdan irəliləyən bolşevik qoşunları deyildi. Ermənilər yaşayan məntəqələrin hamısında Azərbaycanın müstəqilliyinə qarşı bir təhlükə var idi. Təkcə Qarabağda deyil, digər məntəqələrdə yaşayan ermənilər Bakıdakı bolşevik-daşnak irticası ilə əlaqə saxlayıb Azərbaycanın milli qüvvələrinə zərbə vurmağa daim hazır olduğunu bildirirdilər. Hətta Gəncənin erməni məhəlləsinin erməniləri də silahlanaraq Azərbaycanın milli qüvvələrinə frxadan zərbə vurmaq üçün məqam gözləyirdilər. Nuri paşa yaxşı anlayırdı ki, Qafqaz İslam Ordusunun arxasında belə bir təhlükənın movcud olmasına yol vermək olmaz. Şərqə doğru irimiqyaslı hücumları başlamazdan əvvəl cəbhə arxasını tamamilə təhlükəsiz bir vəziyyətə gətirmək lazımdır.
Gəncə ətrafında ermənilərin fəallaşması barədə Nuru paşa öz xatirətərində belə yazırdı:

> Gəncə cənubundakı dağlıq məntəqədə məskun olan ermənilər də Bakıdan irəliləyənlərə yardım üçün hazır vəziyyətdə və islamlarla daim cidal halında bulunuyordu. Hətta Gəncənin nisfinə (yarısına –müəll.) qədər bir qismini təşkil edən Ermənikənd məhəlləsi ilə türk məhəllatı arasında gecə və gündüz silah partlamaları əskik olmayırdı.

Bunlara görə də Nuru paşanın ilk döyüş əmrlərindən biri Gəncə ermənilərının tərksilah edilməsi ilə bağlı idi. Bu tərksilah əməliyyatı 1918-ci il iyun ayının 11-12-də kecirildi. Gəncə ermənilərinin çox böyük sayda silahları var idi. Onların müqavimətini qırmaq üçün, bununla onları zərərsizləşdirməkdən ötrü güclü bir hərbi dəstə lazım idi. Nuru paşanın ixtiyarında isə yalnız 9-cu piyada alayı və 2-ci türk süvari alayı var idi. Bu alayların da qüvvələrı yolların və məntəqələrin qorunması üçün dağıdılmışdı.Odur ki, qərargahın mühafızəsi üçün 9-cu alaydan yalnız bir taqım saxlanılaraq qalan qüvvələr isə ermənilərin tərksilah edilməsinə göndərildi.
Gəncə ermənilərinin tərksilah edilməsi barədə bölük komandirı Mucib Kamalyerinin xatırələrində bir sıra qeydlər etmişdir. Onun qeydlərindən görünür ki, bu əməliyyatın gərgin keçəcəyini Cəmil Cahid bəy də, Nuru paşa da əvvəldən hiss edirdilər. Onun yazdıqlarına görə, bir gün əvvəl Nuru paşa ilə alay komandiri Cəmil Cahid bəy saatlarca bir yerdə olmuşdular və ola bilsin ki, həmin görüşdə bu əməliyyatın aparılması müzakirə olunmuşdu.
Mucib bəy yazır ki, əməliyyat başlamamışdan əvvəl alay Ermənikəndin arxasındakı geniş əraziyə cəmləşdirilmişdi. Burada da qüvvələrin döyüş düzülüşü aparılmışdı. İrəlidə 9-cu alay, onun arxasında isə arxasında isə Azərbaycan milli səhra batareyast yerləşdirilmişdi. Tərksilah əməliyyatı başlamamışdan əvvəl, səhər saat 9-a yaxın erməni məhəlləsindən alaya doğru erməni nümayəndə heyəti gəldi. 5 nəfərdən ibarət olan bu heyət alay komandanı Cəmil Cahid bəylə görüşdü . Danışığa gəlmiş ermənilər əvvəlcə burada düzülmüş qüvvələri diqqətlə izləyirlər və onların hansı gücə malik olduğunu özləri üçün müəyyənləşdirirlər. Ağ bayraqlarla gəlmiş ermənilər dərhal tərksilah olmağa söz versələr də vədlərinə xilaf çıxırlar. Görünür, onlar ilk baxışdan türklərin kifayət qədər gücə malik olmadığını qərarlaşdırmış və ona görə də tərksilah əmrinə tabe olmağa tələsməmişdilər. Mucib bəy xatirələrində qeyd edir ki, ermənilər üçün təyin edilən vaxt başa çatana qədər alaya istirahət verilsə də Cəmil Cahid bəy özü bir an da olsa istirahət etmir, tabur komandirlərinə lazımi göstərişlər verir, döyüşçülərin vəziyyəti ilə maraqlanırdı. Təyin edilən möhlət başa çatdıqdan sonra ermənilərdən cavab gəlmədi və belə olanda hücuma keçmək əmri verildi. İlk olaraq döyüşü Mucib

Kamalyerinin bölüyü başladı və gözlənilmədiyi halda bu bölük ermənilərın mühasirəsinə düşdü. Bütün cəhdlərə baxmayaraq bölük xeyli itki vermək məcburiyyətində qaldı.

Nuru paşa da elə bu ilk döyüşlə çox ciddi bir sınaqla qarşılaşdı və heç şubhəsiz ki, bu sınaq ona ağır psixoloji təsir göstərdi. İlk döyüşdə erməni məhəlləsinin mühasirəsi heç bir nəticə verməyəndə bölmələr geri çəkilib ilkin mövqeləri tutdular. Ermənilərlə ilk qarşılaşmanın belə uğursuz nəticələnməsi həm Nuri paşa üçün, həm də bütünlükdə türk hərbçiləri üçün gözlənilməz idi. Mucib bəy öz xatirələrində həmin döyüşün səhnələrindən birini belə təsvir edirdi:

> Artıq ətrafımız yavaş-yavaş, sarılır, ağacların təpəsindən də üzərimizə atəş edilirdi. Az sonra içində düsürüldüyümüz qarğaşalıqdan cəsarət alan 20-30 qədər erməni fədaisi üzərimizə atıldı. Qarşı tərəf atəşi kəsdi. Bıından sonra təlimini heç yapmadığımız sokak müharibəsinin ən müdhiş anı başladı. Subaylar ilk dəfə tapancalarını kullanırlarlar, süngü taxmağa vaxt bulmayan mehmetciklər də türlü təcrübələrin verdiyi tərifəsığmaz ustalıqla saldırılarını təpəliyirlərdi. Boğuşma az sürdü. Sonunda sağ qalan 15-ə qədər basqınçı birdən-birə ortadan qeyb oldular. Biz də fürsətdən istifadə edərək 10 ağır yaralımızı sırtlarla daşıyaraq yavas-yavaş geri çəkilməyə başladıq. Ən irəlidəki manqamızın şəhid düşən dörd ərini orada buraxmağa məcbur olduq.

Bu döyüşün gedişində Azərbaycana gəlmiş türk qüvvələri burada ilk şəhidlərini verdilər. Nuru paşa ücün gizli deyildi ki, bu vəziyyət həm qoşun bölmələrində, həm də gözlərini türk qoşunlarına dikən əhalidə bir ümidsizlik, bir çarəsizlik düşkünlüy6ü yarada bilərdi. Digər tərəfdən, o da» aydın idi ki, bölgədə ad çıxarmış türk qoşunlarının belə uğursuzluğu erməni silahlı dəstələrini daha da ruhlandıracaq və onların müqavimətini artıracaqdı. Vəziyyətin beləcə qalması hər şeyin məhv olması ilə nəticələnə bilərdi. Ona görə də həmin gün Nuru paşa Azərbaycanda bəlkə də ən narahat gecəsini keçirdi. Bütünlükdə ilk bir neçə həftəni Nuru paşa belə ağır mənəvi-psixoloji vəziyyətdə keçirmişdi. Çünki Gəncədə bas verən uğursuzluq yeganə sınaq deyildi. Buradakı vəziyyətin düzəldilməsi üçün isə Nuru paşanın əlində əlavə qüvvə yox ıdi. Buna görə də yeganə çarə mövcud qüvvələrin mənəvi-psixoloji sarsıntılarını qırmaq, ruh düşkünlüyünü aradan qaldırmaqvə onları yeni döyüşə səfərbər etmək idi. Gecə ərzində Nuru paşa buna nail ola bildi və birinci gün bir qədər ehtiyatlı hərəkət edən qüvvələr ikinci gün çox böyük iradə və qətiyyət nümayiş etdirə bildilər. Nəticədə ermənilər ağ bayraq qaldırdılar və silahlarını təhvil verməyə hazır olduqlarını bildirdilər. Toplanan silahlara görə Nuru paşa ermənilərin yenə də saxtakarlıq etdiyini anladı və bildirirdi ki, ermənilər heç də bütün silahlarını təhvil verməmişlər. Onlarda qalan silahların toplanmasını davam etdirmək üçün iyunun 13-də də erməni məhəlləsi mühasirədə saxlanıldı.

Nuru paşanın xatirələrindən aydın olur ki, cəbhə arxasında təhlükə törədə biləcək qüvvə təkcə erməni silahlıları deyildi. 1918-ci ilin iyun ayında Gürcüstanla sərhəddə də müəyyən gərginlik var idi. Bu barədə Nuru paşa belə yazırdı:

> Tiflisi işğal etmiş olan general fon Kress komandasındakı alman hissələri müttəfiq olmamıza rəgmən bizə qarşı gürcülərlə müştərəkən bizimlə düşmənçiliyə başlamış,və Sadaxlı ilə Qarayazını işgai elmişlərdi. Bunlar Poylu köprüsünün cənubuna keçərək məzkur stansiya ilə daha cənubdakı Ağstafa stansiyasına hərbi qüvvələr göndərib,alman və gürcü bayraqlarını ora asdıqlarından tərəfımizdən verilən əmr üzərinə və əsgər qüvvələrinə istinad edən

yerli əhalinin də köməyi ilə məzkur müfrəzələrin silahlarını almış və bayraqiarını endirərək kəndilərini Kür nəhrinin o tərəfinə qovmuşlardı.

Nuru paşanın bu sətirlərindəki bir neçə məqama diqqət yetirmək lazımdır. Gürcüstanla sərhəddə baş verən sərhəd pozğunluqlarının ilhamçısı vg səbəbkarı təkcə gürcülər yox, almanlar idilər. Almaniya Birinci Dünya savaşında Türkiyənin müttəfiqi olmasına baxmayaraq, Bakı neftinə və bütünlükdə Azərbaycan xalqına münasibətdə əks qütblərdə qərar tutmuşdu. Almanlar Azərbaycan xalqının nə mənafeyini,nə də taleyini nəzərə almadan nəyin bahasına olursa-olsun Bakı neftinə can atırdılar və bunun üçün gürcü hərbi qüvvələrinin, Azərbaycanın sərhəd məntəqələrindəki basqınlarından Türkiyəyə bir təzyiq kimi istifadə etməyə çalışırdılar. Nuru paşanın qeydlərindən göründüyü kimi alman-gürcü müştərək qüvvələri Azərbaycana məxsusluğu heç bir şübhə doğurmayan bir neçə stansiyanı işğal edərək orada öz bayraqlarını qaldırmışdılar. Qeyd etmək lazımdır ki, sərhəd pozğunluqları ilə bağlı Şərq Ordular Qrupunun komandanı Vehib paşa da çox qətiyyətli bir mövqe tutmuşdu. O, Nuru paşaya bu məsələ ilə bağlı göndərdiyi teleqramında bildirirdi ki, Azərbaycan ərazisində Osmanlı ordusundan başqa digər bir ordunun olması yolverilməzdir. Ona görə də Vehib paşa türk qüvvələri qarşısında alman-gürcü qüvvələri özləri Azərbaycan ərazisini tərk etməzlərsə onları məhv etmək tələbini qoymuşdu.

Vehib paşa həmin məsələ ilə əlaqədar Nuru paşaya göndərdiyi ikinci teleqramında bildirirdi ki, Qazax və Zaqatala Azərbaycana aiddir və buna görə də əgər bu ərazilərə kənar silahlı qüvvələr daxil olarsa onlara silahla cavab verin və Azərbaycan ərazisindən çıxarın.

Göstərilən bu həqiqi tələblər Nuru paşanın özü üçün də aydın idi. Ancaq bu həqiqətin həyata keçirilməsi üçün də Nuru paşanın əlində kifayət qədər qüvvə yox idi. Çünki Azərbaycana gəlmiş bütün qüvvələr Müsüslü və Göyçay istiqamətinə göndərilmişdi. Həmin istiqamətlərdə ciddi döyüşlər gedirdi və oradakı qüvvələrin sərhəd xəttinə atılması mümkün deyildi. Qazaxdan Gəncəyə qədər olan yolların qorunması üçün isə çox az qüvvə saxlanılmışdı. Yuxarıda adları çəkilən stansiyaların işğal altında qalması ilə razılaşmaq isə mümkün deyildi. Belə, olanda Nuru paşa yerli əhalinin gücünə tapındı. Həmin məntəqələrin əhalisi azsaylı mühafizə qüvvələri ilə birlikdə alman-gürcü qüvvələrinə qarşı qaldırıldı. Kiçik mühafizə dəstələri ilə birlikdə əhali stansiyalarda dalğalanan alman-gürcü bayraqlarını yerə endirdilər və işğalçı qüvvələri sərhəddən o yana qovdular.

## Göyçay ətrafında başlanan qalibiyyət yolu

Nuru paşanın Gəncəyə gəlməsi və Qafqaz İslam Ordusunun yaradılmasının ona tapşırılması Bakıda hakimiyyəti əlinə keçirən bolşevik-daşnak qüvvələrini ciddi təşvişə salmışdı. Azərbaycanın bütün ərazisinə qeyd-şərtsiz hakim olmaq istəyən ifrat bolşevik və daşnak qüvvələri yaxşı anlayırdılar ki, Qafqaz İslam Ordusunun təşkilatlanması onların niyyətlərinin həyata keçməsinə imkan verməyəcəkdir. Ona görə də Qafqaz İslam Ordusu hələ təşkilatlanmamış, dövlət müstəqilliyini yenicə əldə etmiş Azərbaycanın milli qüvvələri nəfəs dərməyə imkan tapmamış Stepan Şaumyan və onun ətrafındakılar, əsasən ermənilərdən təşkil edilmiş bolşevik-daşnak qoşunlarına Gəncəyə doğru hücum əmri verdilər. İyun ayının əvvəllərində bu qoşun hissələri Bakı-Gəncə

dəmir yolu xətti boyunca və Bakı-Şamaxı-Göyçay şosse yolu boyunca hücuma keçdilər. Bolşevik-daşnak liderlərinin qarşılarına qoyduqları minimum məqsəd Yevlaxda Kür çayı üzərindən keçən körpünü tutmaq idi. Çünki bu körpünü tutmaqla Qafqaz İslam Ordusu hissələrinin şərqə doğru irəliləməsini saxlamaq olardı. Körpünün hər iki tərəfindən çay boyunca uzun bataqlıq sahələrinin olması türk və Azərbaycan qüvvələrinin çayı keçməsini demək olar ki, qeyri-mümkün edirdi.
S.Şaumyan planlaşdırılan hücumun bolşeviklər üçün uğurla nəticələnəcəyinə dərindən əmin idi. O, 1918-ci il iyun ayının əvvələrində V.Leninə göndərdiyi məktubunda bildirirdi ki, biz özümüzü çox möhkəm hesab edirik. Görünür elə bunun üçün idi ki, Bakı bolşeviklərinin lideri Yevlaxa çatıb Kür çayı boyunca müdafiə mövqeləri tutmaqla kifayətlənmək istəmir, buradan Yelizavetpol (Gəncə) və sonra da Tiflis üzərinə hücum etməyi planlaşdırırdı. Türk-Azərbaycan qoşunlarına qarşı döyüşlərin başlanmasından az sonra V.Leninə yazdığı başqa bir məktubunda S.Şaumyan hərbi planları barədə belə yazırdı:

> Əlbətdə, biz bunu gözləyirdik və özümüzü möhkəmləndirirdir. Ancaq zənn edirəm ki, Bakıdakı vətəndaş müharibəsindən dərhal sonra az qüvvələrlə ora (Gəncəyə - M.S.) hərəkət etsəydik daha yaxşı olardı. Onda vəziyyət daha əlverişli idi və biz Batumda və Batum danışıqlarından sonra bütün baş verənlərin qarşısını ala bilərdik... Bizim üçün bir şey aydındır: irəli getmək lazımdır. Biz fikirləşirdik ki, Yevlaxa qədər gedək, orada bir qədər dayanıb irəli Yelizavetpola gedək. Birbaşa Tiflisə getməyə cəsarət etmirdik. Ancaq axır vaxtlar bizdə bu barədə də söhbətlər gedir.

Bolşeviklərin malik olduqları hərbi qüvvə də bu planların həyata keçirilməsinə müəyyən əsas verirdi. Qafqaz Qırmızı ordusunun ixtiyarında olan qüvvələr nə sayca, nə də təchizat baxımından Qafqaz İslam Ordusundan geri qalmırdı. S.Şaumyan bolşevik-daşnak qüvvələrinin imkanlarını belə qiymətləndirirdi:

> Hərb işindən xəbərdar olan adamların ordu haqqında ümumi təəssüratı belədir ki, bu adi sovet ordusu deyil, əsil nizami qoşunlardır. Rusiadan gələn bütün yoldaşlar bu ordu ilə tanış olduqdan sonra heyrətlərini gizlədə bilmirlər. Və hələlik bu ordu özünü çox əla aparır.

S.Şaumyan əksəriyyətini ermənilər təşkil edən və Azərbaycan xalqını, onun müstəqil dövlətini qan içində boğmaq üçün toplaşan ordunu belə ağız dolusu tərif edirdi. Bununla belə, o, əldə etdiyi nəticələrlə kifayətlənmirdi və Qırmızı ordunun möhkəmləndirilməsi davam etdirilirdi. 1918-ci il may ayının sonu, iyun ayının əvvəllərində Qafqaz Qırmızı ordusunu 19-cu və 20-ci taborlarının təcili təşkilinə başlandı. 19-cu taborun əsasını Petrovsk (Mahaçqala) şəhərini işğal etmiş bolşevik qüvvələri təşkil etməli idi. Eyni zamanda xüsusi hücum bölüyünə və Dəmir bölüyə könüllülər toplanırdı. Mühəndis və texniki bölmələrin sürətlə dəstləşdirilməsi üzərində iş aparılırdı.
Sayı 18 minə çatdırılmış Qırmızı ordunun 60-70 faizini ermənilər təşkil edirdilər. Bu ordunun möhkəmləndirilməsi üçün Rusiya tərəfindən göndərilən hərbi yardımların da ardı-arası kəsilmirdi. 1918-ci il iyun ayının elə ilk günlərində Rusiyadan 12 ədəd dörd düyməlik top, onun heyəti və təchizatı yüklənmiş qatar Bakıya yola salınmışdı. Tula silah zavodundan isə xeyli sayda pulemyot, tüfəng və patron göndərilmişdi. Dəniz işləri üzrə Rusiya Xalq Komissarlığı Soveti Xəzər hərbi donanmasının gücləndirilməsi üçün üç keşikçi gəmisi və üç minadaşıyan gəmi ayırıb onları etibarlı şəxsi heyətlə dəstləşdirdi.

İyun ayının sonlarına Ter-Qabrielyan Rusiyadan 4 ədəd zirehli avtomobil, 13 ədəd təyyarə və çoxlu silah, sursat, təchizat gətirdi. Elə həmin günlərdə Bakı xalq Komissarları Soveti Rusiya Hərbi İnqilab Şurasına göndərdiyi xahişnamədə 1-ci Qafqaz Qırmızı korpusunun ehtiyacları üçün 2-3 diviziyanın, 6 ədəd təyyarənin, 6 ədəd zirehli avtomobilin, 180 ədəd pulemyotun, bir neçə topun, 18 milyon tügəng gülləsinin, 25 min dəst hərbi geyimin və s. ayrılması zəruriliyini vurğulayırdı. Canlı və texniki qüvvələr artdıqca Qafqaz Qırmızı ordusunun rəhbərliyi mühəndis-istehkam işlərinin gücləndirilməsinə də xüsusi fikir verirdi. Hərbi və dəniz işləri üzrə komissar Q.Korqanovun əmri ilə 1918-ci ilin iyun ayının 3-də xüsusi mühəndis-tikinti idarəsinin və onun sərəncamında olan 5 tikinti dəstəsinin, 4 fəhlə artelinin təşkilinə başlanmışdı.
Nəhayət, kifayət qədər qüvvə və ehtiyat yaradıldıqdan sonra Bakı Xalq Komissarları Sovetinin hərbi və dəniz işləri üzrə komissarı Q.Korqanov 1918-ci il iyun ayının 4-də 1-ci Qafqaz Qırmızı korpusunun Cənubi Qafqaz dəmir yolu boyunca Hacıqabuldan qərbə doğru hücuma keçməsi barədə 8 nömrəli əmri imzaladı. Həmin əmrə müvafiq olaraq Qırmızı ordu hissələrinin hücumu iyun ayının 6-da başlamalı idi. Qoşunların döyüş fəaliyyətinə ümumi rəhbərliyi komissar Q.Koqanov və onun yanında yaradımış Hərbi Şura öz üzərinə götürdü.
Döyüş şəraitində qoşunların idarə edilməsini nizamlayacaq bu əmrlə briqada komandirləri yanında qırmızı komissarlar da təyin edilmişdi. 1-ci briqadanın komissarı A.Quloyan, 2-ci briqadanın komissarı Ter-Sarkisov, 3-cü briqadanın komissarı A.Qabişev, artilleriya rəisi yanınfa isə komissar T.Şaumyan təsdiq edilmişdi. Yəni, bu dörd komissardan üçü erməni idi. Qoşun hissələrinin komissarlarının əsasən ermənilərdən təyin edilməsi onun milli-etnik tərkibinə və izlədiyi niyyətlərin mahiyyətinə tamamilə müvafiq idi.
Gəncəyə doğru hərəkətə başlamazdan əvvəl, iyun ayının 6-da Q.Korqanovun korpusun əsgər və zabitlərinə ünvanlanmış müraciət xarakterli əmri də başlanan hücumun nəyə xidmət etdiyini açıq göstərirdi. Həmin əmrdə bəyan edilirdi ki, artıq Cənubi Qafqaz fəhlə-kəndli inqilabının taleyinin, Cənubi Qafqaz xalqlarının özünün taleyinin həll edilməsi vaxtı çatmışdır. Guya Cənubi Qafqaz respublikalarının öz müstəqilliklərini elan etməsi gürcü zadəganalrı ilə müsavat bəylərinin istəyi idi, xalq onları istəmir və Azərbaycana türk qoşunlarının gəlməsi də xalqın istəyinin əksinə olaraq edilmişdir. Bolşeviklərə görə, türk generalları qoşunları ilə Bakıya gələrsə Bakı fəhlələrini əzəcək, sovet hakimiyyətini isə məhv edəcəkdir. Əmrdə daha sonra deyilirdi:

> Yoldaş 1-ci Qafqaz Qırmızı korpusunun əsgərləri! Sizin üzərinizə Cənubi Qafqazda əksinqilaba birinci zərbə endirmək, milliyətindən asılı olmayaraq bütün fəhlə və kəndliləri birləşdirib üsyana qaldıran bir qüvvə olmaq kimi çox böyük bir vəzifə düşür. Qələbə çalmaqla siz Qafqaz xalqlarını məhv olmaqdan xilas edəcəksiniz. Siz neft sənayesi mərkəzi Bakını bütün Sovet Respublikası üçün xilas edəcəksiniz... Sizə Şimali Qafqazdan və Rusiyadan mümkün olan lazımi kömək gəlir və gələcəkdir.

S.Şaumyan Qırmızı ordu hissələrinin hücuma başlamasını öz xəyallarının həyata keçirilməsi istiqamətində ilk addım sayırdı. O, üzləşəcəkləri türk qoşunlarının güclü olması barədə məlumat aldığını bildirsə də, Qırmızı ordunun çətinlik çəkmədən qalib gələcəyinə əmin idi. Bu barədə o, V.Leninə göndərdiyi məktubunda belə yazırdı:

> Əgər qarşımızdakı yalnız Yelizavetpol (Gəncə) quldur dəstələri olsaydı, onlar nə qədər çoxsaylı olsaydılar və onlara hətta bütün menşevik gürcü qüvvələri

qoşulsaydılar belə onlar bizim üçün qorxulu olmazdılar. Ancaq bizi almanlar qorxudur.

Bakı-Tiflis dəmir yolu boyunca hərəkət etməli oldn Qafqaz Qırmızı korpusunun əsas qüvvələri Hacıqabul stansiyasına cəmləşdirildikdən sonra iyun ayının 10-da buradan hücum başlandı. Bu zaman onların qarşısında Müsəlman korpusunun və gürcü korpusunun müştərək qüvvəsi dayanmışdış Həmin qüvvələrə gürcü knyazı polkovnik Maqalov komandirlik edirdi. Maqalovun qəragahı Ucarda yerləşirdi. Qırmızı ordu qoşunları ilə müqayisədə xeyli az olan müştərək qüvvələr isə Kürdəmir ətrafında idi və irəliyə çıxarılmış qüvvələrə polkovnik Qlebov rəhbərlik edirdi. Onun sərəncamında bir neçə top da var idi.

Polkovnik Qlebovun azsaylı qüvvəsi Qafqaz Qırmızı korpusunun əsas qüvvələrinin qarşısını saxlamağa qadir deyildi. Türk qoşunlarından isə bura bir kömək gəlməmişdi. Bütünlükdə, türk qoşunları hələ tam şəkildə heç Gəncəyə gəlib çıxmamışdılar. Bolşevik-daşnak qüvvələri də bundan mümkün qədər çox faydalanmağa çalışırdılar.

İyun ayının 11-də Qırmızı ordu hissələri Sığırlı stansiyasında olan milli qoşun bölmələri üzərinə hücum etdilər. Bu hücum zamanı ciddi bir müqavimətə rast gəlməyən Qırmızı ordu hissələri iyunun 11-də bundan mümkün qədər çox faydalanmağa çalışırdılar.

İyun ayının 11-də Qırmızı ordu hissələri Sığırlı stansiyasında olan milli qoşun bölmələri üzərinə hücum etdilər. Bu hücum zamanı ciddi bir müqavimətə rast gəlməyən Qırmızı ordu hissələri iyunun 11-də axşam çağı Sığırlı stansiyasını işğal etdilər. Bu xəbəri S.Şaumyan çox böyük sevinclə qarşıladı və o, dərhal Moskvaya, V.Leninə teleqram göndərdi:

> Yelizavetpol istiqamətində hərbi əməliyyatlar başlamış Bakı Soveti qoşunları komandanının ilk məlumatını göndərirəm. Məlumat bu gün, iyun ayının 11-də axşam saat 9-da alınmışdır. Bizim qoşunların ön dəstələri Sığırlı stansiyasını tutmuşdur. Bizim kəşfiyyat qatarımız Kərrrar stansiyası istiqamətindən düşmən topları vasitəsiylə atəşə tutulmuşdur. Qoşunlarımız irəli hərəkət edir...

Milli qoşun hissələrinin zəif olduğunu görən Qırmızı korpusun komandanlığı iyunun 12-də hücumu davam etdirdi. Kürdəmir ətrafında baş verən növbəti döyüş də bolşevik-daşnak qüvvələrinin uğuru ilə sona çatdı. Müsəlman korpusunun süvariləri müqavimət göstərməyə cəhd göstərsələr də düşmən xeyli güclü idi. Ona görə Kürdəmir kəndi və stansiyası da bolşeviklərin əlinə keçdi.

Kürdəmir stansiyası tutulduqdan sonra Q.Korqanov öz qərargahını buraya köçürdü. 2-ci briqadanın hissələri də bu istiqamətdə cəmləşdirildi. Ordunun səhra cəbbəxanası da Kürdəmirdə təşkil edildi. Burada müdafiə mövqeləri tutub gələcəkdə hücumu davam etdirmək üçün yaxşı imkan vardı. Qırmızı ordunun sol cinahı Kür çayı ilə məhdudlanırdı. Bu ərazilər Qırmızı ordu hissələrinin nəzarəti altında idi. Dəmir yolu xəttindən başlayaraq həm cənuba, həm də şimala doğru uzanan bataqlıqlar da müdafiə imkanlarını artırırdı. Cəbhə mərkəzində çox dar sahədə milli qüvvələr hücuma keçməyə cəhd göstərsələr də bir nəticə əldə edə bilmədilər və geri çəkildilər.

Nuru paşa cəbhədə yaranan gərginliyin təhlükəsini yaxşı başa düşürdü. Ancaq vəziyyəti sabitləşdirmək üçün onun ciddi tədbirlər həyata keçirməyə imkanı yox idi. Gəncədə olan azsaylı türk qüvvəsi Gəncə ermənilərinin tərksilah edilməsi ilə məşğul idi. Həmin qüvvələri Gəncədəki erməni məhəlləsinin mühasirəsindən çıxarmaq heç cürə mümkün deyildi

Həmin günlərdə Gəncədə olan azsaylı türk qüvvəsi Gəncə ermənilərinin tərksilah

edilməsi ilə məşğul idi. Həmin qüvvələri oradan çıxarmaq heç cürə mümkün deyildi. 5-ci Qafqaz fırqəsinin əsas qüvvələri isə Gəncə ətrafına yalnız iyunun 15-də gəlib çıxacaqdı. Nuru paşa nəyin bahasına olursa-olsun qərbə doğru irəliləyən düşmənin hərəkətini ləngitməyə çalışırdı. Mövcud vəziyyətdə Nuru paşanın əl atdığı yeganə vasitə o oldu ki, Müsəlman qolordusunun Gəncədə olan zirehli qatarını və Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəyi Müsüslü istiqamətinə göndərdi. Nazim bəy vəziyyəti yerində öyrənməklə bərabər Müsüslü ətrafında və Qaraməryəm istiqamətində olan azsaylı milli qüvvələri bolşevik-daşnak hücumunu ləngitməyə və bununla da vaxt qazanmağa çalışmalı idi.

İyun ayının 14-də Nuru paşaya Müsüslü istiqamətindəki vəziyyət barədə məlumat verən Nazim bəy bolşevik-daşnak qoşunlarının hərəkətinin qarşısının alınması üçün əlavə qüvvə göndərilməsinin zəruriliyini vurğulayırdı. Çünki çox böyük sayda olan bolşevik-daşnak qüv-vələrinə qarşı Müsüslü istiqamətində azsayda milli qüvvələr var idi. Nazim bəy Nuru paşanın diqqətinə onu da çatdırırdı ki, Qaraməryəm ətrafında Müəmmər əfəndinin rəhbərliyi altında olan Ağdaş bölüyü və digər bölmələr üzərinə də güclü hücum gözlənilməkdədir.

Məlumatla tanış olduqdan sonra Nuru paşa Nazim bəyə bildirdi ki, Gəncə ətrafından onun köməyinə hələlik bir süvari bölməsi göndərə bilər. Özü də tövsiyə edirdi ki, həmin bölməni düşmənin arxasına zərbə vurmaq, dəmir yolu xətlərini dağıtmaq üçün istifadə etsin. Yaranmış vəziyyətlə bağlı Nuru paşa həm də Şərq Ordular Qrupu komandanı Vehib paşaya məlumat verdi və Azərbaycanda yaranmış mürəkkəb vəziyyəti onun nəzərinə çatdırdı. Nuru paşa bildirdi ki, Bakı bolşevikləri böyük bir qüvvə ilə irəliləyib Müsüslü ətrafındakı bataqlıq sahəyə yaxınlaşmışlar. 500 nəfər miqdarında təxmin edilən başqa bir dəstə isə Şamaxı yolu ilə Qaraməryəm üzərinə hücuma keçmişdir. 10-cu Qafqaz piyada alayı onların qarşısını saxlamağa göndərilmişdir. Nuri paşa onu da əlavə edirdi ki, Azərbaycana gəlib cıxmış olan 5-ci Qafqaz fırqəsində hər tüfəng başına yalnız 200 ədəd güllə mövcuddur və elə ilk döyüşdən sonra qüvvələr gülləsiz qala bilər. Ona görə Nuru paşa Vehib paşadan bu məsələyə diqqət yetirilməsini xahiş edirdi.

Nuru paşanın Gəncə ermənilərinin tərksilah edilməsi ilə başlanan gərgin günləri davam edirdi. Bir sınaqdan çıxmağa macal tapmamış onu növbəti sınaq haqladı. Özü də bu sınaq daha ciddi idi; Türk qoşunları yaxşı silahlanmış düşmən qüvvələri ilə üzbəüz gəlmişdilər. Bolşevik-daşnak qoşunlarının hücumunun qarşısının alınmaması çox ciddi faciələrə yol aça bilərdi, hərbi təşəbbüs isə hələlik bolşevik-daşnak qüvvələrinin əlində idi və onlar da bu fürsətdən istifadə edərək irəliyə doğru hərəkət edirdilər.

Dəmir qolu xətti boyunca əlavə qüvvələr göndərilmədən bolşevik-daşnak qoşunlarına qarşı ciddi müqavimət göstərməyin mümkün olmayacağı artıq Gəncədə Qafqaz İslam Ordusu komandanlığına da aydın idi. Əgər burada qarşısı alınmasaydı bolşevik-daşnak qoşunları düz xətt boyunca qısa müddətdən sonra Yevlaxa çatıb Kür çayı üzərindən keçən körpünü nəzarət altına ala bilərdi. Bundan sonra Bakıya doğru irəliləmək Qafqaz İslam Ordusu qoşunları üçün xeyli mürəkkəb ola bilərdi. Belə bir real təhlükəyə baxmayaraq Nuru paşa əsas diqqəti Göyçay-Qaraməryəm şosse yolu istiqamətində cəmləşdirdi və 10-cu Qafqaz alayını Qaraməryəm ətrafına göndərdi. Hadisələrin sonrakı inkişafı göstərdi ki, bu qərar çox incəliklə düşünülmüş bir qərar idi və Nuru paşanın döyüşlərin gedişində qəbul etdiyi ən mühüm strateji əhəmiyyətli qərarlardan biri idi. Çünki bu istiqamətdə baş verənlər bütünlüklə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizənin gedişinə həlledici təsir göstərdi.

Azərbaycana daxil olan 10-cu Qafqaz alayının hissə və bölmələri Ağstafada qatarlara

yüklənərək birbaşa Ucara gətirildi və buradan Qaraməryəm istiqamətinə göndərildi. Kürdəmir-Müsüslü ətrafındakı vəziyyəti ətraflı təhlil etdikdən sonra Nuru paşa belə bir qərara gəldi ki, həmin istiqamətdə süvari bölmələri bolşevik-daşnak qüvvələrinin arxasına göndərməklə gözlənilməz zərbə endirilsin və arxadan dəmir yolu xətləri dağıdılsın. Ona görə də Gəncədən bir süvari bölüyünün ora göndərilməsi barədə əmr verildi. Bundan başqa Nuru paşa Nazim bəyə bildirdi ki, yaxın vaxtlarda Azərbaycana gəlməsi gözlənilən istehkam bölüyü də onun ixtiyarına veriləcəkdir. Dəmir yolu xətti boyunca mövqelərin möhkəmləndirilməsi üçün Nuru paşa Cavad məntəqəsində olan minbaşı Nazim Ramazanzadənin dəstəsini də Müsüslü dəstəsinin tərkibinə daxil etdi.
Qaraməryəm ətrafına Qafqaz Qırmızı ordusunun 1-ci və 3-cü briqadaları gətirilmişdi. Onlar burada döyüşqabağı mövqe tutmuşdular. Bolşevik-daşnak qoşunlarına Qaraməryəmlə Göyçay arasındakı erməni kəndlərinin silahlı dəstələri də kömək edirdilər. Bu dəstələri zərərsizləşdirmək üçün Göyçaya gəlib çıxmış olan 10-cu Qafqaz alayının 30-cu taboru iyunun 15-də Mollaishaqlı və Sultankənd kəndləri istiqamətinə göndərildi. Bu qüvvəyə qarşı güclü müqavimət göztərə bilməyəcəyini anlayan erməni silahlıları Kalaker kəndinə tərəf geri çəkildilər.
İyunun 16-da isə Qaraməryəm ətrafında ciddi bir döyüş oldu. Səhər saat 9-da başlayan həmin döyüşdə Qafqaz Qırmızı ordusunun 3-cü briqadasının qüvvələri azərbaycanlılardan, gürcü və dağıstanlılardan ibarət dəstənin üzərinə hücuma keçdi. S.Şaumyan və Q.Korqanov orada Qırmızı ordu hissələrinin əldə etdiyi növbəti uğurun qiymətini şişirtmək üçün milli müdafiə dəstələrində olan döyüşçülərin sayının 2 minə çatdığını söylədilər. Halbuki belə deyildi. Qırmızı ordu hissələrinin irəlilədiyi istiqamətlərdə onun qarşısında sayca xeyli az olan qüvvələr dayanmışdılar. Buna görə də Qırmızı ordu hələlik ciddi bir müqavimətə rast gəlmədən irəliləyirdi. Qaraməryəm ətrafında dayanan müdafiə dəstələri qeyri-bərabər döyüşə girmələrinə baxmayaraq 7 saat ərzində bolşevik-daşnak qoşunları ilə vuruşurdular. Onlar Qaraməryəmə can atan düşmənin qarşısını almağa nə qədər səy göstərsələr də geri çəkilmək məcburiyyətində qaldılar və beləliklə, Qaraməryəm bolşevik-daşnak qoşunları tərəfindən işğal edildi.
İyun ayının 18-də hadisələr yenidən Qaraməryəm ətrafında cərəyan etdi. Həmin gün burada qanlı döyüşlər baş verdi. Müsüslüdə olam ərkani-hərb rəisi Nazim bəy və 10-ci Qafqaz alay komandiri Osman bəy firqə qərargahı və Qafqaz İslam Ordusu komandanlığı ilə razılaşdırılmadan iyun ayının 18-də Qırmızı ordu üzərinə hücum etməyi qərara aldılar. Ciddi bir hazırlıq olmadan planlaşdırılan bu döyüşün uğurla bitəcəyinə həm Nazim bəydə, həm də Osman bəydə bir əminlik var idi. İyunun 16-da 10-cu Qafqaz alayının 30-cu taborunun ətraf erməni kəndlərinin silahlı dəstələrini heç bir itki vermədən qovub dağıtması, habelə Müsüslü istiqamətində hiss edilən uğurlar sözsüz ki, türk-Azərbaycan qüvvələrinin əhval-ruhiyyəsinə müsbət təsir göstərmişdi. Digər tərəfdən də düşmənin Qaraməryəmi tutması və Göyçaya doğru irəliləməsi qətiyyətli əks tədbirlərin görülməsini tələb edirdi.
Havanın çox isti olması, içməli suyun çatışmaması, ağır fiziki gərginlik türk döyüşçülərinin çoxunu əldən salmışdı. Bolşevik-daşnak əsgərləri haldan düşmüş türk əsgərlərini əsir götürərək onları süngü ilə doğrayır və görünməmiş vəhşiliklər edirdilər. Qırmızı ordunun 18-ci taborunun da fəal şəkildə döyüşə qoşulması 10-cu alayın 28-ci taborunun vəziyyətini daha da çətinləşdirdi. Yəni, bir türk taboru üç bolşevik-daşnak taborunun zərbəsi altına düşdü. Belə olduqda tabor geri çəkilmək məcburiyyətində qaldı. Bolşevik-daşnak qoşunları bunu görüb təzyiqi daha da gücləndirəndə 10-cu alayın 38-ci taboruna 28-ci taboru himayə etmək tapşırığı verildi. Yalnız bundan sonra 28-ci

taborun üzərinə düşən ağırlıq nisbətən səngiməyə başladı.
Qaraməryəm cəbhəsində baş verənləri 10-cu Qafqaz alayı komandiri Osman bəy Müsüslüyə, Ordu ərkani-hərb rəisi Nazim bəyə məruzə etdi. Nazim bəy bu döyüşün gedişində bir dəyişiklik yaratmaq üçün dərhal 29-cu tabora hərəkət əmri verdi. Bu tabor Qaraməryəmin qərb tərəfində döyüşə qoşularaq Qırmızı ordu hissələrinin sol cinahına və arxasına zərbə endirməli idi. S.Şaumyan döyüşün gedişi barədə Moskvaya, V.Leninə və İ.Stalinə göndərdiyi teleqramda etiraf edirdi ki, bu istiqamətdə türk qüvvələrinin döyüşə qoşulması ilə Qırmızı ordunun sol cinahı 20 verst uzunluğunda sıxışdırıldı. Belə olanda Qırmızı ordu hissələri 28-ci türk taborunun təqibindən əl çəkdilər və nəzarət altında olan yüksəkliklərdə əlverişli mövqelər seçərək açıq sahədə hücum edən 29-cu taborun qarşısını saxlamağa müvəffəq oldular. Bolşevik-daşnak qoşunlarının bütün zərbə qüvvəsinin bu istiqamətə yönəldilməsi ilə 29-cu taborun uğurla başlayan hücumu nəinki dayandırıldı, hətta onun mühasirə olunmaq təhlükəsi yarandı. Belə olanda 29-cu tabor Veysəlli kəndinə tərəf bir qədər geri çəkildi.
Beləliklə, gün ərzində gedən döyüşlər havanın soyuması ilə səngidi və türk qüvvələrinin ilk böyük hücumu gözlənilən nəticəni vermədi. 10-cu Qafqaz alayının hissə və bölmələri Qaraməryəmdən geri çəkilmək məcburiyyətində qaldılar. Hamazaspın komandir olduğu 3-cü briqadanın hissələri isə əksinə Qaraməryəmdə daha da möhkəmləndilər və Göyçay üzərinə uğurlu hücum üçün əlverişli mövqelər ələ keçirdilər.
Türk tədqiqatçılarının fikrincə, Qaraməryəm ətrafında 10-cu Qafqaz alayı hissələrinin uğursuzluğa düçar olması ilk növbədə döyüşün hazırlanmasında taktiki səhvlərə yol verilməsi ilə bağlı idi. Düşmənin qüvvələri və mövqeləri barədə əldə kifayət qədər məlumat yox idi. Digər tərəfdən, döyüşün aparılması üçün lazımi ehtiyat qüvvə də yaradılmamışdı. Bütün bunlar, habelə döyüşçülərin psixoloji hazırlığının zəifliyi, ilk hücumdan yaranan çaşqınlıq, eləcə də cinah döyüşlərindən lazımınca istifadə edilməməsi və həm də cinah mühafizəsinin lazım olan səviyyədə təmin olunmaması türk qoşun hissələrinin itkilərinə və geri çəkilməsinə yol açdı. Başlıcası isə türk-Azərbaycan döyüşçülərinə böyük mənəvi zərbə vuruldu. Qırmızı ordu qüvvələri çaşqınlıq halında olan 10-cu alay bölmələrini təqib etsəydilər daha böyük hərbi uğurlar da qazana bilərdilər. Onların Qaraməryəm ətrafında möhkəmlənməklə kifayətlənmələri əslində 10-cu alayı daha böyük itkilərdən xilas etdi.
Qaraməryəm ətrafında gedən döyüşlərdə bütünlükdə 122 nəfər şəhid və itkin düşən, 121 nəfər isə yaralanan oldu. Bundan başqa 28-ci taborda 75 mauzer tüfəngi və 101 ədəd süngü sıradan çıxmışdı. Dağ topçu taqımında 2 ədəd top, 10 ədəd tüfəng və 41 mərmi düşmən əlinə keçmişdi. 29-cu taborda 18 mauzer tüfəngi və 19 süngü sıradan çıxmışdı. 30-cu taborda isə 13 mauzer tüfəngi ilə 35 süngü sıradan çıxmışdı.
Qaraməryəm ətrafındakı döyüşün nəticələri Qafqaz İslam Ordusu komandanlığında da ciddi təhlil olundu. Vəziyyətlə daha yaxşı tanış olmaq, qüvvələri yenidən qruplaşdırmaq, mövcud imkanları bütünlüklə səfərbər etmək üçün Qafqaz İslam Ordusu komandanı Nuru paşa, Müsəlman Korpusu komandanı Əliağa Şıxlinski, 5-ci Qafqaz firqəsi ərkani-hərb rəisi Rüşdü bəy cəbhə xəttinə yola düşdülər. Döyüşün səhəri günü onlar Müsülü yaxınlığında qatardan düşüb İslam Ordusu ərkani-hərb rəisi Nazim bəylə, habelə 29-cu taborun komandiri ilə görüşüb onlarn məruzələrini dinlədilər. Sonra Nuru paşa və onu müşayiət edən şəxslər faytonla Göyçaya yola gəldilər. 10-cu Qafqaz alayının komandiri Osman bəyin döyüş barədə verdiyi geniş məlumatı dinləyəndən sonra Nuru paşa bu qədər insan tələfatına yol verilməsini, iki ədəd topun itirilməsini çox

ciddi bir hadisə kimi qiymətləndirdi.
Bununla belə, vəziyyətdən çıxış yolları da arandı. Nuru paşa təkcə hərbçilərlə deyil, yerli əhalinin nümayəndələri ilə də görüşdü, onları türk-Azərbaycan qoşun hissələrinə hərtərfəfli yardım göstərməyə çağırdı. Xüsusilə, Nuru paşa Göyçay əhalisindən qoşunların, Azərbaycan ərazilərini bolşevik-daşnak təcavüzündən qorumağa çalışan döyüşçülərin içməli su ilə təchiz edilməsinin zəruriliyini vurğuladı. Həmin görüş zamanı Nuru paşa Göyçay əhalisinə belə müraciət etdi:

> Azərbaycanı və azərbaycanlıları düşməndən qurtarmaq üçün osmanlı ordusu məmləkətinizə gəldi. Bu orduya canla-başla yardım etməniz lazımdır. Silahla yardım edilmirsə, heç olmasa əsgərə yiyəcək və sularını daşıyınız. Bu şiddətli sıcaqda müharibə edən zabit və əsgərlərdən bir çoxları susuzluqdan ölmüşdür.

Nuru paşa eyni zamanda burada olan qüvvələrin möhkəmləndirilməsi üçün də bir sıra cəhdlər göstərdi. Hər şeydən əvvəl məhəllə komandanlıqlarına göstəriş verildi ki, azərbaycanlılardan ibarət olan silahlı dəstələrin təşkilini və Göyçay ətrafına göndərilməsini sürətləndirsinlər. İyunun 19-da Nuru paşa Ordunun ərkani-hərb rəisinə göndərdiyi teleqrafda bildirirdi ki, Göyçayda olan Ağdaş bölüyünün öz yerinə qaytarıması əvəzinə Ağdaşdan 2 minlik silahlı dəstəni təşkil edib Göyçaya göndərilməsini 10-cu Qafqaz alay komandiri Osman bəylə razılaşdırmışdır. Bundan başqa digər ərazilərdən də silahlı dəstələrin təşkili nəzərdə tutulmuşdu. İyunun 19-da Nuru paşa Göyçaydan Gəncəyə döndü. O hələ Göyçayda ikən qərara alındı ki, 5-ci Qafqaz firqəsi komandanı Mürsəl bəyin qərargahı ilə birlikdə Göyçaya gəlməsi buradakı qoşun hissələrinin daha çevik idarə edilməsini təmin edə bilər.

Yolüstü Yevlaxda olan Nuru paşa ərkani-hərb rəisi Nazim bəyə başqa bir teleqraf göndərdi. Ordu komandanı ona cəbhədə vəziyyətin düzəldilməsi üçün hansı qüvvələrin gələcəyini xatırladır və bu qüvvələrin fəaliyyətinin nizamlanmasını lazım bilirdi. Onun qeyd etdiyinə görə, yaxın günlərdə cəbhə xəttinə yola düşmək üçün Bərdədən 500 atlı Yevlaxa gələcəkdi. Göyçaydan geri qayıdan Ağdaş bölüyünün əvəzinə Ağdaşdan 2-3 min silahlının gələcəyi gözlənilirdi. Nuru paşa Nazim bəyə bildirirdi ki, silahların toplanması üçün Ağdaşa lazımi göstəriş göndərsin. Eyni zamanda o əlavə edirdi ki, Gəncədən bir Osmanlı süvari və 9-cu Qafqaz alayının iki bölüyü dərhal cəbhə xəttinə göndəriləcəkdir. Islam Ordusu komandanı bu teleqrafında bolşevik-daşnak dəstələrinin Qutqaşen istiqamətində 20-dən artıq azərbaycan kəndini viran qoymasına narahatçılığını bildirir və bu istiqamətdə də lazımi tədbirlərin həyata keçirilməsinin zəruriliyini qeyd edirdi. Həmin teleqramda deyilirdi:

> 1.On altı buçuğa qədər sizi bəklədim, Gəncəyə gediyoruz.
>
> 2.Bərdədən 500 atlı cümə ertəsi axşamı Yevlax stasyonunda toplanacaqdır.
>
> 3Ağdaşlılar 2-3 min silahlı toplayacaqlarını vəd etdilər. Göyçaydakı əsgərlərin Ağdaşa övdətləri üçün əmr verdim. Məzkur əsgərin bütün silahları beşli rus tüfəngi olacaqdır. Ağdaşlılara silahların cəmi üçün iki gün əvvəl xəbər vermək lazımdır. Buna nəzərən bu gecə əmr verilməsi icab ediyor.
>
> 4.Nuxaya getmək üzrə Yevlaxa gələn müfrəzəni Xaldana göndərdim. Orada əmrə intizar edəcəkdir. Xaldan tüfənglilərinin də toplanması üçün əmr veriniz. Kəndilərinə əvvəlcə xəbər verilmişdi.
>
> 5.Gəncədən bir Osmanlı bölüyü ilə doqquzuncu alaydan qalan iki bölüyü də əmrinizə göndərəcəyəm (42-ci süvari bölüyü və 26-cı taburun iki bölüyü). Gəncə könüllülərindən də bir çox adam cəm olunacaqdır.

6.Nuxada mövcud silahlıların İsmayıl Həqqi bəy komandasında Qayabaşı hərəkatına iştirakı üçün Gəncədən Nuxaya teleqrafla yazacağam.

7.Ermənilər Qutqaşen tərəflərində iyirmidən fazla islam köyü yaxmışlardır. Qayabaşı hərəkatını Qutqaşen üzərindən ayrı bir qol şəklində daha irəliyə götürməyi münasib görürəm.

8.Qutqaşen komandanlığından gələn raportun surətini sizə göndərirəm.

9.Yarın övdət etmək üzrə Gəncəyə gələrsiniz fəna olmaz.

Bu teleqramdan belə bir məqam da diqqəti cəlb edir ki, Nuru paşanı qayğılandıran təkcə Qaraməryəm ətrafındakı döyüşün nəticələri deyildi. Qutqaşen (indiki Qəbələ) bölgəsində yaşayan ermənilər silahlı dəstələr təşkil edərək Azərbaycan kəndlərini məhv edirdilər. Nuru paşa erməni kəndlərinin əhalisinin belə özbaşınalıqlarının qarşısının alınması üçün lazımi işlər görürdü. Qeyd etmək lazımdır ki, Gəncə-Şamaxı yolunun əsasən şimalında yaşayan erməni kəndlərinin əhalisinin belə cınayətkar əməllərə əl atması yeganə hal deyildi. Bolşevik-daşnak qoşunları ilə əlbir olan erməni kəndlərinin əhalisi müştərək məqsədlərinin həyata keçirilməsi ücün öz xidmətlərini göstərməkdən çəkinmirdilər. Hətta Qafqaz İslam Ordusunun qüyvələri Bakıya doğru xeyli irəliləyəndən sonra da arxada qalmış erməni kəndlərinin əhalisi silahlı iğtişaşlara əl atmışdılar. Nuru paşa dərhal belə quldur basqınlarının yatırılması üçün əmr verdi və qətiyyətlə erməni vəhşiliklərinin qarşısını aldı.

İyun ayının 20-də 5-ci Qafqaz firqəsinin qərargahı Göyçaya köçdü. Firqə komandanı elə həmin gün də cəbhə xəttindəki vəziyyəti diqqətlə öyrəndi və bolşevik-daşnak hissələrinə güclü zərbə vurmaq üçün Ordu komandanlığından Qazaxda mövcud olan 800 nəfərlik süvari dəstəsinin, Qazaxda və Gəncə toplanması nəzərdə tutulan 4500 nəfərlik süvari dəstəsinin, Göyçay, Ağdaş və Bərdədə toplanılacaq atlıların, Xaldana göndərilmiş olan hərbi qüvvələrin Göyçay ətrafına istiqamətləndirilməsini xahiş etdi. Mürsəl bəy Ordu komandanına cəbbəxana sarıdan vəziyyətin çox gərgin olduğunu çatdırdı və hələlik heç olmasa hər bir silah üçün ən azı 500 güllə hesabı ilə 3000 sandıq güllə ilə 4000 mərmi göndərilməsini xahiş etdi.

Nuru paşa cavabında firqə komandiri Mürsəl bəyin qənaətləri ilə razılaşdığını və ona kömək üçün Gəncədən 46-cı taborun, istehkam bölüyünün, Gəncədəki Şnayder və qüdrətli dağ toplarının, 9-cu alayın pulemyot bölüyünün və toplanan könüllülərin göndəriləcəyini bildirdi. Nuru paşa onu da əlavə edirdi ki, bundan başqa imkan yoxdur və arxadan nə vaxt Osmanlı hissələrinin gələcəyini gözləmək vəziyyəti daha da pisləşdirə bilər.

Nuru paşa Mürsəl paşaya göndərdiyi teleqramda yazırdı:

Ana vətəndən cüda, vəzifələri pək bala (burada, ağır-M.S.) biz Osmanlı heyəti zabitanının müvəjfəqiyyətləri, saysız düşmənlərin təsiri ilə əqamətə (uğursuzluğa – M.S..) məhkum olmaq təhlükəsinə məruzdur. Bütün ümidimiz ancaq fırqəmizin hərəkatına və onun ən böyük düşməni olan qarşısındakı bolşevik isimli qüvvətlərini əzməsinə bağlıdır. Zaman daha çox intizara müsaid deyildir. Geridən təzə qüvvət göndəriləcəyinə dair bir işarət yoxdur. Bu nöqteyı-nəzərdən zabitan və əfradımızın duşi fədakarisinə düşən vəzifə ciddən ağırdır. Məamafıh zəruriyil-icradır. Firqənizin vuracağı ilk zərbədir ki, bizə Qafqasıyanın bu qismində qəvi və qəti bir mövqe təmin edəcəkdir. Təərrüzdən əvvəl bu həqiqət surəti-münasibədə əfradımıza qədər təlqin edilmis bulunmahdır. Firqənin qitəatından mümkün-üttəhəşşüq olanların arxası 23, 24 haziran günü axşamına qədər könüllülərdən

toplaşanlar göndəriləcəkdir. Binaənəleyh ayın 27 və ya 28-ci günü ümumi bir hücum imkanı mümkün ola bilir. Buna nəzərən hazırlıq icrası və uzaq qruplara da əmr itası (göndərilməsi – M.S.) lazımdır...

Nuru paşaya görə bu hücum uğurla başa çatsaydı Qafqazın bu bölgəsində möhkəm bir mövqe əldə edilmiş olardı. Ona görə də o məsləhət bilirdi ki, bu vəzifənin həm ağırlığı, həm də əhəmiyyəti döyüşçülərə lazımi şəkildə çatdırılsın və bununla da onların psixoloji hazırlığına diqqət yetirilsin. Nuru paşa qeyd edirdi ki, Göyçaya göndərilməsi nəzərdə tutulan qoşun hissələri ayın 23-24-də, könüllü silahlı dəstələr isə ayın 26-da bölgəyə gəlib çıxacaqdılar. Buna görə də iyunun 26-da və ya 27-də bolşevik-daşnak qüvvələri üzərinə qəti hücuma başlanması məsləhət görülürdü.

Nuru paşa şübhə etmirdi ki, ilk uğursuzluğa baxmayaraq türk-Azərbaycan qoşunları mövcud imkanları tam səfərbərliyə almaqla hərbi təşəbbüsü ələ keçirə bilər. Ona görə də o, əlavə köməyin göndərilməsinin zəruriliyini istisna etmədən yeni döyüşə hazırlaşmaq üçün əmr verdi.

Nuru paşa Azərbaycana gəldiyi vaxtdan düşdüyü ağır sınaqların məngənəsindən hələ çıxa bilməmişdi. O, qarşıdakı döyüşə bu sınaqlar məngənəsindən çıxa bilmək şansı verən bır mübarizə anı kimi baxırdı. Həmin döyüşdə Nuru paşa və onun tabeliyində olanlar, nəhayət bolşevik-daşnak qoşunlarına öz gücünü anlatması, 29 yaşlı generala bağlanan ümidlərin əbəs olmadığını təsdiqləməli, ya da çoxsaylı itkilər verərək yenidən geri çəkilməli, itirilən yaşayış məntəqələrinin ermənilərin tapdağı altmda vıran olması ilə razılaşmah idi. Çıxış yolunu Nuru paşa Azərbaycana ikinci bir türk diviziyasının gətirilməsində görürdü. Qarşıda dayanan vəzifələri çoxsaylı qoşunlar hesabına həll etməyə çalışırdı. Bununla bağlı o, Şərq Ordular Qrupu komandanlığı qarşısında da məsələ qaldırdı. Ona elə gəlirdi ki, 5-ci fırqənin gücü ilə bir neçə istiqamətdən - yəni Göycay, Müsüslü, Salyan istiqamətindən Kür çayı boyunca irəliləyən düşmənin və erməni kəndlərində yaradılan silahlı zərbə dəstələrinin hücumlarının qarşısını saxlamaq mümkün olmayacaqdır. Halbuki sonradan Nuru paşa 5-ci firqənin gücü ilə Bakıya qədər gəlib çıxdı. Sözsüz ki, bu mübarizədə Azərbaycanın da nizami qoşun bölmələri və çoxsaylı könüllüləri iştirak edirdilər. Ancaq Türkiyədən əlavə qoşun hissələri göndərilsəydi də qısa vaxt ərzində onlar Göyçay ətrafına yetişə bilməzdi. Ona görə də Nuri paşanın intixab etdiyi yol mövcud qüvvələri səfərbər etmək, onların öz qüvvəsinə inamını yüksəltmək, bağlanılan ümidlərə məsuliyyəti artırmaqda idi. Nuru paşa Mürsəl bəyə göndərdiyi teleqramda xatırladırdı ki, döyüşçülərin çiyninə düşən vəzifələr nə qədər ağır olsa da, icrası mütləqdir. Ordunu növbətı təhlükələrdən də yalnız onlar özləri xilas edə bilərlər.

Nuru paşa həmişəki kimi , bu bir neçə gün ərzində də yüksək iradə möhkəmliyi nümayiş etdırə bildi. Belə bir iradə ilə o, təkcə zəruri bildiyi tədbirlərin icrasını təşkil etmədi, eyni zamanda tabeçiliyində olanlara da bu keyfıyyətləri aşılaya bildi. Cəbhədə vəziyyətin düzəldilməsi üçün qısa müddət ərzində görülən işlərin sayı böyük bir siyahı təşkil edə bilərdi. Nuru paşa bu vaxt ərzində demək olar ki, respublikanın bütün məntəqələrindən Göyçay ətrafına milli könüllü dəstələrin göndərilməsinə nail oldu. Azərbaycan hökumətinin üzvləri ilə məntəqələrdə ərzaq toplanması və qoşunlara çatdırılması təşkil edildi, silah və sursatın tapılması üçün bir sıra mühüm tədbirlər həyata keçirildi. Bütün bu işlərın görülməsi, əlaqələndirilməsi və onların düşmənin məhvinə istiqamətləndirilməsi üçün Nuru paşanın təşkilatçılıq qabiliyyəti ilə cavanlıq enerjisi üzvi surətdə birləşmişdi. Buna görə də çox dəqiqliklə atılan addımlar tezliklə öz müsbət nəticələrini də verdi. Baxmayaraq ki, növbəti döyüş də bolşevik-daşnak

qoşunlarının qəfil hücumu ilə başladı, ancaq onlar hərbi təşəbbüsü əllərində saxlaya bilmədilər.

Nuru paşa yuxarıda göründüyü kimi növbəti döyüşü iyunun 27-də və ya 28-də başlamağı məsləhət bilirdi. Bolşevik-daşnak komandanlığı bu qərardan xəbər tutub Qafqaz İslam Ordusunu qabaqlamaq hiyləsinə əl atdı.

İyun ayının 28-nə planlaşdırılan hücumla türk-Azərbaycan qoşunları əvvəlki uğursuzluğun əvəzini çıxmaq və irəli hərəkət etməklə təşəbbüsü əllərinə almaq istəyirdilərsə, növbəti döyüş üçün bolşeviklər qarşılarına daha böyük vəzifələr qoymuşdular. Nəzərədə tutulmuşdu ki, türk-Azərbaycan qoşunlarına əsas zərbə şimal istiqamətindən vurulsun. Qırmızı ordunun qüvvələri sağ cinahdan Qafqaz İslam Ordusunu adlamaqla dəmir yoluna çıxmaqla buradakı hissələrə də zərbə vurub Kür çayı boyunca müdafiə mövqeləri tutmağı planlaşdırırdılar. Hərbi və dəniz işləri üzrə Bakı komissarının müavini B.Şeboldyayevin fikrincə, Kür üzərindəki körpüyə nəzarət etməklə möhkəm müdafiə xətti yaratmaq olardı. Çünki Kür çayı boyunca bataqlıq sahələrdən keçə bilməyən türk-Azərbaycan qoşunlarının qarşısını burada etibarlı şəkildə kəsmək olardı. Bununla bərabər, B.Şeboldyayev gizlətmirdi ki, türk-Azərbyacan qoşunlarının qarşısını qəti şəkildə almaq üçün lazımi hazırlıq işləri aparılmalı və arxada da müdafiə xətləri yaradılmalıdır. Bu müdafiə xətlərinin biri Hacıqabul-Ağsu arasındakı dağlardan keçməli, o biri isə Bakı şəhərini əhatə edən hündürlüklər boyunca qurulmalı idi. Hər iki xətdə yenicə yaradılmış olan mühəndis-tikinti hissələri istehkam işləri aparırdılar.

Qafqaz İslam Ordusu hissələrinin döyüşə hazırlıq üçün həyata keçirdiyi tədbirlər iyun ayının 26-da bolşevik-daşnak qüvvələrinin kəşfiyyatçılarına məlum oldu. Qırmızı ordu komandanlığında bu məlumat alınan kimi dərhal hücuma keçmək, türk-Azərbaycan qoşun hissələrinin hücumunu qabaqlamaq və bununla da hərbi təşəbbüsü yenidən əldə saxlamaq qərara alındı.

İyunun 27-də səhər tezdən bolşevik-daşnak qoşunları qəfil şəkildə hücuma başladılar. Həmin hücuma qədər 13-cü türk alayı, habelə çoxlu sayda Azərbaycän könüllüləri Qaraməryəm ətrafına gətirilmişdi. Bolşevik-daşnak qüvvələri Göyçay-Qaraməryəm yolu boyunca irəliləyərək Göyçayı tutmaq istəyirdilər. Gözlənilmədən hücuma başlamaları ilə onlar kifayət qədər əlverişli imkanlara malik idilər. Xüsusən də cinah döyüşlərinə diqqət artırmaları İslam Ordusu qüvvələrini mürəkkəb vəziyyətə salmışdı. Ancaq fırqə komandanlığının, hissə komandirlərinin soyuqqanlıq göstərmələri, baş verənləri düzgün təhlil etmələri və əsaslandırılmış qərar qəbul edə bümələri döyüşün gedişində dəyişiklik yaratdı. Bu dəyişikliyin əldə edilməsində həm Göyçay ıstiqamətində vuruşan Azərbaycan könüllülərinin, həm də komandanı Həbib bəy Səlimov olan Müsüslü dəstəsindən gəlmiş Azərbaycan süvarilərinin payı var idi. Əvvəlcə 10-cu alay cəbhəsində düşmənin irəliləməsi dayandırıldı, sonra da əks-hücumla bolşevik daşnak qüvvələri ilkin mövqelərindən 3 kilometr geri atıldı.

Hücumun qəfil başlaması ilə mürəkkəb vəziyyətə düşən Türk-Azərbaycan qoşun hissələri döyüşün gedişində nəyə qadir olduqlarını sübut etdilər. Onlar tezliklə hərbi təşəbbüsü ələ aldılar. Bu döyüşün nəticələrinin Qafqaz İslam Ordusu üçün böyük hərbi-psixoloji əhəmiyyəti var idi. Döyüşün nəticələri göstərdi ki, bolşevik-daşnak qüvvələri heç də məğlubedilməz bir qüvvə deyil və düzgün qurulmuş döyüşlə onların bütün niyyətlərini alt-üst etmək olar. Görünür, bir neçə hərbi uğurdan sonra çox ciddi müqavimətlə rastlaşdıqlarını Qırmızı ordu rəhbərliyi də hiss etmişdi. Çünki əvvəlki döyüşlər barədə Bakıya ətraflı məlumat verildiyi halda, bu döyüşün nəticəsi barədə

Q.Korqanov ayın 28-də cəmi bir cümləlik məlumatla kifayətləndi. Göyçay döyüşü Nuru paşanın rəhbərliyi altında aparılan işlərin düzgün qərarlaşdığını təsdiq etdi. Bu döyüş bütün döyüşçülərin inamını özünə qaytardı, onların mənəvi əhval ruhiyyəsinə müsbət təsir göstərdi.

İyunun 29-da davam etdirilən döyüş isə iyunun 27-də əldə edilmiş uğurları daha da möhkəmləndirdi. Baxmayaraq ki, bu döyüş hər iki tərəf üçün ağır olan hava şəraitində keçirdi. Qafqaz İslam Ordusu qüvvələri bu şəraitə daha yaxşı dözüm göstərdilər və nəticədə ilk dəfə ciddi uğur əldə edildi. Günün sonunda bolşevik-daşnak qüvvələri xeyli geri oturduldu. Qaraməryəmin qərb hissəsi tamamilə, şərq hissəsi isə qismən düşməndən azad edildi.

Nuru paşa bu döyüşlərin gedişini diqqətlə izləyirdi və şübhəsiz ki, cəbhədə baş verənlər onun da sevincinə səbəb olmuşdu. Lakin onun bu sevinci qəfıl həyəcanlarla əvəzləndi.

İyun aymın 30-da erməni Əmirovun rəhbərliyi altında olan 1000 nəfərlik silahlı dəstə gözlənilmədən qoşunlarımıızn arxasında olan Göyçaya daxil oldu və qəsəbənin şimal hissəsini işğal etdi. Hadisənin ciddi həyəcan doğuran səbəbi ondan ibarət idi ki, Qafqaz İslam Ordusunun bölgədə olan bütün qüvvələri Qaraməryəm ətrafında idi və heç kəs gözləmirdi ki, bolşevik-daşnak qüvvələri gecə ikən, çətin dağ yolları ilə bu qədər yolu qət edərək Göyçaya girə bilər. Digər həyəcan doğuran məsələ ondan ibarət idi ki, Qaraməryəmdən müəyyən qüvvələrin geri çəküməsi cəbhənin boşaldılması demək olardı, Bu isə xoşa gəlməz fəsadlarla nəticələnərdi.

Göyçayda vəziyyətin mürəkkəb olaraq qaldığı bir vaxtda Qazaxdan gəlmiş olan süvarilərin Əmirovun qüvvələrinin müqavimətinə davam gətirməyərək dağıldığı barədə məlumat alındı. Çox güman ki gecə ikən Göyçaya çatan və kifayət qədər istirahət edə bilməyən Qazax süvariləri çoxsaylı qoşunun qarşısını ala bilməyərək geri çəkilməli olmuşdu. Ancaq iyulun 2-də Nuru paşa Mürsəl bəyə göndərdiyi teleqramında Qaxaz süvarilərinin mübarizliyini və əzmkarlığını təqdir edirdi. Ola bilsin ki, Qazax süvariləri sonradan 5-ci firqənin bölmələri və Göyçaya gəlmiş Azərbaycan könüllüləri ilə birlikdə yenidən döyüşə girmiş və nəyə qadir olduqlarını nümayiş etdirmişdilər.

Nuru paşa son günlər ərzində əldə edilmiş uğurların itirilməsinə yol verməmək üçün qətiyyətli tədbirlərə əl atdı. Cəbhə xətti ilə əlaqə saxlayaraq vəziyyəti ətraflı öyrəndi, sonra isə yaranmış təhlükənin aradan qaldırılması üçün Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəyı yenidən bölgəyə göndərdi. Nuru paşa bir daha yüksək çeviklik nümayiş etdırdi. Gəncə ətrafında toplaşmış olan Azərbaycan könüllülərıni də Nazım bəylə təcili şəkildə Ləkiyə yola saldı. Nuxadakı miralay Yusif bəyə göstəriş verdi ki, orada toplamış olduğu çoxsaylı dəstəsi ilə Qumlax-Padar istiqamətinə hərəkət etsin. Yusif bəy türk əsiri idi. O, Niuxaya gələrək burada müdafiə dəstələrinin təşkilinə öz köməyini göstərdi. Sonra Gəncə ətrafında toplaşan könüllülərə də Göyçaya doğru hərəkət etmək tapşırıldı. Bu qüvvələr hamısı azərbaycanlılar arasında toplanmış könüllü dəstələr idi.

Nazim bəy qısa vaxtdan sonra Ləki stansiyasına gəlib həm Göyçayla, həm də Ucarla əlaqə yaratdı. Gəncədən gəlmiş və Ucarda olan könüllü dəstələrinin Göyçaya göndərilməsini təşkil etdi. Sonra Ağdaşa yollanaraq orada mövcud olan könüllüləri faytonlarla Göyçaya göndərdi. Gördüyü bütün işlər barədə Nazim bəy dərhal Nuru paşaya məlumat verdi.

Ağdaşda yerli əhalidən toplanan qüvvələrin, habelə Gəncədən Ucara gətirilmiş olan könüllü dəstələrin Göyçaya yola salınmasını təşkil edəndən sonra Nazim bəy Nuru paşaya ikinci bir raport göndərdi. Həmin raportda Nazim bəy Ağdaşdan faytonlar ilə

piyada və ayrıca olaraq süvari qüvvələrinin Göyçay istiqmətinə sövq olunduğunu, yüzbaşı Həqqi əfəndinin komandası altındakı atlıların da Ucardan Göyçaya hərəkət etmək üzrə bulunduğunu bildirdi.

Gün ərzində elə bir çeviklik göstərildi ki, daşnak silahlılarının gözləmədiyi halda qısa müddət ərzində Göyçaya kifayət qədər qüvvə cəmləşdirildi. Erməni Əmirov öz tör-töküntüləri ilə Göyçayı tərk etdi və gəldikləri kimi də geri qaçmağa başladı. Onlar yaxşı anladılar ki, Göyçayı ələ keçirmək bu yolla Türk Azəebaycan birləşmiş qüvvələrinin arxadan zərbəvurmaq cəhdləri əbəsdir və Türk-Azərbaycan qoşunlarının müqavimətini qırmaq artıq onlar üçün heç də asan olmayacaq.

Beləliklə, iyunun 27-30-u arasında Göyçay və Qaraməryəm ətrafında baş verən döyüşlər Qafqaz İslam Ordusu qüvvələrinin qələbəsi ilə başa çatdı və bu döyüşlərin nəticələri Nuru paşanı da ümumən razı saldı. Bolşevik-daşnak qoşunları Ağsuya doğru sıxışdırıldı və cəbhədə dönüş nöqtəsinin başlanğıcı qoyuldu. Bolşevik-daşnak qüvvələri bu döyüşlərdən sonra bir daha hərbi təşəbbüsü əsaslı şəkildə ələ ala bilmədilər və burada düçar olduqları uğursuzluq onların tam məğlubiyyətinə gətirib çıxardı.

Sovet tarixşünasları Göyçay-Qaraməryəm ətrafında gedən döyüşlərin nəticələrini Qafqaz İslam Ordusunun say üstünlüyü ilə bağlamağa və bununla da döyüşün gedişində ciddi dəyişiklik yaratmaq üçün Nuru pasanın rəhbərliyi altında aparılan təşkilatçılıq işlərini nəzərə almamağa çalışırdılar. Əslində isə Göyçay ətrafındakı döyüşlərin nəticəsinin kökü hər şeydən əvvəl tərəflərin qarşılarına qoyduqları vəzifələrin xarakteri ilə bağlı idi. Cəbhənin bir tərəfində Azərbaycan xalqını bolşevik-daşnak hakimiyyəti altına gətirmək istəyən və əsasən də qeyri-azərbaycanlılardan təşkil edilən bir qüvvə dayanırdısa, digər tərəfində Azərbaycan xalqını təmsil edən və onu bolşevik-daşnak talanlarından, Bakı, Şamaxı və Quba qırğınlarının təkrarlanmasından qorumağa çalışan Azərbaycanın milli qüvvələri və onların qardaş çağırışına gəlmiş olan türk hərbi qüvvələri dayanmışdı. Nuru paşanın ətrafında birləşən və onun rəhbərliyi altında fəaliyyət göstərən bu qüvvələr güclü bir sədd kimi bolşevik-daşnak qüvvələrinin qarşısında dayanıb onları diz çökməyə məcbur etdi.

Cəbhə xəttində olan Q.Korqanovun raportuna əsaslanan S.Şaumyan iyul ayının 2-də Moskvaya, V.Leninə və Saritsın şəhərində olan İ.Stalinə göndərdiyi teleqramda iyunun 27-dən başlanan döyüşləri belə təsvir edirdi:

> Göyçay ətrafında iyunun 27-dən 30-dək olan dörd günlük döyüşlər başa çatmışdır. Mühasirə üçün göndərilən dəstə Göyçayı bombardman etmişdir. Qoşunlar düşmənin arxasına keçmişdir. Bir sıra əlverişsiz şərtlərə görə cəbhə boyu mövqe tutan qoşunlarımız Qaraməryəmə geri çəkilmişdir. Düşmən əhatə edilib darmadağın olmaq təhlükəsi altından çıxaraq öz növbəsində bizi mühasirə etməyə başladı. Yaranmış vəziyyətə görə və qoşunları gələcək döyüşlər üçün qorumaq niyyətilə sağ kolonna geri çəkilməli oldu. Süngü həmlələri ilə müşayiət olunan qanlı döyüşlər keçdi. Dəhşətli istilərdən və su tapmaq imkanı olmadığından əsgərlər huşsuzluq dərəcəsinə çatmışdılar. Ancaq onlar öz mövqelərini igidliklə qorudular, hücuma atıldılar. Lakin sol cinahdakı bir bölmə düşmənin çoxsaylı süvarisinin mühasirəai altına düşməkdən qorxub geri çəkildi. Bu hal bütün cəbhəyə təsir göstərdi. Hər iki tərəfdən itki çoxdur. Düşmən sıralarında nizami türk hissələri var. Topçuların və pulemyotçuların komandir heyətinin əksəriyyəti türklərdir. 6 ədəd zirehli avtomobil döyüşün sonuna gəlib çatdı. Onlardan biri döyüşdə iştirak edə bildi. Düşmənin arxasına keçdi. Bu zirehli avtomobil öz vəzifəsini məharətlə yerinə yetirdi və bəzi hissələri çətin vəziyyətdən xilas etdi, habelə arxadakı hissələrin geri çəkilməsini asanlaşdırdı.

> İyulun 1-də axşam saat 5.15-də Kürdəmirdən teleqram alınmışdır. Orada bildirilir ki, bizim cəbhədəki vəziyyətimiz bərpa olunmuşdur. Yenicə məlumat alınmışdır ki, Göyçay Əmirovun dəstəsi tərəfindən tutulmuşdur.

5-ci Qafqaz firqəsi ərkani-hərb rəisi Rüşdüdən başqa mövcud olan arxiv sənədləri də Əmirovun dəstəsinin təkrarən Göyçay tutmasını təsdiqləmişdir. Ola bilsin ki, Əmirov qarşısına belə bir məqsəd qoymuş və onun həyata keçirilməsinə çalışmışdı. Ancaq təkrar uğursuzluğunu gizlətmək üçün Bakı Sovetinin Kürdəmirdə olan hərbi naziri Q.Korqanova Göyçaya girdiyi, lakin sonra çox saylı türk qoşunlarının təzyiqi ilə geri çəkilməli olduğunu bildirmişdi.

İyul ayının 1-də Ağdaş və həvalisinin komandanının Nuru paşaya göndərdiyi raportda ermənilər tərəfindən hücumun başladığını qeyd etsə də Göyşayın düşmən əlində olmadığını təsdiqləyirdi:

> Düşmənin səhər Göyçay üzərinə hücumunu təhlükəli görərək bir süvari bölüyü və bir piyada dəstəsi və kifayər qədər camaatla həmən Göyçayın qərbindəki Ərəbkəndinə yürütdüm. Düşmən şimala atılmışdır. Dəstələr şimala doğru hərəkət edərək düşmənin Göyçaya həmləsinin qarşısını almışdır. Dəstə Nazim bəylədir. Göyçay əhalisi Göyçayı təxliyyə etmişdir. Düşmən Göyçayı topa tutsa da dağıntı çox deyil.

Nazim bəy isə iyulun 1-də Nuru paşaya gödərdiyi raportunda məlumat verirdi ki, düşmən Göyçayın 5-6 kilometrliyindədir. Çox güman ki, Əmirovun dəstəsinin hücumu tez də dəf edilmişdi. Çünki Nazim bəy raportunda qeyd edirdi ki, bu gün intizar vəziyyətidir. Əlavə olaraq o, silaha və cəbbəxanaya böyük ehtiyac olduğunu da Nuru paşanın diqqətinə çatdırırdı.

Beləliklə, Göyçay və Qaraməryəm ətrafında iyunun 27-30-u arasında baş verən döyüşlər Qafqaz Qırmızı ordusunun məğlubiyyəti ilə başa çatdı və bu hissələr Ağsuya tərəf sıxışdırıldı. Həmmin döyüşlər cəbhədəki dönüş nöqtəsinin başlanğıcını qoydu. Qafqaz Qırmızı ordusunun hücumları dayandırıldı və onlar dərin müdafiəyə çəkildilər. Bolşevik qüvvələri bu döyüşdən sonra bir daha hərbi təşəbbüsü əsaslı şəkildə ələ ala bilmədilər. Döyüşlərə uğursuzluqla başlayan Qafqaz İslam Ordusu hissələri, habelə bu döyüşlərə qoşulan Azərbaycan könüllüləri Göyçay ətrafındakı döyüşdən sonra müdafiə vəziyyətindən çıxaraq hücuma keçdilər. Sovet tarixşünaslığında Qafqaz İslam Ordusu hissələrinin Göyçay ətrafındakı uğuru onların say üstünlüyü ilə izah edilsə də döyüşdə hansı hissələrin və qüvvələrin iştirak etməsi, onların say tərkibinin nəzərdən keçirilməsi Göyçay ətrafındakı döyüşlərdə Qafqaz İslam Ordusu hissələrinin say üstünlüyünə malik olmadığını sübut edir. Əksinə, bu döyüşdə bolşevik qüvvələri üstünlüyə malik idilər və həmin üstünlüyü azaltmaq üçün təcili şəkildə Azərbaycan könüllülərindən dəstələr təşkil edilir və cəbhəyə göndərilirdi.

Göyçay ətrafındakı döyüşlərin nəticələrinin səbəbi hər şeydən əvvəl tərəflərin qarşılarına qoyduqları vəzifələrin xarakteri ilə bağlı idi. Cəbhə xəttinin bir tərəfində Azərbaycanı bolşevik-daşnak hakimiyyəti altına gətirmək istəyən və əsasən qeyri-azərbaycanlılardan təşkil edilən bir qüvvə dayanırdısa digər tərəfində də Azərbaycanı bolşevik-daşnak talanlarından, Bakı, Şamaxı, Quba qırğınlarının təkrarlanmasından qorumağa çalışan Azərbaycanın milli qüvvələri və onların qardaş çağırışına gəlmiş olan türk hərbi qüvvələri dayanırdılar. Birincilər Azərbaycan əhalisinə divan tuturdularsa, ikincilər öz yurddaşlarını və qardaşlarını bur faciələrdən qorumağa çalışırdı. Buna görə Azərbaycan əhalisi də türk-Azərbaycan qüvvələri ətrafında səfərbər oldular və bütün

xalqın onu qoruyan qüvvələrlə yekdilliyi güclü bir sədd kimi bolşevik-daşnak qüvvələrinin hücumlarının qarşısını aldı.
O biri tərəfdən də döyüşlərin gedişi göstərdi ki, Qafqaz İslam Ordusu hissələri hərbi keyfiyyətləri baxımından heç də bolşevik qüvvələrindən geri qalmır. Döyüçün təşkilinin, idarə edilməsinin əsaslandırılması, operativliyi, vəzifəyə uyğun olaraq qarşıda dayanan vəzifələrin vaxtında dəqiqləşdirilməsi, müdafiə ilə hücumun düzgün əlaqələndirilməsi, atəş vasitələrinin səmərəli istifadə edilməsi əldə edilən uğurun əsas səbəblərindən idi. Döyüşlərdə Azərbaycan qüvvələri də çox fəal iştirak etdilər. Bu sahədə onlar ciddi təcrübəyə malik olmasalar da ümumən milli qüvvələrdə düşmənə qarşı bir qətiyyət və əzmkarlıq mövcud idi.

## Ağsu və Kürdəmir ətrafındakı döyüşlərdə hərbi dönüşün möhkəmləndirilməsi

Qaraməryəm ətrafında baş verən döyüşdən sonra cəbhədə hərbi təşəbbüs Qafqaz İslam Ordusunun əlinə keçdi və Bakıya doğru uğurlu hücumların başlanğıcı qoyuldu. Bu təşəbbüsün əldə saxlanması və inkişaf etdirilməsi Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və Qafqaz İslam Ordusunun qarşısında dayanan vəzifələrin həyata keçirilməsi üçün həyati əhəmiyyət kəsb edə bilərdi. Ona görə də, Nuru paşa Qaraməryəm döyüşlərindən dərhal sonra Bakı istiqamətində hücumuların davam etdirilməsi üçün zəruri olan hazırlıq işlərinin aparılmasına diqqəti daha da gücləndirdi.
Növbət döyüşlər hər iki tərəf üçün xüsusi əhəmiyyət kəsb edirdi və ona görə də Göyçay-Qaraməryəm döyüşündən sonra hər iki tərəf yeni döyüşlərə ciddi hazırlığa başladı. Qafqaz İslam Ordusunun qoşunları Müsüslünün şərqi və Ağsu-Qaraməryəm xətti boyunca mövqe tutdular. Qafqaz İslam Ordusunun komandanlığı yaxın vaxtlarda Şamaxının azad edilməsini əsas vəzifələrdən biri kimi qarşıya qoymuşdu. Bu məntəqəyə çatmazdan qabaq İslam Ordusu komandanlığı Kürdəmir-Ağsu xəttinə çıxmağı planlaşdırırdı.
Nuru paşa Şamaxı üzərinə hücumun müvəffəqiyyətlə başa çatdırılması üçün Qarabağdakı erməni silahlı dəstələrinin fəaliyyətinin məhdudlaşdırılması və Culfa-Ordubad üzərindən Şuşaya silahlı dəstə göndərilməsinin məqsədəuyğunluğu barədə Şərq Ordular Qrupu komandanlığı qarşısında məsələ qaldırdı. Qafqaz İslam Ordusu komandanlığını narahat edən təkcə Qarabağ erməniləri deyildi. Azərbaycanın müxtəlif məntəqələrində yaşayan ermənilər bu və ya digər dərəcədə Qafqaz İslam Ordusuna qarşı əks fəaliyyət göstərirdilər. Şəki, Qurqaşen, Göyçay və Şamaxı ətrafındakı ermənilər təcavüzkar hərəkətlərini genişləndirməkdə idilər. Nuru paşa öz xatirələrində də bu məsələnin diqqəti çəkdiyini qeyd edirdi. Qayabaşı və Söyüdlü məntəqələrinin erməniləri hələ Göyçay döyüşlərindən əvvəl fəallaşmağa başlamışdılar. Göyçay` döyüşlərindən sonra Nuru paşa Ordunun ərkani-hərb rəisi Nazim bəyə göstəriş verdi ki, Ağdaş, Xaldan və Nuxadakı milli qüvvələrə ümumi rəhbərlik edərək Söyüdlü və Qayabaşı ermənilərinin təcavüzkarlığına son qoysun.
İyul ayının əvvəllərində Qayabaşı və Söyüdlüdəki erməni yığnaqları darmadağın edildi. İyul ayının 12-də Ağdaş komandanı Nuru paşaya göndərdiyi teleqramında bildirirdi ki, Nic və Söyüdlü İsmayıl Həqqi bəyin rəhbərliyi altında olan Şəki dəstəsinin tam nəzarəti altındadır. Bu dəstə Söyüdlünün şimal tərəfindəki təpələrdə mövqe tutmuşdu. Ermənilərdən silah toplansa da onların bir çoxu silahları ilə birlikdə gizlənməyə çalışırdılar.
Silahı yerə qoymayan bir çox ermənilər qaçıb ətraf kəndlərə, meşələrə dağılmışdılar.

Şəki-Qutqaşen istiqamətində erməni millətçilərinin yarada biləcəyi təhlükəyə birdəfəlik son qoymaq üçün Nuru paşa Xaldan dəstəsinin komandirindən tələb edirdi ki, Qayabaşıdan qaçıb ətraf kəndlərdə dolaşan və silahı yerə qoymayan erməniləri axtarıb tapsın və onları zərərsizləşdirsin. Nuru paşa belə bir vəzifəni Nuxaya göndərilmiş olan Gəncə mövqe komandanı Cəmil Caid bəyin qarşısında da qoymuşdu. Ona tapşırılırdı ki, ətrafa qaçıb dağılan təcavüzkar ermənilər təqib edilsin, onların zərərsizləşdirilməsi məqsədilə həyata keçirilən əməliyyatı bütünlüklə başa çatdırsın.
Göyçay ətrafında olan erməni kəndlərinin tərksilah edilməsinə də Nuru paşa xüsusi diqqət yetirirdi və bunu öz xatirələrində də qeyd edirdi. Çünki bu kəndlərdə toplanan erməni qüvvələri istənilən vaxt 5-ci Qafqaz firqəsinin arxasında təhlükəli vəziyyət yarada bilərdilər. İyul ayının 2-də Pezəvəng və Qırdadul kəndləri tutuldu. Burada olan erməni qüvvələri Əmirvan və Bəylərkənd istiqamətində geri çəkildilər. 5-ci Qafqaz firqəsi cəbhəsinin sol cinahı boyunca geri çəkilmək məcburiyyətində qalan bolşevik-daşnak qüvvələrinin qarşısını kəsərək onlara güclü zərbə vurmaq üşün İvanovka kəndinə 10-cu alaydan bir piyada taboru və iki ədəd dağ topu göndərildi. Həmin dəstə İvanovkaya çatana kimi yolu üstünə çıxmış kiçik düşmən qruplarını məhv edərək İvanovka ətrafında mövqe tutdu. Ağ bayraqlarla onları qarşılamağa çıxan kənd əhalisi qüvvələrə kənddə yerləşməyi təklif etsələr də kənd ətrafında qalmaq üstün tutuldu. Qoşun hissələrinin burada yerləşməsi ilə bolşevik-daşnak qüvvələrinin bir dəstəsinin geri çəkilmək yolu bağlandı. Göyçayın şimalındakı kəndləri ermənilərdən təmizləyən türk-Azərbaycan qüvvələri şərqə doğru irəlilədikcə 100 nəfərə qədər olan süvari və piyada bolşevik-daşnak dəstəsi İvanovkaya sıxışdırıldı. İyul ayının 3-də ermənilərin dayaq məntəqələrindən biri olan Çanaqbulaq kəndi də türk-Azərbaycan qoşun hissələrinin əlinə keçdi.
Göyçayın ətrafındakı kəndlərin təmizlənməsi üçün iyulun 2-3-də keçirilən əməliyyatda Ağdaşda təşkil edilmiş dəstə də iştirak edirdi. Ağdaş mövqe komandanı minbaşı Ehsan bəy bildiirdi ki, 100 nəfərlik bir dəstə Göyçay ətrafında keçirilən təmizləmə əməliyyatını gücləndirmək üçün göndərilmişdir. İyulun 3-də Çanaqbulaq kəndi tutulduqdan sonra bu dəstə geri qaytarıldı.
İyul ayının 4-də Qaraməryəm ətrafındakı kəndlərin erməni qüvvələrindən təmizlənməsi davam etdirildi və beləliklə, Ağsu üzərinə irimiqyaslı hücumu həyata keçirmək üçün zəruri mövqelər tutuldu. Ancaq bir neçə gün ərzində davam edən təmizləmə əməliyyatları həm də itkilərlə nəticələndi. İyul ayının 1-dən 4-dək baş verən bu əməliyyatlarda 7 zabit və 39 əsgər şəhid olmuş, 9 zabit və 93 əsgər yaralanmış, bir zabit və 74 əsgər itkin düşmüşdü.
Beləliklə, iyulun 5-də Ağsu-Kürdəmir xəttinin tutulması üçün Qafqaz İslam Ordusu hissələrinin hücumu başladı. Əldə edilən dğyüş uğurlarının daha da möhkəmləndirilməsi üçün bu döyüşün böyük əhəmiyyəti var idi. Ona görə də Ordu komandanı Nuru paşa da Ağsu cəbhəsinə gəldi. Bu, Nuru paşanın cəbhə xəttinə ikinci gəlişi idi. Buradakı hücum Mürsəl paşa tərəfindən planlaşdırılsa da, əməliyyata ümumi rəhbərlik Nuru paşa tərəfindən həyata keçirilirdi.

Nuru paşa burada hərbi vəziyyətlə tanış oldu, zabitlərlə görüşüb onlara müvafiq tapşırıqlar verdi, bütün şəxsi heyəti döyüşün uğurla başa çatdırılmasına səfərbər etməyə çalışdı. Bu döyüşdə qazanılan qələbə ilə Qafqaz İslam Ordusunun əldə etdiyi uğurların heç də təsadüfı olmadığı təsdiqlənməli və düşmənə daha bir ciddi zərbə endirilməli idi. Nuru paşa həmin gün cəbhəni tərk etdi. Ancaq döyüş həmin günü sona çatmadı.

Bolşevik-daşnak qoşunları onların başı üzərini böyük təhlükə aldığı üçün bütün qüvvələri ilə müdafiə olunmağa çalışırdı. Ancaq onların bütün cəhdləri əbəs idi. İyulun 6-da onlara güclü zərbə vuruldu. Qafqaz İslam Ordusu hissələri döyüş əmri ilə müəyyənləşdirilmiş mövqeləri ələ keçirdilər. Bolşevik-daşnak qoşunları Şamaxıya doğru geri çəkilmək məcburiyyətində qaldılar.

Müsüslü istiqamətində isə bolşevik-daşnak qüvvələri daha güclü müqavimət göstərdilər. Çünki onlar dəmir yolu ilə bura zirehli qatar gətirmişdilər ki, bu da onların müqavimət gücünü xeyli artırmışdı. Burada da dirənib durmuş düşmənin müqavimətinin yarılması üçün Nuru paşa əlavə imkanlar tapmağa çalışırdı. İyulun 7-də Nuru paşa Nazim bəyə göstəriş verdi ki, Ağdaş və Xaldan məntəqələrində toplaşa biləcək bütün qüvvələr Müsüslüyə göndərilsin. Bir gün sonra isə Nuru paşa Mürsəl bəyə göndərdiyi teleqramında bildirirdi ki, Qazağa gətirilmiş olan 350 nəfər silahsız könüllü də Bərgüşad stansiyasına göndərilir.

İyul ayının 7-də Nuru paşa Osmanlı sultanı Mehmet Vəhidəddindən bır teleqram aldı. İyulun 3-də vəfat etmiş padşah Mehmet Rəşadın yerinə iyulun 4-də Osmanlı taxtına çıxmış qardaşı Mehmet Vəhidəddin Qafqaz İslam Ordusu komandanı Nuru paşaya göndərdiyi teleqramında belə yazırdı:

> Əmirəlmömin, ulu xaqan, baş komandanmıız, qardaşım Sultan Mehmet xan həzrətlərinin həpimizi ağladan zayi ilə əmri-komandanızı ələ alıram. Sənələrdən bəri pək müşkilat içində Osmanlı və İslam tarixinə xanədanım üçün sanlı - şanlı səhifələr əlavə edən siz arslanlar, yurdun qəhrəman yavrularına məmnuniyyəti-şahanəmi bəyan edir, bu uğurda haqqın rəhmətinə qovusaraq ər meydamnda can vermis olan sühədayı kəmali hörmətiə anıram. Vətənimizin səlamətı üçün simdiyə degın pək şanlı bir surətdə qəhrəman mütəfəkkirlərimizlə omuz-omuza davam etdiyiniz müvəffəqiyyətlə dolu hərb sənətləri hər halda azalmaqdadır. Fəqət hənuz bitməmisdir. İştə bu ana qədər olduğu kimi cənabi haqqın haqlı davamızda daima bizimiə bərabər olacağına zərrəcə şübhə etməyərək eyni savleti-cəsuranə ilə düşmənlə savasmaya davam edinız. Hər yerdə kəmali-şan və şərəflə daşıdığınız sancağım sizə daıma zəfər və müvəffəqiyyət yolu göstərsin. lnayəti bəri və imdadi-ruhaniyyət həzrətı-peyğəmbər sız qəhrəman əsgərlərimin tuin və zəfəri olsun Mehmet Vəhidəddin.

İyul ayının 10-da bolşevik-daşnak qüvvələrinə daha bir zərbə vuruldu və Kürdəmir qəsəbəsi işğaldan azad edildi. Burada cərəyan edən döyüşlər ən gərgin döyüşlərdən biri idi. İrandan gəlmiş olan L. Biçeraxovun dəstəsi də qarşı tərəfin gücünü xeyli artırmışdı. Buna baxmayaraq Həbib bəy Səlimovun rəhbərlıyı altında olan Müsüslü dəstəsi və ona köməyə gəlmiş qüvvələr gərgin döyüşlərdən sonra bu məntəqəni də ələ keçirdilər.
Kürdəmirin azad edilməsi hərbi təşəbbüsün Qafqaz İslam Ordusunun əlində daha da möhkəmlənməsinə kömək etdi. Qırmızı ordunun vəziyyəti isə pisləşməkdə davam edirdi. Bunu iyulun 13-də V.Leninə göndərdiyi teleqramında S.Şaumyan da etiraf edirdi. Bakı bolşeviklərinin lideri V.Leninə çatdırırdı ki, Rusiyadan ciddi kömək gəlməsə vəziyyəti düzəltmək mümkün olmayacaqdır:

> Cəbhədə vəziyyət pisləşir. Təkcə bizim qüvvələrimiz kifayət deyildir. Rusiyadan ciddi kömək lazımdır. Mən Həştərxana və Saritsinə İ.Stalinə teleqram göndərmişəm. Siz də göstəriş verin. Vəziyyət çox qarışıqdır...

V.Lenin isə elə həmin gün Dəniz işləri üzrə Xalq Komissarlığına göndərdiyi məktubunda təkidlə tələb etdi ki, Xəzər dənizinə hərbi gəmilərin göndərilməsi sürətləndirilsin.

Ağsu cəbhəsində də Qırmızı ordu bölmələrinin irəliləməsinin qarşısı alındı. Qüvvə və sursat qıtlığı üzündən qətiyyətlə hücuma keçə bilməyən Qafqaz İslam Ordusu qüvvələri Şərədil dağlarında müdafiə olunaraq bolşevik və daşnakların bütün hücumlarını dəf etdilər. İyulun 10-12-si arasında bu istiqamətdə gedən döyüşlərdə bolşevik qoşunları artıq irəliyə gedə bilmədilər.
Cəbhə xəttinin gücləndirilməsi üçün iyulun 14-də Nuru paşa tərəfindən bəzi tədbirlər həyata keçirildi. Həmin gün Ləzgi süvari alayı Yevlaxdan dəmir yolu ilə Kürdəmirə göndərildi. Bu alayın döyüş təcrübəsini nəzərə alaraq Qafqaz İslam Ordusu komandanlığı onun dağlıq şəraitdə istifadə edilməsini məqsədəuyğun bilirdi. Bundan başqa, Nuru paşa yenicə Azərbaycana gəlib çıxmış olan 38-ci alayın cəbəl top batareyasını da Ağstafadan Kürdəmirə göndərdi (38-ci alay 15-ci firqəyə aid idi – M.S.). Nuru paşa bu bölmənin də şimal xətti boyunca istifadəsini lazım görürdü. Əlavə olaraq Ağstafadan dəmir yolu ilə Kürdəmirə 250 sandıq güllə və 600 ədəd mərmi göndərildi.

Şamaxının bolşevik-daşnak qüvvələrindən azad edilməsi.

Kürdəmır azad edildikdən sonra əsas diqqət Şamaxı üzərində cəmləşdirildi. Ancaq bu istiqamətdə döyüşlərə başlamazdan əvvəl Nuru paşa cəbhədəki qüvvələri yenidən qruplaşdırdı. Bu da onunla bağlı idi ki, qüvvələr şərqə doğru irəlilədikcə onlar bir-birindən daha çox aralanır və əlaqələri zəifləyirdi. Ona görə Nuri paşa fıkirləşirdi ki, həm Şamaxı-Bakı şosse yolu boyunca, həm də dəmir yolu xətti boyunca irəliləyən qüvvələri müstəqil taktiki qruplarda birləşdirmək döyüşün idarə edilməsi üçün daha əhəmiyyətli ola bilər. Görünür, Nuru paşa bu barədə hələ əvvəldən məsələ qaldırıbmış. Çünki iyul ayının 14-də Mürsəl bəyə göndərdiyi teleqramında soruşurdu ki, dəmir yolu boyunca hərəkət edən dəstə ilə şimaldakı dəstə ayrı-aynrılıqda komandalara bölünəcək, yoxsa fırqə tərkibində bır komanda halında qalacaqdır Nuru paşa həmin teleqramında dəstəiərin ayrı-ayrı qruplara bölünəcəyi halda onlara rəhbərliyin kimlərə tapşırıla bilməsi barədə Mürsəl bəyin münasibətini də öyrənmək istəyirdi.
Kürdəmir və Kərrar ətrafındakı döyüşlər də göstərdi ki, hissələrin bir istiqamətdən digərinə atılması həm fiziki imkanların məhdudluğu üzündən münasib deyildi, həm də bir istiqamətdə qüvvələrin gücləndirilməsi ilə digər istiqamətdə qüvvələr zəifləyirdi.
Güclü düşmənə qarşı belə bir şəraitdə mübarizə aparmaq isə heçdə həmişə müsbət nəticələr verə bilməzdi. Ona görə də 5-ci Qafqaz firqəsi, 15-ci firqənin 38-ci alayının bölmələri və Azərbaycan milli qüvvələrindən ibarət olan hissələr və bölmələr iki taktiki qrupa bölündü. Həmin qruplar Şimal və Cənub qrupu adlandırıldılar. Şimal qrupu Şamaxı üzərindən Bakıya doğru irəliləməli idi. Qrupun komandanı 10-cu piyada alayının komandiri yarbay Osman bəy təyin edildi. Şimal qrupuna yarbay Əhməd Rza bəyin komandirliyi altında olan 13-cü Qafqaz piyada alayı, yarbay Səlim bəyin komandirliyi altında olan 10-cu Qafqaz piyada alayı, süvari minbaşı Zehni bəyin komandirliyi altında olan Zehni bəy dəstəsi və ehtiyatda saxlanılan 25-ci, 26-cı və 18-ci taborlar daxil idi. Cənub qrupunun komandanı isə Həbib bəy Səlimov təyin edildi. Bu qrupa Müsüslü dəstəsi, 26-cı tabordan bir piyada bölüyü, firqənin istehkam bölüyü, iki ədəd top və bir zirehli qatar daxil idi. Azərbaycana yenicə daxil olmuş 38-ci alayın yalnız bir taboru Cənub qrupunun tərkibinə verilmişdi. Alayın 3-cü taboru Gəncədə, 1-ci taboru isə ehtiyatda saxlanılmışdı. Alay belə parçalandığı üçün onun komandiri 10-cu alaya komandir təyin edildi. Həmin alayın komandiri Şimal qrupuna komandan təyin

edildiyindən bn alay başsız qalmışdı. Şimal və Cənub qurpları isə öz növbəsində Şərq cəbhəsi komandanlığı altında birləşdirildi. Şərq cəbhəsi komandanı vəzifəsi də Mürsəl paşaya həvalə olundu.

İyulun 16-18-də Şimal və Cənub qruplarının təşkilatlanması başa çatdı. Həmin günlər ərzində qrupların cəbbəxana və ərzaq təchizatı istiqamətində də bir sıra addımlar atıldı.

Şamaxının azad edilməsi, Qafqaz İslam Ordusunun döyüşlərinin gedişində əldə etdiyi ən əhəmiyyətli uğurlardan biri idi. Mürəkkəb bir coğrafi şəraitdə yerləşən Şamaxının azad edilməsi həm qoşunlardan çox böyük gərginlik tələb edirdi, həm də buraların əhalisində erməni xofunu birdəfəlik silib atmalı idi. Şamaxı eyni zamanda Bakıya doğru hücum üçün başlıca strateji baza hesab edilirdi. Buna görə də Qafqaz İslam Ordusu komandanlığı Şamaxı üzərinə kifayət qədər hazırlıq görülməsini və bu hücumun qısa vaxt ərzində başa çatdırılmasını lazım bilirdi. Cəbhədə hələ struktur dəyişikliyi aparılmadığı zaman Nuru paşa Mürsəl paşaya göndərdiyi telearamında tələb edirdi ki, Şamaxı-Bakı yolunun üzərindəki, Şamaxının cənubundakı Göylər kəndinə üç qoşun növündən ibarət və süvarisi daha çox olan bir dəstə göndərin. Onun fikrincə, Şamaxı ətrafındakı Azərbaycan kəndlərinin əhalisi silahlı idi. Qafqaz İslam Ordusu bölmələri kəndə daxil olduğu təqdirdə yerli əhali onlara sığınıb böyük müqavimət dəstələri təşkil edər və ümumi mübarizəyə öz xidmətlərini göstərərdilər.

Nuru paşa yazırdı:

> Şamaxıdan Bakıya gedən yolu kəsmək üzrə Şamaxı qəsəbəsinin 15 verst cənubundan Göylər (islam köyü) üzərindən üç sinifdən mürəkkəb və süvarisi çox bir müfrəzənin həmən sövqü lazımdır. Şamaxının sərq və cənubundakı köylər kamilən islam və müsəlləhdirlər. Böylə bir hərəkətin düşməni məğlubiyyəti-qətiyyəyə uğradacağını təxmin edirəm.

Tezliklə Şamaxı üzərinə irimiqyaslı hücumu həyata keçirmək qərar alındı. Həmin hücum iyulun 19-da başlamalı idi.

İyulun 19-na keçən gecə Şamaxı ətrafında şiddətli yağış yağdı. Döyüşçülər tamamilə yaş olduqları kimi, onların özlərinin və vəsaitlərinin yağışlı havada və dağ şəraitində irəliləməsi xeyli çətinləşdi. Buna baxmayaraq, hər iki alayın şəxsi heyəti sonsuz fiziki dözüm və fədakarlıq nümayiş etdirərək düşmənə ağır zərbə endirdi. Ancaq ağır hava şəraiti 13-cü alayı döyüş əmri ilə nəzərdə tutulmuş marşrutdan kənara çıxmağa məcbur etdi. Alay döyüşqabağı mövqelərdən Göylər kəndinə və sonradan Şamaxının şərqinə deyil, Mədrəsə kəndinə gəldi. Bu isə nəzərdə tutulduğu kimi bolşevik-daşnak qüvvələrinin geri çəkilmə yolunun bağlanmasına imkan vermədi. Bununla belə, bolşevik-daşnak qüvvələri hücumun qarşısını ala bilməyəcəklərini yəqin edib hələ saat 11-də geri çəkilməyə başladılar. Baş verən döyüşlərdə bolşevik-daşnak qüvvələri heç bir uğur qazana bilmədilər. Saat 16.35-də isə bolçevik-daşnak qüvvələri kütləvi şəkildə Şamaxıya doöru üz tutdular.

İyulun 19-da düşmən öz mövqelərindən geri atılsa da Nuru paşa ümumən həmin gün baş verən döyüşün gedişindən razı qalmadı. Onun fikrincə, 13-cü Qafqaz alayının döyüş əmrində nəzərdə tutulan marşrutdan kənara çıxması düşməni mühasirəyə alıb məhv etmək imkanını aradan qaldırmışdı. Bolşevik qüvvələrinin ümumən sağ-salamat çəkilməsi onların Bakı ətrafında cəmləşməsi və Bakının müdafiəsinin möhkəmləndirilməsi ilə nəticələnə bilərdi:

Bugünkü hərəkatın nəticəsi məni məmnun etməmişdir. Çünki mən düşmənin əsarət və imhası və dolayısı ilə Bakıya çəkilməkdə müvəffəq olmamasını istəyirdim. Bunu əvvəlcə də sizə Göylər köyü üzərindən Şamaxı-Bakı yolunu kəsmək üzrə bir qolun

təhrikini münasib olacağını yazmışdım. Düşmənin qüvvəsi az və hali-ricətdə ikən ugaq-təfək artçı qitəatı ilə iki alayın iştiğlalı və bunlardan 13-cü alayın Mədrəsə köyü üzərinə dönməsi məqsədə müvafiq bir hərəkət deyildir. Binaənəleyh, əlinizdəki süvari qüvvətlərinin kailən və qayət erkən, düşməni uzaqdan çevirəcək surətdə təhrik ediniz. Ya səbükbar piyada qüvvəti sövq edərək və ya hər süvari heyvanına bir piyada mindirərək əsil süvari qüvvəsini təqviyə edə bilərsiniz. Yarınki hərəkətin nəticəsini buna görə

İyul ayının 20-sinə olan döyüş əmrində Şimal qrupuna Çuxanlı-Məlikçoban məntəqələri arasındakı mövqelərə çıxmaq və düşmən qüvvələrini təqib etmək tapşırığı verilmişdi. Bu tapşırığı yerinə yetirməyə çalışan qüvvələr düşmənin bütün müqavimətini qıraraq ayın 20-də Çuxanlı-Məlikçoban xəttinə çıxa bildi. Döyüşlərin gedişində düşmənin bir topu, uç toparlağı, iki pulemyotu, biri zirehli qatar olmaq üzrə üç ədəd avtomobili, 15 sandıq güllə və s. əşyaları ələ keçirildi.

Ümumən, gün ərzində gedən döyüşlərdə bolşevik-daşnak qoşunlarını əhatə etmək fikri öz qüvvəsində qalmaqda idi. Bu fikir Qırmızı ordu komandirləri tərəfindən də başa düşülürdü və ona görə də buna yol verməməyə çalışırdılar. Şamaxı ətrafındakı Qırmızı ordu dəstəsinin komandiri Qazarova görə, Qafqaz İslam Ordusunun qoşun hissələri Mədrəsədəki mövqelərindən Acıdərə hündürlüyü xətti ilə Mərəzəyə çıxmağa can atırdılar. Mərəzənin tutulacağı təqdirdə çox ağır vəziyyətə düşə biləcəklərindən ehtiyatlanan Qırmızı ordu hissələri heç Şamaxıda da dayanmayaraq yalnız geri çəkilmək barəsində fikirləşirdilər.

Sabahısı gün Şimal qrupu hərəkətini davam etdirməli və düşməni təqib edərək Mərəzə kəndinə yetişməli idi. Cənub qrupu isə yenə də yayındırıcı döyüşlər aparmalı və buradan Şimal istiqamətindəki bolşevik-daşnak qüvvələrinə kömək göstərilməsinin qarşısını almalı idi.

Cəbhədə hərbi təşəbbüs artıq Qafqaz İslam Ordusu qüvvələrinin əlində idi. Ona görə də Nuru paşanın verdiyi tapşırıq xüsusi bir müqavimətlə rastlaşmadan həyata keçirildi. Yalnız iyulun 21-də günorta üstü Mərəzə kəndi yaxınlığında bolşevik-daşnak qüvvələri müqavimətə cəd göstərdilər. Amma bu da nəticəsiz oldu və tezliklə Mərəzə kəndi də ələ keçirildi.

Bakı bolşeviklərinin liderlərindən biri olan və Şamaxı istiqamətindəki 3-cü briqadanın komissarı təyin edilmiş A.Mikoyan Şimal qrupunun hücumlarının qarşısının alınmamasında və mühüm strateji əhəmiyyət kəsb edən Şamaxının əldən verilməsində 3-cü briqadanın komandiri Hamazaspı günühlandırırdı. Bu daşnak komandirinin Şamaxı istiqamətində başlanan elə ilk döyüşlərdən sonra biabırcasına geriyə üz tutması onun xasiyyətli daşnak döyüşçülərinin də geriyə üz tutmasına səbəb oldu. Şamaxı ətrafında yaranmış vəziyyətlə bağlı Şaumyanın məlumatına istinadən Həştərxandan V.Leninə göndərilmiş teleqramda belə deyilirdi:

> Şaumyan xəbər verir: İyulun 20-də cəbhədə vəziyyət belədir. Şamaxı ətrafında düşmən hazırlıqdan sonra cinahlara doğru hücuma keçmişdir. Onun beş topu var. Satqınlıq üzündən briqada komandiri Hamazasp geri çəkilmək barədə heç bir ehtiyac olmadan verdiyi əmrə əsasən bizim ordu əvvəlcə Şamaxıya, sonra isə daha arxaya geri çəkildi. Mərəzə də bizimkilər tərəfindən tərk edilib. Sonrakı geriləmənin qarşısını almaq üçün tədbirlər görülür. Günahkarlar məhkəməyə verilir...

Güclü vahimədən yaxalarını qurtara bilməyən Qırmızı ordu hissələri iyulun 22-də də geri çəkilməkdə davam etdilər. Bakı bolşeviklərinin nümayəndələri qoşun bölmələrini,

yerli qeyri-azərbaycanlı əhalini səfərbər edərək Şimal qrupunun irəliləməsinin qarşısını almağa çalışsalar da bir nəticəyə nail ola bilmədilər. Əslində, iyulun 22-də Mərəzə ətrafında qarşı tərəflər arasında bir döyüş baş vermədi. Buna baxmayaraq bolşevik-daşnak qoşunlarının geriyə qaçması davam edirdi. Bu qüvvələr Cəngidən 6 verst geri çəkilib şosse yolu boyunca müdafiə mövqeləri tutdular.

Qafqaz İslam Ordusu hissələri Mərəzə və Sığırlı-Padar məntəqələrini ələ keçirməsi ilə cəbhə boyu bir neçə günlük nisbi sakitlik yarandı. Təchizat və təminat məsələlərinin həll üçün istər Şimal qrupu, istərsə də Cənub qrupu üçün belə bir sakitlik böyük əhəmiyyət kəsb edirdi. Cəbbəxana və ərzaq ehtiyatları yaradılmadan yenidən ağır döyüşlərə qatılmaq təhlükəli nəticələrə gətirib çıxara bilərdi. Nuru paşa isə mümkün qədər sürətlə irəliləməyin, düşməni hələ vahimə içində olduğu vaxt məhv etməyin tərəfdarı idi. İyulun 23-də o, 5-ci Qafqaz firqəsi komandanı Mürsəl paşaya yazdığı məktubunda öz fikrini belə ifadə edirdi:

1.Cəbhədəki düşmən halən pərişandır. Qüvvəti az, mənəviyyatı isə qırıqdır. Çoluq-çocuqdan ibarət, hərc-mərc halında bir qafilə düşmənin zəfini artırmaqdadır. Sığırlıdakı düşmənin təvəqqüfü, Şimai qrupunun irəli hərəkəti ilə əkamətə (uğursuzluğa – M.S.) məhkum olacaq və fəlakətini intac edəcək bir təvəqqüfdür. Zatən Cənub qrupu qarşısındakı qüvvəni hər ehtimala qarşı müdafiəyə və ani təsbitə kafidir. Bakıdakı düşmən üç-dörd günlük məlumata görə siyasi bir anarşi içindədir. Biçeraxov ingilis parası ilə və erməni qüvvəti ilə hər dürlü idarəni ələ alacaq kimi görünür. Ümumi bir müzakirədə ingilislərin Ənzəlidəki qüvvələrinin Bakıya gəlməsi görüşülmüş, fəqət nəticə anlaşılmamışdır. Məmafih Biçeraxov zorla rast gəldiyini əsgər yapmaq və qüvvəsini artırmaq istəyir. Bu mülahizata nəzərən biz mümkün olduğu qədər aclığa və susuzluğa baxmayaraq xassətən Şimal qrupu ilə doğru Bakıya yüyürməkdə fayda və nicat buluruz.

2.Bugünkü təvəqqüfü ancaq bir şəkil ilə münasib görərdim. O da süvari, topçu və piyadadan mürəkkəb bir təqib müfrəzəsinin düşmənin peşini buraxmamaq idi. Bu məsələsini orduca da nəzəri etibara alındığı məlumunuzdur. Cəngi çayından istifadə etmək imkanını da siz buyurursunuz ki, su məsələsi bu sürətlə həll edilmişdir. Məvadi-iaşəyə gəlincə firqənin əti bol və əkməki də qismən şimdi bulunduğu miqdarda və qismən də arxadan sövq edilmək surətiylə qabili-tədarükdür. Bakıya yaxın olan müsəlman köylərinin müsəlləhən yardımları qəviyyən məmul olmaqla bərabər sizə su, ət və əkmək xüsusunda yardım edəcəkləri də mülhəqdir. Siz bu köylərdən halən əzəmi 70 kilometr məsafədəsiniz. Müharibəsiz üç gündə qət ediləcək bu məsafə daxilində indiyə qədər təcrübə etdiyiniz düşmən qarşısında iki gündən sonra fazla müharibə üçün sərf etdiyinizi zənn etmiyorum. Buna görə hazırlanmaq isə bir kaç gün təvəqqüfü intac etməz.

3. Bir tərəfdən məvadi-iasə və cəbbəxananın tamamlanması və Mərəzəyə sövq və iddiharına çalışılır.

4. Hacıqabulun daha şərqinə düşməni atmaq üzrə Şimal qrupundan yarın bir kiçik müfrəzə təfriqi və bu təərrüzə cənubdan Əhməd Həmdi bəy müfrəzəsinin də iştiraki-hərakatı lazımdır. Əhməd Həmdi bəy müfrəzəsinin Hacıqabul ilə dəniz arasından dəmır yolunu təxrib etməsi və Şimal qrupundan ifraz ediləcək müfrəzənin də eyni zamanda böylə bir dəmir yolu

ilə təxribi vəzifəsi olması lazımdır.

5. Müharibə və müvasilə xəttinin cinahında bulunan köylərın tədibi ilə ugraşmaq qüvvətin inkisamını intac edər. Hər halda ayrılan qüvvətin cinahlarında kiçik düşmən qüvvələrinin təchizatı kıyamını pək zənn etmiyorum. Malağanlar təslim olduqdan sonra belə bir hərəkatda şimdiyə qədər bulunmaddılar. Ancaq ermənilər haqqında qəti məlumat almaq lazımdır. Məmafıh ermənilərin şərqə çəkildiklərini dünkü raportunuzda bildirmişdiniz.

6. Cəbbəxana sövqü və qitəata tövzüsü (paylanması – M.S) lazım, ancaq bunun təsrii elzəmdir.

7. Dağıstandan gələcək qüvvətlər haqqında ittixaz ediləcək tədbirin hərəkətin təxirinə səbəb olacağını zənn etməm. Ancaq bir kəşf qolu ilə onların təşriki-hərəkətini təmin etmək və Bakı-Dərbənd dəmir yolunu təxrib və tərəssüd etdirmək lazımdır.

8. Yarın üçün Cənub qrupunun hali təvəqqüfə qalmasını anlamıyorum. Bir an əvvəl irəliləyərək dəmir yolunu təmir etsə və Hacıqabulu tutsa Şimal qrupundan gələcək müfrəzə və Əhməd Həmdi bəy müfrəzəsilə daha yaxından irtibat təsis etsə iyi olmazmı? Yenə yarın Şimal qrupundan bir təqib müfrəzəsi eyni zamanda istikşafda bulunmaq üzrə Şərq istiqamətində sövq edilməlidir. Bilirsiniz ki, Baş komandanlıqdan aldığım əmr və həm də düşmən haqqında bildirdiyiniz məlumat bizdən sürət tələb etməkdədir.

Nuru paşa həmin məktubunda Şimal qrupundan xüsusi bir dəstə düzəldilib Hacıqabuldan Bakıya gedən dəmir yolu xəttinin dağıdılması üçün göndərilməsinin, habelə Cənub qrupunun irəliyə hərəkət etməsinin və Hacıqabulu tutmasının zəruriliyini vurğulayırdı. Hücum edəcək qüvvələrin vəziyyətini və imkanlarını daha yaxşı bilən Mürsəl paşa Ordu komandanının təkliflərinin belə bir şəraitdə həyata keçirilməsinin qeyri-mümkün olduğunu bildirirdi və öz fikirlərini məktubunda Nuru paşaya da əsaslandırırdı. Bakıya doğru dayanmadan irəliləməyin tərəfdarı olmaqla bərabər, Nuru paşa Mürsəl paşanın mövqeyi ilə razılaşdı Mürsəl paşanın fikrincə, iyulun 26-na kimi bu hazırlıq işlərini yekunlaşdlrmaq və Bakıya tərəf hücumu davam etdirmək olardı.

Cəbhədə yaranmış olan nisbi sakitlikdən bolşevik-daşnak qüvvələri də səmərəli şəkildə istifadə etməyə cəhd göstərirdilər. Qafqaz İslam Ordusundan alınan ağır zərbədən sonra Qırmızı ordu hissələri geri qaçmaqda davam edirdilər. Bu orduda hakim olan bolşevik-daşnak ideologiyasının böhranı və süqutu Bakı xalq Komissarları Sovetini də süqut dərəcəsinə çatdırmışdı. Bu bolşevik qurumunu və onu təmsil edən bolşevikləri məhv olmaqdan yalnız cəbhədə dönüşün yaradılması, Qafqaz İslam Ordusu hissələrinin hücmu qarşısının alınması xilas edə bilərdi. S.Şaumyanın ətrafına topladığı və dayaqlandığı erməni-daşnak qüvvələri bunun öhdəsindən gələ bilmədilər, Qafqaz İslam Ordusu hissələrinin güclü zərbəsi ilə parçalanıb nicat üçün geriyə qaçmağa başladılar. S.Şaumyan bunun başlıca səbəbini ətrafına topladığı qoşunun oğru-quldur olmasında deyil, onun komandir heyətinin qorxaqlığında görürdü. V.Leninə göndərdiyi teleqramlardan birində o qeyd edirdi ki, bizim qoşunların əsas kontingenti olan erməni hissələri əvvəlcə igidliklə vuruşsalar da, hissələrin komandir heyətinin qorxaqlığı və ingilis təbliğatı nəticəsində böhrana uğramışdır.

S.Şaumyanın L.Biçeraxova bağladığı ümidlər də özünü doğrultmadı. Əslində, heç doğrulda da bilməzdi. Çünki İranda yerləşən rus qoşunlarının zabiti olmuş L.Biçeraxovun tutduğu yolun strateji puçluğu əvvəlcədən məlum idi. Onun sərəncamına verilmiş Qırmızı ordu hissələri isə mənəvi tənəzzül içərisində olan, yalnız fərdi və şəxsi mənafeləri üçün silahsız və müdafiəsiz Azərbaycan xalqını talamaq üçün cəbhəyə yollanan elementlərdən ibarət idi. Azərbaycana yollanarkən ingilislərdən 180 milyon rubl alaraq 15 gün ərzində 10 minlik ordu toplayacağına söz versə də, L.Biçeraxov ətrafına cəmi 600-ə qədər adam cəlb edə bildi. Böyük vədlərlə və ümidlərlə Azərbaycana yollanan L.Biçeraxov cəbhəyə komandanlıq etdiyi etdiyi müddət ərzində bir dəfə də olsa qələbə sevincini yaşamadı. Böyük sürətlə özünü Kürdəmirə çatdırdığı kimi, böyük sürətlə də oradan geri qaçdı. Bacarıqsızlığını, azərbaycanlı zabit Həbib bəy Səlimovun komandanlığı altında olan Cənub qrupunun hücumlarının qarşısını almağa qüdrəti çatmadığını görəndə L.Bişeraxov cəbhə komandanı vəzifəsindən əl çəkdiyini söyləyib bu vəzifəni erməni Avetisova həvalə etdiyini bildirdi. Bununla belə, o özünün və dəstəsinin cəbhədə qaldığını və Bakının Qafqaz İslam Ordusundan qorunmasında iştirak edəcəyini bildirdi. İyulun 22-də Avetisov artıq müvəqqəti olaraq cəbhə komandanının vəzifəsini icra etməyə başlamışdı.

Yaxınlaşan süqutdan xilas olmaq üşün əsas ümid isə Rusiyadan gələ biləcək köməyə bağlanılırdı. Zorakı yolla hakimiyyətə gələn Bakı xalq Komissarları Sovetinin ömrünün uzadılmasının da yalnız zorakılıqla mümkün olacağına şübhə etməyən Rusiya bolşevik hökuməti iyunun 2-ci yarısından etibarən Bakıya hərbi yardımı xeyli artırdı. V.Leninin göstəriş və tapşırıqlarından sonra xeyli silah, hərbi sursat və bir neçə silahlı dəstə, o cümlədən, Petrovun komandirliyi altında 780 nəfərlik yaxşı silahlanmış sovet qoşun dəstəsi Ukrayna cəbhəsindən Bakıya göndərildi. İyul ayının 19-da "İzvestiya Bakinskoqo Soveta" qəzeti bu xəbəri böyük bir sevinclə oxuculara çatdırırdı. 100-200 nəfərlik kazak atlı dəstəsindən, 6 topçu batareyadan, Baltik və Qaradənizçilər bölüyündən və süvari kəşfiyyatçılar bölmələrindən ibarət olan Petrovun dəstəsi Bakını türk-Azərbaycan qoşunlarından qorumalı idi.

İyulun 19-da dəstəsi ilə Bakıya gələn Petrov Bakı rayonunun hərbi komissarı təyin edildi və o bu vəzifədə Rusiyanın fəhlə və kəndlilərinə bir müraciət imzaladı. Tamamilə şovinist və təcavüzkar bir ruhda yazılmış olan müraciətdə Petrov rus fəhlələrini və kəndlilərini silaha sarılmağa, Bakıya gəlməyə və burada Sovet Rusiyası uğrunda mübarizə aparmağa çağırırdı. Onun müraciətində belə cümlələr var idi:

> Silaha sarılın, Rusiya Federativ Sovet respublikasının azadlığı uğrunda bizim yanımıza, bizim mübarizlərin sırasına gəlin... Rusiya Federativ Sovet Respublikası təhlükədədir. O kimin üçün əzizdirsə bizim yanımıza, bizim sıralarımıza gəlsin.

Ancaq S.Şaumyan yaxşı başa düşürdü ki, təkcə Petrovun dəstəsi Qafqaz İslam Ordusu qoşunlarının uğurlu hücumlarının qarşısını kəsməyə kifayət deyildir. Ona görə də iyulun 20-də böyük bir təlaş içərisində S.Şaumyan yenidən kömək göndərilməsi adı ilə V.Leninə göndərdiyi teleqramında yazırdı:

> Vəziyyət daha da ciddiləşir. Bakı üçün hərbi qüvvələrin göndərilməsi gücləndirilməli və sürətləndirilməlidir. Tez yola salın, göstəriş verin ki, yollarda yerli sovetlər Bakıya göndərilən hissələri saxlamasınlar. Xəbər

> verin ki, biz kömək gözləyə bilərikmi və nə vaxt? Təkrar edirəm ki qoşunlarla təcili və ciddi kömək zəruridir.

Bakı Sovetinin Moskvada olan nümayəndəsinin Hərbi işlər üzrə Xalq Komissarlığına göndərdiyi təqrirində isə qeyd edilirdi ki, Bakıda vəziyyətin düzəldilməsi üçün təchizat və təminat məsələləri həll edilməli, bu qüvvələr ən yaxın zamanda yola salınmalı və Qafqaz cəbhəsində məsuliyyətli rəhbərlər təyin edilməlidir.

İyul ayının 23-də S.Şaumyana istinadən V.Leninə göndərilmiş digər teleqramlarda da çıxılmaz vəziyyətin aradan qaıdırılması üçün yeni qüvvələrin, siyasi cəhətdən etibarlı komandir heyətinin yola salınması xahiş olunurdu.

S.Şaumyan və onun ətrafındakılar Rusiyadan əllərini üzməməklə bərabər, Bakının özündə də mümkün imkanları səfərbər etməyə çalışırdılar. Bu məqsədlə onlar Bakı əhalisinə müraciət edir, əsasən də qeyri-azərbaycanlı əhalidə millətçi-şovinist hissləri qıcıqlandırmağa və bununla da bolşevik-daşnak cəbhəsinə əlavə qüvvələr cəlb olunmasına cəhd göstərirdilər. Bakı Sovetinin fəhlələrə və qırmızı qvardiyaçılara ünvanlanmış 24 iyul 1918-ci il tarixli müraciətində deyilirdi:

> Yoldaş fəhlə və qırmızı qvardiyaçılar! Vəhşi Türkiyə bizə qarşı öz qoşunlarını yeritmişdir. Silaha sarılmış Bakı fəhlələri bu qoşunlara qarşı çıxdılar və bir sıra qəhrəmancasına döyüşlərdə sübut etdilər ki, onlar inqilab uğrunda mübarizə etməyi və ölməyi bacarırlar. Döyüşə gedərkən həmişə təkcə qələbəni deyil, həm də məğlubiyyəti gözləmək lazımdır. Budur, biz indi belə bir məğlubiyyət anlarını yaşayırıq. Bizim yorulmuş, əldən düşmüş qoşunlarımız dəyişdirilmədiyindən və möhkəmləndirilmədiyindən sağ cinahda geri çəkilirlər. Ancaq bu bizdə çarəsizlik yaratmalıdırmı? Yəni, biz elə bir vəziyyətə çatacağıq ki, silahı yerə qoyacağıq və düşməni şəhərə buraxacağıq? Yox, yoldaşlar! Bizim aramızda silahı yerə qoyub nifrətamiz türk zorakılığına təslim olmağı təklif edən satqın tapılmaz. Bizim cəbhədə hələ çox qoşunlarımız var. Biz hələ öz aramızdan da yeni taborlar yarada bilərik. Bununla yanaşı, yorulmuş və geri çəkilmiş dəstələr də bir qədər istirahət edib və özünə gəlib yenidən silaha sarılacaqlar və düşmənlə vuruşacaqlar.

Qafqaz İslam Ordusu hissələri Bakıya yaxınlaşdıqca Bakı Komissarlarının ətrafına toplaşan siyasi qüvvələrdə də parçalanma baş verirdi. Azərbaycan xalqının milli mənafelərinin təmsilçisi olacaq şəxslərin təmsil olunmadığı bu qüvvələr Bakının azad ediləcəyi təqdirdə törədətdikləri faciələrə, qanunsuzluqlara görə cavab verməli olacaqlarından vəziyyətdən çıxış yolu axtarır və bunu ingilis qoşunlarının Bakıya gətirilməsində görürdülər. Uzun müddət Bakı Sovetinin cığırdaşı olan eserlər, daşnaklar güman edirdilər ki, ingilislər Bakıya gəlməklə həm Qafqaz İslam Ordusunun qarşısını saxlayacaq, həm də onların Bakıdakı mövqelərini möhkəmləndirəcəklər. Ona görə ingilis qoşunlarının Bakıya gətirilməsinə meyl edənlər çoxalırdı. Yuxarıdakı müraciətin bir hissəsi də ingilis qoşunlarının Bakıya gətirilməsinə qarşı idi.

Ancaq S.Şaumyan və onun məsləkdaşlarının göstərdiyi cəhdlər bir nəticə vermədi. Aparılan bütün təbliğat işlərinə baxmayaraq, Qafqaz İslam Ordusu hissələrinin və bölmələrinin nəyə qadir olduğunu əyani şəkildə görmüş olan bolşevik-daşnak tör-töküntüləri cəbhədən qaçmaqda davam edirdilər.

Baxmayaraq ki, iyulun 23-24-də Rusiyadan Bakıya xeyli silah-sursat, ərzaq gətirildi, lakin artıq Bakı Sovetinin düşdüyü böhranı aradan qaldırmaq mümkün deyildi. Şamaxı-Bakı yolu üzərindəki bolşevik-daşnak qoşunlarının xeyli geri çəkilməsi şəhərdəki vahimə və gərginliyi daha da artırdı. Bolşeviklərin acizliyi, gücsüzlüyü onların

nüfuzunu xeyli aşağı saldı. Azərbaycan xalqına qarşı cinayətlər və qırğınlar törətmiş daşnaklar, sabit əqidəsi olmayan eserlər, vəziyyətə görə bu və ya digər tərəfə meyl edən qüvvələr Bakının azad edilməsinə yol verməmək üçün ingilis qoşunlarının Azərbaycana çağırılmasını lazım bilirdilər. İyul ayının 25-də çağırılmış fəhlə, qırmızı əsgər, matros və kəndli deputatları Bakı Sovetinin fövqəladə iclasında bolşeviklər siyasi cəhətdən ağır məğlubiyyətə uğradılar. Onların bütün səylərinə baxmayaraq sağ eserlər, daşnaklar və menşeviklər ingilis qoşunlarının Bakıya dəvət edilməsi lehinə səs verdilər.

Qafqaz İslam Ordusu komandanlığı öz kəşfiyyatının, habelə Bakıdan qaçıb gəlmiş azərbaycanlıların verdiyi məlumat əslində şəhərdə cərəyan edən prosesləri nəzarət altında saxlayırdı. Düşmən cəbhəsində yaranmış panika və təlaşdan mümkün qədər çox yararlanmaq üçün Nuru paşa iyulun 24-də Mürsəl paşaya göndərdiyi teleqramında iyulun 26-da Bakı üzərinə qəti hücuma başlamağaı tövsiyə edirdi.

İyul ayının 28-nə verilmiş döyüş əmrinə görə Şimal qrupu Bakı istiqamətində hücumu davam etdirərək Cəngi mövqelərini ələ keçirməli idi. Gecə saat 3-də hücuma başlayan Şimal qrupunun xəttində mürəttəb süvari alayı hərəkət edirdi. Saat 11.30-da bolşevik-daşnak qoşunlarının 150 nəfərlik süvarisi 2 ədəd top və zirehli avtomobilin müşayiəti ilə 2-ci mürəttəb süvari alayının qarşısını kəsdi. Bu qüvvələr arasındakı döyüçü uğurla başa çatdırmaq üçün Qırmızı ordudan ora 200 nəfər piyada və 50 nəfər süvari göndərildi. Bolşevik-daşnak qüvvlərinin güclənməsi 2-ci süvari alayının vəziyyətini xeyli ağırlaşdırdı. Yalnız 10-cu Qafqaz alayının köməyə yetişməsi bolşevik-daşnak qüvvələrini geri çəkilməyə məcbur etdi. Şimal qrupu bölmələri hücumu davam etdirərək axşama qədər onun qarşısında qoyulmuş döyüş tapşırığını yerinə yetirdi. Cənub qrupu isə gün ərzində bir qədər irəliləyərək Pirsaat stansiyasının qərb tərəfinə yaxınlaşdı.

İyul ayının 29-da və 30-da Qafqaz İslam Ordusu hissələrinin Bakıya doğru irəliləməsi davam etdi. Nəticədə Şimal qrupu Bakıya xeyli yaxınlaşa bildi.

Qafqaz İslam Ordusu qüvvələri Bakı yaxınlıqlarında çox ciddi müqavimətə rast gəlmədi və həmin qüvvələrin Bakıya bu dərəcədə yaxınlaşması şəhərin tezliklə süqut edəcəyinə bir inam yaratdı. Ancaq məlumdur ki, Bakıdakı ermənilər və onların ətrafına toplaşanlar heç də bu fikirdə deyildi və onlar ingilis qoşunlarının gəlişi ilə vəziyyətin tamamilə dəyişəcəyinə ümidlərini itirməmişdilər.

İyulun 30-da və 31-də Qafqaz İslam Ordusunun əldə etdiyi hərbi uğurlar S.Şaumyan və onun ətrafına toplaşmış bolşevik-daşnak qüvvələrinin hərbi və siyasi süqutunu sona çatdırdı. Onlar artıq heç nə ilə cəbhədəki vəziyyəti arzu etdikləri istiqamətə yönəldə bilmədilər. Baş verən uğursuzluqları onlar müxtəlif səbəblərlə izah etməyə çalışsalar da həqiqət belə idi ki, millətçi erməni tör-töküntülərindən təşkil edilmiş silahlı dəstələr Qafqaz İslam Ordusunun qarşısını kəsməyə artıq qadir deyildilər. L.Biçeraxov da öz dəstəsini Cənub qrupu qarşısından geri çəkərək 1 saylı zirehli qatarla bilrikdə Biləcəriyə doğru üz tutdu. Bakı-Tiflis dəmir yolu boyunca döyüşlərin taleyinin artıq həll edildiyini başa düşən L.Biçeraxov Biləcəri stansiyası ilə dəniz arasında elə bir mövqe tutdu ki, istədiyi vaxt maneəsiz dərhal qatarla Dağıstana tərəf çəkilə bilsin.

Biçeraxovun bu hərəkəti ilə Qafqaz İslam Ordusu qarşısındakı müqavimət daha da azaldı. Bakı bolşeviklərinin hərbi komissarı Korqanovun verdiyi məlumata görə, Ələtdən geri çəkilən 1600 nəfərlik qüvvədən Bakı ətrafındakı cəbhə xəttində 200 nəfər qalmışdı. 200 nəfər də sağ cinahda, Şimal qrupu ilə üzbəüz mövqe tutmuş Petrovun dəstəsində var idi.

Bolşevik-daşnak liderlərinin verdiyi məlumatdan belə çıxırdı ki, gəlişinə böyük ümid bağlanılan Petrovun 780 nəfərlik dəstəsində Qafqaz İslam Ordusu hissələri ilə bir neçə

günlük döyüşdən sonra cəmi 200 nəfər qalmışdı. Heç şübhəsiz ki, belə bir vəziyyət bolşevik-daşnak rəhbərliyini və şəxsi maraq hərisliyi ilə onların ətrafına toplaşmış olan erməni silahlılarını da qorxuya salmaya bilməzdi. Sayı 3 mindən çox olan erməni silahlıları pal-paltar çatmamasını bəhanə edərək cəbhə xəttini tərk edir və şəhərdə toplaşırdılar. Bununla da bolşeviklərin verdiyi məlumata görə, uzunluğu 32 kilometr olan döyüş xəttində cəmi 400 silahlı qalmışdı. Nicat tapmağın yeganə yolunu ağ bayraq qaldırıb təslim olmaqda görən Qırmızı ordu komandanı Avetisov tezliklə Qafqaz İslam Ordusu komandanlığı ilə sülh danışıqlarına başlamağı təklif etdi. Onun fikrincə, əks təqdirdə şəhərin 160 min xristian əhalisinin həyatı təhlükə altında qala bilərdi. Doğrudur, Bakı Xalq Komissarları devrildikdən və yeni hökumətdə də yüksək vəzifə tutduqdan sonra Avetisov təkid edirdi ki, heç vaxt Qafqaz İslam Ordusu qarşısında ağ bayraq qaldırmağın tərəfdarı olmamışdır. Əksinə, türk qoşunlarına qarşı mübarizə aparmağı, türk döyüşçülərinin Qafqazdan çıxarılmasını özünün başlıca vəzifəsi bilmişdi və bu yoldakı mübarizəsini yeni hakimiyyətin dövründə də davam etdirirdi.

İyul ayının 30-dan 31-nə keçən gecə bolşeviklər öz hakimiyyətlərini qoruyub saxlamaq üçün sonuncu dəfə cəhd göstərdilər. Hələ gecə ikən Xalq Komissarları Soveti şəhərdə olan bütün hissələri və silahlıları cəbhəyə yollanmağa çağırdı, fəhlələrə müraciət etdi ki, silahlanıb şəhərin küçələrinə çıxsınlar. Eyni zamanda erməni silahlı dəstələrinin rəhbərləri Hamazasp, Qazarov və Daşnaksütyun partiyasının rəhbərləri ilə razılıq əldə edildi ki, sülh danışıqlarının aparılacağı təqdirdə belə öz dəstələrini cəbhəyə göndərsinlər ki, şəhər müdafiəsiz qalmasın. Qərara alındı ki, erməni silahlılarından ibarət 16-cı və 18-ci taborlar cəbhə xəttinə göndərilsin. Bu iki taborda 1300 silahlı olmalı idi. Həmin gecə Daşnaksütyun partiyasının rəhbəri bəyan etdi ki, iyulun 31-də cəbhə xəttinə çıxarılacaq silahlıların sayı 3 minə çatdırılacaqdır.

Ancaq Bakı bolşevikləri yenə də cəhdlərinin nəticəsiz qalması ilə rastlaşdılar. İyulun 31-də cəbhə xəttinə gözlənilən sayda deyil, 16-cı tabordan cəmi 320 nəfər qüvvə göndərildi. Bakı bolşevikləri ümidi yalnız Rusiyadan gələcək qüvvələrə bağlaya bilərdilər. Bu kömək gələnə kimi isə onlar şəhərdəki mümkün qüvvələri səfərbər edərək şəhərin müdafiəsini təşkil etməyə çalışırdılar. Daşnak liderləri və fəalları isə artıq nəzərlərini Rusiya tərəfə deyil, İrandan gələ biləcək ingilis qüvvələrinə dikmişdilər. Onlar da şəhərin müdafiəsinə çalışmaqla vaxt qazanmağa və ingilislərin yetişməsinə çalışırdılar.

Qafqaz İslam Ordusu hissələrinin güclü zərbəsinə davam gətirə bilməyən Petrovun dəstəsi də geri çəkiləndə S.Şaumyan və onun məsləkdaşları artıq bütün hakimiyyəti təhvil vermək məcburiyyətində qaldılar. İyul ayının 31-də Bakı komissarları hakimiyyətdən tamamilə əl çəkdiyini elan etdi.

Beləliklə, 1918-ci il iyulun 31-də S.Şaumyanın sədrliyi altında Bakı Xalq Komissarları Soveti hakimiyyətdən birdəfəlik əl çəkdi. Qısa tarixi Azərbaycan xalqının həyatında faciəli izlər buraxmış bu hökumətin yerinə avqust ayının 1-də "Mərkəzi Xəzər (Sentrokaspi) və Sovetlərin Müvəqqəti İcraiyyə Komitəsi Rəyasət Heyətinin Diktaturası" hökuməti yaradıldığı elan edildi. Bu hakimiyyətin eserlər, menşeviklər və ermənilər tərəfindən təşkil edildiyi bildirilsə də onun əsas vəzifələri erməni-daşnak elementlərinin əlində cəmləşmişdi. Bir vaxtlar birgə fəaliyyət göstərdikləri bolşeviklərdən ayrılsalar da, onların mahiyyətində ciddi bir dəyişiklik baş verməmişdi. Türkçülüyə qarşı çıxmaq, milli istəklərini həyata keçirmək üçün onlar konkret şəraitdə yeni qüvvələrlə birləşməyin səmərəliliyinə daha çox inanırdılar.

Bakı üzərinə həlledici hücum üçün hazırlıq

Bakının azad edilməsi Nuru paşanın rəhbərliyi altında aparılan döyüşlərin, bütünlükdə Qafqaz İslam Ordusu hərəkatının uğurlu və şanlı zirvəsidir. Müvəffəqiyyətlə sona çatan bu əməliyyatla Bakı şəhəri erməni-rus qoşunlarının və ingilis bölmələrinin nəzarəti altından çıxarılaraq müstəqil Azərbaycan Cümhuriyyətinin paytaxtına çevrildi. Bununla da Azərbaycanın müstəqilliyi onun başı üzərini kəsdirmiş real təhlükədən nicat tapdı. Doğrudur, Qarabağda və respublikanın cənubunda müəyyən gərginlik hələ də qalmaqda idi. Lakin Bakının alınması ilə müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin bütün dövlət orqanlarının normal fəaliyyətinə obyektiv bir zəmin yaradıldı
Bakının azad edilməsi Nuru paşanın rəhbərlik etdiyi türk əsgərinin və bütün Azərbaycan xalqının birgə mübarizəsinin məntiqi nəticəsi idi. Lakin bu məntiqi nəticə elə də asanlıqla hasil olmadı. Qafqaz İslam Ordusunun zərbələri ilə Bakıya sıxışdırılan qüvvələr məhv olma anının yaxınlaşdığını hiss etdikcə bütün gücünü nümayiş etdirməyə çalışırdı. S.Şaumyanın rəhbərliyi altında olan Bakı komissarları istefa verdikdən sonra avqustun 1-də hakimiyyəti ələ keçirən Sentrokaspi Diktaturası da Bakını hansı vasitələrlə olur olsun,əldə saxlamağı,onun müstəqil Azərbaycanın paytaxtına çevrilməsinə yol verilməməsini özünə başlıca vəzifə sayırdı. Bunun üçün bu "yeni"hökumət liderləri İrandakı ingilis qoşunları komandanlığı ilə görüşərək onlardan hərbi kömək almağa nail olmuşdular. Bakı neftində gözü olan ingilis qoşunları komandanlığı da Sentrokaspi Diktaturasının erməni emissarlarına köməyə gəlməyi vəd etmişdilər. Avqustun 4-də artıq ingilis qoşunlarının Bakıya gəlməsi başlamışdı. Bu qüvvələrin gəlişi Sentrokaspi qüvvələrini xeyli gücləndirdi. Ona görə də Bakının azad edilməsi uğrunda Qafqaz İslam Ordusunun apardığı ilk ciddi döyüş uğursuzluqla nəticələndi.

Həmin döyüş avqustun 5-də baş verdi. Səhər erkən başlayan bu döyüş əvvəlcə İslam Ordusu qüvvələrinin planlaşdırdığı kimi davam edirdi. Güclü zərbədən sonra Şimal qrupunun bölmələri Qurd qapısı yüksəkliklərini ələ keçirərək şəhərə daha da yaxınlaşdılar. Ən təhlükəli mövqelərin ələ kecirilməsi hücumun müvəffəqiyyətlə davam etdirilməsi üçün zəmin yaratsa da, top mərmilərinin qurtarması və bununla topların himayəsindən məhrum olunmaq Şimal qrupunun vəziyyətini xeyli çətinləşdirdi. Sentrokaspi qüvvələri bundan istifadə edərək öz güclərini topladılar və ingilislərin yardımından bəhrələnərək əks-hücuma keçdilər. Bakının tutulacağından qorxan keçmiş komissarlar da ixtiyarlarında olan toplarla Qafqaz İslam Ordusu mövqelərini aramsız atəşə tutdular. Buna görə də Şimal qrupunun bölmələri xeyli itki verərək geri çəkilmək məcburiyyətində qaldılar. Saat 17-də Şərq cəbhəsi komandanı Mürsəl bəy döyüşün nəticələri barədə Nuru paşaya raport göndərdi və Bakı üzərinə həlledici hücumun həyata keçirilməsi üçün ondan əlavə kömək istədi. Ingilis qoşunlarının Bakıya gəlməsindən artıq Nuru paşanın da xəbəri var idi. Düşmən qüvvələrinin gücləndirilməsi, Qafqaz İslam Ordusu qüvvələrinin isə yorğunluğu, ciddi sursat çatışmazlığı Nuru paşada da Bakı ətrafına əlavə qüvvələrin göndərilməsi yəqinliyi yaratmışdı. 5 avqust döyüşündən sonra şəxsi heyətdə yaranmış olan mənəvi-psixoloji düşkünlüyü aradan qaldırmaq üçün Nuru paşa dərhal Mürsəl bəyə teleqram göndərdi və ən yaxın vaxtlarda Bakıya əlavə qüvvələr yola salınacağını ona çatdırdı:

> Tiflisdə bulunan Şərq Ordular Qrupu komandanı Xəlil paşa həzrətləri ilə həftəyə qədər Bakıya iki alay piyada yetişdiriləcəyini vəd etdilər Bundan məada Ələtə bir

milis bölüyü əvvəlcə göndərilmişdi, yarın da bir hücum bölüyü ilə bir makinalı tüfəng bölüyü Gəncədən göndəriləcəkdir. Miqdari-kafı cəbbəxana göndərildi. Hər halda bulunulan xəttin təqviyyə qitəatı gəlincəyə qədər müdafiəsi lazımdır.

5 avqust döyüşünün ağır nəticələri Nuru paşanın özü ücün də gözlənilməz olmuşdu. O, təsəvvür edə bilmirdi ki, Bakıya qədər uzun bir döyüş yolu keçmiş olan qüvvələr birdən-birə belə ağır vəziyyətə düşsün. Bunu Mürsəl bəy və digər zabitlər də təsəvvür edə bilmirdilər. Ola bilsin ki, Göyçaydan Bakıya qədər düşməni qovmağa müvəffəq olmuş Simal qrupu Bakı üzərinə hücumun da belə uğurla nəticələnəcəyinə möhkəm əmin imış. Kifayət qədər mərmi və sursat ehtiyatına malik olmadan hücuma başlamaq isə gözlənilməz nəticələrə gətirmişdi. Digər tərəfdən nəzərə almaq lazımdır ki, Şimal qrupunun rəhbərliyi bu hücum üçün kifayət qədər çevik taktika işlədə bilməmişdi. Bakıya ən yaxın yolun Qurd qapısından keçdiyi üçün hücum da bu ərazidə və çox dar sahədə aparılırdı. Ona görə Sentrokaspi hərbçiləri də bütün gücləri ilə bu dar keçiddə müdafiə olunmağa nail oldular. Nuru paşa istər hücumdan əvvəl, istərsə də bu hücumdan sonra Bakı üzərinə hücum sahəsini genişləndirməyi, yalnız Qurd qapısı yüksəkliyi üzərindən deyil, şimaldan da şəhərə hücum etməyi tövsiyə edirdi. Ancaq Şərq cəbhəsi komandanlığı şəhərə ən yaxm yer kimi Qurd qapısı yüksəkliklərindən hücum etməyə daha çox üstünlük verirdi. Ancaq hadisələrin sonrakı inkışafı məlız Nuru paşanın təklıfləri üzərində davam etdi. Nuru pasa hücum sahəsini genişləndirdi və nəhayət, Bakı üzərinə dairəvi şəkildə hücum təşkil etdi.

Bakı şəhəri üzərinə uğurlu hücumu təşkil etmək və şəhəri tezliklə azad etmək uçün hər şeydən əvvəl yeni qüvvələrə və cəbbəxana təminatına ciddi ehtiyac var idi. Bunlar olmasaydı növbəti hücumun uğuru da təhlükə altına düşə bilərdi. Vaxtın uzadılması isə düşmən qüvvələrinin daha da möhkəmlənməsi və Bakı ətrafındakı mühəndis-istehkam ışlərinin genişləndirilməsi demək idi. Ona görə də Nuru paşa 3-cü Ordu komandanlığına müraciət edərək dərhal zəruri yardımın göndərilməsini xahiş etdi. Nuru paşanın fıkrincə, Bakı şəhəri üzərinə həlledici hücumun təşkili üçün aşağıdakı miqdarda qüvvə və cəbbəxana zəruri idi:

1. Ən azı 5 min nəfərlik qüvvə;
2. İki səhra batareyası və Ələt-Puta dəmir yolu xəttini atəşə tutan düşmən gəmilərindən mühafızə olunmaq üçün 4 ağır batareya;
3. Bir təyyarə dəstəsi;
4. Bir teleqraf bölüyü;
5. Bakı ətrafında olan toplar üçün mərmilər-Qüdrətli top üçün 10 min, Şnayder topları ücün 8 min, rus topları üçün 4 min, rus səhra topları üçün 6 min, habelə mauzer tüfənglər üçün 1000 sandıq, rus piyada tüfəngləri üçün isə 500 sandıq güllə;
6. Arxa xidmətinin təskili üçün 20-yə qədər avtomobil.

5 avqust döyüşündən sonra Bakı ətrafında bir müddət nisbi sakitlikdə keçdi. “Sentrokaspi” və ingilis qoşunları həmin gün qazanmış olduqları hərbi uğuru sonradan genişləndirməyə cəhd göstərirdilərsə də Qafqaz İslam Ordusu hissələri onlara lazımi cavab verir və eyni zamanda öz müdafiə mövqelərini möhkəmləndirməyə çalışırdılar. Yeni hücuma təşəbbüs göstərilmədən əsas diqqət qüvvələrin istirahətinə və bərpasına, cəbhə xəttinə əlavə hissə və bölmələrin gətirilməsinə yetirilirdi. 5 avqust döyüşündən sonra istər cəbhə komandanlığı, istərsə də İslam Ordusu komandanlığı belə bir qənaətdə idi ki, əlavə qüvvələr gətirilmədən Bakının azad edilməsi heç də asan olmayacaqdır. Ordu ərkani-hərb

rəisi Nazim bəyin Şərq cəbhəsinin durumu barədə yuxarıda toxunulan 6 avqust tarixli teleqramında Bakı ətrafına 15-ci firqənin bütünlüklə gətirilməsini məqsədəuyğun bilirdi.
İslam Ordusu komandanı Nuru paşa isə Bakı üzərinə hücumun uğurla başa çatdırılması üçün əlavə 5000 nəfərlik piyada qüvvələrinin, 2 səhra batareyasının, 4 ağır batareyanın, bir təyyarə dəstəsinin, bir telefon bölüyünün, 28 min ədəd top mərmisinin, 1000 sandıq mauzer gülləsinin, rus piyada tüfəngi üçün 500 sandıq güllənin, arxa xidmətinin təşkili üçün 20 yük avtomobilinin göndərilməsini məqsədəuyğun bilirdi.
Nuru paşa bu təklifi 3-cü Ordu komandanlığı qarşısında qaldırdı. Bu təklif daxilində xatırlanan 4 ağır batareyanın Ələtlə Puta stansiyaları arasında, dəniz sahili boyu yerləşdirilməsi nəzərdə tutulmuşdu. Çünki "Sentrokaspi" gəmiləri dənizdən bu sahəni çox ciddi nəzarət altında saxlayırdılar. Bu da həmin sahədə daşınmaların həyata keçirilməsini çox çətinləşdirirdi.
Qafqaz İslam Ordusunun möhkəmləndirilməsi üçün Şərq Ordular Qrupu komandanlığı tərəfindən bir sıra qərarlar qəbul edildi. Əvvəlcə, 9-cu Ordudan 107-ci Qafqaz alayının Azərbaycana göndərilməsi qərara alındı. Bu alayın şəxsi heyətinin sayı 1200 nəfər miqdarında idi. Alayda 12 ədəd pulemyot var idi. Avqust ayının 9-da bu alay Qarakilsədən Bakıya doğru hərəkətə başladı.
Ancaq Şərq Ordular Qrupu komandanı Xəlil paşa Bakının azad edilməsi üçün bir alayın kifayət etməyəcəyini yaxşı anlayırdı. Ona görə də Xəlil paşa 36-cı firqənin bir alayının və firqə topçu bölmələrinin Nuru paşanın sərəncamına göndərilməsi barədə 9-cu Ordu komandanına əmr etdi. Bundan başqa, Xəlil paşa Baş komandanlıq vəkaləti qarşısında Bakı cəbhəsinə yeni bir firqənin göndərilməsi barədə təklif qaldırdı.
Nuru paşa Xəzər dənizində "Sentrokaspi" gəmilərinin hakimliyinə son qoymaq barədə də lazımi işlərin görülməsinə çalışırdı. Türkiyədən su yolu ilə bura gəmilər gətirmək imkanı olmadığı üçün Nuru paşa təklif edirdi ki, bir neçə kiçik gəmi parça halında Azərbaycana gətirilsin və Kür çayı mənsəbində mövcud olan gəmi təmir zavodlarında yığılsın. Sonra da bu gəmilər Xəzər dənizində məqsədi üzrə istifadə edilsin. Ancaq Nuru paşanın bu təklifi həyata keçməməmiş qaldı.
Bakı cəbhəsinin yeni qüvvələrlə möhkəmləndirilməsi üçün eyni zamanda daxili imkanlardan da istifadə edillirdi. Bu məqsədlə Ağdaş alayının bölmələri Bakı ətrafına gətirildi və Şərq cəbhəsi komandanının sərəncamına verildi. Şərq cəbhəsi komandanı Qazax və Gəncə ətrafında toplaşmış olan milli qüvvələrin də Bakı ətrafına göndərilməsini xahiş etdi. Mürsəl bəyin fikrincə, həmin qüvvələrin Bakı cəbhəsinə gətirilməsi buradakı qüvvələrin əhval-ruhiyyəsinin qalxmasına müsbət təsir edərdi. Avqust ayının 6-da İslam Ordusu komandanlığından bildirilirdi ki, bir hücum bölüyü dörd tüfəng bölüyü və bir rus pulemyot bölüyü Gəncədən Ələtə yola salınmışdır. Elə həmin günlərdə Nuru paşa bildirirdi ki, 7 zabit və 234 nəfərdən ibarət olan və milli qüvvələrdən təşkil edilən bir dəstə Gəncədən qatarla Bakıya göndərilmişdir.
Bunlardan başqa, Bakı ətrafındakı kəndlərdən könüllülər toplanması üçün də iş aparılırdı. Bu məqsədlə Ləzgi süvari alayının bir bölüyünə və bir neçə türk zabitinə müvafiq tapşırıqlar verilərək Maştağa kəndinə göndərilmişdilər. Doğrudur, ilk günlər bu sahədə nəzərəçarpacaq nəticələr əldə edilmədi. Ancaq sonradan məlumdur ki, Bakı ətrafında toplanmış olan könüllülərdən xüsusi bir dəstə də təşkil edilmişdi.

Öz xatirələrində Nuru paşa belə yazırdı:

> Düşmən dəmir yolunun sərqində və Bakının qərb sırtlarındakı təhkimatı şimala uzadaraq Abşeron yarımadasını qərbə qarşı müdafiə üçün düz bir müdafiə xətti

təsisə çalışılırdı. Biz də həm bu təhkimata mane olmaq və həm də düşməni şimal və şərq-şimaldan işğal etmək üzrə Abseron yarımadasının şərq və şimalındakı islam kəndlərində təşkilat yaparaq Suraxanı, Sabunçu, Balaxanu Binəqədi tərəflərində cəbhə təşkili ilə düşməni icazə başladıq...

Bütünlükdə, 5 avqust döyüşündən sonra Bakının ətraf kəndlərinin Sentrokaspi-ingilis qoşunlarına qarşı fəallığı xeyli gücləndi. "Sentrokaspi" mənbələrinin verdiyi məlumata görə, avqust ayının 10-da Bakının ətraf kəndlərinin azərbaycanlı əhalisi kütləvi şəkildə "Sentrokaspi" hakimiyyətinə qarşı cıxışlara başladılar.

5 avqust döyüşü ərəfəsində ingilis qoşunlarının Bakıya az bir hissəsi gətirilmişdi. Bura göndərilməsi nəzərdə tutulan qüvvələrin daşınması bütünlükdə avqustun 17-də başa çatdı. Həmin gün general Denstervil də Bakıya gəldi və ingilis qoşunlarının fəaliyyətinə rəhbərliyi öz üzərinə götürdü. 39-cu briqadanın hissələrindən təşkil olunmuş bu dəstəyə Denstevilin özünün yazdığına görə, 1000-ə yaxın əsgər və zabit, bir neçə top və zirehli avtomobil daxil idi. "Sentrokaspi" diktaturasının rəhbərliyi cəbhənin ingilislərə tabe etdirilməyəcəyini, yalnız onların nümayəndələrinin cəbhə qərargahına daxil etdiriləcəyini bildirsələr də, əslində ingilislərin gəlməsi ilə Bakının qorunmasının təşkili onların nəzarəti altına keçdi. İngilis qoşunlarının komandanlığı iki məsələnin həllinə xüsusi diqqət yetirirdi. Birincisi, Bakı ətrafında müdafiə işlərinin düzgün qurulması, ikincisi isə "Sentrokaspi" qoşunlarının təkmilləşdirilməsi və gücləndirilməsi. Birinci məsələ ilə bağlı Denstervil hələ İranda olarkən ondan öncə Bakıya gəlmiş polkovnik Keyvort şəhər ətrafındakı müdafiə xəttinin və qurğularının müfəssəl xəritəsini hazırlayıb ona göndərmişdi. Xəritədən məlum olurdu ki, "Sentrokaspi" qoşunlarının müdafiə xətti əsasən daş qayalıqların və yüksəkliklərin üzərindən keçir. Yalnız Bayıl tərəfdə və şimal cinahda müdafiə xətti nisbətən düz ərazidən keçirdi. Müdafiə xəttinin ümumi uzunluğu 21 min yard idi. Keyvorta görə, müdafiə səngərlərində atəş nöqtələri çox pis təchiz olunmuşdu. Burada mövqe tutan döyüşçünün Qafqaz İslam Ordusu bölmələrinin hərəkətini sərbəst izləmək imkanı yox idi. Təhlükəsizliyə riayət etməli olsaydı bu döyüşçü yalnız güllə ata bilərdi. Qarşı tərəfi sərrast nişan almaq üçün səngərdən qalxmaq lazım idi ki, bu da təhlükəli idi. Polkovnik Keyvortun fikrinə görə, müdafiə səngərləri yaradılarkən orada etibarlı atəş mövqeləri yaradılmamışdı. Bu səngərlərdə pulemyotlardan da səmərəli istifadə etmək mümkün deyildi. Müdafiə xəttinə tikanlı məftillərin çəkilməməsi, səngərlər arasında əlaqələrin olmaması da ingilis zabitlərini razı salmırdı.

Bakı ətrafındakı müdafiənin təşkilində ingilis hərbçilərini narahat edən cidi məsələlərdən biri də Qafqaz İslam Ordusu mövqelərinin həddən artıq şəhərə yaxın olması idi. Onların fikrincə, İslam Ordusu mövqelərinin şəhərə bu dərəcədə yaxın olması Bakının mühüm obyektlərinin istənilən vaxt bombardman edilməsi təhlükəsini artırırdı. Xüsusilə də Bakının qərbindəki mövqelər şəhərə yaxın idi. Ona görə də ingilislər çox istəyirdilər ki, Qafqaz İslam Ordusu qüvvələrinin dayandıqları mövqelərdən bir qədər geri çəkilməyə məcbur etsinlər. Ancaq onu da yaxşı bilirdilər ki, bunu etmək elə də asan olmayacaqdır.

İstər Qafqaz İslam Ordusu qüvvələri, istərsə də "Sentrokaspi" və ingilis qüvvələri gələcək fəaliyyətləri üçün hazırlıq apardıqları bir vaxtda qarşı dayanan tərəflər arasında olan əlverişli mövqelərin ələ keçirilməsi üçün döyüşlər aparılırdı. Bu istiqamətdə qarşıya qoyulan planın mahiyyəti barədə Nuru paşa belə yazırdı:

Düşmən dəmir yolunun şərqində və Bakının qərb sırtlarındakı təhkimatı şımala uzadaraq Abşeron yarmadasını qərbə qarşı müdafiə üçün düz bir müdafiə xətti

təsisə çalışırdı. Biz də həm bu təhkimata mane olmaq və həm də düşməni şimal və şərq-şimaldan işğal etmək üçün Abşeron yarmadasının şərq və şimalındakı islam kəndlərində təşkilat yaparaq Suraxanı, Sabunçu, Balaxanı, Binəqədi tərəflərində cəbhə təşkili ilə düşməni icaaza başladıq. Bakı cəbhəsi şəhərə pək yaxın olduğundan hücum cəbhəsi olaraq burasını münasib görürdük. Hər nə qədər 5 avqust hücumu ilə düşmənin nəzəri bu cəbhəyə cəlb edilmiş idi. Düşmənlə aramızı ayıran dəmir yolu vadisinin umaclarının pək sərp bulunmasından burası hücuma pək müsaid deyildi. Ərazinin bu xüsusiyyətinə təhkimat əlavə edildiyi təqdirdə bu cəbhədən yapıla biləcək hücumun müvəffəqiyyətlə nəticələnməsi ehtimalı məşquq bulunurdu. Binaənəleyh burada təhkimat yapdırmaqdan sərfi-nəzər etdirmək üçün düşmənin nəzər-diqqətini cəlb edəcək vəchi ilə Biləcəri və Bakının şimal cəbhəsində tərəfimizdən fəaliyyətə keçilmiş idi. Təşəbbüslərimiz lazım olan təsiri yapmış və düşmən də Biləcəri stansiyası şimalındakı Yanardağ və daha şərqdəki Binəqədi sırtlarında və Biləcəri stansiyası ilə cənubdakı sırtlara əhəmiyyət verməyə başlamışdı.

5 avqust döyuşündən Bakının azad edilməsi üçün keçirilən həlledici döyüşədək 40 günlük bir fasilə vardı. Bakı üzərinə uğurlu hücumun təşkilinə hazırlıq üçün Nuru paşaya bu qədər vaxt lazım oldu. Əslində bu qədər vaxt yeni türk qüvvələrinin gəlməsinin ləngiməsi ilə bağlı idi. Ancaq bu müddət ərzində Nuru paşa bir an da olsa süstlük yaranmasına imkan vermədi. Onun göstərişi ilə Bakı ətrafında qüvvələrin qruplaşdırılması aparılır, müxtəlif manevrlər həyata keçirilir və mövqe döyüşləri davam etdirilirdi. Həlledici hücuma hazırlıq üçün lazım olan 40 gün ərzində keçirilən mövqe döyüşləri ilə Nuru paşa düşmən qüvvələrinə ciddi zərbə vurdu və onları daimi bir gərginlik altında saxlamağa müvəffəq oldu. Bütün bunlar isə şəhər üzərinə həlledici hücuma hazırlığın tərkib hissəsi kimi nəzərdə tutulmuşdu.

Avqustun 9-da Nuru paşa tərəfindən imzalanan əmrdə Bakı şəhəri üzərinə qəti hücum üçün hazırlığın davam etdirilməsi istiqamətində nələrin həyata keçirilməsinin vacib olduğu vurğulanırdı. Şəhər ətrafında cərəyan edən prosesləri və buradakı hərbi şəraiti ətraflı təhlil etdikdən sonra Ordu komandanı Nuru paşa belə bir qənaətə gəlmişdi:

1.Cəbbəxana mövcuduna nəzərən düşmənin təhkimat yapmasına mane olmaq və atəşlə düşmən batareyalarını kəşf və onları məhv etmək;

2.Əsgər, zabitan və əhalidən münasib və etimada şayan kimsələrin Bakıya göndərilərək düşmənin qüvvəti və əməlləri haqqında aydın məlumat toplamaq. Bunun üçün sərf olunacaq pul Ordudan veriləcək;

3.Gecə və gündüz fəalanə kəşf yaparaq düşmənin işğal və təhkim etməkdə olduğu mövqelərin və təhkimatın dərəcəsi haqqında daima məlumat almaq və bunu davam etdirmək;

4.Qitəatın təərrüz meylini mühafizə və tənmiyə etmək. Yaxında təərrüz üçün təzə qüvvələr gələcəyindən Bakıya təərrüzü-qətinin hansı tərəfdən icra edilməsi icab edəcəyi haqqında təhqiqat və kəşf icra etmək. Buna görə dörd səhra və iki ağır topçu batareyası üçün mövqe intixab etmək;

5.Bulunulan xətti təhkim edərək pək faiq bir təərrüzə qarşı əldə qüvvə bulundurmaq, bunun üçün cəbhənin qüvvətli təhkimi ilə az piyada və pulemyotla mühafizəsi və ərazinin təbii müdafiəyə əlverişli məhəllərində az qüvvə təxsisi və müqabil təərrüzlər üçün daha geridə toplu ehtiyat qüvvələri bulundurmaq.

Avqustun 10-da cəbhənin şimal sahəsində “Sentrokaspi” və ingilis qoşunları xeyli fəallıq göstərdilər. Gündüz saat 11 ətrafında 150-200 nəfərlik bir dəstə Maştağa kəndi

ətrafında qərar tutan Ləzgi süvari alayının mövqelərinə hücum etdi. Bu dəstənin təxminən 50 nəfəri süvari idi və 3-4 pulemyota malik idi. Ancaq Ləzgi alayının süvariləri hücumu uğurla dəf etdi və "Sentrokaspi" qüvvələrini geri çəkilməyə məcbur etdi. Həmin istiqamətdə təkrarlana biləcək növbəti hücumların qarşısının etibarlı alınması üçün Şərq cəbhəsi komandanlığı Maştağa ətrafındakı mövqeləri möhkəmləndirmək əmri verdi. Bu əmrə əsasən, Ləzgi süvari alayının bir bölüyü Xırdalana aparıldı. Əvəzində ora bir piyada bölüyü və bir pulemyot taqımı göndərildi.
Avqustun 10-da "Sentrokaspi" və ingilis qoşunlarının 150 nəfərlik süvari dəstəsi Hacı Həsən kəndi ətrafındakı mövqelərə də hücum etdi. Şimal qrupunun burada yerləşən qüvvələri bu hücumu da dəf etdilər. Ələt-Puta sahəsindəki mövqeləri bombalayan "Sentrokaspi" təyyarələrindən biri həmin gün sərrast atəşlə vurulub məhv edildi.
Avqustun 11-də Maştağa kəndi üzərinə hücum davam etdirildi. Düşmənin bu sahəyə xüsusi diqqət yetirməsini nəzərə alaraq 38-ci alayın 2-ci taboru ilə bir ədəd Şnayder dağ topu ora göndərildi. "Sentrokaspi" qüvvələrinin apardığı top atəşlərinə görə müəyyənləşdirilmişdi ki, onların 6 topu Bayılda, dörd ədəd topu Salyan qışlaları ətrafında və bir neçə topu da Biləcəri ətrafında yerləşdirilmişdi. Avqustun 11-də "Sentrokaspi" qoşunları komandanlığı Puta-Ələt sahəsinə desant çıxarmağa cəhd göstərdi. Gündüz saat 1-dən sonra 50-yə qədər silahlı şəhər yaxınlığında olan gəmilərdən sahilə çıxsalar da Cənub qrupunun tabeliyində olan Zirehli qatarın aramsız atəşlərindən sonra geri çəkilməyə məcbur oldular.
Avqust ayının 15-də "Sentrokaspi" və ingilis qoşun bölmələri Buzovna-Mərdəkan ətrafında fəallaşmağa cəhd göstətdilər. Maştağa dəstəsinin bölmələri onların qarşısını nəinki aldı, eyni zamanda Ləzgi alayının süvariləri tərəfindən içərisində iki ingilis hərbçisi olan bir minik avtomobili ələ keçirildi.
Avqustun 21-də Ordu komandanlığından Şərq cəbhəsi komandanlığına daxil olan məktubda bildirilirdi ki, yaxın vaxtlarda Azərbaycana yeni qüvvələr gətiriləcəkdir. Bunu Gəncəyə qısa müddətli səfər etmiş olam Şərq Ordular Qrupu komandanı Xəlil paşa da təsdiq etmişdi. Əlavə kömək kimi Azərbaycana yeni bir firqənin gətirəcəyi nəzərdə tutulurdu. Ona görə Ordu komandanlığına əmr edilirdi ki, irimiqyaslı döyüşlərdən hələlik imtina edilsin, qüvvələr əldə olan mövqelərdə möhkəmlənsin və düşmən haqqında ətraflı məlumatlar toplanması davam etdirilsin. Avqustun 22-də Ordu komandanlığından daxil olan yeni əmrdə isə Bakı üzərinə qəti hücuma hazırlıq məqsədi ilə bəzi tədbirlərin həyata keşirilməsi zəruri bilinirdi. Bu tədbirlərin içərisində Xırdalanın şimal-şərqində olan 311 və 364 rəqəmli təpələrin işğalı başlıca vəzifə kimi irəli sürülürdü. Əmrdə daha sonra gösrərilirdi ki, Fatmayıdakı qüvvələr Digaha doğru, Saraydakı qüvvələr isə Balaxanıya doğru irəliləməlidir. Ordu komandanlığı əmr edirdi ki, bu tapşırıqlar avqustun 23-də icra edilsin.
Ancaq avqust ayının 23-də yuxarıda adları çəkilən təpələr üzərinə hücum təşkil edilmişdi. Bu da onunla bağlı idi ki, avqustun 22-də Şərq Ordular Qrupu komandanlığında yüksək vəzifə tutan üç alman zabiti Bakı ətrafına gəldi və onlarla birlikdə yenidən Bakı üzərinə qəti hücumun həyata keçirilməsi imkanları öyrənilirdi. Almaniya tərəfi Rusiya ilə sövdələşməyə girsə də hiss edirdi ki, bu sövdələşmə gözlənilən nəticəni verməyəcəkdir. Buna görə də həmin sövdələşmədən istifadə etməklə bərabər, türklərlə də yaxınlığı qorumağa, heç olmasa Bakı üzərinə hücumda iştirak etmək imkanını əldə etməklə Bakı neftinə olan ümidini saxlamağa çalışırdı. Bakı ətrafına gəlmiş alman zabitlərindən biri qayməqam Parakuin Şərq Ordulat Qrupunun ərkani-hərb rəisi idi.

Avqust ayının 23-də türk və alman zabitlərindən ibarət müştərək qrup Bakı cəbhəsində hərbi şəraiti diqqətlə nəqərdən keçirdilər, hansı tədbirlərin necə icrası ətraflı şəkildə götür-qoy edildi. Elə həmin gün Bakıda saxlanılan avstriyalı əsirlər içərisindən bir zabit qaçaraq "Sentrokaspi" və ingilis qoşunlarının miqdarı, imkanları və yaxın planları barədə maraqlı məlumatlar gətirdi. Bu məlumatlardan sonra cəbhədəki şəraiti öyrənən alman-türk zabitləri qrupu belə qənaətə gəldi ki, ən yaxın vaxtlarda Bakı üzərində qəti hücum təşkil edilməlidir. Çünki Türkiyədən əlavə qüvvələr gələnə kimi "Sentrokaspi" və ingilis qoşunları da xeyli güclənə bilərdi. Ona görə də qərara alındı ki, 311 və 364 rəqəmli təpələr üzərinə hücumlar təxirə salınsın və şəhər üzərinə qəti hücumlar ərəfəsində burada əlavə itkilərə yol verilməsin.

Avqustun 25-də Ordudan gələn yeni bir əmrdə 311 və 364 rəqəmli təpələrin ələ keçirilməsi təkidlə tələb olunurdu. Hücum avqustun 26-da təşkil edilməli idi. Əmr alınan kimi dərhal da onun icrasına hazırlıq işləri başlandı. Nuru paşa öz xatirələrində adları çəkilən təpələr üzərinə hücum haqqında belə yazırdı:

> Bakı qərb cəbhəsi şəhərə pək yaxın olduğundan hücum cəbhəsi olaraq burasını münasib görürdüm. Hər nə qədər 5 avqust hücumu ilə düşmənin nəzəri bu cəbhəyə cəlb edilmiş idi. Düşmənlə aramızı ayıran dəmir yolu vadisinin yamaclarının pək sərp bulunmasından burası hücuma pək müsaid deyildi. Ərazinin bu xüsusiyyətinə təhkimat əlavə edildiyi təqdirdə bıı cəbhədən yapıla biləcək hücumun müvəffəqiyyətlə nəticələnməsi ehtimalı məşquq bulunurdu,
>
> Binaənəleyh burada təhkimat yapdırmaqdan sərfi-nəzər etdirmək üçün düşmənin nəzər diqqətini cəlb edəcək vəchiylə Biləcəri və Bakının şimal cəbhəsində tərəfimizdən fəaliyyətə keçilmiş idi. Təşəbbüslərimiz lazım olan təsiri yapmış və düşmən də Biləcəri stansiyası şimalından Yanardağ və daha şərqdəki Binəqədi sırtlarında və Biləcəri stansiyası civarı ilə cənubdakı sırtlara əhəmiyyət verməyə baslamısdı. Yanardağ sırtları düşmən cəbhəsinin önündəki Uktə nöqtəsi təşkil edilməkdə olduğundan fazla təhkim ediiməkdə idi. Bakıya hücumun vaxtında sol cinahımızı təhdid edəcək olan məzkur sırtların məni-təhkimi və burada münfərid vəziyyətdə bulunan düşmən dəstəsinin imhası məqsədiylə 24 avqust fəcir ilə (ıurada qeyri dəqiqlik var. Qeyd olunan döyüş avqustun 26-da baş verib –müəll.) birlikdə faiq qüvvələrlə Yanardağ və 31 avqust Binəqədi mövqelərini sürətli və şədid bir hərəkətlə əhatə və buralarını təhkimə məmur düşmən qüvvətini kamilən imha və bir bölük ingilisi imha elədik
>
> İşbu mövqe müvəffəqiyyətlər düşmənin mənəviyyatını sarsmış və əsgərlərimizin qüvveyi-mənəviyyatını artırmış idi.

İslam Ordusu komandanı Nuru paşanın bu təpələrin tutulmasına xüsusi diqqət yetirməkdə məqsədi Bakı üzərinə qəti hücum zamanı cəbhənin sol cinahının hər hansı bir təhlükəyə məruz qalmasının qarşısını almaq idi. Əks təqdirdə "Sentrokaspi" və ingilis qüvvələri həmin təpələrdə toplar yerləşdirməklə Biləcəri-Xırdalan ətrafından şəhərə doğru hücumun qarşısını saxlaya bilərdilər.

Bakı üzərinə həlledici hücumun gedişi də göstərdi ki, Yanardağ və Binəqədi yüksəkliklərinin ələ keçirilməsi incə düşünülmüş bir plan idi. Hazırlıq dövrü ərzində ən əhəmiyyətli mövqe döyüşü olan bu döyüşdə düşmənə ciddi zərbə vurulmaqla çox vacib yüksəkliklər nəzarət altına alındı.

Binəqədi ətrafındakı yüksəkliklərin əldən verilməsindən, habelə çoxsaylı itkilərin verilməsindən çox təəssüflənən general Denstervil elə həmin gün Sentrokaspi rəhbərlərinə məktub göndərdi və orada ingilis dəstəsinin rastlaşdığı çətinliklərə

toxundu. O xüsusi olaraq vurğuladı ki, Bakıya əlavə ingilis qüvvələri gətirilməyəcək və ona görə də Bakının əldə saxlanması üçün Bakı hökuməti də lazımi işlər görməlidir:

> Bakıdakı ingilis qoşununun daha çox dərəcədə qüvvətləndirilməsi gözlənilmir. Bu sabah Bakı qoşunlarının əksəriyyəti döyüş olacaq yerdən çəkilmişdir. Şübhəsiz çox yaxın vaxtlarda dəmir yolu xəttinə çəkilmək lazım gələcəkdir. Bu dəmir yolu xətti də tutulması hər an mümkün olan son müdafiə mövqeyidir. Hətta o zaman Bakı qüvvələri göstərmədiyi döyüş əzmini indi göstərərlərsə qəsəbə və liman yenə xilas oluna bilər. Lakin nə zaman güllə səsi eşidərkən geri çəkilərsə və daha çox müdafiə mövqeyi tutacaqlarsa zaman və can israfı olacaq. ən qoşunumla yaxşı bir nəticə əldə edilməsinə qədər müdafiəyə davam arzusunda isəm də döyüş niyyətində olmayan qoşunla bu işi görməyə çalışmaq tamamilə bihudədir.

Avqust ayının 31-də keçirilən uğurlu hücumla Qafqaz İslam Ordusu hissələrinin əlinə 6 pulemyot, xarab olmuş bir səhra topu, yük arabaları, 38 mətbəx arabası, xeyli güllə və mərmi keçdi. Başlıcası isə yenidən bir neçə strateji məntəqə “Sentrokaspi” və ingilis qüvvələrindən təmizləndi və bu qüvvələr yenidən Bakıya doğru sıxışdırıldı.
Elə avqustun 31-də axşam saat 8-də “Sentrokaski” Diktaturasının Hərbi Şurasının iclası keçirildi. Şəhərdə mövcud olan hər dürlü qurumların, o cümlədən Erməni Milli Şurasının nümayəndələri burada yaranmış vəziyyət barədə uzun-uzadı müzakirələr apardılar. Ancaq ağla batan bir çıxış yolunu tapa bilmədilər. Səhərisi gün general Denstervil də özlüyündə vəziyyəti ciddi götür-qoy etdi və belə qərara gəldi ki, müqavimət göstərmək əbəsdir. Artıq Qafqaz İslam Ordusunun hücumlarının qarşısını saxlamaq mümkün deyil. Bu qərarını açıqlamaq üçün şəhərdəki müxtəlif qurumların rəhbərlərini saat 4-də yanında keçiriləcək müşavirəyə dəvət etdi. Həmin müşavirədəki çıxışında general dedi:

> Yer üzündə heç bir qüvvə Bakını türklərdən qoruya bilməz. Şəhərin müdafiəsinin davam etdirilməsi yalnız süqut məqamının çatması vaxtının uzadılması demək olardı. İndiyə kimi yalnız mənim əsgərlərim döyüşürdü. Hər döyüşdə də mənim əsgərlərimin igidliyinə baxmayaraq türklər üstün gəlirdilər. Özü də yalnız ona görə ki, yerli qoşunlar bizimkilərə kömək göstərmişdi. Mən razı ola bilmərəm ki, mənim adamlarımın həyatı mənasız yerə qurban verilsin. Biz bura gəlmişdik ki, türklərə qarşı vuruşmaqda sizinkilərə kömək edək. Gəlməmişdik ki, sizin yurddaşlarınızın məsxərəsi altında özümüz müharibə aparaq... Mən sizə məsləhət görərdim ki düşmən yanına dərhal nümayəndə heyəti göndərin və müəyyənləşdirin ki, türklər hansı şərtlərlə sizinlə sülh bağlamağa razı olacaqdır. Şəhərdən qadınların çıxarılmasına imkan verən əlverişli şərtlərin əldə edilməsi sizin üçün çətin olmayacaqdır. Heç olmasa bununla siz türklərin və azərbaycanlıların şəhəri silah gücünə tutmasındansa hadisələrin gedişinə daha yaxşı istiqamət vermiş olardınız.

Avqustun 31-dəki irimiqyaslı döyüşdən sonra itirilmiş mövqelərin bərpa edilməsi üçün təyyarələr də havaya qaldırıldı. Ancaq hərbi təşəbbüs artıq Qafqaz İslam Ordusunun əlinə keçmişdi. Ona görə də "Sentrokaspi” qoşunlarında yaranmış müsbət dəyişikliklər barədə general Denstervilin yazdıqları da nəticəsiz qaldı. Sentyabr ayının 1-də Şimal qrupunun qüvvələri hücumu davam etdirdilər. Artıq elə günün birinci yarısında Digah və Məhəmmədli kəndləri, habelə Digahın cənubundakı 345 rəqəmli təpə ələ keçirildi. “Sentrokaspi” və ingilis qoşunları böyük bir vahimə içərisində Balaxanı və Ramanı kəndləri istiqamətində geri çəkildi. Bu istiqamətdə gedən döyüşlərdə Şimal qrupunun

bölmələri bir düşmən təyyarəsi vurdular. Həmin təyyarə Salyan qışlası yaxınlığında süquta uğradı.
Bakı ətrafında hərbi təşəbbüsün bir dəfəlik Qafqaz İslam Ordusunun əlinə keçdiyi üçün Ənvər paşa da şəhərin ələ keçirilməsini sürətləndirməyi təkid edirdi. Bir tərəfdən Bakı ilə bağlı beynəlxalq çəkişmələrin kəskinləşməsi, digər tərəfdən də ingilislərin şəhərə əlavə qüvvələr gətirə biləcəyi Ənvər paşanı ehtiyatlandırırdı və ən yaxın vaxtlarda məsələnin həllini tələb edirdi. Onun Bakı ilə bağlı son fikirləri belə idi:

> Bakıya ingilis qüvvələrinin gəlməsi və Bakının ingilislər tərəfindən savunulması ilə bu cəbhədəki əsgəri durum tamamilə dəyişmişdir. Rus bolşevik hökumətinin kəndilərinə tərk edilən Bakını ingilislərdən alaraq oradakı qaynaqlardan kəndilərinin istifadə etməsinə yetəcək qüvvələr yoxdur. Halbuki ingilislər Bakıda daha bir müddət buraxılırsa bu cəbhədə iyidın-iyiyə yerləşəcəklər və cəbhəni ələ keçirilməz bir hala qoyacaqlardır. Bu sürətlə Bakıda yeləşən ingilislərin Azərbaycanın çoxunu ermənilərə verərək bir ermənili vücuda gətirməyə, bununla gərək Qafqaz və İran girişmələrin, gərəksə də gürcü müstəqil hökumətini təhdidə çalışacaqları şübhəsizdir. Bu mühtəməl duruma görə hər halda Bakıya təərrüz edilməsi, ingilislərlə erməni bolşeviklərin buradan atılması lazımdır.

Bakı ətrafında hərbi təşəbbüsün bir dəfəlik Qafqaz İslam Ordusu əlinə keçdiyi üçün Bakıya əlavə ingilis qüvvələrinin göndərilməsinin qarşısının alınması üçün Ənvər paşa tələb edirdi ki, 9-cu Ordudan İrana, Təbriz, Qəzvin və daha cənub məntəqələrə qoşun çıxarılsın və buradakı ingilis qüvvələrinə bir təhlükə yaradılsın. Bununla da ingilislərin bölgəyə əlavə qüvvə gətirmək imkanı olsa da onu Bakıya deyil, İrandakı vəziyyətin düzəldilməsinə istiqamətləndirsinlər.
Osmanlı ordusu Baş komandanlıq vəkaləti tərəfindən Bakının yaxın vaxtlarda ələ keçirilməsi üçün eyni zamanda buradakı qüvvələrin möhkəmləndirilməsi üçün də konkret tədbirlər həyata keçirirdi. Bu məqsədlə 15-ci firqənin 9-cu Ordudan alınaraq Qafqaz İslam Ordusunun tərkibinə verilməsi və Bakı ətrafına gətirilməsi qərara alındı Həmin firqənin Bakı ətrafına yetişməsi ilə şəhər üzərinə qəti hücum başlanmalı idi. Bu hücuma rəhbərlik etmək üçün Şərq Ordular Qrupu komandanı Xəlil paşa da Bakı ətrafına gəlməli idi. 15-ci firqənin Bakı ətrafına gətiriləcəyi və onun gəlməsi ilə şəhər üzərinə hücum üçün hansı işlərin görülməli olacağı, qüvvələrin qruplaşdırılmasında hansı dəyişikliklərin ediləcəi barədə Nuru paşa sentyabr ayının 1-də belə bir əmr imzaladı:

> 1.Bakı cəbhəsini təqviyə etmək üzrə 9-cu Ordudan 15-ci firqə qərargahı ilə 56-cı və 106-cı piyada alayları ilə bir qüdrətli, bir 105 mm-lik şkada dağ qaubitsa və bir 105 mm-lik səhra qaubitsa batareyası gəlməkdədir;
> 2.Bakıya təərrüzü-qəti qitəatın vürudunun ardınca yapılacaqdır;
> 3. 364 rəqəmli Yanardağ-Biləcəri stansiyasi xətti əğləbi-ehtimal hər iki firqə arasında xətti-fasilə olacaqdır. Yanardağ 15-ci firqəyə aid olmaq üzrə 15-ci firqə işbu xəttin şərqində bulunacaqdır;
> 4. Təərrüzə hazırlıq olmaq üzrə xüsusati-atiyənin icrası lazımdır. İcraları ayrıca Orduya bildirilməlidir:
> a) mürəttəb süvari alayı və Dikaya Diviziya süvariləri həmən Mərdəkana gələrək Ləzgi alayı ilə birləşəckdir. Hamısı Zehni bəyin komandasına veriləcəkdir;
> b)dağınıq qitəat birliklərinə iltihaq edəcəkdir. 15-ci firqə əmrində 106-cı, 56-cı və 38-ci alaylar bulunacaqdır;

c) Gəncədə və Kürdəmirdə mövcud olan rus səhra və dağ mərmiyyatı kamilən sövq olunur. Buradan alınaraq icab edən məhəllərə sövq ediniz. Rus səhra topları üçün top başına mindən çox atım olduğundan bilxassə təərrüzü-qəti məntəqəsində bunlardan çoxluca istifadə edilməmişdir;

d) 5-ci firqə qərargahı Qobu və 15-ci firqə qərargahı Masazırda olacaqdır. İndidən bu mövqelərdə Güzdək arasında telefon irtibatı tənzim və islah olunmalıdır. Teleqraf xətlərinin təsisi üçün Ordu teleqraf müdiri göndərildi;

e) əfrad təərrüzü-qəti gününə qədər yaxşı iaşə olunmalı və cəbhə gerisində ehtiyat ərzaq bulundurmalıdır.

15-ci firqənin gəlib çatması ilə şəhər ətrafındakı qüvvələr nisbətində və buradakı hərbi şəraitdə yarana biləcək dəyişikliyi, yeni qüvvələrin gəlməsi ilə qəti hücuma hazırlıq yollarını öyrənmək üçün İslam Ordusu ərkani-hərb rəisi Nazim bəy də cəbhə xəttinə göndərilmişdi. Nazim bəy 15-ci firqənin də cəlb olunacağı qəti hücumun təşkili barədə öz mülahizələrini ümumiləşdirərək sentyabrın 3-də Güzdəkdən Ordu komandanı Nuru paşaya göndərdi. Nazim bəyin də qənaəti belə idi ki, Bakı üzərinə qəti hücum iki isiqamətdən həyata keçirilməlidir. Şimaldan və qərbdən. Bu iki istiqamət arasındakı xətt isə Biləcəri və Hacı Həsən arasından keçməli idi. Nazim bəyin fikrincə, hər istiqamətdə bir firqə yerləşdirilməsi, onların ehtiyat qüvvələrinin ayrılması və hücum planının da qüvvə bölgüsü üzərində qurulması məqsədəuyğun idi. Artıq bu bölgəyə uyğun olaraq hücuma hazırlığa da başlanmışdı. Xüsusən də, toplar üçün yerlər seçilir, cəbbəxana, səhiyyə obbyektlərinin yerləşdiriləcəyi məntəqələr müəyyənləşdirildi. Maştağada 10 min nəfər üçün ərzaq ehtiyatı yaradılması planlaşdırılırdı. Qəti hücumdan bir gün əvvəl Bakı üzərinə şərqdən və şimal-şərqdən süvarilər və yerli əhalidən təşkil edilmiş könüllü dəstələrlə hücum edilməsi təklif edilirdi. Bakı üzərinə qəti hücuma kimlərin rəhbərlik etməsi barədə də Nazim bəy öz mülahizələrini Nuru paşa ilə bölüşdürürrü. Onun fikrincə, 15-ci firqənin Süleyman İzzət bəyin komandanlığı altında qalması, 5-ci firqəyə rəhbərliyin Cəmil Cahid bəyə tapşırılması məqsədəuyğun idi. Şərq cəbhəsi komandanı kimi yenə də Mürsəl paşanın qalmasını, Şərq cəbhəsi ərkani-hərb rəisliyinə isə müvəqqəti olaraq öz namizədliyini təklif edirdi. 5-ci firqənin ərkani-hərb rəisi Rüşdü bəyə isə təchizat - təminat məsələlərinin tapşrılması barədə vəsatət qaldırırdı. Nazim bəy öz qənaətlərinə onu da əlavə edirdi ki, Kütülamare və Trablus komandanlarının (müvafiq olaraq Xəlil paşa və Nuru paşa nəzərdə tutulurdu –M.S.) hücum günü cəbhəyə gəlib döyüşü müşahidə etmələri şəxsi heyətin əhval-ruhiyyəsini xeyli qaldırardı.

Nazim bəyin qənaətləri elə həmin gün İslam Ordusu komandanlığı tərəfindən öyrənildi və dərhal da ona münasibət bildirildi. Ordu komandanlığı hərəkat şöbəsinin verdiyi cavabdan aydın olurdu ki, firqələrə və cəbhəyə kimlərin rəhbərlik etməsi barədə verilən təkliflərə etiraz yoxdur. Ancaq Nuru paşa Bakı ətrafına müşahidəçi kimi deyil, şəhər üzərinə hücuma birbaşa rəhbərlik edəcək şəxs kimi gələcəkdir. Bunu həm də Şərq Ordular Qrupu komandanı Xəlil paşa ondan tələb edirdi. Bütünlükdə vurğulanırdı ki, Bakı üzərinə hücumun komandanlığının kimə həvalə olunacağı Xəlil paşa ilə Nuru paşa Bakı ətrafına gələndən conra müəyyənləşdiriləcəkdir.

15-ci firqənin Bakıya gəlməsi ərəfəsində ingilis qüvvələrinin əlavə kömək alacaqları barədə xəbərlər yayılmaqda idi. Bu xəbərlərə görə, Bakıda olan 39-cu ingilis briqadasının başqa bir taborunun yaxın günlərdə Bakıya gələcəyi gözlənilirdi.

Bu məlumatın dəqiqləşdirilməsi qeyri-mümkün olduğundan Qafqaz İslam Ordusu rəhbərliyi belə bir köməyin gəlməsini istisna etmirdi. Ona görə 15-ci firqənin Bakıya yetişməsi və qəti hücuma başlanması səbirsizliklə gözlənilirdi. 15-ci firqənin hələ də

Bakı ətrafına yetişməməsi ilə bağlı narahatlığını əvvəlcə Nazim bəy sentyabrın 4-də Nuru paşaya çatdırdı. Bununla bağlı, Gəncəyə göndərdiyi teleqramında Nazim bəy gizlətmird ki, 15-ci firqə yetişənəcən ingilislərə kömək gələrsə onda Bakını almaq xeyli mümgül olacaqdır. Həmin məzmunlu başqa bir teleqramı isə elə həmin gün Nuru paşa Şərq Ordular Qrupu komandanı Xəlil paşaya göndərdi və o da öz növbəində 15-ci firqənin hələ də yetişməməsinə narahatçılığını bildirdi.

Ordu ərkani-hərb rəisi Nazim bəy Nuru paşaya göndərdiyi teleqramında Mürsəl paşa ilə birlikdə döyüş sahəsinin öyrənilməsini davam etdirdiklərini açıqlayırdı. Gəldikləri birgə qənatə barədə həm Nazim bəy, həm də Mürsəl paşa ayrı-ayrılıqda Nuru paşaya məlumat verdilər. Onların hər ikisinin qənaəti belə idi ki, qəti hücumdan əvvəl Biləcərinin cənub-qərbindəki köşə ələ keçirilməlidir. Belə olduqda düşmənin müdafiə xətti yarılmış olardı və şəhəri qorumaq onlar üçün xeyli çətinləşərdi. Mürsəl paşa teleqramında əlavə edirdi ki, Balaxanı, Ramanı, Sabunçu və Suraxanıda olan düşmən dəstələrinin ayrı-ayrılıqda mühasirə olunub əsir götürülməsi və ya məhv edilməsi barədə Ordu komandanlığından alınan əmrin icrası mümkünlüyü də öyrənilməkdədir.

Sentyabrın 5-də isə həm Nazim bəy, həm də Mürsəl paşa Balaxanı, Ramanı, Sabunçu və Suraxanı məntəqələrində olan düşmən dəstələrinin məhv edilməsi məqsədəuyğunluğu barədə öz fikir və mülahizələrini ayrı-ayrılıqda Nuru paşaya göndəridilər. İstər Nazim bəy, istərsə də Mürsəl paşanın gəldiyi qənaət eyni idi və onların heç biri adları çəkilən məntəqələrdə döyüş keçirilməsinə lüzum görmürdülər. Onların fikrincə, bu döyüşlərin keçirilməsi xeyli itkilərə yol aça bilərdi. Digər tərfədən bu döyüşün keçirilməsinə elə bir ehtiyac da yox idi. Çünki bu məntəqələr Bakıdan xeyli uzaqda idilər. Şəhər üzərinə qəti hüum başlayan günü həmin məntəqələrdə aldadıcı bir döyüş başlamaqla oradakı düşmən qüvvələrinin diqqətini cəlb etmək və onların Bakıya köməyə gəlmələrinin qarşısını almaq olardı. Əvəzində isə Biləcəri ətrafındakı yüksəkliyin ələ keçirilməsi zəruri sayılırdı. 15-ci firqənin 106-cı alayı yetişən kimi həmin yüksəklik üzərinə hücumun başlanması mümkün hesab edilirdi.

Sentyabrın 6-da 15-ci firqə qərargahı Ağstafaya çatdı və oradan da dərhal qatarla Gəncəyə yola düşdü. Elə həmin gün saat 10-da Gəncə dəmir yolu stansiyasında bu diviziya qüvvələrinin qarşılanması oldu. Dərhal da 15-ci firqə Bakı ətrafına yola salındı. 15-ci firqə qüvvələrinin Bakı ətrafına nə vaxt çatacağını və döyüşə hazırlıq üçün nə qədər vaxt lazım gələcəyini nəzərə almaqla Nuru paşa sentyabrın 7-də Xəlil paşaya bildirirdi ki, qəti hüuma sentyabrın 12-də başlamağı planlaşdırır. Bu qərar hələ ilkin qərar idi və onun haqqında Nuru paşa əvvəlcə Xəlil paşaya məlumat verir və onun razılığını almaq istəyirdi. Çünki Bakı üzərinə hücumun nə vaxt başlanacağı çox gizli saxlanılırdı və xüsusilə də almanların bundan xəbər tutacağından ehtiyat edilirdi. Nuru paşa Xəlil paşaya göndərdiyi teleqramında onu da bildirirdi ki, almanların diqqətinin azdırılması üçün Bakı üzərinə hücumun sentyabırn 15-də başlanacağı barədə xəbərlər yayılmasına çalışacaqdır.

Ancaq sentyabrın 7-si tarixli başqa bir sənəddə Nuru paşa Bakı üzərinə son hücumun ayın 11-dək həyata keçirilməsini məqsədəuyğun bilirdi və Şərq cəbhəsi komandanlığından da buna müvafiq olaraq hazırlıq işlərini tamamlamaq tələb olunurdu. Şərq cəbhəsi komandanlığına o da bildirilirdi ki, 15-ci firqə Bakı ətrafına çatan kimi cəbhə komandanlığının tabeçiliyinə daxil olacaqdır. Mürsəl paşa isə cəbhənin komandanı kimi iki firqənin fəaliyyətinə rəhbərlik etməli idi.

Qəti hücumun başlanması tarixi ilə bağlı Nuru paşanın əmri Şərq cəbhəsi komandanlığında ciddi şəkildə təhlil olundu və 15-ci firqə qüvvələrinin ayın 10-dan tez

Bakı ətrafına yetişməyəcəyi nəzərə alınaraq ayın 11-nə kimi hər hansı bir hücumun başlanmasının qeyri-mükkünlüyü Ordu komandanlığına çatdırılırdı.
Sentyabırn 9-na keçən gecə Şərq cəbhəsi komandanlığına Nuru paşanın yeni bir əmri daxil oldu. Əmrdə bildirilirdi ki, Bakı şəhəri üzərinə qəti hücuma keçmək üçün qərar verilmişdir və bu hücuma ümumi rəhbərliyi öz üzərinə götürmək üçün Nuru paşa artıq Gəncədən yola düşmüşdür. Hücum planının təfərrüatının Nuru paşanın Bakı ətrafına çatmasından sonra açıqlanacağı bildirilirdi.
Sentyabrın 10-da Şərq Ordular Qrupu komandanı Xəlil paşa, Qafqaz İslam Ordusu komandanı Nuru paşa, Azərbaycan korpusunun komandanı Əliağa Şıxlinski və digər zabitlər Bakı ətrafına gəldilər. Cəbhənin vəziyyəti ilə tanışlıqdan və komandirlərin mülahizələri dinlənildikdən sonra İslam Ordusu komandanı Bakı şəhəri üzərinə qəti hücuma son hazırlıqla bağlı sentyabrın 10-da əmr imzaladı. Həmin əmr belə idi:

1.Bakıya qəti təərrüz üçün aşağıdakı hazırlıqlar yapılacaq və yapıldığı 11.9.334 (1918) axşam saat 21-ə qədər mənə bildiriləcəkdir;

2.İndiyə qədər Şərq cəbhəsi komandanlığı əmrində bulunmuş olan qitələr 5-ci, 15-ci firqələr və Cənub qrupu halında doğruca mənə mərbut olacaqlar;

5-ci firqə - 9-cu, 10-cu, 13-cü və 56-cı piyada alayları ilə dağ obus batareyası 13 səhra topu, 4 rus dağ topu, 2 ədəd 105-lik səhra obus topu, 10 topdan ibarət 3 qüdrətli dağ batareyası, iki Osmanlı Şnayder topu ilə piyada alaylarının rəfaqət üçün 6 Şnayder dağ topundan mürəkkəb olacaqdır. Bu Şnayderdən 4-ü Digahdadır və həmən cəlb olunmalıdır.

15-ci firqə - 38-ci və 107-ci piyada alayları ilə mürəttəb 2-ci süvari alayı, Azərbaycan süvari alayları, Dikaya diviziya ilə milis taborlarından və iki 105 mm-lik səhra obus, iki rus Şnayder dağ, yeni gələcək 15-ci firqə qüdrətli dağ batariyasından və piyada rəfaqət topçusu olaraq Digahdakı 4 krup dağ topundan və Maştağadakı krup dağ taqımından mürəkkəbdir.

Cənub qrupu -4-cü piyada alayının (Azərbaycan təşkilatındandır) 1-ci və 2-ci taborları ilə iki süvari bölüyü, Azərbaycan süvarilərindən bir bölük, iki krup dağ, iki səhra topundan mürəkkəbdir.

Səngəçalda tərk olunan 106-cı alaya mənsub bölük 5-ci firqə tərəfindən həmən alayına iltihaq ediləcəkdir.

3. 106-cı piyada alayı iki taboru ilə ehtiyatım olaraq Hökmalının cənubundakı sırtların gerisində buluncaqdır. Bu alaydan bir tabor 5-ci firqəyə veriləcək və buna müqabil 26-cı tabor 25-ci tabor məntəqəsini iki bölüklə işğal edəcəkdir.

4. 5-ci firqə sağ cinahı ilə Hacı Həsən – Ermənikənd istiqmətində irəliləmək üzrə bu xəttin cənubundakı 1500 metrlik imtidadda düşmən cəbhəsinə təərrüz edəcək və təərrüzünü Bakının şərq kənarına qədər davam etdirəcəkdir. Heybət stansiyasından, dəniz sahilindən Volçi Vorotaya qədər qüdrətli və fədakar bir kəşf qolu göndərəcək və düşməni oradan işğal və mümkünsə təpəni zəbt edəcəkdir. Firqə qərargahı Qobuya nəql olunacaqdır.

5. 15-ci firqə böyük qismi ilə Biləcərinin şərqindən sağ cinahı ( Biləcəri köyünün şərq kənarı – Ermənikənd) istiqamətində olmaq üzrə təərrüz edəcək və təərrüzünü Ermənikənd üzərindən Bakıya davam etdirəcəkdir. Əqsami-sairəsi ilə süvari və milislər Sabunçu-Balaxanı məntəqəsindəki düşməni təsbit və Hövsandan Əhmədli və Kişlə istiqamətində təərrüz edəcəkdir.

Sumqayıtdakı süvari bölüyü də cəlb olunmalıdır. Yalnız yüzbaşı Fəxri əfndi əmrindəki milislər və 8 nizamiyyə atlısı sahili vəzifəsiylə yerlərində qalacaqdır.

Əhatəli şəkildə hazırlanmış olan bu əmrdə daha sonra deyilirdi ki, firqələr biri digərinin irəliləməsini gözləmədən hərəkət etməlidirlər. Yalnız cinahlarının təmas xəttində lazım və mümkün olardısa topçular bir-birinə atəşləri ilə kömək etməli idilər. Hücumun günü və başlanacağı saat əmrdə göstərilməmişdir. Bu barədə əlavə olaraq firqələrə bildirilməli idi. Ancaq əmrdə qeyd edilmişdi ki, düşmənin ilk müdafiə xətti gecə ikən ələ keçirilməlidir. Ona görə də zabitlər və əsgərlər hücum edəcəkləri sahəni əvvəldən yaxşıca müçahidə etməli və öyrənməli idilər, onlara həvalə olunan vəzifələri özləri üçün dəqiqləşdirməli idilər. Firqə komandanlarına göstəriş verildi ki, ayın 11-də tabeçiliklərində olan hissə və bölmələrin komandirlərini toplasınlar və verilən tapşırıqları ərazi üzərində dəqiqləşdirsinlər. Bütün cəbhənin iaşı təminatı 5-ci firqəyə həvalə olunmuşdu. Cənub qrupunun komandiri yenidən Cəmil Cahid bəy təyin olundu. Qısa vaxt ərzində bu vəzifəni icra etmiş olan Həlim Pərtöv bəy isə 4-cü Ağdaş alayına komandir təyin edildi.
Sentyabrın 12-də Ordu komandanı Nuru paşa qəti hücuma hazırlıqla bağlı yeni bir əmr verdi. Birinci əmrlə müqayisədə bu əmr qüvvələrin qruplaşdırılmasında ciddi dəyişiklikləri nəzərdə tuturdu. Beləki, 107-ci alay da 15-ci firqənin tabeliyindən alındı və Ordunun ehtiyatına verildi. Habelə, qaubitsa, qüdrətli və Şnayder batareyaları da tam şəkildə 5-ci firqənin tabeliyinə verildi. 15-ci firqənin tabeliyində 38-ci piyada alayı və bir də yuxarıda adları çəkilən milli qüvvələr qalırdı. Ağır silahlardan isə yalnız 6 ədəd krup topu firqədə saxlanılmışdı Nəticədə, 15-ci firqə xeyli zəifləmiş oldu. Hətta 15-ci firqə gəlməmişdən əvvəl onun sahəsində mövcud olan Şimal qrupunun qüvvələri Ordu komandanlığının 12 sentyabr tarixli əmrindən sonra 15-ci firqənin tabeliyində qalan qüvvələrdən çox idi. Süleyman İzzət bəyin hesablamalarına görə, Şimal qrupunun tərkibində 10 piyada taboru, biri nizami olmaq şərtilə 3 süvari alayı var idisə, indi 15-ci firqənin tərkibində 3 piyada taboru, krup topu və milli könüllü taborlarla, milli süvari alayları qalmışdı. Əslində, bu istiqamətdəki qüvvələrin əsasını Azərbaycan milli qüvvələri təşkil edirdilər Bütünlükdə, Bakı üzərinə qəti hücumda iştirak edən Azərbaycan qüvvələrinin sayı xeyli çox idi. Mövcud olan məlumata görə, Bakı üzərinə son hücumda 8000-ə yaxın Osmanlı qüvvəsi ilə 6-7 min arasında Azərbaycan qüvvələri iştirak edirdi.
Həlledici hücum ərəfəsində Qafqaz İslam Ordusu komandanlığı bütün gün ərzində həm təchizat-təminat məsələləri ilə məşğul olur, həm də ərazini öyrənir, həm də kəşfiyyat işlərini davam etdirirdi. Bununla həm düşmənin imkanları dəqiqləşdirilir, həm də onun mənəvi-psixoloji durumu öyrənilirdi. Sentyabrın 11-də Bakıda məlumat toplayıb geri qayıdan Əmənulla əfəndinin verdiyi məlumata görə, şəhər ətrafında qalan ingilis qüvvələrinin miqdarı 900 nəfər idi. Erməni taborlarında fərarilik artmışdı, düşmənin əsas qüvvələri Heybət, Biləcəri və Balaxanı cəbhəsində toplanmışdı. Bundan əlavə bildirilirdi ki, Bakıya L.Biçeraxov tərəfindən 500 nəfərlik bir qüvvə göndərilib.
Bakı üzərinə gözlənilən həlledici hücumu dəf etmək üçün ingilis qoşunlarının komandanlığı da hazırlıq işlərini davam etdirməkdə idi. Baxmayaraq ki, Qafqaz İslam Ordusu komandanlığı qəti hücumun nə vaxt başlanacağını gizli saxlamağa çalışırdı, ancaq ingilis qoşunları komandanlığı bu barədə dəqiq məlumat əldə edə bilmişdi. General Denstervilin yazdığına görə, sentyabrın 12-də Qafqaz İslam Ordusundan milliyyətcə ərəb olan bir hərbçi qaçıb onların tərəfinə keçdi və hücuun sentyabrın 14-də başlayacağı, əsas zərbənin qərb tərəfdən vurulacağl barədə məlumat verdi.

> Bu zabit əsil hücumun müdafiə xəttinin hansı hissəsindən ediləcəyini söyləməklə bərabər, bu hücumun sol tərəfimizə qarşı ola biləcəyi qənaətində olduğunu ifadə

etdi. Bu zabitin verdiyi digər məlumatlar əsasən belə idi: Bakı qarşısındakı türk qüvvəsi 5-ci Qafqaz tüməni ilə 15-ci tümən və 36-cı Qafqaz tüməninin bir qismindən təşkil edilmişdi. Zabitin təxmininə görə, bu qüvvənin sayı 7000 idi. Bütün süvari qeyri-müntəzəm və piyadanın böyük bir qismi müntəzəm idi. Türklər silah altına almış olduqları qeyri-müntəzəm piyadalardan istifadə etməyə hələ başlamamışdılar. Bu zabitin zənnincə, bu türk qüvvəsində otuz iki səhra topu və dağ topu vardır. Lakin zabit ancaq dörd top görmüşdü. Biləcərinin qərbində toplanmış olan 5-ci Qafqaz tüməni türk xəttinin sağına hərəkət etmiş və zabitin qənaətinə görə, 15-ci tümən sola hərəkət etməkdə idi. İstihbarat işləri fəna olan türklər Bakıda 3000 ingilis, 4000 rus, 6000 erməni olduğunu zənn edirdilər və ermənilərin müqavimət göstərəcəyinə əmin olduqlarından qəsəbəni zəbt etmək niyyətində idilər. Bu dəfə hücum uğursuzluqla nəticələndiyi təqdirdə 10-cu Qafqaz tüməni əlavə güc olaraq köməyə göndəriləcəkdilər .

Bu məlumatı alandan sonra general Denstervil həlledici döyüşə hazırlıqla bağlı nəzərdə tutulan bir sıra tədbirlərin icrasının məqsədəuyğunluğuna yenidən baxdı. Həlledici hücum ərəfəsində Bakı şəhərində çox mürəkkəb bir şərait hökm sürürdü. Şəhərin müsəlman əhalisi Qafqaz İslam Ordusunun gəlişini səbirsizlikıə gözləyirdisə, eser, menşevik və daşnak fəalları, Erməni Milli Şurasının üzvləri qorxu və təlaş içərisində idilər. Əhalinin əhval-ruhiyyəsini qaldırmaq üçün məqsədyönlü şəkildə təbliğat aparılır, şəhəri mühasirə edən Qafqaz İslam Ordusunun yalnız bir alay yarımdan ibarət olduğu və onların da tezliklə məğlub ediləcəyi barədə bəyanatlar verilirdi. Əhali kütləvi səfərbərlik adı altında kazarmalara doldurulur, səngərlərə göndərilirdi. Az qala küçəyə çıxan hər bir adam, o cümlədən xəstələr, qocalar, yeniyetmələr, şikəstlər, hətta əlini, ayağını, bir gözünü itirənlər belə “Sentrokaspi” ordusuna gətirilirdi. Yerli rus əhalisinin nümayəndələri erməni-daşnak elementləri tərəfinfən Qafqaz İslam Ordusuna qarşı səngərlərə göndərilməsinə heç də hamışlqla razı deyildilər.

Çaşqınlıq içərisində fəaliyyətlərini artıq ciddi şəkildə tənzimləmək iqtidarında olmayan “Sentrokaspi” rəhbərləri yaxınlaşan süqutun qarşısını almaq üçün bütün şəhəri səfərbər etmək istəyirdilər. Lakin onlar Bakının azad edilməsi istiqamətində Qafqaz İslam Ordusunun qətiyyətinin, əzmkarlığının qarşısını artıq almağa qadir deyildilər.

Bakı şəhərinin azad edilməsi

Bakı şəhəri üzərinə son hücum ərəfəsində Nuru paşanın əmri ilə döyüşdə iştirak edən qüvvələr arasında təmas xətti bir də dəqiqləşdirildi. Cənub qrupu ilə 5-ci firqə arasındakı təmas xətti Puta körfəzindən, 283 rəqəmli təpədən və Puta stansiyalarından keçməli idi. Zirehli qatar 5-ci firqənin tabeliyinə verilirdi. 5-ci firqə ilə 15-ci firqə arasındakı təmas xətti isə Xırdalanın Yanardağ-Biləcəri-Erməniкənd istiqaməti üzrə müəyyənləşdirilmişdi.

Böyük hazırlıq işlərindən sonra Bakı üzərinə həlledici hücumun nə vaxt başlanacağını Qafqaz İslam Ordusunun bütün zabitləri böyük intizarla gözləyirdilər. Sentyabr ayının 13-də, Bakı üzərinə ilk hücumdan 39 gün sonra 5-ci Qafqaz firqəsi ərkani-hərb rəisi Rüşdü bəy son hücum ərəfəsində keçirdiyi hisslərini belə ifadə edirdi:

Bunu ərz etməliyəm ki, 5-ci Qafqaz firqəsi ona Vətən əqsamının istihlas və istirdadında Azərbaycanda olduğu qədər müşkülata, qanlı və ələmli zayiata uğramamışdı. Həm din və həm həm irqini qurtarmaq üçün mənsub olduğu

millətin və ordunun qəhrəmanlıq dastanını yerə düşürməmək üçün zabitan və əfradımız böyük bir fərağati-nəfislə çalışmış, qiymətli qanlarını axıtmış və bilafütur müəzzəz canlarını da fəda etmişlərdi.

İstiqlalına aşiq Anadolu türkü nəhayət qonşu və qardaş millətin istiqlalını da həmin mücadilələr ilə təmin və azərbaycanlıların əlinə tövdü və təslim etmişdi.

Bakısız Azərbaycan başsız bir vücuddur. Onsuz bir işə yaraşmazdı. Binaənəleyh Azərbaycan Cümhuriyyəti və istiqlaliyyətini behəmehal Bakı ikmal və itmam edəcəkdi. 5-ci Qafqaz firqəsi bunu əldə etmək üçün avqust bidayətlərində günlərcə boğaz-boğaza düşmənlə müharibə və mücadilə etdi. Fəqət məalesəf Bakının alınması 39 gün qədər təəhhür etdi. Artıq bu da bu dəfə behəmehal Osmanlı silahları ilə alınacaqdı.

Bakı üzərinə həlledici hücum sentyabrın 14-nə, şəhər üzərinə ilk hücumdan keçən 40-cı günə təyin edildi. Qafqaz İslam Ordusu komandanlığı bu 40 gün ərzində görülən hazırlıq işlərini uğurla hücum üçün kifayət sayırdı. İstər zəruri ehtiyatların yaradılması, istər qoşunların qruplaşdırılması və yerləşdirilməsi, istərsə də icra edilən digər tədbirlər şəhərin ələ keçirilməsinə obyektiv bir zəmin yaratmışdı.

General Denstervilin yazdığına görə, senytyabrın 14-də Bakı üzərinə hücum ərəfəsində "Sentrokaspi" və ingilis qoşunlarının müdafiə mövqeləri aşağıdakı kimi qurulmuşdu: Sol cinahda, Bibi-heybət mədənləri önündəki yüksəkliklərdə Şimali Stafford alayının 60 nəfərlik "A" bölüyü dayanmışdı. Təxminən 100 nəfərdən ibarət olan bir erməni taboru bu ehtiyat qüvvə kimi saxlanılmışdı. Qurd qapısı yüksəkliklərində 2 ədəd pulemyotu olan rus dəstəsi mövqe tutmuşdu. Şimali Stafford alayının 100 nəfərlik bir bölməsi "A" bölüyünün dayandığı istiqamətdə ehtiyat qüvvə kimi göndərilmişdi. Qurd qapısı yüksəkliklərinin şimal tərəfində, 800 addımlıq sahədə Şimalı Stafford alayının "B" bölüyü dayanmışdı. Hacı Həsən kəndi ilə üzbəüz səngərlərə qoyulmuş erməni hissələri bu bölüklə yanaşı idi. Həmin sahəyə bir qaubitsa batareyası və bir ədəd üç düyməlik topu gətirilmişdi. Bundan 1.5 mil aralı olan ağ ev yaxınlığında bir erməni taboru ehtiyat qüvvə kimi saxlanılmışdı. Cəbhənin sol cinahının qərargahı da burada yerləşirdi. Ona polkovnik Veqsuraba rəhbərlik edirdi. Sol cinahın sol qanadını, Hacı Həsən kəndindən Biləcəriyə kimi olan sahəni Biçeraxov dəstəsinin 600 nəfərlik bir qüvvəsi qoruyurdu. Biləcəri stansiyası Uorçester taborunun 2 bölüyünün nəzarəti altında idi. Biləcəridən Dərnəgülə qədər olan sahədə isə taborun digər bir bölməsi dayanmışdı. Dərnəgül gölünün cənub tərəfinin müdafiəsi bir erməni taboruna, bu gölün şərq tərəfi isə ingilis qoşunlarının 4 ədəd pulemyotu olan pulemyot komandasına tapşırılmışdı. Bu müdafiə xəttinə Şimali Stafford alayının 50 nəfərlik bir bölüyü ehtiyat qüvvə kimi verilmişdi. Bakı-Binəqədi yolundan 2 mil şərqə tərəf, 39-cu ingilis briqadasının qərargahının yerləşdiyi binanın yaxınlığında isə Varvik taborunun 100 nəfərlik bir bölüyü ehtiyatda saxlanmışdı. Sağ cinah səhra topçusunun 8-ci batareyası və bir qaubitsa batareyası ilə möhkəmləndiirlmişdi. 2 ədəd ingilis zirehli avtomobili Biləcəridə, 3-cüsü isə şəhərdə ehtiyatda dayanmışdı. Sağ cinahın sağ qanadını 500 nəfərlik erməni dəstəsi üç düyməlik top batareyası, 3 ədəd rus zirehli avtomobili və bir eskadron süvari ilə qorumalı idi. Onlar bu istiqamətdən Suraxanı ətrafında daim fəaliyyətdə olan türk və Azərbaycan süvarilərinin qarşısını saxlamalı idilər. Bunlardan başqa, bir sıra yerli silahlı bölmələr də var idi ki, onlar heç bir əmrə tabe olmurdular və istədikləri istiqamətdə hərəkət edirdilər. "Sentrokaspi" ordusuna general Dokuçayev, ingilis qoşunlarına isə polkovnik Keyvort rəhbərlik edirdi. Müdafiə işlərinə ümumi nəzarət "Sentrokaspi"nin hərbi naziri Baqratuni ilə ingilis generalı Denstervil tərəfindən həyata keçirilirdi.

Biçeraxovun qoşun qüvvələri müdafiə mövqeyinin sağ məntəqəsinin sol hissəsini tuturdular və bu hissəyə xəttin şərqə dönərkən təşkil etdiyi guşə də daxil idi. Bu qoşunların sağında Biləcəri stansiyası ilə kəndindən keçən və təqribən iki mil uzunluğunda olan bir xətt Uorçestr taborunun "A" və "C" bölцkləri tərəfindən tutulmuş və eyni taborun "B" bölüyü də yuxarıdakı iki bölüyün məntəqə ehtiyatını təşkil edirdi. Varvik taboru böyük duzlu gölə qədər uzanır və bu taborun 4-cü bölüyü (kapitan Boşel komandasında 100 nəfərlik) ehtiyatda durmaqla Biləcərinin təqribən 1,5 mil cənubunda və Bakı-Binəqədi yolu üzərindəki 39-cu sancağın qərargahında idi. Şimali Statford taborunun "D" bölüyü (mayor Havlok komandası altında 50 nəfər) də sancaq məntəqəsinin təqribən iki mil qərbində ehtiyatda idi. Müdafiə mövqeyinin sağ məntəqəsində bir top batareyası ilə 8-ci ingilis batareyası daxil olmaqla dörd səhra batareyası vardı. Varvik taborunun sağında böyük duzlu gölün cənub sahili erməni taboru tərəfindən tutulmuş və bu gölün şərqindəki keçiddə Donstar qüvvəsinin dörd ədəd pulemyot yerləşdirilmiş zirehli avtomobili dayanmışdı. Donstar qüvvəsinə məxsus zirehli avtomobillərdən iki ədəd Biləcəridə və bir ədədi də Bakıda ehtiyatda idi. Düşmənin atlı alayları tərəfindən təhdid edilən xəttin sağ yanı təqribən 500 erməni piyadası, bir süvari bölüyü, bir batareya və üç rus zirehli avtomobili qoruyurdu. Göstərdiyimiz yerləşim vəziyyətində yerli qoşunların böyük bir hissəsi hesaba alınmamışdır. Çünki bunlar ingilislər üçün naməlum idi, onlar aldıqları əmrə əsla itaət etmirdilər .

Sentyabr ayının 13-də saat 17.11-də Hacı Həsən kəndinin qərbindəki müşahidə məntəqəsində Nuru paşa Bakı üzərinə həlledici hücumu başlamaq barədə döyüş əmrini imzaladı. Həmin əmrdə deyilirdi:

1.Bakıya qarşı qəti təərrüz Allahın lütfü ilə 14.9.334 (1918) sabahı başlanacaqdır;

2. 5-ci Qafqaz firqəsi piyadası ilə 14.9.334 sabahı saat 2-də hazırlıq mövqeyindən Hacı Həsən köyü cənubundan Sarıhacılı kilsə istiqaməti-ümumiyyəsində irəli hərəkətə başlayaraq basqınla düşmənin ilk kənar mövqeyini zəbt edəcək və burada yerləşəcəkdir. İşbu xətt yalnız bomba və süngü ilə zəbt olunacaqdır;

3. Düşmənin ilk mövqeyinin zəbtini mütəaqib qitəat ikici xətti də eyni zamanda zəbt edəcəkdir. Daha irəliləmək üçün ortalığın ağarması və topçu atəşinin himayəsini bəkləyəcəklər və irəliyə kəşf qolları sürəcəkdir. Qazanılan ilk xəttə lüzumu qədər makinalı tüfəng yerləşdirilməlidir;

4. Topçu, piyadamızın irəliləməsi əsasında atəş etməyəcəkdir. Düşmən piyada təərrüzümüzü kəşf edər-etməz təqviyyə qitəatının irəliləməsini mənn üçün düşmənin ikinci, üçüncü və geridəki təkərrüb yollarını və topşu mövqelərini atəş altına alacaqdır. Buna görə indidən atəş təqsim olunmalıdır. İlk düşmən xətti basqınla zəbt olunacağından gecəliklə bu xəttə topçu əndaxt etməyəcəkdir. Ortalıq ağarar-ağarmaz piyadamızın daha da irəliyə təərrüzünü himayə edəcəkdir. Piyada rəfaqət topları hər an irəliləməyə hazır olacaqdır.

5. Ordu ehtiyatı olan 106 və 107-ci alaylar hər an hərəkətə hazır bulunacaqlar. Alay, komandanları yanında, Ordu tərəssüd civarında bulunacaqlar.

6. 5-ci firqə ortalıq ağarınca zirehli qatarı Heybət stansiyasına doğru irəlilədərək Volçi Vorota məntəqəsindəki düşmən atəşini üzərinə cəlb edəcək və firqənin sağ cinahını mühafizə edəcəkdir.

7. 15-ci firqənin nisfilleyndən etibarən Biləcəri, Balaxanı, Suraxanı və Əhmədli istiqamətlərində qüvvətli kəşf qolları və topçu atəşilə qarşısındakı düşməni təsbit edəcək və Əhmədlini zəbt edəcəkdir.

Beləliklə, Bakı şəhəri üzərinə qəti hücum üçün artıq hər şey hazır idi. İndi yalnız onun icrası qalırdı. Verilmiş döyüş əmri, müəyyənləşdirilmiş vəzifələr tamamilə real idi. Hiss olunurdu ki, ilk hücumda düçar olunan uğursuzluğa yol verməmək üçün bütün ehtiyat tədbirlər nəzərə alınmışdı. Döyüşün necə başa çatması təkcə Nuru paşanın bir hərbçi kimi təşkilatçılıq qabiliyyətini deyil, həm də türk əsgərinə bəslənilən inamın nümayişinə çevrilməli idi. Bu inamın qırılmaması üçün Nuru paşa qətiyyətli olduğu qədər də ehtiyatlı, diqqətlə düşünülmüş bir hücum planı hazırlamışdı. Ola bilsin ki, burada hətta ifratçılığa da yol verilmişdi. Hissə və bölmələrin az qala hər addımı sığortalanmış, ikiqat, üçqat mühafizə elementləri nəzərdə tutulmuşdu. Ələ keçirilən bir döyüş xəttində kifayət qədər möhkəmləndikdən sonra növbəti döyüş xətti üzərinə hücum edilməli idi. Bundan başqa, cinahların mühafizəsinə, ehtiyat qüvvələrin ayrılmasına xüsusi diqqət yetirilirdi. Şəxsi heyətin əhval-ruhiyyəsi də mübariz ruhda köklənmişdi.

5-ci firqə ərkani-hərb rəisi Rüşdü bəy xatirələrində yazırdı ki, o gecə heç kim yatmamışdı. Döyüşçülər 5 avqusat döyüşünün intiqamını almaq üçün hücum saatının çatmasını səbirsizliklə gözləyirdilər. Ancaq Rüşdü bəy onu da əlavə edirdi ki, qarşıda ağır bir döyüş dayanırdı. Qurd Qapısı üzərindən hücuma keçmək elə də asan deyildi. Bu sərt təpəliklərə dırmaşmaq üçün yalnız ensiz bir yol var idi. Qoşunlar isə daha geniş bir cəbhədə hərəkət etməli idilər. Onlar gecə ikən Şubanı yüksəkliklərindən enməli, dəmir yolunu keçdikdən sonra sərt təpəliklərə dırmaşmalı idilər. Hələ gündüz ikən bu təbii maneələri adlamaq çox böyük zəhmət tələb edirdi. Gecə isə tam səssizliyə riayət edilməsi düşmənin duyuq düşməsinə yol verilməməsi lazım idi.

Görülən ciddi hazırlıq işlərinin nəticəsi idi ki, gecə saat 3-də düşmənin ilk müdafiə xətti ələ keçirilri. 9-cu alay isə sərt yüksəkliklərdə yerləşən düşmən xəttini saat 3.30-da ələ keçirdi. Adları çəkilən alayların hücumu elə bir sürətlə həyata keçirilmişdi ki, general Denstervil özü də heyrət içində qalmışdı. O yazırdı:

> İnanılası mümkün deyildi ki, cəbhəmizin ən güclü sahəsi düşmən tərəfindən belə asanlıqla ələ keçirildi. Xüsusilə də bütün qoşunlar gözlənilən hücum barədə xəbərdar edildikləri bir vaxtda. Nə qədər inanılası mümkün olmasa da bu, məhz belə idi. Bütün üstünlüklərin bizim tərəfimizdə olmasına baxmayaraq hücumun elə ilk anlarından darmadağın edilən belə qoşunlarla heç nəyə ümid etmək mümkün deyildi və bizim indi yeganə vəzifəmiz geri çəkilməyi təmin etmək və qoşunların düzgün təxliyyəsini təşkil etmək üçün düşmən hərəkətlərini ləngitmək idi.

Sonradan uğurla inkişaf etdirilən hücum nəticəsində bütün istiqamətlərdə, bütün döyüş sahələrində düşmənin müqaviməti qırıldı. İngilis qüvvələrinin komandanlığı gün ərzində baş verən döyüşlərdən sonra Qafqaz İslam Ordusunun hücamlarının qarşısının alınmasının qeyri-mümkünlüyü haqqında qəti əminlik əldə edildi. Ona görə də axşam saat 8-də ingilis qüvvələrinə geri çəkilmək əmri verildi. General Denstervilin yazdığına görə, ingilis qüvvələrinin 40 gün Bakıda mövcudlu]u ərzində 180 nəfər ölmüş, yaralanmış və itkin düşmüşdü. Axşam saat 10-da bütün ingilis qüvvələri "Kryuger" gəmisinə yükləndilər. Biçeraxovun dəstəsindən olan bölmələr isə öz gəmilərinə yüklənib Petrovskiyə doğru istiqamət götürdülər. İngilis qüvvələrinin geri çəkilməsi "Sentrokaspi" liderlərini yenidən çaş-baş vəziyyətə saldı. Onların şəhəri tərk etməsinə yol verməmək üçün axşam "Sentrokaspi" rəhbərlərindən Lyamlin və Sadovski "Kryuger" gəmisinə, general Denstervilin yanına gəldilər. Sadovski təmsil etdiyi hökumət adından generala belə bir bəyanat verdi:

> Mən sizə Bakı hökumətinin yazılı qərarını gətirmişəm. Orada sizə xəbərdarlıq

olunur ki, geri çəkilməniz satqınlıq kimi qiymətləndiriləcək və buna qarşı müvafiq tədbirlər qəbul ediləcəkdir. Əgər siz öz qoşunlarınızı artıq mövqelərdən çıxarmısınızsa, onda siz onları dərhal geri göndərməlisiniz. Türklər hələ şəhərə girməmişlər və biz döyüçü davam etdirmək fikrindəyik.

General Denstervil də ona belə cavab verdi:

Zəhmət olmasa, Bakı hökumətinin nəzərinə çatdırın ki, mənim getməyim heç də satqınlıq deyil. Çünki mənim niyyətlərim bütünlüklə sizin hökumətə bəlli idi. Mənim qoşunlarım əvəz edilmədən, kömək almadan 16 saat ərzində bütün günü döyüşdə içtirak etmişdir. Həmin vaxt sizin qoşunlar isə xeyli zəif döyüşürdülər. Belə bir vəziyyətdə mən öz əsgərlərimin həyatını qurban verməkdən imtina edirəm. Qoşunlarımın dərhal ön mövqelərə qaytarılması barədə sizin tələbinizə gəldikdə isə bildirirəm ki, əvəz edilmədən 16 saat atəş altında qalan əsgərlərin döyüşü davam etdirməsi fiziki cəhətdən mümkün deyil. Belə bir əmri mən verməyəcəyəm və təcili olaraq yola düşürəm.

Sentyabr ayının 14-ü gecəsi ingilis qoşunları Bakını tərk etdilər. Bununla da “Sentrokaspi” rəhbərləri ümid bağladığı əsas qüvvələrdən məhrum oldular. Ayın 14-də Bakı şəhəri Qafqaz İslam Ordusu tərəfindən ələ keçirilməmişdisə də, artıq onun taleyi həll olunmuşdu.

Sentyabrın 14-də gedən döyüşlərin nəticələri ümumən Qafqaz İslam Ordusu komandanı Nuru paşanı razı saldı. O öz təəssüratını belə bölüşürdü.

Hər iki qol verilən əsas daxilində vəzifəsini tamamilə tətbiq və ifa etmiş və fəcirdən əvvəl Bakıya hakim olan qərb sırtları kamilən hissələrimizin əlinə keçmiş idi. Bu hərəkətdə əsil hücum qolumuz pək az zayeatla hədəfinə vasil olduğu halda şimal qolumuz düşmənin qismi-küllüsünü üzərinə çəkdiyindən fazla zayeata məruz qalmış idi. O günün axşamına qədər Bakının qərb-şimalındakı düşmən mövqeləri düşməndən təmizlənmiş idi. Bol pulemyot, tüfəng və zirehli avtomobil ilə mücəhhəz olan düşmənlə sokak müharibəsi yapıldığı təqdirdə fazla zayeat veriləcəyi nəzər diqqətə alınaraq gecə şəhər xaricində keçirilmiş və yalnız topçu atəşi ilə düşmənin irkap içləkləri ilə müqavimət nöqtələri döyülməklə iktifa edilmiş idi.

Sentyabr ayının 14-ü üçün qarşıya qoyilan tapşırığını yerinə yetirən Qafqaz İslam Ordusu qüvvələri həmin günün gecəsini istirahət etməklə bərabər, həm də son döyüşə hazırlıqda keçirdilər.

Bakı şəhəri üzərinə hücumu sona çatdırmaq üçün Nuru paşa sentyabr ayının 14-də axşam saat 20.30-da Ordu üzrə 100 saylı əmri imzaladı. Bu əmrlə Ordu komandanlığı sentyabr ayının 15-də firqələrin qarşısında dayanan vəzifələri müəyyənləşdirdi. Əmrdə deyilirdi:

1.Yarın sabahleyn hərəkəti-təərrüzəyə davam olunaraq Bakı şəhəri zəbt olunacaqdır.

2. 5-ci Qafqaz firqəsi Volçi Vorotaya qarşı sağ cinahını təmin etməklə bərabər, böyük qismi ilə 56-cı alay məntəqəsindən sol cinahı Ermənikəndin cənubundan keçmək üzrə təərrüz edərək şəhərin Çorni qorod deyilən neft şəhərinə qədər qərb qismini zəbt edəcəkdir. Firqə kəndisinə təxsis edilən Bakı qismində bir alay piyada ilə caddə və meydanların lüzumunda müdafiəsi üçün iki dağ batareyası bulunduracadır. Firqənin əqsami-sairəsi şəhərin zəbtindən sonra Bakının şimal-şərqindəki və Xırdalan-Bakı caddəsinin hər iki tərəfində toplu bulunacaqdır.

3. 15-ci firqə sağ cinah ilə Ermənikəndi təmizləmək üzrə şimal və şərqdən

Bakının Çorni qorod qismini zəbt və işğal edəcəkdir. Firqə bu qismin mühafizəsi üçün bir alay və bir batareya təxsis edəcək və mütəbaqi əqsamını şəhərin xaricində toplu bulunduracaqdır.

4. 15.9.334 (1918) sabahı piyada təərrüzü ortalıq ağardıqdan topçu ilə ihzar olunduqdan sonra yapılacaqdır. Çox topçu atəşinin bir nöqtədə təmərküz etdirilməsi diqqət nəzərindən uzaq tutulmasın.

5. Şəhərin zəbtini mütəaqib bəlli başlı caddə və meydanların atəş altına alınması üçün makinalı tüfənglər və daha mühüm yerlərə toplar yerləşdirilməlidir.

Ordu komandanının bu əmrinə əsasən, firqə komandirləri özlərinin sentyabr ayının 15-i üçün döyüş əmrini imzaladılar. Həmin əmrlərdə firqə komandirləri tabeçiliklərində olan hissələrin və dəstələrin qarşısında dayanan vəzifələri dəqiqləşdirdilər.

Sentyabr ayının 15-də Qafqaz İslam Ordusu qüvvələri uğurlu hücumu davam etdirdilər və qarşıya qoyulmuş vəzifənin həllinə daha da yaxınlaşdılar. Çıxış yolunun qalmadığını görən Sentrokaspi rəhbərliyi Qafqaz İslam Ordusu rəhbərliyi ilə əlaqə yaradılması üçün yollar aramağa başladı. Bu məqsədlə Sentrokaspi rəhbərliyi sentyabr ayının 14-də axşam saat 8-də İranın Bakıdakı konsulu Saədülvüzəradan Bakı üzərinə hücumun dayandırılması üçün vasitəçilik etməsi xahiş olundu. Bu təklifi alandan sonra Saədülvüzəra iki nəfəri məktub və ağ bayraqla döyüş mövqelərinə göndərdi. Lakin onlar Qafqaz İslam Ordusu komandanlığı ilə əlaqə yarada bilmədilər. Səhəri gün, yəni sentyabrın 15-də İran konsulu yenidən vasitəçilik missiyasının icrasını davam etdi. O əvvəlcə təklif etdi ki, Bakıdakı hakimiyyətin, onun hərbi qüvvələrinin və şəhər ictimaiyyətinin nümayəndələri onunla birlikdə ağ bayraq qaldırıb döyüş xəttinə yollansınlar. Lakin "Sentrokaspinin" nümayəndələri bunu qəbul etmədilər. Belə olanda Saədülvüzəra özü döyüş xəttinə yollandı, həmin məntəqədəki "Sentrokaspi" qoşun bölməsinin rus komandirini yanına alaraq xüsusi avtomobillə Qafqaz İslam Ordusu mövqelərinə doğru hərəkət etdi .

Saat 10.30-da üzərində İran bayrağı ilə böyük ağ bayraq olan bir avtomobil şəhərdən çıxıb 13-cü piyada alayının mövqelərinə yaxınlaşdı. Qafqaz İslam Ordusu qüvvələri ilə əlaqə yaratmaq üçün bu avtomobildə İran konsulu ilə "Sentrokaspi" ordusunun qərb cəbhəsinin komandanı gəlmişdi. Onlar şəhərin artıq təslim olmağa hazır olduğunu bildirdilər və təslim şərtlərinin müzakirəsi üçün Bakı hökuməti ilə İran, Amerika, İsveç, Danimarka konsulları və bir ingilis zabitindən ibarət nümayəndə heyətinin qəbul edilməsini xahiş etdilər. 5-ci firqə komandanı bu barədə dərhal Nuru paşaya məlumat verdi və nümayəndə heyətinin gətirilməsi üçün 5-ci firqə ərkani-hərb rəisi yarbay Rüşdü bəy də avtomobillə şəhərə göndərildi. Ordu komandanlığına göndərdiyi raportunda firqə komandanı onu da bildirirdi ki, şəhərin kənarı və giriş yolları artıq nəzarət altına alınmışdır. Qoşunların şəhərə girməsi hələlik dayandırılmışdır.

Danışıqları aparacaq heyətin gətirilməsi üçün şəhərə yollanan Rüşdü bəy burada xoşagəlməz vəziyyətin şahidi oldu. Onun yazdığına görə, məğlubiyyət anının çatdığını hiss edən ermənilərin şəhərdəki vəhşiliyi artmışdı. Onlar talanlarla məşğul olur, azərbaycanlılara və İrandan gəlmiş müsəlman işçilərə divan tuturdular. Azərbaycanlıların müqavimət göstərməsi isə küçə döyüşlərinin genişlənməsini artırmışdı. Rüşdü bəy və onu müşayiət edən şəxslər Danimarka konsulluğuna yollandılar. Danimarka konsulunun köməyi ilə danışıqlarda iştirak etməli olan digər şəxslər də toplandıqdan sonra nümayəndə heyəti bir neçə avtomobildə 5-ci firqə qərargahına yollandı. Rüşdü bəy yazırdı ki, Danimarka konsulluğunun yerləşdiyi

binanın pəncərələrindən şəhərin kənarı boyunca düzülən İslam Ordusu qüvvələri aydınca görünürdü.
5-ci firqə qərargahında danışığa gəlmiş nümayəndə heyəti ilə aşağıdakı məsələlər müzakirə edildi:
-Şəhərin qeyd-şərtsiz təslim edilməsi;
-Şəhərdəki düşmən qüvvələrinin təslim olması;
-Top və silahların, binaların və digər obyektlərin təslim edilməsi;
-Silah anbarlarının, ərzağın, avtomobillərin, yük maşınlarının, zirehli avtomobillərin, təyyarələrin və digər hərbi mülkiyyətin təslim edilməsi.
Bu şərtlər irəli sürülməklə bərabər, əhalini sakitliyə çağıran, onların həyatları və mallarının təhlükəsizliyi üçün əmin olmalarına zəmanət verən vərəqələr şəhərdə yayılması üçün nümayəndə heyətinə verildi.
15-ci firqənin cəbhəsi önündəki sakinlərdən də üç nəfər günortadan sonra 38-ci alay komandanlığına gələrək təslimə hazır olduqlarını bildirdilər. Atəş dayandırılan kimi əhali dəstə-dəstə ağ bayraqlarla gəlib təslim olduqlarını bildirirdilər. Saat 15-də 38-ci alayın bölmələri Qara şəhərdə əsirləri və silahları toplamağa başladılar. İlk cəhddə 800 tüfəng, 6 pulemyot toplanmaqla iki zabit və 80 əsgər əsir götürüldü.
5-ci firqə qərargahına gəlmiş nümayəndə heyəti ilə aparılan danışıqlardan sonra bu firqənin bütün hissələrinin şəhərə girməsinə artıq lüzum qalmadı. Yalnız 56-cı alay Bakının Qara şəhərədək olan hissəsinin asayişini öz nəzarəti altına götürdü. Xəzər dənizindən gözlənilə biləcək təhlükənin qarşısının alınması üçün Zığ və Bayıl burunlarının hər birində bir batareya yerləşdirildi. Bundan sonra 15-ci firqənin yerdə qalan üzvlərinin Əhmədli yüksəkliklərində, 5-ci firqə qüvvələrinin isə Bakının qərbində toplanması əmr edildi.
Bakı şəhəri tutularkən 17 erməni, 9 rus, 10 gürcü zabiti ilə 1151 erməni, 383 rus, 4 ingilis, habelə 113 nəfər müxtəlif millətdən olan əsgər əsir götürüldü.
Bakıda asayışın yaradılması və normaq həyatın təmin edilməsi məqsədilə İslam Ordusu komandanlığının əmri ilə Cəmil Cahid bət Bakı mövqe komandanı təyin edildi və onun dərhal Hacıqabuldan Bakıya gəlməsi əmr edildi.
Beləliklə, Bakı şəhəri bütünlüklə Qafqaz İslam Ordusunun nəzarəti altına düşdü. “Sentrokaspi” Diktaturasının şəhərdəki dayaqları olan qüvvələr gəmilər vasitəsilə qaçıb canlarını qurtardılar. Qaçmaq imkanı olmayanlar isə təslim oldular. Əllərində silah küçələri dolaşıb azərbaycanlılara divan tutmaqda olan bir çox ermənilər gizlicə öz əməllərindən əl çəkmirdilər. Bununla belə, Azərbaycandan ayrı salınmış olan Bakı şəhəri tarixdə ilk dəfə müstəqil Azərbaycan dövlətinin paytaxtına çevrildi.
Nuru paşa Bakının azad edilməsi ilə bağlı Gəncədəki Azərbaycan hökumətinə, habelə Ənvər paşaya, 3-cü və 9-cu Ordu komandanlarına da teleqram göndərdi. Azərbaycan hökumətinin rəhbərlərinə göndərilmiş teleqramda Nuru paşa müxtəsər olaraq bildirirdi ki, Bakı şəhəri iyun ayının 15-də saat 9-a qalmış hissələrimiz tərəfindən zəbt edildi. Nuru paşa başqa bir teleqramında isə Azərbaycan hökumətindən xahiş edirdi ki, Bakıda asayişin təmin edilməsi üçün Gəncədən poislər göndərilsin.
İslam Ordusu komandanının Osmanlı dövləti Baş komandan vəkili və hərbiyyə naziri Ənvər paşaya göndərdiyi teleqramda isə deyilirdi:

> Bakı şəhəri 36 saatlıq şiddətli müharibədən sonra 15-ndə saat 9-da zəbt olunub. Bütün hissələrin, xüsusən minbaşı Fəhmi bəyin komandasındakı 56-cı alayın qəhrəmanlığı şayani-zikrdir.

3-cü və 9-cu Ordu komandanlarına göndərilən teleqramlar da həmin məzmunda idi.

Qafqaz İslam Ordusu komandanlığı şəhərə girməzdən əvvəl qoşunların rəsmi-keçidinin keçirilməsini qərara alındı. Nuru paşa Mürsəl paşaya çatdırdı ki, sabahı gün Xəlil paşa ilə birlikdə Puta stansiyasından hərəkət edəcəkdir. O göstəriş verdi ki, qoşun hissələri Bakının şimal ətəklərində, münasib bir yerdə cəmləşdirilsin və orada rəsmi-keçid təşkil edilsin.

Sentyabrın 16-da səhər tezdən Qafqaz İslam Ordusunun Bakının asayişində dayanan hissələrindən başqa qalan qüvvələrinin rəsmi-keçidi keçirildi. Bu rəsmi-keçid Qırmızı Qışla adlanan məntəqədə təşkil edildi. Rəsmi-keçiddə Xəlil paşa, Nuru paşa, Əliağa Şıxlinski, Həbib bəy Səlimov, Azərbaycan hökumətinin bir sıra üzvləri də iştirak edirdilər. Rəsmi-keçid bitdikdən sonra adları çəkilən şəxslər, qonaqlar və qoşun hissələri şəhərə daxil oldular. Generallar və hörmətli şəxslər at belində idilər. Onların ardınca isə nizami şəkildə piyada, topçu, süvari və köməkçi hissələr hərəkət edirdi. Şəhər əhalisi küçələrə çıxaraq Qafqaz İslam Ordusunun döyüşçülərini salamlayırdı. Mövcud olan bəzi məlumatlara görə, qoşunlar və onların pişvazına çıxmış xalq Xəzər dənizi sahilindəki böyük meydana ("Sahil" bağı nəzərdə tutulur) toplaşdılar. Nuru paşa toplaşanlar qarşısında çıxış etdi. O öz çıxışında bildirdi ki, bundan sonra dil, din və irq ayrılığına yol verilmədən hər bir insan bərabər olacaq, onların canları və malları təminat altına alınacaq, bütün insanlara qarşı eyni qanunlar tətbiq ediləcək və duruma nəzarəti Azərbaycan hökuməti öz üzərinə götürəcəkdir.

Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsindən sonra Nuru paşa "İsmailiyyə" binasının yaxınlığındakı "Metropol" otelini ( indiki Ədəbiyyat muzeyi) özü üçün qərargah binası seçdi. Mürsəl paşa bir vaxtlar İran şahı Müzəffərəddin şahın yerləşmiş olduğu oteldə qaldı. Xəlil paşa isə tezliklə geri qayıtmalı olduğu üçün H.Z.Tağıyevin dəvətini qəbul edərər bir neçə günlük onun evində qonaq qaldı. Mövcud məlumata görə, türk qoşunlarının Bakıya gəlib bu şəhəri azad edəcəyi təqdirdə iki mərtəbəli böyük malikanəsini (indiki Tarix muzeyi) türk qoşunları komandanlığının istifadəsinə verəcəyini vəd edən H.Z.Tağıyev vədinə sadiq qaldı. O öz malikanəsini türk qoşunları komandanlığının istifadəsinə verdi. Qoşun komandanlığının şəhərə girdiyi gün Mayılov adına teatrında böyük bir tədbir oldu.

Bakı şəhərinin azad edilməsi həm Azərbaycan ictimaiyyətinin, həm də Türkiyə dövlət rəhbərlərinin, xüsusilə Ənvər paşanın çox böyük sevincinə səbəb olmuşdu. O, Şərq Ordular Qrupu komandanı Xəlil paşaya göndərdiyi teleqramda Bakının azad edilməsi münasibətilə onu çöx səmimi sözlərlə təbrik etdi və bu hadisə münasibətilə öz məmnunluğunu ifadə etdi.

Bakının azad edilməsi xəbərini M.Ə.Rəsulzadə İstanbulda olarkən eşşitmişdi. O dərhal Azərbaycan hökumətinin sədri F.Xoyskiyə teleqram göndərib Azərbaycan xalqını və hökumətini bu tarixi hadisə münasibətilə təbrik etdi. Teleqramda deyilirdi:

> Hürriyyət və istiqlaliyyət uğrunda çarpışan türk millətinin istinadgahı olan Bakının qurtuluşu münasibətilə rəisi bulunduğunuz hökumət ərkanını candan təbrik edər və salamlaram.

Bu tarixi günün və hadisənin Azərbaycan xalqının həyatındakı yerini isə M.Ə.Rəsulzadə belə dəyərləndirirdi:

> Azırbaycan xalqının tarixində bu gün adətən 28 mayıs qədər böyük bir dəyərə malikdir. 28 mayisda Cümhuriyyətin istiqlalı bütün cahana elan edilmişsə, 15 eylulda bu istiqlal madətən təəyid olunmuş, Azərbaycan hökuməti kəndi təbii mərkəzinə müvəffəqiyyətlə girmişdir...

Qızıl rusluğun çökəcəyi bir tarixi zamanda 15 sentyabrda kəndisi ilə müttəfiq bulunan qardaş qüvvətlər təkrar onunla bulunacaq, nəhayət zəfəri kəndisiylə birlikdə təmin edəcəklərdir.

Bu qüvvələrin vəzifələrini qəhrəmancasına əda edərək indi Bakı məzarlığının bir guşəsində haqq etdikləri milli şükran təzahüratını dörd gözlə gözləyən şəhidlər ruhuna bizdən min rəhmət, min salam.

Azərbaycan milli mücadiləsinin liderlərindən biri olan Nəsib bəy Yusifbəyliyə görə, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk sədri Fətəli xan Xoyski Bakının azad edilməsi uğrunda türk hərbçilərinin göstərmiş olduğu xidmətləri Nuru paşaya xitab edərkən bir neçə kəlmə ilə belə dəyərləndirimişdi: "Millət sizə minnətdardır". N.Yusifbəylinin fikrincə Azərbaycan durduqca bu üç kəlmə azərilərin dilində və qəlbində yaşayacaqdır.

Bakının alınması münasibətilə F.Xoyskinin Nuru paşaya göndərdiyi teleqramı isə bütünlükdə aşağıdakı kimi idi:

Qafqaz İslam Ordusunun komandanı, səadətli Nuru paşa həzrətlərinə!

Komandanız altında bulunan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın başkəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətim adından zati-həmiyyəti-pərvanələrinizə və dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğunu əzm etməklə iftixar edirəm.

Bakı şəhəri azad edildikdən sonra Nuru paşanın adına həm Azırbaycan daxilindən, həm də xaricindən saysız-hesabsız teleqramlar gəldi. Bu teleqramların hamısında neçə aylıq mübarizədə göstərdikləri qəhrəmanlıqlara görə türk əsgərinə misilsiz heyranlıq ifadə olunmuşdu. Zaqatala valisi İlyas bəyin göndərdiyi teleqramda deyilirdi:

Qafqazın qəlbi sayılan Bakı şəhərinin komandanız altındakı əsgərlərinizlə almanızdan dolayı əhali və mən daxildən gələn təşəkkürlərimizi sunaraq zati-alilərinizi təbrik edirik. Bu müvəffəqiyyətiniz sayəsində qurulmuş olan Azərbaycan hökuməti tarixinin ilk səhifəsindən etibarən gələcəyinin parlaq olacağına inanırıq. Bütün əhali müzəffər əsgəriniz haqqında cənabi-haqqa səcdeyi-şükran eylərik. Bakı və sizə duaçıyıq.

Türkiyədə nəşr olunan "Tənin" qəzeti sentyabr ayının 17-də Bakı şəhərinin azad edilməsini öz oxucularına belə xəbər verirdi:

Güvənilən qaynaqlardan xəbər aldığımıza görə, Bakı şəhəri 36 saat sürən şiddətli bir müharibədən sonra Azərbaycan ordusu tərəfindən zəbt edilmişdir. Bakıda məhzur bulunan ingilis və bolşevikliyi qurtaranın nə olduğu haqqında hənuz məlumat gəlməmiş isə də qaçmaq pək məmnun olmadığından mühüm bir miqdarda əsir alınmış olması qüvvətlə mühtəməldir. Bakının zəbti və istirdadı xəbəri şəhərimizdə bulunan Qafqaz heyəti arasında milliyətpərvəranə təzahürata nədən olmuşdur. Para palas otelində iqamət edən Qars, Batum və Ərdəhan heyətləri bu mutlu xəbər üzərinə Azərbaycan heyəti-mürəxxəsəsi nəzdində izzətlə Rəsulzadə bəyi təbrik və böylə məsud bir olayı bayram ədd etdiklərini bəyan etmişlər və Xilafəti-müəzzəmi-islamiyyətin o tərəfində böylə iki bayramı (Bakının azad edilməsi Qurban bayramı günlərinə təsadüf edirdi –M.S.) birdən idrak-şərəfiylə ovunc duyduqları cəhətiylə "Padşahım çox yaşa" duasını təkrar-təkrar əda etmişlərdir. Quzey Qafqasiya heyəti nəzdində bu, bilaxirə təkrar bütün heyətlər bir arada olduqları halda eyni təzahürat təkrar etmişlər.

Azərbaycanda nəər olunan “Açıq söz” qəzetində isə sentyabr ayının 20-də Abdulla Şaiqin bir şeri çap olunmuşdu. Bu şer türk döyüşçülərinin qardaş köməyinə öz ümidlərini bağlamış azərbaycanlıların daxili hiss və həyəcanlarını ifadə edirdi:

İntizar qarşısında
Neyçün böylə gecikdin?
Sənsiz qəlbim qırıq, ciynənmiş, xırpalanmış
Ömrü-şişəm daşa dəymiş, həyatım parçalanmış.
Qırıq bir saz kimi sızlar qanlı, yorğun telləri
Yıxılır da, yaxar da, bütün qayğı vurmuş illəri
Şu vətənin öksüzləri, gəlinləri, dulları
Göz yaşıyla sulamış həp keçdiyiniz yolları
Yolunuzu bəkləməkdən bənizləri saralmış
Heç gəlmədi. O şən, gülər ürəkləri qəm almış
Sən gəlməzsən dolumsanmış ürəklər heç şad olmaz
Sən gəlməsən günəş domaz, ümid gülüm olmaz
Dodaqlarin gülməz, sönük bəxtinə nur saçılmaz
Başqasını istəməm də. Ey terk, çabuk sən gəl sən
Bkləməkdən yoruldum. Oh iştə gec qaldın, nədən?
Yollarına daşmı dalanmış? Ya azğın quldurlar
Buraxmıyor? Daş, dəmir, polad olsa da onlar
Ürəyində şölələnən mətin qızğın atəşlə
Yax onları, ərit, söndür, çiynə, boğ, əz, xırpala
Xain, alçaq düşmənlərə qol gücünü həp göstər
Aç yolları, çabuk gəl ki qəlbim səni pək istər

Bakı şəhərinin azad edilməsi Azərbaycan xalqının həyatında tarixi bir hadisı idisə bu şəhərlə bağlı tamam başqa iddialarla yaşayan erməni millətçilərinin və tör-töküntülərinin niyyətlərinin puç olması demək idi. Onların daxilində kükrəyən qəzəb və nifrət hissi isə Bakı şəhərində növbəti faciələrə, talanlara yol açdı. Küçə döyüşlərində yerli əhaliyə qarşı olmazın vəhşiliklərə əl atan erməni silahlılarının bu hərəkətləri türk və Azərbaycan döyüşçülərində, habelə yerli əhalidə əks əməllərə səbəb olurdu. Mart ayında törədilən qırğınlarda həlak olanların qohumlarının intiqam əhval-ruhiyyəsi də şəhərdəki durumu mürəkkəbləşdirirdi. Nəticədə, Qafqaz İslam Ordusu komandanlığının, habelə Azərbaycan hökumətinin ciddi tədbirləri olmasaydı vəziyyət hətta nəzarət altından çıxa bilərdi. Hadisələrin şahidi olan Xəlil paşa da öz xatirələrində Bakıdakı vəziyyətin mürəkkəb olmasından yazırdı. O da bildirirdi ki, Bakının küçələrində ermənilər tərəfindən öldürülmüş çoxlu sayda azərbaycanlıların meyitləri toplanmışdı. Onların arasında uşaqların, qadınların, qocaların meyitləri var idi. Xəlil paşaya görə, Bakıda ermənilər tərəfindən törədilmiş olan qırğınlar insanlığın görməmiş olduğu qırğınlar idi.

Nuru paşa şəhərdə yarana biləcək gərginliyə yol verməmək üçün hələ sentyabrın 15-də yuxarıda qeyd edildiyi kimi, Cəmil Cahid bəyi Bakı üzrə mövqe komandanı təyin etdi. Onun başqa bir əmrində isə deyilirdi ki, Cəmil Cahid bəy mövqe komandanı kimi yalnız İslam Ordusu komandanına tabedir və şəhərdə asayişin bərpası üçün məsuliyyət daşıyır. Nuru paşa həm ondan, həm də firqə komandirlərindən tələb edirdi ki, talançılığa son qoyulsun və bununla məşğul olan əhali və əsgərlər edam edilsin.

Sentyabrın 17-də firqə komandirlərinə göndərdiyi məktubunda Nuru paşa stansiya və erməni məhəllələri ətrafında əsgərlərin də talançılıqla məşğul nolmaları barədə xəbər

aldığını bildirirdi. Onun fikrincə, buna bir səbəb də verdiyi əmrin yerinə yetirilməməsi və bütün hissələrin şəhərdən çıxarılmaması idi. Ona görə də Nuru paşa tələb edirdi ki, şəhərdə asayişin təmininə məsul olan hissələrdən başqa qalan qüvvələr dərhal şəhərdən çıxarılsın. İslam Ordusu komandanı  mövqe komandanı qarşısında da bir daha ciddi tələb qoyurdu ki, şəhərdəki gərginlik aradan qaldırılsın.

Bakı şəhərində asayişin təmin edilməsi Nuru paşa qarşısında dayanan ciddi məsələlərdən biri idi. Bakının azad edilməsi nə qədər əhəmiyyət kəsb edirdisə, Bakı şəhərində xaosun və qırğınların qarşısının alınması da Nuru paşa üçün elə bir əhəmiyyət kəsb edirdi. Şəhərdə müəyyən gərginliyin olması üçün bəzi obyektiv əsaslar da var idi. Nuru paşa Bakıda ermənilər və bolşeviklər tərəfindən törədilmiş  mart qırğınlarından xəbərdar idi. Bu qırğınlardan heç də uzun bir müddət keçməmişdi və ermənilərlə bolşeviklərin törədiyi faciələr azərbaycnalı əhalinin xatirələrində hələ canlı idi. Məlum idi ki, əzizlərinin və yaxınlarının dəhşətli işgəncələrlə qətlə yetirilməsinin şahidi olanlarda qisasçılıq hissləri özünü göstərəcəkdi. Bakının mühasirədə olduğu günlərdə də azərbaycanlı əhaliyə qarşı qətl və talanlar geniş vüsət aldı. Azərbaycanlı əhalinin qisasçılığının genişlənə bilməsi isə şəhərdə yeni bir gərginlik yarada bilərdi.

Bakının ələ keçirilməsindən sonra şəhərdə yaranmış gərginlik barədə Nuru paşa Ənvər paşaya da müfəssəl məlumat verdi. Göndərdiyi teleqramında Nuru paşa qeyd edirdi ki, Bakının zəbti əsnasında müsəlman xalqla ermənilər arasında meydana gələn bu çatımazlıqlarda bir qisim erməni ilə bir neçə rus öldürülmüşdü. Ancaq bu öldürülənlər mart qırğını zamanı öldürülən müsəlmanların yüzdə birini təşkil etmir. Başqa bir teleqramda isə Nuru paşa şəhərdə ordunun əmniyyəti saxlamasına qədər bir qisim talan hərəkətlərinin baş verməsi, ancaq bu talanların azəri türklərinin deyil iranlı işçilərin etdiyini açıqlayır, şəhərdə nizam və intizamın bərpası üçün ordudan dərhal istifadə edildiyini, talanlarda iştirak edən yüzdən artıq adamın edam edildiyini bildirirdi. Nuru paşaya görə bu sərt tədbirlər əhali tərəfindən, müxtəlif millətlərin nümayəndələri tərəfindən rəğbətlə qarşılanmışdı.

Belə sərt tədbirlərin həyata keçirilməsi üçün Bakının Quba, Quru bağ, Parapet, Vağzal, Bulvar meydanlarında, şəhər körpüsündə dar ağacları quruldu, talan və qarətdə günahlandırılan şəxslər bu dar ağaclarından asılırdı. Nəticədə çox qısa zaman ərzində şəhərdə asayiş bərpa olundu.

Azərbaycan hökumətinin ilk sədri F.Xoyski də sonrakı çıxışlarından birində bu məsələyə toxunmuşdu:

> ...Doğrudur, şəhər alınarkən bəzi müəssəfi hadisələr vaqe olmuşdur, hökumət bunu gizlətmiyor və gizlətməyi layiq bilmiyor. Doğrudur, çox adam əziyyət çəkmişdir, fəqət mümkün idimi ki, hökumət bu hadisənin qarşısını tamamilə ala idi? Zənnimcə insaf gözü ilə baxanlar  etiraf edirlər ki, dünyada heç hökumət ola bilməzdi ki, burada müsəlmanlar qırılmış, hüquqları ayaqlar altında tapdalanmış, şəhər üç ay dava etdikdən sonra alınmış, nəticədə acıqlı camaat – hökumət əlbətdə acıqlı deyildir – və əsgər şəhərə girərkən hadisənin önünü almaq mümkünmü idi? Bilxassə ki, hökumət şəhərə ancaq üç gün sonra daxil olmuşdur. Hökumətin vürudunadək nə olmuşsa və ondan sonra heç bir şey vaqe olmamışdır. Hökumət şəhərə varid olar-olmaz tədbirlər görüb, yüzədək müsəlman asdırdı, qurşuna dizdirdi və asayişi təcdid etdi.

Bakıda asayişin nəzarətini etibarlı şəkildə təmin etmək üçün bütün şəhər 10 sahəyə bölündü. Şəhərin komendantı vəzifəsi təsis edildi və Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy bu vəzifəyə təyin edildi.

Sentyabr ayının 18-də Qafqaz İslam Ordusunun komandanı Nuru paşa Bakı əhalisinə ünvanlanmış əmrnamə imzaladı. Həmin əmrnamədə deyilirdi ki, milliyətindən asılı olmayaraq bütün şəhər əhalisi sentyabrın 18-də saat 6-ya kimi ov tüfənglərindən başqa onlarda olan adi və soyuq silahları təhvil verməlidirlər. Silahları mənzil komitələri toplamalı və sonra onları tərtib olunmuş siyahılar üzrə sahə mənzil komitələrinə təhvil verməli idilər. Mənzil komitəsi olmayan evlərin sakinləri silahları birbaşa sahə mənzil komitələrinə təhvil verməlidirlər. 1-ci, 8-ci, 9-cu, 10-cu sahələrin, habelə Erməniкənd məntəqəsinin əhalisi silahları milis məntəqələrinə aparmalı idilər. Digər sahələrin əhalisi isə silahları yuxarıda qeyd olunan şəkildə təhvil verməli idilər. Əmrnamənin sonunda bildirilirdi ki, bu tələbləri yerinə yetirməyən şəxslərə qarşı güllələnmə tətbiq olunacaqdır.
Şəhərdə asayişin yaradılması məqsədilə Bakı komandanı Cəmil Cahid bəy tərəfindən də xüsusi bir əmrnamə imzalanıb əhali arasında yayıldı. Bu əmrnamədə nizam və intizamın bərqərar olması üçün bir sıra konkret tələblər irəli sürülürdü.
Sentyabr ayının 18-də Bakı şəhər əhalisi arasında Azərbaycan hökumətinin bəyanatı yayıldı. F.Xoyski tərəfindən imzalanmış olan bu bəyanat da şəhərdə tezliklə asayişin və normal rejimin bərpası məqsədinə xidmət edirdi Yenicə Bakıya köçmüş olan Azərbaycan hökumətinin sədri F.Xoyski qarşıya qoyulan məqsədə yetmək üçün ən ağır cəzalara əl atacağını da əhalinin nəzərinə çatdırırdı. Bəyanatda deyilirdi:

> Paytaxtı olan Bakıya təzə varid olmuş Azərbaycan Hökuməti-Cümhuriyyəsi bununla şəhərdə və ətrafda yaşayan ümumi əhaliyə bilafərq din və millət əmr edir ki, Azərbaycan hökumətinin təhti-təbiətində yaşayan heç bir millətə təfavüt qoyulmayaraq caniləri, qarətgərləri, qatilləri və camaatın asayişini pozanları hökumət böyük cəzaya, edama varıncaya qədər dücar edəcəkdir. Əhali bunu bilməlidir ki, türk milləti-nəcibəsinin qəhrəman və fateh əsgərlərinə əmr verilmişdir ki, türk-Azərbaycan hökumətinin şan-şərəfinə yaraşmaz ki, onun paytaxtında günahsız adamların haqq və hüququna təcavüz olunsun.

Azərbaycan hökumətinin və Qafqaz İslam Ordusunun komandanı kimi Nuru paşanın səyləri təkcə cinayətkarlığın aradan qaldırılmasına yönəldilməmişdi. Atılan qətiyyətli addımlar nəticəsində çox işlənən malların qiymətinin artmasına da yol verilmədi. Məsələn, şəhər azad edilməmişdən əvvəl bir pud unun qiyməti 800 rubl idisə, sentyabrın 15-dən sonra artıq 100-150 rubla, 20 rubla olan qoyun əti 6 rubla düşmüşdü. Digər ərzaq və meyvələrin qiyməti də xeyli aşağı düşmüşdü.
Bakıda və istərsə də digər yaşayış məntəqələrində normal həyat şəraitinin bərqərar edilməsi və onun nəzarət altında saxlanmasında Azərbaycan hökumətinin fəaliyyəti getdikcə daha da genişlənməkdə idi. Nuru paşa artıq hərbi sahəyə aid olmayan işlərin icrasını tamamilə Azərbaycan hökumətinin öhdəsinə buraxmışdı və Azərbaycan hökumətinin fəaliyyətinə qarışmağa son dərəcə ehtiyatla yanaşırdı.
Döyüşlərin davam etdiyi bir vaxt yerlərdə idarəetmə orqanalrına əsasən türklər rəhbərlik edirdilər. Bakı şəhəri azad edildikdən sonra F.Xoyski idarəetmə işlərinin tamamilə Azərbaycan hökumətinə verilməsini məqsədəuyğun sayırdı. Bununla bağlı o, Nuru paşanın da diqqətinə çatdırırdı ki, dövlət idarəçiliyi yalnız təkhakimiyyətliliyə əsaslandıqda hökumətin və xalqın mənafelərinə xidmət etmiş olur. İkihakimiyyətlilik və çox hakimiyyətlilik isə hökuməti hörmətdən salır, dövlət və ictimai həyatın sahələrində anarxiyaya gətirib çıxarır.
Bakı şəhəri azad edildikdən sonra şəhər daxilində çox az qüvvə saxlanıldı. Qalan qüvvələr şəhərin kənarına çıxarıldı və bu qüvvələr Bakının, eyni zamanda Abşeron

yarmadasının təhlükəsizliyinin qorunması ilə məşğul ol du. 5-ci firqənin hissə və bölmələri Buta, Biləcəri, Hacı Həsən, Xırdalan, Hökmalı, Masazır və Binəqədidə yerləşdirilmişdilər. Bu qüvvələr Bakı ətrafında müdafiə mövqelərində dayanmalı idilər.
Bakı şəhəri azad edildikdən sonra Nuru paşa şəhərdə vəziyyətin sabitləşdirilməsinə, Azərbaycan hökumətinin fəaliyyəti üçün normal şərait yaradılmasına, Azərbaycanın qoşun hissələrinin yaradılmasına daha geniş diqqət ayırdı. Xüsusilə, Qarabağın da erməni təcavüzündən azad edilməsi məsələsi qarşıda dayanan ən mühüm vəzifələrdən birinə çevrildi.

Qafqaz İslam Ordusunun Qarabağ hərəkatı

Qeyd etmək lazımdır ki,1918-ci ilin əvvəllərindən başlayaraq Qarabağda da kifayət qədər mürəkkəb bir vəziyyət yaranmışd. Malik olduqları silahlı dəstələrin gücündən istifadə etməklə erməni millətçiləri burada soyqırımı siyasəti yeridir, azərbaycanlı əhalini öz yurd-yuvalarından qaçqın salmaqla Qarabağı da ermniləşdirmək istəyirdilər. Millətçi-təcavüzkar məqsədlərə çatmaq və Qarabağı erməniləşdirmək üçün siyasi və beynəlxalq səviyyədə də erməni təzyiqləri mövcud idi və Qarabağda azərbaycanlı əhaliyə qarşı qırğınlar törətməklə bu bölgəyə olan iddiaların siyasi və beynəlxalq səviyyədə irəli sürülməsinə zəmin yaradılırdı. Məlumdur ki, Cənubi Qafqaz respublikaları öz müstəqilliklərini elan etdikdən dərhal sonra erməni hökuməti Qarabağın Ermənistan tərkibinə qatılmasına iddia irəli sürdü. Baxmayaraq ki, bu dövlətin paytaxtının harada olacağı heç məlum deyildi. Bununla bağlı Azərbaycanın Milli Şurası qarşısında məsələ qaldırılanda bu qurumun üzvləri arasında yekdil mövqe yox idi. Azərbaycan Milli Şurasının bir sıra üzvləri İrəvanın paytaxt kimi Ermənistana güzəştə gedilməsinə razı olmasa da, Milli Şura səs çoxluğu ilə belə bir qərar qəbul etdi. Əsas səbəb kimi isə İrəvana güzəştə gediləcəyi təqdirdə ermənilərin Qarabağa olan iddialarından əl çəkəcəyi nəzərdə tutulurdu. Hətta Batumda Azərbaycan və Ermənistan nümayəndələri arasında aparılan müzakirələrdə ermənilərin Qarabağa olan iddialardan əl çəkəcəyi də razılaşdırıldı.
Əsində, ermənilərin öz vədləri üzərində dayanmayacağı gözlənilən idi və elə belə də oldu. Onlar danışıqlar, müzakirələr yolunu deyil, ənənəvi zorakılıq yolunu tutdular. Çünki onların nəzərincə azərbaycanlılardan təmizlənmiş olan ərazilərə iddia irəli sürmək daha səmərəli ola bilərdi. 1918-ci il iyun ayının sonlarında Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.Hacınski Azərbaycanın Gürcüstandakı nümayəndəsinə ünvanladığı məktubunda mübahisəli ərazi məsələsinin həll edilməsi üçün Azərbaycan-Ermənistan sərhəd komissiyası yaradılması təklifinin Ermənistan hökumətinə çatdırılmasına xahiş etdi. Onun yazdığına görə, əgər Ermənistan hökuməti həmin təklifi qəbul edərdisə adı çəkilən komissiya dərhal yarana və onun iclası Gəncədə çağırıla bilərdi (26).
Ermənilər isə belə bir təklifə Qarabağda Erməni Milli Şurasının yaradılması və Qarabağın erməni nəzarəti altında olması görüntüsünü yaratmaqla cavab verdilər. Erməni mənbələri qeyd edirdilər ki, Erməni Milli Şurasının yaradılması ilə vəziyyəti dəyişmək və asayiş yaratmaq mümkün oldu (27). Bölgənin azərbaycanlı əhalisi ilə hər cürə əməkdaşlığı rədd edən erməni millətçi şurasının sakitliyə hansı yolla çatmaq istədiyini təsəvvür etmək isə çətin deyil. Mənbələrdə bildirilir ki, 1918-ci ilin yayından başlayaraq Qarabağın azərbaycanlı əhalisinə qarşı erməni zorakılığı artan sürətlə davam etməkdə idi. Yeni yaradılmış Azərbaycan hökuməti bütün diqqətini Bakı şəhərinin

bolşevik-daşnak qüvvələrindən azad edilməsinə istiqamətləndirdiyi üçün Qarabağdakı erməni zorakılıqlarının qarşısının alınmasına təsirli kömək göstərmək imkanı yox idi. Belə bir şəaritdə bölgənin azərbaycanlı əhalisi erməni təcavüzünün cilovlanması üçün öz imkanlarını səfərbərliyə almağa çalışırdılar.

Bu məqsədlə Şuşada azərbaycanlılardan ibarət könüllü müdafiə dəstəsi bərpa edildi. Şəhərdə 15 yaşından 60 yaşınadək sağlam azərbaycanlı kişilərin hamısı qeydiyyata alınmış və 14 komitə yaradılmışdı. Bu komitələr silah və sursat üçün pul toplayır, sahələr üzrə siyahılar tərtib edirdilər.Varlıdan yoxsula hamı silahlanmağa çalışırdı. Yaşayış məhəllələrinin kənarı ilə səngərlər qazılmış və erməni məhəlləsinə yaxın olan evlər müdafiə üçün möhkəmləndirilmişdi. Səngərlərdə gücə-gündüz keşik çəkilirdi və keşikçilərin növbəsi xüsusi patrullar tərəfindən nəzarət altında saxlanılırdı.

Şuşada hərbi kurs da təşkil edilmişdi. Zabit kimi xidmət etmiş azərbaycanlılar bu kurslarda gənclərə piyada və süvari üçün zəruri olan bilikləri öyrədirdilər. Kursda məşğələ keçən 50 nəfər gənc hər gün saat 9-dan 12-yə qədər, günortadan sonra isə 4-dən 6-ya qədər məşğul olurdular. Üç Mıx dağında və şəhər ətrafındakı digər yüksəkliklərdə azərbaycanlıların səngərləri var idi. Hakim yüksəkliklərdə olan bu səngərlər Şuşa ilə yaxınlıqdakı Azərbaycan kəndləri arasında əlaqələrin təhlükəsizliyini təmin etməyə imkan verirdi.

Lakin özünümüdafiə xarakteri daşıyan bu tədbirlərlə bütünlükdə Qarabağda güclənməkdə olan millətçi separatçılığın və milli zülmün qarşısını tamamilə almaq mümkün deyildi. Xüsusilə, qeyri-insani vəhşilikləri ilə ən yaramaz keyfiyyətlərin təcəssümü olan Andronikin dəstəsinin Zəngəzura gəlməsi Qarabağda da hərbi şəraitin pisləşməsinə şərait yaratdı. 1918-ci il iyun ayının 22-də Osmanlı qoşunlarının 12-ci piyada firqəsi tərəfindən ağır zərbə alan Andronik və onun tör-töküntüləri Naxçıvana çəkilib orada da öz vəhşiliklərini davam etdirirdilər. Burada qırğın və talanlar elə bir həddə çatdı ki, yenidən türk qoşun hissələri işə qarışmalı oldular. 4-cü korpusun tabeliyində olan 11-ci Qafqaz firqəsi Naxçıvana doğru irəlilədi və 3000 piyada ilə 600 süvaridən ibarət olan erməni quldur dəstəsini məğlub edərək iyulun 20-də Naxçıvan ətrafında vəziyyəti sabitləşdirdi. Naxçıvan ətrafında aldığı ağır zərbədən sonra Andronik öz tör-töküntülərini Zəngəzura və Qarabağa topladı və burada da kütləvi qırğınlara rəvac verdi.

Bu bölgədə baş verən proseslər müstəqil Azərbaycanın imdadına yetən Osmanlı dövlət rəhbərlərini və eləcə də Qafqaz İslam Ordusu komandanlığını da narahat edirdi. Yuxarıda qeyd edildiyi kimi, Nuru paşa Azərbaycana gələn zamanı heyətindən bir neçə zabiri təlimatçı kimi Qarabağda saxladı və Azərbaycana gələn ilk türk alaylarının bir bölməsini də Qarabağa göndərdi. Ənvər paşa hələ iyul ayının ortalarında Şərq Ordular Qrupu komandanı Xəlil paşaya bildirirdi ki, Osmanlı və İran erməniləri Qarabağa keçərək orada azərbaycanlılara qarşı vuruşmaq istəyirlər. O, Xəlil paşadan və Nuru paşadan tələb edirdi ki, ermənilərin bu istəklərinin qarşısı lazımi şəkildə alınsın.

Avqust ayının 9-da Nuru paşaya göndərdiyi məktubunda Qarabağ məntəqəsi komandanı İsmayıl Həqqi bəy bölgədə genişlənən təcavüzün qarşısının alınması üçün yerli qüvvələrin kifayət etmədiyini bildirirdi. Onun sərəncamında olan qüvvələr də çox az idi. Buna görə də o, Nuru paşadan Qarabağa əlavə hərbi qüvvələr göndərilməsini xahiş edirdi. Bununla bağlı, avqust ayının ikinci yarısında Ənvər paşaya göndərdiyi teleqramında Qarabağda vəziyyətin xeyli mürəkkəbləşməsi, erməni təcavüzünün xeyli genişlənməsi, milli dəstələrin kəndləri viran qoyaraq qadınlara və uşaqlara rəhm etməməsi bildirilməklə ora əlavə qüvvələrin göndərilməsinin məqsədəuyğunluğunu

vurğulayırdı  Bu teleqram o vaxt göndərilmişdi ki, bütün  diqqət Bakı şəhərinin azad edilməsinə və bu məqsədlə əlavə qüvvələrin aranıb tapılmasına istiqamətləndirilmişdi. Ona görə də Qarabağda genişlənən erməni təcavüzünün qarşısının alınması üçün münasib şərait yalnız Bakı şəhəri azad edildikdən sonra yarandı.
Avqustun sonu və sentyabrın əvvəllərində Qarabağ məntəqəsi  komandanı İsmayıl Həqqi bəydən Nuru paşanın adına göndərilən teleqramlarda Zəngəzurda və Qarabağda erməni vəhşiliklərinin çox geniş miqyas aldığı açıqlanrdı. İsmayıl Həqqi bəy hətta onu da vurğulayırdı ki, əgər yaxın vaxtlarda ciddi tədbirlərə əl atılmasa bölgədə salamat azərbaycanlı əhali qalmayacaqdır .
Bunu mövcud olan arxiv sənədləri də təsdiq edir. Azərbaycan Fövqəladə İstintaq Komissiyasının üzvü Mixaylovun apardığı təhqiqatlar əsasında hazırladığı məruzədə 1918-ci ilin yayında Cavanşir qəzasında ermənilər tərəfindən aşağıdakı vəhşiliklərin törədildiyi qeyd edilir: Kolanı icmasına aid 12 azərbaycanlı kəndinin məhv edilməsindən əlavə Marağa kəndinin erməniləri öz həmkəndliləri olan iki azərbaycanlını öldürüb meyitlərini su kanalına atdılar. Dovşanlı erməniləri Fındıqlı adlanan yerdə üç azərbaycanlını öldürüb onlara məxsus 4 öküzü özləri ilə apardılar. Sarov kəndinin erməniləri qonşu kəndin çobanlarının üstünə hücum çəkərək onların sürülərini əllərindən aldılar. Ağdərənin silahlı erməniləri Qafanlı kəndinin azərbaycanlı əhalisinin 600 baş qoyununu, 50 baş mal-qarasını əllərindən aldılar. Dovşanlı kəndinin erməniləri həmkəndliləri olan üç azərbaycanlını qətlə yetirdilər... .
Azərbaycan Fövqəladə İstintaq Komissiyasının üzvü Mixaylovun məruzəsi təkcə bu sadalananlarla bitmirdi. Onun siyahısında xüsusi vəhşiliklə öldürülmüş olan çoxsaylı azərbaycanlının, habelə azərbaycanlı əhaliyə qarşı sonsuz vəhşiliklər etmiş onlarla erməninin adları sadalanırdı. Bu ermənilər uzun müddət birgə yaşadıqları azərbaycanlı qonşularına mərhəmət göstərmədən onları xüsusi amansızlıqla qətlə yetirmişdilər. Onlar bu yolla erməni mənbələrində qeyd edildiyi kimi, özlərinə məxsus şəkildə “asayiş” yaradırdılar.
1919-cu ilin avqust ayında Naxçıvanda azərbaycanlı əhaliyə qarşı sonsuz vəhşiliklər və qırğınlar törədən quldur Andronik öz dəstəsi ilə Zəngəzur-Qarabağa doğru istiqamət götürməyə cəhd göstərdi. Erməni millətçi təfəkkürünün zorakılıq simvolu olan bu quldurun azərbaycanlı əhaliyə qarşı təcavüzkarlığı elə bir miqyas almışdı ki, hətta Ermənistan hökuməti onun Ermənistan ərazisinə buraxılmayacağını bəyan etdi. Bu quldurun vəhşi xarakterini onun elə öz soydaşlarından olan A.Lalayan belə açıqlayırdı: “Daşnak dəstələri, insan qanına susayan xmbapetlər (Andronik paşa, Hamazasp və digərləri) türk qadınlarının, uşaqlarının, qocalarının və xəstələrinin qırılması işində maksimum “şücaət” göstərdilər. Daşnak dəstələri tərəfindən tutulmuş müsəlman kəndləri canlı insanlardan təmizlənir və tanınmaz şəklə salınmış meyitlərlə dolu xarabalığa çevrilirdi” .
Andronik Ozanyan tərəfindən rəhbərlik edilən daşnak terror dəstələri 1918-ci ilin yayında Sisianın bütün azərbaycanlı kəndlərini xarabalığa çevirdi və 50 min insan ev-eşiyindən didərgin salındı. Təcavüzə məruz qalan günahsız və müdafiəsiz insanların təsəvvür edilməz üsullarla qətlə yetirilməsi barəsində çoxlu sayda faktlar mövcuddur. 1918-ci ilin yayı və payızında Qarabağla qonşu olan Zəngəzurda 115 azərbaycanlı kəndi məhv edildi. Arxivlərdə mövcud olan tarixi sənədlərə görə bu bölgədə 7729 azərbaycanlı qətlə yetirildi ki, onların 3257-si kişi, 2276-sı qadın və 2196-sı uşaq idi. Azərbaycan Fövqəladı Təhqiqat Komissiyasının məruzəsində bölgənin azərbaycanlı

əhalisinə qarşı həyata keçirilən qeyri-insani zorakılıqlar haqqında böyük bir siyahı vardır .
Hələ 1906-cı ildə Azərbaycan publisisti və ictimai-siyasi xadimi Ömər Faiq Nemanzadə ermənilərin vəhşilikəri barəsində belə yazırdı: "Hər necə olsa da ermənilər Ermənistan yaratmaq haqqındakı niyyətlərini həyata keçirəcəklər və bu məqsədə çatmaq üçün heç şübhəsiz ki, onlar bizi İrəvandan, Qarabağdan və Qarsdan qovmağa çalışacaqlar. Biz bilməliyik və xatırlamalıyıq ki, ermənilər istənilən alçaqlığa hazırdırlar. Onlar müsəlmanların hücumunun başlanmasına təxribat yaratmaqla müsəlmanları özlərinə qarşı qaldıracaq və bu hücum zamanı şüurlu şəkildə böyük itkilər verəcək, sonra isə bütün Avropaya öz əzabkeşlikləri haqqında ağlaşmaları genişləndirəcəklər. Onlar həmişə öz cinayətləri üçün plan hazırlayacaq və onların icrası yollarını arayacaqlar" .
Qarabağda cinayətlərinin daha tez və bütünlüklə həyata keçirilməsi üçün ermənilər 1918-ci ilin avqustunda Tiflisə xüsusi bir heyət göndərdilər. Bu heyət ermənilərin Şuşada təşkil etdikləri alaya silah və sursat gətirməli idi. Görünür, Tiflis erməniləri Qarabağa göndəriləcək silah və sursatın tapılması üçün əvvəlcədən hazırlıq görmüş və böyük bir cəbbəxana yığmışdılar. Çünki bir neçə nəfərlik heyət qısa müddət ərzində çox böyük miqdarda silah və sursat toplaya bilməzdi. Həmin silah və sursatın Şuşaya gətirilməsi üçün ermənilər tərəfindən Gorusa 600 ədəd araba göndərildi. Erməni mənbələrində və Zare Məlik-Şahnəzərovun xatirələrində Qaraqışlaq erməni kəndi yaxınlığında erməni silah karvanının türk və azərcanlı qoşunları tərəfindən mühasirə edildiyi bildirilir .  Ancaq məlumdur ki, bu dövrdə Azərbaycanın milli qoşun hissələri hələ formalaşmamışdı və 1918-ci ilin avqustunda Zəngəzurla Qarabağ arasında Azərbaycanın milli qoşun hissəsi ola bilməzdi. Azərbaycana gəlmiş türk qoşun hissələri isə bütünlüklə Bakının azad olunmasına səfərbər edilmişdi. Ermənilərin Qaraqışlaq kəndi yaxınlığında qarşısını kəsən heş şübhəsiz ki, yerli özünümüdafiə dəstəsi ola bilərdi. 8 gün davam edən döyüşlərdə ermənilər ciddi müqavimətlə rastlaşsa da, hər halda Şuşaya yetişə bildilər.
Bakının azad edilməsi ərəfəsində Qarabağda vəziyyət heç də dəyişməmişdi. Azərbaycan hökumət orqanlarının tərksilah olmaq və dinc yaşayışı davam etdirmək haqqındakı təklifləri ermənilər tərəfindən heç bir vəchlə qəbul edilmirdi. Qarabağda toplanmış olan millətçi separatçıların Ermənistanın siyasi dairələri tərəfindən dəstəklənməsi isə bu bölgədə qarşılıqlı anlaşma ümidini heçə endirirdi. Bütün bunlar Azərbaycan hökumətində Qarabağa qarşı daha ciddi siyasət yeridilməsinə şübhə yeri qoymurdu. Bunun üçün münasib şərait Bakı şəhərinin erməni-daşnak işğalından azad edilməsindən sonra yarandı.
Bakı şəhərinin bolşevik-daşnak işğalından azad edilməsi Azərbaycan xalqının tarixində xüsusi əhəmiyyət kəsb etdiyi kimi, erməni millətçi-təcavüzkarlığının cilovlanmasında da təsirsiz ötüşmədi. Bakıda kök salan erməni millətçilərinin böyük iddialarının cilovlanması bütün Azərbaycanın erməni təcavüzünə məruz qalmasının qarşısını aldı. Eyni zamanda erməni millətçi dairələri anladılar ki, Bakının azad edilməsi ilə Qarabağdakı erməni separatçılığına da güclü zərbə vurula bilər.
Əslində, onların narahatçılığı əbəs deyildi və Bakı şəhəri azad ediləndən sonra Qarabağın da yad qüvvələrdən təmizlənməsi diqqət mərkəzinə gəldi. Çünki Zəngəzurda və Qarabağda azərbaycanlı əhaliyə qarşı törədilən qırğınların qarşısını almaq üçün Azərbaycan hökumətinin başqa bir seçimi də yox idi.
Doğrudur, istər erməni mənbələri, istərsə də müasir erməni təbliğatının nümayəndələri hadisələrin mahiyyətini tamam başqa şəkildə təqdim etməyə çalışırlar. Bunun üçün

bəzən elə arqumentlər və iddialara əl atırlar ki, həmişə olduğu kimi ya fakda əsaslanmır, ya da faktlar birtərəfli şəkildə qabardılır.

Bakı azad edildikdən və şəhər ətrafındakı vəziyyət sabitləşdirildikdən sonra Qafqaz İslam Ordusu komandanlığı Qarabağa hərbi qüvvələrin göndərilməsini məqsədəuyğun bildi. Ora qoşun hissələri yeridilməsi Azərbaycanın müstəqilliyinə mövcud olan təhlükənin aradan qaldırılması üçün nəzərdə tutulan planın vacib həlqələrindən biri idi. Osmanlı dövləti rəhbərliyi və o cümlədən də Qafqaz İslam Ordusu komandanlığı belə hesab edirdi ki, Bakıdan qaçaraq Petrovskiyə və Ənzəliyə toplanmış qüvvələr əzilməyincə Azərbaycanın təhlükəsizliyinə təminat vermək olmaz. Bundan başqa, Qarabağ və Lənkəran bölgəsi də Azərbaycanın müstəqilliyinə yad olan qüvvələrin nəzarəti altında idi. Həmin ərazilərin də təmizlənməsi başlıca vəzifə kimi qarşıda dayanırdı. Sentyabrın 16-da Baş komandanlığın Ərkani-hərb riyasətindən alınan teleqramda yaxın gələcək üçün aşağıdakı işlərin görülməsi tapşırılırdı:

1.Toplarla və pulemyotlarla möhkəmləndirilmiş bir piyada alayı Simali Qafqaza göndərilsin və Terekə qədər olan ərazi düşməndən təmizlənsin.

2. Lənkəranı təmizləmək və Ənzəlini tutmaq üçün Xəzər dənizi boyunca bir dəstə göndərilsin.

3. Bir firqə də Bakı ətrafında hazır vəziyyətdə saxlansın .

Ancaq Şimali Qafqazdakı vəziyyətin öyrənilməsi göstərdi ki, bir alayla orada qarşıya qoyulan vəzifəni yerinə yetirmək mümkün deyil. Həmin istiqamətə 15-ci firqənin göndərilmsəi, habelə Lənkəran istiqamətinə isə dəstə göndərilməsinin təxirə salınması qərara alındı. Çünki bir tərəfdən mövcud olan qüvvələr azlığı buna imkan vermirdi və digər tərəfdən də Lənkəran yad qüvvələrin nəzarəti altında olsa da burada vəziyyət Qarabağdakı kimi mürəkkəb deyildi. Ona görə də, hərbi qüvvələrin əvvəlcə Qarabağa göndərilməsi məqsədəuyğun bilindi.

Həmin bölgədə genişlənən təcavüzünq qarşısının alınması, qətl və qarətlərə son qoyulması formalaşmaqda olan birinci Azərbaycan firqəsinə tapşırıldı.

Qarabağa göndərilən hərbi qüvvələrin sayı haqqında türk və Azərbaycan mənbələrində dəqiq məlumat yoxdur. Erməni mənbələrində və araşdırmalarında isə bir-birindən fərqli olan rəqəmlər mövcuddur. Burada 4000, 5000 və 6000 rəqəmləri ilə rastlaşmaq mümkündür .

Nuru paşa Qarabağdakı erməni qiyamının yatırılması üçün sentyabr ayının 21-də artıq Qarayazı və Ləzgi süvari alaylarının Yevlaxa və oradan da Ağdama doğru yola salınması barədə əmr verdi. Nuru paşanın başqa bir əmrinə əsasən sentyabrın 23-dən qoşun hissələrinin Qarabağa yola salınması başlandı. 9-cu Qafqaz piyada alayı da Qarabağa yola salınan hissələr arasında olmalı idi.

Qarabağ hərəkatını başlamaqla Qafqaz İslam Ordusu komandanlığı bu bölgəni erməni silahlı dəstələrindən təmizləyərək eyni zamanda Azərbaycanla Türkiyə arasında birbaşa və təhlükəsiz quru əlaqələrinin yaradılmasını da qarşısına məqsəd qoymuşdu .

Nuru paşa Ənvər paşaya göndərdiyi teleqramında bildirirdi ki, Qarabağ hərəkatını üç həftə ərzində başa vurmağa çalışacaqdır .

Yola salınan dəstələr sentyabrın 25-dən etibarən Qarabağ ərazisinə daxil olmağa başladılar. Dərhal da Qarabağa göndərilmiş 1-ci Azərbaycan diviziyasının komandiri Cəmil Cahid bəy tərəfindən Qarabağ ermənilərinə tərksilah olmaları barədə ultimatum verdi. Erməni millətçi dairələri türk-Azərbaycan qoşunlarının Qarabağa gəlməsini ciddi narahatçılıqla qarşıladılar. Qısa vaxtdan sonra bütün niyyətlərinin puç ola biləcəyini anlayan millətçilər sentyabrın sonlarında növbəti qurultay çağırıb bir daha Azərbaycan

hökumətini tanımayacaqlarını bildirdilər.
Qurultayın qərarı 5 nəfər erməni vasitəsiylə Ağdama, 1-ci Azərbaycan firqəsinin komandanlığına çatdırıldı. Cəmil Cahid bəy bu qərarla tanışlıqdan sonra onu gətirən ermənilərdən üçünü – Arşavir Kamalyansı, Aşot Melik-Osipovu və Gerasim Məlik-Şahnəzəryanı həbs etməyi əmr etdi. Ayrapet və Danil adlı digər iki erməni isə azad buraxıldı ki, Azərbaycan tərəfinin xəbərdarlığını ermənilərə çatdırsınlar. Onlara bildirildi ki, ən qısa vaxt ərzində ermənilər təslim olmasalar, onda Şuşa istiqamətində hücum başlayacaqdır. Türk mənbələrində bu ultimatumdan sonra ermənilərə bir gün vaxt verildiyi , Azərbaycan mənbələrində isə 3 gün və 5 gün vaxt verildiyi bildirilir .
Qarabağ hərəkatına xüsusi fikir verildiyi üçün idi ki, oktyabrın 1-də Nuru paşa Ağdama gəldi.
A.Tumyanın yazdığına görə Nuru paşa Qarabağa gələndən sonra o da ermənilərə ultimatum verdi. O, Nuru paşanın Qarabağ ermənilərinə ultimatum verməsi barəsində yazırdı ki, Qarabağ ermənilərindən aşağıdakılar tələb olundu: 1) 24 saat ərzində silahlar təhvil verilsin; 2) Azərbaycan hökuməti tanınsın; 3) Azərbaycan və türk qoşunlarının Şuşaya yolu açılsın.
Oktyabr ayının 3-də Qarabağ ermənilərinin qurultayı çağırıldı. Burada uzun müzakirələr aparıldı. 3 iclasdan sonra qərara alındı ki, Azərbaycan hökuməti tanınsın ancaq ermənilərin öz silahlarını saxlaması barəsində türk komandanlığı qarşısında məsələ qaldırılsın . "Azerbaydjan" qəzetinin verdiyi məlumata görə, ermənilərin müzakirələri bir neçə gün uzandı.
A.Tumyan ermənilərin qurultayının gedişi barəsində belə yazır: "Hökumət üzvlərinin böyük səylərindən, Şuşanın nüfuzlu ziyalılarının nümayəndələrin hər biri ilə şəxs görüşlərindən, uzun-uzadı izahlarından və nəhayət, hərbi komissarın Türkiyənin Birinci Dünya müharibəsində qaçılmaz məğlubiyyəti haqqındakı dəqiq məlumatlardan sonra qurultayın iştirakçılarının əksəriyyətini ultimatuma cavabın proyektinin qəbul edilməsinə inandırmağa çətinliklə də olsa nail olundu. Ancaq nəzərdə tutulmuşdu ki, əgər türklər Qarabağı tərksilah etmək və onu Azərbaycana tabe etmək tələbindən əl çəksələr və lakin Şuşaya qoşun yeritmək tələbində qalsalar, onda aşağıdakı şərtlərlə razılıq verilsin: Şuşaya yalnız sayı 800-1000 nəfərdən çox olmayan bir türk nizami qoşun hissəsi daxil ola bilər. Azərbaycanın silahlı qüvvələri-nizami qoşun olub olmamasından asılı olmayaraq Şuşaya və Qarabağa yeridilməməlidir. Türk qoşunları eyni zamanda kənd rayonlarına getməməli və Şuşanın müsəlman hissəsində yerləşdirilməli idi.
Qurultay getdiyi vaxt qarabağlılar türk nizami qoşun hissələrinin və dağınıq Azərbaycan bandalarının çoxsaylı basqınlarını uğuru türk komandanlığını inandırdı ki, Qarabağla müharibə ağır nəticələr verə bilər. Nuru paşa nə qədər qışqırsa da, hay-küy salsa da ultimatumuna verilən cavabı eşidəndə onunla razılaşmaq məcburiyyətində qaldı"
A.Tumyanın bu təsvirində ermənilərə məxsus bir saxtakarlıq var. Hər halda Nuru paşa ermənilərin şərti ilə deyil, ermənilər Nuru paşanın şərti ilə razılaşdı. Eləcə də onun yazdığının əksinə olaraq nəinki türk qoşunları, hətta Azərbaycan qoşun dəstələri də Şuşaya daxil oldular.
Ermənistan İnformasiya Bürosu Şuşada keçirilən toplantının çox gərgin şəraitdə davam etdiyini və Arso İonesyanın toplantının 5-ci günü geniş çıxışından sonra Azərbaycan hökumətinin tanınması və eyni zamanda erməni silahlılarının tərksilah edilməməsinə cəhd göstərilməsi haqqında qərar qəbul etdi. Ermənistan İnformasiya Bürosu onu da bildirir ki, türk-Azərbaycan hərbi komandanlığına sentyabrın 20-də (oktyabrın 2-si)

axşam saat 7-yə qədər cavab verilməli idi. Lakin elə erməni mənbələrinin məlumatlarından məlumdur ki, türk-Azərbaycan qoşun hissələri Əsgərəna doğru hücuma sentyabrın 22-də (oktyabrın 4-də) başlayıblar. Deməli, hətta ultimatun üçün verilən vaxt bitəndən sonra da türk-Azərbaycan hərbi qüvvələri 2 gün gözləmiş və yalnız bundan sonra erməni quldur-terror dəstələrinin tərksilah edilməsinə qərar verilmişdi.

Yeri gəlmişgən, Arso İonesyanın yuxarıda söylədiyi fikirlərinin bir maraqlı məqamı var ki, Əsgərandakı erməni mövqeləri 2-3 saat ərzində türk-Azərbaycan qüvvələri tərəfindən nəzarət altına alındı. Amma saxtalaşdırılmış tarix həvəskarları olan və elmlər doktoru adına iddia edən müasir erməni təbliğatçıları yazırlar ki, topu, pulemyotu və kifayət qədər patronu olmayan erməni əgalisi 4 gün ərzində türk-azərbaycan qüvvələrinin hücumunu dəf etməyə müvəffəq oldular . Əslində isə bu, mümkün deyildi. Çünki elə erməni mənbələri də təsdiq edirlər ki, türk-azərbaycan qüvvələri sentyabrın 25-də (oktyabrın 7-də) Şuşaya daxil oldular . Erməni araşdırmaçıları sentyabrın 26-da (oktyabrın 8-də) türk-Azərbaycan qoşunlarının Şuşaya daxil olduğunu qeyd edirlər .

Ermənilərin qurultayı öz işini bitirən günün səhərisi Ağdamda saxlanılan ermənilər də Şuşaya qayıtdılar və bildirdilər ki, şəhərin təslim edilməsi və silahların təhvil verilməsi üçün 34 saat vaxt verilmişdir.

Oktyabrın 4-də Qarabağ dəstəsi Şuşaya doğru hərəkətə başladı və elə həmin gün Əsgəran ətrafında güclü döyüş baş verdi. Əsgəran boğazının təbii şəraitindən istifadə edən ermənilər burada möhkəm müdafiə mövqeləri yaratmışdılar. Buradakı erməni mövqeləri kifayət qədər möhkəmləndirilmiş mövqelər idi və onun adlanması üçün Cəmil Cahid bəy taktiki gedişə əl atdı. O, qüvvələrinin bir hissəsinin Əsgəranın ətrafından irəliləməsi üçün göstəriş verdi və onun bu qərarı tezliklə erməni silahlılarının müqavimətinin qırılması ilə nəticələndi. Bununla da Şuşa yolunda əsas müqavimət ocağı aradan qaldırıldı .

Bunlardan başqa, Xramord, Xanabad, Daşbaşı, Aranzəmin, Qarakənd erməniləri də müqavimət göstərməyə çalışdılar. Adları çəkilən bu kəndlərin bəzilərinin sakinləri silahlarını götürüb dağlara çəkildilər. Şuşaya doğru hərəkət zamanı erməni silahlıları ilə baş verən döyüşlər müəyyən itkilərə səbəb olsa da Qafqaz İslam Ordusu qüvvələri irəliləməkdə davam etdilər. Oktyabrın 6-da Əsgəranla Şuşa arasındakı Əyrikənd ətrafında növbəti döyüş baş verdi. Burada xeyli erməni qüvvəsi toplaşmışdı. 1-ci Azərbaycan firqəsinin sərəncamında olan topların sürəkli atəşindən sonra həmin qüvvələr qaçıb dağıldılar. Xanabad, Qılıncbağı və Kətik kəndlərinin dağlara qaçmış əhalisi müqavimətin əbəs olduğunu anladıqca geri qayıdır və silahlarını təhvil verirdilər. Ancaq bu zaman onlar mümkün qədər az silah verməyə çalışırdılar. Ona görə də ermənilərdən toplanan silahların miqdarı az oldu. Abdallarda da yerli əhali silahları təhvil verməyə vəd etmişdi. Şuşa ətrafındakı kəndlərə xəbər edilmişdi ki, onlar öz silahlarını toplayıb Əsgərana gətirsinlər və buradakı komissiyalara təhvil versinlər.

Təkcə Şuşaya gedən yolun ətrafındakı kəndlərdə deyil, Bərdə-Tərtər, Goranboy-Gəncə ətrafındakı erməni kəndlərinin tərksilah edilməsi üçün də lazımi tədbirlər həyata keçirilirdi. Oktyabrın 6-dan Bərdə-Tərtər ətrafındakı erməni kəndlərindən 150-yə qədər tüfəng toplandı.

Şuşa istiqamətində oktyabrın 6-dək davam edən döyüşlərdə bir zabit və 32 əsgər şəhid oldu, 65 nəfər yaralandı, 16 min güllə və 276 top mərmisi istifadə olundu. Ayın 7-də Şuşa istiqamətində irəliləyən əsas qüvvələr Xankəndinə doğru hərəkəti davam etdirdilər. Əsas qüvvələr irəli hərəkət etdikcə arxada qalan yolun və məntəqələrin

mühafizəsi təmin edilirdi. Bu məqsədlə bir piyada taboru Ağdamda saxlanıldı, bir piyada taboru isə Şuşa-Ağdam yolunun mühafizəsinə təyin edildi .
Oktyabrın 7-də digər məntəqələrdə də ermənilərin tərksiah etdirilməsi davam etdirildi. Həmin günə qədər Gəncə ətrafında 400 ədəd silah toplandı. Tərtər ətrafında 2-ci süvari alayı dağ ətəklərinə qədər olan erməni kəndləri əhalisinin itaətinə nail oldular. Ancaq yığılan silahların sayı şox az idi. Alay komandanlığından verilən xəbərə görə Tərtərin erməni kəndlərinin silahlarının çoxu Talış və Madagiz kəndləri ətrafında toplanmışdı. 1-ci Azərbaycan firqəsi komandanlığı tərəfindən həmin kəndlərə də qüvvə göndərmək və oradakı erməniləri tərksilah etmək əmri verildi. Goranboy istiqamətindəki Qaraçinar və Xarxaput erməni kəndlərinin gəncləri silahları ilə birlikdə dağlara qaçmışdılar. Onların geri qayıtması üçün oktyabrın 7-dək möhlət verildi. Yuxarı Ağcakənd və Başkənd keşişi, habelə bu kəndlərin nüfuzlu adamları türk-Azərbaycan qüvvələri ilə təslim şərtlərini müzakirə edib razılılğa gəldikdən sonra dağlara qaçan gəncləri geri qaytarmağa başladılar.
Oktyabrın 8-də Goranboy istiqamətinə göndərilmiş olan Süleyman əfəndinin dəstəsi Ağcakəndə daxil oldu. Ağcakənd, Ortakənd və Erməni Borisi kəndlərindən dağlara qaçan silahlılar geri dönməkdə davam edirdilər. Süleyman əfəndi öz qərargahını Ortakənddə yerləşdirdi. O, Talış, Çaylı və Marquşevan ətrafındakı silahlı erməni dəstələri ilə əlaqə yarada bilmişdi. Ona görə də həmin məntəqələrdəki vəziyyət sakitlik idi. Cəbrayıldan alınan məlumatlara görə oraların erməniləri də Azərbaycan hökumətini tanımağa razı olduğunu bildirmişdilər.
1-ci Azərbaycan firqəsinin və onun tabeliyinə verilmiş hissələrin oktyabrın 4-də Ağdamdan hərəkət edən qüvvələri oktyabrın 8-də nəhayət ki, Şuşaya daxil oldu. Yalnız oktyabrın 4-də Əsgəran ətrafında döyüşə girən bu qüvvələr sonrakı günlər Şuşa istiqamətində elə bir ciddi müqavimətlə rastlaşmadan yol üzərindəki kəndlərdən silah toplamaqla məşğul idilər. Şuşa əhalisi Qafqaz İslam Ordusu qüvvələrinin şəhərə çatmasını səbirsizliklə gözləyirdi. Qoşunların qarşılanması üçün xüsusi hazırlıq da görüldü. Bu hazırlıq işlərinə rəhbərlik Müsəlman Milli Komitəsi tərəfindən edilirdi. Yerli əhalinin arzusu ilə Gövhər ağa məscidində 20 min rubl könüllü vəsait toplandı. Bu vəsait qoşun hissələrinin yerləşdirilməsinə, onların ərzaqla təchizatına sərf edilməli idi. Şuşa bəylərindən biri Şuşaya gələn qoşunların bir günlük bütün xərclərini öz üzərinə götürdü. Digər bəylər və imkanlı adamlar da qoşunların ərzaqla təminatı üçün böyük miqdarda çörək, çay, şəkər və s. aldılar .
9-cu alayın bölük komandiri Mucib Kamalyeri qoşun hissələrinin Şuşaya daxil olmasını belə təsvir edirdi:

> ...Şuşaqala istiqamətindəki sərp dağların möhkəm nöqtələrinə yerləşmiş bulunan düşmən cəbhəsinə də belə olağanüstü həyəcanın verdiyi qeyrətlə təərrüz edildi və bir hücumda yarıldı. Qarşı tərəfdən gələn səlahiyyətli deleqelər müharibəyə son verəcəklərini, bir-kaç gün sonra belirli saatda Şuşaqalanı qyedsiz-şərtsiz təslim edəcəklərini təəhhüd etdilər.

Qarşılanma mərasimi başa çatdıqdan sonra zabitlər onlar üçün hazırlanmış mənzillərdə yerləşdirdilər. Əsgərlər üçün köhnə qışlalar ayrıldı. Yerləşməyənlər isə müvəqqəti olaraq Realnı məktəbin və seminariyanın binasına göndərildilər .
Şuşada Qafqaz İslam Ordusu hissələrinin rəsmi-keçidi də təşkil edildi. Bu rəsmi keçid həm azərbaycanlılar, həm də ermənilər tərəfdən izlənilirdi. Şəhərin həm azərbaycanlılar yaşayan, həm də ermənilər yaşayan hissəsində postlar quruldu və asayişin təmin edilməsi postlara tapşırıldı.

Bakıda yerləşən erməni məlumat bürosu türk-Azərbaycan qüvvələrinin Şuşaya daxil olması barədə xüsusi məlumat yaymışdı. Həmin məlumatda bildirilirdi ki, guya ermənilər nahaq qanın axıdılmasının qarşısını almaq üçün güzəştə getməyə razı olmuşdular. Məlumata görə ermənilər əmin idilər ki, türklər Qarabağda uzun müddət qala bilməyəcəklər. Çünki, Birinci dünya müharibəsi cəbhələrində türklərin məruz qaldığı məğlubiyyətlər onların tezliklə geri çəkilməsi ilə nəticələnəcəkdir. Məlumatda o da bildirilirdi ki, Cəmil Cahid bəylə birlikdə Azərbaycan hökumətinin müvəkkili İsmayıl xan Ziyadxanov da Şuşaya daxil oldu.
Şuşaya daxil olduqdan sonrakı ilk illər ərzində qoşunlar əsasən silah toplanması ilə məşğul oldular. Oktyabrın 10-da müxtəlif kəndlərdən 152 ədəd silah toplanmışdı. Lakin ermənilər öz silahlarını yalnız məcburiyyət qarşısında qaldıqları üçün təhvil verirdilər. Özü də daha çox yararsız və yüngül silahlar toplanırdı. Əslində isə onlar təslim olmaları barədə bir təsəvvür yaradaraq gizlində türk-Azərbaycan qoşunlarına qarşı hazırlıqlarını davam etdirirdilər. Bu məqsədlə onlar digər bölgələrdə yaşayan ermənilərdən də çox böyük kömək alırdılar. Türkiyədən də 600 nəfərlik erməni Qarabağ ərazisinə gələrək burada Qafqaz İslam Ordusu hissələrinə qarşı vuruşurdular. Bununla bərabər türk qoşun hissələrinin Qarabağa girməsi ilə ermənilərin buna qarşı təbliğat fəaliyyəti xeyli genişlənmişdi. Erməni millətçi dairələri müxtəlif dövlətləri və dünya ictimaiyyətini inandırmağa çalışırdılar ki, Osmanlı qoşunları Qarabağdan Ermənistan ərazisinə yeridilmişdir. İslam Ordusu ərkani-hərb rəisi isə bildirirdi ki, bu heç də belə deyil. Ermənistanla sərhəddə yalnız Azərbaycanın milli qoşun hissələri dayanmışdır.
Qarabağın erməni Milli Şurasının sədrinin də türk-Azərbaycan qoşun hissələrinin Şuşaya daxil olması haqqında qeydləri mövcuddur. Onun sözlərinə görə ermənilər verilən ultimatumu icra etməkdən imtina etdilər və belə olanda türk-Azərbaycan hissələri erməni yaşayış məntəqələri üzərinə hücuma keçdilər. Qeydlərdə sonra guya erməni əhalinin təzyiqlərə və soyğunçuluqlara məruz qalması, ermənilərin isə patronları qurtardığı üçün geri çəkilməsi barədə məlumat verilir. İsmayıl xan Ziyadxanovun da bu döyüşlərdə iştirak etdiyi bldirilir. Qeydlərdən o da aydın olur ki, Şuşa şəhəri türk-Azərbaycan qüvvələri tərəfindən nəzarət altına alındıqdan sonra Andronik Qarabağ məsələlərinə qoşulmalı oldu. Onun rəhbərliyi altında olan silahlı dəstələr Şuşa ətrafındakı bütün strateji məntəqələri ələ keçiurdilər. Elə bu vaxtlarda türklər geri çəkilməli oldular və onların yerini Qarabağda ingilis qüvvələri tutdular .
Hadisələrin şahidi olan erməni müəlliflərinin yazdığına görə, türk-azərbaycan hərbi qüvvələri Şuşaya daxil olandan sonra müvəqqəti barışıq elan olundu. Bu barışıq əsasında Ağdam-Şuşa yolu da açıldı. Qarşılıqlı etimadın möhkəmləndirilməsi xatirinə qoşun komandanlığı Əsgəran ətrafında olan erməni kəndlərinin əhalisinə öz silahlarını saxlamağa icazə verdi. Bir şərtlə ki, bu kəndlərin əhalisi öz silahları ilə yaşadıqları kənddən kənara çıxmamalı idilər. Başqa sözlə, türk-Azərbaycan qüvvələri komandanlığı razı oldu ki, Əsgəran ətrafındakı erməni kəndlərinin əhalisinin narahatlığına son qoymaq və kənd əhalisinin özünümüdafiəsini təmin etmək üçün onların silahları özlərində saxlanılsın. Qoşun komandanlığı tərəfindən azərbaycanlı əhaliyə də silahla bu kəndlərə daxil olmaq qadağan olundu. Bölgədə real asayişin yaradılmasına istiqamətlənmiş bu qərarlara ermənilərin cavabı belə oldu ki, heç bir şərtlə silahlar təhvil verilməsin və türk-Azərbaycan qüvvələri ilə mübarizə dayandırılmasın. Bunun nəticəsi kimi türk-Azərbaycan hərbçiləri harada görünürdüsə onların üzərinə basqınlar edilirdi .

Türk-Azərbaycan qoşun hissələrinin Ağdamdan Şuşuya doğru irəliləməsi erməni müəllifləri tərəfindən tamamilə başqa bir rəngdə təqdim olunur. Həmin müəlliflərdən biri qeyd edir ki, Əsgəran ətrafındakı erməni kəndləri dağıdılıb məhv edildi və bu işdə Azərbaycan hökumətinin hərbi naziri Ziyatxanov xüsusi amansızlıq göstərdi.
Amma yuxarıda sitat gətirilən erməni müəllifi və hadisələrin şahidi isə bunun tamamilə əsassız olduğunu anladır. Onun qeydlərindən aydın olur ki, əksinə, həmin erməni kəndlərinin təhlükəsizliyinin təmin edilməsi üçün hətta azərbaycanlı silahlıların da ora daxil olması qadağan edilmişdi. Ziyatxanovun həmin hadisələrdəki fəaliyyətinə gəlincə isə, o zaman Azərbaycan hökumətinin tərkibində ümumiyyətlə hərbi nazir yox idi.
Başqa bir erməni müəllifi isə türk-Azərbaycan qüvvələrinin Qarabağa daxil olmasını təsvir edərkən ( yerə gəlmişgən qeyd etmək lazımdır ki, bu dövrün hadisələrinə toxunan erməni müəllifləri Qarabağı – “Dağlıq Qarabağ” kimi təqdim edirlər. Amma məlumdur ki, Dağlıq Qarabağ termini elmi-siyasi və coğrafi dövriyyəyə çox-çox sonradan gətirilmişdir) göstərir ki, türk əsgərləri öz yolları boyu zorakılıq və talanlar nümayiş etdirir, sınanmış metodlarla erməni əhalisini tərksilah edir və bölgənin tanınmış erməni fəallarını həbs edirdilər.
Türk-Azərbaycan qoşun komandanlığının dinc erməni əhalisinə qarşı hansı münasibət göstgərdiyi yuxarıda açıqlandı. Tanınmış erməni fəallarının həbsinə gələndə isə Arso İonesyanın ifadələrindən aydın olur ki, erməni millətçi separatizminin və terrorçu qrupların Şuşaya toplanmış liderlərinin və fəallarının həbsindən gedir. Arso İonesyan bildirir ki, Şuşada 94 nəfər inqilabçı-sosialist element həbs edildi. Sonra da əlavə edir ki, Qarabağda qiyam qaldıran ermənilər başsız qaldılar. Nəticədə qiyamçıların rəhbərliyinə Sokrat bəy kimi təsadüfi adamlar gəldilər .
Türk-azərbaycan qoşun komandanlığı Şuşada asayişin və qanunçuluğun bərpası üçün qətiyyətli tədbirlərə əl atdı. Qanunçuluğa tabe olmayan sakinlər ciddi şəkildə cəzalandırılırdılar. Məlumdur ki, şəhərin həm erməni, həm də müsəlman məhəlləsində dar ağacları quruldu və asayişin pozulmasında günahı olan insanlar dar ağacından asıldılar. Mövcud olan faktlardan belə aydın olur ki, müsəlman məhəlləsində asılanların sayı erməni məhəlləsində asılanlardan çox idi .
Erməni müəlliflərinin narahatlıqla haqqında danışdıqları məhbuslar isə azərbaycanlı əhaliyə fəlakətlər gətirən, dinc erməni əhalisinin də yaşayışını pozan Andronik və onun ətrafındakıların davamçıları idi. Arso İonesyan haqlı olaraq qeyd edirdi ki, xmbapetlər orada-burada təcavüzkarlıq göstərmiş qarşı tərəfin cavabını daha da gücləndirirdi ki, bu da qarşılıqlı inamsızlığı xüsusilə gücləndirirdi .
Qarabağda erməni təcavüzkar separatizminin kökünün kəsilməsi üçün 1-ci Azərbaycan firqəsinin qərargahının Şuşada yerləşdirilməsi planlaşdırılırdı. Firqə bölgənin təhlükəsizliyini təmin etməli idi. Amma bura çoxlu sayda erməni silahlı dəstəsinin gətirilməsi türk-Azərbaycan qoşun hissələrinə qarşı hərbi təzyiqləri daha da gücləndirirdi.
Bundan başqa, erməni millətçiləri beynəlxalq aləmdə də kifayət qədər səs-küy yaradaraq türk qoşunlarının Qarabağda "günahsız" erməniləri qırması barədə xəbərlər yayırdılar. Xüsusilə, Osmanlı ordusu Baş komandanlıq ərkani-hərbiyyə riyasətini öz öhdəsinə götürmüş yeni sədri-əzəm Əhməd İzzət paşanın Qafqazda və o cümlədən Azərbaycanda vəziyyətə kifayət qədər tanış olmaması ermənilər tərəfindən qaldırılan təbliğata qarşı sabitlik nümayiş etdirməsinə mane olurdu. Onunla görüşmək imkanı olan erməni nümayəndəliyinin hələ Bakının azadf edilməsi zamanı 30 min erməninin öldürülməsi, sonra da bu qırğınların Qarabağda davam etdirilməsi barəsindəki hay-

küyləri Əhməd İzzət paşanı Azərbaycanla bağlı əvvəlki hökumətin yeritdiyi siyasətdən geri çəkilməyə sövq etdi və artıq oktyabrın 23-də o, Qarabağ hərəkatının dayandırılmasını tələb etdi .
Əhməd İzzət paşa kabinetini belə addımlar atmağa bir tərəfdədn də müttəfiq dövlətləri məcbur edirdilər. Ermənilər öz təbliğatları ilə müttəfiq dövlətlərdən istifadə etməyə çalışdıqları kimi, müttəfiq dövlətlər də ermənilərdən istifadə etməyə çalışır və onların hay-küylərini həqiqət kimi qələmə verərək bu yolla Türkiyəni Qafqazdan tamamilə sıxışdırmağa cəhd göstərirdilər. Müttəfiqlərin Birinci dünya müharibəsində məğlub olması isə Türkiyəni Amerika və İngiltərənin hər cürə tələbləri qarşısında müqavimətsiz qoymuşdu. Bunu Əhməd İzzət paşa özü də Azərbaycandan İstambula gəlmiş diplomatik nümayəndə Əlimərdan bəy Topçubaşova etiraf etmişdi.
Türkiyənin Qafqazdan sıxışdırılması üçün müttəfiq dövlətləri Qarabağ məsələsindən bir bəhanə kimi istifadə edirdilər. Qarabağda ermənilərin kütləvi şəkildə qırıldığını bəhanə edərək təcili şəkildə oradakı türk qoşunlarının çıxarılması tələb edilirdi. Ermənilər Qarabağ məsələsi ilə bağlı 1918-ci ilin oktyabr ayında İstanbulda konfrans çağırılmasına da nail olmuşdular. Ermənilər iddia edirdilər ki, Azərbaycan və türk qoşun hissələri Ermənistan ərazisinə daxil olublar və burada "günahsız" erməniləri qırırlar. Oktyabrın 27-də Osmanlı dövlətinin yeni xarici işlər naziri Nəbi bəylə görüşən Ə.Topçubaşov bu təbliğatın cəfəng olduğunu bildirməklə qeyd etdi ki, Gəncə quberniyasının Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları Azərbaycan torpaqlarıdır və bu ərazilərə olan səlahiyyətinin bərpa edilməsi üçün ora Azərbaycan qoşun hissələrinin göndərilməsi heç də qanuna zidd deyildir .
Bununla belə, Osmanlı dövlətinə təzyiqlər güclənməkdə idi və dünya müharibəsində məğlub durumda olan Osmanlı dövlətinin bu təzyiqlərin qarşısını almaqda gücsüz idi. Məsələn, ingilislərin tamamilə ermənipərəst mövqedən çıxış etmələri və bunu dövlət siyasəti səviyyəsinə qaldırmalarını İstambulda Ə.Topçubaşovla görüşündə ingilis polkovniki Tamplın söylədikləri də sübut edirdi:

> Biz eşitmişik ki, siz bu yaxınlarda Qarabağa ekspedisiya korpusu göndərmisiniz və o da çoxlu erməni qırmışdır. Bu hal türk-Azərbaycan birləşmiş qoşunlarının Bakını işğal etməsi zamanı da baş vermişdir. Erməni millətindən olan əhalinin demək olar ki, yarısı məhv edilmişdir. Ermənilərin sizin tərəfinizdən qırılması xəbərini eşitmək bizim üçün ağır idi.

Bütün bu danışıqların hamısının erməni hay-küyünün nəticəsi olmasını, ermənilərin özlərinin hansı vəhşiliklər törətməsini Ə.Topçubaşov İstanbuldakı görüşləri zamanı sübut etsə də, Türkiyə artıq məcburiyyət qarşısında qalmışdı. Müttəfiq dövlətlər Türkiyədən qəti şəkildə tələb edirdilər ki, Qarabağdakı erməni əhalisinin "təhlükəsizliyi" təmin edilsin. Bununla müttəfiq dövlətlər birinci növbədə Qarabağa göndərilmiş olan Qafqaz İslam Ordusu hissələrinin geri çağırılmasını nəzərdə tuturdular.
Az sonra Mudros müqaviləsinin tələblərinə uyğun olaraq türk alayları bütünlüklə Qarabağı tərk etməli oldular. Qafqaz İslam Ordusu komandanlığının əmri ilə Qarabağa göndərilmiş 9-cu və 106-cı türk alayları geri qaytarıldı. Bu alaylar digər türk qüvvələri ilə birlikdə Azərbaycanı tərk etməli idilər. 1-ci Azərbaycan firqəsi isə qüvvə etibarilə zəifləsə də hələ də Qarabağda qalmaqda davam edirdi. General-mayor Usubov bu firqənin komandiri təyin edildi. O dərhal Ağdama yollanaraq 1-ci diviziyanın (firqənin) komandanlığını öz üzərinə götürdü .

Bununla da Qafqaz İslam Ordusunun Qarabağ hərəkatı başa çatdı. Hərəkatın ilkin dövründə Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli uğurlar əldə edilsə də beynəlxalq şəraitin, habelə Qarabağ ətrafındakı beynəlxalq münasibətlərin Türkiyənin və Azərbaycanın mənafeləri ziddinə kəskinləşməsi həmin uğurların daha da genişlənməsinə imkan vermədi.

Qafqaz İslam Ordusunun ləğvi

1918-ci il sentyabr ayının 15-də Bakının azad edilməsi, Qafqaz İslam Ordusunun şəhərə daxil olması Azərbaycan xalqı və o cümlədən də Osmanlı hökuməti rəhbərliyi üçün tarixi bir hadisə idi. Çünki Bakı uğrunda beynəlxalq iddiaların hədsiz kəskinləşməsinə baxmayaraq Osmanlı hökuməti rəhbərlərinin bu istiqamətdə izlədiyi qətiyyətli və ardıcıl siyasət öz məntiqi nəticəsi ilə başa çatdı. Bakının azad edilməsi xəbərini eşidəndə Ənvər paşa böyük bir sevincə büründü və bu sevinci dərhal Berlində olan sədr-əzəm Tələt paşaya da çatdırdı. Ancaq sentyabr ayının 15-i başqa bir tarixi hadisə ilə də Ənvər paşa və onun üzvü olduğu hökumətin yaddaşında qaldı. Həmin gün Makedoniyada türklərlə bir ittifaqda dünya müharibəsinə qoşulmuş olan bolqar qoşunları ciddi uğursuzluğa düçar oldu və Bolqarıstan müttəfiqlərinin heç də xeyrinə olmayan sülh danışıqlarına gedilməsinə məcbur edildi. Nəticədə sentyabr ayının 29-da Bolqarıstan məğlubiyyət aktını imzaladı. Bolqarıstan təslim şərtlərini imzalaması ilə Türkiyə ilə müttəfiq olan digər bir dövlət, Avstriya-Macarıstan cənubdan mühasirə olunmaq təhlükəsi altına düşdü. Bütünlükdə məhv olmaq təhlükəsindən qurtulmaq üçün 1918-ci il oktyabrın 5-də Avstriya-Macarısan da müttəfiq dövlətlərlə danışıqlara girməyə məcbur oldu. Belə olduqda şimaldan Türkiyə üçün ciddi bir təhlükə yarandı. Bu isə onun hərbi süqutuna yol aça bilərdi. Çünki Avstriya-Macarıstan və Bolqarıstanın müharibədən çıxarılması ilə Türkiyə onun üçün şimaldan yarana biləcək təhlükənin qarşısını təklikdə almağa qadir deyildi. Mövcudluğunun qorunması üçün Türkiyənin də danışıqlara getməkdən başqa ayrı bir çarəsi qalmadı.

Cəbhədə baş verən uğursuzluqlar və Türkiyə üçün yaranan təhlükə Tələt paşa kabinetinin vəziyyətini də xeyli mürəkkəbləşdirirdi və 1918-ci il oktyabr ayının 8-də Tələt paşa rəhbərlik etdiyi kabinetin istefasını Osmanlı sultanına təqdim etdi. Osmanlı sultanı Tələt paşa kabinetinin istefasını qəbul etdi. Ancaq yeni hökumət yaranana kimi Tələt paşa hökuməti öz fəaliyyətini davam etdirdi.

Osmanlı hökumətinin sülh danışıqlarına getmək məcburiyyəti onun Qafqazla bağlı siyasətindədn də əl çəkməsinə gətirib çıxaracağı artıq göz qabağında idi. Çünki Qafqaz İslam Ordusunun Bakıya gəlməsi nəinki Türkiyənin qeyri-müttəfiqləri, hətta onun müttəfiqləri tərəfindən də çox kəskinliklə qarşılanmışdı.

1918-ci il oktyabr ayının 19-da Əhməd İzzət paşanın yeni hökumətinin qurulmasından sonra Tələt paşa kabineti iqtidardan uzaqlaşdırıldı. Yeni hökumət heç olmasa Brest-Litovsk müqaviləsi ilə Türkiyəyə verilmiş Qars, Ərdəhan və Batumun itirilməsi təhlükəsinin aradan qaldırılması üçün bu ərazilərdən kənarda, o cümlədən, Azərbaycanda olan qoşun hissələrinin geri çağırılmasına qərar verdi. Hələ sükh danışıqlarının başlanması ərəfəsində, yəni 1918-ci il oktyabr ayının 21-də Baş komandanlığın Qərargahı qərara aldı ki, Şərq Ordular Qrupu, 1-ci Qafqaz korpusu və bir sıra digər strukturlar ləğv edilsin, 5-ci Qafqaz firqəsi, 36-cı Qafqaz firqəsi və 15-ci firqə İstanbula nəql edilsin.

Həmin qərara əsasən, Şərq Ordulr Qrupu ləğv edildiyi üçün onun tərkibinə daxil olan Qafqaz İslam Ordusu və Quzey Qafqaz Ordusu da ləğv edildi və oktyabrın 24-dən başlayaraq altı həftə ərzində türk qoşunları Dağıstan və Azərbaycanı tərk etməli idilər. Ancaq bu qərar türk əsgər və zabitlərindən arzu edənlərin Azərbaycan və Dağıstan ərazisində qalmasına icazə verirdi. Bu sənədə görə, Nuru paşa türk ordusunun tərkibindən çıxdığını bəyan edərək Azərbaycan ordusu komandanlığını öhdəsinə götürdü və Azərbaycanda qalmağa qərar verdi.

Türk qoşunlarının geri çağırılmasının məcburiyyət üzündən olduğunu və arzu edənlərin Azərbaycanda qala bilmələrini yeni hökumətin üzvləri də təsdiq etdilər. 1918-ci il oktyabrın 21-də Ə.M.Topçubaşovu qəbul edərkən sədr-əzəm Əhməd İzzət paşa vəziyyəti ona belə açıqladı:

> Bəli, vaxt sürətlə gedir və hər şey dəyişir. İndi isə günbəgün yox, hətta saatbasaat dəyişir. Baxın dünın necə idi bu gün nə baş verir. Dünən hələ bizim vəziyyətimiz yaxşı idi, özümüzü yaxşı hiss edə bilərdik. Bu gün isə biz məğlub olmuşuq. İndi biz birgə çalışmalıyıq ki öz maralarımızı qoruya biləк. Heç kəsə sirr deyil ki, biz sizin Azərbaycanı sevirik və indiyə kimi də bacardığımız hər şeyi edirdik.

Oktyabr ayının 27-də Ə.Topçubaşovla görüşən yeni xarici işlər naziri Nəbi bəy isə Türkiyənin yeni şəraitdə Azərbaycana qarşı tutduğu mövqe barədə belə deyirdi:

> Bizə gəldikdə isə sədr-əzəm sizi əmin etdiyi kimi Azərbaycana gələcəkdə də məhəbbətlə yanaşacaq və bacardığımız qədər kömək edəxəyik. Arzu edirik ki, sizin gənc dövlətiniz təşkilatlansın və möhkəmlənsin. Ancaq kəskin şəkildə dəyişmiş olan vəziyyət imkan vermir ki, əvvəlki sürətlə fəaliyyət göstərək... Şübhə yoxdur ki, bizim qoşunların Azərbaycandan çıxarılmasına təkid göstəriləcək. Biz isə aydın olan səbəblərə görə bunu etməliyik. Ancaq hansı vəzifədə olmasından asılı olmayaraq bütün arzu edənlər sizin xidmətinizdə qala bilərlər. Digərləri də sizdə qalacaqlar. Başqa məsələlərdə də lazım olsa kömək edəcəyik.

1918-ci il oktyabr ayının 30-da Egey dənizində olan Lemnos adasının Mudros limanında Türkiyə ilə İngiltərə arasında barışıq imzalandı. Barışığı Türkiyə tərəfindən dəniz naziri albay Rauf Orbay imzaladı. Bu barışıq həm Türkiyə üçün, həm də Azərbaycan üçün kifayət qədər əlverişsiz olan şərtləri özündə əks etdirirdi. Xüsusən də, barışığın 11-ci və 15-ci maddələri Azərbaycanın müstəqilliyinə real təhlükə yaradırdı. 11-ci maddədə deyilirdi:

> İranın şimal-qərb qismindəki qüvveyi-Osmaniyyəni dərhal hərbdən əvvəlki hüdud gerisinə cəlbi xüsusunda əvvəlcə ita edilən əmr icra ediləcəkdir. Mavərayi-Qafqazın qüvvəyi-Osmaniyyə tərəfindən qismən təxliyyəsi əmr edildiyindən qismi-mütəbaqi müttəfiqlər tərəfindən vəziyyəti-məhəlliyə tədqiq edilərək tələb olarsa təxliyyə ediləcəkdir.

Barışığın 15-ci maddəsi isə aşağıdakı məqamı nəzərdə tutmuşdu:

> Bilcümlə hüdudu-hadidiyyeye (dəmir yolu – M.S.) itilaf (müttəfiq – M.S.) mürakibə zabitləri məmur ediləcəkdir. Bunlar miyanında hökuməti-Osmaniyyənin təhti-mürakibəyində bulunan Mavərayi-Qafqaz hüdudi-hadidiyesi əqsamı daxildir. İşbu Qafqaz hüdudu sərbəst və tam olaraq İtilaf məmurları təhti-idarəsinə vəz ediləcəkdir. Əhalinin ehtiyacının təmini nəzəri-diqqətə alınacaqdır. İşbu maddədə Batumun işğalı daxildir. Hökuməti-Osmaniyyə Bakının işğalına mütəriz (etiraz – M.S.) bulunmayacaqdır.

Bu maddələrə görə Türkiyə öz qoşunlarını Azərbaycandan çıxarmalı, Bakının müttəfiq qoşunları tərəfindən tuutlmasına etiraz etməməli idi. Cənubi Qafqazın, o cümlədən Azərbaycanın dəmir yolları da müttəfiq dövlətlərin nəzarəti altına keçməli idi. İstanbulda olan Ə.M.Topçubaşov Azərbaycan hökuməti adından müstəqil Azərbaycanın iştirakı olmadan onun hüquqlarının müzakirə obyektinə çevrilməsinə etirazı ifadə edən notanı Türkiyənin Xarici İşlər Nazirliyinə təqdim etdi. Xarici İşlər Nazirliyinin yüksək vəzifəli əməkdaşları, habelə Mudros müqaviləsini imzalayan Rauf bəylə görüşlərində Əlimərdan bəy Topçubaşov belə bir addamın atılmasıını müstəqil Azərbaycanın hüquqlarına qarşı istiqamətləndiyini onun nəzərinə çatdırmağa çalışsa da, görüşlərin gedişində aydın oldu ki, Mudros barışığının tələbləri Türkiyəyə zorla qəbul etdirilmişdir. Türkiyə müstəqil Azərbaycanın hüquqlarına hörmətlə yanaşmağa çağırsa da, bu istək lazımi diqqətlə qarşılanmamışdı. Ə.Topçubaşovla Rauf bəy arasında noyabrın 3-ə olan görüşdəki söhbətindən aşağıdakı məqamlara nəzər yetirmək məsələnin necə həl edildiyini təsəvvür etmək baxımından maraqlıdır:

> Topçubaşov – Sizin tərəfinizdən imzalanan barışığın bu günkü qəzetlərdə çap olunmuş tam şərtləri ümumiyyətlə məni təşvişə saldı və bizim Azərbaycanımız haqqında həyəcanlanmağa məcbur etdi. 11-ci və 15-ci maddələrdə bizə kifayət qədər hiss ediləcək zərbələr vurulmuşdur. Sizin antantaçılarla danışıqlarınızda iştirak etməmişik və bizim xəbərimiz olmadan Azərbaycanın paytaxtı Bakı və bizim Cənubi Qafqaz dəmir yolu ingilislərə verilmişdir.
>
> Rauf bəy (söhbəti kəsərək) - əksinə, Bakını və Cənubi Qafqaz dəmir yolunu biz heç kəsə verməmişik və vermək hüququna da malik deyilik. Həqiqətən də antantaçılar danışıqlar zamanı buna təkid edirdilər. Ancaq biz daima onlara sübut edirdik ki, Bakı da, Cənubi Qafqaz dəmir yolu da bizə aid deyildir və onlar barəsində ingilislərlə hər hansı danışıq aparmaq səlahiyyətində deyilik... Ancaq ingilsilər qəti surətdə bəyan edirdilər ki, onlar nəyin bahasına olursa-olsun Bakını alacaqlar. Onlar deyirdilər ki, orada bizim hərbi adamlarımız olduğu üçün, biz türklər Bakının tutulmasına mane olmamaq barədə zəmanət verməliyik. Onlar tələb edirdilər ki, bu, barışıq şırtlərinin mətninə daxil edilsin.

Beləliklə, Mudros barışığının şərtlərinə görə, bir sıra digər mənətəqələr kimi, Bakı da müttəfiq dövlətlətin nəzarəti altına düşməli idi. Ən yaxın vaxtlarda buraya ingilis qoşunlarının çıxarılması gözlənilirdi. Türk qoşunlarının Azərbaycanı tərk edəcəyi isə artıq qaçılmaz idi. Baş komandanlığın bu məsələni rəsmiləşdirən 21 oktyabr 1918-ci il tarixli əmri Nuru paşaya çox gec, noyabr ayının 11-də gəlib çatdı və dərhal da həmin əmrin icrası ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsinə başlandı. Ancaq qeyd etmək lazımdır ki, bu rəsmi əmri almazdan bir gün qabaq, yəni 1918-ci il noyabr ayının 10-da Azərbaycan hökuməti Bakı İctimai məclisinin binasında Azərbaycan ordusunun baş komandanlığını öz üzərinə götürmüş Nuru paşanın şərəfinə ziyafət verdi. Ziyafətdə iştirak edən Fətəli xan Xoyski, M.Ə.Rəsulzadə, Əhməd bəy Ağayev və başqaları çııxş etdilər. F.Xoyski çıxışımda dedi:

> Azərbaycan çöllərində bizim türk qardaşlaımızın qanı bizin türklərin qanı ilə bir-birinə qarışdı. Mənşə etibarilə biz bir-birimizə qohumuq, indi bizim bir-birinə qarışan qanımız bunu daha da möhkəmləndirdi. Azərbaycanın azadlığı uğrunda tökülmüş qanlar Osmanlı və Azərbaycan türkləri arasında yaxınlaşmanın və qırılmaz əlaqələrin möhkəm təminatıdır.

M.Ə.Rəsulzadə də öz çıxışında türk qoşunlarına minnətdarlığını bildirdi. O qeyd edirdi ki, Azərbaycan xalqı qan qardaşlarının köməyi ilə öz hüquqlarına nail ola bilmişdir. Əhməd bəy Ağayev isə çıxışında dedi:

> Vaxt var idi ki, Azərbaycnan türklərinin öz qardaşları olan Osmanlı türkləri haqqında danışmaq az qala cinayət hesab edilirdi. Bolşeviklər Rusiyası xalqların hüquq bəyannaməsini elan etdi və bildirdi ki, siz öz müqəddəratınızı təyin edə bilərsiniz, lakin bizim istədiyimiz kimi...

Ziyafətdə çıxış edən Nuru paşa onun və türk qoşunlarının ünvanına söylənilən bütün xoş sözlər üçün öz minnətdarlığını bildirdi və Azərbaycanın mənafeyi naminə bundan sonra da lazım olanları etməyə hazır olduğunu bildirdi:

> Qardaş Azərbaycan türkünün mənafeyi hər bir türk üçün müqəddəsdir... Əgər Azərbaycanın azadlığı yolunda yeni qurbanlar lazım gələrsə, ona da hazırıq.

Sədr-əzəm Əhməd İzzət paşanın 26 oktyabr 1918-ci il tarixli 5236 nömrəli əmrinə görə, Azərbaycanda xidmət etmək istəyən türk hərbçilərinin Azərbaycanda qalmasına icazə verilirdi. Bu əmrə müvafiq olaraq Nuru paşa Osmanlı ordusundan istefa verərək Azərbaycandakı türk qoşunlarına komandanlığı Mürsəl paşaya təhvil verdi. Özü isə Azərbaycan ordusunu komandanı vəzifəsinin icrasına başladı. Eyni zamanda Nuru paşa Azərbaycanda qalmaq istəyən türk zabitlərinin hüquqlarının tənzimlənməsi üçün müqavilə təttib etdi. 15 maddədən ibarət olan bu müqavilə "Azərbaycan hökuməti ilə burada qalacaq zabitan üçün əqd edilən müqavilə şəraiti" adlanırdı. Həmin müqavilədə aşağıdakı məsələlər əhatə olunmuşdu:

> 1.Azərbaycan xidmətinə girəcək zabitan və məmurin məzkur hökumət təbəəsi olacaqdır. Cəza və mükafat xüsusunda da Azərbaycan qəvaninə də tabe olacaqdır.
>
> 2.Zabitanln rütbeyi-haliyyələri qalacaqdır (fəxri təbiri qalacaqdır). Türkiyədə gidemən tərfi edənlər burada bir dərəcə müvafiq rütbə qazanacaqlar.
>
> 3.Hər zabitə sənədə əzimət və övdət daxil olmaq üzrə iki ay məziniyyət veriləcəkdir. Bu iki ay maaşı hərəkətindən əvvəl peşinən (nağd – M.S.) və kamilən olacaqdır. İzinli gələcək zabit məzuniyyət bidayətindən bir ay əvvəl mafövqünə məlumat verəcəkdir.
>
> 4.Hər zabit bir sənədən əvvəl kontraktını fəsh etmək haqqına malik deyildir. Ancaq mazerati-səhiyyə və meşrezasına binaən daha əvvəlcə fəshi icab edərsə beşinci maddədəki təzminat əta edəcəkdir.
>
> 5.Hökumət kontraktı fəsh etmək istədiyi təqdirdə altı maaş nisbətində təzminat verəcəkdir. Cəza surətiylə fəshlərdə təzminat verilməz.
>
> 6. Osmanlı zabitanından olub Azərbaycan xidmətinə daxil olan zabitanın orduda məhəlli-məhəlli izdihamını Azərbaycan qolordusu komandanı təyin edəcəkdir. Hərbiyyə nəzarəti və buna mərbut müəssisata təyin olunacaq bu kimi zabitan haqqında hərbiyyə nəzarəti və Baş komandanlıq arasında iltihaf lazımdır.
>
> 7.Azərbaycan hökumətinin kəndi qəvanini yapıncaya qədər Osmanlı qəvanini cari olacaqdır.
>
> 8. İşbu məvaddan biri hökumət tərəfindən yapılmadığı təqdirdə kontraktın hökumət tərəfindən fəsh edilmiş nəzəriylə baxılaraq altı maaş nisbətində təzminat veriləcəkdir.
>
> 9. Maaşat rütbeyi-haziranın Osmanlı və Azərbaycan zailəri yekunundan aşağı olmayacaqdır.

10. Azərbaycandakı xidmət müddətində xidməti-əsgəriyyəyə qabiliyyətini zaye edəcəkləri üç sənədən beş sənəyə qədər olmaq üzrə maaş nisbətində təzminat verəcəkdir.
11. Üç sənəni tamamən Azərbaycanda keçirəcəkləri xidmət müddətində altı aylıq mükafat veriləcəkdir. Üç sənənin xitamında kontraktı üç sənədən aşağı olmamaq üzrə təcdid edəcəkləri bir dəfəyə məxsus olmaq üzrə bir sənəlik maaş nisbətində mükafat verilir.
12. Zabitanın Türkiyədəki ailələrinə verilməkdə olan sifarişat və ərzağın fimabayt və verilməsi üçün Azərbaycan hökumətincə tədabiri ləvazimədə bunulacaqdır. Bunun üçün sərf oluunacaq təbaliğ Azərbaycan hökumətinin borcu olacaq və iki hökumət arasında məhsubu yapılacaqdır.
13. Hər zabit 4.11.18 tarixli və 2113 nömrəli şərtnamə məvadına nəzərən Azərbaycanda xidmət edəcəyini mübəyyən bir kontraktnamə və bundan məada hər zabit Azərbaycanda qalacağını orduya bir bəyannamə ilə bildirəcəkdir. İşbu kontraktnamə nüsxəteyn olaraq Azərbaycanın baş vəkili tərəfindən hökumət namına imza ediləcək, bir nüsxəsi zabitə və bir nüsxəsi də hökumətə qalacaqdır. Kontraktnamə və bəyannamələr bir həftəyə qədər orduya göndərilmiş bulunacaqdır.

Müqavilənin sonrakı bəndləri kontraktın bağlanmasının texniki məsələlərinə həsr olunmuş və müqaviləyə əlavə olaraq kontrakt və bəyannamənin nümunələri verilmişdi. Müqavilə Azərbaycan ordusunun komandanı Nuru paşanın 4 noyabr 1918-ci il tarixli 2113 nömrəli əmri ilə rəsmiləşdirildi. Azərbaycan ordusu tərkibində qalmaq istəyən türk hərbçiləri yuxarıdakı müqavilənin şərtləri ilə razılaşacağı təqdirdə belə bir kontrakt imzalamalı idi:

Azərbaycan ordusnun komandanına 4.11.34 (1918) v. 2113
nömrəli şərtnaməyə əsasən ______ sənə (il) Azərbaycan
ordusunda xidmət edəcəyimə təəhhüd edirəm.
________________ imza

Həmin şəxsin verməli olduğu bəyannamə aşağıdakı məzmunda olmalı idi:

___ sənə müddətində Azərbaycan ordusunda xidmət
etmək arzusunda bulunduğumu ərz edirəm
______________ imza

Ancaq Osmanlı Hərbiyyə Nazirliyinin oktyabr ayının 27-də verdiyi əmr türk hərbçilərinin Azərbaycanda qalmasını tamamilə qadağan etdi. Xeyli gecikərək Azərbaycana yuxarıdakı işlər görüləndən sonra gəlib çatmış həmin əmrdə deyilirdi:

1. 27.10.18 və 11.Ş.5887 nömrəli əmr vəziyyəti-axıra mucibincə məhfuzdur. Binaənələyh Şimali və Cənubi Qafqazda bulunan bilümum zabitan və əfrad iki ayı keçməmək şərti ilə 9-cu Ordu komandanlığına təyin ediləcək müddət ərzində 9-cu Orduya ilhaq ediləcəklər;
2. Əsliha və cəbbəxana dəxi 9-cu Orduya təslim ediləcəkdir;
3. İşbu əmrə itaət etməyənlər haqqında təqibati-qanuniyyə yapılacaqdır və 9-cu Ordu komandanlığı bu əmri Nuru paşaya, Mürsəl paşaya və Yusif İzzət paşaya isal edəcəkdir və nəticəni bildirəcəkdir.

Şərq Ordular Qrupu ləğv edildiyindən Azərbaycanda və Dağıstanda olan türk qoşunları

9-cu Orduya tabe etdirilmişdi. Ona görə Hərbiyə Nazirliyinin yuxarıdakı əmri ilə bağlı 9-cu Ordu komandanı Yaqub Şövqü paşa da müvafiq əmri imzaladı. Həmin əmrdə deyilirdi ki, Azərbaycanda və Şimali Qafqazda heç bir Osmanlı zabiti, əsgəri, silah və sursatı qalmamalıdır. 1918-ci ilin sonuna kimi türk qoşunlarının şəxsi heyəti və mülkiyyəti Azərbaycandan, habelə Dağıstandan çıxarılmalı idi. Bu əmrə tabe olmayanlara qarşı qanuni cəza tədbirləri tətbiq edilməli idi.

Bu əmrlər Nuru paşanın da Azərbaycan ordusunun komandanı kimi Azərbaycanda qalmasını mümkünsüz etdi. Eyni zamanda ingilis qoşunları komandanlığı da hansı keyfiyyətdə olmasından asılı olmayaarq türk hərbçilərinin Azərbaycanda qalmasına qətiyyən razı deyildi.

Nuru paşanın Azərbaycanı tərk etməli olacağı aydın olanda Azərbaycan hökuməti və Bakı şəhər ictimaiyyəti tərəfindən 1918-ci il noyabr ayının 10-da onun şərəfinə böyük bir ziyafət təşkil edildi. Bu ziyafətlə bağlı "Azərbaycan" qəzetinin 13 nouabr 1918-ci il tarixli nömrəsində Üzeyir Hacıbəyovun "Nuru paşa həzrətlərinin şərəfinə böyük bir ziyafət" başlıqlı yazısı dərc olunmuşdu. Həmin yazı aşağıdakı kimi idi:

> 10 təşrini-sani yekşənbə gününün axşamı Bakı şəhər əhalisi tərəfindən qəhrəman ordumuzun şanlı komandanı Nuru paşa həzrətləri şərəfinə yay klubunun zalında böyük və mətnətən bir ziyafət verildi.
>
> Klubun içi və dəhlizləri gözəı və purqiymət xalılar ilə döşənmiş, divarları dəxi ay-ulduzlu al bayraqlarla bəzənmiş idi. Yuxarıda böyük musiqi orkestri, aşağıda da həm Osmanlı və Azərbaycan türklərinə məxsus milli sazəndə və xanəndələr tərənnümsaz olmaqda idilər.
>
> Hökumət əhlinsən ümumi nazirlərimiz baş nazir ilə bərabər, şəhərimizin bütün böyük məmurları, ümumi zabitan əfəndilər, İran konsulu cənabları, ziyalılarımız, böyük tacirlərimiz və sair əyan və əşrəf ziyafətdə hazır idilər.
>
> Nuru paşa həzrətlərinin salona vürudu əsnasında musiqi orkestri tərənnümsaz olub, məclis əhli səfbəsteyi-ehtiram durub paşa həzrətlərini səmimiyyətlə salamladılar. Bədən hər kəs miz başında özünə məxsus olan yerini tutub ziyafət başlandı.
>
> Yemək əsnasında baş nazirimiz Fətəli xan Xoyski həzrətləri birinci olaraq bəliğ bir nitq söyləyib Azərbaycan türklərinin bəndi-əsarətdən xilas ilə naili-səadət olması yolunda tökülən Osmanlı türk qanına işarə ilə "bu qan və bu qan tökülən mübarək yerlər heç bir vaxt unudulmaz və xatirdən çıxmaz" buyurdular. Bədən Nuru paşa həzrətlərinə müraciətən idareyi-kəlam edərək Azərbaycan türklərinin təşəkkürati-əmiğanələrini paşa həzrətlərinə bildirib qədəh qalxızdı. O halda bütün hüzzar ayağa duraraq müzəffər və şanlı komandanımız paşa həzrətlərinin şərəfinə şərbətnuş olub sürəkli alqışlarla izhari-müsərrət və şadmani etdilər.

Ziyafət haqqında olan yazısını müəllif belə bitirirdi:

> Bu qədər nitq və alqışlara cavab olaraq Nuru paşa həzrətləri gözəl İstanbul şivəsi ilə ruhumuza ləzzət verən və məzmunca qəlbimizi bir taqım əndişələrdən təmiz qılmaqla sürur və şadmani-binahəyətimizi mövcub olan qayəty bəliğ və səlıis bir nitq iradilə məclis əhlini şərəfyab və minnətdar buyurdular.
>
> Bu nitqin təsiri oylə idi ki, hər kəsdən gələcəyə artıq əndişəsiz bir nəzər əmələ gəlib kəndində böyük bir ümid, yüksək bir ruh hiss edərək xoşbəxt və xoşvəxt bir hal ilə bir-birini təbrik edib məclisə xitam verdilər.

1918-ci il noyabr ayının 12-də Ənzəlidə olan ingilis qoşunları komandanı Tomson Bakıya bir heyət göndərdi. Həmin heyət noyabr ayının 17-də saat 10-da Bakının ingilis

qoşunları tərəfindən tutulacağını bildirərək həmin günə kimi şəhərin türk qoşunları tərəfindən boşaldılmasını tələb etdi. Nuru paşa Dağıstan və Azərbaycanda olan qoşunların daşınması üçün verilən vaxtın çox az olduğunu bildirsə də, ingilis komandanlığı vaxtın uzadılmasına razı olmadı. Bununla belə, ayın 17-nə kimi Bakı şəhəri tərk edilsə də, türk qoşunlarını Azərbaycandan daşımaq mümkün olmadı. Noyabrın 16-da 5-ci Qadqaz firqəsinin Bakı ətrafında olan 13-cü və 106-cı Qafqaz alayları, habelə Güzdək ətrafında olan 5-ci firqə qərargahı və 2-ci Azərbaycan diviziyası qərargahı Xırdalana nəql edildilər. Türk qoşunları komandanlığı da bura köçürüldü.

1918-ci il noyabr ayının 17-də ingilis qoşunları Bakıya daxil olanda türk qoşunları şəhərdən çıxarılaraq Biləcəri və Xırdalan ətrafına cəmləşdirildi. İngilis qoşunları komandanı general Tomson hələ Bakıya gəlməmişdən əvvəl tələb etmişdi ki, onlar gələnə kimi türk qoşunları Bakı və onun ətrafından uzaqlaşdırılsınlar. Ancaq təbii ki, belə böyük bir qüvvəni qısa bir zamanda yola salmaq qeyri-mümkün idi.Odur ki,Qafqaz İslam Ordusunun rəhbərliyi dəmir yollarında vəziyyətin əlverişli olmadığını bəhanə edərək hərəkət müddətini uzatmaq istəyirdilər. Belə olanda general Tomson Nurı paşanı yanına dəvət etdi və qısa müddət ərzində qoşunların şəhər ətrafından uzaqlaşdırılmasını ondan tələb etdi. Nuru paşa isə cavab verdi ki, o artıq Osmanlı ordusundan istefa vermişdir. İndi türk qoşunlarına Mürsəl paşa rəhbərlik edir və bütün tələblər də onun qarşısında qoyulmalıdır. General Tomson bu xəbəri çox narahatçılıqla qarşıladı. O qorxurdu ki, Nuru paşa Osmanlı ordusundan istefa veribsə, deməli, Azərbaycanda qala bilər. Bu isə Nuru paşadan gözləri bərk qorxmuş ingilis hərbçilərini qətiyyən təmin etmirdi. Ona görə general Tomson həm Osmanlı Ordusu rəhbərliyi qarşısında, həm də Azərbaycan hökuməti qarşısında Nuru paşanın dərhal Azərbaycandan çıxarılması tələbini qoydu. Azərbaycan hökuməti isə əslinə qalarsa, Nuru paşanın Azərbaycanı belə tezliklə tərk etməsini istəmirdi. Lakin vaxtın uzadılması da bir nəticə verməyəcəkdi.

Nuru paşa Qafqaz İslam Ordusunun komandanlığından istefa verdiyi üçün türk qoşunlarının Dağıstandan və Azərbaycandan çıxarılmasına albay Mürsəl bəy (paşalıq ona fəxri rütbə kimi verilmişdi. Qafqaz İslam Ordusunun ləğv edilməsi ilə bu Ordunun zabitləri, o cümlədən Mürsəl bəy də fəxri rütbəsindən məhrum olundu) rəhbərlik edirdi. O, ingilis qoşunları komandanlığına verdiyi məlumatda bildirirdi ki, noyabrın 24-dək Bakı ətrafında olan türk qoşunları Biləcərindən qatarla yola salınacaqdır. Dağıstanda olan qüvvələr isə noyabrın 26-dək Biləcərini keçməli idilər. Lakin Bakı-Dərbənd dəmir yolu xətti üzərindəki körpülərin xarablığı üzündən Dağıstandan daşınan qüvvələrin sonuncu eşelonu Biləcərini noyabr ayının 29-da tərk etdi.

Türk qüvvələrinin Qarabağdan çıxarılacağı təqdirdə vəziyyətin yenidən kəskinləşməməsi üçün Nuru paşa ora ingilis qoşun bölməsi göndərilməsi barədə məsələ qaldırdı. İngilis qoşunları komandanlığı bu məsələ ilə razılaşaraq Qarabağa öz hərbi bölməsini göndərdi və bundan sonra oradakı türk qoşunları da Gəncəyə daşındı.

Noyabr ayının 19-da türk hissə və birliklərinin komandirləri Gəncədə idilər. Qoşunların böyük əksəriyyəti də artıq Gəncə ətrafına toplaşmışdılar. Buradan da onlar dəmir yolu vasitəsilə Azərbaycanı tərk etməli idilər. Həmin gün günorta üstü şəhər bələdiyyə idarəsi Azərbaycanda öz xidmətlərini sədaqətlə yerinə yetirmiş olan türk zabitlərinin şərəfinə böyük bir ziyafət verdi. Şəhər bələdiyyə rəisi bu ziyafəti açaraq onun türk zabitlərinin şərəfinə təşkil edildiyini, Azərbaycan xalqına göstərdikləri yardımlar üçün onların heç vaxt unudulmayacaqlarını bildirdi. Bələdiyyə rəisindən sonra Mürsəl bəy və digərləri cavab nitqi söylədilər. Əhməd bəy Ağayev də ziyafətdə nitq söylədi və türk qoşunlarının Azərbaycana gəlməsi ilə Azərbaycanın müstəqilliyinin reallığa

çevrilməsini ifadəli şəkildə ziyafət iştirakçılarının nəzərinə çatdırdı. O eyni zamanda əlavə etdi ki, türk qoşunlarının gəlişi ilə ayaq açan müstəqil Azərbaycanın qorunması indi milli qüvvələrin qarşısında dayanan başlıca vəzifələrdən biridir.
Ziyafətdə Nuru paşa da uzun bir nitq söylədi. 15-ci firqə komandiri Süleyman İzzət bəy öz xatirələrində bu məqama toxunsa da təəsüüf ki, Nuru paşanın çıxışının təfsilatını verməmişdir.

1918-ci ilin sonlarından türk qüvvətləri Azərbaycanı tərk etməyə başladılar. Ancaq Azərbaycanda xidmət etmiş türk zabitləri və doyüşçüləri bu torpaqda keçirdikləri günləri uzun müddət yaddan çıxarmadılar. 9-cu Qafqaz alayının zabiti Mucib Kamalyeri sonradan öz xatirələrində Azərbaycanla bağlı belə yazırdı:

> Azərbaycanı görənlər oraları unutmazlar. Qafqaz və ötəsinin sevimli xalqını, bizdən bir parça olan qardaşlarımız məzlum və məğrur davranışlarıyla, qulaqlara xoş gələn ləhcələrilə, müharibələrə qatıldıqları cəbhələrdəki cəsuranə və fədakaranə xidmətləriylə, "dalda durma, qabağa; geridə durma, irəli" bağrışmalarını hepdən görür və duyur kimi olurduq və ən sonunda talehin acı bir cilvəsi olaraq onları toxunaqlı şərqiləriylə, laylalariyla, milli oyunlarıyla, mal və can qayğılarıyla baş-başa buraxıb birdən-birə necə ayrılmaq zorunda qaldığımızı içimiz yanaraq xatırlayır, mənliyimizin sarsıldıgını hiss edirdik Amma heç bir şeylərin yapılması mümkün deyildi. Osmanlı imperatorluğu da müttəfiqləriylə çökmüş, düşmənlər baş şəhri işğal etmiş, vətən səthini bir başdan ötəki başa qədər matəm qaplamışdı.

Dəmir yolunda yaranan çətinliklər üzündən türk qoşun hissələrinin təxliyyəsi yenə bir qədər gecikdi və 1919-cu iul yanvar ayının ortalarında sonuncu türk qoşun dəstəsi Ağstafada qatarlara yüklənərək Azərbaycan ərazisini tərk etdi. Bununla da Qafqaz İslam Ordusu hərəkatı başa çatdı.

## Sarmaşıqlı məzarlar

Azərbaycanın müstəqilliyinin qorunması, Azərbaycan xalqının bolşevik-daşnak zülmündən qurtarılması üçün silahlı çaröışmalarda şəhid olan türk hərbçilərinin sayı heç də az deyildi. Təkcə 5-ci Qafqaz firqəsinin Bakı şəhəri azad edildiyi günədək 1130 nəfərə qədər şəhir vermişdi. Bakının azad edilməsi üçün Azərbaycanda gedən müharibəyə qoşulan 15-ci firqənin 14-15 sentyabr tarixində məruz qaldığı itki də az deyildi. Ölənlərin və itkin düşənlərin sayı 150 nəfərdən artıq idi. Bakı uğrundakı döyüşlərdə Azərbaycanın milli qüvvələrindən ibarət olan Maştağa dəstəsində 11 nəfər şəhid olmuş və 44 nəfər də yaralanmışdı. Digər milli dəstələrdə isə itkilərin sayı barədə dəqiq məlumat yoxdur.
5-ci Qafqaz firqəsi ərkani-hərb rəisi Rüşdü bəy firqənin Azərbaycandakı hərbi fəaliyyəti haqqında yazdığı müfəssəl xatirələrinin sonunda qardaş köməyinə gəlmiş türk qoşunlarının verdiyi şəhidlərlə bağlı aşağıdakı qeydləri etmişdi:

> Beşinci Qafqaz fırqəsinin dörd buçuq aydan bəri Azərbaycanın istiqlalı uğrunda çarpışaraq verdiyi şəhid və məcruhların qanları ilə sulanan bu qardaş məmləkət topraqları üzərində, Gəncədə, Göyçay-Ağsu-Şamaxı-Bakı şossesi tərəfeynində,Müsüslü-Kürdəmir-Kərrar-Hacıqabul-Bakı dəmiryolu boyunda, Qarabağda və Kür nəhri sahillərində xalqın ziyarətgah halına qoyduğu bir çox

mütəvazi və həzin məzarlara təsadüf olunur ki, iştə bunlar irqinin imdadına segirdən Anadolu mehmetciyinin mübarək mə-zarıdır. Əksər yerlərdə mehmetciklə bərabər qoyun-qoyuna yatan azəri türkləri də vardır. Türk zabit və nəfəri Azərbaycanda əmsalsız bir fəraqəti-nəfsilə və yüksək bir duyğu ilə çalışmış və çarpışmışdır. Ana vətənin həmən hər guşəsində bir tək daha olsa əsgərə ehtiyaci-qəti varkən bidayətdə Beşinci Qafqaz fırqəsinin və biləxirə digər piyada və topçu qüvvətlərinin Azərbaycana göndərilməsi, türklüyün qurtarılması və oyanması uğrunda olduğu üçün pək də tənqidə layiq deyildir... Eyni irqə mənsub bu iki millət arasındakı rabitə və münasibət axıdılan qanlara bir qat daha rəsanət peyda etmişdir. Anadolu türklərinin, Azərbaycanın istiqlal və istiqbalı uğrunda yapdıqları çətin və qanlı müharibələr və mücadilələr əminəm ki, nəsildən nəslə nəql ediləcək, unudulmaz birər dastan halında qalacaqdır.

Azərbaycanın istiqlalı və istiqbalı uğrunda canından keçən neçə türk döyüşcüsünün sönməz xatirəsini, umıdulmaz xidmətlərini sözlə bundan da yaxşı ifadə etmək çətindir. Bu qanlı mübarizəyə qatılan insanlar üçün həqiqətdə həyatlarından da əziz olan dəyərlər mövcud olmuşdu: irqinin imdadına yetişmək, din və dil qardaşlarının çağırışına səs vermək, türklüyün varlığını qorumaq. Bu müqəddəs amallar yolunda Nuri paşanın silahdaşlarının neçəsinin haqqın müqəddəsliyinə qovuşduğunu dəqiq söyləmək çətindir. Ancaq onlar çoxdur. Təkcə 5-ci fırqə Azərbaycanda 1200-dən çox şəhid vermişdi. Əgər nəzərə alınsa kı, 5-ci fırqəyə aid olmayan hissələrdən və eləcə də Azərbaycan qüvvələrindən şəhid olanlar da xeyli cox idi, onda Azərbaycan torpaqlarının şəhid qanları ilə suvarılması barədə Rüştü bəyin sözlərinin təkcə şairanə duyğulardan və yalnız bədii təxəyyüldən doğmadığına əmin olursan.Bu qanlar Azərbaycanın istiqlalı üçün axıdılmışdı və yurdun hər bucağına şəhidlərin müqəddəs qanları hopmuşdu, Qafqaz İslam Ordusu ilə birgə Azərbaycana təşrif gətirmiş türk şairi Arif Ürfan Qaraosmanın təbirincə desək,onunla suvarılan torpaqda bitən çiçəklər də rəngini və qoxusunu dəyişmişdilər. Birgə mübarizənin əzəmətinə, haqq yolunda axıdılan qanın müqəddəsliyinə həsr olunmuş bu şerdə həm də gözlə görünməyən bir qəhrəmanlığın salnaməsi ifadə olunmuşdur. Filoloq-alim Alxan Bayramoğlu tərəfindən lütfkarlıqla təqdim olunan "Çicəklərlə" adlı şerdə Arif Ürfan Qaraosman öz fıkrini bədii şəkildə belə təsvir edir:

*Sordum bütün çiçəklərə*
*Bumu əsgi rəngləriniz?*
*Əvvəlcə siz sarı, pənbə,*
*Mavi bəyaz, mövr idiniz.*
*Şimdi sizi bən həp qızıl*
*Görüyoram. Əcəb nədən...?*
*Anlatınız, bu sirr nasıl?*
*- Çoxdan bəri kökümüzdən*
*Bizə gələn qızıl sudur.*
*Bunun üçün əsli, gözəl*
*Rənglərimiz bizim yoxdur.*
*Buralarda sanlı bir il*
*Hər gün bizim kökümüzə*
*Bir qırmızı su dögüyor*
*Topraqlardan üzümüzə*

- *Bu qızıl şey nədir?*
- *Qoxla,*
*Birər kərə həpimizi.*
*Mayamızı sən də anla*
*Söylətməkdən isə bizi...*
*Hər çiçəkdən bir qoxladım*
*Baxıb qaldım heyran-heyran.*
*Qərib-qərib çox ağladım,*
*Qoxuyurdu həpsi də qan.*

Azərbaycan xalqı onun nicatı və qurtuluşu yolunda canından keçən Anadolu mehmetciklərini minnətdarlıqla anırdı. Müqəddəsliyə qovuşan bu insanların məzarları ziyarətgahlara, and yerlərinə çevrilmişdi. Azərbaycan milli mücadiləsinin lideri M.Ə. Rəsulzadə ümumxalq duyğularını ifadə edərək Azərbaycan torpaqlarında şəhid olmuş türk övladlarını minnətdarlıqla anırdı:

> ... Sonra mənhus bir ixtilal nəticəsində məzarları münsi qalan Anadolu mehmetçikləri Bakıdakı şəhadətləriylə türklüyə yeni bir vücud əta ediyorlardı, Maddətən münsi, fəqət mənən bütün qəlblərdə mədfun bulunan bu qəhrəman şəhidlər yalnız Bakıdamıdırlar? Naxçıvandan, Qarabağdan, Şamaxıdan, Gəncədən ta Bakıya qədər bir yer varmı ki, orada böylə bir fədakar yatmasın?
>
> Əvət, Azərbaycanın hər cəhətində şairin təsvir etdiyi kimi "Sarmaşıqlı bir məzar" bulursunıız ki, "qızlar, gəliniər" tərəfindən ziyarətgah halına qoyulan bu məzar, qardas imdadına qoşan "TÜRK" məzarıdır.

"Sarmaşıqlı məzar" dedikdə M.Ə. Rəsulzadə azadlıq sairi Əhməd Cavadın Azərbaycandakı Osmanlı şəhidlərinə həsr etdiyi "Şəhidlərə" şeirini nəzərdə tuturdu. Bu şeir Nuri paşanın şəhid düşmüş silahdaşlarının xatirəsinin əbədiləşdirilməsinə Azərbaycanın yaradıcı ziyalılarının həsr etdiyi ən yaxşı ədəbi nümunələrdən biridir. Burada şairin türk şəhidlərinə bəslədiyi səmimi minnətdarlıq hissləri həzin bir kövrəkliklə birləşərək dinləyənlərin də qəlbinə yol tapır və onların da daxili qəlb yanğınlarının alovlu ifadəçisinə çevrilir:

*Oalx, qalx, sarmasıqlı məzar altından,*
*Gəlmis ziyarətə qızlar, gəlinlər.*
*Ey karvan kecidi, yollar üstündə*
*Hər gələn yolçuya yol soran əsgər.*

*Sənin qovduqların yabançı xanlar,*
*Qurtardı ölkəni tökdüyün qanlar.*
*Bax nasıl öpməkdə tozlar, dumanlar*
*Qərib məzarını bənlə bərabər.*

*Sənin qanındanmı düzlərdə böylə,*
*Qüdrət bitirmişdir sayılmaz lalə.*
*Dost elindən qopdu bir yanıq nalə,*
*Yoxsa o naləni ruhunmu söylər?*

*Keçirkən göylərdən bir qatar durna,*
*Ağlar buraxdığın gözləri sorma.*
*Bax, doğru çıxmaqda gordüyün röya,*
*Bəslədiyin əməl bu gün gülümsər.*

*Çarıqlı qardaşın, sadədil köylü,*
*Gəldi məzarına bir örük urdu,*
*Toplaşıb baş-başa hər üçü durdu,*
*Hər gün köylü qızlar dərdini dinlər.*

1919-cu ilin sentyabrında Bakının indiki Şəhidlər xiyabanında özülü qoyulan möhtəşəm günbəzin ucaldılması türk şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə xidmət etməli idi. Təəssüf ki, bütün şəhidlərə ümumxalq məhəbbətinın və minnətdarlığının simvoluna çevrilməli olan bu abidənin tikintisi başa çatmadı. Həmin abidənin tikintisi nəinki dayandırıldı, hətta türk və türkçülük sözü rəsmi yasağa çevrildi. Bu ad və anlayışla bağlı olan qəbirlər yerlə yeksan edildi, türkçülüyə bağlılıqda suçlandırılan yüzlərlə-minlərlə insanlar həbsxanalara atıldı. Yeni quruluşun ideoloji ehkamları türkçülük və müsavatçılıqla bir araya sığmadığı üçün Azərbaycanda şəhid olmuş türk övladlarının xatirəsinin də hətta yaddaşlardan,zehinlərdən silininb atılmasına cəhd göstərildi. Bu işin başında dayanan, kommunist donuna bürünmüş keçmiş daşnaklar və onların məsləkdaşları nə qədər dağıntılara və insan qanına bais olsalar da qanı bir,canı bir qardaşlarına nicat gətirən türk əsgərlərinin xatirəsini Azərbaycan xalqının qəlbindən silə bilmədilər. Həmin hadisələrin şahidlərinin və iştirakçılarının dildən-dilə ötürdükləri xatirələr rəsmi qadağalara baxmayaraq həmin rəsmi ehkamlarının özündən daha dərin köklər ata bildi, yaddaşlara hopub əbədiyyət qazandı. Xalqların iradəsi, onun Anadolu mehmetciklərinin xatirəsinə bəslədiyi ehtiram heç bir qadağa çərçivəsinə sığmadı. Elə buna görə də kommunizm ideyalarının ən gur addımlarla dünyaya meydan oxuduğu bir zamanda da minnətdar Azərbaycan vətəndaşları Bakı-Şamaxı yolunda türk şəhidinin məzarını abadlaşdırdılar və onu bütün türk şəhidlərinin ümumiləşdirilmiş Anıt abidəsinə çevirdilər. Ötən illər ərzində buradan keçən elə bir Azərbaycan türkü tapmaq olmazdı ki, həyatlarına bu torpaqda son qoyulmuş rürk şəhidlərini həzin laylalarla səmimibir minnətdarlıqla xatırlamasın, onların ruhuna dualar oxumasın və yaradandan onlara rəhmət diləməsin. 90-cı illərdən başlayaraq Nuru paşanın Azərbaycana gəlişi, Qafqaz İslam Ordusunun buradakı fəaliyyəti və konkret olaraq Bakı-Şamaxı yolu üzərindəki türk qəbri barədə yazılar mətbuat səhifəiərinə daha tez-tez çıxarılmağa başladı. Həmin yazılardan məlum olur ki, Şamaxı-Bakı yolunun üstündə Acıdərə keçidinin əbədi sakininə çevrilmiş Xilaskar Türk qəbrinin günümüzədək qorunub saxlanması çox böyük çətinliklər və sıxıntılar bahasına başa gəlmişdi və elə bu cəhətin özü də Azərbaycan səmasında dolaşan şəhid ruhuna hörmət və ehtiramın bir nişanəsidir.

Yeniləşmə ab-havasının Azərbaycana gəlişi ilə bu mövzuya müraciət edən ilk qəzetlərdən biri "Mübarizə" qəzeti olmuşdu. Həmin qəzetin 26 yanvar 1991-ci il tarixli sayında əsrin əvvəllərində Şamaxıda cərəyan edən hadisələr, bu qədim diyarın əhalisinin Nuru paşa ilə bağlılığı və Acıdərə vadisindəki türk əsgərinin qəbri haqqında çox geniş bir yazı dərc olunmuşdu. Redaksiyanın tapşırığı ilə bölgəyə gedən müxbir Babək Göyüş Şamaxının yaşlı və dünya görmüş insanları ilə söhbətlərindən sonra yol kənarındakı bu qərib və tənha şəhid qəbri haqqında maraqlı məlumatlar toplaya bilmişdi. Onun yazdıqlarına görə bu qəbrin abadlaşdırılmasına hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə cəhd göstərilmişdi. Şamaxnın Təklə kəndindən olan el

ağsaqqalı Məlik Məmməd kişi bu işi öz boynuna götürmüş və yol kənarındakı qəbri orada uyuyanın ruhuna layiq bir şəkildə abadlaşdırmağı qərara almışdı. O, ustalar tapmış, qəbrin sinə daşmı sifariş vermişdi. Qısa müddətdən sonra yaşıl rəngdə olan bu qəbir daşı hazır olmışdu. Daşın üzərində və yanlarında ərəbcə yazılar vardı. Azərbaycanda sovet hakimiyyəti gücləndikdən sonra bölgədə yaşayan ermənilər bir neçə dəfə bu qəbrin dağıdılmasına cəhd göstərmişdilər. Qəbri abadlaşdıran Məlik Məmməd kişi isə onların fitnəkarlığı ilə tutulub sürgün edilmişdi. 1937-ci ildə geri qayıtsa da xalqın bədxahları onun Şamaxıda dinc yaşamasına daha imkan vermədilər. Belə olanda Məlik Məmməd kişi Bakıya köçdü və orada da dünyasını dəyişdi.

Müəllif yazısında Acıdərə vadisində dəfn olunan türk şəhidinin Qiyas əfəndi olduğunu bildirir. Ancaq bir çox başqa yazılarda burada dəfn olunanın Qədir əfəndi olduğu yazılır. Həmin yazıların bir çoxunda eyni zamanda bu qəbrin yenidən abadlaşdırılması ilə məşğul olan şəxsin də əməyi və zəhməti qeyd edilir.

"Zaman" qəzetinin 21 aprel 1993-cü il tarixli nömrəsində Şamaxı yolunun kənarında dəfnı edilən şəhidin Qədir əfəndi olması yazılmaqla onun uyuduğu qəbrin sonralar Qobustan rayonu sakini Babaxan Rzaxanov tərəfindən abadlaşdırıldığı qeyd edilir. Qəzetdə nəvələri ilə bərabər həmın qəbri ziyarət edən Babaxan kişinin şəkli də verilmişdir.

"Zaman" qəzetinin 24 dekabr 1994-cü il tarixli nomrəsində Babaxan Rzaxanovun vəfatından sonra onun gördüyü işlərdən daha geniş məlumat verilmişdir. Bu yazım və "Hər gün" qəzetinin 4 sentyabr 1998-ci il tarixli nömrəsində verilmiş yazını ümumiləşdirərkən belə bir aydınlıq yaranır ki, Şamaxı bölgəsində dünyaya göz açmış Babaxan Qara oğlu Rzaxanov sürücü imiş. Peşəsi ilə bağlı olaraq mütəmadi olaraq Bakı-Şamaxı yolu ilə hərəkət etməli və tənha şəhid qəbrinin yanından keçməli olurmuş. O da bütün sadə azərbaycanlılar kimi tək-tənha qalmış bu qəbirdə uyuyanın ruhuna rəhmət oxumağı özünə borc bilirmiş. Qəbrin abadlaşdırılmasına ehtiyac yarandığını görən Babaxan Rzaxanov bu işi öz öhdəsinə götürməyi qərara alır və 1964-cü ildə həmin qəbrin üzərində abadlaşdırma işləri aparılır. Ətrafda yaşayan ermənilər türk şəhidinin qəbrinin abadlaşdırılmasından qəzəblənərək bir neçə dəfə onu dağıtmağa cəhd göstərirlər. Buna nail olmayanda Azərbaycanın dövlət orqanlarına şikayət məktubları göndərilir. Babaxan Rzaxanov müvafiq orqanlara çağırılır, qəbrin sökülməsi barədə ona təzyiqlər göstərilir. Lakin B.Rzaxanov həmin təzyiqlərə dözür və əməllərindən peşiman olmadığını bildirir.

Yazılardan aydın olur ki, B. Rzaxanov abadlaşdırma işləri ilə bağlı bir molla da gətirərək hələ Məlik Məmməd kişi tərəfindən qoyulmuş sinə daşı üzərindəki ərəbcə yazıları da bərpa etdirir. "Hər gün" qəzetinin 28 avqust 1998-ci il tarixli sayında bildirilir ki, qəbrin sinə daşı üzərində yazı aşağıdakı məzmundadır: "Bir türk oğlu qəhrəmanındır bu məzar. Gör necə yer ilə yeksan eləyibdir xakzar... Ərseyi-hərb icrə bir aslanındır bu məzar. Bu qəbir Osmanlı alayı qoşunlarından olan zabitin qəbridir. Qafqaza gəldi, müharibə etdi və şəhid oldu... 1336-cı ildə şərəfli şəhadət daddı, ilqarını seçdi" (bu yazıda şəhidlik tarixi 1336-cı il göstərilir. Əslində isə 1918-ci il hicri-şəmsi ilə 1334-cü ilə bərabərdir – müəll.)

İlqarını Azərbaycan torpağında seçən bu türk oğlunun qəbrinin bu yurdda tənha olmadığı, onun bu yurda bağlılığının nəsillərə nümunə olması, özünün və məsləkdaşlarının xatirəsinin əbədilik yaşayacağı indi neçə-neçə yaradıcı adamlarımızın

da mövzu obyektinə çevrilmişdir. Şair Qabil Türk qəbri önündə keçirdiyi hisslərini belə ifadə edirdi:

Türkün qəbri
qədim Şirvan yollarının
üstündədir.
Azərbaycan torpağının
altında yox,
sinəsində,
köksündədir,
qollarının üstündədir.
... Dolu çırpdı,
qar ələdi,
leysan tökdü
neçə kərə.
Selə, suya dönüb daşdı
Acıdərə.
Gün yandırdı
qovurğa tək.
Qovruldu
daş,kəsək, torpaq.
Ancaq...
Türkün qəbri yenə qaldı.

İstedadlı şair-publisist, ömrünü Azərbaycan gənclərinin hərbi-vətənpərvərlik tərbiyəsi işinə həsr etmiş Ramiz Duyğunun 'Bayraq xilaskarısan" şeiri də türk əsgərinin göstərdiyi igidlikləri vəsf edən dəyərli bir sənət əsəridir. Bu şeirdə qardaşlıq yardımına gəlmiş insanların xatırəsi dərin bir minnətdarlıqla anılır.

Azərbaycan torpağında dəfn olunmuş türk şəhidinə müraciətlə yazılmış şerdə deyilir:

... Sən kiçik bir məzarda
Dəfn edilən cahansan.
Sən yüz yaşlı bahadır,
Sən yüz yaşlı cavansan.

Böyük amal uğrunda,
Ömrü kəsik, yarısan.
Sən dövlət cəngavəri,
Bayraq xilaskarısan.

Səksən ildən sonra mən
Qəlbimin tellərini
Ruhunun qarşısında
Xəfıfcə endirirəm.
Səksən ildən sonra mən
Üçrəngli bayrağımı
Qarşında endirirəm.

Sənin uca ruhunu

Bayrağıma bükürəm.
Mən bir ordu adından
Türk əsgəri önündə
Qatlanır, dız çökürəm.

XX əsrin sonlarında Azərbaycan xalqı öz müstəqilliyini bərpa edəndən sonra Nuru paşa ilə birlikdə mübarizə aparıb şəhid olmuş türk hərbçilərinin şərəfinə Azərbaycanın müxtəlif məntəqələrində türk şəhidlikləri yaradıldı. Bakının Şəhidlər Xiyabanında isə Qafqaz İslam Ordusunun şəhidləri xatirinə möhtəşəm bir kompleks ucaldıldı.

Nuru paşanın ingilis həbsindən azad edilməsi

Nuru paşanın xatirələrindəki qeydlərindən aydın olur ki, Azərbaycanı tərk etdikdən sonra o, birneçə nəfərlə Batuma gəldi. Buradan Artvin-Ərdəhan yolu ilə Qarsa və oradan da Ərzrum yolu ilə Trabzona üz rutdu. Trabzondan Nuru paşa gəmi ilə İstanbula yola düşdü. Onun hərəkətləri ingilislər tərəfindən izlənilirmiş və İstambulda gəmidən çıxan kimi Nuru paşa Hərbiyyə Nəzarətinin polisləri tərəfindən həbs edildi. Bir neçə gündən sonra isə o, ingilislərə təslim verildi. Nuru paşanın xatirələrindən:

> İstanbul hökumətinin son əmri ilə, Azərbaycanda bir nəfər də Osmanlı zabiti və əsgərinin qalmasına icazə verilmədiyi üçün qalmaq istəyənlərin sayı bir neçə nəfərə qədər azaldı. İngilislər Azərbaycan hökumətinə təzyiq göstərərək osmanlıların qalmasına mane oldular. İngilislərin təsiri ilə, Azərbaycan hökuməti Osmanlı komandanlığı vasitəsilə şəxsən özləri mənə müraciət edərək Azərbaycandan uzaqlaşmağımı istədilər. Əslində, ingilis komandanlığı Azərbaycanın müstəqilliyini ordumuz kimi müdafiə edirdi. Qarabağda müsəlmanlara hücum etmək istəyən erməniləri qorxutmuş və uzaqlaşdırmış, Lənkəran və Muğanın Azərbaycana tam birləşdirilməsinə yardım etmişdi. İngilislərin bu əlverişli hərəkətlərinə mane olmamaq üçün Azərbaycanı tərk etməyə qərar verən bir neçə yoldaşla, gələcəkdə qayıtmaq fikrilə Batuma getdik. Artvin və Ərdəhan yolu ilə Qarsa gəldim. Şevki Paşanın qərargahında bir gün qalıb, sonra Ərzurum yolu ilə Trabzona gəldim. İstanbula gedəcəyim gün gəmidən polis tərəfindən çıxarılaraq, Müdafiə Nazirliyinə gətirildim. Bir gün Bəkirağa hərbi hissəsində qaldım. O biri gün məni ingilislərə təhvil verdilər. İngilislər də məni Batuma apararaq beş ay Ərdəhan qışlalarında, bir ay da İvanovka hərbi hissəsində həbsdə saxladılar.

Heç şübhəsiz ki, ingilislər Nuru paşanın Azərbaycanda nə işlər gördüyünü və görə biləcəyini, 1918-ci ilin sentyabrında ingilis qoşun-larının Bakıdan qovulmasında onun rolunu yaxşı bilirdilər və ona görə də bütün bunların əvəzini ondan çıxmaq istəyirdilər. Nuru paşa Batuma gətirildi və 6 ay burada həbsdə saxlandı. Onun buradan sağ çıxmaq ehtimali yox idi və ingilislər onu edam etməyə hazırlaşırdılar. Nuru paşanın həbs edilməsi Azərbaycan ictimaiyyətində çox ciddi narahatçılıq yaratdı və onun azad edilməsi üçün yollar axtarışına başlandı. Bu məsələ ilə bağlı Yevlaxdan 27 nəfərin imzası ilə Azərbaycan parlamentinə xüsusı bir teleqram da göndərilmişdi. Həmin teleqramda deyilirdi:

> Keçən il anarxiya nəticəsində baş vermiş ağır günlərdə Nuru paşa Azərbaycanda idi. O özünün ədalətli və bacarıqlı hərəkətlərilə böyük təhlükənin qarşısını ala bilmişdi. Yalnız onun bu ədaləti və bacarığı sayəsində millətlər arasındakı milli müharibə dayandırıldı. Biz azad nəfəs almağa başladıq. Lakin

bizə çatan kədərli məlumata görə sevgi və təşəkkürə layiq olan bizim xilaskarımız xəbis adamların yaydıqları iftiralar nəticəsində həbs olunmuşdur. Vətənimizin sülh şəraitində yaşaması belə nadürüstləri qane etmir. Biz Yevlax cəmiyyətinin üzvləri parlamentdən xahiş edirik ki, general Nuru paşa təcili olaraq həbsdən azad edilsın. Bununla da qəhrəmanımız Nuru paşanın qəlbi qəsdlərdən xilas olsun. (Teleqramın mətni Ş. Nəzirlinin "Qarxunlu Əşrəf bəy" kitabından götürülmüşdür. Bakı, 1998,s. 67)

Ancaq rəsmi yolla Nuru paşanı azad etmək mümkün deyildi. Bir tərəfdən ingilis qoşunları komandanlığı, digər tərəfdən də erməni daşnakları Nuru paşanı sağ buraxmaq istəmirdilər. Belə olanda başqa vasitələrə də əl atıldı. Bu barədə Nağı Şeyxzamanlı öz xatirələrində çox maraqlı faktları qələmə almışdır:

Günlərin bir günü Gəncədə idim. Eşitdim ki, ingilislər Nuru paşanı tutub Batuma gətiriblər. Orada ingilis hərbi tribunalına verəcəklər. Buna səbəb guya Bakının azad olunması vaxtı erməni qırğını törədilmişdir. Tez Bakı ilə telefon danışığı apardım və xəbərin doğru olduğunu öyrəndim. Gəncə ermənilərindən bir arayış almaq lazım idi ki, Nuru paşa Gəncəyə gəlişində ermənilərə heç bir pislik etmədiyi kimi, erməniləri mühasirədən qurtarıb hürriyyət verdiyini, həyatlarını təhlükəsizlik altına aldığını, bu yaxşılığa qarşı ermənilərin bir heyət göndərərək Nuru paşaya təşəkkür etdiklərini isbat etmək mümkün olsun. Arayışın alınması üçün Gəncənin irəli gələnləri ilə bərabər erməni milli təşkilatına müraciət etdim. Arayışı alacagıma qəti şəkildə inanırdım. Çünki həqiqət barədə arayış istəyirdim. Ancaq ermənilər xahişimizi rədd etdilər: "Biz uşaq deyilik Çox yaxşı bilirdik ki, Nuru paşanın bizə pislik etməməsi məqsədli idi. Nuru pasa çox yaxşı bilirdi ki, əgər Gəncədə erməni qırğını törədilsəydi, Bakinın tutulması vaxtı orada bir nəfər türk belə qalmayacaq idi. O gözlədi ki, Bakını tutub oradakı qırğını bitirsin və ondan sonra bizi qırsın. Ancaq mütarikə oldu, Osmanlı ordusu qırğına vaxt tapa bilmədi". Biz əliboş geri qayıtdıq. Bakıya gəldim, mərhum Nəsib bəylə görüşərək arayışı almadığımı və çox kədərli olduğumu söylədim. Nəsib bəy dedi: "Bəli, mən səni heç bu qədər kədərli görməmişdim. "Mən də dedim: "Nəsib bəy, ermənilər çox naşükürlük etdilər. Nuru paşanın haqqı olan arayışını mənə vermədilər". Nəsib bəy gülərək dedi: "Üzülmə, Nuru paşanın azad olmasının daha asan yolu var. Batumdan xəbər aldım. Hopa bəyləri plan hazırlayıblar. Nuru paşanı basqın ilə qurtaracaqlar. Ancaq pula ehtiyacları var. Sən 200 min manat götür Batuma get". "Əmr et, pul versinlər, axşam yola düşüm" - sevinərək dedim. Pulu alıb Batuma gəldim. Azərbaycan konsulu doktor Mahmud bəylə görüşdüm. Məsələni ona anlatdım və Nuru paşa ilə görüşüb-görüşməyəcəyimi soruşdum. Doktor dedi ki, imkan yoxdur. Ancaq Mürsəl paşa ilə görüşə bilərsən. İngilis komandanlığında nəzarət altındadır. Mən tez gedib Mürsəl paşa ilə görüşdüm. Mürsəl paşa dedi: "Aman, mənə bir şey etməyəcəklər. Ancaq Nuru paşanı edam edəcələr. Onun qaçırılmasının yolunu tapın. "Mən də gəlişimin səbəbini anlatdım. Çox razı qaldı...

Beləliklə, vaxtilə nicatına yetişmiş olduğu irqdaşlan da Nuru paşanı real ölümdən xilas etdilər və onu ingilislərin həbsxanasından qaçırtdılar.

Bu zaman məni qaçırmaq istəyən azərbaycanlı və batumlularla razılaşıb, silahlı mübarizə vasitəsilə qaça bildim. Mübarizə zamanı bir zabit, iki əsgər olmaqla üç ingilis, bizdən də bir batumlu öldü. Bir həftə Batumda gizləndikdən sonra

Acarıstandan yola çıxıb ilə yenidən Artvin, Ardanuç və Oltu təriqi ilə Ərzuruma gəldim.

Nağı bəy Şeyxzamanlı bir müddətdən sonra Nuru paşa ilə Bakıda görüşdüyünü yazırdı. Ancaq istər N.Şeyxzamanlının, istərsə də Nuru paşanın xatirələrində bu hadisənin baş verdiyi tarix dəqiq göstərilməmişdir. Nuru paşa öz xatirələrində yalnız onu qeyd edirdi ki, onu batumlu azərbaycanlılar xilas etdi. Hadisə günü baş verən atışmada isə bir ingilis zabiti ilə iki ingilis əsgəri və bir batumlu azərbaycanlı öldürüldü. Nuri paşanın qaçırılmasına Təməl bəy adlı bir azərbaycanlı rəhbərlik edirdi.

Nuru paşanın Batumdakı həbsxanadan nə zaman qurtarılması haqqında Kazım Qarabəkir paşanın yazışmalarında məlumatlar vardır. Həbsdən qurtaran Nuru paşa ilə görüşəndən sonra ona məlum oldu ki, bu hadisə 1919-cu il avqust ayının 8-dən 9-na keçən gecə baş vermişdi. Yazışmalarından aydın olur ki, Kazım Qarabəkir paşa Nuru paşanın həbsxanadan qaçırılmasına rəhbərlik edən Təməl bəylə də görüşmüşdü. Kazım Qarabəkir paşa Təməl bəylə görüşü haqqında belə yazırdı:

İşte bu adam şimdi bir parti namına Erzruma garib sualların cavabını almaq üzrə deleqe göndəriyor. Asil garibi, Nuru paşanı kaçıran Təməl bəy ismində bir azeri ilə bərabər... Təməl bəyə Nuru paşa vaqiəsini sordum. Nasıl qaçdığını, bir-kaç növbətçini vurduğunu unuz-uzadı anlatdı. "Qaçırmaq nə münasibətlə oldu, sənə bu vəzifəni kim verdi" deyə sordum. Diyor ki: " Nuru paşa Qafqaz komandanı olaraq məmləkəti qurtardı. Batumba məhbus yatmasına biz razı olmadıq. Bir kaç arkadaş qərar verdik, mən də cəsarətlə yapdım".

Nuru paşa həbsdən qaçdıqdan sonra bir həftə Batumun özündə gizləndi. Sonra isə Acarıstandan keçərək Artvin-Sarıqamış yolu ilə Ərzruma gəldi.

Kazım Qarabəkir paşa ilə görüşməmişdən əvvəl Nuru paşa ona məktub göndərdi və gələcək fəaliyyəti ilə bağlı baxışlarını ona açıqladı. Göndərdiyi məktubunun məzmunundan aydın olur ki, Nuru paşa Cənubi Qafqazda yeni bir siyasi vəziyyətin formalaşdırılmasını istəyirmiş. O, məktubunda üç el cümhuriyyəti haqqında söhbət açır və ermənilərlə gürcülərin də bu el cümhuriyyətində birləşdirilməsi ideyasına toxunurdu. Amma onu da təklif edir ki, belə bir qurumun yaradılmasına başlamazdan əvvəl ermənilərin işğalı altında olan Ardanuş, Şavşat, Ernik, Acara, Çoruh məntəqələri azad edilməlidir. Onun fikrincə bu cümhuriyyətin özünün ayrıca bayrağı, hökuməti olmalı idi. Nuru paşaya görə bu cümhuriyyətin ordusunu da qurmaq mümkün idi və bunun üçün hərbi məktəblərin açılmasını zəruri bilirdi.

Kazım Qarabəkir paşa Nuru paşanın bu ideyası ilə razılaşmadı və Osmanlı Türkiyəsinin mürəkkəb hərbi-siyasi şəraitdə oladuğu bir vaxtda belə bir ideyanın arxasınca düşməyin faydasını görmədi. Bununla Nuru paşanın Türkiyə daxilində fəaliyyət üçün irəli sürdüyü ideya dəstək almadı və onda o, yenidən Azərbaycana qayıtmağa qərar verdi. Kazım Qarabəkir paşa bu barədə yazırdı:

Nuru paşa pək namuslu bir insandır, fəqət hər hansı nerədən gəldiyi bəlli olmayan bu qəbil təlqinlərə qapıla bilər. Xüsusilə, xəyal etdiyi Azərbaycan dövləti üçün ümidinin boşa getməsi dolayısı ilə kəndisinə yeni bir cümhuriyyət bölgəsi göstərilirsə işi pək bəsit görərək xəyala qapılması mümkündü. İstər kəndi düşünüşün, istərsə ingilislərin pək incə şeytanlığı ilə safiyanə hərəkətə gəlsin, təklifinin nəticəsi bizim üçün zərərli bir işdir. Kəndisinin Azərbaycana getməsini müvafiq gördüm.... Azərbaycan hökumətini və xalqını tanıması etibari ilə oraya gedərsə bizə para yardımı imkanını da düşündüm.

Bu məsələ ilə bağlı Nuru paşaya göndərdiyi məktubunda isə Kazlm Qarabəkir paşa belə yazırdı:

Nuru paşa həzrətlərinə.

1. Elviyye-yi selasə haqqındakı mütaliat və mətalib-i aliləri haqqında qolordu (korpus –M.S.) komandanı paşa həzrətləri ilə bilətraf düşünüldü. Şimdiyə qədər cavabın gecikməsi vəziyyət-i daxiliyye-yi məmləkətin daha mühüm bir səhifəyə girməsindən mütəvəllit mühüm və davamlı meşqalədən naçidir.
2. Bu icabat münasibətilə zat-i alilərinə veriləcək cavabın sərahətən və təhrirən təsbit olunması zərurəti hasil olmuş və bəra-yi müzakirə səlahiyyətdar bir zatın göndərilməsinə bir sürətlə lüzum qalmamışdır.
3. Siyasət-i daxiliyyə və ümumiyyəmizin aldığı şəklə görə zat-i alilərinin şimdilik nam və hüviyyət-i mümtazələrini gizləməsi məmləkətin sələməti icabıdır. Mustafa Kamal paşa və Rauf bəy kimi bəzi qiymətdar zevatın milli mücahidə səhnələrinə atılmaları ingilisləri və bədxahan-e dövləti pək ziyadə kuşkunlaşdırmış və bu gün adəta dövlətin dövlətin başına qailə çıxarmaq üçün vəsilə ittixaz etmişlərdir. Hal bu mərkəzdə və hənuz Batum hadisəsinin bilə atəşi üzərində ikən məmalik-i daxiliyyəmizin siyasətlə əlaqədar olan elviyye-i sələsə işləriylə açıkdan məşğul olmaq və açıqdan bu havali ilə irtibat və müharibədə bulunmaq təqdir buyurulursa əleyhimizə bəzi nətice-yi məkuseye sövq edə bilər. Şübhəsiz bu cəhət təqdir buyurulmuşdur ki, bu aralıq Azərbaycan həvalisində ibraz-i məsai və fəaliyyət buyurmaları haqqında qərarı pək musip görüyoruz...

Kazım Qarabəkir paşanın digər yazışmalarından da aydın görünür ki, Nuru paşanı Azərbaycanda göndərməkdə əsas məqsədlərdən biri Türkiyəyə yardım edilməsi üçün Azərbaycandan pul toplanmasına çalışması olmuşdur. Amma məlumdur ki, Nuru paşa Azərbaycanın müstəqlilliyinin qorunması naminə bolşeviklərlə mübarizə yolunu tutdu ki, bu da sonralar Kazım Qarabəkir paşanın və onun silahdaşlarının rəğbəti ilə qarşılaşmadı.

Nuru paşanın yenidən Azərbaycana dönüşü

Kazım Qarabəkir paşa ilə Nuru paşanın yazışmalarından aydın olur ki, onların görüşü 1919-cu ilin sentyabrında olmuşdur. Nuru paşaya Azərbaycana getmək təklifi də o zaman verildi. Amma onun konkret olaraq sentyabr ayında, ya da sonradan Azərbaycana keçməsi haqqında məlumat verilmir. Hər halda həmin görüşdən sonra Nuru paşa yenidən Azərbaycana qayıtmaq qərarına gəldi. O, Naxçıvandan keçərək Qarabağa və oradan da Bakıya yollandı. Hazırda dövriyyədə olan faktlardan 1919-cu ilin sonlarına yaxın Nuru paşanın artıq Bakıda olması məlumdur.

Kazım Qarabəkir paşanın yazdıqlarından aydın olur ki, Xəlil paşa da ingilislər tərəfindən həbs edilərək Türkiyə ərazisində həbsxanada saxlanılırdı. Nuru paşa Batumdakı həbsxanadan azad edilən günü o da həbsdən azad edilibmiş.

Xəlil paşanın dərc olunmuş xatirələrindən aydın olur ki, o da uzun müddət Türkiyədə qala bilməmiş və Arazı adlayaraq Naxçıvana gəlmişdi. Onun sözlərinə görə o vaxt naxçıvanlılar da öz milli təşkilatlarını yaratmaqda idilər. 6-cı ordudan olan Xəlil bəy buradakı hərbi qurumlara rəhbərlik edirdi. Xəlil paşa bir ay burada qaldı və yazdıqlarına görə bu müddət ərzində vaxtını Xəlil bəyin rəhbərlik etdiyi hərbi dəstələrin təlimlərinə

kömək göstərməklə keçirdi. Sonradan isə o, Ordubaddan keçərək Qarabağa, oradan da Bakıya gəlmişdi.

Xəlil paşa Bakıya kiminlə gəldiyini yazmamışdır. O da Qarabağdan keçməklə Bakıya gəldi. Xəlil paşa ilə Nuru paşa Bakıda yenidən görüşdülər. Onların Bakıya gəlişi Azərbaycanın hökumət üzvləri və bir cox siyasi qüvvələri tərəfindən rəğbətlə qarşılandı. Onların Azərbaycanda belə qarşılanmaları ingilisləri xeyli narahat edirdi. Ona görə də ingilis qoşunları komandanlığı hər vasitə ilə Azərbaycan hökumətini Xəlil paşanı, Nuru paşanı və digər türk zabitlərini həbsxanaya atmağa məcbur etmək istəyirdi. Azərbaycanın İstanbuldakı diplomatik nümayəndəsi Cümhuriyyətin müttəfiq dövlətlər tərəfindən tanınmasına göstərdiyi köməklər üçün 1920-ci ilin yanvar ayının 22-də İngiltərənin buradakı Ali komissarına rəsmən minnətdarlığını bildirəndə ingilis komissarı da bu yardımın əvəzində Azərbaycan hökumətinin Bakıdakı türk zabitlərini həbs edəcəyinə ümid etdıyini söylədi. Görünür, İngiltərənin Qafqazdakı nümayəndələri də türk zabitlərinin, o cümlədən Xəlil paşa və Nuru paşanın təqib olunması barədə müvafiq göstəriş almışdı. Ona görə ingilislərin Qafqazdakı nümayəndəsi Uordropun Bakıdan göndərdiyi teleqramlarında və yazışmalarında türk zabitlərinin, konkret olaraq Xəlil paşa ilə Nuru paşanın adları da çəkilir. Onun 1920-ci il yanvar ayının 24-də Bakıdan göndərdiyi teleqramında deyilirdi:

> Xəlil paşa ilə Nuru paşa Bakıdadırlar. Birincisi bu gün Azərbaycanın baş naziri vasitəsilə mənə məktub göndərmişdir ki, əlahəzrət hökuməti Türkiyənin türk vilayətlərinin xarici dövlət arasında parçalanmayacağına və onların Türkiyənin ərazisi kimi qalacağına zəmanət verirsə onda bizim istədiyimiz hər şeyi etməyə hazırdır. O bəyan etmişdir ki, bolşevikləri xoşlamır və onlarla yalnız çıxılmaz vəziyyət üzündən əməkdaşlıq etmişdir. Baş nazir məndən soruşdu ki,həmin şəxslərlə nə edilməsini istəyirəm. Onları Azərbaycanda həbs etmək istəmirlər və onlar Azərbaycanı tərk etməyə məcbur edilərsə onda Türküstana və ya Dağıstana yollana bilərlər... Mən təklif etdim ki, onlar Türkiyəyə qayıtsınlar. Ancaq baş nazir dedi ki, onlar orada həbs olunacaqlarından qorxurlar. Əgər həmin şəxslərin həbs olunmayacağına zəmanət verilərsə güman edirəm ki, onlar Türkiyəyə qayıdarlar.

Uordropun 1920-ci il fevral ayının 5-də Tiflisdən göndərdiyi teleqramından aydın olur ki, Xəlil paşa ilə Nuru paşa hələ Bakıda imişlər. Uordrop Ənvər paşanın da adını çəkir. Ingilis komissarı bu türk zabitlərinin Azərbaycandan çıxarılması üçün Azərbaycan hökumətinə təzyiq göstərilməsinin onsuz da mürəkkəb vəziyyətdə olan Azərbaycan hökumətində böhrana yol aça biləcəyini qeyd edirdi. Onun fıkrincə "İttihad" partiyası hökumətə gələcəyi təqdirdə Nuru paşanın Azərbaycandan çıxarılması çətinləşəcəkdi. Çünki onun sözlərinə görə Nuru paşa ilə "İttihad" partiyasının rəhbərləri arasında çox yaxşı münasibət var idi.

Mövcud olan tarixi faktlardan aydın olur ki, Nuru paşa kifayət qədər qarışıq fikir və düşüncələrlə Azərbaycana dönmüşdü. O, Azərbaycana ilk gəlişində rəhbərlik etdiyi qoşun hissələri və silahdaşları ilə birlikdə Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi uğrunda bolşeviklərə və daşnaklara qarşı mübariə aparıb şəhidlər vermişdisə, yeni şəraitdə ona bolşeviklərlə əlaqələr yaratmaq, Türkiyənin parçalanmasının qarşısının alınması üçün bolşeviklərin mümkün yardımlarını əldə etmək tapşırığı almışdı. Türk tarixçilərinin (Nejdet Karaköse. Afrika qrupları komutanı, Kafkas İslam Ordusu komutanı, Sütlüce fabrikasının sahibi Nuri Paşa. Ankara, 2012, s.

332) yazdığına görə Nuru paşa Bakıya gələndən sonra Kazım Qarabəkir paşanın verdiyi təlimata uyğun olaraq Bakıda Türkiyə ilə Sovet Rusiyası arasında vasitəçilik edə biləcək bir qurum yaratdı, Azərbaycanda hakimiyyəti dəyişmək üçün türkiyəli ittihadçıların gizli şəkildə Bakıda yerləşdirilməsi ilə məşğul oldu. Türkiyədən bəzi millətçi qüvvələr və dairələr bu qurumun vasitəsilə Azərbaycanda müəyyən qeyri-rəsmi fəaliyyətə də rəvac verdilər. Əslində, Nuru paşa Azərbaycanın müstəqilliyinə qarşı bir tapşırığı yerinə yetirməli oldu.

Bu barədə Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin və fəallarının məlumatının olub-olmadığını söyləmək çətindir. Ancaq yuxarıda adı çəkilən tarixçi yazırdı ki, Nuru paşa yenidən Bakıya gələndə Müsavat hökuməti tərəfindən yaxşı qarşılandı və mühafizə edildi. Çünki Nuru paşa Azərbaycan millətçilərinin nəzərində bir qəhrəman idi. Burada onun həyatı üçün bir təhlükə də var idi. Xüsusilə, ingilislər Bakıda malik olduqları mövqedən istifadə etməklə onun həbsinə çalışırdılar. Hətta ingilislər Nuru paşanın tutulması üçün bir milyon rubl mükafat da təyin etmişdilər. Nuru paşanın həbsi üçün İngiltərə hökuməti də Azərbaycan hökumətinə müəyyən təzyiqlər etdi. Bununla belə Nuru paşa ingilislərə təslim edilmədi.

Amma Nuru paşanın Bakıdakı fəaliyyəti uzun sürmədi. Bir müddətdən sonra o, Dağıstana yollandı. Nuru paşanın Dağıstana yollanması orada Denikin qüvvələrinə qarşı vuruşmaq istəyi ilə əlaqələndirilir. Dağıstandakı fəaliyyəti dövründə Kazım Qarabəkir paşaya göndərdiyi məktublarından birində Nuru paşa hələ də bolşeviklərlə əlaqə yaratmaq istəyində olduğunu bildirirdi:

> Türkləri qurtarmaq üçün Azərbaycan hökumətini təərrüzdən məsun bulundurmaq və bunun üçün Şimalı Qafqazı təmizləmək və ingilislərin İran və Azərbaycanda yerləşməsinə əngəl olmaq, Türküstan təşkilatını qüvvətləndirmək üçün çox sayda insan göndərmək gərəkiyor. Amac doğrultusunda Bakıda bolşeviklərlə təmasa başlayaraq fikirlərini öyrənməyə və kəndiləriylə ilişgilərə girməyə çalışıyorum.

Dağıstanda olarkən Nuru paşa və onun ətrafındakılar Denikin qüvvələrinə qarşı mövqe tutsalar da, Azərbaycanın müsətilliyinə münasibətdə denikinçilərlə bolşeviklər arasında elə ciddi bir fərq yox idi. Məlumdur ki, Nuru paşa Dağıstan ərazisində denikinçilərə qarşı mübarizəni təşkil etməyə çalışırdı. Lakin tezliklə bolşeviklər burada möhkəmlənməyə çalışdılar. Nuru paşa yeni gəlişində bolşeviklərlə müəyən münasibətlər axtarmağa çalışsa da, Dağıstan ərazisində olarkən Nuru paşa ilə boşeviklər arasında artıq müəyyən ziddiyyətlər özünü göstərməyə başladı.

Nuru paşanın Dağıstandakı fəaliyyəti ilə tanış olan türk mənsublarından biri onun haqqında belə yazırdı:

> Nuru paşa gənc, zəki, sevimli bir zatdır. Kəndisində əsgərlikdən çox gözəl sənətlərə qarşı bir egitim və yetənək vardır. Fəqət olaylar kəndisini Dağıstan dağları içində qalmaya zorlamışdır. Məsrəflər Azərbaycan hökuməti tərəfindən ödənilməkdədir. Bolşevizm təhlükəsinə qarşı kəndisi və buyruğundakılar bir əngəl oluşdurmaqdadır. Bu böyük dönüşün hərəkətinə qarşı duramayacağını kəndisi də biliyor. Fəqət Türkiyənin savaşdan sonrakı bəlirsizliyi nədəniylə şimdilik oralarda vaxt keçirir.

Bu məlumatdan görünür ki, Nuru paşa Dağıstana yalnız öz istəyi ilə yox, həm də Azərbaycan hökumətinin istəyi ilə getmişdi və onun Dağıstandakı fəaliyyəti Azərbaycan hökuməti tərəfindən maliyyələşdirilirdi. Məlumdur ki, 1920-ci ilin əvvəllərindən başlayaraq Qarabağda hərbi şərait kəskinləşməkdə idi. Erməni daşnak qüvvələri Azərbaycanın bu bölgəsini qoparmaq üçün təcavüzkar fəaliyyətini

gücləndirməkdə idilər. Belə bir vaxtda Azərbayanın qoşun hissələri daha çox bu bölgəyə səfərbər olunmaqda idilər. Bununla belə Azərbaycanın müstəqilliyinə qarşı şimaldan Denikin təhlükəsi də qalmaqda idi. Görünür, Azərbaycan hökuməti şimal sərhədinin müdafiəsinin zəiflədiyi bir vaxtda Nuru paşanın Dağıstanda denikinçilərə qarşı fəaliyyətini faydalı bilmişdi.

Denikin təhlükəsi aradan qalxdıqdan sonra isə Nuru paşa bolşeviklərə qarşı da silahlı mübarizə yolunu tutdu. Nuru paşa fəaliyyəti ilə göstərdi ki, bolşevik qüvvələrinin Azərbaycana qarşı irəliləməsini, sonradan da Azərbaycanı işğal etməsini istəmir. Konkret tarixi şərait üçün Nuru paşnın bu mövqeyi Kazım Qarabəkir paşa və onun silahdaşları tərəfindən qəbul edilmirdi və Nuru paşanın mövqeyi hətta parçalanmaq təhülkəsindən nicat tapmağa çalışan Türkiyənin milli maraqları ilə səsləşməyən bir mövqe kimi qiymətləndirilirdi. Nuru paşanı bu mövqeyindən çəkindirmək üçün Kazım Qarabəkir paşa 1920-ci il mart ayının 17-də Nuru və Xəlil paşalara məktub göndərdi. Həmin məktubun bir yerində deyilirdi:

> ... Ordu və millət yek vücud bir qitə halında türklüyün və Türkiyənin xilas və nicatı üçün böyük bir əzm və inamla hazırlanmaqda və Müdafiə-yi hüquq cəmiyyəti heyət-i təmçsiliyyəsinin müqərrərat və əvamirinə intizar eyləməkdədir. Bu halda xilafət-i islamiyyə və səltənət-i Osmaniyyə ruhundan dərbələnmişdir. Bütün bu kin və hücum aləm-i islamış bolşevikliyə təmayülü və Türkiyənin və mərkəz-i xilafətin islam üzərində itilaf qüvvəsi və qalib dövlətlər əleyhində göstərəcəkləri təsirat-i mühtəmələyə qarşı yapılmaqdadır. Binaənəleyh millətmizin bütün müqabilə və istihzaratına rəğmən əleyhimizdəki təzyiqatı artıracaqdılar. Bunun üçün bolşevizmə zatən mühəyya olan məmləkətimizə və hüdudlarımıza bilfiil dayanması üçün dərhal Qafqazın istilası və hətta boloşeviklər kiçik bir qüvvətlə Azərbaycana gələrək azərbaycanlılarla bərabər hüdudumuza doğru hərəkəti halında təmin-i məqsədə pək kafi gələcəkdir...

Kazım Qarabəkir paşa sonradan da məktubla Nuru və Xəlil paşalara müraciət etdi və Türkiyədə ingilis işğalının genişləndiyi bir vaxtda Nuru paşanın ingilislərə qarşı olan bolşeviklərə müqavimət göstərməsini doğru saymadı.

Xəlil paşa bolşeviklərə qarşı mübarizə aparılmasını Türkiyənin milli maraqlarına cavab verməməsi qənaəti ilə razılaşırdı və buna görə Nuru paşanın Dağıstandan geri çağırılmasını lazım bilirdi. Bununla bağlı Xəlil paşa öz xatirələrində Kazım Qarabəkirdən aldığı belə bir teleqramı nümunə gətirir:

> Sovet Rusiyası ilə doğrudan doğruya təmas edə bilmək Türkiyə üçün həyati önəm halındadır. Bu durumda Nuru pasanın bolşeviklərə qarşı Dağıstanda cəbhə alması təəssüfə şayandır.

Xəlil paşaya başqa bir məktubunda isə Kazlm Qarabəkir paşa belə yazırdı:

> Sizin, Ənvər və Nuru paşaların indi başda gələn vəzifələriniz, sovet idarəsini türk hüduduna qədər ulaşdırmaq olmalıdır. Bu yolda yürünməsi lazımdır, əks təqdirdə hərəkət ediləcək olursa bu başqalarının durumuna yarayacaqdır.

Xəlil paşanın xatirələrində Nuru paşa ilə bağlı aşağıdakı parça da maraq doğurur. Bu sətirlərdən Nuru paşanın həyatının müəyyən məqamları açılır:

> Azərbaycandakı kommunist təşkilatı içində azəri gənclərdən başqa orada yerləşmiş bulunan türkiyəli bəzi gənclərlə türk ordusundan ayrılmış subaylar da var idi. Bu gün kommunist təşkilat liderlərindən minbaşı Baha Sait yanıma gəldi və söylədi:
>
> - Paşam, şimali Qafqazda toplanan Qızıl Ordu bir düşmən kimi deyil, bir dost

olaraq Azərbaycana gələcəkdir. Bunun da ən böyük dəlili budur ki, siz şəxsən Şimali Qafqaza keçərsiniz, bu ordunun komandanlığı sizə həvalə ediləcəkdir. Bu ən yüksək mərkəzin aldığı qərar cümləsindədir.

- Danışdığımız aramızda qalacaqdır. Amma sizə sadəcə indilik zamanın olğunlaşmasını gözləyəcəyəm-cavabını verirəm.

Bu arada Denikin qüvvələri məğlub edilmiş və Nuru paşa Qızıl Orduya qarşı müdafiəyə keçmiş idi. Bakı və ətrafındakı kommunist təşkilatı kimi Dağıstanda da bir yayılma başlamışdı, bu durumda Nuru pasa qüvvələrinin bu mübarizəni davam etdirməsi əbəs idi. Nuru isə davam edirdi. Bir gecə Baha Sait bu dəfə yanıma dağıstanlı kommunist Cəlal Qorxmazovu gətirdi. O dedi kı, Nuru paşanın qüvvələri tiikənmək üzrədir, özü də ölə bilər. Bu işə müdaxilə edin, onu geri çəkin.

Nuru paşa başına qoyduğu işdən başını vermədən ayrümazdı. Ertəsi gün Dağıstanın mərkəzi olan Qasımkəndə getdim, Nurunu tapdım. Onu özümlə gətirdim.

Nuru paşa Xəlil paşanın israrından sonra çox güman ki, Dağıstanda cəmlənmiş bolşevik qüvvələrinə qarşı ətrafında olan azsaylı qüvvə ilə mübarızə aparmağın mənasız olduğunu anladığı üçün Bakıya qayıtdı. Kazım Qarabəkir paşanın yazışmalarına görə 1920-ci ilin aprel ayının əvvəlində Bakıya gəldiyi, aprelin 11-də isə artıq Gəncədə olduğu məlum olur. K.Qarabəkir paşa onu da bildirir ki, bolşeviklər Azərbaycan hökumətindən Nuru paşanın həbs edilməsini də tələb etmişdilər ki, bu tələb qəbul edilmədi.

Azərbaycan bolşevik işğalına məruz qalanda Nuru paşa Gəncədə idi. Bakının işğalının ardınca bolşevik qüvvələri sürətlə qərbə doğru irəliləməyə başladılar. Nuru paşa Gəncədə qalmayıb Qarabağa yollandı və burada bolşevik işğalına qarşı xalq üsyanlarında iştirak etdi.

1920-ci ilin aprelində balayan bolşevik işğalından təxminən bir ay sonra, yəni 1920-ci ilin mayında baş vermiş məşhur Gəncə üsyanının ardınca Qarabağda da bolşevik hakimiyyəti əleyhinə üsyan alovlandı. Burada başlanan üsyanın planı Gəncə üsyanının gedişində hazırlandı  və onun həyata keçirilməsinə Karyagində başlandı. Bu üsyanın da aparıcı qüvvəsini Qarabağa erməni təcavüzünün aradan qaldırılması üçün göndərilmiş Cümhuriyyət hissələrinin şəxsi heyəti təşkil edirdi. Həmin qüvvələr yerli əhali tərəfindən də dəstəklənirdi və məhz yerli əhali ilə Cümhuriyyət hərbçiləri arasındakı fikir və əməl birliyi növbəti üsyanın geniş miqyas almasına səbəb oldu. Nuru paşa da bu qüvvələrin sırasında idi.

Sovet hakimiyəti əleyhinə Qaryagində təşkil edilmiş üsyanda Cümhuriyyət bölmələri, partizan dəstələri, yerli əhalinin bolşevik işğalı ilə barışmayan nümayəndələri iştirak edirdilər. Gəncə üsyanının başlanması barəsində xəbər alınan kimi bu qüvvələrin rəhbərləri Qaryagin ətrafında öz toplantılarını keçirdilər. Həmin toplandıda Gəncə üsyanının gedişi barədə, habelə Qarabağda olan bəzi bolşevik hissə və bölmələrinin Gəncə ətrafına aparılması barədə məlumat səsləndi. Toplantıda polkovnik Sofiyevin Cəbrayılda olan dəstəsinin Qaryaginə çağırılması və partizan dəstələrinin yaradılması haqqında qərar qəbul olundu. Ağdam ətrafında olan vəziyyətdən xəbərdar olmaq üçün hərəkatın fəallarından biri olan Cümşüd bəyin ora göndərilməsi məqsədəuyğun bilindi. Bundan sonra Qaryagindəki silahlı üsyanın mayın 29-dan 30-na keçən gecə başlanması qərarlaşdırıldı. Həmin üsyanın həyata keçirilməsi üçün təkcə Qaryagin qəzasında 20-yə

yaxın könüllü dəstə yaradıldı. Mayın 29-da Tofiq bəyin 50 nəfərlik süvari dəstəsi Yolçuda dayanan bolşevik postuna hücum etdi. Mayın 30-da yeni rejimin yerlərdəki hakimiyyət orqanlarının nümayəndələri həbs edildilər və qəzada hakimiyət milli qüvvələrin əlinə keçdi. Sovet mənbələrində olan məlumatlara görə Qaryagin qəzasındakı antisovet üsyanında Cümhuriyyət ordusunun bir süvari alayı, bir piyada alayı, bir top batareyası və iki pulemyot taqımı iştirak edirdi.

Yeni rejimin Qaryagindəki orqanları devrildikdən sonra Nuru paşa və polkovnik Zeynalov iyun ayının 3-də Şuşaya gəldilər. Onların məqsədi burada olan milli qüvvələri səfərbər edərək Şuşanı da bolşevik işğalı altından çıxarmaq idi. Bu vaxta qədər Şuşada olan milli qüvvələr müəyyən qədər formalaşaraq şəhərdə olan bolşevik qüvvələrinə qarşı müqavimət də göstərmişdilər.

Şuşa şəhəri XI ordunun 94-cü briqadasının 281-ci alayının nəzarəti altında idi. Briqadanın qərargahı isə Ağdamda yerləşmişdi. May ayının sonlarında milli qüvvələrin fəalları Ağdamdan Şuşaya çəkilmiş telefon xətlərini kəsməklə briqadanın qərargahı ilə Şuşadakı alay arasındakı rabitə əlaqələrinə son qoydular. Bir neçə gündən sonra telefon əlaqəsi bərpa edilsə də Şuşadakı milli qüvvələrin fəallığından qorxuya düşən briqada komandanlığı alayı Şuşadan çıxarmağı qərara aldı. Çünki alayın orada qalması onun məhvi ilə nəticələnə bilərdi .

İyunun 3-dən 4-nə keçən gecə Nuru paşa və polkovnik Zeynalov Şuşadakı milli qüvvələrlə birləşərək şəhərdəki sovet hakimiyyəti nümayəndələrinin hamısını işğal etdilər. Səhərisi gün isə Qarabağda sovet hakimiyyətinin devrildiyi elan edildi. Şuşa və onun ətrafındakı məntəqələrdə hakimiyyət orqanlarına milli qüvvələrin nümayəndələri gətirildilər .

Bu üsyanın qarşısının alınması üçün bolşevik hakimiyyəti çox böyük sayda hərbi qüvvələri Qarabağa səfərbər etdi və nəticədə iyun ayının 15-də Şuşa yenidən bolşeviklərin işğalı altına düşdü. Azərbaycanda bolşevik işğalına qarşı qalxan antisovet üsyanları yatırıldıqdan sonra Nuru paşa bir süvari Azərbaycan alayı, bir batareya və dörd pulemyotla Ərzruma gələrək Naxçıvan dəstəsinin tərkibinə qatıldı. Həmin süvari alayı 15-ci türk korpusunun 15-ci süvari alayı kimi İstiqlal mücadiləsində iştirak etdi. Bununla Nuru paşa Azərbaycan ərazisini bir dəfəlik tərk etdi.

Nuru paşanın sonrakı taleyi

Qarabağda antisovet xalq üsyanının yatırılmasından sonra Türkiyəyə qayıtmalı olan Nuru paşanın sonrakı həyatı Türkiyə ilə bağlıdır. Öz doğma vətəninə qayıtması ilə Nuru paşa yeni sınaqlarla üzləşməli oldu. Hər şeydən əvvəl Sovet Rusiyasının bolşevik rəhbərliyi Azərbaycanda bolşevik hakimiyyətinə qarşı qətiyyətli mübarizə aparan Nuru paşanın təqibini Türkiyə ərazisində də davam etdirdi. Sovet Rusiyanın rəhbərliyi ilə Türkiyənin müxtəlif səviyyəli heyətləri arasında aparılan danışıqlar zamanı Nuru paşanın Qarabağda sovet hakimiyyətinə qarşı mübarizə aparması ciddi tənqidlə qarşılandı və Türkiyə milli mücadiləsinin fəalları qarşısında onun nəzarət altına alınması məsələsi qaldırıldı. Doğrudur, Türkiyə ərazisində Nuru paşa həbs edilmədi, lakin onun bolşevizmə qarşı cəbhə tutması təqdir də olunmadı.

Qarabağda qarşısına qoyduğu məqsədə çata bilməməsi heç şübhəsiz ki, Nuru paşanın mənəvi və fiziki gərginliyini daha da artırdı. Bunlar Nuru paşanın bütün durumunda da özünü göstərməyə başladı. Bir tərəfdən də dolanışıq çətinliklərinin mövcudluğu Nuru paşanın həyatında ağrılı səhifələrdən birini açdı.

Yeni şətaitdə Nuru paşanın ailə üzvləri də pərən-pərən düşmüşdü. Qardaşı Ənvər paşa ingilis təqiblərindən qaçaraq Rusiyaya sığınmış, anası Aişə İstanbulda tək qalmış, digər qardaşı Kamil və bacısı Mediha da yeni şəraitin çətinlikləri ilə üzbəüz qalmışdılar.

Mövcud faktlardan aydın olur ki, Azərbaycanın bolşevik işğalından sonra Xəlil paşa da Türkiyəyə geri döndü. 1920-ci il sentyabr ayının 12-də Xəlil paşanın Ərzrumdan Ənvər paşaya yadığı məktubunda Nuru paşanın da onun yanında olduğunu qeyd edirdi. Xəlil paşa həmin məktubunda Nuru paşanın mənəvi və fiziki yorğunluqlar içərisində olduğunu, sıxıntılı günlər keçirdiyini, istirahətə ehtiyac duyduğunu və nəhayət ailə üzvlərinin maliyyə problemləri ilə qarşılaşmalı olduğunu yazırdı:

> ...Qardaşım Nuru ilə bərabər buradayız. O da olduqca güc və sıxıntılı günlər keçridi. İndi həmd olsun, salamat və afiyətdir. Pək yorulmuş olduğu üçün artıq bir müddət istirahət edərək dinlənməyə qərar vermişdir.

Sentyabr ayının 12-də Nuru paşa da Ənvər paşaya məktub yazdı. Həmin məktubda o özünün və ailə üzvlərinin rastlaşdığı çətinlikləri də qısaca qələmə aldı. Nuru paşa bu məktubunda hətta hərbi və siyasi fəaliyyətlə vidalaşcağını da Ənvər paşanın nəzərinə çatdırırdı. Eyni zamanda rəssamlıqla məşğul olmaq barədə fikir söyləyirdi. Bu isə onu deməyə əsas verir ki, Nuru paşanın rəssamlıq qabiliyyəti də var imiş:

> Ağabəy (Ənvər paşaya müraciət forması-M.S.)
>
> Ailəmizin hər fərdi ki, siz de epeyicə sıxıntılar çəkdiniz. Çox şükür ki, təhlükəsiz keçdi. Erkəklərdən məada ailəmizin qadınlarına da təzyiqat yapılır. İlk təcrübəni Medihada yapdılar.
>
> Sultan efendi ( Ənvər paşanın həyat yoldaşı nəzərdə tutulur - M.S.) ilə ablamın Berlinə və ya Vyanaya keçmələri iyi oldu. Biçarə anam nə yapacaq? Kazım bəy Medihanı Ərzruma gətirir. Ehtimal anam də gəlir. Fəqət geçmək pək müşgül. Burası o qədər bahalı ki, mən ən son vaqiədən sonra artıq siyasət və əsgərliklə qəti-əlaqə edirəm. İyi bir rəssam ola bilsəydim şimdi keçinəcək qədər (fəqət bizdə rəssamlıqla geçinmək qeyri-mümkün ya nə isə) para qazana bilirdim, sanıram.
>
> Məmafih, sizə nəzərən mənim yüküm xəfif. Tək başına olduqdan sonra nərədə olsa qarnımı doyura bilirəm. Azərbaycan vaqiəsindən dolayı yanınıza gələməyəcəyimi təxmin edirəm. Medihadan bir xəbər aldıqdan sonra Kazım bəy də nəzdinizə gedəcəkdir. Mən də baxalım. Hörmətlə əllərinizdən öpərim. Nuru.

Amma Nuru paşanın istirahəti çox da uzun çəkmədi. 1920-ci il sentyabr ayının sonlarında Nuru paşa Türkiyənin azadlıq mübarizəsinə qoşuldu və Sarıqamış ətrafında döyülərə qatıldı. Nuru paşa bu döyüşə onunla birlikdə Türkiyə ərazisinə keçmiş Azərbaycan milli süvari alayı ilə daxil oldu və bir daha Azərbaycana bağlılığını nümayiş etdirdi. Onun qatıldığı döyüş də uğurlu oldu və Azərbaycan süvari alayı 1920-ci il sentyabr ayının sonlarında Sarıqamışı ələ keçirdi. 1920-ci ilin oktyabrında Nuru paşa Azərbaycan süvari alayı ilə artıq Ərzrumda idi. Tarixi ədəbviyyatda, habelə Ənvər paşanın yazışmalarında olan məlumatlara görə 1920-ci ilin sonlarında Nuru paşanın bir dəfəlik ordudan ayrıldığını söyləmək mümkündür.

1921-ci ilin əvvəllərindən Nuru paşa öz biznesini qurmağa çalışır. O özünün emelatxanalarını qurmaqla silahların, hərbi təchizatın təmiri ilə məşğul olurdu. Bunu o, 1921-ci il aprel ayının 1-də Ənvər paşaya yazdığı məktubunda da qeyd edirdi:

> Əziz Ağabəyim
>
> Ərzrumda iş ocağı namı ilə metruk makinaları təmir etdirərək böyük bir emalatxana təsis etdirməkdəyəm. Metruk malzəmə o qədər çoxdur ki, Anadolu sənayesini tərəqqi etdirmək üçün lazım olan bu malzəməni işlədərək təmini

mümkündür. Ocağın Trabzon və Erzincanda birər şöbələrinin təsisini və qırıq avtomobilləri təmir etdirərək Ərzrum-Trabzon, Horasan-Qarakilsə arasında avtomobil qolları işlətməsini və Sarıqamışda metruk bulunan bir kaç hezar fabrikasının Rizə ormanlarına nəqlini təklif etdim. Nəqliyyədən gələcək karı göstərmək üçün Ərzrumdan Trabzona altı okka üçün 95 quruş nəqliyyə ücrəti alındığını və şehri üç yüz min kilo nəqliyyta olduğunu söyləmək kafidir.

Palantökən yanındakı qaz mədəni də işlədiləcək bir haldadır. Toplanılacaq sərmayə ilə qumaş və dəri fabrikaları təsisi üçün də lazım olan makinaları Avropadan gətirmək mümkün olacaqdır. Yalnız bunların həpsini yapacaq qədər oturmaq istəyirəm. Səlahiyyətlər və zehniyyət başqadır. Haqqımdakı təklifinizi bir müddət üçün mən də müvafiq buluram. Rəssamlıq və türk tarixi əsaslarını tədqiq etməyi məslək olaraq qəbul edirəm. Burada başladığım işin əsasını qəsir müddətdə bitirəcəyimə qaniyəm. Ərzruym iş ocağı quruldu. Ermənilərdən iğtinam edilən 12 milyon ingilis fişəngini təhlil üçün bir makina yapdım. Müvəffəqiyyət hasil oldu. Boş qovanları imha etmək üçün də makinalar yapılmaqdadır. Tökməxanamız gündə 120 metr qumaş çıxarır. Hər gün təzayüd etməkdə. Ərzincandakı xarab fabrikdən bir miqdar makina təmin etdirə bilərsək qumaş hasilatı daha çox artacağına qaneyəm. Berlinə getmək üçün bir az müşkülat çəkəcəyəm. Əvvəla yol parası lazım.

Dairə müdiri İbrahim bəylə mənim anlaşmam uzun sürəcək. Şükrü yerini dəyişdirmək üçün sizin yazmanız daha səri və əmin olur. Mürəssa saatı satmış. Trabzon sansur məmuru Fuad əfəndi Xəlil paşanın əski parasını birisi vasitəsiylə göndərmiş. Vapurla İtaliyanı dolaşaraq getməkdən başqa yol yox. Varna tarixi varsa da, hənuz tədqiq etmədim.

Rusiyadan getmək də bir türlü bizcə kolay başqa bir yol olursa lütfən yazarsınız.

Mən bir buçuq, iki ay sonra Trabzon şöbəsinin təsisi üçün oraya getmək istəyirəm. Cavabınızı orada alacağıma ümid edirəm.

Bu məktubda da Nuru paşa haqqında bir sıra maraqlı məqamlar vardır. Nuru paşa emalatxana açdırsa da, onun maliyyə sıxıntıları qalmaqda idi və hətta Berlinə getmək üçün onun lazımi qədər pulu yenə də yox idi. Sonra məlum olur ki, Nuru paşa işlətdiyi emalatxanaların Rusiyada da şöbəsini açmaq fikrinə düşübmüş. Amma məlumdur ki, Nuru paşa Almaniyaya səfər etsə də Rusiyaya səfər etmədi.

1921-ci ilin əvvəllərindən başlayaraq Ənvər paşanın ailəsinə və yaxınlarına qarşı təzyiqlər bir qədər də artdı. Çünki 1921-ci il mart ayının 12-də Türkiyə Böyük Millət Məclisi Nuru paşanın və Ənvər paşanın Anadoluya gəlməsini qadağan edən qərar qəbul etdi. Ona görə Ənvər paşanın yaxınlarına qarşı da müəyyən sıxıntılar möcud idi. Ənvər paşanın yaxınlarından bəziləri Avropaya köçmüşdülər. Nuru paşanın Ənvər paşaya yazdığı məktubuna görə demək olar ki, Nuru paşanın da Avropaya köçmək məsələsi qalxıbmış. Ənvər paşa kiçik qardaşı Kamilə 1921-ci il avqustun 10-da yazdığı məktubunda da Nuru paşanın Berlinə gələ biləcəyinə işarə edilir. Amma Nuru paşa uzun müddər Berlində qalmağı qəbul etməyib. Ənvər paşaya 22 avqust tarixli məktubunda Nura paşa yazırdı:

Möhtərəm Ağabəyim

Dün bir məktub göndərdim. Bugün emin vasitə bulunduğumdan təkrar göndərirəm. Kazım bəy Ankarada. Mediha və cocuqlar, mən, anan buradayız. Anan 15 gün sonra İstanbula dönəcək. Mən yarın Ankaraya mütəvəccihən hərəkət edirəm. Bir vəzifə ilə mükəlləf deyiləm. Ankarada qalmaq niyyətində deyiləm.

Ancaq Avropada yaşamaq üçün ya Sultana ( Ənvər paşanın xanımı nəzərdə tutlur – M.S.), ya eniştəmə yük olmaq xoşuma gəlmir.

Buradakıların bizlərə qarşı pər hüsnü-nəzər yox. Ancaq mənə bir şey dedikləri də yox. Bu son mücadilə əsasında kəndi istəyimlə məmləkəti tərk etmək istəmirəm. Məcburiyyət görürsəm tərk edəcəyim təbiidir. Anan maaşının qət olacağını zənn edir. Mən kəndisinə məalasef baxacaq halda deyiləm. Bunun üçün kəma fis-sabiq kəndisinə para verilməsini istəyir. Avropaya keçməyəcək olursam evlənmək istəyirəm. Karçıbaşıların Həmidə xanımın qızı varmış. Gözəlcə və daha gənc olduğu üçün hoppalaşmamış. Mən də başqa dürlüsü ilə yaşayamam. Babası Tahir paşanın tügəngçilərindən ana tərbiyəsi iyi. Paraları yox. Prinses İffət xanımın qızı da var. Amma həvayi meşreb olmuş.

1921-ci ilin avqust ayında Nuru paşa Ankaraya gələndə səhhətində problemlər var imiş. Ənvər paşanın yazışmalarından aydın olur ki, bir müddət sonra Nuru paşanın səhhətinin yaxşılaşmışdır.

Amma görünür Nuru paşanın xəstəliyi ciddi imiş və Berlində olarkən səhhətinin müalicəsi ilə də məşğul olmuşdu. Onun Berlinə gəlməsi 1922-ci ilin ilk aylarına təsadüf edir. Nuru paşanın Berlinə gəlməsinin nə ilə bağlı olduğunu söyləmək çətindir. Çünki Nuru paşa xəstəliyini müalicə edəndən dərhal sonra heç də Türkiyəyə qayıtmadı və bir də 1923-cü ildə Türkiyəyə döndü.

Məlumdur ki, Ənvər paşanın xanımı Naciyə xanım, Ənvərin uşaqları və qardaşı Kamil bəy Berlində yaşayırdılar. Ənvər özü bu zaman artıq Orta Asiyada idi və burada bolşeviklərə qarşı mübarizə aparırdı. Ənvərin qardaşı Kamil bəy Ənvərin ailəsinin qayğısını öz üzərinə götürmüşdü. Nuru paşa Berlinə gələndə Naciyə xanımla Kamilin yanında qaldı. Səhhətinin müalicəsini Nuru paşa Münhendəki sanatoriyada davam etdirdi.

Berlində olarkən Nuru paşa qardaşı Ənvər paşa ilə də məktublaşırdı. Bu məktublaşma fəal olmasa da, hər halda onların arasında əlaqə qırılmamışdı və Nuru paşa qardaşı Ənvər paşanın türkçülük uğrunda bolşevizmə qarşı mübarizəyə qoşulmasını rəğbətlə qarşılayırdı. Eyni zamanda öz həyatını və fəaliyyətini də Ənvər paşanın tövsiyələri əsasında qurmağa çalışırdı.

Ənvər paşanın yazışmaları arasında Nuru paşanın ona 1922-ci il iyul ayının 10-da yazdığı məktub da vardır. Bu məktub Nuru paşanın Ənvər paşaya yazdığı sonuncu məktub sayılır. Çünki Ənvər paşa həmin ilin avqust ayında Orta Asiyada şəhid oldu.

Nuru paşanın Berlindən Ənvər paşaya yazdığı məktub aşağıdakı kimidir:

Sevgili Ağabeyciyim.

Şimdiyə qədər sizdən bir məktub alamadım. Ala bilsəydim xətti-hərəkətimi ona görə tənzim edərdim. Pək əski bir məktubunuzla Trablusa getməyi müvafiq görmüşdünüz. Məncə boşuna yorğunluq idi. Getmədim. Şimdi yanınıza gəlməyə hazıram. Hər nə qədər azərbaycanlılar və dağıstanlılar məndən yardım bəkliyorlarsa da oralarda ancaq Anadolunun və ya Avropanın yardımı ilə bir iş yapmaq mümkün olduğu üçün şimdilik fiili bir təşəbbüsdə bulunmayı zaid görüyorum.

Başladığınız işin müvəffəqiyyətlə nəticələnməsi halinda Qafqasyanın qurtarılacağı təbiidir. Bu halda əvvəla yanınıza gələrək məqsədi-müştərikin hüsuluna çalışmağı daha müvafiq buluyorum. Amcam da buraya gəldi. Kəndisi ilə bilrikdə gələcəyim təbiidir. Kamilə yazdığınız məktub və istədiyiniz hər şey hazırlandı. Bu postayla göndərilir. Mən də bilxassə Zeppelin işini əhəmiyyətlə

davam edirəm. İmkan daxilində cəbbəxanasıyla birlikdə 5000 silah, 50 qədər zabit, böyücük bir təmirxana, hətta bir iki də təyyarə bir dəfədə nəql oluna biləcəkdir. Bunun üçün hər şeydən əvvəl para lazımdır. Siz 30 ila 50 min altun göndərə biləcəkmisiniz? Zeppelin və sairənin nə qədər mal olacağını təxmin edəmiyorum. Netice-yi təhqiqatımı bu postayla yetişdirməzsəm gələcək postayla göndərərəm. Alman hökuməti Dövləti-İtilafiyyə tərəfindən sıx kontrol altında olduğundan bu kimi şeylər ancaq fazla para sərfiylə təmin oluna biləcəkdir. Almanların ekserisi Sovet Rusiyası ilə dost yaşamaq tərəfdarı olduğundan hərəkətinizin əleyhinədirlər. Hofmanlar da bunlar miyanındadır.

Zeppelin məsələsini etimadınızı qazanmış zevat vasitəsiylə həllə çalışıram. Paranı təmin etdiyiniz təqdirdə mən də bu vasitə ilə gələcəyəm. Mən Berlində pək sərbəst dolaşmıram. Ermənilər təqib edir. Biz də bir birimizdən geri durmuruq. Sizin cavabınızla birlikdə paranı və ehtiyac listəsini dörd gözlə müntəzirəm.

Tanıdıqlarınızdan yanınıza gəlməsini arzu etdiyiniz zevat varsa yazınız. Bərabər gətirərim. Onlar üçün də para lazım olduöunu unutmayınız. Qardaşın.

Məktubdan görünür ki, Nuru paşa Azərbaycan və Dağıstanla əlaqələrini kəsməyibmiş və bu bölgələrin sovet işğalından azad olması onu hələ də düşündürürmüş. O, Ənvər paşanın Orta Asiyada bolşeviklərə uğurlu mübarizəsini də Azərbaycan və Dağıstanın sovet işğalından qurtarılması üçün bir zəmin kimi qiymətləndirirdi. Ona görə də Nuru paşa həm Ənvər paşanın Orta Asiyada bolşeviklərə qarşı mübarizəsini dəstəkləyir, həm də özü də ora yollanaraq bu mübarizəyə qoşulmaq istəyirdi. Bunun üçün Nuru paşa hətta silah və sursat hazırlaması işləri ilə də məşğul oludru.

Nuru paşanın bu məktubundan az bir müddət sonra Ənvər paşa Orta Asiyada şəhir oldu və Nuru paşa yəqin elə buna görə daha Orta Asiyaya getməyi lazım bilmədi. Ənvər paşanın şəhid olması xəbərini Nuru paşa Berlində aldı və onun bu xəbəri necə qarşıladığını söyləmək çətindir. Lakin məlumdur ki, Nuru paşa qardaşı Ənvər paşaya sonsuz ehtiramla yanaşırdı, onu nəslinin böyüyü bilirdi, bütün məktublarında ona isti sözlərlə müraciət edirdi. Diqqət yetirilərsə yuxarıdakı məktubunda da Nuru paşa ona "Siz" deyə müraciət edir.

Nuru paşa sonralar özəl fəaliyyətini uğurla qurduqdan sonra Ənvər paşanın övladlarına xüsusi qayğı göstərirdi. Ənvər paşanın Naciyə sultandan üç övladı var idi və onlar xaricdə yaşamalı olurdular. Nuru paşa tez-tez onları Türkiyəyə dəvət edərək onlara mümkün qayğını göstətirdi. Naciyə sultan bu barədə öz xatirələrində də yazırdı:

Sənələr keçiyor. Çocuqlar təhsillərinə davam ediyor və böyüyürlərdi. Həmd olsun həpsi səhətli və qabiliyyətlidirlər... Günün birində onların məmləkətə dönə biləcəklərini ümid edirdim. Çocuqlarımdan ayrılmaq mənə çox güc gələcəkdi. Sənələr keçdikcə bu ehtimal yaklaşırdı. Vətəndaş olaraq məmləkətə dönmələri üçün mənim qayın bəradərim Nuru paşa çox çalışdı. Bir xxeyli müraciətlərdə bulundu. Nəhayət çocuqlarım üçün 1939-da özəl bir qanun çıxdı. Babalarının soyadı və vətəndaşlığın bütün haqlarına sahip olaraq məmləkətə dönə biləcəklərdi. Bunu kəndilərinə amcaları Nuru paşa təmin etdi. Nuru paşa dürüst, namuslu, pək hörmət etdiyim və sevdiyim bir insandı Çocuqlarıma sənələrcə həm analıq, həm də babalıq etmişdir. Kəndisinə çox şey borcluyam...

Ənvər paşanın ailə üzvlərinə Türkiyəyə qayıtmaq qadağan olunmudu. Naciyə sultan məktubunda buna işarə edirdi. Nuru başa dövlət orqanlarına müraciət edərək heç olmasa Ənvər paşanın övladlarının vətənə qayıtması barəsində icazə ala bilmişdi.

Yuxarıdakı məktubda yazılanlardan maraqlı məqamlardan biri də Nuru paşanın Berlində erməni terrorçuları tərəfindən təqib olunmasıdır. Ermənilər Tələt paşa hökumətinin rəhbərlərinin və fəallarının terror edilməsi üçün kütləvi fəaliyyətə başlamışdılar. Bu baxımdan onlar Nuru paşanı da Azərbaycanda erməni daşnaklarına qarşı mübarizə aparmasına görə qətlə yetirmək istəyirdilər. Ona görə də Berlində Nuru paşanın izinə düşə bilmişdilər.

Ənvər paşanın xanışı Naciyə sultan Nuru paşnın Berlində erməniər tərəfindən təqib olunmasını belə xatırlayırdı:

> ...Hər bazar özəl bir avtomobillə aile ile gəzməyə gedirdik. Nuru paşa da bizimlə bərabər gəlirdi. Bir bzar günü avtomobili bəkliyirdik. Arabada bir arizə olduğunu və o sabah şoferin gəlməyəcəyini öyrəndik. Bəlli bir saətdə dışarıya da çıxamadıq. Megerse o gün sui qəsdçilər hərəkətə keçəcək və Nuru paşanı vuracaqlarmış. Bizi qorumaq məqsədiylə düşmənlərimizi gözləyən polis xəfiyyələri gizlənmiş olduqları yerdən bütün tərtibatı seyr etmişlər. Bizə sonradan nəql etdilər. Düşmənlər qayət qüvvətli və şücaətli geden bir mersedes avtomobillə evin qarşısındakı ormanın bir yoluna gizlənmişlər. Orada bizim avtomobilin gəlməsini bəkliyorlarmış. Arabanın içindəkilər iki kişiymiş. Bizim tutduğumuz xəfiyyələr eyni ormanın başqa bir yolunda saxlanaraq həm evi, həm də düşmənləri gözləmişlər. Mersedesdəkilərin üzlərindən, qaş və gözlərindən erməni olduqları belli imiş. Polislər vermiş olduğumuz rəsmlərdən bunlarln kimliklərini də təsbit etmişlər. Vaxt keçib bizim araba gəlməyincə düşmənlərimiz sinirlənməyə başlamışlar. Ağaclarıln arxasında saxlanaraq evdən çıxmamızı bəkləmişlər. Nəhayət artıq arabanın gəlməyəcəyini və evdən kimsənin çıxmayacağını anlayan düşmənlər çəkilib getmişlər. Məmurlarımız bizə hadisəni bütün ayrıntılarıyla anlatdıqlarından da mühəqqəq bir ölümdən qurtardığımızı anlayaraq şükr etdik.

Erməni terrorçulari Nuru paşanın qətlə yetirilməsi ilə bağlı Berlində öz niyyətlərinə yetişə bilmədilər.

Nuru paşanın Ərzrum və Trabzonda işə saldığı emalatxanaların da fəaliyyəti görünür uğurlu olmamışdır. Çünki Nuru paşa sonradan öz fəaliyyətini Ankara və İstanbulda davam etdirməli olmuşdu. Ankarada bir müddəıt ticarət işləri ilə məşğul olmuş, sonra isə İstanbula gələrək burada iş qurmağa çalışmışdı. Bu, artıq XX əsrin 30-cu illərinə təsadüf edir. 1918-ci ildən başlayaraq Nuru paşa hərbi pensiya almağa balamışdır. Nuru paşa Türkiyə Müdafiə Nazirliyinə müraciət edərək Azərbaycanıln süvari alayı ilə birlikdə Milli Mücadilədə iştirak etdiyini bəyan etmiş və ona Milli Mücadilə veteranı kimi pensiya kəsilməsini xahiş etmişdi. Aparılan müəyyən yoxlamalardan sonra Nuru paşanın bu məlumatı təsdiq olunmuş və ona Milli Mücadilə veteranı kimi pensiya kəsilmişdi. 1929-cu ildə isə ona Milli Mücadilədə iştirak etdiyi üçün İstiqlal medalı verilmişdir.

Qeyd etmək lazımdır ki, Nuru paşa hərbidən yarbay rütbəsində tərxis edilmişdir. Bu rütbə onun Qafqaz İslam Ordusu komandanı təyin edilməzdən əvvəl malik olduğu rütbə idi. Generallıq (paşalıq) rütbəsi isə ona Qafqazda xidmət etməli olması ilə əlaqədar fəxri rütbə kimi verilmişdir. Bununla belə, Nuru bəy bütün tarixi ədəbiyyatda Nuru paşa kimi xatırlanmaqdadır.

Nuru paşanın İstanbulda qurduğu iş daha uğurlu alınmışdır. O, 1933-cü ildə İstanbulda Zeytunbunu fabrikini açdı və bu fabrikin fəaliyyəti 1946-cı ilə kimi davam etdi. Zeytunburnu fabriki hərbi xarakterli fabrik idi və burada top, minaatan, təyyarə mərmiləri, tapançalar və digər silah və sursat istehsal olunurdu. Eyni zamanda bu

fabrikdə mərmilərin, hərbi silahların və təchizatın təmiri işləri də aparılırdı. Nuru paşanın fabriki hətta II Dünya müharibəsi illərində Türkiyədə əsas tapança istehsal edən fabrik idi. Fabrik təkçə tapanca üçün yox, digər silahlar üçün də Türkiyə Müdafiə Nazirliyindən böyük sifarişlər alırdı. Nuru paşa Sütlücədə yeni bir fabriki təsis etdikdən sonra Zeytunburnu fabrikinin fəaliyyəti tədricən həmin fabrikə keçirilmişdi.

Sütlücə fabrikinin təsis edilməsi isə 1938-ci ilə təsadüf edir. Bu fabrik başqa bir şəxsə mənsub idi və göstərilən ildə Nuru paşaya satıldı. Nuru paşa bu fabriki ciddi şəkildə yenidən təchiz edərək onu silah və sursat istehsal edən bir fabrikə çevirdi. Burada istehsal olunan silahlar Türkiyənin ehtiyacına istifadə edildiyi kimi, həm də xaricə ixrac olunurdu. Bu da Nuru paşanın istehsal etdiyi silahların yüksək keyfiyyətdə olmasından xəbər verir. Nuru paşa hətta öz məhsulları ilə müxtəlif sərgilərdə də iştirak edirdi. O, istehsal etdiyi məhsulların satışının təşkil edilməsi üçün bir sıra xarici ölkələrdə də olmuşdu. Nuru paşanın həyatını tədqiq edən Nejdət Karakösenin tədqiqinə görə Nuru paşa Sütlücə fabrikinin işini qurandan sonra aşağıdakı ölkələrdə olmuşdu:

- 1938-ci ilun martında Nuru paşa Vyana, Berlin və Parisdə olmuşdu, 1939-cu ilin əvvəlində yenidən Almaniyaya yollanmış və orada kiçik qardaşı Kamil bəylə də görüşə bilmişdi. 1939-cu ilin avqustunun 20-də yenidən Almaniyaya yollanmışdır. 1940-cı ilin əvvəlində Nuru paşa İsveçrə və Fransada , 1948-ci ilin mayında Misirdə, 1948-ci ilin avqust-oktyabrında Suriyada olmuşdu. Avropaya səfəri zamanı Yunanıstanda olarkən Nuru paşanın zəhərlənməsi baş vermiş və hətta bir müddət hafizəsini də itirmişdi.

Bütün bunlar göstərir ki, Sütlücə fabriki kifayət qədər məhsuldar bir fabrik idi və onun işinin tənzimlənməsində Xəlil paşa da Nuru paşaya müəyyən köməklər göstərirdi. Ənvər paşanın həyatının tədqiqatşısı olan Şövkət Sürəyyə Aydəmir Sütlücə fabrikini işlədərkən Nuru paşa ilə görüşmüş və Xəlil paşanın ona kömək etməsi ilə bağlı öz xatirələrində də anmışdı. Bu xatirələrin bir maraqlı məqamı var ki, Sürəyyə Aydəmir Nuru paşa ilə görüşündə Qafqaz xatirələrinə daldıqlarını qeyd edirdi. Yəni, aradan illər keçməsinə, həyatın tamamilə yeni qayğıları ortaya çıxmasına baxmayaraq Nuru paşa Azərbaycandakı xidmətini həmişə kövrək xatirələrlə anırdı. Ş.Sürəyya Aydəmir yazır:

> Mən artıq Ankarada dövlət xidmətindəyəm. İqtisad vəkalətində Sənaye dairəsi rəisliyim sırasındaydı. Bir gün Nuru paşa məni görmək istədiyi xəbəri verildi. Nuru paşanı bilirdim, eşidirdim, amma heç görməmişdim. Nuru paşa odaya girərkən rəhmətlik Ənvər paşanı görür kimi oldum. Ənvər paşayla qardaşı Nuru paşanın üzlərində müştərək xətlər və müştərək ifadələr vardı. Müraciəti iş üzərindəydi. Xəlicdə bir fabrika qurmaq məsələsi. Bir taqım çapraşıq münasibətlərə düşmüşdü. İşi üçün az konuşduq. Yapıla bilən yapılacaqdı. Amma biz daha çox Qafqaz hekayətlərinə daldıq. Ondan sonra da bir gün Xəlil paşanı odamda qarşıladım. Artıq bütün əsgəri və siyasi hərəkətləri dışındaydı. Yegeni Nuru paşanın işlərində ona yardımçı oluyordu. Ziyarətinə də bu işlər vəsilə vermişdi. Ondan sonra bu ziyarətlər hər vəsilə ilə təkrarlandı. Onunla da konuşmamız eyni şəkildə yürüdü. İşlər qısaca anlatılırdı. Fəqət əsil və uzun konuşmalarımız ondan sonra başlardı. Necə uzaq ölkələrdə, necə hərəkətli günləri, hadisələri dilə gətirən necə rəngli xatirələr.

Sütlücə fabrikini işlətməklə bərabər Nuru paşa Pendikdə mərmi emelatxanasına və Qaraburunda civə mədəninə sahib olmuş və onların da işlərini qurmuşdu. Qeyd etmək lazımdır ki, Nuru paşa öz həyatını da məhz qurduğu istehsalat sahəsində başa vurdu. O,

1949-cu il mart ayının 2-də Sütlücə fabrikində baş verən partlayış nəticəsində faciəli surətdə həlak olmuşdu.

## Nuru paşanın ailə həyatı

Qəribə də olsa Nuru paşa həyatının sonlarına yaxın ailə həyatı qurmuş və həyatının böyük bir hissəsini tək yaşamalı olmuşdu. Mövcud faktlardan aydın olur ki, Nuru paşa Bakıda olarkən Hazı Zeynalabdin Tağıyevin qızı Sara xanımla ailə həyatı qurmaq istəyirmiş. Sara xanımın bu barədə xatirələrini Manaf Süleymanov öz kitablarında çap etdirmişdi. Sara xanım bildirirdi ki, ona Buxara əmiri də elçi düşübmüş. Amma uzaqda olduğu üçün Hacı Zeynalabdin Tağıyev Sara xanımı verməyib. Məlumdur ki, Nuru paşa Bakıda olarkən Hacı Zeynalabdin Tağıyev onu böyük təntənə ilə qarşılamışdı və Xəlil paşaya da Bakıda qaldığı günlərdə evində yer vermişdi. Nuru paşa da ona Sara xanımla ailə həyatı qurmaq istədiyini demişdi. Sara xanım bu hadisəni belə xatırlayırdı:

> ...Adı dillər əzbəri olan İslam türk ordusunun baş komandanı Nuru paşa Bakını almışdı. Bir neçə dəfə görüşmüşdük. Hər şeyi başa düşürdüm. Romantik, şairanə arzularla yaşayırdım... Paşa bir neçə dəfə ziyafətdə olmuşdu. Bağımıza gəlmişdi... Gözlərimdə, elə hamının nəzərində qeyri-adi qəhrəman kimi görünürdü... Tək mənim yox, elə hamının... Hacıya ağız açıb mənə evlənmək istədiyini demişdi... Atam ona da Buxara əmirinə verdiyi cavabı vermişdi...

O zaman Nuru paşanın 29 yaşı var idi. Hacı Zeynalabdin Tağıyev Nuru paşaya dərin ehtiram bəsləsə də övladının gözündən uzaqda olmasına razılıq vermədi.

Başqa bir kitabında Manaf Süleymanov Nuru paşa ilə Sara xanımım görüşləri zamanı Nuru paşanın ona şer oxumasını da qələmə almışdı.

Sonradan Nuru paşa uzun müddət ailə həyatı qurmaq fikrinə düşmədi. Çox güman ki, rastlaşdığı ağır həyat və sınaqlar onu ailə qurmaqdan çəkindirdi.

1921-ci ildə Nuru paşa bir də ailə həyatı qurmaq barədə fikirləşməyə başladı. Yuxarıda qeyd edildiyi kimi, 1921-ci il avqust ayının 22-də Ənvər paşaya göndərdiyi məktubunda ailə həyatı qurmaq istəməsindən söz açır və onun nəzərində olan xanımlar barəsində Ənvər paşaya məlumat verirdi. Nuru paşa iki xanımın adını çəkir. Biri Karçıbaşılardan olan Həmidə xanımın qızı, bir də prinses İffət xanımın qızı . Əlavə olaraq Nuru paşa Həmidə xanımın qızının gənc və gözəl bir xanım olduğunu bildirirdi.

Amma həmin ildə Nuru paşa ailə həyatı qurmadı. O bir də 1946-cı ildə, həlak olmasından 3 il əvvəl Ənvər paşaya məktubunda adını çəkdiyi prinses İffət xanımım qızı Misli Mələk xanımla ailə həyatı qurdu. 1901-ci ildə doğulmuş olan Misli Mələk xanımın anası İffət xanım Misir prinsesi idi.

Nuru paşa ilə Misli Mələk xanımın övladı olmamışdı. Nuru paşanın həlak olmasından sonra Misli Mələk xanım uzun bir həyat yaşamış və 1989-cu ildə dünyasını dəyişmişdi.

## Nuru paşanın həlak olması

Nuru paşanın nə vaxt, harada və hansı şəraitdə həlak olması Nejdət Karakösenin əsərində geniş tədqiq edilmişdir. Həmin tədqiqata əsaslanaraq Nuru paşanın həlak olması haqqında müxtəsər olaraq aşağıdakıları qeyd etmək olar.

Nuru paşa sahibi olduğu Sütlücə hərbi fabrikində baş vermiş partlayış nəticəsində həlak olmuşdu. Araşdırmalar göstərmişdir ki, bu partlayış kapsulların saxlandığı otaqda texniki normalara əməl edilməməsi nəticəsində baş vermişdi. 1949-cu il mart ayının 2-

də kapsullar saxlanılan otaqda havanın temperatiri 80 dərəcəyə qədər qalxıbmış və heç kim bu yüksək dərəcənin partladıcı maddələr üçün təhlükəli olduğuna diqqət yetirməmişdi. Kapsul saxlanılan otaqda baş verən partlayış güclü olduğu üçün qonşu sexlərdə saxlanılan kimyəvi və partlayıcı maddələrin də partlamasına səbəb olmuşdu.
İlk partlayış baş verəndə Nuru paşa fabrikin dəftərxanasında imiş. Partlayış baş verən kimi özünü hadisə yerinə çatdırır və sexlərdə olan işçilərdən tələb edir ki, dərhal təhlükəsiz yerə çəkilsinlər. Özü isə minaatan minalarının saxlandığı anbarın təhlükəsizliyini yoxlamaq üçün həmin anbara yollanır. Bu anbarda Suriyanın sifarişi ilə istehsal edilmiş 2 min ədəd mina saxlanılırmış.
Kimyəvi və partladıcı maddələrin partlaması baş verən otağın zirzəmisində də tez alışan maddələrin, o cümlədən barıt və trotilin saxlandığı anbarı imiş. Kimyəvi maddələrin partlayışından sonra otağın döşəməsi çökür və zirzəmidə olan maddələr də partlayırlar. Bu partlayış son dərəcə güclü bir partlayış olur və hətta baş verən yanğının söndürülməsi üçün gəlmiş yanğınsöndürənlər partlayışın zərbindən parça-parça olurlar.
Nuru paşa da bu partlayış zamanı həlak olmuşdu. O, minaların saxlandığı anbara gedib çıxa bilməmişdi. Yanğının söndürülməsi üçün bütün şəhərdən axışıb gələn yanğınsöndürənlər minaların saxlandığı anbarın partlayacağı təqdirdə daha böyük fəlakətin ola biləcəyini gördükləri üçün yanğının yayılmasının qarşısını almağa çalışdılar. Eyni zamanda 2 kilometr məsafədə ətrafda yaşayan əhali təhlükəsizlik baxımından evlərindən köçürüldülər. Lakin yanğınsöndürənlər yanğının genişlənməsinin qarşısını ala bildilər və minaların saxlandığı anbarın təhlükəsiliyi təmin edildi.
Sütlücə fabrikində partlayışın baş verməsini Xəlil paşa belə xatırlayırdı:

> Bizzat təhqiqatla məşğul oldum. Mütəəssüf yügənim də 150 əmələsini qurtara bilmək qayəsi ilə təhlükənin gözünə atıldığı və bərhava olmaq sürətiylə şəhid düşdüyünə qənaət gətirmiş bulununuyorum. Mərhumun ağabəyisi Ənvər paşa mərhum bilindiyi kimi qəbri olmayan bir şəhiddir. Qardaşı da tibği onun kimi qəbirdən məhrum bir halda şəhadət mərtəbəsinə ihraz etmiş bulunuyor. Təhərriyata yarın müsaidə edəcəklərdi. Fəqət ben bugün vaqiə məhəllinə getdim. Anlatdıqlarına görə yegenimin qurtulması ehtimalı mində bir belə mövcud deyildir. Sağ qalsa idi indiyə kimi əlbətdə ki, meydana çıxardı. Nuru paşa sakin zəvahiri altında çox cəsur və iddiasız bir ürək bütünlüyünə sahib idi. Onun üçün təhlükəni görür-görməz fabrikanın sahip və şefi sifətiylə məhzənə atılmış və cəsarətinin qurbanı olmuşdur.

Sütlücə fabrikinin işçilərindən olan İsmayıl Saylav adlı birisi baş verən partlayışı belə xatırlayırdı:

> Paşa bombaların yerini sordu. Cavab alır-almaz da o tərəfə səgirtdi. Bir yandan da – buraya kimsə gəlməsin – deyə bağırırdı. Bu sırada kimyaxananın altında partlayıcı maddə bulunduğundan xəbərsiz olan itfaiyyə ərləri nərdivanlarda saçaklara dırmanmışlar, içəriyə su sıxırlardı. Kəndilərinə - pək soxulmayın, içəridə məvadi-infilağiyyə var- deyə söyləndim. Fəqət duymadılar belə... Birdən sanki yer-göy qarışdı, ayağım altındakı torpaq sarsıldı və kəndimi bir kənara savrulmuş buldum. İtfaiyyə ərləri paramparça bir halda havada uçurlardı. Toz, torpaq, göy üzünə fırlamış divar parçaları. İştə o əsnada gördüklərim bunlar oldu.

Nuru paşa kimyəvi əşyaların olduğu otağın zirzəmisində tez alışan maddələrin olduğunu bilirdi və bu anbarın da təhlükəsizliyinin təmin edilməsini istrəyirmiş. Əvvəlcə bu otağa baş vurmaq istəyəndə ikinci güclü partlayış baş verir. Bu partlayış elə güclü olur ki,

Nuru paşanın və onun yanında olanların cəsədlərini tapmaq belə mümkün olmur. Fabrikin daxilində və hətta ətrafında yanıb kömürə dönmüş qol, qılça, baş və başqa insan əzaları tapılmışdı. Onların da kimə məxsusluğunu müəyyənləşdirmək mümkün olmamışdı. Sonrakı axtarışlar zamanı Nuru paşaya məxsus olan tək ayaqqabı, paltarından qopmuş qumaş parçalar, Nuru paşaya məxsus yaddaşt dəftəri tapılmışdı. Bununla da belə bir qənaətə gəlinmişdi ki, Nuru paşanın bu böyük partlayışdan salamat çıxması mümkün deyil.
Mart ayının 7-də Sütlücə fabrikində həlak olanların dəfn mərasimi təşkil edildi. Bu mərasim zamanı 10 nəfər dəfn edildi. Onlardan 7- nəfərinin kimliyi müəyyən edilmiş, 3 nəfərin kimliyi isə müəyyən edilməmişdi. Nuru paşa da bu müəyyən edilməmişlər sırasında idi. Dəfn mərasimində Türkiyənin daxili işlər naziri, əmək naziri və digər rəsmi şəxslər iştirak etdilər. Dəfn mərasimi İstanbul Şəhidliyində aparıldı.
Sütlücə fabrikində partlayış baş verən günü Nuru paşanın həyat yoldaşı Misli Mələk xanım Misirə uçmuşdu. Nuru paşa günortadan sonra özü onu yola salaraq Sütlücə fabrikinə qayıtmış və faciə ilə üzləşmişdi. Nuru paşanın həlak olması Misli Mələk xanıma çatdırılmamışdı. O, bir də mart ayının 16-da İstanbula qayıtdıqdan sonra Nuru paşanın həlak olması barəsində xəbər tutmuşdu.

# İKİNCİ HİSSƏ

# NURU PAŞANIN SİLAHDAŞLARI

## NURİ PAŞANIN SİLAHDAŞLARI

Nuri paşanın ona həvalə edilmiş məsuliyyətli vəzifənin icrası zamanı xidməti uğurlar qazanmasının başlıca səbəblərindən biri, təşkilatçılıq işlərinin öhdəsindən lazımi səviyyədə gələ bilməsi idi. Nəzərə alınsa ki, Nuru paşa xeyli gənc idi onda bu məsələnin əhəmiyyəti xüsusilə diqqət cəlb edir. Yəni, kifayət qədər gənc olmasına baxmayaraq ölkə səviyyəli ciddi hərbi-siyasi vəzifələrin həlli üçün ətrafındakıları səfərbər edə bilməsi onun xarakterinin maraqlı tərəflərindən biridir. Təhlillər göstərir ki, o, zəruri qərarları vaxtında qəbul edir  və ətrafındakıların bütün qüvvəsini bu qərarların icrasına səfərbər edirdi. Onda hərbi duyum güclü idi və sonradan bir çox hadisələrin inkişafı da göstərdi ki, Nuri paşa baş verənlərin mahiyyətinə qabaqcadan nüfuz etməyi və onların hansı istiqamətdə inkişaf edəcəyini müəyyənləşdirməyi bacarır. Gənc olmasına baxmayaraq rəhbərliyi altında olan zabitlərin işgüzar keyfiyyətlərini üzə cıxarmağa çalışması və onları bir məqsəd ətrafında vahid şəkildə birləşdirməsi Nuri paşanın komandanlıq keyfıyyətlərinin əsasını təşkil edirdi. Nuri paşanın və bütünlükdə türk qoşun hissələrinin böyük uğurlar əldə etməsində onun istinad etdiyi zabitlərin də

özünəməxsus rolu var idi. Yəni, Nuri paşa ilə onun ətrafındakı zabitlər bir-birini tamamlayırdı. Nuri paşa olmadan ola bilsin ki, türk qoşun hissələri və onların komandir heyəti qarşıya qoyulan vəzifəni belə uğurla həll edə bilməzdilər. Eyni zamanda, Nuru paşanın ətrafında vəzifəsinə məsuliyyətlə yanaşan zabitlər olmasaydı ola bilsin ki, Nuru paşanın təşkilatçılıq keyfiyyətləri də özünün əməli həllini belə parlaq şəkildə tapa bilməzdi. Arxiv sənədlərindən və tarixi ədəbiyyatlardan görünür ki, Nuru paşa öz silahdaşlarının qabiliyyətini, hərbi səriştələrini və fəaliyyətini yüksək qiymətləndirmiş , onların şəxsiyyətinə böyük hörmətlə yanaşmışdı. Burada heç şübhəsiz ki, Nuru paşanın özünün silahdaşı olduğu şəxslərin də adlarını qeyd etmək lazımdır. Onların köməyi və yardımı olmasaydı sözsüz ki, bütünlükdə Qafqaz İslam Ordusunun fəaliyyəti natamam qalar, tam səmərə də verə bilməzdi. Ənvər paşanın, Şərq Ordular Qrupunun ilk komandanı Vehib paşanın, bu Ordular Qrupunun sonrakı komandanı Xəlil paşanın böyük qayğısı və yardımları olmasaydı Nuru paşa və onun silahdaşları Azərbaycandakı bu şərəfli missiyalarını da başa çatdıra bilməzdilər. Döyüş şəraitinin tələblərindən doğan təminat və təchizat məsələləri ilə bağlı Nuru paşanın Şərq Ordular Qrupu komandanlığına və Baş komandanlıq vəkalətinə göndərdiyi bütün xahişləri mümkün qədər çevik şəkildə həll edılirdi ki, Qafqaz İslam Ordusunun ehtiyacları vaxtında aradan qaldırılsın. Bu baxımdan Nuru paşa ilə Şərq Ordular Qrupu komandanlığı və Baş komandanlıq vəkaləti arasında çox işgüzar bir bağlılıq var idi.

Nuru paşanın silahdaşları deyəndə sözsüz ki, burada yalnız Osmanlı zabitləri qəbul edilməməlidir. Qafqaz İslam Ordusunun zabit heyəti azərbaycanlı və Osmanlı zabitlərindən ibarət idi və bu zabit tərkiblərinin hər birinin Qafqaz İslam Ordusunun uğurunda öz payı olmaqla onların hər biri Nuru paşanın silahdaşı sayılmalıdır. Onların sayı isə çox idi və bu zabitlərin hər birinin fəaliyyəti ayrıca təhlilə layiqdir.

Nuru paşanın silahdaşları deyəndə ilk növbədə general-leytenant Əliağa Şıxlinskinin, polkovnik Həbib bəy Səlimovun, Mürsəl paşanın, Cəmil Cahid bəyin, Süleyman İzzət bəyin, Nazim bəyin və digərlərinin fəaliyyəti göz önünə gəlir. Nuru paşa Azərbaycana gələrkən onu aşağıdakı zabitlər müşayiət edirdilər: minbaşı Mehmet Nazim bəy – Qafqaz İslam Ordusnun qərargah rəisi, yarbay Edip – Nuru paşanın yavəri,baş leytenant Azəf ( Qılıc Əli) – Nuru paşanın yavəri, baş leytenant Müzəffər ( Müzəffər Tuğsavul), minbaşı Tofiq ( Əməliyyat şöbəsinin rəisi), minbaşı Nəim, yüzbaşı Sami (qərargah zabiti), minbaşı Kamal ( topçu müfəttişi), yarbay Şefik ( mənzil müfəttişi). Bu zabitlərin hər biri Nuru paşanın silahdaşları idi və onunla birlikdə Azərbaycanda qarşıya çıxan çətinliklər birlikdə bölüşdürülmüşdü.

Qafqaz İalam Ordusuna daxil olan qoşun hissələri və bölmələri Azərbaycana gəldikcə Nuru paşanın silahdaşlarının sayı da artdı. Nuru paşanın bu silahdaşlarından aşağıdakıların adlarınıçəkmək olar: 5-ci Qafqaz diviziyasının ərkani-hərb rəisi minbaşı Rüşdü bəy, sonradan 9-cu alay komandiri olmuş qayməqam Həmdi bəy, 10-cu alay komandiri əvvəlcə miralay Osman bəy, sonra Dəmirəli bəy, 106-cı alay komandiri qayməqam Nuru bəy, 13-cü alay komandiri miralay Əhməd Rza bəy, 15-ci diviziya ərkani-hərb rəisi minbaşı Ehsan bəy, 38-ci alay komandiri miralay Səlim bəy, 56-cı alay komandiri qayməqam Fəzli bəy, 107-ci alay komandiri qayməqam Fəhmi bəy, 1-ci Azərbaycan diviziyası ərkani-hərb rəisi Tahir bəy, 1-ci alay komandiri qayməqam Məhyəddin bəy, 2-ci alay komandiri əvvəlcə İsmayıl Həqqi bəy, sonra Əhməd Həmdi bəy, 3-cü alay komandiri qayməqam Xalis bəy, 1-ci Azərbaycan diviziyası tərkibində yaradılmış Sərhəd alayınının komandiri İsmayıl Həqqi bəy, 2-ci Azərbaycan diviziyasının ərkani-hərb rəisi minbaşı Cəmil bəy, 4-cü alay komandiri Həlim Pərtöv

bəy, 5-ci alay komandiri Yusif Ziya bəy, 6-cı alay komandiri miralay Dəmirəli bəy və s.

Nuru paşanın ən yaxın köməkçilərindən biri yarbay Nazim bəy idi. Nazim bəy Qafqaz İslam Ordusunun qərargah rəisi idi. Qərargahın bütün işlərinin, habelə qoşunların döyüş fəaliyyətinin nizamlanması Nazim bəyin üzərinə düşürdü. O, qərargahın işini tənzimləməklə bərabər, qoşun hissələrinin döyüş fəaliyyəti barədə təhlillər aparır və qənaətlərinin Nuru paşaya bildirirdi. Nuru paşa Gəncəyə çatan kimi Nazim bəyi dərhal cəbhə bölgəsinə göndərdi. O, Bakıdan çıxıb yenicə yaranmaqda olan Azərbaycan Xalq Cümhuriyyətini "beşikdəykən" boğmaq üçün Gəncəyə hərəkətə keçən bolşevik-daşnak qüvvələrinin Göyçay və Müsüslü istiqamətində qarşısına çıxan Azərbaycanın milli qüvvələrinin, habelə cəbhə bölgəsinə göndərilmiş azsaylı türk qüvvələrinin fəaliyyətini nizamlamalı idi. Nazim bəy beləcə ən gərgin yerlərə göndərilirdi. Bir müddət sonra Göyçay ətrafında vəziyyət birdən-birə ağırlaşanda və daşnak qoşunları qəsəbəyə daxil olduqda Nuru paşa yenə də Nazim bəyi cəbhə xəttinə yolladı. Nazim bəy ona məxsus olan enerji və bacarıqla mövcud qüvvələrin Göyçayın müdafiəsinə səfərbər edilməsinə nail oldu; bura əlavə qüvvələr gətirilməsində böyük fəallıq göstərdi.

Bakı üzərinə qəti hücum hazırlığı görüldüyü vaxtlarda da Nuru paşa Nazim bəyi ora göndərdi və son hücum planının hazırlanması üçün oradakı hərbi şəraiti öyrənməyi tapşırdı. Nazim bəy Bakı ətrafında hərbi şəraiti müfəssəl öyrənərək şəhər üzərinə son hücum barədə öz təkliflərini Nuru paşaya çatdırdı. Nuru paşa tərəfindən Bakı üzərinə qəti hücum planı təsdiq edilərkən Nazim bəyin söylədiyi təkliflər demək olar ki, bütünlüklə nəzərə alınmışdı.

Bakı şəhəri alındıqdan sonra Nazim bəy şəhərin komendantı təyin edildi. Şəhərdə nizam-intizamın və asayişin çox qısa bir zamanda bərpa edilməsində onun da böyük rolu var idi. Nazim bəy Azərbaycanın milli qoşun hissələrinin formalaşmasında da müəyyən işlər görmüşdü. Bakı şəhər komendantı vəzifəsini icra etməklə bərabər, o, Nuru paşa tərəfindən 2-ci Azərbaycan fırqəsinin komandiri təyin edilmişdi. Ancaq Mudros müqaviləsinin şərtləri üzrə türk qoşunlarının Azərbaycandan çıxarılması ilə bağlı olaraq Nazim bəy təəssüf ki, 2-ci milli fırqənin formalaşdırılmasını başa çatdıra bilmədi. Türkiyəyə qayıtdıqdan sonra Nazim bəy İstiqlal mücadiləsinə qoşuldu və Vətəninin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak oldu.

5-ci Qafqaz firqəsinin qərargah rəisi yarbay Rüştü bəyin də Qafqaz İslam Ordusu hərəkatında özünə məxsus yeri vardır. Rüştü bəy Gəncədən Bakıya kimi döyüş yolu keçən 5-ci diviziyanın qərargah rəisi olmaqla bərabər, Qafqaz İslam Ordusu hərəkatı haqqında geniş xatirələrini işləmiş və tədqiqatçılar üçün mötəbər bir mənbə yaratmışdır. Rüşdü bəyin kitabı hazırda Qafqaz İslam Ordusu hərəkatının tarixinin öyrənilməsi üçün ən dəyərli mənbələrdən biridir.

Nuru paşanın azərbaycanlı silahdaşlarına gəlincə isə onda Ə.Çıxlinski və H.Səlimovdan başqa general Mirzə Kazım Qacarın, general Murad Gəray Tlexasın, general İbrahim ağa Usubovun, 1-ci alay komandiri polkovnik Süleymanovun, 2-ci alay komandiri polkovnik Məmmədovun, Həmid bəy Qaytabaşının, Əmənulla Mirzə Qacarın, Cavad bəy Şıxlinskinin və digərlərinin adını çəkmək olar.

Nuru paşanın Azərbaycanlı silahdaşlarından daha ikisinin adını çəkmək lazımdır. Bunlar sonralar Türkiyə ordusunun generalı rütbəsinə qədər yüksəlmiş Səməd bəy Rəfibəyli və Cahangir Novruzovdur (Berker). Qafqaz İslam Ordusu hərəkatı

başlayanda bu zabitlərin hər ikisi gənc zabitlər idi və onlar həm Azərbaycanda, həm də Türkiyədə Nuru paşa ilə yadda qalan döyüş yolu keçmişdilər.

Səməd bəy Rəfibəyov Azərbaycan Xalq Cümhuriyyətinin tarixində görkəmli yeri olan Rəfibəyovlar nəslindədir. O, 1916-cı ilin yayında Tiflisdə hərbi təhsilini başa vurmuş, bir müddət Qafqaz sərhəd alayında bölmə komandiri olmuşdu. 1917-ci ilin sonlarında milli qoşun hissələri formalaşdırılarkən Səməd bəy Rəfibəyli də onun sıralarına daxil olmuşdu. Qafqaz İslam Ordusu təşkil ediləndə Səməd bəy Ordu qərargahının tabeliyində olan süvari bölməsinin komandiri təyin edilmişdi. Gəncə ətrafındakı erməni silahlılarının zərərsizləşdirilməsində Səməd bəy Rəfibəyli də fəal iştirak etdi. Onun buradakı fəallığı o dərəcədə olmuşdu ki, Mucib Kamalyeri də öz xatirələrində onun haqqında maraqlı fikirlər yazmışdı. O yazırdı:

> Atını dörd nala sürən bir azəri süvari yüzbaşı yanımıza gəldi. Adının Səməd və Ordu qərargahına bağlı müstəqil süvari bölük komandanı olduğunu, Cəmil Cahid bəy tərəfindən bölüyümüzə yardım üçün göndərildiyini bildirdi. Enerjik və onurlu bir halı vardı.

Sonra Mucib Kamalyeri Səməd bəy haqqında aşağıdakıları yazırdı:

> Səməd bəy Osmanlı ordusu Azərbaycandan çəkildikdən sonra süvari komutanı olmuş, bolşevik, rus və ermənilərlə çarpışmış, sonunda komutasındakı alayı və bir cəbəl topçu batareyası ilə birlikdə İran üzərindən Türkiyəyə gələ bilmişdir. Gətirdiyi birliklə İstiqlal savaşında iştirak edən və Sayğın soyadını alan Gəncə doğumlu Səməd bəy Sayğın ordumuzda generallığa yüksəlmiş və yaş həddini doldurduğundan əməkliyə sövq olunmudur.

Məlumdur ki, Qafqaz İslam Ordusunun ləğv edilməsi ilə Nuru paşa da Azərbaycanı tərk etmiş və sonradan yenidən Azərbaycana gələrək Qarabağda antisovet üsyanında iştirak etmişdi. Bu üsyan yatırılandan sonra Nuru paşa və Azərbaycanın milli süvari alayı İrandan keçməklə Türkiyəyə gəlmiş və Türkiyənin İstiqlal savaşına qatılmışdılar. Tarixi ədəbiyyatda Azərbaycanın hansı süvari alayının Nuru paşa ilə Türkiyəyə getməsi haqqında məlumat verilməsə də, məlumdur ki, bolşevik işğalı ərəfəsində podpolkovnik Səməd bəy Rəfibəyli Tatar süvari alayının komandiri təyin edilmişdi. Bu alay da Qarabağda erməni qiyamının yatırılmasında iştirak edirdi. Səməd bəyin də Türkiyəyə keçməsindən belə bir qənaətə gəlmək olar ki, Nuru paşa ilə Türkiyəyə gələn və İstiqlal savaşına qatılan Səməd bəy Rəfibəylinin komandiri olduğu Tatar süvari alayı idi.

Mucib Kamalyeri xatırladırdı ki, süvari alayı ilə birlikdə bir topçu batareyası da Türkiyəyə keçmişdi. Güman etmək olar ki, Cahangir bəy Novruzov da bu topçu batareyasında idi. Türkiyədə Cahangir Berker kimi tanınan bu zabit topçu idi. O da Türkiyədə İstiqlal savaşına qatılmış və 1948-ci ildə Türkiyə ordusunun tuğgeneral rütbəsinə layiq görülmüşdü.

## ƏNVƏR PAŞA

XX əsrin ikinci onilliyinin sonlarında Azərbaycanda və bölgədə cərəyan edən proseslər Azərbaycan xalqı üçün yaddaqalan tarixi hadisələrin baş verməsi ilə nəticələndi. 1917-ci ilin fevralında çarizmin devrilməsi böyük bir imperiyanın hüdudları çərçivəsində, o cümlədən də Azərbaycanda ictimai-siyasi fəallığın genişlənməsinə təkan verdi. Mövcud olan mürəkkəb şəraitə baxmayaraq, xalqın ümummilli mənafelərinə dayaqlanan bu fəallıq tezliklə nizamlanmış və tənzimlənmiş bir mübarizəyə çevrildi. Xalqın bu gününü

və sabahını narahatlıqla yaşayan vətənpərvər və ziyalı dairələr bu mübarizəyə qoşuldular və özləri ilə bərabər çox böyük qüvvələri də bu mübarizəyə səfərbər etdilər. Bir tərəfdən çarizm üsul-idarəsini əvəz etmiş Müvəqqəti hökumətin, habelə bu hökuməti devirən Rusiya bolşevik qüvvələrinin, digər tərəfdən də Bakıda kök salmış bolşevik-daşnak qüvvələrinin bütün təzyiqlərinə baxmayaraq milli qüvvələrin ardıcıl olaraq apardığı milli-azadlıq mübarizəsi 1918-ci il may ayının 28-də məntiqi nəticəsi ilə sona çatdı və Azərbaycanın hüdudları daxilində yeni və müstəqil bir dövlət elan edildi.
Azərbaycan Xalq Cümhuriyyətinin tarix səhnəsinə ayaq açması, mövcudluğu, daxili və xarici siyasəti ilə bağlı son illərdə artıq bir sıra maraqlı tədqiqat əsərləri və araşdırmalar üşıq üzü görmüşdür. Obyektiv təhlilə əsaslanan bu araşdırmaların demək olar ki, hamısında belə bir qənaət mövcuddur ki, Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlıq olmasaydı elə ilk günlərdən Azərbaycanın müstəqilliyi çox ciddi təhlükə ilə üzbəüz gələ bilərdi. Çünki Sovet Rusiyasında özünə hərtərəfli dəstək tapan Bakı bolşevik-daşnak qüvvələri ixtiyarında olan hərbi qüvvələrlə bütün Azərbaycanı tapdağa çevirmək, Azərbaycanın milli qüvvələrini və milli hökumətini elə Gəncədə boğmaq niyyətində idilər. Bunun üçün əsasını daşnaklar təşkil edən bolşevik-daşnak qoşunlarının Gəncəyə doğru artıq yürüşü də başlamışdı.
Azərbaycanın daxilində isə bu təcavüzə müqavimət göstərəcək qüvvə hələ formalaşmamışdı. Yaşayış məntəqələrini tapdağa çevirərək qərbə doğru irəliləyən bolşevik-daşnak qüvvələrinin qarşısını kəsmək və onlara layiqli cavab vermək üçün xalqın kəsərli qüvvəsi yox idi. Yenicə qurumlanmaqda olan qüvvələrin isə bolşevik-daşnak qüvvələrinin vəhşiliklərinə cavab vermək iqtidarı yox idi. Çoxları üçün aydın idi ki, xalqın başı üzərini kəsdirmiş olan faciələrdən yalnız qeyri-adi bir qüvvənin köməyi ilə nicat tapmaq olardı. Həmin nicat qüvvəsi kimi xalq ancaq Türkiyədən gələ biləcək köməyə ümid bəsləyirdi. Bölgədə başqa heç bir qüvvə Azərbaycan xalqının azadlığını, onun müstəqüilliyinin möhkəmləndirilməsini istəmirdi. Belə bir həlledici anda milli-azadlıq mübarizəsinin fəalları kömək üçün Osmanlı hökumətinə müraciət etdilər. Məlumdur ki, Osmanlı Türkiyəsinin hökuməti bu müraciətə müsbət cavab verdi və Azərbaycanda türk və Azərbaycan hərbi qüvvələrini özündə birləşdirən Qafqaz İslam Ordusu yaradıldı. Həmin Ordunun bir neçə ay ərzində apardığı gərgin mübarizə Bakının azad edilməsi, Qarabağ üzərində Azərbaycan Xalq Cümhuriyyətinin səlahiyyətlərinin bərpası, milli hərbi qüvvələrin möhkəmləndirilməsi, müstəqil dövlət quruculuğu sahəsində səmərəli addımların atılması ilə nəticələndi.
Qafqaz İslam Ordusunun mövcudluğu dövrünü heç şübhəsiz ki, Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin ayrıca bir səhifəsi kimi qiymətləndirmək olar. Bu dövrdə müstəqil dövlət quruculuğu sahəsində lazımi addımların atılması ilə bərabər, sözsüz ki, başlıca diqqət əldə edilmiş müstəqilliyin möhkəmləndirilməsinə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə, xalqın qanlı faciələrdən qurtarılmasına istiqamətlənmişdi. Bu mühüm vəzifələrin həllinə isə Qafqaz İslam Ordusunun fəaliyyəi olmadan nail olmaq mümkün deyildi. Bir sözlə, Qafqaz İslam Ordusunun yaradılması və türk qoşun hissələrinin Azərbaycana gəlməsi xalqın bolşevik-daşnak zülmündən qurtulması üçün vaxtında atılmış tarixi bir addım idi. Bu barədə söhbət açarkən göz önünə ilk növbədə Qafqaz İslam Ordusunun komandanı Nuru paşa və onun silahdaşları gəlir. Bu insanların fədakarcasına apardıqları mübarizə, Azərbaycanın bolşevik-daşnak zülmündən qurtulması üçün göstərdikləri xidmət, axıtdıqları qan neçə onillik ötsə də nəsillər tərəfindən minnətdarlıqla xatırlanmaqdadır. Bu minnətdarlıqdan Osmanlı Türkiyəsinin o vaxtkı hərbi naziri Ənvər paşaya da pay düşür. Çünki Qafqaz İslam

Ordusunun yaradılması, Qafqaza, konkret olaraq Azərbaycana türk hərbi qüvvələri göndərmək ideyası Osmanlı Türkiyəsinin hökumət rəhbərlərinə, başlıcası isə Osmanlı imperiyasının hərbi naziri Ənvər paşaya məxsus idi. Onun iradəsi olmasaydı sözsüz ki, Azərbaycana türk hərbi qüvvələri göndərilməyəcəkdi və Azərbaycan xalqı böyük faciələrlə təkbətək qalmalı olacaqdı.

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının çağırışına səs vermək, onun haqq mübarizəsinə yardımçı olmaq Ənvər paşa üçün heç də sadə bir qərar deyildi. Bu məqsədə nail olmaq üçün Ənvər paşa çox böyük sınaqlara, xüsusən də Rusiya və Almaniya kimi dövlətlərin böyük təzyiqlərinə sinə gərməli olmuşdu. Çünki bu dövlətlərin hər birinin Azərbaycanda öz marağı var idi və kənar bir dövlətin, o cümlədən Türkiyənin orada möhkəmlənməsinə razı deyildilər. Baxmayaraq ki, Azərbaycanla Türkiyənin əməkdaşlığı adi əməkdaşlıq deyildi. Bu münasibətlər xalqın daxili tələblərindən irəli gələn bir əməkdaşlıq idi. Almaniya və Rusiya isə heç də Azərbaycan xalqının istək və arzularının marağında deyildilər. Onlara Bakı nefti lazım idi və buna nail olmaq üçün Azərbaycan xalqının hansı vəziyyətdə olması onları elə də maraqlandırmırdı. Ona görə də Azərbaycanla bağlı Türkiyə-Almaniya münasibətlərinin kəskin dəyişə biləcəyi gözlənilən idi. Buna baxmayaraq, Ənvər paşa Azərbaycana kömək göndərmək fikrindən daşınmadı və inadkarlıqla bu planın həyata keçməsinə nail oldu. Bununla da Azərbaycan xalqı çox ciddi bir təhlükədən nicat tapdı.

Ənvər paşa Qafqaz İslam Ordusunun komandanı təyin edilmiş Nuru paşanın böyük qardaşı idi. Onların arasında türk ailələrinə məxsus olan çox dərin bir bağlılıq və səmimilik var idi. Aldıqları ailə tərbiyəsi də bu cür idi. Yəni, onların qarşılıqlı münasibətlərində hər zaman daxili bir səmimilik var idi. Həyatları Azərbaycanla sıx bağlı olan bu qardaşların hər ikisinin hərbçi peşəsini seçməsindən güman etmək olar ki, onların ailəsində bu peşəyə dərin maraq və hörmət olmuşdu. Türk sərkərdələrinin qəhrəmanlığına və keçmişinə olan məhəbbət bu qardaşların hər iksini zabitliyə çəkib gətirmişdi. Hətta Ənvərin əmisi Xəlil də hərbçi peşəsini seçməyi qərara almışdı və məlumdur ki, Xəlil sonradan paşalığa qədər yüksəlmişdi və Azərbaycanın bolşevik-daşnak təcavüzündən xilas edilməsində Xəlil paşanın da özünəməxsus rolu var idi.

Türk tarixçisi Şövkət Sürəyya Aydəmir "Makedoniyadan Ortaasiyaya Ənvər paşa" adlı üç cildlik sanballı kitabında Ənvər paşanın nəsil şəcərəsini vermişdir. Həmin şəcərədən Ənvər paşanın əcdadlarının və yaxın qohumlarının həyat yolunu izləmək mümkündür. Onun anasının adı Aişə idi. Aişə xanım dövrünün şərq qadınlarının böyük əksəriyyətindən fərqli olan keyfiyyətlərə malik olmuşdu. Onun kifayət qədər geniş dünyagörüşü var idi. Övladlarının savadlı böyüməsində, hərbçi yolu seçməsində və bu peşənin sınaqlarına sinə gərərək təcrübəli zabit kimi yetişməsində Aişə xanımın da zəhməti böyük idi. O, övladlarını həmişə çətinlikdən qorxmamağa çağırırdı və həyat yoldaşı Hacı Əhməd bəylə birlikdə onların dayağı olmuşdu. Ş.S.Aydəmir əsərində Aişə xanışın şəklini vermiş və şəklin altında onun Ənvərə ünvünladığı bu sözləri yazılmışdır: "Oğlun Ənvər, başladığın işi bitirmədən dönərsən südümü halal etməm". Bu öyüdlər veriləndə Ənvərin 27 yaşı var idi və artıq yarbay rütbəsində idi. Şübhə etmək olmaz ki, anasının bu öyüdləri Ənvərin təpərini daha da artırmış və zabit şərəfinin zirvəsinə doğru daha inamlı addımlamağa sövq etmişdi.

Ənvər paşa öz söhbətlərində atası Hacı Əhməd bəyi çox səmimi duyğularla anırdı. Bu, heç şübhəsiz ki, Hacı Əhməd bəyin valideyn kimi çəkdiyi zəhmətlərə qarşı onun minnətdarlıq hissələrindən doğurdu. Hacı Əhməd bəyin Ənvər və Nuru ilə çəkdirdiyi bir fotoşəkilin surəti günümüzə qədər gəlib çıxmışdır. Bu fotoda Ənvər minbaşı, Nuru

isə hələ öyrəncidir. Ənvər hərbçi həyatının sınaqları ilə artıq üzləşmiş olsa da Nuru üçün bu sınaqlar qarşıdadır. Ancaq onların hər birinin üzündə bir işıq və aydınlıq oxunmaqdadır. Hacı Əhməd bəyin üzündə isə övlad qürurunu duymaq elə də çətin deyildir.

Ənvər paşa türk hərbinin böyük sərkərdələrindən biridir və elə Birinci dünya müharibəsi cəbhəsində qazanılmış bir neçə hərbi uğurlar onun adı ilə bağlıdır. Azərbaycanın İstanbula göndərilmiş olan diplomatik nümayəndəsi Əlimərdan bəy Topçubaşov buradakı diplomatik fəaliyyəti ilə bağlı Azərbaycana göndərdiyi hesabatlarından birində Ənvər paşanın şəxsiyyəti ilə bağlı maraqlı bir məqamı qeyd edirdi. 1918-ci il noyabr ayının 25-də Türkiyənin yeni hərbi naziri marşal Abdulla paşanın görüşünə gedərkən Topçubaşov nazirin qəbul otağında rastlaşdığı belə bir mənzərəni təsvir edirdi:

> Tanış və zəngin qəbul otağı. Yeni olan odur ki, divarda Türkiyə imperiyasının bütün keçmiş hərbi nazirlərinin çərçivəyə salınmış böyük fotoları asılmışdı. Onların arasında Plevna qəhrəmanı Qazi Osman paşa da vardı. Döşü büsbütün ordenlərlə dolu idi ( boynunda rus ordeni – Ağ xaç var idi). Axırda sonuncu hərbi nazir və sədr-əzəm İzzət paşanın portreti asılıbdır.
>
> -Bəs, Ənvər paşa haradadır? – bura yenicə təyin edilmiş və biz azərbaycanlılara tanış olan məmur mehmandar Fərid bəydən soruşuram.
>
> -Buruda!
>
> Baxıram. Yaraşıqlı cavan sifəti, ağıllı gözləri olan və xəfifcə gülümsəyən Ənvər azacıq kənarda, ancaq içərisində bütün dövlərin silah nümunələri saxlanılan şkafın üzərindəki ən fəxri yerdə tamamilə təkdir. Böyük çərçvənin altında yazı var idi... Həmin yazı belə idi: "Əl-cənnət təht-ül zülal-ül yuf" – yəni "cənnət qılıncın kölgəsu altındadır".

Bu sözlər müəyyən mənada Ənvər paşanın həyat və fəaliyyət məramını müəyyənləşdirirdi. O bütün varlığı il hərbçi idi və əlində silah təkcə Türkiyə üçün deyil, bütün türk dünyası uğrunda vuruşmaq ideyası ilə alışıb yanırdı. Ənvər paşa Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkin sinif yoldaşı idi. Mustafa Kamal paşa Ənvər paşanın əsgəri igidliyini, qorxmazlığını yüksək qiymətləndirirdi. Bununla bərabər, Mustafa Kamal paşa Ənvər paşanın fəaliyyətinə tənqidi yanaşırdı və onun fəaliyyətində özünü göstərmiş olan müəyyən hərəkətlərin nədən doğruğunu çox dürüst müəyyənləşdirmişdi. O deyirdi:

> İyi yetişmiş, dürüst, vətənpərvər, qorxmaz böyük əsgər idi. Bir xətası var idi. O da albay rütbəsində ikən tümən, qolordu, ordu komandanlıqları yapmadan Baş komandan olmasıydı. Orduda bu qədəmləri adlayaraq Baş komandanlığa gəlmək bir taqım xətaları da bərabərində gətirir. Ənvərin tək xətası bu idi ("Azərbaycan" dərgisi, eylül-ekim 1996, s.4).

Ənvər paşa doğrudan da çox böyük sürətlə inkişaf edirdi. Bunu aşağıdakı bioqrafik qeydlərdən də görmək mümkündür. Bu qeydlər onun rəsmi sicilindən götürülmüşdür:

Babası – Əhməd
Doğum yeri – İstanbul
Doğum tarixi – 1295 (1880)
Sinifi – piyada
Düxulu – 2 mart 1898
Yüzbaşı – 23 təşrini-əvvəl 1903
Qolağası – 23 şubat 1905

Minbaşı – 30 avqust 1906
Qayməqam – 28 mayıs 1912
Miralay – 2 qanuni-əvvəl 1913
Mirliva – 21 qanuni-əvvəl 1913
Feriq – 19 avqust 1915
Birinci feriq – 22 təşrini-əvvəl 1917

Ənvər paşa 34 yaşında olarkən albay (polkovnik) rütbəsi almışdı. Bu rütbəni almasından cəmi 19 gün sonra o, Əhmət İzzət paşanın yerinə hərbiyyə naziri təyin edildi və elə həmin gün də ona mirliva (general-mayor) rütbəsi verildi. Sonradan o aşağıdakı vəzifələri tutdu:

26 qanuni-əvvəl 1329 –Ərkani-hərbiyyə rəisi
21 iyul 1330 – Baş komandan vəkili
12 təşrini-sani 1330 – Bəhriyyə naziri vəkili
13 aprel (nisan) 1331 – padşahın xüsusi yavəri
23 qanuni-əvvəl 1332 – Hərbiyyə naziri və Baş komandan vəkili
19 nisan 1333 – Sədr-əzəm vəkili
2 təşrini-əvvəl 1334 – gizlincə evini və Türkiyəni tərk etdi

Ənvər paşa elə bir vaxtda Osmanlı Türkiyəsi kimi böyük imperiyanın hərbi naziri olmuşdu ki, onun hərbi təcrübəsi, gənclik enerjisi və arzuları birləşərək daha geniş fəaliyyət meydanı üçün çırpınırdı. Ancaq bu vəzifəyə təyin olunana kimi Ənvər paşa zəngin və maraqlı bir həyat yolu keçmişdi. Öz fəaliyyəti ilə o, Osmanlı Türkiyəsinin ictimai-siyasi və hərbi həyatında tanınmış şəxsiyyətlərdən birinə çevrilmişdi. Yəni hərbi nazir vəzifəsinə o, təsadüfən gəlib çıxmamışdı. Bu vəzifə konkret tarixi şəraitdə Ənvər paşanın fəaliyyətinin və ictimai xidmətinin məntiqi nəticəsi kimi ona həvalə edilmişdi.
Ənvər paşa eyni zamanda iqtidarda olan "İttihad və Tərəqqi" partiyasının liderlərindən biri idi. Ancaq elə burada qeyd etmək lazımdır ki, Ənvər paşanın siyasi partiyanın liderlərindən biri olması və hərbçi olduğu halda siyasətə qarışması türk tarixçiləri tərəfindən birmənalı şəkildə qiymətləndirilmir. Bu məsələyə toxunmadan qeyd edilməlidir ki, o, hökumətdə malik olduğu nüfuzundan istifadə edərək reallığına inandığı Turançılıq ideyasının da həyata keçməsinə və dövlət imkanlarının da bu məsələyə səfərbər edilməsinə çalışırdı. Azərbaycanın, Şimali Qafqazda yaşayan müsəlman xalqlarının, bütünlükdə Rusiyanın tərkibinə daxil olan türk xalqlarının çar Rusiyasının əsarətindən qurtularaq böyük Turan dövlətinə qatılacağına inanan Ənvər paşa hərbi fəaliyyətində də bu planı diqqətdən qaçırmırdı.
Türk xalqlarının mənəvi və siyasi birliyi, türkçülük ideyasının prinsipləri elə Birinci dünya müharibəsi dövründə Türkiyədə iqtidarda olan Tələt bəy, Xəlil bəy, Ənvər paşa və digər şəxsləri özündə birləşdirən "İttihad və Tərəqqi" partiyası tərəfindən də əxz edilmiş və bununla əslində həmin vaxt türkçülük Osmanlı dövlətinin rəsmi görüşləri səviyyəsinə qaldırılmışdı. Türk xalqlarının birliyinə xüsusi əhəmiyyət verən Ənvər paşa dövlətin xarici siyasətinin də Turançılıq ideyası üzərində qurulmasına maraq göstərirdi.
Ənvər paşanın Osmanlı dövlətində kifayət qədər nüfuzu var idi və bu nüfuzundan istifadə edərək reallığına inandığı Turançılıq ideyasının həyata keçməsinə dövlətin imkanlarını səfərbər etməyə çalışırdı. Azərbaycanın və Şimali Qafqazda yaşayan müsəlman xalqlarının bütünlükdə Rusiyanın tərkibinə daxil olan türk xalqlarının çar

Rusiyasının əsarətindən qurtararaq böyük Turan dövlətinə qatılacağına inanan Ənvər paşa hərbi fəaliyyətində də bu planı diqqətdən qaçırmırdı. Birinci dünya müharibəsi dövründə bu planın reallaşdırılması Azərbaycan və digər müsəlman və türk xalqlarına kömək göstərilməsi üçün Ənvər paşa tərəfindən bir fəallıq duyulurdu. 1914-cü ildə türk qoşunlarının bəzi uğurları və o cümlərədn də Rusiya qoşunlarının bir sıra əraziləri tərk etmək məcburiyyətində qalması Ənvər paşa və onun silahdaşlarında Qafqaza doğru irəliləmək ümidini daha da artırdı. Birinci dünya müharibəsində Türkiyənin müttəfiqi olan Almaniya da Qafqaza doğru irəliləmək ümidini daha da artırdı. Birinci dünya müharibəsində Türkiyənin müttəfiqi olan Almaniya da Qafqaza doğru irəliləməyi və xüsusilə də Bakı neftindən bəhrələnmək ideyasını dəstəklədi. Hətta daha böyük iddialar da mövcud idi. Güman edilir ki, Türkiyə-Almaniya qoşunları Xəzərboyu şimala doğru irəliləməklə Rusiya ərazisindəki tatarlarla, Orta Asiya türklərinə dəstək verməklə Rusiyanın hərbi gücünə zərbə endirilsin.

Türkiyənin Birinci dünya müharibəsi gedişində planlaşdırdıqları həyata keçmiş olsaydı, o zaman İran ərazisinə qoşun çıxarılması, buradakı rus qoşun hissələrinin geriyə cəkilməsindən sonra Qafqaza da yol açması nəzərdə tutulmuşdu. Bu planın həyata keçirilməsinə Ənvər paşa tərəfindən Xəlil bəy, Kazım Qarabəkir paşa, Ömər Naci kimi güvəndiyi şəxslər cəlb edilmişdi. Həmin planın həyata keçirilməsi üçün hələ 1914-cü ilin sonlarına yaxın yarbay Xəlil bəyin rəhbərliyi altında Azərbaycan və Dağıstan istiqamətinə hərbçilər qrupu göndərmişdi. Ənvər paşa Xəlil bəyə verdiyi tapşırığında bildirirdi ki, onun vəzifəsi Təbrizdən keçməklə Dağıstana doğru irəliləmək, bölgənin əhalisini üsyana qaldırmaq, Bakı-Tiflis dəmin yolu xəttini dağıtmaq, rusların Xəzərin qərb hissəsindən geri sıxışdırılmasına cəhd göstərməkdir.

Ənvər paşanın istəyi və dəstəyi ilə İstanbulda "Qafqaz komitəsi" yaradıldı. Komitənin fəaliyyətinə Qafqaz xalqlarının nümayəndələri cəlb edilmişdi. Həmin komitə Qafqaz xalqları arasında iş aparmalı və Qafqaz xalqlarının muxtarlaşmasına öz dəstəyini verməli idi.

Lakin Sarıqamış ətrafında baş verən böyük hərbi uğursuzluq Ənvər paşanın Qafqazla bağlı olan siyasətinin də icrasını mümkünsüz etdi. Bununla belə, çar Rusiyası tərkibində olan türk xalqlarına kömək etmək planı Ənvər paşanı ömrünün sonuna qədər tərk etmədi.

1917-ci ildə baş verən Fevral inqilabından sonra Rusiyanın zəifləməsi, rus qoşunlarının parçalanmaq üzrə olması və Rusiyanın tərkibinə daxil olan türk və müsəlman xalqlarında milli-azadlıq hərəkatının canlanması Turançılıq ideyasının həyata keirilməsinə başlanması üçün Ənvər paşada yeni ümidlər yaratmışdı. Bunu Ənvər paşa üzvü olduğu "İttihad və Tərəqqi" partiyasının 1917-ci il noyabr ayını 11-də verdiyi bir bəyanat da təsdiq edirdi. Həmin bəyanatda bildirilirdi:

> Vətənimizin və millətimizin milli idealları bizi Moskva düşmənini imhaya dəvət etməkdədir. Beləliklə, rus idarəsindəki bütün irqdaşlarımızı içinə alan və onlarla birliyimizə imkan verəcək təbii hüdudumuz əldə edilmiş olacaqdır.

Rus ordusunun dağılması və Rusiya imperiyası tərkibinə daxil olan türk-müsəlman xalqlarının milli-azadlıq hərəkatı gücləndikcə bu planın icrasına maraq da Ənvər paşa və onun silahdaşları arasında xeyli güclənmişdi. Ancaq Türkiyədən gözlənilən yardımın mahiyyətinə gəlincə Azərbaycanın milli qüvvələrinin heç də hamısı vahid mövqedə dayanmırdılar. Milli mücadilə liderləri Türkiyənin yardımlarının zəruriliyini vurğulasalar da bu yardımların bir ölkənin hakimiyyətindən qurtularaq başqa bir ölkənin hakimiyyəti altına düşməsi ilə nəticələnməsinə razı deyildilər. Onlar ümid edirdilər ki,

din və dil ortağı olan türklər Azərbaycan xalqına yardım etməklə onu təhdid edən təhlükəni sovuşduracaq və Azərbaycanın müstəqilliyə qovuşmasına şərait yaradacaqdır. Başqa bir mövqedə dayanan qüvvələr isə Türkiyədən yardım istəməklə Azərbaycanın Osmanlı dövlətinə birləşdirilməsinə tərəfdar çıxdılar. Onlar Azərbaycanın gələcəyini Osmanlı dövlətinin tərkibində görürdülər və bunun üçün geniş təbliğat da aparırdılar. Bu cərəyanın önündə Qafqaz "İttihad və Tərəqqi" partiyasının fəalları gedirdilər.

Türkiyədəki "İttihad və Tərəqqi" partiyası ilə ideya yaxınlığı olan bu partiyanın fəalları özlərinə çoxlu tərəfdar toplayaraq Azərbaycanın ictimai-siyasi həyatına təsir edə biləcək bir qüvvə əldə etmişdilər. Əsas fəaliyyətini bu istiqamətdə quran Qafqaz "İttihad və Tərəqqi" partiyasının Mərkəzi-Ümumiyyəsi 1918-ci il mart ayında böyük bir bəyanat verib Osmanlı dövlətinə müraciətlə çıxış etdi. Qafqazın bütün müsəlmanlarının iradəsini ifadə etdiyini bildirən Mərkəzi-Ümumiyyə qeyd edirdi ki, bütün şimal və cənubi Qafqaz ana vətənimiz olan Türkiyəyə ilhaq olunmalıdır. Onlara görə bolşevik hökuməti rəhbərləri tərəfindən öz müqəddəratlarını müəyyənləşdirmək zəmanəti alan Qafqazın 6 milyonluq müsəlman əhalisi Türkiyəni Qafqaza çağırır və  bütün Qafqazı ana vətəni olan Türkiyəyə birləşdirilməsini tələb edirdilər. Bəyanatda bildirilirdi ki, indi qalib kürsüsündə oturan Türkiyə tarixin ona bəxş etdiyi haqqlara istinad edərək dərhal Qafqazı almalı və onu çağıran qardaşlarını azad etməlidir. Dörd il ərzində Avropa, Asiya və Afrika cəbhələrində böyük uğurlar qazanan türk ordusunun 3-4 milyon rusu və bir neçə yüz min ermənini Qafqazdan qovmağa qadir olduğuna yəqinlik də çağırışda öz əksini tapmışdı.

Doğrudur, Turançılıq ideyası bütünlüklə real bir plan deyildi. Azərbaycanda həmin ideya müəyyən qüvvələr tərəfindən dəstəklənsə də milli-azadlıq mübarizəsinin liderləri heç də Turançılıq ideyası altında Azərbaycanın Türkiyəyə birləşdirilməsinə tərəfdar deyildilər. Ancaq Osmanlı Türkiyəsi ilə Azərbaycan arasında hərbi münasibətlər formalaşarkən bu baxışın da ortada olduğunu inkar etmək olmaz. Heç şübhəsiz ki, bunun nticəsi idi ki, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının formalaşmasının ilkin mərhələsində Ənvər paşa Azərbaycanın gələcəyini Türkiyənin tərkibində görürdü. "İttihad və Tərəqqi" partiyası yuxarıdakı bəyanatında "təbii hüdudumuz" deyiləndə Türkiyənin şimal sərhədinin Şimali Qafqaz dağlarından keçməsi nəzərdə tutulurdu. Azərbaycana münasibətdə Ənvər paşanın şəxsində türkçülüklə bərabər, sultanlıq rejiminə xidmət edən, dünya savaşına qoşularaq ondan qələbə ilə çıxmağa çalışan bir hərbçi keyfiyyətləri birləşmişdi. Yeni ərazilər əldə etmək, konkret tarixi şəraitdə yeni-yeni fəthlərə nail olmaq bir cavan sərkərdə kimi onun da istəklərindən uzaq deyildi. Türk tarixçilərinin də təsdiq etdiyi kimi Azərbaycanı və Şimali Qafqazı Rusiyadan ayırmaqla Ənvər paşa bir növ şərq cəbhələrində itirdiyinin əvəzini çıxmaq istəyirdi. Ancaq bir qədər qabağa gedərək qeyd edək ki, bölgədə və Azərbaycanda gedən proseslər sonradan Ənvər paşanın və Nuru paşanın baxışlarında da bir dəyişiklik yaratdı və onların hər ikisi Azərbaycan Cümhuriyyətinin möhkəmlənməsi üçün xeyli səy göstərdilər. Qarşılıqlı münasibətlərə siyasi baxışın necə formalaşmasından asılı olmayaraq Ənvər paşanın Azərbaycan türklərinə Rusiya əsarətindən qurtulması üçün mümkün yardımı göstərmək əzmi isə həmişə dəyişməz qalmışdı.

Ənvər paşanın Turançılıq fikirləri, çar Rusiyası tərkibində olan bütün türk dövlətlərini birləşdirərək böyük Turan dövləti yaratmaq ideyası Türkiyənin özündə də müəyyən dairələr tərəfindən reallığa uyğun sayılmırdı. Elə Mustafa Kamal paşa da həmin illərdə belə ideyaların həyata keçə biləcəyinə inamla yanaşmırdı. Onun söylədiyi bəzi fikirlər Birinci dünya müharibəsi illərində Türkiyədə iqtidarda olan "İttihad və Tərəqqi"

partiyasının müdafiə etdiyi Turançılıq ideyasının mahiyyətini başa düşmək üçün qiymətli meyardır. O bildirirdi:

> Müxtəlif millətləri müştərək və ümumi bir ünvan altında toplamaq və bu müxtəlif kütlələri eyni hüquq və şərtlər altında saxlayaraq qüvvətli bir dövlət yaratmaq parlaq və cazibədar bir görünüşdür. Fəqət aldadıcıdır. Hətta bir sərhəd tanımayaraq dünyada mövcud olan türkləri belə bir dövlət halında birləşdirmək, nail olunması mümkün olmayan bir məqsəddir. Bu, əsrlərin və əsrlər boyu yaşamış olan insanların çox acı, çox qanlı hadisələrlə ortaya qoyduğu bir gerçəkdir.

M.K.Atatürk bu fikri 1920-ci ildə söyləmişdi. Onun 1921-ci ildə söylədiyi başqa bir fikir yuxarıda toxunulan məsələnin mahiyyətinə varmaq baxımından daha xarakterikdir:

> Böyük xəyallar ilə özümüzü aldadan, görə bilmədiyimiz işlər görə bilən kimi göstərən saxtakar insanlardan deyilik. Bir çox böyük və xəyali işləri görmədən görmüş kimi görünmək xatirinə nəticədə bir vaxt məmləkətə və millətə bütün dünyanın düşmənçiliyini, pis niyyətini, kinini qazandırdıq. Biz panislamizmi həyata keçirmədirk. Yalnız "keçiririk, keçirəcəyik" dedik. Düşmənlər isə həyata keçirməmək üçün bizi qabaqlayaraq "öldürərəm" dedilər. Pantürküzmü həyata keçirmədik. "Keçirərik, keçirərik" – dedik və yenə "öldürərəm" – dedilər. Bütün dava bundan ibarətdir...
>
> Gəlin, belə həyata keçirə bilmədiyimiz və bilməyəcəyimiz anlayışlar ətrafında coşub düşmənlərimizin sayını və bizə qarşı olan pis münasibətlərini artırmaqdansa, təbii vəziyyətimizə, qanuni vəziyyətimizə qayıdaq.

Böyük Atatürk bu fikri konkret olaraq Turançılıq ideyası ilə bağlı söyləməsə də, oxşar ideyaların mahiyyətinə dürüst qiymət vermişdi. Elə Türkiyənin Azərbaycana yardımları tarixi göstərir ki, Qafqaz İslam Ordusunun yaradılması və Nuru paşanın rəhbərliyi altında olan bu Ordunun müstəqil Azərbaycan dövləti ərazisində fəaliyyəti Rusiyanın, İngiltərənin, hətta Türkiyənin müttəfiqi olan Almaniyanın çox böyük qəzəbinə səbəb olmuşdu.

Ənvər paşanın müdafiə etdiyi Turançılıq ideyası qeyri-real bir ideya olsa da, onu da qeyd etmək lazımdır ki, böyük nəticələr elə arzu və istəkdən qüvvə alır. Bəlkə də Ənvər paşa meyl etdiyi siyasətdə bir qədər romantikliyə yol verdiyi üçün idi ki, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı həyata keçdi və Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu yaradıldı.

Qafqaz İslam Ordusunun yaradılması və türk qoşun hissələrinin Azərbaycana göndərilməsini Ənvər paşanın həm Turançılıq ideyasının tərkib hissəsi saymaq olar, həm də yox. Sayılması ona görə mümkündür ki, bu ideya Ənvər paşanı özünə ciddi şəkildə cəlb etmişdi və hətta iqtidardan uzaqlaşdırıldıqdan sonra da Orta Asiyada bu bölgənin xalqlarının Rusiya əsarətindən qurtulması uğrunda mübarizə aparırdı. O elə bu yolda da canından keçməli oldu.

Azərbaycana əməli yardımların Turançılıqla bağlı olmaya biləcəyini də onunla əsaslandırmaq olar ki, belə bir ideyaya meylli olmasaydı belə, Ənvər paşa azərbaycanlı qardaşlarını köməksiz qoymazdı. Bolşevik-daşnak təcavüzünün Bakıdan başlayıb sürətlə Gəncəyə doğru genişləndiyi bir vaxtda Ənvər paşa heç şübhəsiz ki, din və dil qardaşlarının harayından kənarda qala bilməzdi. Özü də belə bir addımın atılmasında Ənvər paşa təkcə öz şəxsi istəkləri nöqteyi-nəzərindən çıxış etmirdi. Azərbaycana hərbi yardımların göstərilməsinə nail olmaqla Ənvər paşa həm də bütünlükdə türk xalqının Azərbaycanın köməyinə gəlmək əzmini ifadə edirdi.

Azərbaycan xalqı ilə Osmanlı Türkiyəsi arasındakı münasibətlərin mahiyyyətinə gəlincə isə, hər iki tərəfdə müxtəlif yanaşmaların olmasına baxmayaraq, Azərbaycan milli-azadlıq mübarizəsinin fəalları onu da yaxşı anlayırdılar ki, Türkiyənin hərbi yardımı olmasa xalqın başı üzərini kəsdirmiş olan real təhlükədən qurtarmaq mümkün deyildir. Müvəqəti hökumət, sonra isə bolşevik hökuməti Rusiya tərkibində yaşayan xalqlara öz milli müqəddəratlarını müəyyənləşdirməyə imkan verəcəklərini vəd etsələr də, bunun adi sözdən başqa bir şey olmadığı Azərbaycanda da yaxşı anlaşılırdı. Ona görə də milli-azadlıq hərəkatı gücləndikcə Türkiyənin hərbi yardımına üz tutmaq meyli də gücləndi. Nəticədə, hələ 1917-ci ilin noyabr ayında Mosulda yerləşən 6-cı türk Ordusu komandanlığına bir nümayəndə heyəti göndərildi. Həmin nümayəndə heyəti xahiş etdi ki, vəhşiliklər törədən erməni silahlı dəstələrinin fəaliyyətinin qarşısının alınmasında türk hərbi qüvvələri müəyyən yardımlar etsinlər. Bu görüşün nəticəsi barəsində bir fikir söyləmək çətindir. Həmin görüşü xatırladan tarixi ədəbiyyatda da tərəflərin hansı qərara gəlməsi barəsində məlumat verilmir. Ancaq sonradan Osmanlı dövlət rəhbərlərinin Azərbaycanla bağlı qətiyyətli qərar qəbul etmələrindən güman etmək olar ki, həmin görüş Ənvər paşada və onun ətrafındakılarda artıq əməli addımlar atılmasının vaxtının çatdığı qənaətini yaratmışdı.
1917-ci ilin sonlarından etibarən bu məsələ hər iki tərəf üçün yeni bir aktuallıq kəsb etdi. Həmin ilin dekabr ayında cəbhələrdə ruslara əsir düşmüş bir avstriyalı zabit qaçaraq türk qoşun hissələri tərəfinə keçmiş və o vaxtlar 6-cı Ordu komandanı olan Xəlil paşa ilə görüşmüşdü. Həmin əsirin verdiyi məlumatlar hərbi nazir Ənvər paşanın əmisi olan Xəlil paşanı çox maraqlandırmış və onda belə bir qənaət hasil olmuşdu ki, Qafqaza doğru uğurlu yürüş həyata keçirmək üçün çox əlverişli bir şərait yaranmışdır. Çünki bu bölgədə Rusiyanın gücü çox zəifləmiş və bütünlükdə ölkə daxilində mövcud olan qarışıqlıq çoxdan düşünülən planların həyata keçmə ehtimalını xeyli artırmışdı. Bu məlumatın doğruluğunu Ənvər paşaya çatdırmaq üçün Xəlil paşa həmin əsirin özünü onun yanına göndərdi. İstanbula yetişən kimi Ənvər paşa dərhal onu qəbul etdi. Əsirin verdiyi məlumatlar Ənvər paşanın özündə də əməli addımların atılması vaxtının çatdığına yəqinlik yaratdı. Bir müddətdən sonra Ənvər paşa Xəlil paşaya göndərdiyi teleqramında avstriyalı əsirlə görüşü barədə belə yazırdı:

> Görüşdüyüm avstriyalı yarbayın Bakının durumu haqqında verdiyi məlumatdan anlaşıldığına görə, Azərbaycan xalqının düşmənə qarşı təşkilatlanmaya və savaşmağa istəkli olduğu, ancaq onları təşkilatlandıracaq və idarə edəcək bir lider bulunmaması nədəniylə hərəkətə keçə bilmədikləri qənaətini edindim

Xəlil paşaya 1918-ci ilin fevralında göndərdiyi teleqramında Ənvər paşa Azərbaycan və Qafqazla bağlı planlarının artıq həyata keçirilməsi mərhələsinin başlandığını bildirirdi. Onun əmrinə əsasən, Qafqaz, Dağıstan, Türkistan və Rusiyadakı digər müsəlman xalqlara onların ehtiyac duyduqları yardım və dəstəyin verilməsi üçün mərkəzi Tehranda olan bir təşkilat yaradılmalı və adı çəkilən yerlərə hazırlıqlı türk zabitləri göndərilməli idi. Ənvər paşanın fikrincə, onun qardaşı yarbay Nuru bəy Tehrandakı mərkəzin rəhbəri olmalı, yarbay Şövkət bəy Dağıstana və Xəlil paşanın münasib bildiyi digər zabitlər də Qafqazın digər bölgələrinə göndərilməli idi. O bu planı bütünlüklə həyata keçirə bilməsə də hər halda Azərbaycan və Dağıstanla bağlı niyyətlərinin həyata keçirilməsi istiqamətində konkret addımlar ata bildi.
Ənvər paşa konkret olaraq Azərbaycanla bağlı əməli fəaliyyətə başlarkən heç şübhəsiz ki, buradakı milli qüvvələrin istək və arzularını, erməni-daşnak təhlükəsindən qurtarmaq üçün Türkiyəyə bağlanılan ümidləri və Türkiyəyə ünvanlanan çoxsaylı müraciətləri də

nəzərə almışdı. O şübhə etmirdi ki, atdığı addımlar birtərəfli deyil və bu addımlar Azərbaycanın milli qüvvələri və Azərbaycan xalqı tərəfindən dəstəklənəcək. Eyni zamanda qarşılıqlı şəkildə həyata keçirilən səylər bolşevik-daşnak təcavüzünə qarşı ümumi bir hərəkata çevriləcəkdir. Ancaq Türkiyədən gözlənilən yardımın mahiyyətinə gəlincə, Azərbaycanın milli qüvvələrinin heç də hamısı vahid mövqedə dayanmırdılar. Milli mücadilə liderləri Türkiyənin yardımlarının zəruriliyini vurğulasalar da bu yardımların bir ölkənin hakimiyyətindən qurtularaq, başqa bir ölkənin hakimiyyəti altına düşməsi ilə nəticələnməsinə razı deyildilər. Onlar ümid edirdilər ki, din və dil ortağı olan türklər Azərbaycan xalqına yardım etməklə onu təhdid edən təhlükəni sovuşduracaq və Azərbaycanın müstəqilliyə qovuşmasına şərait yaradacaqdır.
Başqa bir mövqedə dayanan qüvvələr isə Türkiyədən yardım istəməklə Azərbaycanın Osmanlı dövlətinə birləşdirilməsinə tərəfdar çıxdılar. Onlar Azərbaycanın gələcəyini Osmanlı dövlətinin  tərkibində görürdülər və bunun üçün geniş təbliğat da aparırdılar. Bu cərəyanın önündə Qafqaz "İttihad və Tərəqqi" partiyasının fəalları gedirdilər. Türkiyədəki "İttihad və Tərəqqi" partiyası ilə ideya yaxınlığı olan bu partiyanın fəalları özlərinə çoxlu tərəfdar toplayaraq Azərbaycanın ictimai-siyasi həyatına təsir edə biləcək bir qüvvəyə çevrilmişdilər. Əsas fəaliyyətini bu istiqamətdə quran Qafqaz "İttihad və Tərəqqi" partiyasının Mərkəzi-Ümumiyyəsi 1918-ci il mart ayında böyük bir bəyanat verib Osmanlı dövlətinə müraciət etdi:

> Ey türk ordusu, gəl! Gəl, Çingiz və Teymurləngin izləri buradadır. Biz, böyüklərlə gənclər, sənə ilhaq etmək və səninlə bərabər əcdad yurduna doğru yürümək üçün sizə müntəzirik. Təvəqqüf və rüsxət bitər. Yürü, şərqə yuru. Bil ki, sən yürüdükcə qızlarımız Qafqaz dəfnələrindən başına çələng taxacaq və millətimiz Qafqaz dağlarından ayağına güllər səpəcəkdir.

Çağırışda daha sonra bildirilirdi ki, Osmanlı ordusunun Gəncəyə gəlməsi ilə erməni məsələsi bir dəfəlik yox olmalı və bu millət tamamilə dünya xəritəsindən silinməlidir. Çağırış imzalayanların fikrincə, namussuz və vicdansız hərəkətləri ilə bəşəriyyətdə ad çıxarmış olan bu millətin əməllərinə qətiyyətlə son qoyulmasının vaxtı çatmışdır. Bu vəzifəni yerinə yetirmək üçün Qafqaza göndəriləcək 1-2 güclü türk firqəsilə bir həftə də kifayət edərdi. Çağırışda o da bildirilirdi ki, silahı və sursatı ilə gələn türk firqələrinin Qafqazda olduğu vatx iaşəsini, maliyyə vəsaitini, ləvaziumatını yerli əhali bir il müddətində özü təmin edə bilər və hətta Türkiyədəki hərbi qüvvlərə də müəyən qədər köməklik göstərə bilər.
Bu çağırış Qafqaz "İttihad və Tərəqqi" partiyası Mərkəzi-Ümumiyyəsi rəisi İsa bəy (müraciətin orijinalında onun soyadını oxumaq mümkün olmadı. Ancaq onun Aşurbəyov olduğu güman edilir – M.S.), xəzinədar Sadıq Hüseynzadə, habelə Cavanşir Qayıbzadə, doktor Məhəmməd Qayıbzadı, Ağa Aşurov, Abdulla bəy Əmircanzadə və başqaları imzalamışdılar.
1918-ci ilin əvvəllərində Azərbaycandan Türkiyəyə yeni bir nümayəndə heyəti gəldi. Azərbaycanın müstəqilliyinin qazanılması və onun qorunması üçün hərbi yardım göstərilməsi barədə milli mücadilə liderlərinin xahişini Türkiyə hökumətinə çatdıran həmin heyətə Nağı bəy Şeyxzamanlı rəhbərlik edirdi.
Azərbaycan nümayəndə heyəti əvvəlcə Trabzonda 3-cü Ordu komandanı Vehib paşa ilə görüşdü. Həmin görüşün nəticələri barədə Vehip paşa dərhal Ənvər paşaya geniş məlumat verdi və Ənvər paşa da nümayəndə heyətini İstanbula çağırdı.
N.Şeyxzamanlı öz xatirələrində Türkiyə rəhbərləri, xüsusən də Ənvər paşa və Nuru bəylə olan görüşlərini səmimi hisslərlə təsvir etmişdir. Bu qeydlərdən

N.Şeyxzamanlının Ənvər paşa ilə Nuru bəyə olan rəğbəti və sonsuz ehtiramı açıq duyulmaqdadır. Onu da əlavə etmək lazımdır ki, N.Şeyxzamanlı ona həvalə edilmiş vəzifəni layiqincə yerinə yetirdi. Onunla keçirilən görüşlərdən sonra Türkiyə rəhbərliyində Azərbaycana hərbi yardış göndərilməsi barəsində heç bir şübhə yeri qalmadı.

N.Şeyxzamanlının xatirələrindən sətirlər:

> ...Babi-Aliyə gəlirik və düz saat beşdə Tələt paşanın hüzuruna çıxırıq. Sevincim, həyəcanım bir-birinə qarışmışdır. Böyük bir otaq. Başda bir masa vardır. Tələt paşa stolun arxasında əyləşmişdi. Sağ tərəfində Ənvər paşa, sol tərəfində Xəlil bəy (Xəlil bəy ədliyyə naziri idi –M.S.). Masanın ən ortasında isə iki kreslo. Masaya yaxınlaşdıq, salamlaşdıq və əl verdik. Kresloları göstərdilər, əyləşdik. Mən etimadnaməni çıxarıb Tələt paşaya verdim. Aldı, oxudu. Möhürdəki ay və ulduzun gözəlliyi çox xoşuna gəlmişdi ki, etimadnaməni Ənvər paşa və Xəlil bəyə göstərərək dedi:
>
> "Möhürdəki ay və ulduzun gözəlliyinə baxın".

N.Şeyxzamanlı sonra öz xatirələrində hökumət rəhbərləri, o cümlədən Ənvər paşa ilə olan qeyri-rəsmi söhbətlərindən də söz açırdı. Bu ünsiyyətləri zamanı N.Şeyxzamanlının Ənvər paşa haqqında yazdıqları onun şəxsiyyətinin bəzi məqamlarının üzə çıxarılması haqqında oxucular üçün də maraqlı ola bilər.

> Söhbətimiz qurtarmışdı. Dərdləşməyə başladıq. Mən dünya müharibəsinin əvvəllərində rus mətbuatının Osmanlı dövlətinə ən ağır zərbəni ingilis ordusundakı müsəlmanlar və ərəblr vurur, - deyə yazdığını söylədim və "bu din qardaşlarımızın içində türk əsgərlərini nişan alıb və güllələyənlər varmı?" – deyə soruşdum. Ənvər paşa dedi: "Əfəndim, ingilislər ərəb qəbilə başçılarına çoxlu qızıl vermişlər və ziyalılarına da bu müharibənin sonunda bizi məğlub etdikləri təqdirdə ərəblərə istiqlal vəd etmişlər". Mən soruşdum: "Paşam, bu istiqlalı onlara siz vermədinizmi?" Bu suala Tələt paşa cavab verdi:
>
> "Mən ərəblərin irəli gələnləri ilə bu məsələni müzakirə etdim və onları inandıra bildim ki, ingilislər ərəb millətinə istiqlal verməyəcəklər". Söhbətə Ənvər paşa qarışdı: "Bundan başqa ingilislər ərəblərə müharibənin sonunda xilafəti bizdən alıb verəcəklərini vəd etmişlər". Mən dedim: "Paşam, xilafəti də onlara versəydiniz...". Ancaq bu sözlərimdən Ənvər paşanın çox qəzəbləndiyini hiss etdim. Üzü qızardı və əsəbi bir səslə cavab verdi: "Olmaz, son nəfərin xəlifə həzrətləri yanında şəhid olması lazımdır". Artıq söhbət bitmişdi.

Səhərisi gün Hərbi Nazirliyin binasında Ənvər paşa yenidən N.Şeyxzamanlı ilə görüşdü. Burada Ənvər paşa N.Şeyxzamanlıya ötən günkü görüşün təəssüratlarından çox məmnun qaldığını və Qafqaz İslam Ordusunun yaradılması haqqında qərar qəbul etdiyini bildirdi. N.Şeyxzamanlı bu görüşü belə təsvir edir:

> ... Məni gülər üzlə qarşıladı, qarşısında oturtdu və dedi: "Dünən verdiyiniz izahat məni çox sevindirdi. Sevincim və nəşəm hələ də davam etməkdədir". ...Paşa sonra mənə qərar qəbul etdiyini, Qafqaz İslam Ordusunun yaradılmasına başlanmasını və bir əlavə rütbə ilə zabit qeyd ediləcəyi üçün bir komissiya təşkil olunduğunu anlatdı və dedi: "Sizin də bu komissiyada olmağınızı məqsədəuyğun hesab edirik. İndi sizi yapılacaq Qafqaz İslam Ordusunun komandiri Prins Fərrux ilə tanış edəcəyəm". İçəri gənc bir zabit daxil oldu. Ənvər paşa bizi tanış etdi. Sonra hamımız birlikdə yavər bəyin otağına keşdik. Orada da bir müddət danışdıqdan sonra ayrıldıq. Prins ilə bir daha görüşmədim".

N.Şeyxzamanlının bu qeydlərindən aydın olur ki, Qafqaz İslam Ordusunun komandanı vəzifəsinə əvvəlcə başqa şəxslərə təklif olunubmuş. Mövzu ilə bağlı başqa mənbə və ədəbiyyatda Prins Fərrux haqqında heç bir məlumata rast gəlmədiyimiz üçün onun şəxsiyyəti haqqında əlavə bir şey söyləmək çətindir. Tarixi ədəbiyyatdan Azərbaycanda yaradılacaq Qafqaz İslam Ordusuna komandanlıq vəzifəsinin Kazım Qarabəkir paşaya da təklif edildiyi məlumdur. Nuru paşa da Qafqaz İslam Ordusu haqqında yazdığı xatirələrində komandanlıq vəzifəsinin bir neçə şəxsə təklif edildiyini qeyd edir. Nuru paşa xatirələrində həmin şəxslərin adını çəkməsə də çox güman ki, elə Prins Fərrux ilə Kazım Qarabəkir paşanı nəzərdə tutmuşdu.

Ənvər paşanın Prins Fərruxla bağlı öz qərarını nə üçün dəyişməsi və onun yerinə Nurunu təsdiq etməsi barədə N.Şeyxzamanlının qeydlərindən müəyyən təsəvvür əldə etmək mümkündür.

> Bu müddət ərzində hər gün yaradılacaq ordu ilə bağlı komissiyaya gedir, müraciət edənləri yoxlayır, qeydə alırdıq. Ancaq görüşdüyüş siyasi şəxslərdən "İttihad və Tərəqqi" mərkəzində yalnız Tələt, Ənvər və Camal paşaların türk ordusunun Qafqaza getməyini istədiklərini, digərlərinin buna qarşı çıxdıqlarını öyrəndim. Ənvər paşa ilə hər gün görüşdük. Bir dəfə özümü toplayıb və Ənvər paşanın da məni sevməsindən də istifadə edərək dedim: "Paşam, sizinlə açıq danışmaq istəyirəm. Biz Qafqaz türkləri iki qüvvəyə inanırıq. Yuxarıda Allaha, aşağıda Ənvərə. Eşitdiyimə görə Sizin Nuru adında bir qardaşınız vardır. Sizdən xahiş edirəm, Qafqaza gedəcək hərbi dəstənin başına Nuru paşanı təyin edəsiniz. Paşam, ölkəm dünyanın ən zəngin yerlərindən biridir. Qocaman div Rusiyanı qudurdan, sağa-sola saldıran Bakı neftidir ki, 70 faizi biz azəri türklərinindir. Xalqı ağıllı və çalışqandır. Eyni dərəcədə də olduqca qəhrəmandır. Bir də, paşam, Sizin Qafqaza gedəcək əsgərlərə komandir təyin etdiyiniz Pirinsi hər axşam "Para Palas" hotelinin salonunda içki içib rəqs edərkən görürəm. Qafqazda belə şeyləri xoşlamazlar". Ənvər paşa məndən soruşdu: "Nağı bəy, sizin vətəndə içki içmirlərmi?" "İçirlər, paşam. Amma şərab, pivə kimi az spirtli içkilər. Vodka deyilən sərt içkini ruslar içirlər. Bizdə içki içirlər, ancaq sərxoş olmaq üçün yox" cavab verdim. Məni dinləyən Ənvər paşa "Çox yaxşı" – dedi. Sonra telefonu alaraq Qafqaza gedən zabitlərin içki içməyənlər olması, içki istəməyəcəklərinə dair dillərindən kağız alınması üçün əmr verdi və mənə dedi: "Nağı bəy, Nuru çox cavandır, necə olsun?". Mən dedim: "Paşam, Nuru paşanın Trablusqərbdəki fəaliyyəti haqqında burada heç kəsdən məlumat almadım. Rus mətbuatı Nuru paşadan və onun fəaliyyətindən xeyli yazmışdır. Qafqazda oxumuşdum. Və bir də, paşam, Sizin qardaşınız olması bəsdir". "Yaxşı, sabah danışarıq" – Ənvər paşa dedi və ayrıldıq.

Görünür, Ənvər paşa da əvvəlcə Nurunu Azərbaycana göndərmək fikrində deyildi. Ola bilsin ki, Nurunun həqiqətən də kifayət qədər cavan olması onu belə bir qərar qəbul etməkdən çəkindirmişdi. Ancaq Ənvər paşa Nağı Şeyxzamanlının məsləhət bildiyi cəhəti nəzərə almaqla bərabər, heç şübhəsiz ki, Nurunun potensialını ciddi götür-qoy etmiş və sonradan onu Qafqaz İslam Ordusu komandanlığına təyin edilməsini məqsədəuyğun bilmişdi. Ənvər paşanın bu qərarını necə bəyan etməsi haqqında N.Şeyxzamanlı yazırdı:

> Ertəsi gün məni gülər üzlə qarşıladı və dedi: "Bəli, Nağı bəy, istədiyiniz baş tutdu". Mən sevinərək dedim: "Paşam, çox sevindim və sabah bütün Qafqaz türkləri sevinəcəklər" ... Bu vaxt içəri bir paşa daxil oldu. Ənvər paşa – "bu da

> istədiyin Nuru" - deyərək bizi tanış etdi. Nuru paşa ilə birlikdə İslam Ordusu qərargahına gəldik.
> ... Günlər keçdi. Nuru paşa baş qərargahın rəisi Nazim bəylə birlikdə (İstiqlal savaşında Sakariyada şəhid olmuşdur) səylə işləyirik və şəxsi heyəti tam toplayırıq. Mən vəziyyətdən çox razıyam. Nuru paşa həm özü çalışır, həm də bizi işlədir. Bu arada görüşümüzün birində Ənvər paşanı çox razı qalmış gördüm...

Nuru paşanın Ənvər paşa tərəfindən Türkiyədən Azərbaycana necə yola salınmasını N.Şeyxzamanlı belə təsvir edirdi:

> Bir neçə gündən sonra Nuru paşanın kadr korpusunun hazır olduğu haqqında xəbər aldım. Nuru paşanı Heydərpaşadan yola salırız. Ənvər paşa və yavərləri, digər paşalar və rəsmi şəxslərdən bir neçə nəfər yolasalma salonundayıq. Qatar hazır vəziyyətdə dayanıb, yola salanların hamısı perrona çıxdılar. Ənvər paşa ilə Nuru paşa tək qaldılar. Mən də perrona çıxanların arasındayam. Birdən məni çağırdılar, geri döndüm. Oradakılar mənə dedilər: "Sizi nazir paşa həzrətləri çağırır". Getdim. İki qardaş baş-başa dayanıblar. Yaxınlaşıram. Ənvər paşa bir əlini Nuru paşanın, o biri əlini də mənim çiynimə qoydu və "Siz ikiniz də mənim qardaşlarımsınız. Sizə son sözüm budur" – dedikdən sonra Qafqazda görəcəyimiz işlər haqqında bizə məlumat verdi.

Nuru paşa ilə N.Şeyxzamanlı Azərbaycana doğru başqa-başqa yollarla hərəkət etdilər. Nuru paşa öz heyəti ilə daha qabaq yola düşdü. N.Şeyxzamanlı hərəkətə başlamazdan əvvəl yenidən Ənvər paşa tərəfindən qəbul edildi. Bu görüş zamanı Ənvər paşanın söhbətlərindən onun Nuru paşa üçün bir narahatlıq keçirdiyini görmək çətin deyil. N.Şeyxzamanlı bu barədəki qeydləri ilə Türkiyəyə olan səfəri barədə xatirələrini tamamlayır. Onun sonuncu cümləsi isə yenə də Ənvər paşanın mənəvi keyfiyyətlərinin xaraklterizə edilməsi baxımından maraqlıdır:

> İttihadçıları bir idealist insanlar kimi gördüm. Hamısında ittihadi islamçılıq (bütün müsəlmanların birliyi) fikri var idi. Ancaq Ənvər paşanın islam dünyasına ümidi sonsuz idi. Müsəlman dünyasının varlığını hər şeydən, hər varlıqdan üstün tuturdu.

Bir sözlə, Ənvər paşa Azərbaycana hərbi yardım göstərilməsinin ilhamçısı idi. Bu məsələnin komkret həllini isə o öz qardaşı Nuru paşaya tapşırdı. Bundan başqa Ənvər paşanın əmisi Xəlil paşa da Azərbaycanın üzləşdiyi çətinliklərin həllinə cəlb edilmişdi. Türk qoşun hissələrinin Azərbaycana gəlməsi ərəfəsində Qafqaz bölgəsində olan türk hərbi birliklərini özündə birləşdirən Şərq Ordular Qrupu komandanlığı yaradıldı və bir müddətdən sonra Xəlil paşa Şərq Ordular Qrupunun komandanı təyin edildi. Qafqaz İslam Ordusu da Şərq Ordulaq Qrupunun tərkibinə daxil idi və onun bütün təchizat və təminat məsələləri Şərq Ordular Qrupu xətti ilə həyata keçirilirdi. Bu məqam özü də Ənvər paşanın Azərbaycanda yaranmış vəziyyətlə bağlılığını ifadə edən bir faktdır. Yəni, O, Azərbaycan xalqı üçün həlledici əhəmiyyətə malik olan yardımların həyata keçirilməsi planlarının icrasını ən yaxın adamlarına həvalə etmişdi.

Ancaq Ənvər paşanın Azərbaycana hərbi yardım göndərmək əzminin reallaşması İngiltərəni və Birinci dünya müharibəsində Türkiyənin müttəfiqi olmuş Almaniyanı ciddi narahat edirdi və Bakı neftinə susayan bu dövlətlərin hər ikisi türk qoşunlarının Qafqaza doğru irəliləməsinin qarşısını almağa cəhd göstərirdilər. İngilis komandanlığı cənub cəbhəsindən Bakıya qoşun bölmələri yeritmək və bununla da Bakını ələ keçirmək üçün cəhd göstərirdi. Almaniya rəhbərliyi isə Türkiyənin Qafqaz planlarının həyata keçməsi ərəfəsində, yəni hələ 1918-ci ilin aprelində Ukraynanı işğal edərək Qara

dənizin şimal sərhədlərini nəzarət altında saxlamağa çalışırdılar. Bu məqsədlə aprel ayının 20-də Xarkov şəhəri, az sonra isə Sevastopol və Rostov şəhərləri nəzarət altına alındı.
Məqsədlərinə çatmaq üçün almanlar bölgədəki diplomatik fəaliyyətlərini də xeyli gücləndirdilər. Bu istiqamətdə onların Gürcüstanla əlaqələri xüsusilə qabarıq xarakter aldı. Hələ Batumi sülh konfransı açılmamışdan əvvəl gürcülər öz nümayəndələrini Berlinə göndərərək almanların köməyinə möhtac olduqlarını bildirdilər. Gürcüstan ərazisində möhkəmlənmək və buradan keçən nəqliyyat qovşaqlarına nəzarət etməklə almanlar həm türklərin Azərbaycana doğru hərəkətlərinin qarşısını almaq, həm də Bakıya doğru irəliləmək üçün yaxşı imkan əldə edə bilərdilər. Alman rəhbərliyi gürcü tərəfinə anlatmışdı ki, qarşılıqlı əməkdaşlığın güclənəcəyi təqdirdə onlar Batumun türklərdən geri alınmasına və yenidən Gürcüstana verilməsinə kömək edəcəklər. Batumun yenidən nəzarət altına alınması üçün belə bir əməkdaşlığın daha doğru yol olduğuna inanan gürcü tərəfi də almanlarla əlaqələrin güclənməsinə çalışırdılar.
Qarşıya qoyulan vəzifələrə nail olunması üçün Almaniya Türkiyəyə, xüsusən də Ənvər paşaya olan təzyiqləri son dərəcə şiddətləndirdi. Bu təzyiqlərin təsirini artırmaq üçün Almaniyanın əlində kifayət qədər imkanlar da var idi. Osmanlı ordusunun tərkibində çoxlu sayda alman generalları və hərbçiləri xidmət edirdilər. Onlar istər Hərbi Nazirliyin aparatında, istərsə də qoşun birləşmələrinin komandanlıqlarında yüksək postlara təyin edilmişdilər. Həmin zabitlərin vasitəsilə Almaniya türk ordusunun fəaliyyətinin müəyyən çərçivəyə salınması üçün hiss ediləcək imkanlara malik idi. Digər tərəfdən Almaniyanın Osmanlı hökumətinin rəhbərlərinə təsiri də böyük idi və bu təsirdən də istifadə etməyə çalışırdı. Batum konfransının davam etdiyi günlərdə türk qoşunlarının Gümrünü tutduğu və Cənubi Qafqazın içərilərinə doğru hərəkət etdiyi vaxt Almaniya ilə Türkiyə arasında münasibətlər çox gərgin bir mərhələyə qədəm qoydu. Türkiyə və Azərbaycan arasında artan yaxınlığın eyni zamanda dil, etnik və mənəvi bağlılığından doğduğunu Almaniya heç bir vəchlə qəbul etmək istəmirdi. Almaniya rəhbərliyini Azərbaycan xalqının düşdüyü vəziyyətdə nicat yolunu aramaq cəhdləri də maraqlandırmırdı. Buna görə də, Birinci dünya müharibəsində Türkiyə ilə müttəfiq olan Almaniya Azərbaycana münasibətdə mənafecə Türkiyəyə tən gəlməyən bir dövlətə çevrildi. Almanlar Osmanlı dövlətinin Hərbi Nazirliyində yüksək vəzifədə işləyən general Fon Zekt vasitəsilə öz narahatçılıqlarını Ənvər paşaya belə çatdırdılar:

> Türkiyənin Qafqaza hərəkəti oradakı müsəlmanlara yardım məqsədilə də olsa bu yardım dərhal durdurulmalı və bütün qüvvələr dərhal geri çəkilməlidir.

Belə bir xəbərdarlıq ardınca Almaniya Silahlı Qüvvələri Baş Qərargah rəisi marşal Hindenburq Türkiyənin Azərbaycana doğru irəliləməsinə etiraz olaraq Ənvər paşaya rəsmi nota göndərdi. Həmin notada deyilirdi:

> Şimali İranda və Əlcəzairdəki ingilis təərrüzlərinin önlənməsi və Əlcəzairdə qeyb edilən məmləkətlərin geri alınması xüsusunun zərərinə olaraq Qafqaz daxilində əmniyyə qüvvələri bulundurmaya məcbur edəcək surətdə və müttəfiq dövlətlərin, yeni Qafqaz hökumətləri arasında yeni düşmənlər çıxarmağa hərbi-ümumi vəziyyəti müsaid deyildir. Bilxassə, Bakı petrol məntəqəsinin hərbi iarəsi üçün pək böyük olan əhəmiyyəti diqqətə alınaraq Bakı sancağından əhalinin türk birlikləri və ya türk-tatar könüllüləri tərəfindən istirahətlərinin bozulmasından vaz keçilməsini tələb edirəm.
>
> I.Ümumi kopmandanlıq namına sizdən aşağıdakı maddələrin yapılmasını rica edirəm:

1. Qars, Ərdəhan, Batum sancaqları müstəsna olmaq üzrə Qafqaz daxilindəki türk birliklərinin kamilən geri çəkilməsi;

2. Bu üç sancaq daxilində də yalnız asayişi təmin edəcək qədər əsgər buraxılmalıdır;

3. Gümrü xaric, Təbriz dəmir yolunun ancaq zəif türk qaraqolları tərəfindən mühafizə edilməsi;

4. Geridə qalan bütün türk birliklərinin kamilən Əlcəzairə və Şimali İrandakı ingilislərə qarşı istifadə edilməsi;

II. Yuxarıdakı maddənin 4-cü fikrində zikr edilən hərəkatın Qafqaz daxilində təminini və körpülərin qorunmasını alman Ümumi Qərargahı üstünə alacaqdır. Bu məntəqə daxilində bulunan Poti-Tiflis və Tiflis-Bakı və Tiflis-Gümrü dəmiryollarını, xəttin əmniyyətini qorumaq üçün alman xətt qaraqolları işğal edəcəkdir;

III. 1.Xətlərin işlədilməsi indiyə qədər bu xətlərdə bulunan dəmir yolları məmurlarına tapşırılmışdır. Qars, Gümrü, Culfa-Təbriz qismi üzərində bir türk nümayəndəsi və II maddədə zikr edilən hissələr üzərində bir alman nümayəndəsi Qafqaz dəmiryolu məmurları ilə bərabər, əsgəri nəqliyyat tənzim edəcəkdir.

2. Bir alman rəisinin altında alman-türk və qafqazlılardan ibarət bir komissiyada toplanaraq Qafqaz xətlərinin bərpası üzərində və Culfa-Təbriz qismi üzərində lokomotiv və vaqon təmin edilməsi və sairə ilə məşğul olmalıdır..

Göründüyü kimi, general-feldmarşal Hindenburq Ənvər paşadan açıq-açığına tələb edirdi ki, Qafqazdakı bütün türk qüvvələrini geri çağırsın. Bundan sonra isə bu bölgədə bütün nəzarəti ələ keçirsin. Tezliklə alman tərəfi Ənvər paşaya verilən tələblərin əməli icrasına başladı. Türkiyəni Qaqfqazdan sıxışdırmaq, Qafqazın bütün nəqliyyat qovşaqlarını öz nəzarəti altına almaq üçün konkret tədbirlərə əl atdı. Almaniya Gürcüstanla ikitərəfli müqavilə imzaladıqdan sonra bura hərbi qüvvələr gətirdi. İyun ayının 3-də Krımda olan alman hərbi qüvvələrindən iki tabor Gürcüstan ərazisinə atıldı. Bundan başqa məlumdur ki, alman hərbçiləri Gürcüstandakı yerli alman hərbçilərindən ibarət qüvvələrin təşkilinə də xüsusi diqqət yetirirdilər. Doğrudur, bütünlükdə Gürcüstanda alman bayrağı altında birləşən hərbi qüvvələr türk qoşunlarının qarşısını almağa qadir olacaq dərəcədə deyildilər. Bununla belə, bu qüvvələr Gürcüstanın müstəqlilliyi elan edildikdən sonra Cənubi Qafqaz dəmir yolunu nəzarət altına aldılar.

Alman-gürcü müştərək hərbi qüvvələri tezliklə Süxumi və Poti limanlarında, Tiflisdə, Gürcüstanla Azərbaycan arasındakı stansiyalarda, Tiflisdən Aleksandropola gedən dəmir yolu və quru yolları üzərində də görünməyə başladılar. Qafqazdakı mövqelərini möhkəmləndirmək üçün Berlin, Suriya cəbhəsindəki alman dəstəsini geri çağırdı və Ukraynadakı 217-ci piyada diviziyasının Gürcüstana göndərilməsini məqsədəuyğun saydı.

Bütün bunların nəticəsi idi ki, Türkiyə ilə Almaniya arasında olan ixtilaflar dərinləşməyə başladı. Yaranmış vəziyyətdə çıxış yolunun tapılması üçün 1918-ci il iyun ayının 5-də Ənvər paşa ilə general fon Zekt Batuma gəldilər. Ancaq görünür alman tərəfi Ənvər paşanın Batuma gəlməsi ilə Türkiyənin Qafqaz siyasətində Almaniyanın tələb etdiyi bir geriləmənin baş verəcəyinə inanmırdı. Alman marşalı Lyudendorfun 1918-ci il iyun ayının 6-da Ənvər paşaya yazdığı məktubun məzmunundan aydın görünürdü ki, Ənvər paşa heç də Qafqaz siyasətində din, dil və mənəvi qardaşları olan Azərbaycan xalqına yardım etmək niyyətindən üz döndərməmişdi. Həmin məktubda deyilirdi:

> Qafqaza çıxarılan alman Ümumi Qərargahının səbəb olaraq göstərməsinə təəccüb və heyrət etdiymi sizə ərz etmək istəyirəm. Türkiyə Brestdə bağlanılan anlaşmaların Cənubi Qafqaza aid olan qismini müttəfiqlərini heç bir vəchlə diqqətə almadan pozmuşdur. Almaniya hökuməti buna qarşı əvvəlcə ehtiyat ifadə etmiş və belə bir hərəkətin nəticələrinə diqqəti yönəltmişdir.

Marşal Lyudendorf daha sonra öz məktubunda Ənvər paşanın nəzərinə çatdırırdı ki, general fon Lossov Poti-Tiflis-Aleksandropol dəmiryolu xəttinin mühafizəsi üçün alman bölmələri təşkil etmiş və bu işi onlara tapşırmışdır. Onun fikrincə, bu addım yalnız alman mənafelərini deyil, həm də Türkiyə mənafelərini təmin etməli idi. Marşal Lyudendorf anlayırdı ki, bu qərar Ənvər paşanı təmin etməyə bilər. Ona görə də onu xəbərdar edirdi ki, Türkiyə tərəfi başqa cür hərəkət edərsə onda müvafiq qərar qəbul etmək haqqını özündə saxlayır.

Marşal Lyudendorfun ardınca marşal Hindenburq da yenidən Qafqaz siyasətinə görə, Türkiyəni hədələməyə başladı. Onun Türkiyə rəhbərliyinə göndərdiyi növbəti məktubunda deyilirdi:

> Türkiyə ilə Cənubi Qafqaz hökumətləri arasında Almaniya, Avstriya-Macarıstan və Bolqarıstanın məlumatı olmadan yapılmış olan anlaşmaları təsdiq və qəbul etməyəcəyini indidən bildirirəm.

Almaniya rəhbərlərinin və hərbi liderlərinin bu hədə-qorxuları istər Ənvər paşa, istərsə də digər yüksək rütbəli hərbçilər tərəfindən heç şübhəsiz ki, müəyyən narahatlıqla qarşılandı. Almaniyanın Krım ətrafını ələ keçirməsi, Rusiyanın içərilərinə doğru hərəkət etməsi və nəhayət Cənubi Qafqazda möhkəmlənmək istəyini heç bir müttəfiqin rəyini soruşmadan həyata keşirilməsinə baxmayaraq, Türkiyənin din, dil və etnik bağlılığı olan azərbaycanlıların rəsmi və qeyri-rəsmi kömək müraciətlərinə cavab verməsinin belə qarşılanması Osmanlı dövlət və hökumət dairələrinin də qəzəbinə səbəb olurdu. Elə bunun üçün idi ki, almanların hədə-qorxusunun əksinə olaraq Məhəmməd Vehib paşa tabeçiliyində olan hissələrin Aleksandropoldan Tiflisə doğru hərəkət etməsi barədə əmr verdi. 9-cu Qafqaz piyada diviziyasının hərəkətə başlayan hissələri iyun ayının 10-da Borçalı vadisindən keçən dəmir yolu üzərində, habelə Xram vadisindən keçib Tiflisə gedən əsas yol üzərində yerləşən Voronsovkada alman-gürcü hərbi bölmələrinin müqaviməti ilə üzbəüz gəldi. Alman-gürcü müştərək qüvvəsinin tərkibinə fon Kressin yerli alman əhalidən təşkil etdiyi bölük və bir qədər də grcü könüllü dəstəsi var idi. Elə ilk döyüşdə alman-gürcü qüvvələri pərən-pərən salındı, çoxlu əsir götürüldü. Bu hadisə almanları yenidən qəzəbləndirdi. Alman Baş Qərargahından türklərə belə bir xəbər göndərildi ki, əgər türklər hərəkətlərindən əl çəkməsələr Osmanlı ordusunda xidmət edən bütün alman zabitləri dərhal geri çağırılacaqdır. Marşal Hindenburq isə general fon Zektə belə bir xəbər göndərdi:

> Türkiyənin müttəfiqlərinin məlumatı olmadan yaratdığı vəziyyətin ciddiyyəti haqqında Ənvər paşanın diqqətini Sizin də cəlb etmənizi rica edirəm. Osmanlı dövləti tutduğu bu istiqaməti dəyişdirməyəcək olursa, bu dövlətə bu siyasətində artıq yardım edəcək bir vəziyyətdə qalmayacağıq.

Almaniya ilə münasibətlərin bu dərəcədə kəskinləşməsinə yol verməmək üçün Ənvər paşa türk hərbi hissələrinin alman-gürcü qüvvələrinə qarşı hərəkətinin dayandırılması barədə əmr verdi. Onlardan alınmış əsirlər azad edildi. Almanların qəzəbinə düçar olmuş Vehib paşa Şərq Ordular Qrupu komandanlığından azad edildi və İstanbula çağırıldı. Ənvər paşa bununla həm almanları razı salmağa çalışdı və digər tərəfdən də Azərbaycanla bağlı olan planların həyata keçirilməsinə rəhbərlik edəcək bir strukturun

komandanlığına daha çox etibar etdiyi əmisi Xəlil paşanı təyin etdi. Bundan başqa, Yaqub Şövqü paşanın komandanlığı altında 9-cu Ordu təşkil edildi və bu Ordu Aleksandropol-Culfa dəmir yolu ilə Aleksandropola göndərildi. 9-cu Ordu həmin bölgədə fəaliyyət göstərərək İrandan Bakıya doğru irəliləmək niyyətində olan ingilis qüvvələrinin qarşısını almalı idi. Bu addım da almanların planlarına müəyyən qədər cavab verirdi və onları razı salmalı idi.

Azərbaycanda yaradılacaq hərbi strukturlara Qafqaz İslam Ordusu adı verilməsi almanların qıcıqlandırılmaması üçün Ənvər paşanın irəli sürdüyü bir təklif idi. Bununla almanların nəzərinə çatdırılırdı ki, Azərbaycana türk ordusu yeridilmir. Əksinə, Azərbaycanda yalnız türk hərbçilərinin iştirakı ilə əsasını yerli əhali təşkil edəcək bir ordu yaradılır. İlk vaxtlar Qafqaz İslam Ordusunun elə bu cür də yaradılması nəzərdə tutulurdu. Ənvər paşanın fikrincə, Azərbaycanda hər biri üç piyada alayından ibarət olan üş piyada diviziyası yaradılmalı və bu üç diviziya bir korpusda birləşməli idi. Ənvər paşa əmr etmişdi ki, 1-ci və 2-ci piyada diviziyalarının təşkili ilə məşğul olacaq iki zabit heyəti seçilib Mosulda yerləşən 6-cı Ordu komandanlığına, 3-cü piyada diviziyasının təşkili ilə məşğul olacaq başqa bir zabit heyəti isə Trabzona, 3-cü Ordu komandanlığına göndərilsin. Lazımi təlimatları aldıqdan sonra həmin heyətlərdəki zabitlər Azərbaycanda qurululacaq ordunun təşkilinə başlamalı idilər. Azərbaycana yollanacaq zabitlər üçün bir sıra güzəştlər nəzərdə tutulumuşdu. Onlara mövcud rütbələri bir pillə artırılmaqla maaşların iki misli həcmində aylıq vəsait verilməli idi. Bundan başqa Ənvər paşa Qafqaz İslam Ordusunun təşkili və vəzifələrinə aid Təlimatnaməni təsdiq etdi. Bu Təlimatnamə Qafqaz İslam Ordusunun qarşısında dayanan vəzifələri və fəaliyyət istiqamətlərini müəyyənləşdirən bir rəsmi sənəd idi. Həmin sənəddə deyilirdi:

1.Qafqaz ordusunun təşkilində məqsəd qafqazlıların təşkil edəcəyi ordunun əsasını vücuda gətirmək və bu əsası tədricən genişləndirmək və qafqazlı əsgərlərə təlim vermək və Qafqazda yüksək islam mənfəətlərini və hüquqi-müqəddəsi-vilayəti və Dövləti-Osmaniyyət ilə rəvabiti-siyasiyyə və əsgəriyyəni təsis etməkdir. Bu təşkilat tədricən böyük Rusiya daxilindəki islamlardan imkanı dairəsində təşkil ediləcəkdir.

2. Ordu komandanı indilik Osmanlı hökumətinin və İslam xəlifəsinin Qafqazda ən böyük nüməssilidir.

3.Ordu kurmay başqanı yalnız əsgəri məsələlərlə məşğul olacaq və heç bir şərtlə bunun xaricindəki işlərə müdaxilə etməyəcəkdir.

4.Ordu komandanı siyasi məsələləri Siyasi işlər şöbəsinin köməyi ilə müstəqimən həyata keçirəcəkdir.

5. Ordu komandanı lüzum gördüyü zaman kurmay başqanı və Siyasi işlər şöbəsi müdirliyinin işlərini yoxlayaraq qərar verə bilər.

6. Orduya rəhbərlik və komandanlıq işlərinin həyata keçirilməsi və təchizinə aid olan məsələlər eynən digər ordular kimi Hərbiyyə Nazirliyi aparatı və müvafiq şöbələr tərəfindən icra ediləcək və buna görə də həmin məsələlər barədə Nazirliyə müraciət ediləcəkdir.

7. İslam məsələləri, siyasət, iqtisadi məsələlər bir başa hərbiyyə nazirinə ərz olunacaqdır.

8.Odunun sıravi heyətinin yerlərdən toplanması Ordu komandanlığına aiddir.

9. Ordunun silahlandırılması və təchizi, geyim və iaşəsi və s. məsrəfləri hələlik Osmanlı Hərbiyyə Nəzarəti tərəfindən ödəniləcəkdir.

10. Qafqaz ordusunun şəxsi heyəti arasında cərəyan edən hüquqi münasibətlər və cəza işləri tamamilə Osmanlı ordusunda cari olan qanunlar və qaydalara tabedir. Ancaq Ordu komandanı yerli şəraitə görə yerli əsgərlər haqqında bəzi xüsusi qanunların müsaidəsi nisbətində cəzanı azalda və çoxalda bilər.

11. Fəxri olaraq üst rütbə daşıyan zabitlər Qafqazda olduqları müddət ərzində fəxri rütbələrin səlahiyyətlərinə malikdirlər.

12. Ordunun İstanbula aid olan işlərinin və ordunun şəxsi heyətinin ailələrinə aid olan işlərin icrası və sürətləndirilməsi Omuri-Şərqiyyədəki xüsusi şöbə tərəfindən icra ediləcəkdir.

Almaniya ilə münasibətlərin kəskin pisləşməsinin qarşısının alınması üçün Ənvər paşa müəyyən ehtiyat tədbirlərinə əl atsa da Azərbaycana yardım göstərmək, Azərbaycan xalqını bolşevik-daşnak işğalından və təhlükəsindən qurtarmaq niyyətindən heç vaxt əl çəkməmişdi. O ardıcıl olaraq bu planın həyata keçirilməsi xəttinin tutmuşdu və bu istiqamtdə atılan addımlar tezliklə öz nəticəsini də verdi. Yəni, məlum olanda ki, Azərbaycanda yerli qüvvələrdən ibarət ordunun yaradılması üçün xeyli vaxt lazımdır, onda Ənvər paşa daha təsirli addımlar atdı və iki dövlət arasındakı müqaviləyə uyğun olaraq Azərbaycana türk qoşun hissələri göndərdi.

Ancaq türk qoşun hissələrinin Azərbaycana gəlməsi bu bölgədə nüfuzunu möhkəmləndirməyə çalışan dövlətləri daha da qəzəbləndirdi. Məsələn, Sovet Rusiyası Bakıda hakimiyyəti ələ keçirmiş olan Bakı Sovetinə hərtərəfli maliyyə və hərbi yardım göstərməklə zor gücünə sovet hakimiyyətini və Bakı neftini qoruyub saxlamağa çalışırdı. İngiltərə də İranda olan qoşun hissələri vasitəsiylə Bakıya müdaxilə etmək, Bakı neftinə ortaq olmaq istəyirdi. Biçeraxovun xidmətlərindən istifadə edilməsi də ingilislərin Bakı nefti uğrunda apardığı mübarizənin bir qolu idi. Almaniya isə Sovet Rusiyası ilə danışıqlara girişdi. Alman tərəfi Bakıya doğru irəliləyən türk qoşunlarının qarşısını saxlamağı öz üzərinə götürərək əvəzində Rusiya ilə Bakı neftinin bir hissəsi barədə sövdələşməyə çalışırdı. Nəticədə, Birinci dünya savaşında düşmən cəbhələrdə olan Rusiya ilə Almaniya Bakı nefti uğrunda birgə fəaliyyət razılığına gələ bildilər. Bu qarşılıqlı sövdələşmənin nəticəsi kimi Rusiya da Bakı neftinin bir hissəsini Almaniyaya güzəştə getməyə razı oldu.

Rusiya qarşısında götürdüyü öhdəliyi yerinə yetirmək üçün Almaniya Türkiyəyə qarşı təzyiqləri daha da gücləndirməyə çalışırdı. Almanlar hər vasitə ilə Qafqaz İslam Ordusunun Bakıya doğru hərəkətini dayandırmağa cəhd göstərirdi. Əks təqdirdə onlar yenə də türk ordusunda işləyən alman zabitlərini geri çağıracaqları ilə qorxudurdular. Türkiyəyə qarşı istiqamətlənmiş təzyiqlər elə bir xarakter aldı ki, Qafqaz İslam Ordusu Bakı ətrafına yaxınlaşandan sonra Ənvər paşa bu Ordunun fəaliyyətini artıq açıq şəkildə müdafiə edə bilmirdi. Onun bütün yazışmaları almanların nəzarəti altında olduğu üçün Ənvər paşa özünün rəsmi əmrlərində Qafqaz İslam Ordusunun Bakıya doğru hücumunun dayandırılmasını tələb edirdi. Ənvər paşanın belə bir görüntü yaratması ilk vaxtlar alman rəhbərliyi tərəfindən başa düşülmədi və ona görə də razılıqla qarşılandı.

Həqiqətdə isə Ənvər paşa belə bir mövqedən uzaq idi və Almaniyanın güclənən təzyiqləri qarşısında heç də güzəştə getməmişdi. O, Qafqaz İslam Ordusunun fəaliyyəti ilə bağlı zəruri göstərişləri gizli yolla Nuru paşaya çatdırırdı. Bu məsələ ilə bağlı o, Nuru paşanı lazımınca məlumatlandırmışdı. Məsələn, Göyçay döyüşlərindən sonra Qafqaz İslam Ordusunu gücləndirmək üçün Ənvər paşa Azərbaycana əlavə qoşun hissələri göndərmək üçün əmr verdi.

Bu əmr gizli şəkildə müvafiq orqanlara çatdırıldı. Həmin əmrdə bildirilirdi ki, 38-ci

piyada alayı ilə bir dağ topçu taborunun Qazax şossesi ilə Nuru paşaya yardıma göndərdim. Əmrin rəsmmi şəkildə yaymlanmış variantında isə Qafqaz İslam Ordusuna heç bir kömək göndərilməyəcəi və bütünlükdə Bakı üzərinə hücumun dayandırılması fikirləri ifadə olunmuşdu. İyul ayının 1-də Ənvər paşa tərəfindən imzalanmış həmin əmrdə deyilirdi:

> Sizə təqviyyə göndərmək qabil deyildir. Vəzifəniz Bakı üzərinə getmək olmayıb birliklərimizi toplu bulunduraraq bolşeviklərin Gəncə üzərinə hərəkətini mənn etmək olduğunu bir daha təkrar edirəm.

Bu xarakterli bir teleqram da Şərq Orduları Qrupu komandanına göndərildi. Almanların diqqətinin yayındırılmasına xidmət edən bu teleqramda deyilirdi:

> Müsaidəm olmadan Nuru paşaya heç bir təqviyyə göndərməmənizi, Nuru paşa üçün yola çıxarılan birlikləri geri almanıız rica edirəm. Əvvəlcə bildirildiyi üzrə Nuru paşa qüvvələrini toplu bulunduraraq yalnız bolşeviklərin irəliləməsinə mane olmağa yetinməlidir.

Bu və bunun kimi bir neçə digər əmrlə Ənvər paşa Almaniya rəhbərliyində Türkiyənin güzəştə getməsi görüntüsünə inam yaratmaq üçün edirdi. Özü də qeyd etmək lazımdır ki, Ənvər paşanın əl atdığı bu vasitə ilk vaxtlar kifayət qədər səmərəli bir vasitə idi və almanlar məsələnin nə yerdə olduğunu anlaya bilməmişdilər.

Ənvər paşanın Şərq Ordular Qrupu komandanına göndərdiyi başqa bir teleqramında da Bakıya doğru hücumun dayandırılması "zərurətindən" söhbət açılırdı:

> Bakı üzərinə irəliləmənin Bakıdakı petrol qaynaqlarının bolşeviklər tərəfindən təxrib edilməsi təhlükəsini doğuracağından genəl hərb sövq və idarəsi baxımından behəmin hal bundan qaçınmaq lazımdır. Bu nədənlə 5-ci Qafqaz tüməninin mənim müvafiqətim olmadan qətiyyən Bakı istiqamətinə təərrüz etməməsini əmr edirəm

Ənvər paşanın Şərq Ordular Qrupu komandanının müavini Esat paşaya yazdığı 1-2 iyul tarixli məktubu yuxarıdakı əmr və teleqramın məcburiyyət üzündən yazıldığı, əsas məqsədin almanların diqqətinin yayındırılması olduğunu, Bakının erməni-bolşevik qüvvələrindən təmizlənməsinin gündəlikdən çıxarılmadığını bir daha təsdiq edirdi. Məktubun elə birinci sətrində adı çəkilən Feldman – alman zabiti olub Türkiyə Hərbi Nazirliiynin Hərbi hərəkat şöbəsinin müdiri idi:

> Hərəkati-hərbiyyə (1-ci şöbə) müdiri Feldman son hərb durumu haqqında görüşmək və Kress (Almaniyanın Tiflisdə bulunan siyasi müməssili) ilə irtibat hasil etmək üzrə torpedo ilə bu gün Batuma hərəkət etdi. Feldmana Ənvər paşanın Şərq Ordular Qrupu komandanlığına göndərdiyi teleqraflardan heç bilgi verilməyəcək və yapılan hərəkətin Ordular Qrupunun kəndi inisiativi ilə yapıldığı söylənirləcəkdir.
>
> Almanlar əsasən bizim Bakı və Gəncə həvalisində bulunmamızı arzu etməməklə bizdə siyasi durum tamamən qazanıncaya qədər oralarda bulunmaq istədiyimiz üçün Nuru paşa ilə bu əsas daxilində və xəbərləşmə ilə qərargahını hər vaxt xəbərdar etməyə lüzum olmadan vəziyyətin idarə edilməsini rica edirəm. Ehtimal ki, mən yenə buradakı duruma görə Azərbaycana və Quzey Qafqaza silah göndərilməsini də qərargahdan yazmağa məcbur olacağam. Fəqət siz indidən Quzey və Güney Qafqaz üçün Nuru paşaya istədiyi qədər silah, cəbbəxana və para göndərərək müşkülatını giderib qərargahın olumsuz bildirişinə qarşı məsələni indidən həll etmiş olursunuz.
>
> Bolşeviklərin hər gün daha ziyadə qüvvətlənən təərrüzlərinə qarşı Güney

Qafqazdan bir müqavimət göstərmək və onların Qafqaz daxilində daha batıya irəliləməsinə mane olmaq və ordunun müharibə durumunun güvəni baxımından lüzumlu olduğunu Kress və Feldman bəyə izah və ikna eyləmək, güneyə qarşı yapılacaq hərəkətin bu güvənlə mümkün ola biləcəyini qəbul etdirmək xüsuslarına qeyrət sərf edilməsini özəlliklə çox önəmli görürəm.

Özətlə, Nuru paşanın və Gəncədəki qüvvələrimizin mümkün olan ikmal erlərin silah və cəbbəxana ilə təqviyyəsinə, vaxt gecikmədən Feldmanın gəlməsi ilə durum çox pərişan bir hal almadan ola bilən surətlə önəm verilməsini və sizə kişiyə özəl və gizli olaraq yazdıqlarımın eyni şəkildə Nuru paşaya da duyurulmasını və almanlara duyurulması kəskinliklə doğru olmayan bu xəbərləşmənin sizcə və Nuru paşaca üsul edilməsinin ingilislərə duyurulmasını təkrar rica edirəm. Ənvər.

Ancaq Almaniyanın bu təzyiqləri nə qədər güclü olsa da, hələlik Qafqaz İslam Ordusunun irəliyə doğru hərəkətini saxlamaq qüdrətində deyildi. İslam Ordusunun koomandanlığı da daha çox bu təzyiqlərin aradan qaldırılması ilə deyil, qarşıda dayanan vəzifələrin həlli üçün qüvvələrin möhkəmləndirilməsi ilə məşğul idi.

Qafqaz İslam Ordusu hissələrinin Bakı ətrafına yaxınlaşması və Bakının azad edilməsi uğrunda mübarizənin kəskinləşməsi ilə Bakı uğrunda xarici dövlətlərin iddiaları və Ənvər paşaya da təzyiqləri də artdı. Hər şeydən əvvəl Sovet Rusiyası Bakının itirilməsi ilə barışa bilmirdi. Eyni zamanda Rusiya hələ də Bakıda olan keçmiş komissarların dirçəldilməsi və onların vasitəsiylə yenidən Bakıya nəzarətin ələ keçirilməsinə ümidi kəsməmişdi. Keçmiş Bakı komissarları hakimiyyəti təhvil verdiklərini bildirsələr də tabeliklərində olmuş hərbi qüvvələri yeni hökumətə təhvil vermirdilər. Onlar hakimiyyəti ələ almaq üçün şəhər əhalisi arasında təbliğat aparmaqla bərabər, sovet qüvvələrinin sıralarını da genişləndirməyə cəhd göstərirdilər.

Sovet Rusiyası hökuməti eyni zamanda Almaniya ilə diplomatik danışıqları fəallaşdırdı. Hələ iyul ayının ikinci yarısında Şamaxı ətrafında boilşevik-daşnak qoşunları ciddi məğlubiyyətə uğradıqdan sonra Rusiya xarici işlər naziri Çiçerin həmin ayın 25-də Almaniyanın Rusiyadakı səfiriliyinə nota verdi. Notada Rusiya tərəfi Almaniyanın türk qoşunlarının Azərbaycan ərazisindəki fəaliyyətinin dayandırılması barədə verdiyi vədlərə əməl etməsi istənildi. Bu məzmunda yazılmış bir məktub da Rusiyanın Almaniyadakı səfiri İoffeyə göndərildi. Sovet dövləti İoffedən tələb etdi ki, türk qoşunlarının Bakı üzərinə hərəkətinin dayandırılması üçün Almaniyanın fəallaşmasına çalışsın. Sovet Rusiyasının istəkləri Almaniya tərəfindən öyrənildikdən sonra İoffeyə cavab verildi. Alman tərəfinin qənaətinə görə, Bakı neftinə maraqlı olan Almaniya Azərbaycanda türk qoşunlarının fəaliyyəti ilə bağlı məsələni nəzarəti altına almışdı və buna görə də türk qoşunlarının Bakıya doğru irəliləməsinin dayandırılacağına da təminat verilirdi.

Osmanlı dövləti rəhbərləri, o cümlədən Ənvər paşa üzdə müttəfiqləri olan Almaniyanın Brest-Litovsk müqaviləsinin şərtlərindən kənara çıxmamaq, Azərbaycandan öz qoşunlarını geri çəkmək tələblərinə razı olduğunu bildirsələr də, əslində yuxarıda qeyd edildiyi ki, Bakının alınmasını çox tezliklə başa çatdırmağa çalışırdılar. Azərbaycan ərazisində gedən döyüşləri ardıcıl olaraq izləyən Rusiya rəhbərliyi iyul ayının sonunda yenidən öz narahatlığını Almaniya dövlətinə çatdırdı. Qafqaz İslam Ordusu qoşunlarının Bakı ətrafına gəlib çıxması Bakıda sovet hakimiyyətinin süqutuna da təkan verdi. Çiçerin iyulun 29-da İoffeyə göndərdiyi teleqramda bildirirdi ki, Bakıda sovet hakimiyyətinin xilas edilməsinin başlıca yolu oradakı türk qüvvələrinin geri

çəkilməsidir. Bu məsələ ilə bağlı İoffe Almaniya Xarici İşlər Nazirliyinin nümayəndəsi Her Busse ilə görüşdü və Rusiyanın Bakı ilə bağlı narahatlığını ona çatdırdı.Almaniya Xarici İşlər Nazirliyinin nümayəndəsi bu narahatçılığın əbəs olduğunu, türk qoşunlarının Bakıya doğru irəliləməsinin doğru olmadığını bildirdi. Onun sözlərinə görə, həm İstanbuldan, həm də Tiflisdən alınan məlumatlar türklərin almanların tələbi ilə razılaşmasından, türk qoşunlarının irəli hərəkət etməyəcəklərindən və Bakıya girməyəcəklərindən xəbər verir. Almanlar İoffeyə onu da bildirdilər ki, türklər verdikləri sözə əməl etməsələr, onda onları buna məcbur edəcəklər.
Sovet səfiri İoffenin avqustun 1-də Moskvaya göndərdiyi məktubunda Almaniya Xarici İşlər Nazirliyində ona deyilənlərin doğruluğunu başqa kanallar vasitəsilə də yoxladığını qeyd edirdi. O yazırdı ki, Almaniya Xarici İşlər Nazirliyinin şöbə müdiri Kryuge və Almaniyanın İstanbuldakı elçisi Kont Brendsdorfdan alınan məlumatlar da sədr-əzəm Tələt paşanın, hərbiyyə naziri Ənvər paşanın və xarici işlər naziri Nəsimi bəyin də Nuru paşaya Bakı üzərinə hücumu dayandırmaq barədə qəti göstəriş verdiklərini təsdiq edirdi. İstanbuldakı alman səfirinə görə, türklərin Bakıya doğru hücumu davam etdirmələri xəbəri doğru deyildi. Onun Osmanlı rəhbərlərinə istinadən verdiyi məlumata görə, bu, olsa-olsa Azərbaycanın milli qüvvələrinin özlərinin təşəbbüsü ola bilərdi.
Almanlarda yaranan təşviş və təlaşlara son qoymaq üçün Ənvər paşa avqust ayının 2-də yazırdı:

> Alman qərargahına qarşı hərəkəti-təərrüzünün icra edilməyəcəyinin təəhhüdatına bulunuyorum. Binaənəleyh, Osmanlı qitəatının Şamaxı-Kürdəmir xəttindən daha irəliyə gedəcəklərini təxmin ediyorum. Bakının 40 kilometrliyində bulunan qitəatın yerli Dağıstan və Azərbaycan qitəatı olduğunu təxmin ediyorum

Avqustun 4-də 3-cü Ordu komandanına ünvanlanmış məktubunda isə Ənvər paşa Qafqaz İslam Ordusunun Bakıya doğru irəliləməsinin qarşısının alınması üçün Nuru paşaya daha "qəti göstərişlər" verirdi. Məzmununun daha çox alman nümayəndələrinin diqqətinə çatdırılması üçün nəzərdə tutulmuş həmin məktubda deyilirdi:

> ... Nuru paşaya çatdırılması lazımdır - əmri-qəti təkrar edirəm ki, Bakıya heç bir surətlə tərəfimizdən düçari-təərrüz olmayacaqdır. Bundan başqa hansı çətə olursa-olsun və haradan gəlirlərsə-gəlsinlər Bakıya qarşı kimsənin irəliləməsi haqqında təkmili—nüfuzunuzu istemal etməlisiniz. Şorsu-Salyan-Kürdəmir-İbrahimbəyli-Zərqova-Qonaqkənd-Giləzi irəlisində nə bizim əsgərlər, nə də bizə dost çətələrdən heç kimsə bulunmayacaqdır. Bu xəttin irəlisində bu surətlə bizdən kimsə varsa geri çəkilməlidir.
>
> Xidməti-Osmaniyyədə və Şərq Ordular Qrupu qərargahında bir alman ərkani-hərb zabiti gərək Baş komandanlıq vəkaləti, gərəksə Şərq Ordular Qrupu irtibat zabiti olaraq nəzdinizə gələcəkdir. Bunun vəzifəsi vəziyyət haqqında 3-cü Ordu vasitəsiylə mənə və ayrıca Şərq Ordular Qrupuna məlumati-lazımi verməkdir.

Ənvər paşanın bu cəhdləri alman zabitlərinin diqqətini həqiqətən də müəyyən qədər yayındırmışdı. Bir tərəfdən ingilis qoşun hissələrinin Bakıya girməsi, digər tərəfdən də 5 avqust döyüşündən sonra xeyli vaxt ərzində Qafqaz İslam Ordusu tərəfindən irimiqyaslı hücumun təşkil edilməməsi almanlarda artıq türk qoşunlarının Bakıya girmək niyyətindən əl çəkdikləri qənaətini yaratmış və onları sakitləşdirmişdi. Bu vəziyyət Rusiya rəhbərlərində də bir nisbi sakitlik yaratmışdı. Bununla belə, öz gücü ilə yenidən Bakıya yiyələnməyin asan olmadığını görən Rusiya Bakı nefti uğrunda Almaniya ilə sövdələşməni davam etdirirdi. Bakı neftindən pay almaq şərtilə Almaniya Rusiya qarşısında türk qoşunlarının Bakı üzərinə hücumuna yol verməyəcəklərinə

təminat verməyə razı idilər. Ancaq bu şərtlə ki, ingilis qoşunlarının Bakıdan qovulmasını Rusiya öz üzərinə götürsün.
1918-ci ilin avqust ayının ortalarında Bakıdan Moskvaya gəlmiş olan bir bolşevikin verdiyi geniş məlumatdan sonra Rusiya rəhbərliyi anladı ki, son günlər ərzində Bakı ətrafında sakitlik yaranması ilə bağlı onların gümanları heç də doğru deyilmiş. Bakı ətrafında yaranmış olan nisbi sakitlik türk qoşunlarının Bakı üzərinə hücumdan imtina etməsi ilə yox, əksinə qəti hücuma hazırlıq işlərinin davam etdirilməsi ilə bağlı idi. Çiçerin dərhal avqustun 18-də İoffeyə yeni bir teleqram göndərdi. Xarici işlər naziri bu teleqramda bildirirdi ki, Almaniya Bakı ətrafında nələrin baş verdiyinə görə ya Rusiyanı aldadır, ya da ola bilsin ki, cərəyan edən hadisələrdən ümumiyyətlə xəbəri yoxdur. Çiçerin teleqramında Bakı ətrafında döyüşlərin baş verməsini, Bakının təslim edilməsi ilə bağlı buradakı hakimiyyət orqanlarına türk komandirləri tərəfindən məktublar göndərilməsini də səfir İoffenin nəzərinə çatdırırdı.

Bakı ilə bağlı Türkiyənin mövqeyi və Bakı ətrafında cərəyan edən proseslər Almaniya və Rusiyanı daha qətiyyətli fəaliyyət göstərməyə sövq etdi. İki dövlət arasında Bakı nefti ilə bağlı gedən sövdələşmələr sürətləndirildi. Bu sövdələşmənin nəticəsi kimi avqust ayının 27-də Almaniya və Sovet Rusiyası arasında bir saziş imzalandı. Sazişin 6-cı fəslinin 14-cü maddəsi konkret olaraq Azərbaycana həsr edilmişdi. Hər iki dövlətin həyati maraqlarını əks etdirən bu maddədə bildirilirdi ki, Almaniya Qafqazda Gürcüstan sərhədlərindən kənarda baş verən hərbi əməliyyatlarda hər hansı bir üçüncü dövlətə heç bir yardım göstərməyəcəkdir. Almaniya dövləti əlində olan imkanlardan istifadə edərək çalışmalı idi ki, Qafqazda üçüncü bir dövlətin hərbi qüvvələri Kür çayının mənsəbindən Petropavlovsk kəndinə qədər, Şamaxı qəzasının sərhədləri boyunca, Bakı qəzasının şimal sərhədlərində dənizə qədər olan əraziləri keçməsin. Rusiya isə bunun əvəzində öz üzərinə öhdəlik götürürdü ki, Bakı ətrafında neftin istehsalını mümkün qədər artırsın və hər ay istehsal olunan neftin dörddə bir hissəsini, lakin yaxın vaxtlarda razılaşdırılacaq müəyyən miqdardan az olmayaraq Almaniyaya versin.
Həmin maddədə deyilirdi:

> Sülh müqaviləsinin IV maddəsinin III abzasına əsasən Almaniya Gürcüstan və onun hüdudlarından kənarda Qafqazda baş verə biləcək hərbi əməliyyatlarda hər hansı bir üçüncü ölkəni dəstəkləməyəcəkdir. O, Qafqazda üçüncü ölkənin hərbi qüvvələrinin aşağıda göstərilən xəttini keçməməsi üçün öz təsirini göstərəcəkdir. Kür çayının mənsəbindən Petropavlovski kəndinə qədər, sonra Şamaxı qəzası sərhədindən Ağrıoba kəndinə qədər, Bakı, Şamaxı, Quba qəzalarının sərhədlərinin birlışdiyi nöqtəyə qədər düz xətt boyunca, daha sonra Bakı qəzasının şimal sərhədindən dənizə qədər.
>
> Rusiya imkan daxilində Bakı ərazisində neft və neft məhsullarının əldə olunmasına yardım edəcək, əldə olunmuş məhsulun dörddə bir hissəsini Almaniyaya verəcəkdir. Belə ki, hər ay hələ təyin olunacaq müəyyən miqdarda (tondan az olmayaraq). Bakı ərazisində əldə olunan miqdar müəyyən olunmuş həcmi təchiz etmək üçün kifayət deyildir və yaxıd da ki, başqa məqsədlər üçün istifadə edilməlidir, ona başqa yerlərdə əldə olunmuş miqdar əlavə olunur; satış qiyməti kömürün miqdarının qiyməti ilə hesablanır.

Müqavilədə adı hallanan üçüncü bir dövlət kimi konkret halda Türkiyə nəzərdə tutulurdu. Belə bir müqavilənin bağlanması müttəfiqlik əlaqələrində olan Osmanlı Türkiyəsinə qarşı böyük bir üzüdönüklük idisə, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinə qarşı münasibətdə isə müdaxilə hərəkətlərinin rəsmiləşdiirlməsi idi.

Almaniya-Rusiya sövdələşməsinin yaratdığı narahatçılığı və gərginliyi aradan qaldırmaq üçün sədr-əzəm Tələt paşa sentyabr ayının 6-da Berlinə gəldi. Burada o, Amaniya Xarixi İşlər Nazirliyinin yüksək vəzifəli nümayəndəsi Fon Hinze ilə görüşdü, adı çəkilən müqavilənin Türkiyənin mənafeyinə yaratdığı təhlükəli məqamlar müzakirə edildi. Xüsusilə, Tələt paşa Türkiyənin xəbəri olmadan Qafqaza aid Rusiya ilə saziş bağlanmasına dair öz narazılığını F.Hinzenin diqqətinə çatdırdı. F.Hinze isə Tələt paşa tərəfindən söylənilən iradları nəinki qəbul etmədi, əksinə Türkiyəni verdiyi vədlərə əməl etməməkdə günahlandırdı. İki dövlət arasında yaranan anlaşılmazlığın həll edilməsi üçün Tələt paşa Almaniyada apardığı danışıqların nəticəsi kimi bir anlaşma imzalanmasını təklif etdi. Həmin anlaşmanın 6-cı və 8-ci maddələri Qafqaz və Azərbaycanla bağlı idi. Bu maddələrdə deyilirdi:

> 6-cı maddə: Rusiyanın dış gəlişmələri göz önündə tutulursa və bu dövlətin Türkiyəyə qarşı daima yıxıcı bir fəaliyyət təqib etdiyi və Türkiyənin tərəqqi yoluna girməsini əngəlləmək üçün hər türlü vasitələrlə çalışdığı diqqət nəzərinə alınarsa türk hökuməti Qafqazlarda qüvvətli və müstəqil bir dövlətin qurulmasını kəndisi üçün bir məsələədd etməkdədir.
>
> 8-ci maddə: Bakı məsələsinə gəlincə, bu əyalətdə müsəlman əhali nüfuzun 85 faizi nisbətində olub xalqı kamilən islam olan Azərbaycan və Quzey Qafqaz tərəfindən ihtiva edilmişdir. Bakı coğrafi durumu etibarilə Azərbaycan dövlətindən başqasına aid ola bilməz...

Anlaşmada belə bir məqam da var idi ki, Bakı şəhəri olmadan qüvvətli bir Azərbaycan dövlətini qurmaq olmaz. Sədr-əzəm Tələt paşa anlaşma layihəsini alman tərəfinə təqdim etməklə bərabər, belə bir təklifi də irəli sürdü ki, Almaniya dövləti Bakı da tərkibinə daxil olan Azərbaycanı, Gürcüstanı və Ermənistanı müstəqil dövlətlər kimi tanıması yaxşı olar. Ancaq Almaniya tərəfi sədr-əzəm Tələt paşanın təkliflərinin öyrənilməsinə müstəqil bir iradə nümayiş etdirə bilmədi. Əslində, Almaniya heç bir iradənin nümayiş etdirilməsi marağında deyildi. Çünki Türkiyə sədr-əzəminin irəli sürdüyü təkliflərin qəbul edilməsi Almaniyanın Bakı neftinə olan iddialarından əl çəkməsi demək olardı. Alman tərəfi Tələt paşanın təqdim etdiyi anlaşma layihəsi barədə fikrini bildirməzdən əvvəl onun Rusiyanın Berlindəki səfiri İoffeyə göstərdi. İoffe həmin anlaşma layihəsinə dair öz mülahizələrini aşağıdakı şəkildə ifadə etdi:

> 1.Mavərayi-Qafqazdan rus hissələrinin geri çəkilməsi və idarə mexanizminin qeyri-fəal bir hala gəlməsi bu sahənin dövlət hüququ baxımından statusu üzərində heç bir hökmü olmadığı kimi, türk əsgəri birliklərinin oraya girməsi və millətlərarası münasibət təsis etməsinə heç bir haqq verə bilməz.
>
> 2.Mavırayi-Qafqaz Cümhuriyyəti deyilən bir dövlət nə Rusiya sovet hökuməti və nə də başqa bir hökumət tərəfindən tanınmışdır. Dolayısı ilə bunlar əvvəldə olduğu kimi indi də Sovet Rusiyası ərazisi hesab olunmaqdadır.
>
> 3.Türk ordusu komandanlığı rus hissələrinin münəzzəm bir şəkildə geri çəkilməsinə imkan verməmək üçün heç bir möhlət qoymamış və dərhal irəliyə doğru hərəkətə başlamışlar.
>
> 4.Türkiyənin Cənubi Qafqazdakı hökumətlərlə qəbul etdiyi anlaşmalar Sovet Rusiyası tərəfindən tanınmamışdır.
>
> 5.Sovet Rusiyası Türkiyə ilə Rusiya arasında bir Qafqaz dövləti olmasını məmnuniyyətlə qəbul etməkdədir. Belə bir müsəlman dövlətinin qurulması üçün Şimali və Cənubi Qafqazdakı azərbaycanlıların (müsəlmanların) bir araya gətirilməsini isə Sovet hökuməti qəbul etməməkdədir.

Bir sözlə, Sovet Rusiyasının nümayəndəsi Türkiyənin irəli sürdüyü təkliflərin qəbul edilməzliyini bildirdi. Rusiyanın bu məsələyə münasibəti ilə tanış olduqdan sonra Almaniya da Tələt paşanın təkliflərinə mənfi münasibətini və beləliklə də avzustun 27-də Rusiya ilə imzalanmış sazişin müddəalarına sədaqətini ifadə etdi. Almaniyanın Türkiyənin irəli sürdüyü təkliflərə münasibəti bütünlüklə belə idi – Almaniya hökuməti Rusiyanın da razılığı ilə Ermənistan və Azərbaycanın təsdiq və tanımalarını haqlı çıxaracaq hər hansı bir millətlərarası hüququn olmadığını qeyd edir. Çünki Brest-Litovsk müzakirələrində də açıqca vurğulandığı kimi sovetlər tərəfindən elan edilmiş olan millətlərin öz müqəddəratını özləri təyin etmələri və müstəqilliyini elan etmələri hüququ yalnız sovet hökuməti ilə həmin millətlər arasında həll edilə bilər. Kənardan hər hansı bir millətin bu işə qarışmaq haqqı yoxdur. Yəni, vaxtilə Rusiyanın tərkibinə daxil olmuş xalqlar indi yalnız Sovet hökuməti ilə qarşılıqlı şəkildə razılaşdırıldıqdan sonra Rusiyadan ayrıla bilərlər. Almaniya tərəfi Türkiyə rəhbərlərinə verdiyi cavabında Gürcüstanı belə bir müstəqil dövlət kimi tanımağa meylli olduğunu bildirdi. Azərbaycana gəlincə isə münasibət tamamilə başqa şəkildə idi. Alman hökumət dairələrinin fikrincə, Sovet hökuməti türk qoşunlarının Azərbaycandakı fəallığının qarşısını almaq üçün Almaniya ilə razılığa gəlmişdir. Buna görə də, Sovet Rusiyasının razılığı olmadan Almaniya Azərbaycanın müstəqilliyini tanımayacaqdır. Əgər Azərbaycanda vəziyyət dəyişərsə və Azərbaycanda müəyyənləşdirilmiş bir durum yaranarsa, onda Almaniya da Azərbaycana münasibətinə yenidən baxacaqdır. Belə bir vəziyyətin meydana gəlməsini isə Almaniya hər şeydən əvvəl türk qoşunlarının Almaniya-Rusiya sazişində qəbul edilmiş xəttin qərbinə çəkilməsində görürdü.

Türkiyənin Azərbaycana yardımları ilə bağlı Almaniyanın təzyiqlərinin bu dərəcədə genişlənməsi müəyyən bir vaxtda Ənvər paşada müvəqqəti bir ümidsizlik yaratdı. Bu təzyiqlərin qarşısında hər hansı bir güzəştə gedilə biləcəyinə etiraz əlaməti olaraq Ənvər paşa hətta istefa ərizəsini də yazdı və bu barədə Tələt paşaya da xəbər verdi. Tarixi qoyulmamış həmin istefa ərizəsi indiyə kimi saxlanılmaqdadır. İstefa qərarına gəlmiş Ənvər paşa Tələt paşaya belə yazırdı:

> ... Dərhal İstanbula övdət edəcəyimi və Ümumi Baş komandanlığın mənə təbliğ etdiyi maddələri icab edən qərar ittixaz etmək üzrə zati-şahanəyə ərz edəcəyimi zati-dövlətlərinə təbliğ edirəm. Şəxsən tərəfi-dövlətlərindən icra edilən təbliğatı tamamən icra edəcək vəziyyətdə olmadığım cəhətilə eyni zamanda zati-şahanəyə məni Baş komandanlıq vəkalətindən əfv eləmələrini də istirham eyləyəcəyəm. Şimali və Şərqi Qafqaz müsəlmanlarına vəd və təmin eylədiyim müavinəti geri almağın məncə imkanı yoxdur.

Ənvər paşanın istefa ərizəsini Türkiyə sultanbına göndərib-göndərməməsi məlum deyil. Onun Tələt paşaya yazdıqlarından da aydın görünür ki, istefa qərarını qəbul etməyə Ənvər paşanı Azərbaycana hərbi yardımın dayandırıla bilməsi təhlükəsi sövq etmişdi. Əgər nəzərə alınsa ki, Osmanlı dövləti Almaniyanın təzyiqləri qarşısında güzəştə getmədi və Azərbaycanla bağlı siyasətində qarşıya qoyulan vəzifəni yerinə yetirdi, onda güman etmək olar ki, Ənvər paşa istefa ərizəsini işə salmaq fikrindən daşınmış və diqqətini Bakı şəhərinin azad edilməsinə yönəltmişdi.

Çünki Bakı şəhəri üzərinə 1918-ci ilin 5 avqustunda olan uğursuz hücumdan sonra Qafqaz İslam Ordusunun möhkəmləndirilməsi zərurəti ortaya çıxmışdı. Bunsuz Bakı şəhərinin azad edilməsi mümkün deyildi. Bakının azad edilməməsi isə Ənvər paşanın bütün cəhdlərinin uğursuzluğa düçar olması demək idi. Çünki bir tərəfdən Bakı ilə bağlı beynəlxalq çəkişmələrin kəskinləşməsi, digər tərəfdən də ingilislərin şəhərə əlavə

qüvvələr gətirə biləcəyi Ənvər paşanı ehtiyatlandırırdı və ən yaxın vaxtlarda məsələnin həllini tələb edirdi. Onun Bakı ətrafında yaranmış vəziyyətlə bağlı fikirlri belə idi:

> Bakıya ingilis qüvvələrinin gəlməsi və Bakının ingilislər tərəfindən savunulması ilə bu cəbhədəki əsgəri durum tamamilə dəyişmişdir. Rus bolşevik hökumətinin kəndilərinə tərk edilən Bakını ingilislərdən alaraq oradakı qaynaqların kəndilərinin istifadə etməsinə yetəcək qüvvələri yoxdur. Halbuki ingilislər Bakıda daha bir müddət buraxılarsa bu cəbhədə iyidən-iyiyə yerləşəcəklər və cəbhəni ələ keçirilməz bir hala qoyacaqlardır. Bu sürətlə Bakıda yerləşən ingilislərin Azərbaycanın çoxunu ermənilərə verərək bir ermənilik vücuda gətirməyə, bununla gərək Qafqaz və İran girişmələrini, gərəksə də gürcü müstəqil hökumətini təhdidə çalışacaqları şübhəsizdir. Bu mühtəməl duruma görə hər halda Bakıya təərrüz edilməsi, ingilislərlə erməni bolşeviklərin buradan atılması lazımdır.

Bakıya əlavə ingilis qüvvələrinin göndərilməsinin qarşısının alınması üçün Ənvər paşa tələb edirdi ki, 9-cu Ordudan İrana – Təbriz və Qəzvinə və daha cənub bölgələrə qoşun çıxarılsın və buradakı ingilis qüvvələrinə bir təhlükə yaradılsın. Bununla da ingilislərin bölgəyə əlavə qüvvə gətirmək imkanı olsa da, onu Bakıya deyil, İrandakı vəziyyətin sabitləşdirilməsinə istiqamətləndirsinlər.

Ənvər paşa Bakının tezliklə ələ keçirilməsi üçün eyni zamanda buradakı qüvvələrin möhkəmləndirilməsi məqsədilə də konkret tədbirlər həyata keçirirdi. Bu məqsədlə 15-ci diviziyanın 9-cu Ordudan alınaraq Qafqaz İslam Ordusunun tərkibinə verilməsi və Bakı ətrafına gətirilməsi qərara alındı. Bakı şəhərinin azad edilməsi də məhz həmin diviziyanın Azərbaycana yetişməsindən sonra baş verdi. Sentyabrın 14-15-də gərgin döyüşlər nəhayət ki, bütün Azərbaycan xalqı kimi Ənvər paşanın da intizarlarına son qoydu və Bakı şəhəri Azərbaycan hökumətinin nəzarəti altına keçdi.

Bakı şəhəri azad edilən kimi Nuru paşa Gəncədəki Azərbaycan hökumətinə, habelə Ənvər paşaya teleqram göndərdi. Onun Osmanlı dövləti Baş komandan vəkili və hərbiyyə naziri Ənvər paşaya göndərdiyi teleqramda Bakı şəhərinin azad edilməsi xəbəri böyük bir sevinclə bəyan edilirdi.

Bakı şəhərinin azad edilməsi və müstəqil Azərbaycana qovuşması xəbərini Ənvər paşa da böyük məmnunluqla qarşıladı Onun Şərq Ordular Qrupu komandanı Xəlil paşaya göndərdiyi teleqramında deyilirdi:

> Bakı başarısından dolayı gözlərindən öpərək təbrik edirəm. Bakının zəbti üzərinə birliklər bir az dinləndikdən sonra Azərbaycanda indilik bir tümən buraxaraq üst tərəfini 9-cu Orduya geri almaq fikrindəyəm...

Bakı şəhərinin yad qüvvələrdən təmizlənməsi Ənvər paşanı sevindirdiyi kimi həm də bəzi nigərançılığına da səbəb olmuşdu. Bu da almanların Osmanlı Türkiyəsinə qarşı qəzəblərinin artması ehtimalı ilə bağlı idi. Ona görə almanların diqqətinin yayındırlması üçün Ənvər paşa Nuru paşaya Bakı hadisələri ilə bağlı iki teleqram göndərdi. Xəlil paşanın yavəri Səlahəddin yüzbaşı bu hadisəni belə xatırlryırdı:

> Bizlər bir gün dinlənmək və bir gün sonra Bakıya girmək üçün geridəki köyə gəldik. Yol təxrib edildiyi üçün alman süvariləri gəlməmiş, Bakı da alınmışdı. Durum Baş komandanlığa bildirildi. Gecə yarısı Baş komandandan bu əmri aldıq: "Bakı ruslara veriləcək, petrolunu almanlar alacaq. Nədən oraya təərrüzə lüzum gördünüz? Niyə bunu Baş komandanlığa xəbər etmədiniz? Sizin yeriniz Qarsdır. Bakıda nə işiniz var? Dərhal Qarsa dönünüz və bir daha Baş komandanlıqdan izin almadan belə işlərə qarışmayın".

Bu əmr Hərbiyyə Nazirliyi teleqrafxanasından gəlirdi.

Aradan üç saat keçdikdən sonra Ənvər paşa kəndi evindəki teleqrafxanadan bu teleqrafı çəkirdi:

"Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini ən böyük müsərrətlə qarşılarım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözlərindən öpər, şəhidlərimizə fatihələr ithaf edərim".

Görünür ki, biurinci şifrə alman imperatorluğu müttəfiqi Osmanlı İmperatorluğunun Baş komandanlığı tərəfindən; ikincisi isə türk Ənvər paşadan gəlirdi. O gün həpimiz həyatımızın ən mutlu günlərindən birini yaşadıq və ertəsi gün sabah Bakıya girəcəyimiz xülyasıyla yataqlarımıza uzandıq.

Yəni, Ənvər paşa Bakının bolşevik-daşnak-eser-ingilis işğalından nicat tapmasından o dərəcədə sevinmişdi ki, buradakı döyüşlərdə iştirak etmiş hər bir döyüşçünün gözlərindən öpməyə hazır idi. Əldə edilmiş qələbəni o, təkcə türk əsgərinin deyil, bütünlükdə türklüyün zəfəri kimi dəyərləndirirdi və buna görə öz sevincini də gizlətmirdi.

Ənvər paşa Bakının azad edilməsi barədə məlumatı dərhal Berlində səfərdə olan sədr-əzəm Tələt paşaya da çatdırdı və sevincini onunla bölüşdü.

Azərbaycan hökuməti Bakıya köçən kimi Almaniya özünün hərbi və ticarət nümayəndəsi olan Fon der Qoltsı bura göndərdi. Qafqaz İslam Ordusunun Bakıya doğru irəliləməsini dayandıra bilməsə də Almaniya nəyin bahasına olursa-olsun Bakıda möhkəmlənmək və Bakı neftindən lazımi şəkildə bəhrələnmək istəyirdi. Bu məqsədlə Almaniya yenidən Bakıya hərbi qüvvə yeritmək təşəbbüsünü ortaya atdı. Bəhanə də bu oldu ki, Bakıda asayişin bərpa edilməsində Almaniya da iştirak etmək istəyir. Bu məqsədlə Gürcüstanda olan alman qüvvələrindən Bakıya yeridilməsinin qarşısının alınması üçün Ənvər paşa əməli addımlar atılması barədə göstəriş verdi və məlumdur ki, almanlar öz qüvvələrini Azərbaycana yeridə bilmədilər.

Azərbaycan hökuməti tərəfindən diplomatik missiya ilə İstanbula göndərilmiş Əlimərdan bəy Topçubaşov 1918-i il oktyabrın 3-də Ənvər paşa ilə olan söhbətini səmimi duyğularla anırdı. O, söhbətində Ənvər paşanın göstərdiyi yardımlara görə Azərbaycan xalqının məhəbbəti ilə əhatə olunduğunu qeyd edirdi. Bu görüş barəsində Ə.Topçubaşov belə yazırdı:

Qapı ağzındakı arakəsmə yanında məni təbəssümlə və irəli uzadılmış əlləri ilə qarşıladı. Özümü təqdim etmək və vəzifəmi bütünlükləı dilə gətirmək istəyirəm. Ancaq Ənvər paşa "Bilirəm, bilirəm" – deyə sözlərimi kəsir və məni kresloya oturdur. Özü də oturur və mənə müraciətlə deyir – Xoş gəlmisiniz. İstanbul xoşunuza gəlirmi? (Bu vaxt onun üzündə xoş bir təbəssüm var)

Qəbuldan məmnun olaraq məni salamlamasına öz minnətdarlığımı bildirirəm və xahiş edirəm ki, hər şeydən əvvəl Qafqaz İslam Ordusunun baş komandanı, çox hörmətli Nuru paşanın salamlarını ona çatdırmağa izn versin. Mən yola düşərkən o tamamilə sağ və salamat idi və bütünlüklə iki məsələnin həlli üzərində baş sındırırdı. Onun tərəfindən təşkil edilmiş Azərbaycan alaylarının tezliklə silah və geyimlə təmin edilməsi və (ikincisi) – Bakının alınması. Nuru paşa "salam" göndərməklə xahiş etdi sizə çatdırım ki, Gəncədə yaxşı su, dadlı üzüm və alma var və arzu etdiyiniz halda xahiş edirik ki, bizə qonaq gələsiniz.

Ənvər paşa – Dəvətə görə çox minnətdaram. Dünən bizim atamız ora yola düşdü. Ancaq daha çox belə bir məhəbbətlə Azərbaycanı sevən qardaşımın

komandanlığı altında olan sizin qoşunların uğurlarından məmnunam. Siz onu (Nuru paşa nəzərdə tutulur – M.S.) görmüşsünüz. Əhali ona necə münasibət bəsləyir? Axı o bu yaxınlarda bölgələrə səfər etmişdi?

Mən – Əhali də Nuru paşanı eyni məhəbbətlə sevir və paşa tərəfindən təşkilatlandırılan hərbi qüvvələrə böyük əhəmiyyət verir. Elə mənim yola düşməyim ərəfəsində o, Şamaxı və Zaqatala vilayətlərinə səfərdən qayıtmışdı. Əhali öz qoşunlarının baş komandanını təntənə ilə qarşıladı və hər yerdə göstərilən köməyə görə ona minnətdarlıq bildirildi. Bu kömək olmadan bizim Qafqazda vəziyyətimiz çox pis ola bilərdi. Şübhə etmirəm ki, Nuru paşanın rəhbərliyi altındakı qoşunlarımız tərəfindən Bakının alınması bütün müsəlmanlar tərəfindən dərin minnətdarlıqla qarşılanmış və paşanın adına şan-şöhrət gətirəcəkdir. Paşa həzrətləri! Biz başa düşürük ki, bütün bunlara görə sizə borcluyuq və heç bir əlavəyə yol vermədən bunu deməyə cəsarət edirəm ki, öz qardaşınızı belə ağır vəzifə ilə bizə göndərməyiniz Qafqaz müsəlmanlarının qəlbini sizin şəxsinizə daha çox yaxınlaşdırmışdır. Onlar əvvəllər də sizə türk dünyasının parlaq ulduğu kimi çox böyük məhəbbət bəsləyirdilər və həmin faktı sizin azərbaycanlı qardaşlarınıza olan məhəbbətin sübutu kimi qəbul edirlər.

Ənvər paşa (məhəbbətli bir təbəssümlə) – Çox minnətdaram. Mən öz borcumu yerinə yetirdim və əgər mənim qardaşım belə bir təəssürat yaradıbsa buna çox məmnunam.

Ənvər paşanın atası Hacı Əhməd paşa doğrudan da 1918-ci ilin oktyabr ayında bir müddət Azərbaycanda qonaq oldu. O səfər etdiyi bütün məntəqələrdə xalqın ən əziz qonağı kimi qarşılandı.

Hacı Əhməd paşanın Azərbaycana gəlməsi haqqında "Azırbaycan" qəzeti belə yazırdı:

Bir kaç gün bundan müqəddəm Qafqaz İslam Ordusu baş komandanı, feriq Nuru paşa və Ənvər paşa həzrətlərinin pədərləri Hacı Əhməd paşa həzrətləri xüsusi qatar ilə Bakı şəhərinə varid olmuşdur. Hacı Əhməd paşa həzrətlərini istiqbal üçün Azərbaycan hökumətinin daxiliyyə naziri Behbud bəy Cavanşir və hökumət kontrolu Əbdüləli bəy Əmircanov "Ələt" mövqüfünə getmiş idilər. Şəhər mövqüfündə Hacı Əhməd paşa həzrətlərini şəhər əhalisi tərəfindən bələdiyyə idarə nümayəndələri öişvaz etmişlərdir. Bələdiyyə idarəsi rəisi əvəzində M.Ə.Mehdiyev və islam əhalisi nümayəndələri möhtərəm müsafiri təbrik nitqləri ilə müraciətdə bulunub. Əsgəri qitəat isə möhtərəm müsafiri musiqi ilə qarşılamışlardır. Hacı Əhməd paşa həzrətləri şəhər mövqüfündə Nuru paşa həzrətlərinin nəzdlərinə buyurmuşlardır.

1918-ci il oktyabr ayının 27-də Gəncədəki Milli hərbiyyə məktəbinin ilk buraxılışında Hacı Əhməd paşa da iştirak edirdi. Buraxılış münasibətilə şəhərdə bir sıra tədbirlər keçirildi. Bu münasibətlə təşkil olunmuş mərasimdə çıxış edərkən o vaxtkı maarif naziri Nəsib bəy Yusifbəyli üzünü Hacı Əhməd paşaya tutaraq belə demişdi:

Əlahəzrət, sizin cəsur oğlanlarınız – Ənvər paşanın və Nuru paşanın adları əbədi olaraq təkcə Azərbaycanın deyil, bütün türk xalqlarının xatirəsində yaşayacaqdır. Belə qəhrəmanların atası başını uca tuta və xoşbəxt sayıla bilər. Sizin kimi atalar azdır. Qoy, Allah Sizi və övladlarınızı hifz etsin və uzun illər Sizə kömək olsun.

Qeyd etmək lazımdır ki, 1918-ci il sentyabr ayının 15-i təkcə Bakının azad edilməsi kimi Ənvər paşanın yadında qalmadı. Həmin gün başqa bir tarixi cəhəti ilə də Ənvər paşa və onun üzvü olduğu hökumət nümayəndələrinin yadında qalan bir hadisə ilə də xatırlanır. Həmin gün Makedoniyada türklərlə bir ittifaqda olan Bolqarıstanın qoşunları

ciddi uğursuzluğa düçar oldu və bu da son nəticədə Bolqarıstanın müttəfiqlərinin vəziyyətini xeyli çətinləşdirdi.
Cəbhələrdə baş verən uğursuzluqlar və Türkiyə üçün yaranan təhlükə Tələt paşa kabinetinin vəziyyətini xeyli mürəkkəbləşdirdi və 1918-ci il oktyabrın 8-də Tələt paşa kabinetinin istefasını Osmanlı sultanına təqdim etdi.
Osmanlı hökumətinin sülh danışıqlarına getmək məcburiyyəti onun Qafqazla bağlı siyasətindən də əl çəkməsinə gətirib çıxaracağı artıq göz qabağında idi. Çünki Qafqaz İslam Ordusunun Bakıya girməsi nəinki Türkiyənin qeyri-müttəfiqləri, hətta onun müttəfiqləri tərəfindən də çox kəskinliklə qarşılanmışdı. Ona görə də Osmanlı dövlətinin Qafqaz siyasətinin təşəbbüskarlarından biri olan Ənvər paşa türk qoşunlarının Azərbaycanı tərk edəcəyi təqdirdə Azərbaycanın müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə cəhd göstərilməsinə xüsusi diqqət yetirirdi. Yeni şəraitdə Ənvər paşa Xəlil və Nuru paşalarla yazışmalarında Azərbaycanın müstəqilliyinin qorunmasını onların qarşısında dayanan başlıca vəzifə hesab edirdi. Bu məqsədə nail olmaq üçün Ənvər paşa Azərbaycanın həm beynəlxalq nüfuzunun genişlənməsinə, həm də Azərbaycanın milli hərbi qüvvələrinin təşkilatlanmasına və möhkəmlənməsinə çalışırdı. O, Azərbaycanın müttəfiq dövlətlər tərəfindən tanınmasını Azərbaycanın müstəqilliyinin qorunmasına əsas təminatlardan biri sayırdı. Bunun üçün Ənvər paşa Azərbaycanın özü tərəfindən müəyyən təşəbbüslər göstərilməsini vacib sayır və Nuru paşanı da Azərbaycanda xüsusi mövqeyə malik olan şəxs kimi bu təşəbbüslərin həyata keçməsinə köməklik göstərməyə çağırırdı. Onun oktyabrın 15-də Nuru paşaya yazdığı məktubunda deyilirdi:

> Düşmənlərlə ... sülh yapmaq məcburiyyətinə girdik. Binaənəleyh yaxınlarda sülh müzakirələri başlayacaqdır. Sülhü bizim aradığımıza görə onu qeyb etdik. Bizim vəziyyətdə Azərbaycanın istiqlalını təmin qayət mühümdür. Bir tərəfdən ermənilərlə iyi keçinməklə bərabər, digər tərəfdən Amerika və ingilislərlə doğrudan doğruya anlaşmaq bu xüsusa yardım edəcəkdir. Binaənəleyh hökumət doğruca Tehrana bir deleqe göndərsin. Oradakı Amerika və ingilis səfirlərinə müraciətlə kəndilərinin istiqlallarını rica etsinlər. Kəndiləriylə iyi münasibətdə bulunacaqlarını söyləsinlər və tərəfsiz qalmaq istədiklərini əlavə etsinlər.

Ancaq bir gün sonra, yəni oktyabrın 16-da Nuru paşaya yazdığı məktubunda Ənvər paşa Tehrana nümayəndə heyəti göndərilməsini təxirə salmağı məsləhət bilirdi. Bunun nə ilə bağlı olduğunu söyləmək çətindir. Çox güman ki, Ənvər paşa bu ideyanın həyata keçirilməsinin çətin olacağından onu hələlik təxirə salmağı və bu barədə kimsəyə məlumat verilməməsini lazım bilmişdi:

> Sülh əqdinin yaxın olması hesabiylə Azərbaycan hökumətinin kəndisini rəsmən tantdırmaq üzrə Tehranda Amerika və ingilis səfirlərinə bir deleqe ilə müraciət etmələri haqqında qayət məhrəm olaraq sizə dün yazdığım təbliğatı şimdilik icra etməyiniz. Və məalından heç kimsəyə, bilxassə azərbaycanlılara bəhs etməyiniz.

Görünür, bu fikri həyata keçirmək istəyi Ənvər paşanı bir an da olsa rahat buraxmamışdı. Çünki oktyabrın 17-də o, həmin məsələ ilə bağlı yazışmalarını davam etdirmiş və Xəlil paşaya göndərdiyi məktubunda ondan tələb etmişdi ki, Nuru paşa ilə əlaqə saxlasın və müttəfiq dövlətlərlə Azərbaycan hökumətinin danılşıqlara başlamasının lazım olduğunu onun nəzərinə çatdırsın. Ənvər paşa həmin məktubunda danışıqların hansı istiqamətdə aparılması barədə öz mülahizələrini də açıqlayırdı. Onun fikrincə, Azərbaycanın və Dağıstanın öz bitərəfliyini saxlamaları və bolşevizmlə mübarizə üçün müttəfiq dövlətlərlə əməkdaşlığa hazır olmalarını bəyan etmələri həmin

dövlətləri Azərbaycanın müstəqilliyinə daha ciddi münasibət bəsləməyə sövq edə bilər. Xəlil paşa oktyabrın 17-də Nuru paşaya göndərdiyi məktubunda Ənvər paşadan aldığı göstərişləri ona belə çatdırırdı:

> Ağabəyindən aldığım teleqrafda əvvəlcə siz Azərbaycan namına Tehrana birisini göndərərək ingilis, Amerikan səfirlərilə görüşməsini yazmış olduğunu bilaxərə də bunun bir az təxir edilməsini bildirdiyini yazır. Vəziyyəti-ahiyeyi-siyasiyyənin almış olduğu şəkil təkrar bu təşəbbüsün icrasına bizi məcbur elədiyindən təşəbbüsə davamı müvafiq bulunan müşarinəleyh bunu sizə yazmaqlığımı əmr və müraciətinizin bər vəchi ati olmasını əmr buyurmuşdur:
> Azərbaycan ilə Şimali Qafqazın istiqlalları təsdiq edildiyi halda özlərinin bitərəf qalacaqlarını məzkur səfirlərə təbliğ ilə bu yolda müzakirələrdə bulunmasını və əgər səfirlər buna razı edilməz isə bir az daha müsaid davranılmasını, istiqlallarını tanımaq surətiylə bolşeviklərə qarşı itilafçılarla (müttəfiqlərlə - M.S.) bərabər hərəkət edilməsini, velhasil bunu ətraflıca müzakirə və mühakimə edərək hər halda Azərbaycan və Şimali Qafqazın istiqlalının müttəfiq hökumətlərinə tanıtdırılmasını təmin etmək müraciəti vaqiə haqqında yalnız Azərbaycan hökuməti ilə qayət əmin olduğundan şübhə bulunmayan bir neçə şəxs ilə qayət məhrəm olaraq görüşülməsi və bu zevatdan başqasının durumdan xəbərdar edilməməsi qətiyyən lazımdır. Əgər belə şayani-etimad kimlərsə yoxsa, hər halda siz Azərbaycan və Şimali Qafqaz Ordu komandanı sifətiylə səfirlərə bu təklifi kəndi tərəfinizdən yaparsınız...

Azərbaycanın müstəqilliyinin qorunması üçün Ənvər paşa Şimali Qafqaz hökuməti ilə yaxınlaşmaq və ya onunla bir ittifaq yaratmaq imkanlarının aranmasını da Nuru paşaya məsləhət görürdü. Bununla bağlı, Ənvər paşa 13 oktyabr 1918-ci il tarixli məktubunda Nuru paşaya belə yazırdı:

> Vəziyyəti-siyasiyyə bizim üçün qeyri-müsaid bir şəkil aldığından Qafqaz dövlətlərinin istiqlallarında müttəfiq dövlətlərin pək ziyadə müşkülat göstərəcəkləri məlumdur. Bura görə Qafqaz müsəlmanlarının müttəhidən çalışmalarını və bu səbəblə Azərbaycan hökuməti ilə Şimali Qafqaz hökumətinin ayrı-ayrı zəif qalmamaları üçün ya birləşərək "Şərqi Qafqaz hökuməti" namı ilə islam hökuməti vücuda gətirmələri və yaxud da konfederasiyon şəklində yek digəri ilə dərhal anlaşma yapmaları pək elzəm görürəm.

Xəlil paşanın qeydlərinə görə, Nuru paşa Ənvər paşanın bu təkliflərinin həyata keçirilməsi istiqamətində müəyyən addımlar atmağa başlamış, ancaq ümid edilən nəticələrə nail ola bilməmişdi. Buna əsas səbəb kimi Şimali Qafqazlıların sünnü olmasını, Azərbaycanın isə şiə olmasını səbəb gətirirdi. Başqa səbəblərə toxunmadan qeyd edilməlidir ki, Xəlil paşanın gətirdiyi səbəb Azərbaycan və Şimali Qafqaz hökuməti arasında xatırlanan münasibətlərin qurulmaması üçün əsaslı dəlil ola bilməz. Hər şeydən əvvəl ona görə ki, Azərbaycanın müstəqilliyinin qorunması istiqamətində milli mücadilə fəalları üçün məzhəb ayrılığı əngəl ola bilməzdi. Belə olsaydı onda əhalisi sünnü olan Türkiyənin özü ilə də heç bir münasibətlər yaradılmazdı.

Azərbaycanın müstəqilliyinin qorunması istiqamətində Ənvər paşanın xüsusi diqqət yetirdiyi və ciddi nəzarət altında saxladığı mühüm məsələlərdən biri də, yuxarıda qeyd edildiyi kimi, Azərbaycanın milli hərbi qüvvələrinin möhkəmləndirilməsi və bunun üçün mümkün olan vasitələrdən istifadə edilməsi idi. Xəlil paşa və Nuru paşa ilə yazışmalarında o bu məsələyə təkrar-təkrar qayıdırdı. Oktyabrın 15-də Şərq Ordular Qrupu komandanı Xəlil paşaya göndərdiyi məktubunda Ənvər paşa yazırdı:

> Almaniya da daxil olduğu halda pək yaxında sülh müzakirələrinə başlanması və bu müzakirələrin sürətlə sona erməsi mühtəməldir. Sülh müzakirəsində milliyət əsaslarına nəzərən haqq tələb edilmək lüzumu hesabiylə bizin Qafqazdakı vəziyyətimiz hər halda qüvvətli olmalı. Və bilxassə Azərbaycan və Şimali Qafqaz hökumətləri təqviyyə edilməlidir. Bunun üçün 5-ci firqənin nəqlini ən sonraya buraxınız. 15-ci firqədən sonra 12-ci firqə nəql olunur. Zatən buna sıra gəlincəyə qədər vəziyyətin tamamilə açıqlığa qovuşacağını təxmin edərək Azərbaycanın məhəlli qüvvlərinin sürətlə tənziminə çalışmaqla bərabər, gərək hala Azərbaycanda bulunan qüvvələrimiz, gərək 5-ci firqə Azərbaycan birlikləri olaraq orada buraxıla və Azərbaycan əsgəri təşkilatına qatıla. Azərbaycana çox silah və cəbbəxana göndəriniz.

Ənvər paşa müttəfiq dövlətlərin etiraz etməyəcəkləri təqdirdə Azərbaycandakı 5-ci Qafqaz diviziyasının burada qalmasını və Azərbaycanən milli qüvvələrinin tərkibinə verilməsini təklif edirdi. Azərbaycanın milli qüvvələrinin kifayət qədər təşkilatlanmadığı və möhkəmlənmədiyi bir vaxtda kifayət qədər döyüş təcrübəsi və hərbi potensialı olan 5-ci diviziyanın onun tərkibinə qatılması Azərbaycanın müdafiə imkanlarını xeyli artıra bilərdi.

Xəlil paşaya göndərdiyi başqa bir məktubunda o, Nuru paşadan bu istiqamətdə fəaliyyətini genişləndirməyi, lazımi hazırlıq işləri aparmağı, hərbçilərdən, zabitlərdən kimlərin Azərbaycanda qalıb yeni keyfiyətdə xidməti davam etdirməyə hazır olmalarını vaxtında müəyyənləşdirməyi tələb edirdi:

> Mövcud durumdakı dəyişiklik nədəni ilə ehtimal bizdən sonrakı kabinet Azərbaycan və Quzey Qafqazın boşaldılmasını qəbul edəcək və boşaldacaqdır. Əvvəlcə yazıldığı kimi, Nuru orada kəndisiylə çalışmaq üzrə qalacaq subay, astsubay və birlikləri indidən ona görə hazırlasın ki, boşaltma əmri alarıqsa çalışmaq üzrə qala bilsin.

1918-ci il oktyabr ayının 19-da Əhməd İzzət paşanın yeni hökuməti qurması ilə Tələt paşa kabinəsi iqtidardan uzaqlaşdırıldı. Yeni hökumət heç olmasa Brest-Litovsk müqaviləsi ilə Türkiyəyə verilmiş Qars, Ərdəhan və Batumun itirilməsi təhlükəsinin aradan qaldırılması üçün bu ərazilərdən kənarda, o cümlədən Azərbaycanda olan qoşun hissələrinin geri çağırılmasını qərar aldı. Buna görə, Qaqaz İslam Ordusu və Quzey Qafqaz ordusu da ləğv edildi və oktyabrın 24-dən başlayaraq altı həftə ərzində türk qoşunları Dağıstanı və Azərbaycanı tərk etməli idilər.

İqtidardan uzaqlaşmasına baxmayaraq, Ənvər paşa Azərbaycanın müstəqilliyinin qorunması istiqamətindəki səylərini yenə də davam etdirməkdə idi. Oktyabrın 23-də o, Türkiyənin İsveçrədəki səfiri Fuad Səlim bəyə məktub göndərdi və ondan Azərbaycanın müstəqilliyinin tanınması üçün lazımi işlərin görülməsini rica etdi. Ənvər paşa xahiş etdi ki, ingilislərlə görüşlərin keçirilməsinə, onların Azərbaycanın sərvətlərindən istifadə edə bilmək imkanına malik olmalarını bildirməklə Azərbaycanın tanınmasına nail olmağa çalışsın:

> Hərbin tərəfimizdən qazanılması ehtimalı pək uzaqlaşdı. Halbuki, Rusiyanın dağılmasıyla Qafqaziyada təşəkkül etmiş olan gürcü, Azərbaycan və Şimali Qafqaz hökumətlərinin təsdiqini təmin etmədik. Hətta müttəfiqlərimiz belə yalnız gürcüləri və rusları tanımaq şərtilə qəbul etdi. Rus bolşevikləri isə heç tanımıyorlar. O halda tək çarə bu hökumətlərin indidən hasimlərimizə tamaşa edərək kəndilərini onlara tanıtmağa çalışmaları qalıyor. Vaqiə İsveçrəyə bir heyət gəliyor. Fəqət bu gecikibdir. Bu halda tərəfimizdən bu hərbdə tərəfsiz qalmaq,

hətta icab edərsə bolşeviklərə qarşı hərb etmək üzrə əcaba ingilis hökuməti, Azərbaycan və Şimali Qafqaz islam hökumətlərinin istiqlalı tanırmı? Və bu xüsusda ingilislər Azərbaycanda və Şimali Qafqazda bu istiqlallar tanındığı halda buranın sərvət qaynaqlarından ingilislərə tərcihən qəbul etdirməyi də qəbul edərlər. Bu xüsusda münasib bir vasitə ilə müstəcilən təşəbbüsati-lazımidə bulunaraq lütfən cavab itasını rica edərim. Ənvər

Göründüyü kimi, Ənvər paşa Azərbaycanın istiqlaliyyətinin dünya ölkələri tərəfindən tanınması üçün vaxtında mümkün işlərin görülmədiyinə tənqidi yanaşırdı və bu istiqamətdə səmərəli işlərin görülməsinin vacibliyini vurğulayırdı. Ancaq, artıq vaxt münasib deyildi. Birinci dünya müharibəsindən qalib çıxmış ölkələrin öz planları və öz istəkləri var idi. Ənvər paşanın da artıq bu planları dəyişməyə gücü yox idi.

Oktyabrın 23-də Ənvər paşa Xəlil paşaya növbəti məktubu göndərdi. Bu məktubda da əsas diqqət Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi üzərində cəmləşdirilmişdi:

Ümumi vəziyyətin sülhə getməmizi icab etdiyini yazmışdım. Bu vəziyyətdə Azərbaycanın təşəkkülünü təmin etməyi mühüm bir vəzifə bilirəm. Əvvəla, oranın təşkilatının ikmalı üçün adam, silah, cəbəxana ilə həmən yardım edilsin.

Buradan ora 700 min lirə göndəririk. Tələt paşa kabinəsi, yəni başladığımız hərbi iyi bitirmədiyimiz üçün çəkilmək üzrəyiz. Mən işsiz indi sıxılavağımdan bəlkə Azərbaycana indilik səyahət üçün bilaxirə də orada bir həyat əsəri görərsəm büsbütün qalmaq üçün hərəkəti düşünürəm. Bu xüsusda mütaliəniz nədir?

Məktubdan aydın görünürdü ki, Ənvər paşa Azərbaycanın istiqlalının dünya tərəfindən tanınmasına nail olunmayacağı təqdirdə onun hərbi qüvvələrinin gücləndirilməsinə və bu yolla müstəqilliyin qorunmasına cəhd göstərilməsini lazım bilirdi. Bunun üçün Ənvər paşa Azərbaycana gəlməyi, əqidəsinə uyğun fəaliyyətlə məşğul ola biləcəyi təqdirdə büsbütün Azərbaycanda qalmağı da istisna etmirdi. Oktyabrın 26-da Nuru paşaya yazdığı məktubunda Ənvər paşa bir daha bu məsələyə toxunurdu:

Burada çalışacağım mühüm bir iş olmazsa sıxılmamaq üçün Azərbaycana gələrək həm orada, həm Şimali Qafqazda çalışmaq xatirimə gəlir. Sənin hər iki məmləkətin atisi və bir həyat əsəri göstərib-göstərməyəcəkləri haqqında indiyə qədər hasil etdiyin qənaət nədir? Və mənim oraya gəlib-gəlməməyim haqqında nə düşünürsən? Bu iş görülə bilərmi?

Nuru paşanın bu xüsusda Ənvər paşaya nə cavab verdiyini söyləmək çətindir. Ancaq o məlumdur ki, Xəlil paşa Ənvər paşaya cavabında onun Azərbaycana gəlməsini məqsədəuyğun bilməmişdi.

1918-ci il noyabr ayının 8-dən 9-na keçən gecə Ənvər paşa, Tələt paşa, Vahəddin Şakir və bir neçə başqa şəxs gizli olaraq Türkiyəni tərk etdilər. Çünki yaranmış olan mürəkəb vəziyyət heç də onlar üçün münasib deyildi. Ənvər paşa hələlik xaricdə fəaliyyət göstərmək, sülh yarandıqdan sonra isə Türkiyəyə qayıtmaq istəyirdi. Ənvər paşa və onun yol yoldaşları bir alman gəmiis ilə Krıma gəldilər. Tələt paşa və digərləri Moskva yolu ilə Berlinə yollansalar da, Ənvər paşa bundan imtina etdi və Qafqaza yollanacağını bildirdi. Quru yolların Denikin qüvvələrinin nəzarəti altında olduğu üçün o, kiçik yelkənli gəmi ilə Cənubi Qafqaza getmək istədi. Ancaq Ənvər paşa dənizdə tufana düşdü, yoluna davam edə bilməyib geri qayıtdı. Sonradan o, Moskvaya, oradan da Almaniyaya yola düşdü və bir müddət Almaniyada qaldı.

Məlumdur ki, Ənvər paşa sonradan yenidən Moskvaya döndü və onun bura gəlməsi də təsadüfi deyildi. Rusiya bolevikləri Ənvər paşanın Şərq müsəlmanları arasındakı böyük

nüfuzundan xəbərdar idi və belə bir plan qarşıya qoyulmuşdu ki, Şərqin bolşevikləşdirilməsində Ənvər paşanın nüfuzundan istifadə edilsin. Bolşeviklərin hətta Hindistanın bolşevikləşdirilməsinə qədər gedib çıxan xəyali planları var idi və Ənvər paşa da bu planın həyata keçirilməsində əsas elementlərdən biri olmalı idi.

Məlum olan faktlara görə, bolşevizmin fəallarından olan Karl Radek Berlində Ənvər paşa ilə görüşdü və onu Şərqdə bolşevizmin yayılması planlarına cəlb etməyə çalışdı. Ola bilsin ki, ilk vaxtlar bu plan Ənvər paşanın özü üçün də maraqlı görünübmüş. Başlıcası isə bolşevizmlə iş birliyi yaradılmasının Türkiyənin parçalanmasının qarşısının alınmasında faydalı ola biləcəyi fikirləri də Ənvər paşa üçün yad deyildi. Hər halda Karl Radeklə aparılan danışıqlardan sonra Ənvər paşa Moskvaya gəlməyə razılıq verdi. Karl Radek Ənvər paşa ilə olan anlaşmalarına belə münasibət bildirirdi:

> Ənvər paşa bizim Türkiyədəki qurtuluş savaşına yardımımızı istəyir. Buna qarşı, Hindistanda ingilis imperialızminə qarşı dirənişi və üsyanı örgütləyib başladacaq. Hindistanda, Asiyanın bir çox yerində, Orta Asiyada Ənvər paşanın qurdutduğu osmanlıların gizli casusluq örgütü Təşkilati-Məxsusənin ajanları və minlərcə casusu var. Bunların çoxu da Osmanlı subaylarına, onlar da doğrudan Ənvr paşaya bağlıdırlar. Həm də ölümünə bağlılar... Ənvər, öncə Hindistanda islami bir ayaqlama düzənləyəcək Təşkilati-Məxsusiylə. Bunun hərəkət üssü də bu anda denetimiz durumda bulunan Doğu Türkistan olmalı, mən buradan Əfqanıstan üzərindən Hindistana keçəcəyəm – deyir. Biz də bu hərəkata lojestik dəstək, silah və para saxlayacağıq. Bu, Asiyanın bolşevikləşdirilməsi projesidir. Ənvər paşa eyni zamanda Doğu Türkistanı Çinə qarşı da bir üs olaraq kullanacaq. Biz də buradan hərəkətlə Çinə saldıracaq və orada kommunist ihtilalı gerçəkləşdirəcəyik. Asiyaya bolşevizm belə yayılacaqdır.

Beləliklə, Ənvər paşa yenidən Moskvaya gəldi, siyasi fəaliyyətə qoşuldu. Moskvada "İslami ihtilal cəmiyyətləri ittihadı" arlı bir təşkilat yaratdı. Moskvada olarkən bolşeviklər Ənvər poaşanın xidmətlərindən maksimum istifadə etməyə çalışırdılar və hətta Hindistana yürüş edilməsi planlarının konkret müzakirəsini ortaya atdılar. Bolşeviklərin vasitəsilə Ənvər paşa Moskvada Hindistan Kommunist Partiyasının lideri Roy ilə tanış oldu və bolşevikllərin iştirakı ilə onlar Hindistanın bolşevikləşdirilməsi yolları barəsində müzakirələr də apardılar. Şərq xalqlarının qurultayına qatılması da əslində Şərqin bolşevikləşdirilməsi üçün bolşeviklərin Ənvər paşaya bağladıqları ümidlərdən irəli gəlirdi.

1920-ci il sentyabr ayının 1-7-si tarixində Bakıda, indiki Opera və Balet Teatrında keçerilən Şərq xalqlarının qurultayılnda da Ənvər paşa "İslam ihtilal cəmiyyətləri ittihadı" təşkilatının nümayəndəsi kimi iştirak etdi.

Qeyd etmək lazımdır ki, qürbətdə keçirdiyi illər Ənvər paşanın həyatının daha çətin və ağır illəri olmuşdur. Bu, sadəcə qürbət ağrıları, Vətənsizlik sıxıntıları ilə bağlı deyildi. Ənvər paşa Vətəndən kənarda belə Vətənsiz qalmaq istəmirdi, mümkün olan yollarla Türkiyənin dirçəlişinə çalışırdı. Ancaq bunun hansı yollarla edilməsi onu daim narahat edirdi. Bununla bağlı, həmin illərdə onun daxili yaşantılarında da mürəkkəb bir ovqat duyulmaqdadır. Bütün ömrü boyu fəal, işgüzar bir həyat keçirmiş Ənvər paşa indi çırpıntılar içində qalmışdı Bu çırpıntılar isə son nəticədə onun həyatının faciəli sonluğuna gətirib çıxardı. Bəzi məlumatlara görə, Şərq xalqlarının qurultayından sonra Ənvər paşa bir də Türkiyəyə qayıdıb İstiqlal mübarizəsinə qoşulmaq istədi. Ancaq İstiqlal mübarizənin fəalları və rəhbərləri yenə də onun Türkiyəyə qayıtmasını məsləhət bilmədilər. İstər Ənvər paşaya, istərsə də Xəlil paşaya məsləhət görüldü ki, Vətən

xaricində Türkiyənin İstiqlal mübarizəsinə yardım olmağa çalışsınlar. Vətəndən kənardakı mübarizə isə daha çox bolşeviklərlə əlaqə yaradılması və imperializmə qarşı siyasi məqsəd elan edən bolşevizmin diqqətinin Türkiyəyə cəlb edilməsi kimi qəbul edilirdi.

Ənvər paşa yaratdığı təşkilat miqyasında həm Moskvada, həm də Avropa ölkələrində fəaliyyət göstərir, qəlbindən keçənlərin yerinə yetirilməsi üçün yollar aramağa çalışırdı. Ancaq bu, elə də asan deyildi. Çünki xarici təşkilatlarda və qurumlarda apardığı məsləhətləşmələr zamanı Ənvər paşa fəaliyyətinə bir dəstək tapa bilmirdi. Məsləkdaşı Tələt paşanın öldürülməsindən az sonra dostlarından birinə göndərdiyi məktubunda Ənvər paşa belə yazırdı:

> Mən yenə əski yolumda yüyürürəm. Bu yol, təbii, öylə güllük-gülüstanlıq deyil. Fəqət yürümək məcburiyyətindəyəm. Məmafih, xarici təşkilat məmnuniyyət verici bir hala gəlişiyor. Bu ot bitməz zəmində, ümidimin fövqündə kök saldı. Fəqət, yalnız xarici təşkilata qalmaq bu işi yarıda buraxacaqdır..

Ənvər paşa Rusiyada yaşadığı illərdə hətta bolşeviklərin də Türkiyəyə kömək edəcəyinə inanmağa başlamışdı. Xüsusilə, Azərbaycanda bolşevik inqilabı həyata keçiriləndən sonra Ermənistan ilə münasibətlərin kəskinləşməsi və Rusiyanın daşnak Ermənistanı ilə gərgin münasibətlərdə olması Ənvər paşada belə bir əminlik yaratdı ki, Rusiya Ermənistana güclü zərbə vuracaq və bununla da Ermənistan tərəfindən Türkiyəyə istiqamətlənən təhlükə aradan qalxacaq. Şərq xalqlarının qurultayında iştirak etmək üçün Azərbaycana gələrkən Ənvər paşa burada bu istiqamətdə də bəzi məsləhətləşmələr apardı.

Qürbətdə yaşamasına baxmayaraq Ənvər paşa müsəlman xalqları arasında, o cümlədən də Azərbaycanda böyük nüfuz və ehtirama malik idi. Ənvər paşa hürriyyət mübarizi, haqqın və ədalətin simvolu, ağır həyat yaşayanların xoş gələcəyə ümid yeri kimi qəbul edilirdi. Xalq kütlələri arasında Ənvər paşa az qala göylərdən enmiş bir mələk kimi qarşılanırdı. Belə sevgi və məhəbbət Ənvər paşaya Bakıda da göstərildi. O zamanlar dustaq saxlanılan M.Ə.Rəsulzadə Şərq xalqlarının qurultayına gələn Ənvər paşanın Bakıda qarşılanması haqqında eşitdiklərini belə qələmə almışdı:

> Paşanın minmiş olduğu avtomobilin ətrafını bürümüş qələbəlikdən hərəkət etməz bir hala gəldiyi, əlini, ətəyini, maşınını öpənlər olduğu, hər kəsin "aman paşam, nə zaman qurtaracayıq?" – deyə ona xitab etdiyi kameradan-kameraya danışılırdı.

Şərq xalqlarının qurultayının keçirildiyi teatr binasının salonunda da Ənvər paşa belə coşqu ilə qarşılandı. Qurultay bolşeviklər tərəfindən təşkil edildiyi halda və burada bolşevizm ruhu hakim olduğu halda, Ənvər paşa salonda daha təntənə ilə qarşılandı və nümayəndələr ayağa qalxaraq onu ayaq üstündə salamladılar.

Ənvər paşanın müsəlman xalqları arasında belə hörmət və ehtirama malik olmasını bolşeviklər də görürdülər və ona görə də çalışırdılar ki, Ənvər paşa ilə müəyyən münasibətlər qursunlar, müsəlman xalqlarına nümayiş etdirsinlər ki, Ənvər paşa bolşevik hakimiyyəti ilə əlaqədədir və bununla da müsəlman xalqlarında bolşevizmə qarşı bir hüsnü-rəğbət yaratsınlar. Tədqiqatçıların fikrincə, Ənvər paşanın Şərq xalqlarının qurultayına cəlb edilməsi də bu istəkdən doğurdu.

Qurultayın iclaslarına bir vaxtlar Leninin yaxın silahdaşlarından olmuş Zinovyev sədrlik edirdi. Sentyabrın 4-də 4-cü iclasda Ənvər paşa çıxış etmək üçün söz istədi. Ancaq iclasda iştirak edən türk kommunistlərinin təzyiqi ilə ona söz verilmədi. Ş.Sürəyya Aydəmir bununla bağlı belə yazırdı:

> Bir dəfə Ənvər paşa lojadan rəyasət heyətinə çıxır. Zinovyev orada oturubmuş.

> Yaxınlaşıb onunla nəsə pıçıldaşırlar. Əlindəki kağızları Zinovyevə verir. Ona söz veriləcəyi elan olunanda zaldakı türk kommunistləri böyük səs-küy qaldırırlar – qurultaya deyil, xalq məhkəməsinə - deyə qışqırırlar.

Şahidlərdən biri isə Ənvər paşanın qurultayda çıxış etməsi məsələsi ilə bağlı belə yazmışdı:

> İlk sırada oturan Ənvər uzun bir konuşma yapmağa təşəbbüs etdi, fəqət "sadəcə 10 dəqiqə iznin var" çığlıklarıyla konuşması kəsildi. Bu, "heç bir konuşmaçı 10 dəqiqəni aşan konuşma yapmağa iznli deyil" kuralına istinadən söylənmişdi. Sonunda bu çığlıklar Ənvəri çəkilməyə zorladı və qızğınlıqlar içində konqresi tərk etdi. Təqib edən oturuma katılmayı da rədd etdi. Ancaq 8 eylüldə (sentyabrda – M.S.) okunmaq üzrə Məclisə uzun bir təbliğ göndərdi.

Mövcud olan məlumatlara görə, Ənvər paşanın Şərq xalqlarının qurultayında çıxış edib – etməməsi qurultayın təşkilatçıları tərəfindən ayrıca müzakirə edilmişdi. Onun çıxış etməsinə razı olanlar da var idi, razı olmayanlar da. Çıxışına razı olanlar Ənvər paşanın nüfuzundan bəhrələnməyə çalışırdılar, razı olmayanlar isə Ənvər paşanın çıxışının qurultay nümayəndələrinə təsirindən qorxurdular. Uzun müzakirələrdən sonra Ənvər paşanın çıxışındakı müddəaların mühüm əhəmiyyətə malik olduğunu iddia edən Zinovyev yaranmış vəziyyətdə belə bir təklif irəli sürdü ki, Ənvər paşanın çıxışını kimsə iclas iştirakçılarından biri oxusun. Bu fikir təşkilatçılar tərəfindən qəbul olundu.

Ənvər paşanın çıxışı Şərq xalqların qurultayının iclasında səsləndirildi. Bu çıxış həm rus dilində, həm də türk dilində səsləndirilib. Türk dilində çıxışı Məhəmməd Əmin adlı birisi, rus dilində isə Ostrovski adlı birisi səsləndirmişdir.

Bu çıxış türk dilində hazırlanmış və sonradan rus dilinə tərcümə edilmişdi. Ənvər paşanın rus dilində olan çıxışı Bakıda rus dilində çap olunan "Kommunist" qəzetinin 13 sentyabr 1920-ci il tarixli nömrəsində çap olunmuşdur.

Qurultayın 4-cü iclasını aparan sədr bu məsələ ilə bağlı aşağıdakıları qurultay iştirakçılarının nəzərinə çatdırır:

> Yoldaşlar, Bakıda olan və bizim qurultayın nümayəndəsi olmayan iki görkəmli türk siyasi xadimi bizə, rəyasət heyətinə özlərinin yazılı bəyanatlarını göndərmişlər. Bu bəyanatlar böyük siyasi əhəmiyyət daşıdığına görə rəyasət heyəti qərar aldı ki, onlar tribunadan və mətbuatdan səsləndirilsin. Onlardan biri Ənvər paşaya məxsusdur, digəri isə Anadoludakı türk xalq hökumətinin nümayəndəsi İbrahim Hadiyə məxsusdur. Biz indi hər iki bəyanatı oxuyacağıq.

Bundan sonra Ənvər paşanın çıxışını oxumaq üçün bolşevik Ostrovskiyə söz verilir. Türkiyədə çap olunmuş bəzi tarixi ədəbiyyatda Ənvər paşanın Bakıdakı Şərq xalqları qurultayında səsləndirilmiş çıxışının mətni çap olunmuş və onların orijinal olduğu iddia edilir. Aşağıda İrfan Ülkünün "KGB arşivlərinde Enver paşa" adlı kitabından götürülmüş çıxış verilmişdir. Müxtəlif mətnlərin tutuşdurulması bunu deməyə əsas verir ki, İrfan Ülkünün kitabında olan mətn Ənvər paşanın çıxışının rus dilindəki variantının tərcüməsidir.

Bu çıxışın müxtəlif variantlarının nəzərdən keçirilməsi onu göstərir ki, onun əslinin tərcüməsində keyfiyyət problemi olduğu kimi, bir sıra istilahlar və ifadələr də qəsdən rus dilinə tərcümə edilməmişdir. Yəni, Ənvər paşanın çıxışı rus dilinə tərcümə olunmazdan əvvəl bolşevik süzgəcindən keçirilmişdi.

Həmin çıxışda Ənvər paşanın hələ kifayət qədər sabit bir əqidədə dayana bilməməsi diqqəti özünə cəlb edirdi. Ola bilsin ki, emiqrasiya həyatı onun bu çıxışının məzmununa təsir göstərmişdi. İfadə etdiyi fikirləri ilə Ənvər paşa çıxışında bolşevizmi

müdafiə etdiyini qurultay iştirakçılarının nəzərinə çatdırırdı. Hətta Qırmıız ordunun imperialızmə qarşı mübarizəsini də Ənvər paşa zəhmətkeşlərin azadlığı uğrunda apardığı bir mübarizə kimi qiymətləndirirdi. Halbuki məlumdur ki, Ənvər paşa ömrünün son illərini elə Qırmızı orduya qarşı mübarizədə keçirmiş və Qırmızı ordu əsgərlərinin gülləsindən həlak olmuşdu:

> Yoldaşlar, arkadaşlarım və kəndi adıma biz dünya imperializminə və kapitalizminə qarşı savaş verən həpimizə Bakıda toplanma imkanı verən III İnternasional və Başqanlıq Kuruluna təşəkkür edərim.
>
> Yoldaşlar, bizi soymaqla yetinməyib qanımızı əmən və bizi yox edən imperailizm və kapitalizmə qarşı olmaqdan bu gün böyük bir mutluluq duyuruz. III İnternasionalın kişiliyinə Avropalı politikaçılar kimi saxta deyil, amma içdən və dürüst bir müttəfiq tavrındayız.

Osmanlı Türkiyəsinin Birinci dünya müharibəsində iştirakının səbəbləri barədə Ənvər paşa belə deyirdi:

> Yoldaşlar, Türkiyənin savaşa girdiyi anda dünya iki kampa bölünmüşdü. Birincisi yaşlı çarlıq Rusiyasının və kapitalist və imperialist mütəfəkkirlərinin, ikincisi isə Almaniyanın və eyni niteliklə müttəfiqlərin oluşdurduğu kamplardır. Biz amacları bizi boğmaq olan çarlıq Rusiyasına, İngiltərəyə və müttəfiqlərinə qarşı dirəniyoruq və ən azından həyatımıza qəsd etməmə sözünü verən Almaniyanın yanında savaşa girdik. Alman imperialistləri yağmaçı amaclarını gerçəkləşdirmək üçün bizdən yararlanırlardı. Amma bizim yalnızca tək bir düşüncəmiz vardı: Baxımsızlığımızı qorumaq.

Osmanlı qoşunlarının Afrikanın şimalına çıxarılmasını Ənvər paşa buranın xalqlarının imperialist işğalından qurtarılmasına kömək göstərilməsi kimi dəyərləndirirdi:

> Yoldaşlar, bizi sakin tavrımızdan söküb alaraq Trablusqarbın yakıcı çöllərinə göndərən və bədəvilərin çadırlarının altında həyatımızın ən sıxıntılı dövrlərini keçirməyə zorlayan duyğu imperialistcə bir duyğu deyildir. Biz Trablusqərbi trablusqərblilər üçün qurtarmağa çalışdıq və doqquz illik bir savaşdan sonra oradan İtaliya imperialistlərini qova bilməyi bacardığımız üçün mutluyuz.

Türkiyənin Azərbaycana göstərmiş olduğu yardımlar barəsində isə Ənvər paşa öz fikirlərini belə ifadə edirdi:

> Azərbaycana gəlincə onun haqqında da heç bir kötü niyyətimiz yoxdur. Biz Azərbaycanın orada oturanlara aid olmasından yanayız. Əgər yanlış bir konuşa düşdüysək, bu bizə ancaq mutsuzluq verə bilər

İştirak etdiyi Birinci dünya savaşında Türkiyənin Almaniya ilə müttəfiq olmasına üzüldüyünü bildirən Ənvər paşa Rusiyanın imperializmə qarşı müharibəsinə rəğbətlə yanaşdığını qurultay iştirakçılarının nəzərinə çatdırırdı:

> Yoldaşlar, savaş boyunca ən önəmli mövqelərdən birindəydim. Əmin olun ki, Almaniyanın yanında savaşa girmək zorunda qalmamızdan üzüntü duyuram. İmperializmdən və alman imperializmindən ən azından ingilis imperializmindən nifrət etdiyim qədər nifrət edirəm və bütün imperialistlərə lənət yağdırıram. Çalışmadan zəngin olmağı düşünənlərin yox edilməsi gərəkdiyi fikrindəyəm. Mən imperializmi bu acıdan göz önünə alıram.
>
> Yoldaşlar, sizi əmin edirəm ki, əgər bu günlərin Rusiyası o çağda da olmuş olsaydı və savaşı indiki amacları üçün yapmış olsaydı, bu anda olduğu kimi o zaman da onun yanında yer almış olacaqdıq. Bunun gerçəkliyini açıqca kanıtlamaq üçün Sovet Rusiyası ilə ortaq hərəkət etmək qərarına vardığımız

tarixdə Yudeniçin Petroqradın dolaylarında bulunduğunu, Kolçakın Uralları əlində tutduğunu və Denikinin güneydən Moskvanı təhdid etdiyini söyləyəcəyim sizə. Tüm güclərini eyləmə keçirmiş olan və kəndini o anda müzəffər görən itilaf dövlətləri yırtıcı dişlərini göstərir və əllərini xoşnutluqdan oğuşduruyorlardı. Rusiyanın dostluğunu aradığımız anda durum böylə idi. Əgər Qara dəniz fırtınaları gəminin dirəklərini alıb götürərək məni yolumdan alıkoymuş olmasaydı, əgər Kovno və Reval cəza evlərinin barmaqlıqları və məni götürməkdə olan uçaqların düşüşü məni əngəlləmiş olmasaydı Rusiya üçün ən sıxıntılı saatlarda sizin yanınızada olacaqdım və bütün bu gərəksiz şeyləri bəzi yoldaşlara açıqlamaq üçün anlatmaq zorunda qalmayacaqdım.

Ənvər paşanın çıxışının sonrakı tam mətni belə idi:

Yoldaşlar, dünya savaşının imperialist boğuşmasından yenik çıxdığını bilirsiniz. Amma bizləri əzilənlər olaraq çıxarlarımız acısından yenilmiş olduğumuzu qəbul etmirəm. Çünki Türkiyə boğazlarının qapatılmasının sonucunda gözü doymaz çarlıq Rusiyasının yıxılmasına və onun yerinə tüm əzilənlərin doğal bağlayışı Sovet Rusiyasının gəlişinə meydan verən faktorlardan biri halına gəldi. Bu halda dünyanın qurtuluşuna gedən yeni bir yolun açılmasında onun da bir payı oldu. Əzilən xalqlar acısından mən orada bir zəfər görürəm.

Yoldaşlar, Bu anda imperializmə qarşı qəhrəmanca bir savaş sürdürən və əvvəlcə də söyləmiş olduğum kimi gücünü köylü siniflərdən alan ordu bir ara hərəkətsiz qalmış olsa da heç bir zaman yenilməmişdir. Bu anda da o eyni düşmənə qarşı verilmiş olan 15 illik bir qovğadan sonra ikinci kərə sonsuz sıxıntılar içində yenidən mücadilə edir. Amma bu anki savaş keçən savaşla qarşılaşdırılamaz.

Doğu dünyasının və dünyanın bütün əzilənlərinin məşru haqlarına sahib çıxaraq III internasionalda birləşməsiylə mücadilə zəfərə sarsılmaz bir inancla dolmuşdur.

Yoldaşlar, imperialistlər arasındakı Transval savaşı ilə ortaya çıxan və 1914-cü il ilə 17-ci il arasında kəskin nöqtəsinə erişən dünya çapındakı çatışma sonuna gəlmişdir. Savaş bu anda ən kəsin dönəmindədir. Və yalnızca bizim zəfərimizlə son bula biləcəkdir. Yəni, yalnız kapitalizmin silahlarından arındırılması sonucunu verəcək olan deyil, onun tamamən yıxılmasını saxlayacaq olan tüm əzilənlərin zəfəriylə bitəcəkdir.

Bu günkü qurultay qanını əzilənlərin qorunması üçün tökən Qızıl Orduya və türk savaşçılarına yeni güclər verəcəkdir. Bu qurultay haqqın zəfəri demək olan zəfərimizə yardım edəcəkdir. Bizi III İnternasionala itən yalnızca bir dəstək bulmaq ümidi deyil, fəqət ölkələrinin bizimkilərlə olan yaxın bənzərliyidir. Biz devrimçi qüvvətlərimizi hər zaman xalqdan, xalqın əzilən ünsürlərindən yanı köylü sinfindən saxlamışızdır. Əgər fabrika işçilərimiz bəlirli bir gücü təmsil etsəydilər ilk olaraq onları anardım. Zira onlar da hər zaman bizimlə bərabər olmuşlardır. Eyləmimizi fədakarlıqları və bağlılıqları sayəsində ortaqlaşa yaratdıq. Və şimdi biz hər zaman xalqın əzilən qisminə dayanmışız. Biz onların acılarını kəndimizdə duyuyoruz, onlarla bərabər yaşıyoruz və onlarla birlikdə ölüyoruz.

Yoldaşlar, biz xalqın adına, xalqın kəndi siyasi gələcəyini kəndisinin belirləməsi haqqı üzərində öznəmlə duruyoruz. Biz sonsuzadək bizimlə birlikdə yaşamaq istəyənlərlə birlik olamaq, bizimlə birlikdə yaşamaq istəməyənlərin isə kəndi kəndilərinə örgütlənmələrinə qarışılmaması gərəkdiyi kanısındayız. Ulusal sorun görüş acımız böylədir.

Yoldaşlar, biz savaşa qarşıyız, yəni iqtidar hırsı içərisində insanların bir birlərini yüməsini istəmiyoruz. Və yer üzünə barışı egemen qılmaq üçün III İnternasionalın səflərində yer almış və bu anda bütün əngəllərə rəğmən gəlmiş keçmiş ən qanlı savaşlardan birini sürdürüyoruz.

Yoldaşlar, biz əməkçilərin mutluluğunu istəyirik. Biz yerli ya da yabançı heç bir kimsənin başqalarının əməyinin meyvələrini yeməsini istəmirik. Bu konuda kimsənin şübhəsi olmamalıdır. Biz ölkəmizin ortaq çalışmanın ürənlərindən yararlanmasını, tarımın və industrisinin geniş şəkildə gəlişməsini istəyirik. Ekonomik sorun haqqında görüşümüz budur.

Yoldaşlar,buna iyicə inanıram ki, yalnızca bilincli bir xalq, özgürlüyünü və mutluluğunu əldə edə bilər. Biz əməyə bağlı gerçək bir öyrətimin, gerçək özgürlüyümüzü güvən altına almaq üçün ölkəmizi aydınlatmasını və egitməsini istəyirik. Və bu konuda da qadın-erkək arasında ayrım yapmayacağıq. Toplumsal sorunu görüş acımız belədir.

Yoldaşlar, burada tamamən mənim təmsil etdiyim Fas, Cəzayir, Tunis, Trablusqərb, Misir, Ərəbistan və Hindistan devrimçi örgütləri birliyi bu sorunların çözümündə tamamən sizlələ işbirliyi halındadırlar. Örgütlər birliyi bütün devrimçi aracların kullanması ilə imperialist yırtıcı heyvanların dişlərinin qırılmasını və onların kimsəyə zərərləri toxunmayacaq bir hala gətitilməsinin başarılacağına kəsinliklə inanmaqdadır.

Yoldaşlar, bu əsəri yaratmaq üçün havaya qalxan əllər bir birinə uzanır. Mən sonuna qədər bizimlə birlikdə döyüşmək istəyənlərin əlini sıxıram, mücadilə üzun olacaqdır. Amma bizim zəfərimizlə bitəcəkdir. Yoldaşlarımıza başarılar diləyirəm.

Yaşasın əzilənlərin birliyi.

Qəhr olsun bu birliyin titrətdiyi əzənlər.

Bu çıxışdan sonra iclasda söz Məmməd Əminə verilmişdi ki, o da Ənvər paşanın çıxışını türk dilində səsləndirsin.

Qurultayın işi bitdikdən sonra Ənvər paşa Zinovyevlə bir qatarda Moskvaya qayıtdı. Sentyabr ayının 7-də hələ Bakıda ikən Kazım Qarabəkir paşaya yazdığı məktubunda Ənvər paşa Şərq xalqları qurultayının gedişindən razı qaldığını bildirirdi. Qurultayda ona təzyiqlər göstərilməsinə baxmayaraq, görünür Ənvər paşa bolşevik Rusiyasının rəhbərliyi ilə daşnak Ermənistanına qarşı cəbhə yaradılmasında müəyyən razılıqlara gəlmişdi. O yazırdı:

Şərq konqresindən pək məmnunam. Atidə pək iyi nəticələr verəcəkdir. Qışdan əvvəl bəlkə Ermənistana qarşı bir hərəkat oldu. Fəqət məncə siz indiyə qədər bu hərəkatı yapdıraraq ermənilərin qüvvətlənməsinə meydan verməyəydiniz. Nə isə İnşaallah gürcülər, ermənilər, iranilər təərrüzə keçmədən Azərbaycan kəndisini toplayaraq təərrüzə keçər.

Bu məktubdan Ənvər paşanın Azərbaycandakı bolşevik rejiminə də bir meyli duyulmaqdadır. Əslində bu, doğrudan da belə idi. Rusiyanın mərkəzi hakimiyyətindən Ənvər paşa ilə ünsiyyətdə olanlar onu inandıra bilmişdilər ki, Azərbaycanın müstəqilliyi saxlanılacaqdır və yeni rejim Azərbaycanın inkişafı üçün daha münasib şərait yaradacaqdır. Bakıya, Şərq xalqları qurultayına yola düşməzdən əvvəl Ənvər paşanın avqustun 26-da Mustafa Kamal paşaya yazdığı məktubunda da bunu görmək mümkündür. Həmin məktubun sonluğu aşağıdakı kimidir:

Buradakı islamlar arasında ən ziyadə müstəqil tərəqqi olduğu anlaşılan

> Azərbaycan kommunizm cərəyanından kəndisini qurtarmayaraq istiqlalını həmən-həmən qeyb etmiş isə də Rusiya hökuməti Qafqaziya ilə bərabər, Azərbaycanın istiqlalını tanıyacağını mənə vəd etdiyi cəhətilə Azərbaycanın az zaman zərfində tərəqqi və təməddündə irəli gedəcəyinə ümidvaram. Krımda dəxi ayrıca Sovet Tatar Cümhuriyyəti təşəkkül edəcəkdir. Trotskinin müavini Sklyanski ilə görüşdüyüm zaman Azərbaycan ordusunun yenidən təşəkkülünə və bu ordunun Anadoluya müavinətinə tərəfdar olduğunu anladım. Mən bu gün Bakıya gedirəm. Orada ordunun yenidən təşəkkülünə və məmləkət üçün faydalı olmağa çalışacağam. Zati-alinizə faydalı oluyor ümidilə bu məlumatı yazdım. Hörmətlə gözlərinizdən öpər və müvəffəqiyyətinizə hər zaman dua edərim. Qardaşım, əfəndim.

Bolşevik Rusiyasının gücündən istifadə etmək tək Ənvər paşanın arzusu deyildi. Bu fikirdə olan insanların bir-çoxu həqiqətdə Rusiyanın təmənnasız olaraq Türkiyəyə yardım edə bilməsinə inanırdı. Bir çoxları isə sadəcə olaraq reallıqla hesablaşmaq məcburiyyətində qalmışdılar. Çünki bolşevik Rusiyası bölgədə kifayət qədər gücə malik idi.

Ailəsindən uzaq düşmək də Ənvər paşanın sıxıntılarını xeyli artırırdı. Ənvər paşanın qürbətdən həyat yoldaşı Naciyə xanıma yazdığı məktublarından birinə diqqət yetirməklə bu insanın Vətəndən uzaqlarda hansı hisslərlə, hansı kövrəkliklə yaşadığını təsəvvür etmək mümkündür. Yeganə və üzünü görə bilmədiyi oğul övladı doğulandan sonra Ənvər paşa həyat yoldaşına yazırdı:

> Bilməm, xatırlarmısan? Məmləkətdəki səyahətlərimdə, əksərən yenə böylə yazılmış məktublarım əlinə varardı. Amma sonra keçən həyatım o qədər üzüntülü keçdi ki, o qədər fəna yerlərdə düşmən əllərinə düşdüm ki, sənə düşündüklərimi yapa bilmək üçün min türlü çarələr düşünür, yenə birini seşəməzdim.
>
> Fəqət, şimdi nə olursa olsun, iştə sana. Həm yalnız sənin üçün hər türlü düşüncəmi yazacağam. Əvvəlki məktubların birində də demişdim. Bilməm, nədən yaşım irəlilədikcə öylə bir boşluğa düşürəm ki, bunu ancaq yenə, degil məhəbbətlə və zevsiyyətlə, fəqət iştə de sən doldura biləcəksən.
>
> Ah, Naciyəciyim. Hanı, söylə ikimiz baş-başa verib də ciddi düşüncələrimizi min qat daha doğru düşünəcək, min qat daha doğru qərar verəcəyim. Yox, yox, haydı, gəl, Naciyəm, bərabər bulunalım. Əvət, indiyə qədər gəlməni istəmiyordum. Amma indi ən gözəl mövcudiyyətim olan səni sıxıntıya soxmağa çalışıram.
>
> Əvət, mən əskidən daha xudbin oldum. Amma yalnız ikimizin arasındakı xudbinlik olsa yenə qaliba çalarım. Fəqət, indi qurtarılacaq, qoca bir islam aləminin isə daha qüvvətli, daha canlı sarılmama yardım edəcəyini düşünmədən doğan xudbinlik məni bir qədər irəli vardırıyor.

Naciyə sultan Osmanlı sultan ailəsindən idi. Ənvər paşanın bacarığı, qabiliyyəti, Türkiyənin siyasi həyatındakı mühüm rolu ona sultan ailəsi ilə qohum olmaq fürsəti vermişdi. Naciyə sultan son Osmanlı sultanlarından olan sultan Əbdülhəmid və sultan Vəhidəddinin qardaşları olan sultan Əbdülməcidin nəvəsi idi. Nişanlanarkən onlar bir birini görməmişdilər və onları arasında səmimi məhəbbət onların apardıqları məktublaşmalarda yaranmışdı. 1909-cu ildə nişanlandıqları vaxt Naciyə sultanın cəmi 12 yaşı, Ənvər paşanın isə 30 yaşı olub. 1911-ci ildə isə onların nikahı kəsilir. Bu vaxt Naciyə sultan 14 yaşındaydı. Bu nikah qiyabi şəkildə oxunmuşdu. Naciyə sultanla Ənvər paşanın evlənmələri isə 1914-cü ildə təsadüf edir. Bir birlərinin dərindən sevən bu insanların birgə həyatları cəmi dörd il sürüb. 1918-ci ildə Ənvər paşanın Türkiyədən

ayrılması onların da arasına ayrılıq gətirdi. Bütünlükdə isə Naciyə sultanla Ənvər paşanın nikahları 8 il sürdü. Türkiyədən ayrıldıqdan sonra Ənvər paşa yalnız Naciyə sultanla bir dəfə, 1920-ci ilin dekabrında İsveçrədə görüşə bildi.

Ənvər paşa ilə Naciyə sultanın bir birinə olan məhəbbəti romantik bir eşqin, qarşılıqlı kövrək duyğuların, daxili səmimiyyətin əyani nümunəsi idi və bunları Ənvər paşanın işıq üzü görmüş olan özəl məktubları da nümayiş etdirir. Zabitlik həyatının sərt normaları, Vətəndən uzaq düşməyin iztirabları, qürbət həyatın ağrıları, rastlaşdığı haqsızlıqların yükü, duyğuları ilə yaşadığı sevgisindən məhrumluğun mənəvi əzabları nə qədər ağır olsa belə Ənvər paşada daxili zəriflik, həyat yoldaşına sonsuz sədaqət və sevgi həyatının sonuna qədər canlı olaraq qalmışdı. O, qürbətdən yazdığı bütün məktublarında Naciyə sultana kövrək hisslərlə müraciət edir və onu daxili yaşantılarını əks etdirən sözlərlə oxşayırdı. Məsələn, onun məktublarında Naciyə sultana ünvanlanmış belə cümlələr var idi:

> Bütün mövcudiyyətimlə səni qucaqlar, sinəmə basaram. Çocuqlarımı öp və mənim üçün qoxula

Və ya:

> Vücudunun hər yerindən öpər, qoxular, çocuqlarımla bərabər qucaqlarım, qəlbimə basarım. Ruhum, üzülmə, əylən. Mən sənin müstərih olduğunu düşündükcə, təbii müstərihim.

Ənvər paşa məktublarında Naciyə sultana aşağıdakı sözlərlə müraciət edərdi:

> Arslancığış, gözəl Naciyəm; Sevgilim Naciyə; Ruhum, əfəndim; Naciyəciyim, əfəndiciyim; Gözəlim, əfəndim, ruhum, almazım; Sevgili mələyim; Gözəl mələyim, Naciyəciyim; Almaz mələyim, əfəndim; Müqəddəs sultancığım; Sevgili sultanım, müqəddəs mələk; Alicənab sultanım; Ənisi-ruhum, sultanım; Müqəddəs ruh; İki gözüm, sultanım; İki gözüm, ruhum, sultanım və s.

Naciyə sultan da eyni hisslərlə Ənvər paşanı sevirdi və o da məktublarında ən səmimi sözlərlə Ənvər paşaya müraciət edirdi və qürbətdə yaşayan Ənvərə güc və qüvvət verirdi.

Ənvər paşanın Naciyə sultandan üç övladı dünyaya gəlmişdi: Mahpeykər, Türkan və Əli. Ənvər paşa Türkiyəni tərk edəndən sonra Naciyə sultan da övladları ilə birlikdə Türkiyəni tərk edərək Almaniyaya gəlmək məcburiyyətində qalmışdı. Bu hadisə 1920-ci ildə baş vermişdi. Bu vaxta qədər isə Naciyə sultan Türkiyədə xeyli ağır günlər keçirdi. Sonradan yazdığı xatirələrində Naciyə sultan həmin günləri belə xatırlayırdı:

> Qocam və arkadaşları məmləkəti tərkə qərar verdilər. Ənvər məmləkət dışında daha faydalı olacağını sanırdı. Sülhdən sonra təkrar dönəcəkdi. Mənə də bərabər gəlməmi söylədi. Fəqət çocuğumu buraxamazdım. Qaldım. Mahpeykər bir yaşındaydı. İkinci çocuğuma da gebeydim. Amma bunu hənuz bilmiyordum. Hərəkətindən sonra ondan seyrək xəbər alırdım. Getdiyindən uzun bir müddət sonra Berlin civarında bir ciftlikdə olduğunu öyrəndim. Almaniyadan gələnlər bu xəbərləri gətirirdilər. Halbuki nə təhlükələr adlamışdı. Mənə bunları həp sonradan anlatdı.
>
> Rusiya kıyısına varınca arkadaşlarından ayrılmış. Qafqazyaya keçib Nuru paşa ilə bir müdafiə cəbhəsi qurmaq istəmiş. Bir taqaya minərək dənizə açılmış. Fəqət Qara dənizdə fırtına partlamış. Günlərcə fırtına davam etmiş. Nəhayət gəmi Krım kıyılarına sürüklənmiş. Oradan Berlinə getmiş.
>
> Amma bizim başımıza gələnlər də başqaydı. Düşmən filo və qüvvətləri İstanbula girincə fransızlar bizim Kürüçeşmə yalımızı işğal etdilər. Həm də 24 saat içində

binadan çıxmamızı istədilər. Xəstəydim. Qızım Mahpeykər də iki tərəfli zatürreddən yatırdı. İşğal qüvvətləri isə yalıya doktor gəlməsinə belə izin vermədilər.

Fransızlar evin önündə vasitə belə buraxmadılar. Yalnız doktor Süleyman Nüman paşa ancaq yaya olaraq gəlib bizə baxdı. Yalının boşaldılması təbliğindən 24 saat sonra isə xəstə olduğumuz halda yaldan çıxmaq zorunda buraxıldıq. Yanımızda erkək olaraq kimsə yox idi. Dairə müdiri ilə qayınpədərim də tövqif edilmişdi. Kimsə bizə yardım etmədi. Biz Tələt paşanın ailəsinin oturduğu binaya, Sultan Əhməddəki qonağa sığındıq.

Qocam bunları duyunca oradan qardaşı Kamil bəyi bizə yardıma göndərdi. Amma Kamil bəy də Almaniyadan İstanbula min bir dolanbac yollarla, ancaq 52 gündə gələ bildi.

Qarşılaşdıqları çətinliklərə baxmayaraq Ənvər paşanın ailəsinin sonrakı qayğıları Kamil bəyin üzərinə düşdü.

Bir tərəfdən qürbət, digər tərəfdən də maliyyə çətinlikləri Ənvər paşanın ailəsinə çətinliklər yaratsa da, Naciyə xanım və övladları həsrətlə Ənvər paşanın yolunu gözləyirdilər. Ənvər paşa da onları dəfələrlə yanına dəvət etmişdi. Lakin görüşmək bir daha onlara qismət olmadı.

Ənvər paşanın şəhid olması xəbərinin ailəsi Almaniyada aldı. Bu xəbər həyatını Ənvər paşaya bağlayan Naciyə sultan tərəfindən çox dərin qəm-qüssə ilə qarşılandı və onun nisgilli günləri başladı.

Ənvər paşanın şəhid olmasında bir il sonra Naciyə sultan Ənvərin qardaşı Kamil bəylə ailə qurdu. Görünür bu nikah Kamil bəyin Ənvər paşanın ailəsinə sahib çıxmaq istəyindən irəli gəlirdi. Sonradan Naciyə sultanla Kamilin də Rəna adlı bir övladları oldu. Mövcud məlumatlar onu deməyə əsas verir ki, Kamil bəylə Naciyə sultanın ailə həyatı da kifayət qədər qayğılar içərisində keçmişdir. Çünki yuxarıda deyildiyi kimi, Nuru paşanın bəzi vaxtlarda onların övladlarını Türkiyəyə dəvət etməsi və onlara qayğı göstərməsi Naciyə sultan tərəfindən minnətdarlıqla anılırdı.

Bütün bu şırpıntıların nəticəsi idi ki, Ənvər paşa Moskvada qərar tuta bilmədi. Türk xalqlarının nicatına nail olmaq üçün o da əlinə silah alıb vuruşmağı qərara aldı. Mövcud məlumatlar da göstərir ki, Ənvər paşa hələ Moskvada ikən bolşeviklərə bağlanılan ümidlərin əbəs olduğunu anlamağa başladı və ona görə də müsəlman xalqlarının azadlığı üçün bolşevizmə qarşı mübarizə aparmaq qərarına gəldi. Tələt paşanın qətl edilməsi xəbərini alandan sonra Ənvər paşa qısa müddət üçün Berlinə getdi və orada ittihadçıları yenidən ətrafına toplamağa çalışdı. Berlində ikən Ənvər paşa "İslam İhtilal Cəmiyyətləri İttihadı" adlı bir konfrans keçirdi və bu konfransda imperializmə qarşı mübarizə məsələsini ortaya qoydu. Məlum olur ki, həmin vaxtlardan, yəni təxminən 1921-ci ilin ortalarından bolşeviklər də Ənvər paşanın bolşevizmə tərəf çəkməyin asan olmayacağını anlayıb onun dəstəklənməsindən əl çəkdilər.

1921-ci il avqust ayının əvvəllərində Ənvər paşa artıq Batumda idi. Burada da onun rəhbərliyi ilə bir islam konfransı keçirilir və bu konfransda da imperializmə qarşı mübarizə məsələləri müzakirə olunur. Bundan sonra Ənvər paşa daha Moskvaya qayıtmadı və Moskva ilə münasibətlərini bir dəfəlik kəsdi. Ənvər paşa türk-müsəlman xalqlarının müstəqilliyinin qazanılması ideyasına dəstəklərini əməli işə çevirmək üçün Türküstana getməyi qərarlaşdırdı və bunun üçün də Batumdan Bakya gəldi. Ənvər paşanı Bakıdan Xəlil paşanın yavəri Mühiddin bəy yola saldı. Mühiddin bəy Ənvər paşa ilə Bakıdakı son görüşlərini belə xatırlayırdı:

...Bütün hal və tavrı durğun, düşüncəli və içliydi. Görünürdü ki, sükunətinə rəğmən içində sinirləri yüklü bir insanın, mütəmadiyən zidd cərəyanlar arasında qıvranan ruhu bulunduğu mühəqqəqdir. On iki ildən bəri kəndisiylə, daxili və xarici mühitiylə mücadilə edən bir insan tətmin edilməmiş ehtirasların pəncəsində bulunuyordu.

Ondan öynədən sonra, bir bucuqda ayrıldım. Ayrılarkən yenə qucaqlaşdıq, öpüşdük. Üç saat sonra o gün ilk dəfə gördüyüm Bakının bulvarında dolaşarkən dəniz kənarında orta həcmdə bir gəminin rıhtımlardan qalxaraq limandan çıxmaq üzrə manevra yapdığını gördüm. Sordum.

-Krasnovodska gedir – dedilər.

Dənizin kənarına yaxınlaşaraq bacasından mazut dumanları fısqıraraq uzaqlaşan gəmini seyr etdim. Göyərdətə dolaşanlar arasında birini ona bənzətdim. Bu sırada və bir təsadüf olaraq dəniz kənarında, Bulvar deyilən parkda bir azəri saz taqımı dəfli, tamburlu oxucuları ilə o sıralarda moda olan bir şarqını vuruyordu:

"Yaşa, çox yaşa, Mustafa Kamal Paşa"

Fəqət gəmi artıq uzaqdaydı. Yolçu bunu duyamazdı.

Sürəyya Şövkət Aydəmir yazır ki, bu nəqarətli şərqi bir vaxtlar Ənvər paşanın şəninə qoşulmuşdu. Sonradan aşıqlar onun nəqarətində dəyişiklik edərək başqa cür oxuyurdular.

Ənvər paşa haqqında şərqilərin o vaxtlar Azərbaycanda yayıldığını bir sıra sənədlər və şahid ifadələri də sübut edir. Məsələn, Hacı Azər Əbilovun "Yeni Azərbaycan" qəzetinin 6 sentyabr 2000-ci il nömrəsində Qafqaz İslam Ordusu qüvvələrinin Neftçaladakı fəaliyyəti ilə bağlı çap etdirdiyi "Qazilər və şəhid mehmetciklər" adlı məqaləsində insanların xatirəsində qalmış bu şərqilərdən parçaları nümunə kimi xatırladır. Həmin nümunlər aşağıdakı kimi idi:

Yaşa, sən yaşa, Ənvər paşa
Məhv olsun düşmənlərin
Cümləsi başdan-başa

Yaxud:

Ey gülü gülşən edən
Sərvi rəvan, Ənvər paşa

Yaxud:

Ənvər paşa çıxdı qaladan
Allah, sən onu qoru bəladan

Bu şərqilərin meydana gəlməsi və onların sevilə-sevilə oxunması sadə xalqın Ənvər paşaya bəslədiyi dərin məhəbbətin ifadəsi idi.

Ümumən, Azərbaycan Xalq Cümhuriyyəti dövründə türk əsgər və zabitlərinin göstərdikləri fədakarlıqlara çoxlu şərqilər həsr edilmişdi. Onların bir hissəsi elə indi də Azərbaycan Respublikası Mərkəzi Dövlət arxivində saxlanmaqdadır. Həmin şərqilər "Cümhuriyyətin hərbi şərqiləri" adı altında ayrıca bir qovluqda saxlanılmaqdadır. Bu şərqilərin içində doğrudan da nəqarəti Mühiddin bəyin xatırlatdığı yuxarıdakı nəqarətin bənzəri olan və Ənvər paşaya həsr edilən bir şərqi də vardır. Şərqinin ilk bəndi aşağıdakı kimidir:

Ayın 14-də dava başladı
Gözəl əsgərlərin gözü yaşlıdı
Erməni qoşunu təzə cuşlandı
Sağ ol, Ənvər paşa, sən də min yaşa

Bakı davasında oldu tamaşa

Bu şərqinin sonrakı bəndlərində Ənvər paşanın yerinə Səməd paşanın (Səməd bəy Mehmandarovun) adı çəkilir. Şərqini oxuyarkən hiss etmək çətin deyil ki, bütün bəndlərdə Ənvər paşanın adı olmuş və sonradan bu ad Səməd paşa ilə dəyişdirilmişdi. Çünki şərqinin ilk bəndindən də göründüyü kimi söhbər 1918-ci il sentyabrın 14-də Bakının azad edilməsi uğrunda başlanan döyüşdən gedir. Həmin vaxt isə Səməd bəy hələ Azərbaycana qayıtmamışdı. Ona görə də Səməd paşanın adının Bakı davası ilə əlaqələndirilməsi heç də inandırıcı görünmür. Qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Səməd bəy Mehmandarov da xalq arasında son dərəcə böyük nüfuz və ehtirama malik idi və onun da adına çoxlu sayda şərqilər qoşulmuşdu. Ona görə də şərqidə adların əvəzlənməsi sadəcə texniki bir məqam ola bilərdi.

Sonrakı bəndlərin arxivdə saxlanılan variantı aşağıdakı kimidir:

Səngərə çəkilir nər deyənləri
Səngər dolusudur əsgər qanları
Sizə qurban olsun islam xanları
Sağ ol, Səməd paşa, sən də min yaşa
Zəngəzur üstündə oldu tamaşa

Gedin deyin mənium qərib anama
Dəmir çarıq geyib gəlsin yanıma
Anam, məni satma dünya malına
Sağ ol, Səməd paşa, sən də min yaşa
Bakı davasında oldu tamaşa

Sarıqamışdan toplar atıldı
Topun sədasından ay-gün tutuldu
Rus padşahının taxtı pozuldu
Sağ ol, Səməd paşa, sən də min yaşa
Bakı davasında oldu tamaşa

Türküstan həyatı Ənvər paşanın həyatının sonuncu və faciəli səhifəsini təşkil edir. Türküstana gəldikdən sonra Ənvər paşa burada bolşevizmə qarşı mübarizəyə qoşuldu. Ənvər paşanın həyatının Türkistan səhifəsi ayrıca bir tədqiqata layiqdir. Türkçülüyün müstəqilliyə qovuşdurulması ideyası Ənər paşada o qədər güclü idi ki, bu əqidəsini o, ağır durumda olan ailəsinin qayğılarını öz üzərinə götürməkdən üstün tutdu və özünü yenidən müharibə ocağına atdı.

Ənvər paşanın yazışmalarından görmək mümkündür ki, 1921-ci il oktyabr ayının ortalarında o, artıq Buxarada idi. Bəzi məlumatlara görə, Ənvər paşa Türküstana bolşeviklərin tapşırığı ilə gəlmişdi və burada bolşevizmə qarşı mübarizə aparan yerli qüvələri müqaviməti dayandırmağa sövq etməli idi. Bolşevik ədəbiyyatında bu yerli qüvvələr "Basmaçlar" kimi təqdim edilirdi. Bu məlumatlara görə Türküstana gəlməsindən az sonra Ənvər paşa bütünlüklə yerli müqavimət qüvvələrinin tərəfinə keçdi. Türküstana gələrkən onun yanında əlavə 6 osmanlı zabitinin olduğu da bildirilir.

Ənvər paşa Türküstanın yerli müqavimət qüvvələri tərəfindən böyük bir coşqu ilə qarşılandı və Türküstanın müqavimət qüvvələrinin rəhbəri seçildi. Ətrafına toplanmış olan qüvvələri boşevizmə qarşı mübarizəyə səfərbər etmək üçün Ənvər paşa onlara belə bir müracııt etmişdi:

> Arkadaşlar, Türküstanın müqəddəs davası uğrunda yapılan mücadiləyə mən də qarışmağa gəldim. İçinizdə bizimlə bərabər çalışmaq istəyən varsa, təklif edəcəyim yəmini qəbul etsin. Fəqət, içinizdə coluq-çocuğu rusların əli altında

> olduğunu düşünərək əndişə və tərəddüd göstərən varsa açıqca söyləsin. Əmr edirəm.

Başqa bir çıxışında isə Ənvər paşa ya şəhid olmağı, ya da qazi olmağı tələb edirdi:

> Müsəlmanlar heç bir zaman bolşeviklərə adanmamalı və onlarla iş birliyi yapmamalıdırlar. Əks təqdirdə Türküstan yenə Rusiyanın köləsi olaraq qalır. Bolşeviklərin bütün vədələri yalan... Çünki onlarda söz yox, iman yox. Allahsızın nə sözü, nə də imanı olur. Onların başçısı kafir Lenindir. İndi yurdumuzu o kafirin göndərdiyi kafirlər işğal edirlər. Bütün mömünlərlə müsəlmanlara yek vücud olub kafirlərə qarşı vuruşmaları buyrulmuşdur. Bu amacla, canımız bədənimizdə dururkən, bu müsəlman yurdumuzu kafirlərin, basqınçıların əsarətindən qurtarmağa məcburuz. Mən Buxarayi-Şərifin taxtına talib deyiləm. Buxara torpağından ruslar qovulub çıxarılsınlar yetər. Dərhal Buxara əmiri Alim xanı Kabuldan çağırıb taxtına oturmağa dəvət edəcəyəm. Uluğ Türkistan 50 il ruslara yem oldu. Artıq yetər. Zülmə son vermə fürsəti əlimizə keçmişdir. Bizə yalnız Allah-Taalanın, mehriban Allahü-Kərimin yardımları gərəkdir. Başqa yerdən yardım gəlməz. Bunun üçün Allah yolunda savaşalım. Ya qazi oluruz, ya da şəhid.

Ənvər paşanın rəhbərliyi altında toplaşan müqavimət qüvvələrinin Türküstanda bir sıra uğurlu döyüşləri də olmuşdu. Amma bununla belə bölgəyə cəlb edilmiş bolşevik qüvvələri kifayət qədər çoxsaylı və güclü idilər. Ənvər paşanın dəstəsinə isə kənardan xüsusi bir kömək gəlmirdi. Buna görə də Ənvər paşa 1922-ci il avqust ayının 4-də indiki Tacikstan ərazisində, Abu-Dərya çayı kənarındakı döyüşlərin birində həlak oldu. Avqust ayının 5-də isə o, Çeqen adlanan kəndin kənarındakı bir təpənin üzərində dəfn edildi. XX əsrin 90-cı illərində onun qalıqları İstanbula gətirilib burada torpağa tapşırıldı.

## ƏLİAĞA ŞIXLİNSKİ

Çar Rusiyası ordusunda uzun və maraqlı bir xidmət yolu keçmiş general-leytenant Əliağa Şıxlinskinin müstəqil Azərbaycan ordusunun formalaşdırılmasında və o cümlədən də Qafqaz İslam Ordusu hərəkatının tarixində dəyərli bir rolu olmuşdur. Onun zəngin elmi və döyüş təcrübəsi Nuru paşanın gənclik enerjisini tamamlayırdı və bu da son nəticədə Qafqaz İslam Ordusunun xidmət və döyüş yoluna uğurlu bir istiqamət verirdi.

Azərbaycanın milli qoşun hissələrinin formalaşdırılmasına başlaması general-leytenant Əliağa Şıxlinskinin adı ilə bağlıdır və bu prosesə Qafqaz İslam Ordusunun yaradılmasından əvvəl başlanmışdı. Onun rəhbərliyi altında çox mürəkkəb şəraitdə formalaşdırılan milli qoşun bölmələri sonradan Qafqaz İslam Ordusunun tərkibinə qatıldı və Azərbaycan ərazisinin bolşevik-daşnak əsarətindən azad edilməsində iştirak etdi.

Rusiyada baş vermiş oktyabr çevrilişindən sonra Cənubi Qafqazda hərbi-siyasi şərait mürəkkəbləşəndə Azərbaycan milli mücadiləsinin fəalları xalqın başı üzərini kəsdirmiş təhlükədən qorunmaq üçün milli tərkibli qoşun hissələrinin təşkili məsələsini ortaya gətirdilər. Milli mücadilənin fəallarının təsir və təzyiqləri altında oktyabr bolşevik çevrilişindən sonra Cənubi Qafqazda yerli hakimiyyət orqanı olan Cənubi Qafqaz Komissarlığı milli qoşun hissələrinin təşkilinə icazə verməli oldu.

1917-ci il dekabr ayının 6-da (19-da) Cənubi Qafqaz Komissarlığı Bakıda və

Dağıstanda yaranmış hərbi şəraiti müzakirə edərkən bolşevizmə qarşı mübarizənin daha səmərəli şəkildə aparılması üçün qoşun hissələrinin milliləşdirilməsini məqsədəuyğun saydı. Bununla da əslində Qafqaz ordusunun milli tərkibli birləşmələr zəminində yenidən qurulmasına qərar verildi. Qafqaz cəbhəsinin komissarı Donskoyun imzaladığı əmrdə bu məsələ tam həllini tapdı. Həmin əmrdə deyilirdi: 1) Ordu milli tərkibli nizami vahidlərdən təşkil olunur; 2) Erməni, gürcü, müsəlman, ukraynalı və başqalarından təşkil olunan döyüş hissələrindən başqa dərhal rus korpusu da yaradılsın; 3) Qafqaz ordusunun cəbhəsində xidmət etmək istəməyən əsgər və zabitlər müvafiq təyinat üçün öz məhəlli hərbi rəislərinin sərəncamına göndəriləcəklər.

Azərbaycanın milli qoşun hissələri mürəkkəb şəraitdə formalaşırdı və əslində bu mürəkkəb formalaşma prosesi bolşevizmə qarşı mübarizə ilə paralel olaraq aparılırdı. Ancaq getdikcə daha geniş baza əldə edən Müsavat partiyası fəallarının və milli əhval-ruhiyyəli digər vətənpərvərlərin mübariz iradəsi və qətiyyəti bütün qüvvələri ortaya çıxan çətinliklərin aradan qaldırılmasına səfərbər edirdi. Milli qoşun hissələrinin yaradılması mövcud olan azsaylı milli hərbçilər tərəfinfən də müdafiə olunurdu. Belə hərbçilərin Bakıda, Lənkəranda, Tiflisdə keçirilən yığıncaqlarında milli qoşun hissələrinin təşkilinin zəruriliyi vurğulanırdı.

Müsəlman korpusunun yaradılması barədə qətnamə Cənubi Qafqaz Komissarlığı tərəfindən 1917-ci il dekabr ayının 11-də qəbul edilmişdi. Cənubi Qafqaz Komissarlığının sədri Geceçkori tərədindən imzalanmış həmin qətnamədə deyilirdi:

1.Zaqafqaziya müsəlmanlarının əsgərliyə alınması könüllü surətdə olmalıdır;

2.Müsəlman əsgərlərinin toplanması Mərkəzi Cənubi Qafqaz Müsəlman komitəsinə tapşırılmalı, məzkur komitə kifayət qədər də silah daşımağa müstəid adamlar verməlidir;

3.Toplanmış könüllülər müayinəyi-tibbiyyədən sonra əsgəri hissələrə təslim edilməlidirlər;

4.Əsgəri hissələrə təqdim edilmiş müsəlman əsgərləri xidmətini yerinə yetirməkdən ötrü ümumi qayda və əsas üzrə əsgərlər sinfində qalmalıdırlar;

5.Komandanlar, ərkani-hərb məmurları və ümumiyyətlə bütün zabitlər Cənubi Qafqaz yerli müsəlmanlarından olmalıdır. Bunlar kifayət etmədikdə başqa millətlər də üzv ola bilərlər;

6.Qolordunun təşkili və hissələrinin təhdidi barədə bütün məxaric ümumi əsas və qayda mucibincə Rusiya Cümhuriyyətinin sair əsgəri hissələrində olduğu kimi dövlət xəzinəsi öhdəsinə qoşmalıdır;

7.Bu qolordu təşkil olunduqdan sonra Cənubi Qafqaz müsəlmanlarının soldat pulu (əsgəri naloq) verməkdən azad edildikləri həqqində bir əmrnamə verilməlidir.

Korpusları təşkil edən hissələrin formalaşdırılması isə bir qədər əvvəldən, yəni artıq noyabr ayından başlanmışdı. Doğrudur, gürcü və erməni silahlı qurumları başqa formada əvvəldən mövcud idi və milli qoşun hissələrinin təşkili Cənubi Qafqaz Komissarlığı tərəfindən rəsmiləşdiriləndə onlar yeni strukturlarda dərhal öz yerlərini tutdular.

Milli qoşun hissələrinin arasında əlaqə və münasibətləri nizamlamaq üçün millətlərin Hərbi Şurası təşkil edildi. Bu Şuraya yalnız azərbaycanlıların, gürcülərin və ermənilərin nümayəndələri daxil idilər. Bundan başqa 1917-ci ilin sonlarında Tiflisdə Qafqaz Müsəlmanlarının Hərbi Şurası adlı bir qurum da mövcud idi. Həmin qurum heç şübhəsiz ki, müsəlman hissələrinin təşkilinə, təminat və təchizatına qayğı göstərməli idi.

Müsəlman korpusunun komandiri vəzifəsinə isə general-leytenant Əliağa Şıxlinski təyin edildi. Çar ordusu tərkibində şərəfli zabit yolu keçmiş olan Ə.Şıxlinski 1917-ci ilin noyabrında bolşevikləşməkdə olan ordudan istefaya çıxmağı üstün tutdu və elə həmin il dekabr ayının 2-də onun xidmətdən azad edilib ehtiyata keçməsi barədə əmr imzalandı. O dərhal da Qafqaza qayıtdı və burada qaynar ictimai proseslərin burulğanına düşdü. Belə bir təcrübəli və nüfuzlu general Müsəlman korpusunun komandiri təyin olundu və milli qoşun hissələrinin formalaşdırılması ona tapşırıldı. Sovet rejiminin ən kəskin illərində yazdığı xatirələrində Ə.Şıxlinski Tiflisə qayıtması, Müsəlman Korpusuna komandir təyin edilməsi və milli qoşun hissələrinin vəziyyəti barədə çox ehtiyatla və çox ötəri qeydlər etmişdi. Ancaq Müsəlman Korpusunun mövcud olan kəsad arxivindən məlum olur ki, Ə.Şıxlinski milli qoşun hissələrinin yaradılmasını ürəkdən alqışlamış, ona tapşırılan çox şətin vəzifənin öhdəsindən gəlmək üçün yüksək milli vətənpərvərlik keyfiyyətləri nümayiş etdirmiş, bu yolda özünün təcrübə və bacarığını istifadə etmişdir. Öz xatirələrində general Ə.Şıxlinski yazırdı:

> ...sonra Azərbaycan (müsəlman-M.S.) korpusu təşkil etmək qərara alındı. Bu korpusa komanda etməyi mənə təklif etdilər. Mən xəstə olduğuma və müalicəyə gəldiyimə əsaslanaraq boyun qaçırdım. Buna baxmayaraq mənim orada olmadığım günlərdə Mmüsəlman Korpusu təşkil etmək və başqa bir adam təyin olunana qədər bu korpusa mənim müvəqqəti komandirlik etməyim haqqında əmr vermişdilər. Bu zaman mən Yelizavetpola getmişdim. Tiflisə qayıtdıqda müvəqqəti olaraq mənə korpus komandanlığı həvalə olunduğu barədə əmr oxudum... Dekabrın 31-də mən öz qərargahımın ilk heyəti ilə Gəncəyə getdim ki, orada hissələrin təşkil edilməsilə məşğul oldum.

Azərbaycan milli qoşun hissələrinin yaradılmasına başlanması barədə 7 yanvar 1918-ci il tarixli nömrəsində "Açıq söz" qəzeti belə yazırdı:

> Yanvarın üçündə Mərkəzi Müsəlman Zaqafqaziya Komitəsinin üzvü, Mərkəzi Komitə sədri Fətəli xan Xosyki müsəlman əsgəri dəstələri təşkili haqqında məruzədə bulunmuşdur. Məruzədən anlaşıldığına görə, 1917-ci il dekabrın 11-də Zaqafqaziya Komissarlığının Qazafqaziya müsəlmanlarının nizami ordu təşkil etməsi qətnaməsi çıxmışdır. Nizami ordu üçün lazımi qədər könüllü cəm edilməsi işi Qafqaziya Mərkəzi Müsəlman Komitəsinə həvalə edilmişdi. Nizami ordu təşkil edildikdən sonra müsəlmanlardan alınan əsgəri verginin ləğv edilməsi haqqında Zaqafqaziya Komissarlığı tərəfindən dekret veriləcəkdir. Zaqafqaziya Komissarlığının bu qətnaməsinə binaən dekabrın 19-da beşinci və yeddinci Qafqaziya nişançı firqələrindən ibarət olan 6-cı ordu korpusunun Müsəlman nizami ordusuna əvəz edilməsi haqqında Qafqaziya cəbhəsi qoşunlarının baş komandanı tərəfindən əmrnamə verilmişdir. Həmin əsgər dəstələrini milliləşdirmək işlərinin nəzarəti general Əliağa Şıxlinskiyə həvalə edilmişdir. General Şıxlinski öz vəzifəsinin icrasına başlamışdır.

1917-ci ilin sonu, 1918-ci ilin əvvəllərində Müsəlman Korpusunun qərargahı Tiflisdə yerləşirdi, bütün təşkilati işlərə rəhbərlik də buradan edilirdi. Korpusun ştatı rus ordusunun ştatlarına uyğun olaraq təşkil eidlmişdi. Bu günə gəlib çıxmış arxiv sənədlərinin araşdırılması göstərir ki, Müsəlman Korpusunun qərargahında aşağıdakı strukturlar var idi: Ümumi qərargah, korpus ləvazimat rəisinin xidməti, korpusun topçu müfəttişinin xidməti, korpusun istehkam rəisinin xidməti, ober-kvartirmeyster xidməti, növbətçi zabitin şöbəsi, korpusun tibb xidməti və baytar həkiminin xidməti.

Bu strukturların tərkibi həddən artıq yığcam idi və bu yığcamlıq onların çevik

fəaliyyətinə imkan yaradırdı. Doğrudur, qərargahların bu yığcamlığı qoşun hissələrinin formalaşdırılmasında, təlim və tərbiyənin təşkilində çevik və operativ hərəkət etməyə imkan verirdi. Bununla belə, mövcud olan obyektiv çətinliklər Müsəlman Korpusunun formalaşmasını xeyli mürəkkəbləşdirirdi. Bu çətinliklərdən biri korpusun təchizat məsələsi idi. Özü də bu problemin elə bir sahəsi yox idi ki, orada vəziyyət azacıq da olsa yaxşı olsun. Korpus komandiri Ə.Şıxlinski sonralar haqlı olaraq belə yazırdı – Bizim əlimizdə silah, cəbbəxana, ərzaq ehtiyatı, paltar və ayaqqabı yox idi. Korpusun rəhbərliyi qoşun hissələrinin formalaşdırılması ilə bir vaxtda bu böyük problemin həllinə də nail olmalı idi. Sözsüz ki, müsəlman milli şuraları da həmin istiqamətdə öz köməklərini əsirgəmirdilər. Məsələn, hələ Ə.Şıxlinski korpus komandiri təyin edilməzdən əvvəl Tiflis Müsəlman şurası milli qoşun hissələrinin təşkili üçün müəyyən qədər zəruri əşyalar toplamış və sonra onları korpus komandanlığına təhvil vermişdi. Müsəlman ictimai təşkilatlarının fəalları imkan daxilində bazardan da silah, sursat və digər əşyaları alaraq qoşun hissələrinə verirdilər.

Müsəlman milli qoşun hissələrinii təşkilində qarşıya çıxan başlıca çətinliklərdən biri kadr və səfərbərlik məsələsi idi. Xüsusən azərbaycanlı zabitlərin olmaması vəziyyəti xeyli çətinləşdirirdi. Korpusun komandiri Ə.Şıxlinski bunu çıxılmaz bir vəziyyət kimi qiymətləndirirdi:

> İş çox çətin idi. Deyə bilərəm ki, hətta çıxılmaz idi. Çünki Azərbaycan dilini bilən kifayət qədər zabit yox idi. Əsgərlər isə rus dilini əsla başa düşmürdülər. Bizim köhnə xidmət görmüş bir nəfər də olsun kiçik zabitimiz və əsgərimiz yox idi ki, yeni gələnlər bunları özlərinə nümunə götürsünlər.

Ona görə də qoşun hissələrinin zabit kadrlarla komplektləşdirilməsi üçün müxtəlif vasitələrə əl atılırdı. Milli qoşun hissələri üçün zabit kadrlarının ilk mənbəyi Qafqaz cəbhəsində xidmət edən azərbaycanlı və digər müsəlman zabitlər idilər. Bu zabitlər sayca elə də çox deyildilər. Ancaq korpuusn komandanlığı bu kadrların sadiqliyini nəzərə alaraq onlardan səmərəli istifadə etməyə, komanda vəzifələrində yerləşdirməyə çalışırdı.

Mövcud olan məlumatlara görə, Müsəlman Korpusunda türk zabitləri də xidmət edirdilər. Lakin onlar elə də çox deyildilər. Müsəlman Korpusunun zabitlərinin böyük əksəriyyətini ruslar təşkil edirdilər. Onların sayı korpusun zabitlərinin ümumi sayının 65 faizinə çatırdı. Korpusda gürcü zabitləri olsa da təşkilati işlərin əsas hissəsi rus zabitlərinin üzərinə düşürdü. Korpusa rus zabitlərinin cəlb edilməsi həm könüllülük əsasında, həm də komanda üzrə aparılırdı. Qafqaz cəbhəsində ləğv edilən qoşun hissələrinin zabitləri istədikləri halda Qafqaz cəbhəsi qoşunları komandanının əmri ilə Müsəlman Korpusuna təyin edilirdilər. Müsəlman Korpusunda xidmət bütün zabitlər üçün əvvəlki xidmətin davamı sayılırdı və bundan irəli gələn bütün hüquqlar qorunurdu. Zabitlərin xidməti çar Rusiyası dövründə qəbul edilmiş müvafiq sənədlər və qərarlar əsasında nizamlanırdı. Müsəlman Korpusu Cənubi Qafqaz Komissarlığına tabe olan Qafqaz cəbhəsi qoşunlarının tərkib hissəsi sayıldığı üçün onun zabitlərinin rütbələrinin artırılması da Cənubi Qafqaz Komissarlığı hökumətinin qərarı ilə həyata keçirilirdi. Məsələn, podpolkovnik Qaytabaşı polkovnik rütbəsini Cənubi Qafqaz hökumətinin 246 nömrəli 18 mart 1918-ci il tarixli qərarı ilə almışdı. Cənubi Qafqaz hökumətinin qərarı ilə Müsəlman Korpusunun zabitləri arasında general rütbəsi alan da var idi. Bu, Müsəlman Korpusunun qərargah rəisi Mençukov idi. Ona general rütbəsi 1918-ci ilin mart ayında verilmişdi. Müsəlman Korpusunun sıralarında bir neçə general xidmət edirdi: general-leytenant Ə.Şıxlinski və general-mayor Mençukovdan başqa onların

arasında general-mayor Xəlil bəy Talışınski, general-mayor İbrahim ağa Usubov da var idi.
Müsəlman korpusunda azərbaycanlı zabitlərin sayının artırılması məsələsi həm müsəlman ictimai təşkilatlarının fəallarını, həm də korpusun komandanlığını ciddi narahat edirdi. Onun qismən həll edilməsi üçün Müsəlman Korpusunun komandanlığı tərəfindən Bakıda Milli hərbiyyə məktəbinin açılmasına cəhd göstərildi. Korpusun komandiri Ə.Şıxlinski və qərargah rəisi polkovnik Mençukov 1918-ci il fevral ayının 6-da Qafqaz cəbhəsi qoşunlarının baş komandanına göndərdikləri raportda kiçik milli zabitlərin çatışmaması ilə əlaqədar Bakıda 1-ci Müsəlman piyada diviziyası nəzdində Milli hərbiyyə məktəbinin açılmasına razılıq verilməsini xahiş etdilər. Raportda qaldırılan məsələnin mahiyyəti üzrə Qafqaz cəbhəsi qoşunlarının baş komandanlığından razılıq alındı. Ancaq təşkilati məsələlərin uzanması və bölgədə baş verən hərbi-siyasi proseslər nəticəsində Milli hərbiyyə məktəbinin fəaliyyətə başlaması bir müddət ləngiməli oldu.
Məktəbdə 18 yaşından aşağı və 25 yaşından yuxarı olmayan müsəlmanlar, çatışmadıqda isə Cənubi Qafqaz rusları təhsil ala bilərdilər. Məktəbdə oxumaq istəyənlərin ilkin savadı dörd illik və ya ona bərabər tutulan təhsil səviyyəsində olmalı idi.
Milli hərbiyyə məktəbi 100 nəfər yunker üçün nəzərdə tutulmuşdu və qərara alınmışdı ki, onun təşkilati işləri Tiflisdə aparılsın və sonra Bakıya köçürülsün. 1918-ci il mart ayının 1-də poruçik Nəsirbəyov Milli hərbiyyə məktəbinin (rusca olan arxiv sənədlərində bu məktəb – Мусульманская школа подпрапорщиков - adlanır) rəisi təyin edildi və elə həmin gün də məktəbin dəftərxanası fəaliyyətə başladı.
Çox güman ki, məktəbin rəisi və dəftərxanası məktəbin daimi heyətini, müəllimlərini, kurs rəhbərlərini topladıqdan və tədris hazırlığını görüb qurtardıqdan sonra Bakıya köçməli və burada dəslərə başlamalı idi. Ancaq Bakıda 1918-ci ilin mart hadsələrindən sonra Milli hərbiyyə məktəbinin orada fəaliyyət göstərməsi üçün heç bir şərait qalmadı və onda qərara alındı ki, bu məktəb Yelizavetpolda yerləşdirilsin. Korpus komandirinin əmrinə müvafiq olaraq məktəbin daimi tərkibi dəftərxanası ilə birlikdə 1918-ci il aprel ayının 2-də Yelizavetpola gəlib dəmir yolu məktəbinin binasında yerləşdi. Aprel ayının 9-da isə məktəb şəhərə köçdü və Yelizavetpol Sənət məktəbinin binasında qərar tutdu.
Bakıda 1918-ci il mart hadisələrinin nəticələri artıq fəaliyyətə başlamış ilk müsəlman Milli hərbiyyə məktəbinin müvəqqəti bağlanmasına gətirib çıxardı. Onun fəaliyyətinin bərpa olunması üçün münasib şərait bir Qafqaz İslam Ordusunun yaradılmasından sonra mümkün oldu.
Müsəlman korpusunun az-çox formalaşdırılması üçün general Ə.Şıxlinski bu korpusun sıralarına dəvət edilmiş zabitlərin xidmətinin təşkilinə də ciddi yanaşırdı. Çətin şəraitdə öhdəsinə düşən borcları sədaqətlə yerinə yetirənləri korpusun komandanlığı mükafatlandırır və həvəsləndirir, tapşırılan işə biganəlik və laqeydlik nümayiş etdirənlərə qarşı isə tələbkarlıq azaldılmırdı. Korpus komandiri general-leytenant Ə.Şıxlinskinin əmrlərində xidməti vəzifəsinin öhdəsindən gələnlərə təşəkkür elan edilməsinə təkrar-təkrar rast gəlmək mümkündür. 1918-ci il mart ayının 5-də imzaladığı 49 nömrəli əmrində general-leytenant Ə.Şıxlinski Lənkəranda yerləşən süvari divizionunun komandanlığının və zabitlərinin yorulmaz fəaliyyətini böyük bir sevinclə qeyd edirdi. Həmin əmrdə deyilirdi:

> Qısa müddət ərzində divizion komandiri vəzifəsini icra edən ştabs-rotmistr Məlikbəyov, kornet Əsədullayev və digər zabitlər tərəfindən formalaşdırılan Müsəlman süvari divizionu indiki dövrün çətin bir vaxtında mənim və digər

rəhbər şəxslərin köməyi olmadan uzun zaman müstəqil fəayiyyət göstərməli olmuşdur. Buna baxmayaraq, divizion təşkil olunmuş, təlim almış, intizamlanmış və artıq Lənkəran qəzasının dinc əhalisini talanedici hücumlardan və anarxiyadan qorumaq üçün uğurlu işlər görmüşdür. Millət və Vətən naminə göstərilən bu yorulmaz fəaliyyətə görə xidmət adından divizion komandiri vəzifəsinin icraçısı ştabs-rotmistr Məlikbəyova, divizionun təşkilinin təşəbbüskarı kornet Əsədullayevə və divizionun bütün zabitlərinə səmimi təşəkkürümü bildirirəm. Əsgərlərə və muzdlulara səmimi sağ olumu çatdırıram. Əminəm ki, divizion gələcəkdə də tərkibinə daxil olduğu alayın döyüş şöhrətini qoruyacaqdır.

Korpus rəhbərliyi xidmətin tələblərinə müəyyən laqeydlik göstərən, nizam və intizama riayət etməyən zabitlərin isə bütünlükdə xidmətdən qovulmasını lazım bilirdi. 2-ci süvari alayının tərkibinə verilmiş Müsəlman süvari divizionunun zabitlərinə 1918-ciil mart ayının əvvəllərində korpus komandiri səmimi təşəkkür etmişdisə, təxminən 20 gün sonra, mart ayının 22-də imzaladığı 73 nömrəli əmrində bu diviziondakı bir sıra kiçik zabitlərin özlərini nalayiq aparmasından, divizion komandanlığının əmrlərini yerinə yetirməməsindən ciddi narahat olduğunu bildirirdi. Əmrin 5-ci paraqrafında deylirdi:

Müsəlman süvari divizionu ( hazırda 2-ci süvari alayının 2-ci divizionu) üzrə əmrlərdən anlayıram ki, kiçik zabitlərin bəziləri öz xidməti vəzifələrinə kifayət qədər diqqətlə yanaşmırlar. Son zamanlar bölüklərdə müşahidə olunan özbaşınalıq bunun nəticəsidir. Divizion komandiri vəzifəsinin icraçısı tərəfindən intizam cəzalarına qədər qəbul olunmuş tədbirlərə baxmayaraq, zabitlər tərəfindən xidmətə laqeyd münasibət davam edir. 2-ci süvari alayının komandirinə əmr edirəm ki, divizionun bəzi zabitlərinin bu dözülməz hərəkətlərinə ciddi diqqət yetirsin. Unter-zabit kadrları olmayan gənc orduda qanun-qayda təmin edilməsi tamamilə zabitlərin üzərinə düşür. Yaşadığımız çətin vaxtda isə onların işi ikiqat artmalıdır. İşi bacarmayan, xüsusilə işləmək istəməyənlər bizə lazım deyildir. İndiki zamanda qoşunlarda zabit işinin əhəmiyyətini və müqəddəsliyini başa düşməyən şəxslərlə qərargahları doldurmaqdansa, daha yaxşı olar ki, az saylı zabitlərə malik olaq. Xidmətlə maskalananlar korpusdan uzaqlaşdırlmaq üçün təqdim edilsinlər.

Çətin dövrün xüsusiyyətləri, orduların  dağıdılıb yaradılması, hökumətlərin bir-birini əvəz etməsi əqidəcə möhkəm olmayan bir sıra zabitlərə öz təsirini göstərirdi. Belə zabitlər xidməti vəzifələrinin icrasına laqeyd yanaşdıqları kimi, qoşun əmlakının qorunmasına da laqeyd yanaşır və bu əmlakı mənimsəməyə çalışırdılar. General-leytenant Ə.Şıxlinski xidmətin tələblərinə əməl etməyən bütün zabitləri boyunlarına düşən vəzifələrin lazımlılığını başa düşməyə, öz xidmətləri ilə əsgərlərə nümunə olmağa çağırırdı.

Müsəlman Korpusu komandanlığının diqqət mərkəzində dayanan əsaslı məsələlərdən biri də qoşun hissələrinə çağırışın təşkili idi. Təxminən bir əsr boyu məqsədyönlü şəkildə xidmətdən yadırğadılmış olan və ordu deyəndə təsəvvüründə rus və daşnak orduları canlanan xalq kütlələri heç bir vəchlə övladlarını çağırışa vermək istəmirdilər. Bu ümummilli psixozu sındırmaq, azərbaycanlı gənclərin xidmətə cəlb edilməsini qaydaya salmaq müsəlman milli təşkilatları kimi Müsəlman Korpusunun komandanlığı qarşısında da dayanan ciddi vəzifələrdən biri idi. Korpus komandiri Ə.Şıxlinski sonralar yazdığı xatirələrində real vəziyyəti belə təsvir edirdi:

Tiflis Milli Müsəlman Şurasının topladığı başıpozuqlar gələcək korpusun əsgərləri adlandırılmışdı. Hələ mən gəlməzdən əvvəl Tiflis Şurası gələcək korpus

üçün qəsb etdiyi bəzi ləvazimatın qorunmasını bunlara tapşırmışdı. Əsgər adlanan bu adamlar şeyləri dərhal qarət etmişdilər. ...Orduya çağırış üçün siyahı deyilən şey yox idi. Kənd yerlərində yaşayan azərbaycanlıların çoxunun yaş kağızı yox idi, çünki köhnə hökumət bununla qətiyyən maraqlanmamışdı. Heç olmazsa könüllü yığmağa kömək edə biləcək pristav və qəza rəislərinə heç kəs qulaq asmırdı. Hamı qoşun və köməkl istəyir, lakin heç kəs öz oğul və qardaşını əsəgərliyə vermirdi. Könüllülər xidmət etməkdən artıq qarətlə məşğul olurdular... Korpusa daxil olmaq üçün gənclər tüfəng, güllə, yorğan-döşək alar-almaz gecə bütün şeyləri yığışdırıb evlərinə qaçırdılar, onları tutub yerinə qaytaracaq qüvvə yox idi.

Mövcud şəraitin belə mürəkkəb və çətin olmasına baxmayaraq, müəyyən işlər də görülürdü ki, onlar Ə.Şıxlinski tərəfindən də məmnunluqla qarşılanırdı. Məlumdur ki, Ə.Şıxlinskinin rəhbərliyi altında milli qoşun hissələrinin yaradılmasına başlanması vətənpərvərlik hissləri ilə alışıb yanan gənclərin hədsiz sevincinə və marağına səbəb oldu. Belə gənclər hər vasitə ilə qoşun hissələrinin formalaşdırılmasına kömək etməyə çalışırdılar. Şahidlərin ifadəsinə görə, hətta başqa şəhərlərdə oxuyan azərbaycanlı tələbələr də milli qoşun hissələrinə yazılmaq üçün Bakıya qayıdır və imkanı daxilində özü ilə silah da gətirirdilər .

Bakıda təşkilinə başlanan qoşun bölmələrindən birinin üzvü Mirəziz Seyidli xatirələrində həmin günləri belə təsvir edirdi: "Hacı Zeynalabdin kimi zənginlərdən para toplandı və İsmailiyyənin bir guşəsində könüllü əsgərlərin qeydiyyatına başlandı. İlk həftədə 50-60 könüllü yazıldı" .

Bakıda könüllülərin toplanması işinə süvari zabiti İsgəndərbəyli rəhbərlik edirdi. Qoşun bölməsinə yazılanlar arasında dağıstanlılar da var idi. Bakının Çəmbərəkənd məhəlləsində bir məktəb binasında könüllülər üçün qışla düzəldildi və dərhal da orada təlim işlərinə başlandı. Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmməd də buradakı könüllülər arasında idi. Buradakı qoşun bölməsi bir müddətdən sonra Lənkərana gəldi və öz təchizatını təkmilləşdirmək üçün bu bölmə oradakı bir rus hissəsini tərksilah edə bildi. Nəticədə 200-dən çox tüfəng, çoxlu patron, 11 pulemyot, yük arabaları, bir neçə əsgər mətbəxi və 40-a qədər minik atı ələ keçirildi .

Ə.Şıxlinskinin əmri ilə Müsəlman korpusunun 1-ci diviziyasının qərargahı Bakıda təsis edilməli idi. Amma Bakıda kök salmış olan bolşevik-daşnak qüvvələri hər vasitə ilə 1-ci diviziyanın qərargahının Bakıda möhkəmlənməsinin qarşısını almağa çalışır və bunun üçün müxtəlif təxribatlara əl atırdılar.

Bakıdakı ictimai-siyasi vəziyyətlə ətraflı tanış olduqdan sonra general-leytenant Ə.Şıxlinski korpusun hissəlrinin dislokasiyasında müəyyən dəyişikliklər etməyi qərara aldı. Onun 58 nömrəli 11 mart 1918-ci il tarixli əmrində deyilirdi:

Korpusun hissələrinin formalaşması üçün Bakıda və Qars vilayətində müvəqqəti olaraq yaranmış əlverişsiz şəraitlə və korpusun qərargahının Yelizavetpola köçürülməsinin nəzərdə tutulması ilə əlaqədar olaraq əmr edirəm:

1) 1-ci müsəlman nişançı diviziyasının qərargahı Şamaxı şəhərinə kğçürülsün;
2) 1-ci müsəlman nişançı alayı Şamaxı rayonunda formalaşdırılsın;
3) 2-ci müsəlman nişançı alayı Quba şəhərinə köçsün
4) 1-ci müsəlman nişançı-topçu briqadasının divizionu və rəhbərliyi Yelizavetpola köçsün;
5) 6-cı müsəlman nişançı alayı İrəvan quberniyasında təşkil edilsin. Bunun üçün alayın qərargahı Naxçıvan şəhərinə köçürülsün və Ordubadda təşkil edilmiş

dəstəni alayın tərkibinə qəbul etsin;

6) 7-ci müsəlman nişançı alayı Nuxa şəhərinə köçsün. Qars vilayətində bu alay üçün yaradılan komanda isə qərargahı Abbastumanda olan 8-ci müsəlman nişançı alayının tərkibinə verilsin
7) 2-ci müsəlman nişançı-topçu briqadasının 2-ci divizionu Naxçıvanda yaradılsın;
8) müsəlman süvari topçu batareyası Lənkəranda yaradılsın;
9) 2-ci süvari alayın qərargahı Ağdama köçürülsün;
10) müsəlman istehkam taboru Tiflisdə deyil Yelizavetpolda yaradılsın;
11) müvəqqəti Milli hərbiyyə məktəbi Bakıda deyil, Yelizavetpolda açılsın;
12) korpusun digər hissələri əvvəlcə müəyyənləşdirilən yerlərdə təşkil edilsin

1918-ci ilin martında Bakıda törədilən milli qırğınlardan sonra Müsəlman korpusunun hissələrinin formalaşdırılması ciddi böhranla üzbəüz qaldı və Müsəlman korpusunun real vəziyyəti milli mücadilə fəallarını xalqın başı üzərində günü-gündən güclənməkdə olan təhlükənin qarşısının alınması üçün təcili tədbirlərin görülməsinə və bunun üçün Türkiyədən hərbi yardım istənilməsinə sövq etdi. Çünki aydın idi ki, Müsəlman korpusunun azsaylı hissə və bölmələri ilə kifayət qədər yaxşı silahlanmış bolşevik və daşnak hərbi qüvvələrinin qarşısını almaq mümkün deyildi.

Azərbaycan xalqını təhdid edən faciələrin qarşısının alınmasının təşkili üçün Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətinin tərkibində Hərbi Nazirlik də yaradıldı. Yeni yaradılmış Nazirliyin qarşısında çox mürəkkəb və mühüm vəzifələr dayanırdı. Həmin vəzifələrin mühümlüyü tarixi şərait və zərurətlə bağlı idisə, mürəkkəbliyi müstəqil dövlətin hərbi strukturlarının yaradılması işində təcrübənin olmaması, vəsait və imkanların məhdudluğundan irəli gəlirdi. Müstəqilliyin elan edilməsi ilə Gürcüstan dövləti Azərbaycan ərazisində olan qoşun bölmələrini geri çağırmış, hissələrin Cənubi Qafqaz hökumətinin mərkəzi kimi Tiflisdən həyata keçirilən təchizatı dayandırılmışdı . Ona görə də, Müsəlman Korpusunun formalaşdırılmasının davam etdirilməsi bütünlüklə yeni hökumətin üzərinə düşdü.

Bu proses nə qədər ağır olsa belə Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi və ordu yaradılmasının yeni keyfiyyətdə davam etdiriləcəyi Azərbaycan milli hərbçiləri tərəfindən sevinclə qarşılandı. Müsəlman korpusunun komandiri, general-leytenant Ə.Şıxlinski 1918-ci il may ayının 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən dərhal sonra yeni dövlətin Hərbi Nazirliyinin təşkil edilməsinin layihəsini hazırladı. O bu layihəyə lazımi sxemlər, zəruri qeydlər əlavə etmiş və bitkin bir sənəd kimi hökumətə göndərmişdi .

Ə.Şıxlinskiyə görə, Hərbi nazirliyin strukturu ordunun təşkili, təlim və tərbiyəsi, təchizatı üçün zəruri olan bütün komponentləri özündə birləşdirməli idi. Bu prinsipi əsas götürərək general hazırladığı layihədə Nazirliyin strukturunda 1) Dəftərxana, 2) Ərkani-hərb (Baş Qərargah), 3) Ləvazimat idarəsi, 4) Topçu idarəsi, 5) Hərbi-texniki idarə, 6) Məhkəmə və 7) Tibb xidməti nəzərdə tutulmuşdu. Bundan əlavə güman edilirdi ki, hərbi nazir vəzifəsinə mülki şəxs təyin edilərsə o öz yanında az saylı, lakin bacarıqlı şəxslərdən ibarət Hərbi Şura təşkil etməli və qoşunların təşkilini, təlim və tərbiyəsini daim nəzarət altında saxlamaq üçün öz müavinini təyin etməlidir.

Layihəni hazırlamaqla bərabər, general Ə.Şıxlinski göstərilən vəzifələrə kimlərin təyin edilə bilməsini də dəqiqləşdirmiş və həmin şəxslərin razılığını almışdı. O, Naziliyin Dəftərxanasının təşkilinə xüsusi diqqət yetirir  və bu işi təşkil etmək üçün Rusiya Hərbi Nazirliyində uzun müddət çalışmış Genşelmanın dəvət edilməsini məsləhət bilmişdi.

Ordunun idarəetmə orqanlarının çevikliyinə, vəsaitlərin istifadə edilməsində qənaətçilliyə nail olmaq üçün Ə. Şıxlinski Müsəlman korpusunun qərargah və idarələrinin şəxsi heyətinin ixtisar edilməsini və azad olmuş zabitlərin Hərbi Nazirliyin aparatının təşkilində istifadə edilməsini lazım bilirdi. O, döyüş keyfiyyətləri ilə seçilən yapon ordusunu nümunə gətirərək göstərirdi ki, bu orduda heç vaxt korpus sistemindən istifadə olunmayıb. Ona görə Azərbaycanda da korpusun saxlanılmasına ehtiyac yoxdur və diviziyaları birbaşa hərbi nazirə, ya da onun köməkçisinə tabe etmək lazımdır. Zabit kadrlarının çatmadığı üçün Ə.Şıxlinski yeni Nazirliyin idarə və şöbələrinin ştatını da mövcud imkanlara uyğun olaraq qurmağı məsləhət görürdü (87).

Bütün bu deyilənlər Hərbi Nazirliyin yaradılması üçün Ə.Şıxlinskinin hazırladığı birinci layihənin əsasını təşkil edirdi. Bundan başqa general ikinci bir layihə də hazırlamışdı. Həmin layihəyə görə, Müsəlman korpusunun komandiri hərbi nazirin müavini təyin edilməli və hərbi məsələlərlə bağlı hökumət orqanlarında aparılan bütün müzakirələrdə nazirlə birlikdə iştirak edərək həlledici səsə malik olmalı idi. Yəni, hərbi nazirin mülki şəxs olması ilə bağlı sırf hərbi xarakterli məsələlərin müzakirəsinin və icrasının ağırlıq mərkəzi əsasən korpusun komandanlığı üzərinə keçirilməli idi. Bununla bağlı olaraq bəzi hərbi vəzifələrin, o cümlədən çağırış və səfərbərlik, təchizat məsələlərini öz üzərinə götürəcək ştatların Hərbi Nazirliyin aparatında deyil, korpusun qərargahında açılması təklif olunurdu (88).

Ancaq Ə.Şıxlinski birinci layihəyə daha çox üstünlük verirdi. Bu layihənin tətbiq edilməsi böyük qıtlığı hiss olunan zabitlərin, çin dərəcəsi olan məmurların səmərəli istifadəsinə, maliyyə vəsaitlərinin qənaətlə işlədilməsinə, aralıq idarəetmə orqanlarının ləğvinə və bununla da bütünlükdə idarəetmənin çevik xarakter almasına yol aça bilərdi.

Amma məlumdur ki, general Ə.Şıxlinskinin hökumətə təqdim etdiyi layihələrin hər ikisi həyata keçməmiş qaldı. Azərbaycan hökuməti mövcud mürəkkəb tarixi şəraitdə türk qoşun hissələrinin yardım üçün Azərbaycana dəvət edilməsini və Azərbaycandakı hərbi qüvvələrə rəhbərliyi də Qafqaz İslam Ordusunun komandanı Nuru paşaya həvalə edilməsini lazım bildi.

1918-ci il may ayının 25-də Nuru paşa Gəncəyə daxil olanda Ə.Şıxlinski onun qarşılayanlar arasında idi və heç şübhəsiz ki, onların ilk görüşü də elə həmin gün baş verdi. İlk gündən də Nuru paşa Ə.Şıxlinskinin təcrübəsinə və şəxsiyyətinə böyük ehtiramla yanaşdı. Nuru paşa tərəfindən Ə.Şıxlinskinin şəxsiyyətinə və biliyinə olan ehtiramın nəticəsi idi ki, Qafqaz İslam Ordusunun mövcudluğunun ilkin mərhələsində Azərbaycana gəlmiş türk qoşun hissələri də struktur baxımından Ə.Şıxlinskiyə tabe etdirilmişdi.

Azərbaycan korpusunun komandiri, general-leytenant Ə.Şıxlinskinin 27 iyun 1918-ci il tarixli 189 nömrəli əmrində bu məsələ ilə bağlı maraqlı faktlar mövcuddur. Əmrdə deyilirdi:

> 1.Osmanlı hökuməti ilə Azərbaycan Cümhuriyyəti hökuməti arasında müqavilənin 4-cü maddəsinə uyğun olaraq Azərbaycan tərəfindən ölkədə anarxiyanın yatırılması, Bakı şəhərini və Bakı quberniyasının bir hissəsini tutmuş bolşeviklərlə mübarizə üçün Türkiyə Silahlı Qüvvələri dəvət edilmişdir. Hazırda Qafqaz İslam Ordusu komandanı general-adyunkt, general-leytenant Nuru paşanın rəhbərliyi altında bu qüvvələr Azərbaycana gəlmişdir.
>
> Hökumət qərara almışdır ki, Azərbaycan Cümhuriyyəti ordusunun təşkilini və Azərbaycan daxilində fəliyyət göstərən bütün qüvvələrin birləşdirilməsini öz üzərinə götürməsini Nuru paşa həzrətlərindən xahiş etsin.

2. 5-ci türk diviziyası 3-cü atıcı diviziya adı ilə tabeliyimdə olan korpusun tərkibinə daxil edilmişdir;

3.Qafqaz İslam Ordusunun komandanlığının əmri ilə aşağıdakılar birbaşa mənə tabe etdirilmişlər;

1)Bu Ordunun baş təbibi

2) Azərbaycan dəmir yolu ilə qoşunların daşınması rəisi

3)Yelizavetpol məhəlli komendantı

4.Baş təbib qayməqam İbrahim Haki bəyə həvalə edirəm;

1)Xəstələrin və yaralıların təliyyəsi səlahiyyətini

2)Korpusun hissələrinin sanitar vəziyyətinə nəzarət

Səhiyyə sahəsinə aid olan ehtiyaclar barədə bütün məlumatlar, habelə xəstələrin və yaralıların qəbulu və xaric edilməsi barədə gündəlik cədvəllər diviziyadan korpus həkiminə və baş təbibə təqdim olunmalı, o isə mənə məruzə etməlidir;

115 saylı sanitar qatarını baş təbibin tabeliyinə verirəm;

Xəstələrin və yaralıların daşınması və yerləşdirilməsi üçün aşağıdakı tədbirlər qəbul edilsin:

1) Döyüş əməliyyatları rayonundakı xəstələr və yaralılar Ucat stansiyasına daşınsın;
2) Baş təbibin göstərişi ilə bu stansiyada 100 nəfərlik lazaret açılsın;
3) Yelizavetpol stansiyasında doktor Rəfibəyovun nəzarəti altında şəhərdəki 200 nəfəlik lazaretdən başqa 300 nəfərlik bir lazaret də açılsın.

5-ci Qafqaz firqəsinin Azərbaycan korpusuna tabe etdirilməsini bu firqənin ərkani-hərb rəisi Rüşdü bəy də təsdiq edirdi. Firqədən gündəlik raportlar həm Qafqaz İslam Ordusu komandanlığına, həm də Azərbaycan korpusunun komandanlığına göndərilirdi.

5-ci Qafqaz firqəsi 3-cü diviziya adı altında Azərbaycan korpusuna tabe etdirilsə də Azərbaycan korpusunun əvvəlki quruluşunun uzun müddət saxlanıldığını iddia etmək mümkün deyildir. Mövcud olan sənədlərdə Qafqaz İslam Ordusunun mövcudluğunun ilk aylarında Azərbaycan korpusunda olan piyada diviziyalarının, topçu briqadalarının, süvari diviziyasının adlarına rast gəlinmir. Çox güman ki, bu vahidlər ləğv edilmişdi. Çünki məlumdur ki, Azərbaycan diviziyaları da sonradan yenidən quruldu. Milli hissə və bölmələr isə türk hissə və birlikləri arasında əridilmişdi. Azərbaycanın istiqlal mübarizəsinin tarixi barədə sanballı araşdırmanın müəllifi olan Hüseyn Baykara da bu faktı təsdiq edir:

Mürtəcü mollalar və hacıların İslam Ordusu ətrafında fırlanaraq xaincəsinə nəsihət verməsləri də orduya öz təsirini göstərmişdi. İslam Ordusu daxilində müstəqil komanda və quruluşa malik olan Azərbaycan birlikləri 5-ci və 15-ci firqələr arasında bölüşdürülmüşdü.

1918-ci il iyun ayının sonlarına aid olan döyüş raportlarında Azərbaycanın milli bölmələrinin Müsülü dəstəsinin tərkibində olduğu bildirilir. 5-ci Qafqaz firqəsinin əməliyyat tabeliyinə verilmiş olan bu dəstədə aşağıdakı bölmələr var idi: dəstənin qərargahı, dəstənin bir bölüyü, 1-ci süvari alayının 1-ci və 2-ci bölükləri, 2-ci süvari alayının 1-ci bölüyü, Qarayazı atlı piyada bölüyü, dəstənin pulemyot bölüyü, zirehli qatar, dəstə teleqraf taqımı, Göyçay milli əsgər bölüyü.

1918-ci il avqust ayının 13-də Nuru paşanın əmri ilə Azərbaycan korpusunun ləğv olunması ilə bu korpusun tabeliyində olan bütün hissələr bir başa İslam Ordusu komandnlığına tabe etdirildi.

Azərbaycan korpusunun ləğv olunmuş piyada hissələrinin yerinə tamamilə yeni milli hissələr yaradılmasına başlandı. Bu hissələrin başında türk zabitləri dayanırdı. Nuru paşanın Azərbaycan korpusu komandirinə 2 avqust tarixli məktubunda hazırda təşkil olunmaqda olan 1-ci Qazax, 2-ci Qarabağ, 3-cü Zaqatala piyada alaylarınınn adları çəkilir.

1918-ci il avqust ayının 2-nə aid olan və Nuru paşa tərəfindən imzalanan başqa bir sənəddə isə belə yazılmışdı:

1.Azərbaycan daxilində indi təşkilati-əsgəriyyə Ordu (Qafqaz İslam Ordusu – M.S.) tərəfindən yapılacaqdır;

2.İkifirqəli bir qolordu təşkil olunacaq, nizami hərbi hissələr əvvəla ordu əmrində olmaq üzrə müxtəlif məntəqələrdə alaylar təşkil olunacaq və biləxirə bunlar birləşdirilib firqə və qolordu meydana gələcək

Elə bu əmrdə də təşkil olunmuş alayların adları və yerləşdikləri məntəqələrin adları çəkilir: 1-ci alay - Qazax, 2-ci alay - Qarabağ, 3-cü alay – Zaqatala, 4-cü alay – Ağdaş

İslam Ordusu komandanlığının yazışmalarından aydın olur ki, 1918-ci il avqust ayının ortalarına kimi Azərbaycanda dörd süvari alayı da mövcud idi. Bu alaylar iki bölükdən ibarət idi. Piyada alayının tərkibi isə 3 tabordan, pulemyot bölüyündən, depo bölüyündən, istehkam bölüyündən və digər bölmələrdən ibarət idi.

Ola bilsin ki, Azərbaycan korpusu hissələrinin təşkii gedişi Qafqaz İslam Ordusu komandanlığını lazımi şəkildə qane etməmişdi. Xüsusən, korpusda qeyri-müsəlman zabitlərin mövcudluğu və sənədləşmənin rus dilində aparılması tür zabitlərini razı salmırdı. Bunları nəzərə alaraq, 1918-ci il avqustun 13-də Qafqaz İslam Ordusu komandanı Nuru paşa Azərbaycan korpusunun ləğv olunması və onun yenidən qurulması barəsində əmr verdi. Həmin əmrdə deyilirdi:

1.Azərbaycan Cümhuriyyətində ordu təşkil etmə işlərini Qafqaz İslam Ordusu tənzim və idarə edəcəkdir;

2.Qurulacaq qolordunun hərbi tüzüyü hazırlanmış olub 6 avqust 1918- tarix və şöbə 173/5 nömrə ilə göndərilmişdir;

3.Süvari qitəatı müxtəlif məntəqələrdə təşkil edilərək bunların sonradan ehtiyaca görə daha böyük birliklər halında təşkilatlanacaqlar;

4.Təşkil edilməkdə olan kiçik birliklər korpus və tümən qərargahının təşkilinəqədər bir başa Qafqaz İslam Ordusuna bağlı olacaqdır;

5.Qolordunun subaylarının tümü müsəlman olacaqdır. Bütün subaylar və əsgərlər Osmanlı uniforması geyəcəklər. Süvarilər mərasimlərdə çərkəz uniforması geyəcəklər;

6.Mövcud Azərbaycan qolordusu həmən ləğv olunacaqdır. Qolordunun Gəncə və digər məntəqələrində bulunan hər növ silah, cəbbəxana, mühimat, araba, heyvan və əlbəsələri yeni təşkil ediləcək qolodunu donatmaq üzrə Qafqaz İslam Ordusu əmrinə verəcəkdir. Azərbaycan qolordusu 15 avqust 1918-ci il tarixinə qədər bunların listini Qafqaz İslam Ordusuna göndərəcəkdir;

Yeni təşkil olunacaq briliklərdə danışıq və yazışma türkcə olacaqdır. Yayınlanan bu təmim Azərbaycanda fəaliyyət göstərən bütün Osmanlı birlikləri ilə Azərbaycan qolordusu komandanlığına və Azərbaycan hökumətinə göndərilmişdir.

Bu əmrin ardınca Nuru paşa başqa bir əmr imzaladı və orada Azərbaycan qolordusunun əmlakının kimə və hara təhvil verilməsi və bəzi təşkilati dəyişiklikləri təsbit etdi. Burada bildiriulirdi ki, Azərbaycan korpusunun ləğv edilməsi ilə əlaqədar onun

hissələrinə aid olan təchizat, əlbəsə və əşyalar Təlimgah komandasının ixtiyarına keçəcək və orada 4-cü tabor təşkil ediləcək. Topçu bölmələrinə aid olan təchizat və əşyalar korpusun topçu müfəttişinə, korpusun qərargahında olan xəritələr və sxemlər ordu qərargahına təhvil verilməlidir. Korpusa aid olan səhiyyə bölmələri və müəssisələri ordu sərtəbibinin səlahiyyətinə keçməli idi. Əmrdə göstərilirdi ki, bundan sonra bütün yazışmalar Ordu komandanlığı ilə aparılmalıdır. Struktur dəyişikliklərinə gəlincə isə bildirilirdi ki, 4-cü süvari alayının şəxsi heyəti süvari alayları arasında bölüşdürüləcəkdir. Birinci süvari alayı Qarayazı alayı adlandırllmalı idi. Korpusun qərargahının tabeliyində olan süvari bölüyü ilə Ordu komandanlığı tabeliyində olan süvari taqımı birləşdirilərək bir güclü bölük yaradılmalı idi.

Ləğv olunmuş Azərbaycan korpusu bərpa edilənədək onun azərbaycanlı və müsəlman zabitləri Qafqaz İslam Ordusu tərkibində müxtəlif vəzifələrə təyin edilirdilər. Bununla bağlı, Nuru paşanın xüsusi bir əmri də var idi. 1918-ci il avqust ayının 20-də hazırlanmış əmrdə zabitlərin hansı vəzifələrə göndərildiyi tələb edilmişdi. Həmin əmrə görə, Əliağa Şıxlinski Qafqaz İsıam Ordusunun qərargahına göndərilmişdi.

Azərbaycan korpusunun ləğv edilməsi ilə bağlı olan bu və ya başqa sənədləri nəzərdən keçirməklə belə bir qənaətə gəlmək olar ki, yeni yaradılacaq korpusda keyfiyyət dəyişikliyi yalnız qeyri-müsəlman zabitlərin oradan uzaqlaşdırılması, bir də ordu dilinin türk dilinin elan edilməsidir. Korpusun struktur quruluşunda isə elə bir ciddi dəyişiklik edilməsi nəzərdə tutulmamışdı. Məsələn, Nuru paşanın yuxarıda toxunulan 2 avqust 1918-ci il tarixli, yəni Azərbaycan korpusunun ləğv edilməsindən əvvəl imzaladığı əmrdə göstərilirdi ki, Azərbaycanda iki firqəli bir korpus təşkil olunacaq və elə burada da yeni təşkil edilmiş dörd alayın adı çəkilir. Azərbaycan korpusunun ləğvindən sonra, avqust ayının 22-də imzaladığı başqa bir sənəddə isə Nuru paşa bildirir ki, Azərbaycan daxilində iki piyada və bir süvari diviziyası təşkil olunacaqdır. Burada Nuru paşa əlavə olaraq süvari diviziyasından da söhbət açır. Həmin diviziyanı təşkil edəcək süvari alayları artıq mövcud idi. Qalırdı yalnız diviziyanın qərargahını yaratmaq. O da qeyd olunan sonuncu sənəddən aydın olur ki, türk süvari zabitləri olmadığı üçün diviziya qərargahını təşil etmək çətinləşir.

Azərbaycan korpusunun arxivinin hazırda dövriyyədə olmaması üzündən bu korpusun yenidən nə vaxt qurulduğu barədə qəti fikir söyləmək mümkün deyil. Ancaq bir məsələ aydındır ki, Azərbaycan korpusunun qərargahı bərpa olunanda Ə.Şıxlinski yenidən Azərbaycan korpusunun komandiri təyin edildi

Azərbaycan korpusunun sənədləri hazırda elmi dövriyyədə olmaması üzündən korpusda xidmətin təşkili, Azərbaycan korpusu ilə Qafqaz İslam Ordusunun rəhbərliyi arasında qarşılıqlı əlaqənin necə qurulması haqqında konkret faktları ortaya qoyub təhlil etmək mümkün deyildir. Bununla belə bir məqam aydın idi ki, Ə.Şıxlinskinin yenidən korpus komandiri təyin edilməsi Nuru paşanın ona olan ehtiramının nümayişi idi.

Qafqaz İslam Ordusu qüvvələrinin döyüş fəaliyyətinin təşkil edilməsi zamanı da Nuru paşa ilə Ə.Şıxlinskinin hər zaman bir yerdə olduğunu görmək mümkündür. Məlumdur ki, Qafqaz İslam Ordusunun Bakıya qədər uzanan döyüş yolunda Nuru paşa üç dəfə cəbhə xəttində olmuşdu və hər dəfə də o, cəbhə xəttinə Ə.Şıxlinski ilə birlikdə səfər etmişdi.

Onların cəbhə xəttinə ilk səfəri türk qoşun bölmələrinin Göyçay ətrafındakı ilk uğursuzluğundan sonra olmuşdu. Nuru paşa ilə Ə.Şıxlinski qatarla iyunun 19-da Müsüslü stansiyasına gəldilər və oradan da Göyçaya yollandılar. Cəbhə xəttində vəziyyət yerindəcə öyrəniləndən sonra hərbi qüvvələrin yenidən təşkili və səfərbər

olunması üçün lazımi göstərişlər verildi və nəticədə Qafqaz İslam Ordusu qüvvələri növbəti döyüşdə irəliyə hərəkətlərini davam etdirə bildilər.
Nuru paşa ilə Ə.Şıxlinskinin cəbhə xəttinə ikinci səfərləri 1918-ci il iyul ayının 5-də oldu. Həmin gün onlar Ağsu xəttində dayanan hərbi qüvvələrə baş çəkdilər və Ağsu ətrafında gözlənilən hücumun uğurla sonuclanması üçün lazımi göstəriş və tövsiyələrini verdilər.
Nuur paşa ilə Ə.Şıxlinskinin cəbhə xəttinə sonuncu birgə səfəri isə Bakı üzərinə hücum ərəfəsində oldu. Bakının azad edilməsi üçün keçirilməli olan hücumun təşkilinə rəhbərlik etmək üçün 1918-ci il sentyabr ayının 10-da Nuru paşa, Şərq Ordular Qrupunun komandanı Xəlil paşa, Ə.Şıxlinski və digər şəxslər Bakı ətrafına gəldilər və Güzdəkdə qurulmuş qərargahda yerləşdilər. Hücum planının dəqiqliklə hazırlanması üçün Nuru paşa Ə.Şıxlinski ilə birlikdə müşahidə məntəqələrinə yollandılar, cəbhə xəttindəki vəziyyəti müşahidə etdilər. Şübhə yeri yoxdur ki, Bakı üzərinə hücum planının hazırlanmasında Nuru paşa Ə.Şıxlinskinin də fikirlərini öyrəndi və nəzərə aldı.
Bakı üzərinə hücumda bir başa Ə.Şıxlinskinin komandanlığı altında olan Azərbaycanın milli qoşun hissə və bölmələri də iştirak edirdilər və Bakının azad edilməsi işinə onlar da öz xidmətlərini göstərdilər.
Cəbhə xəttindən alınan bütün məlumatlar Ə.Şıxlinskinin də olduğu qərargahda müzakirə edilir və lazımi qərarlar qəbul edilirdi. Bakı şəhəri azad edildikdən sonra sentyabr ayının 16-da Bakı ətrafında Qafqaz İslam Ordusu qüvvələrinin rəsmi-keçidi oldu. Ə.Şıxlinski də Qafqaz İslam Ordusunun rəhbərliyi ilə birlikdə bu rəsmi-keçiddə iştirak edirdi. Rəsmi-keçid başa çatdıqdan sonra Ə.Şıxlinski də digər şəxslərlə bərabər at belində Bakıya daxil oldu.
Bakı şəhərinin azad edilməsi həm də Ə.Şıxlinskinin həyatının ən yadda qalan günlərindən biri idi. Bu tarixi hadisənin baş verməsində onun da özünəməxsus rolu var idi.
Xəlil paşanın yavəri Səlahəddin yüzbaşı öz xatirələrində Ə.Şıxlinski ilə bağla maraqlı bir hadisəni nəql edirdi:

> Gümrüdə olduğumuz günlərdə çarlıq ordusunda topçu komandiri olmuş general Əliağa Şıxlinski bizə xidmət etmək üçün gəlmişdi. Əliağa Şıxlinski Şıxlı kəndindən idi. Yeni qurulan Azərbaycan İslam Ordusunda və ya məmləkəti olan Şimali Qafqaz dövləti ordusunda xidmət etmək istəyirdi. Xəlil paşa bu adama çox hörmət göstərdi. Şıxlinski bizə gəldiyi zaman əynində hələ də rus hərbi forması və çarın nişanları var idi. Xəlil paşa ona bir türk nişanı verdi və rus ordusundakı rütbəsinə bərabər olan "tümgeneral" (general-leytenant) türk forması geymə səlahiyyəti verdi. Üstəlik atlarından birini hədiyyə etdi. General Əliağa Şıxlinski təxminən bir həftə Gümrüdə qaldı. Bir vaxtlar komandanlıq etdiyi şəhəri gəzdi. Bəzən mən də onunla birlikdə gəzirdim. Bir gün Gümrüdə kazarmaların yanındakı hərbi kilsəni gəzərkən mənə belə dedi: "Siz bu kilsədə gəzərkən nə hiss edirsiniz?" "Heç bir şey". "Mən həyatımda ilk dəfə Çar həzrətləriylə birlikdə bu kilsədə mərasimdə iştirak etdim. Böyük rus imperiyasının varlığını, dəbdəbəsini o mərasimdə görmək çox gözəl idi. İndi sanki o günləri yenidən yaşayıram kimi bir həzz içindəyəm. Çar həzrətləri çox böyük insan idi. Heyf ondan.

Bakı şəhəri azad edildikdən sonra Ə.Şıxlinski vaxtının çoxunu yeni Azərbaycan diviziyaların təşkilinə sərf etdi. 1918-ci ilin oktyabrında Gəncədəki hərbi məktəbin ilk buraxılışında da Ə.Şıxlinski iştirak etdi. Bu məktəbin əsası yuxarıda qeyd edildiyi kimi, Əliağa Şıxlinski tərəfindən qoyulmuşdu. Onun yenidən fəaliyyətə başlaması isə Qafqaz

İslam Ordusunun rəhbərliyinin təşəbbüsü ilə baş verdi və məktəbə də türk zabitləri rəhbərlik edirdilər. Məktəbdə imtahanların başlanması üçün Azərbaycan korpusunun komandiri kimi Əliağa Şıxlinskiyə raport verildi və onun icazəsindən sonra buraxılış imtahanları başladı. Bu hadisə də həm Əliağa Şıxlinskinin, həm də Azərbaycan ordusunun tarixində əhəmiyyət kəsb edən hadisələrdən biri idi.
Əliağa Şşxlinskinin Qafqaz İslam Ordusundan sonrakı həyatı da Azərbaycan ordusunun formalaşdırılması ilə bağlıdır.

## MÜRSƏL PAŞA

Nuru paşa tərəfindən rəhbərlik edilən Qafqaz İslam Ordusunun Azərbaycandakı uğurlu fəaliyyətinin təşkilində böyük rolu və zəhməti olan şəxslərdən biri heç şübhəsiz ki, Mürsəl paşadır. O, Azərbaycana gəlmiş 5-ci Qafqaz firqəsinin(diviziyasının) komandiri idi və Azərbaycanda aparılan döyüşlərin əsas ağırlığı da məhz bu diviziyanın üzərinə düşmüşdü. Mürsəl paşa uzun və şərəfli bir hərbçi həyatı sürmüşdü. Ə.Qaracanın "Azərbaycan" dərgisinin 1993-cü il tarixli eylül-ekim ayları nömrəsində çap olunmuş məqaləsinə görə, onun tərcümeyi-halı barədə aşağıdakıları söyləmək olar. 1881-ci ildə Ərzrumda doğulan Mürsəl bəy Hacı Küla nəslindən olan İsmayıl Həqqi bəyin oğlu idi. İlkin təhsilini başa vurandan sonra Mürsəl hərbçi olmağı qərara aldı və 1898-ci ildə Hərb okuluna daxil oldu. 1901-ci ildə o, teğmən (leytenant) rütbəsində bu okulu bitirdi. 1902-ci ildə üst teğmən rütbəsi aldı və Hərb Akademiyasına qəbul olundu. 1904-cü ildə yüzbaşı rütbəsində Akademiyanı əla qiymətlərlə bitirdi. Bundan sonra bir müddət 22-ci süvari alayının 2-ci bölüyünə komandirlik etdi. Mürsəlin nəzəri hazırlığı yüksək qiymətləndirildiyi üçün Hərb okulunda tədris prosesinə cəlb edildi. O, 1907-09-cu illərdə Hərb okulunda müxtəlif vəzifələrdə çalışdı. 1909-cu ildə isə 4-cü Ordu qərargahında 2-cı şöbənin rəisi vəzifəsinə təyin edildi. 1910-cu ildə Mürsəl hərbi bilikərinin təkmilləşdirilməsi üçün Almaniyaya ezam edildi. İki il orada qaldı və bu müddət ərzində minbaşı rütbəsinə layiq görüldü. Almaniyada təhsilini başa vurub geri qayıtdıqdan sonra Mürsəl 4-cü Ordunun qərargahında öz xidmətini davam etdirdi. Eyni zamanda o, Süvari subay tətbiqat okulunda dərs deməyə başladı.
1913-cü ilin sonunda Mürsəl bəy 39-cu alayın komandiri təyin edildi. Bu vəzifədə onun işgüzarlığı, istedadı və təşkilatyçılıq qabiliyyəti yuxarı komandanlığın da diqqətini cəlb etdi və çox qısa müddətdən sonra – 1914-cü ilin yanvar ayında Mürsəl bəy 11-ci Ordunun 11-ci süvari tuğayının (briqadasının) komandiri təyin edildi. Bu vəzifəyə təyin olunandan bir neçə gün sonra ona yarbay rütbəsi verildi. Süvari briqadası komandiri vəzifəsində də o çox qalmadı. Mürsəl bəy daha məsuliyyətli vəzifələrə irəli çəkildi. 1915-ci ildə o, 34-cü piyada tüməninin (diviziyasının) komandiri təyin edildi. 1916-cı ildə Mürsəl bir neçə digər tümənlərə də komandirlik etdi. O, əvvəlcə 32-ci piyada tüməninin, sonra da 12-ci piyada tüməninin komandiri kimi xidmətini davam etdirdi.
Qafqaz İslam Ordusunun yaradılması istiqamətində təşkilati işlər aparılan vaxt, yəni 1918-ci il mart ayının 28-də Mürsəl bəy 5-ci Qafqaz diviziyasının komandiri təyin edildi və həmin diviziyanın komandiri kimi Azərbaycana gəldi. Yəqin onun gümanına da gəlməzdi ki, komandirlik etdiyi diviziya ilə Azərbaycanda vuruşmalı olacaq, Azərbaycan xalqının imdadına yetərək öz diviziyası ilə Bakı şəhərini azad edəcək və bu hadisə onun həyatında dərin izlər buraxacaqdır.
Məlumdur ki, Osmanlı hökumətinin rəhbərləri Nuru paşanı Azərbaycana göndərəndə

türk zabitlərinin iştirakı ilə azərbaycanlılardan ibarət qoşun hissələrinin yaradılması və onların gücü ilə bolşevik-daşnak qüvvələrinə qarşı mübarizə aparılmasını nəzərdə tutmuşdu. Lakin Nuru paşa Azərbaycandakı vəziyyətlə tanış olduqdan sonra Batumda olan 3-cü Ordu komandanı Vehib paşaya məlumat göndərdi və onun diqqətini Azərbaycanda olan milli qüvvələrin azlığına cəlb etdi. Həmin məlumatda bildirilirdi ki, bolşeviklər Dağıstan və Şimali Qafqazı tamamilə ələ keçirmək üzrədirlər. Hər yerdə ermənilərin təcavüzü artmaqdadır. Bakı şəhəri tezliklə tutulmazsa, buralarda vəziyyət daha təhlükəli bir hal alacaqdır. Nuru paşa daha sonra qeyd edirdi ki, qısa müddət ərzində burada yerli qüvvələri formalaşdırmaq mümkün deyil və ona görə də bildirirdi ki, Bakı şəhərini əlavə türk hərbi qüvvələri olmadan azad etmək mümkün deyildi.
3-ch Ordu komandanı Vehib paşa Türkiyə Hərbi Nazirliyi ilə razılaşdıraraq əvvəlcə 5-ci diviziyanın iki alayının, Azərbaycanla Türkiyə arasında dostluq müqaviləsi bağlandıqdan sonra isə bütünlüklə diviziyanın Azərbaycana göndərilməsi barədə əmr verdi. Bu seçimin 5-ci diviziya və onun komandiri Mürsəl bəyin üzərinə düşməsi heç də təsadüfi deyildi. Türkiyənin hökumət rəhbərliyi tələb edirdi ki, Azərbaycanda görülməli olan vəzifələrin həllinə nail olmaq üçün ora ən döyüşgən və təcrübəli birləşməni göndərmək lazımdır. Mürsəl paşa və onun diviziyası belə bir tələbə cavab verməsəydi onda Azərbaycana göndərilməzdi.
1918-ci il iyun ayının 4-də 3-cü Ordu komandanı Vehib paşa 5-ci Qafqaz diviziyasının Qafqaz İslam Ordusunun tabeliyinə verilməsi barədə əmr imzaladı. Bu əmrə görə, diviziyanın 9, 10, 13-cü piyada alayları, bir topçu alayı dərhal öz mövqelərini təhvil verərək Azərbaycana doğru hərəkətə başlamalı idi.
5-ci Qafqaz firqəsi əsas qüvvələri ilə birlikdə Azərbaycana doğru iyun ayının 8-də hərəkətə başladı. Bir gün əvvəl isə, yəni iyun ayının 7-də 5-ci firqənin hərəkətə hazırlaşması barədə 3-cü Ordu komandanı Qrup komandanına belə bir əmr verdi:

> 5-ci Qafqaz firqəsinin əqsami-sairəsinin də Qazax təriqi ilə Gəncəyə hərəkətini rica edirəm. Firqənin Ağstafa stansiyasından Gəncəyə qədər qatarla nəqliyyatı üçün indidən hazırlıq görünüz və bunun üçün təcili tələb olunanları Qazaxa göndəriniz. Müsəlman zabitlərindən Gəncəli İbrahimzadə, Nazim əfəndi Ağstafa stansiyası ilə Gəncə arasındakı nəqliyyatı tənzim üçün əvvəlcə Batumdan Gəncəyə göndərilmişdir. Məmurlarımız Nazim əfəndi ilə təmas etsinlər, firqənin nəzdində 2-ci Qafqaz korpusu telsiz stansiyasının verilməsini rica edirəm. Firqə hələlik tabeliyinizdə və Gəncədə qalacaqdır.

Ordu komandanlığının bu əmrinə əsasən elə həmin gün Qrup komandanı da 5-ci firqə komandanlığına aşağıdakı əmri verdi:

> 1.Beşinci Qafqaz firqəsi təkmil qüvvətilə və iki qədəmə halında olaraq və hər qədəmədə bir topçu taboru bulunmaq şərtiylə 8.6.1334 (1918) səhərisi Cəlaloğludan hərəkətə başlayacaq və əvvəlcə hərəkət etmiş olan pişdarı Qazax üzərindən təqib edərək yenə Qrup əmrində bulunmaq üzrə Gəncəyə gedəcəkdir. Hər qədəmənin qüvvəti və hər günkü iqamət məhəlləri Qrupa bildiriləcək və firqə qərargahı birinci qədəmə ilə bərabər bulunacaqdır.
>
> 2.Beşinci Qafqaz firqəsinin Ağstafa stansiyasından etibarən qatarla Gəncəyə nəqli üçün tərtibat ittixaz etmək üzrə ordu tərəfindən Ağstafa stansiyasına Gəncəli İbrahimzadə Nazim bəy adında bir zat göndərilmişdir. Beşinci firqə komandanı bu zat ilə pişdarı vasitəsiylə təmas və irtibata gələrək firqənin qatarla nəqli tərtibatını vaxt və zamanı ilə hazır və ittixaz etməlidir.
>
> 3.Beşinci firqənin vəsaiti-nəqliyyə kadrosundan artıq qalan merkeplər bir qol

halında cəm olunaraq firqənin bir günlük ərzağını təhmil və bərabərcə nəql olunacaqdır. Bilümum firqənin iaşəsi bulunacağı məntəqə daxilindən surəti-müxtəlifeyi-münasibə ilə tədarük və təmin ediləcəkdir. Bu məqsədlə pişdara və Borçalı və Qazax məntəqələrindəki təşkilata vəzifələnmiş zabitlərə və firqə nəzdinə göndərilmiş olan millət vəkillərinə əmrlər və təlimati-lazımə göndərilməsi və bunların çatdırılması lazım və münasibdir.

4.Firqənin vəsaiti-nəqliyyə kadrosundan əsbabi-müxtəlifə ilə tənaqüs vaqi olursa mübaya ilə tədarük və ikmal olunacaq və kadrodan artıq heyvan əxz və istixdama çalışılmayacaqdır.

5.İkinci qolordunun telsiz teleqraf taqımı yalnız taqım komandanı ilə və stansiyanı idarə edəcək qədər əfradla və müqtəzi vəsaiti nəqliyyəsilə Beşinci firqə əmrinə verilmişdir. Bu taqım 8.6.334 günü səhər qatarla Qarsdan hərəkət və Sadaxlı stansiyasına qədər salamat göndərilməsini 11-ci firqə təmin edəcəkdir.

6. Beşinci firqə hər gün ən azı bir müharibə raportu və bir gündəlik raport verəcəkdir və bunları telsiz teleqrafla və yaxıd düşmənin ələ keçirməsi ehtimalı olan vəsaitlə göndərilmək məcburiyyəti olarsa şirfə olaraq yazacaqdır. Firqə digər rabitələrində də eyni üsulu tətbiq etməlidir. Firqənin Qrupla rabitə və müxabirəsi üçün istifadə edəcəyi vəsait bunlardır.

a) Beşinci firqə tərəfindən çəkilməkdə olan teleqraf xətləri;

b) 11-ci firqə tərəfindən çəkilməkdə olan telefon xətləri

c) Cəlaloğludan Sadaxlı və Qazax üzərindən Gəncəyə qədər təsis ediləcək olan müxabirə xətti;

d) Telsiz teleqraf stansiyası

11-ci firqə 5-ci firqənin telefon və müxabirə-poçt xətti ilə olan müxabirələrinə təvəssüt və müavinət edəcəkdir. Beşinci firqənin telefon müxabirəsi bir başa Gümrü mərkəzi ilə və telsiz telefon müxabirəsi birbaşa Qars mərkəzi ilə yapılacaqdır.

7.Beşinci firqə Gəncədə bulunan İslam Ordusu komandanı feriq Nuru paşaya təcili bir xəbər göndərərək öz qüvvətini, tərtibatını və tərzi-hərəkətini bildirəcəkdir.

8. Beşinci firqə Ağstafa stansiyasında bir taborunu tərk edəcək və bu tabor qismi-küllüsü ilə bu stansiyada bulunaraq əvvəlcə əmr edilmiş olan 11 stansiyadan Gəncənin qərbində qalan 9 stansiyanı təhti-işğal və təminə alacaqdır. Bu tabor komandanı Qazax mətəqəsində bulunan yüzbaşı Səbri əfəndini də yanına cəlb edərək Səbri əfəndinin görməkdə olduğu işləri müştərəkən icra, tövsü və təqviyyəyə çalışacaqdır.

9. On birinci firqə 5-ci firqənin tərk edəcəyi təkmil məntəqəsini və məntəqədəki bilümum mənbələri təsli alacaq və Sadaxlı civarına qədər müxabirə-poçt xəttini təsis etmək və Qarakilsə-Sadaxlı dəmir yolu xəttini işğal və mühafizə etmək üçün mürəttəb süvari alayı bölüklərindən birini vəzifələndirəcəkdir. Digər süvari bölüyü Cəlaloğluda cəm halında qalacaqdır.

10 Bu əmr Beşinci və On birinci Qafqaz firqələri komandanlarına ita edilmiş və bir surəti məlumat üçün Birinci Qafqaz qolordusuna verilmişdir.

Bu diviziyanın qərargah rəisi olmuş Rüşdü bəy sonralar öz xatirələrində onların üzərinə hansı vəzifə və məsuliyət düşdüyünü belə təsvir edirdi:

Osmanlı dövlətinin şan və şərəfi və ordusuna qiymət və qüdrətli etimad edilib və Azərbaycana göndərilən 5-ci Qafqaz firqəsinin icraat və hərəkatındakı müvəffəqiyyətlə ölçüləcəkdi. Bütün dost və düşmən Qafqaz millətlərinin və hətta

> müttəfiqlərimiz almanların dəxi gözləri 5-ci Qafqaz diviziyasına dikilmişdi. 5-ci Qafqaz firqəsi Azərbaycanda hər şeyi yapacaqdı. O, müharibə edəcək, asayişi-məhəlliyi təin edəcək, türk əsgəri görməmiş məntəqələrdə hökumətin gücünü həyata keçirəcək və məhəlli təşkilati-əsgəriyyəni vücuda gətirəcəkdi. Bu mühüm işlər böyük əzm və imanı, fövqəlbəşər səy və qeyrəti və nəhayətsiz bir fəraqəti-nəfsi tələb edirdi.

Mürsəl bəyin xidmət həyatının bəlkə də ən gərgin günləri başladı. Ona həm çox məsul, həm də çox şərəfli bir vəzifə tapşırılmışdı. Özü də Mürsəl bəy çox yaxşı bilirdi ki, ona tapşırılan vəzifənin həyata keçirilməsi üçün vaxt ölçüsü də çox məhduddur. Ona görə də yuxarı komandanlıqdan hərəkət əmri alan kimi dərhal lazımi hazırlıq işlərinə başladı. Çünki artıq diviziyanın əsas qüvvələri iyun ayının 8-də Cəlaloğludan hərəkətə başlamalı idi. Qoşun hissələri hərəkətə başlamazdan əvvəl Qrup komandanı Cəlalolunun şərqindəki Cərgəri kəndinə gəldi, Mürsəl bəylə görüşdü və onun hissələrinə baxış keçirdi. Elə bu baxış zamanı da Qrup komandanı bildirdi ki, yuxarı komandanlıq, o cümlədən də Türkiyə ordusu Baş komandanlığı 5-ci diviziyanı ən güclü birləşmələrdən biri hesab edir və ona görə də Azərbaycana da məhz bu diviziyanın göndərilməsi qərara alınmışdır:

> Baş komandandan başlayaraq hamımızın etimadını qazanmış və hər bir sahədə müntəzəm olan Beçinci Qafqaz firqəsini Azərbaycana – Gəncəyə göndərirəm. Burada olduğu kimi, orada da fədakaranə çalışacağınıza əminəm. Allah müvəffəqiyyətlər versin.

Qrup komandanı elə burada 5-ci diviziyanın Azərbaycana hərəkət etməsi barədə imzaladığı əmri Mürsəl bəyə təqdim etdi. Bu əmr böyük bir əmr idi və orada hərəkət etdiyi zaman diviziyanın qarşısında dayanan vəzifələr təfərrüatı ilə əksini tapmışdı.

Beləliklə, səfər əmri alan 5-ci Qafqaz diviziyası çox qısa müddətdən sonra hərəkətə başladı. Böyük sayda şəxsi heyəti olan qoşun birləşməsinin uzun səfəri çox qısa müddət ərzində, yəni cəmi bir gün ərzində hazırlıq görməsi istər Mürsəl bəyin, istərsə də yuxarı komandanlıqların qarşıya qoyduğu vəzifənin icrasına xüsusi diqqət və məsuliyyətlə yanaşmalarını nümayiş etdirirdi.

Firqənin Azərbaycana nəqli üçün ən münasib yol Gürcüstan ərazisindən keçən nəqliyyat yolları idi. Ancaq bu nəqliyyat yolları, o cümlədən də dəmir yolu üzərində almanların güclü nəzarəti olduğu üçün Beşinci firqənin hissələri Batum-Artvin-Ərdəhan-Qaraklilsə-Dilican marşrutu ilə Qafqaza doğru hərəkət etmək məcburiyyətində idi.

Qrup komandanının əmrinə əsasən, 5-ci diviziyanın hissələri iki qədəmədə (qrupda) iyun ayının 8-də hərəkətə başladı. Mürsəl bəy qədəmələrin tərkibini aşağıdakı kimi müəyyənləşdirmişdi:

1-ci qədəmə

Firqə qərargahı
10-cu Qafqaz alayı
9-cu Qafqaz alayına mənsub 26-cı tabor
Şnayder dağ topçu taboru
İstehkam bölüyü
Orkestr bölüyü

1-ci qdəmənin cəmi – 147 zabit, 2812 əsgər və 698 heyvan

2-ci qədəmə

13-cü Qafqaz alayı
Güclü dağ topçu taboru
Səhiyyə bölüyü
24-cü səyyar xəstəxana
Səyyar mətbəx taqımı
2-ci qədəmənin cəmi – 110 zabit, 2763 əsgər, 668 heyvan

İyunun 8-də hərəkətə başlayan hissələr həmin günün axşamı Ağ kirpidə, ayın 9-da axşamı Ləmbəlidə keçirdi.
Mürsəl bəy Ləmbəlidən Nuru paşaya göndərdiyi məktubunda bildirirdi ki, iyunun 11-də firqənin birinci qədəməsi, iyunun 12-də isə ikinci qədəməsi Qazaxda olacaq, sonra isə onlar Ağstafa stansiyasından qatarla Gəncəyə yola salınacaqdır.
Çətin yol şəraiti ilə hərəkət etməsinə baxmayaraq, Mürsəl bəy firqənin qədəmələrini nəzərdə tutulan vaxtda mənzil başına yetişdirə bildi. Qazaxa daxil olan türk qoşun hissələrini könüllü silahlı dəstələr, onların rəhbəri yüzbaşı Səbri əfəndi və minlərlə yerli əhali qarşıladı. Bütün xalq ümid və intizarla gözlədikləri türk qoşunlarının pişvazına çıxmışdı. Həmin gün yerli əhalinin toy-bayramına çevrilmişdi. Bütün dükanlar bağlanmış, azərbaycanlıların at üzərində göstərdikləri hərəkətlər hətta türk əsgər və zabitlərini də heyrətə salmışdı.
Qazaxdan da dərhal qatar vasitəsilə 5-ci firqə hissələrinin Gəncəyə nəqlinə başlandı. Hissə-hissə daşınan qoşunlar iyun ayının 15-də artıq Gəncə ətrafında cəm edilmişdi. Həm 5-ci diviziyanın hissə və bölmələri, həm də 2-cü süvari alayı buradan nəzərdə tutulan istiqamətlərə, döyüş tapşırıqlarının icrasına yollanmalı idilər.
5-ci firqənin və 2-cü süvari alayının Gəncə ətrafına gəlməsi ilə Qafqaz İslam Ordusunun da döyüş qüdrətinə qabil olan hərbi vahid kimi formalaşması başa çatdı. 5-ci firqənin 9-cu alayı və 2-ci süvari alayı Gəncə ətrafına hələ iyun ayının 9-da yetişmişdilər və dərhal da Qafqaz İslam Ordusu komandanlığının tabeliyinə daxil olmuşdular. Digər hissə və bölmələr isə Gəncəyə gəldikləri gündən Qafqaz İslam Ordusu strukturlarına qatılmışdılar. Bunun üçün türk ordusunun Qafqaz istiqamətində olan qoşun birləşmələrinin strukturunda dəyişiklik aparılmış və bu strukturlarda Qafqaz İslam Ordusunun yeri də dəqiqləşdiirlmişdi.
Mürsəl bəyin qərargahı Gəncənin erməni məhəlləsində olan Avropa otelində yerləşmişdi. Qeyd etmək lazımdır ki, diviziya Azərbaycana göndəriləndə nəzərdə tutulmuşdu ki, o, Qrup komandanlığının tabeçiliyində saxlanlacaqdır. Ancaq sonradan Baş komandanlıq tərəfindən belə qərara alındı ki, 5-ci diviziya təşkilati baxımdan tamamilə Qafqaz İslam Ordusunun tərkibinə verilsin. Lakin Nuru paşanın əmri ilə bu diviziya ilk vaxtlar Azərbaycan korpusunun vasitəsiylər Qafqaz İslam Ordusuna tabe etdirildi. Yəni, təşkilati planda 5-ci diviziya Azərbaycan korpusunun tərkibinə daxil edildi. Buna görə, Mürsəl paşa üçün ilk yuxarı komandan Azərbaycan korpusunun komandanı Əliağa Şıxlinski idi. Özünün bütün fəaliyyəti və ehtiyacları barədə Mürsəl bəy Ə.Şıxlinskiyə də məlumat verməli idi. Bu struktur 1918-ci il avqust ayının ortalarına kimi qüvvədə qaldı. Sonra Mürsəl bəy bir başa Nuru paşaya tabe oldu.
Azərbaycanda mövcud olan hərbi çəraitin xüsusiyyətləri üzündən iyun ayında 5-ci diviziyanın hissə və bölmələri böyük bir əraziyə səpələnmişdi. Bu da sözsüz ki, Mürsəl bəy üçün onların idarə edilməsində bir çətinlik yaradırdı. Məsələn, süvari alayının bir hissəsi Gəncədə, bir hissəsi Müsüslüdə, 9-cu alay Gəncədə, 10-cu alayın qərargahı

Göyçayda, onun bir taboru Ucarda, bir taboru isə Müsüslüdə, 13-cü alay Qazaxda, telsiz teleqraf taqımı Ağstafada və s. idi. Bütün bu hissə və bölmələr arasında etibarlı bir rabitə də yox idi. Mürsəl bəy ilk növbədə diqqətini bu məsələyə yönəltdi. Bu məqsədlə o, diviziyanın teleqraf taqımının müavininə xüsusi göstəriş verdi ki, Gəncə ilə Müsüslü arasındakı telefon xətlərini yoxlasın və onları işlək bir vəziyyətə çatdırsın. Mürsəl bəyin əmri ilə Gəncə, Dəliməmmədli, Mingəçevir və Yevlax stansiyalarına bir rabitə zabiti, onun da yanında telefon qurğuları və bu qurğulara xidmət edəcək əsgərlər təyin edildilər. Mürsəl paşa sonradan əlavə olaraq Ləki, Ucar və Müsüslü stansiyalarına da belə qruplar göndərmiş və Göyçayda olan 10-cu alayın qərargahını da telefon xətti vasitəsiylə Ucar stansiyasına birləşdirmişdi. Bunun nəticəsi idi ki, cəbhə xəttində olan qüvvələrlə həm 5-ci diviziyanın, həm də Qafqaz İslam Ordusu komandanlığının arasında rabitə təsis edilmişdi. Doğrudur, mövcud olan texnika ilə və qüvvələrin yerləşdiyi məntəqələrin uzaqda olması etibarilə çevik idarəetmə yaradılması mümkün olmasa da hər halda hissə və bölmələr nəzarətdən kənarda da deyildi. Ancaq qüvvələrin dağınıq olması onların fəaliyyətinin Mürsəl bəy tərəfindən istiqamətləndirilməsini müəyyən dərəcədə çətinləşdirirdi. Elə iyun ayının 17-18-də Qaraməryəm ətrafında 10-cu piyada alayının ilk ciddi uğursuzluğa düçar olmasını və çoxlu sayda itki verməsini də həmin hissənin Mürsəl bəyin nəzarətindən müəyyən dərəcədə kənarda qalması ilə bağlamaq olardı. Çünki 10-cu alayın komandiri Osman bəy Mürsəl bəylə razılaşdırmadan bolşevik-daşnak qüvvələri üzərinə hücuma keçməsi ağır nəticələrə gətirib çıxarmışdı. Ola bilsin ki, alay komandirinin diviziya komandirinin daha yaxın nəzarəti altında olması onun düşünülməmiş belə bir döyüşə girməsinin də qarşısını ala bilərdi. Bu uğursuzluq o qədər gözlənilməz oldu ki, onun nəticələri həm Nuru paşanı, həm də elə Mürsəl bəyin özünü heyrətə saldı. Mürsəl bəyin qərargah rəisi Rüşdü bəy bununla bağlı belə yazırdı:

> Azərbaycanda çəkindiyimiz məğlubiyyət nəhayət ki, böylə çabuk və acı bir şəkildə təhəqqüq və təcəlli etdi.

Vəziyyətlə yerində tanış olmaq üçün cəbhə xəttinə yollanan Nuru paşanın qəbul etdiyi ilk qərarlardan biri bu oldu ki, Mürsəl bəyin qərargahı Göyçaya köçürülsün və o, cəbhəyə daha yaxın olsun. Bu ona cəbhədəki qüvvələri daha düzgün istiqamətləndirməyə imkan verə bilərdi.

İyunun 20-də Mürsəl bəyin qərargahı artıq Göyçayda idi. Bu qərargah Göyçayda Sadıq bəy və onun qardaşı Həzrət bəyin evində yerləşmişdi. Mürsəl bəy Göyçay ətrafında çox həyəcanlı günlər yaşadı. Bakı ətrafına çatana kimi Göyçayda keçirdiyi günlər onun bəlkə də ən həyəcanlı günləri idi. Əslində, Qafqaz İslam Ordusunun bütün komandanlığı, əsgər və zabitləri belə həyəcanlı günlər yaşayırdılar. Türk qüvvələri çox yüksək əhval-ruhiyyə ilə Azərbaycan xalqının köməyinə tələsdiyi, onlara lazımi kömək göstərməyə əmin olduqları halda ilk döyüşdə ciddi uğursuzluqlara düçar olmaları müvəqqəti də olsa mürəkkəb bir ovqat yaratmışdı. Bu ovqatdan çıxmaq, türk əsgərinin nəyə qadir olduğunu sübut etmək üçün Mürsəl bəy hissələri ilə bolşevik-daşnak qoşunlarına güclü zərbə vurmalı və hərbi təşəbbüsü ələ almalı idi. Bunun üçün isə ciddi təşkilatçılıq işi aparmaq, əsgər və zabitləri ciddi döyüşlərə səfərbər etmək lazım idi. Ona görə də Mürsəl bəy Göyçay ətrafına çatan kimi mövcud vəziyyəti təhlil etməyə, yaranmış vəziyyətdən çıxmağın yollarını aramağa başladı. O, elə Müsüslüdə qatardan düşüb Göyçaya gələnə kimi yolda ikən zabitlərlə görüşdü, onların məlumatlarını dinlədi, Göyçayda xəritə üzərində qüvvələrin qarşılıqlı vəziyyətini dəqiqləşdirdi və öz qənaətləri haqqında Nuru paşaya bir məktub yazdı. Həmin məktubda Mürsəl bəy öz

təkliflərini ətraflı şəkildə Ordu komandanının nəzərinə çatdırdı:

1.Müsüslü və sol cinahı tədqiq edildi;

2.Bakı, Dərbənd və qarşımızdakı düşmən qüvvəsinin 7000 radəsində olduğu;

3.Geri ilə irtibat və müvasiləsi olmayan və bütün mövcudiyyət və qüdrəti-hərbiyyəsi kəndindən ibarət bulunan və bütün Qafqaz amal və müsəlmanlarının yeganə istinadgahı olan firqənin müstəsna vəziyyətinə və qarşısında bulunan faiq düşmən qüvvətlərinə nəzərən düşmən təərrüz etsə, dəxi istehzarat və tərtibati lazimə və mətlubənin ikmalına qədər hali-müdafiəni ixtiyar edildiyi;

4.Düşmənin qəti zərbə altında əzilməsi və Bakıya firar edərək təkrar müqavimət etməyəcək dərəcədə düçari fəlc edilə bilməsi üçün:

a)İkinci dərəcədə vəzayif ilə geridə buraxılmış firqə qitəatının irəliyə alınması və firqəyə iltihaqı;

b)Qazaxda görülən 800 milis atlısının topladılaraq cəbhəyə sövqü;

c)Sabiq kazak qayməqamı Məhəmməd bəy ilə Daşsalahlı və hali-hazırda Gəncədə bulunan Əli Nağı bəyin toplaya biləcəyi 4500 atlının cəbhəyə cəlbi;

d) Göyçay, Ağdaş, Bərdə atlılarının və Gəncədə toplanacaq atlı və piyadalarının dəxi cəmi və icab edən cinaha sövqü;

e) Nuxa istiqamətində sövq edilmək üzrə təhrik edilən və Qayabaşına məmur edilib də hənuz Xaldanda bulunan müfrəzəni zərbeyi-qəti vurmaq üzrə hərəkət edəcək olan firqənin gerisini mühafizə məqsədiylə Əlican çayı boğazında buraxmaq və burasını təhkim etmək və eyni zamanda Türyan çayı boğazını təqviyyə etmək üçün bu cəhətdə kullanmaq;

5. Bütün istehzarat və tərtibat, düşmənin mühəqqəq surətdə imha edilməsi və bir daha Bakıya çəkilərək geridəki qüvvətlərilə irtibat yaparaq təcdidi-müqavimətə imkan bulunmaması nöqteyi-nəzərindən icra edilcək. Bununla bərabər, cəbbəxanə ikmalı da piyada və istehkamının qeyri-siniflərində mövcud mauzer cəbbəxanəsini toplamaq və alaylarda bir taborun mauzerini rus tüfəngi ilə təbdil etmək və eyni zamanda cəbbəxanə gətirmək və vəziyyəti üçüncü ordu komandanına ərz etmək üzrə firqədən bir zabiti Batuma göndərmək;

6. İslan qolordusuna aid olub da Gəncədə bulunan və hali-hazırda istimal edilməyən makinalı tüfənglərin firqəyə irsalı ilə taborlara bir taqım halında itası;

7. Kürdəmir-Qaraməryəm xəttindəki düşmənə zərbeyi-qəti endirdikdən sonra təsərrüf ediləcək qüvvətləri qolaylıqla Nuxa üzərindən Qubaya və Şuşaya göndərmək;

8. Yuxarıdakı xüsusat tənsib edildiyi təqdirdə icabatının icrasına əmr buyrulmaq.

Nuru paşa səhəri gün Mürsəl bəyə cavab verdi və onun təklifləri ilə razılaşdığını bildirdi. Cəbhədə qüvvə üstünlüyü yaratmaq üçün o, Gəncədə olan bir sıra bölmələrin, Qazaxda olan könüllü Azərbaycan bölmələrinin Göyçaya yola düşməsi haqqında əmr verdi. Bundan başqa onun razılığı ilə Mürsəl bəy hər alayın sonuncu taborunda mauzer tüfənglərini yığışdırıb onlarıln yerinə şəxsi heyətə rus tüfəngləri payladı. Yığışdırılan tüfəngləri və onların sursatı ehtiyatda saxlandı. Bu, ondan ötrü edilmişdi ki, mauzer tüfəngləri üçün güllə çatışmırdı və onların Türkiyədən gətirilməsi xeyli vaxt apara bilərdi. Rus tüfəngləri üçün isə Azərbaycanda güllə tapmaq mümkün idi. Döyüşlərin gedişində güllə çatışmazlığı ilə qarşılaşmamaq üçün əvvəldən ehtiyat tədbirlərinin görülməsi Mürsəl bəyin uzaqgörənliyinin nəticəsi idi.

İyunun 21-də Mürsəl bəy yenidən Nuru paşaya məktub göndərdi. Bu məktubda o yazırdı ki, 5-ci diviziyanın hissələri Vətəndən uzaqlarda islam aləminə düşmən olan

qüvvələrin əhatəsindədir. Əvvəlki döyüşlərdə sursat ehtiyatı azalmış və uğurlu döyüşlərin aparılması üçün bu ehtiyatları bərpa etmək lazım idi. Onun fikrincə, döyüşlərdə hər hansı sursat qıtlığı hiss etməmək üçün hər bir döyüşçüdə ən azı 500 ədəd güllə ehtiyatı yaratmaq lazım idi. Bundan başqa, Mürsəl bəy toplar üçün də 4000 mərminin zəruriliyini vurğulayırdı.

Mürsəl bəy güman edirdi ki, yaxın günlərdə ciddi hazırlıq işləri aparıldıqdan sonra iyunun 28-də düşmən üzərinə hücuma başlamaq olar. Yəni, bu döyüş onun Göyçaya gəlməsindən təxminən bir həftə sonra başlamalı idi. Bu bir həftə ərzində o doğrudan da çox böyük hazırlıq işləri apardı. Azərbaycandfa mövcud olan qüvvələr demək olar ki, əsasən, Qaraməryəm ətrafına cəlb edildi və burada kifayət qədər gücə malik olan bir qüvvə yaradıldı. Qeyd etmək lazımdır ki, Azərbaycana əlavə türk qüvvələrinin yaxın zamanlarda gətirilməsi real olmadığı üçün Azərbaycanın bölgələrindən toplanmış olan könüllü qüvvələr döyüşlərə cəlb edildi. Mürsəl bəy çalışırdı ki, hər şeyi nəzərə alsın, heç bir məqam diqqətdən kənarda qalmasın və döyüşə hazırlıq işləri bütöv şəkildə aparılsın. Hadisələrin sonrakı inkişafı da göstərdi ki, Mürsəl byə bu istiqamətdə doğrudan da əhəmiyyətli işlər görmüşdü.

Düşmən qüvvələrinin də Mürsəl bəyin rəhbərliyi altında görülən işlərdən xəbəri var idi. Onlar Mürsəl bəyi qabaqlamaq və onu qəfildən çıxılmaz vəziyyətə salmaq üçün iyunun 27-də səhər tezdən hücuma başladılar. Belə qəfil hücum doğrudan da ilk saatlarda türk-Azərbaycan qüvvələrində bir çaşqınlıq yarada bilmişdi. Bolşevik-daşnak qüvvələri hətta 10-cu alayın sol cinahına çıxaraq onu mühasirə etmək təhlükəsi yaratmışdı. Vəziyyətdən xəbərdar olan kimi Mürsəl bəy özünün ehtiyatında saxladığı bir taboru 10-cu alay komandirinin sərəncamına göndərdi və bununla da təhlükəli vəziyyəti aradan qaldırdı. Düşmən qüvvələri eyni zamanda 13-cü alayın sağ cinahında təhlükəli vəziyyət yaratmışdı. Həmin vəziyyət də Mürsəl bəyin müdaxiləsi ilə aradan qaldırıldı. Bu dəfə o ehtiyatda saxladığı Azərbaycan könüllü dəstələrini 13-cü alaya köməyə göndərdi. Müsüslü dəstəsindən Qaraməryəm ətrafına əlavə qüvvələr gətirildi. Gün ərzində bölgədə gərgin döyüşlər getdi. Saat 18-də Mürsəl bəy 10-cu alay komandirinə əmr etdi ki, bütün qüvvələrini səfərbər edərək əks-hücuma keçsin və düşməni geri oturtsun. 10-cu alayın qüvvələri dərhal belə bir hücuma keçdilər və qısa müddət ərzində düşmən qüvvələrini üç kilometrədək geri atmağa müvəffəq oldular. Ancaq hava qaralanda 10-cu alayın təhlükəsizliyinin təmin edilməsi üçün Mürsəl bəy onun əvvəlki mövqelərə geri çəkilməsi barədə əmr verdi.

İyunun 28-də bolşevik-daşnak qüvvələri aldıqları zərbədən özlərinə gələ bilmədilər. Onların iradəsi artıq qırılmışdı. Bunu Mürsəl bəy də hiss edirdi. O, yaranmış müsbət vəziyyətdən istifadə edərək uğurları genişləndirmək, düşmənə güclü zərbə vurmaq niyyətində idi. Ona görə iyunun 28-də yenidən qüvvələrin bərpasına diqqət yetirildi. Əsgər və zabitlərin bu döyüş zamanı qarşılaşdıqları çətinliklərdən biri içməli suyun çatışmaması idi. Havaların həddən artıq isti olması isə susuzluğu son dərəcə kəskinləşdirmişdi. Bu məsələni həll etmək üçün Mürsəl bəy Göyçay əhalisini səfərbər etmiş və onların vasitəsilə arabalara yerləşdirilmiş taxta çəlləklərdə cəbhə xəttinə su daşınırdı. Bundan əlavə, Mürsəl bəy Müsüslü dəstəsindən bir süvari bölüyünü Qaraməryəm ətrafına gətizdirdi və bu bölməni Bığır kəndi ətrafında yerləşdirdi. Azərbaycan korpusundan iki ədəd səhra topu döyüş xəttinə çıxarıldı. Başqa zəruri hazırlıq işləri görüldükdən sonra Mürsəl bəy ayın 29-da düşmən üzərinə hücum etmək barədə əmr imzaladı. Həmin əmrdə bildirilirdi ki, 10-cu və 13-cü alaylar səhər tezdən hücuma başlamalı və düşmənin cinahlarını tutmağa çalışmalıdır. Süvari dəstələr də

sürətlə hücuma qoşularaq düşmən müdafiəsini yarmağa diqqət yetirməli idilər. Mürsəl bəy Müsüslü dəstəsinə tapşırdı ki, həmin gün bu dəstə də dəmir yolu boyunca olan düşmən qüvvələri üzərinə hücum etsin və həmin qüvvələrin Qaraməryəm istiqamətinə kömək göndərməsinə imkan verməsin.

İyun ayının 29-da səhər tezdən Qafqaz İslam Ordusu hissələrinin daha böyük uğurla nəticələnən döyüşü başladı. Döyüşə qoşulan hissə və bölmələrin mübarizlik əzmi, qətiyyəti və yüksək əhval-ruhiyyəsi nəticəsində elə ilk anlardan təşəbbüs ələ alındı. Şosse yolu boyunca hərəkət edən 13-cü alayın sol cinahındakı döyüşçülərin əzmkarlığı ilə onların qarşısında olan düşmən geri çəkilmək məcburiyyətində qaldı. Bu alayın önündə olan bolşevik-daşnak qüvvələri də təzyiqə davam gətirməyib mövqelərini tərk etdilər. 10-cu alayın döyüşçüləri də düşmənə heç bir imkan vermədi və cəbhə boyu başlanan uğurlu hücum onlar tərəfindən də davam etdirildi.

Mürsəl bəy döyüşün gedişini çox diqqətlə izləyirdi. Qazanılan uğurların daha da genişləndirilməsi və möhkəmləndirilməsi üçün hələ döyüş başa çatmamış o, növbəti bir əmr imzalayaraq hissə və bölmələrin komandirlərinə çatdırdı. Həmin əmrdə Mürsəl bəy hissə komandirlərinin nəzərinə çatdırırdı ki, düşmən qüvvələri geri çəkilsə də bir çox mühüm mövqeləri əllərində saxlamaqdadır. Ona görə də o tələb edirdi ki, ən yaxın vaxtlarda bu mövqelər də ələ keçirilsin. Bu məqsədlə 10-cu alay Sultankənd istiqamətindəki təpələrdə qalan düşmən qüvvələrini, 13-cü alay Bığır bağlarının şərqindəki təpələrdə qalan düşmən qüvvələrini məhv etməli, milli süvari qüvvələr düşmənin cinahlarına və arxasına istiqamətlənmiş hücumunu, Müsüslü dəstəsi isə Kürdəmir ətrafındakı bolşevik-daşnak qüvvələrinin diqqətinin yayındırılmasını davam etdirməli idilər.

Döyüşlər axşam saat 18.15-dək davam etdi və Qırmızı ordu hissələrinin məğlubiyyəti ilə başa çatdı. Nəticədə Qaraməryəmin qərb hissəsi tamamilə, şərq hissəsi isə qismən Qafqaz İslam Ordusu hissələrinin nəzarəti altına keçdi. Gün ərzində gedən döyüşlər barəsində Mürsəl bəy axşam Azərbaycan korpusunun komandanı Ə.Şıxlinskiyə belə bir raport göndərdi:

> 1.Düşmən bütün firqə cəbhəsində sarsılmış, on üçüncü və onuncu alayların cəbhəsindən cəkilməkdə olub pək cüzi bir qismi qalmaqdadır;
>
> 2. Sultankənddən gələn və 10-cu alayın sol cinahındakı hakim sırtlardan keçən yolun tərəfeyni 150 qədər düşmən piyadası tərəfindən tutulmuş olduğundan onuncu alay qüvveyi-küllüyəsi ilə məzkur sırtları əldə etməyə və bu sürətlə düşməni əhatəyə başlamışdır. Səhra topçu taqımı 10-cu alayın bu təərrüzünü təshil etmək üzrə məzkur yolun tərəfeynindəki düşmən məvazisini atəş altına alacaqdır.
>
> 3. On üçüncü alayın qarşısında bulunan düşmən topçusu və süvarisi ilə bir qisim piyadası və yalnız Bığır bağçalıqları şərqindəki təpələrdə cüzi piyadası səbat etməkdədir. Milis süvari alayına atəş edən düşmənin iki topu təbdili-mövzüyə icbar edilmiş və müəssər atəşimizlə təqib olunmuşdur. Bu topçu şimdi onuncu alayın sağ cinahı qarşısına gələrək şosse üzərində mövzü almışdır.
>
> 4. On üçüncü alay qarşısında pək cüzi olan düşmən piyadasına hücum edərək bu düşməni əsir alacaqdır. Bu alayın şədid və cəsuranə bir surətdə icra edəcəyi bir irəli hərəkətlə düşmənin nəzər-diqqətini onuncu alay üzərindən kəndi üzərinə cəlb edəcək və onuncu alayın işini təshil edəcəkdir...

Qırmızı ordu komandanlığı Mürsəl bəyin təşkil etdiyi hücum qarşısında uğursuzluğa düçar olmasını etiraf etmək məcburiyyətində qaldı. Ancaq Qırmızı ordu rəhbərləri

görünür, Mürsəl bəyin rəhbərliyi altında Qafqaz İslam Ordusu hissələrinin bu uğurunu heç də məntiqi saymırdılar. Onlar cəbhədə vəyizzəti yenidən öz xeyirlərinə dəyişəcəklərinə əmin idilər. Buna görə də səhərisi gün, yəni iyun ayının 30-da 1000 nəfərlik dəstə, iki ədəd top və iki ədəd pulemyotla saat 6.15-də Pezəvənd kəndi istiqamətindən gözlənilmədən Göyçay qəsəbəsi üzərinə hücuma keçdilər. Bolşevik-daşnak qüvvələrinə erməni Əmirov rəhbərlik edirdi. Bu hücum elə qəfil və sürətlə baş verdi ki, qısa vaxt ərzində bolşevik-daşnak qoşunları Göyçayın şimal məhəllələrini işğal edə bildilər.

Çox güman ki, Mürsəl bəy Göyçaydan xeyli uzuğa atılmış düşmən qüvvələrinin belə bir manevr edəcəklərini, bir gün əvvəl aldıqları zərbədən sonra sürətli hücuma keçəcəklərini gözləmirdi. Çünki Göyçayın həndəvərində heç bir ehtiyat qüvvə saxlanılmamışdı. Mürsəl bəy bütün qüvvələri düşmənlə təmas xəttinə atmışdı. Bolşevik-daşnak qüvvələri bunu vaxtında və dəqiqliklə qiymətləndirə bilmiş və bütün gecəni çətin dağ yolları ilə cinahla irəliləyərək səhər tezdən Göyçaya hücum etmişdilər. Bu çox incə düşünülmüş plan idi. Onun həyata keçirilməsinə kifayət qədər ardıcıllıq və hərbi duyum nümayiş etdirilsəydi Göyçay qəsəbəsi işğal edilər və Mürsəl bəyin qüvvələri də mühasirəyə düşə bilərdilər. Ancaq Mürsəl bəyin və onun silahdaşlarının düzgün qərarları, mübarizliyi və əzmkarlığı bir daha göstərdi ki, cəbhədə hərbi təşəbbüsün ələ keçirilməsi heç də təsadüfi hal deyildi.

Mürsəl bəy bolşevik-daşnak qüvvələrinin qarşısını saxlamaq üçün gecə ikən Qazaxdan gəlib çıxmış Azərbaycan süvarilərinə irəli getmək əmri verdi. Sonra isə Qaraməryəm ətrafındakı qüvvələrlə əlaqə saxlandı. Oradan Göyçaya kömək göndərilməsini tələb etdi. Cəbhə xəttində firqə ehtiyatı kimi saxlanılan 25-ci taborun və bir rus səhra top taqımının dərhal Göyçaya göndərilməsinə əmr verdi. Eyni zamanda Ağdaş mövqe komandanı Ehsan bəyə göstəriş verildi ki, orada toplanan süvarilər, piyadalar və məntəqədəki toplar dərhal Göyçaya göndərilsin. Mürsəl bəy yaranan vəziyyət barədə həm Nuru paşaya, həm də Ə.Şıxlinskiyə məlumat verdi və onlardan kömək istədi. Mürsəl bəy Ə.Şıxlinskidən xahiş etdi ki, Ağdamda minbaşı Ehsan bəyin komandası altında toplanmış süvariləri, habelə Gəncədə toplanmış könüllü dəstələri tezliklə Göyçaya göndərsin.

Mürsəl bəyin yanında onun qərargahının mühafizəsini təmin edilməsi üçün yalnız qərargah mühafizə taqımı qalmışdı. Bu taqım da hücum olan istiqamətə göndərildi. Mürsəl bəy isə qərargahı ilə birlikdə qəsəbəni tərk etməli oldu. Qaraməryəmə doğru irəliləyən Mürsəl bəy köməyə tələsən 25-ci taborla üzləşdi. O elə buradaca taborun vəzifəsini bir də dəqiqləşdirdi, düşmən qüvvələrinin hansı yüksəkliklərdə mövqe tutduğunu nişan verdi.

Göyçayda vəziyyətin mürəkkəbləşməsi xəbərini alan kimi, Nuru paşa da bir sıra tədbirlərə əl atdı və Göyçaya əlavə qüvvələrin göndərilməsi üçün bütün imkanları səfərbər etdi. Qısa vaxt ərzində ora yenə əlavə qüvvələr yola salındı.

Yaranmış vəziyyətdə istər Nuru paşanın, istərsə də Mürsəl bəyin göstərdiyi operativlik və çeviklik, Göyçayın müdafiəsi üçün zəruri olan qüvvələrin vaxtında bura gətirilməsi, türk-Azərbaycan qoşun hissələrinin mübarizliyi Əmirovun rəhbərliyi altında olan bolşevik-daşnak qüvvələrinin göstərdiyi bütün cəhdləri nəticəiz qoydu. Mürsəl bəyin Ordu komandanlığına verdiyi məlumatdan aydın olurdu ki, o, Göyçayda vəziyyətin mürəkkəbləşməsini müvəqqəti hal sayırdı. Mürsəl bəy gördüyü hazırlıq işləri ilə qarşısına ciddi planlar qoymuşdu – Göyçayı azad etmək və sonra da düşmənə güclü zərbə vurub onu geri atmaq. Qarşıda dayanan planları o aşağıdakı kimi xarakterizə

edirdi:

> Pezəvənd və Qırdadul köyləri və civarındakı erməniləri tamamən tədib və tənkil etmək, gecəleyn Qaraməryəmin şimalındakı Kürdkəndində toplanacaq olan onuncu Qafqaz alayından bir tabor piyada, bir makinalı taqım və iki topdan ibarət müfrəzənin İvanovkaya göndərilərək o məntəqədəki erməniləri də tədib etmək, bu əsnada firqənin geri xidmətini tənzim edərək bir kaç gün sonra hərəkata təkrar başlamaq və hərəkatın davamında Göyçay müfrəzəsi də oradakı işini bitirmiş olacağından firqənin sol cinahını təmin etmək və firqəyə müvazi hərəkət eyləmək üzrə Şərqə doğru yürümək.

Cəbhə xəttindən gətirilmiş 25-ci tabor və topçu taqımı, Ağdaşdan gəlmiş milli süvari və piyada qüvvələri və Nazim bəylə Gəncədən gəlmiş süvarilər birlikdə Göyçaya girmiş olan qüvvələrə ağır zərbə vurub onları geri qaçmağa məcbur etdilər. Vəziyyətin daha da mürəkkəbləşə biləcəyindən ehtiyatlanan Mürsəl bəy cəbhə xəttində olan 10-cu alaya da Göyçaya doğru irəliləmək əmri verdi. Lakin bu hissə Veysəlliyə çatana kimi Göyçay artıq düşməndən təmizlənmişdi. Ona görə də Mürsəl bəy 10-cu alaya yenidən Qaraməryəmə qayıtmaq əmri verdi. Mürsəl bəy burada döyüşü elə təşkil etdi ki, düşmən nəinki Göyçaydan geri atıldı, həm də onun iki topu və pulemyotu ələ keçirildi.

Bolşevik-daşnak qüvvələri Göyçaydan çıxarılsa da onlar qəsəbədən 5-6 kilometrlik bir məsafədə qərar tutmuşdular. Səhərisi gün, yəni iyulun 1-də qüvvələr yenidən hərəkətə gələrək irəliləməyə cəhd göstərdilər. 5-ci Qafqaz firqəsi ərkani-hərb rəisi Rüşdü bəy bu hücumda bolşevik-daşnak qüvvələrinin 25-ci taborun mövqelərini atəşə tutduğunu, ancaq heç bir nətcə əldə edə bilmədiyini yazır.

Beləliklə, Göyçay və Qaraməryəm ətrafında iyunun 27-30-u arasında baş verən döyüşlər bolşevik-daşnak qoşunlarının məğlubiyyəti ilə başa çatdı və bu hissələr Ağsuya tərəf sıxışdırıldılar. Həmin döyüşlər cəbhədəki dönüş nöqtəsinin başlanğıcını qoydu. Qırmızı ordunun hücumları dayandırıldı və onlar dərin müdafiəyə çəkildilər. Mürsəl bəyin və onun silahdaşlarının gərgin zəhməti nəticəsində bolşevik qüvvələrinə güclü bir zərbə vuruldu və bu döyüşdən sonra onlar bir daha hərbi təşəbbüsü əsaslı şəkildə ələ ala bilmədilər. Döyüşlərə uğursuzluqla başlayan Qafqaz İslam Ordusu hissələri, habelə hərbi əməliyyatlara qoşulan Azərbaycan könüllüləri Göyçay ətrafındakı döyüşdən sonra müdafiə vəziyyətindən çıxıb hücuma keçdilər. Sovet tarixşünaslığında Qafqaz İslam Ordusu hissələrinin Göyçay ətrafındakı uğuru onların say üstünlüyü ilə izah edilsə də döyüşdə hansı hissələrin və qüvvələrin iştirak etməsi, onların say tərkibinin nəzərdən keçirilməsi Göyçay ətrafındakı döyüşlərdə Qafqaz İslam Ordusu qüvvələrinin say üstünlüyünə malik olmadığını sübut edir. Əvvəlki döyüşlərin nəticələrinin ciddi şəkildə götür-qoy edilməsi həm Nuru paşa, həm də Mürsəl bəy və onun silahdaşları tərəfindən vəziyyətin düzgün qiymətləndirilməsi və vəziyyətə uyğun tədbirlər həyata keçirilməsi tezliklə hərbi şəraitdə dönüşün əmələ gəlməsinə imkan verdi. Qafqaz İslam Ordusunun bütün zabitləri, o cümlədən Mürsəl bəy bu döyüşlərin gedişində sübut etdi ki, onun bacarığı və döyüşü aparmaq qabiliyyəti boşevik-daşnak komandirlərinin qabiliyyətindən üstündür. Göyçay-Qaraməryəm ətrafındakı döyüşlərin nəticəsi həm də Mürsəl bəyin iradəsinin, qətiyyətinin və mübarizliyinin nəticəsi idi. Onun keçirdiyi gərgin və həyəcanlı günlər artıq arxada qalmışdı və irəlidə onu yeni-yeni qələbə sevincləri gözləyirdi.

Göyçay ətrafındakı döyüşlərdən sonra tərəflər öz qarşısında dayanan vəzifələrə nail olmaq üçün verilən itkiləri bərpa etmək, qarşı tərəflə müqayisədə daha böyük qüvvə üstünlüyü yaratmaq üzərində düşünürdülər. Bolşevik-daşnak qoşunları hərbi təşəbbüsün

yenidən ələ alınması, Qafqaz İslam Ordusu qüvvələrinin müqavimətinin sındırılması məsələsini həll etməli idisə, Qafqaz İslam Ordusu komandanlığı da əldə olunan uğurları genişləndirmək, bolşevik-daşnak qüvvələrinin artan müqavimətini qırmaq, əlavə qüvvələr əldə etmək məsələsi üzərində düşünürdü.
İtirilmiş təşəbbüsü geri qaytarmaq üçün bolşevik-daşnak rəhbərliyi də güclü hazırlıq işləri görürdü. Onlar Moskvaya arxalanaraq cəbhə xəttinə əlavə hərbi qüvvələr gətirilməsinə nail olmuşdular. Bundan başqa bolşeviklər rus ordusunun İrandakı qoşun hissələrindən birinə komandirlik edən Lazar Biçeraxovun rəhbərliyi altında olan qüvvənin Azərbaycana gətirilməsinə də böyük ümidlər bağlayırdılar. Doğrudur, Biçeraxov birbaşa Mürsəl bəylə üzbəüz gəlmədi. Onun dəstəsi dəmir yolu xətti boyunca yerləşdirildi. Ancaq həmin dəstənin gəlməsi ümumən bolşevik-daşnak qüvvələrinin gücünü artırırdı ki, bu da türk-Azərbaycan qüvvələrinin cəbhədəki fəaliyyətinə ümumi rəhbərlik edən Mürsəl bəyin qayğılarını artırırdı.
İyul ayının 4-də Mürsəl bəy Qaraməryəm ətrafındakı kəndlərin erməni silahlılarından təmizlənməsi ilə məşğul oldu və beləliklə, Ağsu üzərinə irimiqyaslı hücumu həyata keçirmək üçün zəruri mövqelər tutuldu.
İyulun 5-də Ağsu-Kürdəmir xəttinin tutulması üçün Qafqaz İslam Ordusu hissələrinin hücumu başladı. Strateji təşəbbüsün ələ alınmasında bu döyüşün böyük əhəmiyyəti olduğu üçün Ordu komandanı Nuru paşa da Ağsu cəbhəsinə gəldi. 5-ci Qafqaz diviziyası komandiri Mürsəl bəyin imzaladığı döyüş əmrində hissə və bölmələr qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu: Müsüslü dəstəsi qarşında dayanan düşmənin daha zəif cinahını adlamaq şərtilə Kürdəmirə doğru irəliləmək və bu məntəqəni ələ keçirmək. Mürəttəb süvari alayı ona verilmiş bölmələrlə Xəlilli-Qarasaqqal istiqamətində hərəkət etməli, Kürdəmir-Ağsu xəttini keçərək Kürdəmir uğrunda aparılan döyüşün uğuruna yardım etməli idi. 13-ci piyada alayının qarşısına Şamaxı-Ağsu xəttini işğal etmək vəzifəsi qoyulmuşdu. Alay komandanlığı sol cinaha diqqəti xüsusilə artırmalı idi. 10-cu piyada alayı İvanovkada olan dəstəsini geri çəkərək Kəlağayılı və Ağsunun şimalındakı dağlarda olan düşmən qüvvələrinin cinahını əhatə edərək Gürcüvana doğru hərəkət etməli idi. Göyçay dəstəsi də irəli hərəkət edərək firqənin arxasında qala biləcək erməni dəstələrini məhv etməli idi. Bu dəstə sonra da İvanovka-Qoşakənd xətti ilə irəliləyib firqənin əsas qüvvələri ilə birləşməli idi.
Mürsəl bəy belə düşümüşdü ki, 13-cü alay Ağsu cəbhəsinin sağ cinahı, 10-cu alay isə dağlardan keçən sol cinah ilə irəliləyib düşmənin cinahlarını adlasın və onu mühasirə vəziyyətinə salsın. Düşmənin burada güclü zərbə alması Kürdəmir istiqamətindəki döyüşün də uğurla sona çatmasına kömək edə bilərdi. İyulun 5-də başlanan döyüşdə 13-cü alay müəyyənləşdirlmiş mövqelərə çıxsa da 10-cu alay çətin dağ şəraiti ilə irəlilədiyi üçün nəzərdə tutulmuş mövqelərə xeyli gec gəlib çıxdı. Ona görə də iyulun 5-də Mürsəl bəyin döyüş əmri ilə müəyyənləşdirilən vəzifələr tamamilə yerinə yetirilmədi. Onda Mürsəl bəy bildirdi ki, hər iki alay tutduqları mövqelərdə gecələyib səhər tezdən hücumu davam etdirsinlər. Ancaq istər 10-cu alay, istərsə də 13-cü alay gün ərzində irəli hərəkətləri zamanı düşmən dəstələri ilə rastlaşmış və onların müqavimətini qırmışdılar. Bu da heç şübhəsiz ki, bolşevik-daşnak qoşunlarının ümumi əhval-ruhiyyəsinə öz təsirini göstərirdi.
İyulun 6-da davam edən döyüşlər həm 10-cu, həm də 13-cü alaylar üçün uğurla başladı. 13-cü alay tezliklə Ağsuya yaxınlaşdı. Bolşevik-daşnak qüvvələri ixtiyarlarında olan zirehli avtomobillərdən başqa bir təyyarədən də istifadə ediləməsinə əl atsalar da İslam Ordusu hissələrinin müzəffər yürüşünün qarşısını ala bilmədilər. Günorta üstü 13-cü

alay artıq Ağsuda idi. Ancaq alay öz hücumunu dayandırmayıb Şamaxıya uzanan yolun yoxuşuna qədər irəlilədi. 10-cu alay isə şimalla irəliləyərək Ağsudan Şamaxıya qaçmaq istəyən düşmənə güclü zərbə endirdi. Alayın sərəncamına verilmiş könüllü milli süvarilər geri qaçan düşməni xeyli təqib etdilər. Bolşevik-daşnak silahlıları canlarını bu süvarilərin əlindən güclə qurtardılar. Ağsu ətrafında düşmənin 100-ə qədər süvarisi və piyadası qalmışdı. Şamaxı yolu tutulandan sonra onlar Kürdəmirə çəkilməyə cəhd göstərdilər. Çünki onların başqa çıxış yolu da qalmamışdı. 10-cu alay Gürcüvan kəndini tutaraq öz mövqelərini orada yerləşdirdi. Döyüşün gedişində bir səhra topu, bir cəbbəxana arabası, 5 ədəd pulemyot, 30-a qədər silah, talan edilən əhalinin var-yoxu ilə doldurulmuş 10-15 nəqliyyat arabası və s. ələ keçirildi.
Ayın 6-da Müsüslü cəbhəsində yenə də bir ciddi irəliləyişə nail olunmadı. Yalnız Ağsu cəbhəsindən köməyə gəlmiş 46-cı piyada taboru ilə mürəttəb süvari alayından ibarət Həsən bəy dəstəsi Qaraqoyunluda Ağsu ilə Kürdəmirdə cəmləşən düşmənin rabitə xəttini qırdı. Həsən bəyin dəstəsinin buradakı cəbhə xəttinə yerləşməsi ayın 7-də gözlənilirdi. Ayın 7-də döyüşlərin əsas ağırlığı da elə Müsülü cəbhəsinə keçirildi. Həmin gün Müsüslü dəstəsinə dəmir yolu boyunca, Həsən bəy dəstəsinə isə şimaldan irəliləməklə Kürdəmiri tutmaq vəzifəsi qoyulmuşdu. Qafqaz İslam Ordusunun əsas qüvvələri Ağsu ətrafında cəmləşdiyindən Kürdəmir üzərinə hüum edən qüvvələr L.Biçeraxovun dəstəsi və zirehli avtomobilləri ilə gücləndirilmiş Qırmızı ordunun müqavimətini qırmağa bəs etmədi.
Qeyd etmək laızmdır ki, dəmir yolu boyunca hərəkət edən Müsüslü dəstəsi tərkibi baxımından əksərən Azərbaycanın milli qüvvələrindən təşkil edilsə də əməliyyat baxımından Mürsəl bəyin rəhbərliyi altında idi. Ona görə Mürsəl bəy bu dəstənin fəaliyyətini də ciddi nəzarət altında saxlayır və iki istiqamətdə hərəkət edən qüvvələrin ümumi fəaliyyət birliyini qorumağa çalışırdı. Ancaq irəliyə doğru hərəkət etdikcə qüvvələr arasındakı məsafə artdığından cəbhə xəttində yeni bir qruplaşma aparılması zərurəti yarandı. Çünki qüvvələr aralandıqca onların çevik idarə edilməsi, sürətli manevrlər aparılması xeyli çətinləşirdi. Nuru paşa hələ iyulun 14-də Mürsəl bəyə göndərdiyi teleqramında soruşurdu ki, dəmir yolu boyunca hərəkət edən dəstə ilə şimaldakı dəstə ayrı-ayrı komandalara bölünəcək, yoxsa firqə tərkibində bir komanda halında qalacaqdır? Ordu komandanı dəstələrin ayrı-ayrı komandalara bölünəcəyi halda həmin komandalara rəhbərliyin kimlərə tapşırıla bilməsi barədə Mürsəlı bəyin təkliflərini də öyrənmək istəyirdi.
Təcrübə də göstərirdi ki, zərurət yaranan vaxt hissələrin bir istiqamətdən digərinə atılması həm fiziki imkanların məhdudluğu üzündən münasib deyildi, həm də bir istiqamətdə qüvvələrin gücləndirilməsi ilə digər istiqamətdə qüvvələr zəifləyirdi. Güclü düşmənə qarşı belə bir şəraitdə mübarizə aparmaq isə heç də həmişə müsbət nəticələr verə bilməzdi. Ona görə də cəbhə xəttində olan hissələr və bölmələr iki taktiki qrupa bölündü. Həmin qruplar  Şimal (quzey) və Cənub qrupu (güney) adlandırıldılar. Şimal qrupu Şamaxı üzərindən Bakıya doğru irəliləməli idi. Qrupun komandanı 10-cu piyada alayının komandiri yarbay Osman bəy təyin edildi. Cənub qrupunun komandanlığına isə Həbib bəy Səlimov təyin edildi. Şimal və Cənub qrupları da öz növbəsində Şərq Cəbhəsi Komandanlığı altında birləşdirildi və Cəbhənin komandanı da Mürsəl bəy təyin edildi. O, Şamaxı-Bakı şosse yolu üzrə irəliləyən qüvvələrlə birlikdə hərəkət edirdi və cəbhədə qüvvələrin qruplaşması aparıldıqdan sonra Şamaxının azad edilməsi Mürsəl bəyin əldə etdiyi ən əhəmiyyətli uğurlardan biri idi. Mürəkkəb bir coğrafi şəraitdə yerləşən Şamaxının azad edilməsi həm qoşunlardan çox böyük gərginlik tələb edirdi,

həm də buraların əhalisində erməni xofunu birdəfəlik silib atmalı idi. Şamaxı eyni zamanda Bakıya doğru hücum üçün başlıca baza hesab edildirdi.

Cəbhədə hələ struktur dəyişikliyi aparılmadığı zaman Nuru paşa Mürsəl bəyə göndərdiyi teleqramında tələb edirdi ki, Şamaxı-Bakı yolunun üzərindəki, Şamaxının cənubundakı Göylər kəndinə üç qoşun növündən ibarət və süvarisi daha çox olan bir dəstə göndərsin. Onun fikrincə, Şamaxı ətrafındakı Azərbaycan kəndlərinin əhalisi silahlı idi. Qafqaz İslam Ordusu bölmələri kəndə daxil olduğu təqdirdə yerli əhali onlara sığınıb böyük müqavimət dəstələri təşkil edər və ümumi mübarizəyə öz paylarını verərdilər. Tezliklə Şamaxı üzərinə irimiqyaslı hücumu həyata keçirmək qərara alındı. Həmin hücum iyulun 19-da başlanmalı idi. Mürsəl bəyin Şərq Cəbhəsi komandanı kimi imzaladığı ilk sənədlərdən biri olan bu döyüş əmrində deyilirdi:

> 1.Cənub qrupu qarşısında düşmənin 200 süvarisi və 700 piyadasıyla zirehli qatar və zirehli avtomobillər vardır. Şimal qrupu qarşısında 2-3 tabor piyada, bir kaç top və makinalı tüfəng vardır. Bakıdan Dağıstana və Şamaxıya təqviyyə qüvvətləri göndərildiyi də müstəxbərdir.
>
> 2.Şimal qrupu 19.7.334-də qarşısında düşməni imha etmək üzrə təərrüzə keçəcəkdir. Bunun üçün qrupun əmrinə verilən 13-cü alay şifahən görüşüldüyü vəchlə - düşmənin xətti-ricətinə düşəcək surətdə sövq olunmalıdır.
>
> 3.Cənub qrupu düşmənin təərrüzünü dəf edəcək surətdə hazır bulunmalı və Şimal qrupunun yapacağı təərrüzə düşmənin qüvvət ifraz etməsinə və göndərilməsinə mane omalıdır. Binaənəleyh təərrüz nümayişi yapacaq və düşmən çəkilərsə üstünə atılacaqdır.
>
> 4. 38-cialayın birinci taboru, mürəttəb süvari alayı və qərargahda bulunan rus dağ taqımı Şərq Cəbhəsinin ehtiyatını təşkil etmək üzrə indilik Ağsuda bulunacaq. Milis süvarilərini, mürəttəb alay komandanı tərtib və tənzim edəcəkdir...

Verilmiş döyüş əmrinə görə, konkret olaraq 10-cu və 13-cü alaylara aşağıdakı vəzifələr verilmişdi. 13-cü alay Ağsu ətrafındakı döyüşqabağı mövqedən Göylər kəndinə tərəf hərəkət etməli, oradan isə Şamaxının şərqinə çıxaraq Şamaxı-Bakı yolunu kəsməli və bolşevik-daşnak qüvvələrinin geri çəkilməsinin qarşısını almalı idi. 10-cu Qafqaz piyada alayı isə Gürcüvan kəndi ətrafındakı döyüşqabağı mövqelərdən birbaşa Şamaxı üzərinə hərəkət etməli idi.

Qafqaz İslam Ordusu qüvvələri döyüş əmrinə əsasən irəli hərəkət etsələr də, hava şəraitinin kəskin şəkildə dəyişməsi və güclü yağışın yağması və qüvvələrin nəzərdə tutulan məntəqəyə çıxmasına imkan vermədi. Nuru paşa isə Mürsəl bəydən sürətlə irəli hərəkət etməyi tələb edirdi.

Nuru paşa İstanbuldan aldığı teleqramın surətini də Şərq Cəbhəsi komandanlığına göndərdi. Həmin teleqram "İstanbuldan alınan məhrəm əmrdən Bakının qayət səri hərəkətlə işğal edilməsinin işar buyurulduğu və buna görə də hərəkət edərək düşməni təqib və əhatədə fəaliyyət göstərilməsi" haqqında idi. Nuru paşanın döyüşün nəticəsindən narazı qalması heç şübhəsiz ki, Mürsəl bəyi narahat edirdi. Ordu komandanının tələbkarlığı yüksək olsa da, doğrudan da yayın bu dövrü üçün gözlənilməz olan əlverişsiz hava şəraiti Mürsəl bəyin verdiyi əmrin bütövlüklə icrasına mane olmuşdu. Ancaq o da aydın idi ki, aparılan döyüş düşmənin iradəsini birdəfəlik olaraq qırmışdı və o ancaq Bakıya doğru qaçmaq barədə fikirləşirdi. Yəni, bolşevik-daşnak qüvvələri artıq Mürsəl bəyin hissələrinin qarşısında duruş gətirə bilmirdilər. Bununla belə, Nuru paşanın bütün tələblərinin tam şəkildə yerinə yetirilməsi üçün Mürsəl bəy səhərisi gün döyüşü davam etdirməyi qərara aldı və bunun üçün müvafiq

döyüş əmri imzaladı:

1.Bu gün icra edilən təərrüzdə Şimal qrupu qarşısındakı düşmən bir müddət müqavimətdən sonra Mədrəsəyə və Mədrəsədən daha şərqə çəkilmişdir. Çəkilən düşmən qüvvəti 800-1000 qədər piyada, üç topdan ibarətdir. Cənub qrupunda sükunət bərdavamdır;

2. Şimal qrupu düşməni təqib edərək Mədrəsə sırtlarında gecəni keçirəcəkdir. Qrup gecəleyn düşməni və Şamaxı caddəsini atəş altına alacaq tərtibatı ittixaz edəcəkdir. Qrup düşmənin müqabil təərrüzünü şiddətlə qarşılayacaq və sol cinahdakı Malağan köylərini də nəzərdən uzaq tutmayacaqdır;

3. Yarın (20.7.1918) saat üçdə Şimal qrupu (Çuxanlı-Məlikçoban) xəttini əldə etmək üzərə düşmənə təərrüz edəcək və bu xəttə vasil olduqdan sonra süvarilər və kəşf qolları ilə təqib edərək düşmənlə təması mühafizə eyləyəcək.

4. Cənub qrupu qarşısındakı düşmənlə təmas edərək Şamaxıda məğlub ediləcək düşmənə, qüvayi-imdadiyyə və təqviyyə qüvvəti ifraz etdiyini anlar-anlamaz təərrüz edəcək;

5. Firqə ehtiyatı olan 38-ci alayın birinci taboru və rus dağ taqımı Şərədil posta mövqeyində və mürəttəb süvari alayı Ağsuda gecəni keçirəcəkdir...

Beləliklə, iyul ayının 20-si üçün Şimal qrupuna Çuxanlı-Məlik Çoban məntəqələri arasındakı mövqelərə çıxmaq və düşmən qüvvələrini təqib etmək tapşırığı verilmişdi. Baxmayaraq ki, hava yenə çox yağmurlu keçdi, ayın 19-da başlanan uğurlu hücum ayın 20-də davam etdirildi. Düşmənin bütün müqavimətini qıran Şimal qrupu Çuxanlı-Məlikçoban xəttinə çıxa bildi.

Mürsəl bəyin iyulun 21-i üçün imzaladığı döyüş əmrinə görə, düşmənin təqibi davam etdirilməli idi. Şimal qrupuna Mərəzə kəndinə çıxmaq əmri verilmişdi  Həmin əmrdə Mürsəl bəy yazırdı:

1.Məğlub düşmən Mərəzə istiqamətində ricət etmiş və bir-çox qənaim əldə edilmişdir. Göylər-Sığır yolu üzərində düşmənin 300 qədər süvarisi görülmüşdür.

2.Şimal qrupu yarın (21.07.1918) saat üçdə Qalıcan dağı – Qurbançının qərbi – Mərəzənin şərqi xəttinə vasil olmaq üzrə hərəkəti-təərrüzünə davam edəcək və süvariləriylə düşməni təqib eyləyəcəkdir;

a) Qrup sağ cinahını uzaqlara qədər kəşf etdirməli;

b)Mətlub xəttə vasil olduqdan sonra Hilmili istiqamətinə bir müfrəzə sövq olunaraq o tərəfə qaçan erməniləri istisal edilməli;

3. Cənub qurpu düşmənin şimala qüvvət ifraz və izamına mənn olmaq üçün yarın nümayişi-təərrüzədə bulunacaq və düşmənin cinah və gerilərinə qüvvətli zabit kəşf qolları sövq edərək kəşfiyyata bulunacaqdır;

4. Düşmənin ricətini firara inqilab etdirilməsi üçün Şimal qrupu piyada, makinalı tüfəng və topdan ibarət səbükbar bir təqib müfrəzəsini həmin təqib edərək Mərəzə istiqamətində sövq etməli və bu qüvvət vəziyyəti müsaid bulursa gecə basqınından çəkinməlidir;

5. Cəbhə ehtiyatı olan 38-ci alayın birinci taboru və rus dağ top taqımı Şamaxıya yürüşünə davam edəcək, Ağsudakı mürəttəb süvari alayı 21/22 temmuz gecəsi Qaraxanlıda keçirəcək, süvari alayı Göylər istiqamətinə bir zabit kəşf qolu sürərək kəşf və təərrüzdə bulunduracaq;

6.Səhiyyə bölüyü yürüşünə davam edərək Şamaxıya gələcək, əkməkçi taqım və 24-cü səyyar xəstəxana əski yerlərində qalacaq;

7. Teleqraf taqımı Şamaxıya qədər teleqraf xəttini təmin edəcəkdir;

8. Süvari alayı əmrin bir surətini səhiyyə bölüyünə göndərəcəkdir;

9. 20/21 temmuz gecəsini Şərq Cəbhəsi qərargahı Şamaxıda keçirəcəkdir.

Bolşevik-daşnak qoşunları elə bir təlaş içindəydilər ki, yalnız geri çəkilmək barəsində düşünürdülər. Ona görə də Mürsəl bəyin döyüş əmrinin yerinə yetirilməsi üçün xüsusi fəalyyət göstərmək ehtiyacı qalmadı. İyulun 21-də günorta üstü Mərəzə kəndi yaxınlığında tərəflər arasında yüngül bir döyüş oldu. Qırmızı ordu bölmələri bu döyüşdə də lazımi müqavimət nümayiş etdirə bilməyərək, yenidən geri çəkilmək məcburiyyətində qaldılar. Onlar Mərəzə kəndini də müdafiəsiz qoydular. Buralarda yaşayan xristian əhali də Qırmızı ordu hissələrinə qoşularaq geri çəkildi.

Qafqaz İslam Ordusu hissələrinin Mərəzə və Sığırlı-Padar məntəqələrini ələ keçirməsi ilə cəbhə boyu bir neçə günlük nisbi sakitlıik yarandı. Təchizat və təminat məsələlərinin həlli üçün istər Şimal qrupu, istərsə də Cənub qrupu üçün belə bir sakitlik böyük əhəmiyyət kəsb edirdi. Xüsusilə də, Şimal qrupunun dəmir yolu xəttindən uzaqlaşması onun təchizat məsələlərinin həllini xeyli çətinləşdirirdi. Bununla bağlı olaraq iyul ayının 22-də Mürsəl bəy Nuru paşaya xüsusi bir məktub göndərdi. Həmin məktubda Mürsəl bəy yazırdı ki, döyüşlərin uğurla aparılması üçün ən azı 15-20 günlük ərzaq ehtiyatı yaratmaq lazımdır. Bunun üçün o, nəqliyyat vasitələrindən ibarət bir dəstənin yaradılmasını və həmin dəstə vasitəsiylə ərzağın Şamaxı istiqamətinə daşınmasını məqsədəuyğun bilirdi. Mürsəl bəy onu bildirirdi ki, artıq Kürdəmir, Ağsu və Şamaxıda ərzaq anbarlarının yaradılması barədə göstəriş vermişdir. Dəmir yolu ilə Kürdəmirə gətirilən ərzaq buradakı anbara yığılmalı və sonra nəqliyyat dəstəsi ilə Ağsuya və Şamaxıya daşınmalı idi. Bu işlərin təşkili üçün Mürsəl bəy tərəfindən ayrıca bir zabit də təyin edilmişdi. Həmin zabitə malağan kəndlərindən araba toplanması, Cənub qrupuna isə Kürdəmirlə Kür çayı arasındakı kəndlərdən araba toplanması tapşırılmışdı. Mürsəl bəy Nuru paşadan onu da xahiş etdi ki, nəqliyyat işlərinin daha asanlıqla həyata keçirilməsi üçün Batum, Qars və Gümrüdə qənimət götürülmüş yük avtomobillərindən bir neçəsinin 5-ci diviziyaya verilməsi barədə yuxarı komandanlıq qarşısında vəsatət qaldırsın. Mürsəl bəy yaxşı bilirdi ki, cəbbəxana və ərzaq ehtiyatları yaradılmadan yenidən ağır döyüşlərə qatılmaq təhlükəli nəticələrə gətirib çıxara bilərdi. Nuru paşa isə mümkün qədər sürətlə irəliləməyin, düşməni hələ təşviş içində olduğu vaxt məhv etməyin tərəfdarı idi. İyulun 23-də o, Mürsəl bəyə yazdığı məktubunda da bu fikrini ifadə etdi.

Nuru paşa Mürsəl bəyə göndərdiyi məktubunda Şimal qrupundan xüsusi bir dəstə düzəldilib Hacıqabuldan Bakıya gedən dəmir yolu xəttinin dağıdılması üçün göndərilməsinin, habelə Cənub qrupunun irəliyə hərəkət etməsinin və Hacıqabulu tutmasının zəruriliyini vurğulayırdı. Hücum edəcək qüvvələrin vəziyyətini və imkanlarını daha yaxşı bilən Mürsəl bəy Ordu komandanının təkliflərinin belə bir şəraitdə həyata keçirilməsinin qeyri-mümkün olduğunu bildirirdi və öz fikirlərini yazdığı məktubunda Nuru paşaya da əsaslandırırdı. Mürsəl bəy Ordu komandanlığından rica etdi ki, Bakı üzərinə qəti hücumun başlanması vaxtı dəyişdirilsin. Onun fikrincə, qüvvələr üçün zəruri olan cəbbəxana hissələrə çatdırılmamaışdı. Kürdəmirə gətirilmiş olan cəbbəxana ehtiyatının lazım olan qədər nəqliyyat vasitələri toplanmadığı üçün hissələrə çatdırılması ləngimişdi. Digər tərəfrdən dəmir yolu xəttinin sökülməsi, körpülərin partladılması üzündən Cənub qrupunun hərəkəti də ləngiməkdə idi. Bu qrup Bakı ətrafına gəlib çatmadan Bakı üzərinə qətiyyətli və səmərəli hücum həyata keçirmək də mümkün deyildi. Ona görə də Mürsəl bəy xahiş edirdi ki, Bakı üzərinə qəti hücumun vaxtı iyulun 28-nə keçirilsin.

Bakıya doğru dayanmadan irəliləməyin tərəfdarı olmaqla Nuru paşa Mürsəl bəyin mövqeyi ilə razılaşdı və qrupların təminat və təchizat məsələlərinin həllinə vaxt verilməsinə etiraz etmədi. Mürsəl bəy Nuru paşaya göndərdiyi məktubunda onun diqqətinə çatdırırdı ki, Mərəzə kəndi əhali tərəfindən tərk edilmişdir. Yerli əhalidən kömək ummaq mümkün deyildi. Ona görə də həm ərzaq ehtiyatını, həm də cəbbəxana ehtiyatını böyük bir çətinliklə arxadan gətirməli olan firqə əvvəlcədən hər çeyi götür-qoy etməlidir. Mürsəl bəy onu da əlavə edirdi ki, Mərəzədən Bakıya qədər olan ərazidə demək olar ki, əhali yaşamır, su mənbələri isə yoxdur.Ona görə də bu məqam da nəzərə alınmalı, arxa xidməti lazımi şəkilkdə tənzimlənməlidir. O yalnız bundan sonra Bakıya doğru irəliləməyin mümkünlüyünü qəbul edirdi. Mürsəl bəyin fikrincə, iyulun 26-na kimi bu hazırlıq işlərini başa çatdırmaq və Bakıya tərəf hərəkətə başlamaq olardı:

1.Mərəzə şərqindəki bir kaç günlük təvəqqüfün əsbabi-müxtəlifə dolayısıyla istirarı olduğunu əvvəlcə ərz etmişdim. Əhalisi hicrət edərək köyləri yakılan və məzruatı idrak edildiyi halda hənuz xırman edilməyən və mənzil təşkilatına malik bulunmayan bir məntəqədə icrayi-hərəkət edən və xütuti-müvasilə və müxabirəsini bizzat tənzim və təmin etmək və cəbbəxanasını son dərəcə müşkülatla gerilərdən cəlb və tədarük etmək məcburiyyətində olan və hətta cəbbəxanasız qalmaq təhlükəsinə belə məruz bulunan firqə şübhəsiz ki, hər şeyi düşünmək, hər şeyi tənzim etmək və ati hərəkatda dəxi müvəffəqiyyətlə meydana çıxmaq əndişəsindədir;

2. İrəlisi qədər gerisi ilə də məşğul olan firqənin sürətlə irəliyə atılması ancaq geri xidəmatının başqa əllər ilə tənzimilə mümkün olacağı məlumi-dövlətləridir. Bu xüsus təmin bulunulduğu dəqiqədə firqə təkmil mövcudiyyətilə həmən təərrüzə keçmiş bulunacaqdır.

3. Qurbançı-Xırdalan mövqeləri arasındakı köydən və binaənəleyh məzruatdan ari və sudan mübərra olmasına rəğmən əsasən düşməni təqib etməkdə olan Şimal qrupu süvarilərinin arxasından bir tabor piyada, iki top və süvarilərdən ibarət bir müfrəzənin bu gün Bakı istiqamətində təhrik edilməsi üçün Şimal qrupu komandanlığına qəti əmr verilmişdir.

4. Cənub qrupu qarşısında çəkilən düşmən dəmir yolunu, körpüləri, su məhəllərini, makasları velhasil əsgərin işinə yarayacaq bütün bina və təsisatı təxrib etdiyi və bu üzdən Cənur qrupu qitəatının düşməni şiddətlə təqib edə bilməyərək qrupun ümumi hərəkatının beş gün davam etməsi mühtəməl xətt təmirindən sonra ola biləcəyi məzkur qrup komandanlığına bildirilmişdir. Binaənəleyh təmiratın təsiri ilə bu cinahın da irəli alınması əmr edilmişdir.

5. Hacıqabulun arxasına almaq üzrə sövq ediləcək müfrəzənin məhəlli-məzkura müvasilatı zamanı şimendifer xəttinin Cənub qrupunca təmir edilərək qitəatın şərqdə hərəkatı anına təsadüf etdirilmək və bu sürətlə Cənub qrupu, Əhməd Həmdi bəyin müfrəzəsi və Şimal qrupundan sövq ediləcək əhatə qüvvətinin tövhidi-hərəkatı mümkün olacaq surətdə ittixazi-tədabir və ihzaratda bulunulmaqdadır;

6. Burada bir kaç günlük təvəqqüf uzun müddətə inhisar etməyəcəkdir. Əfradın üzərindəki dəmirbaş və ehtiyatdan məada 15 günlük ərzağın hər nə surətlə olursa-olsun 26.07.18 sabahına qədər tədarük və toplanmış bulunması və 26.07.18 sabahı hərəkətə keçmək elzəmiyyəti Şimal qrupu komandanlığına əmr olunmuş və firqəcə irəliyə ərzaq sövqü əsbabına təvəssül olunmuşdur. Müddətin tənqisi üçün hər şey yapılacaq və şimdiyə qədər olduğu kmi heç bir fədakarlıqdan dəxi

çəkinməyəcəkdir.

Mürsəl bəy məktubunun sonunda bildirdiyi kimi, onun komandanlıq etdiyi hissə və bölmələrin şəxsi heyəti böyük bir fədakarlıqla qarşıdakı döyüşlərə hazırlaşırdı. Vəziyyət irəliyə doğru hərəkəti bir qədər ləngitsə də Mürsəl bəy yaxşı anlayırdı ki, başqa cür mümkün deyil. Zəruri hazırlıqsız döyüşlərin davam etdirilməsi daha ağır nəticələrə gətirə bilərdi.

Məlumdur ki, Mürsəl bəy Azərbaycana gələndə yarbay rütbəsində idi. 1918-ci il iyul ayının sonunda o, albay rütbəsi aldı. Qafqaz İslam Ordusunda xidmət edən türk zabitlərinə Azərbaycanda olduqları müddətdə fəxri olaraq bir əlavə rütbə verildiyinə görə Mürsəlin rütbəsi də bir pillə artırıldı və o fəxri general (paşa) oldu.

Mürsəl paşa qüvvələrin ərzaq və sursat ehtiyatının bərpası üçün müəyyən edilmiş vaxt başa çatan kimi yenidən Bakıya doğru hərəkətə başladı. İyul ayının 30-da Şimal qrupu artıq Bakı həndəvərində idi. Bakıya qədər hərəkətin davam etdiyi bir neçə gün ərzində isə Mürsəl bəy elə bir müqavimətlə rastlaşmadı. Sürətlə geriyə qaçan düşmən bütün qüvvələrini Bakı ətrafına cəmləşdirərək burada güclü müqavimət xətti yaratmaq istəyirdi. Onlar Bakı ətrafındakı coğrafi şəraitdən istifadə edərək doğrudan da güclü bir müdafiə xətti yarada bildilər.

1918-ci il avqust ayının 1-nə qədər Qafqaz İslam Ordusuna qarşı mövqe tutan qüvvələrə S.Şaumyan və onun ətrafında toplanan bolşevik və erməni ünsürləri rəhbərlik edirdilərsə, həmin gündən sonra bu qüvvələrə "Sentrokaspi" diktaturası rəhbərlik edirdi. Yeni hökumətin başlıca məqsədi də Bakı şəhərinin Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına çevrilməsinə yol verməmək idi.

Azərbaycan xalqının milli mənafeyinə, Qafqaz İslam Ordusu qoşunlarının izlədiyi məqsədə münasibətdə Bakı Soveti ilə "Sentrokaspi" diktaturası arasında mahiyyətcə elə bir fərq yox idi. Hər iki qurum Azərbaycan Xalq Cümhuriyyətini tanımır, Azərbaycan xalqının öz müqəddəratını müəyyənləşdirmək istəyini heç bir vəchlə qəbul etmək istəmir, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin dəvəti ilə Azərbaycan xalqının imdadına çatmış türk qoşunlarına işğalçı qoşunlar kimi baxırdılar.

Avqustun 1-də Qafqaz İslam Ordusu hissələri Bakı şəhəri üzərinə hücumu yenə davam etdirdilər. Şərq Cəbhəsi komandanı Mürsəl bəyin avqustun 1-i üçün imzaladığı döyüş əmrində də əsas vəzifə kimi Bakı şəhərinin azad edilməsi müəyyənləşdirilmişdi. Bu vəzifəni Şimal qrupu yerinə yetirməli idi. Qrupun qüvvələri şəhərə girdikləri təqdirdə küçə döyüşləri aparmalı, düşmənin müqavimətini qırmalı və düşmən qaçmalı olduğu halda onu təqib etməli idi. Şəhərdəki asayiş də bu bölmələr tərəfindən təmin edilməli idi.

1.Şimal qrupu qarşısında pərişan bir surətdə çəkilən düşmən Xırdalan müstəhzər mövzüsündə və Sumqayıt stansiyası civarında toplanmaqdadır. İstixbarata nəzərən Biçeraxov Biləcəri stansiyasıl civarında olub icabında əsgərləri mindirmək üçün vapurları hazırlatmışdır.

2. Şimal qrupu 31.07.18-də fəcirlə bərabər təərrüzə başlayaraq inayəti-bariyə müstənidən Bakını zəbt edəcəkdir. Bakının süqutu anlaşılınca yalnız 13-cü alay qitəatı içəri girəcək və şəhərin inzibatını təmin edəcəkdir. Şəhərin midxal və məxrəcləri zabit postalarıyla tutularaq vəsiqəsiz kimsəyi şəhərə qoymayacaqdır. Şəhərdə ənasiri-müxtəlifə mövcud olduğundan asayiş icabında şiddət göstərilərək təsis ediləcəkdir. Digər qitəatın nə surətlə girəcəkləri bilaxirə əmr olunacaqdır.

Mürsəl paşanın imzaladığı əmrə görə Heybət stansiyası yaxınlığına gəlib çatmış Cənub qrupu da Bakı üzərinə hücumda iştirak etməli idi. Döyüş əmrində göstərilirdi ki,

düşmən gəmilərini top atəşlərinin qarşısını almaq üçün lazım olan tədbirlər həyata keçirilsin. Şərq Cəbhəsi komandanlığının ehtiyatına verilmiş olan 38-ci piyada alayının 2-ci taboru, qüdrətli dağ top taqımı və Ləzgi süvari alayı Şamaxı yolu ilə hərəkət edib artıq Bakıya yetişməkdə idi. Döyüş əmrinə görə, ehtiyat qüvvələr Güzdək yaxınlığında yerləşməli və vəziyyət tələb edərdisə onda bu qüvvələr də hücumun gücləndirilməsində iştirak etməli idi. Şərq Cəbhəsi komandanlığının qərargahı Hökmalı kəndində yerləşmişdi.

Mürsəl paşanın başqa bir göstərişinə görə, şəhərdə asayişin yaradılması ilə konkret olaraq 13-cü piyada alayı məşğul olacaqdı. Alayın bir taboru azərbaycanlılar yaşayan hissədə, digər tabor isə xristian əhali yaşayan hissədə yerləşməli idi. Şimal qrupunun digər bölmələri də Bakının şimal-qərbində və şəhərin kənarında münasib yerlərdə mövqe tutmalı idilər.

Avqustun 1-də səhər tezdən başlanan döyüşdə əsas hadisələr Qurd qapısı ilə Xəzər dənizi arasındakı ərazidə, yəni Şimal qrupunun sağ cinahında cərəyan etməli idi. Bu sahə şəhərə ən yaxın sahə olsa da, orada "Sentrokaspi" qoşunlarının güclü müdafiə xətti mövcud idi. Ərazinin coğrafi şəraiti və Şimal qrupunun hücumlarının qarşısını az qüvvə ilə almağa imkan verirdi. Heybət-Biləcəri dəmir yolunun şərqində sərt hündürlüklər üzərində qurulmuş olan "Sentrokaspi" mövqelərini aşmaq xüsusilə çətin idi. Əlavə olaraq burada düşmənin 3 səhra topu Şimal qrupunun hücumlarının qarşısını almağa çalışırdı. Həmin topların zərərsizləşdirilәsi üçün qüdrətli topçu batareyasına tapşırıq verildi və bir müddətdən sonra bu tapşırıq yerinə yetirildi.

Sağ cinahda irəliləyən 13-cü piyada alayı şiddətli döyüşlərdən sonra 14.30-da dənizə yaxın olan 763 rəqəmli hakim yüksəkliyi ələ keçirdi. Bu yüksəklik strateji əhəmiyyətə malik olduğu üçün düşmən buradan asanlıqla geriləmək istəmirdi. Gün ərzində bu yüksəklik ətrafında şiddətli döyüşlər davam etdi. 13-cü alayın sol cinahı ilə irəliləyən 10-cu alayın 29-cu taboru Qurd qapısı məntəqəsindəki Sallaxana və Qışla ətrafındakı yüksəkliklərə qalxmış və şəhərin 2 kilometrliyində mövqe tuta bilmişdi. 60-cı tabor isə Hacı Həsən kəndini ələ keçirmiş və bu məntəqədə münasib mövqelərdə yerlşərək dəmir yolu xəttini nəzarət altına götürmüşdü. Bununla da düşmənin zirehli qatarının cəbhə xəttinə gəlməsi və "Sentrokaspi" qoşunlarının himayə etmək imkanının qarşısı alınmışdı. Şimal qrupunun hücumlarının qarşısını almaq üçün Xəzər dənizindəki gəmilərin topları, habelə üç ədəd təyyarə "Sentrokaspi" qoşunlarını himayə edirdi.

Topçu cəbbəxanasının qıtlığı, habelə keçmiş Bakı komissarlarının tabeliyində olan qoşun bölmələrinin döyüşdə iştirakı Şimaql qrupunun hücumunun daha da genişlənməsinə imkan vermədi. Petrovun dəstəsinin Bakının Petrovski meydanında qurulmuş olan iki batareyası çarpaz atəşlərlə Bibi-Heybət istiqamətində 13-cü alayın mövqelərini tutdu. Eyni zamanda bu atəşlərlə Qurd qapısı ətrafında Şimal qrupunun sürətli hücumunu müəyyən qədər ləngitmək mümkün oldu.

Döyüşün gedişində Bakıdan Həsənov adlı bir şəxsin göndərmiş olduğu məktub Mürsəl paşaya çatdırıldı. Şəhərdəki vəziyyəti təsvir edən məktubda bildirilirdi ki, ermənilər qorxu və təlaş içərisindədirlər, təslim olmağa meyllidirlər. Ancaq həyatları üçün qorxurlar. Onlara təminat verilərsə ermənilər öz nümayəndələrini danışıqlar üçün göndərə bilərlər.

Bu məlumat özü də şəhərdə qorxu və təlaşın qaldığını, Bakının ələ keçirilməsi üçün münasib şəraitin mövcud olduğunu göstərirdi.

Avqustun 1-də axşam Qafqaz İslam Ordusunun hissə və bölmələri aşağıdakı xətt üzrə mövqe tutmuşdular: Cənub qrupu Ələtdə idi. 10-cu və 13-cü Qafqaz piyada alayları

Qurd qapısı hündürlükləri ilə Hacı Həsən kəndi arasındakı sahədə yerləşmişdilər. 60-cı piyada taboru Xırdalan yaxınlığında, 38-ci piyada alayının 1-ci taboru ilə 2-ci mürəttəb süvari alayı və bir səhra top taqımı Sumqayıt stansiyasında, Şərq cəbhəsi komandanlığının ehtiyatını təşkil edən 38-ci piyada alayının 2-ci taboru ilə Ləzgi süvari alayı Güzdəkdə dayanmışdılar.
Avqustun 2-də Mürsəl paşa Bakıya doğru hücumi davam etdirməli idi. O, 60-cı tabora düşmənin diqqətini yayındırmaq tapşırığı vermişdi. Həmin hissə fəaliyyəti ilə "Sentrokaspi" qoşunlarınnın müəyyən qisminin diqqətini özünə cəlb etməli idi. Bu da digər qüvvələrə tutduqları mövqelərdə daha yaxşı möhkəmlənməyə və mümkün olduqca uğurlu hücumu davam etdirməyə daha yaxşı zəmin yaratmalı idi.
Avqust ayının 2-də gecə ikən başlayan döyüş bütün gün davam etdi. Günün sonunda Mürsəl paşanın Ordu komandanlığına verdiyi məlumatda bildirilirdi ki, şiddətli döyüşlər üç gündür ki, səngimək bilmir. Şəhər ətrafında "Sentrokaspi" qoşunlarının müqaviməti xeyli artmışdır. Düşmən qüvvələrinin gücləndiyi hiss olunur. Onun verdiyi başqa bir məlumatda isə bildirilirdi ki, şəhərin qərb və cənub-qərb hissəsindəki düşmən qüvvələrinə əlavə kömək gətirildiyi müşahidə olunmuşdur. Aldığı yardımdan sonra "Sentrokaspi" qoşunları ara-bir hətta hərbi təşəbbüsü də ələ almağa cəhd göstərirlər. Xüsusən, 13-cü alaya qarşı vuurşan bölmələr bir neçə dəfə əks hücuma keçməyə cəhd göstərdilər və hər dəfə də 13-cü alay bölmələrinin qətiyyətli zərbələrindən sonra "Sentrokaspi" qoşunları geri çəkilməyə məcbur olurdu. Qurd qapısı keçidi ilə üzbəüz mövqe tutmuş 29-cu və 60-cı taborlar da qarşı tərəfdən göstərilən müqavimətə baxmayaraq, "Sentrokaspi" qoşunlarına güclü zərbə endirməyə nail oldular. Onlara qarşı mövqe tutmuş piyadalar bütünlüklə məhv olmaq təhlükəsindən sovuşmaq üçün şəhərə doğru geri çəkilməyə cəhd göstərdilər. Lakin arxada dayanmış olan süvari cəza dəstələri piyadaların geri çəkilməsinə yol vermədilər. Bu sahədə müdafiə mövqelərinin müəyyən qədər zəif olduğu üçün "Sentrokaspi" qoşunları komandanlığı bura şəhərdən toplanmış yeni qüvvələr göndərdi. "Sentrokaspi" rəhbərləri bu döyüşlərin onlar üçün taleyüklü döyüşlər olduğunu yaxşı anlayırdılar. Ən yaxın günlərdə ingilis qoşunlarının gələcəyinə və onların Qafqaz İslam Ordusu hissələrinin qarşısını alacağına böyük ümidlərlə yanaşan Sentrokaspi" rəhbərləri bütün imkanlarını və qüvvələrini səfərbərliyə almışdılar. Cəbhə xəttinə əlavə qüvvələrin tapılıb göndərilməsi, şəhərin Qafqaz İslam Ordusu tərəfindən azad edilməsini istəməyən keçmiş komissarların tabeliyində olan qüvvələrin də top atəşləri ilə "Sentrikaspi" qoşunlarını himayə etməsi Şimal qrupu hissələrinin hücumunu müəyyən qədər zəiflədə bildi. Xüsusilə, top mərmilərinin qıtlığı hücumları istənilən şəkildə genişləndirməyə imkan vermirdi. Ona görə də mərmi göndərilməsi üçün yenidən Ordu komandanlığına müraciət edildi.
Avqust ayının 3-də Mürsəl paşa döyüşləri yenidən davam etdirdi. Bakını tezliklə azad etmək arzusu onu qətiyyətlə irəli hərəkət etməyə sövq edirdi. Lakin son günlər ərzində gedən mövqe döyüşləri qüvvələri həm əldən salmış, həm də sursat ehtiyatını tükəndirmişdi. Ancaq hərbi təşəbbüsün əldən verilməməsi və düşmənin öz qüvvələrinin bərpasına imkan verilməməsi üçün Mürsəl paşa aparılan döyüşlərin uğurla nəticələnəcəyinə inanırdı. Ordu komandanlığı Bakı üzərinə hücumu Biləcəri istiqamətindən gücləndirməyi təklif edirdi. Ordu komandanlığının fikrincə, əsas qüvvələrin bu istiqamətdə cəmlənməsi onların gəmi toplarının atəşlərindən də qorunmasına imkan verərdi. Ancaq Mürsəl paşa vəziyyəti təhlil etdikdən sonra İslam Ordusu komandanlığına göndərdiyi cavab məktubunda bu təklifi məqsədəuyğun saymırdı və bunu fikirlərlə əsaslandırırdı: Bakının qərbində yerləşdirilmiş qüvvələrin

şimala, Biləcəri ətrafına atılması xeyli vaxtın itməsinə səbəb ola bilərdi. Çünki bu sahə açıqlıq bir sahə idi və orada qüvvələr düşmən təyyarələri tərəfindən asanlıqla müşahidə edilə bilərdilər. Biləcəri istiqaməti həm də məsafəcə şəhərdən çox uzaq idi. Buradan şəhərə qədər böyük bir məsafəni qət etmək lazım gələrdi. Ehtiyat qüvvələrin kifayət qədər olmadığı bir vaxtda bu çox təhlükəli idi. Mürsəl paşa Ordu komandanlığına göndərdiyi cavabında belə yazırdı:

> 1.Hakim mövqenin zəbti ilə Bakının düşürülməsi düşünülmüş və həqiqi təərrüz Volçi vorota dağına tövcih olunmuşdur. Bu məntəqədə ərazinin arizəsi, gəmi toplarının təsiratı maddiyəsini təhdid etməkdədir. Təşəkkülati-əraziyi xəritə layiqilə göstərməməkdədir. Sağ cinah piyada qüvvətlərinin sola, Biləcəri cəhətinə nəqli zaman qeyb edəcəyi kimi Biləcəri qərbindən tövcüh olunacaq bir hücum da ərazini düz və şəhərə daha uzaq olması və hücum qitəatının geridən bəslənməməsi və düşmənin bulunduğu ərazinin hakim bulunması hesabiylə burası tənsib edilməmişdir.
>
> 2.Bakı şimal-şərqindən tövcüh olunacaq təərrüzdə qitəatın bir dərəcəyə qədər gəmi toplarından məhfuz qalacağı mümkün isə də düşmən təyyarələrinin tərəssüd vermələriylə yenə atış yapa biləcəyi və avçi xəttindən geriyə doğru xidəmatın kəsbi müşkülat eyləyəcəyi və əsasən Bakı şimalında və şərqindəki müsəlman köylərin hər birindən çıxacaq müsəlləh əhali yekunu-əzim miqdara baliğ olacağı təxmin olunmuşsa da bir kaç günlük təcrübə bunun əksini göstərmişdir. Məamafih müsəlləh əhali toplamaq təşəbbüsündən geri qalınmamış və bunun üçün biri mürəttəb süvari alayından və digəri firqə qərargahından iki zabit məktublar ilə köylərə göndərilmiş və Ləzgi süvari alay komandiri ilə bir Ləzgi süvari bölüyü də toplanacaq xalqı sövq və idarə etmək üzrə Sabunçu və Suraxanı cəhətlərinə ezam qılınmışdır.

Avqustun 3-də günortadan sonra Xırdalanla Biləcəri arasında Qafqaz İslam Ordusu qüvvələri ilə "Sentrokaspi" qoşunları arasında yeni bir döyüş baş verdi. Sumqayıtdan Xırdalan ətrafına gətirilmiş olan 2-ci mürəttəb süvari alayının üzərinə əvvəlcə düşmənin 70-80 nəfərlik bir dəstəsi hücum etdi. Az sonra "Sentrokaspi" qoşunları 300-400 nəfərlik başqa bir dəstə ilə möhkəmləndirildilər. Belə olanda Şimal qrupundan süvari alayına da əlavə kömək göndərildi və yalnız bundan sonra "Sentrokaspi" qoşunlarının hücumunun qarşısını almaq mümkün oldu.

Baş komandanlıq vəkalətinin Bakının dinc yolla azad edilməsi təkliflərinə uyğun olaraq avqust ayının 3-də Şərq cəbhəsi komandanı Mürsəl paşa yenidən şəhərdəki qüvvələrə məktub yolladı. Mürsəl paşanın məkrublarının biri rus, digəri isə türk dilində yazılmışdı. Həmin məktublar "Sentrokaspi" ordusunun komandanına və Bakıdakı Erməni Milli Şurasının sədrinə ünvanlanmışdı. Bu məktublar 60-cı tabordan olan bir zabit vasitəsiylə Biləcəri istiqamətinə göndərilmiş və orada "Sentrokaspi" hərbçilərinə təhvil verilmişdi. Məktubda deyilirdi:

> Cənab Bakıdakı Erməni Milli Şurasının sədri! Şübhəsiz sizə aydındır ki, Bakı şəhəri ətrafında türk qoşunu döyüşür. Əgər siz şəhəri döyüşsüz təslim etməyə razı olsanız milliyətindən və məzhəbindən asılı olmayaraq hamının hüquqlarının qorunmasına zəmanət veriləcəkdir. Xüsusilə, siz ermənilərə zəmanət veriləcəkdir ki, arzuladığınız halda maneəsiz Bakıdan Ermənistana gedə biləsiniz. Əgər şəhər təslim edilməzsə o, onsuz da alınacaqdır və həmin vaxt axıdılan qanların və yetirilən ziyanların məsuliyyəti sizin üzərinizdə qalcaqdır. Şəhəri təslim etməyə razısınızsa onda xahiş edirəm ki, dərhal nümayəndəniz vasitəsilə cavab

göndərin... Osmanlı ordusu Şərq cəbhəsi komandanı Mürsəl.

Erməni Milli Şurasının və "Daşnaksütyun" partiyasının fəalları bu məktuba cavab vermədilər və Qafqaz İslam Ordusu qoşunlarına qarşı mübarizəni davam etdirməyi qərara aldılar.

Avqustun 4-də nəhayət polkovnik Stoksun rəhbərliyi altında İrandakı ingilis qoşunlarının bir dəstəsi Bakıya gəldi. Alınan hərbi yardım "Sentrokaspi" diktaturasının döyüş imkanlarını artırmaqla bərabər, onun liderlərində ümidverici bir əhval-ruhiyyə də yaratdı. Heç şübhəsiz ki, bu əhval-ruhiyyə Mürsəl paşaya qarşı cəbhə tutmuş "Sentrokaspi" ordusunun fəaliyyətində bir canlanma yaratdı. Ona görə də avqustun 4-də davam etdirilən döyüşlər Qafqaz İslam Ordusu hissələri və bölmələri üçün yeni bir uğur gətirmədi. Mürsəl paşanın həmin gün üçün müəyyənləşdiridiyi döyüş vəzifələrinə görə, Şimal qrupu əvvəlki mövqelərindən hücumu davam etdirməli idi. Sağ cinahdakı bölmələrə daha da fəal olmaq tapşırılmışdı. Yəni, Mürsəl paşa hələ də Bakıya qərbdən hücum etmək taktikasından əl çəkməmişdi. Bu taktika ilə Şimal qrupunun bölmələri irəliyə doğru çox hərəkət edə bilmədilər.

Bakı üzərinə hücumun Şimal qrupu tərəfindən icra edilməsi nəzərdə tutulmuşdu. Cənub qrupuna isə daha çox yardımçı rol ayrıldı. Bu qrupun yetişməsi ilə Bakı ətrafındakı qoşunlar əlavə qüvvə aldılar və ona görə də Mürsəl paşa vaxt itirmədən Bakı üzərinə qətiyyətli hücuma keçməyi qərara aldı. Bu hücum avqust ayının 5-nə təyin edildi. Mürsəl paşanın bu məqsədlə imzaladığı döyüş əmri aşağıdakı məzmunda idi:

1.Düşmən Volçi vorota dağını qüvvətli bir surətdə və əqsami-sairəni nisbətən xəfif bir halda işğal etmişdir. Volçi vorota üzərində fazla miqdarda makinalı tüfəngi və dörd topu, Sallaxana civarında 7 topu və Bayılın şərqində də üç hərbi gəmisi vardır.

2.Yarın (5.8.1918) Şimal qrupu təkmili piyada və süvarilərilə saat dörddə basqın tərzində təərrüzə başlayacaq, düşmən xətti-müdafiəsi yarıldığı təqdirdə heç bir şeyə baxmadan təqib edəcək və sokak müharibəsini nəzəri-diqqətdə tutacaqdır:

a) Bayıl burnuna qonacaq səhra topu ilə limandan gəmilərin qaçmasına meydan verməyəcəkdir;

b) Zehni bəy müfrəzəsinin Bakı şimal-şərqindəki bütün müsəlman əhalini toplayaraq Bakı üzərinə yürümək üçün göndərilmiş olan zabitlərin bir-birilə irtibat və müxabirədə bulunmalarını və hərəkətlərini Şimal qrupu komandanı tənzim edəcəkdir;

c) Sumqayıt istiqamətinin boş buraxılmaması və uzaqlara qədər kəşfi lazımdır.

3. Cənub qrupu tələb vüquunda Şimal qrupuna yardım edəcək, zirehli terən yarınkı müharibədə iştirak edəcəkdir. Cənub qrupu komandanı Puta stansiyasından Ələtə qədər sahil qismini və dəmir yolunu dənizə qarşı mühafizə edəcək və bu xəttin işləməsini tənzim edəcəkdir.

4. Şimal qrupu Putaya gələn rus cəbbəxanasından 30 sandığı həmən Zehni bəy müfrəzəsinə göndərəcəkdir.

5. Gəncə-Kürdəmir-Puta dəmir yolu ilə ərzaq və cəbbəxana cəlb olunacaq, yaralılar və xəstələr səhiyyə treni ilə nəql olunacaqdır.

6. Səhiyyə bölüyü Qobuda yaralıları və xəstələri qəbul edəcək və Cənub qrupuna verilmiş olan səhiyyə qədəməsi Zehni bəy müfrəzəsinə ilhaq edəcəkdir.

7.Şərq cəbhəsi qərargahı 4/5-8-1918 gecəsini Qobuda keçirəcək, yarın ələssabah Qobunun şərq sırtlarındakı müharibəni idarə məhəllində bulunacaqdır.

5 avqust döyüşündə iştirak etməsi nəzərdə tutulan qüvvələr və onların

döyüşqabağı mövqeləri aşağıdakı şəkildə idi:

Şimal qrupu – komandanı Osman bəy
13-cü Qafqaz alayı – alay komandiri qayməqam Əhməd Rza bəy
4-cü tabor
46-cı tabor birinici Qurd
30-cu tabor xətdə qapısı
38-ci alayın 2-ci taboru – alay ehtiyatı dağında
13-cü alay məntəqəsindəki topçu bölmələr (sağ cinah qrupu)
Qüdrətli top -4 ədəd
Şnayder topu -6 ədəd
Rus səhra topu -4 ədəd
Rus dağ topu -3 ədəd
10-cu Qafqaz alayı – komandiri qayməqam Səlim bəy
29-cu tabor birinci 13-ch alayın sağ
60-cı tabor xətdə cinahı ilə Xırda-
38-ci alayın 1-ci taboru –alay ehtiyatı lan arasında
10-cu alay məntəqəsində topçu bölmələri (sol cinah qrupu)
6 ədəd qüdrətli top – cəbhə xəttində
2 ədəd qüdrətli top – Xırdalan ətrafında
Şimal qrupu ehtiyatı
25-ci tabor
26-cı tabor
28-ci tabor
Süvari minbaşı Zehni bəyin dəstəsi
Türk əsirlərindən ibarət piyada bölüyü
Mürəttəb süvari alayı (19-cu və 42-ci bölüklərdən ibarət idi. 19-cu bölük Şimal qrupunun sağ cinahında idi)
Azərbaycan milli süvari bölükləri (bir alay halında)
Ləzgi süvari alayı (iki bölük olub biri Bakının şimalındakı silahlı müsəlman əhalini toplamaq üzrə Maştağa ətrafına göndərilmişdi)
9-cu Qafqaz alayının pulemyot bölüyü
Sumqayıt dəstəsi (müfrəzəsi)
38-ci alayın 1-ci taborundan bir piyada bölüyü
Milli könüllü süvari taqımı
Bir ağır pulemyot taqımı
Cənub qrupu – komandan miralay Həbib bəy Səlimov
Zirehli qatar -Putada
Firqə istehkam bölüyü -Putada
28-ci tabordan bir bölük piyada Ələt dəniz
Bir taqım süvari sahilinin müşahidə
2 ədəd rus səhra topu və müdafiəsində

Bunlardan başqa 38-ci alayın 3-cü taboru Şamaxı yolu ilə Bakıya doğru irəliləməkdə idi. 27-ci taborun iki bölüyü isə qatarla Gəncədən Bakıya doğru yola salınmışdı.

Beləliklə, Mürsəl paşanın yuxarıdakı döyüş əmri və qüvvələr tərtibatı ümumiləşdirildikdə məlum olurdu ki, 5 avqust döyüşü ərəfəsində 4-cü, 10-cu və 36-cı taborlardan ibarət 13-cü alay Qurd qapısı dağının 763 rəqəmlə yüksəkliyi ətrafındadır.

38-ci piyada alayının 2-ci taboru 13-cü alayın ehtiyatına verilmişdi. Bu alay döyüş zamanı 17 ədəd müxtəlif toplarla himayə olunmalı idi. Döyüşün əsas ağırlığı bu alayın üzərinə düşdüyündən Şimal qrupunun ehtiyatını təşkil edən 25-ci, 26-cı və 28-ci taborlar onun sağ qanadının arxasında yürləşdirilmişdi. 19-cu süvari bölüyü də 13-cü alayın sağ qanadında mövqe tutmuşdu.
10-cu Qafqaz piyada alayı 29-cu və 60-cı taborları ilə 13-cü Qafqaz alayının sol cinahı ilə Xırdalan arasındakı cəbhə xəttində mövqe tutmuşdu. Alay döyüş vaxtı 8 ədəd topla himayə olunmalı idi. Onun ehtiyatına 38-ci piyada alayının 1-ci taboru verilmişdi.
Qafqaz İslam Ordusu komandanı Nuru paşa da 5 avqust döyüşünə böyük əhəmiyyət verirdi. O güman edirdi ki, ingilis qoşunlarının ilk dəstəsi Bakıya gətirilməmişdir və buna görə şəhərin müdafiə xəttində çox ciddi keyfiyyət dəyişiklikləri baş verməmişdir. Bu isə Bakı üzərinə uğurlu hücum üçün zəmin yarada bilərdi.
Səhər tezdən saat 4.25-də Mürsəl paşanın işarəsi ilə başlayan döyüşlərdə əvvəlcə Qafqaz İslam Ordusu hissələri hərbi təşəbbüsü ələ aldılar. Onların üstünlüyü bütün cəbhə xətti boyunca hiss edilməkdə idi. İlk zərbələrdən sonra “Sentrokaspi" qoşunları tədricən geri çəkilməyə başladılar. Xüsusən, 13-cü alay cəbhəsində düşmən qüvvələri daha çox geri çəkilmişdi. Bayıl ətrafındakı yüksəkliklər bu alayın əlinə keçdi. Buradan şəhəri və Xəzər dənizindəki gəmiləri artıq aydınca müşahidə etmək mümkün idi. Cəbhənin mərkəzində, Qurd qapısı keçirində də hücum uğurla başladı. Bu istiqamətdə "Sentrokaspi" qoşunları Sallaxana və qəbristanlığa tərəf geri çəkilməkdə idi. Ələ keçirilən telefon danışıqlarından anlaşılırdı ki, düşmən cəbhəsində güclü panika vardır. "Sentrokaspi" qoşunlarının komandirləri vəziyyətin xeyli mürəkkəb olduğundan şikayətlənirdilər. Döyüşlərin belə uğurla başladığı üçün idi ki, Şərq cəbhəsi komandanı Bakının güclü bir dağıntıya məruz qalmadan ələ keçiriləcəyini güman edirdi.
"Sentrokaspi" qoşunlarının Qurd qapısı dağı boyunca uzanan birinci müdafiə xətti ələ keçirilmişdi. Şimal qrupunun bölmələri "Sentrokaspi" qoşunlarının ikinci müdafiə xəttinə yaxınlaşmaqda idi. Ancaq vaxt keçdikcə düşmən qüvvələri təlaş vəziyyətindən çıxdılar. Bu döyüşdə Bakının itirilə biləcəyindən qorxan "Sentrokaspi" liderləri, onun odrusunun rəhbərləri bütün imkanlarını Şimal qrupunun hücumunun qarşısını almağa yönəltdi. Buna görə getdikcə onların müqaviməti də artırdı. Bu müqaviməti qırmaq və döyüşü uğurla sona çatdırmaq üçün Şimal qrupunun top mərmiləri artıq çatmırdı. Cəbbəxana tükənməkdə idi. Ona görə də topçuların piyadaları müşayiət etməsi zəiflədi. Belə bir məqamda Bakı meydanlarında qərar tutmuş bolşevik qüvvələri də Qafqaz İslam Ordusuna qarşı döyüşə girdilər. Çünki Qafqaz İslam Ordusunun qoşunlarının Bakı üzərinə başlanan uğurlu hücumu bolşevikləri və keçmiş komissarları da ciddi təşvişə salmışdı. Şəhərin alınacağı təqdirdə haqq divanı qarşısında dayanmalı olacaqlarından qorxan keçmiş komissarlar da sərəncamlarında olan qüvvələrdən istifadə etmək qərarına gəldilər. S.Şaumyanın təklifi ilə Petrov gəmilərə yüklənmiş bir batareyanı şəhər meydanlarından birində döyüş vəziyyətinə gətirdi. Topların atəşini nizamlamaq üçün batareya komandiri avtomoibilə minib Bayıla qədər simli rabitə xətti qurdu. Onun işarəsi ilə atılan mərmilər Qafqaz İslam Ordusu bölmələrinin ən sıx yerlərinə düşürdü. Nəticədə, həm 10-cu Qafqaz alayının, həm də13-cü Qafqaz alayının bölmələrinə sərrast atəşlə ağır itkilər verildi. 10-cu alayın 5 ədəd pulemyotu tamamilə, digərləri isə qismən sıradan çıxarıldı. 13-cü alayın bir sıra pulemyotları da top atəşlərindən xarab oldu. Bölmələrin qruplaşdırılması və yenidən döyüşə atılması ilə "Sentrokaspi" qoşunları tədricən Şimal qrupunun sol cinahında qüvvə üstünlüyü yaratmağa nail oludlar və saat 11 ətrafında 29-cu tabor da 13-cü alayın sol cinahında döyüşə qoşuldu. Bundan bir

qədər əvvəl 29-cu və 60-cı taborların üzərinə olmuş hücum 10-cu alayın ehtiyatında saxlanılan 38-ci alay taborunun döyüşə qoşulması ilə dəf edilmişdi. Ancaq növbəti hücum "Sentrokaspi" qoşunlarının toplarının və pulemyotlarının daha təsirli atəşləri ilə müşayiət olunduğu üçün onun qarşısını almaq mümkün olmadı. Şimal qrupunun ehtiyatda saxlanılan qüvvələrinin naməlum səbəblərə görə döyüşə salınmaması 10-cu alayın bütün müqavimətini qırdı və əvvəlcə bu alay, onun ardınca isə 13-cü alay bir neçə gün ərzində Qurd qapısı yüksəkliklərində əldə etmiş olduqları bütün mövqeləri tərk etdilər.

5-ci Qafqaz firqəsi ərkani-hərb rəisi Rüştünün fikrincə, Şimal qrupunun bölmələri, xüsusən də 10-cu və 13-cü alaylar böyük itkilərə məruz qaldılar. "Sentrokaspi" qoşunları Qurd qapısı yüksəklikləri boyunca yerləşən müdafiə mövqelərini nəinki Şimal qrupunun əlindən aldılar, hətta əgər təqib davam etdirilsəydi Qafqaz İslam Ordusu qüvvələri Heybət-Biləcəri dəmir yolunun qərbindəki yüksəkliklər üzərindən də qovula bilərdi.

Əslində, Qafqaz İslam Ordusu hissələrinə elə bir zərbə vurulmuşdu ki, onlar dəmir yolu xəttinin qərbindəki yüksəkliklərdən də qərbə tərəf çəkilmək fikrinə düşdülər. Ancaq Şərq cəbhəsi komandanlığının zabitlərinin səyləri ilə hissələrin bu hərəkəti dayandırıldı və onlar dəmir yolunun qərbindəki yüksəkliklərdə mövqe tutdular.

Saat 17.00-da Şərq cəbhəsi komandanı Mürsəl bəy döyüşlərin gedişi barədə İslam Ordusu komandanı Nuru paşaya belə bir raport göndərdi:

1.Təərrüzümüz kəmali-müvəffəqiyyətlə davam edirdi. Əsasən, Cənub qrupunun dün vasil olan səhra və rus dağ toplarında və digərlərində mövcud cəbbəxananın tükənməsi bizzərur topçu atəşinin kəsilməsi dolayısı ilə sərbəst qalan düşmən bidayətdə 10-cu alay cəbhəsinə və cinahına və bir az sonra da 13-cü alay cəbhəsində pək faiq qüvvələrlə müqabil təərrüzə keçmiş və qitəat topçu atəşinin himayəsinə məruz olmadan çəkilmək məcburiyyətində qalmışdır.

2. İndiki halda sərf edilən qeyrətlə Heybət-Biləcəri dəmir yolunun qərbindəki yüksəkliklərdə yerləşdirilmişdir.

3.Qüdrətli və Şnayder topları cəbbəxanasızlıq üzündən geriyə alınmışdır...

Avqustun 5-də "Sentrokaspi" qüvvələri axşama yaxın, saat 17.00-da Biləcəri-Xırdalan arasında da hücumu genişləndirməyə cəhd göstərdi. Burada Masazır ətrafında yerləşmiş olan Zehni bəy dəstəsi ilə "Sentrokaspi" bölmələri arasında döyüş axşama kimi davam etsə də, ciddi bir mövqe dəyişiklikləri baş vermədi. Bu məlumatı Ordu komandanlığına çatdıran Mürsəl paşa onu da əlavə edirdi ki, bu gün Bakıya əlavə ingilis qoşunları gətirilmişdir. "Sentrokaspi" qüvvələri Biləcəri ətrafında zirehli qatardan, Bayıl tərəfdə isə dənizdə dayanan gəmilərin toplarının atəşlərindən istifadə etməklə növbəti hücuma hazırlaşırlar. Mürsəl paşanın fikrincə, əgər "Sentrokaspi" qüvvələri səhərisi gün döyüşü davam etdirə bilsəydilər, onda Bakı ətrafındakı Qafqaz İslam Ordusu qüvvələrinin vəziyyəti çox mürəkkəbləşə bilərdi. Ayın 5-də Mürsəl paşa Nuru paşaya ikinci bir raport göndərdi. Həmin raportda Mürsəl paşa yaranmış vəziyyəti təhlil etməklə bərabər, öz mülahizələrini də Nuru paşanın nəzərinə çatdırırdı:

1. Saat 17-də düşmən Xırdalan cəbhəsində də təərrüzə başlamış və Biləcəridə bulunan zirehli treni Xırdalana qarşı sövq edərək topçu və makinalı tüfəng atəşlərinə başladığı və Xırdalan nöqtəsi istinadından şimala doğru Zehni bəy müfrəzəsindəki süvari qitəatı tərəfindən işğal edilmiş olan mövqüləri də atəş altına almışdır. Ortalıq qaranlıq oluncaya qədər tərəfeyn arasında atəş olmuş və bilaxirə sükunət gəlmişdir. Düşmənin çalınan müxabiratından bu gün (05.08.18)

saat 17-də Rəştdən Bakıya bir gəmidə 300 qədər ingilis əsgəri gəldiyi və bunlara iskələdən almaq üzrə avtomobillərin göndərildiyi və yarın düşmənin bütün cəbhədə təərrüzdə bulunacağı anlaşıldı.

Düşmən qitəatımızı Heybət-Bakı şimendifer xəttinin həmin şərqindəki hakim sırtlara qədər təqib etmiş və orada qalmışdı. Şimendifer nəqliyyatını səktəyə uğratmaq üzrə Səngəçal stansiyasının qarşısına gələn düşmən zirehli gəmisinə qarşı bir səhra topu sövq edildi.

2. Qitəat Heybət-Bakı şimendifer xəttinin qərbindəki sırtlarda mövcud təhkimat xəttinə alınmış isə də bir kaç gündən bəri davam edən hərəkat və bu gün sabaha qarşı icra edilən təərrüz səbəbiylə pək ziyadə yorğun bir haldadır. Qitəata hənuz qəti məlumat alınmamışsa da şimdiyə qədər səhiyyə bölüyünə 330-u mütəcaviz yaralı nəfəri gəlmişdir. Şühəda və mövqedə qalan ağır yaralılar bu hesabdan xaricdir. Bu hesaba daxil edilməyən qaib miqdarı şühəda miqdarından daha çoxdur.

3. Bu zayiat səbəbiylə taborların mövcudu haliycə tənaqüs etmişdir. Düşmənin təərrüzü halında son səbat və müdafiəni yapmaq istəyirəm. Topçuların heç cəbbəxanası qalmadığından Puta stansiyasında bulunmaqda olan 66 qüdrətli və 80 də Şnayder mərmisini cəlb ediyoram. Digər gəlməkdə olan cəbbəxanalar hənuz Putaya gəlməmişdir.

4. Mövcud qitəatla bu xəttin mühafizəsinə son dərəcə çalışılacaq isə də cəbhənin azlığı, əfradın son dərəcəyə qədər səbat və müqavimət ediləcəyi məlum deyildir. Binaənəleyh, gərək müdafiənin davamlı surətdə icrası və gərəksə Bakının zəbti üçün hər halda firqəyə az zaman zərfində təlim və tərbiyə görmüş Qafqaz qrupundan ikmal əfradı itasına və cəbhəyə fazla miqdarda qüvvəyi-imdadiyyənin cəlbinə sürətlə dəlalət və müsaidə buyurulmasını əhəmiyyətlə ərz və istirham eylərəm, əfəndim.

Gün ərzində baş verən döyüşlərin gedişində 9 zabit şəhid olmuş, 19 nəfər yaralanmış, sıravi heyətdən 139 nəfər şəhid olmuş, 444 nəfər yaralanmış, heyvanlardan 43-ü ölmüş, 32-si yaralanmış, 19-u yoxa çıxmış, 485 mauzer tüfəngi, 62 rus tüfəngi, 3 ağrı pulemyot, 4 revolver və s. sıradan çıxmışdı. Həm də Mürsəl paşanın rəhbərliyi altında olan qüvvələrə ağır mənəvi zərbə vurulmuşdu. Bakı üzərinə hücumun uğurla başa çatdırılması üçün indi bura təkcə yeni qüvvələr gətirmək deyil, həm də mövcud olan qüvvələrin mənəvi-psixoloji durumunu bərpa etmək, onlara qələbə inamı qaytarmaq lazım idi.

Bakı üzərinə həlledici hücum başlanan vaxta kimi Mürsəl paşa bu məsələlərlə ciddi məşğul oldu. Ötən günlər ərzində mövqe döyüşlərinin aparılması ilə bərabər, 5-ci Qafqaz firqəsinin komandanlığı Bakı üzərinə qəti hücumun necə təşkil edilməsi barədə də mövcud olan təklif və mülahizələri öyrənir və ümumiləşdirirdi. Əldə olunan qənaətlər sistemləşdirilərək avqustun 15-də Ordu komandanlığına təqdim olundu. 5-ci firqə komandanlığı belə bir qənaətə gəlmişdi ki, Bakı üzərinə qəti hücum mütləq Azərbaycana gətiriləcək yeni türk firqəsi ilə birlikdə həyata keçirilməlidir. 5-ci firqənin Bakının qərb tərəfində saxlanılması, yeni gələcək firqənin isə Bakının şimal tərəfinə göndərilməsi məqsədəuyğun bilinirdi. Qəti hücuma başlamazdan əvvəl Biləcərinin şimalındakı Yanardağ yüksəkliyinin, habelə Binəqədi-Xırdalan xəttinin tutulması yeni gələcək firqənin ilkin vəzifəsi sayılırdı. 5-ci firqə komandanlığının qənaətincə, bununla yeni firqə həm də qəti hücum üçün əlverişli mövqe tutar, həm də əsas hücumun bu istiqamətdən həyata keçiriləcəyi barədə düşməndə yanlış təsəvvürlər yaratmaqla onun

əsas qüvvələrinin buraya cəlb olunmasına yol açardı. Belə olduğu təqdirdə güman edilirdi ki, 5-ci firqənin döyüş sahəsində iki alaylı bir qüvvə topçu atəşlərinin himayəsi ilə Qurd qapısı yüksəkliyini daha asanlıqla ələ keçirəcəkdir. Bu hadisə hücumun ikinci günü baş verməli idi. Bununla, düşmən çaşqın hala düşə bilərdi. Üçüncü gün isə hər iki istiqamətdə sürətli hücum davam etdirilməli idi. 5-ci firqə Bakının qərbindən, o biri firqə isə Biləcəri istiqamətindən hücumu davam etdirməli idi. Bu hücumun həyata keçirilməsinə Bakı ətrafındakı kəndlərdən toplanmış qüvvələrin cəlb olunması da nəzərdə tutulurdu.

Görülən işlərin nəticəsində şəhər ətrafında mövqelər möhkəmləndirildi, əsgər və zabitlərin ovqatı yenidən mübariz ruhda kökləndi və növbəti hücumun zəfərlə nəticələnməsi üçün zəruri hazırlıq işləri aparıldı. Hissələrin maddi-texniki ehtiyacları ödəndi, onlar arasında fəaliyyət birliyinə daha ciddi diqqət yetirildi, döyüşlərin gedəcəyi ərazi diqqətlə öyrənildi. Bakı üzərinə sonuncu hücum başlanana qədər qüvvələr bir neçə dəfə yenidən qruplaşdırılrı, onların iştirakı ilə böyük əhəmiyyət kəsb edən mövqe döyüşləri aparıldı. Bu döyüşlər zamanı Mürsəl paşa Bakı ətrafındakı bütün strateji nöqtələri ələ keçirdi və həmin məntəqələrdə möhkəmləndi. Mürsəl paşa eyni zamanda Bakı ətrafındakı kəndlərin əhalisini qüvvələrin möhkəmlənməsinə səfərbər etdi, onlardan dəstələr təşkil etdi.

Avqust ayının 22-də qayməqam Parakuinlə Mürsəl paşa Bakı şəhərinin təhvil verilməsi ilə bağlı Bakıdakı Erməni Milli Şurasına ultimatum göndərdilər. Ultimatumun mətnindən görünür ki, o, Parakuin tərəfindən yazılıb və Mürsəl paşa da ona öz imzasını atıb. Alman zabiti bildirirdi ki hazırda Bakı ətrafındadır və Bakının döyüşsüz təhvil verilməsi üçün Erməni Milli Şurası ilə danışıqlar aparmaq istəyir. Ultimatumda bildirilirdi ki, Bakı şəhəri döyüşsüz təhvil verilsə, onda şəhərdəki ermənilərin təhlükəsizliyinə və əmlaklarının qorunmasına zəmanət verilə bilər. Əks təqdirdə şəhərdə döyüşlər davam edəcək və nəticədə də erməni həyatı və erməni əmlakı məhv ediləcəkdir. Sonra konkret olaraq aşağıdakı tələblər irəli sürülürdü:

1.Bakı şəhərinin salamat şəkildə təhvil verilməsi və bu neft şəhərindən istifadəyə imkan verilməsi;

2.Sülh və dostluq.

Bu şərtlərə əməl ediləcəyi halda aşağıdakılar vəd edilirdi:

1.Bakıya türk qoşunları yeridilməyəcək. Arzu edildiyi halda Bakının ətrafı və bütün yolları alman qüvvələri tərəfindən mühafizə edilə bilər;

2.Şəhərin bütün əhalisinin həyatı, əmlakı və azadlığı toxunulmaz qalacaqdır;

3.Şəhərin atəşə tutulması dayandırılacaq;

4. Bağlanmış olan su kəməri dərhal açılacaq.

Sonra təklif olunurdu ki, danışıqların aparılması üçün Xırdalanla Biləcəri arasındakı neytral zonaya nümayəndələr göndərilsin. Lakin Erməni Milli Şurası bu təklifləri qəbul etmədi. Əksinə, alınan məktubu Sentrokaspi diktaturasına təqdim etdi. Sonra həm Erməni Milli Şurası, həm də Sentrokaspi diktaturası bəyanat yayaraq Bakının təhvil verilməyəcəyini bildirdilər .

Həlledici döyüş ərəfəsində Nuru paşa, Xəlil paşa, Əliağa Şıxlinski Bakı ətrafına gəldilər. Bakı üzərinə hücuma ümumi komandanlıq Nuru paşanın özü tərəfindən həyata keçirilirdi. Döyüşən qüvvələrə rəhbərlik isə 5-ci diviziya komandanı Mürsəl paşaya həvalə edilmişdi. Hətta həlledici döyüş ərəfəsində Azərbaycana gəlmiş olan 15-cü türk diviziysı da Mürsəl paşanın sərəncamına verilmişdi. Yəni, Nuru paşanın döyüş əmrlərinin icrasının təşkili Mürsəl paşanın üzərinə düşmüşdü. Bu döyüş elə təşkil

edilməli idi ki, ilk uğursuzluğun acı nəticələri arxada qalmalı, Azərbaycan xalqının intizarında olduğu tarixi məsələ - Bakı şəhərinin azad edilməsi başa çatdırılmalı idi.
Mürsəl paşa bu vəzifənin öhdəsindən şərəflə gəldi və həyatının ən böyük zəfərlərindən birini qazandı. Bakının azad edilməsi bu istiqamətdə aparılan ümumi işlərin məntiqi nəticəsi idi. Ancaq bu nəticədə Mürsəl paşanın da özünəməxsus payı var idi.
Bakı şəhəri üzərinə son hücum ərəfəsində buradakı qüvvələr yenidən qruplaşdırıldı. Bakı üzərinə hücumda iştirak edəcək qüvvələr 5-ci diviziya komandiri Mürsəl paşaya tabe etdirildi. Cənib qrupu isə olduğu kimi saxlanıldı. Bu qrup bir növ döyüşən qüvvələri Xəzər dənizindən ola biləcək təhlükədən qorumalı idi. Nuru paşanın əmri ilə hücumdam əvvəl döyüşdə iştirak edən qüvvələr arasındakı təmas xətti bir də dəqiqləşdirildi. Cənub qrupu ilə 5-ci firqə arasındakı təmas xətti Puta körfəzindən, 283 rəqəmli təpədən və Puta stansiyasından keçməli idi. Zirehli qatar 5-ci firqənin tabeliyinə verildi. 5-ci firqə ilə 15-ci firqə arasındakı təmas xətti isə Xırdalanın şimalındakı Yanardağ-Biləcəri-Ermənikənd üzrə müəyyənləşdirilmişdi.
Sentyabr ayının 13-də saat 17.11-də Qafqaz İslam Ordusu komandanı Nuru paşa Bakı üzərinə həlledici hücumun təfərrüatlarını özündə əks etdirən döyüş əmrini imzaladı. Bu əmrə müvafiq olaraq Mürsəl paşa diviziya üzrə döyüş əmri verdi. Onun imzalamış olduğu 75 saylı döyüş əmri çox geniş və əhatəli bir əmr idi. Bu əmrdə Bakı şəhəri üzərinə həlledici hücum zamanı 5-ci diviziyanın tabeliyində olan bütün hissə və bölmələrin qarşısında dayanan vəzifələr təfərrüatı ilə müəyyənləşdirilmişdi. Əmrin elə ilk bəndlərində deyilirdi ki, Allahın inayəti ilə sentyabrın 14-də Bakı üzərinə hücum başlanacaq. Bu hücumda 5-ci diviziya tabeliyində olan 9-cu, 10-cu, 13-cü, 56-cı piyada alayları ilə 11 qüdrətli, 3 rus səhra, 8 Şnayder, 5 rus dağ topları və 8 qaubitsa iştirak etməli idi. Diviziyanın döyüş sahəsinin sağ cinahında 9-cu piyada alayı mövqe tutmuşdu. Bu alayın döyüş sahəsi Şubanıdan Bakıya gedən yola qədər gəlib çatırdı. 9-cu alayın sol cinahında, Şubanıdan Bakıya gedən yolun ətrafında isə 56-cı alay mövqe tutmuşdu. Hücum zamanı bu iki alayın qarşısında dayanan ilkin vəzifə güllə işlətmədən "Sentrokaspi" və ingilis qoşunlarının ilkin müdafiə xəttini tutmaq idi. Sonra alaylar hücumu davam etdirməli və düşmənin ikinci müdafiə xəttini də ələ keçirməli idilər. Yalnız bundan sonra qüvvələr əllərinə keçirdikləri mövqelərdə dayanıb səhərin açılmasını gözləməli idilər ki, topların himayəsi ilə daha da irəliləyə bilsinlər. Alaylar cinahların mühafizəsinə diqqət yetirməli idilər ki, düşmənin qəfil basqınına məruz qalmasınlar. İkinci müdafiə xətti ələ keçiriləndən sonra 13-cü alay da hərəkət edib 9-cu alayın sağ cinahının arxasında mövqe tutmalı idi. Bu alay həm 9-cu alayın sağ cinahının mühafizəsini təmin etməli, həm də alayın sağ cinahını möhkəmləndirməli idi. Hücum gecə saat 1-də başlamalı idi. Mürsəl paşa alaylardan tələb edirdi ki, müdafiə xəttləri tutulan kimi bu mövqelər dərhal möhkəmləndirilsin və ora pulemyotlar qoyulsun.
Düşmənin ikinci müdafiə xətti tutulandan sonra hücum aşağıdakı kimi davam etdirilməli idi: 56-cı alay əsasən sallaxananın şimal hissəsi ilə, 9-cu alay isə Sallaxana ilə Maşatlıq adlanan məntəqə arasında, yəni 56-cı alayın sağ cinahında irəliləməli idi. Bakı şəhərindəki hündür kilsənin qızılı rəngli qülləsi hər iki alay üçün hücumun ümumi istiqamətini müəyyənləşdirməli idi. Şəhərə hakim olan yüksəkliklər ələ keçirildikdən sonra alaylar yenidən burada möhkəmlənib növbəti əmri gözləməli idilər. Döyüşçülərə şəhərə girmək, binalara soxulmaq qəti qadağan edilmişdi. 13-cü alay yenə də 9-cu alayın sağ cinahına yaxın hərəkətini davam etdirməli idi. 10-cu piyada alayı isə firqənin ehtiyat qüvvəsi kimi saxlanılırdı. Diviziyanın tabeliyində olan toplar üç qrupda

birləşdirilmişdi. 1-ci və 2-ci qruplar sağ cinahı himayə etməli, Bayıl və Bibi-Heybət istiqamətindən ehtimal edilən düşmən hücumlarını dəf etməli idi. Üçüncü topçu qrupu isə cəbhənin sol cinahını öz himayəsi altında saxlamalı idi. Zirehli qatarlar da döyüşə cəlb olunmalı və Ordu komandanının döyüş əmrində müəyyənləşdirilmiş vəzifələrin icrasını təmin etməli idi. Mürsəl paşanın həmin tarixi əmrü bütünlüklə aşağıdakı kimi idi:

1.Düşmənin müstəhzər mövzü və xütutu alay komandanlarına bu gün ərazi üzərində göstərilmişdir. Şimdiyə qədər kəşf edilən batareya mövzülərindən 2 top Volçi vorotada, 4 top Salyan qışlasının qərbində və 2 tor Biləcəri şərqində və bir ağır top bu məntəqədə bulunmaqdadır. Alınan məlumata nəzərən düşmənin ehtiyat qüvvələri Bayıl təpəsi gerisində, Ermənikənddə və Balaxanı cəhətindədir.

2. 15-ci firqə nisfilleyndən etibarən Balaxanı, Suraxanı və Əhmədli istiqamətində qüvvətli kəşf qolları və topçu atəşilə qarşısındakı düşməni təsbit edəcək və Əhmədlini zəbt edəcəkdir.

3. Allahın inayəti ilə yarın 14.09.18 sabahı Bakıya qarşı təərrüzü hərəkata başlanacaqdır. 5-ci Qafqaz firqəsi 9, 10, 13 və 56-cı piyada alayları və 11 qüdrətli, 8 obus, 3 rus səhra, 8 Şnayder, 5 rus dağ topu Bakı-Şubanı zavotları yolu ilə zavotların və 26-cı taborun sağ cinahından keçib Bakıya gedən yol arasından sarı parlaq kilsə qülləsi istiqaməti-ümumiyyəsində təərrüz edəcəkdir.

Beləki:

a) 9-cu alay (25-ci tabor, 106-cı alayın 2-ci taboru və 27-ci tabordan iki bölük) toplanaraq 26-cı taborun sağ cinahından Bakıya gedən yol ilə bu yolun şimalında bu gün göstərdiyim daşlıqlara qədər olan cəbhədə;

b) 56-cı alay Şubanı zavotlarından Bakıya enən yoldən hərəkət edəcək və 9-cu alayın sol cinahından yenə bu gün ərzində göstərdiyim buruna qədər (burun daxil) olan cəbhədə; basqın tərzində düşmənin ilk kənar mövzülərini zəbt edəcəkdir. İşbu xətt tüfəng partlamadan bomba və süngü ilə hər iki alay tərəfindən zəbt olunacaqdır;

c) 9 və 56-cə alaylar ikinci düşmən xəttini də bu surətlə zəbt və işğal edərək daha ziyadə irəliyə getmək üçün ortalığın ağarmasını və topçu atəşinin himayəsini bəkləyəcəkdir və cinahlarını himayə etmək üzrə qədəməli tərtibat almış olacaqlar və irəlilərinə kəşf qolları sürmüş bulunacaqlar.

Bu əsnada 13-cü alay 9-cu alayın sağ cinahı gerisində bulunmaq üzrə düşmənin zəbt edilən birinci xəttinə həmən təqərrüb edəcək və 9-cu alayın sağ cinahına vaqi olunacaq düşmən təərrüzünü dəf eyləyəcək və icabında 9-cu alayın sağ cinahını təmdid etmək üzrə firqə tərəfindən istixdam olunacaqdır. 9-cu alay mövzüündə qalacaq olan 26-cı taborun Şubanı məntəqəsində bulunacaq iki bölüyündən istifadə edilə bilər.

4. 9-cu və 56-cı alaylar 14.09.18 sabahı saat birdə Zavotlar məntəqəsindəki təcəmmü məhəllindən hərəkət edərək basqın icra edəcəklərdir.

5. Qazanılan və zəbt edilən xəttlər və məntəqələr son dərəcə fədakaranə bir surətdə mühafizə olunacaq və həmən makinalı tüfənglər yerləşdirilərək bu surətlə təqviyyə edilmiş bulunacaqdır.

6. 56-cı alay Sallaxana və bunun cənubundakı bir pəncərəli tək bina ilə Sallaxananın şimalındakı qırmızı tək bina arasından, 9-cu alay 56-cı alayın sağ cinahından, Maşatlığın şimal-şərqindəki torpaq rəngli üç binanın ən solundakına qədər olan cəbhə üzərindən təərrüz və irəliləyəcəkdir. Sarı parlaq kilsə qülləsi

ümumi təərrüz istiqamətidir. Bu alaylara ərazi üzərində bunlar iarə və izah edilmişdir. Şəhərə hakim kənar işğal edilər-edilməz piyada rəfaqət topçuları şəhəri bombardman etməlidir və şəhərə girilməyərək hakim bir vəziyyətdə əmr bəklənməkdədir. Ən mühüm mədxəllər tutulacaq və heç kimsə şəhərə və binalara qətiyyən girməyəcəkdir.
7. 10-cu alay 3 nömrəli topçu qrupunda (əvvəlcə mərkəz qrupu idi) mühafizə bir piyada qitəsi tərk edərək 106-cı alayın ikinci taborunun bulunduğu cift təpələrin gerisində hərəkətə hazır bir surətdə bu gecə ictima etmiş bulunacaqdır.
8. 13-cü alay bulunduğu yerdə taborlar ictima edərək hərəkətə hazır bulunmalıdır. Sağ cinahın büsbütün açıq qalmaması üçün 9-cu alayın 26-cı taboru iki bölüyü ilə əmniyyət tərtibatı almış olmalıdır. Bu bölüklər təərrüzün tərəqqi və davamı ilə əmniyyət tərtibatı almış olmalıdır. Bu bölüklər təərrüzün tərəqqi və davamı əsnasında bilaxirə cəlb edilə bilər. 10-cu alay firqənin ehtiyatıdır.
9. Alayların rəfaqət top taqımları bu surətdə təqsim olunmuşdur: - Kamil əfəndinin iki topu 13-cü alaya, Həqqi əfəndinin taqımı 9-cu alaya tərfiq olunacaqdır. Bu taqımlar bidayətdə topçu komandanının göstərdiyi yerdə mövqeyə girəcəklər və fəqət alayları tərəfindən tələb vüquunda dərhal alaylarına iltihaq edəcəklərdir.
10. Bir və iki nömrəli topçu qrupları qitəatın cəbhəsindəki düşmənə atəş edərək irəliləmələrini təshil və təmin edəcək və sağ cinaha Bayıl və Volçi vorota cəhətindən gələcək müqabil təərrüzü qırmaq sürətiylə tərd və dəf edəcəkdir. Üç nömrəli topçu qrupu da piyadanın təərrüzünü təshil və təmin edəcək və qitəatın sol cinahını himayə və müqabil təərrüzləri dəf eyləyəckdir. Ən ziyadə zərər verən düşmən topçu və makinalı tüfənglərinin mövqeləri və zirihli avtomobilləri piyadalar tərəfindən topçu komandanlığına məlumat veriləcək və bunlar şədid topşu atəşləri altına alınaraq iskat və yaxud təxrib olunacaqdır.
11. Zirehli tren ortalıq ağarınca Heybət stansiyasına doğru irəliləyərək Volçi vorota məntəqəsindəki düşmən atəşini üzərinə cəlb edəcək və firqənin sağ cinahını bu surətlə mühafizə edəcəkdir.
12. 9-cu alaydan əvvəlcə intixab edilmiş olan qüvvətli bir zabit kəşf qolu Volçi vorota ilə dəniz arasından sövq və təhrik olunaraq düşməni işğal eyləyəcək və müsaid vəziyyət hasil olunca Volçi vorotanı işğala çalışacaqdır. Bu kəş qolundan əzəmi fədakarlıq bəklənməkdədir.
13. Firqə bu yarma hərəkatını bütün şiddət və sürətlə icra etmək surətiylə qazanacağından alaylar cinahlarını qədəməli bulunduracaqlar və müttəhid bir kütlə halında düşmənə hücum edəcəklərdir. Bütün zabitan və əfraddan ən böyük qeyrət və fədakarlıq bəklərəm. Düşmənin ricət edən qitəatı şiddətlə təqib olunaraq iadəsi intizamlarına meydan verilməməlidir. Elektrik cərəyanının hamil olması məlhuz telörgüləri heç bir vaxtda təvəqqüfə səbəbiyyat verməyəcəyindən tel makasları hazır bulunacaq, bilhücum cəbbəxana və bomba kimi şeylər ikmal edilmiş olacaqdır. Şəhid və məcruhlar cəbbəxana və bomba və tel makasları qitəatı tərəfindən toplanmalıdır. Lağım olması mühtəməl məhəllərə ibtida kəşşaflar sövq olunmalı və bu kimi yerlərdə fazla durmamalıdır.
14. İrtibat və telefon müxabirəsinin inqitəyə uğramaması qətiyyən elzəm və şərti əzimdir. 106-cı alayın ikinci taborunun bugünkü mövqeyi gerisində bir sentral təsisi və alayların təərrüz istiqamətlərinə nəzərən Şubanı zavotlarına qədər xətlərin çəkilməsi və firqə tərəssüd məhəllinin məzkur sentrala rəbt edilməsi və

ordu tərəssüd məhəllinin və topçu müfəttişliyinin rəbti haqqında ordu teleqraf müdirinə lazım gələn təlimat və kroki verilmiş olacağından şəbəkənin ol surətdə bu gecə yarısına qədər tənzim edilmiş olmasını ordu teleqraf müdirindən tələb edirəm. Alaylar irəlilədikcə bu xətləri təmdid edərək mənimlə müxabirədə və irtibatda bulunacaqdır. Hər hansı bir səbəb dolayısıyla irtibat münqət olarsa xəbər və raporlar zabitlər və əmir atlıları ilə gələcəkdir. Hər alay laəqəl iki saatda bir rapor verməlidir.

15. Saatlar əmri yazdıran firqə növbətçi zabitindən əyar olunacaqdır.

16.Ərzaq və cəbbəxana Qobu anbarlarında ikmal və əxz olunacaqdır.

17. Firqə səhiyyə bölüyü Qobuda hali-fəaliyyətdədir. 16 təzkərəlik bir səhiyyə qədəməsi 106-cı alayın ikinci taborunun bugünkü mövqeyi gerisinə sövq ediləcəkdir. Bu qədəmə müharibə əsnasında alay sarğı məhəllərindən məcruhinin geriyə nəqli üçün bir kaç təzkərəni irəli sürmək surətiylə yardımda bulunacaqdır. Səhiyyə bölüyündən xəstələr və məcruhlar Putada bulunan 15-ci firqə səyyar xəstəxanasına və oradan da səhiyyə treni ilə Hacıqabuldakı firqə səyyar xəstəxanasına nəql olunacaqdır.

18. Putada bulunan firqə istehkm bölüyü və dəir yolu bölüyü ilə istehkam treni əmrimə amadə bir surətdə məhəlli-məzkurda hazır bulunacaqdır.

19. Mən 26-cı tabor komandanının bu gün bulunduğu binanın şərqindəki tərəssüd məhəllində bulunacağam.

Beləliklə, Bakı şəhəri üzərinə qəti hücum sentyabr ayının 14-nə keçən gecə başladı. Qarşıda iki alay hərəkət edirdi. 9-cu və 56-cı alaylar. 56-cı alay Sallaxanaya gedən yolun hər iki tərəfi ilə hərəkət edərək yüksəkliklərə qalxdı və saat 3-də düşmənin ilk müdafiə xəttini ələ keçirdi. 9-cu alay isə sərt yüksəkliklərdə yerləşən düşmən xəttini saat 3.30-da ələ keçirdi. Adları çəkilən alayların hücumu çox böyük sürətlə həyata keçirildi və qarşı tərəfin qüvvələri bu sürətli hücumun qarşısının alınması üçün təsirli tədbirlər görməyə belə vaxt tapmadılar.

Qərb cəbhəsində birinci müdafiə xətti ələ keçirildikdən sonra 9-cu və 56-cı alaylar yeni qüvvələr aldılar və onlar bir qədər də möhkəmləndilər. 9-cu alayın 26-cı taborundan geridə saxlanmış iki bölüyü yenidən döyüş xəttinə, öz taborunun sərəncamına göndərildi. Qərb cəbhəsinin sağ cinahında 9-cu alayın döyüş sahəsində mövqe tutan ingilis qüvvələrinə mayor Ley rəhbərlik edirdi. Güclü hücum başlayanda mayor Ley öz döyüşçülərini bir qədər geri çəkdi və arxadakı hündürlüklərin birində mövqe tutdu. Sonradan isə bir bölüyü irəli göndərdi.

56-cı alayın sol cinahı yaxşı mühafizə olunmadığından Mürsəl paşa Ordu komandanlığı qarşısında ehtiyatda saxlanılan alaylardan birinin bu istiqamətdən döyüşə qatılması barədə məsələ qaldırdı. Ordu komandanlığının əmrinə görə, diviziya ehtiyatı olan 10-cu alay 56-cı alayın sol cinahında döyüşə qatıldı. Diviziya ehtiyatına isə Ordu ehtiyatında olan 106-cı alay verildi. Səhər saat 6-da uğurla davam etdirilən hücumla 56-cı alay "Sentrokaspi" və ingilis qoşunlarının ikinci müdafiə xəttini də ələ keçirdi.

Ancaq bu mövqelər ələ keçirildikdən sonra 5-ci diviziyanın hissələrinin hərəkətində ləngl ik yarandı. Bu da arxada qalan topların gətirilməməsi ilə bağlı idi. Hissə komandirləri topların gətirilməsi üçün sürətli hücumlarına ara verdilər. Bu isə "Sentrokaspi" və ingilis qoşunlarına nəfəs dərməyə imkan verdi. Qafqaz İslam Ordusu qüvvələrinin hücumunda yaranan bu fasilə hətta general Denstervilin özünü də təəccübə saldı. Onun fikrincə, qərb cəbhəsində irəliləyən hissələr yürüşlərinə ara verməsəydilər, çox qısa bir zamanda şəhəri tuta bilərdilər. Çünki iki müdafiə xəttini itirən

"Sentrokaspi" və ingilis qüvvələri çaşqınlıq içərisində geri qaçmaqda idilər. Lakin arada yaranan fasilə döyüşə bir lənglik gətirsə də bu, əslində döyüş planı ilə nəzərdə tutulmuş bir fasilə idi. Plana görə hücum edən qüvvələr düşmənin birinci və ikinci müdafiə xətlərini ələ keçirdikdən sonra orada möhkəmlənməli və bu vaxt ərzində arxada qalan toplar da irəli çəkilməli idi. Topları Qurd qapısı yüksəkliyinə qaldırmaq isə elə də asan deyildi. Digər tərəfdən ola bilsin ki, heç Mürsəl paşa özü də piyadaların belə sürətlə düşmənin müdafiə xətlərini tutacağını güman etmirdi. Yoxsa ola bilsin ki, piyadaların hərəkətinin ardınca topların da aparılmasına başlanardı. Hər halda "Sentrokaspi" və ingilis qüvvələrinin şəhərin qərbindəki müdafiə mövqelərinin ələ keçirilməsi xəbəri alınanda Nuru paşa Mürsəl paşaya təkcə yüngül topların deyil, cəbhə arxasında yerləşdirilmiş ağır topların bir batareyasının da Qurd qapısı yüksəkliklərinə qaldırmaq, habelə hissələrin hücumuna çevik rəhbərlik etmək üçün 5-ci diviziya qərargahını da ora köçürmək barədə əmr verdi. Həmin topların Qurd qapısı yüksəkliklərinə qaldırılması ilə hücumun uğurla davam etdirilməsinə zəmin yarnadı. Əvvəlcə topların köməyi ilə 9-cu alayın sağ cinahında, Bibi-Heybət istiqamətində yaranan gərginlik aradan qalxdı. Sonra isə hücuma keçən alaylarla üzbəüz cəbhədə düşmənin müqaviməti qırıldı. Səhər saat 9.15-də 5-ci diviziya komandanı Mürsəl paşanın Ordu komandanlığına verdiyi raportunda deyilirdi :

> Piyada hissələr məzarlığın qərbində və Sallaxanada düşmənin ikinci xəttini tutub. Bir qüdrətli taborun irəli hərəkətinə əmr verilmiş və bir batareya irəli getmişdir. Volçi varota ilə Bayıl təpələri tərəfdə düşmənin 20 nəfərlik bir qüvvəsi var. Onların hücumu gözlənilmir. Lazımi tədbirlər görülür.

Ancaq bir tərəfdən əlverişli mövqelərin tutulması, digər tərəfdən də topların səmərəli fəaliyyətə başlaması "Sentrokaspi" və ingilis qoşunlarının müqavimət göstərmək imkanını məhv etmişdi. Az sonra 56-cı alay sol cinahda şəhərə hakim olan yüksəklikləri və düşmənin üç ədəd pulemyotunu ələ keçirdi. Bu mövqedən şəhərin bombardman edilməsi xeyli asanlaşdı və düşmən qüvvələrinin panikasını artırmaq üçün ara bir toplardan şəhərə atəş açılırdı.

56-cı alaya qarşı cəbhə tutmuş qüvvələr Qırmızı Qışlaya tərəf geri çəkilərək burada müqaviməti davam etdirirdilər. Alınan məlumata görə, Qışlanın arxasında 3 ədəd zirehli avtomobil düşmən qüvvələrini himayə edirdi. Bu avtomobilləri zərərsizləşdirmək üçün toplara atəş açmaq əmri verildi. Qaubitsa batareyasının bir neçə sərrast atəşindən sonra Qışla həm piyadalar, həm də zirehli avtomobillər tərəfindən tərk edildi. Sağ cinahdan irəli çıxarılmış olan 13-cü alay isə Maşatlıq adlanan məntəqəni, habelə Bayıl yüksəkliklərini ələ keçirdi. Bu mövqelərdən artıq top atəşi ilə limandakı gəmilərin hərəkətinə mane olmaq mümkün idi. Qərb cəbhəsində hücumu genişləndirmək üçün Putadakı zirehli qatar da saat 11.45-də Heybət stansiyası istiqamətində hərəkətə başladı. Qatar top atəşləri vasitəsilə hücumu himayə edə bilərdi. Beləliklə, sentyabrın 14-də günortaya kimi qərb cəbhəsində əsas mövqelər ələ keçirilmiş və düşmənin müqaviməti tamamilə qırılmışdı. 5-ci diviziyanın ərkani-hər rəisi Rüşdü bəy etiraf edirdi ki, əgər toplar döyüşə daha yaxşı qoşula bilsəydilər, onda gün ərzində əldə edilən nəticələr daha böyük ola bilərdi.

Sentyabr ayının 14-ü gecəsi ingilis qoşunları Bakını tərk etməyə başladılar. Ayın 14-də Bakı şəhərinin taleyi artıq həll olunmuşdu. Gün ərzinə gedən döyüşlərin nəticəsi barədə axşam 5-ci diviziya komandiri Mürsəl paşa tərəfindən Ordu komandanlığına belə bir raport verildi:

> 1.13-cü alay Maşatlıq və bunun şimalında şəhərə hakim sırtları kamilən işğal

etmiş olub düşmən civarındakı binalara girərək atəş etməkdədir. Şəhər daxilində toplaşmaqda olan düşmənin 13-cü alay cəbhəsinə yapdığı birinci müqabil təərrüz tərd edilmiş və ikinci təərrüzün də tərdinə çalışılmaqda olduğu anlaşılmışdır. Məzkur alay cəbhəsindəki düşmən məhkum və şaşqın bir vəziyyətdə mütəmadiyən piyada və makinalı tüfəng atəşi icra etməkdədir.

2. 56-cı alay cəbhəsindəki düşmən Qırmızı və Bəyaz qışlaların önündədir. Qırmızı Qışlanın önündəkilər piyada və makinalı tüfənglərlə və daxilindəkilər yalnız makinalı tüfənglərlə və Bəyaz Qışla civarındakı zirehli avtomobillər də top və makinalı tüfənglərlə atəş etməkdədirlər.

3. 10-cu alay cəbhəsindəki düşmən 56-cı alayın sol cinahına gətirdiyi qüvvələr isə 3-4 dəfə təərrüz təşəbbüsündə bulunmuş və fəqət hər dəfə tərd edilmişdir. Düşmən saat 13-də 107-ci alay cəbhəsindəki qüvvəni təqviyyə edərək Hacı Həsən köyünün şimal-qərbindəki sırt və daha şərqindəki bir kaç sırtı işğala müvəffəq olmuşsa da 28-ci taborun düşmən gerilərinə yapdığı təsir və təərrüz üzərinə düşmən saat 16-da ricətə məcbur edilmiş və 107-ci alayın da məzkur sırtlara çıxdığı tərəssüd olunmuşdur. 10-cu alay sol cinahı qarşısına iki zirehli avtomobil gəlmiş və fəqət topçu atəşlərimizlə tərd edilmişdir

4.Firqə qitəatının vəziyyəti aşağıdadır:

a) 13-cü alay Maşatlıq sırtı cənubundakı bina ilə Sallaxana civarındakı bina qrupları arasındakı xətdə, 9-cu alay 13-cü alayın sol cinahından Sallaxananın şimalındakı qırmızı binaya qədər, 56-cı alay 9-cu alayın sol cinahında, bulunduğu cəbhədə, 10-cu alay 56-cı alayın sil cinahından etibarən firqə sol cinahına qədərki xətdədir;

b) 10-cu alayın iki və digər alayların bir taboru cəbhələri gerisində ehtiyatda bulunmaları əmr olunmuşdur;

c) 106-cı alayın bir taboru Heybət-Bakı caddəsinin kəskin daşlıq sırtı qət etdiyi məhəldə, digər taboru Zavotlarda. Hər iki tabor firqə ehtiyatındadır;

d) Səhra obus batareyasından məada digər topçu qitəatı da bu gecə şimendifər xəttinin şərqinə keçəcəkdir;

e) İstehkam və dəmir yolu bölükləri Puta-Biləcəri dəmir yolu xəttinin təmiri ilə məşğuldurlar;

f) Zirehli tren Heybətdə qalacaqdır;

g) Firqə müstəqil xəttinin vəziyyətində təbəddül yoxdur;

h) Firqə qərargahı Zavotlardadır.

5. Şnayder, Krup və obus topları qışlalar, iskele və yol kimi mühüm yerlərə gecə atəşləri üçün təsbit olunmuşdur;

6. 13-cü alay tərəfindən bir avtomatik tüfənglə iki ağır makinalı tüfəng iğtinam və iki nəfər əsir edilmişdir. İğtinam olunan makinalı tüfənglərdən biri düşmənin əleyhinə istemal edilməkdədir. 56-cı alay tərəindən beş makinalı tüfəng iğtinam edilmiş və qismən düşmən əleyhinə istemal edilmişdir;

7. Bu müharibədə yalnız 56-cı alay bir zabit, 16 nəfər şəhid vermiş, 2 zabit, 74 nəfər məcruh və 8 heyvan yaralı vermiş, 105 sandıq piyada və makinalı tüfəng mərmisi və 465 bomba sərf edilmişdir.

Axşama yaxın Mürsəl paşa gün ərzində gedən döyüşlərin nəticələri barədə diviziya üzrə əmr hazırladı. Bu əmrdə günün sonunda hissələrin hansı mövqelərdə olduqları, harada gecələməli olacaqları açıqlanmışdı. Əmrdə qeyd edilirdi ki, hissə və bölmələr yerləşdikləri mövqelərin mühafizəsini də təmin etməli, düşmən qüvvələrinin

hücumları baş verdikdə onun dəf edilməsinə hazır olmalıdırlar. Dəmir yolu və istehkam bölmələrinə dəmir yolu xəttinin Biləcəriyə qədər olan hissəsinin yoxlanılması və xarab olan hissələrin bərpası tapşırıldı. Dəmir yolu xəttinin qərbində qalmış olan topların gecə ikən Qurd qapısı yüksəkliklərinə nəql edilməsi də əmrdə öz əksini tapmışdı. Əmrdə habelə təchizat-təminat, səhiyyə, rabitə məsələləri ilə bağlı müvafiq bölmələrə və strukturlara da lazımi göstəriş verilirdi:

1.Firqə qitəatı Maşatlığın cənubundakı bəyaz kiçik binadan etibarən Maşatlıq-Sallaxana-Qırmızı Qışla xəttini müvəffəqiyyətlə işğal etmiş və düşmənlərdən top və makinalı tüfəng iğtinam etmişdir;

2. 15-ci firqəyə mənsub 38-ci alay Biləcərinin şərq kənarına vasil olmuş və 10-cu alayın sol cinahında 107-ci alay Hacı Həsən köyünün şərqindəki daşlıq, kəsik sırtları işğal etmişdir. Bu alay 15-ci firqə əmrindədir;

3. Firqə qitəatı cəbhələrində aşağıdakı tədilatı bu gecə icra edəcəkdir:

a)13-cü alay Maşatlığın cənubundakı tək bəyaz bina ilə Sallaxana cənubundakı evlər qrupu arasında; bu alayın bir taboru behəmehal toplu olaraq alay ehtiyatını təşkil edəcəkdir;

b) 9-cu alay 13-cü alayın sol cinahından Sallaxananın şimalında qırmızı bina arasında; kəza bu alay da əlində toplu və müntəzəm bir ehtiyat taboru bulunduracaqdır. Bu alayın məntəqəsindəki qüdrətli batareyaları telefonla kəndisinə rəbt edəcəkdir;

c) 56-cı alay 9-cu alayın sol cinahından etibarən bulunduğu cəbhədə qalacaq və bir taborunu ehtiyat olaraq bulunduracaqdır.

d) 10-cu alay cəbhəsini bir taborla tutacaq və iki taborunu ehtiyat olaraq bulunduracaqdır;

e) 106-cı alay firqə ehtiyatıdır. Bu alay bir taborunu Heybət-Bakı caddəsinin kəskin sırtı qət etdiyi nöqtənin cənubunda bulunduracaqdır. Alay mənimlə və irılidəki taboru ilə daima irtibatda bulunmalıdır. Bu tabor eyni zamanda Volçi varota dağı və sahil qismini tərəssüd və təhərri etmək üzrə bir kəşf qolu sövq etmişdir. Alayın digər taboru Zavotlar məntəqəsinin sağ cinahında mənim əmrimdə bulunacaqdır.

4. Qitəat qazandıqları xətdə qalacaqlar və düşmənin vüquu məlhuz müqabil təərrüzlərini və basqınlarını bomba və süngü ilə dəf və tərd eyləyəcəklər və bu xüsusda əzəmi fədakarlıq göstərəcəklərdir. Kəşf qolları cəbhə və cinahların irəlilərinə sürülməlidir. Zirehli tren Heybətdə qalacaqdır. Dəmir yolu və istehkam bölükləri təmirata davam edəcək və Biləcəriyə qədər təxribat varsa onları da təmir edəcəkdir.

5. Alaylar qitəatın halını və qarşılarındakı düşmənin hal və vəziyyətini səriən firqəyə bildirəcəklərdir. Təərüzün yarın – 15.09.18-də sürətlə davam etdiriləcəyi ayrıca əmr olunacaqdır.

6. Səhra obusundan məada toplar bu gecə kamilən dəmir yolu xəttinin şərqinə nəql olunaraq münasib məhəllərdə yerləşdiriləcəkdir. Bunu topçu komandanı bizzat təmin edəcəkdir. Əvvəlcə irəliyə sövq edilən Şnayder və qüdrətli topları şəhərə, liman və iskelelərə və ən muzir hədəflərə təsbit edilərək gecəleyn atəş ediləcəkdir.

7. Cəbbəxana və ərzaq Qobu və Puta anbarlarından alınacaq və bilcümlə nəvaqis ikmal ediləcəkdir.

8. Yaralılar kamilən nəql edilməlidir. Bunun üçün səhiyyə qədəməsi alaylara

qədər sürüləcək və məcruhin cəlb olunacaqdır.

9. Telefon müxabirəsini alaylar xassətən təmin etməli və cəbhədə vaqi olacaq hər bir hadisədən məni xəbərdar edəcəklərdir.

10. Mən firqə tərəssüd mövqeyinin həmən civarındakı binadayam.

Sentyabrın 14-ü üçün qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirən Qafqaz İslam Orsusu qüvvələri həmin günün gecəsini istirahət etməklə bərabər, həm də son döyüşə hazırlıq aparırdılar. Mürsəl paşa yaxşı anlayırdı ki, döyüşün taleyi artıq həll edilmişdir. Üzlərinə açılan sabah hücumun eyni sürətlə davam etdirilməsi çox qısa bir zamanda Bakının azad edilməsi ilə nəticələnə bilər. Ancaq bunun üçün zəruri hazırlıq işlərini davam etdirmək lazım idi. Hər şeydən əvvəl Mürsəl paşa çalışırdı ki, qüvvələr öz sayöqlığını itirməsinlər. Çünki çıxılmaz vəziyyətdə qalmış düşmən də itirilmiş mövqelərin bərpa edilməsi üçün qəfil hücuma keçə bilərdi. Digər tərəfdən Mürsəl paşa qüvvələri yeni döyüşə səfərbər etməli idi. Çünki ötən günün yorğunluğu və ağır döyüşlər qüvvələrin döyüşgənliyinə bu və ya digər dərəcədə təsir göstərə bilərdi.

Sabahısı gün Mürsəl paşa nə edəcəyini dəqiqləşdirmək üçün axşamdan xeyli keçənə kimi Nuru paşanın əmrinin intizarında oldu. Həmin əmri Mürsəl paşa təxminən saat 9-a yaxın aldı. Ordu üzrə 100 nömrəli həmin əmrdə Ordu komandanlığı sentyabr ayının 15-də diviziyaların qarşısında dayanan vəzifələri müəyyənləşdirdi.

Bu əmri alan kimi Mürsəl paşa dərhal diviziya üzrə növbəti döyüş əmrini hazırladı. 77 nömrəli həmin əmrdə bildirilirdi ki, Bakının Qara şəhərə qədər olan hissəsi ələ keçrildikdən sonra yalnız bir alay və iki topçu batareyası şəhərdə saxlanılacaq. Qalan qüvvələr isə Bakı-Xırdalan yolunun ətrafında cəmləşdiriləcək. Hücum gecə saat 4.30-da topçu hazırlığı ilə başlamalı və 5.30-da isə piyadalar şəhərə doğru hərəkətə başlamalı idilər. Topçular əvvəlcə Qırmızı və Bəyaz qışlaları atəşə tutub buradakı düşmən müqavimətini qırmalı idilər. Bundan başqa firqənin sol cinahı və Sallaxana ilə Qırmızı Qışla arasındakı qüvvələr topçu himayəsi altında hərəkət etməli idi. Şəhərin mühüm obyektlərinin və xüsusən də limanın atəşə tutulması topçulara tapşırıldı. Bakı ələ keçirildikdən sonra şəhərin mühafizəsi 13-cü alaya həvalə olunurdu. Mürsəl paşa da şəhərdə talançılığa meyl edilməsini yol verilməz hesab edir və belə hallar üçün hissə komandirlərinin də məsuliyyət daşıyacağını vurğulayırdı.

1.Yarın sabah 15.09.18-də təərrüz hərəkatına davam olunaraq Bakı şəhəri zəbt olunacaqdır;

2. Beşinci Qafqaz firqəsi sağ cinahını qüvvətli və əmin bulundurmaqla bərabər, sol cinahı Ermənikəndin cənubundan keçmək üzrə böyük qismi ilə 56-cı alayın məntəqəsindən təərrüz edərək şəhərin Çorni qorod deyilən məhəllinə qədər olan qismini zəbt edəcəkdir. Bu qismə icabında caddə və meydanların müdafiəsi üçün bir alay piyada və iki qüdrətli batareya təxsis olunacaqdır. Sair əqsam şəhərin zəbtindən sonra Bakının şimal-şərqində və Bakı-Xırdalan caddəsinin tərəfeynində bulunacaqdır.

3. 15-ci firqə sağ cinahıyla Ermənkəndi təmizləmək üzrə şimal və şərqdən Bakının Çorni qorod deyilən qismini zəbt və işğal edəcəkdir. Kəza bu firqə də bu qisim üçün bir alay piyada və bir batareya qüvvət təxsis edəcəkdir.

4. Şəhərin zəbti üçün 15.09.18-də saat 4.30-da başlayaraq olan topçu istihzaratını mütəqaib 5.30-da qəti hücum icra olunacaqdır.

5. Firqəyə təxsis olunan məntəqə cəbhənin ən mühüm və möhkəm olan əqsamı və düşmən tərəfindən işğal olunaraq hali-müdafiəyə vəz edilmiş bulunan Qırmızı və Bəyaz qışlalardır. Bunlar düşmənin son müdafiə xətlərinin mərkəzlərini təşkil

edir. Bunun üçün istihzarat aşağıdakı kimi olacaqdır:

a) Obus və səhra batareyaları Qırmızı və Bəyaz qışlaları isabətli bir təxrib atəşiylə iyicə döyəcək və daxilindəki müdafiəni bunaltacaq və müdafiəsinə imkan verməyəcəkdir.

b) Qüdrətli batareyalardan biri sol cinahın irəliləməsini təmin edəcək və digər batareyalar Qırmızı Qışla ilə Sallaxana (daxil olmaqla) arasını şiddətli atəş altına alacaq və şəhərin daxilini və xassətən 13-cü alayın rəfaqət topçusu ilə bərabər, iskele və liman sırtlarına atəş edəcəkdir. Məqsədi-ümumiyyəyə görə topçuları topçu komandanı idarə etməlidir.

6. Mükəmmələn topçu istihzaratı ilə hücum ediləcəkdir. Hücum əsnasında əfradın yağmagirliyə dalmasına qətiyyən meydan verilməyərək üsuli-vəchilə hərəkət olunacaq və sokak müharibələrinin vüquu məlhuz olunduğundan qafil bulunmayaraq şəhərin müdafiəli evləri bomba və topçu ilə zəbt olunacaq və icab edən məhəl və meydanlara makinalı tüfəng və top tabiyə ediləcəkdir.

7. Şəhər zəbt olunduqdan sonra şəhərin mühafizəsi üçün 13-cü alay təxsis olunmuşdur. Bu xüsusda daha əvvəlcə təlimati-lazımi verilmişdir. Çorni qorod deyilən məhəlləyə heç bir nəfər keçməyəcək və qitə komandanları əfradına sahib olacaqdır.

8. Heybət-Biləcəri dəmir yolunun təmirinə istehkam və dəmir yolu bölükləri tərəfindən davam olunaraq zirehli tren Biləcəri cəhətinə keçəcəkdir.

9. Səhiyyə qədəməsi Şubanı zavotları – Bakı yolunun üzərində və vadidə bulunan binaya gələcəkdir.

10. Ərzaq və cəbbəxana Qobu və Puta anbarlarından alınacaqdır.

11. Bidayətdə firqə tərəssüd məhəllində bulunacağam.

12. Sağ cinahda bulunan alaylar bu əmri bir-birinə təbliğ edəcəklər.

15 sentyabrda döyüşlər səhər saat 4.30-da topçu hazırlığı ilə başlamalı idi. Mürsəl paşa ayın 14-də axşam verdiyi əmrdə bunun üçün topları lazımi məntəqələrdə yerləşdirməyə göstəriş vermişdi. Lakin həmin göstəriş vaxtında yerinə yetirilmədiyindən və topların vaxtında atəş mövqelərinə gətirilməməsi üzündən topçu hazırlığı bir saat gecikdi və saat 5.30-da başladı. Topların atəş mövqelərinə vaxtında gətirilməməsi məntəqənin çətin ərazi şəraitindən irəli gəlirdi. Topçular bütün gecəni çalışsalar da əmrin vaxtında yerinə yetirilməsinə nail ola bilməmişdilər. Ancaq onlar bütün qüvvələrini səfərbər edərək göstərilən vaxtdan bir saat sonra topları atəş mövqelərinə çıxara bildilər. Saat 5.30-da başlanan topçu hazırlığı saat 6.30-a qədər davam etməli idi. Lakin 56-cı alayın qüvvələri topçu hazırlığının sona yetməsini gözləmədən irəli hərəkət etdilər. Çox qısa müddətdən sonra 56-cı alayla bərabər, 9-cu və 13-cü alaylar artıq şəhərin kənarına çatmışdılar. Düşmən qüvvələrinin şəhərin qərb istiqamətində müqavimət göstərmək imkanı artıq yox idi. Adları çəkilən alayların şəxsi heyəti limanda gəmilərin yüklənərək şəhərdən uzaqlaşmasını müşahidə edə bilirdilər.

Səhər saat 10.30-da üzərində İran bayrağı ılı digər böyük bir ağ bayraq olan bir avtomobil şəhərdən çıxıb 13-cü piyada alayının mövqelərinə yaxınlaşdı. Qafqaz İslam Ordusu qüvvələri ilə əlaqə yaratmaq üçün bu avtomobildə İran konsulu ilə "Sentrokaspi" ordusunun qərb cəbhəsinin komandanı gəlmişdi. Onlar şəhərin artıq təslim olmağa hazır olduğunu bildirdilər və təslim şərtlərinin müzakirəsi üçün Bakı hökuməti ilə İran, Amerika, İsveç danimarka konsulları və bir ingilis zabitindən ibarət nümayəndə heyətinin qəbul edilməsini xahiş etdilər. Mürsəl paşa bu barədə dərhal Ordu komandanına məlumat verdi və nümayəndə heyətinin gətirilməsi üçün 5-ci firqə ərkani-

hərb rəisi yarbay Rüşdü bəy də avtomobillə şəhərə göndərildi. Mürsəl paşa həmin raportunda Nuru paşaya belə yazırdı:

1.İndi saat 10 dəqiqə 30-da İran konsolosu ilə Bakı cəbhəsi komandanından mürəkkəb bir heyət gələrək şəhərin və şəhərdə təhəssün edən düşmənin baqiyyəsinin surəti-təslimini qərarlaşdırmaq üzrə İran, Amerika, İsveç, Danimarka konsoloları ilə ingilis komandanından və Bakı hökumətindən mütəşəkkil bir heyətin nəzdimə gəlmələrinə müsaidə olunmasını və bərabərlərində bizdən birinin bulunmasını təklif etdiklərindən mürəxxəsləri gətirmək üzrə firqə ərkani-hərbi Rüşdü bəyi göndərdim.

2. Təklif edəcəyim şəraiti ayrıca ərz edəcəyəm.

3. Şəhərin kənarı və mədaxili tamamən işğal edilmişdir. Əsgərin böyük qismi Maşatlıq, Sallaxana və Salyan qışlası civarında toplu olaraq bulundurulmaqdadır. Şəhərə girmək mənn edilmişdir. Şəhərin daxili inzibatını 56-cı alaya tövdü edildiyi məruzdur.

Danışıqların aparılması üçün 5-ci diviziya cəbhəsində atəş dayandırılan kimi bu barədə 15-ci diviziyaya da xəbər göndərildi. Danışıq aparan nümayəndə heyəti 5-ci diviziyanın qərargahına gələndən sonra Mürsəl paşa şəhərin təslim edilməsi üçün aşağıdakı şərtləri irəli sürdü:

-Şəhərin qeyd-şərtsiz təslim edilməsi;

- Şəhərdəki düşmən qüvvələrinin təslim olması;

- Top və silahların, binaların və digər obyektlərin təslim edilməsi;

-Nargin adasında olan türk, alman və avstriya əsirlərinin təslim eidlməsi

-Silah anbarlarının, ərzağın, avtomobillərin, yük maşınlarının, zirehli avtomobillərin, təyyarələrin və digər hərbi mülkiyyətin təslim edilməsi.

Bakıdakı qüvvələri təmsil edən şəxslər Mürsəl paşanın bu şərtlərini qəbul etmək məcburiyyətində qaldılar və bununla da müqaviməti dayandırdıqlarını bildirdilər. Mürsəl paşa nümayəndə heyətinin üzvlərinə əhalini sakitliyə, onların həyatları və mallarının təhlükəsizliyi üçün əmin olmalarına çağıran vərəqlər verdi ki, həmin vərəqlər şəhərdə yayılsın.

Bununla da Bakı şəhəri üzərinə hücum dayandırıldı. Mürsəl paşa bir həbçi kimi həyatında ən böyük qələbələrdən birini qazandı. Bakı kimi böyük bir şəhər onun birbaşa komandanlığı altında olan qüvvələr tərəfindən azad edildi və burada at oynadan qüvvələr onun qarşısında diz çökərək aman istədilər. Həmin anlarda Mürsəl paşanın və onun əsgər və zabitlərinin hansı hisslər keçirdiyini təsəvvür etmək mümkün deyildi. Çünki bu elə bir qələbə idi ki, onun əldə edilməsi üçün saysız gərgin günlər yaşanmış, mindən artıq şəhid verilmişdi. Ən başlıcası isə Türkiyə hökumətinin və Azərbaycan xalqının onlara bağladığı ümid və etimad yerinə yetirilmişdi və Bakı şəhəri Azərbaycan xalqının sərəncamına verilmişdi. Mürsəl paşanın qərargah rəisi, onunla çiyin-çiyinə şərəfli döyüş yolu keçmiş Rüşdü bəy öz xatirələrində Bakının azad edilməsi ilə bağlı təəssüratını belə bölüşürdü:

Şərq türk alimi üçün gərək elm və ürfan, gərəksə sənaye və ticarət nöqteyi-nəzərindən mühüm bir mənbə və üssülhərəkə vəziyyətində olan və aylardan bəri ələ keçirmək üçün hesabsız qan axıdılan və can verilən Bakı şəhəri nəhayət Osmanlı qüvvət və silahlarıyla 36 saatlıq çətin bir müharibədən sonra zəbt və işğal edilmişdir. Zəfərlə tətəvvüc edən osmanlı silahlarına boyun əyən yalnız erməni və ruslar deyildi. İrandan qoşub gələn Denstervil ingilis livası da məğlublar arasında idi... türk zabit və nəfəri Azərbaycan torpağında əmsalsız bir

fərağati-nəfsilə və yüksək bir duyğu ilə çalışmış və çarpışmışdır. Ana vətənin həmən hər köşəsində bir tək dəxi olsa əsgərə ehtiyaci-qəti varkən bidayətdə 5-ci Qafqaz firqəsinin və biləxirə digər piyada və topçu qüvvələrinin Azərbaycana göndərilməsi türklüyün qurtarılması və oyanması uğrunda olduğu üçün pək də tənqidə layiq deyildir. Əsasən, Təbriz cəhətində toplanmaq vəzifəsi almış olan 9-cu Orduya Azərbaycandakı işlər bitdikdən sonra Lənkəran üzərindən iltihaq da pək əla imkan daxilində idi. Binaənəleyh bu ordudan ayrılan bu qüvvətlər pək də ayqırı istiqamətlərdə uzaqlaşmış deyildi. Məmafih fövqəladə sıkışık vəziyyətdə bulunan Osmanlı imperatorluğunun bu fədakarlığı çox böyük və çox yüksəkdir. Bununla bərabər, siyasi və irqi bir çox mənafe və insan mənabiyi də əldə ediliyordu. Eyni irqə mənsub bu iki millət arasında rabitə və münasibət axıdılan qanlara bir qat daha rəsanət peyda etmişdir. Anadolu türklərinin Azərbaycanın istiqlalı və istiqbalı uğrunda yapdıqları çətin və qanı müharibələr və müxadilələr əminəm ki, nəsildən-nəslə nəql ediləcək unudulmaz birər dastan halında qalacaqdır.

Bakıdakı qüvvələr təslim olduğunu bildirən kimi, Mürsəl paşa qoşunlara hücumu dayandırmaq əmri verdi. Həmin qüvvələr Bakı ətrafındakı mövqelərində dayandılar. Şəhərin daxilinə isə iki alay, 56-cı və 38-ci alaylar göndərildilər. 56-cı alay Bakının Qara şəhərədək olan hissəsinin asayişini öz nəzarəti altına götürdü. Qara şəhərdə asayişin təmin olunmasını isə 38-ci alay öz üzərinə götürdü. Xəzər dənizndən gözlənilə biləcək təhlükənin qarşısının alınması üçün Zığ və Bayıl burunlarının hər birinə bir batareya yerləşdirildi.

Mürsəl paşanın komandanlığı altındakı qüvvələrin Bakı şəhərinin azad edilməsi uğrunda qəhrəmancasına apardığı mübarizə Nuru paşanı çox razı salmışdı. Döyüşün bitməsi xəbəri alınan kimi, Nuru paşa dərhal Mürsəl paşa ilə əlaqə saxladı və ona öz təşəkkürünü çatdırdı. Nuru paşa onun təşəkkürünün döyüşən hissələrə də çatdırılmasını xahiş etdi:

> Bakının zəbti üçün cərəyan edən müharibatda bütün qitəat zabitan və əfradının göstərdikləri qeyrət və fədakarlıqdan dolayı bəyani-təşəkkür edirəm. Gecəleyn müvəffəqiyyətlə ilk piyada təərrüzünü icra eyləyən 9-cu və 56-cı alaylara və gündüz faiq düşmənə qarşı təərrüzlə Biləcərinin cənub-şərqindəki sırtları zəbt edən 38-ci alaya xassətən təşəkkür edirəm. 56-cı alay topçu atəşi olmadan gecəleyn düşmənin ikinci xəttini zəbtə müvəfəq olduğundan təqdirə şayandır. Alay komandanı minbaşı Fəhmi byin qayməqamlığa tərfisi üçün Nəzarəti-cəliləyə ərz edilmişdir...

Qafqaz İslam Ordusu hərəkatı başa çatandan sonra Mürsəl paşa da Azərbaycanı tərk etməli oldu. Nuru paşa Azərbaycan ordusunun sıralarında qalmaq və xidmətini Azərbaycanda davam etdirmək istəyəndə Qafqaz İslam Ordusu komandanlığından istefa verdi və bu vəzifəni Mürsəl paşaya həvalə etdi. Bakıya girmiş ingilis qoşunları komandanlığı Nuru paşanın Azərbaycanda qalmasına razılıq verməyəndə Mürsəl paşa yenidən öz vəzifəsinə dönməli oldu və türk qoşun hissələrinin Azərbaycandan təxliyyə edilməsində lazımi təşkilatçılıq işlərini öz üzərinə götürdü.

Qafqaz İslam Ordusu ləğv olunanda fəxri rütbələr də ləğv olundu. Ona görə Mürsəl bəy Azərbaycanı albay rütbəsində tərk etdi. Ancaq sonradan o, xidməti ilə sübut etdi ki, paşa rütbəsinə layiq bir zabitdir. Təkcə Azərbaycandan deyil, bütün Qafqazdan türk qoşunlarını geri çəkib Türkiyəyə dönərkən, Mürsəl bəy 1919-cu ilin aprelində ingilislər tərəfindən həbs edildi. O əvvəlcə Çanaqqalada saxlanıldı, sonra isə Malta adasına

sürgün edildi. Mürsəl 1921-ci ilin noyabrında sürgündən xilas oldu və Türkiyəyə qayıdan kimi İstiqlal mücadiləsinə qoşuldu. 6-cı süvari tümən komandiri kimi, Mürsəl həm zabit, həm də vətəndaşlıq borcunun icrasına başladı. Daha sonra o, 1-ci süvari tüməni, 2-cü süvari korpus komandanı oldu, Vətəninin düşmənlərdən tımizlənməsində mübarizlik göstərdi. Göstərdiyi xidmətlərə görə, Mürsəl 1922-ci il avqust ayının 31-də tümgünüral rütbəsinə layiq görüldü. Sonradan Mürsəl paşa 7-ci korpus komandanı vəzifəsində və bir sıra digər vəzifələrdə xidmət etdi və 1938-ci ildə istefaya çıxdı.
İstiqlal mücadiləsi illərində İzmir şəhərinə ilk girən qoşun hissələrinə Mürsəl paşa komandanlıq edirdi. Onun zabit həyatına iki şəhəri azad etmək qisməti yazılmışdı. Biri 1918-ci ildə Bakı şəhərini, digəri isə 1922-ci ildə İzmir şəhərini. Ancaq Mürsəl paşa Bakı şəhərinin azad edilməsi üçün çəkdiyi zəhmətə daha böyük qiymət verirdi və elə bunun üçün idi ki, "Bakı" adını özünə soyadı kimi qəbul etdi. Paşanın özündən də soruşublarmış ki, axı sən iki şəhəri zad etmisən. Bəs, nə üçün məhz "Bakı" adını özünə soyadı kimi götürmüsən, İzmir adını yox? Mürsəl paşa da əvəzində Bakının azad edilməsindəki iştirakından xüsusi qürur duyduğunu və bunun üçün də özünə "Bakı" soyadını seçdiyini bildirirdi.
Mürsəl paşanın üç qız övladı var idi. O, 1945-ci ildə 64 yaşında vəfat etmiş və İstanbuldakı Zəncirliquyu qəbirstanlığında dəfn edilmişdi. 1988-ci il noyabr ayında onun qəbri Ankaraya köçürüldü və burada dövlət qəirstanlığında torpaşa tapşırıldı.

## CƏMİL CAHİD BƏY

Türk qoşunları tərkibində Azərbaycana gələn və Azərbaycana yad qüvvələrə qarşı fədakarlıqla vuruşan türk zabitlərinin biri də Cəmil Cahid bəy idi. O, Azərbaycana daxil olan ilk türk hərbi hissəsinin, 9-cu Qafqaz alayının komandiri idi. Bu alay Gəncədən başlayaraq Bakıya qədər uğurlu bir döyüş yolu keçmişdi. Aparılan döyüşlərdə Cəmil Cahid bəy böyük təşkilatçılıq qabiliyyəti və şücaət göstərdiyi üçün elə Azərbaycanda olduğu vaxtlar daha məsuliyyətli vəzifələrə də irəli çəkildi.
Cəmil Cahid bəyin komandiri olduğu 9-cu Qafqaz alayının Azərbaycana göndərilməsi barədə qərar qəbul ediləndə hələ iki dövlət arasında dostluq müqaviləsi imzalanmamışdı və Azərbaycana türk diviziyasının göndəriləcəyi də qəti şəkildə qərara alınmamışdı. Məlumdur ki, Nuru paşa Azərbaycana göndərilərkən ona burada türk zabitlərinin köməyi ilə azərbaycanlılardan ibarət bir ordunun yaradılması tapşırılmışdı. Lakin Nuru paşa Gəncəyə daxil olduqdan sonra Müsəlman korpusunun vəziyyəti ilə tanış olmuş və bu korpusun bazasında yaxın vaxtlarda bolşevik-daşnak qoşunlarının müqavimətini qıra biləcək bir ordunun təşkil edilməsinin mümkünsüzlüyünü görmüş və bu barədə dərhal Batumda olan 3-cü Ordu komandanı Vehib paşaya məktub göndərmişdi. Nuru paşa Azərbaycana türk qüvvələrinin göndərilməsinin zəruriliyini bildirirdi.
Bu məzmunlu başqa bir məktubda Nuru paşa eyni zamanda Ənvər paşaya müraciət etdi və Azərbaycanda mövcud olan qüvvələrlə Qafqaz İslam Ordusu komandanlığı qarşısına qoyulan vəzifələrin həllinin qeyri-mümkün olduğunu onun da nəzərinə çatdırdı. İyun ayının 2-də yazdığı cavab məktubunda Vehib paşa Nuru paşanı Gəncəyə çatması münasibətilə tərik etdi və qaldırdığı məsələ ilə əlaqədar bunu bildirdi:

> ... Azərbaycan-hökuməti-müstəqileyi-islamiyyəsinin tələbi əsasında islamları bolşevik təcavüzündən qurtarmaq üçün qarışıq qüvvətli bir müfrəzəni Qazax

> üzərindən Gəncə istiqamətinə göndərəcəyəm. Bu müfrəzənin süvariləri Qazax və Gəncə arasınndakı stansiyanı mühafizə edəcəkdir.

3-cü Ordunun komandanının bu qərarına uyğun olaraq Qrup komandanı 5-ci Qafqaz firqəsi (diviziyası) tərkibinə daxil olan 9-cu Qafqaz alayına hərəkətə hazırlıq əmri verdi. İyun ayının 2-də verilmiş həmin əmrdə göstərilirdi ki, Cəmil Cahid bəy öz alayı ilə nəzərdə tutulan məntəqələrdə alman hərbi dəstələri ilə rastlaşarsa onlara məntəqəni tərk etməyi təklifi etməlidir. Çünki bölgədə mövqelərini gücləndirməyə çalışan Almaniya Gürcüstanın ərazisində möhkəmlənərək Azərbaycana müdaxilə etmək imkanlarını arayırdı. Əgər bu xəbərdarlıq nəzərə alınmazdısa onda Cəmil Cahid bəy daha qətiyyətli hərəkət edərək onların silahlarını əllərindən almalı və özlərini isə əsir etməli idi. Müqavimət göstəriləcəyi təqdirdə silahdan istifadə olunması da mümkün sayılırdı.

Əmrə əsasən Qazaxdan başlayaraq Gəncəyədək olan dəmir yolu xəttini 9-cu alayla bir vaxtda Azərbaycana yola düşən süvari minbaşı Zehni bəyin komandası altında olan mürəttəb ikinci süvari alayı qorumalı idi.

Zehni bəyin süvari alayı Qazaxdan Gəncəyə qədər olan dəmir yolu xəttinin mühafizəsini təmin etdikdən sonra minbaşı Cəmil Cahid bəyin komandası altında olan 9-cu piyada alayı Gəncəyə doğru hərəkətə başlamalı idi. Alay Gəncədə yerləşməli idi. Gəncədə olduğu vaxt alay xidmətin təşkili ilə bağlı Nuru paşanın əmrlərini yerinə yetirməli idi.

Gəncəyə hərəkət edən 9-cu piyada alayının tərkibində iki tabor, 10 ədəd pulemyot və iki ədəd top var idi. Say tərkibi etibarilə iyunun 4-də səhər saat 6-da Cəlaloğlu-Privolnaya yolu ilə Gəncəyə doğru hərəkətə başlayan 9-cu alayda 1336 nəfər var idi ki, onlardan da 61 nəfəri topçu idi.

Qazax-Gəncə arasındakı nəqliyyat qovşaqlarının təhlükəsizliyini təmin edəcək türk qoşun hissələtinin hərəkətə başlayacağı günlərdə, yəni 1918-ci il iyun ayının 4-də Batumda Azərbaycan Cümhuriyyəti ilə Osmanlı dövləti arasında imzalanan müqavilədən sonra Azərbaycan tərəfindən hərbi yardımın istənilməsi hərbi əlaqələr istiqamətində yeni bir səhifə açdı. Bu müqaviləyə əsasən, Azərbaycana təkcə mühafizə qüvvələri deyil, əməliyyat tapşırıqlarını yerinə yetirməyə qadir olacaq qüvvələrin göndərilməsi zərurəti ortaya çıxdı. Müqavilənin imzalandığı gün Vehib paşa 5-ci Qafqaz firqəsinin Qafqaz İslam Ordusun tabeliyinə verilməsi barədə əmr imzaladı. Bu əmrə görə, firqənin 9, 10, 13-cü piyada alayları, bir topçu alayı dərhal öz mövqelərini təhvil verərək Azərbaycana doğru hərəkətə başlamalı idi.

5-ci Qafqaz firqəsi əsas tərkibi ilə hərəkətə başlamazdan əvvəl Qazax-Gəncə yolunun mühafizəsi üçün vəzifələndirilmiş 9-cu piyada alayı, habelə mürəttəb 2-ci süvari alay artıq Azərbaycan ərazisinə daxil olmuşdular.

9-cu piyada alayı iki piyada bölüyü ilə iyulun 4-də Cəlaloğludan hərəkət edib iyunun 7-də Qazaxa çatdı. Alayın bir taboru əvvəlki məntəqəsində qalmalı idi. Həmin tabor sonradan firqənin əsas qüvvələri ilə birlikdə Azərbaycana gəldi. Bu alayın 1-ci taborunun bölük komandiri Mucib Kamalyeri "Çanaqqala ruhu nasıl doğdu və Azərbaycan savaşı" adlı xatirələr kitabında Azərbaycanda baş verənlərin alayın şəxsi heyəti tərəfindən necə izləməsi və bölmələrin Qazaxda necə qarşılanmalarını belə təsvir edirdi:

> ...Artıq bir az olsun dincələcəyimizi sanıyorduz. Fəqət an keçmədən daşnak çətələrinin İrəvan və Azərbaycan türklərini öldürməyə başladıqları söyləntiləri ordu içinə yayılıyordu. Şiddətli reaksiyon yaratdı. Bulunduğumuz yerlərdən çox uzaqlarda qalan İrəvan bölgəsindəki türk köyləri mahut Andronik çətələri

tərəfindən yakılır, xalqının qılıncdan keçirdikləri, digər tərəfdən alman və Avstriya cəbhələrindən dönən erməni əsgərlərinin də yenə daşnakların və bolşeviklərin təşviq və tərtibləriylə Bakı və çevrələrində məskun türkləri öldürdükləri və Azərbaycanda qətliamın genişlənməkdə olduğu xəbərləri bir-birini qovalayırdı.

May ayının sonlarına doğru 9-cu Qafqaz alayı yalnız başına Azərbaycana hərəkət etməli idi. Alay komandanı yenə Cəmil Cahid bəy (Toydəmir) idi. Bu sətirlərin naciz yazarı üst teğmən Mucib 25-ci taborun birinci bölüyündə komandirlik etməkdə davam edirdi. Bütün Ermənistan yaya keçildi. Uzun və çox məşəqqətli bir yürüşdən sonra Azərbaycana təbii Bakı-Batum dəmir yolu üzərindəki Qafqaz şəhərinə 7 haziran 1918-ci xalqın sonsuz göstəriləri içində daxil oldu.

Cəmil Cahid bəy və onun 9-cu alayı Gəncədə çox böyük sevinc və ehtiramla qarşılandı. Xalq köməyə gələn türk hissələrinin Azərbaycana yetişməsi ilə nəhayət çix ciddi təhlükədən xilas olacaqlarına inanırdı və keçirdiyi hisslərini də bu qarşılanma mərasimində nümayiş etdirirdi. Şahidlərin xatirələrində bu mərasim yadda qalan bir hadisə kimi təsvir olunmuşdu. Cəmil bəyin bölük komandiri olmuş Mucib Kamalyeri bu mərasim barədə xatirələrində aşağıdakı qeydləri etmişdi:

Trenin sürəti birdən birə azalmağa başladı. Lokomotivin uzun-uzun solumaları da getdikcə azalırdı. Qatarın pəncərələrini dolduran yaşıl bağlar Azərbaycanın bayraqları ilə donatılmış olduqca böyük bir qara girilidiyini gördülər. Şübhəsiz burası Gəncə idi. (9 iyun 1918) Gəncə stansiyası meydanında möhtəşəm qarşılanmanın sevinc və həyəcanı alayımızı sərxoş etmişdi. Artıq incə belli, Qafqaz qiyafəli azəri türklərinin sıcaq çevrəsi içində idik. İndi o ani görmənin, yaşamanın həyacanını dilə gətirmək qolay deyildir. Ancaq bu qədərini deyə bilərik ki, əsrlərdən bəri əsarət altında qalmağa məhkum edilmiş olan irqdaşlarımızın hürrüyyət və istiqlallarına qovuşmalarının sonsuz sevincini paylaşdığımız olağanüstü bir bayram günü idi o gün..

Cəmil Cahid bəy və onun silahdaşları belə əhval-ruhiyyə ilə Azərbaycana daxil olurdular. Onlar yaxşı anlayırdılar ki, qarşılarında çox mürəkkəb bir vəzifə dayanmışdır. Lakin bu vəzifənin müqəddəsliyi onları heç nədən qorxutmurdu. Əksinə, Azərbaycan xalqına kömək göstərmək istəyi onları mübarizliyə və iradə möhkəmliyinə ruhlandırırdı. Beləliklə, iyunun 9-da Cəmil Cahid bəy alayının əsas qüvvələri ilə birlikdə artıq Gəncədə idi. Burada bu alayla 2-ci süvari alayının ümumi qüvvəsinə "Gəncə müfrəzəsi" adı verildi.

Cəmil Cahid bəy Azərbaycana gəldiyi gündən də alayı ilə birlikdə gərgin döyüşlərin qoynuna düşdü. Bununla bağlı Nuru paşanın xatirələrində də müəyyən qeydlər vardır. Nuru paşa yazırdı:

Azərbaycanı şərqdən və qərb-cənubdan təhdid edən düşmənə qarşı yalnız yerli qüvvələr ilə müqavimət edilməyəcəyi anlaşılmış olduğundan tələbim üzərinə 5-ci Qafqaz firqəsi əmrimizə təxsis edilmiş idi. Firqənin Cəmil Cahid bəy komandasındakı ilk 13-cü alayı 12 haziran 1918-ci il tarixində ( burada bir qeyri-dəqiqlik var. Cəmil Cahid bəy 13-cü alayın yox, 9-cu alayın komandiri idi və bu alay Gəncəyə iyunun 12-də yox, 9-da çatmışdı – M.S.) Azərbaycana müvasilət etdiyindən sonra işbu alay Gəncəyə cəlb edilmiş və buradakı ermənilərin müqavimətlərinə rəğmən silahları alınmış idi.

Türk qoşun hissələrinin bütünlüklə Azərbaycana çatmadığı bir vaxtda Azərbaycanın təhlükəsizliyini mürəkkəbləşdirən təkcə Bakıdan irəliləyən bolşevik qoşunları deyildi.

Ermənilər yaşayan məntəqələrin hamısında Azərbaycanın müstəqilliyinə qarşı bir təhlükə var idi. Təkcə Qarabağda deyil, digər məntəqələrdə yaşayan ermənilər Bakıdakı bolşevik-daşnak irticası ilə əlaqə saxlayıb Azərbaycanın milli qüvvələrinə zərbə vurmağa daim hazır olduğunu bildirirdilər. Hətta Gəncənin erməni məhəlləsinin erməniləri də silahlanaraq Azərbaycanın milli qüvvələrinə zərbə vurmaq üçün məqam gözləyirdilər. Həmin vaxt Gəncədə 20 minə yaxın erməni yaşadığı ehtimal edilirdi. Onlar şəhərin Gəncə çayı ilə ayrılan şərq hissəsində yerləşmişdilər. Şəhərin şərq hissəsi ilə qərb hissəsi arasındakı əlaqələr demək olar ki, zəifləmişdi. Azərbaycanlılardan kimsə şəhərin şərq hissəsinə keçib orada sərbəst dolana bilməzdi. Öz xislətləri etibarilə şəhərin şərq hissəsində yerləşən ermənilər heç şübhəsiz ki, türk qoşun hissələrinin Azərbaycana gəlməsi və Gəncədə qərargah yaratmaları ilə razılaşa bilmirdilər. Onlar daha çox Şamuyan ordusunun Gəncəyə doğru sürətli hərəkəti intizarında idilər. Lazımi tədbirlər görülməsəydi Gəncə ermənilərinin silahlanmış dəstələri istənilən vaxt Qafqaz İslam Ordusu üçün arxada təhlükə yarada bilərdilər. Bunun üçün onların kifayət qədər qüvvəsi var idi. Gəncənin şərq hissəsində yaşayan ermənilər 600 nəfərlik bir tabora malik idilər. Həmin taborun ixtiyarında isə pulemyotlar və digər iri atıcı silahlar və hərbi təchizat var idi.
Nuru paşa yaxşı anlayırdı ki, Qafqaz İslam Ordusunun arxasında belə bir təhlükənin mövcud olmasına yol vermək olmaz. Şərqə doğru irimiqyaslı hücumları başlamazdan əvvəl cəbhə arxasının tamamilə təhlükəsiz bir vəziyyətə gətirilməsi Nuru paşanın da diqqət mərkəzində idi. Ona görə qərara alındı ki, şərqə doğru hərəkətə başlamazdan əvvəl Gəncə ətrafındakı ermənilər tərksilah edilsin. Bu məsuliyyətli vəzifə Cəmil Cahid bəyə tapşırıldı
Bununla Cəmil Cahid bəy demək olar ki, Azərbaycana gəldiyi ilk günlərdən müharibə ağuşuna düşdü və onun döyüş yolu Gəncə ətrafından başladı. 1918-ci il iyun ayının 11-12-də Gəncə erməni silahlılarının tərksilıah edilməsi üçün xüsusi əməliyyat keçirildi. Amma bu döyüş kifayət qədər gərgin və Cəmil Cahid bəyin heç özünün də gözləmədiyi bir şəraitdə keçdi. Gəncə ətrafına gəlmiş olan türk qüvvələrinin azlığı da ermənilərin tərksilah edilməsini müəyyən qədər gərginləşdirdi. Çünki Nuru paşanın ixtiyarında yalnız 9-cu piyada alayı və 2-ci türk süvari alayı var idi. Bu alayların da qüvvələri yolların və məntəqələrin təhlükəsizliyinin təmin edilməsi ilə məşğul idilər.Cəmil Cahid bəyin 9-cu alayından yalnız bir taqım qərargahın mühafizəsi üçün saxlanıldı və qalan qüvvələr ermənilərin tərksilah edilməsinə göndərildi.
Gəncə ermənilərinin tərksilah edilməsini Nuru paşanın 9-cu Qafqaz alayı və mürəttəb 2-ci süvari alayından ibarət olan Gəncə dəstəsi həyata keçirməli idi. Bu dəstə iyun ayının 10-da gecə saat 23.30-da pulemyot bölüyünün bir taqımını qərargahın mühafizəsi üçün saxlayaraq qalan şəxsi heyəti ilə Gəncə çayının qərb tərəfi ilə Yelenedorf istiqamətində hərəkətə başladı. Belə uzun bir marşrut seçməkdə məqsəd ondan ibarət idi ki, dəstə Yelenedorf yaxınlığında Gəncə çayının şərq tərəfinə adlasın və buradan da yenidən Gəncəyə doğru irəliləyərək ermənilər yaşayan şərq hissəni arxadan mühasirəyə alsın. O zaman Yelenedorf əhalisinin əsasını almanlar təşkil edirdilər. Buradakı alman icması da bir milli tabor təşkil etmişdi. Bu alman taborunda 4 ədəd pulemyot və digər silahlar var idi. Tabor yerli əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə təşkil edilmişdi. Ona görə ondan Gəncə əhalisi üçün hər hansı bir təhlükə gözlənilmirdi. Bununla belə, Gəncə dəstəsinin rəhbərliyi bu tabordan da silahlanmış ermənilərə qarşı mübarizədə istifadə etməyi qərara aldı. Gəncə dəstəsinin komandanlığı tərəfindən alman taboruna əməkdaşlıq təklif edildi. Əks təqdirdə alman taborunun tərksilah ediləcəyi bildirildi.

Alman taboru Gəncə dəstəsi ilə birlikdə fəaliyyət göstərməyə razı oldu. Dəstə komandirinin qərarı ilə alman taboru Zurnabad-Hacıkənd xəttində yerləşdirildi. Bununla da Gəncə ermənilərinin ətrafdakı erməni kəndləri ilə əlaqələri kəsilmiş oldu. Alman taborunun göstərilən məntəqələrdə yerləşdirilməsi əslində, Gəncənin şərq hissəsinin mühasirəsinin bir elementi idi. Bu taborun fəaliyyətinə tam arxayınçılıq əldə etmək üçün onun komandanlığına türk zabiti təyin edildi.

Gəncə ermənilərinin tərksilah edilməsi barədə bu döyüşün iştirakçısı olmuş bölük komandiri Mucib Kamalyerinin xatirələrində müfəssəl və maraqlı məlumatlat vardır. Ancaq həmin xatirələrdə tərksilah əmliyyatının iyunun 10-da başladığı göstərilir. Müəllif yazır ki, bir gün əvvək Nuru paşa ilə alay komandiri Cəmil Cahid bəy saatlarca bir yerdə olmuşdular və ola bilsin ki, həmin görüşdə bu əməliyyatın aparılması müzakirə olunmuşdu.

O öz xatirələrində Gəncə ermənilərinin tərksilah edilməsini belə təsvir edirdi:

> Böyük Gəncə şəhərinin xəritəsinə baxılacaq olursa erməni məhəllələrini çevrələyən bağların gerilərində, türk bölgəsi tərəfindən geniş bir düzlüyün varlığı gözə çarpır. Ertəsi sabahın alaca karanlığında alayımız işdə bir düzlüyün üzərində səffi-hərb nizamında toplandı. Daha gerilərimizdə bir azəri səhra batareyası açıqlıqda yer almışdı.

Əməliyyat başlamamışdan əvvəl Cəmil Cahid bəy alayı şəhərin erməni hissəsinin arxasındakı geniş düzənlik ərazidə düzdü. 9-cu alayın arxasında isə Azərbaycanın milli səhra batareyası yerləşibmiş. Səhər saat 9-a yaxın erməni məhəlləsindən alaya doğru iki araba gəldi və onların içində olan 5nəfər erməni alay komandanlığı ilə danışıqlara başladı. Ermənilərdən biri keşiş imiş. Onlar əvvəlcə burada düzülmüş qüvvələri diqqətlə izlədilər və onların hansı gücə malik olduğunu özləri üçün müəyyənləşdiridilər.

> Cəbhə aldığımız erməni məhəlləsi tərəfindən gələn yol üzərindən iki arabanın bizim tərəfə doğru irəlilədiyi göründü. Bəyaz bayraqlar sallanırdı. Arabalar tam qarşımızda durdu. Enənlərin içində bir papaz da vardı. Bu adamlar beş kişi idilər. Daha əvvəldən tanıyırlarmış kimi alay komandanının bulunduğu topluluğa doğru yürüdülər. Mübaliğəli salamlardan sonra 10-15 dəqiqə konuşmadan sonra komutanla birlikdə həmən müayinə nizamına keçən taborlarımızın önündən yavaş-yavaş keçdilər. Həpimizi ayrı-ayrı süzürlərdi. Erməni heyəti Cəmil Cahid bəyə vida edib ayrılarkən tabor komandanımız taborun eşidəcək bir səslə bu bilgini verdi:
>
> -Gəncə erməniləri bolşevik ixtilalından sonra o bölgədəki köylü ermənilərlə silahlanmışlar, vaxtilə rus ordularında subaylıq yapmış kişilərin komutası altında əsgəri birliklər təşkil edərək müstəqil bir idarə qurmuşlar və Azərbaycan hökumətini tanımamışlardır. Ancaq Osmanlı ordusu Gəncəyə girdiyi təqdirdə mal və canlarını onun hökumətinin himayəsinə, ədalətinə təslim edəcəklərini bildirmişlər.

Danışıqlar üçün gəlmiş ermənilər tərksilah olmağa söz versələr də buna əməl etmədilər. Ermənilərin nəzərincə, türk-Azərbaycan qüvvələri çox deyildi və onlara nüəyyən müqavimət göstərmək olardı.

> İştə bir az əvvəl önümüzdən keçən səlahiyyətli erməni heyəti alayımızı bu məqsədlə görməyə gəlmiş, kəndilərincə də tam qənaətə vardıqdan sonra komandan Cəmil Cahid bəylə həmən oracıqda sözlü bir anlaşma yapılmış, eyni gün içində şəhəri və mövcud silahlarını təslim edəcəklərini təəhhüd etmişlər.

Osmanlı zabitlərində belə bir təsəvvür yaranmışdı ki, Gəncə erməniləri doğrudan da

tərksilah olunmağa hazırdırlar və onların verdiyi vədə etibar etmək olar. Hətta dəstənin şəxsi heyətinə istirahət belə verilmişdi və güman edilirdi ki, vəd olunan vaxt yetişəndə ermənilər öz silahlarını gətirib təhvil verəcəklər. Lakin bu, heç də belə olmadı və tezliklə Osmanlı zabitləri başa düşdülər ki, nümayəndə heyətinin göndərilməsi də ermənilərinin əl atdığı məkrli oyundur. Saat 11 ətrafında Cəmil Cahid bəy bəzi bölmə komadirlərinə erməni məhəlləsinə doğru irəliləmək əmri verdi. Verilən tapşırığa əsasən Osmanlı bölmələri erməni məhəlləsində olan poçtu, otelləri və rəsmi qurumların yerləşdiyi binaları nəzarət altına almalı idilər. Sonradan Osmanlı bölmələrinə azərbaycanlı zabit Səməd bəq Rəfibəyov da qoşuldu. Bölmələr erməni məhəlləsinə yaxınlaşarkən erməni silahlıları tərəfindən atəşə tutuldular. Ermənilərin əlverişli mövqelər tutması onlara qarşı müqavimət göstərilməsini xeyli dərəcədə çətinləşdirdi. Bu da Qafqaz İslam Ordusu hərbçiləri arasında ilk itkilərə gətirdi.

Mucib Kamalyerinin xatirələrindən:

> Mükalimə heyəti arabalarına minib ayrılınca yenə tüfəng çatıldı. Alayca istirahətə keçildi. Fəqət yorulmaq bilməyən alay komutanı həp eyni yerdə ayaqda və yenə tabor komutanlarını ətrafına toplanmış onlarla konuşuyor. Təxminən, saat 11-i keçdiyi sıralarda alay komutanı əmir subayı ilə məni çağırtdırdı. Bizim minbaşı bir az əvvəl anlatdıqlarını təkrarladıqdan sonra bu əmri verdi – Bölüyünüzlə indi erməni bölgəsinə gedəcək, ödevli erməni kilavuzlarının sizə göstərəcəyi rəsmi dairələri, postxanaları, başlıca böyük bir kaş oteli işğal edəcəksiniz. Vəzifənizi mümkün olan çabuqluqla yapınız. Raporlarınızı bəkliyoram. Şübhə yoxdur ki, alay komutanı bir gecə əvvəl saatlarca bərabər bulunduğu Nuru paşadan almış olduğu təlimata uyğun olaraq səlahiyyətini kullanırdı.

Cəmil Cahid bəyin əmri ilə hərəkətə başlayan bölük döyüşə ilk girən bölmə oldu və ona görə də ermənilərin bütün gücü onlara qarşı istiqamətləndirildi. Sülh danışıqlarına gələnlər vasitəsiylə türk-Azərbaycan qüvvələrinin imkanlarını müəyyənləşdirən ermənilər asanlıqla onlara qalib gələcəklərini güman edirdilər. Ona görə də onlar bütün qüvvələrini səfərbərliyə alaraq Cəmil Cahid bəyin alayına ciddi müqavimət göstərməyə başladılar. Döyüşə qatılan bölüyün hansı gərgin dəqiqələr keçirdiyini təsəvvür etmək üçün yenə də Mucib Kamalyerinin xatirələrinə müraciət edək:

> Məni gözləyən bölüyümün özünə gəldim, “Silah başına” komutasını verdim. Yapılacaq işləri qısaca anlatdım. Digər bölüklərin diqqət və maraqlı baxışları önündə yürüşə keçdik.
>
> Əlimizdəki krokoyə görə, erməni məhəllərinə beş kilometrə qədər uzaqdayız. Təqribən 10-12 metrə genişliyində, virajlı və sıx ağaclı bir yolu təqib ediyoruz. Keçən hər dəqiqə bizi alayımızdan uzaqlaşdırır. Əsgər keyfli şərqi söyləyir. Fəqət ətrafda tək insan görünməyir. İrəlidə əndişəli bir səssizlik var. Bir ön sezi qafamın içini, mənliyimi sarsıyor, ani bir qərarla müharibə tərtibinə keçiyorum. Bir manqa əri 300 metrə qədər irəliyə göndərirəm. Sağ və solumuzdakı bağların iç tərəflərinə doğru kəşf qolları çıxarıyoram. Şərqilər kəndəliyindən kəsiliyor və yürüş yavaşıyor. İşbu sırada atını dörd nala çapan bir azəri süvari yüzbaşı yanımıza gəldi. Adının Səməd (sonralar türk ordusunun generalı rütbəsinə qədər yüksəlmiş Səməd bəy Rəfibəyov nəzərdə tutulur – M.S.) və Ordu qərargahına bağlı müstəqil süvari bölük komutanı olduğunu, Cəmil Cahid bəy tərəfindən bölüyümüzə yardım etmək üçün göndərildiyini söylədi. Enerjik və onurlu bir halı vardı.
>
> Səməd bəyin iltihaqı bizi çox sevindirdi. Keçəcəyimiz yolları və işğal edəcəyimiz

> binaları o göstərəcəkdi. Bərabərcə nəşə içində 10-15 dəqiqə daha irəliləmişdik ki, şiddətli piyada atəş basqısına uğradıq. Ərlər birdən-birə dalğlandı və sarsıldı. Həmən söyləyəlim ki, öncüllərimizin olağanütü soyuqqanlığı və cəsarətli davranışı sayəsində bölük kəndini toplamağa vaxt buldu. Daha doğrusu məhv olmaqdan qurtulmuşdu. Fəqət komuta etmək durumunda qalmadığından hər ər münasib bulduğu bir yerə sığınıyor və kəndi kəndini müdafiə edirdi. Bütün bu hərəkətlər və tərəfimizdən şiddətli qarşıqoymalar bir kaç dəqiqə içində olmuş, qarışıqlıq düzəli vermişdi. Səməd bəy də vuruşmaq istəyirdi. Alay komutanına bilgi verməsi üçün həmən geri getməsini rica etdim.

Ermənilər əlverişli mövqelərdə qurduqları pusqu ilə təşəbbüsü ələ alaraq 9-cu alayın adı çəkilən bölüyünü mühasirəyə almağa cəhd göstərdilər. Döyüş elə bir sürətlə baş verdi ki, arxadan hər hansı bir köməyin gələcəyini gözləmək əbəs idi. Çünki ermənilər say çoxluğundan istifadə edərək qəfil şəkildə bölüyün üstünə atıldılar və geridən hər hansı bir kömək gələnə qədər bölüyü məhv etmək istədilər.

Dəstə komandirinin tapşırığı ilə döyüşə süvarilər qatılmışdı. Piyada qüvvələri yaxınlaşanda süvarilər şimal-şərqə çəkilərək mühasirə xəttinin genişləndirməli idilər. Süvari alayının əsgər və zabitləri döyüşqabağı mövqe tutmaq ərəfəsində 4 erməni müşahidəçisini və keşikçisini əsir götürdülər. Bunun ardınca 2 zabit erməni məhəlləsinə göndərildi ki onlara tərksilah olmağın zəruriliyini anlatsın. Bu cəhd uğursuzluğa düçar oldu. Ermənilər nəinki heç bir təklif qəbul etmədilər, əksinə həmin zabitlərə atəş açdılar. Sonra da bütün qüvvələri ilə hücuma keçərək Gəncə dəstəsinin bölmələrini, xüsusilə də 9-cu Qafqaz alayının bölmələrini mühasirəyə almağa cəhd göstərdilər.

Vəziyyət elə bir təhlükəli xarakter aldı ki, bölük geri çəkilmək məcburiyyətində qaldı. Ancaq Gəncə dəstəsinin digər bölmələri etibarlı mövqe tutaraq erməni silahlılarına cavab verdi. Mucib Kamalyeri sonra yazırdı:

> Süvari yüzbaşı Səməd bəy alay komutanımıza durumu ətrafıyla anlatmış olacaq ki, bölüyümüzün geri çəkilərkən alayın iki taboru müharibə nizamına keçmiş, o bağların ən gizli yerlərini darayaraq çabuk-çabuk irəliləyirdi. Topçu da şəhərə atəş yağdırmağa başlamışdı. İlk rast gəldiyimiz komutan Cəmil Cahid bəy oldu. Yumşaq bir çöhrə ilə zayiatımızı sordu. Üzüntülü bir əda ilə - taborunuz ehtiyatdadır, iltihaq ediniz, istirahət ediniz - əmrini verdi.

Döyüş axşama qədər davam etdi. Gün ərzində dəstə komandanlığı Yelenedorfdan olan bir alman vasitəsilə ermənilərə xəbər göndərdi ki, əgər atəşi dayandırıb təslim olmasalar, erməni məhəlləsi toplardan bombardman ediləcək. Bu xəbəri alandan sonra saat 11-də bir keşiş bir erməni zabiti və bir komissar əllərində ağ bayraq Cəmil Cahid bəyin qərargahına gəldilər. Danışıqlardan sonra onlar tərksilah olmağa razılıq verdilər. Axşam saat 17-yə kimi onlara möhlət verildi. Lakin verilən vaxt ərzində ermənilər vədlərinə əməl etmədilər. Onda dəstə komandiri Yelenendorfda yaşayan bir erməni vasitəsiylə erməni məhəlləsinə xəbər göndərdi ki, onlar tərksilah olmazsa saat 18-də top atəşlərinə başlanacaq və bundan sonra kimdə silah tutularsa dərhal edam ediləcəkdir. Ancaq vaxtın keçdiyi və axşamın düşdüyü üçün əməliyyatın sabahısı gün yəni iyunun 12-də davam etdirilməsi qərara alındı.

İyun ayının 11-də baş verən döyüş ermənilərin nisbi uğuru ilə başa çatdı. Bu cəhər erməni tərəfinin əhval-ruhiyyəsini qaldırmışdı. Ermənilərin göstərdiyi ilk müqavimət, habelə verilən itkilər türk və milli qüvvələrə mənfi təsir göstərə bilərdi. Bunu nəzərə alaraq Cəmil Cahid bəy ayın 12-də qətiyyətli addımlar ataraq erməni silahlılarını tərksilah etməyi və ötən günkü döyüşdən yaranan ağır təəssüratı aradan qaldırmağı

qərarlaşdırdı. Onun planı belə idi ki, ermənilər könüllü surətdə tərksilah olmazdılarsa, bölmələri erməni məhəlləsi üzərinə həlledici hücuma istiqamətləndirsin. Bundan əvvəl isə toplardan erməni məhəlləsinə bir neçə xəbərdarlıq atəşi açılsın. Top mərmiləri az olduğu üçün davamlı atəş aparmaq imkanı yox idi. Səhərin açılması ilə bu planın həyata keçirilməsinə başlandı. Toplardan atılan atəşlər sərrast olmasalar da onların davam etdiriləcəyi qorxusu ermənilərin iradəsini qırdı və bununla da erməni silahlıları tərksilaha razı olduqlarını bildirdilər. Elə həmin gün qoşun hissələri erməni məhəlləsinə girib silahların toplanmasına başladılar. Gün ərzində 150 ədəd silah yığıldı. İyun ayının 13-ü və 14-də erməni məhəlləsi mühasirədə saxlanıldı və orada silah toplanması davam etdirildi.

Gəncə ermənilərinin tərksilah edilməsi üçün aparılan döyüşdə 13 nəfər şəhir oldu, bir zabit olmaqla 7 nəfər isə yaralandı. Mucib Kamalyerinin xatirələrindən:

> Azərbaycanın istiqlalı uğrunda ilk şəhidlər bölüyümüzdən verilmişdi. Qarşılıq olmaq üzrə müqtədir olduğumuz halda bir taqım məsum ermənilərə qıyılmışdı. Böylə oluşunun da Nuru paşa ilə Cəmil Cahid bəyin sərin qanlı və isabətli mühakimələrindən irəli gəldiyini bilxassə qeyd etmək istərdim

Cəmil Cahid bəyin alayı Gəncə döyüşündən sonra təxminən bir həftə şəhərin və ətrafının asayişinin təmin edilməsi ilə məşğul oldu. Azərbaycan ərazisinə daxil olan yeni qüvvələr cəbhə xəttinə göndərildiyi üçün Gəncənin və ətrafının asayişinin təmin edilməsi 9-cu alaya tapşırılmışdı. Bununla bağlı Nuru paşa tərəfindən verilən bütün göstərişlər və əmrlər Cəmil Cahid bəy tərəfindən vaxtında və keyfiyyətlə yerinə yetirildi. Yəni, qısa müddət ərzində burada əvvəllər mövcud olan qanunsuzluqlara, xüsusən ermənilərlə baş verən toqquşmalara son qoyuldu. Mucib Kamalyeri bu barədə belə yazırdı:

> Cəmil Cahid bəyin diyarətli iradəsi altında şəhərdə əmniyyət və asayiş həmən təəssüs etdiyindən sokaklara tökülən türk və ermənilər həsrət qaldıqları sülhün gətirdiyi hürrüyət və rahatlıqdan bol-bol istifadə ediyorlardı. Caddələrdən kümə-kümə öyrəncilər:
>
> Salon (tren) gəlir yan verir
> Gəncəliyə şan verir
> Gəncənin cavanları
> Bakı deyə can verir
>
> şərqilərini sevdalı səslərlə söyləyirlər, xalqı coşdururlar.

Cəmil Cahid bəyin alayı ümuməm Gəncə ətrafının asayişinin qorunması üçün nəzərdə tutulmuşdu və onun taborları Gəncə ətrafında yerləşdirilmişdi. Ancaq iyun ayının 17-18-də Qaraməryəm ətrafında vəziyyət mürəkkəbləşəndə alayın iki bölüyü 10-cu piyada alayının sərəncamına göndərildi. Qoşun hissələri Bakı ətrafına yaxınlaşana kimi Cəmil Cahid bəy hələ də Gəncə ətrafında idi. Bakı şəhəri üzərinə həlledici hücuma hazırlıq dövründə 9-cu alay bütünlüklə Bakı ətrafına cəmləşdirildi. Cəmil Cahid bəy Nuru paşanın əmri ilə Bakı ətrafına gəldi. O, 1918-ci il avqustun 11-də Cənub qrupuna komandir təyin edildi. Dəmir yolu boyunca hərəkət edən bu qrupa əvvəlcə Həbib bəy Səlimov rəhbərlik edirdi. Qeyd etmək lazımdır ki, ümumən Bakıya doğru hərəkət edən qüvvələr iki qrupa bölünmüşdü. Dəmir yolu boyunca hərəkət edən qüvvələr Cənub qrupu adlanırdısa, Şamaxı-Bakı şosse yolu boyunca hərəkət edən qüvvələr də Şimal qrupu adlanırdı. Avqust ayının 22-də Şimal və Cənub qrupları ləğv edildi. Əvvəlcə hər hansı bir qrupun yaradılması məqsədəuyğun bilinmədi. Ancaq sonradan idarəetmənin daha asan və səmərəli olması üçün Qafqaz İslam Ordusunun komandanının əmri ilə

Bakı ətrafındakı qüvvələr üç qrupda birləşdirildi. Şimal qrupu – Xırdalandan Mərdəkana qədər olan ərazidə fəaliyyət göstərməli idi. Xırdalandan Puta stansiyasına qədər olan ərazidəki qüvvələr Qərb qrupunda birləşməli idi. Puta-Ələt sahəsindəki qüvvələr isə Cənub qrupu adlandırıldı. Cəmil Cahid bəy şəhərə ən yaxın sahədə yerləşən Qərb qrupunun komandiri təyin edildi. Cəmil Cahid bəyin sərəncamında 9-cu piyada alayı və 10-cu piyada alayı var idi. 9-cu alay Putadan Hacı Həsən kəndinə qədər, 10-cu alay isə Hacı Həsən kəndi ilə Xırdalan arasında olan ərazidə yerləşmişdi. 9-cu alayda 10 ədəd, 10-cu alayda isə 4 ədəd top var idi. Avqustun sonları və sentyabrın əvvəllərində bu qrupun fəaliyyət sahəsində vəziyyət nisbətən sakit idi. Çünki başlıca diqqət həlledici hücuma hazırlığa yönəldilmişdi. Ancaq düşmən qüvvələri daim Cəmil Cahid bəyin mövqelərini müşahidə altında saxlayırdı. Sentyabrın 2-də hətta qərb qrupunun mövqeləri düşmən təyyarələri tərəfindən də müşahidə edilmiş və bir neçə bomba da atılmışdı.

Bakı üzərinə həlledici hücuma hazırlığı tezliklə başa çatdırmaq üçün Qafdaz İslam Ordusu qərargah rəisi Nazim bəy cəbhə xəttinə gəlmişdi. Buradakı vəziyyətlə tanışlıqdan sonra Ordu komandanlığına yazdığı raportunda Nazim bəy bildirirdi ki, Bakı üzərinə hücum iki istiqamətdən – şimal və qərb istiqamətlərindən aparılması məqsədəuyğundur. Nazim bəy onu da təklif edirdi ki, qruplar ləğv edilsin və alaylar birbaşa diviziya komandirinə tabe etdirilsin. Onun fikrincə 5-ci diviziya komandiri Mürsəl paşa hücuma ümumi rəhbərlik edəcəyindən həmin diviziyaya rəhbərlik edilməsinin Cəmil Cahid bəyə tapşırılması yaxşı olardı. Yəni, Nazim bəy əmin idi ki, həlledici hücum zamanı 5-ci diviziyanı Cəmil Cahid bəy daha yaxşı idarə edə bilərdi. Bu fikir Qafqaz İslam Ordusu komandanlığında da razılıqla qarşılandı. Nuru paşa və onun ətrafındakılar şübhə etmirdilər ki, Cəmil Cahid bəy diviziyaya komandirliyin öhdəsindən bacarıqla gələ bilər. Ancaq planlaşdırılırdı ki, Bakı üzərinə hücuma Mürsəl paşa yox, Nuru paşa özü rəhbərlik etsin. Belə olduğu təqdirdə Mürsəl paşanın 5-ci diviziyaya komandirlikdən ayrılması da məqsədəuyğun bilinmədi. Nazim bəyin təkliflərinə Qafqaz İslam Ordusu əməliyyat şöbəsinin müdiri belə bir cavab göndərmişdi:

> Nuru paşanın təərrüzü-qəti zamanında Şərq cəbhəsinə bilfel komanda etməsini Xəlil paşa əmr ediyor. Təklifi-aliniz vəchiylə bütün cəbhəyə Mürsəl paşanın 5-ci firqəyə də Cəmil Cahid bəyin komanda etməsinə Nuru paşa həzrətləri müvafiqət buyuracaqdır. Ancaq kəndilərinin komanda etməsi Xəlil paşanın əmri iktizasındadır.

Bakının azad edilməsi ərəfəsində qüvvələrin necə qruplaşdırılması və kimlərin rəhbər təyin edilməsi dəfələrlə nəzərdən keçirilmiş və müxtəlif variantlara əl atılmışdı. Bu da heç şübhəsiz ki, daha səmərəli variantın tapılması, hücumun daha düzgün və qətiyyətlə aparılması istəyi ilə bağlı idi. Nuru paşanın sentyabrın 7-də imzaladığı əmrlə Cəmil Cahid bəy 5-ci diviziyanın komandiri təyin edildi. Ola bilsin ki, Nuru paşa Nazim bəyin təklifləri ilə razılaşmaq qənaətinə gəlmiş və Cəmil bəyi diviziyaya komandir təyin etmişdi. Lakin qüvvələrin qruplaşdırılmasında bu qərar sonuncu qərar deyildi.

Sentyabr ayının 10-da Nuru paşanın Bakı ətrafına gəlməsi ilə buradakı qüvvələr yenidən qruplaşdırıldı. Şimal və Qərb qrupları ləğv edildi. 5-ci və 15-ci diviziyalar bir başa Nuru paşaya tabe etdirildi. Mürsəl paşa yenidən 5-ci diviziyaya rəhbərliyi öz öhdəsinə götürdü. Cənub qrupu isə ləğv edilmədi və Cəmil Cahid bəy həmin qrupun komandiri təyin edildi. Bu qrupda birləşdirilən qüvvələr əsasən Azərbaycanın milli qoşun hissələri idi. Bu qrup əvvəlki mövqeyində qalaraq Bakı üzərinə hücum edəcək qüvvələri

düşmənin Xəzər dənizindən təşkil edə biləcəyi müdaxilələrdən qorumalı idi.
Qeyd etmək lazımdır ki, Bakı üzərinə sonuncu hücum zamanı Cənub qrupunun yerləşdiyi ərazidə elə bir təhlükə meydana çıxmadı və ona görə də bu ərazidə vəziyyət sakit keçdi. Uğurlu təşkil edilmiş hücum nəticəsində Bakı azad edildikdən sonra Cəmil Cahid bəy Bakı şəhərinin komamdanı təyin edildi. Şəhərdə asayişin təmin edilməsini də Nuru paşa ona tapşırdı. Nuru paşa Cəmil Cahid bəydən qətiyyətlə tələb edirdi ki, şəhərdə talançılığa son qoysun, asayişin pozulmasında günahkar olan şəxslər tutularaq ciddi şəkildə cəzalandırılsınlar.
Şəhər komandanı kimi onun Bakı əhalisinə ünvanladığı müraciəti arxivlərdə indiyə kimi qalmaqdadır. Bu müraciət Azərbaycan və rus dillərində çap edilərək şəhərin küçələrində yapışdırılmışdı. Həmin müraciətdə deyilirdi ki, Osmanlı ordusuna pənah gətirən bütün cinsi və dini mənsubiyyəti nəzərə alınmadan həyatının və mülkiyyətinin təhlükəsizliyi təmin edilir. Ona görə də tacirlər dükanlarını açıb ticarət ilə, digər adamar isə öz işləri ilə məşğul olmalıdırlar. Müraciətdə şəhərdə talanla, oğurluqla, adam öldürməklə məşğul olmağın qəti qadağan edildiyi bildirilirdi. Belə əməllərdə günahlandırılan şəxslər şəhərdəki növbətçilər tərəfəindən tutularaq qətlə yetirilməli idilər. Bundan başqa axşam saat 7-dən səhər saat 7-yə qədər şəhərdə qadağan saatı qoyulmuşdu. Həmin müddət ərzində kimsə bayıra çıxmamalı idi:

1.Osmanlı ordusuna pənah gətirən bütün əhalinin cins və məzhəbə ayırmadan canı, ərz və halı əmniyyət altındadır.
2.Hər kəs dükanları açıb iş və gücü ilə məşğul olacaqdır.
3.Talamaq, yandırıb-yaxmaq, adam öldürmək şiddətlə qadağandır. Günahkarlar növbətçilər tərəfindən dərhal qətl ediləcəkdir.
4.Heç bir kəs, heç bir bəhanə ilə axşam saat 7-dən sabah saat 7-yə qədər evdən çıxmayacaqdır.
5.Tüfəng götürmək, fişəng atmaq qətiyyən qadağandır.

Bakı komamdanı, miralay Cəmil Cahid

Cəmil Cahid bəyin adı ilə bağlı olan əhəmiyyətli işlərdən biri də 1-ci Azərbaycan diviziyasının formalaşdırılması sahəsində atdığı addımlardır. Türk qoşunları Azərbaycanda olarkən bu diviziyanın formalaşdırılmasına böyük diqqət yetirilirdi. Cəmil Cahid bəyin komandanlığı altında bu istiqamətdə müəyyən işlər görülmüşdü. Azərbaycanın milli qüvvələrinin formalaşdırılması Ənvər paşanın da diqqəti altında idi. O, Nuru paşaya yazdığı məktublarda bu məsələnin ciddi nəzarət altında saxlanmasını tələb edirdi. Cəmil Cahid bəyin Azərbaycan diviziyasının komandiri kimi təyin edilməsi də məhz onun təcrübəsinə arxalanaraq bu birləşmənin tezliklə formalaşdıırlması zərurətindən irəli gəlirdi. Əvvəlcə, bu diviziyanın tərkibinə üç piyada alayından və yardımçı bölmələrdən başqa 1-ci topçu və 1-cü süvari alayı verilmişdi. 1918-ci il oktyabr ayının ortalarına yaxın 1-ci diviziyanın tərkibində üç süvari alayı və bir sərhəd alayı da verilmişdi. Nəzərdə tutulmuşdu ki, bu alay Azərbaycan diviziyasının alayları arasında əridilərək onların bazasını təşkil edəcəkdir. Yəni, həmin alayın üç taborunun bazasında Azərbaycanın üç milli piyada alayı yenidən qurulmalı idi. Ancaq sonradan türk qüvvələrinin azərbaycandan çıxarılması bu planın həyata keçirilməsinə imkan vermədi.
Cəmil Cahid bəyin Azərbaycanda olarkən gördüyü çox dəyərli işlərdən biri də Qarabağın erməni təcavüzündın azad edilməsinə rəhbərlik etməsi idi. Bakı şəhəri azad

edildikdən sonra Qarabağda erməni təcavüzünün cilovlanmasını da Nuru paşa Cəmil Cahid bəyə tapşırmışdı. Bura gələn qüvvələr də əsasən, 1-ci Azərbaycan diviziyasının hissələri idi. Cəmil Cahid bəyin iradəliliyi, ardıcıllığı erməni millətçilərini çıxılmaz vəziyyətə saldı. Ermənilər müəyyən hiylələrə əl atıb vaxtın uzadılmasına çalışanda Cəmil Cahid bəy qətiyyətli addımlar atdı və onun bu addımları erməni millətçilərinin müqavimətini tamamilə qırdı.

Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra Qarabağda erməni separatizmi də genişlənmişdi. Erməni millətçi qüvvələri hər vasitə ilə Qarabağı Azərbaycandan qoparmağa, azərbaycanlıları bu ərazilərdən sıxışdırmağa çalışırdılar. Doğrudur, Şuşada ilk əvvəl yaradılan idarəetmə orqanına həm erməni, həm də azərbaycanlıların milli komitələrindən bərabər sayda nümayəndələr daxil edilmişdi. Bu idarəetmə orqanı iyul ayının ikinci yarısına kimi fəaliyyət göstərdi.

Ancaq çox güclü hərbi qüvvəyə malik olan erməni millətçi dairələri getdikcə Azərbaycan və azərbaycanlılarla hər cürə bağlılığın qırılmasına çalışırdılar. Onlar azərbaycanlıların Qarabağın idarə edilməsində iştirak etmələri ilə heç cürə barışa bilmirdilər. Ona görə də müştərək idarəetmə orqanı tezlikıə ləğv edildi. 1918-ci ilin avqust ayında ermənilər Şuşada qurultay çağırdılar. Həmin qurultayda 7 nəfərlik bir qurum seçib onu Qarabağ hökuməti adlandırdılar və bütün hakimiyyətin ona verilməsini tələb etdilər.

Erməni milli komitəsinin fəallarından təşkil edilən bu oyuncaq qurumun da bütün fəaliyyəti azərbaycanlıların fiziki məhvinə, onların ata-baba məskənlərindən sıxışdırılıb çıxarılmasına istiqamətlənmişdi. Erməni millətçiləri azərbaycanlıları məcbur etmək istəyirdilər ki, Qarabağı Azərbaycandan ayrı bir qurum kimi tanısınlar. Bu niyyətə nail olmaq üçün ermənilər silahlı dəstələr yaradır, azərbaycanlıları Azərbaycanın digər bölgələrindən təcrid etməyə çalışırdılar. Əsgərana, Ağdama və Qaryaginə gedən yollar kəsilməklə azərbaycanlıların Aran Qarabağla əlaqələri qarşısına çəpər çəkilmişdi. Erməni millətçiləri planlaşdırırdılar ki, payızın və qışın gəlməsi ilə yaşayışın çətinləşməsi, habelə ehtiyacların artması ilə bağlı olaraq azərbaycanlılara təzyiqi gücləndirsinlər, onları Qarabağın erməni qurumunu tanımağa məcbur etsinlər.

Bu bölgədə baş verən proseslər müstəqil Azərbaycanın imdadına gəlmiş Osmanlı dövləti rəhbərlərini və eləcə də Qafqaz İslam Ordusu komandanlığını da narahat edirdi. Yuxarıda qeyd edildiyi kimi, Nuru paşa Azərbaycana ilk gəlişi zamanı heyətindən bir neçə nəfəri təlimatçı kimi Qarabağda saxlamış və Azərbaycana gələn ilk türk alaylarının bir bölməsini də Qarabağa göndərmişdi. Ənvər paşa hələ iyul ayının ortalarında Şərq Ordular Qrupu komandanı Xəlil paşaya bildirirdi ki, Osmanlı və İran erməniləri Qarabağa keçərək orada azərbaycanlılara qarşı vuruşmaq istəyirlər. O, Xəlil paşadan və Nuru paşadan tələb edirdi ki, ermənilərin bu istəklərinin qarşısı təsirli şəkildə alınsın.

Həmin bölgədə genişlənən təcavüzün qarşısının alınması, qətl və qarətlərə son qoyulması formalaşmaqda olan 1-ci Azərbaycan diviziyasına tapşırıldı.

Qarabağ hərəkatında bu diviziyanın 1-ci, 2-ci və 3-cü Azərbaycan süvari alayları, 2-ci Azərbaycan piyada alayı, milli könüllü bölmələr, habelə bir Şnayder dağ topu taboru və zirehli avtomobillər iştirak etməli idilər. 1-ci Azərbaycan diviziyası 9-cu və 106-cı türk alayları ilə möhkəmləndirilmişdi. Bu alayların hər biri bir diviziyadan götürülmüşdü. Müşahidəçilərin fikrincə, bu, məqsədyönlü şəkildə edilmişdi. 36-cı firqəyə mənsub olan 106-cı və 107-ci alaylar isə daha böyük döyüş təcrübəsinə malik idilər. Ona görə də iki təcrübəli alayın və ya da iki təcrübəsiz alayın 1-ci Azərbaycan diviziyasının möhkəmləndirilməsinə göndərilməsi məqsədəuyğun bilinmirdi. Belə olanda onların

hərəsindən birisinin Qarabağa göndərilməsi qərara alındı.
Nuru paşa sentyabr ayının 21-də artıq Qarayazı və Ləzgi süvari alaylarının Yevlaxa və oradan da Bərdəyə yola düşmələrinə hazırlaşmaları barədə əmr verdi. 23 sentyabr tarixli əmrində isə Nuru paşa həmin gündən etibarən Qarabağa yola salınacaq qüvvələrin göndərilməsinə başlanmasını tələb edirdi. Həmin əmrdə əvvəlcə 9-cu piyada alayının yola salınması lazım bilinirdi.
9-cu alayın bölük komandiri Mucib Kamalyeri Qarabağa doğru hərəkətə başlamalarını öz xatirələrində belə təsvir edirdi:

> Biz də bir həftə sonra İran hüduduna yaxın sayılan və 4 ayı aşan zamandan bəri mühasirədə bulunan Qarabağ elinin mərkəzi Şuşaqala türklərinin qurtarılması üçün digər bir alay ilə və bir xəfif tank bölüyü ilə bərabər hərəkət əmrini aldıq. Qaranlıq bir gecədə trenlə yola çıxıldı. Arxada hüzur və sükun içində buraxdığımız böyük Bakı şəhərinin elektrik işıqları göy üzünü tutuşdurmuş kimi idi. Bu qızıllıq əski İstanbul yanğınları kimi çox, həm pək çox uzaqlardan görülüyordu. Xəzər dənizinin əsrarəngiz qıyılarından keçən dəmir yolu bu mədəni görünüşə ayrı bir gözəllik qatıyordu. Cənub istiqamətinə doğru çılğın bir çabukluqla gedən trenimiz ilk və son dəfə dəniz banyosunu aldığımız Ələt stansiyasına ulaşı verdi. Bundan sonra dəmir yolu qərb cəhətinə dönüyor və artıq Xəzərdən ayrılıyoruz.
>
> Bütün çevrəsi türk və müsəlmanlarla məskun olan Asiyanın bu böyük dənizindən əmniyyət və qürur işində ayrıldığımız o gün nə qədər gözəl və unudulmaz bir gün olmuşdu...
>
> Əvət! Minlərcə və minlərcə sənə əvvəl saysız dost və düşmən orduları da bu Xəzərdən, bu ovalardan, bu dağlardan keçmişlərdi. Və tarix kitabları bizə öyrədir ki, ərəb orduları və ən son olaraq rus orduları buralarda yerləşmişlər və Azərbaycan xalqını da mümkün olduğu qədər sömürmüşlər və kədərləndirmişlərdi. Amma osmanlıların ikinci Məşrutiyyət devrindəki ordusu ilk dəfə Xəzərdən, bu vadilərdən milliyət eşqi ilə dolu olaraq keçiyor və sadəcə Azərbaycan türklərinin istiqlalı uğruna tər və qan töküyor.
>
> Tren yoluna davam ediyor, çox sərt müharibələrə səhnə olan məşhur Hacıqabul stansiyasını, ucu-bucağı olmayan düz ərazini keçiriz. Və nəhayət Qarabağ şossesinin tren yoluna qovuşdurduğu Yevlax stansiyasına varıyor, burada eniriz. Üç gün yürüşdükdən sonra böyük Ağdam şəhərinə xalqın sevgi dolu göstəriləri içində giriyoruz. Burada da Allah kömək etsin səsləri, Allah yardım etsin uğultuları halında göylərə yüksəlir. Fəqət duraklamadan şəhərin dışına çıxıyoruz. Bir kaç gündən sonra Şuşakala istiqamətində müharibə tərtibləri alınmaq sürətiylə yürüşə keçiyoruz.

Yola salınan dəstələr sentyabrın 25-dən etibarən Qarabağ ərazisinə daxil olmağa başladılar. Dərhal da Cəmil Cahid bəy tərəfindən Qarabağ ermənilərinə tərksilah olmaları və Azərbaycan hökumətinin qanunları altında yaşamaları barədə ultimatum verildi.
Erməni millətçi dairələri türk-Azərbaycan qoşunlarının Qarabağa gəlməsi ilə barışa bilmirdilər. Qısa vaxtdan sonra bütün niyyətlərinin puç ola biləcəyini anlayan millətçilər heç bir halda Azərbaycan hökumətini tanımayacaqlarını bildirdilər. Onlar Cəmil Cahid bəyi də öz niyyətlərinə inandırmaq məqsədiylə onun yanına 5 nəfərlik bir nümayəndə heyəti göndərdilər. Cəmil Cahid bəy bu qərarla tanışlıqdan sonra onu gətirən ermənilərdən üçünü – Arşavir Kamalyansı, Aşot Melik-Osipovu və Gerasim Məlik-

Şahnəzəryanı həbs etməyi əmr etdi. Ayrapet və Danil adlı ikisi isə buraxıldı və onlara bildirildi ki, ən qısa vaxt ərzində ermənilər təslim olmasalar Şuşaya doğru hücum başlayacaqdır.
Cəmil Cahid bəyin Ağdama gəlməsi və onun Qarabağın azad edilməsi sahəsindəki fəaliyyəti barədə o vaxtlar Qarabağda ermənilər tərəfindən elan edilmiş oyuncaq qurumda hərbi komissar vəzifəsini öz üzərinə götürmüş Arutyun Tumyanın xatirələrində də müəyyən qeydlər vardır. Qarabağda azərbaycanlılara qarşı istiqamətlənmiş təcavüzün təşkilatçılarından biri olan A.Tumyanın xatirələri heç şübhəsiz ki, Azərbaycan xalqına, türk qüvvələrinə və bütünlükdə türkçülüyə qarşı barışmazlıq ruhunda yazılmışdı və müəllif C.Cahid bəyin Qarabağdakı fəaliyyəti barədə iftiralara yol verməkdən də çəkinməmişdir. Bununla belə həmin xatirələrə diqqət yetirilməsi erməni millətçilərinin keçirdikləri həyəcanlarını və onların C.Cahid bəyə bəslədikləri münasibətləri aydınlaşdırmaq baxımından maraqlıdır. Qarabağın "hərbi komissarı" türk-Azərbaycan qüvvələrinin Ağdama gəlməsini belə təsvir edirdi:

> Güclü müdafiə tədbirləri ilə yanaşı Ağdama beş nəfərdən ibarət heyət göndərildi ki, türklərlə danışıqlar aparsın. Yolun təhlükəsizliyinin təmin edilməsi və danışıqlar zamanı kömək göstərilməsi üçün heyətə müsəlman zəhmətkeşləri arasında böyük nüfuz sahibi olan Lütfəli bəy də qoşuldu. Ağdamda onları Birinci Qafqaz müsəlman diviziyasının komandiri Cəmil Cahid bəy qəbul etdi. Danışıqların çox maraqlı epizodlarından birinin təsviri aşağıdakı kimidir: "Ağdamda heyət birdəfəlik inandı ki, Bakı həqiqətən də məğlub olub və türklər böyük enerji ilə Qarabağa hücuma hazırlaşırlar. Ağdam hərbi düşərgəyə çevrilmişdi. Burada Cəmil Cahid bəy adlı birisinin komandanlığı altında olan Birinci Qafqaz müsəlman diviziyasının hissələri yerləşmişdi. Qarabağın erməni heyətinin gəlməsindən xəbər tutan kimi Cəmil Cahid bəy əmr etdi ki, onları yanına gətirsinlər. Sonra isə hind quşu kimi özünü şişirtmiş bəy tərcüməçi vasitəsilə bildirdi ki, heyət üzvlərini girov kimi Ağdamda saxlayır və onlardan tələb etdi ki, türk komandanlığının silahı yerə qoymaq və Azərbaycana müti olmaq barədə təkliflərini yazılı şəkildə xalqa çatdırsınlar.
>
> Heyətin rəhbəri Ayrapet Musaelyan Cəmil Cahid bəyin alman dilinə yaxşı bələd olduğunu bildiyindən ona müraciət edərək onların girov kimi Ağdamda saxlanılması qərarına etiraz etdi:
>
> - Cənab komandan, heyət Qarabağdan bura sülh missiyası ilə gəlib ki, qarşılıqlı razılaşma əsasında, qüvvə tətbiq etmədən Qaraqışlağın erməni kəndlərinə, öz doğma kəndlərinə qayıtmalarına və yenidən dinc və yaradıcı işə girişmələrinə imkan verilsin. Bu, erməni və müsəlman xalqları arasında, şəhərdə və rayonlarda möhkəm sülhü saxlamağa kömək edər. Ona görə də, cənab komandan, izn verin nəzərinizə çatdırım ki, tərksilah və mütilik haqqında ultimatum və tələblər sülh işinə xidmət edə bilməz. Onlar yalnız Qarabağ xalqının qəzəb və nifrətinə səbəb ola bilər. Bunun nəticəsini anlamaq da çətin deyil. Sizə yəqin ki, yaxın gələcəkdə keçiriləcək və üç Zaqafqaziya respublikasının sərhəd məsələsini həll edəcək Konstantinopol konferensiyasından xəbərdarsınız. Nəyə görə bu konferensiyanın qərarını gözləməyək?... Cənab komandan, məsləhətim budur ki, Qarabağ erməniliyi ilə dost və sülh dilində danışın və vəziyyətin mürəkkəbləşməməsi üçün bizə azad surətdə Qarabağa qayıtmağa icazə verin.
>
> Musaelyanın sözlərindən əsəbiləşən bəy cavab verdi:
>
> -Biz çoxdan sizinlə silah dilində danışmağa hazırıq. Qaraqışlağa gəlincə isə o,

bizim göstərişimizlə dağıdılıbdır və heç bir vaxt bərpa edilə bilməz.

- Cənab komandan, Qarabağ qorxmağa və müti olmağa adət etməyibdir. Düşmən bizim qabağımızda silahını oynatmağa başlayanda bu, böyük qan tökülməsinə səbəb ola bilər. Nəticəsi isə hər iki tərəf üçün eyni səviyyədə ağır ola bilər. Tarixin dərslərini yaddan çıxarmayın, Qarabağ erməniləri bütün tarixi boyu birinci dəfə deyil ki, osmanlıları sərhədlərində qarşılayırlar. Əgər unutmamısınızsa, Qarabağ sizin qoşunlarla bu "görüşlər" zamanı heç vaxt məğlub olmamışdır.

- Keçmişi tarixdə saxlayaq-deyə Cəmil Cahid bəy bir qədər yumşalaraq cavab verdi.- Bu gün bizim qüvvələrimiz məğlubedilməzdir. Biz Bakı uğrundakı döyüşlərdən qalib çıxdıq. Orada bizə qarşı əksərən Qarabağ erməniləri vuruşurdular və onlar ağır məğlubiyyətə düçar oldular...

Əsas qərarın qəbul edilməsi, yəni osmanlılarla sülh bağlanması və ya müharibə elan edilməsi məsələsinin həlli üçün erməni heyətinin üzvləri olan Kamalyan, Məlik-Ovsepyan və Məlik-Şahnəzəryan türk komandanına ən nüfuzlu partiyanı təmsil edən Musaelyanın və Arakelyanın Şuşaya qaytarılmasının məqsədəuyğunluğu barədə təklif verdilər. Cəmil Cahid bəy razılaşdı. O, Musaelyan və Arakelyana təklif etdi ki, onun yazılı tələblərini Qarabağın rəhbərliyinə çatdırsınlar. Heyətin girov kimi Ağdamda qalan üç üzvü isə bəyin əmri ilə Ağdamın cənub-şərq hissəsində yerləşən ikimərtəbəli evə atıldı...

Bir daha qeyd edilməlidir ki, bu sətirlər erməni müəllifinin xatirələrindədir və ona görə oradakı qəzəb və hədyanları başa düşmək də çətin deyil. A.Tumyan ermənilərin "qəhrəmanlıqlarını" hədsiz dərəcədə şişirtsə də onların türk-Azərbaycan qüvvələrinin qarşısını almaq dərəcədə gücü yox idi və ona görə də irəli sürülən tələbləri qəbul eməkdən başqa çarələri də qalmamışdı. Ancaq ermənilər belə bir vəziyyətlə qarşılaçacaqlarını gözləmirdilər və Qarabağda oyuncaq erməni idarəçiliyi yaratmaqla onlar güman edirdilər ki, artıq bütün istəklərinə nail olmuşlar və Qarabağı işğal altında saxlaya bilərlər. Ona görə də Cəmil Cahid bəyin ultimatumunu ermənilər birdən-birə qəbul edə bilmirdilər. Daha doğrusu, tamamilə nəzarət altına alınmış Qarabağın öz qanuni saiblərinə qaytarılması tələbi ilə razılaşa bilmirdilər.

Oktyabrın 1-də Nuru paşa da Cəmil Cahid bəyin yanına gəldi. O da ermənilərə qarşı kəskin bir ultimatum irəli sürdü. A.Tumyan Nuru paşanın Ağdama gəlməsi və ultimatum irəli sürməsi barədə belə yazırdı:

Hərbi komandan Nuru paşanın ultimatumu alındı. Orada qarabağlılardan tələb olunurdu ki, 1) 24 saat ərzində silahlar təhvil verilsin; 2) Azərbaycan hökuməti tanınsın; 3) Azərbaycan və türk qoşunlarının Şuşaya yolu açılsın. Ultimatumun sonunda paşa türk qoşunlarınıa müqavimət göstərməyə cəsarət etmiş Sasun və Zeytunun taleyini yada salırdı.

Ermənilər çaş-baş olub qalmışdılar. Onların Milli Şurası bu ultimatuma cavab verə bilmədi. Məsələnin ciddiliyi nəzərə alınaraq Qarabağ ermənilərinin üçüncü qurultayının çağırılması və ultimatumun orada müzakirə edilməsi qərara alındı. Hələ sentyabr ayının 29-da altimatum alınan günü Erməni Milli Şurasının sədri Cəmil Cahid bəyə məktub göndərərək Qarabağ ermənilərinin növbəti qurultayı çağırılanadək hücuma başlamamağı xahiş etdi. Həmin məktub və eləcə də Ağdamda saxlanılan girovlara ermənilərin yazdığı məktubun əsli indi də Ankarada, Qafqaz İslam Ordusunun arxivində saxlanmaqdadır. Məktublar rus dilindədir. Çox güman ki, onlar Ağdamda azərbaycanlılar tərəfindən Cəmil Cahid bəyə tərcümə edilmişdi. Ermənilərin Cəmil

Cahid bəyə göndərdiyi məktubda deyilirdi:

> Beşinci Qafqaz diviziyasının komandirinə. Bizim heyətin bir hissəsi Sizin ultimatumu bizə çatdırdı. Sizin istədiyiniz kimi ona cavab Qarabağın erməni əhalisi tərəfindən verilməlidir. Kəndlərin nümayəndələri bu gün yığılacaqlar. Xahiş edirik ki, bunu nəzərə alasınız və bizə imkan verəsiniz ki, əhalinin nümayəndələrindən soruşaraq sizə cavab verək.

A.Tumyanın xatirələrindən belə güman etmək olardı ki, erməni nümayəndələri Ağdamda az qala C.Cahid bəylə hədələrlə danışmışlar. Bu məktubda isə həmin əhval-ruhiyyə heç də hiss olunmur. Ermənilər yazıq şəkildə Cəmil Cahid bəydən xahiş edirdilər ki, onlara imkan verilsin, onların xahişi nəzərə alınsın. Yəni, çarəsizlik içində çırpınan erməni qalib türk ordusunun komandanı qarşısında heç vaxt A.Tumyanın təsvir etdiyi şəkildə danışa bilməzdi. Hətta onun xatırələrinin sonrakı hissələrindən belə hiss olunur ki, ermənilər türkləri Şuşaya buraxmaqla bir növ onların boynuna minnət qoymuşdular və türk-Azərbaycan qoşunlarının Şuşaya buraxılması heç də ermənilərin gücsüzlüyündən irəli gəlmirdi.

Erməni Milli Şurasının sədri Ağdamda girov saxlanılan erməni nümayəndələrinə də bir məktub göndərdi. Həmin məktubda bildirilirdi ki, türklərin tələbinə Erməni Milli Şurası cavab verə bilməz və girov ermənilərdən xahiş eidlirdi ki, onlar da vaxtın uzadılmasına çalışsınlar. Bu məktubda deyilirdi:

> Ağdamdakı heyətin üzvlərinə - Arşavir Kamalyana, Aşot Melik-Osipova və Gerasim Melik Şah-Nəzəryana
>
> Türk komandanlığının təklifi elə ciddidir ki, Qarabağ erməni Milli Şurası özbaşına buna cavab verə bilməz. İrəli sürülmüş məsələnin obyektiv müzakirəsi və ona hərtərəfli cavab verilməsi üçün kənd nümayəndələrinin qurultayı çağırılmışdır. Qurultay bu axşam açılır. Həm ermənilər, həm də tatarlar üçün arzuedilməz olan qan tökülməsinin qarşısının alınması üçün siz türk komandanlığının razılığını almalısınız ki, müstəqil qurultayın qərarını gözləsin. Həmin qərar dərhal sizə göndəriləcək. Sədr.

Oktyabrı ayının 3-də Qarabağ ermənilərinin qurultayı çağırıldı və ermənilərə qarşı irəli sürülmüş ultimatum burada müzakirə edildi. Bir neçə iclasdan sonra qərara alındı ki, Azərbaycan hökuməti tanınsın, ancaq ermənilərin əlində olan silahlar təhvil verilməsin və bununla bağlı türk komandanlığı qarşısında məsələ qaldırılsın. "Azerbaydjan" qəzetinin verdiyi məlumata görə, ermənilərin müzakirələri bir neçə gün davam etdi. Onların qurultayı öz işini bitirən günün səhəri Ağdamda saxlanılanlar da Şuşaya qayıtdılar və bildirdilər ki, şəhərin təslim edilməsi və silahların təhvil verilməsi üçün 24 saat vaxt verilmişdir. Bunu eşidəın kimi Şuşa erməniləri şəhər komendantına bir ədəd əldə düzəldilmə top, bir pulemyot, 80 tüfəng təhvil verib Azərbaycan hökumətinə təslim olduqlarını bildirdilər. Bu barədə Ağdamda olan Qarabağ məntəqə komandanı İsmayıl Həqqi bəyə və Cəmil Cahid bəyə də xəbər göndərildi. Bu barədə Qafqaz İslam Ordusunun Ankaradakı arxivində sənədlər saxlanmaqdadır. A.Tumyan isə ermənilərin qurultayının gedişini və onun qərarlarını belə təsvir edirdi:

> Hökumət üzvlərinin böyük səylərindən, Şuşanın nüfuzlu ziyalılarının nümayəndələrinin hər biri ilə şəxsi görüşlərindən, uzun-uzadı izahlarından və nəhayət hərbi komissarın Türkiyənin Birinci dünya müharibəsində qaçılmaz məğlubiyyəti haqqındakı dəqiq məlumatlarından sonra qurultayın iştirakçılarının əksəriyyəti ultimatuma cavabın layihəsinin qəbul edilməsinə inandırmağa çətinliklə də olsa nail olundu. Ancaq nəzərdə tutulmuşdu ki, əgər türklər Qarabağı

tərksilah etmək və onu azərbaycana tabe etmək tələblərindən əl çəksələr və lakin Şuşaya qoşun yeritmək tələbində qalsalar, onda aşağıdakı şərtlərlə razılıq verilsin: Şuşaya yalnız sayı 800-1000 nəfərdən çox olmayan bir türk nizami qoşun hissəsi daxil ola bilər. Azərbaycanın silahlı qüvvələri – nizami qoşun olub-olmamasından asılı olmayaraq Şuşaya və Qarabağa yeridilməməlidir. Türk qoşunları eyni zamanda kənd rayonlarına getməməli və Şuşanın müsəlman hissəsində yerləşdirilməli idi.

Qurultayın çağırıldığı vaxt qarabağlılar türk nizami qoşun hissələrinin və dağınıq Azərbaycan bandalarının çoxsaylı basqınlarını uğurla dəf etdilər. Ermənilərin uğuru türk komandanlığını inandırdı ki, Qarabağla müharibə ağır nəticələr verə bilər. Nuru paşa nə qədər qışqırsa da, hay-küy salsa da ultimatumuna verilən cavabı eşidəndə onunla razılaşmaq məcburiyyətində qaldı.

Erməni mənbələrindən biri türk-Azərbaycan qoşun hissələrinin Ağdama gəlməsini, Cəmil Cahid bəyin dərhal döyüşə başlamayaraq Qarabağda kök salmış terror qruplarının silahı yerə qoymasına dəvət etməsini təsvir edərkən xatırladır ki, silahını təhvil verənlərin həyatının və əmlakının toxunulmazlığına vəd verildi. Bu məqamın üzərindən erməni araşdırmaçıları sükutla keçsələr də türk-Azərbaycan qüvvələrinin komandanlığı və bütünlükdə Azərbaycan hökumətinin başlıca məqsədi məhz bölgədəki terrorçu qrupların zərərsizləşdirilməsi və iki xalqın dinc yanaşı yaşayışının təmin edilməsi idi. Cəmil Cahid bəy eyni zamanda erməni yeparxiyasının rəhbərliyinə də xəbər göndərdi və yeparxiyadan 3 gün ərzində erməni silahlılarının tərksilah olunmasına kömək göstərilməsini xahiş etdi. Dərhal toplantı çağıran ermənilər uzun-uzadı müzakirələrdən sonra Azərbaycan hökumətini tanıdığını qərara aldı. Ermənilərin qurultay adlandırdıqlar toplantı eyni zamanda türk-Azərbaycan hərbi hissələrinin komandanlığından xahiş etdi ki, Bakıya erməni nümayəndə heyəti göndərilməsi və Azərbaycan hökuməti ilə danışıqlar aparılmasına imkan verilsin. Qoşun komandanlığı bu təklifi qəbul etmədi və mənbənin fikrincə türk-Azərbaycan qoşun hissələri gözlənilmədən qəfil şəkildə Pircamal, Kətik, Xanabad və digər kəndlərin üzərinə hücuma keçdi.

Elə erməni mənbələri bildirirlər ki, türk-Azərbaycan qoşun hissələrinin Əsgərana doğru irəliləməsi heç də gözlənilən deyildi. Əksinə, ermənilər tərəfindən yubadılmasına çalışılan proseslərin məntiqi nəticəsi idi.

Başqa bir erməni mənbəyində də Qarabağ ermənilərinin Cəmil Cahid bəyin ultimatumu ilə bağlı çağırılan toplantı haqqında maraqlı qeydlər vardır. Həmin toplantının iştirakçılarından biri olan Arso adlı birisinin verdiyi məlumatdan aydınlaşır ki, toplantı son dərəcə gərgin bir şəraitdə keçdi. Toplantı iştirakçılarının hamısı müzakirələrə silahlanaraq gəlmişdilər və onların silahlı şəkildə gəlmələri tərksilah haqqında verilən təklifə münasibətlərinin nümayişi idi. Ona görə hətta toplantı iştiralçıları da yanındakı silahlıların qorxusundan başqa fikir söyləməyə ehtiyat edirdilər. İlk çıxışlar göstərdi ki, məsələnin sülh yolu ilə həllinə heç bir şans yoxdur. Arso elə belə də qeyd edir və bu, bir daha onu göstərir ki, terrorçu qrupların, erməni silahlı quldurlarının iki xalqın dinc yaşayışı üçün verilən təklifi qəbul etmək niyyətləri yoxdur. Əksinə, onlar öz çıxışlarında türk-Azərbaycan qüvvələrinə qarşı müharibəyə çağırış edirdilər. Toplantıda 78 nəfər çıxış etdi. Çıxışların çoxu ermənilərin tərksilah edilməsi əleyhinə oldu. Lakin bu çıxışlar sonda reallığın qəbul olunması ilə bitdi və Azərbaycan hökumətinin tanınması haqqında qərar qəbul olundu. Arso sonra etiraf edirdi ki, qərarın qəbul olunması bir məsələ idi, onun həyata keçirilməsi isə başqa bir məsələ idi. Erməni terrorçu qrupları Azərbaycan

hökumətini tanımaq haqqında qərar qəbul etsələr də, onun həyata keçməsini əngəlləməyə çalışırdılar. Azərbaycan hökumətinin tanınması haqqında xəbəri Cəmil Cahid bəyə aparan erməni heyəti Əsgəran yaxınlığında yerləşən erməni silahlıları tərəfindən dayandırıldı. Arso qeyd edirdi ki, ermənilərin bu təxribatı toplantı iştirakçılarında böyük bir həyəcan yaratdı. Çünki aydın idi ki, təyin olunmuş vaxtda cavab almayan Cəmil Cahid bəy hücuma başlamaq əmri verə bilərdi. Həqiqətdə elə belə də oldu. Çünki erməni nümayəndə heyəti vaxtında Ağdama yetişmədiyi üçün Cəmil Cahid bəy Əsgərana doğru hərəkət etmək əmri verdi. Ermənilərdə belə bir təsəvvür var idi ki, onlar Əsgəranda kifayət qədər möhkəmləniblər və Əsgəran alınmaz bir qaladır. Arsonun "alınmaz" sözünü dırnaq arasında işlətməsindən güman etmək olar ki, o özü də ermənilərin bu iddialarına inanmırdı və qeyd etdiyi kimi 2-3 saat ərzində "alınmaz" hesab olunan Əsgəran mövqeləri və yaxın ətrafda olan 8 erməni kəndi erməni silahlılarından azad edildi.

Oktyabrın 4-də Cəmil Cahid bəy Şuşaya doğru hərəkətə başlamaq haqqında əmr verdi. Şuşaya doğru hərəkətin ilk günü erməni silahlılarına qarşı döyüşlə müşayiət olundu. Əsgəran ətrafındakı təbii şəraitindən istifadə edən ermənilər burada güclü müdafiə postları qurmuşdular. Üzbəüz döyüşlə bu mövqeləri yarıb keçmək çətin olacağından 2-ci Azərbaycan piyada alayı və bir süvari alayı Kətik-Daşbaşı istiqamətinə göndərildi. 9-cu Qafqaz piyada alayı isə Ağbulağa doğru hərəkət etdi və bu məntəqəni ələ keçirərək ermənilərin cənuba doğru geri çəkilmək yolunu bağladı. 9-cu alayın bu məntəqəni ələ keçirməsi və həmin alayın 25-ci taborunun cənubdan Əsgəran üzərinə hərəkəti burada mövqe tutan ermənilərin müqavimətini tamamilə qırdı və onların geri çəkilməkdən başqa çarəsi qalmadı. Bununla da Şuşa yolunda əsas müqavimət ocağı aradan qaldırıldı.

Ermənilər hər halda güman edirdilər ki, malik olduqları silahlı dəstələrlə Qarabağı Azərbaycandan qoparmağa nail olacaqlar və ona görə də Əsgərən ətrafında olan bir sıra kəndlərdə də Qafqaz İslam Ordusu qüvvələrinin qarşısının kəsilməsinə cəhd göstərildi. Cəmil Cahid bəy belə müqavimətlə qarşılaşacağını nəzərdən qaçırmırdı və ona görə də ermənilərin cəhdləri ciddi bir nəticə vermirdi. Məsələn, Xramord, Xanabad, Daşbaşı, Aranzəmin, Qarakənd ətrafında da erməni silahlı dəstələri öz sözlərini deməyə çalışdılar. Amma Cəmil Cahid bəyin çevik göstərişləri və təşkilatçılığı bu müqavimət ocaqlarını aradan qaldırdı. Oktyabr ayının 6-da Əyrikənd ətrafında da erməni silahlıları Cəmil Cahid bəyin dəstəsinin Şuşaya doğru hərəkətinə mane olmağa cəhd göstərdilər. Burada erməni silahlılarının sayı xeyli çox idi. Cəmil Cahid bəy onlara qarşı topları döyüşə qoşdu. Bununla da bu qar5şılaşmanın da taleyi həll edilmiş oldu. Cəmil Cahid bəy Nuru paşaya göndərdiyi raportda Əyrikənd ətrafında baş vermiş döyüş haqqında belə yazırdı:

> Ermənilər Əyrikənd ətrafına toplanaraq müqavimət göstərmək istəsələr də topçu qüvvələri ilə məzkur məhəllə bombardman olduqdan sonra qaçmalı olmuşdular. Abdallarda təmsil ediləcək komisiyona silah verəcəklərini vəd etmişlər. Xanabad, Qılınclı və Kətik kəndlərindən qaçan əhali gəlməkdə silahı təslim etməyə hazır olduqlarını bildirsələr də çox az silah yığılıb. Sabah Xankəndi üzərinə hərəkət edəcəyəm. İndi Şuşa tərəfindəki bütün kəndlərə silahlarını Əsgərana gətirmək xəbər edilmişdir.

Cəmil Cahid bəy üçün məlum idi ki, ermənilərin silahlandırılması yalnız Ağdam-Şuşa boyunca yerləşən kəndlərdə aparılmamışdı. Erməni millətçilərinin əlində kifayət qədər silah və sursat toplanmışdı və bu silah və sursat bütün Qarabağa səpələnmişdi. Ona görə, Cəmil Cahid bəy Qarabağda ümumi sabitliyin yaradılması üçün bütünlükdə bölgə

məntəqələrində silah toplanmasını gücləndirməyə çalışdı. Bərdə-Tərtər, Goranboy-Gəncə ətrafında olan erməni kəndlərində toplanmış olan silah və sursatın təhvil alınmasına göstəriş verildi. Oktyabrın 6-dək Bərdə-Tərtər ətrafındakı erməni kəndlərində 150-yə qədər tüfəng toplamaq mümkün oldu. Amma məlum idi ki, bu ermənilərdə olan silahların heç də hamısı deyildi. Hətta bu az sayda olan silahların toplanması da çox çətinliklə baş verirdi və ermənilər mümkün fürsətdən istifadə edərək Qafqaz İslam Ordusu qüvvələrinə qarşı öz təcavüzkarlıqlarından əl çəkmidrilər. Məsələn, təkcə Şuşa istiqamətində oktyabrın 6-dək davam edən döyüşlərdə bir zabit və 32 əsgər şəhid olmuş, 65 nəfər yaralammış, 16 min güllə və 276 top mərmisi istifadə olunmuşdu.

Oktyabrın 7-də Gəncə ətrafında toplanan silahların sayını 400-ə çatdırmaq mümkün oldu. Oktyabrın 8-də Ağcakənd, Ortakənd və Erməni Borisi kəndlərindən 110 ədəd müxtəlif növ silah toplandı. Bu bölgəyə göndərilmiş olan Süleyman əfəndi Talış, Çaylı, Marquşevan kəndlərinin erməniləri ilə əlaqə yaratdı və onları silahları təhvil verməyə çağırdı. Ba barədə Cəmil Cahid bəy yazırdı:

> Gəncədən verilən xəbərə görə Süleyman əfəndinin dəstəsi 7-8-də (oktyabr) Ağcakəndə daxil olmuş, Ağcakənd, Ortakənd, Boris kəndlərindən müxtəlif 110 silah cəm edilmişdir. Qaraçinar və ona yaxın kəndlərdə dağlara qaçan ermənilər geri dönüb. Dəstənin qərargahı Ortakənddədir... Talış, Çaylı, Marquşevan ətrafındakı erməni silahlıları ilə Süleyman əfəndi arasında bir əlaqə yaranıb. Buralarda sakitlikdir... Keşişkənd ətrafında olan 50 nəfərlik erməni dəstəsinin rəisi Karapet dağlara qaçan adamları geri qaytarmağa mane olur. Oradakı bir heyətlə əlaqə saxlanılıb, əhalinin geri qaytarılmasına çalışılır. 91 ədəd silah toplanılıb. Cəbrayıldan alınan məlumata görə, əhali Azərbaycan hökumətinə itaət etməyə hazırdır. Erməni millətçiləri Azərbaycan hökumətini tanımaq və qoşunları Şuşaya buraxmaq barədə verdiyi vədlərə baxmayaraq mümkün olan müqaviməti göstərirdilər. Ancaq onların müqaviməti ümid edilən nəticəni vermirdi. Mübarizlik ruhunda köklənmiş olan Azərbaycan və türk döyüşçüləri yalnız qələbə əzmi ilə vuruşurdular.

Beləliklə, erməni silahlılarının göstərdikləri bütün cıhdlərə baxmayaraq Cəmil Cahid bəyin dəstəsinin Şuşaya doğru irəliləməsinin qarşısını almaq mümükn olmadı və oktyabr ayının 8-də türk-Azərbaycan qüvvələri nəhayət ki, Şuşaya daxil oldular. Bu hadisə Qafqaz İslam Ordusunun tarixində yadda qalan məqamlardan biri idi və onun əldə edilməsində Cəmil Cahid bəyin də özünəməxsus xidmətləri var idi.

Cəmil Cahid bəy qoşun hissələrinin Şuşaya girməsi münasibətilə Nuru paşaya göndərdiyi raportunda belə yazırdı:

> 8-də ... səhər saat 9.30-da müvəffəqiyyətlə Şuşa qalasına girilmiş, əhaliyi-islamiyyə və xristianiyyə tərəfindən qarşılanma olub... Bura gəlincə ermənilərdən bir komissiyon təşkil edərək əhalinin asyaişinin təmin edilməsi, adamların işlə məşğul olması, silahların yığılması vəzifəsini verdim.

9-cu alayın bölük komandiri Mucib Kamalyeri isə qoşun bölmələrinin Şuşaya daxil olmasını belə təsvir edirdi:

> ... Şuşaqala istiqamətindəki sərp dağların möhkəm nöqtələrinə yerləşmiş bulunan düşmən cəbhəsinə də belə olağanüstü həyəcanın verdiyi qeyrətlə təərrüz edildi və bir hücumda yarıldı. Qarşı tərəfdən gələn səlahiyyətli deleqelər müharibəyə son verəcəklərini bir kaç gün sonra belirli saatda Şuşaqalanı qeyd-şərtsiz təslim edəcəklərini təəhhüd etdilər.

> Təbiət gözəlliklərinə sahib Şuşaqalaya şəhərin varoşlarında bizləri maraq və həyəcanla bəkləyən türklərin candan alqışları içində və pək çabuk hazırlanmış üç böyük Zəfər tağının altından keçərək girdik. Birincisində "Yaşasın Ənvər", ikincisində "Yaşasın sultan", üçüncüsündə "bir gün olacaq şəmsi-həqiqi doğacaq, şərqin bu əsir valdeləri hür olacaq" yazılmışdı. Üçüncüsünü Şuşaqala qızları bolşevik ihtilalından sonra yazmağa başlamışlar, iki ay içində tamamlaya bilmişlərdi. Bu bilgiləri bizə şəhərin türk məhəllələrinin qadınlarıyla birlikdə boy sipərləri içində müdafiə edən azəri mücahidləri veriyorlardı.

Türk-Azərbaycan qüvvələrinin Şuşaya daxil olması bu şəhərin azərbaycanlı əhalisi tərəfindən böyük sevinclə qarşılandı. Onların köməyinə yetmiş qoşun hissə və bölmələrinin qarşılanması üçün şəhər əhalisi xüsusi hazırlıq da görmüşdü. Şəhərin demək olar ki, bütün əhalisi Qafqaz İslam Ordusu qüvvələrinin qarşılanmasına hazırlıqda iştirak edirdilər və hər kəs də öz imkanı daxilində olan işləri görürdü. Cavanlar şəhərə girən yolların bəzədilməsi ilə məşğul idilərsə, yaşlılar da maliyyə vəsaiti toplayır və bununla hissə və bölmələrin təminatına müyyən yardımlar göstərirdilər.

"Azerbaydjan" qəzeti Qafqaz İslam Ordusu hissələrinin Şuşaya daxil olmasını belə təsvir edirdi:

> Məhərrəm ayının 1-də qoşunlar şəhərə yaxınlaşdılar. Onların qarşılanması üçün hamısı qara çərkəsi geyimdə olan yerli gənclərdən ibarət 30 nəfərlik fəxri qarovul göndərildi. Şəhərin girişində məktəblilərdən ibarət olan orkestrlə bərabər yerli könüllü hissələr dayanmışdı. Birinci zəfər qapısının yanında isə ruhanilər və Beynəlmiləl komitə üzvləri əllərində şəhərin açarını tutmuşdular. Sonra isə şəhərin tanınmış adamları əllərində duz-çörək, məktəblilər əllərində bayraqlar və qadınlar əllərində çiçək dəstələri dayanmışdılar. Ermənilər tərəfdən də musiqi orkestri və 15 bayraqla 300 nəfərlik bir nümayəndə dəstəsi gəlmişdi.
>
> Səhər saat 10-da qoşunlar aşağıdakı tərkibdə şəhərə daxil oldular: Qabaqda süvarilər, arxasında topçular və pulemyotçular. Qoşuların arxasınca isə Qaladərə qəhrəmanları Sultan bəy və İldrım bəy hərəkət edirdilər. Azərbaycanlı qadınlar dəstə komandirinə qırmızı məxmər üzərində mirvarilərlə bəzədilmiş hədiyyə verdilər. Cəmil Cahid bəy şəhərə daxil olduqdan sonra əhali qarşısında çıxış etdi və dedi: "Bizim məqsədimiz qan tökmək deyil. Əksinə, sakitlik yaratmaqdır. Dövlətin bütün xalqları eyni hüquqlara malik olacaqlar. Hamı öz hökumətinin hakimiyyətini tanıyacaqdır və dinc əmək fəaliyyətinə başlamalıdır".
>
> Qarşılanma mərasimi başa çatdıqdan sonra zabitlər onlar üçün hazırlanmış mənzillərdə yerləşdirildilər. Əsgərlər üçün isə köhnə qışlalar ayrıldı. Qışlalara yerləşməyənlər də müvəqqəti olaraq Realnı məktəbin və seminariyanın binasına göndərildilər.

Türk mənbələrinə görə, ermənilərlə azərbaycanlılar arasında münasibətlərin daha da kəskinləşməməsi üçün Cəmil Cahid bəy ermənilərə qarşı nisbətən mülayim mövqe tutdu. Erməni millətçilərinin xislətinə yaxşı bələd olsa da o çalışırdı ki, mümkün qədər dinc yolla qarşılıqlı anlaşma əldə edilməsinə nail olsun. Mövcud olan məlumatlara görə, Cəmil Cahid bəy şəhərdə qarşılandıqdan sonra Şuşanın ən böyük məscidində (çox güman ki, Gövhər ağa məscidində) nüfuzlu və sözükeçən azərbaycanlılarla bir daha söhbət etdi və onların qarşısında da müəyyən tələblər qoydu. Bu söhbət zamanı C.Cahid bəy dedi:

> İyiliyinə mətuf sözlərimi həmən etməz, əmrlərimə hərfiyyən itaət etməsəniz haiz

olduğum səlahiyyətlə ən əzəmi surətlə haqqınızda şiddətli müamilə tətbiqinə zərrə qədər təəhhür etməm. Ermənilərə indi itaət təklif edəcəyəm. Qəbul etmədikləri təqdirdə bir orduya itaətsizliyin cəzası nə isə onlara verəcəyəm. İtaət edərlərsə həyat, namus və malları təhti-əmanımda olduğundan heç bir fərqin ufaq bir hərəkətinə müsaidə etməyəcəyəm. İtaət etmədikləri halda dəxi haqqlarında tərtib ediləcək müamiləyi-ifaya yalnız əsgərim məmur olacaqdır. Xalqın tamamən seyrçi qalmasını və hər kəsin iş və gücünə bu dəqiqədən etibarən başlamasını tələb və əmr edirəm.

Yəni, albay Cəmil Cahid bəy mülki əhaliyə çatdırırdı ki, ermənilərlə bağlı olan bütün məsələləri o özü həll edəcəkdir. Camaat isə gündəlik məşğuliyyətinə dönüb adi həyatını davam etdirməli idilər.

Cəmil Cahid bəy Şuşanın azərbaycanlılar yaşayan hissəsində vəziyyətin sabitləşdirilməsi üçün zəruri tədbirlər gördükdən sonra ermənilərin nümayəndələri vasitəsilə onlara xəbər göndərdi və onların ən yaxın vaxtlarda tərksilah olunmasını tələb etdi. Ermənilər bir daha bu tələblə və silahları təhvil verməyə hazır olduqlarını bildirdilər. Cəmil Cahid bəy Şuşa ermənilərinin nümayəndələri ilə ayrıca şəhər kilsəsində də görüşdü. Söhbət əsnasında bildirdi ki, ermənilər Türkiyə ərazisində böyük faciələr törətsələr də Osmanlı dövləti bir daha humanistlik göstərib onları bağışlayır. Cəmil Cahid bəy onların bütün əməllərinin bağışlandığını qeyd edib silahları təhvil verməyə çağırdı.

Qafqaz İslam Ordusu qüvvələrinin Şuşada qarşılanması hissə və bölmələrin rəsmi-keçidi ilə tamamlandı. Şuşanın erməni sakinləri də Qafqaz İslam Ordusu hissələrinin rəsmi-keçidini izlədilər. Qarşılanma ilə bağlı tədbirlər sona yetəndən sonra, şəhərin əmniyyətinin təmin edilməsi üçün lazımi tədbirlər həyata keçirildi, şəhərin mühüm nöqtələrində hərbi postlar quruldu.

Mucib Kamalyeri öz xatirələrində Şuşadakı oyuncaq erməni qurumunun türk qüvvələri şərəfinə xüsusi ziyafət verməsi və ermənilərin bu ziyafətdə türklərə necə yalmanmaları barəsində maraqlı qeydləri vardır. Bu qeydlər də A.Tumyanın hirsli-hikkəli xatirələrinin iftira olduğunu bir daha nümayiş etdirir.

Ormanlı dağlara çevrilmiş Şuşaqalada qaldığımız müddət içində azərilər və ermənilər hüzur və sükuna qovuşmasının zövqünü görərək, anlayaraq dadıyorlar və hər fürsətdə bu duyularını ifadə ediyorlardı. Bizlər də ən az onlar qədər seviniyorduq. Öylə keçməkdə olan günlərin ilk həftəsində Qarabağ əski müvəqqəti hökumət üyələr tərəfindən ordumuz şərəfinə bir axşam yeməyi verilmişdi. Şuşaqalanın parkını süsləyən klubda alay, tabor və digər bölüklərin komandanlarıyla birlikdə ziyafətə zamanında getdik. Yemək sonlarına doğru ermənilər adından söz alan gur səsli bir üyə can və mallarının Osmanlı ordusunun təminatı altında bulunduğunu görməyin bəxtiyarlığı içində olduqlarını ifadə etdikdən sonra özətlə böylə qonuşdu: “Biz Qafqaz erməniləri dünə qədər rus çarının hökumətlərinə bağlı bulunuyorduq. Bundan böylə də osmanlı padşahlarına qulluqçu olmaqla heç bir şey qeyb etmiş olmayacağız. Bizlərə inanmanızı, güvənmənizi rica ediyoruz” – deyərək şərab dolu qədəhini padşahın və külfətinin (ailesi erkanı) şərəfinə qaldırıb həpimizi ayaqda içməyə dəvət etmiş və alqışlanmışdı.

Rütbələrimiz etibariylə böylə rəsmi və möhtəşəm bir ziyafətdə ilk dəfə bulinuyorduq. Etiraf etməliyəm ki, keçirilən müharibə sənələrindəki ibtidai yaşantılarımızdan sonra böylə mədəni dekor içində gözlərimiz qamaşmış,

həyəcan və utancaqlıq mənliyimizi sarsıtmışdı. Fəqət dinlədiyimiz siyasi nitqin dərin mənası bizi canlandırdı və təvazi içində kəndimizə gəlməyə başladıq. Bu sıralarda Cəmil Cahid bəy, istiqlalın orgeneralı "Toydəmir" ayağa qalxdı. Bəlli ki, bir az əvvəl konuşan xatibə qarşılıq verəcəkdi. Salonu cınladan alqışlar durduqdan sonra özət olaraq dedilər ki: "osmanlı ordusu Qafqaziyada müvəqqəti olaraq bulunmaqdadır. Türkiyənin siyasi mənfəəti və əməli şudur ki, Qafqaziyada Brestlitovsk müahidəsinə dayanaraq istiqlallarına qovuşan azərbaycanlılar, ermənilər və gürcülər tanınmış hüdudları içində məsud və paydar olsunlar. Bunun təhəqqüq etməsi üçün də Azərbaycanda yerləşmiş ermənilər Azərbaycan hökumətinə, Ermənistanda doğub böyüyən türklər Ermənistan hökumətinə içdən gələn inanışla bağlı bulunmalıdlrlar. Nifaq və fəsadın hər iki millətə böyük zərərlər gətirəcəyini bilməlidirlər (çox şiddətli alqışlar). Qafqazlardakı ordumuz iştə böylə insani, mədəni və tarixi bir vəzifəni yerinə gətirməyə çalışmaqdadır.

Komandanın nitqi böylə sona erdi. Azəri və erməni hökumətlərinin rifah və səadətləri təmənnasıyla şərab qədəhləri qaldırılmadan əvvəl yenə osmanlı padşahının şərəfinə ayaqda içilmişdi.

Erməni mənbələrinin məlumatlarından aydın olur ki, türk-Azərbaycan hərbi qüvvələri Şuşaya daxil olmazdan əvvəl erməni silahlılarının tərksilah edilməsinin dayandırılması haqqında qərar verilmişdi. Bu məsələdə də qoşun komandanlığı daha dinc yolun tapılmasına üstünlük verdi. Nəzərdə tutulmuşdu ki, hər iki tərəfin nümayəndələrinin iştirakı ilə qarışıq komissiya yaradılsın və silahların toplanması da bu komissiyaya tapşırılsın. Erməni mənbələri bildirirlər ki, sentyabrın 26-da (köhnə stillə) səhər saat 10-da türk-Azərbaycan hərbi qüvvələri sakit şəkildə Şuşaya daxil oldular. Cəmil Cahid bəy avtomobildə erməni kilsəsinə gəldi və ətrafındakılarla birlikdə erməni kilsəsinə daxil oldu, erməni nümayəndələrinin duz-şörəyini qəbul etdi, qısa nitqindən sonra azərbaycanlılar yaşayan məhəlləyə yollandı. Şəhərin erməni məhəlləsindəki Realnı məktəbdə, erməni qadın gimnaziyasında, Ambarsumovların evində və mövcud qışlalarda türk-Azərbaycan bölmələri yerləşdirildi. Yeni şəraitdə türk-Azərbaycan hərbi komandanlığı ilə danışıqlar aparmaq üçün erməni heyəti seçildi. Bu heyətə Krikor bek Minasbekov, Qriqori Kələntərov, Alikobek Pirumov, Ruben Şahnəzərov və başqaları daxil idi. Məlumatdan o da aydın olur ki, şəhərdə qanunsuzluqların qarşısının alınması üçün hərbi vəziyyət elan olunmuş və komendant saatı müəyyən olunmuşdu .

Əslində isə türk-Azərbaycan qoşun hissələri Şuşaya daxil olanda Azərbaycan hökuməti bəyan etmişdi ki, ermənilər silahlı təcavüzə son qoysalar, onda heç bir erməni öz əvvəlki fəaliyyətinə görə təqibə məruz qalmayacaqdır. Tarixdən məlumdur ki, hətta Nuru paşa da Qarabağa gələndən sonra Azərbaycan ermənilərinə ünvansız bəyanat vermiş və erməniləri dinc yaşayışa dəvət etmişdi. Əslində, Azərbaycan hökumətinin məqsədi də Qarabağda və eləcə də Azərbaycanın digər məntəqələrində azərbaycanlı və erməni əhalisinin dinc yaşayışına qarşılıqlı inamın möhkəmləndirilməsinə nail olunması idi. Belə olduğu təqdirdə, Qarabağa qoşun hissələrinin yeridilməsinə də ehtiyac qalmazdı.

Amma Zəngəzurun azərbaycanlı əhalisini qırıb çataraq Şuşanın həndəvərinə qədər irəliləyən Andronik və onun məsləkdaşları, bölgənin erməniləşdirilməsi üçün azərbaycanlı əhaliyə qarşı ən vəhşi üsullarla etnik təmizləmə tətbiq edən erməni millətçi-separatçıları Qarabağı silah anbarına çevirməklə hətta yerli ermənilərin fərqli mövqe nümayiş etdirmələrini amansızlıqla yatırırdılar. Türk-Azərbaycan qoşun hissələri Şuşaya doğru irəliləməyə başlayanda Cavanşir qəzasının erməni başbilənləri toplantı

keçirdilər və bu toplantıda Azərbaycan hökumətini tanımamaq, tərksilah olunmamaq haqqında qərar qəbul etdilər ki, bu da qəzada hərbi-siyasi şəraiti xeyli mürəkkəbləşdirdi. Şuşaya daxil olduqdan sonrakı ilk günlər ərzində qoşunlar əsasən silah toplanması ilə məşğul oldular. Oktyabrın 9-da Cəmil Cahid bəy Nuru paşaya göndərdiyi raportunda yazırdı:

> Tərtərdə olan süvari alayı Dağ ətəklərinə qədər olan erməni kəndlərinin itaətinə nail oldular. Yığdıqları silah çox azdır. 2-cü süvari alayı komandanlığı xəbər verir ki, ermənilər silahlanıb Hadrut, Talı, və Madagiz ətrafında toplaşıblar. Həmin alaya bu məntəqələrin təmizlənməsi əmri verilmişdir.

Daha sonra Cəmil Cahid bəy yazırdı ki, Qaraçinar və Xarxaput kəndlərinin erməni cavanları silahla birlikdə ormanlara qaçmışdılar. Onların geri qaytarılması və silahların təhvil verilməsi üçün kənd nüfuzlu adamları ilə danışıqlar aparılmış və bu barədə razılığa gəlinmişdir. Onun verdiyi məlumata görə, oktyabrın 10-da müxtəlif kəndlərdən 152 ədəd silah toplanmışdı. Lakin ermənilər öz silahlarını yalnız məcburiyyət qarşısında qaldıqları üçün təhvil verirdilər. Özü də çox yararsız və yüngül silahlar toplanırdı. Əslində isə onlar təslim olmaları barədə bir görüntü yaradaraq gizlində türk-Azərbaycan qoşunlarına qarşı hazırlıqlarını davam etdirirdilər. Cəmil Cahid bəyin yazdıqlarına görə, bu məqsədlə onlar erməni vilayətlərindən çox böyük kömək alırdılar. Burada yəqin ki, Cəmil Cahid bəy İrəvan quberniyasından gələn köməyi nəzərdə tuturdu. Əslində ermənilər total bir səfərbərlik həyata keçirirdilər və bütün imkanlarını Qarabağın erməniləşdirilməsinə istiqamətləndirmişdilər. Cəmil Cahid bəyin də bundan xəbəri var idi və artıq hiss edirdi ki, qarşıda onu ağır sınaqlar gözləyir. Ermənilərin silahlı təcavüzkarlığı həm də beynəlxalq aləmdə yaxşı qurulmaş təbliğatları ilə müşayiət olunurdu. Bu sahədə millətçi ənənənlərə malik olan ermənilər hay-küy qaldıraraq bəyan edirdilər ki, Osmanlı hərbi qüvvələri Ermənistanın ərazisinə daxil olaraq orada erməniləri qırırlar. Bu məlumatın nə dərəcədə doğru olduğunun fərqinə varmayan böyük dövlətlərin siyasətçiləri isə bu təbliğatdan da Osmanlı dövləti əleyhinə iustifadə edir və Osmanlı dövlətinə təzyiqlərini artırırdılar.

Aldıqları ilk zərbədən sonra öz xislətlərinə uyğun olaraq ermənilər Qafqaz İslam Ordusu hissələri qarşısında geri çəkilməyə razılıqlarını bildirsələr də, əslində məqam gözləyir, gizli şəkildə öz dəstələrini gücləndirirdilər. Buna görə Qarabağ dəstəsinin əsas qüvvələrinin Şuşaya girməsindən bir neçə gün sonra erməni silahlılarının müqaviməti də güclənməyə başladı. Oktyabr ayının 15-də Cəmil Cahid bəy Nuru paşaya göndərdiyi teleqramında Tərtər istiqamətində 2-ci süvari alayının fəaliyyət sahəsində atəşlər baş verdiyini, Çaylı kəndi ətrafında bir silahlı erməni dəstəsinin mövcud olduğunu qeyd edirdi. Ayın 17-də göndərilən teleqramda isə 2-ci süvari alayının fəaliyyət sahəsində döyüşlərin davam etdiyi vurğulanırdı (91).

Elə həmin hünlərdə Zəngəzurda da vəziyyət mürəkkəbləşməyə doğru gedirdi. Erməni silahlı dəstələri Azərbaycan kəndlərinə hücumlar edir, silahsız insanlara qarşı kütləvi qırğınlar törədirdilər. Təkcə Sisyanda belə vəhşiliklər nəticəsində bir neçə gün ərzində 500-dən artıq azərbaycanlı öldürülmüşdü (92).

Oktyabrın 18-19-da isə Ağbulaq ətrafında xeyli itkilərlə nəticələnən böyük bir döyüş baş verdi. Həmin döyüş Ağbulaq kəndi ətrafındakı erməni silahlıları ilə buradakı əhalidən silah toplamağa göndərilmiş Qafqaz İslam Ordusu bölmələri arasında baş verdi. Qafqaz İslam Ordusu qüvvələri oktyabrın 18-də saat 10.30-da Şuşadan Şuşikənd, Keşişkənd istiqamətində hərəkətə başlayıb saat 4.30-da Ağbulağa çatdı. Türk-Azərbaycan qoşun dəstəsinin yaxınlaşması xəbərini alan kimi Ağbulaq və ətraf

kəndlərin nümayəndələri onun pişvazına çıxdılar və dəstə komandirinə təslim olduqlarını, habelə hər ev başına bir ədəd silah toplayıb təhvil verəcəklərini bildirdilər. Oktyabrın 19-na keçən gecəsi Qafqaz İslam Ordusu hissələri Ağbulaq ətrafında keçirdi. Dəstənin rəhbəri minbaşı Nazim əfəndi Xankənd ətrafındakı silahlıların rəhbəri Ohan bəyi yanına çağırtdıraraq təslim olmağı ondan tələb etdi. Ondan da silahları təhvil vermək barədə razılıq alındı. Ağbulaq ətrafında Sokrat adlı birisi ermənilərin silah gəzdirməkdə məqsədinin azərbaycanlılardan qorunmaq olduğunu bildirirdi.
Cəmil Cahid bəy yazırdı:

> 19-na keçən gecə Ağbulaqda keçirilmiş və bu gecə Xankənd ətrafına İsacan Ohan bəy çağırılmış və ona təslim olmaq bildirilmişdir. Buradakı əhali də təslim olacaqlarını və silahın da veriləcəyini bildirmişdir. Sokrat adlı birisi isə bildirmişdir ki, silah saxlamaqda məqsəd müsəlman hücumlarındam qorunmaqdır. Təminat aldıqdan sonra Ağbulaqa hərəkət edilmişdir.

Erməni dəstələri Nazim minbaşıya təslim olmaq vədi verdikləri halda onun diqqətini yayındırıb güclü hücuma hazırlaşırdılar. Oktyabrın 19-da ilkin olaraq elə Sokratın dəstəsi Nazim minbaşının dəstəsi üzərinə hücumda iştirak etdi. Türk-Azərbaycan qüvvələri sərəcnamlarında olan top və pulemyotlarla Sokratın dəstəsinin qarşısını saxlamağa çalışdı. Bu vaxt Ağbulağın şərqindən başqa bir erməni dəstəsi hücuma qoşuldu. Nazim minbaşının dəstəsindən bir ədəd topla bir bölük bu istiqamətdən olan hücumun qarşısını saxlamaq tapşırığı aldı. Bir azdan cənub istiqamətində başqa bir erməni dəstəsi də göründü. Bütünlükdə, minbaşı Nazim bəyin dəstəsinin dörd tərəfdən mühasirə olunmaq təhlükəsi yarandı. Dəstə bir qədər cənuba çəkilib yaxınlıqdakı təpədə müdafiə mövqeyi tutdu. Pulemyot və toplar da təpəyə gətirildi. Yaxınlıqda olan başqa bir təpəni isə ermənilər tutmağa çalışırdılar. Həmin təpənin tutulacağı təqdirdə müdafiə olunmağın xeyli çətinləşəcəyi üçün ora bir pulemyot və bir taqım piyada göndərildi. Saat 4-də Ağbulaqdan ermənilərə 200 nəfərlik kömək gəldi. Yeni qüvvələr ermənilərin təzyiqini daha da gücləndirdilər. Pulemyot atəşləri və piyadaların fədakarlığı ilə ermənilərin təzyiqini bir qədər zəiflətmək mümkün oldu. Mühasirə vəziyyətində qalmağın daha ağır nəticələrə gətirib çıxaracağı anlaşıldığı üçün bir istiqamətdən hücuma keçmək və düşmənin müdafiə xəttini yarmaq qərara alındı. Belə bir hücum Keşişkənd istiqamətindən həyata keçirildi. Həmin hücumla düşmənin bu istiqamətdəki mühasirə həlqəsi yarıldı və Nazim minbaşının dəstəsi Dağdağan kəndinə doğru geri çəkilə bildi. Bu döyüşün gedişində ölən və yaralananlar olmuş və bir top da dərəyə yuvarlanmışdı. Qafqaz İslam Ordusu komandanlığı Ağbulaq ətrafında baş verən döyüşün nəticələrinə çox ciddi yanaşdı. Ordu komandanlığından bu döyüşün uğursuzluğu və itkilər verilməsi ilə bağlı Nazim minbaşı günahkar bilindi və onun barəsində təhqiqat işlərinin başlanması tələb edildi .
Ağbulaq ətrafındakı döyüşdən sonra ermənilərin güclənməsi və fəallaşması hiss olunurdu. Kənardan alınan yardımlar da onların daha yaxşı təşkilatlanmasına və təchizinə kömək edirdi. Cəmil Cahid bəy oktyabrın 23-də yazırdı ki, Şuşanın erməni əhalisi də silahlarını artıq təhvil vermirlər. Ağbulaq ətrafındakı dəstənin rəhbəri Sokrat və Keşişkənd dəstəsinin rəhbəri Karapet ermənilərin öz silahlarını Azərbaycan hökumətinə təhvil vermələrinin qarşısını almağa çalışırlar. Nuru paşaya göndərdiyi başqa bir teleqramında Cəmil Cahid bəy özü də ermənilərin qüvvələrinin və silahlarının artmasını təsdiq edirdi. Məsələn, Dovşanlı və Marağalıda 1000 nəfərlik bir silahlı dəstə toplanmışdı. Dəstənin kifayət qədər silahı, hərbi geyimi və təchizatı var idi. Arşak adlı birisi bu dəstəyə rəhbərlik edirdi. Ağdərə ətrafında toplanan qüvvələr Ağdam-Dovşanlı

yolunu kəsməyə çalışırdılar. Andronik isə öz dəstələri ilə Şuşaya təzyiq etməyə cəhd göstərirdi. Gorusda onun 700 nəfərlik piyada, 200 nəfərlik süvari qüvvəsi, 11 pulemyot və 2 topu olması barədə xəbər alınmışdı. Şahnəzərov adlı birisinin rəhbərliyi altında isə 600 nəfərlik Gəncə alayı, 400 nəfərlik Şuşa alayı və 200 nəfərlik Samsun alayı var idi. Ola bilsin ki, bu alayların şəxsi heyəti adları çəkilən məntəqələrdən toplandığı üçün belə adlanırdı. Bütün bu qüvvələr Qafqaza gəlmiş olan Qafqaz İslam Ordusu hissələrinə qarşı təzyiqi günü-gündən gücləndirirdilər. Həmin qüvvələrin müqavimətini qırmaq və Şuşa ətrafında vəziyyəti sabitləşdirmək üçün Cəmil Cahid bəy öz qüvvələrini aşağıdakı şəkildə bölüşdürməyi qərara aldı: 2-ci Azərbaycan piyada alayının bir taboru Xankəndi yolunda dayanmalı idi. Alay özü isə Şuşada dayanmalı idi və ona bir topşu batareyası da verilməli idi. 1-ci süvari və Ləzgi süvari alayları Əsgəranda mövqe tutmalı idi. Süvarilər və Xankəndindəki taborun bir bölüyü bu iki məntəqə arasında asayişi mühafizə etməli idi. 25-ci taborla topçu Şnayder taboru Ağdamda qalmalı idi.1-ci Azərbaycan firqəsinin qərargahı da Ağdama köçürülməli idi. Könüllü milis dəstələri Ağdama cəmləşdirilərək hərəkətə hazır vəziyyətdə saxlanmalı idi. Cəbrayıl ətrafında isə yerli qüvvələrdən silahlı dəstələr yaradılması nəzərdə tutulmuşdu

Əvvəlcə 1-ci Azərbaycan diviziyasının qərargahının Şuşada yerləşdirilməsi planlaşdırılırdı. Ancaq erməni silahlı dəstələri artdıqca firqənin qərargahının daha təhlükəsiz bir yer olan Ağdama köçürülməsi məsləhət bilindi. Cəmil Cahid bəy Nuru paşaya göndərdiyi teleqramlarından birində bölgədəki proseslərin artıq Azərbaycanın əleyhinə inkişaf etməkdə olduğunu qeyd edirdi. O bildirirdi ki, ermənilərin verdiyi vədlərə inanmaq mümkün deyil. Onları susdurmaq üçün burada güclü qüvvə saxlamaq lazımdır.

Mövcud tarixi şəraitdə Qarabağa göndərilə biləcək əlavə qüvvələr Azərbaycanda daha yox idi. Ermənilərə isə əlavə qüvvə və yardım gəlməkdə davam edirdi. Məsələn, mövcud olan məlumatlara görə, canlı qüvvələrdən əlavə Qarabağdakı silahlı dəstələrə silah və sursat almaq üçün Ermənistanda 2 milyon rubl, Bakı və Şuşa ermənilərindən isə 200 min rubl vəsait toplanmışdı.

Bundan başqa, erməni millətçiləri beynəlxalq aləmdə də kifayət qədər səs-küy salaraq türk qoşunlarının Qarabağda "günahsız" erməniləri qırması barədə xəbərlər yayırdılar. Xüsusilə, Osmanlı ordusu Baş komandanlıq Ərkani-hərbiyyə riyasətini öz öhdəsinə götürmüş yeni sədr-əzəm Əhməd İzzət paşanın Qafqazda və o cümlədən Azərbaycanda vəziyyətə kifayət qədər bələd olmaması erməni təbliğatının ona müəyyən təsir göstərməsinə yol açırdı. Onunla görüşmək imkanı olan erməni nümayəndələrinin hələ Bakının azad edilməsi zamanı 30 min ermənin öldürülməsi, indi isə qırğınların Qarabağda davam etdirilməsi barəsindəki hay-küyləri Əhməd İzzət paşanı Azərbaycanla bağlı əvvəlki hökumətin yeritdiyi siyasətdən geri çəkilməyə sövq etdi və artıq oktyabrın 23-də o, Qarabağ hərəkatının dayandırılmasını tələb etdi.

Əhməd İzzət paşa kabinetini belə addımlar atmağa bir tərəfdən də müttəfiq dövlətləri məcbur edirdilər. Ermənilər öz təbliğatları ilə müttəfiq dövlətlərdən istifadə etməyə çalışdıqları kimi, müttəfiq dövlətlər də ermənilərdən istifadə etməyə çalışır və onların hay-küylərini həqiqət kimi qələmə verərək bu yolla Türkiyəni Qafqazdan tamamilə sıxışdırmağa cəhd göstərirdilər. Türkiyə müttəfiqlərinin Birinci dünya müharibəsində məğlub olması isə Türkiyəni Amerika və İngiltərənin hər cürə tələbləri qarşısında müqavimətsiz qoymuşdu. Bunu Ə.İzzət paşa özü də Azərbaycandan İstanbula gəlmiş diplomatik nümayəndə Əlimərdan bəy Topçubaşova etiraf etmişdi. Oktyabrın 21-də olan görüş zamanı Ə.Topçubaşov yeni sədr-əzəmə bir böyük qardaş kimi Türkiyənin

göstərdiyi köməklərə Azərbaycan xalqının minnətdarlığını çatdıranda Ə.İzzət paşa ona belə cavab verdi:

> ... Böyük qardaş bacardığı kimi həmişə kiçik qardaşa kömək etməlidir və edəcək. Ancaq siz özünüz görürsünüz ki, şərait dəyişmişdir. Bizim və bizim müttəfiqlərimizin vəziyyəti kəskin dəyişikliklərə məruz qalmışdır. İndi məsələləri biz yox, Vilson və onun tərəfdarları həll edirlər.

Türkiyənin Qafqazdan sıxışdırılması üçün müttəfiq dövlətlər Qarabağ məsələsindən böyük bəhanə kimi istifadə etdilər. Qarabağda ermənilərin kütləvi şəkildə qırıldığını bəhanə edərək təcili şəkildə oradakı türk qoşunlarının çıxarılması tələb edilirdi. Türkiyənin növbəti sədr-əzəmi Tofiq paşa noyabr ayının 16-da Ə.Topçubaşovla görüşündə bu məsələyə münasibətini belə açıqladı:

> Siz Azərbaycan türklərinə qarşı bizim hisslərimizə şübhə etməməlisiniz. Biz sizin daimi təəssübkeşlərinizik. Ancaq siz özünüz görürsünüz ki, vəziyyət necə dəyişmişdir. Təəssüf ki, bizi, sizi və sizin müstəqilliyinizi müdafiə etmək imkanından məhrum etmişlər. Bax indi bizdən tələb edirlər ki, Qafqazdan öz qoşunlarımızı çıxardaq. Biz isə bunu yerinə yetirməliyik və yerinə yetirəcəyik. Belə qəti tələbin irəli sürülməsinə səbəb isə Qarabağ məsələsidir. Bizə deyirlər ki, bizim qoşunlarımız Qarabağa getmiş və orada ermənilərlə qəddarcasına davranmışdır.

Bütün bu danışıqların hamısının erməni hay-küyünün nəticəsi olmasını, ermənilərin özlərinin hansı vəhşiliklər törətməsini Ə.Topçubaşov İstanbuldakı görüşləri zamanı sübut etsə də, Türkiyə artıq məcburiyyət qarşısında qalmışdı. Müttəfiq dövlətlər Türkiyədən qəti şəkildə tələb edirdilər ki, Qarabağdakı erməni əhalisinin "təhlükəsizliyi" təmin edilsin. Belə təhlükəsizliyin təmin edilməsi deyəndə isə müttəfiq dövlətlər birinci növbədə Qarabağa göndərilmiş olan Qafqaz İslam Ordusu hissələrinin geri çağırılmasını nəzərdə tuturdular.

Belə bir vəziyyətdə Qarabağda və Zəngəzurda genişlənməkdə olan erməni təcavüzünə qarşı nəinki əlavə yardım göndərmək mümkün olmadı, əksinə oradakı türk alaylarının geri çağırılması zərurəti yarandı. Qarabağ dəstəsinin erməni silahlılarına qarşı kifayət qədər gücə malik olmadığı artıq aydın idi. Cəmil Cahid bəyin noyabr ayının ortalarında Nuru paşaya göndərdiyi teleqramından aydın olurdu ki, Şuşaya iki istiqamətdən çox güclü hücum gözlənilir. Biri Keşişkənd istiqamətindən, Karapetin dəstəsi tərəfindən gözlənilən hücum idi. Digəri isə Gorus istiqamətindən gözlənilirdi. Burada Qaladərəsi yaxınlığında 2 min nəfərlik bir erməni dəstəsi toplaşmışdı. Bu dəstə Şuşa-Gorus yolunu tutmaqla bərabər, Qaraqışlaq üzərindən Qaladərəsi və Şuşadakı taborlara hücum etməyə hazırlaşırdılar. Cəmil Cahid bəy yazırdı k, Qaladərəsindəki tabor üzərində mövcud olan təhlükənin aradan qaldırılması üçün erməni dəstələrinə qarşı təsirli bir döyüşün həyata keçirilməsi lazım idi. Onun fikrincə belə bir döyüşün keçirilməsi isə nə türklərin indiki siyasi vəziyyətinə uyğun idi, nə də ki, Azərbaycandakı silah məhdudluğu buna imkan verirdi. Ona görə də Cəmil Cahid bəy 2-ci Azərbaycan alayının Qaladərəsində olan 3-cü taborunu Şuşaya qaytarılamsı barədə əmr verdi. Bu yolla C.Cahid bəy taborun Qaladərəsində çox təhlükəli bir vəziyyətdə qalmasının qarşısını aldı.

Az sonra Mudros müqaviləsinin tələblərinə uyğun olaraq türk alayları bütünlüklə Qarabağı tərk etməli oldular. Qafqaz İslam Ordusunun komandanlığının əmri ilə Qarabağa göndərilmiş 9-cu və 106-cı türk alaylar geri qaytarıldı. Cəmil Cahid bəy 1-ci Azərbaycan diviziyasının komandiri kimi öz vəzifəsini general-mayor Usubova təhvil verərək türk qüvvələri ilə birlikdə Qarabağdan geri çəkildi və tezliklə Azərbaycanı tərk

etdi. Mucib Kamalyeri yazırdı:

> 1918-ci yılı Qasım ayının qaranlıq bir gecəsində hürr və məsud həyat içində uyğuya qalmış qardaşlarımızı kəndi qədərlərinə tərk edərək suçlu insanlar kimi Şuşaqaladan ayrıldıq. Yalnız alay komutanı Cəmil Cahid bəyin azəri idarəçiləri ilə həzin bir şəkildə vida etmiş olduğunu yolda eşitdik.

Vətənə döndükdən sonra Cəmil Cahid bəy xidmətləri ilə doğrudan da cəsur bir hərbçi olduğunu sübut etdi, İstiqlal mücadiləsinə qatıldı və sonrada ordu generalı rütbəsinə qədər yüksəldi. Cəmil Cahid Toydəmir 1940-cı ildə Türkiyə jandarma qüvvələri baş komandanı, 1943-46-cı illərdə Türkiyə Silahlı Qüvvələrinin 1-ci Ordu komandanı, 1946-47-ci illərdə isə Türkiyə Respublikasının milli müdafiə naziri olmuşdu. Bir sözlə türk xalqının bu böyük sərkərdəsi təkcə Türkiyənin hərb tarixində deyil, Azərbaycan xalqının milli mücadilə və hərb tarixində şərəfli səhifə yazmış bir insandır və onun xidmətləri ən yüksək qiymətlərə layiqdir.

## SÜLEYMAN İZZƏT BƏY

Bakı şəhəri üzərinə qəti hücum ərəfəsində Osmanlı ordusundan Azərbaycana ikinci bir firqə (diviziya) gətirildi. Bu diviziya 15-ci diviziya idi və ona Süleyman İzzət bəy komandirlik edirdi. Süleyman İzzət bəy də bütün həyatını türk ordusuna bağlamış təcrübəli bir zabit idi. O, Hərbi Məktəbi bitirdikdən sonra Hərbi Akademiyada təhsilini davam etdirmişdi. Süleyman İzzət bəy Birinci Dünya müharibəsində müxtəlif komandir vəzifələrində iştirak etmişdi və göstərdiyi bacarığa görə o, diviziya komandanlığına qədər irəli çəkilmişdi. Yazdığı xatirələrindən aydın görünür ki, Süleyman İzzət bəy hərb adamına vacib olan başlıca cəhətlərə: kifayət qədər yüksək hərbi biliyə və analitik təfəkkürə malik olmuşdur. Onun imzaladığı əmrlərdə də bir konkretlik, dəqiqlik və qətiyyət hiss olunur. Həmin əmrləri o dərindən təhlil etdikdən sonra verər və sonra özü də əmrin həyata keçirilməsinə nəzarət etməklə bərabər, həm də onun icrasını təşkil edərdi.

15-ci diviziyanın bölmələrinin Azərbaycana gəlməsi, diviziyanın əsas heyətinin gəlməsindən əvvəl başlamışdı. 1918-ci il iyun ayının ortalarında Göyçay ətrafında Qafqaz İslam Ordusu qüvvələri üçün uğursuzluqla başa çatan döyüşdən sonra Nuru paşa Azərbaycana əlavə hərbi qüvvələrin göndərilməsi barəsində məsələ qaldırdı. Onun fikrincə, Bakıya doğru uğurlu hücumun davam etdirilməsi üçün Azərbaycana əlavə türk hərbi qüvvələri göndərilməli idi. Nuru paşanın bu xahişi əsasında Şərq Ordular Qrupu komandanlığı Ənvər paşa qarşısında Batumda yerləşən 38-ci piyada alayının Bakıya göndərilməsinə razılıq verilməsini xahiş etdi. Ənvər paşa bu təkliflə razılaşdı və 15-ci diviziyanın tərkibinə daxil olan 38-ci piyada alayının Azərbaycana göndərilməsinə icazə verdi. 1918-ci il iyun ayının 30-da bu alay Azərbaycana yola salındı. Həmin vaxt 38-ci piyada alayının tərkibində 37 zabit, 2731 əsgər, 2092 ədəd tüfəng, 16 ədəd dəzgahlı pulemyot, 4 ədəd güclü dağ topu və 1 güclü dağ batareyası var idi. 1918-ci il iyulun 14-də 38-ci alay Ağstafaya çatdı və dərhal da bu alayın bölmələrinin təyinat yerinə nəqlinə başlandı.

38-ci piyada alayının bütün taborları cəbhə xəttinə göndərilmədi. Qərara alındı ki, bu alayın 3-cü taboru ehtiyat qüvvə kimi Gəncədə saxlanılsın. 1-ci və 2-ci taborlar isə Kürdəmir ətrafındakı cəbhə xəttinə göndərildi. Alayın 2-ci taboru Həbib bəy Səlimovun

rəhbərliyi altında olan Cənub qrupunun əməliyyat tabeliyinə verildi. 1-ci tabor isə Şimal qrupunun ehtiyat qüvvəsi kimi saxlanıldı.
38-ci alay Azərbaycana Səlim bəyin rəhbərliyi altında gəlmişdi. Kürdəmir ətrafında qüvvələrin yeni qruplaşdırılması aparıldığı və 38-ci alayın taborları bir-birindən aralı düşdüyü üçün Səlim bəy müvəqqəti olaraq 5-ci Qafqaz diviziyasına aid olan 10-cu piyada alayının komandiri təyin edildi.
Süleyman İzzət bəyin komandiri olduğu diviziyaya məxsus 38-ci piyada alayının taborları həm Şimal, həm də Cənub qrupunun tərkibində Bakıya qədər uzanan döyüş yolu keçdilər. 15-ci diviziyanın Bakıya gəlib çıxmasına qədər isə qayməqam Səlim 10-cu piyada alayının komandiri vəzifəsini icra etdi.
1918-ci il avqust ayının 5-də Bakının azad edilməsi məqsədilə Qafqaz İslam Ordusu qüvvələrinin ilk böyük hücumunun təşkilində də 38-ci alayın taborları iştirak edirdilər. Konkret olaraq bu hücumda da alayın 1-ci və 2-ci taborları iştirak edirdilər. Gəncədə ehtiyat qüvvə kimi saxlanılmış 3-cü tabor isə Şamaxı ətrafında olmaqla Bakıya doğru irəliləməkdə idi.
5 avqust tarixli hücum zamanı  38-ci alayın 2-ci taboru 5-ci Qafqaz diviziyasının 13-cü alayının ehtiyat qüvvəsini təşkil etməli idi. 38-ci alayın 1-ci taboru isə 10-cu alayın ehtiyat qüvvəsini təşkil etməli idi. Döyüş başlamazdan əvvəl 10-cu alay Xırdalan ətrafında, 13-cü alay isə Qurd qapısı yüksəkliklərində qərar tutmuşdu.
Məlumdur ki, 5 Bakı şəhərinin azad edilməsi üçün 5 avqust döyüşü uğurlu olmadı və Qafqaz İslam Ordusu qüvvələri ciddi müqavimətlə rastlaşaraq geri çəkilmək məcburiyyətində qaldı.
5 avqust hücumunun nətcəsi barəsində Nuru paşaya məruzə göndərən Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy Bakının azad edilməsi üçün 15-ci diviziyanın bütünlüklə Azərbaycana göndərilməsinin zəruriliyi barəsində vəsatət qaldırdı. Nuru paşa da bu vəsatətlə razılaşdı və Türkiyə Hərbi Nazirliyi qarşısında 15-ci piyada diviziyasının bütünlüklə Qafqaz İslam Ordusu tərkibinə verilməsi barəsində məsələ qaldırdı.
5 avqust hücumundan Bakının azad olunması gününədək Bakı ətrafında mövqe döyüşləri keçirildi ki, 15-ci diviziyaya məxsus 38-ci piyada alayı da bu döyüşlərdə iştirak etdi. 3-cü tabor Bakı ətrafına yetişəndən sonra 38-ci alay yenidən komplektləşdirildi və Səlim bəy yenidən bu alayın komandiri kimi vəzifəsinin icrasını davam etdirməyə başladı.
Bakı ətrafında 38-ci alayın hissə və bölmələrinin iştirak etdiyi döyüşlərdən biri Binəqədi kəndi yaxınlığındakı 311 və 364 nömrəli təpələr uğrunda keçirilən döyüş idi. Bu hücumdan əvvəl 38-ci alay 311 və 364 rəqəmli təpələrin şimalında yerləşmişdi.
Qafqaz İslam Ordusu komandanlığından gələn döyüş əmrində avqustun 25-də 311 və 364 rəqəmli təpələrin ələ keçirilməsi təkidlə tələb olunurdu. Hücum avqustun 26-da təşkil edilməli idi. Əmr alınan kimi dərhal onun icrasına hazırlıq işləri başlandı. Şərq cəbhəsi komandanının müvafiq döyüş əmrində hücumda iştirak edəcək hissə və bölmələrə aşağıdakı tapşırıqlar verilirdi – 13-cü alayın tabeçiliyində olan 6 ədəd krup dağ topu hücumdan əvvəl 364 rəqəmli təpəni güclü atəşə tutmalı və buradakı düşmən qüvvələrinə ilkin zərbə endirməklə 38-ci alayın hissə və bölmələrinin irəliyə hərəkətini asanlaşdırmalı idi. Maştağa ətrafındakı dəstələr isə 311 rəqəmli təpənin üzərinə hücuma keçməli idi. Bu dəstənin kiçik bir qüvvəsi Masazır və Mürdəlabi gölləri arasında yerləşdirilməli, qalan qüvvələr isə 29-cu taborla birlikdə təpə üzərinə hücuma keçməli idi. Cəbhənin sol cinahında olan rus topları Xırdalan ətrafına gətirilməklə onlar həm 13-

cü alayın 364 rəqəmli təpə üzərinə top hazırlığını gücləndirməli, həm də Biləcəri ilə Yanardağ arasındakı ərazini nəzarət altında saxlamalı və Biləcəridən yardım göndəriləcəyi halda onları atəşə tutmalı idi.

İslam Ordusu komandanı Nuru paşanın bu təpələrin tutulmasına xüsusi diqqət yetirməkdə məqsədi Bakı üzərinə qəti hücum zamanı cəbhənin sol cinahının hər hansı bir təhlükəyə məruz qalmasının qarşısını almaq idi. Bəzi cəhdlərə baxmayaraq adları çəkilən təpələri yalnız avqustun 31-də ələ keçirmək mümkün oldu. Avqustun 31-də Şiman qrupunun döyüş tapşırığı alan bölmələri hücuma keçdilər. 13-cü alayın, 38-ci alayın birinci taborunun, habelə 29-cu taborun şəxsi heyəti böyük bir sürət, iradə, qətiyyət və döyüşgənlik nümayiş etdirərək hələ səhər ertə ikən Binəqədidəki 311 rəqəmli təpəni ələ keçirdilər. Bu təpədə mövqe tutan "Sentrokaspi" və ingilis qüvvələri başlanan hücumun qarşısını ala bilməyərək Biləcəriyə doğru geri çəkildilər.

Cəbhə komandanlığı 38-ci alaya yardım göndərərək cinahlarda olan düşmən qüvvəsini geri atmaqla gün ərzində Digah və Məhəmmədi kəndlərini tutmağı və orada möhkəmlənməyi əmr etdi. Bu qüvvələr irəliyə doğru hərəkəti davam etdirərək günün sonuna Digahın şimal və qərb ətrafını nəzarət altına aldılar. Hava qaraldığı üçün qüvvələrin elə həmin mövqelərdə də gecələməsi məqsədəuyğun bilindi. Bununla da növbəti hücumla Bakı ətrafında bir neçə mühüm mövqelər ələ keçirildi və bu uğura 38-ci alay da öz xidmətini verdi.

31 avqust döyüşündən sonra 38-ci alayın 2 taboru Maştağada, digər taboru isə Digahın şimalında mövqe tutmuşdu. Şimal qrupunun 38-ci alay məntəqəsində 2 ədəd Krup və 4 ədəd Şnayder topu var idi.

Bakı şəhərinin tezliklə azad edilməsi üçün 15-ci diviziyanın Azərbaycana göndərilməsi xahişi Osmanlı ordusu Baş komandanlıq vəkaləti tərəfindən qəbul edildi və bu məqsədlə 15-ci firqənin 9-cu Ordudan alınaraq Qafqaz İslam Ordusunun tərkibinə verilməsi və Bakı ətrafına gətirilməsi qərara alındı.

Həmin firqənin Bakı ətrafına yetişməsi ilə şəhər üzərinə qəti hücum başlamalı idi. Bu hücuma rəhbərlik etmək üçün Şərq Ordular Qrupu komandanı Xəlil paşa da Bakı ətrafına gəlməli idi. 15-ci firqənin Bakı ətrafına gətiriləcəyi və onun gəlməsi ilə şəhər üzərinə hücum üçün hansı işlərin görülməli olacağı, qüvvələrin qruplaşdırılmasında hansı dəyişikliklərin ediləcəyi barədə Nuru paşa sentyabr ayının 1-də belə bir əmr imzaladı:

1.Bakı cəbhəsini təqviyə etmək üzrə 9-cu Ordudan 15-ci firqə qərargahı ilə 56-cı və 106-cı piyada alayları ilə bir qüdrətli, bir 105 mm-lik Şkada dağ qaubitsa və bir də 105 mm-lik səhra qaubitsa batareyası gəlməkdədir.

2.Bakıya təərrüzü-qəti işbu qitəatın vürudunun ardınca yapılacaqdır.

3. 364 rəqəmliYanardağ-Biləcəri stansiyası xətti əğləbi-ehtimal hər iki firqə işbu xəttin şərqində bulunacaqdır.

4.Təərrüzə hazırlıq olmaq üzrə xüsusati-atiyənin icrası lazımdır. İcraları ayrıca orduya bildirilməlidir:

a) mürəttəb süvari alayı və Dikaya Diviziya süvariləri həmən Mərdakana gedərək Ləzgi alayı ilə birləşəcəkdir. Hamısı Zehni bəyin komandasına veriləcəkdir.

b) dağınıq qitəat birliklərinə iltihaq edəcəkdir. 15-ci firqə əmrində 106-cı, 56-cı və 38-ci alaylar bulunacaqdır.

c) Gəncədə və Kürdəmirdə mövcud rus səhra və dağ mərmiyyatı kamilən sövq olunur. Buradan alınaraq icab edən məhəllərə sövq ediniz. Rus səhra topları üçün top başına mindən çox atım olduğundan bilxassə təərrüzü-qəti məntəqəsində

bunlardan çoxluca istifadə edilməmişdir.

d) 5-ci firqə qərargahı Qobu və 15-ci firqə qərargahı Masazırda olacaqdır. İndidən bu mövqelərlə Güzdək arasında telefon irtibatı tənzim və islah olunmalıdır. Telefon xətlərinin təsisi üçün Ordu teleqfar müdiri göndərildi;

e) əfrad təərrüzü-qəti gününə qədər yaxşı iaşə olunmalı və cəbhə gerisində ehtiyat ərzaq bulundurumalıdır.

15-ci firqənin Bakı ətrafına göndəriləcəyi xəbəri Qafqaz İslam Ordusu tərəfindən rəsmi olaraq sentyabrın 1-də təsdiqlənsə də 15-ci firqənin özünə bu barədə əmr avqust ayının 27-də verilmişdi. Firqə komandiri Süleyman İzzət bəy həmin gün saat 11.50-də 9-cu Ordu komandanlığından telefonla aldığı əmrə əsasən, firqənin 56-cı və 106-cı alaylarına, qüdrətli cəbəl batareyasına, qüdrətli qaubitsa taborundan bir batareyaya, teleqraf taqımınına, səhiyyə bölüyünə, iaşə bölməsinə Qarakilsə-Qazax yolu ilə hərəkətə hazırlaşmaq tapşırığı verildi. 9-cu Ordu tabeliyindəki qaubitsa səhra batareyası da 15-ci firaqənin sərəncamına verilməli idi

Süleyman İzzət bəy bu məsələni belə xatırlayırdı:

27.08.334 (27.08.1918) saat 11 dəqiqə 50 əvvəldə 9-cu Ordu komandanlığından telefonla məhrəm bir əmr aldım. Bu əmrdə deyilirdi ki : "15-ci firqə 56-cı və 106-cı alayı ilə qüdrətli cəbəl batareyası, cəbəl obus taborundan bir batareya, Ordu əmrindəki obus səhra batareyası, firqə teleqraf taqımı, firqə səhiyyə bölüyü, səyyar əkməkçi qolu və üç ağır ərzaq qolundan mürəttəb qüvvətlə Qarakilsə-Qazax istiqamətində hərəkət edəcək və İslam Ordusu əmrinə girəcəkdir. 36-cı firqə 15-ci firqə mövqelərini təslim alacaq və 15-ci firqə Gümrü-Qarakilsə şossesi üzərində təcəmmü edərək hərəkətə başlayacaqdır. 15-ci firqə istehkam bölüyü, rus cəbəl taboru, bir obus cəbəl batareyası 36-cı firqə əmrinə və iki cəbbəxana qolu Gümrü mövqe komandanlığının əmrinə buraxılacaqdır. Firqəyə müvəqqəti verilən süvari taqımı alayına qaytarılacaqdır.

Süleyman İzzət bəy bu tapşırığı alan kimi Azərbaycana doğru hərəkət üçün hazırlıq işlərinə başladı və elə sabahısı gün, yəni avqustun 28-də Azərbaycana doğru hərəkətə hazırlıqla bağlı diviziya üzrə 23 nömrəli əmri imzaladı. Kifayət qədər müfəssəl olan bu əmrə görə, firqə Qarakilsə-Dilican-Karvansara-Qazax-Ağstafa marşrutu ilə hərəkət etməli idi. Hərəkəti yerinə yetirmək üçün firqə üç böyük dəstəyə bölünürdü. Dəstələr hərəkət zamanı Nikito, Çarhac, Karvansara və Qazaxda dayanacaq etməli idilər. Çarhacda dəstələrə bir günlük istirahət verilməli idi. Dayanacaq məntəqəsinə çatmazdan əvvəl ora dəstələrin zabitləri göndərilməli və dəstənin istirahəti üçün orada lazımi şərait yaradılmalı idi.

Süleyman İzzət bəyin Azərbaycana doğru hərəkətə başlamaq haqqında adı çəkilən əmri belə idi:

1. 15-ci firqə (Qarakilsə-Dilcan-Karvansara-Qazax) şossesini təqribən Akstafa stansiyasına gedəcək və buradan etibarən qatarlarla nəql olunacaqdır.

2.Firqə 3 qafilə halında atidə əmr edilən günlərdə Qarakilsədən hərəkət edəcəkdir. Birinci dayanacağı Nikito, 2-ci Carhac, 3-cü Karavansara, 4-cü Qazaxdır. Hissələr Carhacda bir gün istirahət edəcəklər. Hissələr gərək Qarakilsədə, gərəksə də dayanacaqlar üçün dayanacaq zabitlərini əvvəldən göndərəcək və laızm olan yerləşmə hazırlığı görəcəkdir.

3. Birinci qafilə: 106-cı alay komandanının əmrində olmaq üzrə 106-cı alay, səhra obus batareyası, səhiyyə bölüyü, nisf əkməkçi qolundan tərəkküb edəcək və 1-9-34 (01.09.1918) sabahı Qarakilsədən hərəkət edəcəkdir. Birinci qafilənin

Qarakilsənin şərqində toplanması belə olacaqdır:
a) 106-cı alay 30-8-34 axşamına qədər kamilən toplanmış olacaqdır.
b) səhra obus batareyası 29-8-34 axşamı Nalbənd kəndinə, 30-8-34 axşamı Qarakilsəyə gedəcəkdir.
c) Səhiyyə bölüyü 29-8-34 axşamı Hamamlı stansiyasına, 30-8-34 axşamı Qarakilsəyə gedəcəkdir.
4.İkinci qafilə 56-cı alay komandirinin əmrində olaraq 56-cı alay, 15-ci topçu alayı ərkanı, cəbəl taboru (4-cü qüdrətli və 4-cü obus cəbəl batareyaları), teleqraf taqımı, mütəbaqi nisf əkməkçi qolu ( Şakir əfəndi komandasında), muzıka 3-9-34 sabahı Qarakilsədən hərəkət edəcəkdir.
İkinci qafilənin Qarakilsənin şərqində toplanması belə olacaqdır:
a) 56-cı alay 1-9-34 sabahı Hamamlıdan hərəkətlə Qarakilsəyə gedəcəkdir;
b) 15-ci topçu alay ərkanı 30-8-34 axşamı Qarakilsəyə gedəcəkdir. Cəbəl taboru 31-8-34 axşamı Hamamlıya və 1-9-34 axşamı Qarakilsəyə gedəcəkdir;
c) Teleqraf taqımı 31-8-34 axşamı Qarakilsəyə;
d) Nisf əkməkçi qolu 1-9-34 axşamı Qarakilsəyə;
e) Muzıka 30-8-34 (30.08.1918) axşamı Qarakilsəyə gedəcəkdir.
5. 3-cü qafilə "Sepahe" taboru komandanının əmrində olaraq 1-ci, 2-ci və 3-cü ağır ərzaq qolları, səyyar xəstəxanadan ibarət olub və 4-9-34 sabahı Qarakilsədən hərəkət edəcək. "Sepahe" taboru ərkaniylə 3 ağır ərzaq qolu 31-8-34 axşamı Qışlaq şərqinə gedəcəkdir. Səyyar xəstəxana 31-8-34 axşamı Hamamlıya, 1-9-34 axşamı Qışlağa gedəcəkdir.
6. İaşə 31-8.34-dən etibarən Qarakilsədə təsis ediləcək olan firqə səhra anbarından və əkmək 1-9-34-dən etibarən Qarakilsədən alınacaqdır. 7-ci firqə qərargahı 30-8-34 sabahı Böyük Bakahetdən hərəkət edəcək və axşamı Qarakilsədə təsis ediləcəkdir.
Firqə qərargahı 2-ci qafilə ilə birlikdə 3-9-34-də Qarakilsədən hərəkət edəcək.

Beləliklə, birinci dəstəyə 106-cı alay, səhra qaubitsa batareyası, səhiyyə bölüyü, iaşə bölməsinin yarısı daxil idilər. 106-cı alayın komandirinin rəhbərliyi altında olan bu dəstə sentyabrın 1-də səhər erkən Qarakilsədən hərəkətə başlamalı idi. İkinci dəstəyə 56-cı alay və digər topçu bölmələri daxil idi. Bu dəstə sentyabrın 3-də Qarakilsədən hərəkət etməli idi. Əsasən, yardımçı bölmələrdən ibarət olan üçüncü dəstə isə sentyabrın 4-də Qarakilsədən çıxmalı idi.

Süleyman İzzət bəy kifayət qədər ciddi bir vəzifənin icrasına göndərildiyini bilirdi və ona görə də diviziyanın təminat və təchizatının lazımi səviyyədə olmasına xüsusi diqqət yetirirdi. Ona görə yuxarı komandanlıq qarşısında zəruri olan vəsatətləri qaldırdı. Bununla bərabər, Süleyman İzzət bəy Azərbaycana doğru hərəkətə başlamaq ərəfəsində müəyən çətinliklərin tamamilə həll edilmədiyini də yazırdı:

Bəzi nöqsanlar da var idi. Ordu komandanlığına müraciət etdim. Firqə nizami-hərbinə daxil olub Gümrüdə buraxılması əmr olunan "sepahe" qollarını istədim, vermədi. Neçə mövcudluğu olursa olsun, öküzlü qolları alacaqsan-dedi. Səhiyyə bölüyünə bir laboratoriya ilə bir diş həkimi istədim. Bunları da vermədiyi kimi, 9-cu firqədən veriləcəyini vəd etdiyi bir neçə zabit də gəlmədi. İaşə adıyla bir şey götürülməməsini və yalnız nəfər başına 4 günlük ərzaq alınaraq yolda sərf edilməsini və Ağstafadan etibarən İslam Ordusunca iaşə ediləcəyimizi əmr etdi. Xəstə və yaralı zabitan və əfradımızın təslimini bildirdim. Sanki firqə artıq hərəkət etməyəcək və istirahətə keçiləcəkdi.

15-ci firqənin Azərbaycana doğru hərəkətə başladığı bir vaxtda almanların da hərbi qüvvə ilə Bakı üzərinə hücumda iştirak etməyə hazırlaşdıqları barədə xəbər alınmışdı. Göstərilən xarici təzyiqlərin, Rusiya ilə bağlanılan sövdələşmələrin nəticəsiz qaldığını anlayan almanlar Bakı neftindən faydalanmaq imkanını əldən buraxmamaq üçün Tiflisdəki qüvvələrindən bir tabor Bakı ətrafına göndərməyi qərara aldılar. Nuru paşa dərhal bu məlumata öz münasibətini bildirdi. Tiflisdəki Osmanlı dövləti nümayəndəsi Əbdülkərim əfəndi vasitəsiylə almanların nəzərinə çatdırıldı ki, onların Bakı ətrafına gəlməsinə ehtiyac yoxdur. Bakını azad etmək üçün Qafqaz İslam Ordusunun kifayət qədər qüvvəsi vardır. Ənvər paşa da bu məsələyə dərhal öz münasibətini bildirdi. Nuru paşadan tələb etdi ki, Osmanlı hökumətinin razılığı olmadan Azərbaycan ərazisinə alman qüvvələri buraxılmasın.

15-ci diviziyanın Azərbaycana gəlişi cəbhədə qüvvələri nisbətində gözlənilən dəyişikliyi yarada və bununla da Bakının azad edilməsini sürətləndirə bilərdi. Ona görə bu diviziyanın Azərbaycan ərazisinə daxil olması Qagqaz İslam Ordusunun komandanlığı kimi, Azərbaycanın hökumət mənsublarının və o cümlədən də Azərbaycan ictimaiyyətinin böyük sevincinə səbəb oldu. Diviziyanın şəxsi heyəti də böyük sevinc və təntənə ilə qarşılandı. Süleyman İzzət bəy bu anları da öz xatirələrində qeyd etmişdi:

> Firqəyə mənsub qitələr Ağstafa stansiyasına vardıqca qatarlarla Bakı cəbhəsinə nəql olundu. Firqə qərargahı da 6-9-34-də Ağstafaya trenlə nəqliyyə edilərək eyni gün saat 10 sonrası Gəncə stansiyasına müvasilət etdi. Əvvəlcə aldığım əmr üzərinə stansiya komandanı İslam Ordusu komandanına müvasilatımı telefonla xəbər verdi. Aradan az bir zaman keçəndən sonra yanlarında kəndi ərkani-hərbiyyəsindən məada Azərbaycan hökumətinin hərbiyyə və daxiliyyə nazirləri ilə bəzi hökumət rüəsası və Azərbaycan qolordusu komandanı Ə.Şıxlinski, qərargahi-ümumidən minbaşı Mayer bulunduğu halda Nuru paşa Gəncə stansiyasına gəldi. Stansiya otaqlarının birində görüşdük. Bir çox qeyrətlərə rəğmən Bakının işğal edilməməsi almanların müdaxiləsini icab etdirəcək bir şəkil aldığından ağırlıq və qollar kimi 2-ci dərəcə hissələri Gəncədə buraxaraq yalnız müharibə qədəməsiylə hərəkət və bir an əvvəl Bakı cəbhəsinə müvasilat edilməsini əmr etdi. Mən də o sürətlə və qərargahın böyük ağırlığıyla firqə muzıkasını Gəncədə buraxaraq yalnız qərargah məiyyət zabitanımla Gəncədən 7-9-34 hərəkət və Cənub qurupu komandanlığının qərargahı olan stansiyasında bir az təvəqqüf etdikdən sonra 8-9-34-də saat 3 sonrada Ağbulaq stansiyasına gəldim.

15-ci firqənin Bakıya gəlib çatması ilə şəhər ətrafındakı qüvvələr nisbətində, buradakı hərbi şəraitdə yarana biləcək dəyişiklikləri, mütaliə etmək üçün Qafqaz İslam Ordusunun ərkani-hərb rəisi Nazim bəy də cəbhə xəttinə göndərilmişdi. Nazim bəy 15-ci firqənin də cəlb olunacağı qəti hücumun təşkili barədə öz mülahizələrini ümumiləşdirərək sentyabrın 3-də Güzdəkdən Ordu komandanı Nuru paşaya göndərdi. Nazim bəyin qənaəti belə idi ki, Bakı üzərinə qəti hücum iki istiqamətdən həyata keçirilməlidir - şimaldan və qərbdən. Bu iki istiqamət arasındakı xətt isə Biləcəri ilə Hacı Həsən arasından keçməli idi. Nazim bəyin fikrincə, hər istiqamətdə bir firqə yerləşdirilməsi, onların ehtiyat qüvvələrinin ayrılması və hücum planının da bu qüvvə bölgüsü üzərində qurulması məqsədəuyğun idi. Artıq bu bölgüyə uyğun olaraq hücuma hazırlığa da başlanmışdı. Xüsusən də toplar üçün yerlər seçilir, cəbbəxana, səhiyyə obyektlərinin yerləşdiriləcəyi məntəqələr müəyyənləşdirildi. Maştağada 10 min nəfər

üçün ərzaq ehtiyatı yaradılması planlaşdırılırdı. Qəti hücumdan bir gün əvvəl Bakı üzərinə şərqdən və şimal-şərqdən süvarilər və yerli əhalidən təşkil edilmiş könüllü dəstələrlə hücum edilməsi təklif edilirdi. Bakı üzərinə qəti hücuma kimlərin rəhbərlik etməsi barədə də Nazim bəy öz mülahizələrini Nuru paşa ilə bölüşürdü. Onun fikrincə, 15-ci firqənin Süleyman İzzət bəyin komandanlığı altında qalması, 5-cu firqəyə rəhbərliyin Cəmil Cahid bəyə tapşırılması məqsədəuyğun idi.

Sentyabrın 3-də Ordudan alınan başqa bir teleqramda bildirilirdi ki, 15-ci firqənin alayları ayın 7-10-u arasında Bakı cəbhəsinə yetişəcəkdir. Həmin vaxta qədər Bakı ətrafındakı qüvvələrin mövqe döyüşlərini davam etdirməsi, Sabunçu və Biləcəri ətrafındakı düşmən qüvvələrinə güclü zərbə endirilməsi, onların mövqelərinin ələ keçirilməsi məqsəduyğun bilinirdi. Belə mövqe döyüşləri ilə həm də düşmənin imkanları bir daha aydınlaşdırılmalı idi.

15-ci firqənin Bakıya gəlməsi ərəfəsində ingilis qüvvələrinin əlavə kömək alacaqları barədə xəbərlər yayılmaqda idi. Bu xəbərlərə görə Bakıda olan 39-cu ingilis briqadasının başqa bir taborunun yaxın günlərdə Bakıya gələcəyi gözlənilirdi.

İngilis mənbələrində də sentyabr ayının əvvəllərində Bakıya əlavə ingilis hərbi qüvvələrinin gətirilməsi ehtimalına toxunulurdu. Əslində, general Denstervil Bakının əldə saxlanmasının artıq qeyri-mümkün olduğunu bilirdi və sentyabr ayının 3-də yuxarı komandanlığa göndərdiyi teleqramında da ingilis hərbi qüvvələrinin Bakıdan təxliyə edilməsinə hazırlaşdığını bildirirdi. Sentyabrın 5-də göndərdiyi teleqramında isə general əlavə qüvvələrin gələcəyi təqdirdə Bakının əldə saxlanmasının mümkünlüyünü qeyd edirdi. Həmin teleqramda deyilirdi: “ Geri çəkilmək əmrini aldım, lakin hərbi flotun (“Sentrokaspi” hərbi gəmiləri nəzərdə tutulur – M.S.) top atəşləri altında çəkilməyin imkansız olduğu qənaətindəyəm. Biçeraxov Petrovskini zəbt etmiş və bir həftə ərzində Bakıya 1000 piyada gətirməyi vəd etmişdir. Yerli vəziyyət daha ümidli görünür. Sonuna qədər qalacağımı və ancaq işlər ümidsiz bir şəklə düşərsə geri çəkiləcəyimi burada hökumətə bildirdim. Bakının daşıdığı böyük dəyərə təkrar diqqətinizi cəlb edirəm. 39-cu piyada sancağının hələ Bakıya gəlməmiş hissələri göndərilərsə qəsəbənin xilas edilməsi mümkündür”.

“Sentrokaspi” hərbi qüvvələrinin kifayət qədər zəif və nizamsız olmasına və onlara bel bağlanmasının qeyri-mümkünlüyünə baxmayaraq Bakının tərk edilməsi general Denstervil üçün heç də əsas məsələ deyildi. Əksinə, anlaşılırdı ki, Bakının tərk edilməsi ilə bu şəhərə olan ingilis iddialarının üstündən bir dəfəlik xətt çəkilə bilər. Mövcud olan faktlardan aydın olur ki, 1918-ci il sentyabr ayının 5-də Bişeraxovun göndərdiyi bir dəstə Bakı ətrafına yetişdi və bu, Denstervildə müəyyən ümidlər yaratdı. Bunu o, sentyabrın 5-də Bağdaddakı ingilis qüvvələri qərargahının rəhbəri general Marşalla göndərdiyi teleqramında da ifadə etdi. General Denstervil bildirirdi ki, onun sərəncamında olan gəmilərin silahları yoxdur. “Sentrokaspi” gəmiləri isə toplarla təchiz edilmişdi. Ona görə ingilis gəmiləri “Sentrokaspi” gəmilərinin atəşindən yaxa qurtara bilməzdilər. “Sentrokaspi” rəhbərliyi nəyin bahasına olursa-olsun Bakını nəzarət altında saxlamağa çalışır və ingilis qüvvələrinin də Bakını tərk etməsinə razı deyildi. Ona görə general Denstervilin təxliyə fikrindən hələlik daşınmaqdan başqa bir seçimi yox idi. General Marşalla göndərdiyi teleqramda general Denstervilin hələ də Bakının əldə saxlanılmasının mümkünlüyünü yazır və bunu belə təsvir edirdi:

> Aşağıdakı səbəblərdən dolayı uğurlu bir müdafiənin mümkün olduğunu zənn edirəm. Müdafiə mövqeyi son dərəcə qüvvətlidir və güvənilə biləcək qüvvələr əlimizdə olduğu təqdirdə Bakı zəbt edilə bilinməyəcək bir hala gətirilə bilər. Türk

əsgərlərinin əhval-ruhiyyəsi döyüşgən bölükləri arasında ağır itkilər səbəbiylə pozulmuşdur. Müttəfiqlərin itilaf dövlətlərinə qarşı Fransadakı müvəffəqiyyətləri Qafqazdakı vəziyyətə təsir etməkdədir. Qafqazdakı gürcülərin almanlara qarşı ayağa qalxmağa başlaması israrla xəbər verilir və ermənilərdən ibarət bir qüvvənin Kür nəhri üzərindəki dəmir yolu körpüsünü təhdid etməkdə olduğu söylənilir. Bakıda düşmənin bu mövqeyə qarşı da gətirə biləcəyi qədər top, cəbbəxana və hərbi sursat vardır. Bakı hökuməti dənizə hakim olduğundan oraya bir maneə rast gəlmədən başqa yerlərdən qoşun, ləvazimat gətirə bilir. Bişeraxov qoşununun ilk qədəməsi bu gün gəldi və Biçeraxov önümüzdəki on beş gün ərzində daha 5000 nəfər göndərəcəyinə vəd vermişdir. Lənkəranın hərəkətə hazır olmaq üzrə 4000 nəfəri vardır. Bakı qüvvələrinin yenidən tənzim edilməsi nəticəsində təqribən 3000 nəfərlik arxalana bilinən bir qoşun hasilə gətiriləcəkdir. Buna görə də, bir ingilis alayına istinad etdiyim təqdirdə yuxarıdakı qüvvənin düşmənin Bakının üstünə gətirəcəyi hər hansı bir qüvvəyə qarşı bu qəsəbəni əldə saxlaya biləcəyinə tamamilə əminəm. Digər çarə ( yəni geri çəkilmək) tam fəlakət və gözümüzü dikərək əldə edilməsinə çalışdığımız bütün məqsədlərin əbədi olaraq itirilməsi deməkdir .

Bu məlumatın dəqiqləşdirilməsi qeyri-mümkün olduğundan Qafqaz İslam Ordusu rəhbərliyi belə bir köməyin mümkünlüyünü istisna etmirdi. Ona görə 15-ci firqənin Bakıya yetişməsi və qəti hücuma başlaması səbirsizliklə gözlənilirdi. 15-ci firqənin hələ də Bakı ətrafına yetişməməsi ilə bağlı narahatlığını əvvəlcə Nazim bəy sentyabrın 4-də Nuru paşaya çatdırdı. Bununla bağlı, Gəncəyə göndərdiyi teleqramında Nazim bəy gizlətmirdi ki, 15-ci firqə yerişənəcən ingilislərə kömək gələrsə onda Bakını almaq xeyli müşgül olacaq. Həmin məzmunlu başqa bir teleqramı isə elə həmin gün Nuru paşa Şərq Ordular Qrupu komandanı Xəlil paşaya göndərdi və o da öz növbəsində 15-ci firqənin hələ də yetişməməsinə narahatçılığını bildirdi.

Bakı üzərinə həlledici hücumun nə vaxt başlayacağı 15-ci firqənin Bakı ətrafına nə vaxt gəlib çatmasından asılı idi. Ona görə də, Bakı üzərinə planıaşdırılan hücumun vaxtı bir neçə dəfə dəyişdirilməli oldu. Məsələn, sentyabr ayının 7-də imzaladığı əmrdə Nuru paşa həlledici hücumun sentyabr ayının 11-də olacağını bəyan edirdi. Amma məlumdur ki, 15-ci diviziya nəzərdə tutulan vaxtda Bakı ətrafına yetişmədi. Ona görə də Bakı üzərinə həlledci hücum üçün başqa tarix seçilməli oldu.

Yuxarıda qeyd edildiyi kimi, 15-ci diviziyanın əsas qüvvələri sentyabrın 8-də hələ Ağbulaqda idi. Buradan Bakıya kimi dəmir yolu xətti Xəzər dənizinin sahilinin yaxınlığından keçirdi və Xəzər dənizində lövbər salmış düşmən gəmiləri bu yolu atəş altında saxlayırdılar. Ona görə də gündüz Xəzər dəmir yolu ilə hərəkət etmək çox təhlükəli idi və bu yersiz itkilətə gətirib çıxara bilərdi. Bu itkilərə yol verməmək üçün qərara alındı ki, Bakıya doğru gecə vaxtı hərəkət edilsin. Sentyabr ayının 9-da səhər tezdən 15-ci diviziyanın qüvvələri Bakı ətrafına çatdı və Süleyman İzzət bəy də özünü 5-ci diviziyanın Güzdəkdə yerləşən qərargahına çatdırdı. Süleyman İzzət bəy burada Mürsəl paşa ilə görüşdü və vəziyyət haqqında ondan ətraflı məlumat aldı. Sonra Süleyman İzzət bəy Mürsəl paşa ilə birlikdə avtomobildə Masazıra gəldi və döyüş xəttindəki vəziyyəti müşahidə etdi, oradan da Binəqədi topçu müşahidə məntəqəsinə yollandı. Burada Süleyman İzzət bəy yanındakı zabitlərlə birlikdə düşmən mövqelərini diqqətlə müşahidə etdilər. Süleyman İzzət bəy bu barədə belə yazırdı:

9-9-34 zəvalında Mürsəl paşa və ərkani hərbiyyəsi ilə birlikdə Güzdəkdən avtomobillərlə hərəkət edərək Masazıra gəldim. Buradan şimal qrupu komandanı

fəxri miralay Osman bəyi də yanımıza alaraq Binəqədi topçu tərəssüd məhəllinə getdik. Biləcəri kəndini və onun şərqindəki düşmən mövqelərini tədqiq etdik. Mürsəl paşa qərargahına qayıtdı. Mən də 10-na keçən gecəni Şimal qrupu komandanının qərargahı olan Masazırda keçurdum.

Sentyabr ayının 9-da Nuru paşadan yeni bir əmr alındı. Bu əmrdə bildirilirdi ki, Bakı üzərinə həlledici hücumun tarixi haqqında artıq qərar qəbul edilmişdir və bu qərar Nuru paşa Bakı ətrafına çatandan sonra açıqlanmalı idi. Bununla bağlı Nuru paşa tələb edirdi ki, sentyabrın 9-dan 10-na keçən gecə hücumda iştirak edəcək qüvvələr aşağıdakı mövqelərdə öz yerlərini tutsunlar: 13-cü alay Hökmalının cənubunda, 106-cı alay isə Qobu kəndi ətrafında dayanmalı idi. 13-cü alay cəbhəsi müvəqqəti olaraq 107-ci alay tərəfindən təhvil alınmalı idi. 29-cu tabor isə bu alayın ehtiyatına verilməli idi. 345 rəqəmli təpə və Maştağa cəbhələri 38-ci alayın nəzarəti altında olmalı və 5-ci firqə qərargahı isə Qobuya köçürülməli idi. Nuru paşa əmr edirdi ki, hissələr yeni müəyyənləşdirilən məntəqələrə gizli şəkildə hərəkət etməlidirlər. Düşmənin bu yerdəyişmələrdən xəbəri olmaması üçün hərəkətlər əvvəla gecə vaxtı icra edilməli, sonra da köhnə düşərgələrdəki çadırlar sökülməməli idi.

Süleyman İzzət bəy sentyabrın 10-da da Bakı ətrafındakı döyüş mövqelərinin müşahidəsini davam etdirdi:

> 10-9-34-də səhər 7 əvvəldə Şimal qrupu komandanı ilə bərabər Saray, Fatmayi üzərindən Digaha getdik. Keçdiyimiz ərazi kamilən qumluq idi. Ağac və yaşıllıqdan bir çey yox idi.... Gümrüdə firqə nizami-hərbindən ayrılmış və 5-ci firqə ilə hərb etmiş olan 38-ci alaya burada təsadüf etdim. Alay komandiri və zabitanla görüşdükdən sonra 345 rəqəmli təpəsinə getdik. Düşmənin vəziyyətini buradan da yaxşıca tədqiq etdim. 345-ci təpənin cənubu Biləcəri kəndinə qədər bir vadi halındadır. Bu vadinin bir qismi sulu və bir qismi qurudur. Quru olan yerlərdə duz birikintiləri vardır. Bu vadinin cənubundakı sırtlar düşmənin işğalındadır. Burada 8-ə qədər top vardır. Tədqiqatımızı ikmal etdikdən sonra Masazıra qayıtdıq. Bu əsnada Şərq Ordular Qrupu komandanının Masazıra gələcəyini telefonla xəbər verdilər və saat 3 sonrada bərabərində Qrup ərkani-hərbiyyə heyəti, İslam Ordusu komandanı və ərkani-hərbiyyə heyəti, Azərbaycan qolordusu komandanı bulunduğu halda gəldilər. Hamısı bərabər təkrar müşahidə məntəqəsinə getdik. Hava ruzgarlı və fırtınalı olduğundan düşmən mövqeləri yaxşıca görülmürdü. Burada firqəmlə qüvvətləndirilmiş olan İslam Ordusunun Bakıya nə sürətlə hücum etməsinin münasib olacağı tədqiq edildi və görüşüldü.

Süleyman İzzət bəyin yazdığı kimi, sentyabrın 10-da Xəlil paşa, Nuru paşa, Əliağa Şıxlinski Bakı ətrafına gəldilər. Döyüş mövqeləri ilə tanışlıqdan sonra onlar diviziya komandirlərinin hücumun təşkili ilə bağlı mülahizələrini dinlədilər.

15-ci firqə komandanı Süleyman İzzət bəy təklif edirdi ki, Şimal qrupu ləğv edilsin və bu qrupdakı qüvvələr 15-ci firqənin tabeliyinə verilsin. 5-ci firqə qərbdən, 15-ci firqə isə tərkibində 3 alay və milli qüvvələr olmaqla şimaldan şəhər üzərinə hücuma keçsin. Səhər erkən güclü top hazırlığından sonra 15-ci firqənin üç alayının Biləcərinin şərqindən, milli Azərbaycan qüvvələrinin isə Sabunçu və Əhmədli istiqamətlərindən hücuma keçməsi məqsədəuyğun sayılırdı. Süleyman İzzət bəyin fikrincə qərb təmas xətti şəhərə daha yaxındır və düşmənin əsas qüvvələri də burada yerləşmişdi. Bundan başqa Xəzərdə olan hərbi gəmilərin topları da qərb tərəfdən olan hücuma maniəçilik edə bilərdilər. Ona görə də düşmənin daha az olduğu və daha az ehtiyat etdiyi şimal istiqamətindən daha uğurlu hücum təşkil etmək olardı.

> Mən fikrimi bu surətlə xülasə etdim. 5-ci firqə mövcudu bütün qüvvətiylə bulunduğu mövqelərdən gecə basqını ilə Bakı istiqamətində təərrüzə keçməli və Şimal qrupu ləğv edilərək bu qrup əmrində bulunan 38-ci alay firqəsinə qaytarılmaq surətiylə 3 piyada alayına malik olacaq 15-ci firqə də şəfəqlə bərabər qüvvətli topçu atəşinin himayəsilə Biləcərinin şərqindən Biləcəri sırtlarına və 15-ci firqə komandanlığına rəbt ediləcək yerli süvarilərlə Sabunçudan Əhmədli istiqamətində şiddətli və həqiqi təərrüz yaparaq düşməni çevirməkdi və bu sürətlə bir çəmbər içində sıxışdırılacaq olan düşmənin limandan vapurlara minərək qaçmasına meydan verilməyib şəhəri işğal və düşməni məhv və əsir etməkdir. Çünki 5-ci firqə məntəqəsi dardır. Yüksək dağlardan enib çıxmaq lazımdır. Bu məntəqə Xəzər dəniizndə bulunan rus hərb gəmilərinin atəşinə məruzdur. Düşmən qüvvətinin qismi-əzimi aylardan bəri yapılan müharibələr dolayısıyla 5-ci firqə cəbhəsindədir. Bu şəraitin tamamilə əksini cəmi olan və qüvvələrin sərbəst hərəkətinə müsaid olan Biləcəri şərqindən və daha şimalından təərrüz daha ziyadə müvəffəqiyyət təmin edər.

Bundan sonra Qafqaz İslam Ordusu qüvvələrinin komandanlığının və bütün şəxsi heyətinin diqqəti hücumun hazırlanmasına və təşkilinə istiqamətlənmişdi. Süleyman İzzət bəyin yazdıqlarından aydın olur ki, Qafqaz İslam Ordusunun komandanlığı sentyabrın 10-u gecəsi də Bakı üzərinə hücum planının haşırlanması ilə məşğul idi. Gecə saatlarında müvafiq əmr hazır oldu və dərhal da diviziya komandirlərinə göndərildi. Həmin əmr Süleyman İzzət bəyə sentyabrın 10-dan 11-nə keçən gecə saat 1-də çatdırıldı.

Süleyman İzzət bəy bu əmri belə şərh edirdi:

> 10/11-9-34 yarı gecədən sonra saat 1-də İslam Ordusu komandanlığından aşağıdakı əmr alındı:
>
> -5-ci və 15-ci firqələrlə Cənub qrupundan ibarət olan Ordunun komandasını ələ aldım. Bu Ordu Bakıya təərrüz edəcəkdir. Təərrüz anını ayrıca bildiriləcəkdir.
>
> -5-ci firqə (106 və 56-cı alaylar daxil) sol cinahı Ermənikənd olmaq üzrə cənuba doğru 1500 metrlik bir cəbhədə irəliləyib hücum edəcəkdir. 15-ci firqə (38 və 107-ci alaylar) sağ cinahı Biləcərinin şərq kənarı olmaq üzrə Ermənikənd istiqamətində hücum edəcəkdir. Hər iki firqə şiddətli hücum edərək Bakıya qədər irəliləyəcəkdir.
>
> -106-cı alaydan 2 tabor Ordu ehtiyatıdır.

Bundan sonra 15-ci diviziyanın ixtiyarında hansı toplar olacağı dədiqləşdirilir və hazırlıq işlərinin bitməsi haqqında ayın 11-də məruzə edilməsi tələb olunurdu.

Bu əmrə görə cəbhə xəttindəki qüvvələr yenidən qruplaşdırılırdı. 15-ci diviziyaya aid olan 106-cı alay 5-ci diviziyanın əməliyyat tabeliyinə veriulirdi. Əvəzində isə 38-ci alay 15-ci diviziyaya qaytarılmaqla 107-ci alay da 15-ci diviziyanın əməliyyat tabeliyinə verilmişdi

> ...Ancaq firqənin malı olan 56-cı alay alınaraq yerinə firqəcə qüdrəti-hərbiyyəsi məlum olmayan 107-ci alay verilmişdi. Bunun da səbəbi anlaşılmamışdı. Bu surətlə firqənin əsaslı alayları kamilən alınmış və 5-ci firqə əmrində sayı zədələnmiş olan 38-ci alay firqəsinə iadə edilmişdi. Halbuki mən Gəncədən keçərkən Bakıya çatarkən 38-ci alayın da əmrimə veriləcəyini və piyada qüvvətimin 3 alaydan ibarət olacağını, 5-ci firqəyə Cəmil Cahid bəyin təyin olunacağını və Mürsəl paşanın da Şərq cəbhəsi komandanı ünvanı alacağını söyləmişlərdi.

Yuxarıdakı əmrə əsasən, Qafqaz İslam Ordusu qüvvələrinin əsas ağırlıq mərkəzi cəbhənin qərb istiqamətinə salınmışdı. Burada eni cəmi 1500 metr olan döyüş sahəsində təkcə 4 piyada alayı yerləşdirilmişdi. İki piyada alayı və milli qüvvələrdən ibarət olan 15-ci firqəyə isə daha geniş bir döyüş sahəsi verilmişdi. Bu sahə Biləcəridən başlayıb Abşeron yarmadasının şərqinə doğru uzanırdı. Süleyman İzzət bəy Ordu komandanlığından aldığı əmri öyrəndikdən sonra ayın 11-də firqə üzrə müvafiq döyüş əmri verdi. Həmin əmrə görə, 107-ci alay Biləcəri-Ermənikənd-Təpələr sahəsində, 38-ci alay isə onun solunda döyüşə girməli idi. Alaylar iki taboru irəli çıxarmalı, bir tabor isə ehtiyatda saxlanmalı idilər. 107-ci alaydan iki bölük, 38-ci alaydan bir bölük və alay pulemyot bölükləri birlikdə firqənin ehtiyat qüvvəsini təşkil etməli və Binəqədi təpəsinin arxasında yerləşməli idi. Firqənin tabeliyində olan toplar Binəqədi və Digah qrupları olmaq üzrə iki yerə bölünürdülər. Binəqədi qrupunda 8 top, Digah qrupunda isə 4 top olmalı idi. Minbaşı Tofiq bəyin rəhbərliyi altında Maştağada olan 3 könüllü tabordan ibarət dəstə Balaxanı-Sabunçu istiqaməti ilə, mürəttəb süvari alayından, Ləzgi süvari alayından və digər Azərbaycan süvari alayından ibarət olan süvari dəstəsi minbaşı Zehni bəyin rəhbərliyi altında Hövsanda toplaşaraq Əhmədli-Kişlə istiqamətində hücum etməli idi.

Yazılı əmr verməkdən əlavə Süleyman İzzət bəy alay və dəstələrin komandirlərini toplayıb Binəqədi müşahidə məntəqəsində verilən tapşırıqları ərazi üzərində dəqiqləşdirdi. Bu səyyar müşavirə zamanı hücum taktikası, topçularla pulemyotların fəaliyyətlərinin əlaqələndirilməsi və s. məsələlər müzakirə edildi:

> Bu əmri alaylara yazılı bildirməklə bərabər, alay və dəstə komandanlarının birlikdə alaraq Binəqədidəki müşahidə məhəllindən hər komandana ayrı-ayrı cəbhəsini, hücum tərzini və topçuların da necə fəaliyyət göstərəcəyini və mövqelərini ərazi üzərində göstərərək izah etdim.
>
> Günortadan sonra axşama qədər düşmən topçusu Digaha, müşahidə məhəllinə, Binəqədi və civarına fasiləsiz sürətlə atəş etdi. Bu atəşdən bir təbiblə bir nəfərimiz məcruh oldu. Saat 9 sonra bir raporla hazırlıq görüldüyü və ancaq telefon rabitəsini fəna və səhiyyə təşkilatının nöqsan olduğunu və hənuz qollar gəlmədiyini cəbbəxana və iaşə nəqliyyatının güc olmadığını İslam Ordusu komandanlığına bildirdim.

Eyni zamanda Bakı üzərinə qəti hücum ərəfəsində firqənin tərkibində edilmiş dəyişikliklər Süleyman İzzət bəyi müəyyən qədər narahat edirdi. Çünki onun əsas qüvvələri müvəqqəti olaraq firqənin tərkibindən çıxarılıb başqa komandirlərin tabeçiliyinə verilmişdi. Ona görə də firqəyə yeni verilmiş hissə və dəstələr arasında qarşılıqlı fəaliyyətin nizamlanması üçün müəyyən vaxt lazım idi. Belə ki, firqənin 45-ci alayı Batumda saxlanmışdı, 56-cı alay 5-ci firqənin sərəncamına verilmişdi. 38-ci alay isə 5-ci firqənin tərkibində vuruşub müəyyən itkilərə məruz qaldıqdan sonra 15-ci firqəyə qaytarılmışdı. 56-cı alayın yerinə firqəyə vaxtilə 36-cı Qafqaz firqəsinə mənsub olmuş 107-ci alay verilmişdi. Süleyman İzzət bəy bu alayın döyüş imkanlarına hələ tam bələd deyildi. Hücuma hazırlıqla bağlı görülən işlər və mövcud olan çatışmazlıqlar və çətinliklər barədə Süleyman İzzət bəy günortadan sonra telefonla Nuru paşaya məruzə etdi.

Sentyabrın 12-də Süleyman İzzət bəy hücuma hazırlıqla bağlı firqə üzrə yeni bir əmr imzaladı. Həmin əmrlə 38-ci və 107-ci alayların cəbhə sahəsi bir qədər daraldıldı. Hər iki alay Biləcəri ətrafında döyüşməli idi. Günortaya yaxın düşmən qüvvələrinin nəzər diqqətini cəlb etmək üçün Süleyman İzzət bəyin əmri ilə Əhmədli istiqamətindəki milli

süvari qüvvələr fəallaşmağa başladılar. Düşmən topları atəşinin tuta bilməyəcəyi bir sahədə süvarilər nümayişkaranə hərəkətə başladılar. Qüdrətli cəbəl topları ilə Balaxanı ətrafındakı "Sentrokaspi" və ingilis qoşunlarının mövqeləri atəşə tutuldu. Bu hərəkətlər düşmənin diqqətini cəlb etdi. Bir təyyarə havaya qaldırıldı və Binəqədi yaxınlığındakı qüvvələr bombardman edildi. Nəticədə 107-ci və 38-ci alaydan 20 nəfər yaralandı. Süleyman İzzət bəyin əmri ilə Biləcəri ətrafındakı "Sentrokaspi" və ingilis qüvvələri mövqeləri güclü top atəşinə tutulsa da əslində qarşıya qoyulan məqsədə nail olunmuşdu və düşməndə bu istiqamətdə çoxlu qüvvə toplandığı təəssüratı yaradılmışdı.

12-09-34 səhər hazırlıq haqqında ikinci bir firqə əmri verdim və bu əmrlə 107-ci alay ilə 38-ci alayın cəbhələrini bir az qısaltdım. Hər iki alaya hücum cəbhəsi olaraq Biləcəri ətəklərini və Maştağa dəstəsinə də qarşıdakı təpəni verdim. Günortadan əvvəl saat 11-də düşmənin 15-ci firqə cəbhəsinə nəzər diqqətini cəlb etmək məqsədilə havi Ordudan alınan bir əmr üzərinə Əhmədli istiqamətində süvarilərə bir nümayiş və bir milis süvarilərinə düşmənə görünərək və top mənzili xaricində şimal və şərq istiqamətində irəli-geri yürüşlər yapdırdım. Qüdrətli cəbəl batareyası Balaxanını atəş altına aldı. Təsirli 141 mərmi atdı. Saat 3-dən sonra Binəqədi tərəssüd məhəllinə gedərək tərəssüd və tədqiqatımızı davam etdim. O sıradan bir düşmən təyyarəsi firqəmizin mövqeləri üzərində dolaşaraq kəşfiyyat apardı və Binəqədi təpəsi arxasındakı ordugahımıza bombalar atdı. 107-ci alaydan bir zabitin qolu qırıldı və 9 nəfər ağırca yaralandı. 38-ci alaydan 11 nəfər yaralandı. Buna müqabil qrup toplarıilə Biləcəri kənarındakı düşmən mövqelərinə atəş etdirdim və xeyli tələfat verdirdim. Bu sürətlə düşmənin nəzər diqqətini cəlb etdim. Sentyabrın 12-də Bakı şəhəri üzərinə həlledici hücumun təşkil edilməsi ilə bağlı Nuru paşa tərəfindən yeni bir əmr imzalandı. Bu əmr əvvəlki əmrdən xeyli fərqlənirdi və yeni əmrə əsasən 15-ci diviziyanın tabeliyində olan qüvvələr daha da azaldıldı. Həmin əmri Süleyman İzzət bəy aşağıdakı kimi şərh edirdi:

Saat 6-dan sonra Ordudan birinci təərrüz əmrini və tərtibatını tamamilə dəyişdirən 2-ci bir əmr aldım. Bu əmrdə deyilirdi ki, 5-ci firqə 26-cı tabor məntəqəsindən, yəni cənub qismindən hücum edəcək. 15-ci firqə də yalnız 38-ci alayla milis taborları və milis süvarilərindən mürəkkəb bir qüvvətlə düşməni işğal və təsbit edəcək. Bu firqədə yalnız altı krup topu qalacaq. Obus qüdrətli və Şnayder batareyaları kamilən 5-ci firqə əmrinə veriləcək. 106 və 107-ci alaylar Ordu ehtiyatı olaraq Hökmalıda qalacaq.

Topçulara və 107-ci alay komandanına lazım gələn əmrləri verməklə bərabər 38-ci alayı Binəqədi-Yanardağ xəttinə cəlb etdim.

Buna görə 15-ci firqə cəbhəsindəki qüvələr çox zəifləmiş oldu. Hətta 15-ci firqə gəlmədən əvvəl bu məntəqəyə təxsis edilmiş olan Şimal Qrupu qüvvətindən daha çox aşağıya endirilmişdi. Şimal qrupunda 10 tabor piyada, 12 top, biri nizamiyyə olmaq üzrə 3 süvari alayı varkən bu əmrlə 15-ci firqə komandanlığı əmrində yalnız 3 tabor piyada, 6 krup topu və milli piyada və süvariləri buraxılmış oldu. Buna müqabil Ordunun mütəbaqi bütün qüvvəti 5-ci firqə komandanlığı əmrində təksif edilmiş oldu.

Ola bilsin ki, 5-ci firqənin güclü hücumundan sonra 15-ci firqə xəttindəki düşmənin geri çəkiləcəyi güman edilirdi. Ancaq hər iki firqə birgə hücum etsəydi faydası yox idi.

Sentyabrın 13-də Süleyman İzzət bəy yeni əmrə əsasən hansı mövqelərə mailk olacağını sahə üzərində dəqiqləşdirmək üçün ərazinin müşahidəsinin davam etdirdi. Günortadan

sonra Süleyman İzzət Qobunun şərqindəki Şubanı dağında oldu və 5-ci diviziyanın əməliyyat sahəsini də nəzərdən keçirdi. Sentyabrın 13-də günortadan sonra saat 4.30-da Süleyman İzzət bəy Bakı üzərinə hücumun başlanması ilə bağlı Nuru paşanın son əmrini aldı. Həmin əmrə əsasən Bakı üzərinə hücum elə həmin gün, ayın 14-nə keçən gecə saat 2-də başlanmalı idi. Bu əmrə əsasən 5-ci diviziya 9, 10, 13 və 56-cı alaylarla bu diviziya üçün müəyyənləşdirilmiş istiqamətdə hücum etməli idi. 15-ci diviziya isə Biləcəri, Balaxanı, Əhmədli istiqamətində hücuma qoşulmalı idi. Bu diviziyanın tabeliyində yuxarıda göstərilən qüvvələr və milli dəstələr var idi. 106 və 107-ci alaylar isə Ordunun ehtiyat qüvvəsi kimi saxlanmalı idi.

15-ci firqə komandiri Süleyman İzzət bəyin imzaladığı döyüş əmrinə görə isə firqə tabeliyində olan qüvvələrə aşağıdakı tapşırıqlar verilmişdi: 38-ci alaydan bir taqım 2 pulemyotla Binəqədinin cənubundakı Yanardağ təpəsi ətəyindən Biləcəriyə doğru hücuma keçməli, səhərin açılması ilə isə alayın iki taboru Biləcərinin şərqinə doğru hücuma keçməli idi. 38-ci alayın 3-cü taboru ehtiyatda qalmalı idi. Hücumdan öncə Biləcəri istiqamətində hər biri 40 nəfərdən ibarət olmaqla iki kəşfiyyat qrupu hücuma başlamalı və bu məntəqəni ələ keçirdikləri təqdirdə Suraxanının cənubundan hücumu davam etdirməli idilər. Zehni bəyin rəhbərliyi altında olan mürəttəb 2-ci süvari alayı və Azərbaycan süvari alayları da Əhmədli istiqamətində hücuma qoşulmalı idilər. Döyüş əsnasında firqənin tabeliyində olan toplar hissələrin və dəstələrin hücumunu himayə etməli idilər.

Süleyman İzzət bəyin Bakı üzərinə hücuma başlamaq haqqında imzaladığı tarixi əmrin mətni aşağıdakı kimi idi:

> 1.İslam Ordusu sabah 14-9-34 gecə saat 2-də Bakıya hücum edəcəkdir. 15-ci firqə hissələri belə hərəkət edəcəkdir:
>
> a) 38-ci alaydan bir taqımla 2 pulemyot Binəqədi cənubu qarşısındakı Yanardağ təpəsi ətəyində Biləcəriyə qarşı buraxılacaq və 38-ci alay günəşin çıxmasıyla bərabər bir taboru birinci xəttə və bir taboru ehtiyatda olmaq üzrə Biləcəri şərqindən qarşıdakı ətəklərə hücum edəcəkdir. Hər biri 40 kişidən ibarət 2 kəşfiyyat qolu Biləcəri kəndinə və ətəklərin uzandığı burun istiqamətinə göndəriləcəkdir.
>
> b) Piyada milli taborları Balaxanı istiqamətinə təərrüz edəcəklər və müvəffəq olduqdan sonra Suraxanı stansiyası cənubundan hücum edəcəklər.
>
> c) Zehni bəy süvariləri Əhmədli istiqamətində hücum edəcəkdir.
>
> 2. 4 krup topu indiki mövqeyində bulunaraq 38-ci alayın hücumunu təshil edəcəkdir və milislərlə süvari nəzdinə birər qrup göndəriləcəkdir.
>
> 3. Mən saat 11-dən sonra firqə müşahidə məntəqəsində olacağam.
>
> 15-ci firqə komandiri Süleyman İzzət

Təyin olunan vaxtda 15-ci firqə də hücuma qoşuldu. Əvvəlcə firqədən 40 nəfərlik kəşfiyyat qrupları irəli göndərildi. Qərb istiqamətində ilk müdafiə xətləri ələ keçirildikdən sonra şimaldan ora əlavə yardım göndərilməməsi üçün səhərə yaxın saat 6-da "Sentrokaspi" və inglis qoşunlarının mövqeləri güclü atəşə tutuldu. Şimal istiqamətində, Biləcəri ətrafında "Sentrokaspi" və inglis qüvvələrinin əsas hissələri yerləşdirilmişdi. Bunu general Denstervil də etiraf edirdi. Çünki Qurd qapısı yüksəkliklərinin təbii şəraitindən yaxşı istifadə etməklə orada güclü müdafiə mövqeləri yaratmaq mümkün olduğu halda, şimal istiqamətindəki təbii şərait müdafiə üçün o qədər də əlverişli deyildi. Burada 39-cu ingilis briqadasının əsas qüvvələri, Bişeraxov

dəstəsinin bir hissəsi və yerli qoşunların topları yerləşdirilmişdi. Alman əsirlərinin verdiyi məlumata görə, bu istiqamətdə konkret olaraq 800 erməni, 700 rus, 100 ingilis döyüşçüsü, çox yaxşı gizlədilmiş 16 pulemyot, ikisi uzun olmaqla 12 ədəd top 38-ci alaya qarşı mövqe tutmuşdu. Buna baxmayaraq ilk həmlədən sonra 38-ci alayın qüvvələri düşmənlə 500-600 metr məsafəyədək yaxınlaşdı. Ancaq Biləcərinin şərqində məharətlə gizlənmiş düşmən topları 38-ci alayın sağ qanadını güclü atəş altına aldı. Bu mövqedən qərbə doğru sahə boş olduğu üçün Ordu ehtiyatında olan alayların bura çıxarılacağına, heç olmasa 5-ci firqə toplarının bu istiqamətə atəş açması ilə düşmən atəşinin zəiflədilməsinə ümid bağlanırdı. Eyni zamanda 38-ci alayın sol cinahı ilə üzbəüz mövqelərdən düşmən topları, o cümlədən uzun topları kifayət qədər sərrast atəşlər açırdı. 15-ci firqənin tabeçiliyində olan toplar əvvəlcə Biləcərinin şərqində olan pulemyot mövqelərini atəşə tutdular. Ancaq bu pulemyotlar yaxşı gizlədildiyindən onları zərərsizləşdirmək mümkün olmadı. Belə olanda Süleyman İzzət bəy toplarla düşmən toplarının mövqelərini nişan almağa göstəriş verdi. Belə çətin vəziyyətlə qarşılaşmasına baxmayaraq 38-ci alay xeyli irəliləyə bilmişdi.

> ...Səhər açılınca 5-ci firqə cəbhəsində olan 56-cı alay bomba və pulemyot atəşləriylə hücuma keçərək düşmənin 1-ci və 2-ci xətt mövqelərini işğal etdi. Mən də firqəm qarşısında olan düşmənin 5-ci firqə cəbhəsindəki düşməni təqviyə etməməsi və yerində təsbit edilməsi üçün saat 4-də dörd topla düşmən mövqelərini şiddətli bir top atəşinə tutduqdan sonra 38-ci alayı Biləcəri ətəkləri istiqamətində hücuma qaldırdım. Bu alay ilk həmlədə düşmən xəttinin 500-600 metr məsafəsinə qədər getdi Ancaq Biləcərinin şərq kənarında olan düşmən, xüsusən də orada gizlədilmiş 6 ədəd pulemyot alayın sağ cinahını yandan atəş altına aldı. Ora toplar atəş açsa da bir şey olmadı. Mən topların yanında idim. Sağımızda bulunan 5-ci firqə hissələri və toplarından heç biri iki firqə arasında hasil olan açıqlıqdan 38-ci alayın sağ cinahına yardım etmədiyi kimi Ordu ehtiyatında bulunan iki alaydan heç biri bu mühüm tərəfə göndərilməmişdi. Eyni zamanda sol cinahda və dəmir yolunun cənuba döndüyü burun qarşısında bulunan düşmən piyada və topçuları və xüsusən uzun mənzilli iki topu 38-ci alayın sol cinahınn yan atəşlə zədələyirdi. Pulemyotara qarşı bir iş görə bilməyən topların üzünü düşmən topuna qarşı çevirdim. Bu vəziyyətə baxmayaraq 38-ci alay xeyli irəliləmişdi.

Biləcəri ətrafındakı düşmən qüvvələrinin müqavimətini qırmaq və sağ cinahın təhlükəsizliyini təmin etmək üçün Süleyman İzzət bəy Ordu komandanlığı qarşısında firqəyə əlavə bir batareya və ehtiyatda saxlanılan piyada qüvvələrindən əlavə yardım ayırmaq barədə məsələ qaldırdı. Nuru paşa Biləcəri ətrafında yaranan gərgin vəziyyəti nəzərə alaraq dərhal Süleyman bəyin qaldırdığı məsələni müsbət həll etdi. Çünki Biləcəri alınmadan Bakını ələ keçirmək çətin olardı. Nuru paşa Ordu ehtiyatında olan 107-ci alaya Biləcəriyə doğru irəliləmək əmri verdi. Əlavə olaraq Süleyman İzzət bəyə bildirildi ki, tabeliyinizə verilmiş olan 107-ci alayın malik olduğu 4 ədəd topu da lazım bildiyiniz kimi istifadə etməklə top atəşlərini gücləndirmiş olarsınız.

107-ci alay 5-ci firqənin sol cinahı ilə Biləcəri arasında mövqe tutmalı idi. Bu alayın döyüşə qatılmasının hər hansı bir anlaşılmazlıq yaratmaması üçün Ordu komandanlığından 5-ci firqəyə bu barədə məlumat verildi və tələb edildi ki, həmin alayla əlaqə yaradılsın və təmas xəttində qüvvələrin fəaliyyəti tənzimlənsin.

Biləcəri ətrafında düşmənin müqavimətini qırmaq üçün Nuru paşa 15-ci firqə komandanından daha da irəli getməyi tələb etdi. O əmr edirdi ki, atəşlərin səmərəliliyini

təmin etmək üçün toplar da irəli aparılsın. 107-ci alayın firqə sərəncamına verilməsini bildirməklə Nuru paşa 38-ci alaydan da mümkün qədər ehtiyat qüvvə saxlanılmasını lazım bilirdi. Ancaq görünür ki, bu istiqamətdə əldə edilən nəticələrdən tam razı qalmayan Nuru paşa az sonra Süleyman İzzət bəyə yeni bir əmr göndərdi. Bu əmrdə də Nuru paşa bildirirdi ki, Biləcərinin gerisinə Hacı Həsəndən bir alay göndərdim. Siz isə irəliləyin. İngilis qüvvələri Biləcərinin cənubundakı mövqeləri tərk etmək üzrədirlər.

Günortadan sonra 38-ci alay yenidən hücuma başladı. Bir saata qədər davam edən şiddətli döyüşdən sonra saat 3-də nəhayət ki, Biləcərinin ətrafı tam nəzarət altına alındı. Alayın sağ cinahı ilə irəlliləyən 3-cü tabor ingilislərin pulemyot mövqelərini ələ keçirməklə bərabər, xeyli sayda əsir götürüldü.

Günortadan sonra 107-ci Qafqaz alayı da iki firqə arasında qalmış boşluğa, Hacı Həsən kəndindən Biləcəriyə doğru döyüşə göndərildi. Ancaq burada ingilis və "Sentrokaspi" qoşunlarının əlverişli mövqe tutmaları üzündən bu alayın ilk hücum cəhdləri bir nəticə vermədi və alay hərəkətini dayandırmaq məcburiyyətində qaldı. 38-ci alay Biləcəri ətrafını ələ keçirdikdən sonra Süleyman İzzət bəy 107-ci alayla əlaqə yaratdı və bu alayın komandirinə də hücumu davam etdirmək əmri verdi. Günün sonunda bu alay xeyli irəliləyib 38-ci alayın sağ cinahında möhkəmləndi.

Biləcəri ətrafı ələ keçirildikdən sonra 38-ci alayın sol cinahında pulemyot və topçu atəşlərinin himayəsi altında "Sentrokaspi" və ingilis qüvvələri hücuma keçdilər. Bu hücumun qarşısını almaq üçün firqə komandiri Süleyman İzzət bəy özü həmin istiqamətə yollandı. Elə bu vaxt o, Ordu komandanlığından əmr aldı ki, firqə qüvvələrinin daha çevik idarə edilməsi üçün qərargahını Biləcərinin cənubuna köçürsün. Ancaq S.İzzət bəy böyük bir əraziyə səpələnmiş qüvvələrin yaxşı idarə edilməsi üçün həmin məntəqəni əlverişli saymırdı. Ona görə də o, Ordu komandanlığından vəziyyətə uyğun surətdə hərəkət edilməsinə razılıq verilməsi barədə icazə istədi.

15-ci firqə komandiri Süleyman İzzət bəyin sentyabrın 14-ü axşamı imzaladığı 9 saylı əmrdə deyilirdi:

1. 107-ci alay işğal etdiyi mövqedə qalaraq hissələrin tərtib və tənzim və hər dürlü ehtimala qarşı mövqeyini mühafizə edəcək və 10-cu alay ilə irtibatı təsis edəcəkdir;
2. 107-ci alay eyni zamanda sola yanaşaraq 38-ci alay ilə sıx bir irtibat təsis edəcəkdir. Bunun üçün 5-ci firqə əmrində bulunan 10-cu alay ilə irtibatı təsis edəcəkdir;
3.107-ci alay və 38-ci alay hər biri bir taboru ehtiyata alacaqdır və dış cinahları gerisində bulunduracaqlar;
4.Zehni və Tofiq bəy müfrəzələri bu gecəni əldə etdikləri mövqelərdə keçirərək düşmənlə təması qoruyacaqlar;
5.Bilcümlə qitəat düşmənin gecələyən müqabil təərrüzünü nəzəri-diqqətə alaraq ona görə tərtibat alacaqlar və hazır bulunacaqlar. Gecə ikən cəbhənin irəlisinə kəşfiyyat dəstələri göndərilməli;
6.Cəbəl batareyası... Biləcərinin şərq kənarına gələcək və şəfəqdən əvvəl indiki mövqeni işğal etmiş olacaqdır;
7.Sabah necə hücum ediləcəyi ayrıca bilinəcək;
8. 38-ci alaydan qazma kürəkli bir dəstə dayanacaq yanındakı şimendifer xəttinə göndərilərək bu xəttin bir qismini təxrib edəcəklər;
9. Qitəat bu gecə cəbbəxanalarını ikmal və hər dürlü ehtiyaclarını təmin eyləmiş olacaqdırlar;

10. Səhiyyə bölüyü bu gecə Biləcəridə bir səhiyyə qədəməsi təsis edəcəkdir;

11. Alaylar lüzumu qalmamış olan kabelləri topladacaq və kəndilərini Biləcəri şərq kənarındakı firqə sentralına rəbt edəcəkdir. Alay və müfrəzə komandanları bu günkü zayiat və sərfiyyatla bərabər müharibə raporlarını dərhal firqəyə göndərəcəklər.

12. Firqə tərəssüd məhəlli Biləcərinin 1 km cənubundakı boyun nöqtəsindədir.

Sentyabrın 14-ü gecəsini Süleyman İzzət bəyin rəhbərlik etdiyi diviziyanın bölmələri Biləcəri ətrafıbdakı azad edilmiş ərazidə, açıq havada keçirdi. Havanın qaralmasına baxmayaraq qarşı tərəfin topları atəşlərinin davam etdirir və mövqe üstünlüyü əldə etmiş 15-ci diviziya bölmələrinə itkilər yetirmək istəyirdilər. Süleyman İzzət bəy yazırdı:

Firqə qərargahı bu gecəni işğal olunan Biləcəri ətəklərində və açıq havada keçirdi. 38-ci alay bugünkü çətin müharibədə hakim mövqedə yerləşmiş və təxminən 1600-2000 piyada və yaxşı yerləşdirilmiş olan 16 pulemyotu və ikisi uzun mənzilli olmaq üzrə 12 səhra topundan ibarət olan çox güclü düşmən qarşısında cüzi bir qüvvətlə və ancaq dörd topun atəşinin himayəsində düz ərazidən qəhrəmancasına irəlilədi və Biləcəri ətəklərini zəbt etdi. Firqənin vəziyyəti belə idi: 38-ci alayın 3-cü taboru Biləcəri kəndinin cənubundakı ətəklərdə, 1-ci tabor onun solunda və 2-ci tabor hər ikisinin mərkəzi gerisində alay ehtiyatında. Cəbəl batareyası 3-cü taborun sağ cinahı gerisindəki mövqedə. Milislərlə süvarilər Balaxanı-Əhmədli xəttində.

Sentyabrın 15-də hücumun davam etdirilməsi ilə bağlı Süleyman İzzət bəy 15-ci diviziya üzrə yeni bir əmr imzaladı. Həmin əmrdə bütün qüvvələrin əsas vəzifəsi kimi Bakının azad edilməsi müəyyənləşdirilmişdi. Əmrdə bildirilirdi ki, Ermənikəndin cənubundan keçmək şərti ilə şəhərin qərb hissəsinin ələ keçirilməsi 5-ci firqəyə həvalə olunmuşdur. 15-ci firqə sağ cinahı Ermənikənddən keçmək şərti ilə şəhərin şimal və şərqindən irəliləməli, Bakının Qara şəhər qismini nəzarət altına almalıdır. Qarşıya qoyulan vəzifə yerinə yetirildikdən sonra şəhərin həmin hissəsində bir piyada alayı və bir cəbəl topçu batareyası saxlanılmalı və qalan qüvvələr isə şəhərin kənarına çıxarılmalı idi. Sentyabrın 15-də firqə qüvvələrinin hücumu topçu hazırlığı ilə başlamalı idi. 107-ci alay sol cinahda Ermənikənddən keçərək limana qədər irəliləməli idi. 38-ci alay 107-ci alayın sol cinahından irəliləyib Qara şəhərin dəniz kənarına qədər olan ərazilərini düşmən qüvvələrindən təmizləməli idi. Tofiq bəyin rəhbərliyi altında olan Azərbaycan könüllü taborları Sabunçudan şəhərə gələn dəmir yolu xətti boyunca hücuma keçib Keşləyə girməli və orada möhkəmlənməli idi. Zehni bəyin süvari dəstəsinə isə Əhmədli istiqamətindən şəhərə doğru hücuma keçmək həvalə olunmuşdu. Süleyman İzzət bəyin yazdığına görə, Zehni bəyin rəhbərliyi altında Əhmədlidən irəliləməkdə olan və əsasını milli qüvvələr təşkil edən süvari dəstəsinə Nuh bəyin rəhbərliyi altında Qarayazı süvari alayı, Xosrov Mirzə Qacarın rəhbərliyi altında olan Ləzgi süvari alayı yüzbaşı Haşım bəyin rəhbərliyi altında süvari bölüyü və eləcə də digər bir süvari bölüyü daxil idi.

Süleyman İzzət bəy döyüş əmrində xüsusi olaraq qeyd edirdi ki, şəhərdə talançılıq hərəkətlərinə qətiyyən yol verilməməlidir. 15 sentyabr döyüşünün gedişində qüvvələrin qruplaşdırılmasında da dəyişiklik baş verdi. Sentyabrın 14-də əgər diviziyalr müstəqil olub bir başa Ordu komandanlığına tabe idilərsə, sentyabrın 15-də 15-ci diviziya da 5-ci diviziya komandirinə tabe etdirildi. 15-ci diviziya komandiri Süleyman İzzət bəy sonradan yazdığı xatirələrində bu dəyişikliyi, habelə diviziyanın 56-cı alayının 5-ci

diviziyaya verilməsini, əvəzində başqa diviziyaya mənsub olmuş 107-ci alayın 15-ci diviziyaya verilməsini elə də məqsədəuyğun saymırdı. Onun fikrincə, 56-cı alayı elə diviziya tərkibində saxlamaq olardı. Əvəzində də 107-ci alay 5-ci diviziyanın möhkəmləndirilməsinə göndərilə bilərdi.

15-ci diviziya da səhər saat 5.20-də hücuma başladı. Diviziya komandiri ilə diviziya qərargah rəisi ön xəttə gələrək hücumun başlanmasına rəhbərlik etdilər. Əvvəlcə, 38-ci alayın 2-ci taboru hücuma qalxdı. Düşmən qüvvələri geri çəkilmək məcburiyyətində qaldılar. Sonra alayın 1-ci taboru da 2-ci taborun sol qanadında hücuma qatıldı. 3-cü tabor isə ehtiyatda saxlanıldı. Ermənikənd ətrafında düşmənin müqaviməti bir qədər güclənmişdi. Ancaq buradakı döyüş də 38-ci alay qüvvələrinin uğuru ilə nəticələndi. Düşməndən 2 ədəd uzun mənzilli, 8 ədəd səhra, 2 ədəd dağ topları ilə 2 ədəd təyyarə və bir xeyli əsgər ələ keçirildi. Saat 8.30-da irəliyə doğru hücumu davam etdirən 38-ci alayın 2-ci taboru artıq Qara şəhər ətrafındakı hakim yüksəkliklərə sahib olmuşdu. Əhmədli istiqamətindən irəliləyən milli qüvvələrin qarşısında mövqe tutmuş düşmən bölmələri də aldıqları zərbələrdən sonra şəhərə doğru geri çəkildi. Bu qüvvələr şəhərin daxilində müdafiə olunmağı üstün tutdular və ona görə də pulemyotlar və silahlar binalarda quraşdırıldı. Diviziya komandirinin əmri ilə 107-ci alayın 3-cü taboru da dayandığı mövqedən döyüşə girdi. Saat 10-da topların himayəsi ilə hücuma qoşulan bu tabor qarşısındakı düşmənin müqavimətini qıra bilməyib geri çəkildi. Diviziya komandirinin yazdıqlarına görə, 3-cü taborun geri çəkilməsi 107-ci alayın digər taborlarının şəxsi heyətinə mənfi psixoloji təsir göstərdi. Alay az qala idarə olunmaz bir vəziyyətə düşə bilərdi. Belə olanda diviziya komandiri daha çox döyüş təcrübəsi olan 38-ci alaydan iki pulemyotlu bir bölüyü həmin istiqamətə göndərdi və bununla da düşmənin müqaviməti qırıldı.

Süleyman İzzət bəy yazırdı:

> 15-i səhəri atəş xəttinə gedərək 38-ci alayın 2-ci taborunu bölük-bölük hücuma qaldırdım. Düşmən çəkilməyə başladı. 38-ci alayın 1-ci taborunu 2-ci taborun solundan irəliyə göndərdim və 3-cü taboru ehtiyat olaraq arxaya çəkdirdim. Qərargah rəisi ilə bərabər ön xəttə getdim. Ermənikəndə qədər yaxşı gəldik. Ermənikənddə bir qədər döyüşərək düşmənin bir qədər əsgərini, 2 uzun mənzilli, 8 səhra, 2 dağ topu ilə 2 təyyarəsini ələ keçirdik. Soldan irəliləyən 1-ci tabor yoxuşa çıxar-çıxmaz rus və erməni əsgər və zabitanının bir alay qədər qüvvəsinə rast gəldi. Bunlar komandasız, şaşqın bir halda qalmışlardı. Bir-birinə silah işlətmədən 2 tərəf bir-birinə qarışdı. Sonra ağlı başına gələn düşmən Bakı istiqamətində qaçdı. 1-ci tabor qaçan düşməni təqib etdi. 2-ci tabor sol-sola yanaşaraq saat 8.30- da Bakının Qaraşəhər hissəinə hakim və burdakı məhəlləyə yaxın aşman ətəklərini işğal edərək şəhərin bu qismi atəş altına alındı. Əhmədli tərəfdə olan və əksəri erməni olan atlı və piyada düşmən əfradı da milis qüvvələrimizin qarşıısnda geri çəkilərək şəhərə qaçdı. Şəhərdə əlavə qüvvə olan düşmən binalarda pulemyotlar qoyaraq müdafiəyə keçdilər. Ən azı 800 tüfəng və 8 pulemyot atəş açırdı. Bir neçə gün ərzində müharibəyə girməmiş olan 107-ci alayın 3-cü taborunu top atəşi himayəsində saat 10-da düşmənə qarşı irəlilətdim. Bu tabor çoxu erməni olan düşmən atəşlərindən geri çəkildi. Bu hal 107-ci alaya təsir etdi. Alay və tabor komandirləri əfrada hakim ola bilmədilər, çaşıb qalmışdılar. Belə vəziyyətdə onsuz da yorğun olan 38-ci alaydan bir bölüklə iki pulemyot irəli sürdüm. Top atəşi ilə bu bölüklər düşməni dəf etdilər.

Şəhərin təslim edilmısi üçün 5-ci diviziya cəbhəsində atəş dayandırılan kimi bu barədə

15-ci diviziyaya da xəbər göndərildi ki, həmin diviziyanın cəbhəsində də atəş dayandırılsın. Ancaq bu xəbər diviziyaya elə bir anda gəlib çatmışdı ki, atəş dayandırılan kimi düşmən öz qüvvələrini qruplaşdırıb yenidən əks-hücuma keçə bilərdi. Ona görə də diviziya komandiri alınan xəbərin doğru olub-olmadığını dəqiqləşdirənə kimi hücumu davam etdirməyi lazım bildi. Yalnız günortadan azacıq keçmiş əlaqə zabiti atəşin dayandırılması əmrinin doğru olduğunu və şəhərin təslim eidlməsi üçün danışıqlar getdiyini təsdiq etdi.

Bu vaxt 5-ci firqə komandanından bir telefon aldım. O, Bakı nümayəndələri ilə şəhərin tutulması şərtlərini qərarlaşdırmaqda olduğunu və ona görə də atəşin dayandırılmasını lazım bilirdi. Qarşımdakı düşmənin əkc-hücuma keçmək niyyətində olduğu üçün atəşin kəsilməsinə imkan olmadığını və görüşdüyü nümayəndələrin vasitəsilə bu istiqamətdən də yanıma heyət göndərilməsini bildirdim və sonra 38-ci alayın 3-cü taborunu cəbhədən və 2-ci taborunu da solundan şəhərə hücum etməsini və 107-ci alayın Salxana və fabrika civarında toplaşmasını və topçuların düşməni yandan atəş altına almalarını əmr etdim.

38-ci alay bu əmrlə şəhərə girərkən firqə qərargahından alay komandirinin yanına təyin etdirdiyim rabitə zabiti mülazimi-sani Sezan əfəndidən saat 2.30-dan sonra işarətli bir kağız aldım. Deyir ki, alay komandanının yanına üç kişi gələrək saat 4-dən sonra təslim olacaqlarını və atəş etməyəcəklərini bildirdilər. Biz də atəşi kəsdik Cavabında irəli hərəkəti dayandırmağı və hər kəsin olduğu yerdə qalaraq gözləmələrini əmr etdim. Əhali ağ bayraqlarla gələrək təslim olduqlarını bildirdilər.

Beləliklə, sentyabr ayının 15-də Bakı şəhəri yad qüvvələrdən azad edildi və bu şəhəri əllərində saxlamaq istəyən qüvvələr təslim olduqlarını bildirdilər. Azərbaycan xalqının və Qafqaz İslam Ordusunun tarixində dəyərli bir əhəmiyyət kəsb edən belə bir uğurun əldə edilməsində Süleyman İzzət bəyin rəhbərlik etdiyi qoşun hissəlri və bölmələrinin də özünəməxsus rolu var idi. Qüvvəsinin azlığına, cəbhə xəttinin çox geniş olmasına və qarşıdakı düşmənin güclü olmasına baxmayaraq Süleyman İzzət bəy onun qarşısına qoyulan hərbi tapşırıqların icrası üçün lazımi təşkilatçılıq nümayiş etdirdi, Osmanlı qoşun bölmələri ilə bərabər Azərbaycanın milli və könüllü qoşun dəstələrini bu tapşırıqların uğurlu icrasına səfərbər edə bildi. Qeyd etmək lazımdır ki, Bakının azad edilməsi üçün təşkil dilmiş hücumda iştirak edən Azərbaycanın milli və könüllü qoşun qüvvələrinin demək olar ki, hamısı Süleyman İzzət bəyin məsul olduğu cəbhədə döyüşürdülər ki, Süleyman İzzət bəy bu qüvvələrlə Osmanlı qüvvələri arasında düzgün qarşılıqlı əlaqələri tənzimləyə bilmişdi.

38-ci alay saat 3-dən sonra Bakının Qaraşəhər hissəsinə girmiş, hakim nöqtələri tutmuş, əsir və silah toplamğa başlamışdı. İlk həmlədə təqribən 800 tüfəng, 6 pulemyot, 2 zabit, 80 nəfər alındı. Şəhərin bu qisminin inzibatına 38-ci alay komandanını məmur etdim. Axşam Cəmil Cahid bəyin bütün şəhərə komandan təyin edildiyini eşitdim. 15-ci firqə əmr olunmuş nöqtələrə çatmışdı. Ancaq şəhərin daxilinə girmək üçün əmr alınmamışdı.

Bakı şəhəri azad edildikdən sonra Nuru paşa diviziya komandirlərinə təbrik teleqramı göndərdi. Bu teleqramda döyüş zamanı xüsusi mübarizlik göstərən alayların adı çəkilir və şəxsi heyətə təşəkkür edan edilirdi. Nuru paşa üç alayı xüsusilə fərqləndirirdi: 9, 38 və 56-cı alaylar. 38-ci və 56-cı alaylar Süleyman İzzət bəyin alayları idi. Doğrudur, 56-cı alay 5-ci diviziyanın əməliyyat rəhbərliyi altında idi, amma 38-ci alay Süleyman İzzət

bəyin birbaşa rəhbərliyi altında Bakının azad edilməsi uğrunda döyüşdə iştirak edirdi. Nuru paşa eyni zamanda diviziya komandirlərindən tələb etdi ki, döyüşdə fərqlənənlər təltif edilmələri üçün Ordu komandanlığına təqdim olunsunlar.
Süleyman İzzət bəyin alaylarının tələfatı da bu alayların düşmən qarşısında qorxmazlıq göstərməsinin nümayişi idi. Döyüşün gedişində 38-ci və 56-cı alayların birlikdə 6 zabiti və 84 sıravisi şəhid olmuş, 12 zabiti və 373 sıravisi yaralanmışdı.
Bakı şəhərinin azad edilməsi münasibətilə sentyabrın 16-da Qafqaz İslam Ordusu qüvvələrinin və könüllü qoşun dəstələrinin paradında Süleyman İzzət bəy də iştirak etdi. Süleyman İzzət bəy bu hadisəni belə xatırlayırdı:

> 16-9-34 İslam Ordusu komandanının əmrilə Bakı şəhərinin inzibatına təyin edilən 56-cı alaydan başqa 5-ci və 15-ci firqəyə mənsub 38, 9, 10, 13, 106, 107-ci alaylarla ümumi süvarilər 59 pulemyot və müxtəlif çapda 50 ədəd top Qırmızı Qışla civarında iki xətt üzərində düzülmüşdü.
>
> Şərq Ordular Komandanı, Qafqaz İslam Ordusu komandanları ətrafındakılarla bərabər gəldilər. Atlı olaraq sürətlə yapılan yoxlama mərasimində hissələr tərəfindən təqdim edildi. 38-ci alayın 1-ci taboruna xüsusi təşəkkür edildi. Manqalarla 2 saatlıq bir rəsmi-keçid oldu. Sonra böyük komandanlarla Azərbaycan hökumətinin mühüm şəxsləri və ərkani-hökumət Bristol otelində toplanıb günorta yeməyi verildi.
>
> Milislərin bir hissəsinə evlərinə getmək icazə verildi, geri qayıtmaq şərtilə. Süvarilərin Əhmədli və Kişlədə və 38-ci alaydan bir bölüklə 2 süvari bölüyünün minbaşı Tofiq bəy komandasında Sabunçu və Balaxanıda bulunması və asayişi təmin etməsi tapşırıldı.

Bakı şəhəri azad olunandan sonra bütün qüvvələrə Bakı şəhərinin təhlükəsizliyinin təmin edilməsi tapşırıldı. Qafqaz İslam Ordusu komandanlığından alınan əmrə görə, 15-ci firqə yarmadanın şərq burnundan başlayaraq Qaratəpəyə qədər olan sahil xəttini müşahidə etməli idi. Bununla bağlı, Ordu komandanlığından verilən əmrdə bildirilirdi ki, 15-ci firqənin qüvvələri Suraxanı, Sabunçu və Balaxanıda yerləşdirilsin. Həmin qüvvələr bu məntəqələrdəki asayişin bərpasına da nəzarət etməli idilər. Firqə komandiri Süleyman İzzət bəy bu əmrə müvafiq olaraq müəyyən edilən sahil xəttini iki hissəyə ayırdı. Dəniz sahilinin şərq hissəsinin müşahidəsi Qarayazı süvari alayına, digər hissəsinin müşahidəsi isə Ləzgi süvari alayına tapşırıldı. 38-ci piyada alayının bölmələri Sabunçu və Suraxanıda, 107-ci alayın bölmələri Ramanı və Balaxanıda, topçular Bülbülədə, teleqraf taqımı ilə diviziya qərargahı Sabunçuda, səhiyyə bölüyü isə Keşlədə yerləşdirildi. Sentyabrın 17-dən etibarən 15-ci diviziyanın qüvvələri bu adları çəkilən məntəqələrdə idilər.
Süleymnan İzzət bəyin yazdıqlarından aydın olur ki, Bakı şəhəri azad edildikdən sonra da Azərbaycanın milli qüvvələri, xüsusilə süvari qüvvələr yenə də onun əməliyyat tabeliyində idi. Öz xatirələrində Süleyman İzzət bəy onun tabeliyində olan milli süvari alayların strukturunu da göstərmişdi. Həmin alaylar Ləzgi və Qarayazı süvari alayları idilər. Ləzgi alayı polkovnik Nuh bəyin (Sofiyev) rəhbərliyi altında idi. Bu alayın 130 atlısı və 50 atlıdan ibarət olan könüllü süvari bölüyü var idi. Ləzgi alayının komandiri isə polkovnik Xosrov Mirzə Qacar idi. Bu alayda 118 atlı və yüzbaşı Həşim bəyin rəhbərliyi altında süvari dəstəsi var idi. Sentyabrın 18-19-da həm bu süvarilərə, həm də Süleyman İzzət bəyin rəhbərliyi altında olan digər qüvvələrə istirahət verildi.
Sentyabr ayının 19-da Süleyman İzzət bəyin rəhbərliyi altında olan qüvvələr aşağıdakı mövqelərdə yerləşmişdilər: 107-ci alay Maştağıda, 38-ci alayın 2-ci taboru Suraxanıda,

38-ci alayın qərargahı ilə 1-ci tabor Sabunçuda, 56-cı alay tamamilə Bakıda, topçular hamısı Bülbülədə, əkmək qolu Ramanıda, səhiyə bölüyü Sabunçuda, cəbbəxana taboru qərargahıyla Sabunçuda, Qarayazı süvari alayı Qalada, Ləzgi süvari alayı isə Fatmayıda yerləşmişdi.

Bakı şəhəri azad edildikdən sonra qərara alındı ki, Qafqaz İslam Ordusu qüvvələrinin bir hissəsi Dağıstana göndərilsin və orada milli hökumətin bərqərar olmasına yardım göstərilsin. Bu mühüm vəzifə Süleyman İzzət bəyə tapşırıldı. Həmin vəzifənin həyata keçirilməsi üçün Süleyman İzzət bəy artıq sentyabrın 20-də müvafiq əmr aldı. Bu əmrə əsasən, Süleyman İzzət bəyin rəhbərliyi altında olan qüvvələr Bakının şimalında Dağıstana hərəkət üçün ilkin mövqeləri tutmalı idi

Nuru paşanın müvafiq əmrində deyilirdi:

> ...15-ci firqə (38-ci, 56-cı alaylar, topçular və yardımçı bölmələr) Biləcəri, Xırdalan məntəqəsində toplaşacaq, Sumqayıtdan Giləziyədək olan sahili müşahidə edəcək və Biləcəri-Yaşma-Quba dəmir yolu xəttini təmir edəcəkdir. Bir lokomotiv və 6 vaqondan ibarət iki zirehli qatar firqə əmrinə verilmişdir. Bu vəziyyət 22-9-34 axşamına qədər alınmış olacaq.

Nuru paşanın bu əmrinin əsasında Süleyman İzzət bəy diviziya üzrə öz əmrini də verdi. Həmin əmrdə deyilirdi:

> ... Həsən Təhsin əfəndinin süvari bölüyü Sumqayıtdan Sitalçaya qədər olan sahili müşahidə edəcək, bölük komandanı Yaşmanın komandanlığını öhdəsinə götürəcək. Mülazim Xeyrəddin əfəndinin bölüyü Sitalçaydan Giləziyə qədər olan sahil qismini müşahidə edəcək və bölük komandanı Giləzi stansiyasının komandanlığını öhdəsinə götürəcək. İstehkam mülazimi Abbas əfəndi dəmir yolu xətti komandanlığı ilə Biləcəri stasiyon komandanlığını və yüzbaşı Faiq əfəndi Sumqayıt stansiyası komandanlığını öhdəsinə götürəcək. Dəmir yolu xətti təmir ediləcək və zirehli qatarlar Biləcəriyə cəlb ediləcəkdir. Alaylar mövqelərini təslim edərək 22-9-34 axşamına qədər 56-cı alay Xırdalana, 38-ci alay Biləcəriyə, topçular və yardımçı bölmələr Biləcəriyə nəql ediləcəkdir. 107-ci alay 5-ci firqə əmrinə gedəcəkdir. Ləzgi və Qarayazı süvari alayları Biləcəri stansiyasına gedərək qatatla Gəncəyə nəql olunacaqdır. 15-ci firqə qərargahı 22-9-34-dən etibarən Biləcəridə olacaq.

15-ci firqənin Dağıstan istiqamətində hərəkət etməli olması ilə Qafqaz İslam Ordusunda yenidən struktur dəyişiklikləri aparıldı.

15-ci firqə 5-ci firqə komandanlığının tabeliyindən çıxarıldı və yenidən birbaşa Ordu komandanlığına tabe etdirildi. Bu firqənin sərəncamında olan 107-ci alay ondan alındı. Əvəzində isə 5-ci firqə tabeçiliyinə verilmiş olan 56-cı alay yenidən 15-ci firqəyə qaytarıldı. Eyni zamanda yuxarıdakı əmrdən göründüyü kimi, 15-ci firqəyə iki zirehli qatar və digər zəruri qüvvələr ayrıldı. Beləliklə, Bakı şəhəri üzərinə hücumda xüsusi xidmət olmuş 38-ci və 56-cı alaylar sentyabrın 22-də şəhər daxilindəki və ətrafındakı bütün mövqeləri 10-cu alaya təhvil verdilər və səhərisi gün Bakının şimalında nəzərdə tutulan mövqelərə yollandılar.

Süleyman İzzət bəyin xatirələrində yazılanlardan belə bir qənaətə gəlmək olar ki, o, sentyabr ayının sonlarına qədər Bakıda olmuşdu. Sentyabr ayının 27-də Süleyman İzzət bəy Nuru paşa və Mürsəl paşa ilə Azərbaycanın hökumət üzvlərinin görüşündə olmuş və sonra hökumət üzvlərinin iştirakı ilə Təzə Pir məscidində cümə namazında iştirak etmişdi.Süleyman İzzət bəy yazırdı ki, sentyabrın 28-də Nuru paşa Gəncəyə yola düşdü və Bakı ətrafındakı hərbi qüvvələrə rəhbərlik Mürsəl paşaya tapşırıldı.

Süleyman İzzət bəy Bakı ətrafında olduğu kimi, Dağıstanda da ona tapşırılan vəzifəni uğurla yerinə yetirdi. Bu missiya bir aydan bir az artıq vaxt çəkdi və Qafqaz İslam Ordusunun ləğv edilməsi ilə Süleyman İzzət bəy də 15-ci diviziya ilə birlikdə 1918-ci il noyanr ayının ortalarından Azərbaycan ərazisini tərk etməyə başladılr.
Noyabr ayının 19-da türk qoşunlarının hissə və birliklərinin komandirləri Gəncədə idilər. Qoşunların böyük əksəriyyəti də artıq Gəncə ətrafına toplaşmışdılar. Buradan da onlar dəmir yolu vasitəsiylə Azərbaycanı tərk etməli idilər. Həmin gün günorta üstü şəhər bələdiyyə idarəsi Azərbaycanda öz xidmətlərini sədaqətlə yerinə yetirmiş olan türk zabitlərinin şərəfinə böyük bir ziyafət verdi. Şəhər bələdiyyə rəisi bu ziyafəti açaraq onun türk zabitlərinin şərəfinə təşkil edildiyini, Azərbaycan xalqına göstərdikləri yardımlar üçün onların heç vaxt unudulmayacağını söylədi. Bələdiyyə rəisindən sonra Mürsəl bəy və digərləri cavab nitqi söylədilər. Əhməd bəy Ağayev də ziyafətdə nitq söylədi və türk qoşunlarının Azərbaycana gəlməsi ilə Azərbaycanın müstəqilliyinin reallığa çevrilməsini ifadəli şəkildə ziyafət iştirakçılarının nəzərinə çatdırdı. O eyni zamanda əlavə etdi ki, türk qoşunlarının gəlişi və ayaq açan müstəqil Azərbaycanın qorunması indi milli qüvvələrin qarşısında dayanan başlıca vəzifədir.
Ziyafətdə Nuru paşa da uzun nitq söylədi. 15-ci firqə komandiri Süleyman İzzət bəy öz xatirələrində bu məqama toxunsa da, təəssüf ki, Nuru paşanın çıxışının təflisatını verməmişdir. Süleyman İzzət bəy yazırdı:

> Bundan sonra Nuru paşa çox uzun və turançılığa təmas edən bir nitq söylədi. Mühərrir Ruşen Əşrəf bəyin israrı ilə Nuru paşadan şöylə bir müsaidə istədim: “Mən həmən gedəcəyim üçün bir kaç söz söyləmək məcburiyyətindəyəm. Fəqət siz təkəddüm etdiniz. Binaənələyh müsaidə edərsiniz mən də söyləyəlim”. Həmən ayağa qalxdı və hazırana: “Bakı təərrüzündə bulunan 38-ci və 56-cı alay firqə komandanıdır. Dərbəndi və Petrovski də kəndisi zəbt etdi. Qiymətdar üməramızdandır. Təqdim edirəm” – deyərək məni təqdim etdi. Mən də əsgərcə bir kaç söz söylədim. Əz cümlə bələdiyyə rəisinə xitabən dedim: Yollarda gəlirkən heç bir şühəda məzarı görmədim. Bəlkə əlan ölülərimiz kırlardadır. Binaənələyh bu şəhidlərimizi toplatınız və münasib bir yerə gömünüz. Bu şühəda içində heç olmasa zabitanımızın isimlərini və fotoqraflarını qitələrindən istəyiniz. Məmləkətinizin istiqlalı uğrunda şəhir olan bu qəhrəman arkadaşlarımızı müstəqbəl tarixinizə keçiriniz. Bunu bilxassə bələdiyyə rəisi bəydən rica edirəm” – dedim. Möhtərəm rəis behəmehal yapılacağını vəd etdi.

Bu ziyafətdən bir müddət sonra Süleyman İzzət bəy də Azərbaycanı tərk etməli oldu.

## HƏBİB BƏY SƏLİMOV

Qafqaz İslam Ordusunun tərkibində Azərbaycanın müstəqilliyinin qorunması üçün sədaqətli və mübariz xidmət yolu keçmiş zabitlərdən biri də Həbib bəy Səlimovdur. Qafqaz İslam Ordusu təşkil edilən günə qədər H.Səlimov zəngin hərbi xidmət yolu keçmişdi və hətta Rusiya imperiyası Silahlı Qüvvələri Baş Qərargahının Akademiyasını da bitirmişdi. O bu yüksək səviyyəli Akademiyanın bitirmiş ilk azərbaycanlı idi və qeyd edilməlidir ki, onun həm yüksək savadı və həm də hərbi təcrübəsi həm Azərbaycan korpusunun komandiri Əliağa Şıxlinski, həm də Qafqaz İslam Ordusunu komandanı Nuru paşa tərəfindən lazımınca qiymətləndirilirdi.
Digər milli generalların çoxu kimi, Həbib bəy Hacı Yusif oğlu Səlimov haqqında

məlumatların qıtlığı onun həyat yolu haqqında geniş söhbət açmağa imkan vermir. Həbib bəyin milli tərkibli qoşun hissələri ilə bağlılığı Müsəlman korpusunun mövcudluğu dövründən başlayır. Milli tərkibli belə bir birləşmənin yaradıldığını eşidəndə Həbib bəy də öz xalqına daha yaxından xidmət etmək imkanı tapmış və dərhal da Müsəlman korpusunun sıralarına qoşulmuşdu. Korpus komandiri 14 mart 1918-ci il tarixli 63 nömrəli əmrində belə yazırdı:

> Korpusa gəlmiş podpolkovnik Səlimov korpusun qərargahına ezam olunsun. Adı çəkilən zabiti nizamnamələrin təkmilləşdirilməsi komissiyasına təyin edirəm.

Çox güman ki. Həbib bəy Səlimovun Müsəlman korpusuna gəlişi də elə həmin vaxta təsadüf edir. Çox ağır tarixi şəraitdə formalaşdırılmasına başlanan Müsəlman korpusunun komandiri Ə.Şıxlinski öz qarşısına qoyduğu vəzifələrdən biri də rus ordusu hərbi nizamnamələrinin təkmilləşdirilməsi və zəruri milli xüsusiyyətlərin orada nəzərə alınması idi. O, Həbib bəy Səlimovun savadını, təcrübəsini yüksək qiymətləndirdiyi üçün idi ki, Nizamnamələrin təkmilləşdirilməsi komissiyasına təyin etmişdi. Bir müddətdən sonra podpolkovnik Həbib bəy Səlimov xüsusi müsəlman süvari briqadasının qərargah rəisi təyin edildi. Yenə də məlumatların qıtlığı üzündən bu briqadanın komandirinin kim olduğunu söyləmək çətindir. Ancaq o məlumdur ki, briqadaya üç süvari alay daxil idi. 1-ci Müsəlman süvari alayına podpolkovnik Hacıbəyli, 2-ci Tatar süvari alayına polkovnik Maqalov, 3-cü Ləzgi süvari alayına polkovnik Xosrov Mirzə Qacar komandirlik edirdilər. Podpolkovnik H.Səlimov bu üç süvari alayının, habelə briqadaya daxil olan yardımçı bölmələrin təlim-tərbiyəsinə rəhbərlik etməli idi. Heç şübhəsiz ki Həbib bəy bu vəzifənin öhdəsindən bacarıqla gəldi və özünün böyük hərbi potensiala malik olduğunu nümayiş etdirdi. Çünki sonradan Həbib bəy daha məsul vəzifələrə təyin edilmişdi.

Azərbaycan Xaıq Cümhuriyyətinin elan edilməsindən sonra Həbib bəy Səlimovun zabitlik həyatının yeni bir mərhələsi başladı. Məhz Cümhuriyyət ordusunun tərkibində xidmət edərkən Həbib bəyin bütün istidadı və bacarığı, öz xalqına sonsuz sədaqəti, igidlik və fərakarlığı üzə çıxdı. Azərbaycan hökumətinin qərarı ilə Müsəlman korpusu Azərbaycan korpusuna çevrildikdən sonra Həbib bəy Səlimovun ilk vaxtlar hansı vəzifədə olduğunu söyləmək çətindir. Azərbaycan korpusunun yenidən qurulmasına aid Türkiyənin hərbi arxivlərində saxlanılan sənədlərdə Həbib bəy Səlimov Azərbaycan korpusunun qərargah rəisi kimi xatırlanır. Həmin sənədlər 1918-ci il avqust ayının sonu və sentyabr ayının əvvəllərinə aiddir. Ancaq Azərbaycan korpusunun yenidən qurulması haqqında Qafqaz İslam Ordusu komandanı Nuru paşanın 13 avqust 1918-ci il tarixli əmrinə qədər Həbib bəyin həmin vəzifədə olduğunu təsdiq etmək çətindir. Ola bilsin ki, yeni-yeni sənədlərin üzə çıxarılması Həbib bəyin xidmət yolunun bu dövrünə işıq salmağa imkan verəcəkdir.

Həmin dövrlə bağlı Həbib bəy Səlimov haqqında mövcud olan sənədlər isə onun döyüş yolu haqqındadır. Bu sənədlər bir daha sübut edir ki, Həbib bəy Səlimov Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi ilk günlərdən ölkənin ərazi bütövlüyünün qorunması uğrunda şərəfli döyüş yolu keçmişdi.

Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə Bakı şəhəri bolşevik-daşnak qüvvələrinin əlində idi. Onlar Azərbaycana şəriksiz sahib olmaq üçün böyük sayda qoşun toplayaraq Gəncəyə doğru hücuma başladılar. Onların sürətli hücumunun qarşısını isə ancaq türk hərbi qüvvələri Azərbaycana gəldikdən sonra almaq mümkün oldu. Bolşevik-daşnak qoşunları Bakı-Şamaxı-Göyçay şosse yolu boyunca Qaraməryəmə qədər gəlib çatmışdılar. Müsəlman korpusunun azsaylı hissə və bölmələri

əsasən Müsüslü ətrafında toplaşmışdılar. Həbib bəy Səlimovun Bakıya qədər uzanan döyüş yolu da bu istiqamətdə toplanmış hissə və bölmələrin fəaliyyəti ilə bağlı idi. 1918-ci il iyun ayının əvvəllərində o, bölgəyə gələrək bölmələrin vəziyyəti ilə yaxından tanış oldu. İyun ayının 11-də Ucar stansiyasında olan podpolkovnik Həbib bəy Səlimov bu istiqamətdə vəziyyətin mürəkkəbləşdiyini dərhal Qafqaz İslam Ordusu ərkani-hərb rəisi Nazim bəyə çatdırdı. Onun Nazim bəyə göndərdiyi teleqramda bildirilirdi ki, dəqiq məlumatlara görə, Sığırlıya bolşevik-daşnak qüvvələrinin üç piyada taboru, bir qaubitsa və bir mortir batareyası dəmir yolu boyu hücum etmişdir. Onlara əlavə kömək gəlməkdə davam edir. Hacıqabul və Qarasu stansiyalarında çoxlu bolşevik qüvvələrinin toplanması müşahidə edilmişdir. H.Səlimova görə burada olan milli qüvvələr belə çoxsaylı bolşevik-daşnak qoşunlarının qarşısını almağa qadir deyildi. Bu qüvvələr yaxşı halda bolşevik-daşnak qoşunlarının sürətlə irəliləməsini ləngitməyə çalışaraq geri çəkilə bilərlər. Ona görə də, H.Səlimov ora əlavə qüvvələrin göndərilməsini xahiş edirdi. Bu barədə o, Müsəlman korpusunun komandiri Ə.Şıxlinskiyə də məruzə etdi.
İyun ayının 14-də Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy Nuru paşanın tapşırığı ilə Müsüslü ətrafına gəldi və buradakı qüvvələrə rəhbərliyi öz üzərinə götürdü. Dəqiq söylənilməsi mümkün olmasa da, çox güman ki, Nazim bəyin Müsüslü ətrafında olduğu təxminən iki həftə ərzində Həbib bəy Səlimov da orada idi və bolşevik-daşnak qoşunlarına qarşı müdafiə işlərinin təşkilində yaxından iştirak edirdi. Çünki iyun ayının 27-də Nazim bəy Gəncəyə, öz əsas vəzifəsinin icrasına çağırıldıqdan sonra Müsüslü ətrafındakı qüvvələrə rəhbərlik Həbib bəy Səlimova həvalə edildi. Buradakı qüvvələr Müsüslü dəstəsi adlandırıldı və H.Səlimov da Qafqaz İslam Ordusu komandanı Nuru paşanın əmri ilə bu dəstənin komandiri təyin edildi. Müsüslü dəstəsinin tərkibində aşağıdakı Azərbaycan hissə və bölmələri var idi: Dəstənin qərargahı, dəstənin bir bölüyü, 1-cü süvari alayının 1-ci və 2-ci bölükləri, 2-ci süvari alayının 1-ci bölüyü, Qarayazı atlı piyada bölüyü, dəstənin pulemyot bölüyü, zirehli qatar, dəstə səhra batareyası, dəstə teleqraf taqımı və Göyçay milli əsgər bölüyü.
1918-ci il iyul ayının 5-10-u arasında Kürdəmir-Ağsu xəttində gedən döyüşlərdə Müsüslü dəstəsi də fəal iştirak edirdi. İyulun 5-də başlanan döyüşdə Həbib bəy Səlimov qarşısında dayanan düşmənin daha zəif cinahını müəyyənləşdirərək onu adlamalı və Kürdəmirə doğru irəliləməli idi. Ancaq Müsüslü dəstəsi həmin gün elə bir ciddi uğur qazana bilmədi. Çünki Həbub bəy Səlimov əlavə bir kömək almamışdı. Düşmən qüvvələri isə çox güclü idi. Bundan başqa Müsüslü-Kürdəmir-Hacıqabul zonası açıqlıq ərazi olduğundan dəmir yolu üzərində dayanmış zirehli qatara yaxınlaşmaq elə də asan deyildi. Ona görə qərara alındı ki, Həbib bəy Səlimovun dəstəsi bir türk süvari alayı ilə möhkəmləndirilsin. Ayın 7-də Kürdəmir ətrafına Ağsu xəttində olan qüvvələrdən də əlavə kömək gətirildi və Kürdəmir ətrafında möhkəmlənmiş olan Biçeraxovun dəstəsinin müqavimətini qırmaq üçün iri miqyaslı hücuma başladı. Qeyd etmək lazımdır ki, boleşvik-daşnak qüvvələri Biçeraxovun dəstəsinə çox böyük ümidlər bəsləyirdilər və Biçeraxov da texnikası və canlı qüvvəsi ilə bu ümidi doğrultmağa çalışırdı.
İyulun 7-də H.Səlimovun dəstəsi səhər erkən hücuma keçdi. Dəstədən üç bölük miqdarında bir qüvvə bataqlıq sahənin şərq tərəfinə keçərək bolşevik-daşnak qoşunları üzərinə hücuma başladı. İki taqım miqdarında başqa bir qüvvə isə dəmir yolunun şimal tərəfi ilə Kürdəmirə doğru irəliləməkdə idi. Qarşı tərəflər arasında döyüşlər 12 saat davam etdi. H.Səlimovun dəstəsinin süvariləri Kürdəmirin cənub tərəfi ilə xeyli irəli gedə bilmişdilər. Lakin Bişeraxov ixtiyarında olan bütün qüvvələri səfərbər etməklə H.Səlimovun dəstəsinin hücumunun qarşısını saxlaya bildi. Gün ərzində gedən

döyüşlərdə Müsüslü dəstəsindəki Azərbaycanın milli qüvvələrindən 8 nəfər şəhid oldu, 2-si zabit olmaqla 12 nəfər yaralandı.

İyulun 10-da isə Kürdəmir bolşevik-daşnak qoşunlarından tamamilə azad edildi. Həmin gün gedən döyüşdə H.Səlimovun dəstəsi dəmir yolu xətti boyunca Kürdəmirə doğru irəliləməli idi. Kürdəmirin şimalından isə 13-cü türk piyada alayı hücum edirdi. H.Səlimov məharətli bir hücum təşkil etməklə saat 13.55-də qarşısında dayanmış düşmənin müqavimətini qırdı və irəliyə doğru hərəkət etdi. Həmin gün H.Səlimov Azərbaycan korpusunun komandanına və Qafqaz İslam Ordusu komandanına göndərdiyi teleqramda hücumun uğurla davam etdiyini bildirirdi: "Mən üstün düşməni təqib edirəm" – yazan Həbib bəy bu teleqramı artıq polkovnik rütbəsində imzalamışdı.

İyul ayının 11-də Həbib bəy Səlimov yeni bir döyüş tapşırığı aldı. 5-ci türk diviziyasının komandiri Mürsəl bəyin imzaladığı müvafiq əmrdə H.Səlimova belə bir tapşırıq verildi:

> Bir tabor piyada, mürəttəb süvari alayı, Müsüslü dəstəsindəki süvari bölükləri və səhra topları ilə piyadaları 13-cü alayın tabeliyindəki rus səhra topu taqımından ibarət dəstə qayməqam Həbib bəyin komandanlığında 12.07.334 (1918) günü hərəkət və Kərrar stansiyasını və civarındakı düşməni məhv etməli və bu stansiyanı işğal etməlidir. Eyni zamanda bir qisim qüvvə ilə də Qarasaqqal kəndindəki düşmən məhv edilməlidir.

Kərrar ətrafında döyüşlər Həbib bəy Səlimovla əks tərəfi təmsil edən polkovnik Lazar Biçeraxovun ən ciddi qarşılaşması idi. Bu qarşılaşma təkcə hər iki komandanən deyil, bütünlükdə bu istiqamətdədə döyüşlərin taleyini müəyyənləşdirdi. L.Biçeraxovun arxasında təkcə Bakı Soveti deyil, həm də Rusiyanın və ingilislərin köməyi dururdu.

İyul ayının 12-də Müsüslü dəstəsi Kərrar stansiyası üzərinə hücum etdi. Döyüş bütün günü davam etsə də dəstənin qarşısına qoyulan vəzifəni həll etmək mümkün olmadı. Bunun əslində bir neçə obyektiv səbəbi var idi. Əvvəla, düşmən xeyli güclü isi. Onun 2 zirehli qatarı, bir neçə zirehli avtomobili və 6 ədəd topu var idi. Kərrar stansiyasının ətrafı düzənlik sahələr idi. Ona görə də Müsüslü dəstəsinin irəliyə hərəkəti açıqca müşahidə edilir və mövcud olan güclü silahlar vasitəsilə onların qarşısı saxlanılırdı. Qarasaqqal kəndi ətrafında olan düşmən qüvvəsini məhv etmək üçün Ağsudan firqə ehtiyatı kimi saxlanılan 25-ci taborun iki bölüyü və bir pulemyot taqımı gətirildi. Ancaq bu qüvvələrin də düşməni Qarasaqqaldan çıxarmağa gücü çatmadı. Belə olanda firqə komandanlığı şimala çəkilməsi nəzərdə tutulan 13-cü piyada alayını yenidən Müsüslü dəstəsi ilə bir cəbhədə döyüşə qatmağı qərara aldı.

İyulun 13-də 13-cü piyada alayının iştirakı ilə Kərrar stansiyası üzərinə hücum yenidən davam etdirildi. Döyüşlərin gedişində Müsüslü dəstəsi stansiyanın 400 metrlik bir məsafəsinə, 13-cü alay isə şimaldan 800 metrlik yaxınlığına çatdı. Qarasaqqal kəndi isə düşməndən təmizləndi. Bununla belə, stansiyanı almaq yenə mümkün olmadı. Bolşevik daşnak qüvvələri sərəncamında olan ağır texnikanın bütün imkanlarından istifadə edərək stansiyanı müdafiə edə bildilər. Xüsusilə də zirehli qatarlar düşmənin müqavimətini xeyli artırırdı. Nuru paşa elə həmin gün Mürsəl bəyə göndərdiyi teleqramında tələb etdi ki, düşmənin zirehli qatarının zərərsizləşdirilməsi üçün ya dəmir yolu dağıdılsın, ya da topların atəşi ilə qatar xarab edilsin.

Buna müvafiq olaraq Mürsəl bəy Müsüslü dəstəsinin sərəncamında olan firqə istehkam bölüyünə əmr verdi ki, gecə ikən Kərrarın şərq tərəfinə hərəkət etsin və burada dəmir yolu xəttinin bir hissəsini dağıtsın. Sonra isə bu bölük digər bölmələrlə birlikdə döyüşə davam etsin.

İyulun 14-də Kərrar stansiyasına hücum davam etdirildi. 13-cü alayın bölmələri stansiyanın şərqinə doğru irəliləyib düşmənin arxasını kəsməyə cəhd göstərdi. Bolşevik-daşnak qüvvələri üstün qüvvəyə və üstün döyüş şəraitinə malik olmasına baxmayaraq, H.Səlimovun dəstəsinin məharəti və çevik taktikası qarşısında duruş gətirə bilmədi. Onlar Kərrar stansiyasının taleyinin artıq həll olunduğunu görüb əvvəlki kimi müqavimət göstərmədilər və Sığırlı stansiyasına tərəf geri çəkildilər. Beləliklə, iyulun 14-də Kərrar stansiyası Qafqaz İslam Ordusu hissələrinin əlinə keçdi. Döyüşün gedişi ilə bağlı verilən raportlarda bildirilirdi ki Kürdəmir-Qarasaqqal ətrafındakı döyüşlərdə xüsusi xidməti olan Həsən bəy iylun 13-də aldığı yaradan şəhid olmuşdur.
Kərrar stansiyası ətrafındakı döyüşlərdən sonra Bakı istiqamətində hücumun uğurla davam etdirilməsi üçün türk-Azərbaycan qüvvələri yenidən qruplaşdırılaraq iki taktiki qrupa bölündü. Bir qrup Şamaxı-Bakı şosse yolu boyunca hərəkət etməli idi. Bu qrup şimal qrupu adlanırdı. Digər qrup isə Cənub qrupu adlandırıldı və bu qrup dəmir yolu xətti boyunca Bakıya doğru irəliləməli idi. Həmin qrupa Həbib bəy Səlimov rəhbərlik edirdi.
İyulun 22-də Cənub qrupu daha bir uğurlu döyüş keçirərək düşməni xeyli geriyə atdı. Günorta üstü, saat 13.30-da Cənub qrupu Sığırlı stansiyasına daxil oldu. Qrupa daxil olan azərbaycanlı süvarilər isə düşmən qüvvələrinin təqibini davam etdirdilər. Bu süvarilər Padar stansiyasını da ələ keçirdilər və düşmənin qüvvələrini şərq istiqamətində geri çəkilməyə məcbur etdilər.
İyulun 23-nə aid olan döyüş məlumatında bildirilirdi ki, dəmir yolu boyunca fəaliyyət göstərən düşmən qüvvələri Hacıqabula tərəf geri çəkilmişdir. Düşmən qüvvələri yol boyunca mövcud olan körpüləri, habelə dəmir yolu xəttinin müxtəlif hissələrini dağıdırdılar.
Təchizat və təminat məsələlərinin həlli ilə bərabər, Cənub qrupu sahəsində olan yaxın yaşayış məntəqələrinin təmizlənməsi davam etdirildi. İyulun 26-da Cənub qrupunun bölmələri daha üç kəndi azad edərək Padara çatdılar. Qarasu stansiyası da düşməndən təmizlənmişdi və iyulun 27-də Cənub qrupu qərargahının Qarasuya köçürülməsi nəzərdə tutulmuşdu. Döyüşlərin gedişi barədə Cənub qrupundan verilən raportda bildirilirdi ki, düşmən geri çəkildikcə dəmir yolu xəttini sökür və bununla da Cənub qrupu hissələrinin hərəkətini ləngidərək özünün güclənməsi üçün vaxt qazanmaq istəyirdi.
İyulun 26-da Kür çayı boyunda yerləşən Əhməd Həmdi bəyin dəstəsi ilə əlaqə yaradıldı. Ordu komandanlığının qərarına görə, Cənub qrupu irəlilədikcə Əhməd Həmdi bəyin dəstəsi ilə birləşməli və Bakı üzərinə hücumda birlikdə iştirak etməli idi. Cənub qrupu ilə birləşmək üçün Əhməd Həmdi bəyin dəstəsi də Hacıqabul-Bakı dəmir yoluna tərəf irəliləməkdə idi. Bolşevik-daşnak qüvvələri Əhməd Həmdi bəyin dəstəsinin onlar üçün yarada biləcəyi təhlükəni başa düşdükləri üçün iyulun 26-da heç bir döyüşsüz Hacıqabilu tərk etmək məcburiyyətində qaldılar. Çünki Əhməd Həmdi bəyin dəstəsinin bolşevik-daşnak qoşunlarının arxasına keçdikləri halda onlar mühasirəyə düşə bilərdilər. Hacıqabulun itirilməsi bolşevik-daşnak qüvvələri üçün daha bir strateji məntəqənin itirilməsi demək idi. Bununla bağlı Bakıdan aldığı teleqramı V.Lenin iyulun 29-da Moskvada Ümumittiaq Mərkəzi İcraiyyə Komitəsinin, Moskva Sovetinin, Moskvanın fabrik-zavod komitələrinin və həmkarlar ittifaqlarının birgə iclasında dərin bir təəssüflə səsləndirdi. V.Leninə göndərilmiş həmin teleqramda bildirilirdi ki, hərbi və dəniz işləri komissarı Q.Korqanovun əmri ilə iyulun 26-da bolşevik dəstəsi Hacıqabuldan Ələtə doğru geri çəkilmişdir. Kür çayı istiqamətində çoxsaylı süvarilərin irəlilədiyi xəbəri

alınmışdır. Hacıqabul tərk edilməsəydi, bolşevik qüvvələri üç cəbhədə döyüşməli olacaqdı ki, bu da mövcud şəraitdə mümkün deyildi. Ona görə də geri çəkilmək, Hacıqabuldan hərəkət edən qüvvələrlə Kür çayı istiqamətindən hərəkət edən qüvvələrə qarşı müqaviməti bir cəbhədə birləçdirmək qərara alındı.

Bununla belə, bolşevik-daşnak qüvvələrinin geri çəkilməsi bu istiqamətdə Cənub qrupunun irəliləməsini elə də asanlaşdırmadı. Çünki təkcə Qarasu stansiyası ilə Hacıqabul stansiyası arasında 6 körpü partladılmışdı. Belə təxribat işlərinin aparılması barədə Bakıdan Leninə göndərilən teleqramda da məlumat verilirdi. Bu teleqramda deyilirdi ki, Hacıqabuldan geri çəkilərkən Hacıqabul stansiyasında və dəmir yolu üzərində mövcud olan mühüm yol qurğuları, habelə kerosin və neft sisternləri partladılmışdır.

Partladılmış körpülərin bərpa edilməsi və Cənub qrupunun daha sürətlə irəliləməsinə şərait yaradılması üçün istehkam bölüyünə müvafiq bərpa işlərinin aparılması tapşırıldı. Əslində, bu qrupun irəliləməsi təmir-bərpa işlərinin hansı sürətlə aparılmasından asılı idi. Ona görə də istehkam bölüyü üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşırdı. Xətt komissarının Ordu komandanlığına verdiyi məlumata görə, təkcə iyul ayının 27-də Padar stansiyasına qədər olan 3 körpü və bu stansiyanın şərqində olan bir böyük körpü təmir edilmişdi.

İyulun 27-də dəmir yolu xətti boyunca geri çəkilən bolşevik-daşnak qüvvələri Pirsaat stansiyasında mövqe tutmuşdular. Şimal qrupunun ayın 28-də başlanacaq hücumunun gücləndirilməsi üçün Cənub qrupu sərəncamında olan 38-ci alayın 2-ci taboru Şimal qrupu sərəncamına göndərildi. Bu qrupun gələcəkdə daha da gücləndirilməsi üçün Qafqaz İslam Ordusu komandanlığı tərəfindən 38-ci alayın Gəncədə olan 3-cü taborunun da Kürdəmirə yola salınması barədə qərar qəbul edildi.

Şimal qrupunun döyüş sahəsi əsas döyüş istiqaməti sayılsa da, Cənub qrupu da ona tapşırılan vəzifənin icrasına xüsusi məsuliyyət göstərirdi. H.Səlimov cəbhədə keçirdiyi hər günün uğurlu nəticələrlə başa çatması üçün daxili bir təlaş keçirir və təşəbbüskarlıq göstərirdi. Onun ardıcıllığının nəticəsi idi ki, dəmiryolu boyunca mövqe tutmuş düşmən qüvvələri döyüşdən-döyüşə geri çəkilmək məcburiyyətində qaldı. İyul ayının 31-də Həbib bəy Səlimovun komandir olduğu Cənub qrupu Nəvai və Ağbulaq stansiyalarını ələ keçirdi. Həbib bəy Səlimov elə həmin gün ordu komandanı Nuru paşaya göndərdiyi raportunda döyüşlərin nəticəsi barədə məlumat verməklə bərabər, qrupun sürətlə irəliləməsinə mane olan amillərə də toxunurdu:

1. Bu gün Ağbulaq stansiyasını işğal edirəm. Yarın Ələti düşmən olsa belə Allahın müşayiəti ilə işğal etmək üzrə irəliləyəcəyəm.
2. Mütəaqibən Bakı istiqamətində hərəkət edəcəyəm. Fəqət qrupun suyu qətiyyən yoxdur. Susuzluqdan ətraf bayılmış bir haldadır. Sürətlə su yetişdirilməsi üçün icab edənlərə əmr bulunmasına təkrar-təkrar rica edirəm
3. Ələtdən onra qaradan hərəkət edəcəyimdən bir minik avtomobilinin təhriki üçün əmr buyrulmasını rica edirəm.

Avqust ayının 1-də isə H.Səlimov Nuru paşanın adına göndərdiyi teleqramında bildirirdi ki, bu axşam Ələti işğal etdim. Dəfələrlə müraciət etməyimizə baxmayaraq bizə hələ də su gətirilməmişdir. Döyüşçülər susuz qaldığı kimi lokomotivlər də su olmadığı üçün işləmir. H.Səlimov susuzluğun qrupda ağır vəziyyət yaratdığını və su gətirilməyincə Ələtdən o yana hərəkət etməyin mümkünsüzlüyünü vurğulayırdı.

Bütün bunlar həm H.Səlimovun, həm də onun tabeçiliyində olanların ağır şəraitdə döyüşdüklərini nümayiş etdirirdi. Bununla belə, H.Səlimov öz qüvvələrini səfərbər

etməyi, tabeliyində olanları irəli aparmağı bacarırdı. İradə və qətiyyət nümayiş etdirməsi isə ona daim uğur gətirirdi.
Cənub qrupu Bakı ətrafına yetişdikdən sonra onun piyada, topçu və süvarilərinin bir hissəsi şimal qrupuna verildi. Çünki Bakı şəhəri üzərinə təşkil edilmiş 5 avqust 1918-ci il tarixli ilk hücumda şimal qrupu əsas zərbə kimi nəzərdə tutulmuşdu. Cənub qrupuna isə daha çox yardımçı rol ayrılmışdı. Müvafiq döyüş əmrində göstərilirdi ki, Cənub qrupu zərurət yarandıqca Şimal qrupuna kömək göstərməlidir. Cənub qrupunun zirehli qatarı da kömək göstərilməsində iştirak etməli idi. Qrupa tapşırılmış olan əsas vəzifə Ələtdən Putaya qədər dəniz sahili boyunca uzanan dəmir yolu xəttinin dənizdən gözlənilə biləcək təhlükədən qorumaq idi. Məlumdur ki, 5 avqust hücumu uğurla başa çatmadı və Bakı üzərinə növbəti hücum yeni türk qüvvələrinin gəlməsinə qədər təxirə salındı. Avqust ayının 13-də H.Səlimov Gəncəyə çağrıldı. Onun yerinə isə türk zabiti Cəmil Cahid bəy Cənub qrupunun komandanı təyin edildi.
Yuxarıda qeyd edildiyi kimi, avqust ayının 13-də Nuru paşa Azərbaycan korpusunun yenidən qurulması barəsində əmr vermişdi. Əmrin bəndlərindən biri də korpusun bütün rus zabitlərinin ordudan kənarlaşdırılması ilə bağlı idi. Həbin bəy Səlimov da çox güman ki Azərbaycan korpusunun yenidən qurulması və onun möhkəmləndirilməsi ilə əlaqədar olaraq geri çağırıldı. Çünki doğrudan da avqust ayının 2-ci yarısından etibarən Azərbaycan korpusunun formalaşdırılmasında bir canlanma duyulmaqda idi. Ancaq Azərbaycan milli qüvvələrinin təşkili səviyyəsi H.Səlimovu heç də qane etmirdi. Buna həm obyektiv, həm də subyektiv səbəblər var idi. Obyektiv səbəblər Azərbaycanın düşdüyü tarixi şəraitdən irəli gəlirdi. Ölkədə müharibə gedirdi. İqtisadiyyat inkişaf etməmişdi, əhali hərbi xidmətdən yadırğamışdı. Subyektiv səbəblər isə qoşunlarda təlim-tərbiyənin düzgün qurulmamasından, bir sıra zabitlərin çağırış işinin təşkilində ədalətsizliklərə yol verməsindən, hərbi qulluqçuların məişətinin yaxşı qurulmamasından və s. irəli gəlirdi.
Həbib bəy Səlimov sonradan yenidən Azərbaycan korpusunun qərargah rəisi təyin edildi və Azərbaycan korpusunun yenidən formalaşdırılmasının təşkilati çətinliklərinin müəyyən hissəsini öz üzərinə götürdü. Bakının azad edilməsindən sonra Qafqaz İslam Ordusu qüvvələrinin paradında da H.Səlimov Azərbaycan korpusunun qərargah rəisi kimi iştirak etdi.
Qafqaz İsam Ordusu ləğv ediləndə də H.Səlimov Azərbaycan korpusunun qərargah rəisi idi və elə bu vəzifədə də yenidən qurulan Cümhuriyyət ordusunun sıralarına qatıldı.

## XƏLİL KUT PAŞA

Qafqaz İslam Ordusunun sürətlə formalaşdırılması, təmin və təchiz edilməsi, habelə onun qarşısına qoyulan vəzifələrin həllinə nail olunması üçün Ənvər paşanın qəbul etdiyi əhəmiyyətli qərarlardan biri də Şərq Ordular Qrupu komandanlığına Xəlil paşanın təyin edilməsi idi. Bununla da yuxarıda qeyd edildiyi kimi, Osmanlı Türkiyəsinin Azərbaycanla və bütünlüklə Qafqazla bağlı siyasətində Ənvər paşanın ailə üçbucağı yaradıldı: Ənvər paşa – Xəlil paşa – Nuru paşa. Bu təyinata yol açmaqla Ənvər paşa Azərbaycana kömək göstərilməsini etibar etdiyi insanlara tapşırmış oldu və onun bu qərarı əslində özünü doğrultmuş oldu.
Qafqaz İslam Ordusu struktur baxımından Şərq Ordular Qrupuna daxil idi və Nuru paşa

qarşıya çıxan ciddi məsələlərin həlli üçün Şərq Ordular Qrupunun komandanı kimi Xəlil paşanın qarşısında lazımi vəsatət qaldırır və Xəlil paşa da bu problemlərin həlli üçün adətən bir operativlik nümayiş etdirirdi.

Xəlil paşa Ənvər paşanın ( o cümlədən Nuru paşanın) əmisi idi, amma yaşca Ənvər paşadan kiçik idi. Ənvər paşa 1881-ci ildə, Xəlil paşa isə 1882-ci ildə anadan olmuşdu. Bununla belə, özündən kiçik olsa da Ənvər paşa ona hörmətlə yanaşırdı və Xəlil paşa həm Ənvər paşanın, həm də Nuru paşanın yaxın silahdaşlarından biri idi. Baxmayaraq ki, bolşevizmə münasibətdə Xəlil paşanın mövqeyi Ənvər və Nuru paşaların mövqeyindən fərqlənirdi, amma Qafqaz İslam Ordusunun xidmətinin təşkilində və Bakının yad qüvvələrdən təmizlənməsində Xəlil paşa qardaşı oğlu Nuru paşanın yaxın silahdaşlarından biri idi.

Xəlil paşa İstanbulda anadan olmuş, təhsilini Fatihdaş məktəbində, Beşikdaşdakı Abbasağa və Həmidiyyə məktəblərində almışdı. Sonra o, təhsilini Beşikdaş Rüşdüyyəsində, Küleli hərbi litseyində, Hərbi məktəbdə davam etdirmişdi. Xəlil paşa 1905-ci ildə Hərbi akademiyanı bitirdi və sonra yüzbaşı rütbəsində Makedoniyadakı 3-cü Ordu qərargahında, İrana ezam edilmiş qoşun hissələrində, Saray mühafizə bölməsində xidmət etdi. 1909-cu ildə Xəlil paşa Selanik səyyar jandarma birliyi komandanı, 1911-ci ildə Trablusqərb-Binqazi savaşında Xüms cəbhəsi komandanı, 1913-cü ildə 10-cu korpus qərargah zabiti, Çıkarma birliyi komandanı, Soke-Güney sahilləri komandanı, Van jandarma alay komandanı, 1914-cü ildə Mərkəz komandanı, 1915-ci ildə Qüvveyi-səfəriyyə komandanı, 18-ci korpus komandanı, 1916-cı ildə Diele Qrup komandanı, 6-cı Ordu komandanı, 1918-ci ildə isə əvvəlcə Qafqaz Ordusu qrup komandanı və sonra da Şərq Ordular Qrupu komandanı oldu.

Məlumdur ki, Ənvər paşa 1917-ci ilin sonu və 1918-ci ilin əvvəlində Qafqaz müsəlmanlarının və türk xalqlarının taleyi ilə daha yaxından maraqlanmağa başladı və onun belə bir planı var idi ki, Qafqazda, Orta Asiyada, Əfqanıstanda və digər məntəqələrdə yaşayan türklərin və müsəlmanların taleyi ilə məşğul olan bir qurum yaratsın. Bu qurumun mərkəzi kimi Tehran seçilməli və Nuru paşa da bu qurumun sədri təyin edilməli idi. Bu məsələ ilə bağlı Ənvər paşa 6-cı Ordunun komandanı vəzifəsində olan Xəlil paşa ilə da məsləhətləşmiş və onun da məsləhətlərini almağa çalışmışdı.

Amma bölgədə hərbi-siyasi proseslər elə sürətlə inkişaf etdi ki, Ənvər paşa daha konkret planlar üzərində düşünməyə başladı. Qafqaz İslam Ordusunun təşkili məsələsi gündəmə gələndə də Ənvər paşa bu Orduya kimim komandan təyin edilməsi ilə bağlı Xəlil paşa ilə məsləhətləşdi. Ənvər paşa Xəlil paşanın mövqeyini öyrənmək istəyəndə Qafqaz İslam Ordusunun komandanı vəzifəsinə həm Nuru paşanın, həm də Kazım Qarabəkir paşanın namizədliyi var idi. Xəlil paşa da Kazım Qarabəkir paşanın namizədliyi üzərində dayandı və Qafqaz İslam Ordusuna onun komandan təyin edilməsini məsləhət bildi.

Amma məlumdur ki, sonradan Nuru paşa bu vəzifəyə təyin edildi. Nuru paşanın Qafqaz İslam Ordusunun komandanı təyin edilməsindən az sonra Xəlil paşa da Şərq Ordular Qrupu komandanı vəzifəsinə təyin edildi. Xəlil paşa bu hadisəni belə xatırlayırdı:

> İrandan düşmən qüvvələr çəkilərkən Ümumi Qərargahdan gələn bu şifrəni aldım: "6-cı ordu əmrinizdə qalmaq üzrə Qafqaz ordularının da tövhidi ilə təşkil edilən Şərq ordular qrupu komandanlığına təyin edilmiş bulunursunuz. Yeni vəzifəni öhdənizə götürmək üçün İstanbul üzərindən Qafqaza hərəkətiniz təbliğ edilir. Ənvər"

Xəlil paşa Şərq Ordular Qrupunun komandanı təyin ediləndə bu Qrupa aşağıdakı

qüvvələr daxil idi:
3-cü Ordu – komandanı Mehmet Esat paşa. Qərargahı Batumda yerləşirdi.
6-cı Ordu – komandanı Əli Ehsan bəy
9-cu Ordu – komandanı Şövqi paşa. Qərargahı Qarsda yerləşirdi.
Qafqaz İslam Ordusu – komandanı Nuru paşa.
Şərq Ordular Qrupu komandanı kimi Xəlil paşanın qarşısında belə bir ümumi vəzifə qoyulmuşdu:

> Batum-Tiflis-Bakı dəmir yolundan bir mənzil yolu olaraq yararlanmaq sürətiylə Xəzər dənizində hakimiyyət təsis ediləcək, dəniz yolu ilə Bakı-Ənzəli yolu qurulacaqdır.

Qafqaz İslam Ordusunun təşkili üçün türk qoşun hissələrinin Azərbaycana göndərilməsinin ən münasib yolu Gürcüstandan keçən dəmir yolu idi. Xəlil paşa da Şərq Ordular Qrupunun komandanı kimi çalışmalı idi ki, qoşunların dəmir yolu ilə Azərbaycana daşınmasını təmin etsin. Amma onun göstərdiyi bütün səylərə baxmayaraq Gürcüstanda möhkəmlənməyə çalışan almanlar türk qoşun hissələrinin dəmir yolu ilə daşınmasına imkan vermədilər. Bu məsələdə almanlar gürcülərə təzyiqlər də göstərirdilər. Xəlil paşa bununla bağlı yazırdı:

> Gürcülər buna ( qoşunların Gürcüstandan keçən dəmir yolu ilə daşınması nəzərdə tutulur – M.S.) mane olurdular. Bunun iki səbəbi vardı. Birinci səbəb – general fon Kress tərəfindən gürcüləri öz tərəfinə çəkmək üçün sərhədlərin yenidən bağlanacağını vəd etdi. İkincisi gürcülərin zavodlarını işə sala bilmələri üçün lazım olan nefti havayı və ya münasib dəyişməklə Bakıdan alınacağına söz verilmişdi

Qısa müddət ərzində Gürcüstan hökuməti ilə anlaşma əldə etmək mümkün olmadı. Onda türk qoşun hissələri quru yolla Azərbaycan sərhədinə göndərilməyə başlandı.
Qafqaz İslam Ordusu qüvvələrinin Gəncədən başlayaraq Bakıya qədər davam edən irəliləməsinin uğurla nəticələnməsi üçün Xəlil paşa lazım olan köməkliyi göstərirdi. İstər arxiv sənədlərində, istərsə də Xəlil paşanın və Nuru paşanın xatirələrində Azərbaycana əlavə qüvvələr göndərilməsi, istərsə də Azərbaycandakı qüvvələrin təchizatı ilə bağlı qaldırılan məsələlərin Xəlil paşanın iştirakı ilə bağlı həll edilməsi haqqında xeyli faktlar var idi. Əslində, Xəlil paşa da Qafqaz İslam Ordusunun qarşısına qoyulan vəzifənin icrası üçün Ənvər paşa qarşısında məsuliyyət daşıyırdı.
Bakı şəhərinin azad edilməsi ərəfəsində Xəlil Paşanın Azərbaycana gəlməsi də əslində bu məsuliyyətdən doğurdu. 1918-ci il sentyabr ayının əvvəllərində Xəlil paşa Gəncəyə gəldi, burada Nuru paşa, Əliağa Şıxlinski və şəhər ictimaiyyəti tərəfindən sevinclə qarşılandı. Xəlil paşanın yavəri Səlahəddin yüzbaşı öz xatirələrində Xəlil paşanın Azərbaycana gəlməsi haqında belə yazırdı:

> Xəlil paşa Von Kress ilə Tiflisdə keçirdiyi müzakirələrdə Bakıya ediləcək hücuma almanların da qoşulacağına qərar vermişdi. Von Kress bir alman süvari alayı hazırlayacaq və Xəlil paşa ona müraciət edən kimi bu alayı Azərbaycan dövlətinin sərəncamına verəcəkdi.
>
> Von Kress bizim Azərbaycana gizlicə göndərdiyimiz hərbi qüvvələr barədə bir şey bilmirdi. Bu işdən hətta Xəlil paşanın qərargah rəisi Parakuinin də xəbəri yox idi. Biz 5-ci Qafqaz diviziyasından başqa 15-ci piyada diviziyasını və bir çox süvari və topçu birliklərini Azərbaycana yollamış, orada məhəlli qüvvələr meydana gətirmişdik.
>
> Tiflisdəki bu qərardan sonra Bakını mühasirədə saxlayan Ordu qərargahında

olmaq üçün Azərbaycan hüdudlarına daxil olduq. İlk məntəqə Ağstafa idi. Bizi burada Ənvər paşanın kiçik qardaşı və Xəlil paşanın qardaşı oğlu türk Qafqaz İslam Ordusu komandanı 29 yaşlı Nuru paşa qarşıladı. Gecə yarısından bir saat sonra Gəncəyə çatdıq. Stansiyada bizim şərəfimizə çay süfrəsi hazırlanmışdı. Çaylarımızı içərkən bir aşıq bizə saz çaldı. Vətəndən uzaqda bu türk səsi hamımızı mütəəssir etdi. Turan yollarında türklərlə qarşılaşırdıq. Aşıq yüz illərlə davam edən türk iztirablarını elə gözəl söyləyirdi ki, hamımızın gözləri yaşarmışdı.

Aşıq:

Qatarlar əsgər daşıyar Bakıya, burda bir iş var
Söylə, Xəlil paşa, Allah eşqinə, bunda bir iş var – deyirdi.

Zatən hər kəsin həyəcanı son həddində idi. Çaylarımızı içib ayağa qalxanda aşıq elə hey oxuyurdu:

Söylə, Xəlil paşa, Allah eşqinə, bunda bir iş var...

Komandan Xəlil paşa dözə bilmədi və ucadan dedi:

Bu gün Bakı, sabah Mərv, o biri gün Qaraqum... Nə olacaq, Turan var

Bir alqış, bir hıçqırıq, bir ürpərmə hər yeri bürüdü. Qatar hərəkətə gəldi, aşıq isə hələ də oxuyurdu:

Allah yolun açıq etsin Turana
Səni verdim yaradana
Səndən istərəm Bakını
Türk Xəlil paşa

Qatar Gəncə stansiyasından aralanandan sonra təpələri qarlı Qafqaz dağlarını seyr edərək aşığın həyəcanlı səsindən aldığımız ilhamla cəbhəyə gedirdik.

Ertəsi gün, yəni 10 sentyabr 1918-ci il tarixində günorta Bakının yaxınlığında bir kənddə yerləşmiş Türk Qafqaz İslam Ordusu qərargahına girdik. Qatardan düşəndən sonra bir saat da maşınla irəlilədik. Getdiyimiz yerdən Bakının gözəl mənzərəsini və Xəzər dənizini görə bilirdik.

Bakının azad edilməsi üçün təşkil ediləcək həlledici hücuma rəhbərlik etmək üçün sentyabrın 10-da Nuru paşa Xəlil paşanın və Əliağa Şıxlinskinin müşayiəti ilə Bakı ətrafına gəldilər və Güzdək kəndindəki qərargahda yerləşdilər. Həlledici hücum planının dəqiqləşdirilmədi üçün Xəlil paşa da Nuru paşa və Əliağa Şıxlinski ilə bərabər döyüş xəttinə yollandılar və düşmən mövqelərinin əyani olaraq müşahidə etdilər. Həlledici hücumun başlandığı vaxt da Xəlil paşa cəbhə xəttində idi və onlar böyük ümidlə Bakı şəhərinin azad olunacağı anı gözləyirdilər.

Xəlil paşanın yavəri Səlahəddin yüzbaşı həmin anları belə xatırlayırdı:

Bakı şəhərində ingilis, rus və erməni birlikləri var idi. Hücumu necə təşkil edəcəkdik? Başda alman qərargah rəisi Parakuin olmaqla alman zabitləri bu fikri irəli sürürdülər: böyük müharibənin təcrübəsindən bilirik ki, düşmənin səhra mövqeyi top atəşilə əzilməsə, oraya süngü döyüşü ilə həmlə etmək olmaz. Bu halda əvvəlcə düşmən səngərlərini darmadağın edək, sonra isə hücuma keçək.

Türk qərargahı isə yarbay Bəsri (1934-cü ildə ölən general-polkovnik Bəsri), minbaşı Saleh (Omurtak), minbaşı Nazim (1920-ci ildə Kutahya döyüşlərində həlak olmuş topxanalı albay Nazim), minbaşı Səffət (Arıkan), Tofiq (sonradan dövlət katibi) olmaqla bu fikri müdafiə etmirdilər. Əldə kifayət qədər top mərmisi olmayacağı halda gündüz həmlə etmək bir fayda verməyəcək. Ona görə də top atəşindən istifadə etmədən gecə süngü hücumuyla səssizcə düşmən səngərlərinə

girmək daha düzgün olardı.

Bu iki bir-birinə zidd fikrin nəticəsini Xəlil paşa təyin edəcəkdi. İki gün davam edən müzakirələrdən sonra Xəlil paşa tək məni yanına salaraq bütün cəbhəni gəzdi, düşündü. Cəbhədəki əsgərlərlə, zabitlərlə, komandirlərlə görüşdü. Düşmən bir yüksəklikdə, biz isə başqa bir yüksəklikdə idik. Aramızdakı vadidən dəmir yolu keçirdi. Düşmənlə aramızda müxtəlif yerlərdə 600 metrdən iki kilometrə qədər məsafə vardı. Günəşin batmasına yaxın qərargaha gəldik. Komandan Xəlil paşa mənə bu əmri verdi:

Bəsriyə de, bu gecə yarısından sonra saat ikidə birliklər süngü hücumuyla düşmən səngərlərinə girəcəkdir. Bu əmr ən geci axşam saat 9-da bütün orduya təbliğ edilməlidir. Bəsri bunu gizli saxlasın. Mən saat 24-də idarəetməni ələ almaq üçün yerimdə olacağam. Bu əmrimi eynilə alman qərargah rəisinə də söyləyin. Tiflisə - fon Kressə süvari alayının qatarla Bakıya göndərməsini yazsın. Gürcüstan-Azərbaycan sərhədində dəmir yolu körpüsünü dağıtmaq üçün orada hazır olan dəstəyə Bəsri indi telefonla xəbər versin. Bunu kimsə bilməsin. Sonradan bunun bir səhv olduğu elan ediləcəkdir.

Xəlil paşanın məqsədi alman birliklərinin Bakıya gəlməsinə imkan verməmək idi. Komandanın əmrini Bəsriyə məruzə etdiyim zaman onun yanında olan türk qərargah rəhbərləri böyük sevincə qapıldılar. Alman qərargah rəisi isə yubanmadan Xəlil paşanın yanına gedərək bu qərara qoşulmayacağını və bu qərarın nəticəsinə görə cavabdehlik daşımayacağını, türk birliklərinin Bakıya girə bilməyəcəyini, Xəlil paşanın bu hərəkətinə görə tarix qarşısında cavab verməli olacağını bildirdi.

Bu xatirələrdən belə bir qənaətə gəlmək olar ki, Bakı üzərinə həlledici hücumun icra taktikası ilə bağlı iki variant hücumdan əvvəl müzakirə mövzusu olmuşdur. Hücumun topçu hazırlığı ilə başlanması, yoxsa qəfil piyada hücumu. Görünən odur ki, Xəlil paşa ikinci variantı müdafiə etmiş və bu variant da hücuma uğur gətirmişdir. Xəlil paşanın yavəri Səlahəddin yüzbaşı yazırdı ki, onlar Xəlil paşanın ətrafında səbirsizliklə hücumun hansı nəticə verəcəyini gözləyirdilər. Alman zabitləri qəfil hücumla düşmən səngərlərinin alınacağına inanmırmışlar. Ona görə də, düşmənin ilk döyüş xəttinin ələ keçirilməsi xəbərini onlar çox təəccüblə qarşılayırlar. Xəlil paşa isə əksinə ilk uğurları böyük sevinclə qarşıladı.

İstər Xəlil paşanın, istərsə də onun yavəri Səlahəddin yüzbaşının xatirələrində Bakı şəhərinin azad edilməsi üçün təşkil edilmiş həlledici hücumun məsuliyyətini Xəlil paşa ilə bağlanması meyli duyulmaqdadır. Xəlil paşanın və onun ətrafındakı hər bir türk zabitinin Bakının azad olunması ilə bağlı narahatçılığını və sevincini başa düşmək olar, hücum planının hazırlanması ilə bağlı Xəlil paşanın fikirlərinin nəzərə alınmasını da inkar etmək olmaz. Amma Bakı şəhərinə hücuma birbaşa rəhbərlik Nuru paşa tərəfindən həyata keçirilir və bütün döyüş əmrləri də onun tərəfindən imzalanırdı. Özü də məlumdur ki, Nuru paşa bu məsələdə çox çeviklik nümayiş etdirdi və cəbhə xəttində olduğu bir-neçə gün ərzində diviziya komandirlərinə çoxlu sayda əmrlər göndərdi və eləcə də onlardan əmrlərin icrası haqqında raportlar tələb etdi.

Xəlil paşa xatirələrində yazırdı ki, Bakı üzərinə hücumda 7 alay iştirak edirdi:

Gecə olduğu vaxt birlik komandanlarını toplayıb bu əmri verdim: " Bütün birliklər gecədən düşmən xətlərinə yaxınlaşacaqlar. Hava ağarmağa başladığı anda basqın şəklindəki təərrüz başlayacaqdır. Bütün arkadaşlar bilrik başına".

Səlahəddin yüzbaşının, Süleyman İzzət bəyin xatirələrindən və Nuru paşanın

əmrlərindən aydın olur ki, həlledici hücum gecə ikən başlamışdı və səhər açılana yaxın artıq bəzi düşmən mövqeləri ələ keçirilmişdi. Hər halda Xəlil paşa da Bakı üzərinə hücumun gedişini diqqətlə izləyirdi və keçirdiyi həyəcanların müəyyən anlarını sonradan yazdığı xatirələrində qələmə almışdı:

> Hava təzə işıqlanmağa başlamışdı ki, piyadanın özünə məxsus qışqırıqları (Allah, Allah) ilə qumbara və süngü hücumuna başlandı. Hücum qoşuna sağdan və soldan həmlə edən düşmən ehtiyat qoşunları "qəmə" şəklində irəliləyən türk birliklərinin sağa-sola açdığı yaylım atəşləri ilə geri oturdulurdu. "Qəmə"nin önündəki birliklər düşmən cəbhəsini yarmış, şəhərin mərkəzinə doğru irəliləyirdi. Düşmən fasilələrlə əks-hücuma keçir, lakin yenə də olduqları yerə qayıtmaq məcburiyyətində qalırdılar... Bakı qarşımızdaydı... Düşmən ehtiyat qüvvələri şəhərin mərkəzinə doğru çəkilməyə məcbur olmuşdular..
>
> Bakının möhkəmləndirilmiş mövqeyinin sol tərəfində, yəni mövqenin şimal tərəfində ingilis qüvvələri yerləşmişdi. Bunu batareyanın atəşindən təxmin etmişdik. Sübhdən başlayan döyüş axşamadək davam etdi.

Hücumun həyəcanı Xəlil paşanı o dərəcədə bürümüşdü ki, hətta döyüşlərin gərgin nöqtəsində olmaqdan belə çəkinmirdi. Bununla bağlı Xəlil paşa başına gələn belə bir hadisəni təsvir edirdi:

> ...Bu savaşda zaman-zaman özümü əlimdə mauzer irılidəki xətlərin arasınnda bulduğum zamanlar oldu. Bir ara savaşdaydıq ki, bir əsgərin yalvara-yalvara yanıma soxulduğunu gördüm:
>
> -Komandan paşam, ... güllə dəyəcək, komandan paşam...
>
> Tutdum bu yaşı qırxı keçmiş dəliqanlının alnından öpdüm. Omuzunu buraxanda ovcumun içində qan ləkələrini gördüm.
>
> - Yaralısan, oğlum?...
>
> Əlini omuzuna apardı. Basdırdı, bir ara üzü acı ilə buruldu.
>
> -Unutmuşam, komandan paşam, - dedi və sıçraya-sıçraya irəli doğru qaçdı, bir yandan mauzerindən güllə atırdı. Yanımda bir zabiti gəncəcik bədəni parçalanmış olaraq keçirdilər. Pulemyot yarısını biçib aparmışdı.

Qafqaz İslam Ordusu qüvvələri hücumun birinci günü böyük fədakarlıqlar göstərdilər və qarşıda dayanan düşmənin müqavimətini qırdılar. Xəlil paşanın yuxarıda təsvir etdiyi səhnə də belə fədakarlıqlardan birinin nümayişi idi.

Məlum olduğu kimi, sentyabrın 14-də Bakı ətrafında aparılan döyüşün taleyi artıq həll edilmişdi. Xəlil paşa da digər generallar və zabitlər kimi hücumun ilk gününün sevincini yaşayırdılar. Onlar anlayırdılar ki, Qafqaz İslam Ordusu qüvvələrinin Bakıya daxil olacağı an artıq uzaqda deyil. Bununla belə sentyabrın 15-də davam edəcək hücuma da ciddi hazırlıq işləri aparılırdı. Xəlil paşa xatırlayırdı:

> Axşam qaranlıq düşəndə döyüşün dayandırılmasına işarə verdim. Sabaha qədər son hücum hazırlığı görüldü. Səhər açılar-açılmaz hücum edib Bakını ələ keçirəcəkdik. Revolverimi təmizlədim. Əmrimdəki sıravi mauzerimin vəziyyətini yoxladı. Ön xəttə getdim. İlk hücum edəcək birliyin başına keçdim. Birlik komandanını çağırdım:
>
> Bu birliyin komandasını üzərimə götürürəm. Komandanlıq qərargahı buradır. Yavərlik vəzifəsini də siz aldınız...
>
> Şəstlə hərbi salam verib dik gözlərimin içinə baxdı. Bu baxışıyla "Ölüncəyə qədər sərəncamınızdayam " demək istədiyi məlum idi.

> Səhərin ilk şəfəqlərində başlanan həmləmiz hələ ilk mərhələsindəydi. Birlik komandirləri ilə Bakının alovlar içində yanmağa başladığını gördük. Düşmən təyyarələrini və yanacaq çənlərini yandırır, məhv edirdi. Və başa düşürdüm ki, Bakı da Qut kimi məğlub olmaq üzrədir. Gecədən gəmilərə mindirilmiş ingilis qüvvələri əlli gəmilik bir konvoy halında şimala doğru uzaqlaşırdılar.
> İngilis birlikləri geri çəkilərkən yerdə qalan digər düşmən birlikləri Bakıdakı böyük bir kazarmaya dolmuşdular. Bu xəbəri alan kimi top atəşi ilə böyük bir cəbhə təşkil edilə biləcək bu kazarmanı yerlə yeksan elədik.

Xəlil paşanın xatırlatdığı kazarma Salyan kazarmaları idi. Burada doğrudan da düşmən qüvvələrinin müqavimət ocağı var idi, amma Qafqaz İslam Ordusu qüvvələri top atəşləri ilə bu müqavimət ocağını tezliklə dağıda bildilər.

Xəlil paşanın hansısa bir bölmənin və ya hissənin komandanlığını əlinə almasına gəlincə isə, bu 5-ci Qafqaz diviziyasının döyüş sahəsində ola bilərdi. Bir tərəfdən Qafqaz İslam Ordusunun qərargahı bu döyüş sahəsinə daha yaxın idi, digər tərəfdən də Süleyman İzzət bəy xatirələrində Xəlil paşanın döyüş zamanı onun hissə və bölmələrində olması haqqında heç bir qeyd etməmişdir.

Hər halda Bakı şəhərinin azad edilməsi Xəlil paşanın da böyük sevincinə səbəb oldu. Yuxarıda qeyd edildiyi kimi, Ənvər paşa Bakı şəhərinin azad olunması ilə bağlı Nuru paşaya ünvanladığı təbrik məktublarını Xəlil paşa vasitəsilə göndərmişdi. Ənvər paşa almanların təzyiqləri ilə qarşılaşmamaq üçün əvvəlcə Nuru paşaya Bakı şəhərinin azad edilməsinə lüzum olmadığını bildirirdisə, ikinci teleqramında bu tarixi hadisə ilə bağlı öz sevincini ifadə edir və Nuru paşanı təbrik edirdi.

Ənvər paşa Bakı şəhərinin azad olunması münasibətilə Xəlil paşanın özünə də təbrik məktubu göndərdi. Həmin məktubda deyilirdi:

> Bakı uğuru münasibətilə gözlərindən öpərək təbrik edirəm. Bakını zəbt edən birliklər bir az dincələndən sonra Azərbaycanda hələlik bir diviziya saxlanaraq qalanını 9-cu Orduya geri almaq fikrindəyəm. Şimali Qafqazda sürətlə Dərbənd, Temirxan-Şura, Mahaçqala və sairəni işğal və oralara gedən kadrlara əsas olmaq şərti ilə dolğun heyətli yaxşı bir alay, qüvvətli topçu, hətta iki qaubitsa topu verərək və çoxsaylı pulemyotlarla da təchiz edərək mürəkkəb bir dəstə halında şimala sövq etməsini Nuru paşaya yazdım. Ayrıca Ənzəli və Rəştin də tezliklə işğalı üçün geriyə alınacaq qüvvənin münasib bir dəstəsinin Xəzər dənizi sahillərini təmizləyərək cənuba göndərilməsini və bu sürətlə Təbriz-Qəzvin istiqamətində irəliləyən dəstə ilə Kiçik xana yardım edilməsini və bu məqsədlə sizinlə görüşməsini də bildirdim. Sürətlə hərəkəti rica edirəm.

Sentyabrı ayının 16-da Qafqaz İslam Ordusu qüvvələrinin Bakının azad olunması münasibətilə təşkil olunmuş rəsmi-keçidində Xəlil paşa da iştirak edirdi. Rəsmi-keçid başa çatandan sora at belində şəhərə ilk daxil olanlardan biri də Xəlil paşa idi. Bu anları da Xəlil paşa öz xatirələrində qələmə almışdı:

> Şəhərdə gecə-gündüz silah səsləri eşidilirdi. Şəhər ingilislərin nəzarəti altında olanda bolşeviklər və ermənilər yerli camaata qarşı böyük bir qətliam hərəkatına başlamışdılar. Şəhərin hər məhəlləsində ermənilər yerli əhalidən "cəsəd qalaları" qurmuşdular... Kiçik uşaqlar qala bürcləri olmuş, qadınlar ayıb yerlərindən süngülənərək öldürülmüşdülər ... İndi növbə yerli camaatın idi. Onları dayandırmaq çətin idi... Düşmən qalıqları və ermənilər küçələrdə yerə sərilirdilər... Güclü hərbi qüvvələrin köməyi ilə türkləri qətletmə "şücaətini "

göstərən ermənilər indi onlarla eyni səviyyədə olan yerli türk əhali qarşısında bir sürü kimi ovlanırdılar.

Ordu yorğun idi. Orduya bir günlük istirahət verildikdən sonra hərbi hissələr şəhəri işğal etdi. Şəhərdə törədilən yanğınları söndürməklə yanaşı, asayişi təmin etmək vəzifəsi də öhdəmizə düşürdü. Nuru paşa məndən əvvəl Bakıya girərək böyük bir oteli özünə qərargah seçmişdi. Mən şəhərə ondan sonra girdim. Bu, bəlkə də cəngavər ruhlu və böyük vətənpərvər Nuru paşanın həyatının ən gözəl günüydü.

Mən şəhərə girərkən yanımda qərargah zabiti polkovnik Parakuin də var idi. Şəhərin girişində vurulmuş, lakin cəsədi yığışdırılmamış bir neçə ölü gördük. Parakuin birdən-birə əsəbiləşdi və var gücü ilə qışqırmağa başladı:

-Burada əliyalın insanlar öldürülmüşdür..

- Əsəbiləşməyin dostum. Bu, müharibədir. Silahlı da, silahsız da həlak ola bilər. Sakit olun – deyə onu susdurmaq məcburiyyətində qaldım.

Nuru paşanın qərargahı olan otelə yaxınlaşdığımız vaxt Parakuin yenə də bir dəli kimi qışqıra-qışqıra danışmağa başladı. Bu dəfə sərt halda dedim:

-Artıq susun. Biz müharibədəyik və siz hər an təlaş keçirirsiniz. Susmanızı tələb edirəm.

Parakuin susmaq məcburiyyətində qaldı.

Otelə çox az qalmışdı ki, meydan kimi bir yerdə 43 adamın Nuru paşanın əmri ilə asdırılmış olduğunu gördük. Bunlar ingilis qüvvələri şəhərdə olarkən yerli xalqa zülm edən və qarətçiliklə məşğul olan bəzi ermənilər idi. Nuru paşa müharibə qanunlarına əməl etmiş, onları divani-hərb qərarı ilə asdırmışdı. Parakuin bu dəfə yekəxanalıqla danışmağa başladı:

-Bu, doğru deyil, bu, bir qətliamdır.

Artıq səbrim tükənmişdi. Onu da belə bir dar ağacı gözləyə bilərdi. Çünki hərəkəti müharibə qanunlarına uyğun deyildi. Biz bir dövlət üçün döyüşürdük. Onun-bunun nə düşündüyü bizi maraqlandırmırdı. Görəsən, Parakuin bu şəkildə asılmış türkləri görsəydi eynən bu hərəkəti edərdimi? Bunları sərt bir şəkildə ona söylədim.

... Bu aralarda isə ermənilər tərəfindən qətlə yetirilmiş yerli əhalinin – yüzlərlə uşaq, qoca-cavan, qadın-kişi cəsədləri küçələrdən yığılaraq əbədi yuxuya getmək üçün qazılan məzarlarda basdırıldı. İnsanlığın gördüyü vəhşiliklərdən biri də ingilis işğalı altında olan Bakıda ermənilərin yerli əhaliyə qarşı etdikləri vəhşilikdir.

Alman zabitlərini məyus edən əsl səbəb fon Kressin Bakının zəbtində iştirak etmək üçün göndərdiyi qüvvələrin qarşısının alınması idi.

Məlumdur ki, Almaniya hər vasitə ilə türk qüvvələrinin Bakıya gəlməsinin qarşısını almaq istəyirdi. Bunun üçün Osmanlı Hərbiyyə Nazirliyinə də müxtəlif təzyiqlər göstərilirdi. Bütün bu təzyiqlər nəticə verməyəndə isə almanlar Bakıya bir hərbi hissə yeritmək istəyirdilər. Xəlil paşa fon Kressin göndərmək istədiyi qüvvələr deyəndə buna işarə edirdi. Xəlil paşa öz xatirələrində bir neçə yerdə bu məsələyə toxunmuşdur. Onun fikrilərindən belə çıxır ki, almanlar öz hərbi hissələrini Bakı üzərinə olan həlledici hücumda iştirak etmək üçün göndərmək istəyirlərmiş. Amma faktlar belə bir qənaətə gəlməyə əsas verir ki, almanlar belə bir cəhdi Bakı şəhəri tutulandan sonra etməyə çalışmışdılar.

Azərbaycan hökuməti Bakıya köçən kimi, Almaniya özünün hərbi və ticarət nümayəndəsi Fon der Qoltsı bura göndərdi. Qafqaz İslam Ordusunun Bakıya doğru irəliləməsini dayandıra bilməsə də, Almaniya nəyin bahasına olursa-olsun Bakıda möhkəmlənmək və Bakı neftindən lazımi şəkildə bəhrələnmək istəyirdi. Bu məqsədlə Almaniya yenidən Bakıya hərbi qüvvə yeritmə təşəbbüsünü ortaya atdı. Bəhanə də bu idi ki, Bakıda asayişin bərpasına Almaniya da kömək etmək istəyir. Bunun üçün Gürcüstanda olan qüvvələrdən bir tabora hazırlıq əmri verilmişdi. Həmin taborun Bakıya gətirilməsi üçün almanlar istər Azərbaycan hökumətinin, istərsə də Qafqaz İslam Ordusu komandanlığının razılığını almaq fikrində deyildilər. Bu da öz növbəsində Azərbaycan hökuməti ilə birlikdə, Qafqaz İslam Ordusu komandanlığını da razı salmırdı. Ona görə də almanların Bakıya qoşun hissəsi gətirməsinin qarşısının alınması üçün əməli vasitələrə al atıldı. Arxiv sənədləri göstərir ki, Xəlil paşanın xatirələrində Bakı hücumu ərəfəsində baş verdiyi təsvir edilən bu hadisə, əslində sentyabrın 20-dən sonra baş vermişdi. Xəlil paşa Bakıya alman taborunun gətirilməsinin qarşısının alınması üçün hansı vasitəyə əl atdıldığını belə təsvir edirdi:

> ... Anlaşılırdı. Taboru geri göndərmək daha fəna olurdu. Ötəndən bəri güvəndiyim bi çavuşum vardı. Çağırtdırdım, gəldi, dikildi, durdu.
>
> -Çavuş, bir bölük hazırla, həmən kənarda təkmil hazır ol!
>
> Yarım saat sonra çavuşun bölüyü hazır idi, qarşımda əsas duruşdaydılar. Çavuşu kənara çəkdim, ona bu əmri verdim:
>
> -Gürcü hüdudundakı dəmir yolu körpüsü bu gecə atılmalı və teleqraf xətti də kəsilməlidir. Sabaha icrasını istərəm.
>
> Və sabaha qarşı dəmir yolu körpüsünün atıldığı, teleqraf xətlərinin kəsildiyi xəbəri gəldi. Fon Kressin (Almaniyanın Tiflisdəki nümayəndəsi – M.S.) birliklərinin də Bakının zəbtinə qatılmaları ehtimalı aradan qalxdı.

Arxiv sənədlərinə görə isə sentyabr ayının 18-də Nuru paşa Mürsəl paşaya əmr edirdi ki, böyük körpünü partlada biləcək bir təxribat dəstəsi istehkam bölüyündən ayrılsın və lazımi təchizatla birlikdə Gəncəyə, xətt komissiyasının tabeliyinə göndərilsin. Heç şübhəsiz ki, bu vaxt artıq körpünün partladılması qərara alınmışdı. Ancaq Xəlil paşa sentyabrın 21-də İstanbula, Ənvər paşaya teleqram göndərib körpünün partladılması məsələsini onunla razılaşdırdı. Sentyabrın 22-də Ənvər paşa Xəlil paşanın teleqramına cavab verdi. O qeyd edirdi ki, hökumətdən icazə almayınca alman taborunun Bakıya buraxılmasının qeyri-mümkünlüyü Fon Kressin nəzərinə çatdırılsın. Ənvər paşa onu da əlavə edirdi ki, xəbərdarlığa baxmayaraq Fon Kress öz niyyətindən əl çəkməsə körpü partladılsın.

Körpünün partladılması almanların qarşısının alınması üçün sonuncu çarə idi. Başqa cür almam taborunun qarşısını artıq almaq mümkün deyildi. Körpü partladılandan sonra qatarın hərəkətinin qeyri-mümkünlüyü üzündən almanlar da Bakıya doğru hərəkətlərini təxirə saldılar. Sonradan beynəlxalq şəraitin kəskinləşməsi ilə görünür almanların bu niyyətinə birdəfəlik son qoyuldu.

Xəlil paşa ilə onun qərargah rəisi alman polkovniki Parakuin arasında Bakıda yaranmış gərginliyə Səlahiddən yüzbaşı da öz xatirələrində toxunmuşdu:

> Bakıdakı erməni və ruslar əmniyyət altında olmaq istəyirdilər. Onlardan bir qrupu Xəlil paşanın yanına gəldi. Aralarında alman, erməni, rus və digər millətdən olan insanlar vardı. Halları pərişan idi. Kimi yaralanmış, kimi qorxmuşdu. Geyim və hərəkətlərindən savadlı, varlı adam təsiri bağışlayırdılar. Evlərinin qarət edildiyini, ailələrinin zorakılığa məruz qaldığını söyləyirdilər. Şəhərdə aramsız

güllə səsləri eşidilirdi. Küçə döyüşləri davam etdiyi hiss olunurdu.

Alman qərargah rəisi Xəlil paşanın yanına gəlib vəziyyəti anlatdı. Xəlil paşa:

- Mən bu işlərə qarışmıram və qarışa da bilmərəm. Burada Azərbaycan hökuməti və Azərbaycan Ordusu komandanı Nuru paşa var. Bu işlərə o baxır – dedi.

Bundan sonra Parakuin:

- O, uşaqdır – deyə etiraz etdi.- Ordu komandanı deyil, Ənvər paşanın qardaşı olduğu üçün buraya göndərilmişdir. Bu məmləkətin idarəsi belə adamlara tapşırıla bilməz – dedi.

Bu, Nuru paşanı təhqir etmək idi. Xəlil paşa:

-Bir türk komandirinə hörmətsizlik etdiyiniz üçün sizi xidmətdən kənarlaşdırıram. İndi ölkənizə dönərək türk hüdudlarını tərk edəcəksiniz. Sizə daha ağır cəza vermirəmsə bu, türk millətinin xarici qonaqlara göstərdiyi hörmətlə əlaqəlidir.

Çox şey edəcəyini zənn edən qərargah rəisi bir anın içində heç oldu, çaşdı, donub qaldı. Otağına qayıtdı. Xəlil paşa qərargahdakı bütün alman zabitlərinin Parakuinlə birgə geriyə dönmələrini əmr etdi. Eyni zamanda mənə, Nuru paşanın köməkçisi Asəfə (Qilinc Əli) və Milli Xalq Komitəsi rəisi Aşurbəyova birlikdə şəhəri gəzərək sabitliyi yoxlamağı, xalqı sakitləşdirməyi və nəticəsini ona məruzə etməyi əmr etdi.

Biz üç saat şəhəri gəzdik. Gördüyümüz mənzərə faciə idi. Bunlara mane olmağa çalışdıq.

Üç günə qədər Bakıda qaldıqdan sonra bir qüvvə ilə Xəzər dənizini keçərək Türküstana çıxmaq üçün Nuru paşaya, Şimali Qafqaz istiqamətində hərəkətə keçməsi üçün general-leytenant Yusif İzzət paşaya əmr verdikdən sonra Gümrüyə hərəkət etdik.

Səlahəddin yüzbaşının bu xatirələrindən görünür ki, Xəlil paşa üç gün Bakıda qaldı. Bəzi məlumatlara görə həmin günlər ərzində Xəlil paşa Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin evində qonaq qalmışdı.

Türkiyədə Tələt paşa kabinəsi istefa verəndən sonra Xəlil paşa da ingilislər tərəfindən həbsə məruz qaldı. Bəzi məlumatlara görə, Xəlil paşa da 1919-cu il avqust ayının əvvəllərində, Nuru paşa ilə eyni vaxtda həbsdən qurtara bildi. Həyatını hərbiyə bağlamış olan Xəlil paşa yeni tarixi şəraitdə də Vətəni üçün lazım olan xidmətləri göstərmək üçün yollar axtarırdı. Bununla bağlı o, Mustafa Kamal paşa ilə, Kazım Qarabəkir paşa ilə görüşdü və onlarla məsləhətləşdi. Kazım Qarabəkir paşanın xatirələrində bununla bağlı maraqlı qeydlər qalmaqdadır. O yazırdı:

Bu gün 23 eylulda (sentyabrda – M.S.) əski ordu komandanı Xəlil paşanı (Ənvər paşanın əmisi) Dəmirəli bəy adı ilə naxçıvanlı Böyük xanın rəfaqətiylə Ərzrumdan Naxçıvana yola çıxardım. Xəlil paşa İstanbuldan qaçdıqdan sonra Sivasda Mustafa Kamal paşa ilə görüşmüş, vətən içində bir vəzifə verilməsi məhzurlu olduğundan yardımımla doğuya getməyə qərar vermiş, bir neçə gün əvvəl Ərzruma gəlmişdi. Xəlil paşa ilə Hərbi-Ümumi başlarında birer səfəri qüvvət komandanı olaraq geniş vəzifələrlə İstanbuldan ayrılmışdıq... Xəlil paşa cəsur, fəqət məqamının icab etdirdiyi qavrama və ağır başlıqdan uzaq, içki sevər, məiyyətilə laubalı bir komandandı... Xəlil paşa Ərzrumda mənim müsafirim olaraq qalmışdı. Yanında bir subay arkadaşı vardı. "Azərbaycana keçərək orada yaşamaqdan başqa çarəm qalmadı"- deyirdi. Kəndisinə gözəl bir azəri qiyafəsi ilə güvənilir bir arkadaş buldum. İcab edən yardımı da yapdım və bu tövsiyədə bulundum: "Halən Azərbaycanda müsavat hökumətinin vəziyytətə hakim

olduğunu, kəndilərinə bir kaç xəbər göndərməmə rəğmən, Türkiyə ölmüşdür deyərək bizə para yardımı yapmadıqlarını, halbuki qüvayi-milliyəmizin behəmehal müstəqil Türkiyəni yaşadacağını, erkec erməniləri əzərək Qafqazlara hakim olacağımızı, Azərbaycana və ya Ermənistana İtilaf (Antanta –M.S.) qüvvətləri sövqiyyatı görülürsə körpü və tunellərin təxribini və silah və muhimatın yağma edilməsini, bolşeviklərin də yaxında Qafqazı aşacağına şübhə etməmələrini, bunun üçün vaxt və zamanıyla bolşeviklərlə bağlantı qurub anlaşmalarını, ingilislərin Qafqazlarda yaxında yalnız sözləri qalacağını, icab edənlərə anlatması və bolşeviklərə Arpaçayı boylarında yaxınlaşmamıza mane olmamaları". Xəlil paşa bu zəmin üzərində çalışacağını vəd etdi.

Göründüyü kimi, Kazım Qarabəkir paşa Xəlil paşa verdiyi tövsiyələrində ingilis qüvvələrinin Azərbaycanda və Ermənistanda möhkəmlənməsinə qarşı mübarizə aparmağı, bunun üçün lazım olarsa körpüləri və tunelləri dağıtmağı, bolşevik qüvvələrinin isə Arpaçaya qədər irəliləməsinə şərait yaradılması istiqamətində fəaliyyət aparılmasını məsləhət bilirdi.

Kazım Qarabəkir paşa ilə görüşündən sonra Azərbaycana yollanmağı qərara alan Xəlil paşa 1919-cu ilin sonların yaxın Araz çayını adlayaraq Naxçıvana gəlir və bir aya yaxın burada qalır. Naxçıvanda olduğu vaxtda Xəlil paşa yerli qüvvələrin formalaşmasına və onların erməni silahlı dəstələrinə qarşı müqavimət göstərməsinə kömək göstərir. Sonra Xəlil paşa Ordubad və Qarabağdan keçməklə Bakıya gəldi. Onun Qarabağda olması burada hərbi-siyasi vəziyyətin mürəkkəbləşdiyi bir vaxta təsadüf edirdi. 1919-cu ilin sonlarında burada vəziyyət doğrudan da mürəkkəb idi. Xəlil paşanın yazdıqlarından belə çıxır ki, o hətta ermənilərə qarşı aparılan mübarizədə az-çox iştirak etmişdi.. Məsələn, o qeyd edir ki, Əsgəran boğazı tutulanda Bakıdan bir süvari alayının və bir topçu batareyasının göndərilməsini istəmiş və 3-4 saatlıq bir döyüşdən sonra Əsgəran boğazını ermənilərdən təmizləmişdi. Sonra Xəlil paşa qoşun hissələri ilə Şuşaya gəldiyini və burada Xosrov bəy Sultanovla görüşdüyünü də yazırdı.

Kazım Qarabəkir paşanın yazışmalarından aydın olduğu kimi, 1920-ci ilin yanvarında Nuru paşa Dağıstanda, Xəlil paşa da Bakıda idi. Xəlil paşa Bakıda azərbaycanlı gənclərdən əlavə, türk gəncləri və türk zabitləri ilə də əlaqədə olduğunu xatırladırdı. Bolşevik işğalı ərəfəsində Azərbaycana türk zabitlərinin gəlişi doğrudan da artmışdı. Azərbaycan hökuməti onları Ehtiyat alayda birləşdirərək ictimai asayişin mühafizəsinə, mühüm obyektlərin qorunması işinə cəlb edirdi. Buna bir ehtiyac da var idi. Çünki Azərbaycan ordusunun qüvvələri Qarabağda erməni təcavüzünə qarşı mübarizəyə cəlb olunduğu üçün Bakının mühüm obyektlərinin mühafizəsi xeyli zəifləmişdi. Sonradan isə məlum oldu ki, Ehtiyat alayda toplanmış olan türk zabitləri arasında da bolşevik təsiri kifayət qədər güclü olmuşdu.

Nuru paşanın Dağıstanda olması ilə bağlı Xəlil paşa öz xatirələrində aşağıdakıları yazırdı:

Bir gün kommunist təşkilat liderlərindən minbaşı Baha Sait yanıma gəldi və söylədi:

-Paşam, Şimali Qafqazda toplanan Qızıl ordu bir düşmən kimi deyil, bir dost olaraq Azərbaycana gələcəkdir. Bunun da ən böyük dəlili budur ki, siz şəxsən Şimali Qafqaza keçərsiniz, bu ordunun komandanlığı sizə həvalə ediləcəkdir. Bu ən yüksək mərkəzin aldığı qərar cümləsindəndir

-Danışdığınız aramızda qalacaqdır. Amma sizə sadəcə indilik zamanın olğunlaşmasını gözləyəcəyəm – cavabını verdim.

> Bu arada Denikin qüvvələri məğlub edilmiş və Nuru paşa Qızıl orduya qarşı müdafiəyə keçmişdi. Bakı və ətrafındakı kommunist təşkilatı kimi Dağıstanda da bir yayılma başlamışdı, bu durumda Nuru paşa qüvvələrinin bu mübarizəni davam etdirməsi əbəs idi. Nuru isə davam edirdi.
>
> Bir gecə Baha Sait bu dəfə yanıma Dağıstanlı kommunist Cəlal Qorxmazovu gətirdi. O dedi ki, Nuru paşanın qüvvələri tükənmək üzrədir. Özü də ölə bilər. Bu işə müdaxilə edin, onu geri çəkin. Nuru paşa başını qoyduğu işdən başını vermədən ayrılmazdı. Ertəsi gün Dağıstanın mərkəzi olan Qasımkəndə getdim, Nurunu tapdım. Onu özümlə gətirdim.

Kazım Qarabəkir öz yazışmalarında bolşevik qüvvələrinin Azərbaycandan keçərək Türkiyə sərhədinə yaxınlaşmasını, ingilis qüvvələrinin Türkiyə sərhədinə yaxınlaşmasının qarşısının alınması kimi qəbul edirdi və Xəlil paşadan da tələb olunurdu ki, Azərbaycan ərazisində bu istiqamətdə iş aparsın.

Xəlil paşa da bu tövsiyələri qəbul etdi və bolşeviklərlə iş birliyi qurdu və sovet qoşunlarının Azərbaycan ərazisinə girməsini dəstəkləyən bir mövqe tutdu. Xəlil paşa sovet qoşunlarının Azərbaycana girməsini yalnız dəstəkləmədi, eyni zamanda sovet qoşunlarının Azərbaycana girməsini asanlaşdırması üçün əməli addımlar atmağa başladı. Başqa sözlə, bir vaxtlar Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi uğrunda mübarizəyə qoşulan Xəlil paşa, yeni şəraitdə Azərbaycanın sovet qoşunları tərəfindən işğalını alqışlayırdı.

Yuxarıda yazılanlardan göründüyü kimi, Nuru paşa əmisi Xəlil paşanın Azərbaycanın müstəqilliyinə qarşı bu mövqeyini çox sərt tənqid edirdi. Ümumiyyətlə qeyd etmək lazımdır ki, Azərbaycanın taleyinin həll edilməsi Xəlil paşanın hansı mövqedə dayanmasından asılı deyildi. Xəlil paşa bolşevikpərəst mövqedə dayanıb-dayanmamağından asılı olmayaraq bolşevizm Azərbaycanı işğal etmək planlarından imtina etməyəcəkdi. Xəlil paşa isə bu məsələdə sadəcə olaraq Ənvər və Nuru paşalardan fərqli olaraq əqidə sabitliyi nümayiş etdirə bilmədi. Həyatının müdriklik illərində Xəlil paşa Azərbaycanın müstəqilliyinə qarşı əqidə sabitliyi nümayiş etdirə bilmədiyini dolayısı yolla etiraf edirdi. Xəlil paşa xatirələrində yazırdı:

> Azərbaycan Türkiyəyə böyük ümidlə baxırdı. Ancaq Türkiyə özü çətin vəziyyətdə idi. Mən Kazım Qarabəkirdən Azərbaycan ordusunun yetişdirilməsi üçün bir neçə zabit istəmişdim. Ancaq heç birini də göndərə bilmədi. Azərbaycan xalqı Türkiyə ilə bərabər olmaq istərkən, aydın sayılan qisim tək başına yaşamağı düşünməkdə və Türkiyə ilə birləşməkdən qorxu duymaqdaydı. Bir qismi isə İran Azərbaycanı ilə birləşməyi fikirləşirdi. Mən isə Azərbaycanı imkan daxilində gücləndirilərək Rusiya və Ermənistana qarşı özünü qoruyacaq bir hala gəlməsinə tərəfdaram.
>
> Bu vaxt Kazım Qarabəkirdən belə bir şifrə aldım: "Sovet Rusiyası ilə doğrudan doğruya təmas edə bilmək Türkiyə üçün həyati önəm halındadır. Bu durumda Nuru paşanın bolşeviklərə qarşı Dağıstanda cəbhə alması təəssüfə-şayandır". Ona Nuru paşa haqqında məlumat verdim. Arxasınca belə bir şifrə aldım: "Sizin, Ənvər və Nuru paşaların indi başlıca vəzifəsi sovet idarəsini türk hüduduna qədər ulaşdırmaq olmalıdır. Bu yolda çalışmaq lazımdır. Əks təqdirdə hərəkət ediləcək olursa bu, başqalarının vəziyyətinə yarayacaqdır".

Xəlil paşa xatirələrində Kazım Qarabəkir paşanın yuxarıda xatırlanan tövsiyələrinə narazılıqla yanaşdığını yazırdı:

> Qarabəkir paşa məni, Ənvəri və Nuru paşanı gərəkdiyi kimi tanımamışdı. Baş

> komandanlığı altında çalışdığı Ənvərin düşüncələrini bilirdi hər halda. Təbii ki, bu acı təlimatı qəbul etmək mənim üçün imkansızdı. Sovet hüdudunu Türkiyəyə qədər ulaşdırmaq açıqca Azərbaycanı ruslara təslim etmək olardı. İstiqlal və istiqbalı üçün əmək sərf etdiyimiz Azərbaycanın rəngi nə olursa olsun rusların idarəsi altına buraxmağı bir vətən parçası saydığım Azərbaycana ihanət sayırdım. Bu, mənim və ötəki türk paşalarının maddən və mədənən intiharından başqa bir şey olmazdı.

Bununla belə, Xəlil paşa Dağıstana yollandı və orada sovet qoşunlarının rəhbərliyi ilə görüşdü, onların Azərbaycan üzərinə yürüşünə qoşuldu. Xatirələrində Dağıstana yollanmasını Xəlil paşa Azərbaycan hökumətinin rəhbərləri ilə razılaşdırmasını iddia edirdi. Sonradan Rusiyanın xarici işlər naziri Çiçerinlə görüşdüyünü yazan Xəlil paşa Azərbaycanın işğal edilməsinin əbəs olduğunun ona da xatırlatdığını bildirirdi.

Xəlil paşa uzun həyat yaşamış və 1957-ci ildə vəfat etmişdi.

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1.”Azerbajcan” dergisi, eylül 1991

2. Азербайджанская Демократическая Республика. Документы и материалы. Баку, 1998

3.Birinci Dünya harbinde türk harbi Kafkas cebhesi 3-cü ordu harekatı,II c.,Ankara,1993

4. Денстервил Л. Британский империализм в Баку и Персии 1917-1918 гг. Тифлис, 1925

5.Qocatürk Utqan.Atatürk,Bakı,1991.

6.Yüceer Nasir.Birinci Dünya savaşında Osmanlı ordusunun Azerbaycan ve Dağıstan harekatı, Ankara,1996.

7.Kantemir F.Enver paşanın son günleri,İstanbul,1943.

8.Kemalyeri Mucib.Canaqqale ruhu nasıl doğdu ve Azerbaycan savaşı (1917-1918), İstanbul,1972.

9.Məmmədov (Bayramoğlu) Alxan.Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat.- Bax:"Ulduz" jurnalı, N5,1990.
10.Nuri paşa. Kafkas İslam Ordusu harekatı.Türkiye Silahlı Kuvveleri Genel Kurmay Başkanlığı Askeri Tarix ve Strateji Etüd başkanlığı arşivi (ATASE),BDH bölümü,k.3823,d.22,f.6-1!6-32.
- Nuri (Killigil) paşanın Trablusqarp savaşı hatiraları. Atatürk Universitesi Atatürk İlkeleri və İnkilap Tarihi Enstitüsü Atatürk Dergisi. 2012, N-1, s. 137-170
11.Rəsulzadə M.Ə.Azərbaycan cümhuriyyəti,Bakı,1990.
12.Rüştü.Büyük harpde Bakı yollarında 5.Kafkas piyade firkası.93 saylı Askeri mecmuanın Tarih kısmı,1934,N34.
13 Süleyman İzzet.15 piyade tümeninin Azerbaycan ve Şimali Kafkasyadakı harekatı ve müharibeleri.103 saylı Askeri mecmuanın tarih kısmı,1936,N4.
14.Aydemir Ş.S.Makedoniyadan Orta Asiyaya Enver paşa,III c.,İstanbul.1993.
15.Halil paşa.Bitmeyen savaş,İstanbul,1972
17.Hüsameddin Tuğac.Bir neslin davamı,İstanbul,1972.
18.Fahri Bilen.Birinci cinah harbinde türk harbi.1918 yıl harekatı,5 c.,Ankara,1967.
19.Şeyxzamanlı N.Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, 1998
20. Nejdet Karaköse. Afrika qrup komutanı, Kafkas İslam Ordusu komutanı, Sütlüce fabrikası sahibi Nuri Paşa. Ankara, 2012
- Nejdet Karaköse. Birinci düny savaşında Trablusqarp cephesi və Afrika qrupları komutanı Nuri paşa (Killigil). www.tarihinpesinde.com/sayi106/12.pdf
21. Görüyılmaz M. Türk Qafqaz İslam Ordusu və ermənilər (1918). Bakı, 2009
22. Enver paşanın özel mektubları. Ankara, 1997
23. Yamauchi M. Hoşnut olmamış adam – Enver paşa. Türkiyeden Türküstana. Ankara, 1995
24. Rüstəmova – Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919-1943. Bakı, 2001
25. Зевелев А.И., Поляков Ю.А., Шишкина Л.В. Басмачество: Правда истории и вымысел фальсификаторов. Москва, 1986
26. Bayramoğlu A. Qafqaz imdadına çatan türkün könül nəğmələri. Bakı, 2002
**27.** Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı, 1999
28. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008

## NURİ PAŞANIN XATİRƏLƏRİ

Nuri paşanın Qafqaz İslam Ordusu haqqındakı bu raport xarakterli xatirələri 1918-ci ilin mart ayı - 1920-ci illər arasında Güney Qafqaz və xüsusilə Azərbaycanda baş verən hərbi-siyasi hadisələr haqqında məlumat vermək məqsədi ilə hazırlanmışdır. Bir başqa ifadə ilə, Nuri paşanın həm Qafqaz İslam Ordusu komandanı kimi, həm də ondan sonrakı dövrdə Azərbaycanda yaşadığı və göstərdiyi fəaliyyətlərin bir təsviridir. Xatirələrin subyektiv olduğu iddia edilsə də, hərbi fəaliyyətlər bilavasitə rəsmi sənədlərlə birlikdə təsvir edildiyindən 1918-1920-ci illər Güney Qafqazdakı siyasi və hərbi hadisələri dərk etməyimizə yardım edən son dərəcə əhəmiyyətli tarixi bir sənəd sayıla bilər.

Digər tərəfdən, Nuri paşanın bu raportu Birinci Dünya müharibəsinin sonuna az qalmış bir dövrdə Osmanlı dövlətinin, bir az da Ənvər paşanın səyi ilə Azərbaycanın müstəqilliyini reallaşdırmaqla Qafqazı, hətta, Orta Asiyanı əhatə edən böyük siyasi fəaliyyətinin təsviridir. Bu təsvirin daxilində Azərbaycan və Dağıstanın müstəqilləşdirilməsi də yer alır. Nuri paşanın bu raportundan məlum olur ki, həm osmanlılar, həm də azərbaycanlılar Azərbaycanla Dağıstanın (daha dəqiq desək, Quzey Qafqazın) taleyini bir yerdə görürdülər. Bu səbəbdən, hətta "Mudros müqaviləsi"ndən də sonra Osmanlı ordusu Dağıstanın Dərbənd şəhərinə qədər irəliləmişdir. Əlavə olaraq, Azərbaycan hökuməti də, sərhədləri yaxınlığında yaradılmış Quzey Qafqaz (Dağıstan) Respublikasına hər növ kömək etmiş və 50 milyon rubl (2,5 milyon ingilis lirəsi) borc pul vermişdir. Bütün bu hadisələri Nuri paşanın Qafqaz İslam Ordusu haqqında hazırladığı raportdan öyrənmək mümkündür və bu mənada bu raport son dərəcə əhəmiyyətlidir.

## QAFQAZ İSLAM ORDUSU HƏRƏKATI

1918-ci ilin yanvar ayının əvvəllərində Trablusqərbin (Libiya) vəziyyətini müzakirə etmək üçün Afrika Qrupları Komandanlığının mərkəzi olan Mısratadan sualtı gəmi ilə və Pola yolu ilə İstanbula gəldim. Bu dövrdə rus inqilabı səbəbi ilə Qafqaz və Şərqin vəziyyəti əhəmiyyətli dərəcədə dəyişməyə başlamışdı. Şərq cəbhəmizin irəliyə əməliyyatlarını asanlaşdırmaq məqsədilə Qafqazın müsəlman və türk əhalisi yaşayan məntəqələrində təşkilatlanmaq vəzifəsi Baş Hərbi Qərargah tərəfindən məqsədəuyğun görülmüşdü. Əsasən, Qafqaz müsəlmanları tərəfindən də yardım məqsədi ilə 1917-ci ilin oktyabr ayında bir heyət Mosula, 1918-ci ilin mart ayında isə Batum yolu ilə bir heyət İstanbula göndərilmişdi. 6-cı ordu vəziyyəti tədqiq üçün üç zabitini Qafqaz nümayəndə heyətinə daxil edərək Qafqaza göndərdi. Bu zaman Qafqazda hərbi quruculuq işləri görmək vəzifəsi bir neçə nəfərə təklif edilmiş və nəticədə Baş Hərbi Qərargah mənim namizədliyimi məqsədəuyğun bilib bu vəzifəni israrla mənə tapşırmışdı. Təxminən iyirmi zabitdən ibarət bir heyətlə dərhal yola çıxaraq 1918-ci il martın 25-də Mosula çatdıq. Əvvəlcə, 6-cı ordudan Qafqaza göndərilən artilleriya baş leytenantı Müzəffər bəyin (hazırda Hərbi Akademiya müəllimlərindən qərargah polkovnik-leytenantı) Mosula geri qayıtdığını gördük. Müzəffər bəyin məlumatına əsasən Qafqazdakı vəziyyət hərbi quruculuq işləri görmək üçün şəraitə uyğun idi.

1918-ci il martın 31-də Bakıda erməni və ruslar tərəfindən müsəlmanlara qarşı qətliam törədilməsi xəbəri alındığından sürətli hərəkət etməyimiz vacib idi. Ehtiyacımız olan kadrları qismən VI-cı Ordudan əldə edərək, 1918-ci il aprelin 8-də Mosuldan yola çıxdıq. Yolda ərzaq problemi səbəbi ilə, iyirmi-otuz nəfərlik qruplar şəklində Rəvandiz, 1918-ci il aprelin 26-də Pesva, 1918-ci il aprelin 29-da Savuçbulaq, 1918-ci il mayın 9-da Təbrizə çatdıq. 1918-ci il mayın 12-nə qədər Təbrizdə qalaraq, Alacücəyə Qaradağ yolu ilə 1918-ci il mayın 25-də Arazı sal ilə keçərək Azərbaycanın Zəngəzur bölgəsinə gəldik.

İrandan keçdiyimiz zaman, 6-cı ordu hissələri Rumiyə (Urmiyə - red.) gölünün qərbindəki ermənilərlə mübarizə aparırdı. Dəstəmizin Rumiyə gölünün şərqindən Təbrizə tərəf hərəkət xəbərini iranlılar yaydığından Rumiyədə ermənilərə yardım edən ingilislər və fransızlar mühasirədən qorxaraq, Rumiyəni tərk edib, bizdən bir gün əvvəl Təbrizə gəlmiş və ertəsi gün cənub istiqamətinə tərəf geri çəkilmişdilər. Təbrizdə bağlı olan konsulluq binasına yerləşdik. Burada qaldığımız bir-iki gün içində İran siyasi

partiyalarından Osmanlı tərəfdarı olan İttihadla istiqlaliyyətçi və İranpərəst olan Demokrat Partiyası arasında silahlı münaqişə oldu. Zəif olan İttihad konsulluqdan yardım istəyərək, bir müddət bizim himayəmizdə qaldı. Rumiyədən geri çəkilən ingilislər haqqında yaxından məlumat almaq və Gilan bölgəsini idarə edən Kiçik xanla görüşdükdən sonra imkan olarsa, Ənzəli vasitəsilə Bakıya gedərək və Bakı haqqında lazım olan məlumatı alıb Gəncədə bizə qoşulması üçün kapitan İbrahim Kamal bəyə (indi Afina hərbi attaşesi) tapşırıq verdim.

Ermənilər tərəfindən sıxışdırılan Naxçıvan və Ordubad bölgəsində hərbi və mülki quruculuq işləri görmək üçün kapitan Xəlil bəyi iki zabitlə ora göndərdim. Azərbaycana daxil olanda yerli xalq tərəfindən böyük coşqu ilə qarşılandıq. Bu dövrdə Qarabağ, Zəngəzur kimi ermənilərin nisbətən sıx yaşadığı məntəqələrdə tez-tez münaqişələr baş verirdi. Ermənilər silahlı qüvvələrə malik olduğundan burada müsəlmanlara nisbətən üstün vəziyyətdə idilər. Bu kimi əhəmiyyətli məntəqələrə yanımdakı bəzi zabitləri komandir təyin edərək yolumuza davam edib Cəbrayıl  Ağdam-Tərtər (Bərdə) yolu ilə Yevlax stansiyasına gəldik. Hər tərəfdən gələn nümayəndələrlə görüşdük. Əvvəlcə qərargahımızı Nuxada təsis etməyi məqsədəuyğun gördüm. Lakin ermənilərin təhdidlərinə qarşı mübarizə aparmağa müvafik və dəmiryoluna malik Gəncəyə üstünlük verərək, həmin gün axşam yola çıxdıq və 1918-ci il mayın 25-də şəhərə gəlib çatdıq.

Bu zaman Azərbaycanda vəziyyət belə idi: Güney Qafqaz millətləri gürcü, erməni və müsəlmanlar tərəfindən yaradılan Cənubi Qafqaz Konfederasiyasının paytaxtı Tiflis idi. Federasiya Məclisi olan Seym sadəcə gürcü və ermənilərin mənfəətini qoruyan bir təşkilat idi. Müsəlmanlara əhəmiyyət verilmirdi. Seymdə əhəmiyyətli komissarlıqlara gürcü və ermənilər təyin edilmiş və sadəcə Sosial Yardım Komissarlığı azərbaycanlılara verilmişdi. Türk cəbhəsindən geri çəkilən rus hərbi birləşmələri öz silah və ləvazimatlarını sadəcə erməni və gürcülərə verirdilər. Təkcə Gəncənin qərbində yerləşən Zəyəm bölgəsinin türk kəndliləri əsirlikdən qaçan zabitlərimizin rəhbərliyi ilə (Tehran hərbi attaşesi Hüsaməddin bəy belə zabitlərdəndir) dəmiryolunu ələ keçirərək cəbhədən geri çəkilən bir neçə rus alayının silahını alıb, bu şəkildə silahlana bilmişdilər. Eyni zamanda, ölkələrinə qayıdan silahlı rus birləşmələri dəmiryolu xətti boyunca müsəlman kəndlilərinə və xüsusilə Bakının şimalındakı əhaliyə zülm edirdilər. Güney Qafqazda ermənilərlə türklər arasında əvvəldən bəri davam edən düşmənçilik vardı. Rusların getməsindən sonra müdafiəsiz qalan Göyçə gölünün qərbindəki İrəvan müsəlmanları ermənilər tərəfindən qətliama məruz qalırdılar. Azərbaycanın Qarabağ və Gəncə məntəqələrində isə, müsəlmanlar güclü olduğundan ermənilərə müqavimət göstərməyə davam edirdilər. Bu zaman Avropa cəbhəsindən geri dönən rus hərbi birləşmələri tərkibindəki erməni əsgərləri də öz yurdlarına qayıtmaq üçün Bakıda toplaşmışdılar. O dövrdə Bakıya hakim olan bolşevik partiyası lideri Şaumyan adlı bir erməni idi. O, adıçəkilən hərbi birləşmələrdən istifadə edərək Azərbaycanı işğal etmək barədə qərar vermiş və müxtəlif bəhanələrlə müsəlmanların əleyhinə zorakılığa başlamışdı. 1918-ci il martın 31-də Lənkərandan Bakıya gələn iyirmi Azərbaycan əsgərinin silahını almaq bəhanəsi ilə ermənilər Bakıdakı müsəlmanlara hücum etmiş və iki gün içində Bakı türklərindən minlərlə müsəlman kişi-qadın öldürülmüşdü. Bu hadisədən ilham alan, Azərbaycanın digər məntəqələrində yaşayan ermənilər üsyan edərək müsəlmanlara hücum etməyə başladılar. Bakıdan göndərilən birləşmələrlə qüvvətlənən Şamaxı erməniləri buradakı müsəlmanlara qarşı qətliam törətdilər. Nuxa, Zaqatala və Gəncədən müsəlmanlara yardım üçün gələn qeyri-nizami birləşmələr bir iş görə bilməyərək məğlub oldular. Meydanı boş görən erməni birləşmələri qərbə tərəf

irəliləyərək Müsüslü-Göyçay xəttinə qədər olan kəndləri dağıdıb, əllərinə keçəni qətl etdilər. Bolşevik təhlükəsinin yaxınlaşdığını görən gürcülər rus ordusunda zabit olmuş Knyaz Maqalov adlı bir şəxsin rəhbərliyi ilə iki yüzə qədər gürcü əsgərini müsəlmanlara kömək üçün göndərdilər. Rus ordusu generallarından azərbaycanlı Əli ağa Şıxlinski çar Rusiyasının Avropa cəbhəsində istifadə etməsi üçün Qafqaz müsəlmanlarından təşkil etdiyi “Dikaya diviziya”ya[1] (Vəhşi Diviziya) mənsub əsgərlərdən “Tatarski polk” (Tatar alayı) adı ilə üç yüz süvari toplayaraq işğalçılara qarşı mübarizə aparmağa təşəbbüs etdi. O, bu alaya ağqvardiyaçıları da qatmışdı.

Nuxa-Zaqatala kimi şimal bölgələrində və Dağıstanda əsirlikdən qaçan zabit və əsgərlərimiz tərəfindən yaradılmış bəzi hərbi təşkilatlar da var idi.

Dağıstanın müxtəlif yerlərində, xüsusilə dağlıq bölgəsində bolşevik əleyhdarı və cənub bölgəsində də bolşevik tərəfdarı kiçik birləşmələr mövcud idi. Bunların arasında daima silahlı münaqişə var idi. Gəncənin cənubundakı dağlıq bölgələrində məskunlaşan ermənilər Bakıdan gələnlərə yardım üçün hazır vəziyyətdə və müsəlmanlarla daim münaqişədə idilər. Hətta, Gəncənin yarısına yaxın bir hissəni təşkil edən Ermənikənd məhəlləsi ilə türk məhəllələri arasında gecə-gündüz silah səsləri eşidilirdi. Giriş-çıxış çətinləşmişdi. Zəngəzur erməniləri də Qarabağın mərkəzi olan Şuşa qəzasına tərəf irəliləyirdilər. Şuşa-Ağdam-Yevlax yolu üzərindəki Əsgəran keçidi ermənilər tərəfindən ələ keçirilmişdi. Gəncəyə gəldiyim zaman Batum türk hərbi birləşmələri tərəfindən tutulmuşdu. Almanlar da Tiflisə gəlmişdilər. Gürcülərin Azərbaycan ərazilərinə qarşı bəzi tələbləri olsa da, bu bizim üçün ciddi bir təhlükə təşkil etmirdi.

**Əməliyyat**

İlk olaraq, Azərbaycan vilayətlərinə mülki və hərbi məsləhətçi kimi zabit heyəti göndərildi. Qəza və nahiyələrdə isə yerli əhalidən ibarət mülki təşkilat yaradılmışdı. Bu şəkildə, qısa zamanda nizam-intizam bərpa edilmiş, Gəncə, Qazax, Zaqatala, Nuxa, Ağdam, Ağdaş, Cəbrayıl, Qarabağ məntəqələri ilə Zəngəzurun şərq hissəsini əhatə edən geniş bir sahədə idarə və komandanlıq yaradılmışdı. Azərbaycanı şərqdən və cənub-qərbdən təhdid edən düşmənə qarşı sadəcə yerli qüvvələrlə müqavimət göstərmək mümkün olmadığından mənim tələbim əsasında 5-ci Qafqaz firqəsi əmrimizə göndərildi. Firqənin Cəmil Cahid bəyin (indi diviziya komandiri) rəhbərliyi altındakı 13-cü alayı 1918-ci il iyunun 12-də Azərbaycana gəlmiş və Gəncəyə göndərilərək, buradakı ermənilərin müqavimətinə baxmayaraq, onları tərk-silah etmişdi. Bundan sonra bu alaydan bir dəstə Qarabağdakı hərbi birləşmələrin komandiri İsmayıl Həqqi bəyin əmrinə göndərilmiş və yerli birləşmələrlə bərabər Şuşa qəsəbəsinin ermənilər tərəfindən işğal edilmiş, sıldırım yamaclı Qala şəhəri hissəsi çətin bir mübarizədən sonra ələ keçirilərək, bu bölgədəki erməni hücumları təhlükəsinin qarşısı alınmışdı. Digər bir dəstə də gürcülərin yeni başlayan hücumlarına və cənubdakı ermənilərin gözlənilən əməliyyatına qarşı Qazaxda qalmaqla, alayın digər hissələri cəbhəyə göndərildi.

Tiflisi işğal edən general fon Kress komandanlığındakı alman ordu hissələri bizimlə müttəfiq olmalarına baxmayaraq, gürcülərlə birlikdə bizə qarşı düşmənçiliyə başlamış, Sadaxlı və Qarayazını işğal etmişdilər. Bunlar Poylu körpüsünün cənubuna

[1] Dikaya divizuya. Qafqazın müsəlman əhalisindən təşkil olunmuş alaylardan ibarət idi. Burada dikaya (vəhşi) sözü daha çox təlim, təhsil görməmiş hərbi birləşmə mənasındadır.

keçərək, adıçəkilən stansiya və daha cənubdakı Ağstafa stansiyalarına hərbi hissə göndərib, alman və gürcü bayraqlarını ora asdıqlarından, tərəfimizdən verilən əmrlə, yerli əhalinin də köməyi ilə işğalçıların silahları əllərindən alınmış, bayraqları endirilmiş, özləri Kür çayının o biri tərəfinə göndərilmişdi. Almanlar hərbi birləşmələrimizin dəmiryolu vasitəsi ilə Azərbaycana gəlməsinə mane olduqları üçün hərbi daşıma məcburi şəkildə Batum-Artvin-Ərdəhan-Qarakilsə-Dilican quru yolları vasitəsilə göndərilirdi.

Bakıdan hücum edən erməni və ruslardan ibarət düşmən ordusu, bu zaman Kürdəmiri işğal edərək, qarşılarına çıxan azərbaycanlı və könüllü gürcülərdən ibarət 300-400 nəfərlik müdafiə birləşmələrini geri çəkilməyə məcbur etmişdilər.

15.06.1918-ci ildə düşmənin cənub istiqamətindəki birləşmələri dəmiryolu vasitəsilə Müsüslü stansiyasının şərqindəki bataqlığa gəlmiş və düşmənin digər bir güclü hərbi hissəsi Şamaxı-Ağsu yolu ilə Göyçaya yaxınlaşmışdı. Eyni gündə Qarakilsə-Dilican yolu ilə gələn 5-ci firqənin 10-cu alayı Ağstafa stansiyasından qatarla daha təhlükəli görünən düşmənin şimal birləşmələrinə qarşı müqavimət göstərmək üçün Göyçaya göndərilmişdi. Bu düşmən birləşməsi arxasındakı erməni qəsəbəsinin köməyi ilə Yevlax dəmiryolu körpüsünü rahatlıqla ələ keçirərək öz vəziyyətlərini möhkəmləndirmək istəyirdi. Qərargah polkovnik-leytenantı Osman bəyin (indi millət vəkilidir) rəhbərliyi altındakı 10-cu alay Göyçaya gəldiyi günün səhəri tabeliyindəki ağır zirehli hərbi birləşmə ilə şərqə tərəf irəliləsə də, Göyçayın 4-5 km. şərqində düşmən mühasirəsinə düşərək iki yüzdən çox insan və iki topunu itirmişdi. Alayımızın düşmənlə bu ilk döyüşünün ağır nəticəsi alay rəhbərliyinin diqqətsizliyindən baş vermişdi. 5-ci firqənin geridə qalan hissələri Batum-Tiflis yolu bağlı olduğu üçün Qars-Qarakilsə-Dilican təriqi ilə asta-asta gəldiyi üçün ön hissələrə ancaq iyunun 22-də çatmışdı. Bu vaxta qədər cəbhədə müdafiə vəziyyətində qalaraq, qüsurlarımızın düzəldilməsi ilə vaxt keçirilmişdi. Azərbaycanın müxtəlif yerlərindən səfərbər olunan könüllülər də bir-birinin ardınca cəbhəyə göndərilirdi.

Azərbaycanın türk ordusunun əlinə keçməsinin əleyhinə olan almanlar bizə qarşı siyasətə davam edərək, hər fürsətdə bunu bildirməkdən geri qalmırdılar. Bu günlərdə alman əsirlərini geri almaq bəhanəsi ilə Bakı bolşevikləri ilə anlaşmaq üçün göndərdikləri xüsusi heyətin cəbhəni keçə bilməməsi səbəbilə başqa bir heyəti təyyarə ilə Tiflisdən Bakıya göndərmişdilər.

İyunda diviziyanın ara-sıra etdiyi hücumlar müvəffəqiyyətlə nəticələndi. Cəbhəmizin sol tərəfində və Göyçay-Ağdaş-Xaldan sərhədinin şimalında yerləşən erməni məntəqələrinə qarşı ehtiyatlı tərpənərək şimalda Zaqatala, Nuxa könüllü birləşmələri müxtəlif şəkildə yerləşdirildi. İyunun 26-da axşama qədər toplanan bütün könüllülər və diviziya hissələri cəbhəyə göndərildiyi üçün hücuma keçmələri əmr olundu. İyunun 27-də Kürdəmir-Qaraməryəm istiqamətində olan düşmən hücuma keçsə də, məğlub edilmişdi. Birləşmələrimiz iyunun 28-30-da əks-hücuma keçərək düşmənin şimal birləşmələrini Ağsuya qədər qovmuş, cənub birləşmələrimiz isə bataqlıqlar səbəbi ilə rahatlıqla irəliləyə bilməmişdi.

İyunun 30-da firqənin sol cinahı boyunca Azərbaycanın erməni məntəqəsindən hücuma keçən düşmən birləşmələri diviziyanın arxasında qalan Göyçay qəsəbəsini işğal etmişdi. Lakin düşmənin bu əməliyyatı ehtimal olunduğu üçün ordu qərargahı əvvəlcədən bunu nəzərə almışdı. Könüllülər və cəbhə birləşmələrindən ibarət hərbi

qüvvələrimiz düşmənin Bakı və Tiflislə olan əlaqəsini kəsmiş, həmin düşmən birləşməsi və onlara yardım edənlər məhv edilmişdi.

Cənubda Ağsu, Qaraməryəm, Göyçay, Ağdaş, Xaldan, Kür çayı və şimalda Şamaxı-Qutqaşen-Qəbələ-Nuxa-Zaqatala məntəqələri ilə əhatə olunan bu ərazidə erməni əhalisinin sayı 1917-ci il rus sənədlərinə görə, Bakı erməniləri ilə birlikdə 280 mindən çox idi. Bu əməliyyatda bir top, çoxlu silah və qənimət ələ keçirdik. İyulun 3-də düşmən birləşmələri Kürdəmir, Ağsu və bizim cəbhəmizdə Müsüslü-Külüllü sərhədində yerləşmişdi. 5-ci piyada firqəsindən ayrılaraq keçmiş rus zabiti mayor Ramazanovun rəhbərliyi altında Salyan cəbhəsinə göndərilən bir dəstə Kür çayının mənsəbini ələ keçirərək, quru və çay yolları ilə irəliləyən üç növdən ibarət təxminən min nəfərlik düşmən dəstəsini yerli türk əhalisinin də yardımı ilə məğlub və həbs etmiş, xeyli qənimət də ələ keçirmişdi.

İyulun 6-da Göyçayın şimalındakı ermənilərə qarşı apardığımız əməliyyat sona çatdığı üçün diviziya irəliləməyə davam etsə də, piyada və topçu ləvazimatının azlığı səbəbi ilə Şamaxı yamaclarında dayanmağa məcbur olmuşdu.Firqənin silah-sursat sərfiyyatı həddindən çox idi. Piyada silah-sursatının gəlməsindən sonra yenidən hücuma başlanmış, düşmən Kürdəmirdən qovularaq əsir və qənimətlər ələ keçirilmişdi.

İyulun 16-da İrandan 3000 nəfər olduğu bildirilən rus-kazak birləşmələri Bakıya gəlməyə başlamışdı. Ümumi rəhbərliyi də Biçeraxov ələ almışdı. İngilislərin də Ənzəlidən Bakıya hərəkət etməsi də xəbər verilmişdi (Bu günlərdə ordu əmrinə verilən 15-ci diviziyanın 38-ci alayı da gələrək cəbhəyə göndərildiyindən gücümüz xeyli artmışdı).

İyulun 22-də əsas hücumla Sığırlı stansiyasında olan düşmən geri oturdulmuşdu. Şimal birləşmələrimiz isə Şamaxını azad etmişdilər. Son döyüşlərdə düşməndən üç top, on iki pulemyot, minə qədər tüfəng ələ keçirilmişdi. Birləşmələrimizin Bakıya yaxınlaşdığını görən almanlar əməliyyata mane olmaq üçün İstanbulda baş qərargaha təsir göstərməyə çalışırdılar. Lakin, müdafiə nazirinin xüsusi əmri ilə hücumu davam etdirmək və hərəkəti sürətləndirmək etməyimiz tapşırılmışdı (Əmrə bax!). İyulun 23-də firqənin ön birləşmələri Bakının 70 km . qərbinə qədər irəliləmişdi.

Susuz olan bu məntəqəni ələ keçirmək üçün lazım olan hazırlıqlar görülmüş və iyulun 28-də irəliləyən kəşfiyyatçı süvari birləşməmiz bir zabit, dörd sürücüdən ibarət bir ingilis zirehli maşını və iki adi maşını ələ keçirmişdi. Bununla da, ingilislərin Bakıya gəlməsi öz təsdiqini tapmışdı. İngilislərin Bakıda toplaşmasından və burada möhkəmlənməsindən əvvəl əlimizdəki mövcud birləşmələrlə Bakını ələ keçirməyə qərar verərək, avqustun 13-də hücuma keçmişdik. Avqustun 15-də Bakının qərbindəki qəbiristanlıq və qışlalara qədər irəliləsək də, topçu və piyada silah-sursatının azalması və düşmənin güclü müdafiə olunması səbəbi ilə dəmiryolunun qərbində dayanmağa məcbur olduq. Ehtiyacımız olan canlı qüvvə və silah-sursat əldə etməklə yanaşı, düşmənin gəmilərlə öz gücünü artırmasına da mane olmaq lazım idi. Bu günlərdə ingilis birləşmələri tamamilə Bakıya gəlmiş və əsasən müdafiəyə əlverişli olan Bakının ətrafını möhkəmlətməyə başlamışdılar. Düşmən dəmiryolunun şərqi və Bakının qərb yamaclarında möhkəmlənmə fəaliyyətini şimala tərəf genişləndirərək, Abşeron yarımadasının qərbə qarşı müqaviməti üçün düz bir müdafiə xəttinin yaradılmasına çalışırdı. Biz də həm düşmən mövqeyinin möhkəmlənməsinə mane olmaq, həm də düşmən mövqelərini şimal və şimal-şərq tərəfdən ələ keçirmək üçün Abşeron yarımadasının şərq və şimalındakı müsəlman kəndlərində təşkilatlanaraq, Suraxanı-Sabunçu-Balaxanı-Binəqədi tərəflərdə cəbhə təşkil etməklə düşməni narahat etməyə

başladıq. Bakının qərb cəbhəsi şəhərə çox yaxın olduğu üçün hücuma buradan başlamağı əlverişli saydıq. Hər nə qədər, 15 hücumu ilə düşmənin nəzəri bu cəbhəyə cəlb edilsə də, düşmənlə aramızı ayıran dəmiryolu sahəsinin sıldırım yamacları buradan hücum etməyə o qədər də uyğun deyildi. Ərazinin xüsusuyyətinə uyğun gücümüzü artırmaqla, bu cəbhədən ediləcək hücumumuz müvəffəqiyyətlə nəticələnə bilərdi. Beləliklə, buradakı hazırlığımızı düşmənin diqqətindən yayındırmaq üçün Biləcəri və şimal cəbhəsindən hücuma keçdik.

Təşəbbüslərimiz lazım olan təsiri göstərmişdi. Düşmən Biləcəri stansiyasının şimalındakı Yanardağ və şərqindəki Binəqədi yamaclarına, Biləcəri stansiyasının ətrafı və cənubdakı arxa mövqeyinə diqqət yetirməyə başlamışdı. Yanardağın arxası düşmən cəbhəsinin qarşısında və mürəkkəb yerdə olduğu üçün oranı möhkəmlətməyə xüsusi diqqət verilirdi. Bakıya hücumumuz zamanı sol cinahımıza təhlükə yaradan yamacların düşmən tərəfindən möhkəmləndirilməsinə mane olmaq və burada düşmənin tək qalan hərbi birləşməsini məhv etmək üçün avqustun 24-də günəş doğarkən Yanardağı, avqustun 31-də isə Binəqədini sürətli və güclü hücumla mühasirə edərək bu bölgədə möhkəmlənməyə çalışan düşmən qüvvələrini (bir bölüyü ingilis) dağıtdıq və əsir aldıq. Bu müvəffəqiyyətlər düşməni mənəvi cəhətdən sarsıtmış və əsgərlərimizin əhval-ruhiyyəsini gücləndirmişdi.

Sentyabrın 12-nə qədər 15-ci firqədən digər 56-cı alayı və 36-cı diviziyanın 10-cu alayı da bizə qoşulmuşdu. Ehtiyacımız olan silah-sursatı da əldə etmişdik. Sentyabrın 13-də düşməndə şimaldan hücum edəcəyimiz fikrini yaratmaq üçün birləşmələrin hamısı Yanardağ-Binəqədi bölgəsində toplanmışdı. Həmin gün düşmən təyyarələri bu vəziyyəti öyrənmişdilər. Sentyabrın 13-dən 14-nə keçən gecə 38-ci alay və Azərbaycan könüllüləri 15-ci firqə komandanının rəhbərliyi ilə şimal cəbhəsini tərk etmişdi. Digər qüvvələr, yəni Rumıniya cəbhəsindən gələn və mükəmməl halda olan 15-ci firqənin 56-cı alayı, 5-ci firqənin alayları və 36-cı firqənin 107-ci alayı şəhərin qərbindəki dəmiryoluna yaxın yerlərdə toplaşdılar. Məqsədimiz düşməndə əsas hücumun şimaldan olacağını çatdırmaqla onun fikrini azdırmaq idi. Buna görə də, Bakının qərb cəbhəsinə qarşı topladığımız birləşmələr, silah işlətmədən, sadəcə qumbara və süngü hücumu ilə sığınacaqlarda qorunan düşmən mövqelərini bir-birinin ardınca ələ keçirmişdi. Şimal birləşmələrimizə də çoxlu silah-sursatla düşmənin ehtiyat birləşmələrinə hücum tapşırığı verilmişdi. Hər iki cinah tapşırığı tam yerinə yetirmişdi. Günəş doğmadan Bakının qərb yamacları artıq tamamilə hərbi birləşmələrimizin əlinə keçmişdi. Bu əməliyyatda hücum edən əsas hərbi birləşmələrimiz az bir itki ilə məqsədinə çatsa da, şimal birləşmələrimiz ciddi itkilərə məruz qalmışdı. O gün axşama qədər, Bakının qərb və şimalındakı mövqelər düşməndən təmizlənmişdi. Çoxlu pulemyot və zirehli maşınlarla təchiz olunmuş düşmənlə küçə döyüşünə girməklə çox itki verəcəyimiz ehtimalına görə gecəni şəhərdən kənarda keçirmişdik. Ancaq top atəşi ilə düşmənin limanları və müqavimət nöqtələri atəş altında saxlanmışdı. Sentyabrın 15-də günortadan sonra əvvəlcə 56-cı alay şəhərə daxil olmuş və mühüm obyektlər ələ keçirilmişdi. Hədəfimiz olan Bakı alınmış, bu mühüm əməliyyat sona çatmışdı. Bundan sonra hərəkatımız Quzey Qafqaz və Qarabağa istiqamətlənmişdi.

**Bakının ələ keçirilməsindən sonrakı əməliyyatlar**

Bakının alınmasından sonra Dərbənd və Petrovska qayıdan Biçeraxovun ordusu təqib edilmişdi. Dağıstanı xilas etmək üçün 15-ci firqə Dərbənd istiqamətində

göndərilmişdi. Ordunun Bakı cəbhəsində olmasından istifadə edən ermənilər Qarabağda üsyan qaldırmış, Şuşa qəsəbəsində döyüşlərə səbəb olmuşdular. Bu məqsədlə Cəmil Cahid bəyin rəhbərliyi altında 5-ci Qafqaz firqəsindən iki alay Qarabağa göndərildi.

**Bakının azad olunmasından (14 sentyabr 1918-ci il) tərk edilməsinə qədər (17 noyabr 1918-ci il) Azərbaycanda və Quzey Qafqazda fəaliyyət, vəziyyət və hadisələr**

**Hərbi Sahədə**

1) Bakının ələ keçirildiyi gün, şəhər müsəlmanlarının 31 mart tarixində ermənilər tərəfindən törədilən qətliamın (mart soyqırımı nəzərdə tutulur – red.) təsiri altında ermənilərə hücum etdikləri üçün asayişi qorumaq məqsədilə bəzi sərt tədbirlər görüldü. Bunun nəticəsində əmin-amanlıq bərpa olundu.

Şəhər daxilindəki silah-sursat və ləvazimat anbarları müəyyən edildi. Zavod və fabriklər hərbi məqsədlər üçün fəaliyyət göstərməyə başladı. Hazır parçadan tikilən pal-paltarla ordu tamamilə və yenidən geyindirildi (Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev öz fabrikinin məhsullarından əsgərlər üçün 80 min metr və zabitlər üçün 20 min metr parça hədiyyə etmişdi).

2) Düşmənin Xəzər dəniz donanması: “Qars” və “Ərdəhan” adında iki hərbi gəmi və ələ keçirilmiş bir neçə paraxod Bakının qarşısında Nargin adasının arxasında idi. Bakını dənizdən mühafizə etmək üçün silahlı birləşmələrdən istifadə edilərək möhkəmləndirmə işlərinə başlanmışdı. Batumdan gətirilən 4 ədəd iyirmi birlik adi atəşli Krupp sahil topu quraşdırılmışdı.

3) Hələ Azərbaycana tabe olmayan və erməni birləşmələrinin ixtiyarında olan Lənkəran cəbhəsinə qarşı Salyanda bir neçə hərbi birləşmə hazırlanırdı.

4) Qarabağ ermənilərinə qarşı polkovnik Cəmil Cahid bəyin rəhbərliyi altında 5-ci firqədən iki alay göndərilmiş və Əsgəranla üzbəüz olan Ağdamda toplanmışdı. Bizim Bakı da məşğul olmağımızdan istifadə edən ermənilər Ağdam ilə Şuşa qalası arasında olan Əsgəranın yolunu bağlayaraq qalada qalan iyirmi minə yaxın müsəlmanı mühasirəyə almış və Qarabağdakı müsəlman kəndlərini məhv etməyə başlamışdılar. Ermənilərin məqsədi burada müsəlmanların sayını azaldaraq Ermənistanın sərhədlərini genişləndirmək idi. 1918-ci il sentyabr ayının əvvəllərində hərbi birləşmələrimiz hücuma keçmişdi. Bir günlük şiddətli döyüşdən sonra Əsgəran azad edilmişdi. Şuşa qalası mühasirədən xilas olunmuşdu. Bu hərbi qüvvələr ordumuz Azərbaycandan gedənə qədər Şuşa qalasında qaldılar. Onlar ermənilərin müsəlmanlara qarşı gözlənilən hücumlarına mane olmaqla yanaşı, yeni yaradılan Birinci Azərbaycan firqəsinin təlim-tərbiyə və hazırlığı ilə də məşğul olmuşdular.

5)Azərbaycana göndərilən Osmanlı hərbi birləşmələrinin Fələstin cəbhəsinin möhkəmləndirilməsi məqsədi ilə geri çağrılacağı Müdafiə Nazirliyi tərəfindən bildirildiyi üçün İslam Ordusu Azərbaycan Ordusunda hərbi quruculuq işlərinə başlamışdı. Azərbaycana gəldiyimiz gündən etibarən yerli sakinlərdən ibarət birləşmələrin yaradılması xüsusilə diqqətimizdə idi. Lakin təlim heyəti və zabitlər olmadığı üçün Bakının azad olunmasına və hərbi birləşmələrimiz nisbətən sərbəst qalana qədər bu imkan reallaşmamışdı. Azərbaycana gələn hərbi birləşmələrin zabit heyətinin sayı az olduğu üçün bu zabitlərdən istifadə etmək imkanı olmamışdı. Əksinə özümlə gətirdiyim qərargah zabitlərinin bir hissəsini də cəbhəyə göndərmək

məcburiyyətində qalmışdıq. Bütün problemlərə baxmayaraq, yaradılması nəzərdə tutulan Azərbaycan Ordusunun zabit və şəxsi heyətini yetişdirmək üçün gəlişimizin ikinci ayı Gəncədə Ehtiyat Zabit Məktəbi, avqust ayında isə Kiçik Zabit Məktəbi təşkil olunmuşdu. Bakının ələ keçirilməsindən sonra yaradılan Birinci və İkinci Azərbaycan diviziyalarının şəxsi heyətini də bu məktəblərin məzunları təşkil edirdi. Birinci Azərbaycan diviziyasının mərkəzi Şuşada, İkinci Azərbaycan diviziyasının mərkəzi isə Bakıda idi. Birinci diviziyaya İslam Ordusunun qərargah rəisi Nazim bəy (Milli Mücadilədə şəhid olan Nazim bəy), İkinci diviziyaya polkovnik Cəmil Cahid bəy və Azərbaycan Korpusuna rus ordusunda general olmuş Əliağa Şıxlinski rəhbərlik edirdi. Ordunun qərargah rəisi isə müvəqqəti olaraq 5-ci firqə 10-cu alayının komandiri qərargah polkovnik-leytenantı Osman bəy təyin olunmuşdu. Diviziyalar düşməndən qənimət götürülən silah və toplarla silahlandırıldı. Bundan başqa, əlavə olaraq sərhəd taborlarının yaradılmasına başlandı. Polkovnik Atik bəyin rəhbərlik etdiyi Ehtiyat Zabit Məktəbindən 400 kiçik zabit məzun olmuşdu. 200 ehtiyat zabiti də hazırlanırdı. İslam Ordusunun yüksək səviyyədə təşkilatlanmaq üçün çoxlu zabitə ehtiyacı var idi. Bu ehtiyacın təmin edilməsi dəfələrlə İstanbuldan tələb edilsə də, faydalı bir nəticə əldə edilməmişdi. Xüsusilə yeni hərbi quruculuq işlərinin görülməsi çətinlik yaradırdı (53). Bununla yanaşı, Gəncə, Zaqatala, Şəki (mərkəzi Nuxa qəsəbəsi), Cavanşir (mərkəzi Tərtər), Göyçay, Quba, Qarabağ (mərkəzi Ağdam), Qazax, Cavad, Cəbrayıl, Bakı, Sabunçu qəzalarında şöbələr təşkil olundu.

6) Azərbaycan və xüsusilə Bakının ərzaqla təmin olunması diqqətdən yayınmamışdı. Ordu nəqliyyat müfəttişliyi Azərbaycan Ərzaq Nazirliyi ilə birlikdə çalışaraq çətin günlər keçirən şəhərə ərzaq gətirmişdi. Döyüşlər nəticəsində zərər görən məntəqələrə ərzaq və əşyalar göndərilmişdi. Bunun üçün hərbi məmurlarla hökumət məmurları birlikdə çalışmış və lazımi sevindirici nəticələr alınmışdı.

7) Liman işləri ilə məşğul olmaq üçün dənizçi əsgərlərdən və fəhlələrdən ibarət bir liman idarəsi təşkil edilmişdi. Hərbçilərin əlinə keçmiş nəqliyyat vasitələri və paraxodların bəziləri silahlandırılmışdı. Qatarlar əvvəlcədən yaradılan Hərbi Nəqliyyat Komissarlığının nəzarəti altında Azərbaycan hökuməti tərəfindən istifadə edilirdi. 1916-cı ildə çar hökuməti tərəfindən inşası başlayan Bakı-Culfa dəmiryolu əhəmiyyətli sayıldığına görə, inşası davam etdirilmişdi. Relslərin döşənməsi üçün Bakı-Poylu (Gürcüstan sərhədində, Kür çayı üzərində) dəmiryolunun qoşa relslərindən biri sökülməyə başlamışdı.

8) Bakıda hərbi avadanlıq istehsal edən zavodlar (iki dinamit, bir böyük top mərmisi zavodu və bir böyük yüngül silahlar hazırlayan sex) və digər zavodlar ələ keçirilmişdi. Həmin zavodlardan istifadə etmək üçün İstanbuldan Fəhmi bəyin (indi hərbi sənaye rəis müavini, polkovnik) rəhbərliyi altında bir heyət dəvət edilmişdi. Zavodların fəaliyyəti qismən bərpa olunmuş, qənimət kimi ələ keçən topların çatışmayan hissələrinin tamamlanmasına çalışılmışdır.

**Mülki sahədə**

Bakının azad edilməsindən sonra Gəncədəki Azərbaycan hökuməti Bakıya gələrək baş nazir Fətəli xan Xoyskinin rəhbərliyi altında ölkəni idarə etməyə davam etmişdi. Azərbaycan hökumətində bütün nazirliklər mövcud idi. Lakin Hərbi Nazirlik və təşkilatı mövcud olmadığı kimi Din İşləri Nazirliyi də yox idi. Çar Rusiyası dövründəki ruhani idarəsində əsaslı dəyişiklik edilməmişdi. Tiflis müftiliyi Bakıya köçürülmüşdü.

Azərbaycan Hərbi Nazirliyinin təşkilat işlərini İstanbulda Ordu Dairəsi rəis müavini polkovnik Behiç bəy (indiki Budapeşt səfiri) görürdü. Bu məqsədlə bir kadr heyəti hazırlanmış, bu heyətdə bəzi vəzifələr Osmanlı ordusu mənsublarına verilmişdi. Yerli kadrlar isə Osmanlı Hərbi Nazirliyində təcrübə keçəcəkdilər. Təcrübənin müddəti və fəaliyyət formasını albay Behiç bəy tənzimləyəcəkdi (12.09. 1918-ci il tarixli və 2/4455.34 saylı olduqca məxfi əmr).

Beləliklə, Azərbaycan Hərbi Nazirliyinin işləri əslində Qafqaz İslam Ordusu rəhbərliyi altında idarə olunurdu.

Azərbaycan hökuməti və Qafqaz İslam Ordusu komandanlığı arasındakı münasibət və əlaqələrin təmin olunması vəzifəsi ilə Qafqaz İslam Ordusunun "Siyasi işlər şöbəsi" məşğul idi.

**Azərbaycan hökumətinin daxili təşkilatlanması və siyasəti**

Azərbaycanın müxtəlif məntəqələrinə məntəqə komandiri kimi göndərilən Osmanlı zabitləri müharibə davam etdiyi müddətdə yerli mülki təşkilatlara da rəhbərlik edirdilər. Bakı və Gəncədə vilayət təşkilatları yaradılmışdı. Azərbaycan hökumətinin də razılığı ilə Bakı rəhbərliyinə Osmanlı zabiti Fəthi bəy təyin olunmuşdu. Bakıda Baş Polis İdarəsi (ümumi təhlükəsizlik), polis, jandarma qurumları yaradıldı. Əhali arasında asayiş və nizam-intizamın təmin edilməsi üçün çox iş görülmüşdü. Xüsusilə ermənilərlə müsəlmanlar arasında əvvəlcə Gəncə və Bakıda baş vermiş qırğınlar səbəbi ilə baş verən təhlükə aradan qaldırılmışdı. Əvvəllər baş verən xırda oğurluq hadisələrinin qarşısı alınmış, Bakıda və Azərbaycanın digər məntəqələrində sakitlik yaradılmışdı. Bakıda qalan ruslar da sərbəst və rahat idilər. Bu zaman Daxili İşlər Nazirliyi də öz təşkilatını qurmaq və genişləndirməklə məşğul idi.

Siyasi partiyalar fəaliyyətdə idilər. Rus inqilabı zamanı Azərbaycanda müxtəlif partiyalar yaranmışdı. Hökumət Müsavat partiyası üzvlərindən ibarət idi.

**Mətbuat**

Bakıda "Azərbaycan" adlı türk dilində (rəsmi hökumət qəzeti) və bir də rus dilində qəzet nəşr olunurdu. Bu qəzetlər Yerli Komandanlıqdakı senzura heyəti tərəfindən yoxlanılırdı.

**Xarici işlər təşkilatlanması və siyasəti**

Digər Qafqaz hökumətləri nümayəndələri kimi, Azərbaycan hökuməti nümayəndələri də İstanbul konfransında iştirak etmişdilər. Azərbaycanlılar, gürcülər və ermənilər bir-birlərinin müstəqilliyini və hökumətlərini tanımışdılar. Hər üçünün də istiqlaliyyəti və hökuməti Osmanlı hökuməti tərəfindən tanınmışdı. Lakin bu hökumətlərin sərhədləri hələ müəyyən edilmədiyindən hər hökumət öz hərbi nəzarəti altında saxladığı məntəqələrə sahib idi.

Bununla yanaşı, Almaniya hökuməti Gürcüstanın müstəqilliyini tanısa da, Azərbaycanın müstəqilliyini tanımamışdı. Almanlar Bakıya Qafqaz İslam Ordusuna polkovnik-leytenant fon der Qoltsu siyasi və hərbi nümayəndə kimi təyin etmişdilər. Avstriyalılar da polkovnik-leytenant Paulun rəhbərliyi altında nümayəndə heyəti göndərmişdilər.

Azərbaycan hökuməti ilə Gürcüstan hökuməti arasında rəsmi münasibətlər yaranmış və Azərbaycan hökuməti Gürcüstana, Tiflisə Cəfərovu (Məmmədyusif Cəfərov – red.) səfir təyin etmişdi. Bununla yanaşı, Gürcüstan hökuməti də Bakıya Nikolas Karfavidzeni siyasi nümayəndə kimi göndərmişdi.

Buna baxmayaraq, sərhəd məsələlərinə görə Gürcüstanla münasibət Tiflisdəki Alman Hərbi işğal komandanlığının təsirilə o qədər də dostluq şəraitində deyildi. 1918-ci iyul ayının 27-də alman və gürcülərin əlli nəfərlik bir dəstəsi Qazax və Borçalı sərhədində, Qazaxdan Tiflisə gedən yol üzərindəki Şıxlı kəndinin 20 verst (1 verst 1,07 km-dir – red.) şimal-qərbində yerləşən Sınıq körpüyə hücum etmişdilər. Yerli əhali və əsgərlərimiz tərəfindən cavab verilmiş, gürcülər 26 ölü, 20 əsir və 2 pulemyot qoyaraq qaçmağa məcbur olmuşdular.

Bundan başqa, yenə alman və gürcülərdən ibarət bəzi kiçik dəstələr Poylu tərəfdən Azərbaycana girsələr də, silahları alınaraq sərhəddən kənarlaşdırılmışdılar. Ermənistanın Tiflisdəki siyasi nümayəndəsi Camalyan oradakı Azərbaycan səfiri Cəfərovla bəzi təşəbbüs və münasibətlərdə idi.

Bolşevik hökuməti ilə isə münasibət yaradılmamışdı. İsveç, Danimarka və İran konsulları fəaliyyətlərini davam etdirirdilər.

Düşmən hökumətlərə mənsub Belçika konsulu (yerli bir erməni) Bakıdan Gəncəyə göndərilmiş, orada yerləşdirilmişdi. Fransız konsulu Bakıda Danimarka konsulluğunda yerləşmişdi. Hər iki konsulla da yaxşı rəftar edilirdi.

Quzey Qafqaz hökuməti (Dağlılar Birliyi Respublikası hökuməti) Temirxan Şurada (Buynakskda) yaradıldıqdan sonra Azərbaycan hökuməti ilə qarşılıqlı olaraq bir-birlərinə siyasi nümayəndə göndərmişdilər.

**Ticarət**

Bakının əsas ticarətini təşkil edən qaz və mazut hasilatı, kustar üsullarla parça və Kür ətrafındakı kürü istehsalı hökumətin ixtiyarında idi. Bunların bir hissəsinin ixracı və satışı üçün gürcülərlə danışıqlar aparılırdı. Bununla yanaşı, xüsusilə almanların təsirilə Tiflisdə problemlər də yaranırdı. Ərzaq mallarından başlayaraq ölkə daxilində kiçik ticarət işləri aparılırdı. İxracat əmtəəsindən bəzi yerlərə aşağıda görəcəyimiz kimi müəyyən qədər mazut və benzin satılmışdı.

**Nəqliyyat**

Osmanlı hökuməti ilə əlaqə Batum-Tiflis-Gəncə və Gümrü-Qarakilsə-Tiflis-Gəncə dəmiryolları vasitəsilə yaradılmışdı.

Hətta "Batum müqaviləsi"nə əsasən, bu yollardan tranzit kimi hər cür hərbi və digər əşyaların Gürcüstandan keçirilməsinə təminat verilmişdi. Lakin gürcülər almanların təsirilə aşağıda mazut ixracı mövzusunda görəcəyimiz kimi, buna xeyli problem yaratmışdılar. Bu problemə görə, Gürcüstan sərhədi yaxınlığında, Ağstafadan başlayaraq Ermənistan daxilindən keçməklə Qarakilsə şose yolundan istifadə olunurdu. Mövcud olan nəqliyyat vasitələrindən təmirə ehtiyac duyulanları bərpa edilmişdi. Bir çox mazut qatarları hazırlanaraq, Tiflis yolu ilə Türkiyəyə göndərilmişdi. Eyni zamanda Dəmiryol Nazirliyi Bakıdan Batuma gedən neft, qaz və s. borularının təmizlənməsi işinə başlamışdı. Gürcüstan daxilində və Kabuşiyyədəki göndərmə müəssisələrinin (Terminalları) yaxşı işləməsi üçün Bakıdan texniki mühəndislər göndərilmişdi.

Beləliklə, Bakıdan milyonlarla pud qaz, benzin və digər məhsulların Batumdakı anbarlara göndərilməsi üçün ciddi iş görülürdü.

**Rabitə və Poçt**

Teleqraf, telefon, poçt əşyaları təmin edilmişdi. Bakıdakı böyük simsiz teleqraf stansiyası ordu tərəfindən təmir edilmişdi.

**Nazirliklər**

Nazirliklər də öz işləri ilə məşğul olur, hökumətin əmr və sərəncamlarını yerinə yetirirdilər. Bunların arasında Maliyyə Nazirliyi hələ lazımi şəkildə inkişaf edə bilməmişdi. Azərbaycana maliyyə yardımı məqsədilə borc pul verilməsi və satınalma işləri üçün əvəzsiz xeyli pul yardımı üçün Osmanlı hökuməti tərəfindən razılıq verilmişdi. Hətta, maliyyə yardımının bir hissəsi Bakıya göndərilsə də, Bakının boşaldılması vaxtına təsadüf etdiyi üçün Azərbaycan maliyyə qurumuna verilməmişdi.

Bu mövzudakı məlumatlar "A" əlavəsi ilə göstərilmişdir :

**Surət**

Qafqaz İslam Ordusu komandanlığına

(Təcilidir)
№ 170
İstanbul, 01.10.1918-ci il
Çatma tarxi 05.10.1918-ci il

Azərbaycan hökumətinə veriləcək borcun həcminin köhnə rus pulu formasında verilməsi adıçəkilən hökumətin burdakı nümayəndələri tərəfindən qəbul edilmiş və bu məsələ ilə əlaqədar nümayəndə Səlim bəy Nazirlər Kabinetindən icazə istəmişdir.

Adıçəkilən teleqrama hələ cavab alınmamışdır. Əsas rus rublunun qəbul edilməsi halında Azərbaycan hökumətinə veriləcək borc həcminin göstərilməsi və satınalma işləri üçün də xeyli miqdarda əvəzsiz pul yardımının lazım olmasının, Romanov rublunun qəbul etdirilməsinin siz- əlahəzrət tərəfindən sürətlə baş nazirə bildirilməsini xahiş edirəm.

Müdafiə naziri adından İsmayıl Həqqi

Müdafiə Nazirliyinə

Bakı,17.10.1918-ci il

Azərbaycan hökumətinə borc veriləcək məbləğin Romanov rublu kimi qəbuluna Azərbaycan hökuməti razılıq vermiş və məsələ İstanbuldakı nümayəndələri Səlim bəyə bildirilmişdir.

İslam Ordusu komandanı,
diviziya generalı Nuri

Qafqaz İslam Ordusu baş komandanı, diviziya generalı Nuri paşa həzrətlərinə təqdim

Azərbaycan Respublikası hökuməti, 29.10.1918-ci il
Maliyyə Nazirliyi, № 5629

İstanbuldakı nümayəndəmizin verdiyi məlumata görə, Türkiyə hökuməti tərəfindən xüsusi istiqraz olaraq hökumətimizin Türkiyəyə verəcəyi bəzi malların əvəzində bizə beş yüz min lirəlik Osmanlı qəbzi göndərilib. Aldığım məlumata görə, bu pul Bakıya gəlib. Həmin pul gələcək Azərbaycan üçün İstanbulda çap olunan müqavilələrin təminatı olduğu üçün möhtərəm əsgərimizə müraciət edərək bu pulu Osmanlı lirəsi olmaq şərtilə Azərbaycan Dövlət Bankına verilməsi rica olunur. Əks təqdirdə, bizim xəzinə işlərimizin xeyli çətinləşəcəyi təbiidir.

Maliyyə naziri
Məhəmməd Həsən

**Maliyyə Məclisi:** Yenə bu müddət ərzində Maliyyə Məclisinin təşkilinə yardım edilmişdi. Bu məsələlərə yardım üçün Ağaoğlu Əhməd bəyin İstanbuldan Bakıya göndərilməsi xahiş olunmuşdu. O, əvvəlcə Gəncəyə gəlmiş, sonra Bakıda Maliyyə Məclisinə üzv kimi daxil olmuşdu.

### Bakı və almanlar

Bakı əməliyyatına almanlar müxtəlif problemlər yaradırdılar. İslam Ordusu Bakıya bəzi ingilis birləşmələrinin gəlməsi haqqındakı məlumatı almanlara bildirdikdən sonra Tiflisdəki alman qərargahının da əsəblər tarıma çəkilməyə başladı. Gümrüdə (Aleksandropol) yerləşən Şərq orduları Qrupunun rəhbəri Xəlil Paşa, Hərbi Qərargah rəisi polkovnik-leytenant Parakuin bəy Tiflisdəki alman qərargahı ilə Bakı məsələsini müzakirə edirdi. Almanlar Bakı əməliyyatında kiçik bir alman hərbi birləşməsinin də iştirakını istəyirdilər. Lakin İslam Ordusu Komandanlığı bunu məqsədəuyğun saymırdı. Çünki bunu bir hərbi yardımdan çox, almanların Bakı və xüsusilə onun təbii ehtiyatlarına olan həris arzu və fikirləri üçün bir imkan hesab edirdilər. Bu zaman cəbhəyə gələn Xəlil Paşa da eyni qənaətdə idi. Nəticədə almanların bu tələbi yerinə yetirilməmiş, Bakı sadəcə türk hərbi birləşmələri tərəfindən ələ keçirilmişdi. Bundan razı qalmayan Tiflisdəki alman qərargahı Bakıdakı alman şöbəsinin şəxsi və mal təhlükəsizliyini mühafizə üçün bir alman taborunun göndəriləcəyini bildirmişdi. Məqsəd aydın idi. Almanlar hər nə olursa-olsun, Bakıya bir hərbi birləşmə göndərmək istəyirdilər. Lakin Nuri paşa, Xəlil Paşa və Azərbaycan hökuməti də buna qarşı idi.

Bu məsələ ilə əlaqədar Baş Komandanlıq vəkilliyi ilə aparılan danışıqların surəti aşağıda göstərilmişdir:

Bakıda İslam Ordusu Komandanlığına

Şəxsə məxsus, təcilidir.
№ 702
Qrup qərargahı, Gümrü
21.09.1918-ci il

General fon Kress tərəfindən Sizə yazılan, bir surəti Əbdülkərim paşaya verilən və Bakıdakı alman şöbəsinin təhlükəsizliyinin mühafizəsi üçün bir alman taburunun göndərilməsi tələbindən bəhs edən məktubu gördüm. Baş Komandanlıq qərargah rəyasətinə sizin Bakıda asayişi bərpa etdiyinizi, Bakıya alman hərbi birləşməsi göndərməyə ehtiyac olmadığı tərzində cavab vermək və almanlar zorla hərbi birləşmə göndərməyə təşəbbüs edərlərsə, dəmiryolu relslərini dağıtmaqla buna mane olmaq fikrində olduğunuzu yazdım. Əks əmrləri varsa, bildirməsini xahiş etdim. Gələn cavabı sizə bildirərəm.

Şərq Orduları Qrup komandanı,
diviziya generalı Xəlil

Bakıda Qafqaz İslam Ordusu komandanlığına

Təcilidir. Şəxsə məxsusdur.
№ 820
Qrup qərargahı, Gümrü
22.09.1918-ci il, saat 01.30-dan sonra

Bakıya göndərilmək istənən alman taboru haqqında Nuru Paşa mərkəzi hökumətdən əmr və icazə gəlmədikcə buna icazə verməyəcəyini general Fon Kressə bildirmişdir. Əgər buna fikir verməyərək məcburən hərbi dəstə göndərməyə təşəbbüs edərlərsə, onda dəmiryolu relslərini dağıtmaqla və hər yolla buna mane olunması gərəkdir.

Baş Komandanlıq Hərbi qərargah rəisi
Ənvər

Baş Komandanlıq Hərbi Qərargah rəhbərliyindən cavab olaraq aldığım teleqrafın surəti olduğu kimi yuxarıda göstərildi.

Şərq Orduları Qrup komandanı
Xəlil

Almanların Bakıya bir tabur əsgər göndərmək planı alınmadıqda İslam Ordusu komandanlığına polkovnik-leytenant fon der Qoltsun rəhbərliyi altında bir hərbi heyət göndərilməsi istənilmiş bir neçə şəxsin gəlməsinə icazə verilmişdi. Lakin fon der Qoltsun ona icazə verilən saydan daha çox əsgər gətirdiyi məlumatı əldə edildikdən sonra Gəncə ətrafındakı dəmiryolu xəttinin bir neçə relsi sökdürüldü və qatarları saxlanıldı. Polkovnik-leytenant fon der Qolts yanındakı bir neçə zabit və əsgərlə Bakıya gətirildi. Qalan əsgərlər Gəncədən geri qaytarıldı.

Ənvər Paşanın 492 saylı Hərbiyyə 11-12.10.1918-ci il şifrəsində: "Polkovnik-leytenant Qoltsun yanında Bakıya alman əsgəri gətirməsi və asayişi mühafizə üçün bir tabur göndərilməsi qətiyyən məqsədəuyğun deyil. Qolts bir-iki xidmətçisi ilə gələ bilər, az miqdarda da olsa əsgər gətirməsinə icazə verilməsin və Gəncədə qaldığını yazdığınız alman əsgərləri gəldikləri yerə qaytarılsın.... və s." bildirilirdi.

Fon der Qolts heyətindən əvvəl Bakıda əsirlər məsələsi ilə kapitan Şnayder adlı bir alman zabiti məşğul olurdu.

Alman hərbi heyəti Bakıda olduğu müddətdə həm İslam Ordusu, həm də hökumət yanında bəzi təşəbbüslər göstərdi. Lakin müvəffəqiyyət əldə etmədi.

Bir sözlə:

a) Alman şöbəsi mövcud olmadığı halda bir çox şəxsi alman vətəndaşı sayaraq, bir alman konsulluğu yaratmaq istəyirdi. "Brest-Litovsk müqaviləsi"nə əsaslanan almanlar Furland, Estoniya və Böyük Pyotrun dövründə Rusiyanın Almaniyadan gətirərək digər məntəqələrində olduğu kimi Gəncə ətrafında da yerləşdirdiyi və hamısı rus vətəndaşı olan mühacir kəndlilərinin işlərinə və vəziyyətinə müdaxilə haqlarının olduğunu, onlarla digərlərindən fərqli rəftar edilməsini istəyirdilər. Azərbaycan hökuməti Almaniya tərəfindən rəsmən tanınmadığı üçün Azərbaycan hökumətinin "Brest-Litovsk müqaviləsi" ilə bir əlaqəsi olmadığı kimi Almaniyaya qarşıda bir öhdəliyi yox idi.

b) Nümayəndə heyəti kapitan Şnayderin alman konsulu kimi tanınmasını tələb edirdi.

c) Azərbaycan hökuməti ilə birbaşa əlaqə yaratmaq istəyir, nəqliyyat qiymətləri, dəmiryol avadanlıqları haqqında hökumətdən anlaşmalar, məlumatlar tələb edirdilər. Xüsusilə alman hərbi ticarəti üçün alman hökuməti adından bir protokol imzalamaq istəyirdilər. Bu zaman ən az, daha əvvəl ruslarda olduğu qədər, hərbi qiymətləndirmə sisteminin tətbiq edilməsini tələb edirdilər. Bunda məqsəd, Gürcüstan daxilindəki kimi dəmiryol xətləri öz əllərində olduğundan Bakı və Poti limanı arasında Bakının neft, qaz və s. məhsullarını Almaniyaya satışında daha çox qazanc götürmək idi. Buna qarşı Azərbaycan tərəfi nümayəndələrin əşyasının və satınalma ehtiyatının az olması səbəbi ilə bir protokol imzalamağa ehtiyac olmadığını, əgər almanlar Azərbaycan hökuməti ilə əlaqə yaratmaq istəyirlərsə, əvvəlcə Azərbaycanın müstəqilliyini rəsmən tanımalı olduqlarını bildirmişdi.

Dəmiryol avadanlıqlarının növləri və miqdarını tələb etməkdə məqsədləri də başqa idi. Batumda, 4 iyun 1918-ci ildə Osmanlı hökuməti ilə Azərbaycan, Gürcüstan, Ermənistan hökumətləri nümayəndələri arasında bağlanan müqavilədə Qafqazda olan dəmiryol xətləri üzərindəki mövcud nəqliyyat avadanlıqlarının öz dövlətləri daxilindəki xəttin uzunluğu nisbətində bölüşdürüləcəyi qəbul edildiyindən gürcülər bu kimi avadanlıqlarını az göstərərək azərbaycanlılardan bəzi avadanlıqların alınmasını istəyirdilər. Bunun üçün "Gürcüstan daxilində mövcud olan nəqliyyat avadanlıqlarının miqdarını göstərən bir siyahı almanlar tərəfindən verilərsə, Azərbaycan Dəmiryol İdarəsi də belə bir siyahı verə bilər"- cavabı verilmişdi.

ç) Nümayəndə heyəti Bakı mədənlərində tədqiqat aparmaq üçün bir alman mütəxəssisinin gəlməsinə icazə istəmiş və bu icazə verilmişdi. Bu tədqiqatın ixtisas və elmi olmasından çox hasilat və istehsalat dərəcəsini öyrənmək, bunlardan Almaniyanın xeyrinə necə istifadə edilə biləcəyini müəyyənləşdirmək olduğu başa düşülmüşdü. Hətta, almanlar əvvəllər də, hələ Bakı əlimizə keçənə qədər milyonlarla pud neft, benzin və s. bu kimi məhsulları Bakıdakı bolşevik hökumətindən aldıqlarını iddia edirdilər.

d) Nümayəndə heyəti orduya Bakının müdafiəsi üçün təyyarə, əldə edilmiş 12 gəmi üçün top, limanın müdafiəsi üçün 15-lik ingilis topları, gəmi və motorlu qayıq verə biləcəklərini bildirirdi. Bundan başqa, Azərbaycan üçün neft, qaz, benzin və s. əvəzində top, tüfəng, silah-sursat veriləcəyini əlavə edirdi. Bu məqsədlə təşkil olunmuş bir heyət tərəfindən hazırlanan siyahı fon der Qoltsa verilmişdi. Bu siyahı əvvəlcə Tiflisə, oradan da Almaniyaya göndərilmişdi. Tiflisdəki Alman komandanlığı bunun qəbul ediləcəyinə inandığını bildirirdi. Digər məsələlərin də həll ediləcəyinə ümid edirdilər. Bakı teleqraf stansiyasından istifadə etmək üçün iki alman teleqraf mütəxəssisinin Bakıya, iki türk teleqraf mütəxəssisinin isə Tiflisə alman teleqraf

stansiyasına göndərilərək müəyyən saatlarda işləmələri məqsədəuyğun görülmüş, beləliklə Bakı və Tiflis arasında teleqraf əlaqəsi yaradılmışdı.

e) Tiflisdəki alman qərargahı artıq müqavilənin ("Mudros müqaviləsi" – red.) həyata keçirildiyi vaxt fikrini dəyişmiş, ancaq onda İslam Ordusuna hər növ yardım edə biləcəyini bildirmişdi. Hətta, 25 noyabr 1918-ci ildə leytenant Şap vasitəsilə Gəncəyə 1000 tüfəng göndərmişdi. Bununla yanaşı, Gəncədə qalan bir vaqon alman pulunun təcili olaraq Tiflisə göndərilməsini təşkil etmişdi.

**Avstriya hərbi heyəti**

Avstriya hərbi heyəti polkovnik-leytenant Paulun yanındakı bir zabit, bir neçə əsgər və əlavə olaraq əsir məsələləri ilə məşğul olan iki-üç zabitdən ibarət idi. Polkovnik-leytenant Paul müəyyən müddət Bakıda qaldıqdan sonra Tiflisə qayıtdı. Yalnız əsir məsələləri ilə məşğul olanlar qalmışdı.

Avstriyalılar Rusiyadan gələn Avstriya əsirləri arasında bəzilərinin ordu adından mülki şəxs kimi zavod və müəssisələrdə işləməsinə icazə vermişdilər. Avstriyalılar almanlar kimi hər işə müdaxilə etmirdilər. Ancaq Bakının işğalı zamanı uşaq evi, xəstəxana və yetimxanalarda baş verən təcavüz, zərər və ziyan haqqında təhqiqat aparılmasının zəruriliyinə dair Avstriyanın Tiflisdəki nümayəndəsi Baron de Franket Şitabet tərəfindən bir məktub göndərilmişdi. Bununla yanaşı, Baron 1918-ci il oktyabr ayının 12-də Tiflisdən öz ölkəsinə qayıdarkən mədəni şəkildə vidalaşaraq oradan yola düşmüşdü.

**Mazut və digər neft məhsulları**

Bakının ələ keçirilməsindən sonra əvvəllər istehsal edilən neft məhsullarına aid anbarlar da tutulmuşdu. Bunların əksəriyyəti bolşevik hökumətinə, qalan hissəsi də müharibədə iştirak edən hökumətlərin vətəndaşlarına və qaçqınlara aid idi. Hamısı bir yerdə böyük həcm təşkil edirdi. Təbii olaraq bunların hamısı Azərbaycan hökumətinin mülkiyyəti idi. 1918-ci ilin sentyabrında Bakıda hökumətin əlində olan neft məhsullarının miqdarı aşağıda göstərilmişdir:

| Növü | Miqdarı pudla (1 pud = 13 kq) |
|---|---|
| Neft | 40 milyon 200 min |
| Mazut | 39 milyon |
| Ağ neft - Kerosin | 10 milyon |
| Zavod yağı | 300 min |
| Silindr yağı | 200 min |
| Dəzgah yağı | 2,5 milyon |
| Benzin | 500 min |
| Qazolin | 1,5 milyon |
| Solyarka | 1 milyon |
| Suraqat | 54 min |

Bu cədvəldə göstərilənlər təxminən 650 milyon rubl qiymətində böyük bir sərvət idi. Yeni istehsal bura daxil deyildi. Elə buna görə də, Bakının bu sərvətinin miqdarı almanların iştahını artırırdı.

Qafqaz dəmiryolları, ümumiyyətlə, mazutla işləyirdi. Gürcüstanın da ehtiyacı çox idi. Osmanlı hökumətinin əlində olan Batum-Notanebil, Qars-Qarakilsə və Gümrü-Culfa-Təbriz xəttinin də mazuta ehtiyacı olduğu məlum idi. Əldə mövcud olan mazut isə mütamadi nəqliyyat səfərləri üzündən qurtarmaq üzrə idi. Odur ki, hərbi nəqliyyat üçün mazut və snin. Bakıdan gətirilməsi lazım idi. Təbii olaraq, bu mazut qatarları Gürcüstandan keçərək Qars və Batuma gedəcəkdi. Əslində, "Batum müqaviləsi"nə görə, Gürcüstan dəmiryolları xətti ilə gedən hər növ hərbi nəqliyyatdan Osmanlı hökumətinə bir pay haqqı düşürdü. Buna görə də, Şərq Orduları Qrupu komandanı Xəlil Paşa bu qatarların səfəri və nizamlanması məsələləri ilə məşğul olmaq üçün Gümrüdə Yol Komissarı hərbi qərargah mayoru Fərid bəyi vəzifələndirmişdi. Gürcüstan dəmiryolları almanların əlində olduğu üçün onlar problem yaradırdılar. Fon Kress 1918-ci il sentyabrın 30-da Tiflisdən İslam Ordusu komandanlığına göndərdiyi məktubda müxtəsər olaraq bunu yazırdı:

"Neft qatarlarının sürətli nəqli və tənzim edilməsi üçün Xəlil Paşadan bir məktub aldım. Gürcüstan hökuməti bu nəqliyyat üçün doğru və haqlı saydığım aşağıdakı şərtləri bildirmişdir və mərkəzi hökumətlərin mənfəətini qorumaq üçün bu şərtlərin sonuna bir əlavə də etdim. Bakıdakı saysız-hesabsız neft məhsullarının Türkiyə, Gürcüstan və Mərkəzi hökumətin müştərək malı hesab ediləcəyini ümid edirəm. İki gün əvvəl Bakıya gedən alman komissiyası şərtlərin hamısını Sizə təqdim edəcək və s..."

Neft və neft məhsullarının öz dəmiryolu xətləri vasitəsilə nəqlinə dair Gürcüstan hökumətinin şərtləri: "Əgər Osmanlı hökuməti ayda bir milyon pud neft və ya neft məhsulunun Bakıdan Gürcüstana ixracına razılıq verərsə, Gürcüstan hökuməti də öz dəmiryolları vasitəsi ilə Türkiyəyə aid olan neft məhsullarının aşağıdakı şərtlər daxilində nəqlinə razıdır:

1) Türkiyə öz ehtiyacını tamamladıqdan sonra da Bakıdan Gürcüstana neft ixracını qadağan etməyəcək və bir milyon pud neftin daima Gürcüstana ixracına imkan verəcək.

2) Gürcüstan özü üçün hansı faydalı isə, istər dolu qatarın nəqliyyat pulunu, istəsə də hər qatar üçün 40 (qırx) ton neft məhsulu alma haqqına sahibdir. Bununla bərabər, bu məsələ mazutun qiymətindən asılı olacaq.

3) Tərəflərdən birinin əsas ehtiyacı təmin edilənə qədər Gürcüstana verilən neft miqdarı ən az Türkiyəyə veriləcək miqdar səviyyəsində olacaqdır.

4) Bu şərtlərin bəzi maddələrinin müzakirəsi üçün bir müddət zaman lazım olsa da, Türkiyə və Gürcüstan üçün eyni miqdarda neft ixracına başlana bilər.

**Qafqaz alman nümayəndə heyətinin əlavə şərti**

Neftin Batum və Potidən qaz və yağ gəmiləri ilə nəqlində alman nümayəndə heyəti üzvlərinin nəzərə alınmasını arzu edir.

Tiflisdəki Alman hərəkat şöbəsi tərəfindən Şərq Orduları Qrupu komandanlığına göndərilən və mayor Fərid bəyə verilən 24.09.1918-ci il tarixli teleqrafın surəti aşağıda verilmişdir:

Surəti

Şərq Orduları Qrupu
30.09.1918-ci il
№ 826

Türk hərbi nəqliyyatının hərəkəti ancaq Bakıdan Gürcüstana mazut göndərildiyi zaman mümkündür. Məsələnin İslam Ordusuna bildirilməsi arzu edilir.

Şərq Orduları Qrupu 9-cu Türk ordusunun hərbi birləşmələrindən bəzilərini digər hərbi cəbhələrə göndərmək üçün dəmiryolu ilə Batuma daşıyırdı. Almanlar belə fürsətlərdən istifadə etməyə çalışırdılar.

İslam Ordusu komandanlığı və Azərbaycan hökuməti Türkiyəyə tezliklə və külli miqdarda mazut və s. göndərilməsi üçün bütün gücü ilə çalışırdı.

Nəhayət, 02.10.1918-ci ildə Gürcüstan Respublikası hökumət başçısı Porovina imzası ilə Nuri paşaya belə bir teleqraf gəlmişdi:

"Gürcüstan Respublikası hökuməti öz ehtiyacları üçün Bakıdan alınacaq neft məhsulunun gətirilməsi üçün yeddi nəfərdən ibarət bir komissiyanın Bakıya göndərilməsinə icazə verilməsini xahiş edir."

Bundan sonra həmin komissiya Bakıya gəlmiş və Azərbaycan hökuməti ilə danışıqlara başlamışdı. Pulun növü məsələsinə görə danışıqlar yarıda qaldı. Bununla yanaşı, Azərbaycan hökuməti 9-cu türk ordusunun nəqliyyatının yarımçıq qalmaması üçün gürcülərə veriləcək mazut pulu və nəqliyyat xərcləri daha sonra hər iki hökumət arasında vəziyyətə uyğun olaraq həll edilmək şərtilə onlara hələlik mazut və s. veriləcəyini, bunun əvəzində Türkiyəyə veriləcək mazut və s. məhsulların Gürcüstandan sərbəst göndərilməsi və keçidinin təmin edilməsini təklif etdi. Gürcülər isə buna razılıq verdi.

Bu müzakirələr zamanı Şərq Orduları Komandanlığından aşağıdakı radioteleqram alınmışdı:

İslam Ordusu Komandanlığına

Qərargah şöbəsi
№ 894
02.10.1918-ci il

1) Dəmiryollarımıza lazım olan mazutun gətirilməsini nizama salmaq üçün göndərdiyim Hərbi Qərargah mayoru Xeyri bəy Tiflisdə fon Kress və Gürcüstan hökuməti tərəfindən məruz qaldığı çətinliklər haqqında bizə məlumat vermişdir. Həm bizə, həm də Gürcüstan hökumətinə ixrac olunacaq mazutun miqdarı məsələsi Azərbaycan hökumətinin daxili işidir. İndi hərbi əhəmiyyətli nəqliyyatın dayanmaması üçün bizə beş-on qatar göndərilməsi vacib lazımdır. Əgər bu mazut göndərilməsə, bütün nəqliyyatın dayanacağını bir daha nəzərinizə çatdırıram. Dövlət üçün əhəmiyyətli olan bir vaxtda baş verəcək belə bir hadisə həll edilməsi mümkün olmayan zərərlərə səbəb olacaq.

2) Bu mazutun göndərilməsi məsələsinin həlli üçün hər halda Bakıda bir komissiyanın müqavilə imzalaması lazımdır. Bu komissiyada Azərbaycandan, bizdən və gürcü hökumətindən nümayəndələr iştirak edir. Bizim nümayəndəmiz Hərbi Qərargah mayoru Naim Cavad bəy olar. Belə bir komissiyanın təşkili üçün gürcü hökumətindən də bir məmur tələb etməyinizi xahiş edirəm. Hər halda bu məsələnin qəti həll edilməsi lazımdır. Bu komissiya əsas olaraq, Bakı təbii ehtiyatlarının üçdə ikisinin qələbə haqqımız kimi bizə, digər üçdə birinin də gürcü, alman və s. hökumətlərə aid olması məsələsini uğurla həll edərsə, bizə böyük faydası olar.

3) Bizə təcili göndərilməsi lazım olan beş-on qatarın gürcü hökuməti tərəfindən saxlanmamasını, əks təqdirdə bu mühüm nəqliyyatımıza mane olan bir hökumətin "Batum müqaviləsi"nə zidd hərəkətlə düşmənin xeyrinə çalışması kimi qəbul edəcəyimizi qəti olaraq, gürcü hökumətinə izah etməsini Əbdülkərim Paşaya yazdım. Mazut qatarlarının Gümrü istiqamətinə təcili hərəkət etməsini, nəticəsini də sürətlə bildirməyinizi xahiş edirəm.

Şərq Orduları qrup komandanı
diviziya generalı Xəlil

Yenə Şərq Orduları Qrupundan 10.10.1918-ci il tarixli teleqrafda mazut göndərilməsi və müqavilə imzalanması məsələsi göstərilmişdi. Gələcəyi məchul olan Bakıdan Osmanlı dövlətinə göndəriləcək hər şeyin bir qazanc sayılmasının nəzərə alınması bildirilirdi. Bu teleqraf gec gəlmişdi. 18.10.1918-ci il tarixində, 427 saylı teleqrafda İslam Ordusu hara, nə qədər mazut və s. göndərdiyini cavab olaraq bildirmişdi.

Bundan başqa, gürcülərə öz qatarları ilə eyni miqdarda verilmək şərtilə sonrakı qatarlar Türkiyəyə göndərilmişdi.

Gümrüdən

| **Mazut** | **Benzin** | **Qaz** | **Yağ** | **Bakıdan göndərilmə tarixi** |
|---|---|---|---|---|
| **Sistern** | **Sistern** | **Sistern** | **Sistern** | |
| 30 | - | - | - | 05.10.1918-ci il |
| 15 | 28 | 15 | - | 08.10.1918-ci il (sonra iki qatar olmuşdur) |
| 32 | 1 | - | - | 19.10.1918-ci il |
| 7 | - | 3 | 2 | 20.10.1918-ci il |
| 19 | 1 | 3 | 1 | 22.10.1918-ci il |
| 21 | 8 | 1 | 1 | 24.10.1918-ci il |
| 27 | 3 | - | - | 01.11.1918-ci il |

Batumdan

| | | | | |
|---|---|---|---|---|
| - | - | 30 | - | 18.10.1918-ci il |
| 19 | - | - | - | 20.10.1918-ci il |

Bunlardan ilk qatarlar Gürcüstana daxil olduğu vaxt gürcülər tərəfindən saxlanılaraq keçməsinə icazə verməmələri xəbəri gəldikdən sonra Azərbaycan hökuməti Tiflis hökumətinə ciddi etiraz etmişdi. 14.04.1918-ci ildə Xəlil Paşa Qarsdan teleqrafla Tiflis nümayəndəliyi tərəfindən verilən məlumata əsaslanaraq 30 vaqonlu qatarın Gümrüyə göndərildiyini bildirir və daşınmaya davam edilməsini qeyd edirdi. Bundan sonra, yuxarıda qeyd edilən qatarlar hərəkətə başlamışdı. Azərbaycan hökuməti əvvəlcə Tiflisdə saxlanılan qatarlar üçün 17.10.1918-ci ildə gürcülərlə müqavilə bağlamağa nail olmuşdu.

IX-cu Osmanlı ordusunun komandanı Şevki Paşa da 22 və 27.10.1918-ci il tarixli teleqraflarında çox az miqdarda mazut, benzin və yağ göndərildiyini, bunları daşıyan vaqon və lokomotivlərin geri qaytarılmadığını və hətta, dörd lokomotivin Gümrüdə saxlanılaraq ordu ixtiyarına keçdiyini, sürücülərin isə geri göndərildiyini bildirmişdi.

Yenə Batumda 16 lokomotiv geri qaytarılmamışdı. Buna görə də, mazut göndərilməsində intizamsızlıq olacağı bildirilirdi.

Digər tərəfdən, Əbdülkərim paşa belə yazırdı:

İslam Ordusu komandanlığına

Tiflis
30.10.1918-ci il

Burada mazut qatarlarımız dolu olduğundan Poyludan buraya qatar gəlməsini sonraya saxlamaq lazımdır. Əfəndim, bu məsələ fon Kress və gürcü hökumətinin nəzarətindədir.

Gürcüstan siyasi və hərbi nümayəndəsi
briqada generalı Əbdülkərim

IX-cu ordunun rabitə zabiti mayor Bəkir Rüfət əfəndi Tiflisdə 1918-ci il noyabrın 3-də göndərilən mazutun bəzi bəhanələrlə almanlar tərəfindən qarət edildiyini və qismən də gürcülərin əlinə keçdiyini bildirirdi.

**Osmanlı hökuməti və müttəfiqlərinin müqaviləsi. Azərbaycan müqavilə ərəfəsində**

Baş Komandanlıq hərbi qərargah rəisi Ənvər Paşa Xəlil Paşaya aşağıdakı əmri göndərmişdir:

Şərq Orduları Qrupu komandanı Xəlil Paşa həzrətlərinə

Olduqca məxfi və şəxsə məxsusdur.
Baş Qərargah
02.10.1918-ci il

Yaxınlarda Almaniyanın da daxil olduğu sülh danışıqlarının başlaması və bu danışıqların sürətlə sona çatması ehtimalı böyükdür. Sülh danışıqlarında milli əsaslarla haqq iddiaları ortaya atılacağına görə bizim Qafqazdakı vəziyyətimiz və xüsusilə Azərbaycan və Quzey Qafqaz hökumətləri gücləndirilməlidir. Bunun üçün 5-ci firqənin oradan çıxarılmasını ən axıra saxlayın. 15-ci firqədən sonra 12-ci firqə çıxarılar. Onsuz da ona növbə gələnə qədər vəziyyətin aydınlaşacağını zənn edirəm. Nuru Paşa ilə əlaqəli şəkildə Azərbaycandakı yerli birləşmələr sürətlə tənzim edilməklə yanaşı, hələ Azərbaycanda olan silahlı qüvvələrimiz, o cümlədən 5-ci firqə son nəticədə Azərbaycan tabeliyinə keçirilər və Azərbaycanda hərbi quruculuq işləri nizam-intizama salınar. Azərbaycana çoxlu silah-sursat göndərin.

Baş Komandanlıq Hərbi Qərargah rəisi
Ənvər

Xəlil Paşa bu əmrin surətini göndərməklə yanaşı, Qarabağda baş verən üsyanlarla məşğul olan 9-cu Qafqaz alayının öz işinə davam edə biləcəyini və 15-ci firqənin göndərilməsini xahiş edir. Quzey Qafqaz komandanı Yusif İzzət Paşanın Gümrüyə gəlmək üçün yola çıxdığını, Əli Paşa Şıxlinskinin Qarsda yararlı topları seçdiyini, 9-cu ordudan kifayət qədər silah-sursat və 8000 tüfəngin göndəriləcəyini

əlavə edirdi. Baş Komandanlıq Hərbi Qərargah rəhbərliyi siyasi şəraitin türk hökuməti üçün mənfi hal almasından sonra Azərbaycan və Quzey Qafqaz hökumətlərinin Antanta dövlətlərinin hökumətləri tərəfindən tanınmasına yardım üçün Azərbaycanda görüləcək işlərlə əlaqədar Tehrana nümayəndə göndərərək ingilis və amerikan səfirləri ilə Azərbaycan və Quzey Qafqaz hökumətlərinin tanınması mövzusunda müzakirələr aparılmasını və Qafqaz müsəlmanlarının birgə fəaliyyəti üçün Azərbaycan hökuməti ilə Quzey Qafqazın "Şərqi Qafqaz" adı altında birləşmələrini əmr və tövsiyə edirdi. (Bu mövzulardakı xəbərləşmələr B I, II, III nömrəli sənədlərin surətlərində var) .

İslam Ordusu komandanlığına

Olduqca məxfi və şəxsə məxsusdur.
№ 492
Hərbiyyə
11-12.10.1918

Polkovnik-leytenant Qoltsla yanaşı, Bakıya alman hərbi attaşesi və asayişi mühafizə üçün bir tabur göndərilməsi doğru deyil. Qolts bir-iki şəxsi xidmətçisi ilə gələ bilər, az da olsa əsgər gətirməsinə icazə verilməsin və Gəncədə qalsınlar. Digər alman hərbçiləri gəldiyi yerə qayıtsın. Sizə bundan əvvəlki teleqrafımda və sonra Xəlil Paşaya yazdığım kimi, Azərbaycan və Quzey Qafqaz hökumətlərinin müstəqilliyini tanıtmaq üçün Tehrandakı Amerika və ingilis səfirlərinə olan müraciətinizdə almanların Bakıya əsgər göndərmək istədiklərini də bildirə bilərsiniz. Bu şəkildə ingilislərlə anlaşmaq tez mümkün olar.... Bu halda səfirlərdən müsbət cavab alınarsa, almanlara qarşı daha sərt hərəkət edin. General fon Kressə də belə cavab verərsiniz. Bakıda asayiş indi daha çox təmin edilib. Azərbaycan hökuməti Bakıya ingilislərin təkrar hücumuna bəhanə olacağı təhlükəsi ilə paytaxtlarında qətiyyən alman əsgəri görmək istəmir. Bu mövzuda israr edilməməsini, əks təqdirdə Azərbaycan silahlı qüvvələrinin başqa şəkildə hərəkətə məcbur qalacaqlarını bildirirəm.

Baş Komandanlıq Hərbi Qərargah rəisi
Ənvər

İslam Ordusu komandanlığına

Baş Qərargah
13.10.1918-ci il

Siyasi vəziyyət bizim üçün əlverişli olduğu üçün Qafqaz hökumətlərinin müstəqilliyinin tanınmasında Antanta dövlətləri hökumətlərinin bir çox problem yaradacaqları gözlənilir. Buna görə də, Qafqaz müsəlmanlarının birlikdə çalışmasını və bu səbəblə Azərbaycan hökuməti və Quzey Qafqaz hökumətinin ayrı-ayrı zəif qalmalarını...

Quzey Qafqaz komandanlığına

№ 200

Ənvər Paşanın aşağıdakı teleqrafı olduğu kimi nəşr edildi. Bir ittifaq yaradılması məqsədi ilə Əbdülməcid bəy ilə görüşüb, məqsədəuyğun sayılsa bu ittifaqın yaradılması üçün bu şəxsin təcili Bakıya gəlməsi vacibdir.

Qafqaz İslam Ordusu Komandanı
diviziya generalı Nuri

Şərq Orduları Qrupu komandanı Xəlil Paşa həzrətlərinə

Şəxsə məxsusdur.

14 oktyabr 1918-ci il

Müasir vəziyyət dəyişdiyinə görə ehtimal edilir ki, bizdən sonra gələn hökumət Azərbaycan və Quzey Qafqazın boşaldılmasını qəbul və icra edəcək. Əvvəlcə sizə yazdığım kimi, Nuri orada işləmək üçün qalacaq. Zabit, kiçik zabit və birləşmələri indidən əmrimə görə hazırlayın ki, boşaldılma əmri zamanı problemlə qarşılaşmasınlar və orada daimi işləmək üçün qala bilsinlər.

Baş Komandan hərbi qərargah rəisi

Ənvər

İslam Ordusu komandanlığına

Şəxsə məxsusdur.

1) Böyük qardaşından aldığım teleqrafda əvvəlcə sənə Azərbaycan adından Tehrana bir adam göndərərək, ingilis və amerika səfirləri ilə görüşməsini yazdığının, sonra da bunun üçün bir qədər gözləmək lazım olduğunun bildirildiyi yazılır. Son siyasi vəziyyət yenidən bu təşəbbüsün icrasını vacib etdiyi üçün indidən davam etdirilməsini məqsədəuyğun hesab edən həmin şəxs bunu sizə yazmağımı tapşırır və bu iş üçün aşağıdakı əmri verirlər:

Azərbaycan və Quzey Qafqazın müstəqilliyi tanınarsa, onların bitərəf qalacaqlarını adı çəkilən səfirlərə bildirmək lazımdır. Bu yolda mübarizə aparılmalı, əgər səfir buna razı olmazsa, bir az da münasib şəkildə müstəqillikləri tanınarsa, bolşeviklərə qarşı Antanta dövlətləri ilə birlikdə hərəkət edilməsi məsələlərinin müzakirəsinə razı olduqlarını bildirərək hər hansı bir şəkildə Azərbaycan və Quzey Qafqazın bağladığı müqavilələrin Antanta dövlətləri hökuməti tərəfindən tanınmasına nail olmaq və bu hadisə haqqında sadəcə Azərbaycan hökumətinin rəhbəri və tam inandığınız bir neçə adamla məxfi danışıqlar aparmaq və onlardan başqa heç kimin bu məsələlərdən qətiyyən xəbərdar edilməməsi lazımdır. Əgər belə inanılan şəxslər yoxdursa, şəxsən siz özünüz Azərbaycan və Quzey Qafqaz ordusu komandanı kimi səfirlərə bu təklifi bildirərsiniz.

2) Osmanlı hökumətinin Azərbaycanı himayə edə bilməməsi və Azərbaycandakı silahlı qüvvələrini geri çəkməsi halı baş verərsə, orada Azərbaycanın yerli əhalisi ilə nə dərəcədə müvəffəqiyyətlə çalışmaq imkanı olduğunu bildirməyinizi xahiş edirəm.

3) Sizə göndəriləcək silah-sursat və top məsələsi tam məxfi olduğundan bir an əvvəl Qarsa boş qatar göndərməyinizi xahiş edirəm.

4) Bir tərəfdən, ingilislərlə danışıqların aparılması ilə yanaşı, digər tərəfdən də bolşeviklərlə müzakirələr vacibdir. Bolşeviklər Quzey Qafqaz və Dağıstanın müsəlman məntəqələrindən təmizlənməlidir. İstanbula göndərilməsi əmr olunan birləşmələrin gəlməsinə mane olmaması üçün bu təmizləmə əməliyyatının icrası arzu edilir.

Şərq Orduları qrupu komandanı, diviziya generalı Xəlil

Müqavilənin elanından sonra Bakı anbarlarında olan silah və ləvazimat daha təhlükəsiz yerlərə göndərilməyə başlandı. Azərbaycandakı bəzi Osmanlı birləşmələrinin Anadoluya qayıtması vacib olduğundan Azərbaycan ordusunun nizamlanması

sürətləndirildi. Əsasən, Azərbaycana gəldiyimiz gündən etibarən, yerli əhalini əsgər kimi yetişdirməyə və onlardan hərbi birləşmələr yaratmağa həmişə diqqət etsək də, İslam Ordusu təşkilatını qurmaqla vəzifəli zabitlərin gizli bir şəkildə Mosul-Təbriz yolu vasitəsilə göndərilməsi səbəbindən qərargah işləri xeyli geri qalırdı.

Anadoludan gələn birləşmələrin zabit problemi çox olduğu üçün qərargah zabitlərinin bəzilərini müvəqqəti olaraq, cəbhəyə göndərmək məcburiyyəti yaranmışdı.

Bütün bu problemlərə baxmayaraq, müstəqil Azərbaycan ordusunun komandir və təlim heyətini yetişdirmək üçün iyul ayında Gəncədə Ehtiyat Zabit Məktəbi açılmışdı. Bakının və Qarabağın düşməndən azad edilməsindən sonra, Əli ağa Şıxlinski paşanın rəhbərliyi altında olan Azərbaycan korpusu genişləndirildi. Korpus iki piyada və bir süvari diviziyasından ibarət olacaqdı. Birinci diviziyanın mərkəzi Şuşa idi və rəhbərliyinə də Cəmil Cahid bəy, İkinci diviziyanın mərkəzi Bakı idi. Rəhbərliyinə də Ordu Hərbi Qərargah rəisi mayor Naim bəy təyin edilmişdi. Gəncədəki kurslardan birinci qrup kimi, 150 ehtiyat zabiti və bir o qədər kiçik zabit diviziyalarda vəzifələndirilmişdi.

**Əhməd İzzət Paşanın baş nazir və Baş Komandanlıq Hərbi Qərargah rəisi olmasından sonra Azərbaycanın vəziyyəti**

Əhməd İzzət Paşa baş nazir və Baş Komandanlıq Hərbi Qərargah rəisi olduqdan sonra Azərbaycan və Qafqazdakı vəziyyətdən xəbərdar olmadığı üçün erməni və gürcü nümayəndələrinin haqsız şikayətlərinə ciddi yanaşaraq, bəzi əmrlər vermişdi. Qısaca, bu əmrlərdən biri, guya bəzi kəndlərdəki gürcü kilsələrinin məscidə çevrilməsinin qarşısının alınması və onların yenidən kilsəyə çevrilməsi, münaqişəyə səbəb olacağı üçün Qarabağdakı birləşmələrimizin geri çağırılması, Bakıda yaşayan otuz min ermənininin qətliama məruz qalan və mallarının əllərindən alındığı erməni nümayəndə heyəti tərəfindən bildirildiyi üçün təhqiqat aparılması və günahkarların ortaya çıxarılması, həbsi idi. (Bu mövzudakı xəbərləşmə surətləri C əlavəsi ilə göstərilmişdir.)

C I

Tam məxfi və təcilidir.<br>Vaxtında icra edilməlidir.<br>Baş Qərargah<br>23.10.1918-ci il

1) Ermənilərin İstanbuldakı nümayəndələrinin xəbərinə görə, Qarabağda olan Osmanlı silahlı qüvvələri Şuşaya daxil olmuşdur. Bu hərəkət ümumi bir müharibəyə səbəb olacağından Qarabağda olan birləşmələrimiz dərhal geri çağırılacaq və geri çağırılma xəbəri təcili Baş Qərargaha bildiriləcək. Qarabağa heç bir əsgərimiz girməyəcək.

2) Bakı ələ keçirilən zaman otuz min ermənininin qətl edilməsi və mallarının əllərindən alındığı, əsgərlərimizin də bu hadisədə iştirak etdiyi, indinin özündə də Bakıda bir çox ermənininin həbsdə olması xəbəri erməni nümayəndə heyəti tərəfindən bildirilmişdir. Bakı hadisələri doğru isə, günahkar və bu işlə əlaqədar olanların dərhal üzə çıxarılması, vəzifələrindən azad edilməsi, günahlarının dərəcəsinə görə cəzalandırılması və ya cəzalarını çəkdikləri barədə məlumat verilməsi lazımdır.

3) Bakıda həbs olunanlar tezliklə azad ediləcək və həbs olunmaları qadağan ediləcək. Bakı daxilindəki erməni əhaliyə başqa yerə getmək, Ermənistana və ya

Gürcüstana səyahət etmək imkanı yaradılacaq, köçmək istəyənlərə qətiyyən mane olunmayacaq, əksinə lazım olan yardım göstəriləcək. Azərbaycan və Ermənistan arasında baş verə biləcək sərhəd problemləri xüsusi konfranslarla və sadəcə siyasi yollarla həll ediləcək. Silahlı qüvvələrin bu kimi məsələlərə müdaxiləsini tam qadağan edirəm. Əksinə silahlı qüvvələrimiz olduqları yerlərdə asayişi bərpa və qorumaq vəzifəsinə məsuldurlar.

4) Bu əmr bildirilmək üçün İslam Ordusu komandanlığına və məlumat üçün 9-cu orduya yazılmışdır.

Baş nazir, Baş Komandanlıq Hərbi Qərargah rəisi
Əhməd İzzət

C II

İslam Ordusu Komandanlığına

Təcilidir.
№ 3624
Baş Qərargah
15.10.1918-ci il

Zaqataladakı ortodoks kilsəsinin Osmanlı məmurları tərəfindən məscidə çevrilməsi, kilsəyə aid əşyaların yerli gürcü keşişinə verilməsi və eyni halın Ərdahan qəsəbəsində də təkrar olunması məsələsi gürcü hökuməti tərəfindən şikayət edilir.

Gürcüstanla yaxşı münasibətlər yaratmaq üçün bu kilsələrin köhnə vəziyyətə qaytarılması, bundan sonra bu kimi hadisələrin təkrar edilməməsinin öz xetirlərinə olması Azərbaycan hökumətinə bildirilsin və bu hadisələrin mahiyyəti və kimlər tərəfindən edilməsi araşdırılaraq xəbər verilsin.

Baş Komandanlıq Hərbi Qərargah rəisi
Əhməd İzzət

C III

Zaqatala bölgə komandanlığına

№ 584
Bakı

1) Zaqataladakı ortodoks kilsəsinin Osmanlı məmurları tərəfindən məscidə çevrilməsi, kilsəyə aid əşyaların yerli gürcü keşişinə verilməsi və eyni hərəkətin Ərdahan qəsəbəsində də edilməsi məsələsi gürcü hökuməti tərəfindən şikayət edilir.

2) Bu kilsələr haradadır və indi nə vəziyyətdədir? Bu kilsələr əsgər qışlalarına aiddirmi? Elə isə bunların əşyaları gürcü keşişlərinə verilməyibmi? Bu hadisələrin mahiyyəti nədir və kimlər tərəfindən edilib? Tədqiq olunaraq bildirilsin. Bu kilsələr əhaliyə aiddirsə, bütünlüklə geri qaytarılsın və təcili məlumat verilsin.

Komandanlıq adından
Hərbi Qərargah rəisi

İstanbul və Batumun İttifaq Dövlətləri, xüsusilə ingilislər tərəfindən işğal edilməsi və ingilis birləşmələrinin Ənzəlidə toplanması Bakı və Azərbaycanın təkrar işğal edilmək təhlükəsi altında olduğunu göstərirdi. Böyük fədakarlıqlar nəticəsində xilas edilən Bakı və Azərbaycanın mövcudluğu təhlükədə idi. Ərazisi kiçik, qərb

sərhədi, ingilislərə arxalanan milli düşmən ermənilərlə əhatə olunan, döyüş sursatı az olan Azərbaycanın ingilislərə qarşı silahlı müdafiə olunması onun xeyrinə olmazdı. Buna görə də, Azərbaycanın istiqlaliyyətini müdafiə etmək üçün siyasi tədbir olaraq, baş nazir Fətəli xanın danışıqlar aparması barədə müzakirəyə qərar verildi. İstanbul hökuməti də bunu tövsiyə edirdi. Bundan sonra, Osmanlı ordusundan istefa edib, Azərbaycan tabeliyinə keçdim. Azərbaycandakı Osmanlı silahlı qüvvələrinin komandanlığını ən yüksək rütbəli zabit olan Mürsəl Paşaya təhvil verdim.

Türkiyə Müdafiə Nazirliyi 27.10.1918-ci il tarixli əmrində Azərbaycan ordusu tabeliyindəki zabitlərin müəyyən müddət Azərbaycanda qalmalarına və vəzifələrinin Türkiyədə də qorunacağına dair məlumat vermişdi. Buna əsasən, Azərbaycan ordusunda qalanlar seçilmişdi. Daha sonra, Müdafiə Nazirliyi bu qərarı ləğv etmiş, Quzey və Güney Qafqazda olan zabitlərin iki ay ərzində 9-cu orduya qatılmalarını tələb etmişdi.

**Bakının boşaldılması (17 noyabr 1918-ci il)**

Ənzəlidə olan ingilis birləşmələrinin komandanı general Tomson Bakıya bir hərbi heyət göndərərək Bakının boşaldılmasını tələb etdi. İngilislər Azərbaycan hökumətini tanımaq istəmirdilər. Osmanlı ordusu komandanı olduğum üçün mənə müraciət etdilər. Onlara ordudan istefa etdiyimi, Azərbaycanın tabeliyinə girdiyimi və Mürsəl Paşa ilə görüşmələrini söylədim. Həm məktubla, həm də nümayəndə heyəti ilə xüsusi görüşümüzdə Azərbaycan hökumətinin "bir oyuncaq" olduğunu və onu tanımayacaqlarını bildirdilər. İngilislər Bakının boşaldılmasını tələb edirdilər. 1918-ci il noyabrın 17-də Bakı şəhərini işğal edəcəklərini bizə bildirdilər. Bakını işğal mövzusunu Azərbaycan hökuməti ilə müzakirə etmələrini, şəxsən hökumətin əmrinə tabe olduğumu və hökumət əmr edərsə, Bakını müdafiə edəcəyimi də bildirdim. O zaman Batumdan 4 ədəd 15-lik uzun sahil topları gəlmişdi. Bunların dənizə qarşı yerləşdirilməsi və bəzi möhkəmləndirmə fəaliyyətləri ilə məşğul olmağa başladım. Biz müdafiə üçün hazırlaşırdıq. Bu şəkildə bir həftə keçdi. İngilislər Azərbaycan hökuməti ilə müzakirəyə başladılar. Azərbaycan hökumətinin Ənzəliyə göndərdiyi nümayəndə heyəti ilə razılaşma əldə etdilər. Azərbaycan Cümhuriyyəti hökumətinə təşəkkür edən teleqraf göndərilmişdi və bu teleqrafla ingilislərin Azərbaycan Cümhuriyyətini tanıdığı məlum olurdu.

Bakı noyabrın 17-si səhər tezdən boşaldılmış, Azərbaycan ordusu və Osmanlı birləşmələrinin komandirləri geri çəkilmişdilər. Bununla bərabər, ingilis əsgərləri ilə birlikdə Biçeraxovun rəhbərliyi altında bir kazak alayı, yüzlərlə erməni əsgəri də gəlmişdi. Halbuki, ingilislər, erməni və rus əsgərlərini Bakıya gətirməyəcəklərini vəd etmişdilər. Azərbaycanın baş naziri etiraz olaraq ingilis komandirinin ziyarətinə bir neçə gün getmədi.

19.11.1918-ci ildə general Tomson Bakıda nəşr etdirdiyi bəyannamədə "Qalib İttifaq Dövlətləri ordusunun vətənə qayıtmadan əvvəl ümumi qələbədə bu qədər xidmətləri olan fədakar rus xalqına dini borc kimi təşəkkür edir Kuban və Qafqazın düşməndən azad edilməsi vəzifəsinin icrası üçün Ufada yaranan rus hökuməti ilə razılaşaraq buraya gəlirik" deyirdi. Eyni zamanda şəhər üzərində rus birləşmələrinə mənsub təyyarələrdən bəyannamələr paylanır və bu bəyannamələrdə rus vətəndaşları Bakının yenidən "ana vətənə" birləşdirilməsinə görə təbrik edilirdi. Azərbaycan hökuməti ingilis komandanlığına verdiyi notada müttəfiqlərin bu şəkildə Azərbaycan torpağına gəlməsinin ölkənin istiqlaliyyət və ərazi bütövlüyünü yox etməyəcəyi ümidini

bildirirdi (64). Bu zaman Bakıda hökumətin sadəcə 500 nəfərlik bir polis qüvvəsi var idi. Hərbi birləşmələr ölkə daxilində idi. 12.11.1918-ci ildə Birinci Azərbaycan diviziyasının yerli hərbi birləşmələri bu qədər idi:

**Əsgərlər**

| | | |
|---|---|---|
| Diviziya qərargahı | | 65 |
| l-ci alay, 1-ci tabur | | 174 |
| 1-ci alay 2-ci tabur | | 133 |
| 1-ci alay 3-cü tabur | | 103 |
| Pulemyot | - | |
| | | |
| 2-ci alay 1-ci tabur | | 454 |
| 2-ci alay 2-ci tabur | | 283 |
| 2-ci alay 3-cü tabur | | 490 |
| Pulemyot | 36 | |
| | | |
| 3-cü alay 1-ci tabur | | 139 |
| 3-cü alay 2-ci tabur | | 131 |
| 3-cü alay 3-cü tabur | | 741 |
| Pulemyot | 34 | |
| | | |
| 27-ci tabur və hissələri | | 113 |
| | | |
| Cəmi | | 2896 |

İkinci diviziya 4-cü, 5-ci və 6-cı alaylardan ibarət olub, hamısı bu qədər idi.
Bundan başqa, Gəncədə təlimgahda təhsillərini bitirmiş
<u>3-cü kurs</u>
60 piyada
30 pulemyot
20 topçu
<u>2-ci kurs</u>
40 kiçik zabit əfəndi var idi.

Şəhəri boşaltdıqdan sonra qoşunlarımız qəsdən Bakı ətrafından uzaqlaşdırılmadı. Qoşun birləşmələrinin uzun müddət şəhəri mühasirə vəziyyətində saxlaması ingilisləri şübhələndirdi və bir neçə dəfə burada dayanmağımızın səbəbini soruşdular. Biz yolun xarab olmasını səbəb göstərdik. Həqiqətən də, bir dəmiryolu körpüsü dağıdılmışdı. Baş nazir Fətəli xan erməni və rus birləşmələrinin şəhərdən çıxarılması üçün siyasi təşəbbüs göstərirdi. 07.12.1918-ci ildə 85 nəfərdən ibarət Azərbaycan Parlamenti ilk toplantısını keçirdi. 65 türk, 10 erməni, 5 rus, 5 nəfər də digər millətlərdən olan deputat var idi. Türk deputatların 27-si Müsavat, 11-i İttihad, 10-u Sosialist blok, 7-si Əhrar, 4-ü müstəqil və 6-sı bitərəf təşkilata mənsub idi . Məclis Fətəli xan rəhbərliyində bir hökuməti təsdiq etdi. İngilis komandiri general Tomson 18.12.1918-ci ildə ikinci bir bəyannamə nəşr edərək Fətəli xanın rəhbərliyi altında yaradılan koalisiya hökumətini təsdiq etdiyini, Müttəfiqlər Komandanlığının Azərbaycanda yeganə qanuni hökumət

kimi, onu tanıdığını və onu qoruyacağını bildirdi. Özü ilə bərabər gətirdiyi erməni əsgərlərini və Biçeraxovun rəhbərliyi altında olan kazakları Bakıdan çıxardı. Erməni və rusların hücum təhlükəsinə qarşı da Parlament binası mühafizə edilməyə başlandı. Bundan biz də razı qalaraq, geri çəkilməyə və birləşmələrimizi Gəncə ətrafında toplamağa başladıq.

Qarabağda olan birləşmələrimizin geri çəkilməsi zamanı ermənilərin müsəlmanlara hücum etmək təhlükəsi mövcud olsa da, Şuşa qalasının ingilis birləşmələrinə təhvil verilməsi məsləhət görüldü. Bu məsələ haqqında ingilis komandanlığına müraciət edildi. İngilis birləşmələri gəldikdən sonra qəsəbə tərk edildi və əsgərlərimiz Gəncəyə göndərildi.

İstanbul hökumətinin son əmri ilə, Azərbaycanda bir nəfər də Osmanlı zabiti və əsgərinin qalmasına icazə verilmədiyi üçün qalmaq istəyənlərin sayı bir neçə nəfərə qədər azaldı. İngilislər Azərbaycan hökumətinə təzyiq göstərərək osmanlıların qalmasına mane oldular. İngilislərin təsiri ilə, Azərbaycan hökuməti Osmanlı komandanlığı vasitəsilə şəxsən özləri mənə müraciət edərək Azərbaycandan uzaqlaşmağımı istədilər. Əslində, ingilis komandanlığı Azərbaycanın müstəqilliyini ordumuz kimi müdafiə edirdi. Qarabağda müsəlmanlara hücum etmək istəyən erməniləri qorxutmuş və uzaqlaşdırmış, Lənkəran və Muğanın Azərbaycana tam birləşdirilməsinə yardım etmişdi. İngilislərin bu əlverişli hərəkətlərinə mane olmamaq üçün Azərbaycanı tərk etməyə qərar verən bir neçə yoldaşla, gələcəkdə qayıtmaq fikrilə Batuma getdik. Artvin və Ərdəhan yolu ilə Qarsa gəldim. Şevki Paşanın qərargahında bir gün qalıb, sonra Ərzurum yolu ilə Trabzona gəldim. İstanbula gedəcəyim gün gəmidən polis tərəfindən çıxarılaraq, Müdafiə Nazirliyinə gətirildim. Bir gün Bəkirağa hərbi hissəsində qaldım. O biri gün məni ingilislərə təhvil verdilər. İngilislər də məni Batuma apararaq beş ay Ərdəhan qışlalarında, bir ay da İvanovka hərbi hissəsində həbsdə saxladılar. Bu zaman məni qaçırmaq istəyən azərbaycanlı və batumlularla razılaşıb, silahlı mübarizə vasitəsilə qaça bildim. Mübarizə zamanı bir zabit [f. 6-30], iki əsgər olmaqla üç ingilis, bizdən də bir batumlu öldü. Bir həftə Batumda gizləndikdən sonra Acarıstandan yola çıxıb ilə yenidən Artvin, Ardanuç və Oltu təriqi ilə Ərzuruma gəldim. Kazım Qarabəkir Paşa ilə görüşdükdən sonra Naxçıvan və Qarabağdan keçib Azərbaycana qayıtdım .

## Qayıdışım zamanı Azərbaycanda baş verən hadisələr

1919-cu ildə Versalda toplanan sülh konfransında iştirak etmək və Azərbaycanın müstəqilliyini beynəlxalq aləmdə müdafiə məqsədi ilə bir nümayəndə heyəti göndərilmişdi. 14.04.1919-cu ildə Nəsib bəy Yusifbəyli hökuməti yaradılmışdı. Bu çoxpartiyalı, koalisiya hökuməti olsa da bu hökumətə yalnız İttihad Partiyası daxil deyildi.

24.12.1919-cu ildə Nəsib bəy ikinci hökuməti yaratdıqda, bura İttihad Partiyası da daxil edildi. Bu, Azərbaycan Milli Cümhuriyyətinin sonuncu hökuməti oldu.

Parlamentdə həm sayına, həm də siyasi şəxsiyyətlərinə görə daha güclü bir mərkəz partiyası olduğu üçün, dövlət işlərindəki bütün məsuliyyət Müsavat Partiyasının öhdəsində idi. Lakin, Müsavat Partiyası təkbaşına hökumət təşkil etməyərək koalisiya sistemini seçmişdi. Mərkəzləşmiş bir hökumətdə də düzgün saydığı siyasəti istədiyi kimi icra edə bilmirdi. Üç dəfə dəyişən bu hökumətlərdə say etibarilə müsavatçılar üçdə biri təşkil etsələr də, bu hökumətə “Müsavat hökuməti” və fəaliyyətlərinə də “Müsavat

işi" demək bir adət idi. Millətçilik və Azərbaycan naminə nə iş görərsə, onun xaricdəki adı "Müsavat işi" idi. Belə bir şöhrətin səbəbi də var idi. Azərbaycanın istiqlaliyyəti fikri Müsavat Partiyasının ideyası idi.

**Hökumətin fəaliyyətləri**

1) İki piyada və bir süvari diviziyasından ibarət Milli Azərbaycan ordusu qüvvələrinin sayı 20 minə çatdırıldı. Kiçik bir donanma da yaradıldı.

2) Bütün Azərbaycanda hərbi və mülki qurumlar təsis edildi. Ölkədə təhlükəsizlik və asayiş möhkəmləndirildi. Naxçıvan vilayətinin Ermənistan hökuməti ilə olan döyüşlərində Naxçıvana maddi-mənəvi yardım edilməklə, oraya icra rəhbəri göndərilməklə Azərbaycanla olan əlaqəsi artırıldı.

3) Milli və iqtisadi islahatlar başladı. Neft mədənlərinin idarəetmə işi həll edildi. Azərbaycan Dövlət Bankı yaradıldı. Kənd təsərrüfatını inkişaf etdirmək üçün kəndlilərə məxsus kiçik kredit bankları açıldı.

4) Azərbaycanlı məmur və mütəxəssislər yetişdirmək üçün rabitə, mexanika və dəmiryol məktəbləri açıldı.

5) Təhsilə gəlincə, məktəbləri tez bir zamanda türkləşdirmək üçün yaradılan Nəşriyyat və Tərcümə komissiyasının yardımı ilə ibtidai və orta məktəb dərs kitabları yazılaraq nəşr edilmişdi. Orta məktəblərin bir hissəsi milliləşdirilmiş, ölkənin müxtəlif yerlərində yeddi Müəllimlər İnstitutu və bir Müəllimələr Seminariyası açılmışdı. Bakıda universitet açılmış, hökumət hesabına yüzə yaxın tələbə təhsil almaq üçün Avropanın müxtəlif paytaxtlarına göndərilmişdi. Türkiyədən əlliyə yaxın müəllim dəvət edilmişdi.

6) İnşaat işlərinə son dərəcə əhəmiyyət verilərək müharibə zamanı bərbad hala düşmüş dəmir və şose yolları bərpa edilmişdi. Azərbaycan üçün böyük əhəmiyyəti olan Bakı-Culfa dəmiryolunun inşaatı davam etdirilmişdi. O dövrdə Azərbaycanı tədqiq üçün gələn müxtəlif Avropa və Amerika heyətləri nəşr etdikləri hesabatlarında Azərbaycan türklərinin Azərbaycanda bir çox bərpa işləri gördüklərini və memarlıq əsəri yaratdığını göstərirlər. 1919-cu ilin avqustunda ingilis ordusu Azərbaycanı tərk etdi.

11.01.1920-ci ildə Müttəfiq Dövlətlərin Ali Şurası Azərbaycan Cümhuriyyətini tanıdı.

Xristian qonşularından Gürcüstan Respublikası ilə Azərbaycanın münasibəti dostluq şəraitində idi. Ümumi Rusiya təhlükəsinə qarşı Gürcüstanla 1920-ci ilin əvvəllərində qarşılıqlı hərbi yardım müqaviləsi bağlanmışdı.

Bu ittifaq müqaviləsində Ermənistan hökumətinin də iştirak etməsi təklif olunsa da, Ermənistan Respublikası bunu qəbul etməmişdi. Lakin erməni siyasətçilərinin müxalifətinə baxmayaraq, Azərbaycan hökuməti Ermənistanla arasında mövcud olan məsələləri sülh yolu ilə həll etməyi arzu edirdi. Bu məqsədlə, 21.04.1919-cu ildə Tiflisdə Cənubi Qafqaz respublikalarının konfransı başlandı. Bu konfransda Azərbaycan nümayəndələri Qafqaz Konfederasiyası konstitusiyasının qəbulunu təklif etmişdilər. Lakin nəticə ala bilməmişdilər. 1920-ci ildə Azərbaycan hökuməti Bakıda Azərbaycan-Ermənistan konfransını çağırdı. Bu konfrans nəticəsində İran hökuməti ilə siyasi və ticarət müqavilələri imzalandı. İran hökuməti Azərbaycan Cümhuriyyətini tanıdığı üçün Tehrana Azərbaycan səfiri göndərildi.

1919-cu ildə Türkiyəyə də səfir göndərildi.

Azərbaycan hökuməti qonşuluğunda yaranan Quzey Qafqaz (Dağıstan) Respublikasına hər növ yardım məsələsinə də xüsusi əhəmiyyət verirdi və Quzey Qafqaz hökumətinə 6 milyon rubl (o zaman 2 ½ milyon ingilis lirəsi sayılırdı) borc pul vermişdi.